

Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2005

I hissə

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2009

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:

XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2005. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 648 səh.

9 789952 812930

ISBN 978-9952-8129-3-0

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin beşinci buraxılışı 2005-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışın böyük hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin beşinci buraxılışı 2005-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir. Məcmuənin **birinci hissəsi** xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının rəsmi məlumatlarını özündə əks etdirir.

2005-ci ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq arenada nüfuzunun və mövqeyinin möhkəmlənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir. İl ərzində Azərbaycan dünyadakı mövqeyini daha da möhkəmləndirə bilmişdir. İkitərəfli və çoxtərəfli müstəvidə bütün ölkələrlə, əsasən dost ölkələrlə çox səmərəli əlaqələr qurmuşdur. Bu əlaqələr Azərbaycana dünyadakı mövqelərini daha da möhkəmləndirməsinə və dünya birliyində öz yerini daha da gücləndirməsinə imkan vermişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü çərçivəsində diplomatik vasitələrlə həlli məsələsi ölkənin xarici siyasətinin öncül istiqaməti olaraq qalmışdır. 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatı bu məsələni öz gündəliyinə salmışdır. Eyni zamanda, Avropa Şurası 2005-ci ilin əvvəlində bu məsələyə dair çox dəyərli qətnamə qəbul etmişdir və bu qətnaməyə əsasən, Ermənistan işğalçı dövlət kimi tanındı. ATƏT öz faktaraşdırıcı missiyasını işğal olunmuş ərazilərə göndərmişdir və missiya orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Eyni zamanda, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz işlərini daha da fəallaşdırmışlar.

2005-ci ildə Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində keçirilmiş iki görüş, habelə iki dövlətin xarici işlər nazirlərinin Praqa prosesi çərçivəsində apardıqları danışıqlar silahlı münaqişənin nəticələrinin aradan qaldırılması və siyasi problemlərin həlli üçün normal şərait yaradılması məsələlərini müzakirə etməyə imkan vermişdir.

Azərbaycan malik olduğu bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığını aydın və birmənalı şəkildə nümayiş etdirməyə davam etmişdir.

2005-ci il ərzində Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə və digər növ təhlükəli cinayətlərə qarşı BMT və Avratlantik tərəfdaşlığı çərçivəsində beynəlxalq mübarizədə iştirakını davam etdirmişdir.

Avropa dəyərlərinə sadiq olan və Avropada təhlükəsizlik, azad bazar və demokratiya üçün vahid məkanın formalaşdırılmasına yönəldilən siyasi xəttə riayət edən Azərbaycan NATO və Avropa İttifaqı ilə tərəfdaşlığı genişləndirməyi davam etdirmişdir.

Azərbaycan Prezidenti və NATO rəhbərliyinin təsdiqlədiyi Fərdi Tərəfdaşlıq Əməliyyatı Planı Azərbaycanın NATO ilə inteqrasiya əlaqələrinin inkişafı və onun Avroatlantika strukturu ilə qarşılıqlı fəaliyyət göstərməsi qabiliyyətinin yüksəlməsi prosesində mühüm mərhələ olmuşdur. NATO-nun Azərbaycanda Beynəlxalq məktəbi yaradılmışdır.

Avropa Qonşuluq Siyasəti çərçivəsində fəaliyyət planının işlənib hazırlanması Avropa İttifaqı ilə tərəfdaşlığın inkişaf etdirilməsi və ona daha da yaxınlaşmaq baxımından böyük əhəmiyyətə malikdir. Avropa İttifaqı Nazirlər Şurasının müvafiq qərarından və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Avropa İnteqrasiyası üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra fəaliyyət planının Avropa Komissiyası ilə razılaşdırılması başlanmışdır.

İl ərzində Azərbaycan Avropa Şurasının müxtəlif qurumlarında fəaliyyətini davam etdirmişdir. AŞ-nin baş katibi T.Devisin Azərbaycana səfəri və insan hüquqları, seçkilər və demokratik təsisatların möhkəmləndirilməsi sahəsində fəaliyyət planının gerçəkləşdirilməsinə başlanması bu təşkilatla münasibətlərin inkişafında mühüm mərhələ olmuşdur.

İslam ümmətinin tərkib hissəsi olan Azərbaycan İslam Konfransı Təşkilatının (İKT) fəaliyyətində iştirakına xüsusi diqqət ayırmışdır. İKT, 2005-ci ildə keçirilən III Fövqəladə zirvə toplantısı və təşkilatın üzvü olan ölkələrin xarici işlər nazirlərinin 32-ci Konfransı zamanı Ermənistanın davamlı təcavüzünü pisləyərək və Azərbaycanın işğal altındakı torpaqlarının tamamilə və qeyri-şərtsiz azad edilməsinə çağıraraq öz prinsipial mövqeyini və ölkəmizlə həmrəyliyini növbəti dəfə təsdiqləmişdir.

2005-ci ildə Azərbaycan xarici iqtisadiyyat istiqamətində də fəal tədbirlər görmüşdür. Qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadi sisteminə tam inteqrasiyasını dəstəkləməklə Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmağa çalışmaqda davam etmiş, aktiv ikitərəfli və çoxtərəfli üzvlük danışıqlarını aparmışdır. Bununla yanaşı, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB, GUAM və başqa təşkilatlarla çox səmərəli əməkdaşlığını davam etdirmişdir.

İl ərzində Azərbaycan özünün uzunmüddətli inkişaf strategiyasını müəyyən edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, habelə Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun tikintisi layihəsinin həyata keçirilməsi üçün səylərini davam etdirmişdir.

Azərbaycan növbəti uğurlarını beynəlxalq qurumlarda daha yaxşı təmsil edilməsində qazanılmışdır. Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi yekdilliklə təşkilatın Baş Məclisinin xüsusi siyasi və müstəmləkələrin ləğv edilməsi məsələləri ilə məşğul olan IV Komitəsinin sədri seçilmişdir. Bundan əlavə, Azərbaycan BMT-nin İqtisadi və Sosial Şurasının sessiyasında İnsan Hüquqları Komissiyanın üzvü seçilmişdir.

2005-ci ildə Azərbaycan həm də ikitərəfli münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf etdirmişdir. İl ərzində dövlət və hökumət başçıları, parlamentlərin və xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər reallışdırılmış, hökumətlərarası birgə komissiyaların və işçi qruplarının iclasları keçirilmişdir. 2005-ci ildə həmçinin əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. Blokada şəraitində yaşayan Naxçıvan əhalisinin təbii qazla təmin edilməsinə və Muxtar Respublikanın əhalisinin Azərbaycan-İran sərhədini keçmələri qaydalarının sadələşdirilməsinə dair mühüm razılaşmalar əldə olunmuşdur. Qonşu dövlətlərlə sərhədlərin delimitasiyası və Xəzərin hüquqi statusu haqqında Konvensiya layihəsinin hazırlanmasına dair danışıqlar gedişində də müəyyən keyfiyyət irəliləyişləri müşahidə

olunmuşdur.

2005-ci ildə Bolqarıstan, İndoneziya, İspaniya, Latviya, Moldova və Yaponiyada səfirliklərini, habelə Los-Ancelesdə baş konsulluğunu təsis edən Azərbaycan diplomatik nümayəndəliklərin davamlı genişləndirilməsi işini uğurla davam etdirmişdir.

Xarici işlər Nazirliyinin infrastrukturunun təkmilləşdirilməsi, diplomatik xidmətin normativ-hüquqi bazasının inkişafı, onun orqanlarının kadr potensialının möhkəmləndirilməsi və diplomatların peşəkarlığının artırılması prosesi ilboyu dayanmamışdır. Diplomatik nümayəndəliklərin rəhbərlərinin və əməkdaşlarının rotasiyası prinsipinin məqsədyönlü həyata keçirilməsini, habelə ölkəmizin xarici siyasət idarəsinin təcrübəsində ilk dəfə tətbiq edilən kadrların test sistemi ilə seçilməsini qeyd etmək olar.

AZƏRBAYCAN PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Yanvarın 3-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilmişdir.

İclasda ölkədə 2004-cü ildə ictimai-siyasi, iqtisadi, sosial və digər sahələrdə əldə olunmuş uğurlar, 2005-ci ildə qarşıda duran vəzifələr, görüləcək işlər və digər məsələlər müzakirə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında çıxış edərək demişdir:

- Çox şadam ki, 2004-cü ildə biz hamımız çox səmərəli işləmişik. Hərə öz yerində Azərbaycanı çox inamla idarə etmişik. Əsas odur ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti dəyişməz olaraq qaldı. Bu da gələcək uğurlarımızı təmin edəcək vacib bir amildir.

Regionların sosial inkişafı üçün mühüm addımlar atıldığını, korrupsiyaya qarşı mübarizəyə dair qanun qəbul edildiyini vurğulayan dövlətimizin başçısı yeni iş yerlərinin açılması, dinamik inkişaf sahəsində işlərin uğurla davam etdiyini bildirmişdir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu vurğulayaraq demişdir:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələ, demək olar ki, artıq başlanmışdır. Praqa prosesi adlandırılan proses mövcuddur, mən artıq bəyan etmişəm, bu, mərhələli həll deməkdir, buna nail olmaq asan məsələ deyildir. Əlbəttə, mən demək istəmirəm ki, bu məsələ artıq öz həllini tapıbdır. Danışıqlar gedir və bu danışıqları bizi qane edən məcrada inkişaf etdirmək üçün bütün vasitələrdən istifadə edirik. Geniş beynəlxalq ictimaiyyətin bu məsələyə cəlb edilməsi, başqa təşkilatlarda, yəni bu məsələ ilə bilavasitə məşğul olmayan təşkilatlarda məsələnin müzakirə edilməsi, - baxmayaraq ki, ermənilər buna çox etiraz edirlər, çox güclü müqavimət göstərirlər, - biz buna nail olduq və ümid edirəm ki, bu da danışıqların aparılmasına müsbət təsir edəcəkdir.

Azərbaycan Prezidenti 2005-ci ilin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin başa çatacağı, regional layihələrin, o cümlədən nəqliyyat layihələrinin həyata keçirilməsi istiqamətində işlərin uğurla davam edəcəyi il olacağını bildirərək demişdir:

- 2005-ci ilə, demək olar ki, nikbinliklə baxmaq olar. Əlbəttə, bu, bizim fəaliyyətimizdən, işimizdən asılı olacaqdır. Ümid edirəm ki, həmişə olduğu kimi, biz hamımız - hökumət, ümumiyyətlə, iqtidar bu işləri layiqincə aparacağıq.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov yanvarın 3-dən Səudiyyə Ərəbistanı Krallığında səfərdədir.

Yanvarın 4-də xarici işlər naziri Elmar Məmmədyarov iki müqəddəs ocağın xadimi, Səudiyyə Ərəbistanının Kralı Fəhd Bin Əbdüləziz Al Səudla görüşmüşdür. Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Kralına və Səudiyyə xalqına səmimi salamlarını çatdırmışdır.

Kral Fəhd Bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərini məmnuniyyətlə gözlədiyini bildirmişdir.

Daha sonra nazir Elmar Məmmədyarov ölkələrimiz arasında inkişaf etməkdə olan ikitərəfli münasibətlərə toxunaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına qarşıda nəzərdə tutulan səfərindən sonra bu əlaqələrin daha yüksək səviyyəyə qalxacağına əminliyini ifadə etmişdir.

Həmin gün nazir Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Səid Əl Feysalla görüşmüşdür. Respublikamızın xarici siyasət idarəsinin başçısı səudiyyəli həmkarını Azərbaycana dəvət etmişdir. Tərəflər ölkələrimiz arasında siyasi-iqtisadi, mədəni və humanitar əlaqələrin inkişafı, terrorizmə qarşı mübarizə, həmçinin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etmişlər. Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər, Ermənistanın Azərbaycana hərbi təcavüzünün aradan qaldırılması, Yaxın Şərqdə sülh prosesi və İraqda vəziyyətə dair fikir mübadiləsi aparılmışdır.

Rəsmi danışıqlardan sonra Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda tərəflərin beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparmaq üçün mütəmadi surətdə növbə ilə Bakıda və Ər-Riyadda danışıqlar və məsləhətləşmələr aparmaları nəzərdə tutulmuşdur.

İmzalanma mərasimindən sonra birgə mətbuat konfransı keçirilmişdir.

Yanvarın 5-də xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Kralının Vəliəhdi, Baş nazirin müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səud, Ər-Riyad bölgəsinin qubernatoru Əmir Salman bin Əbdüləziz Al Səud, Krallığın ticarət və sənaye naziri, Azərbaycan-Səudiyyə Ərəbistanı Krallığı müştərək komissiyasının sədri Haşim Yaşani, Səudiyyə Ərəbistanı Şurasının məclis sədri Saleh bin Abdulla bin Umeyd İlə görüşmüşdür.

Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını çatdırmış və ölkəmizin başçısının yaxın zamanlarda Səudiyyə Ərəbistanı Krallığına səfər edəcəyini bildirmişdir. İkitərəfli münasibətlərə toxunan Elmar Məmmədyarov iqtisadi, ticarət, turizm və səhiyyə sahəsində əlaqələrin inkişaf etdirilməsinin vacibliyini bildirmiş, ölkələrimiz arasında dini, mədəni və tarixi bağlılıqların olduğunu diqqətə çatdırmışdır.

Regionda sülhün və əmin-amanlığın vacibliyini qeyd edən nazir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir. Ermənistanın Azərbaycana təcavüzündən danışan nazir, təcavüzün beynəlxalq təşkilatlar çərçivəsində pislənilməsini, işğal olunmuş ərazilərin boşaldılmasını tələb edən qətnamələrin qəbul edilməsində göstərdikləri köməyə görə

Səudiyyə tərəfinə təşəkkürünü bildirmişdir.

Görüşdə, həmçinin ölkəmizdə aparılan islahatlar, Azərbaycanın Avratlantika strukturlarına inteqrasiyası, Yaxın Şərqdə sülh prosesi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Səudiyyə Ərəbistanı Kralının Vəliəhdi Abdulla bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına qarşıdakı səfəri məmnunluqla gözlədiklərini qeyd edərək, səfərin ikitərəfli münasibətlərin daha da yüksək səviyyədə inkişafına təkan verəcəyini bildirmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA" TELEKANALININ "SABAHIN XEYİR, RUSİYA!" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR

2005-ci il Rusiyada Azərbaycan ili elan olunmuşdur. MDB və Baltikyanı ölkələrin Prezidentlərinin Yeni il təbriklərini yanvarın 5-dən etibarən televiziya tamaşaçılarına çatdıran "Rossiya" telekanalının "Sabahın xeyir, Rusiya!" proqramı yanvarın 8-də verilişlərinə Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsi ilə başlamışdır.

Jurnalist: Sabahınız xeyir, İlham Heydər oğlu! Siz Yeni ilin səhrli günlərində ürəklərdə tutulan bütün arzuların çin olacağına inanırsınızmı?

İlham Əliyev: Düzünü desək, inanmıram.

Jurnalist: Bəs nə üçün?

İlham Əliyev: Arzunun çin olması üçün bir neçə amil gərəkdir. Birincisi, arzu real olmalıdır. İkincisi, onun həyata keçirilməsinə çalışmaq lazımdır. Bu arzunu nə vaxt - gecə, Yeni il qabağı gecəsi və ya səhər niyyət etməyin fərqi yoxdur. Məqsədə çatmaq istəyi olduqda və bu məqsədin fantaziya deyil, tam real olması şərtilə, hər hansı diləyi həyata keçirmək mümkündür.

Jurnalist: Sirr deyilsə, Azərbaycan Prezidenti Yeni ildə nə arzulayır?

İlham Əliyev: Prezident elə bir vəzifədir ki, o, arzulamağa, təəssüflər olsun, çox az vaxt verir. Öz fəaliyyətinlə ölkənin rifahı, xalqın firavanlığı üçün yaxşı iş görmək, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, möhkəmləndirmək, insanların daha yaxşı yaşaması, ölkənin iqtisadi və siyasi cəhətdən daha müasir dövlətə çevrilməsi, dünyada daha möhkəm mövqelər tutması üçün arzular, niyyətlər, məqsədlər vardır. Bu, mənim Prezident kimi, məqsədim və Azərbaycan xalqı qarşısında məsuliyyətimdir. Şadam ki, cəmiyyətimizdə bu məsələ barədə tam konsensus vardır. Azərbaycan düzgün istiqamətdə çox inamla irəliləyir.

Jurnalist: Cənab Prezident, Siz ötən ili Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətləri baxımından necə qiymətləndirirsiniz?

İlham Əliyev: Sizə belə bir fakt gətirə bilərəm. Zənnimcə, o, çox əlamətdardır. 2004-cü ildə biz Bakıdan Moskvaya və geriyə aviareyslərin sayına görə nəinki sovet dövrünün səviyyəsinə çıxmışıq, hətta onu ötüb keçmişik. Yadımdadır, 3-4 il əvvəl həftədə cəmi bir reys vardı. İndi isə təkcə Moskvaya 8-9 reys vardır. Mən hələ Rusiyanın digər şəhərlərinə uçuşları demirəm. Bu, uğurlu əməkdaşlığın başlıca göstəricilərindən biridir. İndi insanlar - biznesmenlər də, sadə adamlar da, siyasətçilər də bir-birinin yanına, bir-birinə qonaq gedirlər. Biz Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafından razıyıq və buna çox böyük əhəmiyyət veririk.

Jurnalist: Cənab Prezident, sağ olun. Vaxt tapıb, suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirik.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov yanvarın 11-də Pakistan İslam Respublikasının xarici işlər üzrə katibi Riaz Kokar ilə görüşmüşdür.

Azərbaycanla Pakistan arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Xələf Xələfov, keçən il Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verdiyini qeyd etmişdir. Nazir müavini, həmçinin bu səfər zamanı ölkələrimiz arasında əldə edilmiş razılıq və imzalanmış sənədlərin Azərbaycan-Pakistan münasibətlərinin strateji səviyyədə inkişafı üçün münbit zəmin yaratdığını da xüsusi vurğulamışdır. Xələf Xələfov Azərbaycan və Pakistan arasında əməkdaşlığın siyasi, iqtisadi, humanitar, təhlükəsizlik sahələrində, beynəlxalq təşkilatlar çərçivəsində aparılması üçün bütün səviyyələrdə, həmçinin iki ölkənin xarici işlər nazirlikləri arasında dialoqların mütəşəkkil surətdə aparılmasının vacibliyini də diqqətə çatdırmışdır.

İkitərəfli münasibətlərin inkişafına dair fikirlərlə razı olduğunu söyləyən Riaz Kokar, Pakistanın Azərbaycan ilə əlaqələrini yüksək qiymətləndirdiyini bildirmişdir. O, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın aparılması üçün geniş imkanların mövcud olduğunu qeyd edərək, bu il Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana planlaşdırılan səfərinin bu münasibətlərin daha da inkişafına təkan verəcəyinə əminliyini söyləmişdir.

Riaz Kokar ölkəsinin Azərbaycanla beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına yüksək qiymət verdiyini söyləyərək, bunun gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdırmışdır. Qonaq, Birləşmiş Millətlər Təşkilatında islahatların aparılması məsələsinə toxunaraq, Pakistanın bu islahatların yalnız demokratik prinsiplər və təşkilata üzv olan dövlətlərin ümumi razılığı əsasında keçirilməsinin tərəfdarı olduğunu vurğulamışdır.

BMT Təhlükəsizlik Şurasının təcavüzkar Ermənistanın artıq 10 ildən çox müddətdə işğal altında saxladığı Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsini nəzərdə tutan 4 qətnaməsinin indiyə qədər yerinə yetirilməsinə BMT-nin nail ola bilməməsini söyləyən X.Xələfov, bu qurumda islahatların təşkilatın möhkəmlənməsinə və onun fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəldilməsinin mühüm əhəmiyyət daşıdığını bildirmişdir. Nazir müavini demişdir ki, bu islahatlar ədalətlilik, suveren bərabərlik və ölkələrin regional təmsilçilik prinsipi nəzərə alınmaqla aparılmalı, bütün dövlətlərin maraqlarına və ən başlıcası isə, BMT-nin dünyada sülhün və təhlükəsizliyin təmin olunması üzrə ali məqsədlərinə xidmət etməlidir.

Görüş zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunmuşlar.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

Yanvarın 13-də Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Çexiyanın paytaxtı Praqa şəhərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vardan Oskanyan arasında keçirilmiş növbəti görüşün nəticələri ilə əlaqədar brifinq keçirmişdir.

Araz Əzimov ATƏT-in Minsk qrupunun həmsədrləri və hər iki ölkə prezidentinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə xüsusi nümayəndələrinin iştirakı ilə baş tutmuş görüşü çox vacib hesab etdiyini və müzakirələr zamanı ətraflı fikir mübadiləsi aparıldığını diqqətə çatdırmış və demişdir ki, obyektiv xarakter daşıyan müzakirələr bilavasitə münaqişənin həlli ilə bağlı olmuşdur. Eyni zamanda tərəflərin mövqeləri arasında ziddiyyətlər də yaranmışdır.

Xarici işlər nazirinin müavini Praqada konkret nəticə əldə olunmadığını bildirsə də, bu müzakirələrin gələcəkdə müəyyən nəticə verəcəyinə ümidvarlığını dilə gətirmiş, Azərbaycanın prinsipial mövqeyinin münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi əsasında həllindən ibarət olduğunu bildirmişdir. O, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş torpaqlarında əhalinin süni şəkildə məskunlaşdırılmasını araşdırmaq üçün yaxın vaxtlarda ATƏT-in Minsk qrupunun fakt araşdırıcı missiyanın bölgəyə səfər edəcəyi barədə məlumat vermiş, jurnalistlərin suallarını cavablandırmışdır.

NAZİRLƏR KABİNETİNDƏ QƏBUL

Azərbaycan Yaponiyanın ölkəmizdə tam Yaponiya kapitalı, yaxud qarışıq kapital ilə istehsal müəssisələri yaratmasında maraqlıdır. Bunu yanvarın 14-də Azərbaycanın Baş naziri Artur Rasizadə Yaponiya xarici işlər nazirinin birinci müavini İçiro Aisavanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bildirmişdir.

Azərbaycan hökumətinin başçısı bütün sahələrdə fəal inkişaf edən Azərbaycan-Yaponiya münasibətlərini yüksək qiymətləndirərək dedi ki, Yaponiyanın belə mötəbər nümayəndə heyətinin indiki səfəri ikitərəfli əlaqələrin genişlənməsində daha bir addım olacaqdır. Artur Rasizadə Azərbaycana hərtərəfli maliyyə yardımı göstərdiyinə görə Yaponiya hökumətinə təşəkkür etdi.

Baş nazir ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkədə yaranmış ictimai-siyasi sabitlikdən danışaraq, iqtisadi sahədə qazanılmış nailiyyətlərdən, xarici sərmayələrin həcminin ildən-ilə artmasından, respublika rəhbərliyinin sosial siyasət yönündə gördüyü tədbirlərdən söhbət açdı.

Artur Rasizadə Yaponiya nümayəndə heyətinin üzvlərinə Azərbaycanın ən ağrılı problemi - torpaqlarımızın Ermənistan tərəfindən işğalına, bir milyon azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşməsinə gətirib çıxaran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun dincliklə həlli üçün ölkə rəhbərliyinin səyləri barədə məlumat verdi.

Cənab İçiro Aisava bütün sahələrdə, o cümlədən qeyri-neft sektorunda ikitərəfli əməkdaşlığı dərinləşdirməyin zəruriliyini vurğuladı və Baş naziri əmin etdi ki, onun ölkəsi Azərbaycana bundan sonra da hərtərəfli yardım göstərəcəkdir.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Prezident İlham Əliyev yanvarın 22-də Prezident sarayında Azərbaycanda İTAR-TASS günlərinin iştirakçılarını qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Azərbaycanda İTAR-TASS günlərinin keçirilməsi ilə əlaqədar Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin rəhbərlərindən, elm, mədəniyyət, idman xadimlərindən və müxtəlif sahələri təmsil edən nüfuzlu şəxslərdən ibarət geniş nümayəndə heyətinin ölkəmizə səfərini mühüm hadisə kimi qiymətləndirdi. İTAR-TASS agentliyi ilə dostluq əlaqələrindən bəhs edən Prezident İlham Əliyev belə tədbirlərin ölkəmiz haqqında həqiqətlərin düzgün dərk edilərək ictimaiyyətə obyektiv şəkildə çatdırılması baxımından əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın müstəqillik qazandığı ilk illərdə üzləşdiyi problemlər, ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü və yorulmaz fəaliyyəti sayəsində daxili sabitliyin bərqərar edilməsi, xarici dövlətlərlə, o cümlədən Rusiya Federasiyası ilə bərabərhüquqlu dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə danışdı. Respublikamızın rəhbəri dedi ki, Azərbaycan-Rusiya əməkdaşlığı bütün sahələrdə genişlənir və bu baxımdan ölkələrimiz arasında heç bir fikir ayrılığı yoxdur.

Azərbaycanda milli, dini dözümlülük baxımından vəziyyətin həmişə yüksək səviyyədə olduğunu bildirən dövlətimizin başçısı xatırlatdı ki, respublika müstəqillik qazandıqdan sonra ölkəmizdə rusdilli mətbuat daha da inkişaf etmişdir.

Daha sonra nəhəng enerji layihələrinin həyata keçirilməsindən, iqtisadi sahədə qazanılmış uğurlardan, regionların inkişafından, yeni iş yerlərinin açılması sahəsində görülən tədbirlərdən bəhs edən Prezident İlham Əliyev qonaqların diqqətini xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun ağır nəticələrinə də yönəltdi. Dövlətimizin başçısı xüsusi vurğuladı ki, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Lakin bu, mümkün olmasa, Azərbaycan öz torpaqlarını hansı yolla olursa-olsun, azad edəcəkdir.

Nümayəndə heyətinin rəhbəri, İTAR-TASS agentliyinin baş direktoru Vitali İqnatenko geniş tərkibdə heyəti qəbul etdiyinə və onlara göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi. O, Rusiya cəmiyyətinin müxtəlif sahələrini təmsil edən tanınmış şəxslərdən ibarət nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmlənməsi baxımından müstəsna əhəmiyyəti olduğunu vurğuladı.

Görüşdə çıxış edən qonaqlar – Mətbuat və Kütləvi Kommunikasiyalar üzrə Federal Agentliyin rəhbəri Mixail Seslavinski, Rusiya İdman Komitəsinin sədri Vyaçeslav Fetisov, Mətbuat və Mədəniyyət Nazirliyi Mədəniyyət departamentinin direktoru Mixail Şvıdkoy, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti, Rusiya MOK-un fəxri

prezidenti Vitali Smirnov, tanınmış politoloq Gennadi Burbulis, kardioloq, akademik Renat Akçurin, "Moskovski komsomolets" qəzetinin baş redaktoru Pavel Qusev və İTAR-TASS-ın baş direktorunun birinci müavini Mixail Qusman Azərbaycanda həyatın bütün sahələrinə dair nailiyyətlərin şahidi olduqlarını məmnunluqla vurğuladılar, gələcəkdə bu uğurların daha çox olacağına əminliklərini söylədilər.

Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə təltif olunmuş Mixail Qusmana "Şöhrət" ordenini təqdim etdi.

Cənab Vitali İqnatenko görüşdən xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev İTAR-TASS agentliyinin baş direktoru Vitali İqnatenko ilə, habelə Mixail Qusman və onun ailə üzvləri ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də İran İslam Respublikasına rəsmi səfərə gəlmişdir.

İranın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Mehrabad hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli geyimli qız və oğlan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək təqdim etdilər.

Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında İranın kooperasiya naziri Əli Sufi, xarici işlər nazirinin müavini Möhsün Əminzadə, İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və İranın Bakıdakı səfiri Əfşar Süleymani səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev hava limanından avtomobil karvanının müşayiəti ilə Tehranda onun üçün ayrılmış "Bustan" iqamətgahına yola düşdü.

İRAN PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Yanvarın 24-də İran Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi sarayın önündə dostcasına, böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycanın və İranın dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev İran əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Prezident Seyid Məhəmməd Xatəmi xatirə şəkli çəkdirdilər.

Sonra dövlət başçılarının təkbətək görüşü oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 24-də Tehranda İran Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi arasında təkbətək görüş olmuşdur.

Cənab Xatəmi onun dəvətini qəbul edərək, İrana rəsmi səfərə gəldiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi, bu səfəri ölkələrimiz arasındakı əlaqələrdə, münasibətlərdə yeni mərhələ kimi qiymətləndirdi. İranın qonşu, dost ölkə olan Azərbaycanla bütün sahələrdə əlaqələri genişləndirməyə maraqlı olduğunu söyləyən cənab Xatəmi görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə etməklə ikitərəfli münasibətlərin, əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsinin faydalı olduğunu vurğuladı.

Cənab Xatəmi dövlətimizin başçısına müraciətlə dedi ki, İran jurnalistləri çox nadir hallarda bizim qonaqlarımıza belə yüksək diqqət göstərirlər. Bu, onu göstərir ki, burada hamı Sizi çox sevir.

İrana rəsmi səfərə dəvətə, göstərilən qonaqpərvərliyə görə Prezident Seyid Məhəmməd Xatəmiyə dərin minnətdarlığını bildirən Prezident İlham Əliyev bu səfərin Azərbaycan-İran münasibətlərinin daha sürətlə inkişaf etdirilməsi üçün əhəmiyyətli olacağını vurğuladı.

Dövlətimizin başçısı dedi ki, İran jurnalistlərini mən də çox sevirəm. Bizimlə bərabər Azərbaycandan da böyük media heyəti gəlmişdir. Demək olar ki, bütün televiziya kanallarımızın nümayəndələri buradadırlar. Mən çoxdan İrana gəlmək istəyirdim, nəhayət, bu arzum gerçəkləşdi və çox şadam ki, buradayam. Burada görüləcək işlərin nəticələrini səbirsizliklə gözləyirəm. Əminəm ki, bu istiqamətdə imzalanacaq sənədlər və apardığımız danışıqlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.

Prezidentlər Azərbaycanla İran arasında qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi və genişləndirilməsi üçün siyasi-iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi barədə yekdil fikirdə olduqlarını bir daha diqqətə çatdırdılar. Tərəflər ölkələrimiz arasında imzalanmış və imzalanacaq sənədlərin müddəalarının yerinə yetirilməsinin vacibliyini xüsusi vurğuladılar.

Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.

PREZİDENTLƏRİN BİRGƏ BRİFİNQİ

Yanvarın 24-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan və İran Prezidentləri brifinq keçirərək, jurnalistlərin suallarına cavab vermişlər.

SUAL: Mənim sualım cənab İlham Əliyevədir. Cənab Prezident, Sizin bu səfərinizin məqsədi nədən ibarətdir? İkincisi, Azərbaycan-İran münasibətlərinin inkişafını necə qiymətləndirirsiniz və bundan razısınızmı? Ümumiyyətlə, Azərbaycan-İran münasibətlərinin gələcəyini necə görürsünüz?

İLHAM ƏLİYEV: Səfərin məqsədi bizim ölkələrimiz arasında əldə edilmiş bütün nəticələri davam etdirmək, inkişaf etdirmək, İranla Azərbaycan arasında olan əməkdaşlığı bütün sahələrdə gücləndirməkdir.

İki ölkə arasında imzalanmış çoxlu sənədlər var. Bu sənədlər uğurla icra edilir. Xüsusilə İran İslam Respublikasının Prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanmış bütün sənədlər həyatda öz əksini tapır. Bu, onu göstərir ki, bizim aramızda səmimi münasibətlər, əməkdaşlıq var. Mən şübhə etmirəm ki, indiki səfərdən sonra bu əməkdaşlıq daha da güclənəcəkdir.

İkinci suala gəldikdə, deyə bilərəm ki, İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir və bu, bizim milli maraqlarımıza cavab verir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda çox gözəl əməkdaşlıq var və qarşılıqlı səfərlər - prezidentlər səviyyəsində, nazirlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində keçirilən səfərlər bizi daha da yaxınlaşdırır. Gələcək əməkdaşlığın güclənməsi üçün güclü potensial mövcuddur. Biz də gərək bu potensialdan səmərəli istifadə edək.

SUAL: Mənim ağayi Xatəmiyə sualım var. Birinci sualım budur ki, Azərbaycan cəmiyyətində belə bir fikir var ki, əgər İran istəsə, Dağlıq Qarabağ probleminin həllinə daha çox kömək edə bilər. Sizcə Azərbaycan cəmiyyətində İranın bu imkanları şişirdilib, yoxsa, doğrudan da, İranın belə imkanları var və nələri edə bilər?

CAVAB: Təşəkkür edirəm. Əvvəla, hörmətli cənab İlham Əliyev və onu müşayiət edən nümayəndə heyətinin üzvlərinə "Xoş gəlmisiniz!" deyirəm. Həmçinin cənab Prezidenti müşayiət edən media nümayəndələrinə də "Xoş gəldiniz!" deyirəm. Bir daha onu təkidlə qeyd etmək istərdim ki, Azərbaycanla İran arasında bu cür münasibətlər - dostluq, qardaşlıq münasibətləri günbəgün inkişaf edir və dərinləşir.

Qarabağ məsələsinə gəldikdə isə, deyə bilərəm ki, bununla bağlı bizim mövqeyimiz aydındır. Biz çox azsaylı ölkələrdən biriyik ki, Azərbaycanın bu məsələ ilə bağlı mövqeyini tamamilə dəstəkləyirik. Azərbaycanın ərazi bütövlüyünü və həmin ərazidə hakimiyyətini dəstəkləyirik. Biz dəfələrlə qeyd etmişik ki, məsələni zor gücü ilə həll etmək mümkün deyil, bu, düzgün yol deyildir. Məsələni danışıq, məntiq və ağılla həll etmək yolu daha üstün yoldur. Biz belə hesab edirik ki, əgər əlaqədar dövlətlər bu məsələyə ciddi yanaşsalar, problem daha da tezliklə həll oluna bilər. Bizim hər iki ölkə ilə münasibətlərimiz var. Amma heç vaxt razı olmarıq və yol vermərik ki, Azərbaycanın mənafeyinə zərrə qədər zərər gətirilsin. İstərdik ki, bu məsələ tezliklə həll olunsun və biz əlimizdən gələni etməyə hazırıq. Ümidvaram ki, bu məsələ tezliklə həll olunacaqdır.

SUAL: Cənab Xatəmi, İraq hadisələrini çıxsaq, Azərbaycan ikinci yeganə müsəlman ölkəsidir ki, ərazisi işğal olunmuşdur. İran Fələstin probleminin həllində çox kəskin mövqe tutur. Hətta İsraillə əməkdaşlıqdan da çəkinir. Amma bu da var ki, Azərbaycanın 20 faiz torpağını işğal etmiş Ermənistanın bu gün qeyri-konstruktiv bir mövqe tutmasında İranla geniş əməkdaşlığının olması da rol oynayır. Bu istiqamətdə azərbaycanlılar İrandan nə gözləyə bilər? Sizin təzyiq imkanlarınız çoxdur?

CAVAB: Azərbaycanlılar və onların fikri, düşüncəsi bizim üçün çox əzizdir, dəyərlidir. İşğalın kim tərəfindən törədilməsindən asılı olmayaraq, biz onu tənqid edirik. Biz bu məsələyə bir fərqlə yanaşırıq və belə hesab edirik ki, İsrail Fələstin ərazisini tamamilə

işğal edibdir. Amma Ermənistan məsələsinə gəldikdə isə, demək olmaz ki, Ermənistan böyük bir ölkənin ərazisini tamamilə işğal edibdir. Biz, ümumiyyətlə, işğalçılığı pisləyirik. Əgər bir ölkə, bir dövlət başqa bir dövlətin bircə qarış da torpağını işğal edibsə, biz onu pisləyirik. Dünya birliyi, dünya ictimaiyyəti də buna daha diqqətlə yanaşmalıdır.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

Yanvarın 24-də İran Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin geniş tərkibdə danışıqları olmuşdur.

İran Prezidenti Xatəmi Azərbaycan Prezidentini və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini səmimiyyətlə salamlayaraq dedi:

- Cənab Prezident, Sizə və Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərinə bir daha "Xoş gəlmisiniz!" deyirəm. Bu gün bizim üçün çox yaxşı bir gündür. Çox əziz bir dostumuzu görmək və çox əziz bir millətin nümayəndəsini görmək böyük şərəfdir. Bizim Azərbaycanla münasibətlərimiz iki qonşu ölkə arasında olan münasibətlərdən qat-qat yüksəkdir. Hər halda, qonşular bir-birilə rəqabət şəraitində yaşamalıdırlar. Amma bizim münasibətlərimiz iki qonşu ölkənin münasibətlərindən qat-qat yüksəkdir. Bizi bir-birimizlə bağlayan tarixi, mədəni incilərdir və eyni zamanda qohumluq əlaqələridir. Bu, onu göstərir ki, bizim mənafeyimiz bir-birilə çox sıx bağlıdır.

Mən çox şadam ki, son aylar və son il ərzində münasibətlərimiz çox sürətlə inkişaf edir. Xoşbəxtlik ondadır ki, Siz əlaqələrimizə xoşniyyətli münasibət bəsləyirsiniz. Eləcə də mən bu cür münasibət bəsləyirəm. Bizim mənafeyimiz eynidir. Bizim təhlükəsizliyimizə olan təhdidlər də eynidir. Bu, bizi məcbur edir ki, bir-birimizin yanında olaq.

Son altı ay ərzində deyə bilərik ki, 20-dək sənəd imzalanıb, yaxud imzalanacaqdır. Bu, bizim əlaqələrimizə göstərdiyimiz ciddi münasibətin göstəricisidir. Allah rəhmət eləsin, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ruhunu bir daha hörmətlə yad edirik. Biz qətiyyətlə inanırıq ki, rəhmətlik cənab Heydər Əliyevin öz ölkəsi üçün və bu bölgədə sülhün, əmin-amanlığın yaranması üçün gördüyü işlər Sizin güclü əliniz və möhkəm iradəniz nəticəsində davam etdiriləcəkdir.

Sonra Prezident Xatəmi İran nümayəndə heyətinin üzvlərini dövlətimizin başçısına təqdim etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səmimi görüşə görə minnətdarlığını bildirərək dedi:

- Hörmətli cənab Prezident, çox sağ olun. İlk növbədə, bu dəvətə görə, mənə və nümayəndə heyətinin bütün üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Biz bu səfəri çox səbirsizliklə gözləyirdik. Mən çox şadam ki, bu gün buradayam, İrandayam, Sizinlə görüşürəm və hələ iki gün İranda olacağam. Şübhə etmirəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərə yeni təkan verəcəkdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir və güclənir. Münasibətlərin yeni mərhələsi, demək olar ki, 2002-ci

ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin İrana rəsmi səfərindən sonra başladı.

Hörmətli Prezident, Sizin Azərbaycana səfəriniz və səfər çərçivəsində imzalanmış çoxlu sənədlər, onların uğurlu icrası göstərir ki, ölkələrimiz arasında əlaqələr həqiqi mənada inkişaf edir və bütün sahələri əhatə edir. Hüquqi, siyasi, iqtisadi, enerji, humanitar və bütün digər sahələrdə bizim əməkdaşlığımızın əməli nəticələri vardır və ümid edirəm ki, bu əməkdaşlıq daha da yüksələcəkdir. İkitərəfli münasibətlərimiz regionda gedən proseslərə də təsir edir və regional əməkdaşlıq baxımından çox vacibdir.

Eyni zamanda regionda sülhün, təhlükəsizliyin təmin olunmasında çox böyük əhəmiyyəti vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİNİ QƏBUL ETMİŞDİR

Yanvarın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Tehranda onun üçün ayrılmış "Bustan" iqamətgahında İranın xarici işlər naziri Kamal Xərrazini qəbul etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi mehribanlıqla salamlayan və onunla hər bir görüşdən məmnunluğunu bildirən cənab Kamal Xərrazi dövlətimizin başçısının İrana ilk rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin daha sürətlə inkişafına təkan verəcəyini və ikitərəfli münasibətlərdə əsaslı dönüş yaradacağını vurğuladı. O, Azərbaycan-İran münasibətlərinin daim inkişaf etdiyini xatırladaraq dedi ki, ölkələrimizin bütün sahələrdəki, xüsusən energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni imkanlar vardır. Nazir bir çox mühüm layihələrin, o cümlədən avtomobil və dəmir yolları ilə bağlı mühüm layihələrin həyata keçirilməsinin Azərbaycan və İran, eləcə də bölgənin digər ölkələri üçün böyük əhəmiyyəti olacağını söylədi.

İrana ilk rəsmi səfərindən razılıqla söz açan, Tehranda Prezident Xatəmi ilə keçirdiyi görüşü, apardığı danışıqları çox mühüm, əhəmiyyətli hesab edən Prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq üçün yeni mərhələnin başlandığını və geniş imkanlar açıldığını vurğuladı. Xalqlarımızın qədim tarixi, milli-mənəvi, dini, mədəni yaxınlığından söhbət açan dövlətimizin başçısı bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin perspektivli olduğunu dedi və münasibətlərin gələcəkdə daha da genişləndirilməsi üçün əməli addımların atılmasının vacibliyini bildirdi.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı məsələlər, ümumən iqtisadi layihələr, habelə bölgədə vəziyyət, Xəzərin statusunun müəyyənləşdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və hər iki ölkəni maraqlandıran bir sıra mühüm məsələlər barədə fikir mübadiləsi aparıldı.

Yanvarın 24-də axşam İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

PREZİDENT İLHAM ƏLİYEVİN İRAN PARLAMENTİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİL İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikası parlamentinin - İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adil ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Həddad Adil Prezident İlham Əliyevin İrana rəsmi səfərini yüksək dəyərləndirdi və onunla görüşdən çox məmnun olduğunu bildirdi. Sonra o, parlamentin üzvlərini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısının İranda keçirdiyi görüşlərin faydalı olacağını söyləyən parlamentin sədri ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini xatırlatdı və onun xüsusilə İranla əlaqədar siyasətini davam etdirdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Cənab Qulaməli Həddad Adil parlamentlərarası müştərək komissiyanın fəaliyyətinin daha da genişləndirilməsi üçün bir sıra tədbirlərin görülməsinin zəruriliyini vurğuladı.

İrana rəsmi səfərinin gedişindən, ona göstərilən qonaqpərvərlikdən məmnun qaldığını söyləyən Prezident İlham Əliyev tarixi dostluq ənənələrinə malik ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişafının, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacibliyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə İran arasında hərtərəfli əlaqələrin inkişafı üçün böyük imkanların olduğu və bunlardan səmərəli istifadə edilməsinin zəruriliyi qeyd olundu. Qarşılıqlı əlaqələrin daha sürətlə inkişafı üçün nəzərdə tutulan bütün tədbirlərin həyata keçiriləcəyi vurğulandı.

Prezident İlham Əliyev və Qulaməli Həddad Adil ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində Azərbaycan və İran parlamentlərindəki dostluq qruplarının rolunu müsbət qiymətləndirdilər, eyni zamanda, onların fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini bildirdilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN DÖVLƏT MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikası Dövlət Məsləhət Şurasının binasına gəldi. Şuranın sədri Əli Əkbər Haşimi Rəfsəncani dövlətimizin başçısı İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Səmimilik şəraitində keçən görüşdə cənab Rəfsəncani Prezident İlham Əliyevin İrana rəsmi səfərə gəlməsindən və Tehranda onunla görüşündən çox şad olduğunu bildirdi. Məsləhət Şurasının sədri Azərbaycanın ümummilli lideri, görkəmli şəxsiyyət Heydər Əliyev ilə yaxın dost olduğunu xatırladaraq dedi ki, o, öz ölkəsi və bütün region üçün ta-

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

rixi fəaliyyət göstərmişdir. Allah ona rəhmət eləsin, onun İranda çox böyük hörməti vardır. Biz çox məmnunuq ki, Siz onun yolunu uğurla davam etdirirsiniz.

Prezident İlham Əliyev səmimi görüşə və xoş sözlərə görə dərin təşəkkürünü bildirərək, cənab Rəfsəncani ilə görüşündən məmnun olduğunu vurğuladı və Azərbaycan nümayəndə heyətinin üzvlərini ona təqdim etdi. Dövlətimizin başçısı İrana səfərinin çox uğurla keçdiyini vurğulayaraq dedi ki, Prezident Məhəmməd Xatəminin Azərbaycana səfərindən sonra ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da güclənmişdir və biz əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Mən İrana böyük nümayəndə heyəti ilə gəlmişəm və səfər çərçivəsində bir çox sənədlərin imzalanması nəzərdə tutulmuşdur.

Cənab Rəfsəncani ölkələrimiz arasında əlaqələrin daim yaxşı olduğunu bildirdi, eyni zamanda, Azərbaycanda son illərdə gedən proseslərlə maraqlandı.

Prezident İlham Əliyev Azərbaycanın bütün istiqamətlərdə inkişaf etdiyini, iqtisadi baxımdan sağlam mühitin yarandığını və respublikanın gözəl perspektivləri olduğunu söylədi. Dövlətimizin başçısı dedi ki, qarşıdakı beş ildə Azərbaycan daha da inkişaf edəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan Prezident İlham Əliyev xüsusilə qeyd etdi ki, bizim ən böyük problemimiz Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bu işğal nəticəsində ölkədə bir milyondan çox qaçqın və məcburi köçkünün yaranmasıdır. Təəssüflər olsun ki, bu məsələ danışıqlar yolu ilə hələ də öz həllini tapmayıbdır. Bu münaqişə region üçün böyük təhlükə mənbəyidir. İranın bu məsələdə mövqeyi ədalətli olubdur, həmişə onun dəstəyini hiss etmişik və buna görə də təşəkkür edirik.

Sonra görüşdə bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN ALİ RƏHBƏRİ AYƏTÜLLAH SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikasının ali rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.

Seyid Əli Xamenei Prezident İlham Əliyevi iqamətgahın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti ilə İranın ali rəhbərinin görüşündə İran Prezidenti Seyid Məhəmməd Xatəmi də iştirak edirdi.

Dövlətimizin başçısı İlham Əliyevi mehribanlıqla, səmimiyyətlə salamlayan və onunla görüşməsindən çox məmnun olduğunu söyləyən ayətüllah Seyid Əli Xamenei əminliklə bildirdi ki, Azərbaycan Prezidentinin İrana ilk rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafını daha da sürətləndirəcəkdir. O, eyni zamanda, görkəmli şəxsiyyət Heydər Əliyevə Allahdan rəhmət diləyərək, onun siyasi fəaliyyətini, tarixi xidmətlərini yüksək qiymətləndirdi, ona böyük hörmət və ehtiram bəslədiyini və indi də əziz xatirəsini daim yad etdiyini vurğuladı.

Prezident İlham Əliyev səmimi sözlərə, xoş münasibətə görə təşəkkür edərək, İrana rəsmi səfərə gəlməsindən və İranın ali rəhbəri ilə görüşündən çox məmnun olduğunu bildirdi. Dövlətimizin başçısı özünə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərlikdən və səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razı qaldığını söylədi və əmin olduğunu bildirdi ki, bu səfər İran-Azərbaycan münasibətlərinin inkişafına təkan verəcəkdir. O, həmçinin dost, qonşu İran ilə bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu da xatırlatdı.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri davam etdiyini bildirən Prezident İlham Əliyev torpaqlarımızın 20 faizinin hələ də işğal altında qaldığını, bir milyondan artıq vətəndaşımızın öz doğma el-obasından zorla qovularaq ağır vəziyyətdə yaşadığını xatırlatdı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar prosesindən söhbət açdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən Seyid Əli Xamenei dedi ki, Qafqazda baş verən münaqişələr bölgədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törədir. İran Ermənistanın Azərbaycana təcavüzünü daim pisləmişdir və bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılmalıdır.

Görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, o cümlədən böyük əhəmiyyəti olan nəqliyyat layihələrinin həyata keçirilməsi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "İRAN XODRO" ZAVODU İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İranın ən iri istehsal müəssisələrindən sayılan "İran Xodro" avtomobil zavodunda olmuşdur.

Dövlətimizin başçısını burada zavodun baş direktoru Mənuçöhr Məntiiqi, işçiləri böyük hörmətlə və mehribanlıqla qarşıladılar.

Prezident İlham Əliyevə zavodun fəaliyyəti barədə məlumat verilərək bildirildi ki, 2004-cü ildə müəssisədə 600 000 ədəd müxtəlif markalı avtomobillər ("Səmənd", "Peugeot-206", "Pars", "Peykan" və s.) istehsal edilmişdir. Dünyanın bir çox ölkəsində fəaliyyət göstərən müəssisələri ilə birlikdə zavodda 300 000 nəfər, o cümlədən Tehrandakı istehsal sahələrində 30 000 nəfər çalışır. Müəssisənin Azərbaycanda da daimi nümayəndəliyi vardır və o, digər MDB ölkələrində də servis xidməti göstərir. Suriya, Seneqal, Ukrayna, Misir, Əlcəzair və Belarusda da müəssisənin daimi nümayəndəliyinin açılması nəzərdə tutulmuşdur.

Sonra Prezident İlham Əliyev zavodun ayrı-ayrı istehsal sahələri ilə yaxından tanış oldu.

Dövlətimizin başçısına xatirə olaraq, "Səmənd LX" markalı avtomobil hədiyyə edildi. Prezident İlham Əliyev hədiyyəyə görə təşəkkür edərək, həm benzin, həm də qazla işləyən bu avtomobilin sükanı arxasında əyləşərək sürdü.

Prezident İlham Əliyev zavodla tanışlığından məmnun qaldığını və istehsal edilən avtomobillərin yüksək keyfiyyətə malik olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarət etmişdir.

Dövlətimizin başçısını burada mehribanlıqla qarşıladılar. Məqbərənin qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev imam Xomeyninin məqbərəsinə əklil qoydu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"İran İslam inqilabının rəhbəri imam Xomeyninin qəbrini ziyarət etdim. Öz xalqı və ölkəsi üçün böyük xidmət göstərmiş rəhbərin əziz xatirəsi həmişə böyük hörmətlə yad ediləcəkdir. Allah rəhmət eləsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

25 yanvar 2005-ci il".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də imam Xomeyninin məqbərəsini ziyarət etdikdən sonra İran televiziyasına qısa müsahibə vermişdir.

SUAL: Cənab Prezident, bu gün Siz Xomeyninin məqbərəsini ziyarət etdiniz. Mümkünsə, imam Xomeyninin Azərbaycanda yeri barədə fikrinizi açıqlayasınız.

CAVAB: Mən bu gün imam Xomeyninin qəbrini ziyarət etməyə gəlmişəm. İmam Xomeyni tarixi bir şəxsiyyətdir. İran İslam Respublikasının banisidir və İranın həyatında müstəsna xidmətləri olmuş bir şəxsiyyətdir. Dünyada böyük nüfuzu vardı və xatirəsi də böyük ehtiramla yad edilir.

İmam Xomeyni öz ölkəsini, öz xalqını həmişə azad görmək istəyirdi. Bu gün onun bütün arzuları yerinə yetirilibdir. Azərbaycan da gənc müstəqil dövlətdir, biz yalnız 1991-ci ildə müstəqilliyimizi bərpa etdik. Əlbəttə azadlıq, hürriyyət bizim üçün həmişə əziz olubdur. Bu gün Azərbaycan xalqı öz müqəddəratını, öz taleyini özü həll edir, bu da bizim üçün böyük xoşbəxtlikdir. Sağ olun.

İRAN MÜDAFİƏ SƏNAYESİNİN DAİMİ SƏRGİSİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran müdafiə sənayesinin daimi sərgisində olmuşdur. Burada dövlətimizin başçısını İranın müdafiə naziri Əli Şamxai böyük hörmət və ehtiramla qarşıladı. Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Burada İranın müdafiə naziri ilə görüş zamanı Azərbaycan Prezidentinin səfərinin uğurla keçdiyi xüsusi vurğulandı, ölkələrimiz arasındakı əməkdaşlıqdan, o cümlədən hərbi sahədə əlaqələrin səviyyəsindən razılıq ifadə olundu. Bir daha vurğulandı ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu uğurlu səfəri gələcəkdə əlaqələrin daha da inkişafına öz töhfəsini verəcəkdir.

Sonra dövlətimizin başçısı İlham Əliyev İranda istehsal olunan hərbi texnikanın nümunələri ilə tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İMAM XOMEYNİ ADINA "İMDAD" KOMİTƏSİNDƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də imam Xomeyni adına "İmdad" komitəsinə gəlmişdir.

Komitənin rəhbər işçiləri dövlətimizin başçısını mehribanlıqla, səmimiyyətlə qarşıladılar.

Komitənin sədri Seyid Rza Nəiri Prezident İlham Əliyevi burada görməyindən böyük şərəf duyduğunu vurğuladı. O bildirdi ki, 1990-cı illərdən İran Azərbaycanda qaçqın və məcburi köçkünlərə kömək göstərməyə başlamışdır. Əvvəl bu işlə qızıl aypara cəmiyyəti məşğul olurdu. Sonra "İmdad" komitəsi tərəfindən 5000 ton yardım göndərildi. O vaxt Prezident Heydər Əliyevin tapşırığı ilə komitənin Azərbaycanda fəaliyyət göstərməsi üçün icazə verildi. Hazırda komitənin Azərbaycanın 19 şəhər və rayonunda nümayəndəliyi vardır və 35 min nəfər onun yardımından istifadə edir. Azərbaycanın Dövlətqaçkomunun sədri Əli Həsənov, digər rəsmi şəxslər İranda olmuşlar və əməkdaşlıq barədə sənədlər imzalamışıq.

Seyid Rza Nəiri daha sonra bildirdi ki, "İmdad" komitəsi imam Xomeyninin tapşığı ilə 26 il əvvəl yaradılmışdır və indi ölkədə 150 min ailəyə kömək göstərir, onlar özlərini sərbəst idarə edə bilirlər. O, komitənin Azərbaycanda yeni iş yerlərinin açılmasında, yoxsulluğun azaldılmasında və digər sahələrdə kömək edə biləcəyini vurğulayaraq dedi ki, Azərbaycanda yoxsulluğun azaldılmasına dair qəbul etdiyiniz proqramı yüksək qiymətləndiririk. Biz Heydər Əliyev Fondu ilə də əməkdaşlıq etməyə hazırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab doktor Nəiri, çox sağ olun. Sizi və bütün dostlarımızı, qardaşlarımızı ürəkdən salamlayıram.

İlk növbədə, bəyan etdiyiniz hədiyyəyə görə sizə minnətdaram. Bu doğrudan da xəstələrə böyük kömək olacaqdır və insanlar öz sağlamlığını saxlamaq üçün, bərpa etmək üçün "Emray"dan keçib dəqiq diaqnoz əldə edəcəklər. Bu, böyük hədiyyədir, dəyərli hədiyyədir. Əlbəttə, bu, onu göstərir ki, sizin Azərbaycana etdiyiniz bütün yardımlar həqiqi mənada təmiz ürəkdən gəlir.

Mən bilirəm ki, "İmdad" komitəsi Azərbaycanda çətin vəziyyətdə yaşayan insanlara, on minlərlə insana böyük kömək göstəribdir və bu kömək, yardımlar davam edir. Bu, bizim üçün həm əməli-praktiki cəhətdən, həm də mənəvi cəhətdən böyük dəstəkdir. Mən bu vaxta qədər edilmiş bütün yardımlara görə şəxsən öz adımdan sizə minnətdarlı-

ğımı bildirirəm.

Ermənistanın Azərbaycana etdiyi təcavüz və aparılmış etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurdundan didərgin düşmüşdür və qaçqın-koçkün vəziyyətində yaşayır. Bu münaqişə başlayanda, demək olar ki, Azərbaycanın heç bir maddi, iqtisadi imkanı yox idi. Ölkədə iqtisadi böhran hökm sürürdü və yardıma, köməyə çox böyük ehtiyac var idi. Biz də bu köməyi gördük. Sizin təşkilatınız bu köməyi göstərdi və çətin vəziyyətdə yaşayanlara əsil dost kimi, qardaş kimi sözdə deyil, işdə öz kömək əlini uzatdı.

Bu gün də bu xeyriyyə işləri davam edir, "İmdad" komitəsi öz fəaliyyətini davam etdirir və əlbəttə ki, bu, çətin vəziyyətdə, yoxsulluq içində yaşayan insanlar üçün böyük dəstəkdir. Çıxışınızda qeyd etdiniz ki, Azərbaycanda yoxsulluğun azaldılmasına dair proqram həyata keçirilir. Bizim məqsədimiz budur ki, Azərbaycanda, ümumiyyətlə, yoxsulluq olmasın, aradan götürülsün. Amma əlbəttə, bu, böyük maliyyə tələb edir və biz yoxsul vəziyyətdə yaşayanların sayını ildən-ilə azaldırıq. Yəni bu meyil müsbət istiqamətdə inkişaf edir. Amma yenə də ölkədə bu qədər problem vardır. Xüsusilə də öz torpaqlarını itirmiş qaçqın-köçkünlərin problemləri. Onların həyat səviyyəsi bu gün nə həmin insanları, nə də bizi qane edir və belə olan halda, xeyriyyə təşkilatlarının köməyinə hələ ehtiyac vardır.

Bir məqamı da demək istəyirəm ki, bizə kömək göstərən bəzi beynəlxalq donor təşkilatları, xeyriyyə cəmiyyətləri indi bunu dayandırırlar və izah edirlər ki, on ildən çoxdur bu kömək göstərilir və daha onların belə bir imkanları yoxdur. "İmdad" komitəsi isə əksinə, nəinki, bunu dayandırmır, hətta indi bu yardımın yeni formasını təklif edir. Bu, Prezident kimi məni çox sevindirir. Mən buna görə sizə çox minnətdaram. Əsil dost odur ki, çətin vəziyyətdə yanında olsun. Biz də bu dostluğu görürük və bunu yüksək qiymətləndiririk.

Onu da qeyd etmək istəyirəm ki, ümumiyyətlə, ölkələrimiz arasında münasibətlər yeni mərhələyə çıxıbdır. Hörmətli Prezident Xatəminin Azərbaycana səfəri və mənim İrana indiki səfərim bizim ölkələrimizi bir-birinə daha da yaxın edibdir. Bizim sıx əməkdaşlığımız hər iki ölkənin milli marağına cavab verir. Mən İrana bu niyyətlə gəlmişəm ki, bizim aramızda əlaqələr daha da güclənsin, inkişaf etsin, İran və Azərbaycan birgə çoxlu layihələr həyata keçirsin və bütün sahələrdə əməkdaşlıq daha da güclənsin. Ümid edirəm, bundan sonra da bizim aramızda bu işgüzar münasibətlər davam edəcək, "İmdad" komitəsi öz fəaliyyətini keçmişdə olduğu kimi, yenə də yüksək səviyyədə davam etdirəcəkdir. Bizim də vəzifəli şəxslərimiz, aidiyyəti orqanlar bu işdə sizinlə bərabər işləyəcəklər ki, Azərbaycanda çətin vəziyyətdə yaşayanların həyat səviyyəsi yaxşılaşsın.

Sonra Prezident İlham Əliyev komitənin Azərbaycandakı fəaliyyətindən bəhs edən fotosərgi ilə tanış oldu.

Görüşdən xatirə olaraq Azərbaycan Prezidentinə xalça hədiyyə olundu.

Dövlətimizin başçısı komitənin binasında Azərbaycandan gələn qadınlarla görüşüb səmimi söhbət etdi və onlarla xatirə şəkli çəkdirdi.

Daha sonra Prezident İlham Əliyev komitənin xatirə kitabına ürək sözlərini yazdı.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TEHRANDAKI SƏFİRLİYİNDƏ OLMUŞDUR

Prezident İlham Əliyev yanvarın 25-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyində olmuşdur. Səfir Abbasəli Həsənov və ailə üzvləri dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev səfirliyin iş şəraiti ilə yaxından maraqlandı. Eyni zamanda, burada yaradılmış fotoguşələrlə, o cümlədən ümummilli lider Heydər Əliyevin İrana səfərini əks etdirən, xalqımızın görkəmli oğlunun həyat və fəaliyyətindən bəhs edən fotoguşə ilə yaxından tanış oldu.

Azərbaycan Prezidenti burada yaradılmış iş şəraitindən razılığını bildirdi və səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərinin ikinci gününün sonunda öz iqamətgahında - "Bustan" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Asxat Orazbayı qəbul etmişdir.

Səmimilik şəraitində keçən görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının gələcək fəaliyyətinin perspektivləri və bu təşkilatla Azərbaycan arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da İran İslam Respublikası Prezidentinin sarayına gəldi.

İran Prezidenti Seyid Məhəmməd Xatəmi dövlətimizin başçısı İlham Əliyevi sarayın önündə dostcasına, böyük hörmət və ehtiramla qarşıladı.

Sonra prezidentlər arasında görüş oldu.

Görüşdə Azərbaycan Prezidentinin İrana rəsmi səfərinin çox uğurlu keçdiyi və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün bu səfərin faydalı olduğu bildirildi. Tərəflər keçirilən görüşlərdə, aparılan danışıqlarda müzakirə edilən məsələlərin ölkələrimizin və xalqlarımızın milli mənafelərinə uyğun olduğunu vurğuladılar.

Azərbaycan-İran dostluğunun və tərəfdaşlığının möhkəmləndirilməsinin, regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcəyi əminliklə vurğulandı, siyasi, iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılacağı bildirildi.

İkitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, eləcə də qarşılıqlı maraq doğuran məsələlərin həllinin reallaşdırılması üçün hüquqi baza yarandığı və iqtisadi münasibətlərin genişləndirilməsi üçün yaxşı şəraitin mövcud olduğu qeyd edildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu, BMT-nin və digər beynəlxalq təşkilatların bu münaqişə ilə bağlı qəbul etdiyi sənədlərin yerinə yetirilməsi, İranın problemin Azərbaycan Respublikasının ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğu bir daha bəyan edildi.

Görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi oldu.

TEHRANDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Yanvarın 26-da Tehranda - İran Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin iştirakı ilə Azərbaycan ilə İran arasında birgə sənədlərin imzalanma mərasimi olmuşdur.

Mərasimdə bildirildi ki, İran İslam Respublikası Prezidenti Seyid Məhəmməd Xatəminin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin yekunlarına dair mətbuat üçün birgə bəyanat qəbul edilmişdir.

Sonra sənədlər imzalandı. Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında memorandumu, İran İslam Respublikasının Azərbaycan Respublikasına 1 milyon ABŞ dolları həcmində qrant ayırması haqqında memorandumu, İran İslam Respublikasına məxsus olan sənət əsərlərinin Azərbaycan Respublikası hökuməti tərəfindən İran İslam Respublikasına təhvil verilməsi haqqında protokolu xarici işlər nazirləri Elmar Məmmədyarov və Kamal Xərrazi imzaladılar.

İran muzeyindən oğurlanmış iki ədəd tarixi qılınc sənədlərin imzalanması mərasimində İran tərəfinə təqdim olundu.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında memorandumu səhiyyə nazirləri Əli İnsanov və Məsud Pezeşkian imzaladılar.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Maarif Nazirliyi arasında əməkdaşlıq haqqında memorandumu Azərbaycanın təhsil naziri Misir Mərdanov və İranın maarif naziri Murtuza Hacı imzaladılar.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi arasında anlaşma memorandumunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İranın iqtisadiyyat və maliyyə naziri Səfdər Hüseyni imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında anlaşma memorandumunu Azərbaycanın sənaye və energetika naziri Məcid Kərimov və İranın energetika naziri Həbibulla Bitərəf imzaladılar.

Azərbaycan Dövlət Dəmir Yolu ilə İran Dəmir Yolu Təşkilatı arasında qarşılıqlı anlaşma memorandumunu Azərbaycan Dövlət Dəmir Yolunun rəisi Arif Əsgərov və İran

Dəmir Yolu Təşkilatının sədri Məhəmməd Səid Nejad imzaladılar.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında anlaşma memorandumunu "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və İran Mülki Aviasiya Təşkilatının sədri Nurəddin Rezayi Neyarəki imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Seyid Məhəmməd Xatəminin birgə mətbuat konfransı oldu.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Yanvarın 26-da Tehranda sənədlərin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Seyid Məhəmməd Xatəmi birgə mətbuat konfransı keçirmişlər.

SUAL: Mənim ilk sualım cənab Prezident İlham Əliyevədir. Cənab Prezident, İran İslam Respublikasına rəsmi səfərinizi necə qiymətləndirirsiniz və imzalanan sənədlər münasibətlərimizə necə təsir göstərəcəkdir?

İkinci sualım hər iki prezidentədir. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsini necə görürsünüz və iki ölkənin bu sahədə əməkdaşlığını necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: İran İslam Respublikasına ilk rəsmi səfərimi çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu səfər bizim gələcək əməkdaşlığımıza güclü təkan verəcəkdir.

İranla Azərbaycan arasında olan münasibətlər daha da inkişaf edəcəkdir, bütün sahələri əhatə edəcəkdir.

Bir neçə ay bundan əvvəl İran İslam Respublikasının Prezidenti hörmətli cənab Xatəmi Azərbaycanda səfərdə idi. Həmin səfər də çox uğurlu olmuşdu, çoxlu sənədlər imzalanmışdı. Gördüyünüz kimi, bu gün də çoxlu sənədlər imzalanıbdır. Bu sənədlərin icrası bizə imkan verəcək ki, Azərbaycanla İran arasında olan əlaqələr güclənsin, hər iki ölkə iqtisadi cəhətdən daha da inkişaf etsin, ölkələrimiz və xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

Biz ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk. Şadıq ki, bu əlaqələr çox sürətlə inkişaf edir və demək olar, iki ölkə arasında olan əlaqələrdə yeni mərhələ başlanıbdır. Bu, bizi çox sevindirir və milli maraqlarımıza cavab verir.

İkinci suala gəldikdə, qeyd etməliyəm ki, Xəzər dənizinin hüquqi statusu mütəmadi qaydada müzakirə olunur, danışıqlar davam edir və çox səmərəli, işgüzar şəraitdə keçirilir. Aparılan danışıqlar bunu göstərir ki, hər iki tərəf bu danışıqları səmimi şəkildə aparır və bizim niyyətimiz ondan ibarətdir ki, bu məsələ öz həllini tapsın.

SEYİD MƏHƏMMƏD XATƏMİ: Mən də öz növbəmdə cənab Prezident İlham Əliyevin söylədiyi fikirlərə razılığımı bildirirəm. Ümid edirəm ki, bizim danışıqlarımız dostluq və hüsniyyətlə davam edir. Burada əsas mühüm məsələ ondan ibarətdir ki, Al-

lahın bizə bəxş etdiyi çox gövhər bir dəniz olan Xəzər onun ətrafında yerləşən beş ölkəyə məxsusdur və burada hər birimizin mənafeyi, eləcə də, Allahın bizə bəxş etdiyi bu nemət də qorunmalıdır.

SUAL: Mənim sualım İran Prezidentinədir. Cənab Prezident, Azərbaycanla İran arasında iqtisadi əməkdaşlığın perspektivlərini necə görürsünüz və Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması barədə nə deyə bilərsiniz?

SEYİD MƏHƏMMƏD XATƏMİ: Təbiidir ki, bizim apardığımız müzakirələrin əsas istiqamətlərindən biri də iki ölkə arasında iqtisadi münasibətlər idi. Cənab Prezident İlham Əliyev İran İslam Respublikasının böyük sənaye və istehsal müəssisəsi ilə tanış olmuşdur. Bu gün Təbrizə səfəri zamanı çox böyük istehsal kompleksi olan traktorqayırma kompleksi ilə yaxından tanış olacaqdır. Biz mövcud ticarət əlaqələrinin genişləndirilməsini bir daha təkid edərək, ölkələrimizin münasibətlərində iqtisadi sahədə əlaqələrin daha da inkişaf etdirilməsinə çalışacağıq.

Hər iki ölkənin iqtisadi imkanları hərtərəfli inkişafımızı tamamlaya bilər. Biz ümid edirik ki, bu gün razılaşdırdığımız sənədlər gələcəkdə özünün real nəticəsini verəcəkdir.

Şimal-Cənub nəqliyyat dəhlizi çox böyük dördyoldur ki, o, həm şimal ilə cənubu həm də şərq ilə qərbi birləşdirir. Bu istiqamətdə Rusiya, İran və Azərbaycan Respublikası çox mühüm əməkdaşlıq edirlər. Azərbaycanın dəmir yolu xətlərinin İranın dəmir yolu ilə birləşdirilməsi və dəhlizin daha da fəal istifadə olunması üçün çəkilməkdə olan və çəkiləcək yollar bu dəhlizin daha fəal nəqliyyat dəhlizi olacağını göstərir.

Bu gün imzalanan sənədlərdən biri də dəmir yolu sahəsində əməkdaşlığa aiddir. Şimal nöqtəsinin Azərbaycan dəmir yolu vasitəsilə Oman dənizinə birləşdirilməsi regionumuzda çox böyük dəyişikliklərin yaranmasına səbəb olacaqdır. Bu yol həmçinin qərbin və şərqin cənubla və şimalla birləşdirilməsi üçün, o cümlədən də şimalın Hind okeanına da yolunun açılması üçün çox mühümdür.

Şimal-Cənub nəqliyyat dəhlizi təkcə Rusiya, Azərbaycan və İrana məxsus deyildir. Bəlkə də bu, yeni dünya əsrində qlobal iqtisadiyyatın birləşdirilməsi dəhlizidir. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TEHRANDAN TƏBRİZƏ YOLA DÜŞDÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfərinin Tehran proqramı başa çatdı.

İran İslam Respublikası Prezidentinin sarayı qarşısında dövlətimizin başçısını rəsmi yolasalma mərasimi keçirildi.

Sarayın qarşısındakı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Seyid Məhəmməd Xatəmi səmimiyyətlə sağollaşdılar.

Azərbaycan Prezidentinə Tehrana rəsmi səfərini, keçirdiyi görüşləri əks etdirən fotoalbom təqdim olundu.

Prezident İlham Əliyev maşın karvanının müşayiəti ilə İran paytaxtının Mehrabad hava limanına gəldi.

Hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev buradan təyyarə ilə Təbriz şəhərinə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZ ŞƏHƏRİNDƏ BÖYÜK HƏRARƏTLƏ, MƏHƏBBƏTLƏ QARŞILANMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Təbriz şəhərinə gəlmişdir.

Təbrizin hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyevə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu. Milli geyimli azərbaycanlı uşaqlar dövlətimizin başçısını şeirlə salamladılar.

Təbriz şəhərinin küçələrində Azərbaycan Prezidenti İlham Əliyevin pişvazına çıxmış sakinlər dövlətimizin başçısını hərarətlə salamlayırdılar.

Azərbaycan Prezidenti İlham Əliyevi Təbrizə səfərdə İranın kooperasiya naziri Əli Sufi, xarici işlər nazirinin müavini Möhsün Əminzadə, İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və İranın Bakıdakı səfiri Əfşar Süleymani müşayiət edirdilər.

ŞƏRQİ AZƏRBAYCAN VALİLİYİNDƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Təbrizdə Şərqi Azərbaycan valiliyinin binasına gəldi. Dövlətimizin başçısını burada böyük hörmətlə, gül-çiçəklə qarşıladılar.

Burada keçirilən görüşdə Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi Prezident İlham Əliyevi Təbrizə gəlməsi münasibətilə təbrik edərək, tarixi hadisə kimi qiymətləndirdiyi bu səfərinin, iki ölkə arasında münasibətlərin inkişafında çox mühüm rol oynayacağını bildirdi. O, son illər Azərbaycan-İran münasibətlərinin möhkəmləndiyini, Prezident Məhəmməd Xatəminin Bakıya səfərindən sonra əlaqələrin daha da canlandığını söyləyərək dedi ki, Prezident İlham Əliyevin indiki səfəri ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəkdir.



Prezident İlham Əliyev görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Biz üç gündür ki, İrandayıq, İranda rəsmi səfərdəyik. Səfər də çox uğurlu olubdur. Geniş fikir mübadiləsi aparmışıq və bir neçə böyük sənəd imzalamışıq. Mən şübhə etmirəm ki, bu sənədlər həyatda öz əksini tapacaq, sürətlə icra olunacaqdır. Beləliklə də İranla Azərbaycan arasında olan dostluq münasibətləri daha da yüksələcəkdir.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl İran İslam Respublikasının Prezidenti hörmətli cənab Xatəmi Azərbaycanda rəsmi səfərdə idi. Həmin səfər də çox uğurlu idi. Əminəm ki, mənim də səfərim gələcək münasibətlərə yeni təkan verəcəkdir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın dərinləşməsi sahəsində artıq gözəl nəticələr vardır. Bu sahədə imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar bizə imkan verəcək ki, qısa müddət ərzində hər iki tərəf bundan böyük fayda götürsün. Xüsusilə, qaz mübadiləsi sazişi imkan verəcək ki, uzun illər qazsız qalmış Naxçıvana İrandan qaz verilsin. Biz ikitərəfli əlaqələrimizin inkişafında maraqlıyıq və istəyirik ki, bu əməkdaşlıq çox sahələri əhatə etsin.

Çox şadam ki, bu gün Təbrizdəyəm. Çoxdan Təbrizə gəlmək arzusunda idim. Bu gün bu arzum gerçəkləşdi. Təbriz bizim hamımız üçün doğma, əziz şəhərdir. Burada Azərbaycanın baş konsulluğunun açılması çox mühüm addımdır və çox gözəl hadisədir. Bütün bu son müddət ərzində ikitərəfli müstəvidə qazanılmış uğurlar onu göstərir ki, bir az iradə, xoş niyyət olan yerdə bütün məsələlər öz həllini tapa bilər. Əminəm ki, bizim aramızda olan münasibətlər gələcək illərdə daha da inkişaf edəcəkdir.

Mən İrana böyük heyətlə gəlmişəm və bu gün iqtisadi sahədə, humanitar sahədə və digər sahələrdə çox mühüm sənədlər imzalandı. Əminəm ki, bütün bu sənədlər uğurla icra ediləcəkdir. Hansısa məsələlər, hansısa problemlər, çətinliklər meydana çıxanda bizim hökumətlərarası komissiyamız bu məsələləri operativ qaydada həll edir və əminəm ki, sizin qaldırdığınız məsələlərə də komissiya baxacaq və həll edəcəkdir.

TƏBRİZ TRAKTOR ZAVODU İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da İranın ən böyük sənaye müəssisələrindən olan Təbriz traktor zavoduna gəlmişdir. Burada dövlətimizin başçısını, habelə xanımı Mehriban Əliyevanı böyük hörmətlə və səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Zavodda keçirilən görüşdə bildirildi ki, müəssisə traktorlar, müxtəlif kənd təsərrüfatı avadanlığı istehsalı ilə məşğul olur. Onun məhsulları onlarca ölkəyə ixrac edilir. Bu il zavodda 15 min traktor istehsal edilməsi nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev bu iri istehsal müəssisəsində olmasından məmnunluğunu bildirdi.

Sonra dövlətimizin başçısı zavodun ayrı-ayrı sexlərində istehsal prosesləri ilə tanış oldu, müəssisədə buraxılan kənd təsərrüfatı maşın və mexanizmlərinə baxdı, traktorlardan birinin sükanı arxasında əyləşdi.

Zavodla tanışlıqdan sonra Təbrizin "El gölü" mehmanxanasında Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verildi.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN TƏBRİZDƏKİ BAŞ KONSULLUĞUNDA OLMUŞDUR

Yanvarın 26-da Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin Təbrizdəki baş konsulluğunda olmuşdur. Binanın qarşısına toplaşan təbrizlilər dövlətimizin başçısını hərarətlə salamladılar.

Azərbaycan Prezidenti konsulluğun binası ilə yaxından tanış oldu, burada yaradılmış iş şəraitindən razı qaldığını bildirdi.

Baş konsul əvəzi Cavanşir Vəkilov qısa müddət ərzində görülən işlər barədə məlumat verərək dedi ki, burada ilk dəfə olaraq latın əlifbası ilə müstəqil ictimai-siyasi, ədəbi nəşr olan "Körpü" jurnalı buraxılmışdır. Jurnalda xalqımızın ümummilli lideri Heydər Əliyevin İran-Azərbaycan əlaqələrinə dair fikirləri, ölkəmiz haqqında ətraflı məlumat verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev diplomatlarımıza uğurlar arzulayaraq dedi ki, əminəm, konsulluq yaxşı işləyəcəkdir. Bilirsiniz ki, bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin arzusu idi.

Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi ümummilli liderimizi xatırlayaraq dedi ki, cənab Prezident, vaxtilə dünya şöhrətli siyasi xadim Heydər Əliyevi Təbrizə dəvət edəndə mənə dedi ki, sən Təbrizdə Azərbaycanın konsulluğunu aç, mən uça-uça gələcəyəm. Bu, ona qismət olmasa da, Zati-alinizə qismət oldu. Allah ona rəhmət eləsin.

İLHAM ƏLİYEV: Bu, ikitərəfli əlaqələrimizin nə qədər yüksək olduğunu göstərir. İnsanlar nə qədər əziyyət çəkib Tehrana gedir, oradan viza alır, sonra da qayıdırlar. Həm vaxt itir, həm də maddi cəhətdən problem yaranır.

ELMAR MƏMMƏDYAROV (Azərbaycanın xarici işlər naziri): Cənab Prezident, son iki ay ərzində konsulluq tərəfindən 525 viza verilmişdir.

İLHAM ƏLİYEV: İnşallah, ümid edirəm, Təbriz-Bakı reysi də açılsa, çox yaxşı olacaqdır.

MƏHƏMMƏDƏLİ SÜBHANULLAHİ: Yaxın vaxtlarda bunun da şahidi olacağıq.

İLHAM ƏLİYEV: Bina da yaxşıdır. Bu yeri siz seçmisiniz?!

ABBASƏLİ HƏSƏNOV (Azərbaycanın Tehrandakı səfiri): Cənab Prezident, Prezident Xatəmi Bakıya səfərindən sonra Təbrizdə konsulluğun açılmasına rəsmi razılıq verdi. Onda gəlib cənab Sübhanullahi ilə bir yerdə bina axtaranda bu yeri seçdik. Çünki bu bina şəhərin yaxşı yerindədir, insanların buraya gəlməsi o qədər də çətin deyildir. Həm də bina təzədir, burada yaşayan olmayıbdır. Bəzi təmir işlərini də yekunlaşdırmışıq. Beləliklə, şəhərin yaxşı bir yerində konsulluq fəaliyyətə başladı.

İLHAM ƏLİYEV: Gözəl yerdir. Mən buraya gələndə ətrafda yeni tikilili gördüm. Çox müasir binalardır. Gərək burada çalışanlar yaxşı işləsinlər ki, bizim əlaqələrimizə lazımınca kömək etsinlər.

Bilirsiniz ki, artıq konsulluğun icazəsi verildi, bizim təklif etdiyimiz konsulun namizəd-

liyi hökumət tərəfindən təsdiq olunubdur. Təbii ki, qayıdan kimi Fərman verəcəyik ki, o, işə başlasın. Hamınıza uğurlar olsun.

Sonra Prezident İlham Əliyev Təbriz baş konsulluğunun əməkdaşları ilə xatirə şəkli çəkdirdi, jurnalistlərə müsahibə verdi.

SUAL: Cənab Prezident, Siz İrana rəsmi səfərinizdən razı qaldınızmı, ümumiyyətlə, gözlədiyiniz nəticəni ala bildinizmi?

CAVAB: Hesab edirəm, bəli, nəticələri ala bildik. Mən artıq bu barədə bugünkü mətbuat konfransında fikirlərimi açıqladım. Mən səfərin yekunları ilə çox razıyam. Hesab edirəm, çox uğurlu səfər olubdur. Şübhə etmirəm ki, ikitərəfli münasibətlərin daha da güclənməsi baxımından səfər çox uğurlu olubdur. Apardığım bütün danışıqlar, söhbətlər onu göstərir ki, hər iki tərəfdə əlaqələrin genişlənməsi üçün böyük maraq var və böyük səylər göstərilir. Razılaşdırılmış sazişlər, müqavilələr öz bəhrəsini verməkdədir.

Bakıda cənab Xatəminin səfəri çərçivəsində imzalanmış sənədlər də çoxdur və bu gün burada imzalanmış sənədlər də qısa müddət ərzində həyatda öz əksini tapacaqdır. Bir sözlə, hesab edirəm, gələcəkdə biz bu səfərin nəticələrini görəcəyik.

SUAL: Cənab Prezident, valilikdə keçirdiyiniz görüşdə vali Sizdən bir sıra məsələlərin həllini xahiş etdi. Bununla bağlı nə deyə bilərsiniz?

CAVAB: Mən dedim, bizim ikitərəfli, hökumətlərarası komissiya çox səmərəli işləyibdir. Bu səfərdən əvvəl də Tehranda komissiyanın iclası keçirilmişdir və bütün məsələlər orada müzakirə olunur, o cümlədən problemli məsələlər. Deyə bilərəm ki, bizim aramızda artıq problemli məsələ qalmayıbdır. Hansısa xırda məsələ var ki, öz həllini tapmalıdır, komissiya çərçivəsində bu məsələ həll edilə bilər ki, insanlar bir-birilə daha da rahat əlaqə saxlasınlar, gediş-gəliş daha da asan olsun. Əlbəttə ki, mövcud olan hansısa xırda problemlər də tezliklə, operativ qaydada həllini tapsın.

SUAL: Cənab Prezident, Siz bütün səfərlərinizdə olduğu kimi, İrana səfərinizdə də Dağlıq Qarabağ probleminin həlli məsələsini xüsusi müzakirə etdiniz. İran böyük qonşudur, həm Azərbaycanın, həm də Ermənistanın qonşusudur. Siz bu səfərdən sonra İranın Dağlıq Qarabağ probleminin həlli, daha doğrusu, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən çəkilməsi istiqamətində hansısa addımlar atacağını gözləyirsinizmi və ümumiyyətlə, İranın rolunda bir dəyişiklik varmı?

CAVAB: İran bu məsələ ilə əlaqədar öz mövqeyini birmənalı şəkildə ən yüksək səviyyələrdə dəfələrlə bildirmişdir. O cümlədən, cənab Xatəminin Azərbaycana səfəri zamanı verdiyi bəyanat birmənalı idi. İndiki səfər çərçivəsində də hörmətli cənab Prezident İranın mövqeyini açıq-aydın bildirdi.

Bundan başqa, bütün beynəlxalq təşkilatlarda, bütün səviyyələrdə biz daim İranın bu məsələ ilə bağlı mövqeyini hiss edirik, ədalətli mövqeyini çox bəyənirik və son dəfə Birləşmiş Millətlər Təşkilatında keçirilmiş müzakirələr zamanı İranın mövqeyi yenə də birmənalı idi. Bu baxımdan ümid edirəm ki, bu çox aydın mövqe və birmənalı yanaşma, əlbəttə, münaqişənin sülh yolu ilə nizama salınması üçün mühüm rol oynayır.

Azərbaycanla İran arasında olan əlaqələr çox mühüm əlaqələrdir. Hər iki ölkə üçün, regionda sülhün, sabitliyin bərqərar olunması üçün, ümumiyyətlə, regional əməkdaşlıq

baxımından çox vacibdir. Görün, indi aramızda nə qədər sazişlər imzalanıbdır. Bunlar elə-belə sənədlər deyildir. Yəni onların heç biri kağız üzərində qalmayacaqdır. Son dörd-beş ayın təcrübəsi göstərir ki, Bakıda imzalanmış bütün sənədlər icra edilibdir.

İranın və Azərbaycanın iqtisadi potensialı artır. Bizim ikitərəfli iqtisadi əlaqələrimiz güclənir. Energetikada, humanitar sahədə bütün başqa sahələrdə. Yəni nəyi demək istəyirəm, əlbəttə ki, bizim aramızda olan münasibətlər həm Azərbaycan üçün, həm də İran üçün hər hansı bir başqa ölkə ilə olan münasibətlərlə müqayisə edilə bilməz. Mən hesab edirəm ki, bu birmənalı mövqe, xüsusilə Ermənistanın işğalçı siyasətinin açıq-aydın pislənməsi mühüm haldır. Mən bu münasibətlə cənab Xatəmiyə, İran hökumətinə öz minnətdarlığımı bildirdim. Hesab edirəm ki, əgər bütün ölkələr, beynəlxalq ictimaiyyət belə birmənalı mövqe tutsa, məsələ tezliklə öz həllini tapar.

SUAL: Cənab Prezident, Xəzərin statusuna dair apardığınız danışıqlardan sonra İranın mövqeyində hər hansı bir yumşalma varmı, yoxsa yenə də 20 faizə iddia edir?

CAVAB: Bilirsiniz, biz hansısa yumşalmadan heç vaxt söhbət aparmırıq. Hər bir tərəfin öz mövqeyi var. Biz də hər bir mövqeyə hörmətlə yanaşırıq. Əgər hansısa bir mövqe mövcuddursa, deməli, bunun arxasında hansısa məsələlər var. Biz istəyirik ki, həmin məsələ həllini tapsın və müvafiq qurumlar, nümayəndələr bu istiqamətdə işləyirlər və özü də çox gərgin işləyirlər. Bizim, hər iki tərəfin niyyəti, səmimi niyyəti bundan ibarətdir ki, bu məsələ öz həllini tapsın. Düzdür, Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmaması demək olar ki, Xəzərdə aparılan işlərə mənfi təsir göstərmədi. Bizim onillik təcrübəmiz də onu göstərir ki, bu, Xəzər dənizinin karbohidrogen yataqlarının işlənilməsi üçün problem yaratmır. Amma buna baxmayaraq, biz istəmirik ki, bu məsələ daim belə asılı vəziyyətdə qalsın. Biz istəyirik ki, Xəzəryanı ölkələrin hamısı ortaq bir məxrəcə gəlsinlər, məsələ öz hüquqi həllini tapsın və beləliklə, bu məsələyə son qoyulsun.

Mən Bakıda da, burada da Prezident Xatəmi ilə apardığım danışıqlar çərçivəsində ifadə olunan təkliflərə çox böyük diqqətlə baxıram və müvafiq göstərişlər də verilibdir ki, bu məsələ daha da dərindən incələnsin. Hər iki tərəfin mövqeyi müzakirə olunsun və biz bir yol tapaq ki, məsələ öz həllini tapsın. Hər halda, hər iki tərəfin istəyi bundan ibarətdir və göstərişlər də verilibdir. Ümid edirəm ki, danışıqlarda irəliləyiş olacaqdır.

SUAL: Cənab Prezident, ATƏT-də Devid Atkinsonun məruzəsi qəbul olundu. Yəqin ki, Sizə bu barədə məlumat verilibdir. Bu, Sizi razı saldımı?

CAVAB: Bəli, mənə dünən axşam saatlarında məlumat verilibdir. Mən qətnamənin mətninə baxdım, Bakıya qayıdandan sonra onunla dərindən tanış olacağam və müzakirələr aparılacaqdır. Əlbəttə, hesab edirəm ki, bu, bizim böyük qələbəmizdir. Bizim arzumuz idi ki, Avropa Şurasında bu məruzə hazırlansın və məruzə ətrafında qətnamə qəbul edilsin, Ermənistanın işğalçı siyasəti burada öz əksini tapsın. Ermənistan bir işğalçı dövlət kimi, təcavüzkar dövlət kimi burada qınaq obyektinə çevrilsin. Orada "separatçı qüvvələr" ifadəsi işlədilsin. Bir sözlə, Azərbaycana qarşı edilən bütün təcavüzlər orada öz əksini tapsın - etnik təmizləmə məsələsi, bütün digər məsələlər. Ermənistan tərəfi həmişə bunun əleyhinə çıxırdı. Hər dəfə çalışırdı ki, bu müzakirə baş tutmasın, qətnaməyə dəyişikliklər etməyə çalışırdı. Bu, bir prosesdir. Əlbəttə, deyim ki, bu qətnamə məni yüz faiz qane edir, əlbəttə, yox. Amma haradasa, 90 faiz qane edir.

Əgər Ermənistanın reaksiyasına baxsanız görərsiniz ki, onlar o qətnamənin qəbul olunmasından çox məyus olublar. Çünki bu, münaqişənin məğzini bir daha bütün dünyaya açıqlayır. Bu, münaqişəyə siyasi qiymətin verilməsi deməkdir. Biz Avropa Şurasından başqa bir şey gözləmirik. Avropa Şurasının başqa mexanizmləri yoxdur. Sadəcə, bu çox vacib bir forumdur ki, bu məsələyə siyasi qiymət verir. Minsk qrupu məsələnin praktiki həlli ilə məşğuldur. Birləşmiş Millətlər Təşkilatı indi bizim təşəbbüsümüzlə məsələyə digər prizmadan yanaşır. Avropa İttifaqı bu məsələyə daha çox iqtisadi baxımdan yanaşır ki, məsələ həll olunsun və regionda iqtisadi əməkdaşlıq olsun. Avropa Şurası isə sırf insan haqları baxımından, siyasi qiymət baxımından bu məsələyə öz münasibətini bildirdi.

Beləliklə, bizim də siyasətimiz elə bundadır ki, Ermənistana hər tərəfdən təzyiq göstərilsin. Beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi qınasınlar ki, bu da öz növbəsində, danışıqlar prosesində müsbət rol oynayacaqdır. Biz bu müsbət rolu hiss edirik. Əlbəttə, ucuz söz olar ki, deyək Avropa Şurası bunu qəbul etdi, ermənilər də bu torpaqlardan çəkildilər, getdilər. Biz o qədər də sadəlövh deyilik. Amma bu, ümumi işimizə mühüm bir töhfədir və biz bunun nəticəsini görəcəyik.

SUAL: Cənab Prezident, Ermənistan rəsmilərini narahat edən iki layihə var idi. Bunlardan biri Şimal-Cənub dəhlizi, digəri isə Qars-Tbilisi dəmir yolunun çəkilməsidir. Deyirlər ki, bu layihələr reallaşsa, biz bütün kommunikasiyalardan kənarda qalacağıq. Bəlkə də mənə belə gəlir ki, o iki layihədə nədənsə bir ləngimə var. Şimal-Cənub layihəsi İranda da müzakirə olundu, işlər nə yerdədir?

CAVAB: Mən hesab etmirəm ki, ləngimə var. Birincisi, Qars-Tbilisi dəmir yolu ilə bağlı müzakirələr demək olar, daha da intensivləşibdir. Əgər bir neçə il bundan əvvəl bu, sadəcə olaraq, bir fikir, ideya kimi yaşayırdısa, bu gün artıq praktiki danışıqlar aparılır. Yəqin xatırlayırsınız ki, mənim Gürcüstana rəsmi səfərim çərçivəsində, demək olar, ilk dəfə Azərbaycan tərəfindən təklif irəli sürüldü ki, beynəlxalq konsorsium yaradılsın. Azərbaycan da bu konsorsiumda həm hökumət, həm də şirkətlər səviyyəsində orada iştirak edə bilər və məsələ həll oluna bilər. Ondan sonrakı dövr onu göstərdi ki, artıq praktiki danışıqlar aparılır, məsələ müzakirə olunur və biz də çox maraqlıyıq ki, bu, tezliklə öz həllini tapsın. Azərbaycan özünə düşən maliyyə öhdəliyini də üzərinə götürməyə hazırdır ki, məsələ həll olunsun.

Şimal-Cənub dəhlizinə Azərbaycan artıq qoşulubdur. Bu istiqamətdə işlər gedir. Əgər biz bunu Şərq-Qərb dəhlizi ilə müqayisə etsək, görərik ki, Şimal-Cənub layihəsi bəlkə də daha sürətlə inkişaf edir və burada daha böyük addımlar atılır. Biz hər bir regional layihənin iştirakçısı olmaq istəyirik və olacağıq da, bəzi regional layihələrin isə təşəbbüskarıyıq. Bu, ilk növbədə, bizim öz problemlərimizi həll edəcəkdir.

Azərbaycandan kommunikasiyalar - dəniz, avtomobil yolları, neft-qaz kəmərləri, nə qədər çox keçsə, o qədər də bizim həm iqtisadi vəziyyətimiz yaxşı olacaq, həm də regionda çəkimiz artacaqdır. Eyni zamanda, əlbəttə, sirr deyil ki, bütün bu layihələrin nəticəsində Ermənistan tamamilə bütün regional əməkdaşlıqdan birmənalı şəkildə təcrid olunacaqdır. Bu layihələr həyata keçsə, Ermənistanın arzuladıqları o yollar məsələsi də gündəlikdən tamamilə çıxacaqdır. Onların heç bir əhəmiyyəti olmayacaqdır.

SUAL: Cənab Prezident, ümumiyyətlə, son illər Azərbaycan-İran münasibətlərində xüsusi yaxınlaşma müşahidə olunur. İran Prezidentinin Bakıya, xüsusilə Sizin Tehrana sə-

fərinizdən sonra bu münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Ola bilərmi ki, bundan sonra İran Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konkret olaraq Ermənistana iqtisadi təzyiq göstərsin? Təsdiqlənməmiş məlumata görə, dünən bu məsələ müzakirə olunubdur. Ermənistanın Azərbaycanla yolları bağlıdır, Türkiyə sərhədi açmır və İran da belə bir təzyiq göstərsə...

CAVAB: Mən sadəcə olaraq, burada bu məsələni, necə deyərlər, diqqətə çatdırırdım. Mən heç bir təklif irəli sürmədim.

SUAL: Cənab Prezident, Amerikanın və Avropanın siyasəti Azərbaycanın İrana yaxınlaşmasına mane olmur ki?

CAVAB: Bizim ikitərəfli əlaqələrə heç kim təsir edə bilməz. Azərbaycan bütün ölkələrlə, o cümlədən İranla öz xarici siyasətini müstəqil şəkildə qurur. Biz istəyirik ki, ikitərəfli münasibətlər inkişaf etsin və bu münasibətlər müstəqil şəkildə aparılsın. Heç kim heç kimi məcbur etmir, heç bir başqa xarici amil də bizim ikitərəfli münasibətlərdə heç bir rol oynamır. Bizim böyük tariximiz var, bağlılığımız, oxşarlığımız var. Biz qonşu ölkəyik, ümumi sərhədimiz də var. Bu sərhədin arasında heç kim yoxdur ki, hansısa bir təsir etsin. Mən hesab edirəm ki, ancaq müstəqil ölkələr, güclü ölkələr özlərinin, xalqlarının xeyrinə müstəqil siyasət apara bilərlər.

ŞAİRLƏR MƏQBƏRƏSİNİ ZİYARƏT

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da Təbrizdə Şairlər məqbərəsini ziyarət etmişdir.

Dövlətimizin başçısı burada dəfn olunmuş ədiblərin xatirəsini ehtiramla andı, müasir Azərbaycan və fars ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Məhəmmədhüseyn Şəhriyarın məzarı üzərinə gül dəstəsi qoydu.

Şərqi Azərbaycan əyalətinin incəsənət və mədəniyyət idarəsinin müdiri Rəsul Bəşiri dövlətimizin başçısına məlumat verərək dedi ki, İran ədəbiyyatının 400-dən çox nümayəndəsi buradakı qəbiristanda dəfn olunubdur. Onların hamısı təbrizli deyil, İranın müxtəlif şəhərlərindən Təbrizə gələnlər də burada şöhrət qazanaraq ömürlərini başa vurmuşlar. Məhəmmədhüseyn Şəhriyar isə məqbərədə sonuncu dəfn olunan şairdir. Onun əsərləri müxtəlif dillərdə çap olunmuşdur. İran Prezidenti Xatəminin Fərmanına əsasən, məqbərə daha gözəl formada yenidən tikiləcək və onun ətrafında ədəbiyyat muzeyi və ədəbiyyat kitabxanası yaradılacaqdır.

Prezident İlham Əliyev məqbərənin xatirə kitabına ürək sözlərini yazdı:

"Şairlər məqbərəsini ziyarət etdim. Dahi Şəhriyarın qəbrini ziyarət etdim. Şəhriyarın ölməz əsərləri və əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

26 yanvar 2005-ci il".



Azərbaycan Prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Prezident sarayında ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernard Fassiyeri qəbul etmişdir.

Dövlətimizin başçısı Bernard Fassiyeri ATƏT-in Minsk qrupunun Fransadan yeni həmsədr təyin olunması münasibətilə təbrik etmişdir.

Sonra Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun fəaliyyətinə toxunaraq qeyd etmişdir ki, on ildən artıqdır Minsk qrupu çərçivəsində danışıqların aparılmasına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı bir nəticə əldə edilməmişdir. Lakin son vaxtlar bu qrupun fəaliyyətində fəallığın müşahidə olunması, xarici işlər nazirləri arasında danışıqların davam etdirilməsi münaqişənin nizama salınması prosesində müəyyən irəliləyişlərin əldə ediləcəyinə ümid verir. Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağın və onun ətrafında yerləşən yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini vurğulayan dövlətimizin başçısı ölkəmizin BMT-yə məhz bu ərazilərin daxil olduğu sərhədlər çərçivəsində qəbul edildiyini diqqətə çatdırmışdır.

Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulamış və qeyd etmişdir ki, bu mövqe yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə - ölkələrin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə əsaslanır. Bu prinsiplərə əməl olunmadan münaqişənin həllinə nail olmaq mümkün deyildir.

Dövlətimizin başçısı ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda münaqişənin nizama salınması ilə bağlı konkret nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Bernard Fassiyer onu qəbul etdiyinə və yeni vəzifəyə təyin olunmağı münasibətilə təbrikə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını ifadə etmişdir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının təkcə Cənubi Qafqazda deyil, ümumiyyətlə, bütün bölgədə sülhün və sabitliyin təmin olunması işinə, habelə Orta Asiyanın da daxil olduğu daha geniş məkanda iqtisadi layihələrin həyata keçirilməsinə böyük xələl gətirdiyini vurğulamışdır.

Cənab Fassiyer əmin olduğunu bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti ilə görüşü ona bu həssas münaqişənin konkret həlli ilə bağlı ölkəmizin mövqeyi barədə daha geniş məlumat əldə etməsinə imkan yaradacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Prezident sarayında "İşğal olunmuş ərazilərdə məskunlaşdırma üzrə ATƏT-in Minsk qrupunun fakt-araşdırıcı missiyası"nın üzvlərindən və onları müşayiət edən şəxslərdən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı yeni fakt-araşdırıcı missiyanın səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirmişdir. Azərbaycan Prezidenti hazırkı mərhələdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı xarici işlər nazirlərinin birbaşa cəlb olunduğu yeni danışıqlar formatının əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin dəyişməz qaldığını, bu mövqeyin yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə - ölkələrin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslandığını bir daha bəyan etmişdir. Azərbaycan Prezidenti ölkəmizin işğal olunmuş ərazilərində ermənilərin qeyri-qanuni məskunlaşmasını uzunmüddətli sülhün əldə edilməsi yolunda duran ən böyük maneələrdən biri kimi qiymətləndirərək əminliyini vurğulamışdır ki, fakt-araşdırıcı missiyanın həmin ərazilərdə real vəziyyətlə yaxından tanış olması Ermənistan tərəfinin bu ərazilərdə qanunsuz hərəkətlərinə son qoyulması işini tezləşdirəcəkdir. Missiyanın işinə uğurlar arzulayan dövlətimizin başçısı onun fəaliyyətinin səmərəli olacağına ümidvarlığını ifadə etmişdir.

Minsk qrupunun həmsədrləri adından Rusiyadan olan həmsədr Yuri Merzlyakov münaqişənin sülh yolu ilə nizama salınması proseslərinin hazırkı vəziyyəti və fakt-araşdırıcı missiyanın fəaliyyəti ilə bağlı dövlətimizin başçısının fikirlərinin çox əhəmiyyətli olduğunu vurğulamışdır. O, nümayəndə heyəti üçün Azərbaycanın hökumət strukturları tərəfindən peşəkar səviyyədə hazırlanmış sənədlərin təqdim olunması ilə bağlı dövlətimizin başçısına minnətdarlığını bildirmiş və demişdir ki, "bütün bunlar fakt-araşdırıcı missiyanın Dağlıq Qarabağ ətrafında işğal olunmuş ərazilərdə aparacağı işlər üçün çox əhəmiyyətlidir". Daha sonra Yuri Merzlyakov Minsk qrupunun səylərinin daha da artırılacağını qeyd edərək, münaqişə tərəflərinin qarşılıqlı ciddi səyləri nəticəsində sülh danışıqlarında uğurlu nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya xarici işlər nazirinin ölkəmizə səfərini Azərbaycanla Rusiya arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mühüm bir mərhələ kimi dəyərləndirən dövlətimizin başçısı hazırda yeni-yeni sahələri əhatə edən bu əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev siyasi əlaqələrimizin yüksək səviyyədə həyata keçirildiyini qeyd edərək həm ikitərəfli, həm də regional səviyyədə münasibətlərimizin sürətlə inkişaf etməsindən məmnunluğunu bildirdi. O qeyd etdi ki, iki ölkə rəhbərliyi arasında mövcud olan münasibətlərin səviyyəsi əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün hər iki tərəfin səmimi iradəyə malik olmasını göstərir və bu gün ölkələrimiz arasında həll edilməmiş problem yoxdur. Azərbaycanla Rusiyanın ticarət dövriyyəsinin ildən-ilə artdığını, iki ölkənin biznes strukturları əlaqələrinin fəallaşdığını, energetika və digər sahələrdə əməkdaşlığımızda böyük nailiyyətlərin əldə edildiyini diqqətə çatdıran dövlətimizin başçısı bütün bunların ölkələrimiz arasında strateji əməkdaşlığın yaxşı nümunəsi olduğunu vurğuladı. Prezident İlham Əliyev Rusiyaya səfəri

zamanı Rusiya Prezidenti cənab Putinlə apardığı danışıqları, mühüm sənədlərin imzalanmasını, əldə edilmiş razılıqları yüksək qiymətləndirdiyini bildirərək, Azərbaycan tərəfinin Rusiya ilə əlaqələrin qarşılıqlı maraqların təmin olunması əsasında genişlənməsinə böyük əhəmiyyət verdiyini bildirdi. Azərbaycan Prezidenti cənab Lavrovun Rusiya xarici işlər naziri kimi ölkəmizə ilk səfərinin uğurla keçəcəyinə əminliyini ifadə etdi.

Səmimi sözlərə və rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən Sergey Lavrov Rusiya Federasiyası Prezidenti Vladimir Putinin ən dərin ehtiramını və salamlarını dövlətimizin başçısına çatdırdı. O, Rusiyada Azərbaycan ilinin açılışı mərasimi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Rusiyaya bu ay nəzərdə tutulmuş səfərinə ölkəsində böyük maraq göstərildiyini və bu səfərin konkret detalları üzərində ciddi hazırlıq işlərinin aparıldığını diqqətə çatdırdı. Sergey Lavrov ölkələrimiz arasında əlaqələrimizin inkişafı barədə Prezident İlham Əliyevin söylədiklərini Rusiya tərəfinin mövqeyi ilə tam üst-üstə düşdüyünü vurğuladı. O, ümidvar olduğunu bildirdi ki, Rusiya nümayəndə heyətinin Azərbaycana səfəri və dövlətimizin başçısı ilə keçirdiyi görüş iki ölkə prezidentləri tərəfindən əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin üzərində daha səmərəli şəkildə işləmək üçün yaxşı imkan yaradacaqdır. Ölkələrimiz arasında bu gün həll edilməmiş heç bir məsələ olmadığını vurğulayan Rusiya xarici işlər naziri bu səfər zamanı müzakirə ediləcək məsələlərin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dərin ehtiram və salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını və dərin ehtiramını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Karlos Maqarinyosu qəbul etmişdir.

Sənaye İnkişafı Təşkilatı ilə ölkəmizin əlaqələrinin səviyyəsindən məmnunluq ifadə edən dövlətimizin başçısı bu təşkilatla əməkdaşlığa dair yeni sənədin imzalanmasının əhəmiyyətini vurğuladı və birgə mühüm layihələr üzərində işlərin həyata keçirilməsini bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi. Ölkəmizdə iqtisadi inkişafla bağlı bir sıra mühüm proqramların, o cümlədən regional inkişaf proqramının uğurla həyata keçirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bütün bunların Azərbaycanda yeni iş yerlərinin yaradılmasına, iqtisadi infrastrukturun möhkəmləndirilməsinə, ümumən iqtisadi inkişafa xidmət etdiyini vurğuladı. Azərbaycan Prezidenti bu baxımdan beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Sənaye İnkişafı Təşkilatının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdi. O qeyd etdi ki, bizim məqsədimiz müasir, güclü iqtisadiyyat qurmaqdan ibarətdir və buna nail olacağımıza əminik.

Bakıya səfərindən razılığını söyləyən Karlos Maqarinyos Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vaxtilə, Avstriyada rəsmi səfərdə olarkən rəhbərlik etdiyi təşkilatın mənzil qərargahına gəlməsini və onunla görüşünü böyük məmnunluqla xatırladığını bildirdi. O, fürsətdən istifadə edərək, Azərbaycan Prezidentini təşkilatın növbəti baş konfransına dəvət etməkdən şərəf duyduğunu vurğuladı. Sonra BMT-nin Sənaye İnkişafı Təşkilatının fəaliyyəti barədə məlumat verən cənab Maqarinyos dövlətimizin başçısına BMT-nin iqtisadi fəaliyyətini əks etdirən kitabı təqdim etdi. Baş direktor Azərbaycanın iqtisadi sahədə, o cümlədən ümumi daxili məhsulun artımı, inflyasiyaya nəzarət, xarici investisiyaların cəlb edilməsi və digər sahələrdəki böyük uğurlarını xüsusi olaraq vurğuladı. O, hazırda Azərbaycanın Sənaye və Yanacaq Nazirliyi ilə birlikdə ölkəmizdə energetika sahəsində təmiz texnologiyalar mərkəzinin yaradılması üzərində iş getdiyini diqqətə çatdıraraq, ekoloji funksiyalar daşıyacaq bu işdə Azərbaycan Prezidentinin dəstəyini yüksək qiymətləndirdi.

Konfransa dəvəti məmnunluqla qəbul etdiyini bildirən Prezident İlham Əliyev ölkəmizdə ekoloji problemlərin həllinə ölkə rəhbərliyi tərəfindən böyük diqqət yetirildiyini qeyd edərək, bu sahədə fəaliyyət proqramının hazırlanması üzərində böyük iş aparıldığını xatırlatdı. Dövlətimizin başçısı bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın uğurlu nəticələr verəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Kristian Ştrohalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinin bir sıra görüşlər və müzakirələr keçirdiyini qeyd edən dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, bütün bunlar ölkəmizdə bu gün gedən inkişaf prosesləri barədə nümayəndə heyəti üzvləri tərəfindən daha geniş məlumatın əldə edilməsi üçün yaxşı imkan yaradacaqdır. Prezident İlham Əliyev Azərbaycanın sürətli inkişaf yolunda olduğunu vurğulayaraq, ötən il üçün ölkə qarşısında duran bütün vəzifələrin uğurla yerinə yetirildiyini bildirmişdir. Azərbaycan Prezidenti cəmiyyətin demokratikləşməsi, ictimai-siyasi həyatın müxtəlif sahələrinin daha da inkişaf etdirilməsi sahəsində bu gün böyük işlərin həyata keçirildiyini qeyd etmişdir. Ümumilikdə götürdükdə 2004-cü ilin ölkəmiz üçün uğurlu il hesab edildiyini bildirən dövlətimizin başçısı, bu ildə də Azərbaycanda yeni-yeni nailiyyətlərin qazanılacağına əminliyini ifadə etmişdir.

Prezident İlham Əliyevlə görüşündən məmnunluq hissi duyduğunu bildirən cənab Ştrohal cəmiyyətin demokratikləşməsi, qanunun aliliyinin təmin olunması və digər sahələrlə bağlı ölkəmizdə islahatların həyata keçirilməsində rəhbərlik etdiyi qurumun Azərbaycanla əməkdaşlığını yüksək qiymətləndirmişdir. O, prezident administrasiyası və hökumət nümayəndələri ilə təmasların güclü əməkdaşlıq və dostluq şəraitində həyata keçirildiyini xüsusi vurğulamışdır.

Cənab Ştrohal büronun hazırda ölkəmizlə əməkdaşlığının çox mühüm mərhələsinə qədəm qoyduğunu bildirmişdir. O, bu il Azərbaycanda Konstitusiyanın qəbul edilməsinin 10 illiyini, ölkəmizin yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoymasını, parlament seçkilərinin keçirilməsini, təmsil etdiyi təşkilatın əsas sənədinin qəbul edilməsinin 30

illiyini həm Azərbaycan üçün, həm də Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu üçün əlamətdar hadisələr kimi dəyərləndirmişdir.

Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət kursunda Avratlantik strukturlara inteqrasiya prinsiplərinin aydın şəkildə əks olunduğunu vurğulayan cənab Ştrohal rəhbərlik etdiyi qurumun ölkəmizlə əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇXR-Ə RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov Çin Xalq Respublikasında rəsmi səfərdədir. Fevralın 4-də nazir Elmar Məmmədyarov çinli həmkarı Li Çaosin ilə görüşmüşdür.

Li Çaosin azərbaycanlı həmkarını səmimi salamlayaraq onunla Çində görüşməsindən məmnun olduğunu bildirmişdir. Çinli nazir Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə nəzərdə tutulan rəsmi səfəri ilə bağlı Çin tərəfinin yüksək səviyyədə hazırlıq işləri apardığını qeyd etmişdir. Bir müddət əvvəl özünün Bakıya səfər etdiyini xatırlayan Li Çaosin bu səfərin onda xoş təəssürat yaratdığını xüsusi vurğulamışdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən Elmar Məmmədyarov çinli həmkarının Azərbaycana səfərinin ikitərəfli əlaqələrin gələcək inkişafında yüksək rol oynadığını diqqətə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidentinin Çin Xalq Respublikasının sədri cənab Xu Szintaonun dəvətini böyük məmnunluqla qəbul etdiyini diqqətə çatdıran nazir Elmar Məmmədyarov bu səfərin hər iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişafına təkan verəcəyinə əmin olduğunu bildirmişdir. Ölkələrimiz arasında siyasi əlaqələrin qarşılıqlı anlaşma şəraitində davam edəcəyinə bir daha əminliyini vurğulayan nazir Elmar Məmmədyrov münasibətlərin iqtisadi sahədə də inkişaf etdirilməsinin zəruriliyini söyləmişdir.

Daha sonra ÇXR-in xarici işlər naziri Li Çaosin azərbaycanlı həmkarından Çin Xalq Respublikasının sədri Xu Szintaonun salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etmişdir. Xarici siyasət idarəsinin başçısı ölkəmizin Cin ilə bağlı hazırkı siyasətində ikitərəfli münasibətlərin prioritet istiqamət tutduğunu məmnunluqla bildirmişdir.

Vahid Çin məsələsində birmənalı mövqe tutduğuna görə ölkəmizə təşəkkürünü bildirən çinli nazir Azərbaycanın da ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün Çin dövləti tərəfindən bir daha dəstəkləndiyini bəyan etmişdir. Azərbaycanda hazırda biznes mühiti üçün hər cür şəraitin olduğunu qeyd edən Li Çaosin Çin şirkətlərinin Bakıda fəaliyyəti üçün bütün imkanların yaradıldığının buna əyani sübut olduğunu bildirmişdir.

Nazir, ölkələrimiz arasında ikiqat vergiqoymanın aradan qaldırılması, gömrük rüsumlarının aşağı salınması, ticari-iqtisadi əlaqələrin genişləndirilməsi, sərmayələrin cəlb edilməsi, telekommunikasiya, humanitar, mədəniyyət, həmçinin, nəqliyyat sahələrində də əlaqələrin yeni müstəviyə çıxarılmasının dövlətimizin başçısının Çinə səfəri zamanı həyata keçirilməsinin respublikalarımızın diqqət mərkəzində olduğunu bildirmiş-

dir. Çinli nazir bildirmişdir ki, TRASECA proqramı çərçivəsində Tbilisi-Qars dəmir yolunun inşası onun ölkəsinin diqqətini çəkir və Çin tərəfi mütəxəssislər səviyyəsində məsləhətləşmələrin aparılmasına hazırdır.

Beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirən çinli nazir, ölkəmizi Ümumdünya Ticarət Təşkilatına üzvlüyü məsələsində dəstəklədiyini və dəstəkləyəcəyini bir daha diqqətə çatdırmışdır. Çinin ölkəmizə təminatsız kredit verdiyini xatırladan Li Çaosin, Azərbaycanın bu krediti Çinin Bakıda kommersiya mərkəzinin tikintisi üçün istifadə etmək istəyini xüsusi dəyərləndirmişdir. Azərbaycan tərəfi ilə nəqliyyat sahəsində əməkdaşlığa maraqla yanaşan çinli nazir, ölkəsinin bu sahədə təcrübəsini diqqətə çatdıraraq, bu məsələdə Azərbaycanla məsləhətləşmələr aparılmasının vacibliyini bildirmişdir.

Nazir Elmar Məmmədyarov Ermənistanın Azərbaycana təcavüzü nəticəsində respublikamızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan arasında dəmir yolunun bağlandığını bildirmişdir. Münaqişənin həlli istiqamətində hər iki ölkənin xarici işlər nazirləri arasında keçirilmiş görüşlərə toxunun Elmar Məmmədyarov, Çinin bu məsələdə mövqeyinin dəyişmədiyinə və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkür etmişdir. İşğal olmuş ərazilərdə Ermənistan tərəfindən süni surətdə əhali yerləşdirilməsi ilə bağlı ATƏT-in fakt-araşdırıcı missiyasının bölgəyə səfər etdiyini söyləmişdir.

Elə həmin gün nazir Elmar Məmmədyarovun Çin Xalq Respublikasının baş nazirinin müavini Xuan Cü ilə görüşmüşdür. Elmar Məmmədyarovun Çinə rəsmi səfərə gəlməsindən məmnunluğunu ifadə edən Xuan Cü Azərbaycanla Çin arasında 1992-ci ildən mövcud olan diplomatik əlaqələrin gündən-günə inkişaf etdiyini və ölkələrimiz arasında həyata keçirilən intensiv səfərlərin bu əlaqələrin güclənməsində xüsusi rol oynadığını demişdir. Regional məsələlərdə Azərbaycanın dəyişməz mövqe tutduğunu yüksək dəyərləndirən Xuan Cü, ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf etdirilməsində dövlətinin maraqlı olduğunu bildirmişdir. Baş nazirin müavini Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sosial sabitliyin, iqtisadi inkişafın daha yüksək səviyyəyə çatacağına inandığını söyləmişdir. Ümummilli liderimiz Heydər Əliyevin Çin ilə münasibətlərə xüsusi diqqət yetirdiyini və 1994-cü ilin martında ölkəsinə rəsmi səfər etdiyini böyük məmnunluqla xatırladan Baş nazirin müavini, Azərbaycan Prezidenti İlham Əliyevin Çinə rəsmi səfərinin hər iki ölkənin siyasi rəhbərləri arasında münasibətlərə müsbət töhfəsini verəcəyinə ümidvar olduğunu qeyd etmişdir.

Nazir Elmar Məmmədyarov ölkələrimiz arasında yüksək siyasi səviyyədə qarşılıqlı anlaşma olduğunu vurğulayaraq, bu əlaqələrin beynəlxalq təşkilatlar çərçivəsində də üstün surətdə davam etdirilməsinin vacibliyini bildirmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan və münaqişə nəticəsində bir milyon Azərbaycan vətəndaşının ərazilərimizin işğalı nəticəsində öz doğma torpaqlarından qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xüsusilə diqqətə çatdıran nazir, Çinin bu məsələdə respublikamızın ədalətli mövqeyinə göstərdiyi dəstəyə görə bir daha təşəkkürünü çatdırmışdır.

İqtisadi sahədə münasibətlərin inkişafına gəlincə, Elmar Məmmədyarov aqro-biznes, neft kimyası, turizm və digər vacib sahələr üzrə əlaqələrin gücləndirilməsinin zərurili-

yini qeyd etmişdir. 2008-ci ildə Çində keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarını yada salan nazir, bu müddət ərzində idman sahəsində də əlaqələrin inkişafının önəmli olduğunu diqqətə çatdırmışdır.

Daha sonra, Çinin Baş nazirinin müavini enerji daşıyıcıları sahəsində Azərbaycanla gələcəkdə də əməkdaşlığın davam etdirilməsi üçün əlverişli zəmin yarandığını xüsusi vurğulamışdır. TRASECA Proqramı çərçivəsində görüləcək işlərə Azərbaycanın xüsusi maraq göstərdiyini qeyd edən Xuan Cü, bu işdə öz səylərini əsirgəməyəcəklərini diqqətə çatdırmışdır.

Elə həmin gün xarici işlər naziri Elmar Məmmədyarov Çinin xarici işlər nazirinin müavini ilə görüşmüşdür. Naziri Çində görməyindən məmnunluq duyduğunu bildirən Day Binquo ölkələrimizin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın yüksək nəticələrə gətirib çıxaracağını bildirmişdir. O, son iyirmi ildə Çində mövcud dəyişikliklərə toxunaraq, bunun şəffaflıq islahatından sonra meydana gəldiyini diqqətə çatdırmışdır.

Çinli həmkarı ilə iqtisadi əlaqələrin genişləndirilməsindən və bu əlaqələrin yüksək inkişafı üçün ikitərəfli səviyyədə daha sıx münasibətlərin vacibliyindən danışdığını diqqətə çatdıran nazir Elmar Məmmədyarov, səfərindən öncə Sintszyan-Uyğur Muxtar Rayonu rəsmiləri ilə görüşdə Azərbaycanla nəqliyyat infrastrukturunun bərpası barədə geniş söhbət etdiyini qarşı tərəfin diqqətinə çatdırmışdır. Məsələnin reallaşacağı təqdirdə Azərbaycanın Çinin qərb regionu ilə əlaqələrinə müsbət təsir edəcəyini xüsusilə vurğulayan nazir, Heydər Əliyev adına Bakı Hava Limanında tikiləcək terminalın istifadəyə verilməsində hər iki tərəfin maraqlı olduğunu bildirmişdir.

Ölkələrimiz arasında fikir ayrılıqlarının olmamasını yüksək dəyərləndirən Çinin xarici işlər nazirinin müavini ölkəmizin Çinin dostu olaraq qalacağına əminliyini demişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov müstəqillik əldə etdikdən sonra ölkəmizin azad bazar iqtisadiyyatına keçdiyini, geniş özəlləşdirmə proqramlarını reallaşdırdığını və Prezident İlham Əliyevin yeritdiyi siyasət nəticəsində yeni iş yerlərinin açıldığını diqqətə çatdırmışdır. Qeyri-neft sektorunun inkişafının vacibliyini vurğulayan nazir, Çinlə bu sahədə də əməkdaşlığın müsbət səmərə verəcəyini bildirmişdir. Ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə tərəfdar olduğunu qeyd edən nazir, problemin beynəlxalq birliyin birgə səyləri nəticəsində həll edilməsinin vacib olduğunu demişdir.

Münaqişənin ədalətli prinsiplər əsasında həll edilməsində ümidvar olduğunu bildirən Çinin xarici işlər nazirinin müavini ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini qeyd etmişdir.

Elə həmin gün nazir Elmar Məmmədyarov Sinxua və İnterfaks informasiya agentliklərinə səfərinin yekunları ilə bağlı müsahibə vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ ÜZVÜ EMERİ DE MONTESKUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında Fransa Senatının üzvü Emeri de Monteskunu qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluğunu ifadə etdi. Fransaya səfərlərini razılıqla xatırlayan, Parisdə keçirdiyi görüşləri, apardığı danışıqları yüksək dəyərləndirən Prezident İlham Əliyev, bütün bunların ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işində mühüm rol oynadığını nəzərə çarpdırdı.

Prezident İlham Əliyev Azərbaycanda enerji sahəsində həyata keçirilən bir sıra layihələrdə Fransa şirkətlərinin fəal iştirak etdiyini vurğuladı. Dövlətimizin başçısı Fransanın müxtəlif səviyyəli nümayəndə heyətlərinin ölkəmizdə səfərdə olduqlarını bildirdi.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması ilə əlaqədar ATƏT-in faktaraşdırıcı qrupunun nümayəndə heyətinin Bakıya səfərindən bəhs edən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində Minsk qrupunun həmsədri kimi Fransanın mühüm rol oynadığını qeyd etdi.

Cənab Emeri de Montesku Azərbaycan-Fransa əlaqələrinin müxtəlif sahələrdə sürətlə inkişaf etdiyini nəzərə çarpdırdı. O, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində Fransa şirkətlərinin fəal iştirak etdiyini vurğuladı. Prezident İlham Əliyevin Fransaya səfərini məmnunluqla xatırlayan qonaq dövlətimizin başçısının Parisdə keçirdiyi görüşlərin, apardığı danışıqların çox səmərəli olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏNT ARINÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında Türkiyənin Böyük Millət Məclisinin sədri Bülənt Arınçın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqları səmimiyyətlə salamlayaraq dedi:

- Hörmətli cənab sədr!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Sizin nümayəndə heyətinizin Azərbaycana səfəri bizim ikitərəfli əlaqələrin nə qədər yüksək olmasını göstərir. Biz bütün sahələrdə çox gözəl əməkdaşlıq edirik. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq münasibətləri günü-gündən inkişaf edir və güclənir. Biz çox istəyirik ki, bu əlaqələr bütün sahələrdə özünü göstərsin, daha fəal, daha dinamik şəkildə inkişaf etsin. Həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə əməkdaşlığımız çox uğurludur və bizim ənənəvi dostluq, qardaşlıq əlaqələrimiz sürətlə inkişaf edir.

Əlbəttə, bu münasibətlə mən Türkiyəyə etdiyim rəsmi səfəri də və onun nəticələrini də xüsusi vurğulamaq istəyirəm. Səfər çox uğurlu keçmişdir və səfər çərçivəsində bizim görüşümüz olmuşdur. Mənim Türkiyə Böyük Millət Məclisində də görüşlərim və çıxışım olubdur. Bu səfər və ondan sonra baş verən hadisələr bir daha göstərir ki, Türkiyə

ilə Azərbaycan arasında olan əlaqələr inkişaf edir. Biz ən yaxın müttəfiqlərik. Çox sevinirəm ki, həm iqtisadi, həm də siyasi sahədə əlaqələr irəliyə gedir.

Son müddət ərzində Azərbaycana Türkiyədən müxtəlif səviyyəli çoxlu nümayəndə heyəti gəlmişdir. Eyni zamanda, Türkiyə-Azərbaycan biznes forumu keçirilmişdir və mən də bu forumda iştirak etdim və qarşılıqlı marağın nə qədər yüksək səviyyədə olduğunu gördüm.

Biz Türkiyə iş adamlarının buraya gəlməsini alqışlayırıq. Burada mövcud olan imkanlar onlar üçün, bizim qardaşlarımız üçün açıqdır və çalışırıq ki, bizim həm iqtisadi, həm siyasi, həm də bütün başqa sahələrdə olan əlaqələrimiz daha da güclənsin.

Türkiyə Böyük Millət Məclisi ilə Azərbaycanın Milli Məclisi arasında olan əlaqələr də təqdirəlayiqdir, qarşılıqlı səfərlər olubdur. Mən dəfələrlə Türkiyədən olan millət vəkilləri ilə burada görüşmüşəm və bu səfərləri alqışlayıram. Sizin səfərinizi xüsusilə alqışlayıram. Mən Türkiyədə olarkən göstərdiyiniz qonaqpərvərliyə görə sizə bir daha minnətdaram. Əminəm ki, sizin Azərbaycana səfəriniz çox uğurlu olacaqdır. Azərbaycan sizin öz ölkənizdir, öz vətəninizdir. Mən də istəyirəm ki, siz burada özünüzü doğma evdəki kimi hiss edəsiniz. Bütün dostlarımız, qardaşlarımız burada çox gözəl günlər keçirsinlər. Sizi bir daha ürəkdən salamlayıram.

Səmimi qəbula və xoş sözlərə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin sədri BÜLƏNT ARINÇ dedi:

- Hörmətli Cümhurbaşqanı, bu lütfkar ifadələriniz, məni və nümayəndə heyətimi qəbil etdiyiniz üçün mən də çox təşəkkür edirəm. Sağ olun, var olun.

Azərbaycan Milli Məclisinin sədri hörmətli Murtuz Ələsgərovun dəvəti ilə bu gözəl, qardaş ölkəni ziyarət edirik. Bu, bizim üçün böyük məmnunluq və bəxtiyarlıqdır. Burada beş millət vəkili vardır, onlarla birlikdə Məclisimizin bir heyəti bu gün Azərbaycandadır. Hörmətli parlamentin sədri, dostluq qrupunun üzvləri ilə görüşlərimiz oldu. İndi də Sizin qəbulunuzdayıq. Azərbaycana - dostlarımızın, qardaşlarımızın yanına gəldiyimiz üçün heç bir qəriblik çəkmədən, bir-birimizi qucaqlayaraq, qardaşlığımızın bir örnəyini göstərmək istəyirik.

Azərbaycanda gördüyünüz böyük işlərə və xidmətlərə görə və Türkiyə ilə olan əlaqələrimizi ən yüksək nöqtəyə çıxardığınız üçün Sizə çox təşəkkür edirik. Hörmətli atanız, Azərbaycanın böyük dövlət adamı mərhum Heydər Əliyevi rəhmətlə və ehtiramla anmaq istəyirəm. Onun zamanında atılan gözəl addımlar bu gün bəhrəsini verir. Onun bir övladı olaraq, Azərbaycanın Prezidenti olaraq Siz də təqdirəlayiq öndərliyinizlə bu gözəl ölkəyə xidmət edirsiniz. Türkiyədən - həm Məclisimizdən, həm Baş nazirimizdən, həm də bütün dostlarımızdan Sizə salamlar, sevgilər gətirdik.

Keçən ilin aprel ayında Türkiyəyə etdiyiniz səfər zamanı Məclisimizə təşrif buyuraraq söylədiyiniz nitqlə bizləri çox məmnun etmişdiniz. Aprelin 14-də Məclisimizdə söylədiyiniz nitqi bütün dostlarımız hələ də böyük həyəcanla, böyük qürur hissi ilə xatırlayırlar. Azərbaycanın illər boyu, əzəldən əbədiliyə qədər davam edən qardaşlığını və dostluğunu bu gün gerçəkdən sıx-sıx hiss etmişik.

Sonra nümayəndə heyətinin üzvlərini təqdim edən, Türkiyə Böyük Millət Məclisinin

550 deputatının salamlarını Azərbaycan Prezidentinə çatdıran cənab Bülənt Arınç dedi ki, Türkiyə Azərbaycan əbədi dostdur. Tarixdən gələn mədəniyyətimizlə, inancımızla, birliyimizlə bu günə qədər yaşadıq, bir-birimizə dayaq olduq, bir-birimizə güc verdik.

Bu gün səhər Fəxri xiyabanı, Şəhidlər xiyabanını ziyarət etdik. Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş bütün qardaşlarımıza, türk şəhidlərinə, bütün şəhidlərə rəhmət dilədik, oradakı məscidi ziyarət etdik. Nə qədər ki, onlar var, biz də varıq. Onların xatirəsini unutmaq, onların qiymətini bilməmək mümkün deyildir. Təbii ki, ən əvvəl mərhum dövlət başqanı Heydər Əliyevin məzarını ziyarət etdik.

Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət olmaq şərəfi bizimdir və bundan böyük qürur duyuruq. Bu gün Azərbaycan Sizin idarəçiliyinizlə iqtisadi, sosial baxımdan, dünya siyasəti baxımından, dinamik xarici siyasət yürütmək baxımından irəliləyərək güclənməkdədir. Biz Azərbaycanın haqlı mübarizəsini dəstəkləyirik. Azərbaycanın işğal altında olan torpaqlarının tezliklə azad edilməsini, bu acının və zülmün tezliklə bitməsini diləyirik. Türkiyə ilə Azərbaycan eyni millət və dövlət kimi istər Birləşmiş Millətlər Təşkilatında, istərsə də ATƏT-də, Avropa Şurasında birlikdə hərəkət etməkdədir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində də birliyimiz vardır. İnanıram ki, aramızdakı əlaqələr kimi, dünya siyasətində də iş birliyimiz vardır. Əminəm ki, Sizin güclü rəhbərliyiniz Azərbaycanın neçə illərdir davam edən məsələsini ən qısa zamanda çözəcəkdir. Biz Sizinlə birlikdəyik, acılarınızı, adətən, birlikdə çəkirik.

Türkiyədən gələn iş adamları və sərmayəçilərin Azərbaycanda göstərdikləri xidmətləri bilirik. Bu gün onlarla bir yığıncaq keçirdik. Bir çox iş adamlarımız kiçik, böyük sərmayələri ilə Azərbaycan xalqının iqtisadi rifahının yaxşılaşması üçün çalışır. Çox məmnunuq ki, bütün dostlarınız Sizə təşəkkür edirlər. Hamısı Sizin və Azərbaycan hökumətinin iş adamlarımıza verdiyi qiymətə görə məmnunluqlarını ifadə edirlər. Onların məsələlərinə göstərdiyiniz diqqətə görə təşəkkür edirlər.

Vaxtınızı çox almaq istəmirəm, Sizi təkrarən Türkiyədə görməyi arzulayırıq. İnşallah, hörmətli Cümhurbaşqanımız ən qısa zamanda Azərbaycanı ziyarət edər. Məclis üzvlərimiz, bütün xalqımız Sizi təkrar gözləyir. Parlamentinizin sədrini də, dostluq qrupunun üzvlərini də dəvət etdik. Uzun müddət deyil, çox qısa zamanda Türkiyədə və Azərbaycanda bir yerdə olacağıq. Əgər Sizin bir ricanız varsa, onu da hər zaman Türkiyəyə çatdırmağa hazırıq. Gözəl sözlərinizə və səmimi qəbulunuza görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Prezident İLHAM ƏLİYEV hörmətli qonağa müraciətlə dedi:

- Sağ olun, çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim də ən səmimi salamlarımı, ən xoş arzularımı hörmətli Cümhurbaşqanına və hörmətli Baş nazirə çatdırasınız. Biz görüşürük, daim əlaqə saxlayırıq, telefonla danışırıq. Bu, belə də olmalıdır. Bizim aramızda münasibətlər elə səviyyədədir ki, istənilən məsələyə münasibətimizi bildiririk, müzakirə edirik. Xüsusilə Azərbaycanın ən ağrılı, ən çətin problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini daim müzakirə edirik və öz fikirlərimizi bölüşürük.

Mən qeyd etmək istəyirəm ki, - bunu artıq hamı bilir, amma bir daha demək istəyirəm, - Türkiyə bu məsələdə daim Azərbaycanın yanında olubdur, Azərbaycanı dəstəkləyibdir,

haqqı, ədaləti dəstəkləyibdir. Biz bu dəstəyi bu gün də hiss edirik.

Siz tamamilə düzgün qeyd etdiniz ki, bütün beynəlxalq təşkilatlarda, bütün hallarda Türkiyə bu məsələ ilə əlaqədar Azərbaycanı dəstəkləmişdir. Xüsusilə bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasının iclasında Türkiyə nümayəndə heyəti üzvlərinin fəal iştirakı, tutarlı dəlillərlə bizim mövqeyimizi izah etməsi, əlbəttə, qəbul edilmiş sənədə, qətnaməyə çox güclü təsir etmişdir. Vaxtilə şəxsən orada iştirak etmiş insan kimi, mən bunu xüsusilə böyük sevinc hissi ilə, böyük məhəbbət hissi ilə qeyd edirəm və xahiş edirəm ki, Türkiyə nümayəndə heyətinin bütün üzvlərinə mənim təşəkkürlərimi çatdırasınız. Biz orada çox səmərəli işləmişik və hesab edirəm ki, belə qətnamənin qəbul olunması gələcəkdə məsələnin həlli istiqamətində atılmış addımlar arasında çox mühüm rol oynayacaqdır.

Biz ikitərəfli müstəvidə, regional müstəvidə çox fəal əməkdaşlıq edirik. Bilirsiniz ki, regionda Türkiyənin, Azərbaycanın iştirakı olmadan irimiqyaslı layihələr həyata keçirilə bilməz. Bu, bizim önəmimizi bir daha vurğulayır və onu göstərir ki, regional əməkdaşlıq baxımından Türkiyə və Azərbaycan aparıcı rol oynayırlar. Regionda bütün məsələlərdə - iqtisadi, nəqliyyat, enerji layihələrində biz vahid ailə kimi, vahid komanda kimi iştirak edirik. Başqa cür ola da bilməz. Biz bir millət, iki dövlətik. Bu prinsip bizim üçün əzizdir və həmişə əziz olacaqdır. Bütün tədbirlərdə, bütün işlərdə həmişə bir-birimizi dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın Avratlantik strukturlara inteqrasiyasının, beynəlxalq təşkilatlarla, o cümlədən NATO ilə əməkdaşlığının uğurla həyata keçirilməsindən məmnunluğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, NATO regional məsələlərə daha çox cəlb olunur, NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsinin təyin olunması bunun yaxşı nümunəsidir.

Azərbaycan-NATO əlaqələrinin Fərdi tərəfdaşlığın fəaliyyət planı üzərində həm Azərbaycan tərəfinin, həm də NATO tərəfinin fəal işləməsini yüksək qiymətləndirən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qarşılıqlı əlaqələr bundan sonra daha da genişlənəcəkdir.

Prezident İlham Əliyev NATO-nun baş katibi Yaap de Hoop Sxefferin Bakıya səfərini xatırladaraq qeyd etdi ki, həmin səfər zamanı çox səmərəli görüşlər keçirilmiş, danışıqlar aparılmışdır.

Cənab Robert Simmons NATO baş katibinin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı və cənab Yaap de Hoop Sxefferin Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırladığını nəzərə çarpdırdı. Qonaq dedi ki, baş katibin Bakıya səfəri çox uğurlu olmuşdur və cənab Yaap de Hoop Sxeffer həmin səfər zamanı keçirdiyi görüşləri, apardığı

müzakirələri çox yüksək qiymətləndirir.

Azərbaycan-NATO əlaqələrinin Fərdi tərəfdaşlığın fəaliyyət planı üzərində işlərin başa çatmaq üzrə olduğunu vurğulayan cənab Robert Simmons həmin sənədin yaxın zamanlarda Şuraya təqdim olunacağını söylədi.

Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini nəzərə çarpdıran qonaq əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Prezident İlham Əliyev NATO baş katibinin səmimi salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını cənab Yaap de Hoop Sxefferə çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEVİN "NEZAVİSİMAYA QAZETA"NIN MÜXBİRİ VİKTORİYA PANFİLOVAYA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Moskvada çıxan "Nezavisimaya qazeta"nın müxbiri Viktoriya Panfilovaya müsahibə vermişdir.

Sual: İlham Heydəroviç, bu ilin payızında Azərbaycanda parlament seçkiləri olacaqdır. Bir sıra ekspertlər hesab edirlər ki, MDB-nin digər ölkələrində olduğu kimi, burada da Milli Məclisə mümkün qədər daha çox rusiyapərəst əhval-ruhiyyəli siyasətçilər seçilməsi üçün Moskva seçkiqabağı mübarizənin gedişinə təsir göstərməyə çalışır. Siz belə bir "Rusiya amili"ni nəzərə alırsınızmı?

Cavab: Əgər müstəqillik əldə edildiyi vaxtdan bəri Azərbaycanda istənilən seçkilərin keçirilməsinin tarixinə nəzər salsaq aydın olar ki, bunlarda kənar amil rol oynamayıbdır. Azərbaycanın iqtisadi potensialı möhkəmləndikcə, regionda və dünyada rolu artdıqca kənardan hər hansı bir təsir minimuma enir. Biz heç bir kənar müdaxilə və təzyiq hiss etmirik: Azərbaycanın müstəqil siyasət yeritməyə, o cümlədən də iqtisadi inkişaf, energetika təhlükəsizliyi baxımından müstəqil siyasət aparmağa gücü çatır. Demək olar, heç kəsin Azərbaycana təsir vasitələri yoxdur. Bu da yaxşıdır, çünki normal, etibarlı münasibətləri, dostluq münasibətlərini yalnız güclü dövlətlə, müstəqil tərəfdaşla qurmaq olar. Biz ölkələrin asılılığa düşməsini alqışlamırıq. Belə asılı ölkələr isə var, mən onların adlarını çəkmək istəmirəm. Asılı ölkə elə əvvəldən zəifdir və ondan nə desən gözləmək olar. Belə ölkə bu gün birindən asılıdır, sabah başqasından asılı olacaqdır. Azərbaycanın bugünkü inkişafının dəyəri ondadır ki, biz ancaq milli mənafelərimizi əks etdirən müstəqil siyasət aparırıq.

Sual: Azərbaycanın Rusiya ilə münasibətlərinin indiki səviyyəsini necə səciyyələndirərdiniz: strateji müttəfiqlik, tərəfdaşlıq, mehriban qonşuluq?

Cavab: Biz münasibətlərimizi strateji tərəfdaşlıq kimi qiymətləndiririk, ölkələrimiz arasında yüksək səviyyədə qarşılıqlı anlaşma var, fəal siyasi dialoq aparılır. Bizim aramızda, demək olar, həll edilməmiş məsələlər qalmamışdır. İqtisadi əlaqələrimiz yaxşı inkişaf edir, əmtəə dövriyyəsi fəal surətdə yüksəlir və biz onu iki dəfə artırmağı planlaşdırırıq. Bir sözlə, indiki münasibətlərimiz bizi qane edir və düşünürük ki, bu, hər iki tərəfin xeyrinədir. Üstəlik, cari il Rusiyada Azərbaycan ili elan edilmişdir. 2006-cı il isə Azərbaycanda Rusiya ili olacaqdır.

Bundan əlavə, ümumən regionda təhlükəsizlik və sabitlik də bizim əməkdaşlığımızdan

asılıdır. Bildiyiniz kimi, Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında vasitəçilik mandatına malik olan ATƏT-in Minsk qrupunun həmsədridir.

Sual: Məlumdur ki, Moskva münaqişə tərəflərinin qəbul etdikləri istənilən qərarı dəstəkləyəcəkdir. Rusiyanın rolu ATƏT-in Minsk qrupu çərçivəsi ilə bitirmi, yoxsa o, əlavə təsir vasitələrinə malikdir?

Cavab: Biz Minsk qrupunu vahid orqanizm hesab edirik və həmsədrlər arasında heç bir müqayisə aparmaq istəməzdik. Lakin Rusiya Azərbaycanla sərhədə malik olan və bu regionda yerləşən yeganə həmsədr ölkədir. Əlbəttə, bu, münaqişənin həlli üçün onun məsuliyyətini artırır. Biz hesab edirik, Minsk qrupunun fəaliyyəti belə olmamalıdır ki, "siz özünüz razılığa gəlin, biz də bu razılaşmanı təsdiqləyək". Əgər özümüz razılığa gələ bilsəydik, indiyədək gələrdik. Minsk qrupu məhz ona görə yaradılmışdır ki, tərəflər razılığa gələ bilməmişlər. Ona görə də biz hesab edirik ki, Minsk qrupunun fəaliyyəti, ilk növbədə, beynəlxalq hüququn prinsipləri və normalarının qorunmasına yönəldilməlidir. Bu da ondan ibarətdir ki, hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Azərbaycan heç kimin ərazi bütövlüyünü pozmayıb, bizim ərazi bütövlüyümüz isə pozulubdur. Ermənistan tərəfindən olan təcavüz, etnik təmizləmələr və davakar separatizm hərəkətləri nəticəsində bir milyondan çox azərbaycanlı qaçqına, məcburi köçkünə çevrilmişdir. Bütün bunlar aparıcı beynəlxalq təşkilatların sənədlərində, o cümlədən Avropa Şurasının qətnaməsində öz əksini tapmışdır. Biz münaqişənin həllini belə görürük: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistanın işğalçı qoşunları Azərbaycan ərazilərindən çıxarılmalı, qaçqın-köçkünlər öz yerlərinə qayıtmalıdırlar. Bu halda sülh bərqərar olar. Hesab edirəm ki, dünya birliyi bu cür yanaşmaya get-gedə daha çox yaxınlaşır. Zənnimcə, Minsk qrupunun son vaxtlar fəallaşması nəticələr verə bilər.

Sual: Ekspertlərin fikrincə, AŞPA-nın bu yaxınlarda qəbul etdiyi qətnamə Ermənistana yox, daha çox Azərbaycana sərfəlidir. Bu, o *deməkdirmi ki, Bakı özünün diplomatik* uğurunu inkişaf etdirərək, münaqişənin həlli prosesini ATƏT-in Minsk qrupu çərçivəsindən çıxarmağa, əsas diqqəti AŞ və BMT strukturlarına yönəltməyə çalışır?

Cavab: Biz bu fikirdəyik ki, ATƏT-ın Minsk qrupu öz funksiyalarını yerinə yetirməlidir. Əlbəttə, biz indi vasitəçilərin dəyişməsini istəmirik. Ancaq biz açıq deyirik ki, Minsk qrupunun fəaliyyətindən narazıyıq, çünki nəticələr yoxdur. Yeri gəlmişkən, Ermənistan tərəfi isə vaxtaşırı bəyan edir ki, o, Minsk qrupunun fəaliyyətindən razıdır. Yəqin ona görə ki, nəticələr yoxdur. Ümumən biz formatın dəyişməsini istəmirik, ancaq hesab edirik ki, beynəlxalq təşkilatların iştirakı və fəallığı sülhyaratma prosesinin irəliləməsinə kömək göstərəcəkdir. Odur ki, biz məsələni BMT və Avropa Şurası çərçivələrində qaldırmışıq, baxmayaraq ki, Ermənistan tərəfi buna həmişə manc olmağa çalışmışdır.

Biz indi Avropa Birliyinin bir növ regional əməkdaşlıq prizmasından Qarabağ məsələsi ilə daha fəal məşğul olması faktını da alqışlayırıq. Məsələlərin müxtəlif beynəlxalq qurumlarda geniş müzakirəsinin, zənnimcə, faydası olacaqdır.

Sual: Siz Moskvaya səfərinizin gedişində Prezident Putinlə Qarabağ problemini müzakirə edəcəksinizmi? Hər şeydən göründüyü kimi, o, Slovakiyada Buşla görüşdə də Qarabağ haqqında danışacaqdır.

Cavab: Düşünürəm ki, belə də olacaqdır. Hər halda, bizim bütün əvvəlki görüşlərimizdə də belə müzakirə olmuşdur və qarşıdakı görüş də istisna təşkil etməyəcəkdir. Bundan əlavə, MDB-nin sammiti zamanı Ermənistan və Azərbaycan prezidentlərinin görüşü çərçivəsində aparılan danışıqlara Rusiya Prezidenti də qoşulmuşdu ki, bu da Rusiyanın problemin həllinə marağını göstərir.

Sual: Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu yaxınlarda Bakıda oldu. Verilən xəbərlərə görə, MDB-də islahatlar aparılması məsələləri və Dağlıq Qarabağ problemi müzakirələrin əsas mövzuları olmuşdur. Lakin belə bir informasiya da var ki, Lavrov Sizi Azərbaycanın Kollektiv Təhlükəsizlik Haqqında Müqavilə Təşkilatına daxil olmasına razı salmağa çalışmışdır. Bu məlumat nə dərəcədə doğrudur?

Cavab: Xeyr, bu mövzu müzakirə edilməmişdir. Biz Kollektiv Təhlükəsizlik haqqında Müqavilə Təşkilatına daxil olmağın mümkünlüyü məsələsini nəzərdən keçirmirik.

Sual: Rusiyada bir sıra iri azərbaycanlı sahibkarlar işləyirlər. Belə deyirlər ki, onlarla Azərbaycanın rəsmi hakimiyyəti arasında münasibətlər yaxşı deyildir. Sizcə, RF-də işləyən azərbaycanlı biznesmenlərin respublika ilə əlaqələri inkişaf etdirmələrinə nə mane olur? Axı, onlar Azərbaycanın iqtisadi inkişafında əhəmiyyətli rol oynaya bilərlər.

Cavab: Hesab edirəm ki, əksinə, münasibətlər çox yaxşıdır. Yeri gəlmişkən, 2003-cü ildə keçirilən prezident seçkilərində Rusiyada yaşayan azərbaycanlılar da iştirak etdilər və onların böyük əksəriyyəti məni dəstəklədi. Azərbaycan rəhbərliyi ölkənin hüdudlarından kənarda, o cümlədən Rusiyada yaşayan bütün azərbaycanlılara çox diqqətlə yanaşır. Ona görə də münasibətlər çox konstruktivdir. Mən xaricdə yaşayan azərbaycanlıların ölkəmizin iqtisadiyyatına vəsait yatırmalarını alqışlayıram. Əlbəttə, ölkə miqyasında götürdükdə, bu, o qədər də böyük faiz deyildir. Lakin özlüyündə bu, ölkəmizə olan inamı, daxili siyasi vəziyyətin sabitliyini göstərir. Odur ki, bu baxımdan bizim heç bir problemimiz yoxdur və öz tərəfimizdən xaricdəki Azərbaycan diasporuna mənəvi dəstək göstəririk.

Sual: Azərbaycan müstəqillik əldə edəndən sonra belə təsəvvür yaranmışdı ki, Bakı Türkiyənin asılılığına düşəcəkdir. Lakin etnik yaxınlığa baxmayaraq, Ankara Bakı üçün "siyasi lokomotiv" çevrilmədi. Nə üçün?

Cavab: Biz bütün qonşularımızla yaxşı münasibətlərin inkişaf etdirilməsinə tərəfdarıq. Bizim xarici siyasət doktrinamız da məhz buna əsaslanır. Ənənəvi olaraq, Türkiyə ilə çox yaxın münasibətlərimiz var. O, dünyada Azərbaycanı müstəqil *dövlət kimi tanıyan* ilk ölkədir və bizim aramızda siyasi, iqtisadi, mədəni, insani əlaqələrin və ünsiyyətlərin səviyyəsi çox yüksəkdir. Biz buna çox şadıq. Ancaq biz öz münasibətlərimizi yalnız hüquq bərabərliyi, qarşılıqlı hörmət, qarşılıqlı dəstək və rəğbət səviyyəsində qururuq. Mən bir daha vurğulamaq istəyirəm ki, biz Azərbaycana qarşı təsir hiss etmirik.

Azərbaycan müstəqilliyinin ilk dövründə - 1991-1992-ci illərdə və müəyyən dərəcədə də 1993-cü ildə müxtəlif mənafelərin kəsişdiyi məkan idi. Lakin yəqin ki, bunun özü də obyektiv idi. Əlbəttə, o vaxtkı iqtidarın zəifliyi, səriştəsizliyi və qeyri-peşəkarlığı da öz rolunu oynamışdı. Ancaq xalq öz liderini tələb etdikdə və Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra biz müstəqil xarici siyasət xəttini fəal surətdə möhkəmlətməyə başladıq. Bizə bütün qonşularla yaxşı, mehriban münasibətlərin olması lazım-

dır. Ancaq Azərbaycanın rəqabət meydanına çevrilməsinə də yol verməyəcəyik.

Sual: Gürcüstanın yeni rəhbərliyi ilə münasibətləriniz necədir? Vaxt-vaxt gömrük, sərhəd problemləri meydana çıxır, həmin ölkədəki azərbaycanlılarla bağlı məsələ kəskinləşir. Buna səbəb nədir?

Cavab: Bizim ölkələrimiz arasında problem yoxdur. Mən bunu çox mühüm hesab edirəm ki, Gürcüstanda da, Azərbaycanda da yeni rəhbərlik ikitərəfli münasibətləri məhz çoxdankı, gözəl ənənələrimiz əsasında qurur. Mənim Gürcüstan rəhbərliyi ilə çox yaxşı şəxsi münasibətlərim var. Biz regional səviyyədə, xüsusilə energetika və kommunikasiya sahələrində fəal əməkdaşlıq edirik.

Sərhəddə yaranan məsələlərə gəldikdə, onlar obyektiv xarakter daşıyır. Gürcüstanın hakimiyyət orqanları qaçaqmalçılıqla mübarizə apardıqda biz bunu alqışlayırıq. Eləcə də biz Asiyadan gələn və Azərbaycan ərazisindən keçərək, guya Avropaya aparılan qaçaqmalçılıq yükləri sonra Ermənistana göndərilərdə tədbirlər gördük və deyirlər ki, indi Ermənistan bazarında benzinin qiyməti az qala iki dəfə bahalaşıb. Ona görə ki, biz bu qaçaqmalçılığın qarşısına sədd çəkdik. Doğrudur, sərhəddə müxtəlif yüklər olan çoxlu vaqon yığılıb qalmışdır, lakin bu, labüddür. Əgər biz bu sahədə qayda-qanun yaratmaq, dələduzluğa və qaçaqmalçılığa son qoymaq istəyiriksə, onda belə tədbirlər əsaslıdır. İndi bizim ölkələrimiz birgə xidmətlər və postlar yaratmışlar, onlar xoşagəlməz hallara yol verilməməsi üçün yüklərin Azərbaycan ərazisindən və Gürcüstan ərazisindən keçməsini çox dəqiq izləyirlər. Bütün bunlar texniki xarakter daşıyır və bizi ayırmır, əksinə, birləşdirir.

Sual: Siz bu yaxınlarda Tehranda səfərdə oldunuz. Mətbuat yazırdı ki, İranın iqtisadi imtiyazlar vəd etməsinin müqabilində Azərbaycan Pentaqonun İrana qarşı hazırladığı əməliyyatlara qoşulmayacağına təminat vermişdir. Tehranda Sizə konkret olaraq nə vəd etmişlər?

Cavab: Bizim xarici siyasətimiz o dərəcədə şəffaf, prezidentin və hökumətin fəaliyyətinin açıqlıq səviyyəsi o dərəcədə yüksəkdir ki, bu, hansısa dumanlı gümanlara yer qoymamalıdır. Sizin dediklərniz uydurmadır. Tehranda bu barədə ümumiyyətlə söhbət getməmişdir. İran Prezidentinin Azərbaycana ötən il etdiyi səfər kimi, bu səfər də ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm idi. Bizim çoxlu iqtisadi layihələrimiz var, uzun illərdən bəri qalmış sənədlər, o cümlədən elektrik enerjisi mübadiləsinə, qaz mübadiləsinə, bildiyiniz kimi, blokadada olan Naxçıvana İran qazının verilməsinə dair sənədlər imzalanmışdır. Azərbaycanlılar yaşayan Təbrizdə Azərbaycanın konsulluğunun açılması haqqında qərar qəbul edilmişdir. Bizim ikitərəfli münasibətlərimiz çox dinamik inkişaf edir.

O ki qaldı Azərbaycan ərazisində hansısa xarici qüvvələrin yerləşdirilməsinə, bizim mövqeyimiz kifayət qədər dəqiqdir və dəfələrlə, o cümlədən də mənim tərəfimdən bəyan edilmişdir ki, Azərbaycan heç kimin silahlı qüvvələrinin öz ərazisində yerləşdirilməsini məqsədəuyğun saymır. Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici hərbi baza yoxdur. Ancaq Gürcüstan hökuməti bu bazalardan xilas olmağa çalışırsa, Ermənistan əksinə, öz ərazisində xarici hərbi qüvvələri artırmağa hazırdır. Lakin bu, onların öz işidir. Bizim mövqeyimiz isə belədir ki, ölkəmizdə xarici hərbi kontingentin yerləşdirilməsini məqsədəuyğun hesab etmirik və bunda heç bir məna görmürük. Azərbaycan müstəqil dövlətdir, biz qonşularımızla sülh şəraitində yaşamaq, regionda sülh olmasını istəyirik.

Müxbir: Amma həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli üçün güc işlədilməsinin mümkünlüyündən danışmışlar. Məsələn, Ermənistanın müdafiə naziri Serj Sarkisyan və Azərbaycanın keçmiş xarici işlər naziri Vilayət Quliyev bu barədə bəyanatlar vermişlər...

İ.Əliyev: Azərbaycanın 10 ildən çoxdur danışıqlar aparması (erməni tərəfinin təqsiri üzündən bunun heç bir nəticə verməməsinə baxmayaraq) göstərir ki, biz münaqişənin dinclikl aradan qaldırılması xəttinə sadiqik və problemi sülh yolu ilə həll etməyə çalışırıq. Düşünürəm ki, sülhyaratma prosesinin potensialı hələ tamamilə tükənməyibdir. Danışıqların uğurlu olacağına hələ ümidimiz var. Ancaq biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq və danışıqlar imitasiyasında iştirak etməyəcəyik. Görsək ki, danışıqlar faydasızdır və yeni vəziyyət yaranacaq, onda danışıqlar dayandırılacaq və biz də bu yeni vəziyyəti nəzərdən keçirəcəyik. Azərbaycan xalqının səbri sonsuz deyildir. Biz daha 10 il danışıqlar prosesində qala bilmərik. Biz silahlı qüvvələrimizi gücləndiririk. 2004-cü ildə hərbi xərclərimizin artımı təxminən 40 faiz olmuşdur. Mütləq rəqəmlə götürdükdə isə, Azərbaycanın müdafiə xərcləri Ermənistanın müdafiə xərclərindən iki dəfə çoxdur. Biz bu potensialı artıracağıq. Hazırda Azərbaycanın və Ermənistanın iqtisadi potensialı müqayisəedilməzdir. Görün, bizim bütün mühüm iqtisadi layihələrimiz həyata keçirildikdən sonra vəziyyət necə olacaqdır. Bizdə gələn il üçün ümumi daxili məhsulun artımı 15 faiz səviyyəsində planlaşdırılır. Köhnə terminlərlə desək, Ermənistan bizimlə bərabər sürətlə silahlanmaya tab gətirməyəcəkdir.

Sual: Müxtəlif səviyyələrdə və bütün MDB ölkələrində müzakirə edilən son mövzulardan biri Gürcüstandakı və yaxud Ukraynadakı kimi "məxməri" inqilabların təkrarlanmasının mümkünlüyüdür. Sizcə, Azərbaycanda hakimiyyətin inqilabi yolla dəyişməsi mümkündürmü?

Cavab: Düşünürəm ki, yox, Azərbaycanda heç bir inqilab gözlənilmir. Mən sizə belə deyəcəyəm: 2003-cü ilin prezident seçkiləri aydın şəkildə göstərdi ki, seçkilərin nəticələri cəmiyyətdə hökm sürən əhval-ruhiyyəyə uyğun idi. Seçkilərdən əvvəl keçirilmiş ictimai rəy sorğuları və bilavasitə səsvermədən çıxanlarla aparılmış sorğular da bunu sübut edirdi. Əlbəttə, uduzan tərəf məğlubiyyəti ilə razılaşmaq istəmir, çünki bu, onlar üçün siyasi səhnədən getmək demək olardı. Özü də bu adamlar 1993-cü ildən başlayaraq bütün seçkilərdə - *həm prezident*, həm də parlament seçkilərində uduzmuşlar. Seçkilər günü, rəsmi yekunlar hələ elan edilməzdən əvvəl və ertəsi gün hansısa bir tragikomik "inqilab" cəhdi göstərildi. Lakin bu, çox miskin bir mənzərə idi! Hərçənd kifayət qədər davakar formada idi. Amma xalq onları dəstəkləmədi. O yerdə ki, xalq hökuməti dəstəkləyir, orada inqilab mümkün deyildir. Çünki insanların dəstəyi olmadan heç bir resurs - nə inzibati, nə də maliyyə resursu iqtidarın hakimiyyətdə qalmasına kömək edə bilməz. Nə qədər ki, Azərbaycanda xalq iqtidara etimad göstərir, burada heç bir inqilab ola bilməz. Mən isə özümdən asılı olan hər şeyi edəcəyəm ki, bu etimad azalmasın. Ona görə də bir il ərzində biz bölgələrdə 170 mindən çox iş yeri yaratmışıq. Minimum əmək haqqını, sosial müavinətləri iki dəfə artırmışıq. Siyasətimizin sosial yönümü çox vacibdir və ona görə də burada müxalifətin manevr etməsinə meydan yoxdur.

Sual: "Nezavisimaya qazeta"da belə yazılar getmişdir ki, respublika hökumətində parçalanma dərinləşir, iki tayfa - "Naxçıvan" və "Ermənistan" tayfaları arasında mübarizə kəskinləşir. Belə iddiaların əsası varmı və Siz bu cür çəkişmələrə son qoymaq üçün nə kimi tədbirlər görmək niyyətindəsiniz?

Cavab: Bəzən mən də belə yazılar görürəm, ancaq onlar reallıqdan uzaqdır. Bizdə belə şey yoxdur, üstəlik, heç bir tayfa və ziddiyyətlər yoxdur. Azərbaycanda iqtidar vahiddir. Yəqin ki, prezident seçkilərində mən həm də buna görə belə asanlıqla qələbə qazandım. Bizdə ixtilaf yox idi. Bütün hakimiyyət strukturları mənim ətrafımda birləşmişdi və belə vəziyyət indi də davam edir. Mən hələ Baş nazir təyin edildiyim vaxt bildirmişdim ki, bu komanda ilə işləyəcəyəm. Bizdə monolit və tamamilə nəzarət edilən vəziyyət mövcuddur. Mən yerliçilik zəminində hər hansı fərq qoyulmasının əleyhinəyəm. Mən bunu qəbul etmirəm.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov fevralın 8-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya ölkələrinə yardım üzrə əlaqələndiricisi səfir Tom Adams ilə görüşmüşdür.

Tom Adams Azərbaycana səfərindən məmnun olduğunu bildirmişdir. O demişdir ki, ikitərəfli iqtisadi əməkdaşlıq qrupunun Bakıda keçiriləcək və bir sıra mühüm məsələləri müzakirə edəcək görüşündə iştirak etmək üçün may ayında yenidən Azərbaycana gələcəkdir.

Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdıran nazir Elmar Məmmədyarov, ölkəmizdə demokratikləşmə, vətəndaş cəmiyyəti qurulması, kiçik və orta sahibkarlığın inkişafı, təhsilin dünya standartlarına uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışmışdır.

Tərəflər Azərbaycanın Dünya Ticarət Təşkilatına qoşulması məsələsinə toxunaraq ölkəmizin daha sürətli iqtisadi inkişafı ilə bağlı fikir mübadiləsi aparmışlar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın sürətlə inkişafından, ölkəmizin bu təşkilatın yeni qonşuluq siyasətində fəal iştirakından məmnunluq ifadə etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın bu münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə - ölkələrin

ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır. O bildirmişdir ki, keçmiş sovet məkanında mövcud olan və təcavüzkar separatizmlə müşayiət olunan münaqişələr bölgələrdə sülhün və təhlükəsizliyin təmin olunması işinə böyük xələl gətirir. Bu baxımdan Avropa Şurasının və digər beynəlxalq təşkilatların sənədlərində erməni separatizminin və Ermənistanın ölkəmizə qarşı təcavüzünün pislənilməsi ilə bağlı ifadə olunan obyektiv mövqe böyük əhəmiyyət daşıyır. Dövlətimizin başçısı Azərbaycan-Avropa Birliyi əməkdaşlığının bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulamışdır.

Cənab Talvitiye Avropa Birliyinin Azərbaycanla əlaqələrinin genişlənməsini yüksək qiymətləndirmiş və əmin olduğunu bildirmişdir ki, bu əlaqələr bundan sonra da daim möhkəmlənəcəkdir.

Görüşdə Azərbaycan-Avropa Birliyi əməkdaşlığının müxtəlif sahələri, regional məsələlər və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri cənab Andreas Qrossu və cənab Andres Herkeli qəbul etmişdir.

Görüş zamanı Azərbaycanın Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığının müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Həmməruzəçi Andres Herkel ölkəmizdə fəaliyyət göstərən Estoniya icmasının üzvləri barədə nəşr olunmuş kitabı Azərbaycan Prezidentinə təqdim etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Rusiyanın dövlət bayraqları ilə bəzədilmiş "Vnukovo-2" hava limanında Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək təqdim edildi.

Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında Rusiya xarici işlər nazirinin birinci müavini Valeri Loşşinin, ölkəmizin Moskvadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev hava limanında Rusiya xarici işlər nazirinin birinci müavini Valeri Loşşinin ilə qısa söhbət etdi.

Dövlətimizin başçısı avtomobil karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı ilə əlaqədar Moskvada işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 16-da Kremldə Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü keçirilmişdir.

Rusiya Prezidenti VLADİMİR PUTİN dövlətimizin başçısını səmimiyyətlə qarşılayaraq dedi:

- Hörmətli cənab Prezident, icazə verin, Sizi ürəkdən salamlayım. Xoşdur ki, biz Sizinlə belə tez-tez, indi isə Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı kimi gözəl bir hadisə ilə əlaqədar görüşürük. Biz bu barədə ötən il razılığa gəlmişdik. Bununla əlaqədar demək istəyirəm ki, kifayət qədər fəal inkişaf edən heç də təkcə iqtisadi əlaqələrimiz deyildir. Ötən il əmtəə dövriyyəsi rekord həddədək – 50 faizədək artaraq, təxminən bir milyard dollara yaxınlaşmışdır. Hər halda, biz milyard səviyyəsinə tezliklə nail olacağıq, indi əmtəə dövriyyəsi təqribən 800 milyon dollardır. Keçən il biz sizinlə 1 milyard dollar səviyyəsinə çıxmağı qarşıya məqsəd qoymuşduq. Əminəm ki, biz buna yaxın vaxtlarda çatacağıq.

Lakin xüsusilə xoşdur ki, ölkələrimiz arasında humanitar əlaqələr kəsilmir, əksinə, inkişaf edir. Ötən il Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Rus dilinin dəstəklənməsinə Sizin necə münasibət göstərdiyinizi bilirəm. Bizim məlumatımıza görə, Azərbaycanda əhalinin, demək olar, 40 faizi rusdillidir, yəni onlar rus dilində sərbəst danışırlar. Zənnimcə, bundan da çoxdur. Bugünkü tədbiri, Rusiyada Azərbaycan ilinin açılışını sözsüz əlamətdar hadisə hesab edirəm. Bu tədbirdə şəxsən iştirak etməyə gəldiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV Rusiya dövlətinin başçısına təşəkkür edərək dedi:

- Vladimir Vladimiroviç, çox sağ olun. Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı kimi belə mühüm hadisə ilə əlaqədar yenidən Moskvada olmağıma çox şadam. Biz buna çox böyük əhəmiyyət veririk və ümidvarıq ki, bütün bu il ikitərəfli münasibətlərimizin, dostluq münasibətlərimizin möhkəmlənməsi əlaməti altında keçəcək və bu bir ildə biz daha da yaxın olacağıq. Düz bir il əvvəl, Rusiyaya mənim rəsmi səfərim zamanı müəyyənləşdirilən planların belə sürətlə həyata keçirilməsindən də çox məmnunam. Əmtəə dövriyyəsinin 50 faiz artması qarşılıqlı marağın, qarşılıqlı faydanın parlaq göstəricisidir. Ümumiyyətlə, siyasi müstəvidə konstruktiv, yaxın münasibətlər olmadan, belə iqtisadi sahədə sıçrayışa nail olmaq mümkün olmazdı. Bu il biz Bakıda Rusiya-Azərbaycan biznes forumu kimi böyük tədbir də keçirdik. Dövlət müəssisələri və özəl müəssisələr səviyyəsində əlaqələr genişlənir.

Qeyd etdiyiniz kimi, humanitar sahədə də böyük tərəqqi var. Lakin bu sahə əməkdaşlığın qalan bütün istiqamətlərindən həmişə bir növ irəlidə olmuşdur. Əvvəlki illərdə olduğu kimi, yenə də Azərbaycanda rus dilinə, rus mədəniyyətinə münasibət ən yüksək səviyyədədir. Biz ikitərəfli əməkdaşlığın səviyyəsindən çox məmnunuq, əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Yeri gəlmişkən, biz keçən il heç ümid etmirdik ki, əmtəə dövriyyəsi belə sürətlə artacaqdır. Biz əmtəə dövriyyəsini daha uzaq perspektivdə iki dəfə artırmağı qarşıya məqsəd qoymuşduq. İndi bu, artıq reallıqdır. Odur ki, bütün bunlar məmnunluq hissi doğurur və biz buna çox şadıq.

Dəvətə görə bir daha təşəkkür edirəm. Düşünürəm ki, bu gün Rusiyada Azərbaycan ilini açırıq, gələn il isə Azərbaycanda Rusiya ilini açacağıq.

Prezident VLADİMİR PUTİN ölkələrimiz arasında əməkdaşlığın daha bir istiqamətinə, yəni investisiya fəaliyyətinə toxunaraq bildirdi ki, Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa hazır olan bir çox Rusiya şirkətlərinin planları məlumdur, tamamilə konkret layihələr var. Biz gün ərzində onların barəsində danışa bilərik.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV dedi ki, biz bu sərmayələri alqışlayırıq və səmərəli, faydalı əməkdaşlıq ediləcəyinə ümid bəsləyirik.

Prezident İlham Əliyev daha sonra Azərbaycandakı sosial-iqtisadi vəziyyətdən, son bir ildə bu istiqamətdə əldə olunmuş uğurlardan danışdı. O, bu sahədəki nailiyyətləri və ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini prezidentliyinin ilk ili üçün çox yüksək nəticə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkədə ümumi daxili məhsulun dinamik şəkildə artdığını, keçən il Azərbaycan iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu vurğulayaraq, bu işdə yerli sərmayəçilərin də fəallıq göstərdiyini bildirdi.

Dövlət başçıları Azərbaycanın həyatındakı bütün bu amillərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün də əhəmiyyətli olduğunu qeyd etdilər. Eyni zamanda, ötən il Moskvada Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayının keçirilməsinin Rusiyada yaşayan azərbaycanlıların vəziyyətinin yaxşılaşdırılmasında müsbət rol oynadığını bildirdilər.

Humanitar sahələrdə əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edən prezidentlər fevralın 16-da Rusiyada Azərbaycan ilinin açılmasının əhəmiyyətini bir daha vurğuladılar.

Görüşdə ikitərəfli əlaqələrin aktual məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Bildirildi ki, Rusiyada Azərbaycan ili çərçivəsində RF-nin federal və regional hakimiyyət orqanlarının, elm, təhsil, mədəniyyət təşkilatlarının və digər strukturlarının azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığı qarşılıqlı əlaqələrin daha da güclənməsinə kömək edəcəkdir.

İqtisadi əməkdaşlığın bütün spektrləri üzrə irəliləyişdən, o cümlədən ticarət dövriyyəsinin artmasından, yanacaq-energetika bölməsində və digər sahələrdə əlaqələrin inkişafından razılıqlarını bildirən dövlət başçıları bütün bu istiqamətlərdə geniş imkanların mövcud olduğunu da vurğuladılar.

Prezidentlər bir sıra beynəlxalq və regional məsələlər haqqında da ətraflı fikir mübadiləsi etdilər. Şimal-Cənub nəqliyyat dəhlizinin perspektivləri, beynəlxalq və regional təhlükəsizlik məsələləri geniş müzakirə olundu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı danışıqlar prosesi, mövcud vəziyyət və problemin həlli barədə də geniş fikir mübadiləsi aparıldı.

RUSİYADA AZƏRBAYCAN İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Fevralın 16-da Moskvada, Dövlət Kreml sarayında Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimi olmuşdur. Rusiyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Rusiya Federasiyasının Prezidenti Vladimir Putini hərarətli alqışlarla qarşıladılar.

Azərbaycanın və Rusiyanın dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin açılış mərasimində çıxış etdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Moskvada olmaq və Rusiyada Azərbaycan ilinin açılışında iştirak etmək mənə çox xoşdur. Əminəm ki, bu il çox uğurla keçəcəkdir. Moskvada da, Rusiya Federasiyasının digər şəhərlərində də çoxlu müxtəlif tədbirlər planlaşdırılmışdır. Şübhəm yoxdur ki, bu il ərzində rusiyalılar bugünkü Azərbaycanın nə ilə yaşadığından, necə inkişaf etdiyindən və nə kimi nailiyyətlərinin olduğundan daha yaxşı xəbər tutacaqlar.

Biz Rusiyada Azərbaycan ilinin keçirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, bu bir il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da möhkəmlənəcəkdir. Bu münasibətlər indi də kifayət qədər yüksək səviyyədədir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq var. Biz regional məsələlərdə, regional inkişafda, regional təhlükəsizlikdə iştirak edirik, iqtisadi əlaqələr çox fəal inkişaf edir. Bu gün biz Vladimir Vladimiroviçlə ikitərəfli iqtisadi münasibətlərin vəziyyəti barədə fikir mübadiləsi apararkən böyük məmnunluqla qeyd etdik ki, cəmi bir ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 50 faiz artmışdır. Əlbəttə, ötən ilin fevralında mənim Rusiyaya rəsmi səfərim zamanı biz əmtəə dövriyyəsini iki dəfə artırmağı qarşıya bir vəzifə kimi qoyduq. Lakin, görünür, güman etmirdik ki, bu, belə tez baş verəcəkdir. Bu sübut edir ki, çox böyük qarşılıqlı maraq, qarşılıqlı surətdə çox faydalı iqtisadi fəaliyyət və ticarət var.

Humanitar sahədə münasibətlərimiz həmişə yüksək səviyyədə olması ilə fərqlənmişdir və bu gün də belədir. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə həmişə çox qayğı ilə yanaşmışlar və yanaşırlar. Bu, həmişə belə olmuşdur və həmişə də ölkəmizi fərqləndirmişdir. Lakin çox xoşdur ki, ictimai formasiyadan asılı olmayaraq, istənilən şəraitdə mövcud olmuş bu gözəl ənənələr indi də yaşayır, inkişaf edir və möhkəmlənir. Mən hesab edirəm ki, ikitərəfli münasibətlərin bütün müsbət təcrübəsi bu əlaqələrin inkişafına gələcəkdə də xidmət edəcəkdir. Biz bunu çox istəyirik. Təsadüfi deyil ki, biz Rusiya ilə münasibətlərimizi strateji tərəfdaşlıq kimi qiymətləndiririk. Biz təkcə sözdə deyil, bəyanatlarda deyil, praktikada da, real işlərdə də tərəfdaşıq.

Arzu edirəm ki, Rusiyada Azərbaycan ili uğurla keçsin. Hesab edirəm ki, belə də olacaq və dediyim kimi, biz bir-birimizi daha yaxşı tanıyacaq, başa düşəcək və bir çox məsələləri birlikdə həll edəcəyik. Lakin eyni zamanda düşünürəm ki, 2005-ci il ərzində biz Azərbaycanda 2006-cı ildə olacaq Rusiya ilinin keçirilməsinə də fəal hazırlaşacağıq. Əlbəttə ki, ikitərəfli münasibətlərimiz yalnız Azərbaycan və Rusiya illəri çərçivəsindəki tədbirlərlə məhdudlaşmayacaqdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, dərinləşəcək və yeni-yeni sahələri əhatə edəcəkdir.

Əziz dostlar, mən sizin hamınızı Azərbaycan xalqı və hökuməti adından ürəkdən salamlayıram. Rusiyaya, Rusiya xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN ÇIXIŞI

- Hörmətli İlham Heydəroviç!

Əziz dostlar!

Sözsüz ki, bu gün əlamətdar gündür. Biz ona azərbaycanlı dostlarımıza və həmkarlarımıza bəslədiyimiz xüsusi hisslə, xüsusi xeyirxahlıqla hazırlaşmışıq. İndi, Rusiyada Azərbaycan ilini açarkən bu şənliklərin iştirakçılarını və qonaqlarını Moskvada görməyə şadam. Əlbəttə, Azərbaycan Prezidentinə, bu qərarın işlənilməsində, bu tədbirin hazırlanmasında iştirak etmiş bütün adamlara, indiki məqamadək görülmüş böyük işə görə ürəkdən təşəkkür etmək istəyirəm.

Əminəm ki, bu il ərzində də heç də az iş görülməyəcək və bunların çox böyük müsbət nəticəsi olacaqdır.

Rusiyada da, Azərbaycanda da belə geniş vüsətli tədbirlər keçirmək təşəbbüsü bir il əvvəl, Azərbaycan Prezidenti İlham Heydəroviçin Moskvaya səfəri zamanı irəli sürülmüşdü. Bu təşəbbüs həm ictimaiyyət, həm də yaradıcı kollektivlər tərəfindən geniş dəstəklənmişdir. Zənnimcə, başqa cür ola da bilməzdi. Axı, xalqlarımız Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsini istəyirlər. Xalqlarımız ümumi tarixə malikdir, onların dünyaya baxışları oxşardır, insan taleləri sıx çulğaşmışdır. Bütün milli özünəməxsusluğuna baxmayaraq, xalqlarımız bir-biri üçün həmişə maraqlı və əhəmiyyətli olmuşlar. Xüsusilə deyərlidir ki, tarixin bütün döngələrində etibarlı müttəfiqlər və səmimi dostlar kimi qalaraq bir-birini dəstəkləmişlər.

Xüsusi vurğulamaq istəyirəm ki, son illər ərzində, son onillik ərzində Azərbaycanla Rusiya arasında münasibətlərin belə müsbət inkişafı Heydər Əliyeviç Əliyevin nüfuzu və müdrikliyi sayəsində mümkün olmuşdur. Rusiyada biz onu, unutmamışıq, xidmətlərini xatırlayırıq və xatirəsini ehtiramla yad edirik. Rusiya və Azərbaycan xalqları bizim vahid irsimizə - həm dinc quruculuq, həm də əsgəri irsimizə hörmətlə yanaşırlar. Mən keçmiş Sovet İttifaqının elminə, mədəniyyətinə, deməli, ümumi inkişafımıza çox böyük töhfə vermiş insanların hamısının adlarını sadalamayacağam. Xalqlarımızın qardaşlığı faşizmlə mübarizədə od-alov içində möhkəmlənmişdir. Qələbənin 60 illiyi yaxınlaşır. Təbii ki, biz onu birlikdə qeyd edəcəyik. Mən dəvəti qəbul etdiyinə və bu il mayın 8-9-da Moskvada olacağına görə Azərbaycan Prezidentinə təşəkkür edirəm. Fürsətdən

istifadə edərək, Azərbaycanın müharibə veteranlarını salamlamaq istəyirəm. Biz Böyük Vətən müharibəsi cəbhələrində fədakarcasına vuruşmuş və ümumi qələbəmizi təmin etmiş 600 min azərbaycanlının igidliyini və qəhrəmanlığını ehtiramla yad edirik. Onların 42-si Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 12-si isə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.

Bizim günlərdə Rusiya-Azərbaycan siyasi, iqtisadi və mədəni dialoqu ardıcıl və fəal surətdə inkişaf edir. Hər iki ölkənin vətəndaşları öz həyati əhəmiyyətli problemlərinin həllini bu dialoqun inkişafı ilə bağlayırlar. Söhbət qarşılıqlı surətdə faydalı kooperasiyadan, işədüzəlmə və miqrasiya məsələlərindən, təhsil sahəsi də daxil olmaqla ümumi mədəni-informasiya məkanından istifadə edilməsindən, habelə zəngin milli ənənələrin qorunub saxlanılmasından gedir. Prezident indicə xatırlatdı ki, son bir ildə əmtəə dövriyyəmiz 50 faiz artmışdır. Bu, son illərin parlaq nəticəsidir. Həmçinin xüsusi vurğulamaq istərdim ki, tərəfdaşlığımız regional sabitliyin əhəmiyyətli amilidir. Biz MDB-nin imkanlarından daha fəal istifadə edilməsində eyni dərəcədə maraqlıyıq. Eləcə də ümumi sosial-iqtisadi problemlərin həlli üçün, milli təhlükəsizliyə olan təhdidlərə, terrorizmə və ekstremizmə qarşı birgə müqavimət göstərilməsi üçün. Rusiya Qarabağ düyününün layiqincə açılmasına kömək göstərməyə və bu regionda etibarlı təhlükəsizliyi təmin etməyə də çalışır.

Biz Rusiya və Azərbaycan xalqlarının yaxınlaşmasında humanitar əlaqələrə xüsusi önəm veririk, xalqlarımızın ümumi mənəvi irsinin qorunub saxlanmasına tərəfdarıq. Bu baxımdan 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramının birinci mərhələsinin uğurla həyata keçirildiyini qeyd etmək istəyirəm. İnsani əlaqələr əsil millətlərarası və dinlərarası həmrəyliyin əsasını təşkil edən tükənməz strateji resursdur. Burada da ən sanballı sözü yaradıcı və elmi ziyalılar, dini ictimaiyyət, ən müxtəlif konfessiyaların, diasporların nümayəndələri deməlidirlər. Onların nüfuzu və yaradıcı enerjisi dialoqumuzu xeyli zənginləşdirməyə qadirdir. Əminəm ki, Rusiyada Azərbaycan ilinin bütün proqramlarının birləşdirici əhval-ruhiyyəsi yeni ictimai və işgüzar təşəbbüslərə, insanlar arasında birbaşa əlaqələrə yeni yol açmalıdır. Biz Azərbaycanla ən sıx əməkdaşlıq etmək istəyirik və tərəfdaşlarımızın da bu cür əhval-ruhiyyədə olduğunu hiss edirik.

Xalqlarımıza bir daha sülh və firavanlıq arzulamaq, Rusiyada Azərbaycan ilinə isə "Xoş gəlmisən!" demək istəyirəm.

Sizə uğurlar olsun.



Rəsmi hissədən sonra Azərbaycanın incəsənət ustalarının iştirakı ilə konsert oldu.

Dövlət Kreml sarayına toplaşanlar konsertin hər bir nömrəsini heyranlıqla qarşılayırdılar. "Bayatı-şiraz"ı ifa edən Azərbaycan Dövlət Xor Kapellasının, xalq artisti Afaq Məlikovanın rəhbərliyi ilə Dövlət Rəqs Ansamblının oynaq milli rəqsləri, ritm qrupunun (solist - Natiq Şirinov), "Cəngi"ni səsləndirən Qara Qarayev adına Dövlət Kamera Orkestrinin çıxışları sürəkli alqışlarla müşayiət olunurdu. Konsertdə Nəzakət Teymurovanın ifasında "Şur təsnifi", "Qarabağ bülbülləri" uşaq ansamblının ifasında "Qarabağ şikəstəsi", Anar Şuşalının ifasında "Neftçilər" mahnısı, C.Verdinin operasından Dinara

Əliyevanın ifasında ariya da səsləndi. Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından bir çox rusiyalılara yaxşı tanış olan Əsgərin ariyası və digər çıxışlar da salonda böyük canlanma doğurdu.

Azərbaycanın mədəniyyət naziri, xalq artisti Polad Bülbüloğlunun çıxışı gurultulu alqışlarla qarşılandı. O, özünün bəstələdiyi və dillər əzbəri olan mahnılarını yenə də ehtirasla ifa etdi.

Konsert onun bütün iştirakçıları tərəfindən əzəmətli "Azərbaycan – odlar yurdum mənim" mahnısının təntənəli ifası ilə başa çatdı.

Fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA RƏSMİ SƏFƏRİ

Fevralın 24-də Azərbaycan Prezidenti İlham Əliyev İtaliya paytaxtına gəlmişdir.

Azərbaycanın və İtaliyanın dövlət bayraqları ilə bəzədilmiş Romanın "Çampino" hərbi hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Təyyarənin pilləkəni yanında Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyevi İtaliya Xarici İşlər Nazirliyi dövlət protokolu idarəsinin rəisi Paolo Puçi di Benesiki, Vatikan dövlətinin nümayəndələri, Azərbaycanın İtaliyadakı səfiri Emil Kərimov, İtaliyanın Azərbaycandakı səfiri Marqarita Kosta, Roma hava donanmasının komandanı, "Çampino" hərbi hava limanının komandanı hərarətlə, mehribanlıqla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha - "Vestin Excelsior" mehmanxanasına yola düşdü.

İTALİYA PREZİDENTİNİN SARAYINDA TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İtaliya Respublikası Prezidentinin "Quirinale" sarayına gəlmişdir.

Üzərində Azərbaycanın və İtaliyanın dövlət bayraqları dalğalanan sarayın qarşısında Azərbaycan dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi və xanımı böyük hörmətlə və mehribanlıqla qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.

Dövlət başçıları və xanımları xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Fevralın 24-də İtaliya Prezidentinin sarayının "Solotto Rosso" salonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi arasında təkbətək görüş keçirilmişdir.

İtaliya Prezidenti onun rəsmi dəvətini qəbul edərək Romaya səfərə gəldiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi. Cənab Adzelyo Çampi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci ildə İtaliyaya rəsmi səfərini xatırladaraq, həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinin başlandığını söylədi. İtaliya Prezidenti dedi ki, o, Azərbaycanda olmasa da, burada aparılan uğurlu islahatlardan xəbərdardır və xüsusilə qanunvericilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində görülən işlər ölkənin Avropaya tam inteqrasiyasına şərait yaradacaqdır.

Cənab Adzelyo Çampi Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğuladı ki, vaxtilə İtaliya da belə problemlə qarşılaşmışdı və biz onun həlli təcrübəsindən istifadə edərək, Azərbaycana kömək göstərməyə hazırıq. ATƏT-in Minsk qrupunun vasitəçilik səylərinin hələ bir nəticə vermədiyini xatırladan Prezident Adzelyo Çampi bildirdi ki, İtaliya Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün köməyini əsirgəməyəcəkdir.

Prezident İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə İtaliya dövlətinin başçısına təşəkkür etdi, ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Görüşdə vurğulandı ki, Azərbaycan Prezidentinin bu səfəri ikitərəfli əlaqələrin inkişafında yeni səhifə olacaqdır.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələrindən, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qaldırılması sahəsində aparılan danışıqlardan bəhs etdi, problemin beynəlxalq hüquq normaları əsasında həll edilməsinin vacibliyini vurğuladı. Azərbaycan Prezidenti eyni zamanda xatırlatdı ki, BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfinin təqsiri üzündən hələ də kağız üzərində qalır. Bu baxımdan dövlət başçıları vurğuladılar ki, BMT-də islahatların aparılması, onun nüfuzunun artırılmasına imkan verən müvafiq mexanizmlər yaradılması vacibdir.

Prezident İlham Əliyev Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatlardan ətraflı bəhs etdi.

Görüşdə Azərbaycanda həyata keçirilən mühüm enerji layihələri barədə də söhbət getdi. Dövlət başçıları ölkələrimiz arasında iqtisadi sahədə, xüsusən neft sektorunda uğurlu əməkdaşlığı qeyd etdilər. Siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar olduğu vurğulandı.

Tərəflər bir sıra beynəlxalq və regional məsələlər ətrafında da fikir mübadiləsi etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Adzelyo Çampini ölkəmizə rəsmi səfərə dəvət etdi, dəvət məmnunluqla qəbul olundu.

Təkbətək görüş başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etdilər.

İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN BƏYANATI

- Mən Azərbaycan Prezidenti İlham Əliyevi "Quirinale" sarayında salamlamaqdan çox məmnunam.

Sizin Romaya səfəriniz ölkələrimiz arasında əlaqələrin inkişafına nə qədər əhəmiyyət verdiyimizi sübut edir.

On dörd il əvvəl Azərbaycan öz müstəqilliyini elan edəndən sonrakı müddət ərzində İtaliya həmişə Sizin ölkəyə dostluq münasibəti göstərmiş və iqtisadi-sosial tərəqqini dəstəkləmişdir.

Son beş ildə yaradılmış əlverişli mühit əsasında hazırda iqtisadi və mədəni əməkdaşlıq sahəsində geniş perspektivlər mövcuddur.

İlk növbədə enerji sektorunda, habelə ticarət, birbaşa sərmayə qoyuluşu, birgə müəssisələr yaradılması və infrastruktur layihələrinin həyata keçirilməsində böyük potensial vardır.

Azərbaycan hazırda geniş islahatlar, xüsusilə qanunvericilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində mühüm islahatlar həyata keçirir. Bütün bunlar sizin ölkənizin Avropa məkanına tam inteqrasiya etməsinə şərait yaradacaqdır.

Azərbaycanın Avropa Şurasına üzvlüyü demokratik plüralizmə və fundamental azadlıqlara, o cümlədən söz və mətbuat azadlığına söykənən bir sistemin inkişafına daha güclü təkan vermişdir.

Bütün bu sahələrdə ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Azərbaycan Avropaya daha da yaxın olacaqdır.

Avropa Birliyi sabitliyin və tərəqqinin təmin edilməsi, uzunmüddətli münaqişələrin qarşısının alınması üçün səylərini davam etdirir və bu sahədə mükəmməl nümunədir. Bu, Avropa xalqlarının birgə yaşaması və sivilizasiyanın ümumi prinsiplərini bölüşməsi nəticəsində mümkün olmuşdur. Avropa Birliyinin yeni Konstitusiyanın qüvvəyə minməsi üzv ölkələrin qonşuluq əlaqələrinin möhkəmlənməsi üçün zəruridir. İlk növbədə öz sərhədlərinə diqqət yetirən Avropa Birliyi bu sərhədlərin genişləndirilməsinə də böyük əhəmiyyət verir. İndi Balkanlarla əlaqələrin, oradakı vəziyyətin sabitləşdirilməsinin Avropa Birliyi üçün böyük əhəmiyyəti vardır. Bu, eyni zamanda Qafqaza da, orada sabitliyə və region ölkələrin tərəqqisinə kömək etməyə də aiddir.

Biz sivilizasiyanın bütün bu əsas dəyərlərini və Avropa Birliyinin Azərbaycan, ümumən Qafqaz regionu ilə tərəfdaşlığının gücləndirilməsini, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsini çox mühüm hesab edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, icazə verin, qədim mədəniyyətə və tarixə malik olan İtaliya torpağında nümayəndə heyətimiz üçün göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirim.

Məmnunluqla bildirirəm ki, hazırda Azərbaycan ilə İtaliya arasında ənənəvi dostluq, əməkdaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf etməkdədir. Xüsusilə qeyd etmək istərdim ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya dövlət səfəri müasir mərhələdə bu münasibətlərin əsasını qoymuş, əlaqələrimizin gələcək inkişafına böyük təkan vermişdir.

Bu gün dünya birliyində öz layiqli yerini tutan Azərbaycan Avropa ailəsinə, Avratlantik strukturlarına sürətlə inteqrasiya etməkdədir. Bütün digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də Azərbaycan uğurla inkişaf edir. Ölkəmiz regionda həyata keçirilən qlobal enerji və nəqliyyat layihələrinin ən fəal iştirakçılarından birinə çevrilmiş və bir sıra mühüm layihələrin isə təşəbbüskarı olmuşdur.

Qeyd etmək istərdim ki, hazırda Azərbaycanda gedən inkişaf prosesləri təkcə ölkəmizdə deyil, ümumiyyətlə, bölgədə sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edir. Lakin Ermənistanın Azərbaycana qarşı uzun illər davam edən təcavüzü bu proseslərin qarşısında böyük əngəllər törədir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ATƏT-in Minsk qrupunun ilk sədri qismində İtaliyanın rəhbərliyi altında hazırlanmış nizamlanma planları bu günə kimi həyata keçirilməmişdir. Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüququn əsas prinsipləri olan dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır.

Qeyd etmək istərdim ki, ölkəmizin Avropa strukturları ilə əlaqələrinin möhkəmləndirilməsinə, Azərbaycanın Avropanın qonşuluq siyasətinə daxil olması işinə İtaliya mühüm töhfə vermişdir. Avropa Birliyi-Azərbaycan münasibətləri çərçivəsində TRASECA və INOGATE kimi infrastruktur layihələrində, beynəlxalq enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi strateji layihələrin həyata keçirilməsi sahəsində İtaliyanın ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndiririk. İtaliyanın "Eni" şirkəti 1995-ci ildən Azərbaycanda karbohidrogen ehtiyatlarının işlənilməsi layihələrinə cəlb olunmuşdur, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak edir.

Ölkələrimiz beynəlxalq terrorizm, nüvə silahının yayılması, narkotik maddələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya ilə və digər müasir çağırış və təsirlərlə mübarizə məsələlərində, habelə, demokratiyanın daha da möhkəmləndirilməsi, insan hüquqlarının qorunması və qanunun aliliyinin təmin olunması sahəsində də eyni mövqedən çıxış edirlər.

Humanitar sahədə tarixən ölkələrimiz arasında əlaqələr mövcud olmuşdur. Bu sahədə də əməkdaşlığımızın daha genişləndirilməsi üçün böyük imkanlar vardır. Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "ENİ" ŞİRKƏTİNİN PREZİDENTİ ROBERTO POLİNİ QƏBUL ETMİŞDİR

Fevralın 24-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Vestin Excelsior" mehmanxanasında İtaliyanın tanınmış "Eni" neft şirkətinin prezidenti Roberto Polini qəbul etmişdir.

Prezident İlham Əliyev bu şirkətin Azərbaycanla əlaqələrindən, İtaliyanın Azərbaycanda iri enerji layihələrinin həyata keçirilməsində iştirakından məmnun qaldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.

Cənab Roberto Poli Azərbaycan Prezidenti İlham Əliyevi Romada salamlamaqdan şad olduğunu söylədi, bu səfərin iki ölkə arasında iqtisadi sahədə əlaqələrin daha da güclənməsinə təkan verəcəyini bildirdi.

Görüşdə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi mühüm strateji layihələrin həyata keçirilməsi sahəsində İtaliya ilə Azərbaycan arasında əməkdaşlıq yüksək qiymətləndirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İtaliya Respublikası Nazirlər Şurasının binasına gəlmişdir.

Azərbaycanın və İtaliyanın dövlət bayraqlarının asıldığı binanın qarşısında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni Azərbaycan Prezidenti İlham Əliyevi avtomobilin yanında böyük ehtiramla qarşıladı.

Sonra Azərbaycan rəhbəri ilə İtaliya hökumətinin başçısı arasında görüş oldu. Prezident İlham Əliyevi Romada görməyindən böyük məmnunluq duyduğunu söyləyən cənab Silvio Berluskoni Azərbaycanın dinamik inkişaf etməsi barədə məlumatı olduğunu bildirdi, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi və daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı.

Prezident İlham Əliyev İtaliyada ona və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi, müstəqillik illərində Azərbaycanın keçdiyi yoldan, qarşılaşdığı çətinliklərdən, eyni zamanda, ölkəmizin Avropaya inteqrasiyası istiqamətində görülən işlərdən danışdı. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin bütün region üçün əngəllər törətdiyini vurğulayaraq, bu problemin aradan qaldırılmasında Avropa Birliyinin də fəallığının artırıl-

masının zəruriliyini söylədi.

İtaliya hökumətinin sədri bu fikirlə tam razılaşaraq dedi ki, Azərbaycanın Avropaya inteqrasiyası yüksək səviyyədə davam edir və Avropa Birliyinin münaqişənin həllində daha fəal rol oynaması üçün İtaliya öz köməyini əsirgəməyəcəkdir.

Azərbaycan Prezidenti münaqişənin həlli ilə bağlı danışıqlar prosesindən, ATƏT-in Minsk qrupunun fəaliyyətindən bəhs etdi, problemin sülh yolu ilə aradan qaldırılmasında Azərbaycanın mövqeyini açıqladı.

Söhbət zamanı Azərbaycan-İtaliya münasibətlərinin mövcud səviyyəsi yüksək qiymətləndirildi, son üç ildə qarşılıqlı mal dövriyyəsinin xeyli artdığı, bu dinamikanın davam etdirilməsi üçün bundan sonra da səylər göstəriləcəyi bildirildi. İqtisadi əməkdaşlığın perspektivləri, ölkəmizdə orta sahibkarlığın inkişafında İtaliya iş adamlarının iştirakı barədə də fikir mübadiləsi edildi.

Görüşdə Azərbaycanın müasir dünyada yeri, regionda və Avropada təhlükəsizliyə, iqtisadi tərəqqiyə töhfəsi və hər iki ölkəni maraqlandıran bir sıra regional və beynəlxalq məsələlər haqqında ətraflı fikir mübadiləsi aparıldı.

Görüş başa çatdıqdan sonra İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi şam yeməyi təşkil olundu.

AZƏRBAYCAN-İTALİYA BİZNES FORUMU

Fevralın 25-də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan dövlətinə rəsmi səfəri çərçivəsində Romanın "Aldrovandi Palace" mehmanxanasında Azərbaycan-İtaliya biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak etmişdir.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin və İtaliyanın İstehsal Fəaliyyəti Məsələləri Nazirliyi Xarici Ticarət İnstitutunun birgə təşkil etdikləri forumda Azərbaycanın 50-yə yaxın şirkətindən 60-dan çox iş adamı iştirak edirdi. Onlar əsasən yüngül sənaye, metallurgiya, maşınqayırma, tikinti, mebel istehsalı, informasiya texnologiyaları sahələrini təmsil edirdilər. Foruma İtaliya biznesinin müxtəlif sahələrini təmsil edən 170-dən çox iş adamı da dəvət olunmuşdu.

Tədbir çərçivəsində Azərbaycanın "Gilan" və İtaliyanın "Betvend TMCİ Padovan" şirkətləri 5 milyon avro dəyərində konserv zavodunun tikintisi haqqında razılığa gəlmişlər. Azərbaycanın "Lotos" və İtaliyanın "Arcdo Luçia" şirkətləri arasında imzalanmış razılaşmaya əsasən, çilçıraq və başqa məişət malları istehsal edəcək birgə müəssisə yaradılacaqdır.

Forumu İtaliyanın İstehsal Fəaliyyəti Məsələləri Nazirliyi Xarici Ticarət İnstitutunun direktoru Beniamino Quintieri açdı.

İTALİYANIN XARİCİ TİCARƏT İNSTİTUTUNUN DİREKTORU BENİAMİNO QUİNTİERİNİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan nümayəndə heyətini, Azərbaycan və İtaliyanın iş adamlarını, biznes forumun bütün iştirakçılarını salamlayıram.

Bildiyiniz kimi, Azərbaycan böyük neft ölkəsidir. Bundan başqa, son on il ərzində bu ölkə daxili iqtisadi sabitliyin təmin edilməsi istiqamətində gözəçarpan nailiyyətlər əldə etmişdir. Sərmayələrin qoyuluşu üçün yaxşı şərait yaradılmışdır. Bu sərmayələrin əsas hissəsi enerji sahəsinə qoyulmuşdur. Hazırda sərmayələrin digər sahələrə, xüsusən də istehsalat sahəsinə yatırılması təşviq olunur. Bu, ölkə üçün güclü iqtisadi artımla xarakterizə edilə bilər. Ötən il ümumi daxili məhsulun artımı 10,2 faiz olmuşdur. Son illər ərzində Azərbaycandakı iqtisadi artım təqribən 10 faiz səviyyəsində olmuşdur ki, bu da böyük dinamik inkişafdan xəbər verir. Bu göstəricinin gələcəkdə daha da artacağı gözlənilir.

İtaliya Azərbaycanın ixrac etdiyi malların tranziti üzrə birinci yerdədir. Təbii ki, söhbət Azərbaycanın ixrac etdiyi neft və neft məhsullarından gedir. İxrac əməliyyatlarında əsasən, İtaliyanın ərazisindən istifadə olunur və daha sonra bu neft məhsulları digər Avropa ölkələrinin bazarlarına çatdırılır. Azərbaycan iqtisadiyyatının əsas hissəsini hələ ki, neft hasilatı təşkil edir. Lakin bununla belə, böyük perspektivləri olan digər sahələr də inkişaf etməyə başlayır. Şübhəsiz ki, bir çox sahələr bir-biri ilə bağlıdır. Yəni ilk öncə, neft hasilatı ilə bilavasitə əlaqəli olan sektorlarda inkişaf müşahidə edilir.

Burada mövcud olan sənaye infrastrukturunu da qeyd etmək lazımdır. Bu fakt da İtaliyanın iş adamları üçün önəmlidir. Artıq müəyyən sahələrdə işlər gedir. Məndən sonra çıxış edəcək iştirakçılar biznes üçün ən maraqlı hesab olunan sektorlar haqqında danışacaqlar. İtaliya Azərbaycanla sənaye sahəsində sıx əməkdaşlıq etməkdə çox maraqlıdır. Bundan başqa, bu ölkənin keçmiş SSRİ-nin digər respublikaları ilə də sıx ticarət münasibətləri vardır. Bu baxımdan Azərbaycan tranzit ölkə kimi olduqca əhəmiyyətlidir. Yəni Azərbaycan ərazisindən istifadə etməklə qonşu ölkələrlə ixrac əməliyyatları aparmaq mümkündür. Hesab edirəm ki, bu forum Azərbaycanla maraqlanan iş adamları üçün çox faydalı olacaqdır. Eyni zamanda, potensial imkanların mövcud olduğu sektorlar barədə müfəssəl məlumat veriləcəkdir.

Mən öz giriş nitqimi Azərbaycan şairi Süleyman Rüstəmin sözləri ilə bitirmək istəyirəm:

Hörmət görmək istəyən, Azərbaycana gəlsin!

Cənnət görmək istəyən, Azərbaycana gəlsin!

Azərbaycan şairinin bu sözlərindən sonra bu ölkənin ən yüksək səviyyəli rəhbərliyinin sizləri Azərbaycana dəvət etməyi qalır. Bu gün Azərbaycan hökumətinin üzvləri İtaliyanın iş adamlarını Azərbaycana dəvət edir. Beləliklə, inanırıq ki, bu tədbirdən sonra Azərbaycana gedən italiyalı iş adamlarının sayı artacaqdır. Sağ olun.

İndi mən sözü məmnuniyyətlə İtaliyanın Azərbaycandakı səfiri xanım Marqarita Kostaya verirəm.

İTALİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ MARQARİTA KOSTANIN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Çox şadam ki, bu tədbirdə çox sevdiyim və olduqca hörmət etdiyim ölkəni təqdim etmək imkanı mənə də qismət oldu. Azərbaycanın parlaq gələcəyi vardır. Səfir kimi fəaliyyətim zamanı Azərbaycanla maraqlanan bu qədər italiyalı iş adamını qarşımda görmək hər dəfə mənim arzum olubdur. Nəhayət, arzuma nail oldum. Burada əyləşənlərin bəzilərini də şəxsən tanıyıram. Onların arasında dostlarımız da vardır.

Mən burada Azərbaycanın davamlı iqtisadi inkişafını nümayiş etdirən makroiqtisadi göstəricilər haqqında danışaraq sizin vaxtınızı almaq istəmirəm. Sadəcə, sizə xatırlatmaq istəyirəm ki, 2004-cü ildə Azərbaycanın ümumi daxili məhsulunun artımı 10,2 faiz təşkil etmişdir. Adambaşına ÜDM istehsalı 2004-cü ildə 1041 ABŞ dolları təşkil etmişdir. Bu il isə həmin göstəricinin daha çox olacağı gözlənilir. Gördüyünüz kimi, göstəricilər çox müsbətdir və cəlbedicidir. Biz yeni əlaqələrin qurulmasında fəal olmalıyıq. Çünki Azərbaycan bizim sərmayələr üçün çox önəmli ölkədir.

Bu baxımdan bir neçə məsələni sizin nəzərinizə çatdırmaq istərdim. Bəli, Azərbaycanın böyük enerji sektoru var və maraq əsasən bu sahəyədir. Lakin mən son illər ərzində digər sektorlarda müşahidə olunan canlanmanın şahidiyəm. Əvvəlcə, ölkə haqqında ümumi şəkildə demək istəyirəm ki, Azərbaycanda çox istedadlı adamlar vardır. Azərbaycan şairlər, musiqiçilər, sənətkarlar ölkəsidir. Azərbaycanlılar mehribandırlar. Onlar Qərbə böyük maraq göstərirlər. Mədəniyyət həvəskarı çoxdur. Azərbaycan xalqı qonaqpərvər xalqdır. Ürəyi açıq, qayğıkeş və məğrur xalqdır. Mən bu ölkəyə çox vurğunam və xüsusilə demək istəyirəm ki, bu ölkədə böyük dini dözümlülük vardır. Ümumiyyətlə, dözümlülük sözü mənim xoşuma gəlməyən sözdür. Çünki məndə elə bir təəssürat yaranır ki, kiməsə qarşı dözümlü olmalıyam, nəyəsə dözməliyəm. Xeyr, bu, əslində, digər mədəniyyətə hörmətdir. Yəni o deməkdir ki, Azərbaycanda digər mədəniyyətlərə hörmətlə yanaşırlar. Mən ölkənin bu xüsusiyyətini çox müsbət hal kimi qəbul edirəm və bunu xüsusi vurğulayıram.

İndi isə Azərbaycanın mühüm coğrafi vəziyyəti barədə danışmaq istərdim. Praktiki olaraq, bu ölkə yerləşdiyi regionda coğrafi-siyasi mərkəz rolunu oynayır. Azərbaycan Cənubi Qafqaz regionu ilə qonşuluqda yerləşən bütün ölkələrə çıxış kimi qəbul edilir. Çünki Azərbaycan Rusiya, İran, Gürcüstanla həmsərhəddir, habelə Xəzər dənizindən şərqdə yerləşən ölkələrlə, yəni Türkmənistan və Qazaxıstanla qonşudur. Bir daha deyirəm, Azərbaycan digər qonşu ölkələrin bazarlarına çıxış rolunu oynayır. Sizi əmin edirəm ki, Azərbaycanda İtaliyanın iş adamları ilə birgə istehsal oluna biləcək məhsullar bütün qonşu bazarlara çıxarıla bilər. Çünki Azərbaycan digər qonşu ölkələr ilə çox yaxşı iqtisadi və ticarət əlaqələri qurubdur. Bu ölkədə istehsal və nəqliyyat üçün çox əlverişli şərait yaradılıb, lazımi gömrük sistemi fəaliyyət göstərir.

Təbii ki, İtaliyanın iş adamları Azərbaycanda biznes fəaliyyətinin başlanılması üçün ən əvvəl ölkəni yaxından tanımalı, mövcud vəziyyətlə tanış olmalıdır. Əminəm ki, xarici sərmayələrin qorunması üçün ölkədə müvafiq qanunvericilik və ən yüksək səviyyələrdə rəhbərliyin zəmanəti vardır. Bu o deməkdir ki, risklər minimumdur. Mən ABŞ-ın

Azərbaycandakı səfirinin dediyi sözlərdən sitat gətirmək istəyirəm. O, üç il bundan əvvəl demişdir ki, Azərbaycan keçmiş SSRİ ölkələri arasında ən inkişaf etmiş ölkədir. Bu üç il ərzində isə qanunvericilik sahəsində keyfiyyətcə yeni, müsbət dəyişikliklər baş vermişdir. Sərmayələrin şəffaf olması ilə bağlı müddəalar qanunlarda öz əksini tapmışdır. Bu məsələ ilə bağlı daha dolğun məlumat əldə etmək istəsəniz, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyinin veb saytına baxa bilərsiniz. Nazirin özü də buradadır və sözlərimi dinləyir.

İtaliya Azərbaycanla sərmayələrin qorunması haqqında saziş, 2004-cü ilin iyul ayında isə ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş imzalamışdır. Bir sözlə, bu gün Azərbaycanın məhz İtaliya kapitalına, İtaliya sərmayələrinə marağı, İtaliyanın iş adamları ilə birgə işləmək istəyi onunla da təsdiq edilə bilər ki, bu forumda Azərbaycan Respublikasının Prezidenti şəxsən iştirak edir. Azərbaycan hökumətinin üzvləri burada əyləşiblər. Azərbaycanın rəhbər orqanları sizi bu ölkəyə səfərə dəvət edirlər. Məncə, bu, Azərbaycanı bir ölkə kimi İtaliyada tanıtmaqda ən gözəl üsuldur.

İndi isə fevralın 11-də, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının bir illiyinə həsr olunmuş konfransda Azərbaycan Respublikası Prezidentinin dediyi sözləri sizə xatırlatmaq istəyirəm. Prezident İlham Əliyev demişdir ki, iş adamlarının fəaliyyətinin asanlaşdırılması üçün hökumət onlara maksimum diqqətlə yanaşmalıdır. Prezident eyni zamanda qeyd etmişdir ki, sərmayələrin qoyuluşu üçün bundan sonra bütün lazımi tədbirlər görüləcəkdir. Çünki Azərbaycan azad bazar iqtisadiyyatı yolunu seçmişdir. Azərbaycan hökuməti iqtisadiyyatın çoxsaxəliliyinə xüsusi önəm verir. Çünki hazırda inkişafın əsas hissəsi neft sənayesinin payına düşür. Bu da təbiidir. Ölkə nəinki neft hasil edir, eyni zamanda, "Şahdəniz" kimi nəhəng qaz yatağı da aşkar olunmuşdur.

İndi isə digər müxtəlif sektorlara nəzər salaq. Misal üçün, infrastruktur şəbəkəsinin yaradılması, elektrik stansiyalarının tikilməsi, nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi, kənd təsərrüfatının canlandırılması, maşınqayırma sənayesinin bərpası, tikinti işinin daha da genişləndirilməsi, aqrar-sənaye və turizm sahələrində işbirliyinin yaradılması.

Mən xüsusi olaraq turizm haqqında danışmaq istəyirəm. Şəxsən mən hesab edirəm ki, Azərbaycanda sağlamlıq turizmini yaratmaq olar. Məsələn, 20 il bundan əvvəl Lənkəran bölgəsində bir nəfər yaşayırdı ki, onun 170 yaşı var idi. Nəyə görə məhz Lənkəran haqqında söhbət açdım?! Hələ Sovet İttifaqı vaxtlarında Lənkəran bölgəsi öz müalicə suları ilə çox tanınmış istirahət zonasına çevrilmişdi. Bu termal sular indi də mövcuddur. Həmin suyun hərarəti yüksək, 45-46 dərəcədir. Nadir bir fenomendir. Lakin hazırda həmin istirahət zonasında yerləşən evlərdə Qarabağdan və digər zəbt olunmuş ərazilərdən qovulmuş azərbaycanlı köçkünlər məskunlaşıblar. Yəni orada olan mehmanxana və digər istirahət yerləri artıq işləmir. Buna baxmayaraq, Azərbaycanda ixtisaslaşmış, təcrübəli, ucuz işçi qüvvəsi vardır. Bu imkandan istifadə edərək, yeni turizm obyektlərinin yaradılması mümkündür. Əgər bu baş tutsa, həmin zonanı bütün müştərilərin istirahət yerinə çevirmək olar. Ölkəyə səfər etsəniz, siz özünüz böyük imkanların şahidi olacaqsınız.

Bundan başqa, Naxçıvanı misal gətirmək istəyirəm. Naxçıvanın eyni zamanda, beynəlxalq çıxışı vardır. Hətta Lənkəranı misal gətirəndə, oradakı dəniz limanının olmasını

yaddan çıxardım. Naxçıvanda məşhur mineral duzları ilə zəngin olan yerlər vardır. Bu mineral duzlar müalicəvi xarakter daşıyır. Mən bu detalları ona görə sizin nəzərinizə çatdırıram ki, Azərbaycanda xüsusi yerlərin olduğunu biləsiniz. Həmin mineral duzlarla zəngin olan yerdə insan on gün qaldıqdan sonra bir çox xəstəlikdən sağalır. Salonda əyləşən şəxslərdən xahiş edirəm ki, bu məsələyə ciddi yanaşsınlar. Çünki insanlar həmin mineral duzlar olan yerlərdə yalnız gecə yataraq müalicə olunurlar. Günorta isə onların əylənməsi və istirahəti üçün lazımi turizm infrastrukturu yaradıla bilər.

Naxçıvan gəzinti üçün çox gözəl məkandır. Naxçıvanın dağları, əsrarəngiz təbiəti vardır. Bu gözəlliyi insan heç təsəvvür belə edə bilməz. Bütün bunlar bizim iş adamları üçün maraqlı ola bilər. Çünki bizim bu sahədə artıq kifayət qədər təcrübəmiz vardır. Mən bu sözlə də sağlamlıq turizmi mövzusunu başa çatdırıram.

Bundan başqa, bir ideyam da var. Onu sizə söyləmək istəyirəm. Çünki bu haqda əvvəllər çox düşünmüşəm. İtaliya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün biz daimi əsaslarla sərgi salonu yarada bilərik. Bu salonun bir neçə əsas məqsədi olacaqdır. Ən birincisi, İtaliyada istehsal olunmuş malları konkret, vizual şəkildə nümayiş etdirməkdir. Çünki bu sərgi salonuna gələnlər məhsulları açıq-aydın görə biləcəklər. İnanın, adam özü görəndə, onda təbii olaraq, əməkdaşlıq etmək istəyi oyanır. Eyni zamanda, İtaliyanın və Azərbaycanın iş adamları arasında daimi əlaqələr yaradılmalıdır. Bu məqsədlə, hər iki ölkədə marketinq mərkəzləri təsis oluna bilər.

Beləliklə, mən çıxışımı yekunlaşdırıram. Sizi çox yormaq istəmirəm. Ümidvaram ki, Azərbaycan haqqında kifayət qədər danışa bildim. Sonda yalnız onu demək istəyirəm ki, Azərbaycana səfər edib hər şeyə özünüz şahid olar, dediyim sözlərin mövcud imkanlarla müqayisədə yalnız kiçik bir hissəsini təşkil etdiyini görə bilərsiniz. Azərbaycandakı İtaliya səfirliyi də bu sahədə fəaliyyətini davam etdirir, sizə yardım etməyə hazırdır. Azərbaycan hökumətinin üzvləri də buradadırlar. Sizi maraqlandıran hər hansı sual olarsa, buyurub soruşa və yerindəcə cavab ala bilərsiniz. Sizi Azərbaycanda gözləyirik. Gəlin və Azərbaycanın nə qədər maraqlı olduğunu görün! Diqqətinizə görə minnətdaram.

BENİAMİNO QUİNTİERİ: Xanım Kosta, məlumat və faktlarla dolu, geniş və əhatəli çıxışınıza görə sizə təşəkkürümü bildirirəm. Hamımız sizi diqqətlə dinlədik.

Hörmətli cənab Prezident!

Sizi burada salamlayırıq, Sizə xoş gəldiniz deyirik. Azərbaycanlı dostlarımızla təşkil etdiyimiz bu forumda Sizi görməkdən çox məmnunuq. Eyni zamanda, Azərbaycan hökumətinin üzvlərindən və Azərbaycan sahibkarlarından ibarət böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyinizə görə Sizə minnətdaram. Ümidvaram ki, bu tədbirdə iştirak edən İtaliya iş adamlarının çox olması Sizin ölkəyə artan marağımızın daha bir sübutudur. Təqribən 120 müəssisə və şirkəti təmsil edən 170-dən çox iş adamı bu Forumda iştirak edir. Gördüyünüz kimi, İtaliya Azərbaycana böyük maraq göstərir, iki ölkə arasında iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək əzmindədir.

Bütün iştirakçılar sizin nitqinizi diqqətlə dinləyəcəklər. Gün ərzində söyləniləcək tövsiyə və təklifləri gələcək işlərində həyata keçirməyə çalışacaqlar. Bu tədbir zamanı İtaliyanın iş adamları azərbaycanlı həmkarları ilə də tanış olmaq və müxtəlif sahələrdə

mümkün olacaq işbirliyi qurmaq imkanını əldə edəcəklər. Beləliklə, Sizə minnətdarlığımı bildirir və Sizi ali kürsüyə dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, Azərbaycan hökuməti adından sizin hamınızı salamlayır, İtaliyada bu cür əhəmiyyətli görüşün keçirilməsindən çox məmnun olduğumu bildirmək istəyirəm.

Ümumiyyətlə, biz ikitərəfli münasibətlərimizə çox böyük önəm veririk. Bu əlaqələr bütün sahələrdə uğurla inkişaf edir. Bizim çox yaxşı siyasi, iqtisadi və humanitar münasibətlərimiz var. Əlbəttə, dünən İtaliyanın Prezidenti və nazirlər şurasının sədri ilə keçirdiyimiz görüşlər ikitərəfli məsələlər ətrafında anlaşmanın möhkəmlənməsinə zəmin yaratdı. Daha sonra biz regional xarakterli məsələlər, regional təhlükəsizlik və əməkdaşlıq kimi məsələlər üzərində geniş fikir mübadiləsi apardıq. Bir sözlə, əminəm ki, mənim İtaliyaya rəsmi səfərim mövcud olan ikitərəfli münasibətlərimizə yeni təkan verəcəkdir.

Təbii ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələr qarşılıqlı anlaşmanın, əməkdaşlığın həm ikitərəfli formatda, həm də Azərbaycan-Avropa Birliyi formatında daha da gücləndirilməsi üçün vacib vasitədir.

Azərbaycanın çox yaxşı iqtisadi göstəriciləri var. Bizim ölkə uğurla inkişaf edir və keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, Azərbaycanın iqtisadi nailiyyətləri gözəçarpan səviyyədədir. Sovet İttifaqının süqutundan sonra Azərbaycan öz müstəqilliyini elan edərkən ölkəmiz xaos vəziyyətinə düşmüşdü. Lakin sonrakı illər ərzində Azərbaycan addım-addım həm siyasi, həm də sosial, iqtisadi islahatlar sayəsində, cəmiyyətimizin demokratikləşməsi yolu ilə problemləri həll edə bilmişdir. Nəticədə, biz sabitliyin bərqərar edilməsinə, iqtisadi inkişafa nail olmuşuq. İndi Azərbaycanın hər bir vətəndaşı bu iqtisadi inkişafdan faydalanmaq imkanını əldə etmişdir.

Ölkəmizin neft və qaz sənayesi iqtisadiyyatımızın inkişafında xüsusi və başlıca rol oynamışdır. 1994-cü ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış neft strategiyası bu gün, on il keçdikdən sonra iqtisadi inkişafımızın və ümumiyyətlə, Azərbaycan inkişafının açarı olmuşdur. Hazırda Azərbaycanın regional məsələlərdəki rolu get-gedə artır. Bu baxımdan, neft və qaz amilləri, nəqliyyat dəhlizinin yaradılması, enerji məhsullarının daşınması layihələri böyük əhəmiyyət kəsb edir.

Biz xarici tərəfdaşlarımız üçün çox əlverişli şərait yaradılmasına nail olmuşuq. Xarici sərmayədarlar Azərbaycanda özlərini çox yaxşı hiss edirlər. Şübhəsiz, bu sərmayələr lazımi qaydada qorunur. Bu, sərmayələrin yatırılması, sərmayədarların etimadının artırılması üçün ilkin şərtdir. Etimadın qazanılması illər tələb edir. Biz çox məmnunuq ki, bu məsələnin öhdəsindən gələ bildik.

Bu gün biz Azərbaycanın iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan regionda aparıcı ölkədir. Yalnız ötən il ərzində iqtisadiyyatımıza yatırılan sərmayələrin həcmi 5 milyard ABŞ dolları təşkil et-

mişdir və bu, daha da artacaqdır. Ölkəmizdə həyata keçirilən nəhəng enerji layihələri xarici sərmayəçilərin hökumətimizə və gələcəyimizə göstərdikləri etimadı bir daha təsdiqləyir, Azərbaycanın sabit və davamlı inkişafına inamlarını artırır. Təbii ki, siyasi sabitlik, sosial sabitlik də çox vacib rol oynayır.

Bundan başqa, hökumət və xalq arasında olan münasibətlər qarşılıqlı inama arxalanır. Özlüyündə bu da potensial xarici sərmayəçilərin etimadını artırır. Gələcək illər ərzində Azərbaycanın iqtisadi göstəriciləri əvvəllərdəki kimi uğurlu olacaqdır. Builki büdcəmizin artımı 25 faiz səviyyəsindədir. Bu il ümumi daxili məhsulun artımı 14-15 faiz proqnozlaşdırılır. Ümidvaram ki, bu cür yüksək inkişaf sürətini gələcəkdə də saxlayacağıq.

Neft və qaz sənayesinin inkişafı ilə bağlı proqramlara gəldikdə, biz artıq böyük uğurlar əldə edə bilmişik. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi çox uğurla gedir. Biz yeni qaz kəmərinin tikintisini planlaşdırırıq. Bu kəmər vasitəsilə qaz Avropa istehlakçılarına çatdırılacaqdır. Biz nəqliyyat və yükdaşınması məsələlərinə xüsusi əhəmiyyət veririk. Çünki ölkəmizin çoğrafi mövqeyi bizi Şimal-Cənub və Qərb-Şərq arasında ən əlverişli nəqliyyat qovşağına çevirir. Biz etibarlı tranzit ölkəyik. Bunları nəzərə alaraq, hazırda regional əməkdaşlıqda daha yaxından iştirak etmək məqsədi ilə nəqliyyat infrastrukturumuzu inkişaf etdirmək fikrindəyik.

Biz inkişafımızın yeni mərhələsinə qədəm qoyuruq. Bu mərhələdə iqtisadiyyatımızı şaxələndirmək əzmindəyik. Biz iqtisadiyyatımızın qeyri-neft sektoruna xüsusi diqqət veririk ki, ölkəmiz müxtəlif istiqamətlərdə inkişaf edə bilsin. Gələcəkdə biz yalnız neft və qaz amilindən və ya neftin, qazın qiymətlərindən asılı olmaq istəmirik. Eyni zamanda, biz neft hasilatı ilə məşğul olan digər ölkələrin təcrübəsini öyrənərək gördük ki, neft hər bir ölkə üçün heç də həmişə tərəqqi gətirməmişdir. Məhz buna görə biz şəffaflıq məsələsinə və neft gəlirlərinə xüsusi diqqətlə yanaşırıq. Bu məqsədlə Azərbaycanda çox şəffaf bir qurum kimi tanınan Neft Fondu yaradılmışdır. Bu gəlirlər haqqında məlumat Azərbaycanın hər bir vətəndaşı tərəfindən izlənilə bilər.

Hazırda iqtisadi prioritetimiz qeyri-neft sektorudur. Bir il bundan öncə, fevral ayında biz ölkədə regional sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsinə başlamışıq. Bu yaxınlarda biz bu proqramın bir illiyini də qeyd etmişik. Tədbir zamanı geniş müzakirələr apardıqdan sonra, ötən bir il ərzində Azərbaycanda rayonlarda və qeyri-neft sektorunda 170 mindən çox iş yerinin açılmasından çox məmnun qaldıq. Bu, ölkənin yeni istiqamətdə inkişafı deməkdir. Ölkəmizin paytaxtı ilə yanaşı, rayonları da inkişaf etməyə başlamışdır. Təbii ki, bu baxımdan bizim iqtisadiyyatın müxtəlif sahələrində xarici sərmayələrə ehtiyac vardır.

Azərbaycanın neft və qaz hasilatı sahəsindəki təcrübəsi, xarici şirkətlərlə birgə işin aparılması modeli bir daha təsdiqləyir ki, ölkəmiz etibarlı tərəfdaşdır. Biz xarici sərmayələri qəti surətdə qoruyuruq və bu sahədə heç bir tərəflə heç vaxt nə ziddiyyətimiz, nə də beynəlxalq mübahisəmiz olmamışdır. Son on il ərzində xarici şirkətlərlə əməkdaşlığımız Azərbaycanın etibarlı tərəfdaş olduğunu açıq-aydın təsdiqləyir. Çünki biz xarici tərəfdaşlarımızla bütün işlərimizi açıq və ədalətli şəraitdə, öz milli maraqlarımıza uyğun aparırıq. Bu sahədəki əsas konsepsiyamız ondan ibarətdir ki, sərmayə kimi yatırılan hər bir dollar lazımınca qorunur və qorunacaqdır. Ümidvaram ki, bu konfrans İtaliyanın iş adamlarında ölkəmizdə olan hazırkı vəziyyətlə, qüvvədə olan qanunvericiliklə, biznes

imkanları ilə, yeni sərmayələr üçün potensial sahələrlə daha yaxından tanış olmaq imkanı yaradacaqdır.

Azərbaycanda görüləsi işlər də çoxdur. Biz iqtisadi islahatlarımızın yeni mərhələsindəyik. Nailiyyətlərimiz də az deyildir. Həyata keçirilən genişmiqyaslı özəlləşdirmə proqramları, torpaq islahatı sayəsində bu gün ÜDM-in 74 faizi özəl sektorun payına düşür. Baxmayaraq ki, neft sektoru dövlətin əlindədir, özəl sektor əksəriyyət təşkil edir. Prioritetlərimizdən biri də ondan ibarətdir ki, biz güclü orta təbəqəni formalaşdırmalıyıq. Çünki inkişaf etmiş dövlətlərin təcrübəsi onu göstərir ki, orta təbəqəsiz ölkənin tam inkişafı mümkün deyildir. Kənd təsərrüfatı, neft kimyası, turizm, bank və sığorta sahələrində gözəl imkanlarımız var. Bir sözlə, biz xarici şirkətlərlə işləməyə hazırıq. Qapılarımız dostlarımızın üzünə açıqdır. Biz açıq qapı siyasəti yürüdürük və bu siyasət davam etdiriləcəkdir. Azərbaycanda fəaliyyət göstərən bir çox şirkətlər, o cümlədən İtaliya şirkətləri vəziyyətlə tanışdırlar və mövcud potensial haqqında xəbərləri var. İstəyimiz Azərbaycanda hələ fəaliyyətə başlamamış şirkətləri ölkəmizə dəvət etməkdən ibarətdir.

Ölkəmizin böyük potensialı var, ölkəmiz maraqlıdır. Hesab edirəm ki, forum ölkəmizin bu şirkətlər üçün təqdim olunmasında vacib rol oynayacaqdır.

Bizim dövlətimiz gəncdir. Azərbaycan keçmişdən miras qalmış problemləri olan və müstəqilliyi yeni qazanmış ölkədir. Biz müstəqilliyimizi tariximizin ən çətin anlarında, 1991-ci ildə qazanmışıq. O vaxt Ermənistan və Azərbaycan arasında müharibə gedirdi. Bu müharibə nəticəsində Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, etnik təmizləmə siyasətini aparmış və sonda bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ölkəmizdə 8 milyon əhalinin 1 milyonu qaçqın-köçkün vəziyyətində yaşayır. Bu, böyük siyasi, iqtisadi və sosial problemdir. Lakin ərazi bütövlüyümüzün pozulmasına baxmayaraq, biz siyasi və iqtisadi inkişafa nail ola bildik. İndi Azərbaycan regionda çox həlledici rol oynayır. Bizim iştirakımız olmadan heç bir regional layihə baş tuta bilməz. Biz siyasi cəhətdən güclənmişik, dövlət müstəqilliyimizi möhkəmləndirmişik.

Hazırda, Azərbaycan tam müstəqil siyasət yürüdür. Biz heç bir xarici yardımdan asılı deyilik və qonşu dövlətlərin bəzilərindən fərqli olaraq, ölkəmiz heç bir xarici təsir altında deyildir. Biz milli maraqlarımızın müdafiəsinə əsaslanan müstəqil siyasət həyata keçirmək iqtidarındayıq. Ermənistanla atəşkəs əldə edildikdən sonra biz anlayırıq ki, problemlərimizi həll etmək üçün biz güclü dövlət olmalıyıq. Güclü dövlət olmaq üçün isə çox çalışmalıyıq və xarici sərmayəçilər üçün əlverişli şərait yaratmalıyıq, yeni iş yerləri açmalıyıq, infrastrukturumuzu inkişaf etdirməliyik. Bu proses artıq gedir.

Bu günlərdə Azərbaycan diplomatiyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq aləmdəki uğurları, enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi sahəsindəki nailiyyətlərimiz ölkəmizin böyük potensialının göstəricisidir.

Gələn illər ərzində biz neft hasilatının həcmini üç dəfə artıracağıq, bir və ya iki il ərzində hasil edəcəyimiz təbii qazı Avropa bazarlarına çıxaracağıq.

Beləliklə, Azərbaycan ilə Avropa Birliyi arasındakı münasibətlər yeni xarakter alacaq-

dır. Biz enerji daşıyıcılarının nəqli sahəsində etibarlı alternativ ərazivə çevriləcəyik və bu istiqamətdə hazırda Avropa Birliyi ilə sıx işləyirik. Buna görə də İtaliya ilə ikitərəfli münasibətlər inkişafımızın çox vacib bir elementidir. Biz İtaliyanı özümüzə yaxın, dost hesab edirik. İtaliya Azərbaycanı Avropaya inteqrasiya yolunda tam dəstəkləyir. Bizim İtaliya ilə hökumətlər, siyasətçilər, parlament təmsilçiləri səviyyəsində çox gözəl əlaqələrimiz var. Eyni zamanda, mən ümid edirəm ki, bu cür münasibətlər iş adamları arasında da inkişaf edəcəkdir. Biz artıq enerji sektorunda fəaliyyət göstərən İtaliya şirkətləri ilə çox yaxşı əlaqələr qurmuşuq. Zənn edirəm ki, onların özü bunu təsdiqləyə bilər. İtaliya şirkətlərinin Azərbaycanda daha geniş fəaliyyəti üçün vaxt artıq yetişibdir. Qapılarımız sizin üzünüzə açıqdır. Sizləri ölkəmizdə görməkdən çox şad olardıq. Ölkəmizə gəlin və mövcud olan imkanları qiymətləndirin. Şübhəsiz, indiki forum da bu istiqamətdə vacib elementdir. Əminəm ki, forum boyu hər iki ölkədən olan iş adamları bir-biri ilə tanış olmaq, müxtəlif məsələləri müzakirə etmək imkanı əldə edəcəklər.

Göstərdikləri qonaqpərvərliyə görə İtaliya xalqına, hökumətinə və təşkilatçılara bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Mən dünən buraya gəlmişəm. Artıq qeyd etdiyim kimi, İtaliyanın rəhbərləri ilə çox səmərəli görüşlərimiz oldu. Mən heç şübhə etmirəm ki, bu səfərdən və forumdan sonra münasibətlərimiz daha da möhkəmlənəcəkdir.

Forum iştirakçılarına isə bu tədbirə göstərdikləri diqqətə görə bir daha təşəkkürümü bildirirəm. Mən İtaliya xalqına sülh və əmin-amanlıq arzulayıram.

BENİAMİNO QUİNTİERİ: Çox sağ olun cənab Prezident.

İndi isə, İtaliya hökuməti adından çıxış edəcək istehsal fəaliyyəti məsələləri nazirinin müavini Adolfo Ursoya söz verirəm.

İTALİYANIN İSTEHSAL FƏALİYYƏTİ MƏSƏLƏLƏRİ NAZİRİNİN MÜAVİNİ ADOLFO URSONUN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Mənim buradakı çıxışım uzun olmayacaq, vaxtınızı çox almayacağam. Bilirəm ki, Prezident İlham Əliyevin səfər proqramı gərgindir. Onun qarşıda digər görüşləri var. Mən Prezident İlham Əliyevin Romaya səfərini çox vacib və həlledici bir səfər kimi qəbul edirəm. Bilirəm ki, dünən axşam Nazirlər Şurasının sədri Berluskoni ilə görüşünüz olubdur. Cənab Berluskoni forumda çıxış edəcəyimi nəzərə alaraq məndən şəxsən xahiş etdi ki, Azərbaycan və İtaliya xalqları arasında sıx əməkdaşlığın tərəfdarı olduğunu bildirim. Belə bir möhtəşəm tədbirdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə və Azərbaycanın bütün nümayəndə heyətinə İtaliya hökumətinin minnətdarlığını bildirirəm.

Biz bilirik ki, Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatlar davam etdirilir. Bu müsbət dəyişikliklərin nəticəsində Azərbaycan bütün qlobal bazarlara çıxış əldə etmişdir və bu nailiyyətlər xarici sərmayədarlar üçün çox cəlbedicidir. Hesab edirəm ki, son illər ərzində Avropaya tam inteqrasiya olunmaq yolunda Azərbaycanın atdığı addımlar bir çox digər ölkələr üçün örnək ola bilər.

Azərbaycan tam Avropa ölkəsidir. Azərbaycan qanunvericiliyini daim təkmilləşdirir, Avropada bərqərar olunmuş dəyərlər əsasında öz cəmiyyətini qurur. Ölkələrimiz arasında mövcud olan ticarət dövriyyəsinin həcmi bizi sevindirir. Son illər ərzində Azərbaycanın iqtisadi artımı orta hesabla 10 faiz səviyyəsində olmuşdur. 2004-cü ildə Azərbaycanın ümumi daxili məhsulunun həcmi 10 faizdən çox idi. Bu günlərdə Azərbaycanın neft məhsullarının ixrac əməliyyatlarında birinci yeri tutan İtaliya bu ölkənin enerji sektorunda çox fəaldır.

Hesab edirəm ki, ikitərəfli iqtisadi münasibətlərin bugünkü səviyyəsi dəfələrlə qalxmalıdır. Enerji daşıyıcılarının məhz bizim ərazimiz vasitəsilə Avropa bazarlarına çıxarılması İtaliya üçün çox vacibdir. Şübhəsiz ki, biz yalnız enerji sektorunda olan işbirliyimizlə kifayətlənməməliyik. "Eni" şirkəti Azərbaycan iqtisadiyyatında iştirak edən ən öncül şirkətlərdən biridir və digər şirkətlər üçün nümunə ola bilər.

Bundan başqa, Azərbaycanda artıq fəaliyyətə başlamış digər italyan şirkətlərini də qeyd etmək lazımdır: "DeLongi", "Lya Piyacia", "Kodest" Ümid edirik ki, İtaliyanın digər şirkətləri də onlardan nümunə götürüb Azərbaycandakı biznes imkanlarından istifadə edəcəklər. İtaliya hökuməti isə, öz növbəsində, onların fəaliyyətinin asanlaşdırılması üçün bütün tədbirləri görəcəkdir. Hesab edirik ki, İtaliya sərmayələrinin Azərbaycan iqtisadiyyatına qoyuluşu prosesi daha da sürətlənəcəkdir. İqtisadi sahədə fəaliyyət göstərən İtaliya-Azərbaycan birgə müəssisələrini görməkdən çox məmnunuq.

Həmçinin digər sektorlarda böyük imkanlar var. Misal üçün, məişət avadanlığının istehsalı sahəsində biz öz təcrübəmizi bölüşə bilərik. Ətraf mühitin mühafizəsi, telekommunikasiya, kənd təsərrüfatı, yeyinti məhsulları istehsalı və saxlanılması kimi sahələrdə işbirliyi qura bilərik. Məlumat üçün deyə bilərəm ki, İtaliyada istehsal olunmuş məişət avadanlığı Azərbaycanda çox tanınır. Beləliklə, biz iqtisadi münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə qaldırmalıyıq.

Enerji daşıyıcılarının ən böyük idxalçısı olan və məişət avadanlığının ixracı üzrə dünyada ən öncül ölkələrdən biri olan İtaliya digər ölkələrlə iqtisadi münasibətlərin qurulmasında, əsasən, kiçik və orta sahibkarlığın inkişafı sahəsində əldə etdiyi zəngin təcrübəyə arxalanır. Bunları nəzərə alaraq, İtaliyanın Azərbaycanda ən böyük sərmayə yatıran ölkəyə çevrilməsi mümkündür. Əgər biz iqtisadi tərəfdaşlığımızı artırmaq istəyiriksə, öncə ikitərəfli iqtisadi əlaqələrimizi canlandırmalıyıq. Buna nail ola bilsək, Azərbaycanın ümumi, böyük Avropa ailəsinə tam inteqrasiyası reallığa çevriləcəkdir.

Biz arzularla, planlar və iradə ilə İtaliya hökuməti adından Azərbaycanın nümayəndə heyətini bir daha salamlayıram, bu salonda əyləşən bütün iştirakçılara minnətdarlığımı bildirirəm, böyük və parlaq gələcəyi olan Azərbaycanda geniş perspektivlərin olduğunu sizə bəyan edirəm.

Mən xüsusi olaraq Prezident İlham Əliyevin verdiyi məlumat üçün təşəkkürümü bildirir, öz ölkəsində apardığı müdrik siyasətə görə və əldə etdikləri nailiyyətlərə görə təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

Sonra Prezident İlham Əliyev italiyalı iş adamları ilə səmimi söhbət etdi, "Aldrovandi Palace" mehmanxanasının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Prezidentin İcra Aparatının şöbə müdiri Novruz Məmmədov, Azərbaycan nümayəndə heyətinin üzvləri, ölkəmizin Romadakı səfiri Emil Kərimov və digər rəsmi şəxslər biznes forumda iştirak edirdilər

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN DÜNYA ƏRZAQ PROQRAMININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN CON PAUELL İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Vestin Excelsior" mehmanxanasında Dünya Ərzaq Proqramı Təşkilatının rəhbəri vəzifəsini icra edən Con Pauell ilə görüşmüşdür.

Söhbət zamanı Prezident İlham Əliyev Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərindən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində son illər görülən işlərdən danışdı.

Prezident İlham Əliyev cənab Con Pauellə müraciətlə dedi ki, siz Azərbaycanda olmusunuz, çadır düşərgələrinə getmisiniz, biz bu sahədə sizinlə yaxşı əməkdaşlıq edirik. Çoxsaylı qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bu sahədə hələ sizin köməyinizə ehtiyacımız vardır. Bunun nəzərə alınmasını xahiş edirik.

Prezident İlham Əliyevlə görüşündən məmnun qaldığını söyləyən və qəbula görə minnətdarlığını bildirən Con Pauell dedi ki, biz Azərbaycana yenidən gələrək, qaçqın və məcburi köçkünlərin problemlərini bir daha öyrənəcək, əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ PYERFERDİNANDO KAZİNİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 25-də İtaliya parlamentinin Deputatlar palatasına gəlmişdir. Prezident İlham Əliyevin Deputatlar palatasının sədri Pyerferdinando Kazini ilə görüşü olmuşdur.

Cənab Kazini Azərbaycan ilə İtaliya arasında əlaqələrin yüksək səviyyədə olduğunu, ölkəmizin son illər ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı və bunun məmnunluq doğurduğunu söylədi. O dedi ki, biz parlamentlərarası əlaqələrin inkişafına böyük əhəmiyyət veririk və daha da inkişaf etdirmək niyyətindəyik. Deputatlar palatasının sədri Azərbaycanın və İtaliyanın terrorizmə qarşı mübarizəsini müsbət dəyərləndirdi. Azərbaycanın ərazi bütövlüyünün pozulması məsələsinə toxunan cənab Kazini Azərbaycan Prezidentindən bu barədə ətraflı məlumat almaq istədiklərini bildirdi.

O, kiçik və orta sahibkarlığın inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini də vurğuladı.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür edərək bildirdi ki, Azərbaycan İtaliya ilə əməkdaşlığa böyük əhəmiyyət verir. İtaliya Avropa Birliyinin üzvüdür və bu ölkə ilə əməkdaşlığın bütün sahələrdə inkişafı respublikamızın Avropa ailəsinə inteqrasiyası baxımından əhəmiyyətlidir.

Ölkəmizin Milli Məclisində Azərbaycan-İtaliya dostluq qrupu fəaliyyət göstərir. İtaliya parlamentinin üzvləri bizimlə beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər və bu da çox müsbət haldır.

Prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında əməkdaşlıq əsasən neft-qaz sahəsində olsa da, qeyri-neft sektoruna da İtaliya kapitalının cəlb edilməsinə zərurət vardır. Məhz bu məqsədlə Azərbaycan-İtaliya biznes forumu keçirilmiş və ölkəmizin iş adamları həmin tədbirdə iştirak etmişdir.

Azərbaycanın iqtisadi inkişaf perspektivlərindən də danışan Prezident İlham Əliyev ümumi daxili məhsulun hər il 10 faiz artdığını qeyd edərək bildirdi ki, 2005-ci ildə bunun 14-15 faizə çatdırılması nəzərdə tutulur.

Azərbaycanın uğurlu regional əməkdaşlıq apardığını söyləyən Prezident İlham Əliyev dedi ki, bu yolda əsas maneə Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bu təcavüz, erməni millətçilərinin etnik təmizləmə, separatizm siyasəti nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunmuş və 1 milyondan artıq soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür.

Bütün bunlar Avropa Şurası Parlament Assambleyasının son qətnaməsində öz əksini tapmışdır. Həmin sənəddə göstərilir ki, Avropanın bir ölkəsi bu qitənin digər ölkəsinin ərazi bütövlüyünü pozmuşdur. Bu, çox mühüm siyasi sənəddir.

Azərbaycan Prezidenti daha sonra münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı, dünya birliyinin və beynəlxalq təşkilatların bu məsələdə ədalətli mövqe tutmasının, ATƏT-in Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinin vacibliyini vurğuladı.

Sonda Pyerferdinando Kazini Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi. Azərbaycan dövlətinin başçısı isə cənab Kaziniyə Azərbaycan xalçası hədiyyə etdi.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Fevralın 25-də İtaliya Parlamentinin Deputatlar palatasının sədri Pyerferdinando Kazininin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir. Nahar zamanı bir sıra beynəlxalq və regional məsələlər, parlamentlərarası əlaqələr haqqında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Pyerferdinando Kazinini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

İTALİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Vestin Excelsior" mehmanxanasında İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Covanni Petruççi ilə görüşmüşdür.

Söhbət zamanı İtaliya ilə Azərbaycan arasında idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi, gələcəkdə əlaqələrin daha da genişləndirilməsi üçün tədbirlər görməyin zəruriliyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATINDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 25-də BMT-nin Romada yerləşən Ərzaq və Kənd Təsərrüfatı Təşkilatında olmuşdur. Prezident İlham Əliyevi binanın önündə təşkilatın baş direktoru Jak Dyuf səmimiyyətlə qarşıladı.

Prezident İlham Əliyev bu təşkilatın xatirə kitabına ürək sözlərini yazdı.

Səmimilik şəraitində keçən söhbət zamanı Jak Dyuf Azərbaycan Prezidentinin vaxt ayırıb onunla görüşməsindən şərəf duyduğunu, başçılıq etdiyi təşkilatın Azərbaycanla əlaqələrinə böyük əhəmiyyət verdiyini bildirdi və əməkdaşlığın perspektivlərindən danışdı.

Prezident İlham Əliyev bu təşkilatın ölkəmizdə həyata keçirmək istədiyi layihələrin əhəmiyyətini vurğulayaraq dedi ki, bu əməkdaşlıq ərzaq təhlükəsizliyini təmin etmək və yoxsulluğun azaldılması baxımından müsbət rol oynayacaqdır. Mövcud əlaqələrin uğurla davam etdirilməsi üçün Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyində müxtəlif islahatlar aparılır, ölkəmizə yeni texnologiyaların və sərmayələrin cəlb olunması zəruridir.

Azərbaycan dövlətinin başçısı Azərbaycanda sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi haqqında danışaraq bildirdi ki, son il yarım ərzində ölkəmizdə 170 min yeni iş yeri açılmışdır və əsas diqqət regionların iqtisadi inkişafına yönəldilmişdir.

Cənab Jak Dyuf Azərbaycan Prezidentinin bu istiqamətdə siyasi iradəsini yüksək qiymətləndirərək dedi ki, ölkədə kənd təsərrüfatı məhsullarının rəqabətə davamlılığını yüksəltmək vacibdir. Bu sahədə mühüm addımlar atılmasından xəbərim vardır. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarını yüksək dəyərləndirən təşkilatın rəhbəri bu ilin birinci yarısında Azərbaycana səfər edəcəyini bildirdi.

Sonra Prezident İlham Əliyev və Jak Dyuf jurnalistlərə qısa müsahibə verdilər.

ROMA FORUMU VƏ KOLİZEY İLƏ TANIŞLIQ

Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla dünyanın məşhur abidələrindən sayılan Roma forumunun qalıqları və Kolizey ilə tanış oldular.

Azərbaycan Prezidentinə məlumat verildi ki, Roma forumunun tikintisinə hələ eramızdan əvvəl VI əsrdə başlanmışdı. Eramızın 75-80-ci illərində inşa edilən Kolizeyin uzunluğu təxminən 190 metr, eni 150 metrdir. Qladiatorun döyüşləri və digər tamaşalar üçün nəzərdə tutulan Kolizey 50 minə yaxın tamaşaçı tuturdu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "RAI NEWS-24" TELEKANALININ "NEXT" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfəri çərçivəsində fevralın 25-də İtaliyanın "RAI news-24" telekanalının "Next" proqramının "Dünya İlham Əliyevin baxışları ilə" verilişinin aparıcısına müsahibə vermişdir.

Aparıcı: Axşamınız xeyir. Studiyada Piyetro di Paskualedir. "Next" xəbərlər proqramına xoş gəlmisiniz. Bu axşam sizin diqqətinizə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən götürdüyümüz müsahibəni təqdim edirik. O, bu gün burada bizimlədir.

Cənab Prezident, İtaliyaya xoş gəlmisiniz!

İlham Əliyev: Sağ olun!

Aparıcı: Cənab Prezident, icazənizlə, söhbətimizi müəyyən sxem üzərində quraq. Müsahibəyə başlamazdan əvvəl, bizim ölkəmizdən uzaqlarda yerləşən, lakin eyni zamanda qəlbimizdə olan Azərbaycanın əsas dörd elementini qısaca xatırlatmaq yerinə düşərdi.

Mən indi sözü şərhçi Marko Silentsioya verirəm.

Marko Silentsio: 1990-cı illərin əvvəllərində müstəqilliyini qazanan bir sıra ölkələr kimi, Azərbaycan da növbəti illər ərzində mürəkkəb siyasi və iqtisadi keçid dövrünü yaşamaq məcburiyyətində oldu. Qafqazın digər ölkələrindən fərqli olaraq, Azərbaycanda zəngin neft və qaz yataqları vardır. Keçmişdə bütün Sovet İttifaqında, o cümlədən Sibirdə böyük neft və qaz yataqları mövcud olsa da, məhz bu ölkənin resursları həmişədən geniş şəkildə istismar olunurdu.

Azərbaycan Qafqazın ən mühüm geostrateji nöqtəsində yerləşir. Şimal və Cənub, Qərb və Şərq dəhlizlərinin qovuşuğunda olan Azərbaycan, xüsusən də Bakı tranzit məkanı rolunu oynayır. Neft kəmərlərinin əksəriyyəti, hətta planlaşdırılmış, lakin hələ ki, başa çatdırılmamış boru kəmərləri də bu zonadan keçir. 2003-cü ildə ölkədə ümumi daxili məhsulun artımı 11,2 faiz təşkil etmişdir. Lakin əsas problemlər həll olunmamış qalır. Azərbaycan rəhbərliyi karbohidrogen ehtiyatlarının hasilatından əldə etdiyi gəlirləri hələ ki, ölkə iqtisadiyyatının qeyri-neft sahələrinə tam sərf olunmasına çalışır. Belə bir durum, Azərbaycanı neftin qiymətlərindən asılı vəziyyətdə saxlayır.

Bu gün bizim qonağımız olan Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Moskva və Vaşinqton arasında həssas tarazlığın saxlanılmasına yönəldilib. Bir tərəfdən, Azərbaycan 200 il rusların əsarəti altında olmuşdur. Bu ölkədə Rusiyanın təsiri, xüsusən də mədəni sahədəki təsiri olduqca böyükdür. Moskva Azərbaycanın ən mühüm ticarət tərəfdaşlarından biridir. Ölkədə çoxlu rus yaşayır. Digər tərəfdən isə, Birləşmiş Ştatlar Qafqazda get-gedə öz nüfuzunu artırır. Vaşinqton Azərbaycanın iqtisadi inkişafı üçün yardım ayırır. Bu vəziyyət Rusiyanı narahat edir. Prezident Putin əvvəlcə Gürcüstanı, sonra isə Ukraynanı itirdi.

Nəhayət, Dağlıq Qarabağ məsələsinə toxunaq. Bu, Ermənistanla Azərbaycan arasında olan ərazi mübahisəsidir. Torpaq iddiası iki qonşu ölkəni bir-birinə qarşı müharibəyə

sürüklədi. Lakin problemin aradan qaldırılması üçün bu günə kimi aparılan danışıqlar prosesində, o cümlədən Dağlıq Qarabağ üçün statusun müəyyən edilməsində heç bir irəliləyiş əldə edilməmişdir. Bu vaxta qədər tərəflər bir-birinə qarşı etimadsızlığı bir yana qoyub, konstruktiv dialoqun aparılması üçün iradə nümayiş etdirə bilməmişlər.

Aparıcı: Sağ olun!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəllər ölkəmizdə olmuşdur. Bilmək istərdik ki, budəfəki səfərin məqsədi nədən ibarətdir?

İlham Əliyev: Əvvəlcə bildirmək istəyirəm ki, İtaliyada olmağımdan çox şadam və ölkənizə etdiyim rəsmi səfəri olduqca vacib hesab edirəm. Mənim İtaliyanın Prezidenti, Baş naziri, parlamentin sədri və digər rəsmiləri ilə çox faydalı görüşlərim və müzakirələrim olub. İkitərəfli münasibətlərimizə aid bir sıra məsələlər barədə, o cümlədən Avropa Birliyi ilə olan əlaqələrimizlə bağlı fikir mübadiləsi apardıq. Bundan başqa, regional əməkdaşlıq və təhlükəsizlik haqqında danışdıq. Söhbətlərimiz zamanı digər məsələləri də nəzərdən keçirdik. Bizim aramızda regional vəziyyətə dair çox yaxşı anlaşma mövcuddur. Mən ölkəmizdə gedən sürətli inkişaf haqqında məlumat verdim. Azərbaycanın beynəlxalq aləmdəki rolu, xüsusən də regional təhlükəsizliyə verəcəyi töhfəsi təsvir olundu.

Ümumiyyətlə, ölkənizə səfərimdən çox razıyam. Apardığımız müzakirələr bizim üçün çox faydalı oldu və səmimi dostluq şəraitində keçdi. Beləliklə, Azərbaycana gələcək inkişaf üçün xoş təəssüratla qayıdacam.

Sual: Cənab Prezident, bəzi məsələlər var ki, onlar bizi xüsusilə maraqlandırır. Ölkələrimiz arasındakı münasibətlər ən qədim zəmanələrə təsadüf edir. Mənə mətbuat xidmətinizdən bildirdilər ki, Venesiyanın intibahı vaxtlarında, yəni XV əsrdə İtaliyanın Azərbaycanda səfirliyi olub. Lakin indi bir-birimizi o qədər də yaxşı tanımırıq. Bu baxımdan bütün vacib məsələlər barədə Sizin fikrinizi öyrənmək bizim üçün maraqlı olardı. Misal üçün, böyük mövzulardan başlayaq: İraqdakı müharibə və hazırkı durum. Bu məsələ ilə bağlı Sizin mövqeyiniz necədir?

Cavab: Əvvəla, onu deyim ki, dünyada insanlar bizim ölkə haqqında bir çox faktları bilmirlər. Baxmayaraq ki, bizim çox zəngin tariximiz var. Dünyanın bir çox xalqları ilə tarixi münasibətlərimiz var. Hazırda biz artıq suveren ölkəyik. Müstəqilliyimizi yalnız Sovet İttifaqının süqutundan sonra, 1991-ci ildə əldə etmişik. Bu gün deyə bilərik ki, bizim cəmi 14 yaşımız var. Yəni müstəqilliyimizin 14 ili ərzində bütün beynəlxalq birliklə münasibətlərimizi qurmuşuq və onları inkişaf etdiririk.

Təbii ki, keçmiş illər bizim üçün siyasi təsisatların formalaşdırılması və iqtisadi inkişaf sahəsində həlledici olmuşdur. Bu dövr ərzində biz totalitar sistemdən yeni sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçməyə nail olmuşuq. Bu keçid bizim üçün böyük çağırış olmuş, lakin eyni zamanda böyük imkanlar açmışdır.

O ki qaldı, Sizin sualınıza, xüsusən də İraqdakı vəziyyətlə bağlı deyə bilərəm ki, biz hamımız İraqda sülhün bərqərar olunmasında maraqlıyıq. Biz İraq xalqının tam təhlükəsiz şəraitdə yaşamasını, İraq cəmiyyətinin inkişafını görmək istəyirik. Bildiyiniz kimi, Azərbaycan İtaliya kimi dərhal koalisiyaya qoşulmuşdur. Biz İraqda sülh və təhlükəsizlik işinə böyük töhfə vermişik. Biz özümüz də münaqişədən əziyyət çəkmişik, müharibənin qurbanı olmuşuq. Bu günlərdə İraq xalqının çəkdiyi əzab-əziyyətləri yaxşı anlayırıq. İnsanların üzləşdiyi çətinlikləri də yaxşı başa düşürük. Ona görə də sülh və təhlükəsizliyin bərqərar olunmasına töhfə vermək üçün öz tərəfdaşlarımızla və dost ölkələrlə birgə işləyirik. Ümid edirəm ki, seçkilərdən sonra iraqlılar özləri öz ölkələrini idarə edəcək və gələcək taleyini özləri müəyyən edəcəklər. İnanıram ki, İraqdakı vəziyyət ciddi şəkildə sabitləşəcək və beləliklə, bu ölkəyə sülh və təhlükəsizlik yenə də qayıdacaqdır.

Sual: Hazırda ölkələrin üzləşdiyi problemlər həddindən artıq çoxdur. Zənn edirəm ki, Azərbaycan da demokratikləşmə yolunda müəyyən çətinliklərə baxmayaraq, irəliyə doğru addımlayacaqdır. Sizin fikrinizcə, ölkənin demokratikləşməsi istiqamətində bu gün hansısa ciddi maneələr mövcuddurmu?

Cavab: Müstəqilliyimizi qazandıqdan sonra biz nəinki çətinliklərlə üzləşdik, həm də açıq seçim qarşısında qaldıq. Misal üçün, biz o vaxt düşünməliydik ki, hansı yolla irəliyə gedəcəyik, ölkəni necə inkişaf etdirəcəyik. Azərbaycan xalqı seçimini etdi: beynəlxalq birliyə, Avropa strukturlarına tam inteqrasiya olunmaq yolunu tutdu. Eyni zamanda, ölkəmizdə demokratikləşmə prosesi başlandı. Təbii ki, bu proses müstəqil ölkə kimi qısa tarix baxımından uzun hesab edilə bilməz. Söhbət yalnız 14 ildən gedir, yəni bu müddət ərzində totalitar sistemdən demokratik sisteminə keçid o qədər asan deyildir. Lakin biz ilbəil ölkəmizin demokratik təsisatlarını inkişaf etdiririk. Cəmiyyətimizdə demokratikləşmə prosesi davam edir. Bu baxımdan, hesab edirəm ki, biz bu sahədə gözəçarpan nəticələri əldə edə bilmişik. Beynəlxalq miqyasda baş verən hadisələr bizim diqqət mərkəzimizdədir.

Azərbaycan Avropa Şurasının üzvüdür. Bildiyiniz kimi, bu təşkilat demokratiyanın təsviqi və insan hüquqlarının qorunması prinsiplərini əsas tutur. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində böyük işlər aparmışıq. Avropada əsas sayılan qanunların qəbul olunması məqsədi ilə ölkədə islahatları daha da inkişaf etdiririk. Bu istiqamətdə, biz irəliləməyi davam etdirəcəyik. Biz öz üzərimizə çox strateji öhdəlik götürmüşük. Azərbaycan açıq bəyan edib ki, ümumi dəyərləri qəbul edir və demokratikləşmə prosesini davam etdirmək əzmindədir.

Üzləşdiyimiz problemlərə gəldikdə isə, deyə bilərəm ki, ölkəmizdə bir sıra problemlər mövcuddur. Ən böyük problemlərdən biri isə, Ermənistanın Azərbaycana qarşı davam edən işğalıdır. Bu təcavüz və etnik təmizlənmə nəticəsində ərazimizin 20 faizi zəbt edilib, bir milyon qaçqın və məcburi köçkünümüz var. Bu, bizim ən ciddi problemimizdir. Mən hətta deyərdim ki, bu problem dünyada ən ağır problemlərdən biridir.

Bundan başqa, ölkəmizdə mövcud olan digər böyük problem yoxsulluq problemidir. Əldə etdiyimiz gözəçarpan iqtisadi nailiyyətlərlə yanaşı, bir sıra faydalı sosial proqramlar həyata keçirilir. Əgər nəzər salsanız görərsiniz ki, son illər ərzində Azərbaycandakı illik iqtisadi artım orta hesabla 10 faiz olmuşdur. Gələcəkdə bu göstərici daha da artacaqdır. Buna baxmayaraq, hələ də bir çox insanlar yoxsulluq səviyyəsindən aşağı yaşayırlar. Təbii ki, bir çox insanların yoxsul yaşadığı şəraitdə normal və demokratik cəmiyyət yaratmaq mümkün deyildir. Məlumdur ki, yoxsul şəraitdə yaşayan insanlar hər gün öz həyatını düşünürlər. Onlar hər zaman fikirləşirlər ki, öz uşaqlarını necə yedizdirsinlər. Bu, onların gündəlik ehtiyacıdır.

Beləliklə, bu cür məsələləri həll etmək üçün iqtisadiyyatı inkişaf etdirməli və yeni iş yerləri açmalıyıq, yeni strukturlar yaratmalıyıq. Hər bir vətəndaş üçün yeni imkanlar yaradılmalıdır. Yalnız bu nəticələrə nail olduqdan sonra cəmiyyətimiz yeni demokratik dəyişikliklərə tam hazır olacaqdır. Bu istiqamətdə biz üzərimizə öhdəliklər götürmüşük və bu yolla getməyi davam etdirəcəyik.

Sual: Ümumiyyətlə, çox maraqlı fakt əldə etmişik. Yəni son əlli il ərzində bütün dünya ölkələrində vəziyyət öyrənildikdən sonra, belə bir qənaətə gəliblər ki, ümumi daxili məhsulun adambaşına illik həcmi 6 min ABŞ dollarından aşağıdırsa, həmin ölkədə demokratiya risk altındadır. Lakin bu göstəricidən yuxarı olan ölkələrdə demokratiya sabit olaraq qalır. Sizin ölkədəki vəziyyət necədir?

Cavab: Bizim ölkəmizdə ümumi daxili məhsulun adambaşına illik həcmi 1000 ABŞ dollarıdır. Lakin əgər bunu biz beş il bundan əvvəlki göstərici ilə müqayisə etsək görərik ki, o vaxt bu rəqəm cəmi 300 ABŞ dolları səviyyəsində idi. Hazırda iqtisadi artım sürətlənir. Ümumi daxili məhsul get-gedə artır və gələcəkdə daha yüksək göstəricilər əldə edəcəyik. Amma, sizin söylədiyiniz fikirlə də razıyam. Yoxsul ölkələrdə sosial problemlər daha ağırdır.

Misal üçün, işsizlik və yoxsulluq problemləri var. Belə bir şəraitdə Avropanın inkişaf etmiş ölkələrindəki kimi demokratik cəmiyyət qurmaq çox çətindir. Reallıq bundan ibarətdir. Bütün bunlar nəinki hökumətin iradəsindən və ya siyasətindən asılıdır, eyni zamanda? qanunvericilik sahəsində atdığımız addımlar, güclü demokratik cəmiyyətin qurulmasına yönəlmiş qanunların qəbulu da çox vacibdir. Belə təşəbbüslər və iqtisadi inkişaf arasında mövcud olan fərqə nəzər salsaq, onda anlaya bilərik ki, bütün bu işlər nə dərəcədə əhəmiyyətlidir. Bu gün bizim əsas məqsədimiz və başlıca vəzifəmiz mümkün qədər güclü iqtisadiyyatın yaradılmasıdır.

Sizə deyə bilərəm ki, 2003-cü ilin oktyabr ayında prezident seçkilərindən sonra biz 170.000 yeni iş yeri açmışıq. Bunların əksəriyyəti aqrar rayonlarda yaradılıb. Yeni iş yerlərinin açılması həyata keçirdiyimiz iqtisadi inkişaf proqramlarının əsasını təşkil edir. Onu da deməliyəm ki, əldə etdiyimiz nəticələr kifayət qədər yaxşıdır.

Azərbaycan, eyni zamanda enerji layihələrinin həyata keçirilməsində çox fəaldır. Bu, nəqliyyat layihələrinə də aiddir. Hazırda bəyan edə bilərik ki, biz uğurlu gələcəyimizə inamla baxırıq. Ümid edirik ki, gələn 3-5 il ərzində biz istədiyimiz nəticələri görəcəyik və Azərbaycan iqtisadi baxımdan çox güclü dövlətə çevriləcəkdir. Lakin indi biz iqtisadi inkişafımızın ilkin mərhələsindəyik. Beləliklə, lazımi nəticələri əldə etmək üçün bütün imkanlardan istifadə edəcəyik.

Sual: Bütün çətinliklərə baxmayaraq, əldə etdiyiniz nəticələr böyükdür. Hazırda Bakıdan çox vacib neft kəmərləri gedir. Çünki Xəzər dənizindəki neft və qaz yataqları olduqca böyük əhəmiyyət daşıyır. Yəni dünyada ən böyük yataqlardan biridir. Bu neft kəmərləri nə dərəcədə Sizin iqtisadiyyatınız üçün faydalıdır və nə dərəcədə sabitlik üçün risklidir?

Cavab: Əgər biz neft kəmərləri haqqında danışırıqsa, bu layihələr ölkəmiz üçün çox sərfəlidir. Mən bunu ona görə deyirəm ki, burada söhbət nəhəng enerji layihəsindən gedir. Bu layihəyə qoyulan sərmayələrin həcmi 3 milyard ABŞ dollarıdır. Bu kəmər bizim

üçün geniş tranzit imkanlarını açacaq və neft məhsullarımızı dünya bazarlarına çıxaracaqdır. Azərbaycan gələn 3-4 il ərzində neft hasilatını artıracaq və bu, gündə bir milyon barrel təşkil edəcəkdir. Beləliklə, görürsünüz ki, gəlirlərimiz artacaqdır. Bundan başqa, neft kəməri regional əməkdaşlığa da böyük töhfə verəcəkdir. Çünki bu kəmər üç ölkənin - Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçir. Bu üç ölkə arasındakı regional əməkdaşlıq çox yüksək səviyyədədir. Yeni neft kəməri mövcud olan münasibətləri daha da sıx edəcəkdir.

Hesab edirəm ki, neft kəməri həmçinin regional təhlükəsizliyin qorunmasında böyük rol oynayacaqdır. Regionun sabitliyinə xidmət edəcəkdir. Çünki bildiyiniz kimi, əfsuslar olsun ki, Cənubi Qafqaz regionu əsrlər boyu münaqişələr məkanı olubdur. Ümid edirik ki, çəkiləcək yeni neft kəməri regionda sülhün və demokratiyanın daha da möhkəmlənməsinə töhfə verəcəkdir. Neft kəməri ölkələrimizi zənginləşdirəcək və əldə etdiyimiz gəlirlər sayəsində vətəndaşlarımız daha yaxşı yaşayacaqlar.

Beləliklə, adambaşına ümumi daxili məhsulun indiki 1000 dollarlıq həcmi daha da artacaqdır. Bütün bu nailiyyətlər avtomatik olaraq demokratiyanı və daimi sabitliyi inkişaf etdirəcəkdir. Yəni bu neft kəmərinin reallaşmasından sonra mən heç bir risk görmürəm.

Bu, yalnız gəlir gətirə bilər. Ehtimal olunan hər hansı bir risk istisna edilir. Çünki bu layihənin mümkün olacaq riskləri hətta 1994-cü ilin əvvəlində müzakirə olunmuşdur. O vaxt biz böyük çətinliklərlə üzləşmişdik. Bu maneələr həm xaricdə, həm də ölkə daxilində mövcud idi. Tez-tez dövlət çevrilişinə cəhdlər baş verirdi. Bunun bir səbəbi də o idi ki, Azərbaycan neft kəmərini öz maraqlarına uyğun olaraq planlaşdırırdı. Daha sonra digər təhlükələr özünü büruzə verdi. Bütün bu faktlar birbaşa həmin neft kəməri ilə bağlı idi. Bu neft kəməri bizim gələcəyimiz üçün olduqca vacibdir. Yəni bu kəmər olmasa, Azərbaycan öz neftini nəql edə bilməyəcəkdir. Əgər nefti hasil edirsənsə, lakin onu dünya bazarlarına çıxara bilmirsənsə, demək, onu hasil etməyə dəyməz.

Beləliklə, əgər söhbət risklərdən gedirsə, bu, artıq keçmişə aid olan məsələdir. Biz inanırıq ki, bu il yeni neft kəmərini istismara verə biləcəyik və neftin yeni marşrutla nəqli başlayacaqdır. Hamı, o cümlədən bizim dostlarımız bu imkandan yararlanacaqdır.

Sual: Biz bilirik ki, boru kəmərlərinin çəkilməsi ilə məşğul olan bütün ölkələr müəyyən problemlərlə üzləşmişlər: Əfqanıstan, Gürcüstan, Ukrayna, Çeçenistan. Mən arzulayıram ki, belə problemlər Sizin ölkənizdən yan keçsin. Lakin yenə də bilmək istəyirəm ki, nəyə görə Siz belə problemlərinizin olmayacağına əminsiniz?

Cavab: Bilirsiniz, bizim vəziyyətimizi digər ölkələrdə baş verən hadisələrlə müqayisə etmək çətindir. Bunun səbəblərini anlamaq o qədər də asan deyildir. Hər bir ölkənin öz xüsusi səbəbləri var. Hər bir sabitlik üçün təhlükə də var. Əgər müasir tariximizə nəzər salsaq görərik ki, Azərbaycanda da oxşar problemlər baş vermişdir. 1991-ci ildə müstəqillik qazandıqdan sonra ilk vaxtlar dəfələrlə ölkədə dövlət çevrilişi özünü büruzə vermişdir. Yəni hökumət yalnız bir il hakimiyyətdə qaldıqdan sonra, hər hansı dövlət çevrilişi baş verirdi. Hökumətə qarşı silahlı əməliyyatlar keçirilir, hakimiyyətə yeni qüvvələr can atırdı.

Hesab edirəm ki, ölkəmizdəki sabit inkişaf məhz Azərbaycan rəhbərliyinin müdrikliyi və cəsarəti sayəsində mümkün olubdur. Mən 1993-cü ildən bəri hakimiyyətdə olan rəh-

bərliyi nəzərdə tuturam. Müxtəlif problemlərə, mürəkkəb geosiyasi vəziyyətə, Ermənistan tərəfindən ərazimizin işğalına və vətəndaş müharibəsinə baxmayaraq, Azərbaycan düzgün istiqamət seçib, irəliyə doğru addımlaya bildi. Ölkəmiz sabit inkişafa nail oldu, keçid dövrünü uğurla davam etdirdi.

Siyasi nailiyyətlərimizə nəzər salsaq, görərik ki, biz Avropaya və Avratlantik strukturlarına inteqrasiya istiqamətində uğurlar əldə etmişik. Siyasi və iqtisadi islahatlar aparırıq. Ölkə iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin cəlb edilməsinə nail olmuşuq. Bizim ölkə adambaşına olan xarici sərmayənin həcminə görə nəinki regionda, hətta Şərqi Avropa ölkələri arasında liderdir. Hesab edirəm ki, bu, əsas səbəblərdən biridir.

Eyni zamanda, düşünürəm ki, hökumət və xalq arasında olan etimad da vacibdir. Əgər xalq hökuməti, dövləti dəstəkləyirsə, onda həmin ölkə uğurla inkişaf edir və belə bir şəraitdə sabitlik pozula bilməz. Əgər əksinə olsa, yəni hökumət ilə xalq arasında inam olmasa, hər hansı mənfi hadisə baş verə bilər. Son on iki il ərzində Azərbaycanda ümumi vəziyyət çox müsbət olmuşdur. Faktiki olaraq, ölkəmizdəki siyasi vəziyyət tam sabitdir. Biz düşünülmüş daxili siyasət aparırıq. Bu siyasət milli maraqlarımızın müdafiəsinə yönəlibdir. Biz həm iqtisadi, həm enerji, həm də hərbi baxımdan heç bir digər ölkədən asılı deyilik. Müstəqilliyimiz, sadəcə bayrağımız kimi müstəqillik rəmzlərinə əsaslanmır. Ölkəmiz ona görə müstəqildir ki, Azərbaycan müstəqil siyasət yürüdür. Gördüyünüz kimi, indi bizim müstəqil siyasətimiz daha da güclənir. Məhz sadaladığım səbəblərə görə, bizim ölkə bəzi qonşu ölkələrin üzləşdiyi problemlərdən yan keçmişdir.

Sual: Cənab Prezident, icazə verin kiçik bir sual-cavab edək. Mən bir neçə suallar verim, Siz isə onları qısa şəkildə cavablandırın. Birinci sual: Sizin fikrinizcə, Azərbaycan özünü Avropaya, yoxsa Asiyaya yaxın hiss edir?

Cavab: Əgər 0 və 100 nisbətini götürsək, - o baxır söhbət nədən gedir. Misal üçün, mədəni baxımdan götürsək, mən deyərdim ki, Azərbaycan 50 faizdədir. Azərbaycan elə bir ölkədir ki, burada həm Avropa, həm Asiya mədəniyyətləri bir-birinə qovuşur. Əgər şəhərlərimizdəki memarlıq abidələrinə və binalara baxsaq görərik ki, yenə də Azərbaycanda həm Avropanın, həm də Şərqin təsiri var. İnsanların mentalitetinə gəldikdə isə, mən yenə də 50 faiz deyərdim. Əgər söhbət siyasi inkişafdan gedirsə, mən 80 faiz Avropa tərəfə danışardım. Çünki bu istiqamət siyasətimizin əsas hissəsidir. Nəzərə alsaq ki, Azərbaycan Avropa Şurasının üzvüdürsə, Avropa Birliyinin Yeni qonşuluq siyasətinə daxil edilibsə, onda görərik ki, bizim Avropa Birliyi ilə olan əməkdaşlığımız geniş vüsət almışdır. Biz Avropa ölkəsi kimi tanınırıq. Lakin eyni zamanda, bizim çox güclü adət-ənənələrimiz var. Təbii ki, milli mənliyimiz, mədəni irsimiz, dinimiz bizim üçün və gələcək nəsillər üçün çox dəyərlidir.

Bilirsiniz, yaxşı olardı ki, siz ölkəmizə səfər edəsiniz və bütün bunları özünüz görəsiniz. İtaliya və Azərbaycan bir-birilə sıx əməkdaşlıq edir. Artıq qeyd etdiyim kimi, ölkəmiz haqqında məlumat azdır. Biz bunu normal qəbul edirik, çünki ölkəmiz gəncdir. Bir çoxları Azərbaycanı hələ tanımır. Lakin biz ildən-ilə tanınırıq və inkişaf edirik. Hesab edirik ki, bizim Avropaya inteqrasiya siyasətimiz uğurla davam edəcəkdir.

Sual: Cənab Prezident, beləliklə, müzakirə etdiyimiz məsələyə qayıdaq. Siz ölkənizin adət-ənənələri və tarixi haqqında danışdınız. Sizin milli bayrağınızda aypara və səkkizguşəli ulduz təsvir olunubdur. Bu, türk bayrağına oxşayır. Bilirik ki, Siz Türkiyə ilə

həmsərhədsiniz. Siz hətta dediniz ki, həyatınız boyu Türkiyəni sevmisiniz və türkcə danışırsınız. Ümumiyyətlə, iki ölkə arasında hər hansı fərqlər varmı?

Cavab: Bilirsiniz, bunu demək çətindir. Hər hansı ölkənin, bir qayda olaraq, öz xarakterik xüsusiyyətləri var. Türklər bizim xalqımıza çox yaxındırlar. Onlar həm etnik, həm linqvistik baxımdan azərbaycanlılara çox yaxındırlar. Biz qarşılıqlı surətdə bir-birimizə çox hörmətlə yanaşırıq. Uzun illər ərzində, hələ Sovet İttifaqının bir hissəsi olan Azərbaycanın Türkiyə ilə, bizim türk qardaşlarımızla əlaqə yaratmaq imkanı yox idi. Yalnız müstəqilliyimizi qazandıqdan sonra, - onu da qeyd edim ki, Türkiyə müstəqilliyimizi tanıyan birinci ölkə oldu, - əlaqələrimizi qurmağa başladıq. Hazırda Azərbaycan ilə Türkiyə arasında olan münasibətlər çox yüksək səviyyədədir. İstər siyasi, istərsə də iqtisadi və ya mədəni baxımdan əlaqələrimiz çox yaxşıdır.

Lakin eyni zamanda, Türkiyə Türkiyədir, Azərbaycan isə Azərbaycandır. Faktiki olaraq, hər bir ölkənin öz problemləri var. Öz uğurları var. Bununla belə, münasibətlərimiz çox güclüdür, apardığımız əməkdaşlıq çoxşaxəlidir. Biz bir-birimizi hər zaman müxtəlif məsələlərdə dəstəkləyirik. Xüsusən də beynəlxalq təşkilatlar çərçivəsində istənilən məsələ üzrə bir-birimizə dəstək veririk. Türkiyə bizim bir nömrəli müttəfiqimizdir. Bizim Türkiyə ilə çox oxşarlıqlarımız var. Lakin fərqlərdən danışsaq, təbii ki, onlar da mövcuddur. Yəni bir ölkə digər ölkədən fərqlənir. Yaxşısı budur ki, biz bir-birimizi ayıran yox, əksinə birləşdirən məsələlər haqqında danışaq.

Sual: Şübhəsiz ki, Siz Türkiyənin Avropa Birliyinə qəbul olunmasını dəstəkləyirsiniz...

Cavab: Bəli.

Sual: Çox güman ki, bu hadisə baş versə, Siz hesab edirsiniz ki, Sizin ölkənin də növbəsi çatar?

Cavab: Biz bu məsələdə realist olmalıyıq. Bu gün Azərbaycanın reallıqları var ki, onlar Avropa Birliyinin tələblərinə cavab vermir. Lakin bütün bizim siyasətimiz Avropaya tam inteqrasiya olunmaq məqsədi daşıyır. Biz Avropa ilə daha sıx əlaqələr qurmaq istəyirik. Təbii ki, bir neçə il keçdikdən sonra bəlkə bizim üçün də belə bir imkan yaranacaq və bu məsələni nəzərdən keçirəcəyik. Azərbaycan da öz növbəsində Avropa Birliyinə və ümumiyyətlə, Avropaya öz töhfəsini verə bilər. Ölkəmizin zəngin tarixində bir çox mühüm faktlar mövcuddur. Bizim böyük potensialımız var. Məhz bu səbəbə görə də, biz həqiqətən istəyirik ki, Azərbaycan ilə Avropa Birliyi arasında daha geniş əməkdaşlıq aparaq. Bu əməkdaşlıq, eyni zamanda bizim Avropa ölkələri ilə olan sıx münasibətlərimizə arxalanır.

Misal üçün, bu baxımdan İtaliya ilə olan əlaqələrimiz vacib əhəmiyyət daşıyır. İtaliya hər zaman bizim inteqrasiya siyasətimizi dəstəkləyibdir. Şübhəsiz ki, biz bunu yüksək dəyərləndiririk. Çünki biz Avropa Birliyi ilə münasibətlərimizi, eyni zamanda bu təşkilatın üzvü olan ölkələrlə ikitərəfli əlaqələrimiz əsasında qururuq.

Sual: Sizin İranla uzun sərhədiniz var. Uzun əsrlər boyu Sizin bu ölkə ilə münasibətləriniz olub. Bu günlərdə, Siz Birləşmiş Ştatlarla birgə eyni koalisiyanın üzvüsünüz. Lakin Birləşmiş Ştatlar və İran arasında olan gərginliyi nəzərə alsaq, gələcəkdə iki tərəf arasında münasibətlərin daha da ağırlaşacağı təqdirdə Sizin mövqeyiniz necə olacaqdır?

Cavab: Biz İraqdakı koalisiyanın üzvüyük. İran bu koalisiyaya aid deyildir. Siz düzgün

qeyd etdiniz ki, bizim İranla uzun sərhədimiz var. İranla olan münasibətlərimiz çox yaxşıdır. Bu yaxınlarda mən İranda rəsmi səfərdə olmuşam. Ötən il İran Prezidenti bizim ölkəyə səfərə gəlmişdi. Biz İranla bir sıra ikitərəfli sənədlər imzalamışıq. Bu sazişlər iqtisadi əməkdaşlığa da aiddir. Biz bu ölkə ilə iqtisadi münasibətlərimizin daha da inkişaf etməsindən çox məmnun olardıq. Eyni zamanda, Azərbaycan və İran arasında regional inkişaf sahəsində ümumi anlaşma mövcuddur. Biz İranın daxili işlərinə qarışmırıq. İran isə eynilə bizim daxili işlərimizə hörmətlə yanaşır. Bu ölkə ilə olan əlaqələrimiz qarşılıqlı hörmət və etimad prinsipinə əsaslanır.

Təbii ki, nə Azərbaycan, nə də İran sabah bir-birinə qarşı heç bir addım atmazlar. Biz sülh şəraitində yaşamaq istəyirik. Çalışmalıyıq ki, ölkəmizdə və ümumiyyətlə regionumuzda yalnız sülh olsun. Hesab edirəm ki, bu, ən önəmli yoldur. Çünki yalnız əməkdaşlıq və anlaşma yolu ilə müxtəlif mürəkkəb məsələlər öz həllini tapa bilər. Bu baxımdan mən əminəm ki, bizim tərəfimizdən İrana və yaxud əksinə, heç vaxt heç bir təhlükə ola bilməz.

Sual: Beləliklə, biz gəlib İranın nüvə proqramı probleminə çıxırıq. Siz inanırsınız ki, İranın sərəncamında nüvə silahı ola bilər?

Cavab: Birincisi, atom bombasının olması ilə bağlı heç bir sübut yoxdur. İranın rəhbərliyi tərəfindən verilən bəyanatlara uyğun olaraq, onların bütün nüvə proqramları dinc məqsədlərlə həyata keçirilir. Əgər heç bir dəlil yoxdursa, onda biz nəyə görə bu silahın olmasına inanmalıyıq? Hər bir ölkənin dinc məqsədlərlə nüvə proqramlarını inkişaf etdirməyə hüququ var.

Misal üçün, bizim sərhədlərimizin yaxınlığında atom elektrik stansiyası var. Bu stansiya Ermənistan ərazisindədir. Görürsünüz ki, biz bu məsələni problemə çevirmirik. Biz inanmırıq ki, İran nüvə silahını istehsal etməkdədir. Biz İranın rəhbərləri tərəfindən verilən bəyanatlara inanırıq. Bu baxımdan Beynəlxalq Atom Enerjisi Agentliyinin verdiyi bəyanatda da İranın nüvə proqramlarının dinc məqsəd daşıdığı artıq bildirilmişdir. İranın böyük həcmdə neft hasilatına baxmayaraq, bu ölkənin əlavə enerji mənbələrinə ehtiyacı var. Azərbaycan və İranın enerji sahəsində ümumi layihəsi var. İran bizə qışda elektrik enerjisi verir, biz isə İrana kənd təsərrüfatı məhsulları ixrac edirik. Beləliklə, bu ölkədəki elektrik stansiyaları sülh məqsədinə xidmət edir.

Sual: Moskva və Putin ilə münasibətləriniz necədir?

Cavab: Rusiyaya gəldikdə, bizim gözəl münasibətlərimiz var. Prezident Putinlə şəxsi münasibətlərimiz çox yüksək səviyyədədir. Hesab edirəm ki, Rusiya ilə əməkdaşlığın bugünkü səviyyəsi 1991-ci ildən etibarən görünməmiş yüksək səviyyəyə qalxmışdır. Ötən il ikitərəfli iqtisadi əməkdaşlığımız xeyli artmışdır və biz bundan çox məmnunuq. Rusiyanın bazarları bizim üçün çox vacibdir. Azərbaycandakı ticarət imkanları da Rusiyanın iş adamları üçün çox cəlbedicidir.

Biz çox şadıq ki, mövcud olmuş hər hansı çətinlik və problemlər artıq aradan qaldırılmışdır. 1990-cı illərin müəyyən hissəsində Rusiya ilə Azərbaycan arasında münasibətlər çox gərgin olmuşdur. Bunun səbəbi onunla izah oluna bilər ki, o vaxt Azərbaycana qarşı müharibə aparan Ermənistan Rusiyadan yardım alırdı. Artıq danılmaz faktdır ki, Rusiya qeyri-qanuni yolla Ermənistana külli miqdarda silah və sursat vermişdir. Bu

əməliyyatın həcmi 1 milyard ABŞ dollarından çox olmuşdur. Həmin vaxt böyük bir mübahisə yarandı. Rusiyanın Dövlət duması bu məsələnin araşdırılması məqsədi ilə geniş müzakirələr apardı. Sonra isə Prezident Putin hakimiyyətə gəldi və vəziyyət tamamilə dəyişdi. Rusiya Federasiyasının Prezidenti kimi Putin ilk dəfə olaraq Azərbaycana səfər etdi. Məhz bu səfərdən sonra ikitərəfli münasibətlər sabit şəkildə və uğurla inkişaf etməyə başladı.

Biz Xəzər dənizinin hüquqi statusu ilə bağlı mübahisəmizi həll edə bildik və digər problemləri aradan qaldırdıq. Misal üçün, nəqliyyat dəhlizləri. Biz neft məhsullarımızı Rusiyanın ərazisi vasitəsilə də nəql edirik. Rusiyadan təbii qaz alırıq. Beləliklə, qarşılıqlı faydalı münasibətlər qurmuşuq. Bu əlaqələr bizim üçün çox əhəmiyyətlidir. Biz qonşu ölkələrlə sülh şəraitində yaşamaq istəyirik. Təbii ki, belə olsa, Azərbaycan daha da təhlükəsiz şəraitdə yaşayacaqdır.

Sual: Cənab Prezident, yaxşı olardı ki, qaçqınlar probleminizi də həll edə biləsiniz.

Cavab: Biz qaçqın-köçkünlər probleminə diqqətlə yanaşırıq. Bu, ən ağır problemlərdən biridir. Təsəvvür edin ki, bir milyona yaxın insanın normal yaşamaq imkanı yoxdur. Hökumətimiz onların problemləri ilə məşğuldur. Onlar üçün əlimizdən gələni edirik. İmkanımızda olan bütün resurslar onların həyatının asanlaşdırılmasına yönəldilibdir. Lakin məsələnin özü həll olunmalıdır, işğala son qoyulmalıdır. Bu günlərdə bir çoxları Ermənistan və Azərbaycan arasında baş verən hadisələr haqqında məlumatlıdır. Uzun illər ərzində Ermənistan öz diasporu və lobbisindən istifadə edərək, təbliğat aparırdı ki, ictimai rəyi öz tərəfinə çəksin. Lakin hazırda bütün məsələlərə aydınlıq gətirilibdir.

Yanvar ayında Avropa Şurası Ermənistan və Azərbaycan arasında olan münaqişə ilə bağlı qətnamə qəbul edibdir. Həmin sənəddə aydın şəkildə yazılıb ki, məsələ həll olunmalıdır. Daha sonra deyilir ki, Ermənistan etnik təmizləmə siyasətini apararaq, Azərbaycan ərazisinin 20 faizini işğal edib və bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Beləliklə, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz artıq aydın şəkildə göstərilibdir. Avropa Şurası tərəfindən bir sıra sərt bəyanatlar verilibdir.

Əgər biz sülh yolu ilə münaqişənin həllindən danışırıqsa, bu, nə deməkdir? Cavab çox sadədir. Ermənistan torpaqlarımızın ilhaqı siyasətinə son qoymalıdır. Bundan sonra Dağlıq Qarabağa muxtariyyətin ən yüksək statusu verilə bilər. Dünyanın bir çox digər ölkələrində də belə muxtar regionlar var. Lakin bu o demək deyil ki, Azərbaycanda yaşayan ermənilər bizim ərazimizin bir hissəsini qoparıb Ermənistana birləşdirsinlər. Ermənilər Rusiyada, Amerikada, Fransada, Gürcüstanda yaşayırlar. Təsəvvür edin, əgər onlar yaşadıqları həmin ölkələrdə eynilə müstəqillik tələb etsələr, nələr baş verər! Nəhayət, erməni xalqı artıq öz müqəddəratını təyin edibdir. Ermənistan dövləti artıq mövcuddur.

Beləliklə, Ermənistan ərazi iddialarından əl çəkməli və işğal etdiyi torpaqlarımızdan öz silahlı qüvvələrini çıxarmalıdır. Bizim qaçqın-köçkünlər isə öz doğma yurd-yuvalarına qayıtmalıdırlar. Sonra isə, biz adekvat təhlükəsizlik zəmanəti verərək, onlarla sülh şəraitində yaşaya bilərik. Bütün digər variantlar istisna olunur. Bugünkü Azərbaycan Ermənistandan dəfələrlə güclüdür. Hazırda bizim iqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından beş dəfə yüksəkdir. Gələn 2-3 il ərzində bu, artıq on dəfə yüksək olacaqdır. Bi-

zim çox yaxşı inkişaf perspektivlərimiz var. Onların gələcəkdə belə imkanları yoxdur. Nəqliyyat sahəsində də imkanları məhduddur. Potensialları zəifdir, onlar diaspordan, digər ölkələrin yardımından asılıdırlar. Təbii ki, bu da çox çəkə bilməz. Ona görə hesab edirəm ki, ermənilər üçün ən yaxşı yol bu münaqişəyə tezliklə son qoymaqdır.

Biz hər dəfə soruşuruq: bu işğal nəticəsində ermənilər nəyə nail oldular? Digər ölkənin ərazisini işğal altında saxlamağa onları nə vadar edir? Beynəlxalq ictimaiyyət onları təcavüzkar hesab edir. Zənnimcə, əgər ermənilər bu iddialarından əl çəkə bilsələr, onların həyatı yaxşılaşacaqdır. Əgər bu, baş verməsə, onda heç bir nəticə olmayacaqdır. Çünki regional inkişaf olmadan, nəqliyyat xətləri açılmadan ermənilərin gələcəyi dumanlıdır.

Sual: Digər bir sualım var, bu beynəlxalq mövzuya aiddir. Sual bu günlərdə bir çoxlarının diqqət mərkəzində olan geosiyasi məsələ ilə bağlıdır. Söhbət Livanla Suriya arasındakı münasibətlərdən gedir. Sizin fikrinizcə, Suriya Livandan qoşunlarını çıxarmalıdır yoxsa, əksinə olmalıdır?

Cavab: Prinsip etibarilə, bizim bu məsələ ilə bağlı siyasətimiz birmənalıdır. Heç bir ölkə digər ölkənin istəyi olmadan onun ərazisində hərbi birləşmələrini saxlamamalıdır. Azərbaycanda heç bir dövlətin hərbi bazası yoxdur. Əvvəlcə, rusların qoşunları var idi, lakin bizim tələbimizlə, onlar ölkəmizi tərk etdilər. Gürcüstanda Rusiyanın hərbi bazaları var. Gürcüstan Rusiyadan qoşunların çıxarılmasını xahiş etsə də, hələ ki, bazalar tam çıxarılmayıbdır. Ermənistanda da Rusiyanın hərbi bazaları var. Lakin ermənilər ruslardan ölkədə qalmağı xahiş ediblər.

Dediyiniz məsələyə gəldikdə isə, əgər Livan hökuməti və xalqı digər ölkənin qoşunlarının çıxarılmasını istəyirsə, onda həmin hərbçilər Livanı tərk etməlidir. Yəni zorla heç bir hərbi qüvvə digər ölkənin ərazisində yerləşdirilməməlidir. Bu, bizim siyasətimizdir. Söhbət təkcə Azərbaycandan getmir. Gəlin məsələyə qlobal səviyyədə nəzər salaq. Əgər xalq xarici əsgərlərin ölkədən çıxarılmasını istəyirsə, onda qoşunlar həmin ərazini tərk etməlidir.

Sual: Qayıdaq yenə Azərbaycana və İtaliya ilə olan münasibətlərə. İki ölkə arasında olan mövcud ikitərəfli münasibətləri daha yüksək səviyyəyə qaldırmaq üçün nə etməliyik?

Cavab: İtaliyaya səfərim zamanı çox mühüm danışıqlar apardıq. Eyni zamanda, əhəmiyyətli biznes forum keçirildi. Bu gün səhər mən həmin forumda çıxış etdim. Forumda iştirak etmək üçün Azərbaycandan İtaliyaya 50-dən çox iş adamı gəlmişdir. Bir çox müqavilələr imzalandı. Belə bir tədbirin keçirilməsi bizim İtaliya ilə daha sıx iqtisadi əməkdaşlığın aparılmasında maraqlı olduğumuzu bir daha nümayiş etdirdi. Hazırda enerji sahəsində çox fəal işləyirik. Bir sıra italyan şirkətləri bizimlə tərəfdaşlıq edir, ölkəmizə sərmayə qoyublar. İqtisadiyyatın müxtəlif sektorlarında olan münasibətlərimiz qarşılıqlı marağa əsaslanır.

Ölkəmizin bugünkü təqdimatı çox əhəmiyyətli oldu. Bu forum potensial sərmayə imkanlarına malik olan digər italyan şirkətləri üçün də əhəmiyyətlidir. Əlavə olaraq Sizə deyə bilərəm ki, İtaliya bizim ən mühüm ticarət tərəfdaşlarımızdan biridir. Ötən ilin göstəricilərinə görə ölkələrimiz arasında ticarət dövriyyəsi 1,7 milyard ABŞ dolları sə-

viyyəsində olmuşdur. Bu, əsasən neft məhsullarının ixracı ilə bağlıdır. Hazırda iqtisadi münasibətlərimizi şaxələndirmək fikrindəyik. Misal üçün, indi Azərbaycanda bir çox yeni imkanlar açılıbdır. Yeni kənd təsərrüfatı müəssisələri, fabriklər yaradılmışdır. Həmin müəssisələrdə İtaliyanın texnologiyalarından istifadə edilir.

Məsələn, bir faktı nəzərinizə çatdırım. Hətta bu bir az təəccüblü olacaq. Biz Azərbaycanda motsarella pendirinin istehsalına başlamışıq. Çox yaxşı və dadlıdır. Keyfiyyəti isə çox yüksəkdir.

Görürsünüz ki, iqtisadi sahədə böyük işlər görə bilərik. Yaxşı iqlim şəraitimiz var, torpağımız münbitdir. Becərilən kənd təsərrüfatı məhsulları İtaliyadakı kimidir. Lakin sizdə yeni müasir texnologiyalar var. Bu sahədəki təcrübəniz də zəngindir. Biz bu sözləri tərif üçün demirik, çalışırıq ki, sizin təcrübənizdən faydalanaq. Biz qarşılıqlı maraq əsasında sıx əlaqələr yaradırıq.

Sual: Bilirik ki, əhalinizin sayı 8 milyondan çoxdur və əsas hissəsini müsəlmanlar təşkil edir. Lakin eyni zamanda ölkənizdə katoliklər, pravoslavlar və digər dinlərin nümayəndələri yaşayır. Onlar yan-yana sülh şəraitində yaşayıblar. Bu sahədə hər hansı ciddi problemləriniz olubmu?

Cavab: Bizim dini zəmində heç vaxt heç bir problemimiz olmayıbdır. Bu, Azərbaycana xas olan xüsusiyyətlərdən biridir. Ölkəmizdə dini dözümlülük çox yüksək səviyyədədir. Azərbaycanda dini azadlıq var, hər kəs öz dini baxışlarına uyğun şəkildə və xristian, katolik, pravoslav, yəhudi və müsəlman dinindən asılı olmayaraq, istənilən etiqadı seçə bilər. Bütün dinlər arasında sülh şəraiti var. Məlumat üçün deyə bilərəm ki, bu yaxınlarda Bakıda katolik kilsəsinin tikintisinə başlanacaqdır. Bizim cəmiyyətimizdə dözümlülük hər zaman mövcud olubdur. Bu, hətta sovet dövründə də var idi. Hətta dini zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycanda heç vaxt belə bir problem müşahidə olunmayıbdır. Bu xüsusiyyət cəmiyyətimizə xas olan ən müsbət cəhətlərdən biridir. Müxtəlif dinlərin nümayəndələri arasında tam anlaşma var. Mən bunları ona görə söyləmirəm ki, ölkəmi məhz müsbət mənada təsvir edim. Bu, reallıqdır. Ölkəmizi tanıyan şəxslərin hamısı təsdiqləyə bilər ki, dini zəmində bizim heç bir problemimiz olmayıb və əminəm ki, heç vaxt olmayacaqdır.

Sual: Cənab Prezident, söhbətimizi yekunlaşdıraraq, şəxsi həyatınızla bağlı sual vermək istərdim. Sizin üç övladınız var. Onlar nə ilə məşğuldurlar?

Cavab: Mənim uşaqlarımın hamısı təhsil alır. Mənim iki qızım var, onlar artıq universitetdə oxuyurlar. Oğlum isə hələ balacadır, məktəbə gedir. Ümidvaram ki, uşaqlarım təhsillərini uğurla başa vuracaq, cəmiyyətimizin layiqli üzvləri olacaqlar.

Sual: Növbəti sualım qeyri-adi olacaq. Sizin fikrinizcə, insanlar və xalqlar arasında sülhün bərqərar olunması üçün nə lazımdır? Dünyada əmin-amanlığı təmin etmək üçün hansı sirri bilmək lazımdır? Bunun üçün Siz nəyi seçərdiniz: məhəbbəti, təhsili, yoxsa tanışlığı?

Cavab: Şübhəsiz, bunların hamısı vacibdir. Lakin bu sualı daha sistemləşdirilmiş formada vermək lazımdır. Məncə, təhsili mən birinci vacib element kimi hesab edərdim. Çünki təhsil olmadan, savadlı nəsil olmadan, heç bir nailiyyət əldə etmək mümkün deyildir. Hazırda biz ölkəmizdə bir sıra təhsil proqramlarını sürətlə həyata keçiririk. Çünki indi

ölkəmizdə böyüyən gənclər tamamilə başqa mühitdə formalaşırlar. Yəni mənim həmyaşıdlarımla müqayisədə, indiki vəziyyət tamamilə fərqlidir.

Misal üçün, mən Sovet İttifaqında təhsil almışam. Yaxşı təhsil idi, lakin mənim elə imkanım olmayıb ki, gedim Avropanın və ya Amerikanın təhsil ocaqlarında təhsilimi davam etdirim. O vaxt bu, mümkün deyildi. Hər şey qadağan idi. Əksinə, indi gənc nəsil tam azaddır. Müstəqil ölkədə yaşayır. Gənclər asanlıqla istədiyi fakültəni və yaxud istədiyi təhsil ölkəsini seçir. Onlar özləri yaşayış yerlərini müəyyən edirlər. Zənnimcə, bu, üstün cəhətdir və xoşbəxtlikdir. Bəlkə də, gənc nəsil özü bunu anlamır. Ona görə anlamır ki, heç vaxt totalitar rejimdə yaşamayıbdır. Yəni gənc nəsil azad bir ölkədə, bazar iqtisadiyyatı şəraitində böyüyür. Buna görə də təhsil məsələsi öncül xarakter daşımalıdır. Əgər tarixdə ən böyük nailiyyətləri əldə etmiş ölkələrə nəzər salsaq görərik ki, həmin ölkələrdə təhsilin inkişafına böyük diqqət yetirilirdi. Biz də istəyirik ki, bu istiqamətdə atdığımız addımları davam etdirək və bu modeldən istifadə edək.

Aparıcı: Cənab Prezident, sağ olun!

İlham Əliyev: Sağ olun! Təşəkkür edirəm.

Aparıcı: Bizimlə olmağınıza görə Sizə minnətdarıq. Beləliklə, müsahibəmiz başa çatdı.

AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA BEŞ SƏNƏD İMZALANMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi səfəri çərçivəsində fevralın 25-də beş sənəd imzalanmışdır.

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair bəyannamə"ni və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin bərpası sahəsində əməkdaşlığa dair bəyannamə"ni Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu, İtaliya tərəfdən isə Mədəni İrs və Mədəni Fəaliyyət naziri Culiano Urbani imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və İtaliya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu"nu Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov və İtaliyanın ədliyyə naziri Roberto Kastelli imzaladılar. "Bakı Şəhər İcra Hakimiyyəti və Roma Şəhər Meriyası arasında dostluq və əməkdaşlıq haqqında protokol"u Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Roma şəhərinin vitse-meri Mariapia Qaravalia imzaladılar. "Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və İtaliya Milli Olimpiya Komitəsi arasında texniki və idman sahələrində əməkdaşlıq haqqında saziş"i Azərbaycan MOK-un baş katibi Ağacan Abiyev və İtaliya MOK-un baş katibi Raffaelle Panozzi imzaladılar.

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan dövlətinə rəsmi səfəri davam edir.

VATİKANDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vatikan Dövlətinə gəlmişdir. Prezident İlham Əliyevin şərəfinə İsveçrə qvardiyasının fəxri qarovul dəstəsi düzülmüşdü.

Burada Azərbaycan Prezidentinin təntənəli qarşılanma mərasimi oldu. Prezident İlham Əliyevi müqəddəs taxt-tacın prefekti monsenyor Xarven, prefektin müavini Paolo de Nikolo, İsveçrə qvardiyasının komandanı, Kardinallar kollegiyasının üzvləri, Roma Papasının digər rəsmi nümayəndələri ehtiramla qarşıladılar.

Monsenyor Xarven Azərbaycan dövlətinin başçısını qarşılayanları ona təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Vatikanın dövlət katibi kardinal Ancelo Sodano ilə təkbətək görüşü oldu. Kardinal Sodano Azərbaycan dövlətinin başçısını səmimiyyətlə salamladı, onun İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfərini yüksək dəyərləndirdi. O, Azərbaycan Prezidenti İlham Əliyevə Vatikan Dövlətinin başçısı, zati-müqəddəsləri Papa II İohann Pavelin salamlarını çatdırdı.

Azərbaycanın müstəqilliyinin Vatikan Dövləti tərəfindən 13 il bundan əvvəl tanındığını bildirən Ancelo Sodano vurğuladı ki, Papa II İohann Pavel dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün insanların, xalqların dostu kimi tanınır.

Özünə və ölkəmizin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı Vatikanı ziyarət etdiyini, Papa II İohann Pavel ilə görüşüb ətraflı fikir mübadiləsi apardığını, eyni zamanda Vatikan Dövləti başçısının Azərbaycana səfərinin də uğurla keçdiyini xatırlatdı. Prezident İlham Əliyev zati-müqəddəsləri Papa II İohann Pavelə Tanrıdan şəfa dilədi.

Görüşdə Azərbaycanla Vatikan Dövləti arasında əlaqələrdən də söhbət getdi. Kardinal Ancelo Sodano bildirdi ki, Azərbaycanda tikilməkdə olan katolik kilsəsinin açılış mərasimində iştirak etmək üçün Bakıya gələcəkdir.

Prezident İlham Əliyev ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, həyata keçirilən islahatlardan ətraflı söhbət açdı. Daha sonra xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və onun respublikamız üçün faciəli nəticələrindən bəhs edən Prezident İlham Əliyev dedi ki, Ermənistan qeyri-konstruktiv mövqe tutduğuna görə, məsələnin sülh yolu ilə aradan qaldırılması mümkün olmur. Bu məsələdə Azərbaycanın mövqeyini açıqlayan Prezident İlham Əliyev bildirdi ki, mötəbər beynəlxalq təşkilatlar və dünyanın nüfuzlu dövlətləri münaqişənin tezliklə həll edilməsi üçün səylərini gücləndirməlidir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

Görüşdən sonra Azərbaycan Prezidenti dövlət katibi Ancelo Sodanoya xatirə hədiyyəsi təqdim etdi. Vatikanın dövlət katibi Prezident İlham Əliyevə, habelə Azərbaycan nümayəndə heyətinin üzvlərinə hədiyyələr və üzərində II İohann Pavelin şəkli olan xatirə medalları təqdim etdi.

Sonra Prezident İlham Əliyevi müqəddəs taxt-tacın prefekti monsenyor Xarven, prefektin müavini Paolo de Nikolo, İsveçrə qvardiyasının komandanı, Kardinallar kollegiyasının üzvləri, Roma Papasının digər rəsmi nümayəndələri hörmətlə yola saldılar.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ PROKURORU RƏŞİD TUSUPBEKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında Qazaxıstan Respublikasının Baş prokuroru Rəşid Tusupbekovu qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji əməkdaşlıq ruhunda sürətlə inkişaf etməsindən məmnun olduğunu bildirmişdir. Prezident İlham Əliyev qeyd etmişdir ki, ölkələrimiz dövlət müstəqilliyi qazandıqdan sonra müasir mərhələdə əlaqələrimizin əsasının qoyulmasında xalqımızın ümummilli lideri Heydər Əliyev ilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında olan səmimi dostluq münasibətləri müstəsna rol oynamışdır. Dövlətimizin başçısı demişdir ki, ümummilli liderimizin dəfn mərasimində Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin iştirakı Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilmişdir.

Prezident İlham Əliyev bildirmişdir ki, hazırda Azərbaycan və Qazaxıstan prezidentləri arasında da mövcud olan səmimi münasibətlər əməkdaşlığın daha da genişləndirilməsi işinə böyük təkan verir. Ötən il Qazaxıstana rəsmi səfərinin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı İlham Əliyev səfər zamanı imzalanmış sənədlərin reallaşdırılmasının ölkələrimizi bir-birinə daha da yaxınlaşdırdığını nəzərə çarpdırmışdır.

Azərbaycanın və Qazaxıstanın regionda və daha geniş məkanda baş verən siyasi proseslərdə, qlobal iqtisadi layihələrin həyata keçirilməsində mühüm rol oynadığını bildirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq məsələlərdə də bir-birini dəstəklədiyini vurğulamışdır. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Qazaxıstanın beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq Azərbaycanın ədalətli mövqeyini daim dəstəklənməsi yüksək qiymətləndirilmişdir.

Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında Xəzərin dibinin bölünməsi barədə sazişin imzalanmasını, karbohidrogen ehtiyatlarının nəql edilməsi sahəsində əməkdaşlığı münasibətlərimizin yaxşı nümunəsi kimi dəyərləndirmişdir. Ölkələrimizin müxtəlif dövlət strukturları, hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyəsindən razılığını vurğulayan Prezident İlham Əliyev demişdir ki, müstəqilliyin daha da möhkəmləndirilməsində, sabitliyin təmin olunmasında prokurorluq orqanlarının rolu böyükdür. Dövlətimizin başçısı Azərbaycan və Qazaxıstanın prokurorluq orqanları arasında əməkdaşlığın daim imkişaf edəcəyinə əmin olduğunu bildirmişdir.

Qazaxıstanın Baş prokuroru Rəşid Tusupbekov Prezident Nursultan Nazarbayevin ehtiramını və salamlarını Prezident İlham Əliyevə çatdırmış, Qazaxıstan rəhbərinin Azərbaycanla əlaqələrə daim böyük diqqət yetirdiyini bildirmişdir. Cənab Rəşid Tusupbekov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında mövcud olmuş səmimi dostluq münasibətlərinin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə möhkəm təməl yaratdığını nəzərə çarpdırmışdır.

Azərbaycanda və Qazaxıstanda ictimai-siyasi sabitliyin mövcud olmasının ölkələrimizin iqtisadi inkişafına böyük təkan verdiyini söyləyən qonaq səfəri zamanı Azərbaycanda çox böyük inkişafın şahidi olduğunu bildirmiş, bu sürətli yüksəlişin, habelə Səngəçal terminalında gedən işlərin, Bakıda tikintinin vüsətinin onun başçılıq etdiyi nümayəndə heyətində böyük təəssürat yaratdığını vurğulamışdır.

Hər iki ölkənin prokurorluq orqanlarının uğurlu əməkdaşlığından məmnunluqla bəhs edən qonaq səfər zamanı Bakıda imzalanmış Azərbaycan və Qazaxıstan baş prokurorluqları arasında hüquqi yardım göstərilməsinə dair sazişi bu əlaqələrin yaxşı nümunəsi kimi dəyərləndirmişdir. O, prokurorluq orqanlarının əlaqələrinin həm iki ölkə arasında əməkdaşlığın genişləndirilməsində, həm də beynəlxalq məsələlərin həllində, o cümlədən ekstremizmə, terrorizmə qarşı mübarizədə mühüm rol oynayacağına əminliyini vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Prezident sarayında İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Cənab Səfəri dövlətimizin başçısına İran Prezidenti Məhəmməd Xatəminin salamlarını və bu yaxınlarda Tehranda məsciddə baş vermiş yanğın və Zərənddəki zəlzələ ilə əlaqədar başsağlığı məktublarına görə minnətdarlığını çatdırdı. O, Azərbaycan Prezidentinin İrana bu yaxınlarda rəsmi səfərinin uğurla keçdiyini vurğulayaraq, İran tərəfinin səfər zamanı imzalanmış sənədlərin həyata keçirilməsi istiqamətində konkret məsələlər üzərində işlədiyini qeyd etdi. Mehdi Səfəri əlaqələrimizin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini vurğuladı.

Dövlətimizin başçısı İran Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarının Prezident Məhəmməd Xatəmiyə çatdırılmasını xahiş etdi. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə və xalqlarımızın maraqlarına uyğun şəkildə inkişaf etməsindən razılığını ifadə edən Prezident İlham Əliyev İrana rəsmi səfərindən, ölkənin rəhbərləri ilə keçirdiyi görüşlərdən məmnunluğunu bildirdi. O, Tehranda imzalanmış sənədlərin, aparılan danışıqların və müzakirələrin xalqlarımızın bir-birinə daha da yaxınlaşması baxımından əhəmiyyətli olduğunu qeyd etdi. Dövlətimizin başçısı həmçinin Təbrizə səfərinin yüksək şəkildə təşkil edildiyini vurğuladı. Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev martın 4-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Gürcüstanın Baş nazirinin səfərini fikir mübadiləsi aparmaq, qazanılmış uğurlara yekun vurmaq və əməkdaşlığın gələcək inkişaf yollarını müəyyən etmək baxımından daha bir imkan kimi səciyyələndirən Prezident İlham Əliyev son bir ildə ticarət dövriyyəsinin 1,7 dəfə artmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı dedi ki, bu artım Azərbaycan və Gürcüstanın iqtisadiyyatlarının uğurlu inkişafını, iqtisadi potensialının güclənməsini, habelə ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə fəal inkişaf etdiyini göstərir. Ötən il birgə iqtisadi komissiyanın yaradılmasının da bu sahədə böyük rolu olmuşdur. Hesab edirik ki, iqtisadi əməkdaşlıq sahəsində daha böyük potensial mövcuddur və biz bütün bu imkanlardan maksimum istifadə etməyə çalışacağıq. İkitərəfli münasibətlər baxımından ölkələrimiz arasında qarşılıqlı anlaşma, əməkdaşlıq və qarşılıqlı dəstək ən yüksək səviyyədədir. Prezident Mixail Saakaşvilinin Azərbaycana səfəri və mənim Gürcüstana səfərim ölkələrimizin nə qədər yaxın olduğunu, ikitərəfli formatda və regional məsələlərdə səylərimizi necə sıx əlaqələndirdiyimizi göstərdi ki, bu da münasibətlərin gələcək inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev daha sonra xatırlatdı ki, biz həmişə demişik ki, Azərbaycanın əmin-amanlığı Gürcüstanın əmin-amanlığından asılıdır. Ümidvaram ki, Gürcüstanın əmin-amanlığı da Azərbaycanın əmin-amanlığından asılıdır. Biz ənənəvi olaraq, tarixən və mədəni baxımdan bir-birimizə çox yaxın olmuşuq və ölkələrimizin inkişafının hazırkı mərhələsində Gürcüstanın və Azərbaycanın yeni rəhbərliyi arasında olan tam qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və dostluq çox əhəmiyyətlidir.

Gürcüstana rəsmi səfəri zamanı söylədiyi "biz prezidentlər dostluq edirik və hamı da dostluq etməlidir" sözlərini bir daha yada salan dövlətimizin başçısı Gürcüstanda yaşayan azərbaycanlıların da rəhbərlər arasındakı belə səmimi münasibəti hiss etdiklərini qeyd etdi. Prezident İlham Əliyev Prezident Mixail Saakaşvili ilə Marneuli rayonuna etdikləri səfəri mühüm hadisə kimi dəyərləndirdi və Azərbaycan rəhbərliyinin yerli hakimiyyət orqanları ilə birlikdə bu bölgədə sosial infrastrukturun, idmanın və digər sahələrin inkişafına yardım göstərməyə çalışdığını bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, prezidentlərin qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar uğurla yerinə yetirilir. O cümlədən humanitar sahədə - məktəblərin kitablarla təmin olunmasında, teatrların fəaliyyətinin təmin edilməsində böyük irəliləyiş vardır. Mənim sərəncamımla Azərbaycandakı gürcü teatrına dövlət teatrı statusu verilmişdir və onun fəaliyyətinə hər cür yardım göstəriləcəkdir.

Əməkdaşlıq sahəsindəki nailiyyətlərdən məmnunluğunu bir daha vurğulayan Prezident İlham Əliyev Gürcüstanın uğurlarının, iqtisadi potensialının güclənməsinin, beynəlxalq və regional məsələlərdə rolunun artmasının sevindirici olduğunu söylədi, Prezident Mixail Saakaşviliyə özünün ən xoş, dostluq arzularını çatdırmağı xahiş etdi. Eyni zamanda, Zurab Noğaidelini Baş nazir təyin olunması münasibətilə təbrik etdi, yeni vəzifəsində

ona uğurlar arzuladı.

Zurab Noğaideli onun üçün çox əziz və sevimli şəhər olan Bakıya səfərindən məmnunluğunu söylədi və ölkələrimiz arasındakı dostluğu iki xalqın hər bir nümayəndəsinin dostluq münasibətlərinin nəticəsi kimi səciyyələndirdi. O dedi: "İcazənizlə, mən Sizin atanız, Prezident Heydər Əliyevin son illər təkcə Azərbaycanın inkişafında deyil, habelə Gürcüstan-Azərbaycan əlaqələrinin və Gürcüstanın bir dövlət kimi inkişafında rolunu xüsusi olaraq vurğulamaq istəyirəm. Hesab edirəm ki, onun xidmətləri çox mühümdür və biz bunu unutmuruq, həmişə minnətdarlıq hissi ilə xatırlayırıq və xatırlayacağıq".

Gürcüstanın Baş naziri öz fəaliyyətində ikitərəfli əlaqələrin inkişafına daha böyük dinamizm vermək üçün səy göstərəcəyini və bundan ötrü bütün sahələrdə böyük potensial olduğunu söylədi. O, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, iqtisadi və ticarət əlaqələri sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi və hökumətlərarası komissiyanın iclasında müzakirə olunan digər məsələlər barədə məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçi qəbul etmişdir.

Dövlətimizin başçısı maestro Mstislav Rostropoviçin Azərbaycana növbəti səfərindən məmnunluq duyduğunu bildirdi və onun rəhbərliyi altında konsertin Azərbaycanda həmişə olduğu kimi, indi də böyük maraqla gözlənildiyini vurğuladı.

Mstislav Rostropoviç öz vətənində olmağından qürur hissi keçirdiyini bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin sayəsində Azərbaycanla əlaqələrinin daim yüksək səviyyədə saxlanıldığını və bu əlaqələrin Prezident İlham Əliyevin fəaliyyəti dövründə də uğurla davam etdirildiyini vurğuladı.

Fransada UNESCO-nun xoşməramlı səfirlərinin illik iclasında iştirakına toxunan dünya şöhrətli musiqiçi Azərbaycan Prezidentinin xanımı, xoşməramlı səfir Mehriban Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyətinin fəaliyyətinin orada çox böyük diqqət və maraqla izlənildiyini bildirdi. O, xanım Mehriban Əliyeva tərəfindən təqdim edilmiş Azərbaycan musiqi albomunun tədbirdə xüsusi rəğbətlə qarşılandığını vurğuladı.

Mstislav Rostropoviç Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətində dövlətimizin başçısına yeni-yeni uğurlar arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərinin hərbi hava limanında təyyarənin pilləkəni ya-

nında böyük hörmət və ehtiramla qarşılandı. Azərbaycan dövlətinin başçısını Səudiyyə Ərəbistanının Vəliəhdi, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səud, Ər-Riyad vilayətinin qubernatoru Əmir Salman bin Əbdüləziz Al Səud, Ər-Riyad şəhərinin meri Əbdüləziz bin Əyyaf Al Mükrin, ticarət və sənaye naziri Hişam bin Abdulla Yamani, Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı səfiri Əli Həsən Cəfər, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Elman Araslı və digər yüksək səviyyəli nümayəndələr qarşıladılar.

Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdür. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının dövlət bayraqları ilə bəzədilmiş hava limanında Azərbaycanın və Səudiyyə Ərəbistanının dövlət himnləri əzəmətlə səsləndirildi.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin önündən keçdi.

Sonra Azərbaycan dövlətinin başçısını qarşılamağa gəlmiş Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə təqdim olundu. Prezident İlham Əliyev onu qarşılamağa gələnlərlə səmimi görüşdü.

Azərbaycan nümayəndə heyətinin üzvləri Vəliəhd, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səuda təqdim edildi.

Azərbaycan Prezdenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha - Əmir Abdulla bin Əbdüləziz Al Səudun sarayına yola düşdü.

ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN SARAYINDA QISA GÖRÜŞ VƏ ZİYAFƏT

Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgaha - Əmir Abdulla bin Əbdüləziz Al Səudun sarayına gəldi.

Sarayda Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Əmir Abdulla bin Əbdüləziz Al Səuda təqdim olundu.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Vəliəhd, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səud arasında qısa görüş oldu.

Görüşdən sonra Əmir Abdulla bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verdi. Ziyafətdə Səudiyyə Ərəbistanının dövlət və hökumət nümayəndələri iştirak edirdilər.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ VƏLİƏHD, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səudun iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Əmir Abdulla bin Əbdüləziz Al Səudun ölkəmizin ən ali mükafatına - "İstiqlal" ordeninə layiq görüldüyünü bildirdi və ordeni ona təqdim etdi.

Ali mükafata görə dərin minnətdarlığını bildirən Əmir Abdulla bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə müraciətlə dedi: Cənab Prezident, Sizi və nümayəndə heyətinizi İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanının xalqı adından salamlayıram. Arzu edirəm ki, Sizin Səudiyyə Ərəbistanına səfəriniz uğurlu olsun və ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələ açsın. Əminəm ki, bu səfəriniz Sizdə xoş və zəngin təəssürat yaradacaq və bir daha Səudiyyə Ərəbistanına gələrək bizim ali qonağımız olacaqsınız.

Prezident İlham Əliyev yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək dedi ki, bu gözəl ölkəyə səfərimdən çox şadam. Biz artıq qısa fikir mübadiləsi aparmışıq və görürük ki, həqiqətən ölkələrimiz arasında dərin tarixi, dini və mədəni köklərə söykənən çox yüksək əməkdaşlıq münasibətləri vardır. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Səudiyyə Ərəbistanı ölkəmizi daim dəstəkləmiş və ona həmişə kömək göstərmişdir. Əminəm ki, bu səfər ölkələrimiz arasında münasibətlərin daha sürətli inkişafına səbəb olacaqdır.

Sonra görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı münaqişənin kökləri və indiki vəziyyət, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, qaçqınların və məcburi köçkünlərin ağır şəraiti barədə ətraflı söhbət açdı.

Görüşdə ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi və dərinləşdirilməsi barədə ətraflı fikir mübadiləsi oldu. Prezident İlham Əliyev vurğuladı ki, əlaqələrimizin inkişafının böyük perspektivləri vardır və biz buna nail olmalıyıq.

Ermənistan-Azərbaycan münaqişəsinə münasibətini açıqlayan Əmir Abdulla bin Əbdüləziz Al Səud dedi ki, Səudiyyə Ərəbistanı həmişə olduğu kimi, bundan sonra da Azərbaycanın haqq işini dəstəkləyəcəkdir. Bizim ölkəmiz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını istəyir və bunun üçün beynəlxalq təşkilatlar çərçivəsində əlindən gələn köməyi əsirgəməyəcəkdir. Bu məsələ ilə bağlı hökumət üzvlərinə konkret tapşırıqlar və göstərişlər veriləcəkdir. Biz istəyirik ki, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrimiz siyasi münasibətlərimiz səviyyəsinə qalxsın.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDUN TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Səudiyyə Ərəbistanı Kralının Əl-Yamama sarayına gəldi.

Burada Azərbaycan Prezidentini İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanın Kralı Fəhd bin Əbdüləziz Al Səud böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti ilə Səudiyyə Ərəbistanının Kralı arasında təkbətək görüş oldu.

Görüşdə ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev rəsmi səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycanın ali mükafatını - "İstiqlal" ordenini İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səuda təqdim etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin çox yüksək səviyyəyə çatdığını vurğuladı və bunun daha genişləndirilməsi üçün yaxşı perspektivlər olduğunu bildirdi. Azərbaycan dövlətinin başçısı dedi ki, Azərbaycan münasibətlərimizin bundan sonra da yüksək sürətlə inkişafına çalışacaqdır.

İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səud səmimi sözlərə və dəvətini qəbul edib səfərə gəldiyinə görə Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirərək dedi ki, biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Azərbaycanın ümummilli lideri, dünya şöhrətli siyasi xadim, Sizin atanız Heydər Əliyevin dövlətlərimiz arasında əlaqələrin inkişafındakı tarixi xidmətlərini və onun 1994-cü ildə ölkəmizə rəsmi səfərini yaxşı xatırlayır və Allahdan ona rəhmət diləyirik.

Sonra Kral Fəhd bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevi Səudiyyə Ərəbistanı Krallığının ali dövlət mükafatı - "Kral Əbdüləziz" ordeni ilə təltif etdi. Xatırladaq ki, bu orden dünyanın ən nüfuzlu, ən görkəmli siyasi xadimlərinə təqdim olunur.

Prezident İlham Əliyev yüksək dövlət mükafatına görə minnətdarlığını bildirdi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi, ikitərəfli münasibətlərlə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEV "ƏR-RİYAD" QƏZETİNƏ VƏ TELEVİZİYAYA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərinin ikinci günü - martın 9-da öz iqamətgahında ölkənin ən kütləvi tirajlı mətbuat orqanı olan "Ər-Riyad" qəzetinə, habelə Səudiyyə Ərəbistanının hökumət televiziya xidmətinə müsahibə vermişdir.

AZƏRBAYCANLA SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Martın 9-da Əmir Abdulla bin Əbdüləziz Al Səudun sarayında Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

Səudiyyə Ərəbistanı Krallığının İnkişaf Fondu ilə Vəlvələçay-Taxtakörpü kanalının tikinti layihəsinin maliyyələşdirilməsinə dair 18 milyon dollarlıq kredit sazişini Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri İbrahim əl-Əssaf və Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov imzaladılar.

Səudiyyə Ərəbistanı Krallığı hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri İbrahim əl-Əssaf və Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov imzaladılar.

TİCARƏT VƏ SƏNAYE PALATASINDA GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye Palatasına gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə palata sədrinin müavini Səəd bin İbrahim böyük hörmət və ehtiramla qarşıladı.

Görüşü Səəd bin İbrahim açdı.

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI TİCARƏT VƏ SƏNAYE PALATASI SƏDRİNİN MÜAVİNİ SƏƏD BİN İBRAHİMİN ÇIXIŞI

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar!

Biz Sizi Ər-Riyadın Ticarət və Sənayc Palatasında görməkdən olduqca məmnunuq. Eyni zamanda, rəhbərlik etdiyiniz nümayəndə heyətini də burada salamlamaqdan çox şadıq.

Hörmətli cənab Prezident, Siz ali təhsilinizi beynəlxalq münasibətlər və tarix sahəsində almısınız. Siyasi elmlər doktoru dərəcəsinə layiq görülmüsünüz. Rəhmətlik Prezident Heydər Əliyevin neft strategiyasının davam etdirilməsi sahəsindəki əməli fəaliyyətiniz bizim diqqət mərkəzimizdədir. Siz Bakı-Tbilisi-Ccyhan əsas ixrac boru kəmərinin çəkilməsində yorulmaz fəaliyyət göstərirsiniz. Eyni zamanda, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də çəkilməsini planlaşdırırsınız. Bütün bu nailiyyətləriniz mürəkkəb coğrafi-siyasi regionda yerləşən ölkənizi inamla idarə etməyə imkanlar yaradır. Allah Sizin köməyiniz olsun! Hökumətinizə bu işdə uğurlar arzulayırıq.

Siz İpək Yolu Vəqfi tərəfindən 2004-cü ilin siyasətçisi seçilmisiniz. Zənnimcə, Siz belə bir yüksək ada ölkənizdə məhz siyasi və iqtisadi nailiyyətlərinizə görə layiq görülmüsünüz. Son həftə ərzində Ticarət və Sənayc Palatasının iclas salonunda bir sıra nümayəndə heyətlərini qəbul etmişik. Bir neçə gün öncə burada Almaniyanın kansleri olmuşdur. Eyni zamanda, son bir neçə il ərzində biz Azərbaycandan gələn nümayəndə heyətlərini də qəbul etmişik. Ölkənizdən gələn ən sonuncu nümayəndə heyəti burada 2004-cü ildə olmuşdur. Səfiriniz təfərrüatı bilir, onlar burada görüş keçirdilər və bir sıra məsələləri müzakirə etdilər

Palatada keçirdiyimiz bu görüşün məqsədi ölkələrimizin iş adamları arasında daha sıx əlaqələrin yaradılmasından ibarət olacaq ki, bu, həmçinin siyasi münasibətlərimizi də möhkəmləndirəcəkdir. Əfsuslar olsun ki, Azərbaycanla münasibətlərimiz istədiyimiz qədər inkişaf etməmişdir. Mən xüsusən iqtisadi sahəni nəzərdə tuturam. İdxal və ixracın həcmi o qədər də gözəçarpan deyildir. Lakin biz bilirik ki, hazırda Azərbaycanın iqtisadiyyatına böyük sərmayələr qoyulub, ölkəniz sürətlə inkişaf etməkdədir. Biz bu in-

kişafda iştirak etmək istəyirik və sərmayə qoyuluşunda daha fəal olmağı arzulayırıq.

Ölkənizdə tibb keçmişdən inkişaf etmişdir. Sizin gözəl tibb mütəxəssisləriniz var. Misal üçün, diş həkimləri. Bu sahədə biz çox uğurlu əməkdaşlıq edə bilərik, mütəxəssislərinizin təcrübəsindən bizim milli səhiyyə sistemimizdə, xəstəxanalarımızda istifadə oluna bilər. Məhz bu məqsədlə mən ötən il ölkənizdə oldum və gördüm ki, bu, ikitərəfli əməkdaşlığımızın vacib bir aspekti ola bilər. Bu tədbirdə iştirak edən iş adamlarının hamısı iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Buraya gəldiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. İnanırıq ki, ölkəmizə etdiyiniz bu səfərdən razı qalacaqsınız. Sizə bir daha xoş gəldiniz deyir və Sizi əmin edirik ki, səfərinizin uğurlu olmasına çalışacağıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli dostlar!

Çox sağ olun. Ən əvvəl, bu görüşdə iştirak etməyə dəvətinizə görə və münasibətlərimizin iqtisadi sahəsi, gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq məqsədi ilə yaradılmış imkana görə sizə minnətdarlığımı bildirirəm.

Əvvəla, onu demək istəyirəm ki, ölkənizdə olmağımdan çox şadam. Dünən İki Müqəddəs Ocağın Xadimi, Əlahəzrət Kral və Əlahəzrət Vəliəhd ilə çox mühüm görüşlər keçirmişəm. Biz ikitərəfli münasibətlərə aid bir sıra məsələləri, regional inkişafı, təhlükəsizlik məsələlərini müzakirə etmişik. Bir daha aydın şəkildə bəyan etdik ki, ölkələrimiz arasında siyasi münasibətlərin səviyyəsi çox yüksəkdir. Azərbaycan bunu yüksək qiymətləndirir. Mən hesab edirəm ki, bu əlaqələrimiz gələcək ikitərəfli əməkdaşlığımız və ümumiyyətlə, regional inkişaf üçün çox vacibdir.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ölkəmizə daimi dəstəyinə görə çox minnətdarıq. Azərbaycan bu dəstəyi BMT, İslam Konfransı Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində hər zaman hiss etmişdir. Biz bu dəstəyin şahidiyik və onun gələcəkdə də davam edəcəyinə əminik.

Səudiyyə Ərəbistanı Ermənistanla heç bir diplomatik münasibət yaratmayıbdır. Bu addım ölkələrimiz arasında olan dostluq və qardaşlığın parlaq nümunəsidir. Bu baxımdan Səudiyyə Ərəbistanı hökumətinin Azərbaycanda qaçqın və məcburi köçkünlərə verdiyi yardımı da xüsusi qeyd etmək lazımdır. Biz bunu yüksək dəyərləndiririk.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq normaları və prinsipləri, yəni ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında həllinin tərəfdarıyıq. Bildiyiniz kimi, erməni işğalçıları Azərbaycanın ərazi bütövlüyünü pozublar. Ölkəmizin ərazisinin 20 faizini zəbt ediblər, etnik təmizləmə aparıblar və bunun nəticəsində, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və dözülməz şəraitdə yaşayır. Biz hesab edirik ki, bu münaqişəni aradan qaldırmaq və təcavüzə son qoymaq üçün o, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır və Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməlidir. XXI əsrdə bir ölkənin ərazisinin digər ölkə tərəfindən işğal edilməsinə imkan vermək olmaz. İşğalçının cəzasız qalması yolverilməzdir. Məhz buna görə də, hesab edirəm ki, əgər bütün ölkələr sizin ölkə

kimi ədalətli və düzgün mövqe tutsaydı, bu münaqişə hələ bir neçə il bundan əvvəl öz həllini tapardı.

Lakin bu işğalın ağır siyasi və iqtisadi nəticələrinə baxmayaraq, iqtisadi baxımdan ölkəmiz böyük nailiyyətlər əldə edə bilmişdir. Azərbaycan çox sürətlə inkişaf edir, son on il ərzində iqtisadiyyatda orta illik artım 10 faiz səviyyəsində olmuşdur. Bu il isə, ümumi daxili məhsulun artımının təqribən 14 faiz olacağı gözlənilir.

Biz eyni zamanda, xarici sərmayələrin cəlb edilməsi sahəsində fəal işlər aparırıq. Hesab edirik ki, bu sahədə Azərbaycan çox etibarlı tərəfdaşa çevrilmişdir. Sərmayələr qanunvericiliyimiz əsasında çox etibarlı şəkildə qorunur.

2004-cü ildə Azərbaycanın iqtisadiyyatına yatırılan sərmayələrin həcmi 5 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Bu, bizim üçün böyük göstəricidir. Həmin sərmayələr bizim siyasətimizə olan inam və etimadı bir daha sübut edir. Sərmayəçilər bizim gələcəyimizə inanırlar. Azərbaycanın yürütdüyü siyasətin gələcəkdə proqnozlaşdırılması da mümkündür. Siyasətimizin əsas vəzifəsi milli maraqlarımızın qorunması və təmin olunmasıdır, o cümlədən dost ölkələrlə etimad doğuran qarşılıqlı və faydalı münasibətlərin yaradılmasıdır.

Hazırda ölkəmizdə infrastrukturu fəal şəkildə inkişaf etdiririk, regional inkişaf siyasəti aparırıq. Azərbaycanda son 15 ay ərzində öz səylərimiz nəticəsində 170.000 iş yeri açmışıq. Bu, yoxsulluğun azaldılması və işsizliyin aradan qaldırılması məqsədi ilə həyata keçirdiyimiz siyasətin bir hissəsidir. Hesab edirəm ki, ölkəmiz əlavə sərmayələr və müxtəlif sahələrdə əməkdaşlıq üçün çox önəmli məkandır.

Beynəlxalq səviyyədə tanınmış iri şirkətlərlə 1994-cü ildən bu günə kimi çox uğurlu əməkdaşlıq tariximiz vardır. Bizim bu sahədə heç bir tərəflə heç vaxt mübahisəmiz və ya məhkəmə çəkişməsi olmamışdır. Yəni hökumətimiz və sərmayəçilər, yaxud yerli şirkətlər arasında heç bir ziddiyyət olmamışdır. Zənnimcə, ölkəmizdə əlverişli sərmayə mühitinin olması Azərbaycana sərmayə qoymaq arzusunda olan şirkətlər üçün yaxşı stimuldur.

Mən bu fikirlə tamamilə razıyam ki, ölkələrimiz arasında olan iqtisadi əlaqələr lazımi səviyyədə deyildir. Dünən biz bu məsələni müzakirə etdik və belə bir qənaətə gəldik ki, siyasi və iqtisadi münasibətlər arasında olan fərq çox böyükdür. Siyasi əlaqələrimiz ən yüksək səviyyədədir, yəni bir çox məsələlər, o cümlədən regional inkişaf məsələsi üzrə tərəflər arasında tam anlaşma mövcuddur. Lakin iqtisadi münasibətlərimiz hələ ki, ilkin mərhələdədir. Ona görə də əminəm ki, budəfəki səfərim və indiki görüşümüz bu əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəkdir. Hökumətlərarası komissiya yaradılıb və bu qurum birgə iqtisadi işlərin aparılmasını tənzimləyə bilər. Biz sizin ölkənizlə, iş adamlarınızla olan iqtisadi və ticari münasibətlərimizi genişləndirmək əzmindəyik.

Artıq qeyd etdiyim kimi, Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Bizim ölkə bazar iqtisadiyyatının prinsiplərinə tam sadiqdir. Hazırda ümumi daxili məhsulda özəl sektorun payı təqribən 74 faiz səviyyəsindədir. Ölkəmizdə kənd təsərrüfatı, nəqliyyat və xidmətlər sahəsində özəlləşdirmə aparılır. Bir çox sektorlar artıq özəlləşdirilibdir. Özəlləşdirmə proqramında iştirak etmək üçün də Azərbaycanda geniş imkanlar yaradılıbdır. Bu

baxımdan, turizm sərmayələr üçün çox maraqlı sahədir. Ölkəmizdə füsunkar təbiət, gözəl iqlim mövcuddur, turizm infrastrukturu inkişaf edir. Bu, nəinki sərmayə qoymaq üçün, həm də səyahət və istirahət üçün çox sərfəlidir. Azərbaycan dost ölkədir və mən istəyərdim sizin simanızda bir çox dostlarımız respublikamıza səyahət etsinlər və ölkəmizi görsünlər.

1991-ci ildə müstəqillik qazandığımız dövrdən 2005-ci ilə qədər keçdiyimiz yol və əldə etdiyimiz nailiyyətlər bir daha açıq-aydın göstərir ki, biz Azərbaycanda əlverişli biznes mühitinin yaradılmasında, sərmayələrin qorunmasında və infrastrukturun inkişafında çox maraqlıyıq.

Hazırda müxtəlif beynəlxalq maliyyə təsisatları, o cümlədən İslam Bankı ilə infrastrukturun inkişafı, yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi, su təchizatı sahəsində iş aparırıq. Bilirik ki, Səudiyyə Ərəbistanında beynəlxalq səviyyədə tanınmış bir sıra nəhəng şirkətlər var və onlar da bu layihələrdə nəinki sərmayəçilər qismində, o cümlədən xidmət göstərən podratçı kimi iştirak edə bilər. Belə olsa, biz bundan çox şad olardıq. Biz dostlarımızla işbirliyi yaratmaq istəyirik.

Son illər ərzində biz "açıq qapı" siyasətini həyata keçirmişik. Qapılarımız bütün sərmayəçilərin üzünə açıqdır. Şübhəsiz ki, Azərbaycan iqtisadi əlaqələrini məhz dost ölkələrlə daha sıx etmək istəyir. Bu baxımdan, hesab edirəm ki, iqtisadi münasibətlərimizin gələcək potensialı böyükdür. Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm. Sizləri ölkəmizdə görməkdən çox şad olardıq və ümid edirik ki, gələn illər ərzində iqtisadi əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Mən göstərdiyiniz qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm və arzu edirəm ki, yaxın gələcəkdə biz ölkələrimiz və şirkətlərimiz arasında keyfiyyətcə yeni və daha geniş əməkdaşlığın şahidi olaq.

Çox sağ olun.

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE PALATASININ BAŞ KATİBİ HÜSEYN ƏL-ATELİN ÇIXIŞI

- Zati-aliləri!

Mən və həmkarlarım Sizinlə burada görüşməkdən şərəf hissi duyuruq. Çalışacağam ki, çıxışım zamanı Səudiyyə Ərəbistanının hökuməti adından yox, adi bir vətəndaş kimi danışım. Çünki bu, mənim üçün daha rahatdır. Mən ikitərəfli münasibətlərimizə toxunacağam. Səudiyyə Ərəbistanı regionumuzda hər bir mürəkkəb vəziyyətin həllində ən nüfuzlu vasitəçi kimi tanınmışdır. Mən əminəm ki, hökumətimiz bizimlə dostluq və qardaşlıq əlaqələri olan bütün ölkələrdə istənilən qarşıdurma və ya mübahisənin aradan qaldırılmasında daha yaxından iştirak edəcəkdir. Bu baxımdan, Zati-alilərinizi əmin edirəm ki, bizim ölkə Azərbaycanın üzləşdiyi çətin və bəlalı münaqişənin həlli üçün əlindən gələni əsirgəməyəcəkdir. Siz artıq burada qeyd etdiniz ki, münaqişə ölkənizə ciddi mənfi təsir göstərmişdir. Lakin biz bilirik ki, Azərbaycanda hazırda inkişaf proqramları həyata keçirilməkdədir və ölkənizin inkişafı gələcəkdə mövcud olan problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir.

Zati-aliləri, Siz qeyd etdiyiniz kimi, mən də etiraf edirəm ki, ölkələrimiz arasında ikitərəfli iqtisadi münasibətlər istənilən səviyyədə deyildir. Bəlkə bu, onunla izah edilə bilər ki, ölkələrimiz iqtisadi inkişafa nail olana qədər mövcud iqtisadiyyatın əsası eyni olmuşdur. Hər iki ölkədə geniş şəkildə inkişaf etmiş neft və qaz sənayesi vardır. Buna baxmayaraq, Siz nəinki sərmayələrin qoyuluşu, həm də infrastrukturun inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi istiqamətində də imkanların mövcudluğu haqqında danışdınız. Bizim həmkarlarımız və dostlarımız belə bir fürsətdən istifadə etməkdən çox şad olardı. Hesab edirəm ki, Sizin söylədiniz sözlər ən etibarlı zəmanətdir və onları dinlədikdən sonra əlavə məsləhətləşməyə ehtiyac yoxdur.

Biz çox şadıq ki, Siz, Azərbaycanın dövlət başçısı bizi ölkənizə dəvət etdiniz. Eyni zamanda, ölkənizdə bizi məftun edən iqtisadi göstəricilər, xüsusən də cari ildə iqtisadi artımın 14 faiz səviyyəsində gözlənildiyi barədə məlumatları eşitmək bizim üçün çox xoş oldu. Gördüyümüz kimi, hazırda heç də hər bir ölkə ikirəqəmli göstəriciyə nail ola bilmir. Bütün bu nailiyyətlər Sizin yürütdüyünüz düzgün siyasətdən xəbər verir. Bir sözlə, çıxışınızdan sonra Azərbaycan səfirliyindəki dostlarımız və Sizin ölkənizdəki nümayəndələrimiz vasitəsilə yeni birgə layihələrin başlanması bizim əsas məqsədimiz olacaqdır.

Zati-alilərinizin bizə turizm imkanları haqqında da danışdı. Bir çox hallarda vətəndaşlarımız bizdən soruşurlar ki, Azərbaycana necə gedə bilərik? Bu baxımdan, biz ölkələrimiz arasında birbaşa uçuşların da təşkil olunmasının tərəfdarıyıq. Səudiyyə Ərəbistanı bu gün yox, hətta dünəndən birbaşa uçuşların yaradılmasında maraqlıdır. Bu məsələ bizim daim diqqət mərkəzimizdədir. Belə olsa, öz vətəndaşlarımıza bizə dost, qardaş olan müsəlman ölkəsi Azərbaycan haqqında daha geniş məlumat verərək, onlara Sizin ölkəyə getməyi tövsiyə edərdik. Təbii ki, əgər bu layihə baş tutsa, əlaqələrimiz daha da möhkəmlənər. Mən çox danışmaq istəmirəm. Çünki burada bir çox iş adamları əyləşiblər və sözün düzünü desək, mənim işim də onlardan asılıdır.

Zati-aliləri, bizimlə görüşdüyünüzə görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm və Sizə, o cümlədən başçılıq etdiyiniz nümayəndə heyətinə uğurlar arzulayıram. Çox sağ olun.



Sonra Azərbaycan Prezidenti İLHAM ƏLİYEV iş adamlarını maraqlandıran suallara cavab verdi.

SUAL: Zati-aliləri, hər bir iş adamı üçün biznesi başlamaqda əsas məsələ əvvəlcədən prosedurları bilməkdir. Yəni getdiyimiz ölkədə mövcud olan imkanları ilkin olaraq öyrənməkdir. Ölkəyə gəldikdən sonra, biz daxili prosedurlar haqqında məlumat almalıyıq. Bu məlumatı biz səfirlikdən, yoxsa tövsiyə olunan digər departamentdən ala bilərik? Əvvəlcədən bilsək, işimizi daha asan və sürətlə apara bilərik. Sağ olun.

CAVAB: Hesab edirəm ki, imkanlar müxtəlifdir və onlar bir-birini tamamlayır. Təbii ki, ölkənizdə iş adamı üçün daha asan yol bizim buradakı səfirliyimizə müraciət etməkdir. Səfirliyimiz isə sizi maraqlandıran sahədən asılı olaraq, Azərbaycanın müvafiq nazirlikləri ilə əlaqə saxlaya bilər. Mən artıq qeyd etdim ki, ölkəmiz inkişaf edir. Böyük imkanlar mövcuddur. Misal üçün, iqtisadiyyatımızın bəzi sektorları hələ o qədər də inkişaf et-

məyibdir. Bank sektoru, sığorta işi, turizm, özəlləşdirmə kimi sahələrdə geniş imkanlar vardır.

Konkret maraq sahəsinə uyğun olaraq, bizim səfirlik müvafiq dövlət qurumları ilə əlaqə saxlaya bilər. Eyni zamanda, hökumətlərarası komissiya da bu işdə sizə yardımçı ola bilər. Hesab edirəm ki, bu qurum müxtəlif biznes layihələrinin tənzimlənməsində mühüm rol oynamalıdır. Mən sizinlə razıyam ki, vəziyyətlə tanış olmadan, mövcud imkanlar, qanunvericilik və ya vergi siyasəti haqqında məlumat olmadan biznes fəaliyyətini aparmaq çətindir. Belə halda qərar qəbul etmək asan deyildir. Lakin hesab edirəm ki, dediyim üsullardan istifadə etsəniz, istədiyinizə nail ola bilərsiniz.

Mən birbaşa uçuşlar haqqında burada söylənilən fikirlə də razıyam. Şübhəsiz, birbaşa hava xəttinin olmaması problemlər yaradır. Bizim aviakonsernimiz gəncdir. Hazırda təkmilləşdirmə işləri aparılır, yeni təyyarələr alınır, yeni marşrutlar təyin olunur. Konsernimizin rəhbəri burada əyləşib, siz birbaşa uçuşların açılması imkanlarını onunla müzakirə edə bilərsiniz.

Ümumiyyətlə, birbaşa uçuşların açılması əməkdaşlığımızın vacib elementidir. Yəni birbaşa marşrut olmayanda siz iki və üç ölkəni keçib Azərbaycana gəlirsiniz. Belə bir vəziyyətdə həvəs də azalır. Hesab edirəm ki, ölkələrimizdə olan imkanlar barədə lazımi təqdimatın baş tutması üçün hər iki tərəf kompleks şəkildə çalışmalıdır. Məlumat kitabçaları hazırlansa, hər bir iş adamı orada olan ümumi məlumatdan istifadə edə bilər.

SUAL: Zati-aliləri, Ticarət və Sənaye Palatasına gəldiyinizə və bizimlə görüşdüyünüzə görə Sizə minnətdarıq. Mən daşınmaz əmlak sahəsində bizneslə məşğulam. Bilmək istərdim ki, bu sahədə ölkənizdə xarici sərmayədar üçün hansı imkanlar var? Sərmayəçi üçün hansı şərait yaradılır və ümumiyyətlə, bu istiqamətdə hər hansı bir irəliləyiş varmı? Sağ olun.

CAVAB: Hazırda Azərbaycanda, xüsusən də paytaxtda, yəni Bakı şəhərində genişmiqyaslı tikinti və şəhərsalma işləri gedir. Tikinti sahəsində biznes çox gəlirlidir. Bir çox hallarda binanın hələ bünövrəsi qoyulanda gələcək bütün mənzillər satılır. Çünki indi insanlar daha yaxşı şəraitdə yaşamağı seçirlər. Təsəvvür edin, əgər 6-7 il bundan əvvəl binalar yalnız imkanlı adamlar üçün tikilirdisə, hazırda əhalinin orta təbəqəsinin formalaşması ilə yanaşı, artıq digər ölkələrdə olduğu kimi, bizdə də bu təbəqə üçün evlər tikilir. Tikinti işlərinin əksəriyyəti yerli şirkətlər tərəfindən aparılır. Lakin bu sahədə xarici sərmayəçilər də var. Bu, çox önəmli biznesdir. Tikinti sahəsində işləyən iş adamları hazırda böyük uğurlar əldə ediblər.

Bizim şəhərlərimizin müasirləşdirilməsi ilə bağlı bir neçə yeni ideyalarımız var. Yeni binalar ucaldılır. Əhali üçün yeni yaşayış binalarının tikilməsinə böyük ehtiyac var. Eyni zamanda, biznes fəaliyyəti ilə məşğul olan iş adamları üçün də yeni geniş və rahat binalar lazımdır. Əgər indi yuxarıdan Bakıya nəzər salsanız, görərsiniz ki, bir çox hündür yaşayış binaları, iqamətgahlar və ofislər tikilibdir. Bir sözlə, hesab edirəm ki, tikinti işinə sərmayə qoyan iş adamı uduzmayacaqdır.

SUAL: Bəs, xarici sərmayələrin qorunması üçün hansı zəmanətlər verilir?

CAVAB: Xarici sərmayələrin qorunmasına gəldikdə, bizim qanunvericilik birmənalı olaraq bunu təmin edir. Mənim heç yadıma gəlmir ki, sərmayələrin qorunmasında bizim

hər hansı bir tərəflə problemimiz olsun. Biz bilirik ki, etimadın qazanılması nə qədər çətindir. İllər, bəlkə də onilliklər lazımdır ki, siz öz işinizlə etimad qazanasınız. Lakin adi bir səhv addımla bir gün ərzində həmin etimadı itirə bilərsiniz. Buna görə də bizim ölkədə sərmayələr qorunur.

O ki qaldı, əlavə zəmanətlər, açığını desək, biz bu haqda düşünməmişik. Çünki bu sahədə biz heç vaxt sərmayəçilərin diqqətindən kənarda qalmamışıq. Adətən, zəmanət o vaxt verilir ki, həmin işə diqqət az olsun. Tikinti işi hazırda Azərbaycanda ən cəlbedici və get-gedə inkişaf edən işlərdən biridir. Lakin bu məsələ üzərində də düşünəcəyik.

ELMAR MƏMMƏDYAROV (Azərbaycanın xarici işlər naziri): Biz elə bu gün iki ölkə arasında sərmayələrin qorunması haqqında saziş imzaladıq. Mən şəxsən Səudiyyə Ərəbistanının maliyyə naziri ilə bu sənədi imzaladım və bu sənəd məhz sərmayələrin qorunmasına aiddir.

SUAL: Zati-aliləri, xarici iş adamları Sizin ölkənizdə daşınmaz əmlakı alıb öz mülkiyyətinə çevirə bilərmi?

İLHAM ƏLİYEV: Sizi əmin edirəm ki, bizim bu sahədə heç bir problemimiz yoxdur. Hər hansı əcnəbi vətəndaşın Azərbaycanda mülkiyyəti ola bilər. Bir çox xarici şirkətlərin və ya vətəndaşların Azərbaycanda mülkiyyəti var. Yəni bir daşınmaz əmlaka sahib olmaq üçün heç bir yerli şəxsdən istifadə edilməməlidir. Misal üçün, bizim ölkədə tam xarici vətəndaşlara məxsus olan banklar var. Bu baxımdan istənilən imkan açıqdır.

SUAL: Üzr istəyirəm, mən ingiliscə o qədər də yaxşı bilmirəm, ona görə ərəbcə sual verəcəyəm. Zati-aliləri, Səudiyyə Ərəbistanı hazırda ölkənizdə dəmir yol şəbəkəsinin inkişafında, xüsusilə relslərin istehsalı ilə məşğul olmaq istəyir. Biz bilirik ki, Azərbaycanda bu sahəyə tam ehtiyac vardır. Ümumiyyətlə, bu sahədə birgə kooperasiya şəraitində işləmək, yaxud Səudiyyə Ərəbistanı iş adamlarının oraya sərmayə qoyması üçün imkanlar varmı?

CAVAB: Bəli, belə imkanlar var. Ümumiyyətlə demək istəyirəm ki, bizdə nəqliyyat infrastrukturu çox sürətlə inkişaf edir. Azərbaycanın coğrafi mövqeyi ölkəmizi nəqliyyat baxımından çox mühüm bir məntəqəyə çeviribdir. İndi avtomobil yolları sürətlə tikilir və beynəlxalq maliyyə qurumları da buna öz dəstəyini verir. O cümlədən İslam İnkişaf Bankı da öz yardımını əsirgəmir.

Ölkəmizin müxtəlif şəhərlərində yeni müasir hava limanları tikilir. Bu yaxınlarda Avropa tipli 5 yeni təyyarənin alınması barədə saziş imzalanıbdır. Beləliklə, Azərbaycanın bütün nəqliyyat infrastrukturu, o cümlədən gəmiçilik çox sürətlə inkişaf edir. Dəmir yolunda da lazımi işlər görməyə böyük ehtiyac var. Çünki bəzi relslər köhnəlibdir və onlar yeniləşməlidir.

Bizim hökumətlərarası müştərək komissiyanın həmsədri də buradadır. Mən ona tapşırıq verirəm ki, bu görüşdən sonra sizinlə əlaqə saxlasın və lazımi məlumatı sizə versin ki, Azərbaycanda bu baxımdan nə kimi imkanlar vardır.

SUAL: Zati-aliləri, Sizi Ər-Riyadın Ticarət və Sənaye Palatasında görməkdən çox məmnunuq. Əlbəttə, biz Azərbaycanla biznes əlaqələrinin genişləndirilməsində çox maraqlıyıq. Lakin bilmək istərdik ki, Səudiyyə Ərəbistanı ölkənizə bu günə qədər hansı həcmdə sərmayə qoyubdur? Bu haqda məlumat bizim gələcək işlərimizə çox yardım

edərdi. Biz iqtisadiyyat naziri ilə bu məqsədlə görüşməkdə çox maraqlıyıq. Çox sağ olun.

CAVAB: Biz iqtisadi inkişafa və nailiyyətlərimizə həsr olunmuş bir neçə maraqlı kitab və məlumat vərəqələri hazırlamışıq. Bunlarda gələcək perspektivlər və imkanlar da təsvir olunur. Biz onları səfirliyimiz vasitəsilə Ticarət və Sənaye Palatasına təqdim edəcəyik. Hesab edirəm ki, səfirlik həm də bu istiqamətdə fəal rol oynamalıdır.

Beləliklə, iki ölkədən olan biznes tərəfdaşları bir-birilə tanış ola bilərlər. Təbii ki, bütün bu informasiya bizim tərəfimizdən təqdim olunacaqdır. Eyni zamanda, yaxşı olardı ki, qarşılıqlı səfərlərin sayı da artsın. Bilirəm ki, hər bir iş adamı qərar qəbul etməzdən əvvəl, gərək özü gələ, görə və vəziyyətlə şəxsən tanış ola. Təbii ki, qarşılıqlı səfərlər xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Ümid edirəm ki, bu səfərlər baş tutacaqdır. Bir sözlə, bütün lazımi məlumatlar təqdim olunacaqdır.

HÜSEYN ƏL-ATAL (Ticarət və Sənaye Palatasının baş katibi): Zati-aliləri cənab Prezident, icazə verin, bütün iş adamları adından Sizin buradakı səfirliyinizin və xüsusən də, bütün yerli biznesmenlərin dostu olan Azərbaycan səfirinin gördüyü işi xüsusilə qeyd edim. O, bizim bütün görüşlərimizdə iştirak edir və çox fəal işləyir. Hesab edirəm ki, biz onun vasitəsilə ölkəniz haqqında hər hansı bir məsələ barədə məlumat ala bilərik.

Sizi əmin edirəm ki, bugünkü görüşdə əldə etdiyimiz məlumatı digər iş adamlarına da ötürəcəyik. Səfirlik bu günə qədər çox yaxşı işləyib və bizim iş adamlarımızın əksəriyyəti ilə sıx əlaqələr qurubdur. Ümid edirəm ki, mənim yanımda əyləşən bizim səfir də fəal işləyir.

İLHAM ƏLİYEV: Bəli, mən onun işini yüksək qiymətləndirirəm.

HÜSEYN ƏL-ATAL: Məncə, biz onu təbrik edə bilərik ki, o, Azərbaycan kimi gözəl qardaş və dost ölkədə işləyir. Sağ olun.

SƏƏD BİN İBRAHİM: Zati-aliləri, hesab edirəm ki, biz iqtisadi əlaqələrimizin müzakirəsinə kifayət qədər vaxt sərf etdik. Prezident Əliyevin səfər proqramı çox sıxdır. Zati-aliləri, buraya bizimlə görüşə gəldiyinizə görə Sizə dərin təşəkkürümüzü bildirir, yaxın gələcəkdə Bakıda Sizinlə görüşməyə ümid edirik.

İLHAM ƏLİYEV: Çox sağ olun. Öz növbəmdə, mənə göstərdiyiniz qonaqpərvərliyə və diqqətə görə sizə minnətdarlığımı bildirirəm. Sizin gözəl dost ölkənizdə olmağıma çox şadam. Mən heç şübhə etmirəm ki, ölkələrimiz arasındakı münasibətlər həm siyasi, həm iqtisadi, həm də humanitar və mədəni sahələrdə çox uğurla və sürətlə inkişaf edəcəkdir. Çox sağ olun.

SƏƏD BİN İBRAHİM: Cənab Prezident, sonda burada keçirdiyimiz görüşün xatirəsi olaraq fotoşəkillərdən ibarət albomu Sizə təqdim edirəm. Bundan başqa, Səudiyyə Ərəbistanı tərəfindən Sizə kiçik bir hədiyyəmiz var. Bu, ölkəmizdə bitən quru xurmalardır. Daha bir hədiyyəmizdə isə bizim görüş keçirdiyimiz qədim bina təsvir olunubdur. Gördüyünüz təsvir binanın xarici görünüşünü əks etdirir. Rəssamın adı da burada yazılıbdır. Ümid edirəm ki, xoşunuza gələcəkdir.

Görüş əsnasında Ticarət və Sənaye Palatasında çəkdirdiyimiz fotoşəkillər bu diskə ya-

zılıbdır. Onu Sizə hədiyyə etmək istəyirik. Burada fotoların bir hissəsidir. Qalan hissəsi isə səfirliyiniz vasitəsilə Sizə göndəriləcəkdir.

İLHAM ƏLİYEV: Çox sağ olun.

ƏR-RİYADDA AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ ÜÇÜN BİNA TİKİLƏCƏKDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Azərbaycanın səfirliyi binasının tikintisi üçün ayrılmış sahəyə baxmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CİDDƏ ŞƏHƏRİNƏ YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Ciddə şəhərinə yola düşmüşdür.

Prezident İlham Əliyevi hərbi hava limanında Ər-Riyad vilayətinin qubernatoru Həmid Salman bin Əbdüləziz Al Səud böyük hörmətlə və mehribanlıqla yola saldı.

Prezident İlham Əliyev həmin gün Ciddə şəhərinə gəldi. Azərbaycanın və Səudiyyə Ərəbistanının dövlət bayraqları ilə bəzədilmiş hava limanında Prezident İlham Əliyevi müqəddəs Məkkə bölgəsinin əmiri Əbdülməcid bin Əbdüləziz Al Səud yüksək hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha - "Ciddə" konfrans sarayına gəldi.

MƏKKƏDƏ ALLAH EVİ KƏƏBƏNİ ZİYARƏT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla martın 9-da Ciddədən İslam dünyasının əsas müqəddəs şəhəri olan Məkkəyə ümrə ziyarətinə gəldilər. Həzrəti Məhəmməd (s) bu torpaqda doğulmuş, peyğəmbərliyə çatmış, İslam dini Məkkədə yaranmışdır.

Məkkədəki Allah evi Kəəbə Həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən birinci müqəddəs yerinə çevrilmişdir. Sonralar Kəəbə və müqəddəs "Zəmzəm" çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilmişdir.

Həmin gün axşam Azərbaycan Prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər xüsusi libas geyinərək Əl-Həram məscidinə gəldilər. Bir neçə mərtəbəli və doqquzminarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.

Ziyarətgahın rəhbərləri Prezident İlham Əliyevi mehribanlıqla qarşıladılar. Kəəbəyə daxil olmaq və orada namaz qılmaq şərəfi heç də hamıya nəsib olmur. Hər il həcc ziyarəti zamanı dünyanın ən müxtəlif güşələrindən gələn müsəlmanlar Kəəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılırlar. Azərbaycan Prezidentinə xüsusi ehtiram göstərildi, Prezident İlham Əliyev və onu müşayiət edən şəxslər Kəəbə-

nin içərisini ziyarət etdilər və orada namaz qıldılar.

Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlandı. Azərbaycan Prezidenti və nümayəndə heyətinin üzvləri bu iki müqəddəs təpə arasındakı bir kilometrlik məsafəni yeddi dəfə qət etdilər.

Prezident İlham Əliyev Əl-Həram məscidini seyr etdi. Azərbaycan Prezidentinə məscid haqqında ətraflı məlumat verildi.

Prezident İlham Əliyev nümayəndə heyətinin üzvləri ilə xatirə şəkli çəkdirdi.

Ziyarəti dinimizin tələblərinə tam uyğun şəkildə başa çatdıran Prezident İlham Əliyev və Azərbaycan nümayəndə heyətinin üzvləri Məkkədən ən pak hisslərlə və zəngin təəssüratla, bəşəri dəyərlər, sülh və əmin-amanlıq ideyaları təbliğ edən qüdrətli islam dininə mənsub olmaqdan sonsuz qürurla ayrıldılar.

Azərbaycan Prezidenti İlham Əliyev Kəəbəni ziyarət etdikdən sonra Məkkə məscidinin qarşısında jurnalistlərə qısa müsahibə verdi.

JURNALİST: Cənab Prezident, Siz bu gün hər bir müsəlman üçün vacib olan şərəfli bir missiyanı yerinə yetirdiniz. Ziyarətdən sonra öz hisslərinizi Azərbaycan xalqı ilə bölüşməyi xahiş edirik.

İLHAM ƏLİYEV: Bu mənim həyatımda çox əlamətdar, tarixi bir gündür. Mən ikinci dəfədir ki, buranı - Məkkəni ziyarət edirəm və müqəddəs Kəəbənin içərisində dualar etmişəm. Birinci dəfə 1994-cü ildə Prezident Heydər Əliyev burada olarkən onunla bərabər olmuşam. Bu gün isə yenə də buradayam.

Bu hissləri ifadə etmək çox çətindir. Bunu yaşamaq lazımdır. Mən hər bir müsəlmana bu gözəl hissləri yaşamağı arzulayıram.

Mən bu gün çox xoşbəxtəm. Çox şadam ki, ürəyimdə olan niyyətlərimi ifadə etdim, dua oxudum. Hesab edirəm ki, mənim həyatımda bu, çox böyük bir hadisədir.

Bildiyiniz kimi, ümumiyyətlə, səfər çox uğurlu keçir. Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında siyasi münasibətlər çox yüksək səviyyədədir. Bu səfər bunu bir daha təsdiqlədi. Biz bir-birimizi daim dəstəkləyirik, ikitərəfli formatda, regional işbirliyi çərçivəsində sıx əməkdaşlıq edirik.

Bilirsiniz ki, Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz mövqeyini açıq bəyan edib və Ermənistanla bu günə kimi diplomatik əlaqələr qurmayıbdır. Bunun özü gözəl bir nümunədir. Dostluq, qardaşlıq, mehribanlıq nümunəsidir. Çox şadam ki, bizim aramızda belə gözəl münasibətlər vardır və hörmətli Əlahəzrət Vəliəhd mənim xahişimi yerinə yetirdi. Müqəddəs Kəəbənin qapılarını bizim nümayəndə heyətinin üzünə açdı. Biz də orada öz ibadətimizi etdik.

JURNALİST: Cənab Prezident, çox sağ olun,

Allah ziyarətinizi qəbul etsin!

İLHAM ƏLİYEV: Sağ olun.

Həmin gün gecə Azərbaycan Prezidenti İlham Əliyev Məkkədən Ciddəyə qayıtdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da, səfərinin üçüncü günü mərkəzi qərargahı Ciddə şəhərində yerləşən İslam Konfransı Təşkilatının (İKT) binasına gəldi.

Azərbaycanın dövlət bayrağının asıldığı binanın qarşısında Prezident İlham Əliyevi İKT-nin baş katibi Ekmələddin İhsanoğlu böyük hörmət və qonaqpərvərliklə qarşıladı.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərinin uğurla davam etdiyini vurğuladı. İslam Konfransı Təşkilatı ilə ölkəmizin əməkdaşlığını yüksək qiymətləndirərək dedi ki, bu təşkilat Azərbaycana münasibətdə, xüsusilə ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində həmişə düzgün mövqe tutmuş, bir neçə mühüm qərar və qətnamə qəbul etmiş və Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləmişdir.

İslam Konfransı Təşkilatının Azərbaycan üçün çox vacib bir təşkilat olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlardan və münaqişənin həlli perspektivlərindən bəhs edərək dedi ki, bu münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və əminik ki, İslam Konfransı Təşkilatı bu məsələdə Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir. Hesab edirik ki, İslam Konfransı Təşkilatının mövqeyi digər təşkilatlara nümunə ola bilər.

Prezident İlham Əliyev son illər ərzində Azərbaycanın beynəlxalq təşkilatlardakı uğurlu fəaliyyəti sayəsində nailiyyətlər qazanıldığını da diqqətə çatdırdı.

Prezident İlham Əliyevi yenidən görməyindən məmnunluğunu bildirən, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin tarixi xidmətlərinin heç vaxt unudulmayacağını xüsusi vurğulayan İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu dedi ki, biz Azərbaycanın mövqeyini həmişə dəstəkləmişik və daim dəstəkləyəcəyik. Münaqişənin həlli ilə bağlı bundan sonra da İKT bütün mötəbər tədbirlərdə birmənalı mövqedə qalacaqdır. Arzumuz budur ki, Azərbaycanla əməkdaşlığımızı bundan sonra da davam etdirək və bu əlaqələri daha yüksək səviyyəyə qaldıraq.

Görüşdə Azərbaycanla İslam Konfransı Təşkilatı arasında əməkdaşlığın indiki vəziyyəti və perspektivləri müzakirə olundu, İKT-nin ölkəmizə iqtisadi yardım göstərməsi məsələsi barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da öz iqamətgahında, Ciddə Konfrans Sarayında İslam İnkişaf Bankının (İİB) prezidenti Əhməd Məhəmməd Əlini qəbul etmişdir.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə bu beynəlxalq maliyyə qurumunun Azərbaycana olan münasibəti və ölkəmizlə bank arasında əlaqələr, həyata keçirilən birgə la-

yihələr barədə söhbət getmişdir.

Prezident İlham Əliyev görüşdən məmnunluğunu bildirərək demişdir ki, biz mövcud əməkdaşlığı qənaətbəxş hesab edir, İİB-in Azərbaycan təşkilatları ilə birgə işləməsini çox müsbət qiymətləndiririk. İstəyirik ki, əlaqələrimizi daha da genişləndirək və İİB-ni Azərbaycanla bağlı bütün layihələrə cəlb edək.

İslam İnkişaf Bankının prezidenti Əhməd Məhəmməd Əli səmimi qəbula görə təşəkkür edərək dedi ki, ümumiyyətlə, Azərbaycan Prezidenti ilə keçirilən hər bir görüş yaddaqalan olur. Biz indiki əməkdaşlıqdan razıyıq. Söz verirəm ki, bu işlə gələcəkdə də çox fəal və ciddi məşğul olacağıq. Azərbaycanla işləməyi özümə çox böyük şərəf bilirəm və bundan qürur hissi keçirirəm.

Prezident İlham Əliyev Azərbaycanda aparılan iqtisadi islahatlardan, yoxsulluğun azaldılması və yeni iş yerlərinin açılması, regionların sosial-iqtisadi inkişafı sahəsində görülən tədbirlərdən danışdı və bildirdi ki, ölkəmizdə ümumi daxili məhsulun həcmi ilbəil artır. Sosial problemlərin tezliklə həlli istiqamətində İslam İnkişaf Bankı ilə əməkdaşlığın bizim üçün böyük əhəmiyyəti vardır.

Cənab Əhməd Məhəmməd Əli Azərbaycanda gələcəkdə də müəyyən layihələrin həyata keçirilməsinə kömək göstərəcəklərini, bununla bağlı konkret kredit sazişinin imzalanacağını vurğuladı.

AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ İSLAM İNKİŞAF BANKI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Martın 10-da "Ciddə" Konfrans Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı arasında Yevlax-Gəncə magistral yolunun və Samur-Abşeron kanalının Vəlvələçay-Taxtakörpü hissəsinin yenidən qurulması barədə kredit sazişləri imzalandı. Sənədləri Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və İslam İnkişaf Bankının prezidenti Əhməd Məhəmməd Əli imzaladılar.

Həmin sazişlərə əsasən, İslam İnkişaf Bankı layihələrin hər birinə 10 milyon dollar kredit ayıracaqdır.

İSLAM DÜNYASININ MÜQƏDDƏS ŞƏHƏRLƏRİNDƏN OLAN MƏDİNƏYƏ SƏFƏR

Martın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Ciddə şəhərində görüşlərini başa çatdırdıqdan sonra İslam dünyasının müqəddəs şəhərlərindən olan Mədinəyə yola düşmüşdür.

Hava limanında Prezident İlham Əliyevi müqəddəs Məkkə bölgəsinin əmiri Əbdülməcid bin Əbdüləziz Al Səud və digər rəsmi şəxslər böyük hörmətlə yola saldılar.

Azərbaycan Prezidenti İlham Əliyevi Mədinənin hava limanında əmir Mükrin bin Əb-

düləziz Al Səud böyük mehribanlıqla və səmimiyyətlə qarşıladı. Hava limanında ali qonağın şərəfinə fəxri qarovul düzülmüşdü.

Azərbaycan dövlətinin başçısı xanımı və qızı ilə birlikdə hava limanından birbaşa Peyğəmbər məscidinə gəldi. Prezident İlham Əliyev burada Həzrəti Məhəmmədin (s) qəbrini ziyarət etdi və namaz qıldı.

Prezident İlham Əliyevə Peyğəmbər məscidi haqqında ətraflı məlumat verildi. Peyğəmbər əleyhissəlamın tikdirdiyi məscid sonralar müsəlman dünyasının ən görkəmli memarlarının iştirakı ilə yenidən qurulmuşdur. İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun dövründə burada çox böyük işlər görülmüşdür. Məscidin əzəməti, gözəlliyi buraya gələn hər bir adamı valeh edir. Məscidin qorunmasına xüsusi diqqət yetirilir. On bir zonaya bölünmüş məscidin hər yerinə minlərlə videokamera ilə nəzarət olunur. Baş verə biləcək təhlükə haqqında nəinki Mədinədəki, hətta ölkənin paytaxtı Ər-Riyadda yerləşən dörd təhlükəsizlik mərkəzinə dərhal məlumat çatdırılır.

Sonra Azərbaycan Prezidenti məscidin istilik, elektrik, soyuducu, kommunikasiya sistemlərini tənzimləyən idarəetmə mərkəzinin işi ilə yaxından tanış oldu.

Prezident İlham Əliyevə ilk öncə, məscidin Peyğəmbər əleyhissəlam dövründən bu günə qədər genişləndirilməsi və abadlaşdırılması layihələri haqqında, o cümlədən xəlifələr, habelə Səudiyyə Ərəbistanı Krallığının indiki rəhbərliyi tərəfindən həyata keçirilən ən böyük layihələr barədə ətraflı məlumat verildi və bildirildi ki, hazırda məscidin ümumi sahəsi 100 min kvadratmetrə çatır. Bu da həcc ziyarəti mövsümü zamanı daxili və xarici nəzərə alınmaqla, bir milyon insanın eyni vaxtda namaz qılmasına imkan verir.

7 kilometr aralıda yerləşən güclü nasoslar vasitəsilə məscidə su verilir. Zirzəmidə yerləşən 124 paylayıcı - soyuducu qurğu havanı sərinləşdirir. 4200 səsgücləndirici azan səsinin 4 kilometr ətrafa yayılmasına şərait yaradır. Elektrik təchizatı üçqat zəmanətlə işləyir. Hər birinin gücü 2,5 meqavat olan 8 elektrik mühərriki məscidi enerji ilə təmin edir. Bir şəbəkədən digərinə avtomatik olaraq, 60 saniyə ərzində keçilir. Bu anda məsciddə işıqların sönməməsi üçün xüsusi akkumulyatorlardan istifadə olunur. Ümumiyyətlə, burada elektrik enerjisinin kəsilməsinin şahidi olmaq mümkün deyildir.

Sonra Azərbaycan Prezidenti məscidin damında quraşdırılmış və uzaq məsafədən avtomatik hərəkətə gətirilən qübbələrin iş prinsipi ilə tanış oldu. Bildirildi ki, hərəsinin çəkisi 80 ton, sahəsi 300 kvadratmetr olan qübbələr bir neçə saniyə ərzində səssiz açılır və bağlanır. Bundan məqsəd namaz vaxtı havanı təmizləməkdir.

Məscidin açıq hissəsində xüsusi materialdan hazırlanmış 12 ədəd nəhəng çətir quraşdırılmışdır. Ümumiyyətlə, məsciddə bütün xidmət sahələrində 2 mindən çox mühəndis, texnik və digər işçilər çalışır.

Prezident İlham Əliyev xanımı və qızı ilə birlikdə qübbələrin və çətirlərin açılıb bağlanması prosesini maraqla seyr etdi və xatirə şəkli çəkdirdi.

Martın 10-da axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ASİYA VƏ SAKİT OKEAN ÜZRƏ İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ VƏ AVROPA ÜZRƏ İQTİSADİ KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir.

UNESCAP və UNECE-nin nümayəndə heyətlərinin ölkəmizə səfərinin əməkdaşlıqda yeni bir səhifə açdığını vurğulayan dövlətimizin başçısı Azərbaycanda gedən böyük iqtisadi inkişaf proseslərindən bəhs etdi, makroiqtisadi və digər iqtisadi göstəricilərin sürətlə artdığını nəzərə çarpdırdı.

Azərbaycanda iqtisadi inkişafla bağlı bir sıra proqramların, o cümlədən regional inkişaf, yoxsulluğun azaldılması proqramlarının həyata keçirildiyini bildirən Prezident İlham Əliyev son bir il ərzində ölkəmizdə 170 mindən çox yeni iş yerinin yaradıldığını vurğuladı və bu sahədə beynəlxalq təsisatlarla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycanda iri qlobal enerji layihələrinin uğurla həyata keçirildiyini bildirən dövlətimizin başçısı ölkəmizdə ilk növbədə sosial təminat məsələsinə xüsusi diqqət yetirildiyini vurğuladı.

Regional əməkdaşlıq məsələsinə toxunan Prezident İlham Əliyev dedi ki, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, habelə ölkədəki ictimai-siyasi sabitlik bölgədə əməkdaşlığın, sülhün və sabitliyin təmin olunması işinə öz töhfəsini verir. Əfsuslar olsun ki, Ermənistanın Azərbaycana təcavüzü, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi bölgədə əməkdaşlıq və iqtisadi inkişaf, firavanlıq proseslərinə böyük əngəl törədir. Bu münaqişənin davam etdirilməsi ümumiyyətlə regional təhlükəsizliyə, iqtisadi proseslərin irəliləyişinə böyük maneədir. Beynəlxalq təşkilatlar bu cür məsələlərə diqqəti artırmalıdırlar.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətlərinin ölkəmizə səfəri UNESCAP və UNECE ilə Azərbaycan arasında beynəlxalq iqtisadi əməkdaşlığın daha da genişlənməsi, qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsi işinə xidmət edəcəkdir.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi, BMT baş katibinin müavini xanım Brigita Şmoqnerova Azərbaycanın BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv qəbul olunmasını yüksək qiymətləndirdi. O, Azərbaycanın regional iqtisadi inkişaf proseslərində fəal iştirakının UNESCAP və UNECE tərəfindən yüksək qiymətləndirildiyini nəzərə çarpdırdı. Xanım Brigita Şmoqnerova bu proseslərin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O, əmin olduğunu bildirdi ki, respublikamızın UNESCAP-a üzvlüyü Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə regional iqtisadi əməkdaşlığının genişlənməsi işinə öz töhfəsini verəcəkdir. Qonaq bir daha əmin olduğunu bildirdi ki, qarşılıqlı əməkdaşlıq bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PENSİYA FONDU İDARƏ HEYƏTİNİN SƏDRİ GENNADİ BATANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında Rusiya Federasiyası Pensiya Fondu İdarə heyətinin sədri Gennadi Batanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluğunu vurğulayan dövlətimizin başçısı bu il Rusiya Federasiyasında Azərbaycan ilinin, gələn il isə Azərbaycan Respublikasında Rusiya ilinin keçirilməsini əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirdi.

İki ölkənin dövlət və hökumət strukturlarının, nazirliklərinin əməkdaşlığının daim genişləndiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bu səfərin Azərbaycan və Rusiya pensiya fondları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin yaxşı göstəricisi olduğunu vurğuladı.

Rusiya və Azərbaycan pensiya fondlarının keçirdikləri birgə seminarı bu əməkdaşlığın yaxşı nümunəsi kimi qiymətləndirən dövlətimizin başçısı ölkəmizdə sosial təminat məsələlərinə böyük diqqət yetirildiyini, iqtisadi inkişaf proseslərinin uğurla getdiyini bildirdi. Ölkələrimizin pensiya fondlarının həm də beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanda bu sahədə də böyük işlər aparıldığını bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Rusiya pensiya fondları arasında təcrübə mübadiləsi aparılmasının hər iki tərəf üçün çox faydalı olduğunu xatırlatdı.

Azərbaycan və Rusiya pensiya fondları arasında əlaqələrin genişləndiyini söyləyən cənab Gennadi Batanov bu sahədə beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın yaxşı səviyyədə olduğunu bildirərək dedi ki, qarşılıqlı təcrübə mübadiləsi hər iki tərəf üçün faydalıdır.

Rusiyada Azərbaycan ilinin keçirilməsində bütün dövlət və hökumət strukturlarının yaxından iştirak etdiyini bildirən qonaq pensiya fondlarının bu işdə fəal iştirak etdiklərini nəzərə çarpdırdı. Cənab Gennadi Batanov Rusiyada Azərbaycan ilinin və Azərbaycanda Rusiya ilinin keçirilməsinin ölkələrimiz arasında əlaqələrin daha da sıxlaşdırılmasının yaxşı nümunəsi kimi dəyərləndirdi. Qonaq əmin olduğunu bildirdi ki, ölkələrimizin pensiya fondlarının əməkdaşlığı Azərbaycan-Rusiya əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜSTƏŞAR MÜAVİNİ, SƏFİR ƏHMƏD ÜZÜMÇÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında Türkiyə Respublikası xarici işlər nazirinin müstəşar müavini, səfir Əhməd Üzümçünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətləri

bütün sahələrdə sürətlə inkişaf edir. Türkiyəyə rəsmi səfərini və orada keçirilmiş beynəlxalq tədbirlər zamanı bu ölkəyə rəsmi ziyarətlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi sahədə daim məsləhətləşmələr aparılmasını yüksək qiymətləndirdi.

Azərbaycan ilə Türkiyənin beynəlxalq və regional əməkdaşlıq sahəsində də əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı dünya miqyaslı, qlobal enerji layihələrində iki ölkənin iştirakını çox əhəmiyyətli bir amil kimi dəyərləndirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan Prezident İlham Əliyev hazırda danışıqların Praqa prosesi çərçivəsində xarici işlər nazirləri səviyyəsində aparıldığını vurğuladı. Dövlətimizin başçısı bu danışıqların münaqişənin həllinə müəyyən kömək göstərəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar tərəfindən münaqişənin həlli məsələsinə daha böyük diqqət yetirilməsinin vacibliyini qeyd etdi.

Cənab Əhməd Üzümçü Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın səmimi salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırdı. Qonaq Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə sürətlə inkişaf etdiyini vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə, xarici işlər nazirləri səviyyəsində aparılan danışıqlara toxunan cənab Əhməd Üzümçü dedi ki, Türkiyə bu münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində Azərbaycan Xarici İşlər Nazirliyi ilə daim siyasi məsləhətləşmələr aparır.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın səmimi salamlarına və ehtiramına görə təşəkkürünü bildirdi və onun da səmimi salamlarını və ehtiramını cənab Əhməd Necdət Sezərə və cənab Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN MİLLİ TƏHLÜKƏSİZLİK KOMİTƏSİ SƏRHƏD XİDMƏTİNİN DİREKTORU BOLAT ZAKİYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi Sərhəd Xidmətinin direktoru general-leytenant Bolat Zakiyevi qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Qazaxıstana ötənilki səfərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev bu səfər zamanı keçirilmiş görüşləri, imzalanmış sənədləri əməkdaşlığımızın, iki ölkə arasında münasibətlərin inkişafına böyük töhfə verdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstan arasında 2001-ci ildə Xəzər dənizi dibinin bölünməsi haqqında imzalanmış sazişi ölkələrimiz arasında münasibətlərin yaxşı nümunəsi kimi dəyərləndirdi. Həm Azərbaycanın, həm də Qazaxıstanın zəngin təbii sərvətlərə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bunun ölkələrimizin əməkdaşlığının gələcəkdə də uğurla davam etdirilməsi üçün yaxşı zəmin yaratdığını nəzərə çarpdırdı.

Sərhədlərimizin təhlükəsizliyinin təmin olunmasının böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı hər iki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini bildirdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimizin sərhəd xidmətləri arasında əməkdaşlıq bölgədə sülhün və sabitliyin təmin olunmasına xidmət edəcəkdir.

Cənab Bolat Zakiyev ölkələrimizin bütün sahələrdə, o cümlədən sərhəd xidməti sahəsində əməkdaşlığın çox uğurla inkişaf etdiyini bildirdi. O dedi ki, hər iki ölkənin sərhəd xidmətləri arasında qaçaqmalçılığa qarşı mübarizə, təbii fəlakətlərdə xilasetmə işləri və digər sahələrdə əməkdaşlıq çox uğurla davam etdirilir.

Qonaq əmin olduğunu bildirdi ki, ölkələrimizin sərhəd xidmətlərinin əməkdaşlığı Azərbaycan ilə Qazaxıstan arasındakı münasibətlərin ruhuna uyğun olaraq uğurla inkişaf etdiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN MƏRUZƏÇİSİ MALKOLM BRYUSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Hüquqi məsələlər və insan hüquqları komitəsinin məruzəçisi Malkolm Bryusu qəbul etmişdir.

Dövlətimizin başçısı Avropa Şurası ilə əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək, bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən müzakirələri müsbət bir addım kimi dəyərləndirmişdir. O, bu münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun bilavasitə mandata malik olduğunu qeyd edərək, eyni zamanda beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının bu məsələyə daha çox diqqət yetirməsinin vacibliyini vurğulamışdır. Prezident İlham Əliyev münaqişə ilə bağlı AŞPA-da keçirilən müzakirələrin və qəbul olunmuş sənədlərin bu məsələnin həllində mühüm rol oynayacağına əminliyini ifadə etmişdir.

Azərbaycan Prezidenti bildirmişdir ki, ölkəmiz AŞ qarşısında götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirir və bütün bu proseslər cəmiyyətimizin daha da demokratikləşməsi, Avropa strukturlarına daha sıx inteqrasiya etməsi işinə öz töhfəsini verir.

Cənab Bryus Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təqdim olunmuş son məruzəni ədalətli sənəd kimi dəyərləndirərək, dövlətimizin başçısının AŞPA-dakı çıxışının bu sənədin qəbul edilməsində çox mühüm rol oynadığını vurğulamışdır. O, Prezident İlham Əliyevin bu çıxışı zamanı Azərbaycanın təşkilat qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi barədə söylədiyi fikirlərin avropalı deputatlar tərəfindən yüksək qiymətləndirildiyini bildirmişdir.

Malkolm Bryus Azərbaycan xalqının tolerantlıq prinsiplərinə sadiqliyini yüksək qiymətləndirmişdir.

Cənab Bryus Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığından həm bu təşkilatın, həm də ölkəmizin qarşılıqlı surətdə faydalandığını xüsusi olaraq vurğulamışdır.

Görüşdə məhbuslarla bağlı məsələlər də müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI VAHİD PERSPEKTİV İŞ PLANI TƏSDİQ ETMİŞDİR

Martın 15-də xarici işlər nazirliyinin kollegiya iclası keçirilmişdir. İclasda nazirliyin 2005-ci il üçün Vahid Perspektiv İş Planı təsdiq edilmişdir.

Ötən il iyulun 27-də diplomatik nümayəndəliklərin rəhbərlərinin nazirlikdə keçirilmiş müşavirəsində Azərbaycan Prezidenti İlham Əliyevin nitqində dövlətimizin diplomatik xidmətinin fəaliyyətində planlaşdırma işinin vacibliyi vurğulanmış və müvafiq göstərişlər verilmişdir.

Azərbaycanın diplomatik xidmətinin fəaliyyətində əlaqələndirmənin təkmilləşdirilməsi, səmərəliliyin artırılması və nəzarətin gücləndirilməsi məqsədi ilə XİN-in təcrübəsində ilk dəfə qəbul olunmuş Vahid Perspektiv İş Planında təqvim ilində müvafiq strateji sahə və istiqamətlər üzrə görüləcək işlər müəyyənləşdirilmişdir.

Planda Ermənistanın Azərbaycana təcavüzü və onun ağır nəticələrinin aradan qaldırılması, ölkəmizin xarici siyasətinin beynəlxalq təhlükəsizlik, hərbi-siyasi, iqtisadi, humanitar və hüquq sahələri üzrə qarşıya qoyulmuş yeni vəzifələrin həyata keçirilməsi ilə bağlı müvafiq tədbirlər nəzərdə tutulur. Sənəddə, həmçinin təbliğat işinin gücləndirilməsi və xaricdə yaşayan həmvətənlərlə əlaqələrin genişləndirilməsinə, habelə dövlət protokolu, konsulluq, kadrlar və ixtisasartırma, informasiya texnologiyaları və digər istiqamətlərə dair müvafiq tədbirlərin görülməsinə xüsusi diqqət yetirilmişdir.

Kollegiya tərəfindən təsdiq edilmiş Vahid Perspektiv İş Planı icra olunmaq üçün nazirliyin struktur bölmələrinə və ölkəmizin diplomatik nümayəndəliklərinə göndəriləcəkdir.

ATƏT MİSSİYASININ MƏRUZƏSİNDƏ AZƏRBAYCANIN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİNDƏ ERMƏNİLƏRİN MƏSKUNLAŞDIRILMASI FAKTLARI TƏSDİQ OLUNMUŞDUR

Martın 18-də xarici işlər nazirinin müavini Araz Əzimov Azərbaycanın işğal edilmiş ərazilərində əhali məskunlaşdırılması faktlarını araşdırmış ATƏT-in missiyasının hazırladığı və martın 17-də təşkilatın Vyanadakı Daimi Şurasının iclasına təqdim edilmiş məruzəsi ilə əlaqədar mətbuat konfransı keçirmişdir.

Araz Əzimov missiyanın təşkil edilməsini, işğal olunmuş ərazilərə səfərini və məruzə hazırlamasını müsbət hal kimi qiymətləndirərək demişdir ki, 1992-ci ildə ATƏT-in Minsk qrupu yarananadan bəri işğal olunmuş ərazilərdə vəziyyəti araşdırmaq üçün ilk dəfə idi ki, missiya göndərilirdi. Bu missiya münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə uyğun olmuşdur.

Məruzənin təfərrüatı barədə danışan xarici işlər nazirinin müavini bildirmişdir ki, çətin hava və ərazi şəraitinə baxmayaraq, missiya, imkan dairəsində, daha çox ərazilərə baş çəkmiş və faktlarla zəngin məruzə hazırlamışdır. 36 səhifəlik məruzədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində erməni əhalisinin məskunlaşmasına dair faktlar əksini tapmışdır. Məruzədə məskunlaşdırılmış əhalinin sayı 15-16 min nəfər göstərilmişdir. Nəzərə alaq ki, separatçı rejim əvvəlcədən müəyyən tədarük görərək, əhalinin bir qismini müvəqqəti olaraq müəyyən bəhanələrlə missiyanın aparılmadığı ərazilərdə yerləşdirmişlər.

Məruzədə Laçın rayonunda təxminən 8-12 min, Kəlbəcərdə 1500-2000, Ağdamda 1000, Zəngilanda 1000, Qubadlıda 1500, Füzulidə 10, Cəbrayılda 100 nəfər ermənin məskunlaşması qeyd olunmuşdur. Missiya yalnız gördüyü və hesabladığı əhalinin sayını göstərmişdir.

Araz Əzimov Ermənistan tərəfinin məskunlaşmış insanların Azərbaycandan gedənlərdən ibarət olması haqqındakı fikirlərinə aydınlıq gətirərək bildirdi ki, ermənilər Azərbaycanı ən geci 1991-ci ildə tərk etmiş, Dağlıq Qarabağ ətrafındakı Azərbaycan ərazilərini isə 1992-ci ildən sonra işğal olunmuşdur. Beləliklə, aydın olur ki, oradakı əhali ərazilərə atəşkəs elan edilməndən sonra yerləşdirilmişdir. Bu işdə Ermənistan tərəfinin iştirakına aid çoxlu faktlar vardır. Ayrı-ayrı şəxslərin işğal edilmiş ərazilərdə infrastrukturu, enerji və su sistemlərini təmir və bərpa etməsi mümkün deyildir. Burada Ermənistan hökumətinin iştirakı inkaredilməzdir. Ermənistan məskunlaşdırma siyasətini separatçı rejimlə birlikdə həyata keçirmişdir.

Araz Əzimov demişdir ki, məruzə ilə birlikdə Minsk qrupu həmsədrlərinin məktubu da ATƏT-in daimi şurasına təqdim edilmişdir. Məktubda işğal altındakı ərazilərdə demoqrafik dəyişikliyin aparılmasının yolverilməzliyi qeyd edilir və məskunlaşdırmanın dayandırılması tələb olunur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlmişdir.

Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Pekin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Çin xarici işlər nazirinin müavini Li Siey, Azərbaycanın Pekindəki səfiri Yaşar Əliyev və Çinin Bakıdakı səfiri Çjan Siyun qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından avtomobil karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha - " Diao Yu Tai " dövlət qonaq evinə gəldi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN PARLAMENTİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Martın 17-də Çin Xalq Respublikasının parlamentində - Ümumçin Xalq Nümayəndələri Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycan Prezidentinin şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü. ÇXR-in Sədri Xu Szintao Azərbaycan dövlətinin başçısını və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladı. Çinin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri ÇXR-in Sədrinə təqdim olundu.

Hərbi orkestrin ifasında Azərbaycanın və Çinin dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi. Hər iki ölkənin rəhbərləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

GENİŞ TƏRKİBDƏ AZƏRBAYCAN-ÇİN DANIŞIQLARI

Martın 17-də Azərbaycan Prezidenti İlham Əliyevin və ÇXR-in Sədri Xu Szintaonun rəhbərliyi ilə geniş tərkibdə Azərbaycan-Çin danışıqları olmuşdur.

ÇXR-in Sədri Xu Szintao Azərbaycan Prezidenti İlham Əliyevi Çin hökuməti və xalqı adından səmimi salamlayaraq, dövlətimizin başçısını və Azərbaycan nümayəndə heyətinin üzvlərini, habelə xalqımızı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi. Cənab Xu Szintao Prezident İlham Əliyevə müraciətlə dedi: "Sizin Çinə səfəriniz Azərbaycan-Çin dövlətlərarası münasibətlərinin tarixində çox mühüm hadisədir. Səfəriniz Azərbaycanla Çin arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edəcək və Azərbaycan-Çin münasibətlərinin hərtərəfli inkişafının rəmzi olacaqdır". ÇXR-in Sədri bildirdi ki, bu səfər ikitərəfli münasibətlərlə bağlı və qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirəsi üçün gözəl imkan yaratmışdır və biz bundan maksimum istifadə etməyə çalışacağıq.

Cənab Xu Szintao Prezident İlham Əliyevin Azərbaycanın iqtisadi yüksəlişi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsindəki məqsədyönlü siyasəti barədə Çində kifayət qədər məlumat olduğunu vurğuladı və Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən məmnun olduğunu söylədi. ÇXR-in Sədri bildirdi ki, onun ölkəsi Azərbaycana təməннasız olaraq, 15 milyon yuan məbləğində birdəfəlik yardım göstərəcəkdir.

Prezident İlham Əliyev Çinə dövlət səfərinə dəvətə görə təşəkkürünü bildirərək vurğuladı ki, Azərbaycan bu səfərə böyük əhəmiyyət verir. Səfər ölkələrimiz arasında siyasi sahədə, iqtisadiyyat və mədəniyyət sahələrində münasibətləri yeni səviyyəyə qaldıracaqdır. Bu münasibətlərin inkişafı üçün yaxşı zəmin var. Dövlətimizin başçısı əmin etdi ki, Azərbaycan rəhbərliyi Çinin işgüzar dairələrinin ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına bundan sonra da kömək göstərəcəkdir. Prezident İlham Əliyev daha sonra dedi ki, ölkələrimiz beynəlxalq səviyyədə bir-birini dəstəkləyirlər və əminəm ki, bu, gələcəkdə də davam edəcəkdir. Bu, qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə etibarlı zəmanət verir.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da fikir mübadiləsi apardılar. Cənab Szintao bildirdi ki, Çin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Tayvan məsələsində Çinin də belə bir problemlə üzləşdiyini vurğulayan ÇXR-in Sədri dedi ki, biz münaqişələrin sülh yolu ilə, beynəlxalq hüquq normalarına, ən əsası isə, BMT-nin Nizamnaməsinə uyğun olaraq həll edilməsinə tərəfdarıq.

ÇXR-in Sədri Tayvan məsələsində onun ölkəsinin mövqeyini dəstəklədiyinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Prezident İlham Əliyev Çinin Azərbaycanın ərazi bütövlüyünü

beynəlxalq təşkilatlar səviyyəsində dəstəklənməsini yüksək qiymətləndirdi.

Görüşdə ikitərəfli əlaqələr və regional məsələlər barədə ətraflı fikir mübadiləsi edildi.

AZƏRBAYCAN-ÇİN SƏNƏDLƏRİNİN İMZALANMASI

Martın 17-də Azərbaycan-Çin sənədlərinin imzalanma mərasimi olmuşdur. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında birgə bəyannaməni Azərbaycan Prezidenti İlham Əliyev və ÇXR-in Sədri Xu Szintao imzaladılar.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ekstradisiya haqqında müqaviləni, habelə Çin Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycanın Xarici İşlər Nazirliyinə texniki yardım göstərilməsi haqqında memorandumu Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Çin tərəfindən xarici işlər nazirinin müavini Day Binqo imzaladılar. Azərbaycan hökuməti ilə Çin hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişi, habelə Azərbaycan hökuməti ilə Çin hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Çin tərəfindən kommersiya nazirinin müavini Çjan Çiqan imzaladılar. Azərbaycan hökuməti ilə Çin hökuməti arasında gəlirlərdən ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfindən vergilər naziri Fazil Məmmədov, Çin tərəfindən Baş Vergi İdarəsinin rəisi Se Rendzyu imzaladılar. Azərbaycan hökuməti ilə Çin hökuməti arasında gömrük işində qarşılıqlı kömək haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov, Çin tərəfindən Baş Gömrük İdarəsinin sədri Mo Tsinşen imzaladılar. Azərbaycan Mədəniyyət Nazirliyi ilə Çin Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər dövründə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokolu Azərbaycan tərəfindən mədəniyyət naziri Polad Bülbüloğlu, Çin tərəfindən mədəniyyət naziri Sun Szyaçjen imzaladılar.

İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI

Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfərinin ilk günü, martın 17-də "Diao Yu Tai" dövlət qonaq evində ikitərəfli bir neçə sənəd də imzalanmışdır.

Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş üzrə əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən gənclər, idman və turizm naziri Əbülfəz Qarayev, Çin tərəfindən Ümumçin Gənclər Federasiyası daimi sədrinin müavini Xun Dey imzaladılar. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə Çin Mərkəzi Televiziyası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən teleradio şirkətinin sədri Nizami Xudiyev, Çin tərəfindən mərkəzi televiziyanın prezidenti Çjao Xuayon imzaladılar. Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin İnformasiya Sənayesi Nazirliyi arasında qarşılıqlı əlaqələr haqqında memorandumu Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Çin tərəfindən informasiya sənayesi naziri Van Syuydun imzaladılar. Azərbaycan Milli Olimpiya Komitəsi ilə Çin Milli Olimpiya Komitəsi arasında texniki-idman əməkdaşlığı haqqında sazişi Azərbaycan tərəfindən gənclər, idman və turizm naziri, respublika Milli Olimpiya komitəsinin birinci vitse-prezidenti Əbülfəz Qarayev,

Çin tərəfindən Milli Olimpiya Komitəsinin prezidenti Lyu Pen imzaladılar. Azərbaycan Ədliyyə Nazirliyi ilə Çin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Çin tərəfindən ədliyyə naziri Çjan Fusen imzaladılar.

Martın 17-də Çin Xalq Respublikasının Sədri Xu Szintaonun və xanımının adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımının şərəfinə ziyafət verildi.

PEKİNDƏ AZƏRBAYCAN-ÇİN BİZNES FORUMU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində martın 18-də Pekində Azərbaycan-Çin biznes forumu keçirilmişdir.

Forumun iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi səmimiyyətlə qarşıladılar.

Çin Kommersiya Nazirliyinin, Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin və ölkəmizin Çindəki səfirliyinin təşkilati dəstəyi ilə keçirilən forumda respublikamızın 40 şirkətinin və Çinin 400-dək şirkətinin nümayəndələri iştirak edirdilər.

Çinin Avropa ilə İqtisadi Əməkdaşlıq Assosiasiyasının prezidenti KSYUİ BİNÇİ forumu açaraq dedi:

- Hörmətli qonaqlar, xanımlar və cənablar!

Çin-Azərbaycan iqtisadi forumunu açıq elan edirəm. Bu gün bizə böyük şərəf nəsib olmuşdur. Forumun işində Azərbaycan Prezidenti Zati-aliləri cənab İlham Əliyev, habelə cənab Prezidenti bugünkü forumda xüsusi olaraq müşayiət edən Çinin kommersiya nazirinin müavini cənab Çjan Sziqan iştirak edirlər.

Bugünkü forumda hökumətin yüksək vəzifəli şəxsləri, Çin və Azərbaycan şirkətlərinin nümayəndələri də iştirak edirlər.

Sonra forumda Çinin kommersiya nazirinin müavini Çjan Sziqan çıxış etdi.

ÇİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ ÇJAN SZİQANIN ÇIXIŞI

- Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli çinli və azərbaycanlı qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Çin nazirliyi adından Zati-aliləri cənab Prezidenti bugünkü forumda səmimiyyətlə salamlayım.

Zati-aliləri ilə birlikdə mən Çinin və Azərbaycanın işgüzar dairələrindən olan dostlarla görüşməkdən böyük məmnunluq duyuram.

Xanımlar və cənablar! 1978-ci ildən, islahatlar aparıldıqdan sonra Çin iqtisadiyyatda böyük nailiyyətlər qazanmışdır. 2004-cü ildə ölkənin ümumi daxili məhsulu 1,6 trilyon dollara çatmışdır. İqtisadi miqyasa görə Çin dünyada 7-ci yeri tutur. Əmtəə dövriyyəsi 1978-ci ildəki 20,6 milyard dollardan 2004-cü ildə 1 trilyon 154,8 milyard dollaradək

artmışdır. Ticarət dövriyyəsinin səviyyəsinə görə Çin dünyada 32-ci yerdən 3-cü yerə qalxmışdır. Çində xarici sərmayənin həcmi sıfır səviyyəsindən inkişaf etməyə başlayaraq, 2004-cü ilin sonunadək 562,1 milyard ABŞ dollarına çatmışdır. Cari yüzilliyin ilk 20 ili Çin iqtisadiyyatının inkişafı üçün strateji imkanın mühüm dövrü olacaqdır.

Dövlət proqramına uyğun olaraq, 2020-ci ilədək biz hərtərəfli firavan cəmiyyətin inkişafına dair dörd layihəni həyata keçirməli, habelə 2000-ci illə müqayisədə ÜDM-i iki dəfə artıraraq 4 trilyon ABŞ dollarına, adambaşına isə 30 dollara çatdırılmasına nail olmalıyıq.

İnkişaf etməkdə olan Çin dünyanın bütün ölkələrinə çox böyük kommersiya imkanları açacaqdır. Çində inkişaf sürəti artdıqca bazar durmadan genişlənir. Məsələn, 2004-cü ildə istehlak mallarının ictimai pərakəndə satışının ümumi həcmi 550 milyard dollardan artıq olmuşdur. Biz daxili bazarın getdikcə artan tələbatını ödəmək üçün hər il xaricdən böyük miqdarda mal idxal edirik. 2004-cü ildə biz 2 trilyon 614,4 milyard dollarlıq mal idxal etmişik. Son illər Çin müəssisələrinin istehsal gücü davamlı surətdə möhkəmləndikcə, xarici sərmayə fəaliyyəti də canlanır. Keçən il xaricdən birbaşa sərmayələrin həcmi təxminən 37 milyard dollar olmuşdur.

Xanımlar və cənablar!

Çin ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin kökləri uzaq keçmişə gedib çıxır. Böyük İpək yolu iki ölkənin xalqlarını birləşdirir, qarşılıqlı münasibətlər uğurla inkişaf edir. Tez-tez yüksək səviyyədə qarşılıqlı səfərlər olur, qarşılıqlı siyasi etimad möhkəmlənir. Bütün bunlar ikitərəfli ticarət-iqtisadi münasibətlərin möhkəmləndirilməsinin möhkəm təməlini qoymuşdur. Bu illər ərzində Çində və Azərbaycanda iqtisadiyyat sabit olaraq yüksək sürətlə inkişaf edir. İki ölkənin iqtisadiyyatlarının bir-birini tamamlaması özünü getdikcə daha aydın büruzə verir. Bu, ikitərəfli ticarət-iqtisadi əməkdaşlığı genişləndirməyə əlverişli zəmin yaradır. Zati-aliləri cənab Prezidentin indiki səfəri ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın daha da genişlənməsinə, şəksiz, yeni təkan verəcəkdir.

Son illər Çin-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığı yüksək sürətlə inkişaf etmişdir. Çin tərəfinin statistikasına görə, 1992-ci ildə ticarət dövriyyəsinin həcmi bir milyon dollardan bir qədər artıq olduğu halda, 2003-cü ildə 238 milyon dollara çatmışdır ki, bu da rekorddur. 2000-ci ildən 2003-cü ilədək olan dövrdə ikitərəfli əmtəə dövriyyəsi iki-üç dəfə artmışdır. Nəqliyyatla əlaqədar problemlərə görə 2004-cü ildə əmtəə dövriyyəsinin azalaraq 184 milyon dollara enməsinə baxmayaraq, texniki-iqtisadi əməkdaşlığın miqyası və sahələrinin daim genişlənməsi kimi müsbət meyil müşahidə olunmuşdur. 2004-cü ilin sonunadək Çin müəssisələri Azərbaycana 250 milyon dollar məbləğində kapital qoymuşdur. Çinin CNPC, Sinopek, Xuavey Çin elektrik avadanlığı istehsalı korporasiyası, Yüngül sənaye sahəsində xarici texniki-iqtisadi əməkdaşlıq korporasiyası, Szin-szin maqnit kartları istehsalı korporasiyası kimi sanballı müəssisələr azərbaycanlı həmkarları ilə əməkdaşlıq sahəsində öz biznesinə başlamış, yaxud fəal razılaşdırma işləri aparır. Əməkdaşlıq neft və qazdan telekommunikasiyalar, elektronika, sement istehsalı, pambıqçılıq, tikinti podratı və digər sahələrədək genişlənmişdir. Bizdə olan məlumata görə, dünən məhz burada Azərbaycanın iqtisadi inkişaf nazirinin sədrliyi ilə müşavirə keçirilmiş və 20-dən çox niyyət barədə razılıq əldə edilmişdir. Azərbaycan Dünya Ticarət Təşkilatına qoşulur. Bu təşkilatın üzvü kimi Çin iki ölkə arasında tica-

rət-iqtisadi əməkdaşlığın sağlam və davamlı inkişafı üçün əlverişli şərait yaradılması məqsədi ilə Azərbaycanın DTT-yə tezliklə daxil olmasını dönmədən dəstəkləyəcəkdir.

Çin-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığının geniş perspektivləri vardır. Mən bu əməkdaşlığın inkişafına dair üç təkliflə çıxış etmək istərdim. Birincisi, burada irəliləyişə nail olmaq üçün öncül istiqamətləri müəyyən etmək. Azərbaycanın zəngin neft ehtiyatları və nisbətən inkişaf etmiş neft kimyası sahəsi vardır. Çin neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, maşın istehsalı, yüngül və toxuculuq sənayeləri, telekommunikasiyalar, elektron sahələri istiqamətində müəyyən üstünlüklərə malikdir. Biz tərəflərin iqtisadi cəhətdən qarşılıqlı marağını əsaslı surətdə nəzərdən keçirərək, öz üstünlüklərimizdən istifadə edərək, öncül sahələrdə sıçrayışlı inkişafa nail olmalıyıq.

İkincisi, əməkdaşlığın müxtəlif formalarını tətbiq etmək. Çin ilə Azərbaycan arasında hazırkı ticarət-iqtisadi əməkdaşlıq ticarətin üstün rolu, onun sürətlə inkişafı ilə səciyyələnir. Biz bu əsasda qarşılıqlı sərmayə qoyuluşlarını, əmək, inşaat podratı və digər formalarda xidmətlər göstərilməsi sahəsində əməkdaşlığı davam etdirməliyik. Konkret layihələrin irəliləməsi yolunda iki ölkə arasında ticarət-iqtisadi kompleksin hərtərəfli inkişafını gerçəkləşdirməliyik.

Üçüncüsü, əlaqələri və dialoqu möhkəmləndirmək. Bizim ticarət-iqtisadi əməkdaşlığımızın tarixi hələlik çox böyük deyil, odur ki, iki ölkənin müəssisələri bir-birini hələlik yaxşı tanımırlar. Ümidvarıq ki, sərgilər, yarmarkalar, forumlar kimi səmərəli tədbirlər əlaqələrin və dialoqların yaradılmasında iki ölkənin müəssisələrinə kömək edəcəkdir.

Xanımlar və cənablar!

Çində deyirlər: "Dostluq etmək istəyən üçün böyük məsafə yoxdur". Ölkələrimizi dağlar və çaylar ayırsa da, biz yaxın dostlarıq. Biz ürəkdən arzu edirik ki, bu forum iki ölkənin işgüzar dairələri arasında körpü olsun, əlaqələrə kömək etsin, qarşılıqlı etimadı, anlaşmanı və əməkdaşlığı möhkəmləndirsin. Ümidvarıq ki, bu gün forumda iştirak edən dostlar çoxşaxəli ticarət-iqtisadi əməkdaşlığın yeni perspektivini açmaq üçün əl-ələ verib birgə səy göstərməklə Böyük İpək yolunun yeni parlaq tarixini yaradacaqlar. Cənab Prezident, biz əminik ki, Zati-alinizin şəxsi himayəsi, fəal iştirakı ilə, hökumətlərin və işgüzar dairələrin ümumi səyləri sayəsində Çin-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığı mütləq yeni səviyyəyə qalxacaqdır.

Sonda, icazə verin, Kommersiya Nazirliyi adından forumumuza uğurlar və iki ölkənin işgüzar dairələrindən burada iştirak edən dostlara səmərəli birgə iş arzulayım.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söylədi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- *Hörmətli cənab nazir müavini!*

Əziz dostlar!

Mən, ilk növbədə, sizin hamınızı salamlamaq və bugünkü görüşümüzdən böyük məm-

nunluq duyduğumu bildirmək istəyirəm. Mən dünəndən Çin Xalq Respublikasında dövlət səfərindəyəm. Səfər çox uğurlu keçir. Ölkənizin ali rəhbərliyi ilə, Çin Xalq Respublikasının Sədri ilə çox səmərəli danışıqlar oldu, çox mühüm sənədlər imzalandı. Bu sənədlər gələcəkdə ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrinə çox kömək edəcəkdir.

Bizim aramızda çox yüksək səviyyəli siyasi əlaqələr mövcuddur. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan bəri biz ikitərəfli səviyyədə çox fəal əməkdaşlıq edirik və bütün məsələlərdə, xüsusən ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələlərində bir-birimizi dəstəkləyirik. Bu dəstək təkcə ikitərəfli əlaqələrimiz çərçivəsində deyil, beynəlxalq miqyasda, beynəlxalq təşkilatlar çərçivəsində də həmişə özünü göstərir. İndiki səfər də sıx qarşılıqlı fəaliyyətə tərəfdar olduğumuzu bir daha təsdiqləyir. Yaxşı siyasi əlaqələr iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaradır. Bu istiqamətdə də çox işlər görülmüşdür. Lakin hesab edirəm ki, daha səmərəli qarşılıqlı iqtisadi fəaliyyət üçün çox böyük potensial var.

Əminəm ki, bugünkü biznes forumu mühüm hadisə olacaq və iqtisadi əlaqələrimizin daha da inkişaf etməsinə böyük töhfə verəcəkdir. Hörmətli cənab nazir müavininin dediyi kimi, ölkələrimizin iqtisadi əməkdaşlığı çox fəal inkişaf edir. Yəqin ki, Çin və Azərbaycan dünyada iqtisadiyyatları ən dinamik inkişaf edən ölkələrdir. Bu il Azərbaycanda ümumi daxili məhsulun artımı 14-15 faiz səviyyəsində gözlənilir. 1996-cı ildən başlayaraq, son 10 ildə ölkəmizdə ÜDM-in orta illik artımı təxminən 10 faiz olmuşdur. Eyni hal Çində də müşahidə edilir. Bütün bunlar iqtisadi potensialımızı yüksəldir, qarşılıqlı iqtisadi fəaliyyət üçün yaxşı imkanlar yaradır. Bu qarşılıqlı iqtisadi fəaliyyətin dairəsi çox genişdir. Zənnimcə, bugünkü görüş və tədbir sıx iqtisadi əməkdaşlıq yolunda mühüm mərhələ olacaqdır.

Azərbaycanda çox əlverişli sərmayə mühiti var. Ölkəmizə milyardlarla dollar məbləğində sərmayə qoyulur. Əlbəttə, Çin və Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələri müqayisə etmək mümkün deyildir. Lakin deməliyəm ki, Azərbaycanda adambaşına düşən birbaşa xarici sərmayələr ölkəmizə bu göstəricidə keçmiş SSRİ və Şərqi Avropa ölkələrinin liderlər qrupunda olmağa imkan vermişdir. Bunu şərtləndirən bir çox amillər mövcuddur. Onlardan biri yaxşı sərmayə mühitinin yaradılması və xarici sərmayələrin etibarlı şəkildə qorunmasıdır. Ona görə də sizin ölkənizdən Azərbaycana qoyulan sərmayələr alqışlanacaq və etibarlı surətdə qorunacaqdır. Bu, iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilə bilər.

Dediyim kimi, bu gün Azərbaycan iqtisadiyyatı dinamik inkişaf edir. Əlbəttə, biz Çin kapitalının Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində iştirakını alqışlayardıq. Bunlar həm kənd təsərrüfatı, həm turizm, həm neft kimyası, tikinti və həm də, əlbəttə ki, energetika sahələridir. Bu istiqamətdə də yaxşı təcrübə var. Çinin neft şirkətləri artıq Azərbaycandadır, sərmayəçilərdir və ölkəmizdə özlərini çox yaxşı göstərmişlər. Neft hasil edən ölkə kimi Azərbaycan öz ixrac potensialını gücləndirir və bir neçə ildən, təxminən 3-4 ildən sonra ixrac potensialımız azı üç dəfə artacaqdır. Azərbaycandan Aralıq dənizinin sahilinə çəkilən Bakı-Tbilisi-Ceyhan boru kəməri istifadəyə veriləndən sonra böyük həcmdə Azərbaycan nefti istehlakçılara çatdırılacaqdır. Bizə məlumdur ki, Çin iqtisadiyyatı inkişaf etdikcə enerji daşıyıcılarına tələbat da artır və əlbəttə ki, indiki halda Azərbaycandan alınan neft Çin iqtisadiyyatının inkişaf mənafelərinə xidmət edə bilər.

Biz bu əməkdaşlığı alqışlayırıq və əminik ki, gələcəkdə onun miqyası artacaqdır. Fəaliyyətimizin bütün digər sahələrində də çox yaxşı potensial var və hesab edirəm ki, Çin kapitalının Azərbaycanda fəal işləməsi ölkələrimizin xeyrinə olacaqdır.

Bizdə iqtisadi islahatlar siyasəti aparılır. O, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı illərin ortalarından başlanmışdır. Bu islahatlar və geniş özəlləşdirmə nəticəsində Azərbaycanda iqtisadi artım çox böyükdür. İndi biz ölkəmizin, onun iqtisadiyyatının inkişafının yeni mərhələsindəyik və regional inkişaf proqramının həyata keçirilməsi Azərbaycanın bölgələrini hərtərəfli inkişaf etdirməyə imkan verir. Bölgələrdə böyük sayda iş yerləri, yeni istehsalatlar, yeni texnologiyalar yaradılması Azərbaycanın iqtisadi inkişafının yeni istiqamətidir, ümumən ölkəmizin gələcək inkişafına, onun hərtərəfli, çoxşaxəli inkişafına xeyli güclü təsir göstərəcək çox mühüm istiqamətdir. Bununla əlaqədar potensial sərmayəçilər üçün də yeni perspektivlər açılır. Biz Çin kapitalının Azərbaycanın regional inkişaf proqramında iştirakını ürəkdən alqışlayardıq. Proqram artıq bir ildən çoxdur mövcuddur, onun nə kimi işlər görülməsi barədə dəqiq mərhələləri və dəqiq istiqamətləri var.

Əlbəttə, sərfəli iqtisadi əməkdaşlığa yaxşı baza yaratmaq üçün sərmayə cəlb edilməsi məqsədi ilə ölkədə biznesin aparılması şəraitini də, vergitutmanı da, bu məsələnin hüquqi cəhətini də bilmək lazımdır. Ümumiyyətlə, ölkənin biznes mühiti potensial sərmayəçi üçün mühüm amillərdən biridir. Ona görə də düşünürəm ki, həmin məsələlər bugünkü biznes forumu çərçivəsində çox ətraflı şəkildə müzakirə olunacaqdır. Azərbaycan hökumətinin müxtəlif istiqamətləri təmsil edən üzvləri bu gün buradadırlar. Zənnimcə, onlar bu sahədəki vəziyyətdən, imkanlar və perspektivlərdən məmnuniyyətlə danışa biləcəklər.

İstənilən halda, hesab edirəm ki, bütün istiqamətlərdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Biz dost ölkələrik. Çin Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın müstəqilliyini birincilər sırasında tanıyan ölkədir. Dediyim kimi, Azərbaycan vahid Çin məsələsində ölkənizi həmişə dəstəkləmişdir, eləcə də Çin Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir. Belə əlverişli siyasi şəraitin olması elə imkanlar yaradır ki, bu imkanlardan istifadə etmək lazımdır. İndiki halda özəl sahibkarlığın təşəbbüsündən də çox şey asılı olacaqdır. Bizim dövlətimiz və hökumətimiz iqtisadi əməkdaşlığın genişlənməsi məqsədi ilə əlverişli şərait yaradılması üçün bundan sonra da səy göstərəcəklər. Lakin əlbəttə ki, özəl sektordan və sahibkarlardan da çox şey asılıdır.

Bu gün Azərbaycandan ölkənizə çoxlu sahibkar gəlmişdir. Biz Azərbaycanda sahibkarlığın inkişafına böyük diqqət yetiririk. Ümumi daxili məhsulun strukturunda özəl sektorun payı 74 faiz təşkil edir və düşünürəm ki, bu, gələcəkdə artacaqdır. Biznesin aparılması üçün əlverişli şərait yaradılması hər bir ölkənin inkişafının başlıca şərtlərindəndir.

1970-ci illərin axırlarından başlayaraq iqtisadi islahatlar aparan Çinin məhz sahibkarlığın inkişafı sahəsində təcrübəsi bütün dünyaya məlumdur. Ölkənizin əslində 20 il ərzində nail olduğu nə varsa, bunların hamısı çox böyük müvəffəqiyyətdir. Bu müvəffəqiyyət çox aydın şəkildə göstərir ki, dəqiq iqtisadi proqram olduqda, düzgün və ağıllı islahatlar siyasəti aparıldıqda, ilk növbədə, ölkədə ictimai-siyasi sabitlik olduqda belə nəticələr əldə edilir.

Dünən biz Çin Xalq Respublikasının Sədri ilə bu məsələ barədə də fikir mübadiləsi apardıq. Ümumiyyətlə, bu proseslərin qarşılıqlı surətdə nə dərəcədə bağlı olduğunu öz ölkələrimizin təcrübəsi əsasında əyani şəkildə görürük. İctimai həmrəylik olmayan yerdə, güclü ziddiyyətlər olan, böyük problemlər olan cəmiyyətdə normal sakit vəziyyət mövcud deyildir, adətən, belə ölkələrdə iqtisadi uğurlar çox zəif olur. Əksinə, cəmiyyətin sıx birləşdiyi, biznes üçün əlverişli şərait olduğu yerdə müvəffəqiyyət də olur. Biznes sabitlik olmayan yerə, sabah, bir ildən, beş ildən, on ildən sonra nələr baş verəcəyi məlum olmayan yerə heç vaxt getməz. Biznesmenin bu psixologiyası bizə yaxşı məlumdur. Odur ki, gələcəkdə nələr baş verəcəyinin bəri başdan məlum olması, dəqiq fəaliyyət proqramı, güclü rəhbərlik və hökumətin islahatlarının cəmiyyətdə dəstəklənməsi müvəffəqiyyətin başlıca şərtidir. Bu istiqamətdə ölkələrimizdə çox şey uyğun gəlir. Düşünürəm ki, Azərbaycanın iqtisadi inkişafının bu mərhələsi yeni mərhələdir və o, çox yaxşı nəticələr verəcəkdir. Zənnimcə, biz qısa müddətdə ölkəmizi hərtərəfli inkişaf etdirə, iqtisadiyyata çoxşaxəli xarakter verə və gələcək inkişaf üçün möhkəm əsas yarada biləcəyik.

Əziz dostlar, mən sizə arzu edirəm ki, ölkəmizə gələsiniz. Dünən bizə məlum oldu ki, Azərbaycan əməkdaşlıq üçün, Çin Xalq Respublikasının vətəndaşlarının səfərləri üçün tövsiyə olunan ölkələr siyahısına daxil edilmişdir. Bu, əlaqələr üçün, turizmin inkişafı üçün və sadəcə olaraq, adi insanlar səviyyəsində ünsiyyət üçün əlavə imkanlar yaradacaqdır. Bu da çox vacibdir. Bir-birimizi daha yaxşı tanımağımız üçün, daha çox ünsiyyətdə olmağımız və bir-birimizi daha yaxşı başa düşməyimiz üçün vacibdir. Biz hesab edirik ki, ölkələrimiz arasında mövcud olan etibarlı tərəfdaşlıq möhkəmlənməlidir. Bu işdə ölkələrimizin biznesi də mühüm rol oynamalıdır. Əminəm ki, konkret işlər, konkret proqramlar, layihələr, müvafiq iş bugünkü biznes forumunun nəticələri olacaqdır. Bu, bizi daha da yaxınlaşdıracaq və iqtisadi inkişaf üçün daha yaxşı şərait yaradacaqdır.

Əhalinin həyat səviyyəsinin yüksəlməsi, iqtisadi tərəqqinin artması üçün, ölkələrimizin istər regional miqyasda, istərsə də beynəlxalq aləmdə daha güclü, qüdrətli olması üçün Çində də, Azərbaycanda da hər şey edilir. Görünür, bu da bizi yaxınlaşdıran və bizim aramızda çox oxşarlıq yaradan səciyyədir. Əminəm ki, mənim səfərimdən sonra, nümayəndələrimiz arasında əlaqələrdən sonra birgə layihələr daha çox olacaqdır. Şəxsən mən bunu ürəkdən arzulayıram. Sizi Azərbaycan xalqı və hökuməti adından bir daha salamlamaq, sizə öz dərin hörmətimi bildirmək, dost Çin xalqına sülh və tərəqqi arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

KSYUİ BİNÇİ: Cənab Prezident, gözəl nitqinizə görə sağ olun. Bizi Azərbaycandakı iqtisadi vəziyyətlə şəxsən ətraflı tanış etdiyinizə görə Sizə təşəkkür edirəm.

Xanımlar və cənablar! Azərbaycan Cənubi Qafqaz regionunda Çinin çox mühüm ticarət-iqtisadi tərəfdaşıdır. Çin hökuməti ticarət-iqtisadi münasibətlərimizin inkişafına böyük əhəmiyyət verərək, iki ölkənin müəssisələri arasında əməkdaşlığı fəal irəlilədir, genişləndirir. Ümidvarıq ki, bu forum, işgüzar görüşlər qarşılıqlı etimadın möhkəmlənməsinə, əməkdaşlığımızın sahələrinin genişlənməsinə, onun səviyyəsinin yüksəlməsinə kömək edəcəkdir.

Bu gün cənab Prezidentin səfər gündəliyi çox zəngindir. Zati-alilərinin forumda belə sə-

mimi sözlər söyləməsi Çin ilə Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin inkişafına onun yüksək diqqət yetirdiyini nümayiş etdirdi. Zati-alilərı cənab Prezidentə təşəkkür etmək istəyirəm.



Forumun gedişində iki ölkənin biznes strukturları arasında 20-dək sənəd imzalandı. Azərbaycanda Çin texnologiyaları ilə şüşə-lifdən kabel, habelə kompüterlər, neft sənayesi üçün səyyar qazma avadanlığı, kənd təsərrüfatında istifadə üçün qablar və qablaşdırma materialları istehsalı üzrə müəssisələr yaradılması, toxuculuq və ayaqqabı sənayesi məhsulları, tikinti materialları buraxılışı sahəsində əməkdaşlığı genişləndirmək məsələləri müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK ÇİN SƏDDİNDƏ OLMUŞDUR

Martın 18-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə Azərbaycanın nümayəndə heyətinin üzvləri Çinin ən möhtəşəm abidələrindən biri olan Böyük Çin səddində olmuşlar.

Burada Azərbaycan dövlətinin başçısına dünyanın ən nadir tikililərindən biri sayılan qədim memarlıq abidəsi haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Böyük Çin səddinin ilk hissələri eramızdan əvvəl IV-III əsrlərdə tikilmişdir. Eramızdan əvvəl 221-ci ildə Çinin birləşdirilməsindən sonra imperator Sin Şi-xuandi ölkənin xarici hücumlardan qorunması üçün şimal-qərb sərhədi boyunca başdan-başa sədd çəkilməsini əmr etmişdir. Sonralar dəfələrlə yenidən tikilən və bərpa olunan sədd şərqdən qərbə doğru 4 min kilometrdən çox (bəzi məlumatlara görə 5 min kilometr) məsafədə uzanır. Çin səddinin hündürlüyü 6,5 metr (bəzi yerlərdə 10 metrədək), eni aşağı hissədə 6,5 metrə, yuxarı hissədə 5,5 metrə qədərdir. Bütün sədd boyunca keşikçi qüllələri, dağ keçidlərində isə qalalar tikilmişdir. Böyük Çin səddinin xeyli hissəsi əvvəlki görkəmində qalmışdır.

Prezident İlham Əliyev və Mehriban Əliyeva Azərbaycan nümayəndə heyətinin üzvləri ilə birlikdə xatirə şəkli çəkdirdilər.

Azərbaycan dövlətinin başçısı Böyük Çin səddinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Böyük Çin səddi ilə tanış oldum. Çin səddi dünya memarlığının analoqu olmayan nadir əsəridir, Çin xalqının istedadının parlaq nümunəsidir. Çin xalqının mədəniyyətinin çoxəsrlik tarixi dövlət tərəfindən lazımi səviyyədə qorunur.

Çin-Azərbaycan əlaqələri yüksək sürətlə inkişaf edir və iki dost xalqın rifahına xidmət edir. Çin xalqına sülh, inkişaf və tərəqqi arzulayıram.

İlham Əliyev

Azərbaycan Prezidenti".

Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya fəxri qonaqlar kimi Çin səddində olmalarını təsdiqləyən sertifikatlar, habelə xatirə hədiyyələri təqdim edildi.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN PEKİNDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev Çinə dövlət səfəri çərçivəsində martın 18-də Azərbaycanın Pekindəki səfirliyinə gəlmişdir.

Səfirliyin əməkdaşları Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar.

Azərbaycan dövlətinin başçısı diplomatik nümayəndəliyimizin və onun əməkdaşlarının iş şəraiti ilə tanış oldu.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan səfirliyində qoyulmuş əzəmətli büstünə tamaşa etdi, abidənin müəllifi olan Çin heykəltəraşı və səfir Yaşar Əliyevlə xatirə şəkli çəkdirdi.

Səfirliklə tanışlıqdan sonra Prezident İlham Əliyev səfərdə onu müşayiət edən Azərbaycan jurnalistlərinə müsahibə verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində Azərbaycanın Çindəki səfirliyində olmuşdur. Səfirliklə tanışlıqdan sonra Prezident İlham Əliyev səfərdə onu müşayiət edən jurnalistlərə müsahibə vermişdir.

SUAL: Cənab Prezident, Bəyannamədə qeyd olunub və danışıqlarda da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Çinin mövqeyi açıq-aydın bildirildi, yəni Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bununla bağlı nə deyə bilərsiniz?

CAVAB: Bəli, ümumiyyətlə, Çin bizim birgə bəyannamələrdə, müxtəlif tədbirlərdə, beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu, çox mühüm məsələdir. Bilirsiniz ki, Çin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür və əlbəttə, onun belə mövqeyi çox müsbət haldır.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağla bağlı Ermənistan Prezidenti ilə gələcəkdə görüşünüz planlaşdırılırmı? Çünki atəşkəs demək olar, hər gün pozulur. Bu, danışıqlara müəyyən təsir edə bilərmi?

CAVAB: Bu yaxınlarda bu barədə sual verilibdir. Mən cavab verdim ki, əgər xarici işlər nazirlərinin görüşləri səviyyəsində hansısa yeni vəziyyət yaranarsa, onda görüş mümkün ola bilər. Bildiyiniz kimi, bütün mövzular ətrafında söhbətlər aparılıbdır, mövqelər də bəllidir. Xarici İşlər Nazirliyi tərəfindən danışıqlar indi Praqa prosesi çərçivəsində aparılır və əgər burada irəliləyiş varsa, onda görüşə ehtiyac ola bilər.

SUAL: Cənab Prezident, dünən faktaraşdırıcı missiya məlumatlarını açıqlayıbdır. Bu barədə Sizə məlumat veriblərmi? Missiyanın gəldiyi nəticələr Azərbaycanı qane edirmi?

CAVAB: Xeyr, hələ ki, mənə rəsmi deyilməyibdir. Amma ümumiyyətlə, onların fikirləri mənə bəlli idi, bunu bilirdim. Biz gərək bu sənədi araşdıraq, öyrənək. Hər halda, missiyanın bölgəyə getməsi müsbət haldır. Bilirsiniz ki, orada ermənilərin məskunlaşması haqqında onların kifayət qədər məlumatları vardır. Eyni zamanda, bu vaxta qədər qeyri-rəsmi məlumatlara görə belə bir fikir mövcud idi ki, orada, işğal olunmuş torpaqlarda hər şey tamamilə dağıdılmışdır. Orada erməni silahlı qüvvələri tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində həm insanlarımız oradan qovulub, həm də bütün infrastruktur dağıdılıbdır. Çox vəhşi hərəkətlər edilibdir. Belə olan halda, əlbəttə, tamamilə dağıdılmış ərazilərdə hər hansı məskunlaşmadan söhbət gedə bilməz. O yerlərdə ki, infrastruktur qalıbdır, orada ermənilər yaşayırlar. Hesab edirəm ki, bu, çox ciddi məsələdir və mən bunu soruşacağam.

SUAL: Cənab Prezident, həmin missiyanın bəyanatında qeyd olunur ki, süni məskunlaşma ilə bağlı Azərbaycanın iddiaları təsdiqini tapır. O cümlədən bildirilir ki, prosesin bu cür davam etməsi siyasi danışıqlara təsir göstərə bilər. Ona görə bu dayandırılmalıdır, siyasi danışıqlar daha da intensivləşdirilməlidir. Ümumiyyətlə, bu bəyanatlardan rəsmi Bakının faydalanması necə olacaq və danışıqların intensivləşməsi hansı formada ola bilər?.

CAVAB: Mən hesab edirəm ki, hardasa son bir il, bəlkə də ondan da çox müddət ərzində yaranmış bütün imkanlar münaqişənin həllinə yönəldilibdir. Əgər nəzər salsaq görərik ki, müxtəlif istiqamətlərdə atılmış addımların məqsədi də məhz bundadır. Həm Avropa Şurasında aparılmış müzakirələr, həm Birləşmiş Millətlər Təşkilatında, həm Minsk qrupunun həmsədrləri tərəfindən müşahidə olunan fəallaşma və nəhayət, faktaraşdırıcı missiyanın bölgəyə səfəri - bütün bu faktlar danışıqlar prosesinə müsbət təsir etməlidir. Amma o da həqiqətdir ki, danışıqlar iki tərəf arasında aparılır. Əgər bir tərəf qeyri-konstruktiv mövqe tutursa, o biri tərəfin sadəcə olaraq imkanı yoxdur ki, digər tərəfi, yəni Ermənistan tərəfini bu qeyri-konstruktiv mövqedən döndərsin. Bu elə məsələdir ki, təkcə bizim fəaliyyətimizdən asılı deyildir. Yalnız məsələnin siyasi tərəfidir. Danışıqlar iki tərəf arasında aparılır və göründə ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur, biz daha çox müxtəlif beynəlxalq addımlara ümid bəsləyirik. Hesab edirik ki, bu fürsətdən də istifadə etmək lazımdır. Hər bir fürsətdən istifadə etmək lazımdır. Mən bunu bir neçə dəfə demişəm. Biz çalışacağıq ki, bütün imkanlardan istifadə edək.

Danışıqlar prosesi on ildən artıqdır gedir. Heç bir nəticə yoxdur. Ermənistan qeyri-konstruktiv hərəkətləri və dünya ictimaiyyətinin bu məsələyə biganəliyi onları çox arxayın edibdir. Onlara qarşı heç bir sanksiya tətbiq olunmur. Ermənistan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, ona qarşı heç bir sanksiya tətbiq olunmur. Avropa Şurası artıq onları təcavüzkar kimi tanıyıb və etnik təmizləmə siyasətini öz sənədində əks etdiribdir. Yenə də heç bir sanksiya tətbiq olunmur. Belə olan halda Ermənistanın mövqeyində heç bir dəyişiklik gözləmək mümkün deyildir. Biz istəyirik ki, bütün mümkün olan sülh vasitələrindən istifadə edək. Əgər bunlar heç biri nəticə verməsə, onda aydın olacaq ki, Ermənistan sadəcə özünü qeyri-səmimi aparır, bu məsələni də həll etmək fikrində deyildir. Onda ümumiyyətlə, aramızda yeni vəziyyət yaranacaqdır.

SUAL: Cənab Prezident, Çin Azərbaycanın ərazi bütövlüyünü tanısa da, işğal olunmuş

Azərbaycan ərazilərindəki vəziyyətlə bağlı BMT Baş Məclisində qərar çıxarılanda bitərəf mövqe tutmuşdu. Bunu ATƏT-in işinə qarışmaq kimi izah etmişdi. Çinin bu mövqeyi bundan sonra da davam edəcəkmi, yoxsa Çinin açıq mövqeyini görə biləcəyik?

CAVAB: Bu mövqelərə təbii yanaşmaq lazımdır. Bilirsiniz ki, biz o məsələni Birləşmiş Millətlər Təşkilatında qaldıranda ATƏT-in Minsk qrupu bundan çox narahat idi və öz mövqeyini də bildirmişdi ki, bu məsələ yalnız Minsk qrupu çərçivəsində həll olunsun. Biz buna etiraz etmirik. Yenə də hesab edirik ki, indi bundan başqa mandat yoxdur və biz də axtarmırıq. Yəqin ki, ATƏT-in Minsk qrupunun və onların həmsədrlərinin belə mövqeyi başqa ölkələrin mövqelərinə təsir edibdir və onlar bu məsələdə heç bir tərəfi dəstəkləməyiblər. Bu səbəb ola bilər. Mən başqa bir səbəb görmürəm.

Gələcəkdə görərik, nə olacaq. Hər halda, mən hesab edirəm ki, artıq bundan sonra bizim imkanlarımız da məhdudlaşacaqdır. Çünki bütün mümkün olan addımlar atılıbdır. Məsələ Avropa Şurasında, həmçinin BMT-də müzakirə edilib, faktaraşdırıcı missiya bölgədə olubdur. Bundan artıq nə edilməlidir?! Yəni danışıqlar yolu ilə nə edilməlidir ki, Ermənistan onlara məxsus olmayan torpaqlardan çıxsın?

SUAL: Cənab Prezident, Siz səfərdən qabaq Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarını təltif etdiniz, hərbi rütbələr verdiniz. Oradakı çıxışınızda deyildi ki, son hadisələrlə bağlı Respublika prokurorluğu tərəfindən MTN-in keçmiş rəhbərliyinə müraciət edilib, amma heç bir tədbir görülməyibdir. Qeyd etdiniz ki, hardasa, 4 il vaxt itirildi. Kimlərinsə cəzalandırılması mümkündürmü və Sizin tərəfinizdən onlara qarşı hansı tədbirlər görüləcəkdir?

CAVAB: Siz bilirsiniz ki, araşdırmalar aparılır. Biz bu məsələ ilə ciddi məşğuluq. Bu hadisələr üzə çıxanda göstəriş verdim ki, bu vaxta qədər görülmüş bütün işlər haqqında mənə məruzə edilsin. Görək ki, bu barədə və buna oxşar cinayətlərdə adı çəkilən insanlar haqqında keçmişdə müəyyən məlumat var, ya yox. Şübhələr var idi, yox idi. İndi görürük ki, şübhələr vardı. Mən öz çıxışımda bunu dedim. Çox təəssüflə dedim ki, biz dörd ili itirdik. Əgər o vaxt ciddi tədbirlər görülsəydi, bəlkə də bu cinayətlər törədilməzdi.

O ki qaldı hansısa cəzalandırmaya, hər şey istintaqın gedişindən asılı olacaqdır.

SUAL: Cənab Prezident, yəqin məlumatınız var, dünən Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının daha bir uğurlu əməliyyatı keçirilibdir. Nəticədə Azərbaycanda fəaliyyət göstərən terrorçu qrup yaxalanıbdır. MTN belə məlumat verib ki, həmin dəstənin rəhbəri bir vaxtlar Əl-Qaidənin tərkibində döyüşübdür. Ümumiyyətlə, Sizdə bu barədə məlumat varmı ki, onlar hansısa bir ölkənin maraqlarına xidmət edirlərmiş və ölkədə terror aksiyası hazırlanırmış fikrinə gəlmək olarmı?

CAVAB: Əlbəttə, Azərbaycanda baş verən bütün hadisələr barədə mənim məlumatım var. Uzun müddətdir ki, bu barədə mənə məruzələr edilibdir. Milli Təhlükəsizlik Nazirliyi tərəfindən son müddət ərzində çox uğurlu, çox yüksək peşəkarlıqla bir neçə əməliyyat keçirilmişdir. Bu əməliyyatlar nəticəsində təhlükələr aradan götürüldü.

Mən bir neçə dəfə qeyd etmişdim ki, Azərbaycanın coğrafi-siyasi vəziyyəti, bölgədəki rolu və ümumiyyətlə, gələcək inkişaf perspektivləri Azərbaycanı müxtəlif cinayətkar dəstələr üçün cəlbedici ölkəyə çevirir. Eyni zamanda, Azərbaycanın həm iqtisadi potensialına, həm də təbii ehtiyatlarına görə, ümumiyyətlə, siyasi mövqeyinə görə. Bu cür

təhlükələr mövcuddur, biz bunu bilməliyik.

Allaha şükürlər olsun ki, Azərbaycan xalqı uzun illərdir əmin-amanlıq şəraitində yaşayır, sabitlik şəraitində yaşayır. Bizim də vəzifəmiz ondan ibarətdir ki, bu sabitliyi, əmin-amanlığı qoruyaq, saxlayaq ki, vətəndaşlarımız rahat yaşasınlar. Amma indiki zamanda, indiki dünyada, dünyanın müxtəlif ölkələrində böyük təhlükələr var. Hətta özünü hər cəhətdən qorunmuş hesab edən ölkələr də terror aktlarına məruz qalırlar. Biz hər şeyə hazır olmalıyıq. Ona görə hüquq mühafizə orqanlarının üzərinə böyük vəzifələr düşür. Mənim tərəfimdən bu vəzifələr onların qarşısında qoyulubdur. Mən Milli Təhlükəsizlik Nazirliyinin bu istiqamətdəki fəaliyyətindən razıyam və görürəm ki, günü-gündən bu fəaliyyət daha da güclənir.

SUAL: Cənab Prezident, bəzi dairələr Sizin bir-birinin ardınca Rusiyaya, İrana və Çinə səfərlərinizi belə qiymətləndirməyə başlayıblar ki, Azərbaycan öz xarici siyasətində müəyyən düzəlişlər edir. Bunu Qərbdən və Birləşmiş Ştatlardan uzaqlaşmaq cəhdləri kimi də dəyərləndirmək olar. Doğrudanmı, bu düzəlişlər var, yoxsa bu məlumatlar əsassızdır?

Bir də indi ən çox diqqət mərkəzində olan məsələ bütün dünyada gedən proseslərdən sonra NATO-nun Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təhlükəsizliyinə cəlb olunmasıdır. Bunu nə qədər real sayırsınız?

CAVAB: Bizim xarici siyasətimizdə heç bir düzəliş, yaxud da dəyişiklik yoxdur. Azərbaycanın xarici siyasəti bizim milli maraqlarımızın qorunmasına xidmət edir. Bu istiqamətdə böyük işlər görülübdür və bu strateji xətdə heç bir dəyişiklik yoxdur.

O ki qaldı mənim səfərlərimə, bu səfərləri ümumi kontekstdən çıxarmaq düzgün olmaz. Əgər mənim səfərlərimə nəzər salsanız, - siz də bunların iştirakçısısınız, - görərsiniz ki, bir çox ölkəyə səfərlər olubdur. İrana, Çinə, Rusiyaya olubdur. Amma eyni zamanda, Avropanın bütün aparıcı ölkələrinə - Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Belçika və s. olubdur. Yəni bunları kontekstdən çıxarmaq lazım deyildir.

Mən hesab edirəm ki, Azərbaycan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmalıdır. Bu, bizim maraqlarımıza xidmət edir. Bizim əlaqələrimiz nə qədər geniş olsa, o qədər çox beynəlxalq dəstək də olacaqdır. Eyni zamanda, bilirsiniz, hər səfər şəxsi tanışlıq baxımından çox böyük rol oynayır. Mənim səfər etdiyim ölkələrə rəhbərlik edən şəxslərlə çox gözəl şəxsi əlaqələrim yaranıbdır. Eyni zamanda Bakıya gəlmiş dövlət başçıları ilə bizim əlaqələrimiz çox səmimidir və mehribandır. Bu, bizim ölkəmiz üçün lazımdır. Ona görə siyasətimizdə heç bir dəyişiklik yoxdur. Azərbaycanın strateji xətti dəyişməz olaraq qalır. Bunu dəfələrlə - həm andiçmə mərasimindəki çıxışımda, həm də ondan sonrakı çıxışlarda bəyan etmişəm.

O ki qaldı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin qorunmasına, Azərbaycan bir dövlət kimi öz ərazisindən keçən kəmərin qorunması tədbirlərinin görülməsi üçün üzərinə öhdəlik götürübdür. Biz bu öhdəliyi yerinə yetiririk və bu vaxta qədər Azərbaycan ərazisində kəmərdə heç bir təhlükə olmayıbdır. Güman edirəm ki, olmayacaq da.

Amma, əlbəttə, gələcəkdə bu kəmər bizə düşmənçilik mövqeyində dayanan bəzi qüvvələrin də diqqətini çəkə bilər. Bilirsiniz ki, Ermənistan Bakı-Tbilisi-Ceyhan kəmərinin uğurlu inşasından nə qədər narahatdır və bu narahatlıq bütün səviyyələrdə özünü

büruzə verir. Ona görə biz gərək öz tədbirlərimizi görək. Əgər kəmərin qorunmasında hansısa beynəlxalq tərəf lazım olacaqsa, biz buna baxa bilərik. Hələlik buna ehtiyac yoxdur. Hesab edirəm ki, biz özümüz xüsusi təhlükəsizlik məsələlərini lazımi səviyyədə həll edə biləcəyik.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN DÖVLƏT ŞURASININ BAŞÇISI VEN SZYABAO İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Pekində dövlət iqamətgahında Çin Xalq Respublikası Dövlət Şurasının başçısı Ven Szyabao ilə görüşmüşdür.

Cənab Ven Szyabao Azərbaycan Prezidentinin Çinə dövlət səfərinin ölkədə çox böyük maraq doğurduğunu bildirdi. Çin hökumətinin başçısı ölkələrimiz arasında əlaqələrin indiki səviyyəsindən razılığını söylədi, getdikcə genişlənən əməkdaşlığın qarşılıqlı surətdə faydalılıq prinsiplərinə əsaslanmasını yüksək qiymətləndirdi. O, vahid Çin barəsində siyasətdə ÇXR-in mövqeyini dəstəklədiyinə görə Azərbaycan rəhbərinə təşəkkür etdi. Eyni zamanda dedi ki, Çin Azərbaycanın öz ərazi bütövlüyünün təmin edilməsi sahəsində ədalətli səylərini bundan sonra da birmənalı şəkildə dəstəkləyəcəkdir.

Cənab Szyabao Azərbaycan-Çin əməkdaşlığının inkişafı üçün böyük potensial olduğunu xatırladaraq vurğuladı ki, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə kənd təsərrüfatı, emal sənayesi, kənd təsərrüfatı maşınqayırması, yüksək texnologiyalar, rabitə və energetika sahəsində Azərbaycanla qarşılıqlı surətdə faydalı əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar vardır.

Prezident İlham Əliyev bildirdi ki, vahid Çin məsələsində Azərbaycanın mövqeyi dəyişməz qalacaqdır. Beynəlxalq aləmdə bütün problemlərin həllində ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri üstün yer tutmalıdır. İqtisadi əlaqələrdən söhbət açan Azərbaycan Prezidenti energetika sahəsində əməkdaşlığı nümunə kimi vurğuladı. Bildirildi ki, ölkələrimizin inkişaf sürəti digər sahələrdə, o cümlədən mədəniyyət, turizm, səhiyyə, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlər açır.

Prezident İlham Əliyev daha sonra dedi ki, Çin şirkətləri kənd təsərrüfatı texnikası almaq üçün Azərbaycanda elan olunan müsabiqələrdə iştirak edə, habelə ölkəmizdəki tərəfdaşları ilə bu sahədə müştərək müəssisələr yarada bilərlər. Azərbaycan dövlətinin başçısı bildirdi ki, bütün bu məsələlərin həllini əlaqələndirmək üçün ikitərəfli iqtisadi komissiyanın yaradılması məqsədəuyğundur.

Görüşdə bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ

Martın 18-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə Azərbaycanın nümayəndə heyətinin üzvləri XV əsrdə, Min imperiyası dövründə tikilmiş məşhur Ququl imperator sarayı kompleksi ilə tanış olmuşlar.

Azərbaycan dövlətinin başçısına orta əsr Çin memarlığının nəhəng, 72 hektar ərazini əhatə edən heyrətamiz nümunəsi barədə ətraflı məlumat verildi.

Azərbaycan Prezidenti sarayın Fəxri qonaqları kitabına ürək sözlərini yazdı:

"Qudul imperator sarayı ilə tanış oldum. Saray böyük təəssürat bağışlayır. Çin xalqının böyük tarixi, zəngin mədəniyyəti, özünəməxsus memarlıq sənəti burada öz əksini tapmışdır. Çin Xalq Respublikasının və Çin xalqının mədəni irsə olan qayğısı çox yüksək səviyyədədir və təqdirəlayiqdir. Dost Çin xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

İlham Əliyev

Azərbaycan Prezidenti".

Azərbaycan Prezidenti İlham Əliyev martın 18-də Çinin ən böyük iqtisadi mərkəzi olan Şanxay şəhərinə yola düşdü.

Azərbaycan rəhbərini Pekin hava limanında Çinin yüksək vəzifəli dövlət və hökumət rəsmiləri mehribanlıqla yola saldılar.

Prezident İlham Əliyev həmin gün Şanxaya gəldi. Beynəlxalq hava limanında Azərbaycan dövlətinin başçısını şəhər meriyasının rəhbərləri hərarətlə qarşıladılar.

Həmin gün Prezident İlham Əliyev dünyada məşhur olan Çin akrobatikası tamaşasına baxdı, Şanxayın görməli yerləri ilə tanış oldu.

PREZİDENT İLHAM ƏLİYEVİN ŞANXAYIN MERİ XAN ÇEN İLƏ GÖRÜŞÜ

ÇXR-də dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da Şanxayın meri Xan Çen ilə görüşmüşdür.

Azərbaycan Prezidentini Şanxay hökuməti və şəhərin 17 milyon əhalisi adından səmimi salamlayan mer Prezident İlham Əliyevin Çin rəhbərliyi ilə keçirdiyi görüşləri yüksək qiymətləndirdi. O dedi ki, bu görüşlər, aparılan danışıqlar barədə ətraflı məlumatı vardır, çünki Çinin kütləvi informasiya vasitələri Azərbaycan rəhbərinin dövlət səfərini geniş şərh edirlər. Mer ümidvar olduğunu bildirdi ki, Çinin ən böyük iqtisadi və maliyyə mərkəzi olan Şanxay Azərbaycan Prezidentinə xoş təsir bağışlamışdır. Dövlətimizin başçısının səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verəcəyini vurğulayan cənab Xan Çen dedi ki, Çin və Azərbaycan iqtisadiyyatı inkişaf edən ölkələrdir və bugünkü Şanxay Çində iqtisadi sahədə açıq siyasət və islahatlar aparıldığına real nümunədir. Mer Azərbaycanla Çin arasında əmtəə dövriyyəsinin genişlənməsində liman şəhəri olan Şanxayın rolundan da danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev səmimi qəbula görə təşəkkür etdi və martın 19-da başa çatan dövlət səfərinin uğurlu keçdiyini bildirdi. O, ümidvar olduğunu söylədi ki, ölkə rəhbərliyi ilə keçirilən görüşlər, imzalanmış sənədlər Azərbaycan-Çin münasibətlərinin genişlənməsinə və dərinləşməsinə xidmət edəcəkdir.

Söhbət zamanı Azərbaycanla Şanxay arasında əlaqələrin davam etdirilməsinin perspektivləri ilə bağlı məsələlər də müzakirə olundu.

Görüşdən sonra Şanxay merinin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verildi.

ŞANXAY TELEQÜLLƏSİ İLƏ TANIŞLIQ

Martın 19-da Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, habelə Azərbaycanın nümayəndə heyətinin üzvləri Şanxayın məşhur televiziya qülləsinə gəlmişlər.

Şərqin incisi adlandırılan Şanxay teleqülləsi hündürlüyünə görə (468 metr) Asiyada birinci, dünyada isə üçüncü yerdədir.

Azərbaycan dövlətinin başçısını teleqüllənin önündə orkestr salamladı. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Azərbaycan nümayəndə heyətinin üzvləri teleqüllənin baxış meydançasından Şanxayın panoramını seyr etdilər. Belə bir yüksək nöqtədən baxdıqda Çinin sürətlə inkişaf edən bu nəhəng şəhərinin əzəmətinə heyran qalmamaq mümkün deyildir.

Prezident İlham Əliyev Şanxay teleqülləsinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞANXAY PLANLAŞDIRMA MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da Şanxay Planlaşdırma Muzeyində olmuşdur.

Azərbaycan dövlətinin başçısına, xanımı Mehriban Əliyevaya və nümayəndə heyətimizin üzvlərinə kommersiya sahəsində zəngin ənənələrə malik, sürətlə inkişaf edən və eyni zamanda ticarət limanı olan müasir Şanxayın formalaşması tarixi barədə məlumat verildi. Şəhərin görməli yerləri arasında həm müasir arxitektura üslubunda ucaldılmış binalar, həm də Əjdaha Məbədi, Nefrit Budda Məbədi və Yuan bağı kimi klassik Çin memarlığı nümunələri var.

Şəhərin qlobal maketi, habelə ayrı-ayrı infrastrukturları - hava və dəniz limanları böyük maraq doğurdu. Muzeydə Şanxayın perspektiv şəhərsalma planları da nümayiş etdirilir.

Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Fəxri qonaqlar kitabında ürək sözlərini yazdı:

"Şanxay Planlaşdırma Muzeyinin ekspozisiyasına böyük məmnunluqla baxdım. Bu gün Şanxay dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhərin gələcək inkişaf planı muzeydə nümayiş etdirilir. Görülmüş və həyata keçiriləcək bütün işlər Şanxaya daha gözəl olmağa imkan verəcəkdir. Şanxayın bütün sakinlərinə firavanlıq və tərəqqi arzulayıram.

İlham Əliyev

Azərbaycan Prezidenti".

Martın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin ÇXR-ə dövlət səfəri başa çatdı.

Dövlətimizin başçısını beynəlxalq hava limanında Çin Xarici İşlər Nazirliyinin və Şanxay Meriyasının nümayəndələri yola saldılar.

Azərbaycan Prezidentinin təyyarəsi Vətənə qayıdarkən yolüstü Sintszyan-Uyğur Muxtar Rayonunun Urumçi şəhərində yerə endi.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Sintszyan-Uyğur Muxtar Rayonunun başçısı İsmayıl Tılavaldi səmimiyyətlə qarşıladı. Milli geyimli uşaqlar Prezidentin xanımına gül-çiçək dəstələri təqdim etdilər.

PREZİDENT İLHAM ƏLİYEVİN SİNTSZYAN-UYĞUR MUXTAR RAYONUNUN BAŞÇISI İLƏ GÖRÜŞÜ

Urumçi şəhərinin hava limanında yolüstü qısamüddətli dayanacaq zamanı Azərbaycan Prezidenti İlham Əliyevin bu rayonun başçısı İsmayıl Tılavaldi ilə görüşü olmuşdur.

Dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinin üzvlərini muxtar rayonun başçısına təqdim etdi.

İsmayıl Tılavaldi Azərbaycan Prezidenti İlham Əliyevi bir daha salamlayaraq, ona region barədə məlumat verdi, iqtisadiyyatın inkişafından danışdı. O, Sintszyan-Uyğur rayonu ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdiyini bildirərək, ümidvar olduğunu söylədi ki, Azərbaycan Prezidentinin Çinə səfərindən sonra bu münasibətlər daha da genişlənəcəkdir.

Prezident İlham Əliyev Çinə dövlət səfərini yüksək qiymətləndirərək dedi ki, bu səfər Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə, o cümlədən də Sintszyan-Uyğur rayonu ilə regional səviyyədə inkişafına təkan verəcəkdir.

Rayonun başçısı adından Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim edildi.



Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da axşam Vətənə qayıtdı.

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ İŞƏ QƏBUL TEST ÜSULU İLƏ OLACAQ

Xarici işlər nazirliyində diplomatik xidmət işinə qəbul qaydaları ilə əlaqədar olaraq, nazir müavini Vaqif Sadıqov mətbuat konfransı keçirmişdir.

Vaqif Sadıqov "Diplomatik xidmət haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası qanunlarına əsasən, nazirliyin tarixində ilk dəfə olaraq, diplomatik xidmət işinə qəbulun müsabiqə yolu ilə aparılacağını bildirmişdir.

O demişdir ki, müsabiqə bir neçə mərhələdən ibarət olacaqdır. Əvvəlcə, namizədlər test üsulu ilə imtahan verəcəklər. Bu mərhələ Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının iştirakı ilə birgə təşkil olunacaqdır. İmtahandan uğurla keçənlər növbəti mərhələdə Azərbaycan və müvafiq xarici dildə inşa yazmalı və şifahi müsahibədə iştirak etməlidirlər. Sonda namizədlər xüsusi tibbi müayinədən keçəcəklər.

Bütün mərhələləri uğurla keçən şəxslər Müsabiqə Komissiyasının tövsiyəsi ilə bir il müddətinə, stajçı kimi, müvəqqəti əmək müqaviləsi bağlamaqla diplomatik xidmətə işə götürüləcəklər. Müsabiqə Komissiyasının sədri xarici işlər naziri, üzvləri isə onun müavinləri və nazirliyin idarə rəisləridir.

Müsabiqəyə ali təhsili, yaşı 27-dən yuxarı olmayan, Azərbaycan dili ilə yanaşı, xarici dildə sərbəst danışmağı və yazmağı bacaran, diplomatik vəzifələrdə işləmək üçün beynəlxalq münasibətlər, beynəlxalq hüquq, beynəlxalq iqtisadiyyat sahələrində xüsusi biliklərə malik olan Azərbaycan Respublikasının vətəndaşları buraxılacaqlar.

"Azərbaycan Respublikasının xarici işlər nazirliyinə işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları"nda qeyd olunan sənədlər xarici işlər nazirliyinə təqdim edilməlidir. Namizədlər qeyd olunmuş qaydalarla müsabiqə komissiyasında və ya xarici işlər nazirliyinin internet səhifəsində tanış ola bilərlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "HALLİBURTON" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 21-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının "Halliburton" şirkətinin prezidenti Devid Lesarı qəbul etmişdir.

Prezident İlham Əliyev "Halliburton" şirkətinin Azərbaycanın iri neft-qaz layihələrində 10 ilə yaxın müddət ərzində iştirak etməsindən məmnun olduğunu bildirmişdir.

Söhbət zamanı şirkətin ölkəmizdə fəaliyyət dairəsinin genişləndirilməsi, o cümlədən xarici sərmayələrin cəlb edilməsi və yeni texnologiyaların tətbiqi ilə əlaqədar bir sıra konkret təkliflər müzakirə olunmuşdur.

Görüşdə "Halliburton" şirkəti ilə əməkdaşlığın perspektivləri və bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 22-də Prezident sarayında ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru professor Frederik Starr qəbul etmişdir.

Qonaq dövlətimizin başçısını Novruz bayramı münasibətilə təbrik etdi, bu qədim bayramın Azərbaycanda böyük təntənə ilə keçirilməsinin onda xoş təəssürat yaratdığını söylədi. O, Prezident İlham Əliyevin xarici ölkələrə səfərlərinin maraqla izləndiyini, ötən il Azərbaycanda görülən işlərin heyranlıq doğurduğunu vurğuladı. Cənab Frederik Starr əmin olduğunu bildirdi ki, Azərbaycanla təmsil etdiyi universitet, o cümlədən rəhbəri olduğu institut arasında əməkdaşlıq bundan sonra da genişlənəcəkdir.

Prezident İlham Əliyev müxtəlif ölkələrə uğurla keçən rəsmi və dövlət səfərlərindən söhbət açdı, eyni zamanda, 2004-cü ildə Azərbaycanda siyasi, iqtisadi və bütün başqa

sahələrdə böyük uğurlar əldə olunduğunu bildirdi. Dövlətimizin başçısı ABŞ-ın bu nüfuzlu universiteti ilə uğurlu əməkdaşlıqdan məmnunluğunu vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikasının təşəbbüsü ilə, BMT Baş Məclisinin 59-cu sessiyası gündəliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" barədə 163-cü bəndinin müzakirəsi çərçivəsində ATƏT-in Minsk qrupunun faktaraşdırıcı missiyası 2005-ci il yanvarın 30-dan fevralın 5-dək Azərbaycanın işğal edilmiş ərazilərində olmuşdur.

Missiyanın göndərilməsi Azərbaycanın işğal altındakı ərazilərində vəziyyət barədə məsələni gündəliyinə daxil edən BMT Baş Məclisinin prinsipial mövqeyi sayəsində mümkün olmuşdur.

Bu cür missiya Azərbaycan əraziləri işğal olunduğu və BMT Təhlükəsizlik Şurası Ermənistanla Azərbaycan arasında münaqişəyə dair müvafiq qətnamələr qəbul etdiyi andan bəri ilk dəfə həyata keçirilmişdir. Həmin qətnamələrdə digər məsələlərlə yanaşı, "BMT-nin Baş katibindən, ATƏT-in hazırkı sədrindən və Minsk konfransının sədrindən yerlərdə vəziyyətin bütün aspektləri barədə BMT TŞ-yə məlumat vermək barədə xahiş" də vardı.

Missiya işğal olunmuş ərazilərin məskunlaşdırıldığını təsdiqləmiş və bununla da Azərbaycanın keçirdiyi narahatlığı təsdiq etmişdir. Missiya həm Azərbaycan tərəfinin təqdim etdiyi, həm də yerlərdə vəziyyətin öyrənilməsi gedişində əldə olunmuş geniş faktoloji material əsasında məruzə hazırlamışdır. İqlim və relyef şəraitinin çətinliyinə, vaxtın azlığına və işğal edilmiş ərazilərdə hərəkət üçün süni surətdə yaradılan və bir sıra hallarda bütün lazımi yerlərə getməyə imkan verməyən əngəllərə baxmayaraq, missiya qarşısına qoyulmuş vəzifəni ümumən yerinə yetirməyə müvəffəq olmuşdur. Nazirlik fəaliyyətlərinə görə Missiyanın başçısına və üzvlərinə minnətdarlığını bildirir.

Missiyanın əsasən vizual qiymətləndirmə metodu ilə və fəaliyyətin çətinliyi və yerdəyişmənin məhdudluğu şəraitində müəyyənləşdirdiyi məskunlaşdırmanın say göstəriciləri ona Azərbaycan tərəfinin təqdim etdiyi göstəricilərə yaxındır. Azərbaycan tərəfinin ilkin məlumatına görə, işğal edilmiş ərazilərə ümumən 20 mindən 23 minədək adam köçürülmüşdür. Missiyanın ümumi müvafiq göstəricisi isə 17 min nəfərdən artıqdır. Azərbaycan Respublikasının Laçın rayonunun mütəşəkkil surətdə məskunlaşdırılması barədə Missiya tərəfindən təsdiqlənmiş məlumat xüsusi narahatlıq doğurur. Belə ki, bu rayonda əvvəllər ermənilər yaşamamışlar. Azərbaycan tərəfi Laçın rayonuna 13 000 şəxsin köçürüldüyünü göstərmişdir, Missiyanın məlumatına görə isə, bu rəqəm 8-11 min arasındadır.

Azərbaycan tərəfi ATƏT-in Minsk qrupu həmsədrlərinin Missiyanın işinə töhfəsini qeyd edir. ATƏT-in MQ həmsədrləri Missiyanın məruzəsindəki nəticələrə əsaslanan öz tövsiyələrində "işğal olunmuş əraziləri daha məskunlaşdırmamağa" və "regionun demoqrafik strukturunda dəyişikliklərə yol verməməyə" çağırırlar. Həmsədrlər xüsusi vurğulayırlar ki, "bu vəziyyətin uzun müddət belə qalması olmuş-bitmiş fakta gətirib çıxara bilər ki, bu da sülh prosesini ciddi şəkildə mürəkkəbləşdirər". Onlar müvafiq beynəlxalq təşkilatlara müraciət edərək, işğal olunmuş ərazilərdə yerləşdirilmiş əhalinin

oradan köçürülməsi və məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtması məqsədi ilə regionda maddi və maliyyə tələbatının öyrənilməsini də xahiş edirlər.

Azərbaycan tərəfi bundan sonra öyrənilmək və müzakirə etmək üçün bu məsələni gündəlikdə saxlamaq barədə Minsk qrupu həmsədrlərinin qərarını alqışlayır.

İşğal olunmuş Azərbaycan ərazilərinin planlı surətdə məskunlaşdırılmasında Ermənistan hökumətinin iştirakı ilə əlaqədar nəzərə çarpdırmaq lazımdır ki, Missiya bu suala birbaşa cavab verməsə də, onun məruzəsində, habelə Azərbaycan tərəfinin təqdim etdiyi materiallarda, o cümlədən Ermənistan Respublikasının yüksək vəzifəli rəhbərlərinin bəyanatlarında Ermənistan hökumətinin məskunlaşdırma prosesini bilavasitə dəstəklədiyini təsdiqləyən xeyli sübut var.

Missiyanın öz məruzəsindən kənarda saxladığı məsələ - Ermənistan ilə onun Azərbaycanın Dağlıq Qarabağ regionunda yaratdığı separatçı rejim arasında qarşılıqlı əlaqələr və fəaliyyətin əlaqələndirilməsi heç kimdə şübhə doğurmur və əlavə şərhlərə ehtiyacı yoxdur. Əgər Missiya məskunlaşdırmada Ermənistanın iştirakı haqqında birbaşa dəlillər tapmayıbsa, bu, yalnız o deməkdir ki, indiki halda Ermənistan Dağlıq Qarabağ separatçılarının əli ilə iş görmüşdür. Ermənistanın həmin məsələnin çərçivəsindən kənara çıxarmaq cəhdləri anlaşılmazdır və bunun heç bir əsası yoxdur. Beynəlxalq hüquqa uyğun olaraq, işğal etdiyi ərazilərdə hər cür fəaliyyətə, o cümlədən bu ərazilərdə əvvəllər yaşamamış olan erməni əhalisinin oraya köçürülməsinə görə bütün məsuliyyəti işğalçı ölkə kimi Ermənistan daşıyır.

Məruzə və ATƏT-in Minsk qrupu həmsədrlərinin bu məruzə əsasında etdikləri tövsiyələri bu problemin bundan sonra nəzərdən keçirilməsi və həlli üçün yaxşı zəmin yaradır. Nazirlik bu məsələdə beynəlxalq birliyin dəstəyinə ümid bəslədiyini bildirir.

22 mart 2005-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LÜKSEMBURQUN MÜLKİ AVİASİYASININ DİREKTORU HENRİ KLYAYNANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 23-də Prezident sarayında Lüksemburqun mülki Aviasiyasının direktoru Henri Klyaynanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə "Cargolux" aviaşirkətinin prezidenti Ulrix Ogerman da iştirak edirdi.

Dövlətimizin başçısı martın 23-də Heydər Əliyev adına beynəlxalq hava limanında yeni terminalın açılışını böyük əlamətdar hadisə kimi dəyərləndirdi.

Cənab Henri Klyaynanın rəhbərlik etdiyi nümayəndə heyətinin bu tədbirdə iştirakından məmnunluğunu bildirən Prezident İlham Əliyev bu yük terminalının regionda ən böyük, MDB məkanında isə irilərindən biri olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, bu terminalın Azərbaycanda fəaliyyətə başlaması ölkəmizdə iqtisadi inkişafın, sabitliyin, xarici sərmayələr üçün əlverişli şəraitin olduğunu bir daha sübüt edir.

"Cargolux" şirkətinin tranzit daşınmaları üçün Azərbaycanı seçməsinin təsadüfi olma-

dığını nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, bu şirkət məhz iqtisadi göstəricilərə və digər mühüm şərtlərə görə Azərbaycana üstünlük vermişdir.

"Azərbaycan Hava Yolları" Dövlət Konserni ilə Lüksemburqun mülki aviasiyası və "Cargolux" şirkəti arasında yaxşı əlaqələrdən razılıqla söhbət açan dövlətimizin başçısı bu əməkdaşlığın ölkəmizin iqtisadiyyatının inkişafına xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Azərbaycana dəvətə görə minnətdarlığını bildirən cənab Henri Klyayna Bakıda yük terminalının açılışını əlamətdar hadisə kimi dəyərləndirdi. "Cargolux" şirkətinin Azərbaycanda cəmi üç il fəaliyyət göstərməsinə baxmayaraq, həftədə 30 reys yerinə yetirdiyini nəzərə çatdıran qonaq dedi ki, bu, bizim gözlədiyimizdən xeyli böyük, misli görünməmiş bir rəqəmdir.

Qonaq yeni terminalın açılışı münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və ölkəmizlə əməkdaşlığın Azərbaycanın iqtisadi inkişafına xidmət edəcəyinə ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Prezident sarayında Rusiya Federasiyası Federal Məslisinin Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılığı ilə Federasiya Şurasının və MDB Parlamentlərarası Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, belə nüfuzlu nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan ilə Rusiya, habelə MDB ilə əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə həm ikitərəfli, həm də regional səviyyədə əlaqələrin uğurla inkişaf etdiyini və iqtisadi əməkdaşlığın durmadan genişləndiyini vurğulayan Prezident İlham Əliyev Bakıda Azərbaycan-Rusiya biznes forumunun uğurla başa çatmasının bunu bir daha sübut etdiyini nəzərə çatdırdı.

Dövlətimizin başçısı dedi ki, ticarət dövriyyəsinin 70 faiz artması iqtisadi əlaqələrimizin yaxşı nümunəsidir. Azərbaycanda və Rusiyada dinamik iqtisadi inkişaf vardır. Əsas iqtisadi göstəricilər üzrə Azərbaycanda çox böyük uğurlar qazanılmışdır. Bütün bunlar ölkəmizin iqtisadi əlaqələrinin gələcəyi üçün yaxşı perspektivlər yaradır. Ali qanunvericilik orqanlarının nümayəndələri arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əlaqələr mövcuddur.

Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimində iştirak etməsindən razılıqla söhbət açan Prezident İlham Əliyev Rusiyaya səfərini məmnunluqa xatırladı və bunu çox əlamətdar bir hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı gələn il Azərbaycanda Rusiya ilinin keçirilməsinin də ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirən xanım Svetlana Orlova özünün və nümayəndə heyəti üzvlərinin bir hissəsinin Azərbaycanla sıx bağlı olduğunu vurğuladı.

Svetlana Orlova ölkələrimizin iqtisadi, sosial, mədəni və digər sahələrdə uğurla inkişaf edən əlaqələrinin daha da möhkəmlənəcəyinə əmin olduğunu söylədi. O, 9-cu Sankt-Peterburq iqtisadi Forumuna hazırlıq işləri barədə məlumat verərək, Azərbaycan Prezidenti İlham Əliyevin orada iştirakını gözlədiklərini nəzərə çarpdırdı. Azərbaycanın iqtisadi sahədəki uğurlarının forum iştirakçılarına təqdim olunmasının böyük əhəmiyyət daşıdığını vurğulayan qonaq bununla bağlı işlər aparıldığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfərinin uğurla keçdiyini xatırladan xanım Svetlana Orlova bu səfərin Rusiyada çox böyük maraqla izləndiyini qeyd etdi.

O, Rusiya Prezidenti Vladimir Putin ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında mövcud olan səmimi münasibətlərin ölkələrimizin əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ BİRGƏ PAYLAŞDIRMA KOMİTƏSİNİN SƏDRİ XANIM ELLEN HELLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsinin sədri xanım Ellen Hellerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu komitənin nümayəndə heyətinin Azərbaycana səfərini həmin komitənin ölkəmiz ilə daha yaxından tanışlığına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Son illər ölkəmizdə böyük uğurlar qazanıldığını nəzərə çarpdıran Prezident İlham Əliyev siyasi, iqtisadi, sosial sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı.

Ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrə böyük önəm verdiyini nəzərə çarpdıran dövlətimizin başçısı Azərbaycan ictimaiyyətinin Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsini yaxşı tanıdığını vurğuladı və bu təşkilatın böyük tarixə və zəngin ənənələrə malik olduğunu bildirdi.

Azərbaycanda bütün dini konfessiyalara bərabər şərait yaradıldığını qeyd edən Prezident İlham Əliyev dini-milli tolerantlığın xalqımızın əldə etdiyi ən böyük tarixi nailiyyətlərdən biri olduğunu vurğuladı.

Azərbaycanın böyük tarixi olduğunu bildirən xanım Ellen Heller ölkəmizdə gedən proseslərdən heyranlıq duyduğunu söylədi. Azərbaycanda tolerantlığın yüksək səviyyəsindən məmnunluqla bəhs edən qonaq bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanda antisemitizmin olmadığını vurğuladı.

Azərbaycanda digər dini konfessiyaların nümayəndələri kimi yəhudilər üçün də gözəl şərait yaradıldığını nəzərə çarpdıran xanım Ellen Heller dedi ki, Azərbaycan əhalisinin müsəlmanlardan ibarət olduğu nəzərə alınsa, bu, çox böyük nailiyyətdir. O, Azərbay-

canda dini tolerantlıq, dini konfessiyalar üçün yaradılmış gözəl şəraitin müsəlmanlar, xristianlar və yəhudilər arasında yüksək səviyyədə münasibətlərin mümkünlüyü üçün yaxşı nümunə olduğunu bildirdi. Xanım Ellen Heller bütün bunları Azərbaycanda demokratiyanın inkişafının təzahürü kimi dəyərləndirdi.

Qonaq Azərbaycanda qadınların ictimai-siyasi fəaliyyəti üçün hər cür şəraitin yaradılmasından məmnun olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Rusiya Federasiyası Hesablama Palatasının sədri Sergey Stepaşinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluğunu bildirdi.

Rusiya Federasiyasına səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Rusiyada Azərbaycan ilinin keçirilməsini böyük, əlamətdar hadisə kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrin inkişafının yaxşı nümunəsi olduğunu bildirdi. Ölkələrimiz arasında həm ikitərəfli, həm də regional səviyyədə əməkdaşlığın uğurla həyata keçirildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığımızın genişləndiyini vurğuladı.

Azərbaycan və Rusiyanın hökumət strukturları, nazirlikləri, o cümlədən hesablama palataları arasında əlaqələrin inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Hesablama Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətinin bu səfərinin də həmin əlaqələrin, ümumiyyətlə ölkələrimizin əməkdaşlığının inkişafına öz töhfəsini verəcəyinə əminliyini vurğuladı.

Sergey Stepaşin Rusiya Prezidenti Vladimir Putinin səmimi salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. O, ölkəmizə son səfərindən keçən altı ay ərzində Azərbaycanda iqtisadi inkişaf sahəsində çox böyük uğurlar əldə edildiyini bildirdi. Ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının uğurla inkişaf etdiyini söyləyən Sergey Stepaşin Azərbaycan və Rusiyanın hesablama palataları arasında da əlaqələrin genişləndiyini nəzərə çarpdırdı.

Dövlətimizin başçısı İlham Əliyev səmimi salamlara görə cənab Vladimir Putinə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI, DONANMA ADMİRALI ÖZDƏN ÖRNƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı, donanma admiralı Özdən Örnəkin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dost və qardaş ölkələr olan Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin daim inkişaf etdiyini və möhkəmləndiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin siyasi, iqtisadi və bütün digər sahələrdə, o cümlədən regional sahədə əməkdaşlığının yüksək səviyyədə olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycan ilə Türkiyə qlobal enerji layihələrində, o cümlədən Bakı-Tbilisi-Ceyhan layihəsində fəal surətdə birgə iştirak və əməkdaşlıq edirlər.

Prezident İlham Əliyev hər iki ölkənin beynəlxalq məsələlərdə vahid mövqedən çıxış etməsinin böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Türkiyənin Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləməsini yüksək qiymətləndirdi.

Müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev özünün Türkiyəyə son səfərini məmnunluqla xatırlatdı, həmin səfərin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verdiyini bildirdi.

Dost və qardaş ölkələrimiz arasında hərbi quruculuq sahəsində də möhkəm əlaqələr olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın ordu quruculuğunda Türkiyənin çox böyük rol oynadığını qeyd etdi.

Prezident İlham Əliyev bu səfərin həm ölkələrimiz arasında münasibətlərin, həm də hərbi əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əmin olduğunu bildirdi.

Dost və qardaş Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin daim inkişaf etdiyini məmnunluqla vurğulayan qonaq hərbi əməkdaşlıq sahəsində əlaqələrin də möhkəmləndiyini nəzərə çarpdırdı. Cənab Özdən Örnək Azərbaycanda son illər hərbi quruculuq sahəsində çox böyük işlər görüldüyünü vurğuladı, indiki səfəri zamanı Azərbaycan ordusunda, o cümlədən Hərbi Dəniz Qüvvələrində misli görünməmiş quruculuq işlərinin şahidi olduğunu söylədi.

Qonaq ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

TBİLİSİDƏ AZƏRBAYCAN İLƏ GÜRCÜSTANIN DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI ÜZRƏ NÖVBƏTİ İCLAS KEÇİRİLMİŞDİR

Martın 28-29-da Tbilisi şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə hər iki ölkənin dövlət komissiyalarının növbəti birgə iclası keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini X.Xələfovun və Gürcüstan xarici işlər nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri M.Mikeladzenin rəhbərliyi altında ölkələrimizin müvafiq dövlət orqanlarının nümayəndələrindən ibarət komissiya üzvlərinin iştirakı ilə keçirilən iclasda, dövlət sərhəd xəttinin delimitasiyası üzrə bir sıra məsələlər müzakirə edilmişdir.

Müzakirələr zamanı tərəflər dövlət sərhədinin delimitasiyası üzrə mövcud olan yer quruluşuna və istifadəsinə aid kartoqrafiya materialları, normativ və arxiv sənədləri, o cümlədən növbətçi topoqrafiya xəritələri əsasında fikir mübadiləsi aparmışlar.

Danışıqlar nəticəsində bir sıra sahə və yarımsahələr üzrə tərəflərin mövqeləri üst-üstə düşmədiyinə görə ümumi razılıq əldə edilməmişdir. Bununla belə, fikir ayrılığına səbəb olan sahələr üzrə ekspert görüşlərini, məsləhətləşmələri və müvafiq normativ-hüquqi sənədlərin araşdırılmasını davam etdirmək qərara alınmışdır.

Azərbaycan tərəfi respublikamız ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası prosesinin ölkələrimizin mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri ruhunda irəli aparılması üçün səylərini davam etdirəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Polşa Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş "Okençie" hərbi hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Polşa Prezidentinin xarici məsələlər üzrə müşaviri Ancey Maykovski, Xarici İşlər Nazirliyinin protokol idarəsinin rəisi Yanuş Nesito, Azərbaycanın Varşavadakı səfiri Vilayət Quliyev, Polşanın Bakıdakı səfiri Martsin Navrot və digər rəsmi şəxslər təyyarənin pilləkəni yanında böyük hörmət və ehtiramla qarşıladılar. Prezidentin xanımına gül dəstəsi təqdim olundu.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Prezident İlham Əliyev Polşa Respublikasının dövlət və hökumət nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış "Belveder" iqamətgahına yola düşdü.

POLŞA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Martın 30-da Polşa Respublikası Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Üzərində Azərbaycanın və Polşanın dövlət bayraqları dalğalanan sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski və xanımı İolanta Kvasnevska böyük hörmətlə və mehribanlıqla qarşıladılar.

Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev əsgərləri salamladı.

Polşa Prezidenti Aleksandr Kvasnevski ölkəsinin dövlət və hökumət rəsmilərini Azərbaycan Prezidenti İlham Əliyevə, dövlətimizin başçısı ölkəmizin rəsmi nümayəndə heyətinin üzvlərini Polşa rəhbərinə təqdim etdi.

Dövlət başçıları və xanımları xatirə şəkli çəkdirdilər.

Sonra prezidentlər və onların xanımları xarici ölkələrin Polşada akkreditə olunmuş səfirliklərinin rəhbərləri və nümayəndələri ilə görüşdülər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 30-da, rəsmi qarşılanma mərasimindən sonra Polşa Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski arasında təkbətək görüş keçirilmişdir.

Prezidentlər son illər davamlı inkişaf edən ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə olan əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdilər. Azərbaycanın Avropa, Avratlantik strukturlarına inteqrasiyası məsələsində Polşanın ölkəmizə kömək etməyə hazır olduğu da vurğulandı. Bildirildi ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha sürətlə inkişafı üçün böyük perspektivlər mövcuddur.

Polşa Prezidenti Bakıya rəsmi səfərini, habelə Azərbaycan Prezidenti İlham Əliyev ilə beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlatdı. Polşanın Azərbaycanın möhkəm tərəfdaşı olduğu fikri də ifadə olundu.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Təkbətək görüş başa çatdıqdan sonra Polşa Respublikası Prezidentinin sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Aleksandr Kvasnevskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident Kvasnevski Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərini yüksək qiymətləndirdi və bunun ikitərəfli əlaqələrin möhkəmlənməsində yeni mərhələ olduğunu qeyd etdi. O, Bakıya səfərini də məmnunluqla xatırlatdı, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Avropaya inteqrasiya, NATO ilə uğurlu əməkdaşlıq siyasətinin, iqtisadi sahədəki nailiyyətlərin əhəmiyyətini vurğuladı. Polşa Prezidenti qarşılıqlı ticarət dövriyyəsinin artırılması perspektivlərinin və hərbi sahədə əməkdaşlığın çox mühüm olduğunu da qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin NATO-ya və Avropa strukturlarına inteqrasiyası sahəsində Polşanın köməyini yüksək dəyərləndirdi və bu köməyin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlət başçıları beynəlxalq təşkilatlarda əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyini vurğuladılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional əməkdaşlıq, beynəlxalq və digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİNİN İMZALANMASI

Martın 30-da, geniş tərkibdə görüşdən sonra Polşa Prezidentinin sarayında dövlət başçılarının iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyev və Polşa Respublikasının müdafiə naziri Yeji Şmaydzinski "Azərbaycan Respublikası hökuməti və Polşa Respublikası hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş"i imzaladılar. Azərbaycan Respublikası hökuməti ilə Polşa Respublikası hökuməti arasında "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş"i Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və Polşa Gömrük Xidmətinin rəisi Veslav Çijoviç imzaladılar.

"Polşa Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında "İqtisadi əməkdaşlıq haqqında saziş"i Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyev və Polşanın iqtisadiyyat, əmək naziri Miroslav Zelinski imzaladılar.

Sonra Polşa Respublikasının müdafiə naziri Yeji Şmaydzinski Azərbaycanın müdafiə naziri Səfər Əbiyevə 1920-1938-ci illərdə Azərbaycan zabitlərinin Polşa ordusunda iştirakını təsdiqləyən arxiv materiallarını təqdim etdi.

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI

Martın 30-da, sənədlərin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Aleksandr Kvasnevski birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BƏYANATI

- Cənab Prezident!

Xanımlar və cənablar!

Polşaya rəsmi səfərə gəlmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlayıram. Son illərdə əlaqələrimiz xeyli inkişaf etmişdir. 1999-cu ildə mən Azərbaycanda rəsmi səfərdə olmuşam. Daha sonra cənab İlham Əliyev Ümumdünya iqtisadi forumunda iştirak etmək üçün Polşaya gəlmişdir. O, iki aydan sonra burada keçiriləcək Avropa Şurasının zirvə görüşündə də iştirak edəcəkdir. Bizim digər tədbirlər çərçivəsində də görüşlərimiz olmuşdur. Beləliklə, deyə bilərik ki, prezidentlər və hökumətlər

səviyyəsində əlaqələrimiz çox yüksəkdir.

Polşa Azərbaycandakı dəyişiklikləri - ölkənin demokratikləşməsini, iqtisadi inkişafı və biz polyaklar üçün böyük əhəmiyyət kəsb edən NATO, Avropa Birliyi kimi təşkilatlarla əməkdaşlığı yüksək qiymətləndirir. Azərbaycanın NATO və Avropa Birliyi ilə bu çərçivədəki əməkdaşlığını tam dəstəklədiyimizi bəyan edir və bu əməkdaşlığın inkişaf etdirilməsinin həm Azərbaycan, həm də Avropa Birliyi üçün faydalı olması məqsədi ilə təcrübəmizi bölüşməyə hazır olduğumuzu bildiririk. Polşa Azərbaycanın Avropa Birliyinə təqdim etdiyi böyük layihələrə, xüsusən də qaz və neft ilə bağlı məsələlərə maraq göstərir. Xəzər dənizindən çıxarılan neftin Azərbaycan, Gürcüstan vasitəsilə Avropaya nəqli ilə bağlı layihələr həyata keçirilməkdədir. Bu layihələrə bizim üçün çox əhəmiyyətli sayılan Odessa–Brodı-Qdansk boru kəmərinin də qoşulması məsələsi müzakirə mərhələsindədir. Mənim fikrimcə, hazırda bu layihə Avropada mövcud olan ən mühüm iqtisadi layihələrdən biridir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, bu gün imzalanmış sazişlər ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafına, gömrük məsələlərinin tənzimlənməsinə zəmanət verir. Kiçik və orta müəssisələrin əməkdaşlığına gəldikdə, kənd təsərrüfatı və əmək bazarına dair sazişlər imzalanmışdır. Bildirmək istəyirəm ki, biz müdafiə sahəsində əməkdaşlıq haqqında da saziş imzaladıq.

Bu ilin iyun ayında Polşa Respublikasının müdafiə naziri Yeji Şmaydzinski Azərbaycana səfər edəcəkdir. Siz iki dünya müharibəsi arasında olan müddət ərzində Polşa Respublikasının ordusunda azərbaycanlı zabitlərin xidmətini təsdiq edən və polyak arxivlərində saxlanılan sənədlərin dostluq əlaməti olaraq təqdim edilməsinin şahidi oldunuz. Ümidvarıq ki, bu, tarix elmi sahəsində əməkdaşlığa da öz töhfəsini verəcəkdir. Məlumdur ki, Yanvar üsyanından sonra bir çox polyak Azərbaycan ərazisində məskunlaşmışdır. Bu sənədlər tarix institutları arasında maraqlı əməkdaşlıq üçün zəmin yaradır.

Biz Prezident İlham Əliyevlə regional vəziyyət haqqında fikir mübadiləsi apardıq, Qafqazdakı hadisələri, Azərbaycan üçün çox mühüm olan Dağlıq Qarabağ məsələsini, Ukraynada baş vermiş dəyişiklikləri və Qırğızıstandakı son hadisələri müzakirə etdik. Polşa–Azərbaycan əməkdaşlığının iki konkret elementi bizi sevindirir. Keçən il Polşada Azərbaycan Respublikasının səfirliyi açılmışdır. Bu, sadəcə səfirliyin açılması deyil, Azərbaycanın diplomatik nümayəndəliyinə ölkənin fəal siyasi xadimi, keçmiş xarici işlər naziri, fəaliyyətini yüksək dəyərləndirdiyimiz Vilayət Quliyev rəhbərlik edir. Digər tərəfdən, biz çox məmnunuq ki, Azərbaycan tərəfi bizim ATƏT-dəki nümayəndəmiz, hazırkı sədrin şəxsi nümayəndəsi, səfir Kaspşikin fəaliyyətini çox yüksək qiymətləndirir. Sizə söylədiklərim apardığımız danışıqların qısa məzmunudur. Cənab Prezident, Sizi bir daha salamlayıram.

Onu da əlavə etmək istəyirəm ki, biz İraqdakı vəziyyəti də müzakirə etdik. Hərbi sahədəki birgə işimizə nəzər salsaq, deyə bilərəm ki, azərbaycanlı və polyak əsgərləri üç yerdə - İraqda, Əfqanıstanda və Kosovoda birlikdə xidmət edirlər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan əsgərləri İraqda xidmətlərini davam etdirəcəklər və biz koalisiya qoşunları sıralarında birgə fəaliyyətimizi lazımi qaydada davam etdirəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Cənab Prezident, ən əvvəl məni gözəl ölkənizə səfərə dəvət etdiyinizə görə təşəkkürümü bildirirəm. Bütün sahələrdə olan ikitərəfli əlaqələrimizin səviyyəsindən çox razıyam. Bizim çox yaxşı siyasi əlaqələrimiz var və mütəmadi olaraq siyasi dialoq aparırıq. Hazırda Polşa və Azərbaycan siyasi xətt baxımından bir yerdədir. Cənab Prezidentin qeyd etdiyi kimi, biz ikitərəfli əlaqələrə dair bir sıra məsələləri, habelə regional inkişaf məsələlərini və mühüm beynəlxalq hadisələri müzakirə etdik.

Azərbaycan öz siyasətinə Avratlantik təsisatlara inteqrasiya siyasətinə qəti surətdə sadiqdir. Bu siyasət 10 ildən artıqdır həyata keçirilir və yaxşı nəticələr verir. Bu amil xarici siyasətimizdə prioritet xarakter daşıyır. Avropa Birliyi və NATO ilə inteqrasiya sahəsində Polşanın bizə dəstəyinin davam etdirilməsini də müzakirə etdik. Azərbaycan bu təşkilatlarla çox fəal işləyir. Ölkəmiz Avropa Birliyinin "yeni qonşuluq siyasəti"nə daxil edilib və NATO-nun fərdi əməkdaşlıq proqramı çərçivəsində bu təşkilatla sıx əməkdaşlıq edir. Polşa, Azərbaycan hərbçiləri dünyanın bir sıra yerində çiyin-çiyinə xidmət edir - Kosovoda, Əfqanıstanda, İraqda sülhün və sabitliyin qorunması işinə yardım göstərirlər. Bu amil bizi birləşdirən mühüm elementlərdən biridir. Ümumi iqtisadi inkişaf üçün çox yaxşı perspektivlərimiz var. Prezidentlə görüşümüz zamanı gələcək iqtisadi inkişaf məsələsi də müzakirə olundu. Dövlətlərimizin iqtisadi potensialı artmaqdadır, ölkələrimiz iqtisadi islahatların uğurla həyata keçirilməsi tarixinə malikdir. Hesab edirəm ki, iqtisadi potensialımız artdıqca Azərbaycan ikitərəfli ticarət-iqtisadi əlaqələrdə daha fəal rol oynayacaqdır. Bizim iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır, sərbəst iqtisadiyyatdır. Azərbaycan bazar iqtisadiyyatının imkanlarından bəhrələnir. Totalitar kommunist rejimindən azad bazar iqtisadiyyatı sisteminə keçid asan olmamışdır. Ancaq düşünürəm ki, biz bu dövrü lazımınca keçə bildik. Azərbaycan iqtisadiyyatındakı artım, - bu il təxminən 12-14 faiz olacaq və onu göstərir ki, bizim seçimimiz düzgün olmuşdur.

Biz regional təhlükəsizliyə və əməkdaşlığa dair məsələlər haqqında da danışdıq. Azərbaycan zəngin təbii sərvətlərə, səmərəli nəqliyyat infrastrukturuna və strateji mövqeyə malik bir ölkə olaraq, Cənubi Qafqazda çox mühüm rol oynayır. Bütün bu amillər siyasi və iqtisadi inkişafımız üçün geniş imkanlar yaradır. Şübhə etmirəm ki, enerji və nəqliyyat layihələrinin, Şərq-Qərb dəhlizi layihəsinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafına kömək edəcək, regiondakı dost ölkələr üçün faydalı olacaqdır.

Bizim regionun sabitliyə, sülhə və təhlükəsizliyə ehtiyacı var. Buradakı sülhə təhlükə yaradan amil Ermənistanla Azərbaycan arasında olan münaqişədir. Görüşümüz zamanı bu məsələ də müzakirə olundu. Cənab Prezidentə Ermənistanla danışıqların hazırkı vəziyyəti və münaqişənin mümkün həlli yolları barədə məlumat verdim. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinə tam sadiqdir. Hesab edirik ki, hər bir mübahisə fərdi arzular, istəklər və yaxud xülyalar əsasında deyil, yalnız və yalnız beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır. Bugünkü beynəlxalq hüquq normalarına uyğun olaraq isə, hər bir ölkənin ərazi bütövlüyü qorunmalıdır. Məhz buna görə də təcavüzə məruz qalmış, suverenliyi və ərazi bütövlüyü pozulmuş Azərbaycanın öz ərazi bütövlüyünün bərpa olunmasına yönəlmiş səyləri haqq işidir. Etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir

milyon azərbaycanlı isə öz doğma yerlərinə qayıtmalıdır. Ümidvarıq ki, danışıqların bu raundu münaqişənin sülh yolu ilə həlli üçün yeni imkanlar yaradacaqdır. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Cənubi Qafqazdakı bütün ölkələr üçün Avropaya inteqrasiya sahəsində yeni imkanlar açacaqdır. Təəssüf ki, bu gün bizim belə həmrəyliyimiz mövcud deyil və buna olan əsas maneə münaqişədir.

Əminəm ki, gələcəkdə Polşa beynəlxalq təşkilatlarda, ATƏT və BMT-də daha mühüm rol oynayacaq və Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həll olunmasına kömək edəcəkdir.

Bu gözəl ölkəyə gəlməyimiz üçün imkan yaratdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Polşada dəfələrlə olmuşam, cənab Prezidentlə bir-birimizi uzun illərdir tanıyırıq. Bildiyiniz kimi, polyakların Azərbaycanda dərin tarixi var, bir çox gözəl binalar, saraylar, yaraşıqlı memarlıq əsərləri məhz polyaklar tərəfindən yaradılmışdır. Onların xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Düşünürəm ki, bizim ikitərəfli əlaqələrimizin yeni mərhələsi gələcək uğurlu əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirir, polyak xalqına və Polşa hökumətinə əmin-amanlıq və uğurlar arzu edirəm. Çox sağ olun.

Sonra prezidentlər İlham Əliyev və Aleksandr Kvasnevski jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim iki sualım olacaq. Oktyabr inqilabından əvvəl polyaklara mənsub olmuş neft yataqları məsələsini müzakirə etdinizmi? Onların qaytarılması planları haqqında söhbət oldumu? İkinci sualım isə demokratikləşmə ilə bağlıdır. Siz Azərbaycandakı demokratik proseslərə dəstək verirsinizmi?

ALEKSANDR KVASNEVSKİ: Polşaya vaxtilə mənsub olmuş neft yataqlarına gəldikdə, biz bu haqda danışmadıq. Əgər hər hansı bir nazirlikdə bu cür məlumat mövcuddursa, düşünürəm ki, onlar Azərbaycanda bu məsələnin araşdırılması ilə bağlı öz tərəfdaşlarını tapacaqlar. Mən belə xarakterli məlumat almamışam. İkinci sualınıza gəldikdə isə, onu deyə bilərəm ki, Polşa demokratiyanın qurulmasına və demokratik standartların inkişaf etdirilməsinə yönəlmiş hər bir addımı dəstəkləyən ölkədir. Bu o deməkdir ki, hər bir ölkə vətəndaş cəmiyyətini xarakterizə edən təsisatları qurduqda, kütləvi informasiya vasitələrinin azadlığının, məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi sahəsində bizim yardımımıza arxalana bilər. Bu, bizim son illər ərzində artıq müəyyənləşmiş mövqeyimizdir və dəyişməz olaraq qalır.

SUAL: Azərbaycanın xam neftinin Polşa ərazisi vasitəsilə nəql olunması məsələsinə dair aparılan danışıqların vəziyyəti nə yerdədir? Bu məsələ ilə bağlı Siz Azərbaycana etdiyiniz səfərdən etibarən öz siyasi iradənizi dəfələrlə ifadə etmisiniz. İkinci sualım Polşadakı daxili proseslərə aiddir. Mənsub olduğunuz partiya üzvləri Seymin deputatlarının *mandatının qısaldılması* ilə bağlı məsələni birmənalı şəkildə rədd edirlər. Sizin bu məsələyə dair mövqeyiniz?

ALEKSANDR KVASNEVSKİ: Birinci sualınıza cavab olaraq onu deyə bilərəm ki, ha-

zırda mövcud olan neft və qaz kəmərləri ilə enerji daşıyıcıları nəql edilir. Lakin ixrac boru kəmərinin çəkilməsi ilə əlaqədar yaxşı olardı ki, sualınıza Prezident İlham Əliyev cavab versin. Çünki layihənin maliyyə və texniki tərəfləri barədə məlumat Azərbaycan tərəfindədir.

İLHAM ƏLİYEV: Azərbaycanın öz enerji ehtiyatlarının işlənilməsi ilə bağlı strategiyası neft və qazın nəql edilməsi yollarının müxtəlif istiqamətdə olması prinsipinə arxalanır. Hazırda Azərbaycanın Xəzər hövzəsindəki neft və qaz yataqları qarşıdakı 3-4 il ərzində böyük həcmdə neft və qaz hasilatı imkanlarının olmasını söyləməyə əsas verir.

Gələn 3 və ya 4 il ərzində Azərbaycan ixrac etdiyi neftin həcmini 3 dəfə artıracaqdır. Lakin bu məqsədə nail olmaq üçün bizim nəqletmə infrastrukturuna ehtiyacımız var. Bu gün neftimizi Qara dəniz limanları vasitəsilə dünya bazarlarına çıxaran iki boru kəmərimiz var. Hazırda Aralıq dənizinə çıxışı təmin edən üçüncü boru kəmərinin tikintisi başa çatmaqdadır. Bu kəmər hasilatın daha da artırılması üçün yeni imkanlar yaradacaqdır. Gələcəkdə enerji daşıyıcılarının nəqli sahəsində Avropadakı infrastrukturdan, xüsusən də Polşanın infrastrukturundan istifadə olunması imkanı müzakirə mərhələsindədir. Azərbaycan Odessa-Brodı-Qdansk boru kəmərinin çəkilməsinə hər zaman siyasi dəstək vermişdir. Biz bu məsələyə həmişə müsbət baxmışıq, sadəcə, müəyyən ölkələrin mövqeləri daim dəyişirdi. Bəzən mövqelər o qədər də açıq ifadə olunmurdu. Lakin əgər bu gün Odessa-Brodı-Qdansk istiqaməti birmənalı olaraq müəyyən edilibsə, Azərbaycan bu layihəyə öz töhfəsini verə bilər. Təbii ki, bizim bu işə verdiyimiz siyasi dəstəklə yanaşı, layihənin iqtisadi və ticari tərəfi də nəzərə alınmalıdır. Əminəm ki, bu layihə iqtisadi baxımdan faydalı olacaq və biz bu sahədə birgə işləyə biləcəyik.

ALEKSANDR KVASNEVSKİ: Bildiyiniz kimi, bu məsələ ilə bağlı danışıqlar davam edir. Mən bu məqsədlə Prezident Yuşşenko ilə əlaqə saxlayıram. Baş nazir Belka ukraynalı həmkarı xanım Timoşenko ilə müzakirələr aparır. Bütün bu danışıqlar Odessa-Brodı-Qdansk boru kəmərinin reallaşdırılmasının sürətləndirilməsinə yönəlibdir. Çünki Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ukrayna da bu layihənin həyata keçirilməsində maraqlı olan tərəfdir. Hesab edirik ki, biz bu məqsədlə beynəlxalq maliyyə vəsaitlərini, xüsusən də Avropa Birliyinin fondlarını cəlb edə bilərik. Son həftə və günlər ərzində bu istiqamətdə apardığımız danışıqlar çox fəal olmuşdur. Bu yaxınlarda Prezident Yuşşenko spesifik məsələlərin müzakirəsi məqsədi ilə region ölkələrinə səfər edəcəkdir.

Ölkəmizdə gedən daxili proseslərə gəldikdə isə, xanımlar və cənablar, bu məsələ ilə bağlı dəfələrlə bəyan etmişəm ki, deputatların mandatının müddəti ilə bağlı parlament mayın 5-də qərar qəbul etməlidir. Mən səsvermənin nəticələrini bu baş dan sizə deyə bilmərəm. O ki qaldı parlament seçkilərinə, əgər dəyişikliklər haqqında qərar qəbul olunarsa, seçkilər iyunun 19-da keçiriləcəkdir. Qərar müsbət olmasa, parlament buraxılmayacaq və seçkilər həmişəki kimi sentyabrın 25-də keçiriləcəkdir. Bir sözlə, bu məsələ ilə bağlı əlavə bir şey demək mümkün deyildir. Əgər əlavə bir şey deyilsə, məsələ daha da çətinləşəcək və beləliklə bizim vətəndaşlar bunu anlamayacaqlar. Heç bir şübhə yoxdur ki, ümumi seçkilər bu il keçiriləcəkdir. Yəni bu seçkilər konstitusiyaya uyğun olaraq, 4 ildən sonra və yaxud islahat olarsa, daha tez keçirilə bilər.

SUAL: Azərbaycan Avropa təsisatlarına fəal şəkildə inteqrasiya olunmaqdadır. Bu gün

iki ölkə arasında bir sıra sənədlər imzalandı. Həmin sazişlər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə təkan verəcəkdir.

Bildiyiniz kimi, Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Gələn aylar ərzində ermənilər qondarma "Dağlıq Qarabağ Respublikası"nda parlament seçkiləri keçirilməsini planlaşdırırlar. Bununla bağlı Sizin rəsmi rəyiniz necədir?

ALEKSANDR KVASNEVSKİ: Biz münaqişənin dinc yolla, düzgün və məqbul həll variantını dəstəkləyirik. Məsələ ilə bağlı biz ATƏT çərçivəsində aktiv fəaliyyət göstəririk. Səfir Kaspşik də lazımi səylər göstərir. Biz hər iki ölkənin – Azərbaycan və Ermənistanın xarici işlər nazirlərini danışıqlar üçün Varşavaya dəvət edirik. Polşa tərəfi Prezident Əliyev və Prezident Köçaryan arasında görüşün keçirilməsi məqsədi ilə onları ölkəmizə dəvət edir. Onlar burada görüşə bilərlər. Təbii ki, biz bu münaqişənin sülh yolu ilə aradan qaldırılması məqsədi ilə istənilən variantı dəstəkləməyə hazırıq. Məsələnin detalları haqqında danışmaq bizim üçün çətindir və münaqişədə olan hər hansı bir ölkənin tərəfində ola bilmərik. Biz məsələnin həlli yollarını asanlaşdıra bilərik, lakin biz müzakirələrin bir tərəfi ola bilmərik. Mənim mövqeyim ondan ibarətdir ki, bu məsələ beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Azərbaycanın Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusunun verilməsi ilə bağlı təklifi baxılmaq üçün çox ciddi təklifdir. Vacibdir ki, bu təklif müzakirə olunsun. Mən Polşa adından bəyan edirəm ki, biz prosesi asanlaşdıra bilərik, ona yardım edə bilərik. Lakin qərar Ermənistan və Azərbaycan tərəfindən qəbul edilməlidir. Müzakirələr davam etdirilməlidir ki, məsələnin həlli mümkün olsun.

SUAL: Mənim sualım hər iki prezidentədir. İki ölkə arasında Avropa Birliyi və NATO ilə əməkdaşlıq sahəsində birgə iş haqqında nə deyə bilərsiniz?

ALEKSANDR KVASNEVSKİ: Azərbaycan və Polşa arasındakı əməkdaşlığı nəzərdə tutursunuz?

JURNALİST: Bəli.

ALEKSANDR KVASNEVSKİ: Bu məsələni biz Prezident İlham Əliyev ilə müzakirə etdik. Əminəm ki, biz bir yerdə çalışacağıq və çox sıx əməkdaşlıq edəcəyik. Avropa Birliyinin və NATO-nun üzvü kimi Polşa sizin ölkənizlə öz təcrübəsini bölüşə bilər. Siyasi baxımdan biz Azərbaycan ilə Avropa Birliyi arasındakı sıx əməkdaşlığı "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində dəstəkləyəcəyik. Bu sözlər eynilə NATO-ya da aiddir. Biz Azərbaycanın bu iki təşkilatla daha sıx əlaqədə olmasında maraqlıyıq. Polşa Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmasını da dəstəkləyir. Təbii ki, Azərbaycan bu təşkilatda öz yerini tutmalıdır. Bu, diplomatik danışıqların bir mövzusudur.

İLHAM ƏLİYEV: Mən onu da əlavə etmək istəyirəm, bu məsələləri biz bugünkü görüşümüz zamanı müzakirə etdik. Biz bu baxımdan Azərbaycan ilə sıx əməkdaşlıq edən Polşa Prezidenti və hökumətinin tutduğu mövqedən çox razıyıq. Avratlantik strukturlarına inteqrasiya yolunda Polşa tərəfinin Azərbaycana verdiyi dəstəyin davam etdirilməsini xahiş etdik. Polşa bu istiqamətdə böyük nailiyyətlər əldə etmişdir və mən Polşanın NATO və Avropa Birliyinə üzv qəbul olunması münasibətilə Prezident Kvasnevskini təbrik etdim. Hazırda Polşa nəinki regionda, həm də dünyada aparıcı dövlətlərdən biridir. Azərbaycanın beynəlxalq strukturlara tam inteqrasiya olunmaq fikri birmənalı ola-

raq qətidir. Biz bu siyasətə çox sadiqik və Polşa bizim üçün dost ölkədir. Bu ölkə inteqrasiya proqramını uğurla başa çatdırıb və onun təcrübəsi bizim üçün çox faydalı ola bilər. Bizi daim dəstəklədiyinə görə cənab Prezidentə minnətdarlığımı bildirirəm. Biz gələcək əməkdaşlıq yollarını birgə müəyyən etdik. Hesab edirəm ki, səfərim çərçivəsində bütün bu məsələlər daha təfərrüatlı şəkildə müvafiq nazirliklər səviyyəsində müzakirə olunacaqdır.

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasına rəsmi səfəri çərçivəsində martın 30-da Varşavanın Pilsudski meydanında naməlum əsgərin məzarını ziyarət etmişdir.

Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev Polşanın bütün tarixi ərzində öz azadlığı uğrunda apardığı müharibələr zamanı verdiyi qurbanların xatirəsini ehtiramla yad etdi, onların şərəfinə ucaldılmış abidənin önünə əklil qoydu.

Sonra dövlətimizin başçısına abidə kompleksi haqqında məlumat verildi. Bildirildi ki, təkcə İkinci Dünya müharibəsi illərində Polşa 6 milyon nəfərədək itki vermişdir. Həmin müharibəyə qədər bu kompleksin yerləşdiyi ərazidə öz gözəlliyi və əzəməti ilə seçilən Saksoniya sarayı olmuşdur. Hitlerçilər bu sarayı dağıtdıqdan sonra qərara alınmışdır ki, o bərpa olunmasın və qalıqlarının yerində vətənin azadlığı uğrunda həlak olmuş övladların xatirəsinə ehtiramın simvolu kimi abidə kompleksi yaradılsın.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN NAZİRLƏR ŞURASININ SƏDRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Polşa Respublikasının Nazirlər Şurasının binasına gəlmişdir.

Dövlətimizin başçısı İlham Əliyevi Polşanın Nazirlər Şurasının sədri Marek Belka böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Polşa Respublikası Nazirlər Şurasının sədri Marek Belkanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə işgüzar nahar verildi. Nahar süfrəsi ətrafında səmimilik şəraitində keçən söhbət zamanı iqtisadi əməkdaşlığın perspektivləri, regional əməkdaşlıq, enerji layihələri və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

POLŞA SEYMİNDƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Polşanın ali qanunvericilik orqanının aşağı palatasına - Seymə gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə Seymin Administrasiyası rəhbərinin müavini Lek Çapla və digər şəxslər səmimiyyətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Seyminin vitse-marşalı Tomas Nalenç ilə görüşü oldu.

Dövlətimizin başçısı İlham Əliyev ilə görüşməkdən şərəf duyduğunu bildirən cənab Tomas Nalenç dedi ki, cənab Prezident, Sizin kimi fəxri qonaqları Polşa Seymində görmək böyük hadisədir. Polşada ən məşhur dərsliklərdən biri məhz Bakı haqqında məlumatla açılır. Ölkələrimizi həm qədim, həm də müasir tarix birləşdirir. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Polşa-Azərbaycan əlaqələri daha yüksək səviyyəyə qalxmışdır. Əminik ki, Sizin səfəriniz ikitərəfli əlaqələrimizin inkişafında yeni mərhələ olacaqdır.

Prezident İlham Əliyev Azərbaycan-Polşa əlaqələrinin inkişafından danışdı və bildirdi ki, bu baxımdan parlamentlərarası münasibətlər də böyük əhəmiyyət daşıyır. Ümidvaram ki, Polşa və Azərbaycan parlamentləri arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində əlaqələri, xüsusilə Avropa Şurasında Azərbaycanın və Polşanın nümayəndə heyətləri arasında sıx əməkdaşlığı yüksək qiymətləndirdi. Polşa parlamentinin nümayəndələri Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan uğurların burada maraqla izlənildiyini, Avropa Birliyi və NATO-ya inteqrasiya sahəsində Azərbaycana kömək göstərməyə hazır olduqlarını bildirdilər. Onlar Azərbaycandakı polyak icması üçün yaradılmış şəraiti də yüksək dəyərləndirdilər.

SƏRGİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev Seymdə görüşdən sonra Polşa parlamentinin yuxarı palatasına - Senata gəlmiş, burada təşkil olunmuş "Polyak memarları Bakıda" sərgisi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verilərək bildirildi ki, sərgi Bakı şəhərinin memarı, XIX əsrin sonunda ölkəmizin paytaxtına sürgün olunmuş İosif Qoslavskinin vəfatının 100 illiyinə həsr olunmuşdur. Burada Polşanın Bakıdakı səfirliyi tərəfindən "Polyak memarları XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda" fotomüsabiqəsi qaliblərinin işləri nümayiş etdirilir. Onların arasında İosif Qoslavskinin, İosif Ploşkonun, Kazimir Skorelçin və digər polyak memarlarının layihələri əsasında Bakıda tikilmiş binaların fotoları da var.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA SENATININ VİTSE-MARŞALI XANIM İOLANTA DANELYAK İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Polşa Senatının vitse-marşalı xanım İolanta Danelyak ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan İolanta Danelyak bildirdi ki, Azərbaycan Prezidentinin səfəri münasibətilə Senat Polşanın Bakıdakı səfirliyi ilə birlikdə xoş bir sürpriz - sərgi hazırlamışdır. Xanım Danelyak dedi ki, Azərbaycanla Polşa arasında əlaqələrin inkişafı hamımızı məmnun edir və bu istiqamətdə Senat da gələcəkdə öz səylərini əsirgəməyəcəkdir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Polşa arasında ümumi oxşar cəhətlər çoxdur və hazırda bizim iqtisadi, siyasi, digər sahələrdə əlaqələrimiz vardır.

Senatda tanış olduğu sərginin onda xoş əhval-ruhiyyə yaratdığını diqqətə çatdıran dövlətimizin başçısı dedi ki, bu sərgi Azərbaycan və Polşa xalqlarının nə dərəcədə yaxın olduğunu göstərir və bu əlaqələrin müasir dövrdə çox gözəl perspektivləri vardır.

Azərbaycan Prezidenti İlham Əliyev Senatın Fəxri qonaqlar kitabını imzaladı.

VARŞAVANIN TARİXİ YERLƏRİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Varşavanın tarixi yerləri ilə tanış olmuş, Polşa paytaxtının "Köhnə şəhər" adlanan hissəsinə - Stare - Myastoya baxmışlar. Şəhərin bu hissəsi Visla çayının sol sahilində yerləşir və Bakının İçərişəhəri kimi qala divarları ilə əhatələnmişdir.

Varşava şəhərinin meri Lex Koçinski Prezident İlham Əliyevə tarixi memarlıq abidələri barədə ətraflı məlumat verdi. Bildirildi ki, İkinci Dünya müharibəsindən sonra şəhərin memarlıq əhəmiyyətli binalarının hamısı əvvəlki görkəmində bərpa olunmuşdur.

Dövlətimizin başçısı Varşava üsyanı muzeyinin həyətində İkinci Dünya müharibəsi zamanı Varşava Müqavimət Hərəkatının tərkibində döyüşmüş və həlak olmuş azərbaycanlı zabitlərin xatirə lövhəsinin açılışı mərasimində iştirak etdi.

VARŞAVANIN MERİ LEX KOÇİNSKİNİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Bu mərasimdə iştirak etməyə gəldiyinizə görə Sizə təşəkkür edirik. Ölkələrimiz arasında dostluğun qədim ənənələri var. Bu ənənələrin kökləri bizim üçün kəşməkəşli dövrə - sizin və bizim azadlığımız uğrunda mübarizə aparıldığı dövrə gedib çıxır.

XX əsrdə çoxsaylı xalq üsyanları arasında Varşava üsyanı ən cəsarətli üsyan olmuşdur. Diqqətəlayiq haldır ki, bu üsyana dünyanın bir çox ölkələrini təmsil edən əcnəbilər, yəni polyak kökləri olmayan insanlar da qoşulmuşdular. Öz növbəsində, polyaklar da bütün Avropa ərazisində - İtaliyada azadlıq müharibəsində, Macarıstan üsyanında iştirak edirdilər. Bu üsyanların çoxuna polyaklar hətta komandanlıq edirdilər. Polyaklar vaxtilə Paris kommunası zamanı sərkərdə də olmuşlar.

Bu gün biz dostluq və qardaşlıq ənənələrimizin daha bir səhifəsini açırıq. Bu səhifə Polşa ordusunun sıralarında vuruşmuş azərbaycanlılara həsr edilir. Bunun Şərqdə də, Qərbdə də vuruşmuş üsyançılar ordusu, yaxud nizami ordu olub-olmamasının fərqi yoxdur. Bu müharibə "Bizim və sizin azadlığınız uğrunda!" devizi ilə aparılırdı.

O vaxtdan neçə onilliklər keçmişdir, indi Siz azad Azərbaycanda yaşayırsınız. Zənnimcə, bu, çox böyük uğurdur. Düşünürəm ki, hələ 20 il əvvəl çoxları bunu gözləmir və buna inanmırdı.

Bu mərasim azad Azərbaycanın və azad Polşanın həmrəyliyinə və dostluğuna daha bir sübutdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab mer!

Hörmətli xanımlar və cənablar!

Bu gün çox əlamətdar bir gündür. Burada, Varşava Üsyanı Muzeyinin həyətində Azərbaycan vətəndaşlarının xatirəsinə həsr edilmiş bir lövhə açılır. Çox şadam ki, bu gözəl mərasimdə mən də iştirak edirəm.

İkinci Dünya müharibəsində Azərbaycandan 600 min insan iştirak edibdir. Onlardan 300 mini həlak olmuşdur. O cümlədən Polşanın azadlığı uğrunda döyüşlərdə də azərbaycanlılar həlak olmuşlar. Bir neçə aydan sonra biz İkinci Dünya müharibəsinin başa çatmasının və ümumi qələbəmizin ildönümünü qeyd edəcəyik. Bu qələbə bizim hamımızın qələbəsidir.

Bu gün Azərbaycan bütün müstəqil ölkələr kimi öz taleyini, öz müqəddəratını özü müəyyən edir. Müstəqillik hər bir xalq, hər bir millət üçün ən böyük sərvətdir, ən böyük nemətdir.

İndi ölkələrimiz arasında olan əlaqələr ən yüksək səviyyəyə çatıbdır və mənim Polşaya rəsmi səfərim bu istiqamətdə atılmış çox mühüm bir addımdır. Mən əminəm ki, bu səfərdən sonra iki ölkə arasında əlaqələr daha da inkişaf edəcək, bizim xalqlarımız bir-biri ilə daha sıx əməkdaşlıq edəcəklər.

Bizim xalqlarımızı, eyni zamanda müştərək tarix də birləşdirir. İkinci Dünya müharibəsindəki qələbə dünyanın bir çox xalqlarına azadlıq, müstəqillik bəxş etdi. Ancaq bizim müstəqilliyimiz, həqiqi mənada azadlığımız yalnız 1990-cı illərdə baş vermişdir. Polşa və Azərbaycan müstəqil ölkələr kimi bu dövr ərzində böyük uğurlar əldə etmiş, böyük qələbələr qazanmışlar. Mən əminəm ki, bundan sonra da Polşa və Azərbaycan dostluq, mehribanlıq münasibətlərini möhkəmləndirəcək və ölkələrimiz daha da sıx əməkdaşlıq edəcəkdir.

Mən hörmətli cənab merə bu lövhənin açılması ilə əlaqədar öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Varşava şəhərinin meri Lex Koçinski xatirə lövhəsinin üzərindəki ağ örtüyü götürdülər.

Azərbaycan Prezidenti İlham Əliyev Varşava üsyanı zamanı həlak olanların xatirəsini yad etmək üçün divardakı kiçik kilsə zənginin yanına yanan şam qoydu. Sonra dövlətimizin başçısı muzeylə tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Martın 30-da axşam Polşa Prezidentinin sarayında Prezident Aleksandr Kvasnevskinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN NİTQİ

- Çox hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Sizi Polşa torpağında, Varşavada səmimi qəlbdən salamlayıram. Görüşümüzə şadam, xüsusən də ona görə ki, 1999-cu ildə qonaqpərvər Azərbaycan Respublikasına səfərim zamanı mənə göstərilən xeyirxahlığı və səmimiyyəti bu günədək xatırlayıram. Ümidvaram ki, Siz də Visla çayı sahillərində olmağınızdan çox məmnun qalacaqsınız.

Azərbaycan polyakların qəlbinə yaxındır. Cənab Pezident, XIX əsrdə Sizin ölkəniz bir çox həmvətənlərimiz - siyasi baxışlarına görə sürgün olunanlar və milli üsyanların iştirakçıları üçün ikinci vətən oldu. Polyaklar öz iradəsi ilə orada sonralar da, Birinci Dünya müharibəsindən sonra başlanmış neft bumu dövründə də məskən saldılar. Onların bəziləri sənayenin bu sektorunun inkişafına sanballı töhfə vermişdir. Məsələn, mən görkəmli geoloq Karl Boqdanoviçi nəzərdə tuturam, o, Azərbaycanda elmi tədqiqatlar aparırdı. İstedadlı mühəndis Vitold Zqlenitskinin layihəsi sayəsində Xəzər dənizinin dibindən neft çıxarılmağa başlanmışdır.

Polşalı həkim və müəllimlər Azərbaycanda böyük nüfuza malik idilər. Polşalı memarlar çox böyük müvəffəqiyyət qazanmışdılar. Ötən əsrin əvvəllərində İosif Qoslavski və Kazimej Skureviç hətta Bakının baş memarları olmuşlar. Qoslavski Azərbaycan paytaxtına bənzərsiz sima vermişdir. Belə ki, şəhər dumasının binası, Zeynalabdin Tağıyevin mülkü və müsəlman qızlar üçün məktəb onun layihələri əsasında tikilmişdir.

Polyaklar və azərbaycanlılar həmişə bir-birinə etimad bəsləmişlər. Həmyerlimiz general Matsey (Məmməd bəy) Sulkeviçin Azərbaycanın birinci müstəqilliyi dövründə, 1918-1920-ci illərdə Baş Qərargahın rəisi təyin edilməsi buna parlaq sübutdur. Onu da xatırlamağa dəyər ki, bu ilk müstəqil respublikanın yaradıcılarından biri olan Məmmədəmin Rəsulzadə özünə sığınacağı başqa bir yerdə deyil, məhz Varşavada, həyat yoldaşının vətənində axtarmışdır. Bir halda ki, bundan söhbət düşmüşdür, deməliyəm ki, azərbaycanlılarla polyaklar arasında nikahlar indi də bağlanır. Cənab Prezident, xüsusən də Sizin torpağınızda. Orada kökləri Visla sahillərindən olan xeyli insan yaşayır. Bizə məlumdur ki, onlar öz təşkilatlarını yaratmış, - bunlardan yalnız "Poloniya-Azərbaycan" icmasını göstərəcəyəm, - öz fəaliyyətini inkişaf etdirmək üçün yaxşı şəraitə malikdirlər. Sağ olun!

Hörmətli xanımlar, hörmətli cənablar!

Polyaklar öz böyük arzusunu təxminən bir il əvvəl həyata keçirdilər: ölkəmiz Avropa Birliyi dövlətləri ailəsinə qoşuldu. Biz bundan böyük məmnunluq hissi keçiririk. Eyni zamanda hesab edirik ki, bu Birliyin, eləcə də Şimali Atlantik Alyansının qapısını açıq saxlamaq lazımdır, qitəmizdə inteqrasiya prosesləri davam etdirilməlidir.

Polşa şərqyönümlü müttəfiqlik siyasətinin həyata keçirilməsinə fəal qoşulur. Biz şadıq ki, Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə qoşulmuşdur. Bununla yanaşı, biz əvvəlki tərəfdaşlarımızla, cənab Prezident, eləcə də Sizin ölkənizlə qarşılıqlı əlaqələri bundan sonra da inkişaf etdirmək istəyirik. Polşanın Avropa Birliyinin üzvü olması əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar yaradır.

Biz bundan da məmnunuq ki, Polşa kimi, Azərbaycan Respublikası da beynəlxalq terrorizmə qarşı mübarizə aparmağı qərara almış dövlətdir. Əminik ki, qoşunlarımızın İraqda olması bu ölkədə həyatın sabitləşməsinə daha yaxşı kömək edir.

Hörmətli cənab Prezident, xanımlar və cənablar!

Biz Polşanın və Azərbaycanın münasibətlərinin gələcəyinə nikbinliklə baxırıq. Üstəlik, biz bir-birimizə çox şey təklif edə bilərik. Özü də təkcə iqtisadi sahədə, yaxud ticarət sahəsində deyil, başqa sahələrdə də. Mən elmi-texniki və mədəni əməkdaşlığı, turizmi də nəzərdə tuturam. İnanıram ki, biz bu imkanlardan yaxşı istifadə edəcəyik.

Bu ruhda cənab Prezidentin və burada olanların hamısının sağlığı və firavanlığı şərəfinə, Azərbaycanın uğurları şərəfinə, Polşa-Azərbaycan münasibətlərinin xoş gələcəyi şərəfinə badə qaldırıram!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Kvasnevski!

Hörmətli xanım İolanta Kvasnevska!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, əvvəlcə məni Polşa Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Polşa torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən bu səfərə böyük əhəmiyyət verirəm.

Bu gün Azərbaycanla Polşa arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərəm ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Şübhə etmirəm ki, səfər zamanı keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələr müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Ölkələrimizin müvafiq strukturları - nazirliklər, şirkətlər, qurumlar bir-biri ilə əlaqə yaradacaq, əməkdaşlıq potensialından istifadə edərək, iqtisadi əlaqələrimizi daha da yüksək səviyyəyə qaldıracaqlar.

Azərbaycan Respublikası ilə Polşa, Azərbaycan xalqı ilə polyak xalqı arasında mehriban dostluq və əməkdaşlıq münasibətlərinin formalaşması, inkişafı və möhkəmlənməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Sizin böyük xidmətlərinizi ayrıca qeyd etmək istəyirəm.

Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası önəmli yer tutur. Ölkəmiz Avropa Şurasının üzvüdür. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Azərbaycan "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir.

Avropa Birliyi Azərbaycanı "Genişlənmiş Avropa və qonşuları" təşəbbüsünə daxil etmişdir. Bu istiqamətdə Polşanın Azərbaycana dəstəyinə görə Sizə təşəkkürümü bildirir, gələcək əməkdaşlığa böyük ümid bəsləyirəm.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Eyni zamanda, Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar aparılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

2004-cü ildə iqtisadiyyatda artım 10 faizdən çox olmuşdur. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur, növbəti üç ildə daha 10 milyard dollar yatırılacaqdır. Azərbaycanda yoxsulluğun azaldılması, regionların inkişafı ilə bağlı hökumət proqramları təsdiq edilmişdir və onlar uğurla həyata keçirilir. Sosial məsələlərin həllində mühüm addımlar atılır.

Mən tarixi İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin, TRASECA proqramının həyata keçirilməsinin həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacağına əminəm.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü olmasaydı, ölkəmiz və ümumən region bu müddətdə daha böyük uğurlar əldə edə bilərdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın torpaqlarının 20 faizi işğal edilmişdir, 1 milyondan artıq insan doğma yurd-yuvalarından didərgin düşmüş, qaçqın və məcburi köçkünə çevrilmişdir. Ümidvaram ki, Polşa bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq normaları əsasında həllinə bundan sonra da öz dəstəyini verəcəkdir.

Hörmətli cənab Prezident,

Fürsətdən istifadə edərək, Sizi ölkəmizə rəsmi səfərə dəvət edirəm və inanıram ki, Sizin Azərbaycana səfəriniz ölkələrimiz arasında hərtərəfli münasibətlərin daha da genişlənməsinə və dərinləşməsinə xidmət edəcək, ikitərəfli əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Bu badəni çox hörmətli Polşa Prezidenti Aleksandr Kvasnevskinin, xanım İolanta Kvasnevskanın və ölkələrimiz arasında daim inkişaf edərək möhkəmlənən dostluq və əməkdaşlıq əlaqələrinin şərəfinə qaldırmaq istəyirəm. Sağ olun.

VARŞAVA UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də, Polşa Respublikasına rəsmi səfərinin ikinci günü Varşava Universitetinə gəlmişdir.

Prezident İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı universitetin binası önündə rektor professor Pyotr Veqlenski və bu ali təhsil ocağının digər rəhbərləri böyük hörmət və ehtiramla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyevin universitetin professor-müəllim heyəti və tələbələri ilə görüşü oldu.

Dövlətimizin başçısı görüş iştirakçılarını polyak dilində salamladı.

Sonra universitetin rektoru, professor PYOTR VEQLENSKİ görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Əziz dostlar və qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Varşava Universiteti adından, bütün müəllimlər heyəti və tələbələri adından salamlayırıq. Eyni zamanda, bu görüşdə iştirak edən bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Cənab Prezident, Siz elə bir regiondan gəlmisiniz ki, o, bir tərəfdən, bizə uzaq, digər tərəfdən isə yaxındır. Ölkələrimizin yerləşdiyi regionlar bir-birilə tarixi və mədəni, ümumi Avropa telləri ilə bağlıdır. İcazənizlə, Sizə bir tarixi faktı xatırladım. Qafqaz regionu ən qədim zamanlardan tanınırdı. Şərqə doğru uzun dəniz səyahətinə çıxan məşhur yunan arqonavtları Cənubi Qafqaz regionunun sahillərinə çatmışdılar. XIX əsrdə Qafqaz regionu Polşa xalqının tarixində çox böyük rol oynamışdır. Bu yerlərdə bizim bir çox soydaşlarımız məskunlaşmışlar.

XX əsrdə Azərbaycan, onun paytaxtı Bakı həmvətənlərimiz üçün işləmək və yaşamaq üçün bir məkan olmuşdur. İcazə verin, bir məqamla bağlı şəxsi şərhimi də verim. Nənəmin uşaqları Bakıya səfər etmiş və çalışmışlar ki, orada ailə qursunlar. Əfsuslar olsun ki, onlar bu məqsədinə nail ola bilmədilər.

Cənab Prezident, gəldiyiniz universitet dünyanın ən qədim universitetlərindən biridir. Bizim təhsil müəssisəmiz elmi tədqiqat işləri də aparır və dünyanın bütün ölkələri ilə əlaqələr qura bilmişdir. Təbii ki, dünyanın hər hansı ölkəsinin mədəniyyətini və tarixini öyrənmək maraqlıdır. Lakin Cənubi Qafqaz regionu bu baxımdan xüsusi yer tutur. Varşava Universitetində Qafqaz regionunu öyrənən xüsusi bölmə vardır. Şərqi Avropa Elmi Mərkəzinin rəhbəri də burada iştirak edir. Qafqaz regionunda baş verən proseslər bu mərkəzdə diqqətlə tədqiq olunur.

Cənab Prezident, Sizin universitetimizə gəlişiniz bizim üçün və xüsusilə burada təhsil alan tələbələr üçün çox əlamətdar hadisədir. İcazənizlə, Sizi kürsüyə dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Ən əvvəl, məni böyük tarixə və zəngin ənənələrə malik olan universitetinizə dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Bu universitet ölkənizin aparıcı təhsil ocaqlarından biridir.

Mən Polşada rəsmi səfərdə olmağımdan çox məmnunam. Səfər bu gün artıq başa çatmaq üzrədir. Dünən bizim Prezidentlə, Nazirlər Şurasının sədri və Polşa parlamentinin hər iki palatasının rəhbərləri ilə çox açıq və səmimi dostluq şəraitində keçən görüşləri-

miz olubdur. Danışıqlar zamanı hər iki tərəf ümumi fikirdə olduqlarını bir daha bəyan etdilər. Polşa və Azərbaycan dost ölkələrdir. Onlar keçmişdə bir sıra ümumi tarixi anları yaşayıblar. Hər iki ölkə keçmişdə azadlıqdan məhrum olmuş, müstəqil olmadığından əziyyət çəkmişdir. Lakin ölkələrimizdəki inkişafın hazırkı mərhələsində Polşa və Azərbaycan beynəlxalq ictimaiyyətin səlahiyyətli üzvlərinə çevrilmiş, hər iki xalq öz həyat tərzini, gələcək inkişaf planlarını artıq özü müəyyən edir. Əminəm ki, ölkələrimiz bugünkü durumun bütün imkanlarından istifadə edirlər. Azərbaycanın coğrafi mövqeyi ölkəmizin üzləşdiyi çətinlikləri və malik olduğu üstünlükləri əvvəlcədən təyin edir. 1991-ci ildə Sovet İttifaqının süqutu nəticəsində dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz çox mürəkkəb vəziyyətə düşdü. Siyasi, hərbi və iqtisadi böhran baş alıb gedirdi və ölkəni məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

Ölkəmizdə çox güclü iqtisadi tənəzzül müşahidə olunurdu. Cəmiyyətdə mənfi meyillər, çətinliklər özünü büruzə verirdi və mövcud olan vəziyyəti daha da gərginləşdirirdi. Vətəndaş müharibəsi baş vermişdi, qeyri-qanuni hərbi birləşmələr bir neçə dəfə dövlət çevrilişi cəhdinə əl atmışdı. Bir sözlə, ölkənin gələcək taleyi böyük sual altında idi.

Lakin 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət dəyişməyə başladı. Azərbaycan iqtisadi çətinlikləri aradan qaldıra bildi, regional səviyyədə özünü qətiyyətlə tanıtmağa başladı, beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrildi. Ölkəmiz müxtəlif beynəlxalq qurumların, o cümlədən Avropa təşkilatlarının üzvlüyünə qəbul olundu.

Mən hesab edirəm ki, indi Azərbaycanın dünya birliyində tutduğu yeri ölkəmizin kəsb etdiyi əhəmiyyətinə uyğundur. Avratlantik inteqrasiyaya doğru strateji xəttimiz uğurla həyata keçirilir. Azərbaycan hazırda Avropa Birliyinin "Yeni qonşuluq siyasətinə" daxil edilibdir. NATO ilə əməkdaşlığımız nəticəsində biz bu təşkilatla olan münasibətlərimizin ikinci mərhələsinə qədəm qoyuruq. Bu, fərdi tərəfdaşlıq tədbirlər planıdır.

Bütün bu məsələlər dünən Varşavada müzakirə olundu. Çünki Polşa artıq, əgər belə demək olarsa, bu vəzifənin öhdəsindən gəlibdir. Sizin ölkə bu çətin yolu artıq keçibdir. Azərbaycan isə hələ ki, bu yolun başlanğıcındadır. Beləliklə, ölkənizin beynəlxalq təşkilatlar çərçivəsində bizə göstərdiyi daimi dəstək, şübhəsiz ki, bizim üçün çox vacibdir. Biz bu dəstəyi hiss edirik və mənim budəfəki səfərim ölkələrimiz arasında mövcud olan çox sıx dostluq münasibətlərinin əyani sübutudur.

İqtisadi inkişafımız da çox uğurla gedir. Son 7 və ya 8 il ərzində Azərbaycanda ümumi daxili məhsul heç vaxt 10 faizdən aşağı olmamışdır. Bu il isə iqtisadi artım təxminən 14-15 faiz səviyyəsində gözlənilir. Büdcənin gəlirləri də gündən-günə artır. Biz əhalimizin sosial vəziyyətini də yaxşılaşdırmağa çalışırıq. Bazar iqtisadiyyatına olan sıx bağlılığımız yaxşı nəticələr verir. İqtisadiyyatımız liberaldır. Azərbaycanda aparılan genişmiqyaslı özəlləşdirmə prosesi də iqtisadi göstəricilərimizi daha da artırmaq üçün yeni imkanlar yaratdı. Qarşımıza qoyduğumuz bütün bu məqsədlərə nail olmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır.

Biz bir çox iqtisadi proqramların həyata keçirilməsi sahəsində fəal işləyirik. Onların böyük bir hissəsi artıq yerinə yetirilibdir. Hazırda isə bir sıra regional inkişaf proqramları həyata keçiririk ki, ölkə iqtisadiyyatını daha da şaxələndirək. Azərbaycan neft ölkəsi kimi tanınır. Baxmayaraq ki, ölkəmizin qurudakı neft yataqlarının əksəriyyətinin əsrlər

boyu işlənilməsi nəticəsində ehtiyatlar artıq tükənibdir. Buna görə də neft strategiyamızın yeni mərhələsi dənizdəki yataqların işlənilməsi üçün dünyanın ən aparıcı neft şirkətləri ilə birgə işbirliyinin yaradılmasını nəzərdə tutur. Bu cür birgə əməkdaşlıq artıq öz bəhrəsini verir. Hazırda dünyadakı ən böyük enerji layihəsi bizim ölkəmizdə həyata keçirilir. Bu bir daha onu təsdiqləyir ki, Azərbaycan xarici sərmayələr üçün önəmli ölkədir. Yeri gəlmişkən deyim ki, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş SSRİ məkanında və bir sıra qonşu dövlətlərlə müqayisədə aparıcı ölkədir. Biz ölkədə sərmayələr üçün çox əlverişli şərait yaratmışıq və beləliklə, böyük sərmayələri ölkə iqtisadiyyatına cəlb etmişik. Bütün bu amillər ölkəmizi daha da möhkəmləndirməyə imkan yaradacaq və Azərbaycanı beynəlxalq aləmdə daha fəal iştirakçıya çevirəcəkdir.

Bizim bir çox planlarımız və layihələrimiz var. Biz Cənubi Qafqazda və onun hüdudlarından kənarda regional əməkdaşlıq prosesini sürətləndirmək istəyirik. Azərbaycanın iştirakı olmadan heç bir regional layihənin həyata keçirilməsi mümkün deyildir. Beləliklə, regional baxımdan ölkəmizin mövqeyi getdikcə güclənir. Azərbaycan bu gün bir çox beynəlxalq layihələrdə öncül ölkələrdən biridir və öz təşəbbüskarlığı ilə seçilir. Biz çox şadıq ki, regional əməkdaşlıq ölkəmizin beynəlxalq birliyə, Avratlantik strukturlarına inteqrasiyası üçün yeni imkanlar yaradır. Təbii ki, bütün bunlar Azərbaycan xalqı üçün faydalıdır. Çünki yeni imkanlar və layihələr əhalinin sosial-iqtisadi vəziyyətini daha da yaxşılaşdıracaqdır. Azərbaycan çox əhəmiyyətli nəqliyyat yollarının kəsişməsində yerləşir və nəqliyyat dəhlizi rolunu oynayır. Ölkəmizin Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində vacib mövqeyi var. Tranzit imkanlarımızdan istifadə edərək, regionda gedən bir sıra prosesləri idarə etmək iqtidarında olduq.

Bildiyiniz kimi, regionun özü də sabit deyildir. Əgər Bakıdan istənilən istiqamətə nəzər salsanız, şimal, cənub və qərb istiqamətlərinə baxsanız, münaqişələri və əzab-əziyyətləri görəcəksiniz.

Azərbaycanın özü işğal və təcavüzün qurbanı olmuşdur. Əlbəttə ki, eyni vəziyyətdə olan xalqların çəkdiyi əziyyətləri də biz çox yaxşı anlayırıq. Qafqazdakı vəziyyət, İraqdakı durum, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi təhlükənin aradan qaldırılmasına xidmət etmir, əksinə, bütün bu amillər mövcud vəziyyəti daha da gərginləşdirə bilər. Bu gün bizim ölkə təhlükəsizlik, sabitlik və normal inkişafı təcəssüm etdirən bir adaya bənzəyir. Azərbaycanın böyük dözümlülüyü ilə seçilən cəmiyyəti var. Müxtəlif millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh şəraitində yaşayırlar. Bu, tarixdən də çox yaxşı məlumdur və ölkəmizin ən böyük nailiyyətidir. Müstəqilliyimizi qazandıqdan sonra da müxtəlif xalqların və millətlərin əmin-amanlıq şəraitində bir-biri ilə yanaşı yaşamasını yüksək qiymətləndiririk.

Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü regiondakı sabit vəziyyətə ən böyük təhlükədir. Hesab edirəm ki, sizin mövcud olan münaqişə haqqında məlumatınız var. İstərdim qısaca olaraq bu münaqişə haqqında danışım. Azərbaycanın regionu olan Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənilər əvvəllər orada heç vaxt yaşamayıblar. Onlar Dağlıq Qarabağa XIX əsrin əvvəllərində İran və Türkiyədən çar Rusiyası tərəfindən köçürülmüşlər. Bu o məqsədlə edilmişdir ki, Rusiya Qafqazda özünə dayaq əldə etsin. Ermənistan indi də həmin funksiyanın yerinə yetirilməsini davam etdirir. Ermənilər hazırda müxtəlif ölkələrin bu regionda siyasətinin həyata keçirilməsində də

müəyyən rol oynayırlar. Başqa sözlə desək, Dağlıq Qarabağ heç vaxt erməni ərazisi olmayıbdır. Hətta əgər siz Qarabağ sözünün mənasına nəzər yetirsəniz, onun açmasını erməni dilində tapmayacaqsınız. Ermənidən soruşsanız, sizin dildə Qarabağ nə deməkdir, o sizə cavab verə bilməyəcəkdir. Bizim dildə isə onun mənası böyük bağdır – Qara bağ. Tarix həmçinin bu faktı açıq-aydın sübut edir ki, ermənilər bu regiona qonaq qismində gəlmişlər. Rusiya imperiyasının süqutundan və Sovet İttifaqının yaranmasından sonra sovet respublikaları arasında yeni sərhədlərin çəkilməsi ilə bağlı müxtəlif qərarlar qəbul edilmişdir. Tarixi keçmişi nəzərə alsaq, Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsi olaraq bizim inzibati sərhədlərimiz çərçivəsində qalmışdır.

Bu bölgənin etnik quruluşu belə olmuşdur: 75 faiz ermənilər, 25 faiz isə azərbaycanlılar. Sovet İttifaqının süqutu yaxınlaşdıqca, Dağlıq Qarabağda separatçı hərəkat başlandı. Ermənistan tərəfindən dəstəklənən bu hərəkat nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Azərbaycanın işğal olunmuş digər 7 rayonundan bütün azərbaycanlılar qovuldu. Bu gün ümumilikdə ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var. Bu, işğal və təcavüzün nəticəsidir. Bu işğalın nəticəsində Azərbaycan ərazisinin 20 faizi zəbt olunubdur.

Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz sırf beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanır. Yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, təcavüz qurbanı olan bütün qaçqın-köçkünlər öz yurd-yuvalarına qayıtmalıdır. Bundan sonra isə Dağlıq Qarabağa Azərbaycanın hüdudları çərçivəsində ən yüksək muxtariyyət statusu verilə bilər. Biz dünyada, o cümlədən Avropada mövcud olan ən yüksək statuslu muxtariyyət variantlarını öyrənmişik. Beləliklə, yeni bir şey icad etməyə ehtiyac yoxdur. Mümkün olan bütün imkanlar masa üstündədir. Ermənilərin mövqeyi isə fərqlidir. Onların mövqeyi özlərinin arzularına, fikirlərinə və istəklərinə əsaslanır. Bu mövqe beynəlxalq hüquq normaları ilə heç cür uzlaşmır. Onlar deyirlər ki, Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını təyin etmək hüququ vardır. Digər sözlə desək, onlar Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyirlər. Bizim hər hansı xalqın öz müqəddəratını təyin etmək hüququna qarşı heç bir iradımız yoxdur. Lakin ermənilərə gəldikdə, onlar öz müqəddəratını Ermənistan dövləti çərçivəsində artıq təyin ediblər. Gəlin təsəvvür edək ki, sabah ermənilər yaşadıqları istənilən yerdə öz müqəddəratını təyin etmək istəyinə düşsələr nələr baş verər. Gürcüstanda yaşayan ermənilərin sayı 250 mindir. Rusiyada isə milyonlarla erməni yaşayır. Ermənilər Birləşmiş Ştatlarda, Fransada və dünyanın bir çox ölkələrində yaşayırlar. Əgər onlar yaşadıqları yerlərdə öz müqəddəratını təyin etmək hüququnu tələb etməyə başlasalar, bunun sonu necə olacaq? Bu, beynəlxalq prinsiplərə ziddir. Mən hesab edirəm ki, Dağlıq Qarabağda yaşayan 70 min erməni gələcəkdə sülh şəraitində, təhlükəsizlik zəmanəti ilə yaşaya bilər. Onlara suveren Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusu verilə bilər.

Biz münaqişəni sülh yolu ilə həll etməyə çox çalışdıq, lakin artıq 10 ildən çoxdur ki, bu işğal və təcavüz davam edir.

Bu sahədə heç bir nəticə əldə edilməyibdir. Lakin beynəlxalq ictimaiyyət get-gedə bu məsələyə diqqətini artırır və bu münasibət bizi nikbin edir. Nüfuzlu beynəlxalq təşkilatlar birmənalı olaraq öz mövqeyini bildirirlər. Misal üçün, yanvar ayında Avropa Şurası qətnamə qəbul edib, orada hər şey aydın şəkildə yazılıbdır. Sənəddə bildirilir ki, bu mü-

haribə Azərbaycana qarşı aparılmış etnik təmizləmədir. Ermənistan ölkəmizə qarşı təcavüz edibdir. Ümid edirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin sülh yolu ilə həll olunmasında bizə yardım edəcəkdir.

Azərbaycan böyük potensiala malik olan ölkədir. Onun böyük humanitar potensialı var, zəngin təbii sərvətlərə malikdir, əlverişli coğrafi məkanda yerləşir. Ölkəmiz Avropa dəyərlərinə qəti surətdə sadiqdir. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvüdür. Əvvəldə dediyim kimi, ölkəmiz Avropa Birliyinin "Yeni qonşuluq siyasətinə" daxil edilibdir. Hesab edirik ki, bu siyasətin praktiki nəticələri olacaq və bizə tam inteqrasiya olunmaq imkanı yaradacaqdır. Biz gələcəyimizi Avratlantik ailəsinə inteqrasiyada görürük. Bu bizim uzunmüddətli siyasətimizdir. Bu siyasət davam edəcək, hökumətimiz tərəfindən həyata keçirilir və xalq tərəfindən dəstəklənir.

Əlbəttə, məqsədlərimizə nail olmaq üçün və regionda daha yaxşı durumun bərqərar olunması üçün bizə sülh, sabitlik və təhlükəsizlik lazımdır. Ona görə də keçmiş sovet respublikalarındakı münaqişələr həll olunmalıdır. Söhbət təkcə Dağlıq Qarabağdan getmir. Oxşar münaqişələr Gürcüstanda - Abxaziya və Cənubi Osetiyada, Moldovanın Dnestryanı regionunda mövcuddur. Nəhayət, Dağlıq Qarabağ münaqişəsi. Ümumilikdə, keçmiş sovet respublikalarında dörd oxşar münaqişə mövcuddur. Onların hamısının oxşarlıqları var. Onların səbəbləri təcavüzkar separatçılıq, etnik təmizləmə və xarici yardım əsasında suveren dövlətlərin ərazisinin işğalıdır. Beləliklə, bütün dörd münaqişənin həllinə eyni üsulla yanaşmaq lazımdır. Ümid edirəm ki, beynəlxalq ictimaiyyət, nəhayət ki, bu vəziyyətə öz diqqətini artıracaq və Avropada "qara ləkələrin" və ya nəzarətsiz zonaların olmasına son qoyacaqdır. Bu nəzarətsiz zonalar Dağlıq Qarabağ, Abxaziya, Dnestryanı region və Cənubi Osetiyadır. Bu yerlərdə bir sıra qeyri-qanuni əməliyyatlar aparılır, narkotik vasitələrin hazırlanması və dövriyyəsi müşahidə olunur, beynəlxalq terrorçular burada özlərinə məskən salırlar.

Burada heç bir beynəlxalq nəzarət yoxdur. Bu gün dünyada elə bir ölkə yoxdur ki, orada beynəlxalq monitorinq olmasın. Qloballaşan cəmiyyətləri olan ölkələrdəki vəziyyət çox şəffafdır. Beynəlxalq ictimaiyyət bu sahədə çox fəal işləyir. Lakin bizdə isə belə nəzarətsiz zonalar var. Orada heç bir nəzarət aparılmır. Bu zonalardan sülhə və təhlükəsizliyə qarşı istifadə edilməsi mümkündür. Buna baxmayaraq, mən yenə də deyə biləram ki, biz beynəlxalq ictimaiyyətlə birgə çalışaraq, bu münaqişənin ədalətli və düzgün yolla həllinə nail olacağıq.

Azərbaycan öz qonşuları ilə sülh şəraitində yaşamaq istəyir, beynəlxalq aləmdə daha fəal olmaq əzmindədir. Bizim ölkə beynəlxalq ictimaiyyətin fəaliyyətinə böyük töhfə verə və bir çox şeyləri digər ölkələrin təcrübəsindən öyrənə bilər. Azərbaycanın uzun əsrlik tarixi, mədəniyyəti və adət-ənənələri var. Lakin müstəqil ölkə kimi, biz gənc ölkəyik. Buna görə də, bir quruluşdan digər quruluşa keçən ölkəmizin öz standartlarını beynəlxalq standartlara uyğunlaşdırması üçün dünya ictimaiyyətinin dəstəyinə böyük ehtiyacı var.

Vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə çox minnətdaram. Bir daha demək istəyirəm ki, Polşada olmağımdan çox şadam. Əfsuslar ki, səfərim artıq başa çatır. Lakin əminəm ki, gözəl ölkənizə bir daha səfər edəcəyəm.

Çox sağ olun.

Dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən universitetin rektoru PYOTR VEQLİNSKİ dedi:

- Cənab Prezident, söylədiyiniz nitqə görə minnətdaram. Siz Azərbaycanın indiki və gələcək perspektivlərini təqdim etdiniz. Siz qonşularımızla, xüsusən də Ermənistanla olan münasibətlərinizi lazımi qaydada təsvir etdiniz.

Xanımlar və cənablar! İndi isə sual-cavaba keçək. Buyurun, suallarınızı cənab Prezidentə ünvanlaya bilərsiniz. Onu da deyim ki, yalnız iki sualınıza vaxtımız var.

SUAL: Hörmətli cənab Prezident, Polşada təhsil alan azərbaycanlılar və burada daimi yaşayan azərbaycanlı tələbələr adından Sizi ürəkdən salamlamaq istəyirik. Biz Sizin buraya gəlməyinizə çox şadıq. Sualım isə belədir. Varşava Universitetində xüsusi proqram çərçivəsində Azərbaycan tələbələrinin Avropa standartlarına uyğun yaxşı təhsil almaq imkanı var. Sizin fikrinizcə, iki ölkə arasındakı əlaqələrdə Azərbaycan tələbələrinin rolu nədən ibarət ola bilər?

CAVAB: Əvvəlcə onu demək istəyirəm ki, Azərbaycan tələbələrinin Polşada olmasından və Varşava Universitetində təhsil almasından çox məmnunam. Bu, yaşadığımız həyatın yeni bir elementidir. Bizim gənclərimiz dünyanın istənilən yerlərində təhsil almaq imkanlarına malikdirlər. Əfsuslar olsun ki, mənim həmyaşıdlarım bu cür imkanlardan məhrum idilər. Sovet İttifaqı gəncləri üçün ölkə hüdudlarından kənara çıxmaq və xaricdə oxumaq mümkün deyildi. Bəlkə bu, müəyyən insanlar üçün mümkün idi. Lakin onlar da illərlə icazə və müxtəlif göstərişlər gözləyirdilər. Bugünkü vəziyyət tamamilə fərqlidir. Tələbələrimiz bir çox ölkələrdə oxuyurlar. Əlbəttə, onların Polşada təhsil alması faktı, buradakı fəaliyyəti bizim ikitərəfli münasibətlərimizin vacib elementidir. Nitqim zamanı, mən bildirdim ki, bizim nəinki yaxşı siyasi və iqtisadi əlaqələrimiz var, həmçinin humanitar sahədə də yaxşı münasibətlərimiz mövcuddur. Dünən Polşa parlamentinin binasında təşkil olunmuş sərgidə Bakıda polyak memarları tərəfindən inşa edilmiş gözəl binaların fotoşəkillərini seyr etmək imkanını əldə etdim. Mən onu deyə bilərəm ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda tikilən yaraşıqlı binaların əksəriyyəti polyak memarları tərəfindən layihələşdirilmişdir. İndi münasibətlərimizin daha da inkişafı üçün yaxşı əsas var. Şübhəsiz ki, iki ölkə arasındakı əlaqələr siyasi məsələlərlə və bir çox digər məsələlərlə şərtlənir. Lakin humanitar münasibətlər, insanlar arasındakı əlaqələr də vacib rol oynayır. Ona görə də azərbaycanlı tələbələrin burada yaşamasını və oxumasını mən yüksək dəyərləndirirəm. Mən istərdim ki, onlar çox fəal olsunlar, polyak dilini yaxşı öyrənsinlər və öz təhsilini başa çatdırdıqdan sonra Azərbaycanın Polşadakı səfiri və Polşanın ölkəmizdəki səfiri kimi işləyə bilərlər. Sağ olun.

SUAL: Cənab Prezident, Siz regiondakı müxtəlif münaqişələr haqqında danışdınız, mövcud vəziyyətə diqqətin artırılmasının vacibliyini qeyd etdiniz. Mən Kosovodakı Polşa-Ukrayna batalyonu haqqında sənədli film çəkmişəm. Onu da bilirəm ki, Polşa-Azərbaycan batalyonunun da yaradılması təşəbbüsü var. Belə bir batalyonun yaradılması məsələsini danışıqlarınız zamanı müzakirə etmisinizmi? Bu baş tutsa, əsgərlərimiz sülhyaratma əməliyyatları çərçivəsində birgə əməkdaşlıq edə bilər.

CAVAB: Bu xüsusi məsələ mənim Prezidentlə apardığım danışıqlar zamanı müzakirə

olunmamışdır. Lakin əlbəttə ki, bizim Əfqanıstanda, Kosovoda və İraqdakı birgə işimiz haqqında söhbət apardıq. Çətinlikdə olan regionlarda sülhün və sabitliyin bərqərar olunması məqsədi ilə bizim əsgər və hərbçilərimiz çiyin-çiyinə xidmət edirlər. Mən eyni zamanda, nəzərinizə çatdırıram ki, biz dünən apardığımız danışıqlar nəticəsində bir sıra ikitərəfli sənədlər də imzaladıq. İki ölkənin müdafiə nazirləri də saziş imzaladılar. Biz bunu yüksək qiymətləndiririk, çünki biz müdafiə sahəsində əməkdaşlığı daha da genişləndirmək istəyirik. Eyni zamanda bilirəm ki, burada əyləşən müdafiə nazirinin dünən öz polyak həmkarı ilə çox faydalı söhbəti olubdur. Bu məsələ onların görüşü zamanı müzakirə olundu. Bir sözlə, lazım gələrsə, biz bu sahədə birgə işləməyə hazırıq, çünki bizim artıq yaxşı təcrübəmiz var. Biz dünyanın müxtəlif yerlərində əməkdaşlıq etməyə başlamışıq. Polşa ilə olan dostluq münasibətlərini nəzərə alsaq, belə bir birgə qurumun yaradılmasını mümkün hesab edirik.

Görüşün sonunda Varşava Universitetinin rektoru Prezident İlham Əliyevə maraqlı söhbət üçün təşəkkürünü bildirdi. O, görüşdə iştirak etdiklərinə görə Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevaya, hər iki ölkənin səfirlərinə də minnətdarlığını ifadə etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Varşavada rəsmi görüşlərini başa çatdırdıqdan sonra Krakov şəhərinə yola düşmüşdür.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşanın qədim Krakov şəhərinə gəldi.

YAGELLO UNİVERSİTETİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından Polşanın ən qədim, 1364-cü ildə yaradılmış ali təhsil ocağı olan məşhur Yagello Universiteti Rəyasət heyətinin binasına gəlmişdir.

Universitetlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, vaxtilə bu binada Polşa kralının iştirakı ilə ən yüksək vəzifəli şəxslərin yığıncaqları keçirilmişdir. Universitetin yaradılmasından sonra ən tanınmış alimlər cəlb edilərək elmi tədqiqat işləri aparılmışdır. Hazırda bu ali təhsil ocağının 13 fakültəsində (o cümlədən 3 tibb fakültəsində) 35 mindən artıq tələbə təhsil alır. Professor-müəllim heyətinin sayı isə 6 mindən çoxdur.

Azərbaycan Prezidenti müxtəlif rəsm əsərləri, astronomik cihazlar, qədim ikonalar və digər əşyalarla tanış oldu.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sonra şəhəri gəzintiyə çıxdılar. İlk tanışlıq Krakovun bazar meydanından başladı. Burada milli geyimli qızlar Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim etdilər.

Prezident orta əsrlərə aid mahudçular sexinin ticarət sıralarına ("Sukennitse"), müxtəlif memarlıq abidələrinə tamaşa etdi. Dövlətimizin başçısına Polşanın ən qədim, Avropa-

nın ən gözəl şəhərlərindən biri, XI-XVI əsrlərdə ölkənin paytaxtı kimi şöhrət qazanmış Krakovun tarixi-memarlıq abidələri barədə geniş məlumat verildi.

Prezident İlham Əliyev daha sonra Krakovun qədim məhəlləsini gəzdi. Abidələrlə zəngin olan bu məhəllədə Polşa kralları dövründə inşa olunmuş kilsələr də vardır.

Martın 31-də, şəhərlə tanışlıqdan sonra Malopolska voyevodalığının başçısı cənab Yeji Adamikin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.

SƏFƏR BAŞA ÇATDI

Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri başa çatmışdır.

Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Krakov şəhərinin "Balis" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Polşa Respublikası Prezidentinin xarici məsələlər üzrə müşaviri Ancey Maykovski, Malopolska voyevodalığının başçısı Yeji Adamik, Azərbaycanın Varşavadakı səfiri Vilayət Qulivev, Polşanın Bakıdakı səfiri Martsin Navrot və digər rəsmi şəxslər səmimiyyətlə yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİ AVROPA KOMANDANLIĞI RƏİSİNİN MÜAVİNİ ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Prezident sarayında ABŞ Silahlı Qüvvələri Avropa Komandanlığı rəisinin müavini Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanla ABŞ arasında müxtəlif sahələrdə əlaqələrin genişlənməsindən məmnunluğunu bildirdi, o cümlədən ölkələrimizin hərbi sahədə əməkdaşlığının uğurla inkişaf etdiyini qeyd etdi.

Prezident İlham Əliyev Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin, həmçinin hərbi əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Çarlz Uold ABŞ-ın Azərbaycan ilə hərbi əməkdaşlıq, beynəlxalq terrorizmə qarşı mübarizə və digər sahələrdə işbirliyinə böyük əhəmiyyət verdiyini vurğuladı.

Görüş zamanı ikitərəfli əməkdaşlığı əhatə edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ, SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 2-də Prezident sarayında ATƏT-in hazırkı sədri, Sloveniya Respublikasının xarici işlər naziri Dimitri Rupel ilə təkbətək görüşü olmuşdur.

Sonra Prezident İlham Əliyev ATƏT-in hazırkı sədri Dimitri Rupelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanda gedən proseslər haqqında onların daha ətraflı məlumatlar alması üçün yaxşı imkan yaratdığını bildirdi.

Ölkəmizin ATƏT-lə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə uğurlu islahatlar həyata keçirildiyini, ölkəmizin qlobal regional layihələrin həyata keçirilməsində fəal iştirak etdiyini nəzərə çarpdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemindən bəhs edən Prezident İlham Əliyev bu münaqişənin regional inkişafa, sabitliyə, təhlükəsizliyə ən böyük maneə olduğunu vurğuladı. Dövlətimizin başçısı bir daha dedi ki, Azərbaycanın bu münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə - ölkələrin ərazi bütövlüyünün təmin olunması, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır.

ATƏT-in Minsk qrupunun münaqişə ilə bağlı gördüyü işlərə toxunan Prezident İlham Əliyev, bu qrupun fəaliyyətinin nəzərəçarpacaq dərəcədə artdığını vurğuladı. Dövlətimizin başçısı nümayəndə heyətinin regiona bu səfərinin bölgədəki vəziyyət haqqında onlarda daha ətraflı təəssürat yaradacağına ümidvar olduğunu bildirdi.

Dimitri Rupel regiondakı ən mühüm məsələlər barədə Prezident İlham Əliyev ilə apardığı fikir mübadiləsindən çox məmnun qaldığını söylədi. O, Azərbaycanda müzakirələr aparılması üçün yaradılan gözəl şəraitə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Dimitri Rupel ATƏT-in dəstəyi ilə Azərbaycanda həyata keçirilən işlərin perspektivləri barədə kifayət qədər müsbət fikirdə olduğunu söylədi, Prezident İlham Əliyevin 114 nəfər məhbusun azadlığa buraxılması barədə imzaladığı son əfv Fərmanını çox yüksək dəyərləndirdi.

Qonaq dövlətimizin başçısı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkədə gedən demokratikləşmə prosesləri, o cümlədən seçkilər, regionda siyasi inkişaf və digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi apardığını vurğuladı. O, Prezident İlham Əliyevin müzakirələr zamanı ifadə etdiyi fikirlərdən çox böyük məmnunluq duyduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Prezident sarayında Müstəqil Dövlətlər Birliyi Təşkilatının icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Görüş zamanı MDB-nin avqust ayında keçiriləcək zirvə toplantısına hazırlıq işləri, MDB məkanında gedən proseslər və təşkilat çərçivəsində əməkdaşlığın müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə edilmişdir.

DÖVLƏT SƏRHƏD KOMİSSİYALARININ NÖVBƏTİ BİRGƏ İCLASI AZƏRBAYCANDA KEÇİRİLƏCƏKDİR

Aprelin 5-6-da Dərbənd şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə ölkələrimizin dövlət komissiyalarının 9-cu birgə iclası keçirilmişdir.

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri A.Yakovenkonun rəhbərlik etdikləri dövlət komissiyalarının birgə iclasının işində bu qurumların üzvləri, əlaqədar dövlət orqanlarının nümayəndələri və ekspertləri, həmçinin sərhəd rayonlarının rəhbərləri iştirak etmişlər.

İclasda dövlət sərhəd xəttinin müvafiq sahələrdən keçməsi məsələlərinə baxılmış, habelə dövlət sərhədinin delimitasiyası üzrə mövcud normativ sənədlər, torpaq quruluşuna və istifadəsinə aid kartoqrafik materiallar araşdırılmış və geniş müzakirə edilmişdir. Tərəflər komissiyalar çərçivəsində sonradan baxılmaq üçün müəyyən sənədləri mübadilə etmişlər.

Aparılmış danışıqlar nəticəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin razılaşdırılmamış sahələrinin delimitasiyası çərçivəsində bir sıra irəliləyiş əldə edilmiş və müvafiq Protokol imzalanmışdır.

Dövlət komissiyalarının növbəti birgə iclasının Azərbaycanda keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Belçika Krallığı parlamenti nümayəndələr palatasının sədri Herman de Kroonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Belçikaya səfərini məmnunluqla xatırlatdı, həmin səfər zamanı Baş nazir cənab Gi Verhofstadtla və ölkənin digər yüksək vəzifəli şəxsləri ilə keçirdiyi görüşlərin, apardığı danışıqların və imzalanmış sənədlərin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verdiyini vurğuladı.

Prezident İlham Əliyev Belçikaya səfəri zamanı Azərbaycan nümayəndə heyətinin NATO-nun və Avropa Birliyinin tədbirlərində iştirak etdiyini xatırladaraq, ölkəmizin bu qurumlarla əlaqələrinin sürətlə inkişaf etdiyini bildirdi.

"Sülh naminə tərəfdaşlıq" proqramında Azərbaycanın fəal iştirak etdiyini nəzərə çarpdıran dövlətimizin başçısı hazırda Fərdi tərəfdaşlığın fəaliyyət planı ilə əlaqədar ölkəmizin NATO ilə uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Avropa Birliyinin "Yeni qonşuluq siyasəti"ndə Azərbaycanın fəal iştirak etdiyini bildirən Prezident İlham Əliyev bu siyasət çərçivəsində ölkəmizin Avropa Birliyi ilə müxtəlif sahələrdə əlaqələrinin daim inkişaf etdiyini nəzərə çarpdırdı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Belçika parlamenti nümayəndələr palatasının nümayəndə heyətinin Azərbaycana səfəri onların ölkəmiz haqqında ətraflı məlumatlar əldə etməsi, əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət göstərəcəkdir.

Cənab Herman de Kroo Belçikanın Cənubi Qafqaz ölkələri ilə, o cümlədən Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı. Qonaq Avropa Birliyinə inteqrasiya prosesində Belçikanın Azərbaycanı daim dəstəklədiyini bildirdi. O dedi ki, Azərbaycanın Avropa Birliyi ilə əlaqələri uğurla inkişaf edir, o cümlədən energetika və digər sahələrdə əməkdaşlıq daim genişlənir. Cənab Herman de Kroo bütün bu proseslərin Azərbaycana sərmayə axınının daha da artmasına xidmət edəcəyinə əminliyini vurğuladı.

Daha sonra görüşdə hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Yunanıstan Respublikasının turizm naziri Dimitris Avramopulosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Afina Olimpiya Oyunları keçirilərkən bu ölkəyə etdiyi səfəri və bu səfər zamanı Baş nazir Konstantinos Karamanlislə və cənab Dimitris Avramopulos ilə görüşlərini məmnunluqla xatırladı, Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı.

Prezident İlham Əliyev Yunanıstan Prezidentinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində yeni bir mərhələ açdığını, həmin səfər zamanı keçirilən görüşlərin, aparılan danışıqların, imzalanmış sənədlərin əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.

Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya edildiyini vurğulayan Prezident İlham Əliyev Yunanıstan hökumətinin ölkəmizin bu səylərini dəstəkləməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli, həm də Avropa Birliyi çər-

çivəsində əlaqələrin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini vurğuladı və ümidvar olduğunu bildirdi ki, cənab Dimitris Avramopulosun bu səfəri həm əlaqədar nazirliklər, həm də ölkələrimiz arasında turizm sahəsində, habelə digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.

Dimitris Avramopulos Yunanıstanın Baş naziri Konstantinos Karamanlisin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı, Azərbaycan Prezidentinin Yunanıstana rəsmi səfərini gözlədiklərini bildirdi.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial olduğunu vurğuladı. Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə böyük inkişafa nail olduğunu nəzərə çarpdıran Dimitris Avramopulos bütün bu proseslərin yaxın zamanlarda Azərbaycanın regionda sülhün və sabitliyin təminatçısı olması işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev Yunanıstan Baş nazirinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını cənab Konstantinos Karamanlisə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN KEÇMİŞ PREZİDENTİ BORİS YELTSİNLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Rusiya Federasiyasının keçmiş Prezidenti Boris Yeltsinlə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə müvəffəqiyyətlə inkişafından söhbət açılmış, Prezident İlham Əliyevin Rusiya Federasiyasına son səfərinin uğurla keçdiyi və bu səfərin qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyi vurğulanmışdır. Rusiyada Azərbaycan ilinin başlanması, gələn il isə Azərbaycanda Rusiya ilinin keçiriləcəyi ölkələrimizin uğurlu əməkdaşlığının təzahürü kimi qiymətləndirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SƏRHƏDSİZ REPORTYORLAR" BEYNƏLXALQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Heydər Əliyev adına beynəlxalq hava limanında "Sərhədsiz reportyorlar" Beynəlxalq təşkilatının baş katibi Robert Menardı qəbul etmişdir.

Dövlətimizin başçısı bu təşkilatla əməkdaşlığı yüksək qiymətləndirdi.

Qəbul üçün təşəkkür edən Robert Menard Azərbaycanda söz, mətbuat azadlığı sahəsindəki vəziyyətlə maraqlandı.

Prezident İlham Əliyev ölkəmizdə mətbuatın vəziyyəti, söz azadlığının təmin olunması, senzuranın ləğvi, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün yaradılan şərait, o cümlədən onların maddi-texniki bazasının yaxşılaşdırılması, vergidən azad edilməsi ilə

əlaqədar son illərdə dövlət tərəfindən görülmüş tədbirlərdən danışdı.

Sonra "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlinin açılması məsələsinə toxunuldu. Dövlətimizin başçısı bununla bağlı görülən tədbirlərdən söhbət açdı, hadisədən dərhal sonra Təhlükəsizlik Şurasının iclasını keçirdiyini, bəyanat verdiyini diqqətə çatdırdı və dedi ki, bu cinayətin üstünün açılması ilə əlaqədar hüquq mühafizə orqanlarına ciddi tapşırıqlar verilmişdir. İstintaqın gedişi nəzarətdədir, bu qətl hadisəsinin üstü açılmalıdır. Çünki bu, Azərbaycanın demokratik inkişafı üçün bir zərbədir, ləkədir.

Robert Menard Bakıya səfəri zamanı keçirdiyi görüşlərdən razılığını bildirdi, bu məsələ ilə bağlı Prezident Administrasiyası, digər dövlət qurumları və ictimai təşkilatlarla əlaqə saxlanılacağını söylədi. O, Azərbaycanda söz azadlığı sahəsindəki mövcud vəziyyəti prinsipcə demokratik dövlətlərdə olduğu kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAPA II İOHANN PAVELİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Romada Vatikan Dövlətinin başçısı, Zati-müqəddəsləri Papa II İohann Pavelin dəfn mərasimində iştirak etmişdir.

Papa ilə vidalaşmaq üçün Romaya 200-dən çox nümayəndə heyəti gəlmişdir. Mərasimdə müxtəlif ölkələrdən 70-dən çox dövlət və hökumət başçışı, dörd kral və beş kraliça iştirak etmişdir.

Matəm ibadəti başa çatdıqdan sonra Papa II İohann Pavelin cənazəsi olan tabut çiyinlərdə Müqəddəs Pyotr məbədinə gətirilmişdir. Cənazə palıddan, sinkdən və sərv ağacından hazırlanmış iç-içə üç tabuta qoyulmuşdur.

Məbədin qarşısındakı üçsaatlıq matəm liturgiyası başa çatdıqdan sonra kardinallar kollegiyasının dekanı Yozef Ratzinger vida sözü söyləyərək, başçısını itirmiş kilsəyə Tanrıdan ümid və inam təsəllisi diləmişdir. Papa II İohann Pavelin cənazəsi torpağa tapşırılmışdır.

Dünyanın müasir tarixində misli görünməmiş, milyonlarla insanın iştirak etdiyi matəm mərasimi 150 ölkənin televiziya kanalları ilə birbaşa yayımlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev mərasim zamanı Almaniyanın kansleri Gerhard Şröder, Fransanın Prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Ukraynanın Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 8-də gecə Bakıya qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ FRANSA-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ AMBRUAZ DÜPONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Fransa Senatının Fransa-Azərbaycan dostluq qrupunun sədri, senator Ambruaz Düponun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu nümayəndə heyətinin Bakıda Fransa Mədəniyyəti Mərkəzinin açılışında iştirakından məmnun olduğunu bildirdi və bu hadisənin cəmiyyətimizdə böyük maraqla izlənildiyini vurğuladı.

Aprelin 8-də Romada Papa II İohann Pavelin dəfn mərasimində Fransa Prezidenti Jak Şirakla görüşünü məmnunluqla xatırladan Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin daim uğurla inkişaf etdiyini nəzərə çarpdırdı. Azərbaycan-Fransa parlamentlərarası əlaqələrin möhkəmləndiyini vurğulayan dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimizin uğurla əməkdaşlıq etdiyini bildirdi.

Azərbaycan ilə Fransa arasında Avropa Birliyi çərçivəsində əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev ölkəmizin Avropaya inteqrasiyasına və Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirakına Fransa hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Azərbaycanda Fransa Mədəniyyəti Mərkəzinin açılmasının ölkələrimiz arasında həm humanitar əlaqələrin, həm də ikitərəfli münasibətlərin genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycanda Fransa Mədəniyyəti Mərkəzinin açılmasını yüksək dəyərləndirən cənab Ambruaz Düpon Fransa Senatının sədri cənab Kristian Ponsölenin bu mərkəzin açılmasına böyük əhəmiyyət verdiyini vurğuladı. Cənab Kristian Ponsölenin gərgin iş cədvəlinə görə Bakıya gələ bilmədiyini söyləyən qonaq onun səmimi salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırdı.

Qonaq dövlətimizin başçısının Fransaya səfərləri, özünün isə Bakıya səfərləri zamanı Prezident İlham Əliyevlə görüşlərini həmişə məmnunluqla xatırladığını vurğuladı.

Azərbaycan-Fransa əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən cənab Ambruaz Düpon bu mərkəzin açılmasının ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyinə əmin olduğunu söylədi.

Fransa Senatı sədrinin səmimi salamlarına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da səmimi salamlarını və ehtiramını cənab Kristian Ponsöleyə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə nümayəndəsi Miklos Haraştinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev son on ildə Azərbaycanda mətbuatın vəziyyəti və onun inkişafı sahəsində dövlətin gördüyü işlər, o cümlədən 1992-ci ildən tətbiq edilmiş senzuranın ləğvi, mətbuata dövlət qayğısının artırılması, onun maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə başçısının 2001-2002-ci illərdə imzaladığı sərəncamlar, kütləvi informasiya vasitələri haqqında qanuna Avropa Şurası ilə əməkdaşlıq şəraitində edilmiş dəyişikliklər və bu qanunun Avropa standartları səviyyəsinə çatdırılması, teleradio haqqında yeni qanunun qəbul olunması, ictimai televiziyanın yaradılması barədə ətraflı söhbət açdı.

Geniş məlumat üçün təşəkkür edən cənab Miklos Haraşti Azərbaycanda mətbuat sahəsindəki mövcud vəziyyətin istər dünyada, istərsə də Avropada ölkənin imicinə müsbət təsir göstərdiyini söylədi. Qonaq Azərbaycan Prezidentinin son əfv fərmanının, habelə ictimai televiziyanın yaradılması ilə bağlı görülən tədbirlərin ATƏT-də, Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda müsbət qarşılandığını vurğuladı, Azərbaycanda demokratik cəmiyyət quruculuğuna uyğun olaraq bundan sonra da söz, mətbuat azadlığı, siyasi plüralizm sahəsində addımlar atılacağına ümidvar olduğunu bildirdi.

Miklos Haraşti jurnalist Elmar Hüseynovun qətlə yetirilməsi hadisəsi ilə də maraqlandı, eyni zamanda bu hadisəyə ölkə Prezidentinin münasibətini təqdir etdiyini söylədi.

Dövlətimizin başçısı həmin hadisə ilə əlaqədar hüquq mühafizə orqanlarının istintaq apardığını, son vaxtlar isə ona Milli Təhlükəsizlik Nazirliyinin də qoşulduğunu, bu məsələnin ciddi nəzarətdə olduğunu vurğuladı.

Görüşdə söz, mətbuat azadlığı sahəsində Azərbaycanın gələcəkdə də Avropa Şurası ilə, ATƏT-lə əlaqəli işləyəcəyi, birgə seminarların, monitorinqlərin keçiriləcəyi bildirildi.

ATƏT-in Bakı ofisinin rəhbəri Mauritsio Pavezi görüşdə iştirak edirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin dəvəti ilə aprelin 12-də bu ölkəyə rəsmi səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev adına beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

"ÇAKLALA" HƏRBİ HAVA BAZASINDA QARŞILANMA

Aprelin 12-də Azərbaycan Prezidenti İlham Əliyev İslamabad şəhərinə gəlmişdir.

Azərbaycanın və Pakistanın dövlət bayraqları və dövlətimizin başçısını salamlayan transparantlarla bəzədilmiş "Çaklala" hərbi hava bazasında Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında Pakistanın müdafiə sənayesi naziri Həbibulla Xan Varraix, ölkənin digər yüksək vəzifəli şəxsləri, Azərbaycanın İslamabaddakı səfiri Eynulla Mədətli, Pakistanın Bakıdakı səfiri Məhəmməd Hafiz böyük hörmət və ehtiramla qarşıladılar.

Milli geyimli oğlan və qız Prezident İlham Əliyevə gül dəstəsi təqdim etdilər. Dövlətimizin başçısının gəlişi şərəfinə toplardan yaylım atəşi açıldı.

Azərbaycan Prezidenti İlham Əliyev fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha - "Marriott" mehmanxanasına gəldi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN XARİCİ İŞLƏR NAZİRİ XURŞİD MAHMUD KASURİNİ QƏBUL ETMİŞDİR

Aprelin 12-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Marriott" mehmanxanasında Pakistanın xarici işlər naziri Xurşid Mahmud Kasurini qəbul etmişdir.

Dövlətimizin başçısı Bakıda Prezident Pərviz Müşərrəf ilə keçirdiyi görüşü xatırlatdı və onunla bir çox məsələləri müzakirə etdiyini bildirərək dedi ki, ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu bir daha təsdiqlənmişdir, bir-birimizi beynəlxalq məsələlərdə dəstəkləməkdə davam edirik. Prezident Pərviz Müşərrəfin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində böyük rolu olmuşdur. Pakistanla Azərbaycan arasında əməkdaşlığın daha da genişlənməsi üçün böyük potensial vardır.

Görüşdə vurğulandı ki, Kəşmir və Dağlıq Qarabağ məsələsində ölkələrimiz bir-birini dəstəkləyir. Ümumiyyətlə, qloballaşma dövründə münaqişələrin həlli məsələsində beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT-də xüsusi bir mexanizmin işlənib hazırlanması vacibdir.

Prezident İlham Əliyev Azərbaycanın işğal edilmiş ərazilərində erməni əhalisinin qeyri-leqal məskunlaşdırılması məsələsinin müzakirəsi zamanı BMT-də qəbul olunmuş qətnamənin Pakistan tərəfindən möhkəm dəstəklənməsinə görə təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin siyasi əlaqələr səviyyəsində olmadığı vurğulandı. Bildirildi ki, iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin həcminin artırılması baxımından iş adamlarının qarşılıqlı səfərləri, biznes forumların keçirilməsi zəruridir.

Sonra regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN MİLLİ ASSAMBLEYASININ SPİKERİ ÇOUDRİ ƏMİR HÜSEYN İLƏ GÖRÜŞÜ

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Pakistan İslam Respublikası parlamentinin Milli Assambleya palatasının spikeri Çoudri Əmir Hüseyn ilə görüşmüşdür.

Prezident İlham Əliyevi öz ölkəsində görməkdən böyük şərəf duyduğunu xüsusi vurğulayan Çoudri Əmir Hüseyn dedi ki, Azərbaycanla Pakistan, xalqlarımız arasında oxşarlıq vardır, eyni dinə mənsubuq, münasibətlərimiz getdikcə genişlənir və bu baxımdan Azərbaycan və Pakistan prezidentlərinin qarşılıqlı səfərləri böyük əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev Azərbaycanla Pakistanın bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini xüsusi vurğulayaraq dedi ki, biz Kəşmir məsələsində Pakistanı, Dağlıq Qarabağ məsələsində isə Pakistan Azərbaycanı ədalətli mövqedə daim müdafiə etmişdir. Biz bunu yüksək qiymətləndiririk. Mən çox şadam ki, Pakistan Prezidentinin Azərbaycana səfərindən sonra əlaqələr və əməkdaşlıq davam etdirilir, dialoq aparılır və bu, çox intensivdir. Bu dialoq ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. Bütün bunlar bizi daha da yaxın edəcəkdir.

Görüşdə parlamentlərarası əlaqələrin vacibliyi vurğulandı və bildirildi ki, bu baxımdan deputatların qarşılıqlı səfərləri faydalı və əhəmiyyətli olar. Parlament üzvlərinin bir çox beynəlxalq məsələlərdə eyni mövqedən çıxış etməsi də yaxşı hal kimi qiymətləndirildi. Cənab Çoudri Əmir Hüseyn dedi ki, Pakistandakı qaydaya görə parlamentlərarası dostluq qrupuna spiker özü rəhbərlik edir. Ona görə də Azərbaycanla dostluq qrupunun rəhbəri kimi mən bu istiqamətdə fəaliyyətin genişlənməsinə çalışacağam.

Söhbət zamanı ticarət məsələlərinə də toxunuldu və bildirildi ki, qarşılıqlı mal dövriyyəsini artırmaq üçün yaxşı imkanlar mövcuddur. Bunun üçün hökumətlərarası komissiyanın işindən də səmərəli istifadə etmək zəruridir. Spiker dedi ki, Pakistan bir çox sahələrdə dünya standartlarına uyğun mallar ixrac edir. Kənd təsərrüfatı, əczaçılıq və digər sahələrdə böyük təcrübə toplanmışdır. Turizm sektorunda da əməkdaşlıq etmək üçün imkanlar çoxdur.

Prezident İlham Əliyev Pakistan Milli Assambleyasının spikerini Azərbaycana səfərə dəvət etdi və dəvət məmnunluqla qəbul olundu.

PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 12-də Pakistan İslam Respublikası Prezidentinin sarayında - "Ayvan-e-sədr"də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistan Prezidenti Pərviz Müşərrəf Azərbaycan Prezidenti İlham Əliyevi böyük səmimiyyətlə və mehribanlıqla qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycanın və Pakistanın dövlət himnləri səsləndi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Pakistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Pərviz Müşərrəfə təqdim olundu.

Rəsmi qarşılanma mərasimində Pakistanın Baş naziri Şövkət Əziz iştirak edirdi.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT PƏRVİZ MÜŞƏRRƏFİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf arasında təkbətək görüş olmuşdur.

Azərbaycana rəsmi səfərini və ölkəmizdə keçirdiyi görüşləri yaxşı xatırladığını bildirən Prezident Pərviz Müşərrəf Bakıda ona göstərilmiş qonaqpərvərliyə və diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanda son illərdəki sürətli inkişafın Pakistanda yüksək qiymətləndirildiyini vurğuladı, eyni zamanda, 2001-ci ildən bəri Pakistanda gedən davamlı iqtisadi inkişaf prosesləri barədə məlumat verdi.

Onun dəvətini qəbul edib rəsmi səfərə gəldiyinə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edən Pakistan rəhbəri dedi ki, biz bu səfərinizi çox səbirsizliklə gözləyirdik. Ölkəmizə gəlməyinizdən çox şadıq və əminik ki, burada keçirəcəyiniz görüşlər iki qardaş ölkə arasındakı əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.

Dövlətimizin başçısı İlham Əliyev səmimi sözlərə və səfərə dəvətə görə Prezident Pərviz Müşərrəfə minnətdarlığını bildirdi və əminliklə vurğuladı ki, bu səfər dost ölkələrimizin əlaqələrinin daha da inkişaf etməsində mühüm rol oynayacaq və əməkdaşlığımızda yeni mərhələ açacaqdır.

Görüşdə rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verildiyi, Pakistanda bu sahənin sürətlə inkişaf etdiyi vurğulandı. Prezident Pərviz Müşərrəf ölkələrimizin müxtəlif regional və beynəlxalq qurumlarda əməkdaşlığının, ticarət dövriyyəsinin artırılmasının, birbaşa uçuşların təşkil olunmasının əhəmiyyətindən danışdı. O, TRASECA layihəsində müşahidəçi kimi iştirak edən Pakistanın gələcəkdə ona tam qoşulmasına verdiyi dəstəyə görə Azərbaycana və Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasındakı münasibətlərin günbəgün inkişaf etdiyini xatırlatdı və xüsusi vurğuladı ki, rabitə və informasiya texnologiyaları, mədəniyyət, maliyyə sektoru, təhsil, nəqliyyat, aviasiya sahələrində əməkdaşlıq zəruridir. Bütün bunlar əlaqələrin genişlənməsinə mühüm təkan verəcəkdir.

Prezidentlər Kəşmir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələləri ətrafında geniş fikir mübadiləsi apardılar. Tərəflər problemlərin ədalətli, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını, bu sahədə ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədiyini və gələcəkdə də dəstəkləyəcəyini vurğuladılar.

AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin geniş tərkibdə görüşü keçirilmişdir.

Ali qonağı bir daha səmimiyyətlə salamlayan və onun Pakistana rəsmi səfərindən böyük şərəf duyduğunu vurğulayan Prezident Pərviz Müşərrəf əminliklə bildirdi ki, burada keçiriləcək görüşlərdə hər iki ölkəni maraqlandıran bir çox məsələlər hərtərəfli müzakirə ediləcəkdir. Pakistanın dövlət başçısı özünün Azərbaycana rəsmi səfərini məmnuniyyətlə xatırlatdı və indiyədək imzalanmış ikitərəfli sənədlərin bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətini vurğuladı. O, dövlətimizin başçısına müraciətlə dedi ki, biz əsas problemlərə eyni mövqedən yanaşırıq, ölkələrimiz arasında çoxlu oxşarlığın olması da buna əsas verir. Məhz Kəşmir problemi barədə Azərbaycanın açıq mövqeyini və Ermənistanın Azərbaycana təcavüzünün Pakistan tərəfindən daim pisləməsini vurğulamaq istəyirəm. Biz qonşu dövlətlərlə sülh şəraitində yaşayaraq, ölkələrimizin və xalqlarımızın əlaqələrinin möhkəmlənməsini arzulayırıq.

Pakistanda aparılan islahatlar barədə məlumat verən cənab Pərviz Müşərrəf dedi ki, biz əsas diqqəti ölkənin iqtisadi inkişafına yönəldirik və bu baxımdan Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə də xüsusi diqqət yetiririk.

Pakistanın Prezidenti dövlətimizin başçısına müraciətlə dedi ki, biz Ermənistanın Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləmişik və bu mövqeyimizə bundan sonra da sadiq qalacaq, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması tələbini hər zaman dəstəkləyəcəyik. Çünki dövlətlərin ərazi bütövlüyü beynəlxalq miqyasda qəbul olunmuş ən ali prinsiplərdən biridir. Əminik ki, ATƏT-in Minsk qrupu çərçivəsində göstərilən səylər müvəffəqiyyətlə başa çatacaq, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılacaq və ölkənizin tərəqqisində böyük nailiyyətlər əldə edəcəksiniz.

Azərbaycan Prezidenti İlham Əliyev xoş sözlərə görə və onu Pakistana rəsmi səfərə dəvətə, burada özünə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə cənab Pərviz Müşərrəfə minnətdarlığını bildirdi, ölkələrimiz arasında iqtisadi əlaqələrin günbəgün genişləndiyini diqqətə çatdırdı.

Pakistana səfərini cənab Pərviz Müşərrəfin Azərbaycana səfərinin davamı kimi səciyyələndirən Prezident İlham Əliyev bunu ölkələrimiz arasındakı münasibətlərin daimi xarakter daşımasının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı əsas məsələlərdə ölkələrimizin eyni mövqedə olmasından məmnun qaldığını bildirdi.

Prezident İlham Əliyev Pakistanın respublikamızın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu və Ermənistanın Azərbaycana təcavüzünü pislədiyini xatırlatdı. O, xüsusi vurğuladı ki, bu məsələ BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilərkən Pakistanın birmənalı şəkildə ədalətli mövqe tutaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Ermənistanın hərbi təcavüzünün pisləniləməsi barədə verdiyi bəyanatlar və Azərbaycanın haqq işini müdafiə etməsi ölkəmizdə yüksək qiymətləndirilir. Bütün bunlara görə mən Pakistana və ölkənin Prezidentinə təşəkkürümü bildirirəm.

Dövlətimizin başçısı eyni zamanda, Kəşmir probleminə toxunaraq dedi ki, Azərbaycan həmin problemlə bağlı beynəlxalq müzakirələrdə həmişə Pakistanın mövqeyini müda-

fiə edib və bundan sonra da edəcəkdir.

Görüşdə bildirildi ki, ölkələrimiz arasında iqtisadi əlaqələri genişləndirmək, ticarət dövriyyəsinin həcmini artırmaq zəruridir. 2004-cü ildə ticarət dövriyyəsinin həcmi təqribən 2 milyon ABŞ dolları olmuşdur ki, bu da ürəkaçan rəqəm deyildir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf İslamabadda birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BƏYANATI

-Bismillahir-rəhmanir-rəhim!

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevi burada səmimiyyətlə salamlayıram. Prezident Əliyev mənim dəvətimlə Pakistana səfərə gəlmişdir. Mən bu dəvəti ötən ilin iyul ayında Azərbaycan kimi gözəl ölkəyə səfərim zamanı etmişdim.

Siz hamınız bilirsiniz ki, Pakistan və Azərbaycan qardaş ölkələrdir. Bizim ümumi baxışlarımız, mədəniyyətimiz və tariximiz var. Məhz buna görə də iki məmləkətin münasibətlərinin bütün sahələrdə - həm siyasi, həm də ticarət-iqtisadi sahələrdə bu qədər yaxın olmasının səbəbini əlavə izah etməyə ehtiyac yoxdur. Biz əməkdaşlığımızın bütün mümkün sahələrini müzakirə etdik. İki tərəf arasında siyasi əlaqələrin və siyasi, diplomatik anlaşmanın səviyyəsindən məmnun olduğumuzu vurğuladıq.

Mən Pakistana Kəşmir məsələsində verdiyi daimi dəstəyinə görə Prezident Əliyevə təşəkkürümü bildirdim. Eyni zamanda, birmənalı və aydın şəkildə bəyan etdim ki, Pakistan da Dağlıq Qarabağ məsələsində Azərbaycanı, bu ölkədəki qardaşlarımızı daim dəstəkləyəcəkdir. Çünki haqq-ədalət Azərbaycanın tərəfindədir. Bu işdə ədalət zəfər çalmalıdır. Pakistan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı bütün beynəlxalq forumlar çərçivəsində dəstəkləməkdə davam etdirəcəkdir.

Eyni zamanda biz müəyyən etdik ki, siyasi münasibətlərimizin ən yüksək səviyyədə olmasına baxmayaraq, iki ölkə arasındakı iqtisadi-ticarət əlaqələri çox zəif inkişaf etmişdir. Beləliklə, biz hər iki tərəfin özəl sektorunun nümayəndələrini bir araya gətirməklə bu əlaqələri gücləndirməliyik. Onlar özləri qarşılıqlı maraq doğuran sahələri müəyyən edə bilər və bu yolla ticarət əlaqələrinin də genişləndirilməsinə nail olmaq mümkün olar. İş adamları birgə müəssisələrin yaradılması imkanlarını da bir yerdə araşdıra bilər.

Eyni zamanda biz müdafiə sahəsində əməkdaşlığımızı müzakirə etdik. Mən Prezident Əliyevə bildirdim ki, Pakistan təhsil kurslarının keçirilməsi sahəsində işbirliyinə hazırdır. Bizim bütün hərbi təlim institutlarımız hərbi təhsil sahəsində Azərbaycan üçün açıqdır. Bizim hərbi sənaye imkanlarımız var. Mən Prezidentə bildirdim ki, biz istənilən hərbi sahədə qarşılıqlı fayda məqsədi ilə əməkdaşlıq üçün qapılarımızı açıq saxlayacağıq.

Beləliklə, bu əməkdaşlıq sahələri mənim tərəfimdən bəyan edildi. Prezident Əliyev bildirdi ki, ölkələrimiz turizm və turistlərin mübadiləsi sahəsində birgə işləyə bilər. Tərəflər təhsil sahəsində, xüsusən elm və texnologiya sahəsində də əməkdaşlıq edə bilərlər.

Nəhayət, sonda onu demək istəyirəm ki, biz siyasi əlaqələrimizi daha da gücləndirmək niyyətindəyik. Bundan başqa, ikitərəfli münasibətlərimizi, - o cümlədən iqtisadi və ticarət sahələrində, təhsil, turizm və mədəniyyət sahələrində, - möhkəmləndirmək əzmindəyik. Biz bir-birimizə yardımçı olacağıq. Biz Azərbaycandakı qardaşlarımızla olan əlaqələrimizi gələcəkdə daha da genişləndirmək əzmindəyik.

Xanımlar və cənablar, çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə, qardaş Pakistan ölkəsində olmağımdan çox məmnun olduğumu bildirmək istəyirəm. Məni səfərə dəvətinə görə Prezident Müşərrəfə minnətdaram. Səfərin ilk anlarında mənə göstərdiyiniz xoş qonaqpərvərliyi duydum.

Cənab Prezidentin ötən ilin iyulunda Azərbaycana səfərini hamımız çox yaxşı xatırlayırıq. Səfər zamanı ikitərəfli münasibətlərə, regional əməkdaşlığa, regionda təhlükəsizlik və sabitliyə aid bir çox məsələlər ətrafında geniş müzakirələr apardıq. Mən çox şadam ki, bu iki səfər arasındakı müddət ərzində ölkələrimizin dialoqu davam etdirilmiş və daha da intensivləşmişdir. Biz qarşılıqlı maraq doğuran məsələlərlə və regional problemlərlə bağlı çox sıx ünsiyyətdə olmuşduq.

Azərbaycan müstəqilliyini bəyan etdikdən sonra biz hər zaman Pakistanın dəstəyini hiss etmişik. Pakistan bizi müstəqil ölkə kimi tanıyan ilk dövlətlərdən biri olmuşdur. Həmin vaxtdan etibarən iki ölkə arasındakı əlaqələr çox uğurla inkişaf etmişdir. Biz ölkələrimiz üçün vacib hesab olunan məsələlərdə bir-birimizi daim dəstəkləyirik. Azərbaycan Kəşmir məsələsində Pakistanı həmişə dəstəkləyib və dəstəkləyəcəkdir. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini daim dəstəklədiyinə görə biz Pakistana minnətdarıq.

Cənab Prezident çıxışında müzakirə etdiyimiz məsələlərin hamısını əhatə etdi. Mən onları təkrar etmək istəmirəm. Sadəcə, xatırlatmaq istəyirəm ki, ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir. Biz ikitərəfli məsələlər üzrə çox sıx işləyirik. Müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində birgə işləyirik. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatında aparılmış müzakirələr zamanı Dağlıq Qarabağ məsələsində Pakistan qətiyyətlə bizim mövqeyimizi dəstəklədi. Bu dəstək əlaqələrimizin səmimi ol-

duğunu, qəlblərimizin bir-birinə açıq olduğunu bir daha təsdiq edir. Biz dost və qardaşıq.

Cənab Prezident qeyd etdi ki, yeganə çatışmazlıq birgə sərhədimizin olmamasıdır. Lakin nə edə bilərik, bu, coğrafiyadır. Hesab edirəm ki, bu məsafə bizi bir-birimizdən uzağa salmır. Hazırkı səfərim, apardığımız müzakirələr və cənab Prezidentlə sıx səmimi münasibətlərimiz gələcək inkişaf üçün çox güclü potensialın olmasından xəbər verir.

İqtisadi əlaqələrimiz qarşılıqlı maraq doğuran məsələdir. Onlar siyasi münasibətlərimizin səviyyəsinə uyğun deyildir. Hesab edirik ki, bu sahədə çox çalışmalıyıq. Biz iqtisadi əlaqələrin inkişafına təkan verəcək praktiki tədbirlərin həyata keçirilməsini müzakirə etdik. Beləliklə, biz iqtisadi münasibətlərimizin səviyyəsini siyasi münasibətlərin səviyyəsinə çatdıra bilərik. Bizim bir çox oxşarlıqlarımız var. Ümumi tariximiz və adət-ənənələrimiz var. Əlbəttə ki, Azərbaycan və Pakistan xalqları bir-birini daha yaxından tanımalıdır. Səyahətlər olmalıdır, ünsiyyət saxlanılmalıdır, qarşılıqlı görüşlər keçirilməlidir. Xalqlarımız münasibətlərimizin yüksək olmasından və səmimi əlaqələrdən bəhrələnməlidir. Mən tamamilə əminəm ki, gələcəkdə Pakistan və Azərbaycan bu müsbət əlaqələri daha da inkişaf etdirəcək və ölkələrimiz bir-birinə daha da yaxın olacaqdır.

Məni ölkəsinə dəvət etdiyinə və mənə, habelə nümayəndə heyətimizin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm. Tam əmin olduğumu bildirmək istəyirəm ki, gələcəkdə Pakistan və Azərbaycan regional inkişafa, regiondakı sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcək və bunun nəticəsində xalqlarımız daha yaxşı yaşayacaq, Pakistan və Azərbaycan çiçəklənən ölkəyə çevriləcəkdir.

Çox sağ olun.

***

Pərviz Müşərrəf: Sağ olun. Suallara keçməzdən əvvəl mən iki əlavəni etmək istərdim. Pakistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsinə müsbət yanaşır. Mən eyni zamanda, Pakistanın TRASEKA nəqliyyat dəhlizinə qoşulmasına verdiyi dəstəyə görə və bu il aprelin 21-22-də TRASEKA-nın Bakıda keçiriləcək illik iclasına Pakistanı da dəvət etdiyinə görə cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, mən Sizə minnətdaram.

Sual: Cənab Müşərrəf və cənab Əliyev, Siz qeyd etdiniz ki, görüşünüz zamanı Dağlıq Qarabağ problemini müzakirə etdiniz. Sizin fikrinizcə, BMT Dağlıq Qarabağ və Kəşmir problemlərinin həllində hansı rolu oynaya bilər?

Pərviz Müşərrəf: Birləşmiş Millətlər Təşkilatı dünya təşkilatı sayılaraq, hər hansı münaqişənin həll olunmasında məsuliyyətlidir. Azərbaycan da belə bir münaqişə ilə üzləşmişdir və BMT bu problemin aradan qaldırılmasında müəyyən rol oynamağa çalışmışdır. Hazırkı vəziyyəti nəzərə alsaq, mənə elə gəlir ki, bu təşkilat çərçivəsində əməkdaşlığımızı davam etdirməliyik. Biz Azərbaycanın bu münaqişənin həll olunmasında tutduğu mövqeyinin BMT çərçivəsində daha da möhkəmləndirilməsinə öz yardımımızı göstərməliyik. Məhz buna görə də mən BMT-nin bütün iclaslarında Azərbaycanı dəstəkləyəcəyimizə Prezident Əliyevi əmin etdim. Biz əminik ki, bu təşkilat Dağlıq Qarabağ

probleminin həllində daha da böyük rol oynayacaqdır.

İlham Əliyev: Hesab edirəm ki, BMT tərəfindən qəbul olunmuş qətnamələrin həyata keçirilməsi mexanizmlərinin müəyyən edilməsi çox vacibdir. Cənab Prezidentlə BMT-də mümkün olacaq islahatlar məsələsini müzakirə etdikdə, biz bu problemə də toxunduq. Əfsuslar olsun ki, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələr bu gün kağız üzərində qalmaqdadır. Bu qətnamələrin həyata keçirilməsi mexanizmləri mövcud deyildir. Kəşmir və Dağlıq Qarabağla bağlı qətnamələr var. Lakin heç bir irəliləyiş və ya həyata keçirilmə mexanizmi yoxdur. Bu qətnamələrin hansı formada həyata keçirilməsi mexanizmləri hələ ki, mövcud deyildir.

Beləliklə, belə münaqişələrin həllində BMT-nin oynayacağı rolun vacibliyini nəzərə alaraq, biz bu qətnamələrin həyata keçirilməsi haqqında düşünməliyik. Biz qəbul olunmuş sənədlərə müvafiq mövqeyin bildirilməsi məqsədi ilə islahatlar zamanı hansı addımların atılmasını bilməliyik.

Sual: Mənim sualım Azərbaycan Prezidentinədir. Zati-alíləri, Prezident Müşərrəfin rəhbərliyi altında Pakistan beynəlxalq terrorizmə qarşı elan edilmiş qlobal müharibə də ön cəbhə xəttindədir. Bu baxımdan Siz Pakistanın göstərdiyi səyləri necə qiymətləndirirsiniz? Bu bəla nəinki Pakistana, ümumiyyətlə bütün regiona təsir edir. Mən bilmək istərdim ki, regiondakı dövlətlər bu problemin tam aradan qaldırılması üçün hansı ümumi mövqe tutmalıdır?

İlham Əliyev: Biz Pakistanın terrorizmə qarşı mübarizədə oynadığı rolu yüksək qiymətləndiririk. Hesab edirəm ki, Pakistanın rolu vacibdir və həlledicidir. Pakistan konkret addımları ilə onu göstərdi ki, beynəlxalq terrorizmə qarşı mübarizə çox önəmlidir. Azərbaycan və Pakistan beynəlxalq terrorizmin qurbanı olmuşdur. Ermənistanın terrorçu təşkilatları Azərbaycanda 32 terror aktı törətmişlər. Bunun nəticəsində 2000 nəfər Azərbaycan vətəndaşı həlak olmuş, minlərlə həmvətənimiz yaralanmışdır.

Yəni biz bu bəlanın nə olduğunu yaxşı bilirik. Eyni zamanda, onu da anlayırıq ki, yalnız bütün beynəlxalq ictimaiyyətin birgə səyləri nəticəsində biz bu bəla ilə mübarizə apara bilərik. Əfsuslar olsun ki, bəzən müəyyən təşkilatlarda terrorçulara fərqlər qoyulur. Terrorçu yalnız o şəxs deyil ki, təkcə öz ölkəsinə qarşı terror aktı törətsin, qonşu xalqlara və dövlətlərə qarşı cinayətlər törətmiş şəxslər də terrorçudur. Yalnız səylərimizi birləşdirərək, səfərbər edərək və terrorçunun müəyyən olunması məqsədi ilə ümumi meyarlardan istifadə etmək yolu ilə bu sahədə uğurlu mübarizə apara bilərik. Azərbaycan bu mübarizəyə verdiyi töhfəni davam etdirməyə hazırdır. Biz antiterror koalisiyasının fəal üzvləriyik. Bu bəlanın aradan qaldırılması üçün çox çalışmışıq. Bir daha deyirəm ki, beynəlxalq səviyyədə Pakistanın bu sahədə oynadığı rol mühümdür.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Aprelin 12-də Pakistan Prezidenti Pərviz Müşərrəfin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edildi.

Dövlət başçıları rəsmi qəbulda nitq söylədilər.

PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN NİTQİ

-Bismillahir-rəhmanir-rəhim!

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Zati-aliləri, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini burada salamlamaqdan çox məmnunam. Bu axşam Sizinlə görüşməyimizdən şadıq. Ötən il Azərbaycana etdiyim səfərimi xoş təəssüratla xatırlayıram. İçərişəhərdəki maraqlı gəzinti yaxşı yadımdadır. Gözəl ölkənizin sakinlərinin mənə göstərdikləri xoş qonaqpərvərliyi heç vaxt yaddan çıxarmayacağam.

Pakistan və Azərbaycan son illər ərzində çox sıx münasibətlər qurmuşlar. Əməkdaşlığımız xalqlarımızı birləşdirən bir çox oxşarlıqlara arxalanır. Hər iki ölkənin kəşməkəşli, maraqlı taleyi olub. Bizim ümumi mədəni dəyərlərimiz var. Arzu və duyğularımız eynidir. Hər iki xalq sülh şəraitində inkişaf etmək niyyətindədir. Dilimiz və ədəbiyyatımızda ümumi meyarlar çoxdur. Danışıqda istifadə etdiyimiz minlərlə ümumi söz var. Nizami Gəncəvidən tutmuş Saib Təbriziyə qədər Azərbaycan şairləri Pakistanda maraqla oxunur. Pakistanın Multan şəhərinə səyahət etmiş dahi Azərbaycan şairi Şəms Təbrizi öz yazılarında xalqlarımız arasındakı oxşarlıqları gözəl formada təsvir etmişdir. Bəlkə də indi oxuyacağım sətirlər tələffüzə görə o qədər aydın olmasın (Prezident fars dilində sətirləri oxuyur). Ürəklərimiz bir döyünür. Biz bütün sahələrdə bir-birimizə yaxınıq. Biz pakistanlılar Azərbaycanlı qardaşlarımızın əldə etdikləri nailiyyətlərlə fərəhlənirik. Ölkənizin illik iqtisadi artımı 10 faizdən çoxdur. Zati-aliləri, Sizin rəhbərliyiniz altında ölkənin iqtisadiyyatının bir çox sahələrində inkişaf sürəti tərifəlayiqdir. Bu nailiyyətlər gözəçarpandır və biz bundan çox məmnunuq.

Zati-aliləri, Pakistan və Azərbaycan müxtəlif sahələrdə əməkdaşlıq edir. Biz vacib sayılan sahələrdə, o cümlədən müdafiə və ticarət sahəsində, terrorçuluğa və narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində, mülki aviasiya sahəsində bir sıra sazişlər imzalamışıq. Sabah daha altı yeni saziş imzalayacağıq. Mən əminəm ki, bu sənədlər kommunikasiya və informasiya texnologiyaları, təhsil və mədəniyyət sahələrindəki əməkdaşlığımızı daha da genişləndirəcəkdir.

Cənab Prezident, Pakistan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanı daim dəstəkləyibdir. Biz inanırıq ki, bu münaqişə BMT-nin qətnamələri əsasında sülh yolu ilə həll olunmalıdır. Ərazilərin işğalı yolverilməzdir. Azərbaycanın suverenliyi bütün ərazi boyu bərpa olunmalıdır. Cənab Prezident, bu baxımdan Sizi əmin etmək istəyirəm ki, Pakistan Dağlıq Qarabağ məsələsində istənilən təşkilat çərçivəsində hər zaman Azərbaycanın tərəfində olacaqdır. Azərbaycan da, Pakistan da sülhsevər ölkədir. Biz terrorizmi və ekstremizmi pisləyirik. Bu bəlalar bütün xalqlara ciddi təhlükədir. Xalqlarımız sülh şəraitində yaşamaq istəyirlər və birmənalı olaraq inkişaf, tərəqqi yolu ilə addımlamaq niyyətindədirlər. Biz öz ərazimizdən hər hansı terror aktı üçün istifadə olunmasına imkan verməyəcəyik. İslam dini sülh və əmin-amanlığı təşviq edən dindir. Bununla bağlı yaranan yanlış anlayış aradan qaldırılmalıdır. Etiqad etdiyimiz böyük dinimizi ləkələ-

məyə imkan verməməliyik. Biz yalnız sülhsevər baxışlarla irəliyə doğru gedə bilərik. Zati-aliləri, bu baxışlara verdiyiniz dəstəyi yüksək qiymətləndirirəm.

Zati-aliləri, Əfqanıstandakı sabitlik regional sülh və təhlükəsizlik üçün çox vacibdir. Pakıstan bu ölkədəki sülh prosesinin davam etdirilməsinə sadiqdir. Biz sentyabr ayında parlament seçkiləri ilə nəticələnəcək siyasi prosesin başa çatdırılmasını səbirsizliklə gözləyirik. Biz Prezident Kərzainin milli barışığa və yenidənqurmaya yönəlmiş səylərini dəstəkləyirik. Pakistan regionda davamlı sülhün bərqərar olunmasına çalışır. Biz bütün mübahisələrin, o cümlədən Cammu və Kəşmir probleminin həlli məqsədi ilə Hindistanla apardığımız dialoqu davam etdirəcəyik. Kəşmir məsələsində Azərbaycanın bizə verdiyi daimi dəstəyi yüksək dəyərləndiririk.

Dünya miqyasında yeni təhdidlər özünü büruzə verir. Onların öhdəsindən səmərəli şəkildə gəlmək məqsədi ilə Birləşmiş Millətlər Təşkilatında islahatlar aparılmalıdır. Mən şadam ki, BMT Təhlükəsizlik Şurasının genişləndirilməsi ilə bağlı Pakistan və Azərbaycanın mövqeləri üst-üstə düşür. Təhlükəsizlik Şurası daha demokratik və məsuliyyətli olmalı və yeni mərkəzəqaçan oxları yaratmamalıdır.

Mən əminəm ki, apardığımız söhbətlər zamanı əldə etdiyimiz anlaşma ikitərəfli münasibətlərimizi daha da genişləndirməyə imkanlar açacaqdır. Biz birgə əməkdaşlığımızı xüsusi olaraq iqtisadi və ticarət sahələrində daha da yüksək səviyyəyə qaldırmalıyıq.

Hörmətli xanımlar və cənablar!

Mən Prezident İlham Əliyevə və sizin hamınıza xoşbəxtlik, cansağlığı və müvəffəqiyyətlər arzulayır, qardaş Azərbaycan xalqına isə tərəqqi və əmin-amanlıq diləyirəm.

Yaşasın Azərbaycan və Pakistan dostluğu!

Çox sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Pakistan İslam Respublikasının Prezidenti, Zati–aliləri Pərviz Müşərrəf!

Hörmətli cənab Baş nazir Şövkət Əziz!

Hörmətli xanımlar və cənablar!

Dost Pakistan ölkəsində olmağımdan çox məmnunam. Mən Azərbaycan xalqının qardaş Pakistan xalqına dostluq hisslərimi çatdırmaq istəyirəm. Azərbaycan və Pakistan arasında qlobal və regional məsələlər üzrə ümumi baxışlara əsaslanan sıx və səmimi münasibətlər təşəkkül tapmışdır. İki ölkə hər zaman bir-birinə yardım əli uzatmışdır. Dövlətlərimiz arasındakı əlaqələr böyük əhəmiyyət kəsb edir, dostluq və əməkdaşlığa əsaslanır.

Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Hər iki ölkə Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı və digər təşkilatlar çərçivəsində bir-birinə siyasi və mənəvi dəstək verir. Biz ölkələrimiz arasındakı strateji tərəfdaşlıq səviyyəsinə qalxan münasibətlərdən qürur duyuruq.

Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı etdiyi təcavüzün mənfi nəticələri-

nin aradan qaldırılması və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi istiqamətində Azərbaycan tərəfindən beynəlxalq səviyyədə göstərilən səylərə Pakistanın verdiyi dəstəyi yüksək qiymətləndirirəm. Eyni zamanda, Azərbaycan Pakistanın Kəşmir məsələsində tutduğu mövqeyi hər zaman dəstəkləmişdir və gələcəkdə də dəstəkləyəcəkdir. Bu qarşılıqlı dəstək xalqlarımızın və ölkələrimizin nə dərəcədə bir-birinə yaxın olduğunu bir daha nümayiş etdirir.

Mən çox şadam ki, son il ərzində biz Pakistan Prezidenti cənab Pərviz Müşərrəflə çox sıx şəxsi münasibətlər qurmuşuq. Biz onun Azərbaycana səfərini yaxşı xatırlayırıq. Olduqca səmimi, dostluq şəraitində apardığımız müzakirələr çox səmərəli və faydalı olmuşdur. Mən çox məmnunam ki, Azərbaycanın böyük nümayəndə heyəti bu gün Pakistandadır və ümid edirəm ki, bu səfərdən sonra və keçirdiyimiz görüşlərdən sonra münasibətlərimiz bütün sahələrdə daha da sıx olacaqdır.

Xalqlarımız arasındakı mədəni və dini əlaqələr bizi bir-birimizə daha da yaxınlaşdırır. Qəznəvilərin, Səlcuqilərin, Hülakülərin, Teymurun, Səfəvilərin, Nadir şahın hökmranlığı dövründə bizim tarixi oxşarlıqlarımız özünü büruzə vermişdir. Keçmiş irsimizdən bəhrələnərək, əməkdaşlığımızı uğurla davam etdiririk və onu gələcəkdə genişləndirmək əzmindəyik. Əminəm ki, son illər ərzində Pakistan-Azərbaycan Dostluq Cəmiyyətinin təsis olunması, Bakı Dövlət Universitetində urdu dili fakültəsinin açılması bu tarixi oxşarlıqları daha da inkişaf etdirəcəkdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi və iqtisadi xəttin əsas prinsiplərinə uyğun olaraq, Azərbaycan öz gələcəyinə böyük inamla baxır. Ölkəmizin rifahı naminə yorulmaz fəaliyyət göstərən Prezident Heydər Əliyevin qətiyyəti və möhkəm iradəsi sayəsində Azərbaycan regionda aparıcı ölkələrdən birinə çevrilmiş və etibarlı tərəfdaş adını qazanmışdır. İndi Azərbaycanda ən nəhəng layihələr həyata keçirilməkdədir. Avropa-Asiya nəqliyyat dəhlizini nəzərdə tutan TRASEKA proqramı, Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi buna ən bariz nümunələrdir. Bu layihələrin həyata keçirilməsi Azərbaycan və onun tərəfdaşları üçün yeni strateji imkanlar açır. Pakistanın TRASEKA proqramına qoşulması və bu nəqliyyat dəhlizindən istifadə etməsi bizim ümumi maraqlarımıza xidmət edəcək və onları daha da möhkəmləndirəcəkdir.

Mən eyni zamanda, xüsusilə qeyd etmək istəyirəm ki, Pakistanın banisi sayılan Məhəmməd Əli Cinnənin irsini və azadlığı öz şeirlərində tərənnüm edən şair Əllamə İqbalın əsərləri Azərbaycanda yaxşı tanınır və oxunur. Pakistanda Qəydi Əzəmin və Azərbaycanda Heydər Əliyevin ideyaları və məqsədləri əbədiyaşarlıqla bir-birinə bənzəyirlər. Qəydi Əzəm öz əsərlərində yazır: "Bizim məqsədimiz həm daxildə, həm də xaricdə sülh olmalıdır. Biz sülh şəraitində yaşamaq istəyirik və yaxın qonşularımızla və ümumiyyətlə, bütün dünya xalqları ilə səmimi və dost münasibətlər saxlamalıyıq". Bu kəlamlar hər bir azərbaycanlıya yaxındır. Qəydi Əzəmin adını əbədiləşdirmək məqsədi ilə biz Bakının mərkəzi küçələrindən birinə onun adını vermək qərarına gəlmişik və həmin küçənin açılışını bu yaxınlarda qeyd edəcəyik.

Hörmətli cənab Prezident!

Hörmətli Baş nazir!

Hörmətli xanımlar və cənablar!

Qardaş ölkənizə səfərim zamanı mənə göstərdiyiniz qayğı və diqqətə, xoş qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Yaşasın Pakistan! Var olsun Azərbaycan!

HƏRBİ İXRACA YARDIM TƏŞKİLATININ SƏRGİSİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Pakistan Müdafiə Nazirliyinin nəzdində Hərbi ixraca yardım təşkilatına gəlmişdir.

Prezident İlham Əliyevi binanın qarşısında təşkilatın baş direktoru Seyyid Əli Həmid böyük hörmətlə qarşıladı.

On iki il fəaliyyət göstərən bu təşkilatın əsas məqsədi ölkənin silahlı qüvvələrinin qüdrətinin artırılması, təkmilləşdirilməsi, yeni model silah və sursatın, texnikanın istehsalı, müasir texnika ilə təchiz olunmasıdır.

Prezident İlham Əliyev raket, hərbi təyyarə və gəmilər hazırlanması, müxtəlif silah-sursat istehsalı haqqında videofilmə baxdı.

Daha sonra Azərbaycan Prezidenti təşkilatın sərgisi ilə tanış oldu. Sərgidə Pakistanda istehsal olunan və xarici ölkələrə ixrac edilən hərbi texnika, silah-sursat, o cümlədən müasir tipli raketlər, müdafiə sahəsində istifadə olunan müxtəlif avadanlıq, hərbi ləvazimat nümayiş etdirilir. Dövlətimizin başçısına hərbi məhsullar, eləcə də ölkənin müdafiə sahəsində görülən işlər barədə geniş məlumat verildi.

Sərgi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Hərbi ixraca yardım təşkilatının rəhbərləri ilə görüşdü. Dövlətimizin başçısı söhbət zamanı sərgi barədə öz təəssüratlarını bölüşdü.

Azərbaycan Prezidenti təşkilatın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Dövlətimizin başçısına xatirə olaraq qılınc hədiyyə edildi.

Prezident İlham Əliyev təşkilatın rəhbərləri ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Pakistan İslam Respublikası Baş nazirinin iqamətgahına gəlmişdir.

İqamətgahın qarşısında Prezident İlham Əliyevi Pakistanın Baş naziri Şövkət Əziz böyük hörmət və mehribanlıqla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Şövkət Əzizlə təkbətək görüşü oldu.

Prezident İlham Əliyevi Pakistanda görməyindən məmnunluğunu bildirən Baş nazir Şövkət Əziz ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar olduğunu vurğulayaraq dedi ki, iqtisadiyyatın bir çox sahələri üzrə Azərbaycanla

geniş əməkdaşlıq etmək mümkündür və bu, bizim üçün ən əsas məsələlərdən biridir. O, bu baxımdan müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də vacibliyini söylədi.

Azərbaycanın dünya ölkələri ilə sıx əməkdaşlıq etdiyini və ölkəmizdə bir çox mühüm beynəlxalq layihələrin həyata keçirildiyini xatırladan Prezident İlham Əliyev bir çox sahələrdə Pakistanla işbirliyi üçün gözəl perspektivlər olduğunu bildirdi.

Dövlətimizin başçısı respublikamızdakı mövcud vəziyyətdən, bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda həyata keçirilən islahatlardan, hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən tədbirlərdən, Ermənistanın hərbi təcavüzü ilə əlaqədar yaranmış çətinliklərdən də geniş söhbət açdı. Azərbaycan Prezidenti beynəlxalq təşkilatlarda ölkəmizin haqq işini müdafiə etdiklərinə görə Pakistan hökumətinə və şəxsən Baş nazir Şövkət Əzizə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan Prezidentinin rəsmi səfəri çərçivəsində imzalanacaq sənədlərin əhəmiyyəti vurğulandı, qarşılıqlı maraq doğuran bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ PAKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ

Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyevin Pakistanın Baş naziri Şövkət Əzizlə təkbətək görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar olmuşdur.

Danışıqlarda Pakistan-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi yolları barədə müzakirələr aparılmışdır.

Prezident İlham Əliyevin rəsmi səfərini Pakistan xalqının və şəxsən özünün böyük ümidlə gözlədiyini vurğulayan cənab Şövkət Əziz Azərbaycanla indiyədək imzalanmış və bu səfər çərçivəsində imzalanacaq mühüm sənədlərdən söhbət açdı və bildirdi ki, bütün bunlar ölkələrimizin əməkdaşlığında yeni mərhələ açacaqdır.

Beynəlxalq təşkilatlarda Azərbaycanla Pakistanın çox səmərəli əməkdaşlığını razılıqla xatırladan Baş nazir, Kəşmir məsələsində Azərbaycanın Pakistan dövlətinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi.

Azərbaycanın Asiya qitəsində böyük potensiala malik Pakistanla əlaqələrə xüsusi diqqət yetirdiyini söyləyən, əməkdaşlığın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün yaranmış imkanları yüksək qiymətləndirən Prezident İlham Əliyev Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı münasibətlər qurduğunu vurğuladı.

Görüşdə iqtisadi əlaqələrin daha da möhkəmlənməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı, o cümlədən Pakistanın iş adamlarının Azərbaycana sərmayə qoyması məsələsi diqqət mərkəzində saxlanıldı.

Pakistanın beynəlxalq layihələrə, o cümlədən TRASEKA layihəsinə tamhüquqlu üzv kimi qoşulmasının Azərbaycan tərəfindən bundan sonra da dəstəklənəcəyi vurğulandı, ticarət dövriyyəsinin artırılması imkanları nəzərdən keçirildi. Bildirildi ki, bu baxımdan yeni nəqliyyat dəhlizinin yaradılması vacibdir və bu məqsədlə hərbi nəqliyyat vasitələrindən də istifadə oluna bilər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunuldu, mövqelərin hər sahədə üst-üstə düşdüyü və ölkələrimizin bir-birini daim dəstəkləyəcəyi vurğulandı.

AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Aprelin 13-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizin iştirakı ilə bir sıra əməkdaşlıq barədə mühüm sənədlər imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Pakistanın mədəniyyət, idman və gənclər naziri Məhəmməd Acmal Xan, Azərbaycan Respublikası Nəqliyyat nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycanın Baş nazirinin birinci müavini Eyyub Yaqubov və Pakistanın kommunikasiya naziri Məhəmməd Şəmim Siddiqi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Pakistan İslam Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Pakistanın sosial təminat və xüsusi təhsil naziri xanım Zübeydə Cəlal, Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Pakistanın İnformasiya Texnologiyaları naziri Əhməd Xan Leqari, Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Pakistan İslam Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycanın maliyyə naziri Əvəz Ələkbərov və Pakistanın maliyyə naziri Ömər Əyyub Xan, Azərbaycan Respublikası və Pakistan İslam Respublikası aviasiya hakimiyyətləri arasında əməkdaşlıq haqqında protokolu "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Pakistanın müdafiə naziri Tariq Vasim Qazi imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN BİRGƏ MƏTBUAT KONFRANSI

Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Şövkət Əziz sənədlərin imzalanması mərasimindən sonra birgə mətbuat konfransı keçirmişlər.

Baş nazir Şövkət Əziz və Prezident İlham Əliyev əvvəlcə jurnalistlər qarşısında çıxış etdilər.

PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Azərbaycan Prezidentini ölkəmizdə salamlamaq hər bir pakistanlının ürəyincədir.

Cənab Prezident, Pakistana səfərə gəldiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. İki ölkə bir-biri ilə iqtisadi, tarixi, dini, mədəni əlaqələrlə bağlıdır. Səfəriniz çox səmərəli olmuşdur. Bu gün biz iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün altı

saziş imzaladıq. Apardığımız müzakirələr nəticəsində "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Kəraçi şəhərinə uçuşlarının bərpa edilməsi, Bakıda Pakistan Milli Bankı nümayəndəliyinin açılması kimi məsələlər barədə razılıq əldə olunmuşdur. Pakistanın istehsal etdiyi malların Azərbaycanda tanınması məqsədi ilə Pakistanın iş adamları Bakıda məhsulların sərgisini təşkil edəcəklər. Biz iki ölkə arasında sərmayə qoyuluşu və ticarət sahələrində və digər sahələrdə əməkdaşlığımızı möhkəmləndirəcəyik.

Biz Prezidentlə iki məsələni də müzakirə etdik. Birinci məsələ BMT-dəki islahatlarla bağlıdır. Bir çox ölkələr bu məsələ ilə bağlı eyni mövqedən çıxış edirlər. Biz BMT-də aparılacaq islahatların səmərəli olması məqsədi ilə Azərbaycanla birgə çalışacağıq. BMT Təhlükəsizlik Şurası demokratik olmalı və əksər üzv ölkələrin maraqlarını təmsil etməlidir. Bu istiqamətdə hər hansı bir irəliləyiş əldə etmək məqsədi ilə konsensusa əsaslanmaq lazımdır.

Çox şadıq ki, Azərbaycan Kəşmir məsələsində bizi daim dəstəkləyir. Pakistan isə öz növbəsində, Dağlıq Qarabağ problemi ilə bağlı daim Azərbaycanın tərəfində olmuşdur. Bu baxımdan, biz öz dəstəyimizi davam etdirəcəyik, münasibətlərimizi yeni səviyyəyə qaldıracağıq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvləriyik. Bu təşkilat çərçivəsində iqtisadi əlaqələrimizi daha da möhkəmləndirmək imkanları mövcuddur. Hər iki tərəf vurğuladı ki, bu təşkilatın işi gücləndirilməli və daha da səmərəli olmalıdır.

Cənab Prezident, Sizi İslamabadda görməkdən olduqca məmnunuq. Ümid edirik, gələn səfəriniz zamanı Siz digər şəhərləri, məsələn, Kəraçi və ya Lahoru da ziyarət edəcək, ölkəmizin gözəl yerlərini görəcəksiniz. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Cənab Baş nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə demək istəyirəm ki, mənim qardaş Pakistana səfərim çox uğurla keçir. Bunu deməyə əsas var. Çünki dünən və bu gün apardığımız müzakirələr iki ölkə arasındakı bir çox oxşarlıqları nümayiş etdirdi. Biz qarşılıqlı maraq doğuran bütün məsələlərdə bir-birimizi dəstəkləyirik. Baş nazirin qeyd etdiyi kimi, tərəflər Kəşmir və Dağlıq Qarabağ problemləri ilə bağlı öz dəstəyini davam etdirəcəklər.

Ölkələrimiz arasındakı siyasi münasibətlər ən yüksək səviyyədədir. Ötən il Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana uğurlu səfəri və mənim Pakistana səfərim ölkələrimiz arasındakı əməkdaşlıq istiqamətində atılmış mühüm addımlardır. Əlbəttə ki, ikitərəfli əməkdaşlığımız regional əməkdaşlığa da müsbət təsir göstərir. Pakistan və Azərbaycan regional əməkdaşlıq layihələrinin fəal iştirakçılarıdır. Biz çox şadıq ki, hazırda Pakistan Şərq-Qərb dəhlizi sayılan TRASEKA proqramına müşahidəçi qismində qoşulur. Onun regional daşınma əməliyyatlarına daha da fəal şəkildə qoşulması məqsədi ilə Azərbaycan qardaş ölkəyə bizim bütün infrastrukturumuzdan istifadə etmək imkanı yaradacaqdır.

Biz Baş nazirin xatırlatdığı bir çox məsələləri müzakirə etdik. Hesab edirəm ki, imzala-

dığımız sənədlər və əldə olunmuş razılaşmalar əməkdaşlığımızın daha da gücləndirilməsi üçün əlavə imkanlar yaradacaqdır. İqtisadi sahədə görüləsi işimiz çoxdur. Biz iqtisadi əlaqələrimizi siyasi münasibətlər səviyyəsində görmək istəyirik. Hesab edirəm ki, bu məqsədə nail olmaq üçün bütün imkanlar mövcuddur.

Bakı-Kəraçi birbaşa uçuşlarının açılması, vizaların rəsmiləşdirilməsinin asanlaşdırılması, hər iki ölkədə birgə Pakistan-Azərbaycan sərgilərinin təşkili bizim iş adamlarımızı daha da yaxınlaşdıracaqdır. Şübhəsiz ki, xalqlar arasındakı ünsiyyət də çox vacibdir. Düşünürəm ki, iqtisadi sahədəki əlaqələrimizin inkişaf etdirilməsi vətəndaşlarımıza bir-birini daha yaxşı tanımasına şərait yaradacaq, mövcud olan infrastruktur və imkanlar haqqında məlumatın yayılmasına xidmət edəcəkdir. Bütün bu amillər bizim tərəfdaşlıq münasibətlərimizə əlavə təkan verəcəkdir.

Səfərim zamanı göstərdikləri qonaqpərvərliyə görə Pakistan Prezidentinə, Baş nazirə, Pakistan hökumətinin üzvlərinə və bütün digər rəsmilərə öz minnətdarlığımı bildirirəm. Burada özümü həqiqətən, evdəki kimi hiss etdim. Ümid edirəm ki, səmərəli əməkdaşlığımız xalqlarımızın rifahı naminə gələcəkdə də davam edəcəkdir.

Çox sağ olun!

[redacted]

ŞÖVKƏT ƏZİZ: Cənab Prezident, çox sağ olun.

Hər tərəf bir sual verə bilər.

SUAL: Cənab Prezident, görüşləriniz zamanı Azərbaycanla Pakistan arasında iqtisadi-ticarət əlaqələrinin gələcək inkişaf perspektivlərini müzakirə etdinizmi?

İLHAM ƏLİYEV: Bəli, bu məsələlər müzakirə olundu. İqtisadi-ticarət məsələləri üzrə birgə hökumətlərarası komissiya öz növbəti iclasını keçirəcəkdir. Hesab edirik ki, bu komissiya hər iki ölkənin biznes nümayəndələrini istiqamətləndirərək, onları daha tez-tez görüşməyə sövq edəcəkdir. Bu komissiya mövcud olan imkanları nəzərdən keçirəcək və qiymətləndirəcəkdir. Biz tamamilə əminik ki, əgər Pakistanda istehsal olunmuş və sərfəli qiymətlə satılan yüksək keyfiyyətli mallar varsa, bizim iş adamlarımız bu fürsətdən istifadə etməlidirlər. Belə addımları atmaqla biz iqtisadiyyatımıza kömək etmiş olarıq, yeni iş yerlərinin, yeni imkanların açılmasına töhfə verə bilərik. Biz etiraf edirik ki, bugünkü iqtisadi münasibətlərin səviyyəsi siyasi münasibətlərin yüksək səviyyəsinə uyğun deyildir. Bu baxımdan biz iqtisadi-ticarət əməkdaşlığımızı davam etdirməliyik.

SUAL: Mənim sualım cənab Prezidentə və cənab Baş nazirədir. Dağlıq Qarabağ və Kəşmir problemləri ilə bağlı hər hansı həll yolları müzakirə edildimi?

İLHAM ƏLİYEV: Bu problemlər beynəlxalq hüquq normaları və prinsipləri, o cümlədən beynəlxalq təşkilatların qətnamələri əsasında həll olunmalıdır. Əfsuslar olsun ki, BMT-nin Kəşmir və Dağlıq Qarabağ məsələsi ilə bağlı qəbul etdiyi qətnamələr yerinə yetirilməyibdir. Apardığımız müzakirələrin bir elementi də BMT-də islahatların məhz bu aspektdə aparılmasının vacibliyi ilə bağlıdır. Əgər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr kağız üzərində qalırsa, icra olunmursa, bu halda onların qərarları beynəlxalq ictimaiyyət tərəfindən nəzərə alınmayacaqdır. Biz hesab edirik ki, bu

münaqişələrin aradan qaldırılmasına olan yanaşma eyni standarta əsaslanmalıdır. Bu yanaşma beynəlxalq hüququn normaları və prinsiplərinə, o cümlədən haqq-ədalətə arxalanmalı və beynəlxalq təşkilatların qərarlarını əks etdirməlidir. Yalnız belə prinsip əsasında münaqişələrin həlli mümkün ola bilər.

ŞÖVKƏT ƏZİZ: Mən cənab Prezidentin dediyi sözlərlə tam razıyam. Pakistan hesab edir ki, bütün münaqişələr sülh yolu ilə həll olunmalıdır. Bu, Kəşmir və Dağlıq Qarabağ problemlərinə də aiddir. Onu da demək istəyirəm ki, həll variantı BMT-nin qətnamələrinə uyğun olaraq, həmin münaqişəli zonada yaşayan yerli əhalinin maraqlarını əks etdirməlidir. BMT–nin fəaliyyətinin səmərəliliyi qəbul etdiyi qətnamələrin həyata keçirildiyi təqdirdə hiss oluna bilər. Buna görə də Azərbaycan kimi, Pakistan da hesab edir ki, xalqların istəkləri nəzərə alınmalıdır və hər iki ölkəyə aid olan sərhədlərlə və işğal faktı ilə bağlı BMT-nin qətnamələri həyata keçirilməlidir.

SUAL: Müdafiə sahəsində əməkdaşlığa dair müəyyən müzakirələr aparılmışdır. Bu sahədə hansı işlər görülə bilər?

ŞÖVKƏT ƏZİZ: Bəli, dünən və bu gün müdafiə sahələrinə aid olan əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu, həm təhsil kursları ola bilər, həm də avadanlığın alınması ola bilər. Bizim sıx münasibətlərimiz var və bu da təbii ki, bütün aspektləri əhatə edir, o cümlədən müdafiə sahəsini.

İLHAM ƏLİYEV: Müdafiə sahəsində əməkdaşlığımız ikitərəfli münasibətlərimizin vacib elementidir. Pakistanın bu istiqamətdə böyük nailiyyətləri və çox yaxşı imkanları var. Bu gun səhər biz ordu muzeyində olduq. Orada ən son nailiyyətlər nümayiş etdirilir. Mən Pakistanın müdafiə sənayesində olan potensialın bir daha şəxsən şahidi oldum. Azərbaycan öz müdafiə imkanlarını inkişaf etdirir. Bu, bizim ölkəmiz və ümumiyyətlə, hər bir ölkə üçün təbiidir. Əlbəttə ki, biz müdafiə sahəsindəki əməkdaşlığımızın praktiki tərəfini müzakirə etdik. Ümid edirəm ki, bu istiqamətdə bizim böyük nailiyyətlərimiz olacaqdır.

Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Aprelin 13-də Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz öz iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar vermişdir.

Naharda Azərbaycan nümayəndə heyətinin üzvləri, qardaş Pakistan hökumətinin rəsmi şəxsləri və ölkənin iş adamları da iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasında rəsmi səfərdə olarkən aprelin 13-də bu ölkənin PTV World televiziyasına müsahibə vermişdir.

Aparıcı: Əvvəlcə sizin hamınızı salamlayırıq. Bu gün PTV World-un studiyasındakı ali qonağımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Sual: Cənab Prezident, Pakistan televiziyasına gəldiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Təbii ki, bu, Sizin Pakistana ilk rəsmi səfərinizdir. Ölkəmizə etdiyiniz uğurlu səfəriniz zamanı Pakistan rəhbərliyi ilə, o cümlədən Prezident Pərviz Müşərrəf ilə görüşləriniz oldu. Pakistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcəkdə inkişaf etdirilməsi məqsədi ilə hansı əsas sahələri müəyyən etdiniz?

Cavab: Öncə onu demək istəyirəm ki, gözəl ölkənizdə olmağımdan çox şadam. Pakistan bizim üçün qardaş ölkədir. Bizim çox gözəl münasibətlərimiz var və ikitərəfli münasibətlərə, beynəlxalq problemlərə aid bütün məsələlərdə biz bir-birimizi daim dəstəkləyirik. Biz regional səviyyədə də çox vacib rol oynayırıq. Mənim Pakistana səfərim, fikrimcə, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində atılmış vacib addımdır. Ötən il Pakistan Prezidenti Pərviz Müşərrəf Azərbaycana səfər etmişdir və bizim çox məhsuldar müzakirələrimiz olmuşdur. Hazırkı səfərim ikitərəfli əlaqələrə dair aparılan müzakirələrin davamıdır. Hesab edirəm ki, Pakistanda olduğum iki gün ərzində qarşılıqlı maraq kəsb edən məsələlərin hamısı, o cümlədən siyasi, iqtisadi və mədəni münasibətlərin aspektləri müzakirə olundu. Beynəlxalq məsələlərə, dünyadakı və regionumuzdakı proseslərə aid mövqelərimiz üst-üstə düşür. Biz Dağlıq Qarabağ və Kəşmir məsələlərində bir-birimizi qətiyyətlə dəstəkləyirik. Mən deyə bilərəm ki, ölkələrimiz arasındakı münasibətlərimiz digər ölkələr üçün nümunə ola bilər.

Mənim buraya səfərim zamanı bir sıra vacib sənədlər imzalanmışdır. Bu sənədlər iqtisadi və ticari münasibətlərin daha da genişləndirilməsinə imkan yaradacaqdır. Düşünürəm ki, bu istiqamət çox vacibdir. İqtisadi əlaqələrimizin inkişafı üçün böyük potensial mövcuddur. Bir sözlə, mən səfərdən çox razıyam, Prezident, Baş nazir və digər rəsmilərlə apardığımız danışıqlardan çox məmnun qaldım. Ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz və xalqlarımız bir-birinə daha yaxın olacaqlar.

Sual: Cənab Prezident, Siz ticari münasibətlər haqqında danışdınız. Bu baxımdan Pakistan və Azərbaycan konkret olaraq hansı sahələrdə işbirliyi qura bilər? Bu məsələ ilə bağlı mülahizələriniz bizim üçün çox maraqlı olardı.

Cavab: Əvvəla, onu qeyd etmək istəyirəm ki, ikitərəfli ticarət sahəsində çox böyük inkişaf potensialı var. Pakistan və Azərbaycanın iqtisadiyyatı sürətlə və uğurla inkişaf edir. Hər iki ölkədə gözəçarpan iqtisadi artım müşahidə olunur. Bu amillər ticari əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar yaradır. Hesab edirəm ki, ticarət uğurla aparıla bilər.

Biz daşınma məsələlərini də müzakirə etdik. Pakistan hazırda Şərq-Qərb dəhlizini nəzərdə tutan TRASEKA proqramına müşahidəçi qismində qoşulur. Bizim enerji sektorunda, kənd təsərrüfatı, turizm sahələrində yaxşı imkanlarımız vardır. Bakı və Kəraçi şəhərləri arasında birbaşa uçuşların açılması bu prosesi sürətləndirəcək vacib elementlərdən biri olacaqdır. Bu barədə razılıq əldə olunmuşdur. İlkin olaraq, biz həftədə iki uçuşun həyata keçirilməsinə razılıq vermişik. Ümid edirik ki, gələcəkdə onların sayı artacaqdır.

Eyni zamanda biz viza proseedurlarının asanlaşdırılması ilə bağlı fikir mübadiləsi apardıq. Vizalar daha qısa müddət ərzində açılmalıdır. Bunları nəzərə alaraq düşünürəm ki, biz iqtisadi və ticari münasibətləri daha da canlandırmalıyıq. Biz, həmçinin birgə sərgilərin təşkil olunması üzərində razılıq əldə etmişik. Bu sərgilər hər iki biznes icmasının

mövcud imkanlarını nümayiş etdirəcəkdir. Hesab edirəm ki, siyasi münasibətlərin yüksək səviyyədə olması sayəsində iqtisadi sahədə də böyük nailiyyətlər əldə edə biləcəyik.

Sual: Şübhəsiz ki, cənab Prezident, hazırkı zəmanənin əsas məsələlərindən biri də qlobal terrorizmə qarşı mübarizənin aparılmasıdır. Biz bilirik ki, Siz öz çıxışlarınızda terrorizm anlayışının müəyyən edilməsində ümumi yanaşmadan istifadə olunmasının vacibliyini qeyd etmisiniz. Sizcə, terrorizm necə müəyyən olunmalıdır?

Cavab: Mən hesab edirəm ki, hansı ölkəyə qarşı törətdiyi cinayətlərdən asılı olmayaraq, terrorizm hallarına, terrorçulara eyni gözlə baxmaq lazımdır. Əfsuslar olsun ki, bu gün beynəlxalq yanaşmada biz bunu görmürük. Pakistan və Azərbaycan terror aktlarının qurbanı olmuşlar. Ermənistanın terrorçu təşkilatları ölkəmizə qarşı 30-dan çox terror aktı törətmişdir və bunun nəticəsində 2 mindən çox günahsız vətəndaş qətlə yetirilmiş və minlərlə insan xəsarət almışdır. Lakin bu problemin həllində biz lazımi dəstəyi hiss etmirik. Biz beynəlxalq ictimaiyyət tərəfindən dəstəyin verilməsini görmürük. Buna görə də biz həqiqətən inanırıq ki, əgər hər hansı bir terror aktı kimə qarşı törədilməsindən asılı olmayaraq, eyni prinsip əsasında baxılsa, belə halda biz səylərimizi səfərbər edə biləcəyik.

Bütün dünya ölkələrinin səyləri səfərbər olunmasa, biz beynəlxalq terrorizmə qarşı qətiyyətli mübarizə apara bilmərik.

Terrorçular elə bir düşməndir ki, siz onların harada gizləndiyini bilmirsiniz. Hətta, müəyyən hallarda siz bilmirsiniz ki, onların arxasında kimlər dayanır və onları ifşa etmək də çox çətindir.

Buna görə də, bütün beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan, demək olar ki, terrorizmə qarşı mübarizə aparmaq mümkün olmayacaqdır. İkili standartlara yol verilməməlidir. Ümumi və yeganə yanaşmadan istifadə olunmalıdır və biz bunun tərəfdarıyıq.

Sual: Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistan və Azərbaycan arasındakı vəziyyətə gəldikdə, bildirilir ki, ötən il Siz vəziyyəti təhlükəli kimi təsvir etdiniz. Sizin fikrinizcə, təhlükələr hansı sahələrdə artır və hansı sahələrdə azalır? Hazırkı durumu necə görürsünüz?

Cavab: Vəziyyət təhlükəlidir, çünki sülh mövcud deyildir. Ermənistan ərazimizin 20 faizini işğal edib və etnik təmizləmə siyasəti aparıb. Bunun nəticəsində 1 milyon azərbaycanlı evsiz-eşiksiz qalıb. Biz bu münaqişənin aradan qaldırılması üçün beynəlxalq hüququn normalarına uyğun olaraq həll yollarını axtarırıq. Həmin normalarda deyilir ki, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmaq lazımdır. Ermənistan bizim ərazi bütövlüyümüzü pozub və beləliklə, beynəlxalq hüquq normalarını da kobud surətdə pozubdur. Təhlükə ondan ibarətdir ki, döyüş əməliyyatlarının dayandırılmasından və atəşkəs razılaşmasından artıq 10 il keçir, lakin heç bir nəticə yoxdur. Bu, daim davam edə bilməz. Hər il və hər ay atəşkəs rejimi vəziyyəti daha da həssas edir, çünki hələ ki, sülh yoxdur. Buna görə də bu münaqişə mümkün qədər qısa müddətdə həll olunmalıdır. Belə olmasa, bu nəinki bizim üçün, eyni zamanda bütün region üçün böyük təhlükə ola bilər. Əfsuslar olsun ki, regiondakı sabitlik və təhlükəsizlik hələ də kifayət qədər möhkəmləndirilməyibdir.

Sual: Hazırkı vəziyyəti nəzərə alsaq, Siz hesab edirsiniz ki, bu məsələdə beynəlxalq ictimaiyyət, xüsusən də Qərb kifayət qədər dəstək verir?

Cavab: Yox. Bu, tamamilə belə deyil. Hesab edirəm ki, bu amil münaqişənin həll olunmamış kimi qalmasının əsas səbəblərindən biridir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı dörd qətnaməsi var. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul olunmuş qətnamədə aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, etnik təmizləmə siyasəti aparıb və bunun nəticəsində 1 milyon insan evlərindən qovulub və qaçqın vəziyyətinə düşüb. Bu yaxınlarda ATƏT işğal olunmuş bölgələrə faktaraşdırıcı missiyasını göndərmişdi. Bu işin nəticəsində aydın oldu ki, 15 minə yaxın erməni qeyri-qanuni olaraq orada məskunlaşmışdır. Eyni zamanda, beynəlxalq ictimaiyyət bu tədbirlərin qarşısının alınması üçün heç bir addım atmır. Ermənistana qarşı heç bir sanksiya qoyulmayıb. Hətta heç bir tənqidi sözlər də eşidilmir. Beynəlxalq təşkilatlar və ATƏT kimi təsisatlar bizə deyirlər ki, gedin razılığa gəlin! Lakin biz necə razılığa gələ bilərik? Əgər razılıq əldə edə bilsəydik, buna çoxdan nail ola bilərdik. Biz razılığımızı yalnız o vaxt verə bilərik ki, razılıq beynəlxalq hüquqa əsaslansın.

Ermənistan beynəlxalq hüququ pozub və bu, onları heç narahat etmir, çünki onlara kifayət qədər təzyiq göstərilmir. Buna görə də biz beynəlxalq ictimaiyyətin bu məsələyə göstərdiyi bu cür diqqətdən tamamilə narazıyıq. Ona görə də vaxt keçdikcə, belə bir qənaətə gəlirik ki, biz güclənməliyik və problemi özümüz həll etməliyik.

Sual: Güclənməliyik deyəndə Siz nəyi nəzərdə tutursunuz?

Cavab: Hər bir sahəni nəzərdə tuturam. İqtisadi inkişafımızı nəzərdə tuturam. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından beş dəfə böyükdür. Həyata keçirdiyimiz iqtisadi islahatlar və layihələrimiz gələn üç-dörd il ərzində ÜDM həcmini iki dəfə artırmağa imkanı verəcəkdir. İqtisadi və hərbi gücümüz, regional səviyyədə daha fəal əməkdaşlığımız, aktiv xarici siyasətimiz, beynəlxalq münasibətlərimiz Azərbaycanı regionda aparıcı ölkəyə çevirəcəkdir. Hesab edirik ki, münaqişənin nizamlanması üçün bu, yeganə yoldur, çünki on ildən artıq müddətdə aparılan danışıqlar heç bir nəticə vermir. Mən bilmirəm ki, bundan sonra biz nəyi gözləməliyik.

Sual: Siz qeyd etdiniz ki, qaçqınlar məsələsi ciddi problem olaraq qalır. Bu problemin aradan qaldırılması sahəsində Sizə hansı həcmdə yardım göstərilir? Onların problemlərinin həllində daxili imkanlarınızdan nə dərəcədə istifadə edirsiniz?

Cavab: Biz münaqişənin və sonradan atəşkəsin ilk illəri ərzində beynəlxalq humanitar təşkilatlarından və donor ölkələrdən yardımlar almışıq. Lakin, hazırda bu yardımın həcmi azalır. Bu, bizi narahat edir. Buna səbəb ondan irəli gəlir ki, münaqişə get-gedə yaddan çıxır, çünki bu, uzunmüddətli münaqişədir.

Neft resurslarımız bütün qaçqınların tələbatının ödənilməsinə imkan vermir, çünki onların sayı səkkiz milyonluq əhalidə bir milyondan çoxdur. Bu, adambaşına düşən göstəriciyə uyğun olaraq, bütün dünyada götürsək, ən yüksək həddir. Lakin biz onların həyatının asanlaşdırılması məqsədi ilə əlimizdən gələni edirik. Onlar üçün yeni evlər, yaşayış məntəqələri, məktəblər və xəstəxanalar tikilir. Hər bir qaçqına dövlət kompensasiyası və digər yardımlar verilir. Lakin əlbəttə ki, bu, kifayət deyil. Çünki bu insanlar hər şeylərini - öz mülkiyyətini, evlərini və hər şeyi - itiriblər.

Sual: Təbii ki, Sizin Prezident Müşərrəflə görüşünüzdən və verdiyiniz bəyanatdan sonra Siz və Prezident Müşərrəf Kəşmir və Dağlıq Qarabağ haqqında danışdınız. Kəşmir və Qarabağ münaqişələrində hər hansı bir oxşarlığı görürsünüzmü? Bu cür uzunmüddətli münaqişələrin həlli sahəsində biz bir-birimizdən müəyyən şeyləri öyrənə bilərikmi?

Cavab: Oxşarlıqların əksəriyyəti aydındır. Əvvəla, hər iki halda, Pakistanın və Azərbaycanın mövqeləri ədalətli və düzgündür. Bu birinci amildir. İkincisi, hər iki halda Birləşmiş Millətlər Təşkilatının bütün qətnamələri, demək olar ki, mövqelərimizi dəstəkləyir. Buna görə də, bizim mövqelərimiz nəinki istəklərimiz və arzularımıza əsaslanır, həmçinin beynəlxalq səviyyədə tanınmış təşkilatların qərarlarına əsaslanır. Hər iki halda, biz ikili standart siyasəti ilə üzləşirik. Hər iki halda qeyri-düzgün və ədalətsiz hərəkətlərin şahidiyik və beynəlxalq ictimaiyyət onlara adekvat cavab vermir.

Artıq qeyd etdiyim kimi, Pakistan və Azərbaycan Kəşmir və Qarabağ məsələlərində bir-birini dəstəkləyir. Bu dəstək yalnız münaqişələrin oxşarlıqlarına əsaslanmır, o, həmçinin bizim tarixi, mədəni və siyasi əlaqələrimizin səviyyəsinə uyğun olaraq yaxın olmağımızla izah edilir. Biz qüdrətli olmalıyıq, bir-birimizi dəstəkləməliyik, dostlarımıza və dost ölkələrə yardım əlini uzatmalıyıq. Bunu maraqlarımızın dünyada təşviq olunması üçün etməliyik.

Sual: Siz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının tərkibini genişləndirməklə bağlı mövqeyinizi bildirdiniz. Bildiyiniz kimi bu məsələ ilə bağlı başqa bir plan da var. Bu plan Pakistan tərəfindən təqdim edilmişdir. Siz BMT-də islahatların aparılması ilə bağlı təqdim edilən digər variantları dəstəkləyəcəksinizmi? Həmin variantlarda müxtəlif ölkələrin namizədliyi vardır. Siz Təhlükəsizlik Şurasının indiki tərkibdə qalmasına üstünlük verirsiniz?

Cavab: Hazırda biz hesab edirik ki, BMT-nin Təhlükəsizlik Şurasının tərkibi tarixdən irəli gələn faktdır. Bu fakt artıq tanınıb. Yeni üzvlərin qəbul edilməsi də mürəkkəb məsələdir. Yeni üzv olmaq üçün hansı meyarlar mövcuddur - ölkənin ərazisi, əhalisinin sayı, ÜDM, beynəlxalq məsələlərdəki rolu? Hazırda bu meyarları müəyyən etmək çox çətindir.

Mən eyni zamanda hesab edirəm ki, əgər bu gün dünyada bərabərlik və demokratiya ideyaları əsas götürülürsə, onda ölkələr arasında hər hansı bir ayrıseçkiliyin yaranmasına səbəb olacaq vəziyyət yaranmamalıdır. Hansı ölkələr daha vacibdir, hansılar isə o qədər də vacib deyil? Təhlükəsizlik Şurasının bugünkü tərkibi tariximizin, keçmişimizin reallığıdır. Ona görə də bu məsələyə hər hansı bir dəyişikliyin edilməsi bir çox sual və problemlər yarada bilər. Bu, vəziyyəti asanlaşdırmayacaq, əksinə çətinləşdirəcəkdir. Buna görə də biz hesab edirik ki, hazırkı status optimaldır. Burada müzakirə etdiyimiz digər islahatlar qətnamələrin yerinə yetirilməsi ilə bağlıdır. Belə bir mexanizmlər mövcud deyildir.

Qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Ermənistan heç bir reaksiya vermir. On ildən çox vaxt keçir, lakin heç bir şey baş vermir, heç bir sanksiya və ya təzyiq tətbiq edilmir. Hətta, tənqid də eşidilmir. Onda bu qətnamələrin faydası nədədir? Qətnamələr beləliklə öz əhəmiyyətini itirir. Ona görə də güclü mexanizmlər olmalıdır ki, bunun yerinə yetirilmədiyi təqdirdə hansı sanksiyaların tətbiq olunacağı, beynəlxalq ictimaiyyətin hansı tədbirləri görəcəyi müəyyən edilsin. Qətnamələrə məhəl qoymayan, onları yerinə yetirməyən ölkələr cəzalandırılmalıdır. İlk olaraq onlara xəbərdarlıq edilməli və sonra isə, onlar beynəlxalq təşkilatlardan xaric olunmalıdır. Yalnız bu təqdirdə onlar müəyyən addımların atılması üzərində düşünməyə başlayacaqlar. İndi onların vecinə deyil. Qətnamələr onlar üçün heç bir əhəmiyyət daşımır. Bu, islahatların çox vacib elementidir və biz də Pakistan kimi bu məsələyə eyni gözlə baxırıq.

Sual: Ölkənizin gələcəyinə gəldikdə isə, Siz Azərbaycanı Qərbə doğru, Avropa İttifaqı ilə sıx əlaqələrin qurulması və yaxud Asiyaya doğru istiqamətdə görmək istərdiniz və daha çox Asiya ölkələri ilə möhkəm münasibətlər yaratmaq fikrindəsiniz?

Cavab: Biz dünyanın bütün ölkələri ilə möhkəm münasibətlər istəyirik. Azərbaycan gənc ölkədir. Müstəqil ölkədir. Ölkəmizin böyük potensialı var, dövlətimiz aydın siyasət yürüdür. Biz açıq qapı siyasətini həyata keçiririk. Avratlantik strukturlarına inteqrasiya ilə bağlı siyasətimiz qətidir və bu yolda böyük nailiyyətlər əldə etmişik.

Biz Avropa Şurasının üzvüyük, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilmişik. NATO ilə "Fərdi Tərəfdaşlıq Planı" əsasında çox sıx əlaqədəyik. Eyni zamanda bizim Asiyadakı tərəfdaşlarımızla yaxşı münasibətlərimiz var. Bunlar bir-birinə mane olmur. Biz elə bir vəziyyətdə olmaq istəmirik ki, hər hansı seçim qarşısında qalaq. Biz inkişafımız üçün lazım olan, milli maraqlarımızın qorunması, Dağlıq Qarabağ münaqişəsinin həlli, vətəndaşlarımızın həyatının yaxşılaşdırılması üçün işləri yerinə yetiririk. Bütün bunlar, ölkədə insanların təhlükəsizliyi, sülhün və sabitliyin qorunması, Azərbaycan üçün ən önəmli şəraitlərin yaradılması bir Prezident kimi mənim borcumdur. Bu istiqamətdə nə lazımdırsa, biz bütün işləri görəcəyik.

Aparıcı: Cənab Prezident, Pakistan Televiziyasının studiyasına gəldiyinizə görə Sizə çox minnətdarıq.

"ŞƏKƏRPARYƏN" PARKI İLƏ TANIŞLIQ

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslamabaddakı "Şəkərparyən" parkına gəlmişdir.

Bu parkın salınmasına Pakistan İslam Respublikasının yaradıldığı ilk ildən başlanmışdır.

Prezident İlham Əliyev burada 1996-cı ilin aprelində ümummilli liderimiz Heydər Əliyevin Pakistana rəsmi səfəri zamanı əkdiyi ağaca baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, ötən illər ərzində Pakistan İslam Respublikasının qonaqları – xarici ölkələrin məşhur dövlət və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlər bu parkda xatirə olaraq ağac əkmişlər və bunların hər birinə diqqətlə qulluq edilir.

Prezident İlham Əliyev parkla tanış oldu və xatirə ağacı əkdi, sonra İslamabad şəhərinin gözəl mənzərəsini seyr etdi. Ölkəmizin rəhbərinə məlumat verildi ki, paytaxtın genişləndirilməsi, yeni park və küçələrin salınması nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev parkın xatirə kitabına ürək sözlərini yazdı. Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

AZƏRBAYCANIN PAKİSTANDAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 13-də ölkəmizin Pakistan İslam Respublikasındakı səfirliyinə gəlmişdir. Burada dövlətimizin başçısını səfir Eynulla Mədətli, səfirliyin əməkdaşları, İslamabadda təhsil alan azərbaycanlı tələbələr hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev səfirliyin fəaliyyəti, iş şəraiti ilə yaxından tanış oldu, ümummilli liderimiz Heydər Əliyevin 1996-cı ildə İslamabada və Pakistan Prezidenti Pərviz Müşərrəfin 2004-cü ildə Bakıya rəsmi səfərlərini əks etdirən fotostendə baxdı.

Dövlətimizin başçısı səfirliyin binasında Pakistan-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin daha da genişləndirilməsi və möhkəmləndirilməsində cəmiyyətin rolundan danışıldı.

Prezident İlham Əliyev cəmiyyətin üzvlərinə tövsiyələrini söylədi, gələcək fəaliyyətlərində uğurlar dilədi.

Sonra Azərbaycan Prezidenti səfirliyin əməkdaşları, cəmiyyətin üzvləri və tələbələrlə xatirə şəkli çəkdirdi. Cəmiyyətin adından Prezidentə xatirə hədiyyəsi təqdim olundu.

AZƏRBAYCAN PREZİDENTİ FAYSAL MƏSCİDİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasına rəsmi səfərinin sonuncu günü qardaş ölkənin ən böyük dini ocaqlarından olan Faysal məscidini ziyarət etmişdir.

Dövlətimizin başçısına paytaxt İslamabadda bu məscidin yaranması, fəaliyyəti barədə məlumat verildi və bildirildi ki, burada Qurani-Kərimin on minlərlə nüsxəsi, islama aid dəyərli materiallar toplanmışdır və qorunub saxlanılır. Dini mərasimlər zamanı eyni vaxtda minlərlə insanın namaz qılması, dua etməsi üçün şərait vardır.

Prezident İlham Əliyev məscidlə tanışlıqdan məmnunluğunu bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABƏŞ-İN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Prezident sarayında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) prezidenti Devid Vudvordu qəbul etmişdir.

Bu ilin fevralında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri platformasından ilk neftin çıxarılmasını çox əhəmiyyətli hadisə kimi qiymətləndirən cənab Devid Vudvord ötən dövr ərzində bu sahədə işlərin böyük uğurla davam etdirildiyini nəzərə çarpdırdı. O, ümidvar olduğunu bildirdi ki, Ba-

kı-Tbilisi-Ceyhan qlobal layihəsi yaxın vaxtlarda başa çatacaq və hasil olunan neft əsas ixrac boru kəməri ilə uğurla nəql ediləcəkdir.

Mərkəzi Azəri platformasından ilk neftin çıxarılmasını Azərbaycanın böyük neft erasının başlanması kimi yüksək dəyərləndirən dövlətimizin başçısı İlham Əliyev ölkəmizdə bu sahədə işlərin müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu işlər bundan sonra da uğurla davam edəcək, Bakı-Tbilisi-Ceyhan qlobal enerji layihəsinin başa çatdırılması ölkəmizin ABƏŞ-lə əməkdaşlığının yeni mərhələsinin əsasını qoyacaqdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ İŞƏ QƏBUL OLMAQ İSTƏYƏN NAMİZƏDLƏR ÜÇÜN TEST İMTAHANI KEÇİRİLMİŞDİR

Tələbə qəbulu üzrə dövlət komissiyası xarici işlər nazirliyində işləmək arzusunda olan namizədlər üçün aprelin 17-də test imtahanı keçirmişdir.

Sənəd vermiş 694 namizəddən test imtahanında 661 nəfəri iştirak etmişdir.

İmtahan sual kitabçasına 130 sual daxil edilmişdi. İlk 90 sual ixtisas fənlərinə aid idi. Həmin test suallarına Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, Azərbaycan Respublikasının Konstitusiyası (20 sual), beynəlxalq münasibətlər (20 sual), beynəlxalq iqtisadi münasibətlər (20 sual), beynəlxalq hüquq (20 sual) və xarici dildən (10 sual) tapşırıqlar daxil edilmişdi. Bu sualların hər birinin düzgün cavabı 1 balla qiymətləndirilir (cəmi 90 mümkün bal). Sonrakı 40 sual psixometrik suallardır və namizədin şəxsi keyfiyyətlərini aşkar etmək məqsədi daşıyırdı.

Test tapşırıqları işçi qrupu tərəfindən qapalı bunker şəraitində hazırlanmışdır. İmtahanın gedişinə nəzarət xarici işlər nazirliyi və tələbə qəbulu üzrə dövlət komissiyasının məsul işçiləri tərəfindən həyata keçirilmişdir.

Suallara cavab vermək üçün namizədlərə 3 saat vaxt verilmişdir. İmtahan başa çatdıqdan 3 saat sonra namizədlərin imtahan nəticələri TQDK-nın binasında və internet saytı vasitəsilə elan edilmişdir.

Test imtahanlarının yekununa görə 72 və daha artıq bal toplamış namizədlər Xarici İşlər Nazirliyində aparılacaq müsabiqəyə buraxılmalı idi. Lakin namizədlərin heç biri 72 bal toplaya bilməmişdir. Bunu nəzərə alaraq II mərhələyə buraxılmaq üçün bal həddi 65-ə endirilmişdir.

II mərhələyə buraxılmış namizədlər aşağıdakılardır: Süleymanov Adil Roman oğlu - 71 bal; Əhmədli Samir Məhəmməd oğlu - 69 bal; Müseyibova Xatirə Qaşam qızı - 68 bal; Babayev Əlibala Qənimət oğlu - 67 bal; Kərimli Vaqif Asif oğlu - 66 bal; Qurbanov Vüqar İsrail oğlu - 66 bal; Qasımova Könül Vaqif qızı - 66 bal; Əlibəyli Ülkər Qulamhüseyn qızı - 66 bal; Heydərli Erkin Akif oğlu - 65 bal.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

Aprelin 18-də xarici işlər nazirliyində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Praqa prosesi çərçivəsində aprelin 15-də Londonda keçirilmiş növbəti görüşünə həsr

olunmuş brifinq keçirilmişdir.

Nazirliyin əməkdaşı, Londonda keçirilmiş görüşlərdə Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak etmiş Hüseyn Hüseynov görüş barədə məlumat verərək bildirmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə keçirilmiş görüş Praqa prosesi çərçivəsində baş tutmuşdur.

Hüseyn Hüseynov görüşdə müzakirə edilmiş məsələlərin nazirlərin Praqa prosesi çərçivəsində bundan əvvəl keçirdikləri görüşlərdə müzakirə etdikləri məsələlərdən ibarət olduğunu diqqətə çatdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI-AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Mariya İşler Biguinin başçılığı ilə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyətinin üzvləri ilə görüşməkdən məmnunluğunu bildirdi və komitənin növbəti iclasının Bakıda uğurla keçməsini yüksək qiymətləndirdi. Ölkəmizin Avropa İttifaqı ilə əlaqələrə böyük əhəmiyyət verdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, Avropaya inteqrasiya Azərbaycan üçün prioritet məsələlərdən biridir. Son illər Azərbaycanla Avropa İttifaqı arasında çox gözəl işgüzar münasibətlərin yarandığını qeyd edən dövlətimizin başçısı ötən il Avropa İttifaqının tədbirlərində iştirakını məmnunluqla xatırladaraq bildirdi ki, bu tədbirlər zamanı keçirdiyi görüşlər həm Azərbaycanın, həm də Avropa İttifaqının əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsində maraqlı olduğunu göstərdi.

Azərbaycanın Avropanın yeni qonşuluq siyasətində fəal iştirakını vurğulayan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu çərçivədə qarşılıqı əlaqələr bundan sonra da genişlənəcəkdir. Nəqliyyat, infrastruktur, enerji, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük imkanlar olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı bu işbirliyinin gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.

Azərbaycanın Avropa İttifaqı ilə uğurlu əməkdaşlığının bölgədə sülh və sabitlik yaranması işinə xidmət etdiyini bildirən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə Avropa İttifaqının diqqətinin artdığını qeyd etdi və bu məsələ ilə əlaqədar Aİ-nin xüsusi nümayəndəsinin fəaliyyət göstərməsini həmin diqqətin təzahürü kimi qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqının əməkdaşlığının gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bir daha vurğuladı.

Bakıya səfərdən böyük məmnunluq duyduqlarını söyləyən, Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini razılıqla xatırlayan xanım Mariya İşler Biguin dövlətimizin başçısı ilə yenidən görüşmək imkanından məmnunluq hissi keçirdiklərini bildirdi. Geniş tərkibdə nümayəndə heyətinin Azərbaycana səfərini ölkəmizə olan marağın bariz nümu-

nəsi kimi dəyərləndirən qonaq Avropa İttifaqının respublikamızla münasibətlərin inkişafına əhəmiyyət verdiyini vurğuladı.

Nümayəndə heyəti üzvlərinin Bərdədə məcburi köçkünlərlə görüşdüyünü bildirən xanım Biguin dedi ki, biz onların çətin şəraitdə yaşadıqlarının şahidi olduq. Bizdə bir daha belə qənaət yarandı ki, Avropa Parlamentinin üzvləri Dağlıq Qarabağ münaqişəsinin həlli işinə öz töhfələrini verməlidirlər.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR

Aprelin 17-də xarici işlər nazirliyində işləmək arzusunda olan namizədlər üçün test imtahanı keçirilmişdir. İmtahanın nəticələri ilə əlaqədar aprelin 19-da xarici işlər nazirinin müavini Vaqif Sadıqov mətbuat konfransı keçirmişdir.

Vaqif Sadıqov "Diplomatik xidmət haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası qanunlarına əsasən, nazirliyin tarixində ilk dəfə olaraq, diplomatik xidmət işinə qəbulun müsabiqə yolu ilə aparıldığını bildirmişdir.

O demişdir ki, Xarici İşlər Nazirliyində yaradılmış müsabiqə komissiyasına martın 22-dən aprelin 9-dək 695 nəfər sənəd təqdim etmişdir. Namizədlərin hər birinə imtahana buraxılmaq üçün müvafiq sənədlər verilmişdir. Lakin 33 nəfər imtana gəlməmiş, 1 nəfər qaydaları pozduğuna görə imtahandan kənarlaşdırılmış, 1 nəfər isə imtahan başlayandan sonra könüllü olaraq zalı tərk etmişdir.

İmtahan sual kitabçasına 130 sual daxil edilmişdi. İlk 90 sual ixtisas fənlərinə aid idi. Həmin test suallarına Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, Azərbaycan Respublikasının Konstitusiyası (20 sual) ilə, beynəlxalq münasibətlər (20 sual) və beynəlxalq iqtisadi münasibətlərlə (20 sual), beynəlxalq hüquqla (20 sual) və xarici dillə (10 sual) bağlı tapşırıqlar daxil edilmişdi. Bu sualların hər birinin düzgün cavabı 1 balla qiymətləndirilir (cəmi 90 mümkün bal). Sonrakı 40 sual psixometrik suallardır və namizədin şəxsi keyfiyyətlərini aşkar etmək məqsədi daşıyırdı.

Suallara cavab vermək üçün namizədlərə 3 saat vaxt ayrılmışdır. İmtahan başa çatdıqdan 3 saat sonra namizədlərin imtahan nəticələri TQDK-nın binasında və internet saytı vasitəsilə elan edilmişdir.

Test imtahanlarının yekununa görə 72 və daha artıq bal toplamış namizədlər Xarici İşlər Nazirliyində aparılacaq müsabiqəyə buraxılmalı idi. Lakin namizədlərin heç biri 72 bal toplaya bilməmişdir. Bunu nəzərə alaraq, II mərhələyə buraxılmaq üçün bal həddi 65-ə endirilmişdir. Beləliklə, 9 nəfər ikinci mərhələyə buraxılmışdır. Aprelin 21-də ikinci mərhələ təşkil olunacaqdır. Namizədlər bu mərhələdə Azərbaycan dilində və xarici dildə inşa yazacaqlar. Burada 5 ballıq qiymətləndirmə tətbiq olunacaq və növbəti mərhələyə keçmək üçün namizədlər, heç olmasa, 3 bal qiymət almalıdırlar.

Sonda Vaqif Sadıqov jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Prezident sarayında Rusiya Federasiyasının P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, SSRİ xalq artisti Vladimir Fedoseyevi qəbul etmişdir.

Simfonik orkestrin Bakıda konsertinin böyük uğurla keçdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında humanitar sahədə, o cümlədən mədəniyyət, incəsənət sahəsində əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çarpdırdı.

Prezident İlham Əliyev bu il Rusiyada Azərbaycan ilinin, gələn il isə Azərbaycanda Rusiya ilinin keçirilməsini ölkələrimizin əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Vladimir Fedoseyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Moskvada, Bakıda görüşlərini həmişə böyük məmnunluqla xatırladığını bildirdi, O, bu dahi şəxsiyyətin onun konsertlərində iştirak etməsindən həmişə böyük şərəf duyduğunu vurğuladı.

Azərbaycanda ona və rəhbərlik etdiyi orkestrin üzvlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən qonaq ölkəmizdə musiqinin inkişafı üçün çox gözəl şərait yaradıldığını söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HƏMMƏRUZƏÇİLƏRİ ANDREAS QROSSU VƏ ANDRES HERKELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qrossu və Andres Herkeli qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-Avropa Şurası Parlament Assambleyası əməkdaşlığının müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Moldova Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Moldovanın dövlət bayraqları ilə bəzədilmiş Kişinyov beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı İlham Əliyevə təyyarənin pilləkəni yanında milli geyimli oğlan və qız gül dəstəsi və duz-çörək təqdim etdilər.

Prezident İlham Əliyevi Moldovanın Baş naziri Vasile Tarlev, Baş nazirin müavini, xarici işlər naziri Andrey Stratan, digər yüksək vəzifəli şəxslər, ölkəmizin Kişinyovdakı səfiri Tələt Əliyev, Moldovadakı Azərbaycan diasporunun üzvləri hörmət və ehtiramla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha gəldi.

PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 21-də Moldova Respublikası Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Moldova Prezidenti Vladimir Voronin Azərbaycan Prezidenti İlham Əliyevi böyük səmimiyyətlə və mehribanlıqla qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycanın və Moldovanın dövlət himnləri səsləndi. Prezidentlər dövlət bayraqlarına təzim edərək, fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Moldovanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Vladimir Voroninə təqdim olundu.

Prezidentlər sarayın salonunda dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 21-də Azərbaycan Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.

Prezidentlər Azərbaycan və Moldova arasında ikitərəfli münasibətlərin inkişafı üçün dövlət başçılarının görüşlərinin əhəmiyyətini vurğuladılar, müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın gücləndirilməsi məqsədi ilə parlament, hökumət, nazirliklər səviyyəsində dialoqun inkişaf etdirilməsinin zəruri olduğunu bildirdilər.

Görüş zamanı beynəlxalq və regional xarakterli məsələlər geniş müzakirə olundu. Dövlət başçıları beynəlxalq səviyyədə tanınmış sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyini bir daha təsdiqləyərək, təcavüz aktlarına və suveren dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş təhdidlərə qarşı beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsinin vacibliyini vurğuladılar.

Tərəflər terrorizmin, təcavüzkar separatçılığın bütün forma və təzahürlərini birmənalı şəkildə pisləyərək, bu sahədə əməkdaşlığın gücləndirilməsinin zəruriliyini bildirdilər.

Prezidentlər iqtisadi əlaqələrin inkişafı sahəsində hökumətlərarası komissiyanın rolunu qeyd etdilər, bu əlaqələrin inkişafı üçün geniş imkanlar olduğunu vurğuladılar.

AZƏRBAYCAN-MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident Vladimir Voronin Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfərindən məmnunluğunu ifadə etdi və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini salamladı.

Azərbaycan Prezidenti rəsmi səfərə dəvətinə görə Moldova rəhbərinə təşəkkürünü bildirdi və səfərin iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ olacağını söylədi.

Dövlət başçıları ikitərəfli münasibətlərin möhkəm hüquqi bazası olduğunu - 1997-ci il noyabrın 27-də imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilənin və 2004-cü il oktyabrın 26-da imzalanmış Birgə Bəyannamənin bu əlaqələrin inkişafında mühüm rolunu qeyd etdilər.

Prezidentlər beynəlxalq və regional təşkilatlarda - BMT, ATƏT, Avropa Şurası, QİƏT və GUÖAM çərçivəsində qarşılıqlı fəaliyyəti gücləndirmək niyyətlərini vurğuladılar. Onlar Avropa yeni qonşuluq siyasətinin Avropaya inteqrasiyaya, mövcud münaqişələrin nizamlanmasında Avropa Birliyinin daha fəal iştirakı daxil olmaqla, regionda sülh, sabitlik və əmin-amanlığın qorunub saxlanmasına yardım göstərəcəyini bildirdilər.

GUÖAM ölkələri dövlət başçılarının aprelin 22-də Moldovanın paytaxtında keçiriləcək zirvə görüşünün əhəmiyyətini vurğulayan prezidentlər bir sıra regional iqtisadi layihələrin həyata keçirilməsi ətrafında da fikir mübadiləsi apardılar.

Dövlət başçıları INOGATE proqramı və digər layihələr, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində regional əməkdaşlığın genişləndirilməsini dəstəklədiklərini bildirdilər.

Görüşdə ikitərəfli hökumətlərarası komissiyanın fəaliyyətinin birgə müəssisələrin yaradılmasına, Azərbaycan və Moldovanın iqtisadi subyektləri arasında birbaşa əlaqələrin qurulmasına yönəldilməsinin zəruriliyi vurğulandı.

Moldova Prezidenti Azərbaycan sərmayəçilərinin müxtəlif iqtisadi layihələrdə fəal iştirakını, xüsusilə Curculeşt terminalının və neft emalı zavodunun tikintisində rolunu qeyd etdi.

Görüşdə Prezident Vladimir Voronin Prezident İlham Əliyevə dünya şöhrətli unudulmaz böyük şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş nəfis tərtibatlı fotoalbom təqdim etdi.

SƏNƏDLƏRİN İMZALANMASI

Aprelin 21-də Kişinyovda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

"Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında Moldova Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Moldova Baş nazirinin müavini, xarici işlər naziri Andrey Stratan imzaladılar.

"Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında baytarlıq-sanitariya Konvensiyası"nı Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov və Moldovanın kənd təsərrüfatı və yeyinti sənayesi naziri Anatoli Qorodenko imzaladılar.

"Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında hava əlaqəsi haqqında saziş"i Azərbaycan Hava Yolları Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Moldova Aviasiya Xidmətinin rəhbəri Vitali Mruk imzaladılar.

Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Moldovanın informasiya inkişafı naziri Vladimir Molojen "Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş"i imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında saziş"i "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Nizami Xudiyev və "Teleradio-Moldova" İctimai Şirkətinin prezidenti İmle Teleşku imzaladılar.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Aprelin 21-də, sənədlərin imzalanması mərasimindən sonra prezidentlər birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI

- Hörmətli İlham Heydəroviç!

Sizi bir daha ürəkdən salamlayıram. İkitərəfli münasibətlərimizin tarixində Moldova Respublikasına ilk rəsmi səfərə gəlməyinizə şadam. Mən azərbaycanlı dostlarımızı salamlayıram və sizi ikitərəfli münasibətlərimizi daha da genişləndirəcək və dərinləşdirəcək beş mühüm sazişin imzalanması münasibətilə təbrik edirəm.

Ötən dəfə, Azərbaycan Respublikasına mənim rəsmi səfərim zamanı biz 9 saziş imzaladıq və bugünədək bizim 30 sazişimiz vardı və indi 5-i də əlavə edildi və ümumilikdə 35 sazişimiz var. Mən kütləvi informasiya vasitələrinin nümayəndələrinə bunu da bildirməyimə çox şadam ki, yeni yaradılan Azərbaycan-Moldova hökumətlərarası komissiyasının dünən və srağagün ilk iclası olmuşdur. Komissiya ikitərəfli münasibətlərimizlə bağlı bütün problemləri, məsələləri müzakirə etmişdir. Düşünürəm ki, bu hüquqi baza - 35-dən çox saziş və hökumətlərarası komissiyanın yaradılması bizə birgə fəaliyyət yolu ilə daha da irəliləməyə imkan verəcəkdir.

İlham Heydəroviç, əminəm ki, Sizin iştirak edəcəyiniz GUÖAM ölkələrinin sabahkı sammiti də ikitərəfli münasibətlərin dərinləşməsində və genişlənməsində ciddi addım olacaqdır.

Bizi Azərbaycanla çoxdankı dostluq bağlayır. Bundan başqa, Azərbaycan diasporu Moldova Respublikasının ən fəal vətəndaşları sırasındadır, çox nizam-intizamlı, sosial baxımdan çox fəaldır. Digər diasporlarla birlikdə gənc dövlətimizi demokratiya, insan hüquqlarına əməl olunması və ölkəmizdəki bütün millətlərdən olan vətəndaşlar arasında hərtərəfli münasibətlərin inkişaf etdirilməsi prinsipləri əsasında qurmaq üçün bütün işləri görür.

Curculeşt terminalının başlıca sərmayəçisi olmaq barədə Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan hökumətinin qəbul etdiyi cəsarətli qərar Moldovaya yönəldilən sərmayələrin həcmi baxımından misilsizdir, bir də o cəhətdən misilsizdir ki, bu terminalın köməyi ilə biz ölkəmizin yanacaq ehtiyatları ilə təmin olunması sahəsində çox ciddi problemləri həll edəcəyik. Bu, ölkələrimizi daha da birləşdirəcəkdir.

Bizim bütün sahələrdə bütöv bir fəaliyyət proqramımız var. Bizim tariximiz və gələcək üçün perspektivlərimiz var.

Prezident Əliyevlə biz beynəlxalq səviyyədə, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı fəaliyyət haqqında razılığa gəlmişik. Ərazilərimizdəki silahlı münaqişələr məsələsini BMT Baş Məclisinin müzakirəsinə birgə çıxarmaq qərarındayıq, Birləşmiş Millətlər Təşkilatının müəyyən komitələrinə seçkilər zamanı bir-birimizi dəstəkləyəcəyik, Avropaya inteqrasiya yolunda təcrübə mübadiləsi üzrə birgə işləyəcəyik. Bəyannaməni və GUÖAM sammitində qəbul olunacaq qərarları nəzərə alaraq, biz, əlbəttə, həmin istiqamətdə əməkdaşlığı da inkişaf etdirəcək və birgə işləyəcəyik.

Bizim həll etməli olduğumuz çoxlu problemimiz var. Ərazi bütövlüyü məsələsini xüsusi qeyd etmək istəyirəm. Biz ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyirik və bu problemin həllinə təkan verə biləcək bütün tədbirlərdə iştirak etməyə hazırıq. Biz onları dəstəkləyir və başa düşürük, çünki bizim də belə çox ciddi, sağalmayan yaramız vardır. Mən Dnestryanı bölgə problemini nəzərdə tuturam. Bu məsələdə Azərbaycanla həmişə birlikdə işləyəcək və çalışacağıq ki, bizdəki və Azərbaycandakı bu münaqişələr həll olunsun.

İlham Heydəroviç, yaxın dostlarımdan biri kimi Sizi Moldovada bir daha ürəkdən salamlayıram və düşünürəm ki, Sizin səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, ölkələrimizin xalqlarının rifahı naminə münasibətlərimizin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, hörmətli Vladimir Nikolayeviç!

İlk növbədə, dost və qardaş ölkəyə - Moldovaya dəvətə görə bir daha təşəkkür etmək istərdim. Biz bu səfərə böyük əhəmiyyət verir və ümid edirik ki, bu səfər, danışıqlar və əldə olunacaq razılaşmalar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Sizin ötən il Azərbaycana uğurlu səfərinizi və onun gedişində ikitərəfli, regional və

beynəlxalq xarakterli çox geniş əhatəli məsələlər barəsində fikir mübadiləsi aparıldığını hamımız xatırlayırıq. Həmin səfər, əslində, bütün mövcud problemlərdə mövqelərimizin nə qədər yaxın olduğunu aydın şəkildə göstərdi. Biz ikitərəfli əməkdaşlığımıza çox böyük əhəmiyyət veririk. Bu yaxınlarda Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında qərar qəbul etməyimiz buna sübut ola bilər. Düşünürəm ki, səfirlik yaxın vaxtlarda işinə başlayacaqdır. Həmçinin demək istəyirəm ki, Azərbaycan parlamentində Moldova-Azərbaycan dostluq qrupu fəaliyyət göstərir. Əminəm ki, deputatlarımız arasında əməkdaşlığa bu qrup da kömək edəcəkdir.

Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Regionumuzda baş verən proseslər barədə baxışlarımız uyğun gəlir, Avropaya inteqrasiya məsələlərində bir-birimizi dəstəkləyirik. Azərbaycan Avropa Birliyinin yeni qonşuluq proqramına daxil edilmişdir və Avropa Birliyi ilə münasibətlərimiz uğurla inkişaf edir. Biz bu istiqamətdə Moldovanın uğurlarına da şadıq. Başqa sözlə, strateji xəttimiz çərçivəsində yollarımız uyğun gəlir. Biz GUÖAM çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət veririk. Şübhə etmirəm ki, GUÖAM-ın sabahkı sammiti regional işlərdə getdikcə daha böyük nüfuz qazanan bu təşkilatın fəaliyyətində yeni mərhələ olacaqdır. Bu təşkilatın yaradıldığı ilk gündən Moldova da, Azərbaycan da burada çox mühüm və fəal rol oynamışlar.

Regional əməkdaşlıq məsələləri də ölkələrimiz üçün çox böyük əhəmiyyət kəsb edir və bu baxımdan bizim aramızda tam qarşılıqlı anlaşma var. Deməliyəm ki, biz iqtisadi əməkdaşlığa böyük diqqət yetiririk. Hökumətlərarası komissiya var və ümidvarıq ki, bu komissiyanın, habelə müxtəlif kommersiya və biznes qurumlarının fəaliyyəti ölkələrimizin daha güclü qarşılıqlı əlaqələrinə kömək edəcəkdir. Vladimir Nikolayeviç dedi ki, Azərbaycan sərmayəçiləri Moldovada həyata keçirilən layihələrə böyük maraq göstərmişlər və bu layihələr beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənmişdir və gerçəkləşdirilməyə başlanmışdır.

Düşünürəm ki, bu, həm ikitərəfli əməkdaşlığın, həm də regional kooperasiyanın çox mühüm cəhətidir, habelə GUÖAM çərçivəsində əməkdaşlığın çox mühüm elementi kimi qiymətləndirilə bilər. Bizim energetika sahəsində, nəqliyyat dəhlizlərində əməkdaşlıqda çox yaxşı perspektivlərimiz var və bu istiqamətdə çox böyük iş görülür. Buna görə də Vladimir Nikolayeviçlə ötən il Bakıda başlanmış dialoqumuzu bu gün davam etdirmək, mövqelərimizin yaxınlaşdığını bir daha vurğulamaq mənim üçün çox xoş idi. Bizim aramızda heç bir fikir ayrılığı yoxdur, biz beynəlxalq aləmdə bir-birimizi dəstəkləyirik və razılığa gəlmişik ki, gələcəkdə də müxtəlif beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik.

Amma təəssüflər olsun ki, bizi ümumi problemlər, ümumi yaralar da birləşdirir. Söhbət Azərbaycanda və Moldovadakı təcavüzkar separatizmdən gedir. Bu, dövlətlərimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır. Biz təcavüzkar separatizmdən zərər çəkən ölkələrik. Biz Moldovanın ərazi bütövlüyünün bərpa edilməsi, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın fəaliyyətini və mövqeyini aydın şəkildə dəstəklədiklərinə görə Moldova Prezidentinə və hökumətinə də çox minnətdarıq. Bu münaqişələrdən insanlar zərər çəkmişlər, ölkələrimiz zərər çəkmişlər. Münaqişələrin nəticələrinə nəzər salsaq görərik ki, separatçılar heç nə qazanmayıblar. Haqq bizim tərəfimizdədir, beynəlxalq normalar bizim tərəfimizdədir,

ədalət bizim tərəfimizdədir. Düşünürəm ki, məsələnin mahiyyətinin başa düşülməsinə, habelə onun tənzimlənməsi yollarına dünya ictimaiyyətinin mümkün qədər daha geniş dairəsini cəlb edərək, birgə səylərlə biz ölkələrimizin ərazi bütövlüyünün bərpasına nail olacağıq.

Mən səfərə dəvətə görə, səmimi qəbula görə şəxsən Prezident Vladimir Nikolayeviç Voroninə bir daha dərin təşəkkür etmək istəyirəm. Aramızda həqiqətən çox mehriban dostluq münasibətləri, səmimi münasibətlər yaranmışdır və biz bu münasibətləri çox əziz tuturuq. Ümidvaram ki, sizin gözəl ölkənizə səfərim də ikitərəfli münasibətlərin inkişafında növbəti mərhələ olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım cənab Əliyevədir. Moldova Azərbaycanın sərmayə qoyduğu ilk ölkədir. Əvvəla, məni maraqlandıran odur ki, bu, sadəcə olaraq, təsadüfdür, yoxsa strateji addımdır? İkincisi, terminaldan başqa, konkret olaraq, daha hansı biznes layihələri həyata keçiriləcəkdir?

İLHAM ƏLİYEV: Bu gün biz həmin məsələni müzakirə etdik və belə bir ümumi rəydə olduğumuzu bildirdik ki, siyasi münasibətlər yüksək səviyyədə olmasa, regional əməkdaşlıq məsələlərində ümumi mövqelər olmasa, ümumi strateji xətt olmasa, əlbəttə, belə irimiqyaslı layihələri həyata keçirmək mümkün olmazdı. Yəni ikitərəfli əlaqələrimiz, regionda baş verən proseslərə vahid mövqedən yanaşmalarımız Azərbaycan sərmayəçilərinin Moldova iqtisadiyyatına arxayınca vəsait qoymaları üçün çox yaxşı baza yaratmışdır. Bu layihənin, əlbəttə, kommersiya dəyəri var, çünki belə biznes layihələrində ancaq strateji, siyasi məsələləri əsas tutmaq çətindir. Sözsüz ki, bu, çox böyük strateji əhəmiyyətə malikdir. Şübhə etmirəm ki, bu layihənin həyata keçirilməsi və bütün lazımi infrastrukturun yaradılması regionda tamam yeni şərait yaradacaq, ölkələrimiz arasında, regionun ölkələri arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq, əlbəttə, iqtisadiyyatın digər sahələrində də əlaqələrimizin qaydaya düşməsinə təkan verəcəkdir.

Bu gün mən dedim ki, biz tezliklə Moldovada səfirlik açacağıq. Bu da bizi birləşdirən çox mühüm cəhətdir. Aviasiya xidmətlərinin rəhbərləri arasında saziş imzalanması da əlaqələr və qarşılıqlı gediş-gəliş üçün yaxşı imkanlar yarada bilər. Yəni, bütün bunlar ümumi strateji münasibətlərimiz çərçivəsində görülən işlərdir.

SUAL: Mənim sualım hər iki prezidentədir. Ölkələrimizin Avropa qurumlarına inteqrasiya sahəsində əməkdaşlığının perspektivləri necədir?

VLADİMİR VORONİN: Fevralın 22-də Moldovada biz Avropa Birliyi ilə iş planı imzaladıq. Bu iş planı onun həyata keçirilməsinə aidiyyəti olan hər bir nazirlik, idarə üçün konkret tapşırıqlarda öz əksini tapmışdır. Azərbaycan Prezidenti cənab Əliyevlə strateji cəhətdən belə bir məsələdə razılığa gəldik ki, Avropaya inteqrasiyanın bu strateji vektoru bizim üçün müəyyənedicidir. Biz bu barədə GUÖAM-ın sammitində də danışacağıq. Biz belə bir məsələdə də ilkin razılığa gəldik ki, bu və ya digər problemlər, müxtəlif layihələrin həyata keçirilməsi, Avrointeqrasiya yolunda uğurlar və uğursuzluqlar barədə daim informasiya mübadiləsi aparacağıq. Biz bu məsələdə əməkdaşlıq edəcək, nail olduğumuz bütün müsbət təcrübəni bölüşəcəyik. Düşünürəm ki, bu xətt və birgə işimiz Avropa Birliyinin ölkələri tərəfindən də alqışlanacaq və dəstəklənəcəkdir. Həm də, bu cür dəstək qarşılıqlı olacaqdır. O, Avropaya inteqrasiya yolunu daha az səhvlərlə, yaxud böyük səhvlər olmadan keçməkdə yəqin ki, bizə kömək edəcəkdir.

İLHAM ƏLİYEV: Avropaya inteqrasiya yolu ilə birlikdə getmək təklikdə getməkdən daha rahat və asan olacaqdır. Bu istiqamətdə baxışlarımız və strateji xəttimiz uyğun gəldiyinə görə, Moldova kimi, Azərbaycan da öz gələcək inkişafını Avropa, Avratlantik qurumlarına inteqrasiyada görür. Əlbəttə ki, biz daim təcrübə mübadiləsi və məsləhətləşmələr aparacaq, Avropaya inteqrasiya üzrə birgə layihələr həyata keçirəcəyik. Zənnimcə, belə, bu yolu tez keçmək bizə daha rahat olacaqdır. Əlbəttə ki, ölkələrimizin Avropaya inteqrasiyasına mane olan məsələlərin öz həllini tapması da vacibdir. Hamıya aydındır ki, ərazi bütövlüyü bərpa edilmədən, münaqişələr nizama salınmadan bu proseslər istədiyimiz kimi və ümidvaram ki, Avropa qurumlarının da istədiyi kimi tez getməyəcəkdir. Odur ki, Moldovada Dnestryanı bölgə münaqişəsinin və Azərbaycanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə ölkələrimizə aid olan məsələlər deyildir. Bu məsələlər həm də regional təhlükəsizlik üçün problemdir, Avropaya tam inteqrasiya yolunda problemdir. Ümidvaram ki, Avropaya inteqrasiya prosesi sürətləndikcə bu münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında ədalətli həlli üçün daha əlverişli şərait yaranacaqdır.

ŞTEFAN ÇEL MARENİN ABİDƏSİ ÖNÜNƏ ƏKLİLQOYMA MƏRASİMİ

Aprelin 21-də Azərbaycan Prezidenti İlham Əliyev Kişinyovun mərkəzində moldav xalqının xilaskarı Ştefan Çel Mareninin (Böyük Stefanın) xatirəsinə ucaldılmış abidə kompleksinə gəldi.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev hörmət və ehtiram əlaməti olaraq abidənin önünə əklil qoydu.

Hərbi orkestrin ifasında Azərbaycanın və Moldovanın dövlət himnləri səsləndi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEV İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 21-də Moldovanın Baş naziri Vasile Tarlev ilə görüşmüşdür.

Dövlətimizin başçısı Moldovaya rəsmi səfərinin çox uğurlu keçdiyini bildirdi və Prezident Vladimir Voronin ilə apardığı danışıqları yüksək qiymətləndirdi. O dedi ki, Azərbaycan ilə Moldova arasında beynəlxalq və regional səviyyədə uğurlu əməkdaşlıq bundan sonra da davam edəcəkdir. İqtisadi əməkdaşlığın inkişafı üçün də böyük potensial vardır. Hazırda azərbaycanlı iş adamlarının Moldova iqtisadiyyatında fəal iştirakı təqdirəlayiqdir. Moldovada neft terminalının və neft emalı zavodunun tikintisində Azərbaycanın şirkətləri fəal iştirak edirlər. Bu uğurlu iqtisadi əməkdaşlığın davam etdirilməsi və regional layihələrin həyata keçirilməsi vacibdir.

Söhbət zamanı sahibkarlar və sənaye müəssisələri arasında birbaşa əlaqələrin inkişafının zəruriliyi vurğulandı və bildirildi ki, qarşılıqlı iqtisadi əməkdaşlıq xalqlarımızın rifahına xidmət edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA PARLAMENTİNİN SƏDRİ MARİAN LUPU İLƏ GÖRÜŞÜ

Aprelin 21-də Azərbaycan Prezidenti İlham Əliyev Moldova parlamentinə gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə parlamentin sədri Marian Lupu və onun müavinləri böyük hörmət və ehtiramla qarşıladılar.

Sonra Azərbaycan Prezidenti ilə görüş oldu. Marian Lupu dövlətimizin başçısı İlham Əliyevi öz ölkəsinin ali qanunvericilik orqanında salamlamaqdan məmnunluğunu söylədi, Azərbaycan parlamenti ilə çox yaxşı əlaqələri olduğunu bildirdi. O, beynəlxalq təşkilatlar çərçivəsində Bakıda keçirilmiş konfransda iştirak etməsini də xatırlatdı.

Prezident İlham Əliyev cənab Marian Lupunu bu yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi və dedi ki, Prezident Vladimir Voroninin Bakıya rəsmi səfərindən sonra əlaqələrimiz sürətlə inkişaf edir. Mənim Moldovaya bugünkü rəsmi səfərim də iki ölkə arasındakı dialoqun davamı kimi qiymətləndirilməlidir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanla Moldova arasında regional və ikitərəfli məsələlər üzrə çox gözəl əməkdaşlıq yaranmışdır və bunun davam etdirilməsi zəruridir. İkitərəfli əlaqələrin inkişafında qanunverici orqanların çox mühüm rolu vardır və hazırda Azərbaycan və Moldova parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Prezident İlham Əliyev parlamentlər arasında qanun yaradıcılığı sahəsində əməkdaşlığın davam etdirilməsinin məqsədəuyğun olduğunu da vurğuladı.

Görüşdə Azərbaycan və Moldova arasında ikitərəfli əlaqələrin inkişafına, ölkələrimizin parlament nümayəndələrinin beynəlxalq və regional təşkilatlarda əməkdaşlığına dair fikir mübadiləsi aparıldı.

KİŞİNYOVDA NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Aprelin 21-də, Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfəri çərçivəsində Kişinyovda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi olmuşdur.

Mərasimə toplaşan Moldova ictimaiyyətinin nümayəndələri, Kişinyov sakinləri və Azərbaycan diasporunun üzvləri, Azərbaycan Prezidenti İlham Əliyevi və Moldova Prezidenti Vladimir Voronini hərarətlə qarşıladılar.

Moldovanın mədəniyyət və turizm naziri Artur Kozma mərasimi açaraq, Prezident İlham Əliyevin rəsmi səfəri çərçivəsində Kişinyovda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılmasını tarixi hadisə kimi qiymətləndirdi.

Prezidentlər İlham Əliyev və Vladimir Voronin mərasimdə nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, Moldova Respublikasına rəsmi səfərim zamanı mənə və nümayəndə heyətimizin üzvlərinə yüksək qonaqpərvərlik göstərildiyinə görə Moldova Respublikasının Prezidenti çox hörmətli Vladimir Nikolayeviçə bir daha öz minnətdarlığımı bildirmək istərdim.

Məmnunluqla vurğulamaq istəyirəm ki, sizin gözəl ölkənizə səfərim daha bir əlamətdar hadisə ilə qeyd olunur. Bildiyiniz kimi, bugünkü görüşümüzdən məqsəd Azərbaycan xalqının dahi oğlu, XII əsrin şair və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini açmaqdır. Nizami təkcə şair, müdrik söz ustadı deyildi, həm də gözəl filosof idi. Onun əsərləri dünyanın azad fikir xəzinəsini layiqincə zənginləşdirmiş və bütün Şərq xalqlarını bəşəriyyətin firavanlığı naminə yaxşı, xeyirxah işlərə ruhlandırmışdır. Heç bir şübhə yoxdur ki, Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya mədəniyyətinin qızıl fondunun ən parlaq nümunələrini təşkil edir və bəşəriyyətin böyük nümayəndələrinin yaratdıqları əbədiyaşar abidələr sırasında fəxri yer tutur.

Nizaminin bütün fəlsəfəsinin mərkəzində varlığın ali dəyəri, mənəvi zənginliyin və biliklərin tükənməz mənbəyi kimi insan durur. Nizami insanın cəmiyyətdə roluna öz baxışı prizmasından nəzər salaraq, antik irsi, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik poetik ənənələrini yaradıcılığında əks etdirə bilmişdir. Böyük sənətkarların yaratdıqlarının ümumbəşəri əhəmiyyətinin xüsusiyyətlərindən biri budur ki, onlar həyati əhəmiyyətlidir, əbədiyaşardır, çünki onların mənası gözəllik və əzəmətdədir. Bu əsərlərdə əks olunmuş ümdə arzu - insanları xoşbəxt etmək istəyi ümumbəşəri mədəniyyət inkişaf tapdıqca, dünya miqyasında sivilizasiyanın səviyyəsi yüksəldikcə açıqlanır. Nizaminin yaradıcılığı bunun aşkar təsdiqidir. Onun bəşər sivilizasiyasının inkişafındakı rolunu bütün zəmanələrin bədii və fəlsəfi təfəkküründən katalizatorları olmuş Aristotel, İbn Sina, Dante, Şekspir və Puşkin kimi dühalarla müqayisə etmək olar. Nizaminin əsil humanizm ideyalarını özündə birləşdirən fəlsəfi konsepsiyası onun ilhamlı lirikasının və qəhrəmanlıq dastanının bənzərsiz dünyasında ifadəsini tapmışdır. Məhəbbətin əbədiliyi, həyat və ölümün mənası, cəmiyyətin ideal quruluşu, kainatın böyük sirləri haqqında onun yaratdığı poemalar bugünədək Şərqdə örnək üçün meyar olaraq qalır. Dünya şöhrətli ölməz "Xəmsə"nin müəllifi olan Nizami humanizm, insan şəxsiyyətinin azadlığı ideologiyası, onun iradəsinin taleyin qaçılmaz iradəsindən və təbiətin fövqündə duran qüvvələrin hökmündən asılı olmaması kimi böyük fəlsəfi təlimlərin banilərindən biridir. O, bəşər tarixində ilk dəfə olaraq, insan qəlbinin saf və ülvi amallarının gözəl aləmini ilahiləşdirmiş, nəcib və pak məhəbbətin mükəmməl nəzəriyyəsini yaratmışdır.

Nizami bu gün də müasirimiz olaraq qalır. O, özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir. Xeyrin, ülvi olan hər bir şeyin gözəlliyinin mənəvi qüvvəsinə inamı ilə bu gün də bizimlədir. Fürsətdən istifadə edərək, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözlərini misal gətirmək istəyirəm. O demişdir: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Məhz mədəni əlaqələr, mənəvi yaxınlıq xalqları getdikcə daha çox yaxınlaşdırır və dostluq münasi-

bətlərini möhkəmləndirir". Hesab edirik ki, bu baxımdan Azərbaycan və Moldova təkcə siyasi, iqtisadi və digər sahələrdə deyil, mədəniyyət və incəsənət sahəsində də ikitərəfli əməkdaşlığı genişləndirməlidir.

Əziz dostlar, fürsətdən istifadə edərək qonaqpərvərliyə görə, mənə və nümayəndə heyətimizə səmimi münasibətə görə, bu gün Moldova paytaxtında, Kişinyov şəhərində Azərbaycan xalqının dahi oğlu Nizami Gəncəvinin abidəsinin açılmasına görə Moldova Prezidenti hörmətli Vladimir Nikolayeviç Voroninə, Moldova hökumətinə təşəkkürümü bildirmək istəyirəm.

İkitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bu gün ölkələrimiz arasında siyasi dialoq ən yüksək səviyyədədir, mühüm sazişlər imzalanmışdır, onlar ölkələrimizin gələcək inkişafını müəyyən edəcəkdir. İkitərəfli miqyasda, regional kontekstdə və regionda təhlükəsizliyin qlobal sistemi məsələlərində Moldova ilə Azərbaycanın əməkdaşlığı birinci dərəcəli əhəmiyyətə malikdir. Biz dostuq, biz müttəfiqik, bizi çox şey birləşdirir. Ona görə də bundan sonra da çalışacağıq ki, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq genişlənsin və həm Moldova vətəndaşlarına, həm də Azərbaycan vətəndaşlarına fayda gətirsin.

Bu imkandan istifadə edərək, sizin gözəl ölkənizdə yaşayan azərbaycanlılara xoş münasibətə görə də Moldova Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Moldovadakı Azərbaycan diasporu çox mütəşəkkildir, iqtisadiyyatın inkişafına böyük töhfə verir, Moldova cəmiyyətinə fəal inteqrasiya olunub və əminəm ki, ikitərəfli əlaqələrimizin mühüm vəsiləsidir. Sizə məmnunluqla demək istəyirəm ki, Azərbaycanın Moldovada səfirliyinin açılması haqqında bu yaxınlarda qərar qəbul edilmişdir. Səfirlik bir müddətdən sonra açılacaqdır. Əminəm ki, bundan sonra ölkələrimiz arasında ikitərəfli münasibətlər daha intensiv olacaqdır. Biz əməkdaşlığı bundan sonra da inkişaf etdirmək istəyirik. Bunun üçün yaxşı zəmin var. Ölkələrimizin iqtisadi potensialı artır, qarşılıqlı siyasi əlaqələr möhkəmlənir. Hesab edirəm ki, gələcəkdə ölkələrimiz Avropaya inteqrasiya yolu ilə, quruculuq yolu ilə, regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması yolu ilə birlikdə gedəcəklər.

Hörmətli Vladimir Nikolayeviç, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək və Azərbaycan xalqının ən dərin hörmətini ifadə etmək, bütün Moldova vətəndaşlarına sülh və firavanlıq arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ

- Hörmətli İlham Heydəroviç!

Hörmətli dostlar!

Bəşəriyyətin çoxəsrlik mədəni-tarixi inkişafının gedişində Yer üzündə planetar miqyaslı elə şəxsiyyətlər dünyaya gəlirlər ki, onlar bəşəriyyət qarşısında hədsiz mənəvi üfüqlər açırlar. Bəşər mənəviyyatının belə nəhənglərindən biri də görkəmli Azərbaycan şairi, mütəfəkkiri, humanisti Nizami Gəncəvidir. Onun dünya mədəniyyətinə töhfəsini, hörmətli Azərbaycan Prezidentinin burada dediyi kimi, Dantenin, Şekspirin, Puşkinin

və bəşəriyyətin digər görkəmli mütəfəkkirlərinin misilsiz irsi ilə müqayisə etmək olar.

Qeyd etmək xoşdur ki, bu gün paytaxtımızın mərkəzində biz Azərbaycan xalqının adı dünya sivilizasiyasının xəzinəsinə daxil olan böyük oğlunun büstünü açırıq. 800 ildən də çox əvvəl Nizami Gəncəvi dünyaya bəyan etmişdir ki, xalqın böyüklüyü onun sayından və ya yaşadığı ərazinin sahəsindən deyil, onun dünya ədəbiyyatının inkişafına töhfəsindən və öz ağıl-zəkası və istedadı ilə insanı xoşbəxt etmək səylərindən asılıdır. Bu gün biz o alimləri, yazıçıları, şairləri minnətdarlıq hissi ilə xatırlayırıq ki, onların sayəsində Nizaminin "Leyli və Məcnun", "Yeddi gözəl", "Sirlər xəzinəsi" və digər ölməz əsərləri müxtəlif dillərə tərcümə edilmiş və bütün ziyalı bəşəriyyətin sərvətinə çevrilmişdir. Şair öz əsərlərində yaşadığı dövrün hadisələrini əks etdirmişdir. Lakin bu əsərlər bizim dövrümüzdə də heyrətamiz dərəcədə müasirdir və onlara ehtiyac var. Nizaminin humanist amallar tərənnüm olunan gözəl poeziyası bizim Moldovada da yaxşı məlumdur və sevilir.

Bu gün mən Moldova Respublikasındakı Azərbaycan diasporunun mədəniyyət sahəsində münasibətlərin möhkəmlənməsinə töhfəsini ayrıca qeyd etmək istərdim. Nizami Gəncəvinin büstünün qoyulması bu sahədə münasibətlərimizin daha bir təsdiqidir. Əminəm ki, ölkələrimiz arasında mədəni əlaqələrin, siyasi, iqtisadi, sosial münasibətlərin daha da möhkəmləndirilməsi dövlətlərarası münasibətlərin yüksək səviyyədə inkişafına lazımınca kömək edəcəkdir. Hörmətli İlham Heydəroviç, Azərbaycan diasporunun, əslində, yarısından çoxunun yanında mən suveren dövlətlərimizin tarixində Moldova Respublikasına ilk rəsmi səfərə gəlməyə razılıq verdiyinizə görə və bu illər ərzində ikitərəfli əməkdaşlığımızda yaranmış qarşılıqlı anlaşmaya görə, münasibətlərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Düşünürəm ki, bu, xalqlarımızın rifahı naminə Azərbaycanın da, Moldovanın da möhkəmlənməsinə və inkişafına kömək edəcəkdir.

Sağ olun.



Sonra prezidentlər abidənin üzərindəki ağ örtüyü götürdülər. Büstün önünə dövlət başçılarının adından əklillər qoyuldu. Prezidentlər İlham Əliyev və Vladimir Voronin Moldova Azərbaycanlıları Konqresinin sədri və diasporun üzvləri ilə səmimi söhbət etdilər.

"KRİKOV" ŞƏRABLARININ İSTEHSALI KOMBİNATI İLƏ TANIŞLIQ KOMBİNATI İLƏ TANIŞLIQ

Aprelin 21-də Azərbaycan Prezidenti İlham Əliyev və Moldova Prezidenti Vladimir Voronin Kişinyovdakı "Krikov" şərab istehsalı kombinatına gəldilər.

Burada dövlət başçılarını müəssisənin rəhbərləri böyük hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev yüksək keyfiyyətli şərab məhsullarının istehsalı ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, yerin altında inşa edilmiş bu nadir müəssisə ötən əsrin 50-ci illərində almanlar tərəfindən tikilmişdir və burada dünyanın ən məşhur şərabları, o cümlədən Azərbaycanın "Bayan" şərabı da saxlanılır.

Azərbaycan Prezidenti kombinatın istehsal sahələrini gəzdi və şampan şərablarının hazırlanması prosesi ilə tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Aprelin 21-də Moldova Prezidenti Vladimir Voroninin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ

- Hörmətli İlham Heydəroviç!

Hörmətli azərbaycanlı dostlar və burada olan həmvətənlərimiz!

Yaxşı adamlar, yaxşı qonaqlar sarıdan bəxtim yaman gətirir və mən Azərbaycan Prezidentinə Moldova torpağında bir daha xüsusi məmnunluqla deyirəm: "Xoş gəlmisiniz!"

Mən bayağılığa varmayacağam, lakin, İlham Heydəroviç, deməliyəm ki, Sizinlə birlikdə gördüyümüz iş böyük işdir. Mən bunu belə hiss edirəm. Münasibətlərimizin bu səhifələrinin uzunmüddətli perspektivləri var və onlar ölkələrimizin xalqlarına gərəkdir. Azərbaycanın çoxəsrlik tarixində Şərqin də, Qərbin də təsiri var. Bu, mədəni irsdə də özünü göstərir. Siz bütün yolların qovuşuğunda yerləşirsiniz, biz moldovanlar da Şərqlə Qərb arasında bir növ kiçik körpüyük. Ona görə də mənafelərimizin uyğun gəlməsi təsadüfi deyildir. Bu mənafelər qarşımızda duran çox böyük sayda problemlərin üst-üstə düşməsindən də irəli gəlir. Bir sözlə, bu gün Sizinlə birlikdə gördüyümüz işlər həmin problemlərdən çoxunun həllinə kömək edir. Biz insanların gözünə dik və açıq baxa bilərik, çünki görə bildiyimiz işləri görmüşük. Sonrasını tarix göstərəcəkdir.

Xoş gəlmisiniz, səfərinizə görə sağ olun, Sizə ən xoş arzularımı bildirirəm. Dost Azərbaycan xalqına uğurlar və tərəqqi arzulayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz Vladimir Nikolayeviç!

Əziz dostlar!

Qonaqpərvərliyə görə bir daha təşəkkür etmək istəyirəm. Həqiqətən, bu gün səhər tezdən mən və nümayəndə heyətimizin üzvləri çox hərarət hiss edirik. Bu həm havada, həm görüşlərimizdə, həm ürəklərimizdə, həm də ünsiyyətimizdədir. Mən bundan çox məmnunam.

Münasibətlərimizin inkişafı sübut edir ki, uzunmüddətli perspektivdə Moldova və Azərbaycan regionda daha mühüm rol oynayacaqdır. Mən Sizinlə tam razıyam ki, bu gün, indiki vaxtda regionun gələcək dönməz inkişafının möhkəm təməli qoyulur. Azərbaycan da, Moldova da dinamik surətdə inkişaf edən ölkələrdir. Onlar Avropaya inteqrasiyaya, modernləşmə proseslərinə, təkmilləşməyə və tərəqqiyə meyillidir. İqtisadi və siyasi proseslərin, habelə regional əməkdaşlığın inkişafı çərçivəsində bizim çox böyük gələcəyimiz var.

Vladimir Nikolayeviç, fürsətdən istifadə edərək, Sizi ikinci müddətə Moldova Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik etmək istəyirəm. Moldova vətən-

daşlarının Sizə böyük etimad göstərməsi münasibətilə təbrik edirəm, bu etimad Prezident vəzifəsində göstərdiyiniz dörd illik fəaliyyətin nəticəsidir, siyasətinizin və konkret əməli işlərinizin nəticəsidir. Çünki insanlar sözə, vədlərə görə, şüarlara görə deyil, məhz işə görə səs verirlər. Onlar konkret işlərə görə, öz ölkəsinin xalqına xidmətə görə səs verirlər. Rəhbərin daha bir xoşbəxtliyi onun xalqın etimadını və dəstəyini hiss etməsindədir. Siz fəxr edə bilərsiniz ki, Moldova xalqı Sizə etimad göstərir və Siz bu etimadı şərəflə doğruldursunuz.

Əminəm ki, münasibətlərinizin gələcəyi çox uğurlu olacaqdır. Biz müttəfiqlik əlaqələrini bundan sonra da davam etdirəcəyik, məsələləri - həm energetika məsələlərini, həm də iqtisadi məsələləri, eləcə də ərazi bütövlüyümüzün bərpa olunması, Avropaya inteqrasiya və inkişaf məsələlərini bundan sonra da birlikdə həll edəcəyik. Bu yolda Sizə və bütün Moldova xalqına uğurlar, tərəqqi, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Sizin sağlığınıza!

Dostluğumuzun şərəfinə!

KİŞİNYOVDA GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Aprelin 22-də Kişinyovda "Respublika" sarayında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirilmişdir.

Moldova Respublikasının Prezidenti Vladimir Voronin zirvə görüşünü açaraq, GUÖAM ölkələrinin dövlət başçılarını, habelə Rumıniyanın, Litvanın prezidentlərini, beynəlxalq təşkilatların nümayəndələrini salamladı və bildirdi ki, bu sammit region üçün xüsusi əhəmiyyət daşıyır. Rumıniya, Litva prezidentlərinin, digər beynəlxalq təşkilatların nümayəndələrinin görüşdə iştirakı GUÖAM-a olan marağın göstəricisidir. O, bu qurumla Avropa Birliyi arasında əməkdaşlığın genişləndirilməsinin GUÖAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyünün təmin olunmasına, sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəyini söylədi.

Prezident Vladimir Voronin Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya rəsmi səfərini təşkilatın üzvü olan ölkələrin əməkdaşlığının daha bir bariz nümunəsi kimi dəyərləndirdi.

Gürcüstan Prezidenti Mixail Saakaşvili GUÖAM-ın demokratik dövlətlərin birliyi olduğunu, Ukrayna Prezidentinin təklifi ilə Dnestryanı bölgədəki və GUÖAM-ın üzvü olan digər ölkələrdəki mövcud münaqişələrin müzakirə ediləcəyini bildirdi.

Ukrayna Prezidenti Viktor Yuşşenko GUÖAM çərçivəsində əməkdaşlığın gücləndirilməsinin və bu təşkilatın Parlament Assambleyasının, daimi ofisinin, katibliyinin yaradılmasının zəruriliyini vurğuladı, Dnestryanı bölgədə münaqişənin həlli ilə bağlı təkliflərini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Sədr!

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

İlk növbədə, görüşlərimizin gözəl hazırlandığına və əla təşkil olunduğuna görə ev sahiblərinə və təşkilatçılara dərin minnətdarlığımı bildirmək istərdim. Qonaqpərvərliyinə görə Moldova Prezidenti Vladimir Voroninə də şəxsən təşəkkür etmək istərdim.

Qeyd etmək istəyirəm ki, mən dünəndən Moldovadayam. Dünən mən Moldovaya rəsmi səfərə gəldim və deməliyəm ki, bu səfərin yekunlarından çox məmnunam. Bir çox mühüm sazişlər imzalandı, regional təşkilatlar çərçivəsində və Avropaya inteqrasiya prosesində ikitərəfli əsasda əməkdaşlığa yönəldilmiş strateji xəttimiz bir daha təsdiq olundu. Mən sədr funksiyasının öhdəsindən layiqincə gələn bizim tərəfi də tərifləmək istərdim. Onun fəallığından və əzmkarlığından çox şey asılıdır. İndi təşkilatımız öz inkişafının yeni mərhələsini yaşayır. Düşünürəm ki, bu, ən mühüm mərhələlərdən biridir. Təşkilatımızın dünyada rolu və yeri, habelə onun səmərəliliyi də bu gün işimizi necə səmərəli quracağımızdan asılı olacaqdır. Elə etmək lazımdır ki, təşkilatımız konkret məsələləri həll etməyə qadir olsun, GUÖAM-ın ciddi regional təşkilata çevrilməsi üçün inteqrasiya proseslərinə, ikitərəfli əsasda, çoxtərəfli əsasda əməkdaşlığa təkan versin. Zənnimcə, GUÖAM-ı həqiqətən belə sanballı regional təşkilata çevirmək arzumuz tamamilə təbiidir. Bunun üçün bütün əsaslar, obyektiv səbəblər, habelə ölkələrimizin Xəzər dənizi-Qara dəniz regionunda təhlükəsizlik tədbirlərini möhkəmlətmək üzrə əməkdaşlıq etmək, Avropaya inteqrasiya proseslərinə qoşulmaq niyyəti var.

Bizi çox şey birləşdirir. Ölkələrimiz arasında ikitərəfli əsasda ən səmimi, ən mehriban münasibətlər, qardaşlıq münasibətləri mövcuddur. Odur ki, bu münasibətləri regional və beynəlxalq əməkdaşlıq formatında da möhkəmlətmək və inkişaf etdirmək arzumuz təbiidir. Mən təşkilatımızın işində dostlarımızın – dost ölkələr olan Rumıniya və Litva prezidentlərinin də iştirak etməsindən çox məmnunam. Bu, təşkilatımızın əhəmiyyətinin və sanbalının artmasının daha bir göstəricisidir, habelə düşünürəm ki, daha geniş məkanda gələcək regional əməkdaşlıq üçün çox yaxşı zəmindir. Əminəm ki, qarşıya qoyulmuş bütün məqsədlərə çatsaq, planlarımızı həyata keçirə bilsək, şübhəsiz, GUÖAM regional planda çox mühüm rol oynayacaqdır.

Bizi həm də Avratlantik inteqrasiya prosesləri birləşdirir. Bir çox illər ərzində ölkələrimiz bu prosesləri əsas tutur və inteqrasiyaya doğru uğurla irəliləyirlər. Əlbəttə, heç kimə sirr deyil ki, birgə səylərlə inteqrasiya edilsə, bu, daha əlverişli, daha asan və tez olar. Bu məsələdə aramızda heç bir fikir ayrılığı olmadığına, ancaq ümumi yanaşma olduğuna görə, düşünürəm ki, Avropa və Avratlantik strukturlarına inteqrasiya məsələsində səylərimizi necə birləşdirmək üzərində işləmək olar. Ölkələrimizin hamısı NATO, Avropa Birliyi ilə inteqrasiya proseslərinin fəal iştirakçısıdır, antiterror koalisiyasının üzvüdür. Buna görə də bizi birləşdirən olduqca çox amillər var və biz onlardan, əlbəttə, çox səmərəli istifadə etməliyik.

Təəssüf ki, bizi heç də təkcə xoş anlar bəxş edən, bizi ruhlandıran və müstəqilliyimizi

möhkəmləndirən amillər birləşdirmir, bizi ağrı-acımız da birləşdirir. Söhbət ölkələrimizin ərazilərindəki münaqişələrdən gedir. İş elə gətirmişdir ki, postsovet məkanındakı bütün münaqişələr GUÖAM ölkələrinin ərazilərində baş verir. Onların hamısının mənşəyi eynidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Abxaziyadakı münaqişə, Cənubi Osetiyadakı münaqişə və Dnestryanı bölgədəki münaqişə - bütün bunlar təcavüzkar separatizmdən, ölkələrimizin ərazi bütövlüyünün pozulmasından, təcavüzkar separatçı niyyətlərin qurbanları olan milyonlarla qaçqın-köçkünü əziyyətlərə və müsibətlərə düçar etmiş siyasi etnik təmizləmələrdən yaranmışdır. Bizi bu da birləşdirir.

Ona görə də hesab edirəm ki, səylərimizi bu münaqişələrin həllində də birləşdirmək məqsədəuyğun olardı, çünki onların hamısının eyni təbiəti və eyni nizamasalma mexanizmi var. Zənnimcə, biz bu problemlərin nizama salınması üçün çox fəal işləməli və çərçivə prosesləri hazırlamalıyıq. Bu dörd çox kəskin münaqişənin həllinə vahid yanaşmaya malik ola bilməyimiz üçün həmin çərçivə proseslərini fəal əməkdaşlıq etdiyimiz təşkilatların - ATƏT-in, Avropa Birliyinin, Avropa Şurasının da təsdiqləməsi çox vacibdir. Bu münaqişələr bizə normal inkişaf etməyə imkan vermir. Bu münaqişələr Avropaya inteqrasiya proseslərini ləngidir. Başa düşürük ki, bu yük Avropaya inteqrasiyamız üzrə prosesi çətinləşdirəcəkdir. Biz ondan azad olmalıyıq. Bunu ancaq və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək olar və lazımdır. Biz belə yanaşmaya tərəfdarıq. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə də əminəm ki, bu münaqişələr öz həllini tapacaqdır. İstərdik ki, bu, mümkün qədər tez baş versin. Ölkələrimizə qarşı təcavüz edən separatçı qüvvələr və təcavüzkarlar da başa düşməlidirlər ki, indi dünyanın yolu tamam başqa istiqamətdədir. Dünya inteqrasiya, əməkdaşlıq, regional təhlükəsizliyin möhkəmləndirilməsi, qloballaşma istiqamətində gedir. Belə şəraitdə problemlərin həllinə mağara psixologiyası ilə yanaşmanın heç bir gələcəyi olmayacaqdır. Zənnimcə, bu, nə qədər tez başa düşülərsə, həmin münaqişələrin ağır nəticələrindən qurtarmaq bir o qədər asan olacaqdır.

Regionumuzdakı separatizm problemlərinə beynəlxalq təşkilatların diqqətinin artmasını da müsbət addım kimi qeyd etmək istəyirəm. Avropa Şurasının bu məsələyə fəal qoşulması buna sübutdur. Bu ilin yanvarında Avropa Şurası Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə qəbul etmişdir. Burada hər şey öz adları ilə dəqiq və aydın şəkildə göstərilmişdir. Yəni göstərilmişdir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmişdir, etnik təmizləmələr aparmışdır. Etnik təmizləmələr siyasəti nəticəsində bir milyon adam qaçqın və məcburi köçkünə çevrilmiş, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur.

Dünyada, o cümlədən də Avropada ölkələrin, xalqların normal yanaşı yaşamasına gözəl nümunələr var, yüksək muxtariyyət statusu vermək üçün bütün lazımi elementlər var. Azərbaycan dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verməyə hazırdır. Lakin biz ərazi bütövlüyümüzün pozulması ilə heç zaman razılaşmayacağıq. Düşünürəm ki, Avropadakı müsbət muxtariyyət təcrübəsi əsas kimi götürülməlidir. Təbii ki, bu məsələlərin həllinə vahid yanaşma olmalıdır. Biz belə ədalətsizliyə və insanın ən adi hüquqlarının və beynəlxalq hüquq normalarının çox kobudcasına pozulmasına yalnız bu halda son qoya bilərik.

Təşkilatımız kommunikasiya, nəqliyyat məsələlərində çox səmərəli əməkdaşlıq edir.

Əminəm ki, bu məsələlərin əhəmiyyəti daha da artacaqdır. Əlbəttə, münasibətlərimizin tərkib hissəsi olan nəqliyyat məsələsini ölkələrimizin coğrafi mövqeyinin özü əvvəlcədən müəyyənləşdirir. Biz bu proseslərə regional əməkdaşlığın tərkib hissəsi kimi, regionumuzda dərin inteqrasiya proseslərinə təkan verəcək, habelə ölkələrimizin iqtisadi vəziyyətinə də çox ciddi təsir göstərəcək amil kimi baxırıq. Yeri gəlmişkən, bizi birləşdirən daha bir cəhət var: ölkələrimizin hamısı çox dinamik inkişaf edir. Onlarda iqtisadi artım - ümumi daxili məhsulun artımı çox yüksəkdir, iqtisadi islahatlar aparılması, azad bazar prinsiplərinin bərqərar olması sürətlə gedir. Odur ki, bu məsələnin də, əlbəttə, çox ciddi əhəmiyyəti olacaqdır. TRASECA proqramı, beynəlxalq təşkilatların diqqətini çəkən proqramlar, habelə GUÖAM-ABŞ proqramı və onun həyata keçirilməsi dövlətlərimizə informasiya mübadiləsinin və təhlükəli cinayətlərə operativ münasibət göstərilməsinin tamamilə nadir sisteminə malik olmağa imkan verəcəkdir. Axı, nəqliyyat layihələrindən təkcə xeyir gətirən qurumlar deyil, təəssüflər olsun ki, həm də cinayətkar ünsürlər, beynəlxalq cinayətkarlıq, narkotrafik istifadə edəcəkdir. Ona görə də özümüzü bütün xoşagəlməz hallardan qorumaq üçün kompleks tədbirlər görmək lazımdır. Biz Smart Digit GUÖAM təşəbbüsünü də dəstəkləyirik. Bu təşəbbüs elektron ticarət, teletəbabət və məsafədən təhsil sahələri də daxil olmaqla, yüksək texnologiyalar sahəsində ABŞ ilə GUÖAM ölkələri arasında daha sıx əlaqələr yaranmasına kömək etməlidir. GUÖAM ölkələri bu layihəni əməkdaşlığımızın daha da dərinləşməsi yolunda mühüm addım kimi qiymətləndirir.

Bugünkü sammit təşkilatımızın tarixinə bir sıra mühüm sənədlərin imzalanması ilə də daxil olacaqdır ki, onların da ən başlıcası, şübhəsiz, Kişinyov Bəyannaməsidir. Bu sənədlər ölkələrimizin, dövlətlərimizin demokratiya dəyərlərinə sadiqliyini, ölkəni və cəmiyyəti inkişaf etdirməyə çalışdığını bir daha təsdiqləyir, Avropa və Avratlantik inteqrasiyası istiqamətində getmək əzmində olduğumuzu göstərir. Əminəm ki, bütün xeyirxah təşəbbüslərimiz həyata keçiriləcək, təşkilatımız öz varlığını möhkəmləndirəcək və gələcək inteqrasiya proseslərinə fəal kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra görüşdə iştirak edən Rumıniya Prezidenti Trayan Besesku, Litva Prezidenti Valdas Adamkus, ABŞ Dövlət Departamentinin Avrasiya üzrə böyük məsləhətçisi Stiven Mənn çıxış etdilər. Səfir Stiven Mənn Amerika Birləşmiş Ştatlarının GUÖAM-ın fəaliyyətinin genişləndirilməsində və ümumiyyətlə, regional əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirdi.

Prezident Vladimir Voronin GUÖAM-da sədrliyin Gürcüstandan Moldovaya keçdiyini bildirərək dedi ki, təşkilatın fəaliyyətinin gücləndirilməsinə və onun daxilində inteqrasiya proseslərinin davam etdirilməsinə çalışacağıq.

Sonra zirvə görüşündə müxtəlif məsələlər barədə müzakirələr aparıldı.

Görüşün yekunu olaraq "Demokratiya, sabitlik və inkişaf naminə" Kişinyov Bəyannaməsi imzalandıqdan sonra dövlət başçıları mətbuat konfransı keçirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldova Respublikasına rəsmi səfərinin ikinci günü, aprelin 22-də öz iqamətgahında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovdakı zirvə görüşündən əvvəl Rumıniya Prezidenti Trayan Besesku ilə görüşmüşdür.

Səmimilik və dostluq şəraitində keçən görüşdə prezidentlər regional qurumlar kimi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və GUÖAM-ın fəaliyyətlərinin gücləndirilməsinin zəruriliyini vurğuladılar və bildirdilər ki, bu, həm də regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verə bilər.

Tərəflər Avratlantik strukturlarına inteqrasiya məsələlərini də müzakirə etdilər. Prezident İlham Əliyev Rumıniyanın bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirərək dedi ki, Azərbaycan da həmin strukturlara inteqrasiya sahəsində mühüm addımlar atmışdır və bu prosesi davam etdirir. Dövlətimizin başçısı Rumıniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrdən danışdı. O, Buxarestə səfərini xatırladaraq bildirdi ki, orada keçirdiyi görüşlərdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri geniş müzakirə olunmuşdur və Azərbaycan tərəfi əlaqələrimizin yüksək səviyyədə olmasından məmnundur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.

Görüş zamanı Prezident İlham Əliyev Ukraynaya səfərini xatırladaraq bildirdi ki, Ukrayna Prezidentinin də Azərbaycana səfəri ilə əlaqədar hazırlıq işləri görülür. Ölkələrimiz arasında əlaqələri daha da inkişaf etdirmək üçün hökumətlərarası müqavilələrin hazırlanması və imzalanması prosesi davam edir.

Tərəflər regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar. Prezidentlər bildirdilər ki, GUÖAM-ın indiki zirvə görüşü Qara dəniz və Xəzər dənizi regionlarında əməkdaşlığın daha da inkişafına kömək edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Dövlət başçıları GUÖAM-ın zirvə görüşündə iştirakdan məmnunluqlarını bildirdilər və tədbiri yüksək qiymətləndirərək dedilər ki, bu sammit regional əməkdaşlıq baxımından çox uğurlu olmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında da geniş fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev və Prezident Mixail Saakaşvili irimiqyaslı layihələrin həyata keçirilməsi, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin tikintisi barədə də söhbət açdılar və vurğuladılar ki, Gürcüstanla Azərbaycan arasında olan uğurlu əməkdaşlıq həm də regional təhlükəsizliyin möhkəmləndirilməsinə töhfəsini verir.

GUÖAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSI

Aprelin 22-də, GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü başa çatdıqdan sonra prezidentlər İlham Əliyev, Vladimir Voronin, Viktor Yuşşenko, Mixail Saakaşvili, habelə Litva və Rumıniya prezidentləri Valdas Adamkus və Trayan Besesku jurnalistlər üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Qeyd etmək istəyirəm ki, GUÖAM ölkələri dövlət başçılarının bu gün keçirilən zirvə görüşü çox uğurlu oldu. Məsələlərin çox konstruktiv müzakirəsi getdi və Kişinyov Bəyannaməsi qəbul edildi. Zənnimcə, bu, təşkilatımızın regionda mövqelərinin daha da möhkəmlənməsi yolunda çox mühüm amildir. Əminəm ki, bu zirvə görüşündən sonra regional problemlər, demokratik proseslərin inkişafı, təhlükəsizliyin möhkəmlənməsi problemləri kontekstində GUÖAM-ın rolu və yeri artacaqdır. Təşkilat çox güclü, ciddi qüvvəyə çevrilir. O, Xəzər dənizi–Qara dəniz regionunda baş verən bütün proseslərdə fəal iştirak edəcəkdir.

Şübhə yoxdur ki, təşkilatın inkişafının bu yeni mərhələsi ölkələrimizdə baş verən proseslər üçün də çox mühüm olacaqdır. Bizi çox şey birləşdirir. Avropaya inteqrasiya məsələlərinə vahid yanaşmalar, terrorizmlə mübarizəyə, regional təhlükəsizlik və Avropa təhlükəsizliyi sisteminin möhkəmləndirilməsinə vahid yanaşmalar, təcavüzkar separatizmlə mübarizəyə vahid yanaşmalar - bütün bunlar Kişinyov Bəyannaməsində öz əksini tapmışdır. Bəyannamədə əməkdaşlığımızın ruhu ifadə edilmiş, habelə meyar və prinsiplər dəqiq göstərilmişdir. Bunların əsasında əməkdaşlığı inkişaf etdirəcək, ölkələrimizdə vəziyyəti təkmilləşdirəcəyik.

Ölkələrimizin ərazilərindəki münaqişələrin həlli prinsiplərinə vahid yanaşmanın ifadə olunmasını da çox mühüm məqam hesab edirəm. Bu, çox vacibdir, çünki biz Moldova, Gürcüstan və Azərbaycandakı münaqişələrin beynəlxalq hüquq prinsipləri əsasında dincliklə həllinə nail olmaq istəyirik və bu zaman vahid, eyniləşdirilmiş yanaşma olmalıdır. Çox şadam ki, buna müvəffəq ola bildik. Əlbəttə, çalışacağıq ki, əməkdaşlığımız region üçün, ölkələrimiz üçün bütün təhlükələrin aradan qaldırılmasını mümkün etsin ki, Avropa və Avratlantik qurumlarına normal inteqrasiya edə bilək.

Zirvə görüşündə dost ölkələrin - Rumıniya və Litvanın prezidentlərinin iştirakını da çox mühüm və əlamətdar hadisə hesab edirəm. Bu, həm təşkilatımıza olan hörmətin, həm

də regional əməkdaşlıq məsələlərinə münasibətin ifadəsidir. Təşkilatımız əməkdaşlıq üçün açıqdır. Hesab edirik ki, regional proseslərin gələcək inkişafı GUÖAM-ı regional miqyasda ciddi qüvvəyə çevirəcəkdir.

Fürsətdən bir daha istifadə edərək, zirvə görüşünün gözəl təşkilinə və bizə göstərilən qonaqpərvərliyə görə ev sahiblərinə - Moldova tərəfinə, şəxsən Prezident Vladimir Nikolayeviç Voroninə təşəkkür etmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra zirvə görüşündə sədrlik edən Moldova Prezidenti Vladimir Voronin kütləvi informasiya vasitələrinin nümayəndələrinə sammitin yekunları barədə məlumat verərək dedi ki, GUÖAM ölkələri demokratiya, qanunun aliliyi və insanın əsas hüquq və azadlıqlarına hörmət prinsiplərinə sadiqliyini, öz xalqlarının firavanlığı naminə GUÖAM dövlətlərinin demokratik sabitliyini dönmədən möhkəmlətməyə və onların iqtisadi əməkdaşlığını inkişaf etdirməyə səy göstərdiklərini bildirdilər.

GUÖAM ölkələrinin prezidentləri mətbuat konfransındakı bəyanatlarında, beynəlxalq terrorizmə və ekstremizmə, onlarla bağlı olan mənfi hallarla - narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, qeyri-leqal miqrasiya, qanunsuz silah alveri, çirkli pulların yuyulması və korrupsiya ilə mübarizədə, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması üzrə birgə səylər haqqında Bəyannamənin müddəalarının və terrorizm, mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayətlər ilə mübarizə sahəsində GUÖAM dövlətlərinin hökumətləri arasında əməkdaşlıq haqqında Sazişin icrası naminə dövlətlərin əməkdaşlığını daha da möhkəmləndirməyin və genişləndirməyin zəruriliyini təsdiqlədilər.

Dövlət başçıları separatizmin və dezinteqrasiyanın perspektivsizliyi və zərərliliyini, güc işlədilməsinin, etnik təmizləmələrin və ərazi işğallarının yolverilməzliyini bildirdilər. Onlar Dnestryanı bölgə, Dağlıq Qarabağ, abxaz problemlərinin və digər problemlərin beynəlxalq hüquq normaları və prinsipləri əsasında, nəzarət edilməyən ərazilərin mənsub olduqları dövlətlərə yenidən qaytarılması yolu ilə həllində və müxtəlif etnik qrupların dövlətlərin beynəlxalq aləmdə tanınmış sərhədlərinin hüdudları daxilində birgə dinc yaşamasının təmin edilməsində GUÖAM ölkələrinin və beynəlxalq birliyin birgə səylərini gücləndirməyin vacibliyini vurğuladılar. Dövlət başçıları "dondurulmuş" münaqişələrin həllinə yönəldilən sülh təşəbbüsləri və proseslərini dəstəklədiklərini bildirdilər.

GUÖAM ölkələrinin prezidentləri indiki zirvə görüşünün regionun dövlətləri arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə kömək edəcəyini bildirdilər, regional əməkdaşlıq çərçivəsində gələcəkdə iqtisadi layihələrin həyata keçirilməsinə tərəfdar olduqlarını açıqladılar və GUÖAM ölkələrinin iqtisadi potensialının gücləndirilməsinə dair yeni proqramlar hazırlanmasının zəruriliyini vurğuladılar.

Zirvə görüşü çərçivəsində müxtəlif qurumların və nazirliklərin əməkdaşlığı haqqında ikitərəfli sazişlər də imzalandı.

GUÖAM ölkələrinin səhiyyə nazirliklərinin rəhbərləri, o cümlədən Azərbaycanın səhiyyə naziri Əli İnsanov "GUÖAM-ın üzvü olan ölkələrin səhiyyə nazirlikləri arasında əməkdaşlıq haqqında" saziş imzaladılar.

Üzv ölkələrin ticarət-sənaye palataları arasında "GUÖAM çərçivəsində sərgi-yarmarka fəaliyyəti haqqında" saziş imzalandı. Sazişi Azərbaycan tərəfindən Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev imzaladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞÜ

Aprelin 22-də, GUÖAM ölkələri dövlət başçılarının zirvə görüşü başa çatdıqdan sonra Kişinyovun "Respublika" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.

Dövlət başçıları iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin daha da genişləndirilməsi, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Prezidentlər zirvə görüşünün yekunlarını yüksək qiymətləndirdilər.

Təşkilata üzv olan ölkələrin Avratlantik strukturlarına və NATO-ya inteqrasiyası məsələləri də görüşdə müzakirə olundu.



Aprelin 22-də axşam Moldova Prezidenti Vladimir Voronin tərəfindən GUÖAM ölkələri dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.

SƏFƏR BAŞA ÇATDI

Moldova Respublikasında rəsmi səfərdə olan və GUÖAM ölkələri dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ÜZRƏ BÖYÜK MƏSLƏHƏTÇİSİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında ABŞ Dövlət Departamentinin Avrasiya üzrə böyük məsləhətçisi Stiven Mənni qəbul etmişdir.

Cənab Mənn Bakıya səfərindən və Kişinyovda GUÖAM təşkilatının sammiti zamanı Azərbaycan Prezidenti ilə görüşündən məmnunluq hissi keçirdiyini vurğulamışdır. Qonaq bu tədbirdə Rumıniya və Litva prezidentlərinin də iştirakını GUÖAM-a olan marağın artmasının ifadəsi kimi dəyərləndirmişdir.

Dövlətimizin başçısı GUÖAM sammitinin uğurla keçdiyini qeyd edərək, bu təşkilatın beynəlxalq münasibətlər sistemində rolunun getdikcə artdığını vurğulamışdır. Prezident İlham Əliyev Kişinyov sammitində qəbul olunmuş bəyannamədə, həmçinin orada iştirak edən dövlət başçılarının bəyanatlarında münaqişələrin beynəlxalq hüquq prinsipləri - ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında həllinin vacibliyinin vurğulanmasını, təcavüzkar separatizmin pislənilməsini yüksək qiymətləndirmişdir. O, GUÖAM təşkilatının möhkəmlənməsinin gələcəkdə regional sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminliyini vurğulamışdır.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da inkişaf etdirilməsi, ölkəmizdə uğurla həyata keçirilən iri enerji layihələrinin perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QARS VƏ ƏTRAF VİLAYƏTLƏRİ VALİLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Prezident sarayında Türkiyənin Qars vilayətinin valisi Nevzat Turxanı, Iğdır valisi Xəlil Ulusoyu, Ərzurum valisi Cəlaləddin Güvənci, Ağrı valisi Yusuf Yavaşcanı və Ərdahan valisinin vəkili Əhməd Ərdoğdunu qəbul etmişdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Türkiyənin dostluq, qardaşlıq əlaqələri daim yüksək səviyyədə olubdur və bu gün sürətlə genişlənməkdədir. Azərbaycan ilə Türkiyənin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığının daim möhkəmləndiyini və inkişaf etdiyini bildirən Prezident İlham Əliyev dedi ki, bu, dövlət başçıları səviyyəsində və hökumətlərarası əlaqələrdə öz təzahürünü tapmışdır.

Dövlətimizin başçısı Türkiyənin ayrı-ayrı vilayətləri ilə Azərbaycanın əlaqələrini və dost ölkənin valilərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərini bu istiqamətdə çox önəmli addım kimi dəyərləndirdi.

Qarsda Azərbaycanın baş konsulluğunun fəaliyyət göstərdiyini xatırladan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu, əlaqələrimizin inkişafına öz töhfəsini verəcəkdir. Dostluq və qardaşlıq münasibətlərimiz bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Qars vilayətinin valisi Nevzat Turxan Prezident İlham Əliyevlə görüşdən çox böyük məmnunluq duyduqlarını bildirdi və nümayəndə heyəti adından dövlətimizin başçısına təşəkkür etdi.

O, Böyük dövlət adamı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə və Prezident İlham Əliyev ilə 1999-cu ilin oktyabrında Naxçıvanda Kazım Qarabəkir Paşa məscidinin təntənəli açılışı zamanı görüşlərini həmişə böyük məmnunluqla xatırladıqlarını söylədi. Nevzat Turxan dedi ki, ulu öndərimiz Heydər Əliyevin 2002-ci ildə Qarsa səfəri vilayətin bütün əhalisinin yaddaşına əbədi həkk olunmuşdur. Biz 2002-ci ildə Türkiyədə ilk dəfə olaraq Qarsda ulu öndər Heydər Əliyevin büstünün və parkın açılmasından böyük iftixar duyuruq. Ölkələrimiz arasında tarixi dostluq, qardaşlıq münasibətləri müxtəlif sahələrdəki əlaqələrimizin yüksək səviyyəyə çatması üçün möhkəm əsas yaratmışdır. Ümidvaram ki, bizim bu səfərimiz ayrı-ayrı bölgələrlə, o cümlədən Naxçı-

van Muxtar Respublikası ilə və ümumiyyətlə, Azərbaycanla əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Nevzat Turxan əmin olduğunu bildirdi ki, onların təmsil etdikləri vilayətlərin iş adamları ilə Azərbaycanın iş adamları, nazirlikləri və digər strukturları, Naxçıvan Muxtar Respublikasının iş adamları arasındakı əlaqələr ölkələrimizin münasibətlərinin daha da inkişaf etməsinə töhfə verəcəkdir. Qonaq dedi ki, cənab Prezident, biz Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşması istiqamətində Sizin fəaliyyətinizi və dəstəyinizi yüksək qiymətləndiririk.

Nevzat Turxan Qars vilayətinin bütün əhalisinin dərin ehtiramını və salamlarını dövlətimizin başçısına çatdıraraq dedi ki, cənab Prezident, Sizi Qarsda böyük səbirsizliklə gözləyirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ XİLASETMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Prezident sarayında Beynəlxalq Xilasetmə Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinin keçirdiyi bir sıra görüşlər haqqında məlumatı olduğunu bildirən dövlətimizin başçısı onların ölkəmizdə qaçqın və məcburi köçkünlərə yardım göstərmələrini alicənab missiya kimi dəyərləndirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini və bu işğal nəticəsində bir milyondan çox vətəndaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xatırlatdı. Beynəlxalq donor təşkilatlarının bəzilərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması üzündən qaçqınlara və məcburi köçkünlərə humanitar yardımı azaltdığını vurğulayan dövlətimizin başçısı Beynəlxalq Xilasetmə Komitəsinin bu yardımı davam etdirməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən də mümkün olan bütün tədbirlərin görüldüyünü bildirdi.

Ölkəmizdə qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr salındığını nəzərə çarpdıran dövlətimizin başçısı onların çadır şəhərciklərindən hər cür şəraiti olan müasir tipli qəsəbələrə köçürüldüyünü vurğuladı. Prezident İlham Əliyev dedi ki, işğalçı Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxarılandan, qaçqınlar və məcburi köçkünlər öz doğma torpaqlarına qayıtdıqdan sonra bu məsələnin tam həll edilməsi mümkün olacaqdır.

Dövlətimizin başçısı bir daha əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Xilasetmə Komitəsi ilə əməkdaşlığı bundan sonra da uğurla davam edəcəkdir.

Beynəlxalq Xilasetmə Komitəsinin prezidenti Corc Rup onun başçılıq etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və ölkəmizin müvafiq təşkilatları tərəfindən onların səfərinin təşkilinə göstərilən köməyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qonaq qeyd etdi ki, Beynəlxalq Xilasetmə Komitəsi Azərbaycanda fəaliyyətə başladığı ilk gündən bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə yardım göstərməyi qarşıya məqsəd qoymuşdusa, indi bu Komitənin ölkəmizdə fəaliyyəti daha da genişlənmişdir. Hazırda onlar Azərbaycanın bir sıra regionlarında iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında da iştirak edirlər.

Corc Rup Azərbaycanda yerli qeyri-hökumət təşkilatlarının qeydiyyatının asanlaşdırılması istiqamətində görülən işləri yüksək dəyərləndirdi. Qonaq rəhbərlik etdiyi komitənin son illərdəki fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Prezident sarayında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Jak Diufun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev cənab Jak Diuf ilə yenidən görüşməyindən məmnunluğunu bildirdi, bu təşkilatın Azərbaycanda fəaliyyətinin genişləndiyini və ölkəmizlə əməkdaşlığının daha da möhkəmləndiyini vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bu münaqişə nəticəsində yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox soydaşımıza BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının yardım göstərməsi istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə əməkdaşlığı bundan sonra da genişlənəcək və nümayəndə heyətinin ölkəmizə səfəri bu işə xidmət edəcəkdir.

Prezident İlham Əliyevlə yenidən görüşməyindən çox məmnun olduğunu söyləyən Jak Diuf rəhbərlik etdiyi təşkilatın ölkəmizdə fəaliyyətinin genişləndiyini xüsusi vurğuladı, azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardım edilməsi ilə əlaqədar konkret işlər görüldüyünü bildirdi.

Qonaq Azərbaycanda digər sahələrdə, o cümlədən kənd təsərrüfatı, fermer təsərrüfatlarına yardım göstərilməsi istiqamətində fəaliyyət planları hazırlandığını da nəzərə çarpdırdı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlıq bundan sonra da genişlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATINDAKI SƏFİRİ STEFAN MİNİKESİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Prezident sarayında ABŞ-ın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı səfiri Stefan Minikesi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o

cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, qlobal enerji layihələrinin həyata keçirilməsi sahəsində əməkdaşlıq, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN ERMƏNİSTANIN İŞĞALÇI SİYASƏTİNİ DAHA BİR BEYNƏLXALQ TƏŞKİLATIN DİQQƏTİNƏ ÇATDIRMIŞDIR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 29-da Çilidə Amerika Dövlətləri Təşkilatı xarici işlər nazirlərinin toplantısında iştirak etmişdir.

Elmar Məmmədyarov 75 ölkənin təmsil olunduğu konfransda məruzə ilə çıxış etmişdir. O, məruzəsində Azərbaycanda demokratiyaya keçidin və ümumi dəyərlərə sadiqliyin demokratik inkişaf üçün təkcə imkanlar deyil, həm də ciddi çağırışlar gətirən bir proses olduğunu bildirmişdir.

Elmar Məmmədyarov məhkəmələrin müstəqilliyi, siyasi mədəniyyətin və təhsilin inkişafı, vətəndaş cəmiyyətinin dəstəklənməsi ilə demokratik sabitliyin gücləndirilməsi, insan hüquqlarının qorunmasına xidmət edən cavabdehliyin və cəmiyyətdə şəffaflığın artırılması istiqamətində daha böyük tərəqqiyə nail olmaq üçün ölkəmizin sistemli və məqsədyönlü addımlar atdığını konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Regional əməkdaşlığa gəlincə, nazir, GUÖAM dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinin, həmçinin bu istiqamətdə səylərin beynəlxalq səviyyədə dəstəklənməsinin qeyd olunan ölkələrdə gedən demokratik proseslərin inkişafına təkan verəcəyinə, regionun təhlükəsizliyinin və sabitliyinin təminatına xidmət edəcəyinə əminliyini vurğulamışdır.

GUÖAM-a daxil olan dövlətlərin üçündə mövcud olan dondurulmuş münaqişələrə toxunan Elmar Məmmədyarov, bu dövlətlərin ərazi bütövlüyünün pozulmasının, ümumilikdə, regionun təhlükəsizliyini və sabitliyini sual altında qoyduğunu, qlobal əhəmiyyətli nəqliyyat layihələrinin reallaşdırılmasına təhlükə törətdiyini xüsusi qeyd etmişdir.

Nazir, həmçinin münaqişələrin həll olunmamasının tammiqyaslı demokratik quruculuğa əngəl törətdiyini və hazırda Avropada gedən inteqrasiya proseslərinə mənfi təsir göstərdiyini önə çəkmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə konfrans iştirakçılarına məlumat verən Elmar Məmmədyarov, güc tətbiqinin təkcə beynəlxalq səviyyədə qəbul edilmiş davranış qaydalarının pozulması deyil, ümumilikdə, demokratik norma və prinsiplərə etinasızlığın göstəricisi olduğunu diqqətə çatdırmışdır.

İnsan hüquqlarına hörmətin demokratiyanın başlıca meyarı olduğunu bildirən nazir, nəzarətdən kənarda qalan ərazilərin onların məxsus olduqları dövlətlərə birləşdirilməsinin, qaçqın və məcburi köçkünlərin hüquqlarının vasitəçilik missiyasını öz üzərinə götürmüş dövlətlərin və beynəlxalq təşkilatların birgə səyləri nəticəsində bərpa edilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Konfransın sonunda Azərbaycan nümayəndəsinin dondurulmuş münaqişələrlə bağlı çıxışının nəticəsi olaraq, yekun sənədə bənd əlavə edilmişdir. Qeyd edilmişdir ki, demok-

ratik cəmiyyət regional təşkilatlarla birgə demokratiyaya olan təhlükənin qarşısını almaq məqsədi ilə ümumi diplomatik strategiyaları əlaqələndirməli, dünyada ağır və dondurulmuş münaqişələrin sülh yolu ilə həlli üçün ikitərəfli və çoxtərəfli səylərin sürətləndirilməsi naminə xüsusi fəallıq göstərməlidir.

Elə həmin gün konfrans çərçivəsində nazir Elmar Məmmədyarov ABŞ-ın dövlət katibi xanım Kondoliza Raysla görüşmüş, ABŞ-Azərbaycan münasibətlərinin gələcək inkişafı və əməkdaşlığın möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparmışdır. Görüşdə, həmçinin mayın 25-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimində iştirak etmək üçün ölkəmizə gələcək ABŞ-ın yüksək səviyyəli nümayəndə heyətinin səfəri və enerji sahəsində əməkdaşlıq məsələləri də müzakirə mövzusu olmuşdur.

Görüş zamanı nazir Elmar Məmmədyarov xanım Kondoliza Rayı Azərbaycana səfərə dəvət etmişdir. ABŞ-ın dövlət katibi dəvəti məmnuniyyətlə qəbul etmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov mayın 1-də vətənə dönmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BƏLƏDİYYƏLƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Türkiyənin İsgəndərun, Payas, Ceyhan, Sarımazı, Mərsin-Toroslar, Lapseki şəhərlərinin bələdiyyə başçılarını və bu ölkədə fəaliyyət göstərən Azərbaycan dərnəklərinin nümayəndələrini qəbul etmişdir.

Dövlətimizin başçısı qardaş ölkədən Azərbaycana böyük heyətin gəlməsindən məmnunluğunu, onların Bakıda çoxlu görüşlərinin gözəl nəticələri olacağını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin əlaqələrinin çox yüksək səviyyədə olduğunu söyləyərək dedi ki, Türkiyə ilə Azərbaycan arasında qardaşlıq, dostluq münasibətlərinin daha da möhkəmlənməsi bizim üçün önəmli bir vəzifədir. Mən çox şadam ki, bizim ənənəvi əlaqələrimiz sürətlə inkişaf edir.

Azərbaycan Prezidenti Türkiyəyə ötənilki rəsmi səfərinin nəticələrinin uğurlu olduğunu xatırladaraq dedi ki, biz Türkiyənin Qars vilayətində Baş konsulluq açdıq. Siyasi, iqtisadi, mədəni əlaqələrimiz dərinləşir. Bizi iqtisadi cəhətdən daha da sıx birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir, bu ay onun istismara verilməsini qeyd edəcəyik. Eyni zamanda, qaz kəməri də tikilir. Bütün bunlar həm iqtisadiyyatlarımız üçün önəmli olacaq, həm də regionda və dünyada bizim mövqelərimizi daha da möhkəmləndirəcəkdir. Türkiyə və Azərbaycan çox dinamik inkişaf edən ölkələrdir. Bizim iqtisadiyyatımız böyük sürətlə artır və ölkəmizin iqtisadi vəziyyəti yaxşılaşır. İqtisadi cəhətdən nə qədər güclü olsaq, bizim maraqlarımız da o qədər təmin olunacaqdır.

Dövlətimizin başçısı eyni zamanda Azərbaycan ilə Türkiyə arasında işbirliyinə, nəhəng enerji layihələrinin həyata keçirilməsinə və digər məsələlərə əngəl törətməyə çalışan qüvvələrin mövcud olduğunu qeyd edərək, bu baxımdan bölgədə gedən proseslərdə xalqlarımızın birliyinin və sıx əməkdaşlığın daha da möhkəmlənməsinin vacibliyini vurğuladı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamını xa-

tırladan Prezident İlham Əliyev Türkiyə ilə Azərbaycanın bu prinsiplə yaşadığını və gücləndiyini diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan dövlətimizin başçısı bu təcavüz nəticəsində bir milyondan çox soydaşımızım yerindən-yurdundan didərgin düşərək, ağır şəraitdə yaşamasından söhbət açaraq dedi ki, buna baxmayaraq Azərbaycan inkişaf edir, ölkəmizdə bütün sahələrdə islahatlar həyata keçirilir, Azərbaycan iqtisadi cəhətdən ildən-ilə daha da güclənir.

Prezident İlham Əliyev dövlət və hökumət səviyyəsində əlaqələrlə yanaşı, ölkələrimizin şəhərləri, bələdiyyələri səviyyəsində də münasibətlərin, qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı.

Almaniyanın Maynts şəhərindəki Azərbaycan Mərkəzinin sədri, Avropa Azərbaycanlıları Konqresi Mərkəzi Şurasının üzvü, türk icmalarının əlaqələndiricisi Bəşar Kömür onlara göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, biz Sizi atanızın vəsiyyətinə sahib çıxan insan kimi tanıyırıq. Bu ölkə və Siz bizim ürəyimizdəsiniz. Xaricdə yaşayan soydaşlarımıza göstərdiyiniz diqqətə görə Sizə onların təşəkkürlərini çatdırıram. Başda Siz olmaqla, bu işlərin həyata keçirilməsində xidmət göstərən Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bizə "Hansı ölkədə olursunuz olun, siz oranın vətəndaşı olun. Amma öz mədəniyyətinizi, ənənənizi və ən əhəmiyyətlisi, öz dilinizi unutmayın" müdrik kəlamını söyləmişdir. Mən bunların unudulmadığını Sizə çatdırmaq istəyirəm. Atanız onu da demişdir ki, "xaricdə Azərbaycanın məsələlərini yaşadığınız ölkədə dövlət başçısına, siyasətçilərə, ziyalılara çatdırın ki, onlar da bizi tanısınlar, bizim məsələmizə kömək etsinlər".

Bəşar Kömür 25 ildir Almaniyanın Maynts şəhərində yaşadığını söylədi və Reynland-Pfalts əyalətinin hökumət başçısının Azərbaycan Prezidentinə ehtiramını və səmimi arzularını əks etdirən məktubunu oxudu.

İsgəndərun bələdiyyəsinin sədri Mete Aslan səmimi qəbula görə minnətdarlığını bildirərək dedi ki, biz burada ulu öndər Heydər Əliyevin dediyi kimi, millət anlayışının ən gözəl örnəklərini yaşamağa başladıq. Bizlər, bələdiyyə başçıları hər zaman Azərbaycanın arxasında olduğumuzu, dəstək verdiyimizi və verəcəyimizi bildirmişik. Bunu bir daha hüzurunuzda bəyan edirik. Həm də hamımız üçün ağrılı problem olan Qarabağ məsələsində dəstək vermək üçün gəlmişik.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradıldığını bildirərək son illər dünya azərbaycanlılarının təşkilatlanması, onların fəaliyyətinin daha da möhkəmləndirilməsi istiqamətində çox uğurlu işlər görüldüyünü vurğuladı.

Sonra Ceyhan bələdiyyəsinin sədri Hüseyn Sözlü bu görüşdən böyük şərəf duyduğunu söylədi, Azərbaycan Prezidentinə Ceyhan əhalisinin, Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının səmimi salamlarını çatdıraraq dedi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bizim üçün həm də qardaşlıq kəməridir. Bunu qardaşlarımızla yaxınlaşmağımızda bir vasitə kimi görür və açılışını həyəcanla gözləyirik. Prezident İlham Əliyevin hi-

mayəsilə Azərbaycan Xalq Cümhuriyyətinin 86-cı ildönümü ilə əlaqədar Ceyhanda tədbirlər keçirdik. Biz bundan böyük məmnunluq duyduq. Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi eyni zamanda bütün türklərin təşkilatıdır. Biz bütün bunlara görə rəhmətlik Heydər Əliyevə və Sizə təşəkkürümüzü yetiririk.

Daha sonra Hüseyn Sözlü Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışına hazırlıq işləri ilə bağlı Ceyhan bələdiyyəsində görüləcək tədbirlər barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, Ceyhan şəhərinin mərkəzində, ən görkəmli yerdə Heydər Əliyevin və Atatürkün üzbəüz abidələri ucaldılacaqdır. İstəyirik, boru kəmərinin istismara veriləcəyi gündə həmin abidənin açılışını edək. Türk dünyasının böyük oğlu Heydər Əliyev daim Türkiyə Cümhuriyyətinin qəlbində olacaqdır. Biz "bir millət, iki dövlət" həqiqətini bütün dünyaya duydurmaq istəyirik. Bu heykəllər Azərbaycanda hazırlanacaqdır. Eyni zamanda, Ceyhanın ən gəzməli-görməli yerində, gözəl bir "Türk dünyası" parkı salacağıq. Biz bütün bunları zati-alinizin himayəsində başa çatdıracağıq.

Prezident İlham Əliyev deyilənləri yüksək qiymətləndirdi, nəzərdə tutulan tədbirlərin Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin istifadəyə veriləcəyi gündə keçirilməsi təşəbbüsünü müsbət qarşıladı.

Türkiyə nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Prezident İlham Əliyev qonaqlarla xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA SEYMİNİN LATVİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Prezident sarayında Latviya Seyminin Latviya-Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Latviyada Azərbaycan səfirliyinin açılmasını ölkələrimizin əlaqələrinin daha da inkişaf etməsi işinə xidmət göstərəcəyinə əmin olduğunu bildirdi. Azərbaycanın Latviyada güclü diasporu olduğunu bildirən Prezident İlham Əliyev bir neçə il bundan əvvəl bu diasporun üzvləri ilə keçirdiyi görüşü məmnunluqla xatırlatdı və Azərbaycan diasporunun Latviyanın ictimai, siyasi həyatında fəal iştirakı üçün yaradılmış şəraiti yüksək qiymətləndirdi.

Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Latviya əməkdaşlığının genişləndiyini qeyd edən Prezident İlham Əliyev Avropa və Avratlantik strukturlarına inteqrasiya prosesində ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu vurğuladı.

Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirakını bildirən dövlətimizin başçısı AB çərçivəsində də ölkələrimizin əlaqələrinin uğurla inkişaf etdiyini bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev dedi ki, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizi işğal edilmiş, etnik təmizləmə nəticəsində 1 milyondan çox soydaşımız yerindən-yurdundan zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dövlətimizin başçısı bildirdi ki, erməni separatizmi və Cənubi Qafqazda mövcud olan münaqişələr bu regionun Avropaya inteqrasiyasına çox böyük əngəllər törədir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.

Nümayəndə heyətinin başçısı Oleqs Denisovs Azərbaycan torpağında ilk saatlardan onlara göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycan diasporunun Latviyada ölkənin ictimai, siyasi, iqtisadi həyatında mühüm rol oynadığını qeyd edən Oleqs Denisovs bildirdi ki, Riqada Azərbaycan mədəniyyət mərkəzinin açılması və park salınması üçün yer ayrılması planlaşdırılır. Latviya tərəfi orada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün konkret işlər görür.

O, ölkəmizə ötən səfərlərindən keçən qısa vaxt ərzində Bakıda çox böyük quruculuq işləri aparıldığının şahidi olduqlarını söylədi.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdiyini vurğulayan qonaq Prezident İlham Əliyevi əmin etdi ki, Latviya Avropaya inteqrasiya prosesində Azərbaycanı daim dəstəkləyəcəkdir.

Qonaq ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Prezident sarayında BMT-nin Uşaq fondunun (UNICEF), inkişaf proqramının (UNDP), Əhali fondunun (UNFPA) və Ümumdünya ərzaq proqramının (WFP) İcraiyyə Şuralarının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın BMT strukturları ilə əməkdaşlığından məmnunluğunu ifadə edərək, bu əlaqələrə ölkəmizin böyük əhəmiyyət verdiyini vurğuladı. Prezident İlham Əliyev BMT tərəfindən əvvəllər ölkəmizə göstərilən yardımların əhəmiyyətli olduğunu qeyd etdi.

Beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əlaqələrin yaxşı inkişaf etdiyini bildirən dövlətimizin başçısı BMT strukturları ilə birgə ölkəmizdə həyata keçirilən layihələrin əhalimizin, o cümlədən uşaqların, yaşlıların, kasıb təbəqənin, qaçqın və köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına xidmət etdiyini söylədi.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri BMT strukturlarının Azərbaycanda əldə olunmuş uğurlarla, inkişafla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.

BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Marko Borsotti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ildönümü günündə vaxt tapıb nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi, belə geniş tərkibdə heyətin Azərbaycana səfərini BMT-də islahatlar çərçivəsində həyata keçirildiyini söylədi.

Nümayəndə heyətinin rəhbəri Forsyth Mejia dedi: Cənab Prezident, nümayəndə heyətimizin ölkənizə səfərinin Azərbaycan xalqının böyük lideri, həyata keçirdiyi işlərlə dünya şöhrəti qazanmış siyasi xadim Heydər Əliyevin doğum gününə təsadüf etməsindən məmnunluq duyuruq. Biz BMT-nin müxtəlif strukturlarının Azərbaycandakı fəaliyyəti ilə tanış olmuşuq. Azərbaycan BMT-nin dörd mühüm təşkilatı tərəfindən bir nümunə kimi seçilmişdir. Biz əminik ki, ölkəniz haqqında hazırlayacağımız məruzə təkcə Azərbaycan üçün deyil, BMT-nin təmsil etdiyimiz dörd təşkilatı üçün də çox əhəmiyyətli olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir.

Görüş zamanı Avropa İttifaqı ilə əməkdaşlığın perspektivləri, regional sabitlik və təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün mayın 15-də Polşanın paytaxtı Varşava şəhərinə gəlmişdir.

Dövlətimizin başçısını Varşavanın hərbi hava limanında Polşa Respublikasının rəsmi nümayəndələri qarşıladılar.

Azərbaycan Prezidenti hava limanından maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha - "Le Regina" mehmanxanasına gəldi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANLA GÖRÜŞÜ

Mayın 15-də Varşavanın "Belveder" iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan ilə görüşü olmuşdur. Görüşdə ATƏT-in Minsk qrupu həmsədrləri, Rusiyanın xarici işlər naziri Sergey Lavrov və Fransanın xarici işlər naziri Mişel Barnyö iştirak etmişlər.

Azərbaycan və Ermənistanın xarici işlər nazirləri və həmsədrlər dövlət başçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair apardıqları danışıqların nəticələri, eləcə də Praqa prosesi barədə məruzə etmişlər.

Sonra prezidentlər görüşü təkbətək davam etdirmişlər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə görüş barədə məlumat verərək bildirmişdir ki, üç saat davam edən görüşdə münaqişənin həlli ilə bağlı bəzi detallar müzakirə olunmuşdur. Müəyyən məsələlərdə irəliləyiş, razılıq əldə olunsa da, ümumi prinsipial məsələlərin müzakirəsinə ehtiyac vardır.

Elmar Məmmədyarov demişdir ki, prezidentlər görüşdən sonra Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinə tapşırıq vermişlər ki, xarici işlər nazirləri səviyyəsində danışıqlar, yəni Praqa prosesində razılığa gəlinən məsələlərdən əlavə, bəzi mühüm məqamlar barədə müzakirələri davam etdirsinlər. Bu baxımdan həmsədrlər də öz işlərini davam etdirəcək və fikirlərini yaxın aylar ərzində bildirəcəklər. Ümumiyyətlə, Azərbaycan tərəfi üçün danışıqların formatı o qədər də vacib deyil, əsas nəticədir, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA GÖRÜŞÜ

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuş, Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsinə dair fikir mübadiləsi edilmişdir.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan görüşdən sonra mətbuat üçün brifinq keçirmişlər.

Prezident İlham Əliyev demişdir ki, hər dəfə beynəlxalq tədbirlərdə görüşərkən hörmətli Baş nazir ilə bütün məsələləri müzakirə edirik. Bu gün də ikitərəfli əlaqələr haqqında geniş fikir mübadiləsi aparılmışdır. Regionda gedən proseslər, təhlükəsizliyin təmin olunması məsələləri də diqqət mərkəzində olmuşdur.

Bu gün mən Ermənistan Prezidenti ilə də görüşdüm. Görüş haradasa üç saat çəkdi. Mən görüş barədə, müzakirə edilən məsələlər haqqında hörmətli Baş nazirə məlumat verdim və bu məsələ də müzakirə olundu.

Bizim aramızda olan əlaqələr çox sürətlə inkişaf edir. Türkiyə və Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirirlər. Bir neçə gündən sonra bizi birləşdirən böyük enerji layihəsi başa çatır - Bakı-Tbilisi-Ceyhan boru xətti istismara veriləcəkdir və əlaqələrimizin yeni mərhələsi başlayacaqdır. Ümid edirəm ki, iki dost, qardaş ölkə bundan sonra da bir-birini daim dəstəkləyəcək və xalqlarımız həmişə birlikdə olacaqlar.

Baş nazir Rəcəb Tayyib Ərdoğan demişdir ki, mən hörmətli Cümhur başqanına çox təşəkkür edirəm. Mayın 16-da başlayacaq Avropa Şurasının üçüncü zirvə görüşündən ön-

cə hörmətli İlham Əliyevlə Türkiyə-Azərbaycan əlaqələrini dəyərləndirmək fürsəti əldə etdik. İki qardaş, dost ölkə olaraq Türkiyə ilə Azərbaycan arasındakı bütün məsələləri davamlı müzakirə edirik. Çox sağ olsun, Azərbaycan Prezidenti bu gün Ermənistan Prezidenti ilə görüşləri haqqında bizi məlumatlandırdı. Biz də buna biganə deyilik və münaqişənin tezliklə aradan qaldırılması yolunda atılan lazımi addımları diqqətlə, həssaslıqla izləyirik. Arzumuz odur ki, bu məsələ tezliklə həll edilsin. Düşünürəm ki, beləliklə, bölgə sülhə, təhlükəsizliyə qovuşmuş olacaqdır.

İndiki zirvə görüşünün Avropa Şurasının üzvü olan bütün ölkələr üçün xeyirli və faydalı olacağına ümid edirəm.

Sonra jurnalistlər suallarla müraciət etdilər.

SUAL: Cənab Baş nazir, Siz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bugünkü görüş barədə nə deyə bilərsiniz?

RƏCƏB TAYYİB ƏRDOĞAN: Hər görüş irəliləyişə doğru bir addımdır.

SUAL: Cənab Prezident, Ermənistan tərəfinin mövqeyi sərtdir, yoxsa yumşalmaya doğru nəsə gözlənilir?

İLHAM ƏLİYEV: Bilirsiniz, mövqelər bəllidir. Artıq bu məsələ uzun illərdir müzakirə olunur və hər bir tərəfin öz mövqeyi var. Bu mövqelər bu gün yenidən müzakirə olundu. Bilirsiniz ki, bizim xarici işlər nazirləri də tez-tez görüşürlər, müxtəlif məsələlər müzakirə olunur. Amma biz bu gün Ermənistan Prezidenti ilə belə qərara gəldik ki, aparılmış danışıqlar haqqında mətbuata açıqlama verməyəcəyik. Çünki hələ tezdir. Mən ümid edirəm ki, danışıqlar nəticə ilə sonuclanacaq və aramızda olan məsələlər öz həllini tapacaqdır. Sağ olun.

AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI

Mayın 16-da Polşanın paytaxtı Varşava şəhərinin Kral sarayında Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşü öz işinə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə iştirak etmək üçün Kral sarayına gəldi. Prezident İlham Əliyevi Polşa Prezidenti Aleksandr Kvasnevski, Avropa Şurasının baş katibi Terri Devis böyük hörmət və ehtiramla qarşıladılar.

Avropa Şurasının zirvə görüşü ən mötəbər beynəlxalq tədbirlərdən hesab olunur. Əsası 1949-cu ildə qoyulmuş Avropa Şurası Avropada sülhün, təhlükəsizliyin, insan hüquqlarının qorunması, demokratiyanın inkişafı sahəsində səmərəli fəaliyyət göstərir. 2001-ci ildən AŞ-nin tamhüquqlu üzvü olan Azərbaycan bu təşkilatla sıx əməkdaşlıq edir. Avropa Şurasının birinci zirvə görüşü 1993-cü ildə Vyanada, ikincisi isə 1997-ci ildə Strasburqda keçirilmişdir. Varşava zirvə görüşündə Avropa Şurasına üzv olan 46 ölkənin dövlət və hökumət başçıları, xarici işlər nazirləri iştirak edirlər. Toplantıya Avropa Komissiyasının, BMT-nin nümayəndələri, ABŞ, Kanada və Yaponiyadan müşahidəçilər dəvət olunmuşlar. Nümayəndə heyətləri üzvlərinin zirvə görüşü çərçivəsində görüşlər və yaxud mətbuat konfransları keçirə bilmələri üçün Kral sarayında xüsusi salonlar da ayrılmışdır.

Zirvə görüşündə terrorizmlə mübarizə, qanunsuz miqrasiyanın qarşısının alınması, cinayətkarlıqla və çirkli pulların leqallaşdırılması ilə mübarizə üzrə konvensiyalar qəbul olunmalıdır.

İştirakçılar Kral sarayında qarşılandıqdan sonra birgə xatirə şəkli çəkdirdilər.

Sonra zirvə görüşünün təntənəli açılışı oldu. Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski iştirakçıları salamladı, XXI əsrdə Avropada və dünyada əmin-amanlığın qorunub saxlanılmasının, möhkəm sülh yaradılması üçün konstruktiv tədbirlərin görülməsinin vacibliyini, bu sahədə Avropa Şurasının rolunu vurğuladı və zirvə görüşünə uğurlar dilədi.

Sonra Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Linden, Avropa Şurasının baş katibi Terri Devis, Ukrayna, Norveç, Lüksemburq, Portuqaliya, Finlandiya, İsveçrə, İsveç, Avstriya, Belçika, Rumıniya, İslandiya, Böyük Britaniya və Türkiyənin dövlət, hökumət başçıları çıxış etdilər. Çıxışlarda Avropa Şurasının üçüncü zirvə görüşü Avropanın siyasi həyatında mühüm hadisələrdən biri kimi vurğulandı, müzakirə edilən məsələlərin üzv olan ölkələr üçün faydalı olacağı bildirildi.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə çıxış etdi.

Avropa Şurasının növbəti zirvə görüşünün Varşavada keçirilməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev forumun gözəl təşkil olunmasına görə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevskiyə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Avropa Şurasının üzvü olan ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlər görülməsinin vacibliyini vurğuladı, Ermənistanın hərbi təcavüzünün ölkəmiz üçün doğurduğu ağır nəticələri bir daha xatırlatdı.

Prezident İlham Əliyev dedi: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi böyük sayda insan tələfatına səbəb olmuşdur və bu münaqişənin nəticəsində bu gün Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Avropa Şurasının ən başlıca prinsiplərindən biri - insan hüquqlarının qorunması prinsipi həmçinin pozulmuşdur. Bir milyondan çox azərbaycanlı qaçqın-köçkünün insan hüquqları kobudcasına pozulmuşdur. Avropa Şurasının bu məsələyə dair mövqeyi bizdə böyük ümidlər yaradır. Avropa Şurası Parlament Assambleyasının yanvar ayında qəbul etdiyi qətnamə bu münaqişənin artıq qeyd etdiyim əsas meyarlarını aydın şəkildə əks etdirir. Ona görə də biz hesab edirik ki, bu qətnamənin yerinə yetirilməsi münaqişənin dinc yolla həllinə gətirə bilər və regionda davamlı sülhün bərqərar olunmasına zəmin yaradar. Münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi hər zaman beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. Yəni, hər hansı ölkənin ərazi bütövlüyü toxunulmazdır və əgər o pozulubsa, bərpa olunmalıdır.

Təbii ki, XXI əsrdə biz Avropa Şurasına üzv olan bir ölkənin digər üzv ölkənin ərazisini işğal altında saxlaması faktını qəbul edə bilmərik. Biz öz torpaqlarımızın qaytarılmasını, ərazi bütövlüyümüzün bərpasını tələb edirik.

Biz kompromislərə də hazırıq. Hesab edirik ki, uzun illər ərzində Azərbaycan tərəfindən Dağlıq Qarabağ ermənilərinə mümkün olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifi kifayət qədər ciddi güzəştdir. Bununla yanaşı, biz həmin regionda yaşayan hər kəsin təhlükəsizliyinə zəmanət veririk. Bu təklif hərtərəfli nizamlanma üçün çox vacib element hesab edilə bilər. Lakin eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağ üzərindəki suverenliyi kompromis mövzusu ola bilməz. Biz ərazi bütövlüyümüzlə bağlı heç bir güzəştə gedə bilmərik. Biz bütün dünya ölkələrinin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyünə də hörmətlə yanaşılmasını istəyirik.

Dövlətimizin başçısı ölkəmizdə aparılan iqtisadi islahatlara da toxundu, bir çox beynəlxalq, regional layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm rol oynadığını xatırladaraq dedi ki, Avropaya inteqrasiya yolunda Azərbaycan üçün, eləcə də region üçün ən böyük maneə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və onun tezliklə aradan qaldırılması üçün Avropa ölkələri bu məsələyə daha ciddi yanaşmalıdır.

Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini vurğulayaraq dedi ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUSLA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Varşavada Avropa Şurasının üçüncü sammiti çərçivəsində bir sıra görüşlər keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Litva Respublikasının Prezidenti Valdas Adamkusla görüşmüşdür. Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsinin zəruriliyi vurğulandı. Cənab Adamkus bu yaxınlarda Moldovanın paytaxtı Kişinyovda GUAM ölkələri dövlət başçılarının zirvə görüşündə Prezident İlham Əliyevin dərin məzmunlu nitqini məmnunluqla xatırladaraq bildirdi ki, burada toxunulan məsələlər onda böyük təəssürat yaratmışdır.

Görüşdə regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı və Prezident Valdas Adamkus bir daha vurğuladı ki, əməkdaşlığın daha da genişləndirilməsi hər iki tərəf üçün faydalıdır.

Prezident İlham Əliyev Azərbaycanın Avratlantik strukturlarına, Avropa ailəsinə inteqrasiyaya böyük əhəmiyyət verdiyini bildirərək dedi ki, Azərbaycan Avropa Birliyinin yeni qonşuluq və NATO-nun fərdi əməkdaşlıq üzrə fəaliyyət planına qoşulmuşdur və bu sahədə artıq müəyyən nəticələr vardır. Ölkələrimiz arasında siyasi-iqtisadi sahələrlə yanaşı, digər istiqamətlərdə də əlaqələri genişləndirmək üçün yaxşı imkanlar mövcuddur.

Dövlətimizin başçısı Cənubi Qafqazın Avropaya inteqrasiyasına ən böyük maneənin Ermənistanın Azərbaycana təcavüzü olduğunu bildirdi və bu münaqişənin ağır nəticələrindən ətraflı söhbət açdı.

Azərbaycan və Litva prezidentləri bir-birilərini öz ölkələrinə rəsmi səfərə dəvət etdilər. Dəvətlər məmnunluqla qarşılandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİNİN XARİCİ ƏLAQƏLƏR VƏ YENİ QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI BENİTA FERRERO-VALDNER İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür.

Xanım Benita Ferrero-Valdner Prezident İlham Əliyev ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdı, Azərbaycanın Avropa qonşuluq siyasətində fəal iştirakını yüksək qiymətləndirdi, ölkəmizlə Avropa Birliyi arasında müxtəlif sahələrdə əməkdaşlığın yaxşı inkişaf etdiyini vurğuladı. Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşması planı üzərində konkret işlər görüldüyünü bildirən Benita Ferrero-Valdner Azərbaycanı strateji əhəmiyyəti olan ölkə kimi səciyyələndirdi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, bu problemin bölgənin Avropaya inteqrasiyasına, Cənubi Qafqazda və ümumən regionda sabitliyin, təhlükəsizliyin bərqərar olmasına böyük zərbə vurduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, nəhəng enerji layihələrindən Azərbaycanın rolundan da söhbət açdı.

Xanım Benita Ferrero-Valdner Azərbaycanda aparılan uğurlu islahatlardan xəbərdar olduğunu söyləyərək dedi ki, Avropa Birliyi bu islahatların daha da geniş formada həyata keçirilməsində yardım göstərməyə hazırdır.

Görüşdə Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətli olduğu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycanda keçiriləcək qarşıdakı parlament seçkiləri ilə bağlı bu günlərdə imzaladığı sərəncamı xatırlatdı, ölkəmizin Avropaya inteqrasiya prosesinə sadiq qaldığını, yeni qonşuluq siyasətində daha da fəal iştirak edəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Şurası sammiti çərçivəsində Avropa Şurası Parlament Assambleyasının sədri Rene Van der Linden ilə görüşmüşdür.

Görüş zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq məsələləri və əlaqələrin inkişaf perspektivləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA PREZİDENTİ ALFRED MOİSİU İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Albaniya Respublikasının Prezidenti Alfred Moisiu ilə görüşmüşdür.

Siyasi sahədə ölkələrimiz arasında əlaqələrin mövcudluğunu vurğulayan prezidentlər iqtisadi münasibətlərin əslində olmadığını bildirdilər. Bunun səbəbini Azərbaycan və Albaniyanın bir-biri haqqında yetərincə məlumatının olmaması ilə əlaqələndirən dövlət başçıları belə qərara gəldilər ki, müxtəlif nümayəndə heyətlərinin Bakıya və Tiranaya səfərləri təşkil edilməlidir. Bu istiqamətdə görüləcək tədbirlər hər iki tərəf üçün faydalı olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ KYEL MAQNE BUNDEVİK İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Norveç Krallığının Baş naziri Kyel Maqne Bundevik ilə görüşmüşdür.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın inkişafı, o cümlədən "Statoyl" neft şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti məmnunluqla vurğulandı.

Kyel Maqne Bundevik Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tezliklə istismara verilməsinin çox böyük hadisə olacağını söylədi və bu layihəni dünyanın ən nəhəng layihələrindən biri kimi qiymətləndirdi. Baş nazir məşhur alim, səyyah Tur Heyerdalın Azərbaycan-Norveç əlaqələrinin inkişafındakı rolunu da vurğuladı və onun Azərbaycanla bağlı bir çox xatirələrinin olduğunu söyləyərək, elmi sahədə də əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin inkişafından söhbət açaraq, neft-qaz sahəsindəki fəal əməkdaşlığı xüsusi vurğuladı. Eyni zamanda bildirdi ki, təkcə enerji sektorunda yox, iqtisadiyyatın digər sahələrində də əlaqələri genişləndirmək üçün imkanlar vardır.



Avropa Şurasının üçüncü zirvə görüşünün birinci iş gününün sonunda Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevskinin adından dövlət və hökumət başçılarının şərəfinə ziyafət verildi. Prezident İlham Əliyev ziyafətdə iştirak edirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYA PREZİDENTİ TARYA HALONEN İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen ilə görüşmüşdür.

Səmimilik şəraitində keçən söhbət zamanı prezidentlər Azərbaycanla Finlandiya arasında ikitərəfli əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladılar, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirdilər.

Görüşdə regional, beynəlxalq məsələlər haqqında ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada, onun üçün ayrılmış iqamətgahda Avropa Şurasının baş katibi Terri Devis ilə görüşmüşdür.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın müxtəlif sahələri müzakirə olundu, ölkəmizin Avropa ailəsinə inteqrasiyası barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Varşavada Çexiya Respublikasının Prezidenti Vatslav Klaus ilə görüşmüşdür.

Prezidentlər ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əməkdaşlığın uğurla inkişafından məmnunluqlarını bildirdilər. Vurğulandı ki, yaxın zamanlarda Azərbaycanın Praqada səfirliyinin açılması ikitərəfli əlaqələrin daha da inkişafına və yeni mərhələyə çatmasına xidmət edəcəkdir.

Tərəflər iqtisadi əlaqələrin inkişafı üçün yaxşı perspektivlərin olduğunu, turizm sektorunda əməkdaşlığın əhəmiyyətini vurğuladılar.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və onun ölkəmiz üçün ağır nəticələrindən danışdı və bildirdi ki, bütün bunlara baxmayaraq, Azərbaycan bu problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinin tərəfdarıdır.

Çexiya Prezidenti Vatslav Klaus Azərbaycanın haqq işini dəstəklədiyini və ölkəmizdə gedən uğurlu iqtisadi inkişaf proseslərinin maraqla izlənildiyini xüsusi vurğuladı.

Prezidentlər müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini söylədilər, regional, beynəlxalq və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi apardılar.

AVROPA ŞURASININ ÜÇÜNCÜ ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATMIŞDIR

Mayın 17-də Varşavada, Kral sarayında Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşü davam etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşünün işində iştirak etmişdir.

Sammitin ikinci iş günündə Almaniya, Albaniya, Türkiyə, Portuqaliya, İrlandiya, Slovakiya və digər ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çıxışında iştirakçıların diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltdi, bu problemin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın atdığı addımlardan, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması üçün Avropanın mötəbər təşkilatlarının imkanlarından daha fəal istifadə olunmasının vacibliyindən danışdı və ölkə-

mizin bu məsələ ilə bağlı ədalətli mövqeyini bir daha xatırlatdı.

Çıxışlar yekunlaşdıqdan sonra zirvə görüşündə "Varşava fəaliyyət planı" və "Varşava bəyannaməsi" qəbul olundu. Avropa Şurasının Nazirlər Komitəsində sədrlik Polşadan Portuqaliyaya verildi.

Sənədlərdə Avropa Şurası ilə Avropa Birliyi arasında gələcək əməkdaşlığın uğurlu inkişafına və səmərəliliyinə dair konkret işlərin görülməsi, Avropa Birliyinin yeni qonşuluq siyasətinin həyata keçirilməsində və inkişaf etdirilməsində Avropa Şurasının prioritet əməkdaşlıq təşkilatı kimi nəzərdə tutulması, Avropa İnsan Hüquqları Məhkəməsinin rolunun gücləndirilməsi və bir çox mühüm islahatların aparılması, beynəlxalq terrorizmlə mübarizə, təhlükəsizliyin təmin olunması və digər mühüm məsələlər əks olunmuşdur.

Polşa Prezidenti Aleksandr Kvasnevski sammitin işində fəal iştirak etdiklərinə görə dövlət və hökumət başçılarına təşəkkürünü bildirdi və zirvə görüşünü bağlı elan etdi.

Sonra zirvə görüşünün yekunları ilə bağlı mətbuat konfransı keçirildi. Bununla da, Avropanın bütövləşməsi istiqamətində tarixi bir hadisə kimi yadda qalacaq zirvə görüşü öz işini başa çatdırdı.

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ VİTALİ KRAMARENKONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Vitali Kramarenkonu qəbul etmişdir.

Missiyanın işinin başa çatması, səmərəli görüşlər keçirməsi barədə məlumatı olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının son illər uğurla inkişaf etdiyini və bu təşkilatın ölkəmizin iqtisadi inkişafına çox mühüm kömək göstərdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə genişmiqyaslı islahatlar həyata keçirildiyini bildirdi. Bir sistemdən digər sistemə keçidin müəyyən çətinliklərlə müşayiət olunduğunu nəzərə çarpdıran dövlətimizin başçısı bu baxımdan Beynəlxalq Valyuta Fondunun tövsiyələrinə və ölkəmizlə birgə proqramların həyata keçirilməsinə Azərbaycanın böyük əhəmiyyət verdiyini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycanın bu təşkilatla əməkdaşlığı bundan sonra da genişlənəcəkdir.

Vitali Kramarenko dövlətimizin başçısı ilə görüşün və ölkəmizin iqtisadiyyatının hazırkı inkişafı barədə müzakirənin çox əhəmiyyətli olduğunu söylədi. O, missiyanın işi haqqında Prezident İlham Əliyevə məlumat verdi, hazırda Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf proqramı üzərində birgə işlərin həyata keçirildiyini vurğuladı.

Vitali Kramarenko daha sonra dedi: Son dörd ildə biz Azərbaycanda iqtisadi inkişaf sahəsində böyük uğurların şahidi olmuşuq. Ümumi daxili məhsulun artımı sabit olaraq 10 faizdən çoxdur. İnvestisiya qoyuluşu görünməmiş sürətlə artır və ümumi daxili məhsulun 50 faizini təşkil edir. İqtisadi inkişaf öz nəticələrini verir. Misal üçün bu, özünü yoxsulluğun azaldılmasında da göstərir. Azərbaycanda yoxsulluq 49 faizdən 40 faizə enmişdir. Bir sıra istiqamətlərdə, struktur islahatları sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Ölkədə neft gəlirlərindən səmərəli şəkildə istifadə olunması üçün institusional əsasın yaradılması sahəsində fəal hazırlıq işləri aparılmışdır. Neft Fondunun yaradılması buna yaxşı nümunədir. Neft gəlirlərinin idarə olunması üzrə uzunmüddətli proqram qəbul edilmişdir. Biz eyni zamanda, inflyasiya sürətinin artmasından Sizin narahatlığınızı tam bölüşürük və bu məsələnin çox yaxın zamanda həll edilməsi ilə bağlı hökumət strukturlarınızla səmərəli müzakirələr aparmışıq. Digər məsələlərin həlli istiqamətində də təşkilatımızla hökumət strukturları arasında qarşılıqlı anlaşmaya nail olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI İLKER BAŞBUĞU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı İlker Başbuğu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə münasibətlərin çox sürətlə inkişaf etdiyini bildirdi. Bu yaxınlarda Varşavada Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırlayan və onun çox gözəl şəraitdə keçdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, bu, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da gücləndiyini göstərir.

Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizə göstərilən bütün yardımlara görə Türkiyə hökumətinə bir daha minnətdarlığını bildirdi.

Ölkələrimiz arasında hərbi sahədə çox yaxşı əlaqələr yarandığını nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, bu əməkdaşlıq bu gün də uğurla davam edir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qonağın səfəri bu istiqamətdə atılmış önəmli addım olacaq və hərbi sahədə əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcəkdir.

Qardaş Azərbaycana ilk səfərindən və burada gördüklərindən sonsuz sevinc duyduğunu bildirən cənab İlker Başbuğ Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökün ən səmimi salamlarını və dərin ehtiramlarını Prezident İlham Əliyevə çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi, Prezident Əhməd Necdət Sezərə və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökə onun ən səmimi salamlarını və dərin ehtiramını çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ BORİS TARASYUKU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Ukraynanın xarici işlər naziri Boris Tarasyuku qəbul etmişdir.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında həm ikitərəfli, həm də regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılması üçün yaxşı şərait yaradacaqdır. Azərbaycan ilə Ukrayna müttəfiq dövlətlərdir, ikitərəfli və regional səviyyədə sıx əməkdaşlıq edir və biz münasibətlərimizin inkişafından məmnunluq duyuruq. İqtisadi əlaqələrimizin, regional və beynəlxalq təşkilatlarda əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlər mövcuddur.

Azərbaycanın və Ukraynanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən Prezident İlham Əliyev ölkələrimizin GUAM təşkilatında mühüm rol oynadıqlarını vurğuladı. Xalqlarımız arasında həmişə yaxşı münasibətlərin mövcud olduğunu xatırladan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və Ukrayna dövlət müstəqilliyi qazandıqdan sonra bu dostluq hissləri ölkələrimizin münasibətlərinin inkişafına təkan vermişdir. Prezident İlham Əliyev dedi ki, Ukrayna Azərbaycan üçün mühüm tərəfdaş və dost ölkədir.

Ukrayna Prezidenti Viktor Yuşşenko ilə bir neçə görüş keçirdiyini xatırladan Prezident İlham Əliyev bu görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsinə təkan verəcəyinə əmin olduğunu vurğuladı.

Dövlətimizin başçısı ölkələrimizin siyasi, iqtisadi, humanitar, hərbi-texniki və digər sahələrdə əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin mövcud olduğunu bildirdi.

Prezident İlham Əliyev dedi ki, Azərbaycanda Ukrayna, Ukraynada Azərbaycan diasporları əlaqələrimizin inkişafında mühüm rol oynayır. Ukraynada yaşayan azərbaycanlılar orada özlərini rahat hiss edir və Ukrayna cəmiyyətinə fəal inteqrasiya olunurlar.

Azərbaycana səfər etməsindən böyük məmnunluq duyduğunu söyləyən cənab Boris Tarasyuk birinci səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşmək şərəfinə nail olduğunu xatırlatdı və həmin görüşün onda böyük təəssürat yaratdığını vurğuladı.

Prezident Viktor Yuşşenkonun səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdıran qonaq Ukrayna Prezidentini Azərbaycana səfərə dəvətə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi.

Boris Tarasyuk bildirdi ki, Azərbaycan ilə Ukrayna strateji müttəfiqlərdir, ölkələrimiz arasında tarixi dostluq əlaqələri vardır. O dedi ki, ölkələrimizin münasibətlərinin daha da inkişaf etdirilməsində diasporlar çox mühüm rol oynayırlar. Qonaq Ukrayna icmasına Azərbaycanda göstərilən dövlət qayğısından çox məmnun olduğunu bildirdi.

Boris Tarasyuk ölkəmizdə apardığı danışıqlar zamanı GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyov zirvə görüşündə bu qurumun beynəlxalq, regional təşkilata çevrilməsi, strukturlarının yaradılması və digər məsələlər barədə qəbul edilmiş qərarların konkret reallaşdırılması məsələlərinin müzakirə ediləcəyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN II ÜMUMDÜNYA GÖMRÜK SƏRGİSİ VƏ FORUMUNDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Prezident sarayında Bakıda keçirilən II Ümumdünya gömrük sərgisi və forumunda iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları salamlayaraq, bu günlərdə Bakıda "Gömrük və beynəlxalq ticarətin təhlükəsizliyi" mövzusunda konfransın uğurlu keçməsindən məmnunluğunu söylədi. Belə tədbirlərin gələcəkdə əməkdaşlığımıza güclü təkan verəcəyini söyləyən Prezident İlham Əliyev bunların işgüzar əlaqələr yaradılması, ölkəmizlə daha yaxından tanışlıq baxımından xüsusi önəm daşıdığını vurğuladı. İqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycanın dünya birliyinə inteqrasiyası istiqamətində uğurlu addımlar atıldığını bildirən dövlətimizin başçısı dedi ki, bu proses daha da sürətlə davam etdiriləcəkdir. Son 10 il ərzində Azərbaycanda ümumi daxili məhsulun həcmi təxminən ildə10 faiz artırdı. Bu il isə Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatın artımı baxımından dünyada lider ölkəyə çevriləcəkdir. Artıq 2005-ci ilin ilk 4 ayında iqtisadi artım 14 faizdir. Güman olunur ki, ilin sonuna qədər bu rəqəm azı 18 faizə çatacaqdır. Bu, ölkəmizdə gedən iqtisadi islahatların, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığımızın nəticəsidir. Biz istəyirik ki, əlaqələrimiz daha da güclənsin və Azərbaycan bütün dost ölkələrlə səmərəli iqtisadi münasibətlərini möhkəmləndirsin.

Dövlətimizin başçısı ölkənin iqtisadi təhlükəsizliyinin ciddi şəkildə qorunması məsələsinə də toxundu, bu mənada Bakıda keçirilən tədbirin müəyyən tövsiyələr verilməsi baxımından dəyərli olduğunu söylədi. Prezident İlham Əliyev iqtisadi inkişafımızın davamlı olması üçün ölkəmizin iqtisadi təhlükəsizliyinin lazımi səviyyədə təmin ediləcəyinə əminliyini vurğuladı.

Dünya Gömrük Təşkilatının (DGT) baş katibi MİŞEL DANE səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkür edərək bildirdi ki, İnterpolla birlikdə təşkil etdikləri tədbirdən məqsəd qloballaşan dünya üçün prioritet olan beynəlxalq ticarətin təhlükəsizliyindən ötrü yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi imkanları ilə tanış olmaq və Azərbaycanın müvafiq orqanları ilə bu ehtiyacları öyrənməkdir.

Biz məqsədimizə nail olduq deyən Mişel Dane bu beynəlxalq tədbirdə müxtəlif ölkələrdən 50-dən çox rəsmi nümayəndələrin iştirak etdiyini söylədi. O, Azərbaycana hər gəlişində ölkənin inkişaf etməsinin şahidi olduğunu vurğulayaraq, burada istehsal olunan məhsulların keyfiyyətini yüksək qiymətləndirdi. Qonaq dedi ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarını gördük, meyvə-tərəvəzin dadına baxdıq, çox keyfiyyətlidir. Biz onu da bilirik ki, bu ayın sonunda Azərbaycandan Türkiyənin limanınadək uzanacaq böyük boru kəməri istismara veriləcəkdir. Bu isə o deməkdir ki, Azərbaycanda davamlı iqtisadi inkişaf üçün yeni imkan yaranır.

Tədbirin Bakıda keçirilməsi təşəbbüsünü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlıq edən cənab Mişel Dane dedi ki, biz qarşıda duran layihələrin həyata keçirilməsi üçün Azərbaycan hökuməti ilə birgə işləməyə çalışırıq.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Asxat Orazbay dünya gömrük ailəsi

ilə birgə İƏT-in üzvü olan ölkələr arasında da iqtisadi əməkdaşlığın vacibliyini vurğuladı, təmsil etdiyi təşkilat adından Azərbaycanda gedən iqtisadi proseslərdən məmnunluğunu söylədi.

Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini, DGT baş katibinin müavini Leonid Lozbenko bildirdi ki, dəyişən dünyanın ciddi iqtisadi təhlükəsizliyinə ehtiyac olduğu bir vaxtda dünya dövlətlərinin belə mötəbər tədbirlərdə yekdil qərarı çox şeyi həll edə bilər.

DGT-nin baş katibi Mişel Dane görüş iştirakçılarının Azərbaycana xoş məramla gəldiklərini söylədi və onların adından dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən tədbirdə müzakirə edilən məsələlərin çox aktual olduğunu söylədi və qonaqlarla xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN VƏ ABŞ XARİCİ SİYASƏT İDARƏLƏRİNİN KADR BAZASINA DAİR MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 20-də ABŞ Dövlət Departamenti kadrlar bürosunun rəisi və xarici xidmətin baş direktoru səfir Rober Pirson ilə görüşmüşdür.

Tərəflər ölkələrimizin xarici siyasət idarələrinin kadr bazasının formalaşdırılması və bu sahədə gələcəkdə əməkdaşlığın imkanları ətrafında fikir mübadiləsi aparmışlar.

Nazir E.Məmmədyarov Azərbaycan Respublikası xarici işlər nazirliyində bu yaxınlarda kadrların test üsulu ilə işə qəbulu prosesi barədə qonağa ətraflı məlumat vermişdir.

Tərəflər diplomatik xidmət üzrə ikitərəfli əməkdaşlıq məsələlərini və qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə etmişlər.

AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIQ REGİONUNDA İQTİSADİ CƏHƏTDƏN ƏN DİNAMİK İNKİŞAF EDƏN ÖLKƏDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 20-də İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Asxat Orazbay ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov qonağa Azərbaycanda həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr, o cümlədən mayın 25-də Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə əlaqədar ətraflı məlumat verərək, respublikamızın İƏT regionunda iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkələr sırasında olduğunu bildirmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Asxat Orazbay Azərbaycanın İƏT ilə əlaqələrinin mövcud vəziyyətindən məmnunluğunu diqqətə çatdırmış, 2005-ci il mayın 30-31-də İranda İƏT-in xarici işlər nazirlərinin müavinləri səviyyəsində və avqustun 20-də Qazaxıstanda təşkilatın üzv ölkələrinin xarici işlər nazirlərinin görüşlərinin keçiriləcəyinin nəzərdə tutulduğu barədə ətraflı məlumat vermişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RABİTƏ SAHƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 33-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Prezident sarayında Rabitə Sahəsində Regional Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən 33-cü iclasının iştirakçılarını qəbul etmişdir.

Ölkəmizin regional əməkdaşlığa böyük əhəmiyyət verdiyini, eyni zamanda beynəlxalq təşkilatlarla müxtəlif sahələrdə əməkdaşlıq baxımından çox yaxşı təcrübə topladığını bildirən Prezident İlham Əliyev Azərbaycanın dünya əhəmiyyətli iri regional layihələrin təşəbbüsçüsü və iştirakçısı olduğunu xatırlatdı. Dövlətimizin başçısı dedi ki, belə layihələr respublikamıza böyük məbləğdə xarici sərmayə axınını təmin edir.

Azərbaycan Prezidenti rabitə sahəsində əməkdaşlıqda da böyük perspektivlər olduğunu söylədi, ölkəmizdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradıldığını, ümumiyyətlə bu sahənin dünyada ən dinamik inkişaf edən istiqamətlərdən biri olduğunu vurğuladı. Bildirildi ki, Azərbaycan bu sahədə də dünya təcrübəsindən bəhrələnməyə, regional əməkdaşlığı genişləndirməyə böyük əhəmiyyət verir.

Dövlətimizin başçısı qarşılıqlı surətdə faydalı əməkdaşlıq sahəsində səylərin artırılmasına təkan verəcək iclasın iştirakçılarına uğurlar arzuladı.

Səmimi qəbul üçün minnətdarlıq edən Rusiya Federasiyasının informasiya texnologiyaları və rabitə naziri Leonid Reyman informasiya-kommunikasiya texnologiyalarının inkişafının rolunu vurğulayaraq bildirdi ki, hazırda dünyada neft sahəsində inkişafın sürəti 1 faizə bərabər olduğu halda, rabitə sahəsində bu göstərici 8 faizdir. Nazir 1999-cu ildə ümummilli lider Heydər Əliyevin növbəti görüş üçün Bakıya toplaşan rabitəçiləri qəbul etdiyini və onun hələ Moskvada ölkə rəhbərlərindən biri kimi çalışdığı illərdə rabitə sisteminin inkişafındakı xidmətlərini, rabitəyə xarici sərmayə yönəltməsini məmnunluqla xatırladı.

Ümumdünya Poçt İttifaqı (ÜPİ) Beynəlxalq bürosunun baş direktoru Eduard Dayan onun təmsil etdiyi sahənin ənənəvi xarakter daşıdığını, informasiya texnologiyalarının inkişafının poçt rabitəsinin fəaliyyətinə yeniliklər gətirdiyini vurğuladı. ÜPİ-nin məqsədinin bu sahədə dünya şəbəkəsi yaratmaqdan ibarət olduğunu söyləyən qonaq, bu məqsədin reallaşmasında yüksək xidmətin, keyfiyyətin, elektronikanın və insan amilinin əhəmiyyətini qeyd etdi. Eyni zamanda bildirdi ki, yeni texnologiyalar ənənəni unutmağa əsas vermir və göstərilən məqsədə nail olmaqda regional əməkdaşlıq mühüm rol oynayır.

Eduard Dayan Prezident İlham Əliyevə Ümumdünya Poçt İttifaqının 125 illiyinə həsr olunmuş albomu hədiyyə etdi. Dövlətimizin başçısı alboma Azərbaycan markalarının da daxil olunmasından məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi ki, hər belə tədbir ölkəmizə yenilik gətirir. Biz əhalinin etibarlı rabitə ilə təmin edilməsi, Azərbaycana yeni texnologiyaların gətirilməsi və səmərəli əməkdaşlıq üçün bundan sonra da səylərimizi əsirgəməyəcəyik.

Rusiyanın rabitə və informasiya texnologiyaları naziri Leonid Reyman Prezident İlham Əliyevə xatirə hədiyyəsi və Qələbənin 60 illiyinə həsr olunmuş poçt xidməti ilə bağlı albom hədiyyə etdi.

Azərbaycan Prezidenti görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI KEÇİRMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuat konfransını açaraq dedi:

- Hər vaxtınız xeyir, xanımlar və cənablar!

Azərbaycana xoş gəlmisiniz!

Ölkəmizdə və bütün regionda böyük bir mərasimin keçirilməsi ərəfəsində istərdim ki, Azərbaycan hökuməti adından sizi burada bir daha salamlayım. Sabah biz Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılış mərasimini keçirəcəyik. Boru kəməri ölkəmizi böyük neft ixracçısına çevirəcəkdir. Bu, tarixi bir hadisədir və mən əminəm ki, boru kəməri ölkəmizə və regionun bütün digər ölkələrinə sülh, tərəqqi, təhlükəsizlik və gələcək inkişaf gətirəcəkdir. Artıq 10 ildən çoxdur ki, Azərbaycan davamlı olaraq öz neft sənayesini inkişaf etdirir və bunun nəticəsində, bəzi şəxslərə xülya kimi görünən bu boru kəməri reallığa çevrilməkdədir. Hesab edirəm, ölkəmizin gələcək inkişafı onu nümayiş etdirəcəkdir ki, neft ehtiyatlarımızın işlənilməsi və neftin dünya bazarlarına çıxarılması üçün ölkəmizdə bütün lazımi işlər proqram və cədvələ uyğun olaraq yerinə yetirilmişdir. Bu işlər ölkəmizi çiçəklənən və inkişaf edən məkana çevirəcəkdir.

Mən giriş sözlərimlə sizin vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, suallarınızı versəniz daha yaxşı olar. Sağ olun.

Emma Simpson BBC TV-Radio: Boru kəmərinin Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olması haqqında mülahizələrinizi bilmək istərdik.

İlham Əliyev: Boru kəmərinin əhəmiyyətli olması bir neçə amilə əsaslanır. İlk növbədə, boru kəməri dünya bazarlarına böyük həcmdə neft ixrac etmək imkanları açacaqdır. Mövcud olan boru kəmərləri neft yataqlarımızdan maksimum miqdarda çıxarılacaq neftin ixracını mümkün etmir. Bakı-Tbilisi-Ceyhan boru kəməri gündə ən azı bir milyon barrel nefti ixrac etməyə imkan verəcəkdir. Bununla belə, müəyyən texniki məsələlər həll olunsa, onun gücünü artırmaq da mümkündür.

İkincisi, layihənin reallaşması ölkəmizə böyük həcmdə maliyyə vəsaitləri, nağd pullar əldə etmək imkanını açacaq, əldə olunmuş gəlirlər iqtisadiyyatımızın inkişafına, onun şaxələndirilməsinə, qeyri-neft sektorunun möhkəmləndirilməsinə və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına kömək edəcəkdir. Mən həmçinin hesab edirəm ki, regional inkişaf yeni mərhələyə daxil olacaqdır. Çünki bu boru kəməri digər ölkələr və şirkətlər üçün yaxşı bir nümunəyə çevriləcəkdir. Eyni zamanda, ümidvaram ki, layihə regionda təhlükəsizliyi möhkəmləndirəcək və hadisələrin proqnozlaşdırılmasını müm-

kün edəcəkdir. Regionumuz bu gün tam təhlükəsiz məkan sayılmır. Bütün bunlar bizim gözlədiyimiz nəticələrdir. Hesab edirəm ki, biz öz proqnozlarımızda yanılmayacağıq.

Emma Simpson: Boru kəməri təhlükəsizliyi hansı formada möhkəmləndirəcək?

İlham Əliyev: Fikrimcə, bu boru kəməri böyük beynəlxalq layihədir. O, açıq dənizləri, müxtəlif ölkələri və xalqları birləşdirir. Təbii ki, boru kəməri sosial və iqtisadi inkişaf üçün yeni perspektiv açacaqdır. Zənn edirəm ki, insanlar iqtisadi baxımdan daha müstəqil olacaqlar və onların həyat tərzi daha da yaxşılaşacaqdır. Belə olsa, vətəndaş cəmiyyətinin inkişafı, demokratik islahatların geniş şəkildə həyata keçirilməsi üçün daha geniş imkanlar olacaqdır. Çünki yoxsul ölkələrdə bu istiqamətdə tez bir inkişafa nail olmaq mümkün deyildir.

Eyni zamanda, biz bilirik ki, regionda bir çox münaqişələr mövcuddur. Azərbaycanın və qonşu Gürcüstanın ərazi bütövlüyü kobudcasına pozulub və beləliklə, beynəlxalq hüququn bütün norma və prinsipləri də pozulubdur. Biz separatizmin qurbanıyıq. Təcavüzkar separatizmdən və ərazimizin işğalından əziyyət çəkirik. Əminəm ki, boru kəməri davamlı sülhün bərqərar edilməsində vacib bir element olacaqdır. Bu, bizim imkanlarımızı genişləndirəcək, Azərbaycanın regiondakı rolunu daha da artıracaqdır. Əgər biz hazırda tikilən qaz kəmərini də nəzərə alsaq, - ümid edirik ki, onun inşası 2006-cı ilin sonunda başa çatacaq, - onda gələcəkdə hansı proseslərin baş verəcəyini daha aydın görəcəyik. Hesab edirəm ki, iqtisadi baxımdan güclü olan Azərbaycan regiondakı mövqeyini daha da möhkəmləndirəcək və öz məqsədlərinə nail ola biləcəkdir.

Isikava Itiye NHK Yaponiya: Rusiyanın bu boru kəmərinə olan münasibəti ilə bağlı mövqeyinizi bilmək istərdik. Onun tikintisinin münasibətlərə müəyyən təsiri ola bilərmi?

İlham Əliyev: Bizim bütün qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Hesab edirəm ki, 1990-cı illərin ortalarında Rusiya ilə olan anlaşılmazlıq keçmişdə qalmışdır. O vaxtlar Rusiyadakı müxtəlif siyasi dairələr Rusiyanın rəsmi mövqeyinə uyğun olmayan siyasi addımlar atmışlar. Bu günlərdə isə biz Rusiya dövlətinin və hökumətinin yürütdüyü ümumi yekdil siyasəti görürük. İkitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Bizim çox yaxşı iqtisadi əməkdaşlığımız var.

Mən sizə deyə bilərəm ki, ticarət dövriyyəsi çox sürətlə artır. Məhz buna görə də biz boru kəmərinin tikintisi ilə bağlı heç bir narahatçılıq hissi keçirmirik və heç nədən çəkinmirik. Bizim üçün bu boru kəməri hər zaman məqsədlərimizə nail olmaq üçün bir alət olubdur. Boru kəməri bizim üçün iqtisadi baxımdan cəmiyyətimizin inkişaf etdirilməsi və müstəqilliyimizin möhkəmləndirilməsi üçün bir vasitədir. Neft son məqsədimiz deyil, güclü ölkəyə çevrilmək, müstəqilliyimizi dönməz etmək üçün istifadə olunan vasitələrdən biridir. Mən çox şadam ki, bizim qonşularla çox yaxşı və dostluq münasibətlərimiz var. Bir sıra qonşu ölkələrdən fərqli olaraq, Azərbaycan öz ərazisində heç bir xarici hərbi qüvvə və baza saxlamır və bunu planlaşdırmır. Hesab edirik ki, indiki dövrdə düşmənçilik yox, əməkdaşlıq etmək daha vacibdir. Azərbaycan öz siyasətini məhz bu istiqamətə yönəldir. Biz istəyirik ki, Azərbaycan əməkdaşlıq ölkəsinə çevrilsin və hesab edirəm ki, buna kifayət dərəcədə nail olmuşuq. Regionda təhdidlər də var. Mən onları artıq sadaladım. Gələcəkdə də yeni təhlükələr ola bilər. Heç kəs nəyin baş verəcəyini əvvəlcədən deyə bilməz. Lakin biz vətəndaşlarımızın və ölkəmizin təhlükəsizliyini öz imkanlarımız sayəsində təmin etməyə qadirik.

Albrext Raynxardt Almaniyanin ARD kanalı: Mənim sualım neft ixracından əldə olunacaq gəlirlərin idarə edilməsi ilə bağlıdır. Çünki bir çoxları deyir ki, neftdən gələn gəlirlər yalnız müəyyən maraqlara xidmət edəcəkdir.

İlham Əliyev: Bilirsiniz, belə fikirdə olan insanların ölkəmizin reallıqlarından xəbəri yoxdur. Artıq bir neçə ildir ki, Azərbaycanda Dövlət Neft Fondu fəaliyyət göstərir. Azərbaycanın xarici şirkətlər vasitəsilə neft layihələrinin həyata keçirilməsindən əldə etdiyi bütün gəlirlər Neft Fondunda cəmləşir. Fond çox şəffaf strukturdur. O, beynəlxalq audit şirkətləri, o cümlədən "Ernst and Young" şirkəti və "Pricewaterhouse" şirkəti tərəfindən auditdən keçirilir. Fonda yığılan bütün vəsaitlər haqqında məlumat müntəzəm olaraq mətbuatda dərc edilir. Fondun xətti ilə hər hansı vəsait büdcə vasitəsilə xərclənir. Büdcə qəbul edildiyi zaman bizim parlament Fonddan ölkəmizin tələbatı üçün hansı həcmdə vəsaitlər cəlb olunacağı haqqında qərar verir. Buna görə də Azərbaycanın hər bir vətəndaşı orada nə qədər pulun olmasını və nəyə xərcləndiyini dəqiq bilir. Əgər hansısa dairələr və yaxud şəxslər buna görə narahatlıq keçirirsə, bunun heç bir əsası yoxdur. Bizim reallıqlarımızla tanış olan hər kəs bilir ki, neftdən gələn gəlirlər lazımi qaydada qorunur.

Mən sizə digər misal çəkə bilərəm. Bir neçə il bundan əvvəl Böyük Britaniya yeni bir təşəbbüs irəli sürmüşdü. O, neft və qaz sənayesində şəffaflıq təşəbbüsü adlanır. Azərbaycan ilk ölkələr sırasında bu təşəbbüsə qoşuldu və bizim bu sahədə çox yaxşı nəticələrimiz var. Bu gün Azərbaycan şəffaflıq baxımından regionumuzda aparıcı ölkədir. Siz bunu burada işləyən şirkətlərdən, Beynəlxalq Valyuta Fondundan, Dünya Bankından və bu məsələ ilə məşğul olan digər fondlardan soruşa bilərsiniz. Bir sözlə, belə bir narahatlığa heç bir əsas yoxdur. Müəyyən şəxslər və siyasi qüvvələr yanlış təəssürat yaradılmasına çalışırlar. Lakin bunu anlamaq üçün ən yaxşı yol ölkəyə gəlib görmək və şəxsən bu məsələni öyrənməkdən ibarətdir.

Arkadi Dubnov /Azadlıq radiosu/: Cənab Prezident, neft kəmərinin mühafizəsi problemi necə həll ediləcək, Bakı-Novorossiysk şimal boru kəməri necə işləyəcəkdir? Rusiya bu boru kəməri ilə hər iki başa neft nəql etməyə icazə verəcəkmi?

İlham Əliyev: Neft kəmərinin mühafizəsi baxımından, onun ərazisindən keçdiyi hər bir ölkə mühafizənin təmin olunması üçün öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. O ki qaldı ölkəmizə, Bakı-Novorossiysk boru kəmərinin və Bakı-Supsa boru kəmərinin mövcudluğunun bütün illəri ərzində Azərbaycanda bu kəmərlərin təhlükəsizliyini pozan heç bir hadisə baş verməyibdir. Bu, böyük əminliklə güman etməyə əsas verir ki, BTC-nin mühafizəsi ilə bağlı bizim tərəfimizdən, bizim ərazimizdə problem olmayacaqdır. Ərazisindən boru kəmərlərinin keçdiyi digər ölkələr də öz üzərinə müvafiq öhdəliklər götürmüşlər. Biz etibarlı mühafizəni öz qüvvələrimizlə təmin etməyə qadirik və düşünürəm ki, son illər bunu nümayiş etdirmişik.

Biz boru kəmərləri sistemlərinin çoxvariantlılığına tərəfdar olmuşuq və həmişə tərəfdarıq, onu əsas tuturuq ki, alternativlər, nəqliyyat yolları nə qədər çox olarsa, ölkəmiz bir o qədər əlverişli şəraitdə olacaq, manevr üçün daha böyük imkanlarımız olacaq, əlbəttə ki, sərfəli tarif siyasətinin təmin edilməsi üçün daha böyük imkanlar olacaqdır.

Bakı-Novorossiysk boru kəmərinə gəldikdə, deməliyəm ki, iqtisadi baxımdan, o, Bakı-Supsa boru kəməri, xüsusən də Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə rəqabətə tab gətirmir. Bakı-Novorossiysk boru kəməri ilə bir ton neftin daşınması üçün nəqliyyat tarifi, əgər səhv etmirəmsə, 15,64 dollar olduğu halda, Bakı-Supsa da 3 dollardan azdır. Onu da nəzərə alsaq ki, yüksək keyfiyyətli Azərbaycan nefti Bakı-Novorossiysk boru kəmərində Ural nefti ilə qarışdırılır, Bakı-Supsa ilə isə Brend markasından daha qiymətli olan Azəri Layt nefti nəql edilir, deyə bilərik ki, təkcə Azəri Layt ilə Ural qatışığı arasındakı fərqə görə və tarifdə də çox böyük məbləğdə pul itiririk.

Azərbaycanın hər il bu qədər vəsait itirməsinə baxmayaraq, biz Bakı-Novorossiysk boru kəmərinin işini dayandırmadıq və hesab edirik ki, Transneft tərəfindən tariflər üzrə müəyyən düzəlişlər olarsa, habelə keyfiyyət bankı yaradılarsa, bu boru kəməri səmərəli işləyə bilər. Ümidvarıq ki, neftimiz bu boru kəməri ilə daşınmaqda davam edəcəkdir. İki başa neft nəqli məsələsi də müzakirə edilməyə başlanır. Belə məsələ qaldırılarsa, əlbəttə, biz ona baxacağıq. Çünki boru kəməri əzəldən bu məqsədlə çəkilmişdir, yəni neft bu boru kəməri ilə Rusiyadan Azərbaycana nəql olunmuşdur. Sovet dövründə Azərbaycanda ildə maksimum 15-16 milyon ton, Sovet İttifaqının son illərində daha az neft çıxarılırdı, zavodlarımızın emal gücü isə 22 milyon ton idi. Yəni, bu boru kəməri həmişə bu istiqamətdə işləmişdir. Ona görə də bu məsələyə baxmaq olar.

Dmitri Drize /RBK teleşirkəti/: Cənab Prezident, Rusiya şirkətləri Bakı-Tbilisi-Ceyhan layihəsində hansı şərtlərlə iştirak edə bilər və onlar buna hazırdırmı?

İlham Əliyev: Rusiya şirkətlərinin bu layihədə iştirakı ancaq onların öz arzusundan asılıdır. Biz Rusiya şirkətlərinə, eləcə də bütün digər şirkətlərə bu layihəyə qoşulmağı həmişə təklif etmişik. "BTC kompani"nin tərkibi formalaşanda qapı hamının üzünə açıq idi. Amma təəssüf ki, Rusiya şirkətləri bunu özləri üçün cəlbedici bilmədi və bu layihədə iştirak etmirlər. Bilirsiniz, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən Rusiyanın "LUKoyl" şirkətinin orada 10 faiz payı vardı və onu nisbətən bu yaxınlarda Yaponiya şirkətinə satdı. Beləliklə, o, layihədən çıxdı. Lakin bu, hər şirkətin öz hüququdur və xarici şirkətlərlə birgə fəaliyyətimizin son 10 ili ərzində belə hallar baş vermişdir. Şirkətlər almışlar, satmışlar. İlk vaxtlar Azərbaycanda bunu heç də adekvat şəkildə qarşılamırdılar, elə görünürdü ki, kimsə buradan gedir, kimsə layihəni tərk edir. Lakin biz dünya iqtisadi proseslərinə daha yaxından inteqrasiya etdikcə, aydın oldu ki, bu, normal kommersiya prosesidir. Bu, kommersiya layihəsidir və biz ona həmişə ancaq kommersiya layihəsi kimi baxmışıq, hərçənd bəziləri buna siyasi rəng verməyə çalışırdılar. Əgər bu siyasi layihə olsaydı, yəqin ki, xarici şirkətlər buraya milyardlarla dollar qoymazdı. Bir sözlə, qapı açıqdır, bu layihədə iştirak etmək istəyənlər üçün imkanlar var, danışıqlar aparmaq olar. Hər şey istəkdən asılıdır.

Emma Simpson: Amerika Birləşmiş Ştatları ilə əlaqələrinizi necə təsvir edə bilərsiniz? Azərbaycan daha çox Qərbə, yoxsa Şərqə bağlıdır?

İlham Əliyev: Mən boru kəməri ilə bağlı suala cavab verərkən bu məsələyə də toxundum və bildirdim ki, biz həmişə boru kəmərini sırf iqtisadi bir layihə kimi qəbul etmişik. Çünki əgər siz iqtisadi göstəricilərə nəzər salsanız, onda görərsiniz ki, bu layihə kommersiya baxımından çox faydalı və gəlirlidir. Ona görə də layihənin həyata keçirilməsi üçün şirkətlərin ayırdığı milyardlarla dollar bir daha sübut edir ki, bu siyasi layihə

deyildir. Bizim Birləşmiş Ştatlarla münasibətimiz olduqca yüksək səviyyədədir. Biz müttəfiqik və müxtəlif məsələlər ətrafında sıx əməkdaşlıq edirik. Enerji sektorunda da çox möhkəm əlaqələrimiz vardır. Birləşmiş Ştatlar bizim enerji inkişafımızı və xüsusən də, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsini hər zaman lazımınca dəstəkləyib və dəstəkləyir. Təhlükəsizlik sahəsində Birləşmiş Ştatlarla çox sıx münasibətlərimiz var. Biz antiterror koalisiyasında birgə mübarizə aparırıq. Dünyanın müxtəlif yerlərində sülhü mühafizə əməliyyatlarında bir yerdəyik. Azərbaycanın xarici siyasətinin düzgün istiqamətdə olduğu göz qabağındadır. Biz Avratlantik strukturlarına inteqrasiya sahəsində həmişə çox fəal olmağa çalışmışıq. Bu, sadəcə sözlərdə yox, bizim praktiki addımlarımızda və faktlarda hiss olunur. Lakin eyni zamanda, biz xarici siyasətimizi elə qururuq ki, maksimum dərəcədə maraqlarımızı qoruyaq. Biz qonşularımızla çox yaxşı münasibətlər qurmuşuq. Birləşmiş Ştatlarla yaxşı əlaqələrimiz var. Bunlar bir-birilə heç bir ziddiyyət təşkil etmir. Müdrik siyasət sayəsində səmimi əməkdaşlıq qurmaq mümkündür. Bu əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrin şirkətləri yan-yana işləyə bilər və həm fəaliyyət göstərdiyi ölkənin, həm də öz maraqlarına qulluq edə bilər.

Piter Fişer /"Neue Zurcher Zeitung" İsveçrə/: Cənab Prezident, Siz burada qeyd etdiniz ki, bir müddətdən sonra işləyəcək Bakı-Tbilisi-Ceyhan boru kəməri böyük miqdarda nağd pulun gəlməsinə, milyardlarla dolların əldə edilməsinə imkan yaradacaqdır. Bu yolla gedən bir sıra ölkələr makroiqtisadi sabitliyin qorunub saxlanmasında müəyyən çətinliklərlə üzləşmişlər. Siz necə hesab edirsiniz, bu boru kəməri ölkənizə qısamüddətli, yoxsa uzunmüddətli gəlirlər gətirəcək və bütün əhali bu gəlirlərdən nə dərəcədə yararlanacaqdır?

İcazənizlə, ikinci sualım da var. Bildiyiniz kimi, Qazaxıstan Prezidenti Azərbaycanda səfərdədir və mən bildiyimə görə, Qazaxıstan bugünədək Bakı-Tbilisi-Ceyhan boru kəmərində iştirak etməmişdir. Onlar üçün hansı perspektiv vardır?

İlham Əliyev: Sizin qaldırdığınız birinci məsələ bizi narahat edən məsələdir. Çünki sürətli iqtisadi inkişaf bizim makroiqtisadi vəziyyətimizdə bir az gərginlik yaradır. Son on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı ildə orta hesabla 10 faiz olmuşdur. Bu il ümumi daxili məhsulun artımı 18 faiz səviyyəsində olacaqdır.

Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, bu statistik göstərici baxımından Azərbaycan dünyada aparıcı ölkəyə çevriləcəkdir. 2005-ci ilin ilk dörd ayı ərzində sənayedə artım 15 faiz və ümumi daxili məhsulun artımı 14 faiz olmuşdur. Biz minimum əmək haqqının və pensiyaların səviyyəsini iki dəfədən çox artırmışıq. 2005-ci ilin birinci rübündə əhalinin gəlirləri təqribən 30 faiz artmışdır. Büdcənin artımı təqribən 35 faiz olmuşdur. Bütün bunlar şübhəsiz ki, makroiqtisadi sabitliyə əlavə təzyiqdir və bu il, əvvəllər ölkəmizdə olmayan inflyasiya müşahidə edilmişdir. Hazırda inflyasiyanın azaldılması üçün ciddi tədbirlər görürük. Hesab edirəm ki, neft gəlirlərini özündə cəmləşdirən Neft Fondu şəffaflıq və etimadın yaradılmasından əlavə, hadisələrin arzuolunmaz məcrada cərəyan etməsinin qarşısını almağa imkan verəcəkdir. Biz neft hasil edən ölkələrin təcrübəsini, xüsusən də onların neft sənayesinin inkişafının keçdiyi müxtəlif mərhələləri lazımınca öyrənmişik. Şübhəsiz, biz yaxşı bilirik ki, lüzumsuz addımlar atmaq və digər ölkələrin buraxdığı səhvləri təkrarlamaq lazım deyildir. Bu vəziyyətə düşməmək üçün əlavə element bizim Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığımızdan ibarətdir. Biz fəal qaydada məsləhətləşmələr aparırıq. Bu qurumla sıx münasibətləri-

miz var və onların bizə verdiyi məsləhətlər çox faydalıdır.

Əgər sənin pulun yoxdursa, sən yoxsulsansa, böyük problemlərin də çoxdur. Amma get-gedə varlanırsansa, yenə də problemlər və çətinliklər üzə çıxır. Lakin hesab edirəm ki, biz bu tarazlığı saxlaya biləcəyik. Çünki insanların bəslədiyi ümidlər çox böyükdür. Bu boru kəmərini xalq on ildir ki, gözləyirdi. İndi bir çoxları hesab edir ki, boru kəməri istismara verildikdən dərhal sonra hamı pullanacaq, varlı olacaq və ölkədə heç bir problem olmayacaqdır. Lakin biz başa düşürük ki, boru kəməri insanlara, özəl sektora, qeyri-neft bölməsinin inkişafına, ölkənin ümumi rifahına yeni imkanlar açacaqdır.

O ki qaldı, ikinci sualınıza, bəli, bu gün Qazaxıstan Prezidenti Azərbaycana rəsmi səfərini başlayır. Bizim ikitərəfli danışıqlarımız və müzakirələrimiz olacaqdır. Sabah o, açılış mərasimində də iştirak edəcəkdir. Bakı-Tbilisi-Ceyhan boru kəmərini planlaşdıranda biz hər zaman öz resurslarımıza arxalanmışıq. Bizim öz mənbələrimiz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismarı üçün tamamilə kifayət qədərdir. Əgər Xəzər dənizinin şərq sahilindən əlavə neftin ixracına ehtiyac olarsa, təbii ki, biz daşınma əməliyyatları üçün öz infrastrukturumuzun istifadəsinə hazırıq. Lakin bu, Qazaxıstandakı şirkətlərin proqramından, Qazaxıstan hökumətinin bu məsələyə münasibətindən asılı olacaqdır. Biz üçüncü ölkələr üçün bütün infrastrkturumuzdan müvafiq istiqamətdə istifadə edilməsinə hazırıq.

Piter Fişer: Bu boru kəmərinin o qədər ötürmə qabiliyyəti varmı?

İlham Əliyev: Bəli, indi var. Hazırda Bakı-Supsa kəmərinin ötürmə qabiliyyəti 6 milyon tondan çoxdur. Müəyyən vəsait sərf etsək, bu boru kəmərinin ötürmə qabiliyyətini 15 milyon tona qədər çatdırmaq olar. Eyni həcmdə, yəni ildə 15 milyon ton xam nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə ötürə biləcəyik. Bu il ərzində hasil edəcəyimiz xam neftin həcmi 20 milyon tona çatacaqdır. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tam ötürmə qabiliyyətindən 2008-ci ildə istifadə etmək mümkün olacaqdır. Lakin əgər lazım gələrsə, texniki əməliyyatlar sayəsində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ötürmə qabiliyyətini təqribən iki dəfə artırmaq olar. Əgər hazırda Azərbaycandan gündə bir milyon barrel neft göndərilməsi mümkündürsə, müəyyən texniki işlərin yerinə yetirildiyi təqdirdə, bu göstərici 1,8 milyon barrelə çatdırıla bilər. Bir sözlə, əgər neft olsa, onun daşınması üçün infrastruktur var.

Albrext Raynxardt: Cənab Prezident, Siz qeyd etdiniz ki, sabah tarixi bir gün olacaqdır. Lakin eyni zamanda, bütün mitinqlərə qadağa qoyulubdur. Nə səbəbə görə?

İlham Əliyev: Mən elə deməzdim ki, bütün mitinqlərə qadağa qoyulubdur. Azərbaycanda 2003-cü ildə prezident seçkilərindən sonra biz baş vermiş hadisələrdən əziyyət çəkdik və bu gün bir çoxları onları yaddan çıxarır. Həmin vaxt xaosun, dağıdıcı fəaliyyətin və hücumların şahidi olduq. Seçkilərdən sonra baş vermiş iğtişaşlar və zorakılıq halları yadımızdadır. O vaxt mitinqlərə gedən şəxslər ciblərini daşla doldurmuş, əllərinə metal dəyənəklər almışdılar. İğtişaş zamanı onlar polisə hücum etmiş, maşınları günahsız insanların üstünə sürmüş, avtobusları dayandırmış, maşınları vurub dağıtmış və yandırmışdılar. Beləliklə, bu, dinc nümayiş deyildi. Buna görə də bizim cəmiyyət sarsıntı keçirmişdir. Çünki keçmişdə, 1990-cı illərin əvvəllərində Azərbaycanda hər il dövlət çevrilişi cəhdi var idi. Hər il düşmənçilik və vətəndaş müharibəsi təhlükəsi müşahidə olunurdu.

Son on il ərzində isə Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşamışdır. Ona görə də 2003-cü ilin sonunda baş vermiş hadisələr əhalini şok vəziyyətinə saldı. Cəmiyyətimiz bu ünsürləri pisləndi. Hazırda isə belə bir tarixi hadisə ərəfəsində nümayiş keçirmək niyyəti bizdə narahatlıq doğurur. Biz bu möhtəşəm hadisənin əhalinin etimadını tamamilə itirmiş müəyyən siyasi qüvvələr tərəfindən zorakılıq hallarına çevrilməsinə yol verə bilmərik. Məhz buna görə biz mərasimin başa çatmasına qədər nümayişlərin keçirilməsinin təxirə salınmasını düzgün hesab etdik. Mərasim başa çatandan sonra heç bir məhdudiyyət qoyulmayacaqdır.

Matias Bryuqqman "Handelsblatt" qəzeti Almaniya: Cənab Prezident, Siz xarici siyasətiniz haqqında danışarkən, qonşu ölkələri, o cümlədən Rusiyanı xatırladınız. Lakin Siz neftin əsas ixrac istiqaməti olan Avropanı niyə qeyd etmədiniz? Avropanın bu regiondakı siyasəti Sizi qane edirmi?

İlham Əliyev: Əgər siz söhbətimizi diqqətlə dinlədinizsə, onda görərdiniz ki, mən yalnız verilən suallara cavab verdim. Mən Rusiya haqqında, Azərbaycan-ABŞ münasibətləri haqqında suallara cavab verdim. Avropa ilə əlaqələrimizə gəldikdə, mən sizə eyni səmimiyyətlə cavab verəcəyəm. Bizim Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz var. Uzun illər ərzində biz bir çox layihələr çərçivəsində birgə işləmişik və Avropa Birliyinin bizə yardımı kifayət qədər böyük olmuşdur. Mən xüsusən müstəqilliyimizin ilk illərini nəzərdə tuturam. O vaxt bizə maliyyə dəstəyi lazım idi. Hazırda Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilmişdir. Ümidvarıq ki, bu siyasət bizim Avropa Birliyinə daha yaxın olmağımız üçün yeni imkanlar yaradacaqdır. Artıq dörd ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür və ötən illər ərzində mən nümayəndə heyətimizin rəhbəri olmuşam. Bizim bu təşkilatla yaxşı münasibətlərimiz var. Ölkəmiz Avropa Şurasına qəbul olunduqda öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməkdədir. Bizim Avropanın aparıcı ölkələri ilə də yaxşı əlaqələrimiz var və onları yüksək qiymətləndiririk.

Son il yarım ərzində mən bir çox Avropa ölkələrində rəsmi səfərdə olmuşam: Paris, London, Roma, Berlin, Brüssel. Brüsseldə mənim Avropa Komissiyası ilə geniş danışıqlarım olubdur. Bir sözlə, münasibətlərimiz çox yüksək səviyyədədir və mən əminəm ki, daha da inkişaf edəcəkdir.

Mən əvvəldə qaz layihəmiz haqqında danışdım. Hesab edirəm ki, bu element bizim Avropa Birliyi ilə apardığımız enerji dialoqu üçün vacibdir. Bir neçə ildən sonra Avropa istehlakçıları Azərbaycan qazından istifadə edə biləcəklər. Çünki biz Türkiyənin ərazisinə qədər boru kəməri çəkəcəyik. Hazırda Yunanıstanla danışıqlar prosesi gedir. Beləliklə, qaz Türkiyədən Yunanıstana, sonra isə digər Avropa ölkələrinə çatdırıla bilər. Bu, əlaqələrimizin yeni amili olacaqdır. Əlbəttə ki, ölkəmizdə apardığımız siyasi islahatlar Avropada böyük dəstək qazanır və mən əminəm ki, gələcəkdə də biz işlərimizi fəal şəkildə davam etdirəcəyik.

Jurnalist: Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə minnətdarıq. Sual vermiş jurnalist həmkarlarımıza da minnətdarıq.

İlham Əliyev: Çox sağ olun. Ümid edirəm ki, siz ölkəmizdə özünüzü rahat hiss edəcəksiniz. Hava da yaxşıdır, hətta biz gözlədiyimizdən də istidir. Sabah açılış mərasimimiz olacaqdır. Sizin hamınıza uğurlar arzulayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ VƏ FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında Almaniya Federativ Respublikası Bundestaqının və federal kəşfiyyat xidmətinin nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Almaniya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Almaniyaya ötən səfərini məmnunluqla xatırladan Prezident İlham Əliyev orada federal kansler Gerhard Şröderlə keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi işinə xidmət etdiyini bildirdi.

Azərbaycanın Avropa və Avratlantik strukturlarına, o cümlədən Avropa Şurasına, Avropa Birliyinə və digər təşkilatlara uğurla inteqrasiya edildiyini bildirən dövlətimizin başçısı Avropa Birliyinin yeni qonşuluq siyasətində ölkəmizin fəal iştirak etdiyini vurğuladı.

Azərbaycanın Almaniya ilə həm ikitərəfli səviyyədə, həm də Avropa Birliyi çərçivəsində uğurlu əməkdaşlığını nəzərə çarpdıran Prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında da əlaqələrin yaxşı inkişaf etdiyini bildirdi.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən dövlətimizin başçısı dedi ki, bu münaqişə bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına ciddi maneə törədir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri Azərbaycan ilə Almaniya arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Bundestaqın büdcə komissiyasının sədri, nümayəndə heyətinin rəhbəri Manfred Karstens Azərbaycan üçün çox əlamətdar bir gün ərəfəsində vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan qonaq Prezident İlham Əliyevin AFR-ə səfəri zamanı kansler Gerhard Şröder ilə keçirdiyi görüşün Almaniyada çox müsbət əks-səda doğurduğunu söylədi.

Manfred Karstens Azərbaycana gələrkən dost bir ölkəyə səfər etdiklərinə əmin olduğunu vurğuladı. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiklərini və onların xatirəsini ehtiramla andıqlarını, sonra isə Şəhidlər xiyabanında olduqlarını, Qarabağ müharibəsində həlak olanların da xatirəsini ehtiramla yad etdiklərini bildirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə onun ölkəsinin, federal kansler Gerhard Şröderin mövqeyinin aydın olduğunu bir daha nəzərə çarpdıran cənab Manfred Karstens bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının vacibliyini vurğuladı.

Azərbaycanın Avratlantik strukturlarına inteqrasiyasını müsbət dəyərləndirən qonaq əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə mayın 24-də ölkəmizə rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü oldu.

Sonra dövlət başçıları nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi Bakıda salamlamaqdan məmnun olduğunu söylədi və bu səfərin 2004-cü ilin mart ayında özünün Astanaya uğurlu rəsmi səfərinin məntiqi davamı kimi səciyyələndirdi.

Dövlətimizin başçısı xalqlarımız arasında tarixən mövcud olan dostluq əlaqələrindən bəhs edərək, bu əlaqələrin indi də uğurla davam etdiyini vurğuladı. İstər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Qazaxıstan əməkdaşlığının yüksək səviyyədə olduğunu xatırladan Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrin hazırkı səviyyəsindən, habelə iki ölkə arasında mal dövriyyəsinin ildən-ilə artmasından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, hökumətlərarası komissiyanın Qazaxıstan Prezidentinin səfəri ərəfəsində keçirilmiş 3-cü iclası imzalanmış protokolun müddəaları iqtisadi əlaqələrin böyük perspektivlərindən xəbər verir.

Prezident İlham Əliyev mayın 25-də təntənəli açılış mərasimində iştirak edəcəkləri Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin iki ölkə arasında uğurlu iqtisadi əməkdaşlığa daha güclü təkan verəcəyini vurğuladı.

Bu çox mühüm hadisəyə Azərbaycanın onillik bir müddətdə ardıcıl və məqsədyönlü fəaliyyət sayəsində gəlib çatdığını bildirən dövlətimizin başçısı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi münasibətilə hazırlanmış xüsusi xatirə hədiyyəsini Prezident Nursultan Nazarbayevə təqdim etdi.

Azərbaycana rəsmi səfərə dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bu səfərin iki ölkə arasında durmadan inkişaf edən uğurlu əməkdaşlığın davamı olduğunu söylədi. O bildirdi ki, ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qalxması üçün böyük potensial vardır və ümumilikdə hər iki ölkənin geosiyasi mövqeyi bu əlaqələrin inkişafını daha zəruri edir. Xüsusilə Xəzər dənizində təhlükəsizlik, enerji daşıyıcılarının nəqli sahəsində əməkdaşlığın perspektivləri daha böyükdür.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə ilk neftin doldurulması mərasimində iştirakından məmnunluğunu söyləyən Nursultan Nazarbayev bu kəmərin Qazaxıstan üçün də çox vacib olduğunu, onun istismarı zamanı Azərbaycanla sıx əməkdaşlıq edəcəklərini vurğuladı.

Qazaxıstan Prezidenti də iqtisadi əlaqələrin səviyyəsindən razılığını ifadə etdi və

2004-cü ildə ölkələrimiz arasında mal dövriyyəsinin 1,6 dəfə artaraq 246,2 milyon dollara çatmasını yüksək qiymətləndirdi. Qazaxıstanın 17 şirkətinin Azərbaycan iqtisadiyyatında iştirakını və 6 birgə müəssisənin yaradılmasını, habelə ötən il Azərbaycan ərazisi ilə 3 milyon tondan çox Qazaxıstan neftinin daşınmasını xatırladan Prezident Nursultan Nazarbayev bu əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI

Mayın 24-də, geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladılar.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev, Qazaxıstan tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri xanım Quljana Karaqusova imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında 1997-ci il 10 iyun tarixli sazişə dəyişikliyin edilməsi haqqında protokolu Azərbaycan tərəfindən sənaye və energetika naziri Məcid Kərimov, Qazaxıstan tərəfindən sənaye və ticarət nazirinin müavini Bolat Smaqulov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında azad ticarət haqqında 1997-ci il 10 iyun tarixli sazişə əlavə və düzəlişlərin edilməsi haqqında protokolu Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Qazaxıstan tərəfindən sənaye və ticarət nazirinin müavini Bolad Smaqulov, Azərbaycan Respublikasının Hökuməti ilə Qazaxıstan Respublikasının Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən gənclər, idman və turizm naziri Əbülfəs Qarayev, Qazaxıstan tərəfindən sənaye və ticarət nazirinin müavini Bolat Smaqulov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən daxili işlər naziri Ramil Usubov, Qazaxıstan tərəfindən daxili işlər naziri Zautbek Turisbekov imzaladılar.

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Mayın 24-də Prezident sarayında Azərbaycan-Qazaxıstan sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Nursultan Nazarbayevin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları mətbuat konfransında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycan xalqının böyük dostu, Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevi qəbul edirik. Deməliyəm ki, biz bir-birimizə çox böyük qardaşlıq hissləri bəsləyirik. Ölkələrimiz arasında tarixən çox yaxın münasibətlər, dostluq, qardaşlıq münasibətləri mövcud olmuşdur. Çox xoşdur ki, bu münasibətlər indi də inkişaf edir və yeni məna ilə dolğunlaşır.

Nursultan Abişeviçi Azərbaycan xalqının lideri Heydər Əlirza oğlu Əliyevlə böyük şəxsi dostluq telləri bağlayırdı. Bir çox illər, onilliklər ərzində onlar birlikdə çox fəal işləmişlər. Onlar müstəqil ölkələrə - Qazaxıstana və Azərbaycana rəhbərlik etməyə başladıqda da xalqlarımızı daha da yaxınlaşdırmaq, daha böyük inteqrasiyaya və münasibətlərin daha yüksək səviyyəsinə nail olmaq üçün çox sıx qarşılıqlı fəaliyyət göstərirdilər və məqsədlərinə də çatdılar.

Ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsi müstəqil dövlətlərimizin prezidentləri vəzifəsində onların onillik birgə fəaliyyətinin nəticəsidir. Mənə çox xoşdur ki, bu ənənələr saxlanılmışdır və davam edir. Qazaxıstana ötənilki rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Aparılmış danışıqlar və imzalanmış sənədlər sübut edir ki, əlaqələrimiz möhkəmlənir.

Qazaxıstan Prezidentinin Azərbaycana bugünkü səfərinin də çox böyük əhəmiyyəti var. Biz tərəfdaş ölkələrik, qardaşıq. Biz regionda bu gün mühüm rol oynayan və gələcəkdə getdikcə daha mühüm rol oynayacaq ölkələrik. Regionumuzda baş verən proseslər də xeyli dərəcədə qarşılıqlı fəaliyyətimizin səviyyəsindən, əməkdaşlığımızın səviyyəsindən asılı olacaqdır.

Bu gün biz siyasi əməkdaşlığın ən yüksək səviyyəsinə malikik, iqtisadi əlaqələri də genişləndirmək istəyirik. Əmtəə dövriyyəsi artımının çox böyük olması və faiz nisbəti ilə çox kəskin şəkildə artması ilə yanaşı, hesab edirik ki, bu əməkdaşlığı genişləndirmək üçün çox böyük potensial var. Bu məsələlər, habelə regional siyasət, ikitərəfli münasibətlər, Xəzər üzrə əməkdaşlıq məsələləri bugünkü təkbətək danışıqlarımızın və görüşlərimizin diqqət mərkəzində olmuşdur.

Biz bir daha əmin olduq ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi çox yüksəkdir. Qazaxıstan və Azərbaycan, yəqin, elə ölkələrdir ki, onlar qonşuların, dost, qardaş dövlətlərin necə əməkdaşlıq etməli olduqlarına nümunə ola bilərlər. Bu əməkdaşlıq

dərin tarixi köklərə, ənənələrə əsaslanır, habelə dövlətlərimizin təşəkkülü və möhkəmlənməsi, regionun iqtisadi cəhətdən güclü, siyasi cəhətdən fəal ölkələrinə çevrilməsi ilə şərtlənən bugünkü məna ilə dolğunlaşmışdır. Zənnimcə, ölkələrimizin bu istiqamətdə - həm regional işlərdə, həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq çərçivəsində birgə fəaliyyətinin istər ölkələrin daxilində proseslərin inkişafı üçün, istərsə də regional siyasət, əməkdaşlıq və regional təhlükəsizlik məsələləri üçün çox böyük əhəmiyyəti olacaqdır.

Dəvətimizi qəbul edib ölkəmizə səfərə gəldiyinə görə hörmətli Nursultan Abişeviçə böyük təşəkkürümü bildirmək istəyirəm. Həm də çox xoşdur ki, bu səfər Azərbaycanda tarixi hadisə ərəfəsində - Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi ərəfəsində keçir. Sabah biz bu tarixi hadisədə birlikdə iştirak edəcəyik. Mənə çox xoşdur ki, Qazaxıstan Prezidenti bu bayramda qonaqlarımız arasında olacaqdır. Qazaxıstan Prezidentinə, bütün dost və qardaş qazax xalqına bir daha sülh, firavanlıq, tərəqqi arzulamaq istəyirəm və ümidvaram ki, əlaqələrimiz bundan sonra da belə fəal surətdə möhkəmlənəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI

- İlham Heydəroviç, indicə dediyiniz səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Mən bu fikirlərlə tamamilə razıyam. Biz məhdud dairədə və nümayəndə heyətlərimizlə görüşlərdə də bu barədə söhbət etdik. Biz dəvətinizi məmnuniyyətlə qəbul etdik və Siz Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başladıqdan sonra buraya rəsmi səfər edirik. Nümayəndə heyətimizə hökumətimizin aparıcı nazirləri daxildirlər. Bu, ciddi niyyətlərdən və ənənəvi, çoxdankı dostluq və əməkdaşlıq münasibətlərimizi daha da möhkəmlətmək istəyindən xəbər verir. İmzaladığımız sənəd nadir bir sənəddir, çünki biz hələ dostluğumuzun dərin köklərinin və XXI əsrdə gələcək müttəfiqlik münasibətlərimizin qeyd olunduğu strateji xarakterli sənəd imzalamamışdıq.

Hesab edirəm ki, Mərkəzi Asiyada Qazaxıstan Azərbaycan üçün, bizim üçünsə Qafqazda Azərbaycan əsas dövlətdir. Məsələ təkcə bunda deyildir, hərçənd bu da çox vacibdir, biz ümumi tarixi, ümumi böyük əcdadları, ümumi dili, mədəniyyət və ənənələri olan qohum xalqlarıq. Qazax xalqının və şəxsən mənim Azərbaycan xalqına böyük hörmətimiz, məhəbbətimiz və ehtiramımız var. Bəlkə də, uşaqlıqda azərbaycanlılarla birlikdə boya-başa çatmağım şəxsən mənim üçün çox mühüm idi, kəndimizdə çox böyük Azərbaycan diasporu vardı. Bütün xalqımızın da münasibəti belədir. Dediklərim tarixdir, bugünkü həyat isə bizi daha da yaxınlaşdırır. İndi Xəzər bizi bir-birimizdən ayırmır, əksinə, birləşdirir, əslində, biz qonşuyuq, həmsərhədik. İndi bizim iki dövlət bu regionda dünya bazarı üçün neftin əsas hasilatçısıdır. Biz birlikdə çox səylə işləyə, dünya əmək bölgüsünün mühüm iştirakçısı ola bilərik. Əvvəla, bu regionda terrorizmlə və digər təzahürlərlə mübarizə aparılması, sabitliyin bərqərar edilməsi məsələlərində, ikincisi, öz enerji daşıyıcılarımızla dünya məkanında olmağımızla. Bu da yaxın on il üçün sanballı töhfə olacaqdır. İndi Bakı-Tbilisi-Ceyhanı ədalətlə, ayrı-seçkilik etmədən Aktau-Bakı-Tbilisi-Ceyhan adlandırmaq lazımdır. Bu, həcmi ildən-ilə daha çox artacaq Qazaxıstan neftinin dünya bazarlarına çıxarılmasının bizim üçün mühüm variantlarından biridir.

Zənnimcə, bu gün imzalanmış 6 sənəd, - növbədə digər mühüm sənədlərimiz durur, - göstərir ki, biz siyasi məsələləri bütün istiqamətlərdə həll edirik. Hökumətlərarası qarşılıqlı münasibətlər, dövlətlərimizin iqtisadi komissiyalarının iclasları sübut edir ki, kənd təsərrüfatı məsələlərində əməkdaşlıq, o cümlədən Qazaxıstandan ərzaq, taxıl göndərilməsi və Azərbaycandan neft hasilatı, neft emalı üçün avadanlıq alınması, mütəxəssislər mübadiləsi, mədəni mübadilə, müştərək müəssisələr yaradılması, tikinti sənayesi ölkələrimiz arasında əmtəə dövriyyəsini bir neçə dəfə artırmağa imkan verir. Əlaqələr, turizm, gənclərin, ziyalıların mədəni mübadiləsi münasibətlərimizdə mühüm amillərdir. Sizə demək istəyirəm ki, Qazaxıstan Azərbaycanla belə yaxın əməkdaşlığa açıqdır və biz bütün istiqamətlərdə əməkdaşlıq etməyə hazırıq. Hesab edirik ki, bütün istiqamətlərdə münasibətlərimizin inkişafı üçün heç bir maneə yoxdur.

Səmimi, qardaşcasına qəbula, nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, görüşlərimiz, danışıqlarımız, dövlətlərimizin rifahı naminə gələcək əməkdaşlığa güclü təkan verəcəkdir.

Sonra Azərbaycan və Qazaxıstan prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Bir halda ki, Qazaxıstanın və Azərbaycanın əməkdaşlığında karbohidrogenlərin nəqli ən mühüm cəhətlərdən biridir, Aktau-Bakı-Tbilisi-Ceyhandan savayı, yeni tranzit yollarının meydana gəlməsi də planlaşdırılırmı?

NURSULTAN NAZARBAYEV: Gəlin, əvvəlcə bu işi normal surətdə görək. Qazaxıstanın mövqeyinə gəldikdə, mən çoxvektorluğu ona görə əsas tutmuram ki, bu, bizim çox möhkəm və qəti mövqeyimizdir, sadəcə olaraq, ona görə ki, bu, proqnoz deyildir, hesablanmış enerji məsələləridir. Məsələn, 2010-cu ildə 100 milyon, 2015-ci ilədək təxminən 150 milyon ton neft çıxaracağıq. İqtisadiyyatımızın inkişafı baxımından daxili tələbat 25-30 milyon ton olacaqdır. Gördüyünüz kimi, böyük həcmdə neft ixrac ediləcəkdir. Odur ki, bu neftin tam nəqlini nə Bakı-Tbilisi-Ceyhan, nə də Şimali Xəzər boru kəməri təmin edə biləcəkdir. Yəqin sizə məlumdur ki, dekabrda biz Çinə gedən və gücü 20 milyon ton olan 1000 kilometrlik neft kəmərinin tikintisini başa çatdıracağıq, Xəzəri Qərbi Çinlə birləşdirmək üçün daha 700 kilometrlik hissəni inşa etmək qalır. Zənnimcə, gələcəkdə Fars körfəzinə çıxmaqla İran variantı da mümkündür. Biz Atrau-Samara vasitəsilə Baltik dənizinə çıxmaq üçün Rusiya ilə işləyirik. Bir sözlə, bütün bunlar həcmlərlə və zərurətlə müəyyən ediləcəkdir. Bu gün Bakı-Tbilisi-Ceyhan Qazaxıstan neftinin nəqli üçün çox mühüm variantlardan biri olaraq qalır.

İLHAM ƏLİYEV: Uzun illər ərzində bizim mövqeımiz də ixrac yollarının çoxvariantlığına əsaslanmışdır. Həmişə hesab etmişik və bu gün də həmin yanaşmanın düzgünlüyünü yəqin etdik ki, nəqletmənin alternativ yolları nə qədər çox olarsa, mənafelərimizin maksimum təmin edilməsi üçün imkanlar bir o qədər çox olacaqdır. Artıq bu gün Azərbaycanda iki boru kəməri mövcuddur, onlar Azərbaycan neftini Rusiyanın və Gürcüstanın Qara dəniz limanlarına nəql edir. Bakı-Tbilisi-Ceyhan boru kəməri istifadəyə verildikdən sonra üçüncü bazar - Aralıq dənizi bazarı meydana gələcəkdir. Əlbəttə, lazım gələrsə, bizim nəqliyyat infrastrukturu Qazaxıstanın neft hasilatçılarının da istifadəsinə veriləcəkdir ki, bu məsələ maksimum səmərə ilə öz həllini tapa bilsin.

Qazaxıstan iri neft hasilatçısına çevrilir. Əlbəttə, hesab edirik ki, neftin ərazimiz vasitəsilə nəqli çərçivəsində Qazaxıstanla Azərbaycan arasında fəal əməkdaşlığın çox mühüm iqtisadi nəticələri ola bilər. Bir daha demək istəyirəm ki, ehtiyac yaranarsa, biz bütün nəqliyyat infrastrukturumuzu qardaşlarımızın tam ixtiyarına verəcəyik.

SUAL: Hazırda Xəzəryanı dövlətlərin bütün başçılarının görüşməsi və Xəzərin statusu məsələsinə dair tammiqyaslı konsensus haqqında razılığa gələ bilməsi üçün bütün ilkin şərtlər varmı? Əgər indi bu dövlətlərin bütün başçıları həmin problemin həlli üçün ciddi siyasi iradələrinin olduğunu bəyan edirlərsə, bu problemin tam həllinə nə mane olur?

NURSULTAN NAZARBAYEV: Biz, bütün Xəzəryanı dövlətlər Xəzər dənizi haqqında pakt imzalanması üzərində çoxdan işləyirik. Bildiyiniz kimi, biz orta xətdən, sahilyanı sulardan və açıq dənizdən danışdıqda, Rusiya, Qazaxıstan və Azərbaycan arasında mövqe yaxınlığı mövcuddur. İranın mövqeyi bir qədər fərqlənir. İndi danışıqlar aparan nümayəndələrimiz konsensus tapmaq üçün bu istiqamətdə intensiv surətdə işləməkdə davam etdirlər. Ona görə də mən bu fikirdəyəm ki, biz - beş Xəzəryanı dövlət kənardan müdaxilə olmadan həmin məsələni özümüz həll etməliyik. Çünki bu, bizim mənafelərimizdir və bu dəniz hamımızı birləşdirməlidir, o, dostluq, əməkdaşlıq və ticarət dənizi olmalıdır. Düşünürəm ki, Türkmənistan da, İran da məsələyə bu cür yanaşmada maraqlıdır. Əvvəl-axır, ölkələrin mənafeləri üstünlük təşkil etməlidir və biz buna gəlib çıxmalıyıq. İndi ancaq danışıqlar prosesindən söz açа bilərəm. Növbəti görüşümüz Tehrana təyin olunub, onun müddəti hələ müəyyən edilməyibdir. Yəqin ki, İran Prezidentinin seçkilərindən sonra biz danışıqlar aparmaq üçün görüşlərimizin daha konkret tarixini gözləyəcəyik.

İLHAM ƏLİYEV: Biz Xəzərin məsələlərinin tənzimlənməsinə dair çoxtərəfli danışıqlar aparılmasına böyük əhəmiyyət veririk. Bu məsələnin tənzimlənməsinə töhfəmizi vermək üçün öz tərəfimizdən bütün mümkün işləri görürük. Bu məsələyə müxtəlif yanaşmalar mövcuddur. Lakin bizim yanaşmamız həmişə beynəlxalq hüququn, indiki halda, dəniz hüququnun norma və prinsiplərinə, habelə dünya praktikasına əsaslanmışdır. Düşünürəm ki, Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında əldə edilmiş sazişlər bütün Xəzəryanı ölkələrin çoxtərəfli sazişi üçün yaxşı əsas ola bilər. Bu üç ölkə öz aralarında bütün danışıqlar proseslərini tamamilə başa çatdırmışlar. İmzalanmış sazişlər milli sektorları dəqiq delimitasiya edir. Bu, hərtərəfli tənzimləmə üçün yaxşı əsasdır və zənnimcə, bu yanaşmadan istifadə edilərsə, məsələnin həllinə çox tez nail olmaq mümkündür.

Həmçinin demək istərdim ki, tənzimləmə məsələsinin hələ tamamilə həll edilməməsinə baxmayaraq, bu, Xəzər dənizinin Azərbaycan sektorunda işləyən əcnəbi sərmayəçilər üçün maneə olmamışdır. Buraya milyardlarla dollar sərmayə qoyulmuş, müasir neft infrastrukturu yaradılmışdır, karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı işləri aparılır, boru kəmərləri çəkilir. Başqa sözlə, Xəzərin statusunun tənzimlənməməsi məsələsi iqtisadi layihələrimizin həyata keçirilməsində ləngitmələrə gətirib çıxarmadı. Lakin çox istərdik ki, bu məsələ, nəhayət, öz hüquqi həllini tapsın ki, Xəzərdə bütün mübahisələrə son qoyulsun və Xəzər əməkdaşlıq, sülh və təhlükəsizlik zonasına çevrilsin.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Mayın 24-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Qazaxıstan rəhbərini böyük səmimiyyətlə qarşıladılar.

Prezident Nursultan Nazarbayevə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Prezident Nursultan Nazarbayev və Qazaxıstan nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Nursultan Nazarbayev dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə, habelə onun Avropa, Asiya ölkələrinin liderləri ilə şəkillərinə böyük maraqla baxdı.

Qazaxıstan Prezidenti Fondla tanış olduqdan sonra xatirə kitabına qazax dilində öz ürək sözlərini yazdı: "Heydər Əliyevin xatirəsi xalqın qəlbində daim yaşayacaq. O, bütün həyatını xalqının rifahına, millətinin dirçəlişinə həsr etdi və ölməzlik qazandı".

Prezident Nursultan Nazarbayev öz ölkəsinin azadlıq rəmzi olan abidənin maketini Fondun prezidenti Mehriban xanım Əliyevaya təqdim etdi.

Mehriban xanım Əliyeva Prezident Nursultan Nazarbayevə xatirə hədiyyələri bağışladı.

Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Mayın 24-də Bakı Əyləncə Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin adından Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar Prezident İlham Əliyevi və Prezident Nursultan Nazarbayevi səmimiyyətlə salamladılar.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Dost, qardaş Qazaxıstanın Prezidenti Nursultan Abişeviç Nazarbayevi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyuruq. Ölkələrimizi ümumi tarix, ümumi köklər bağlayır, bizi uzun illərdən bəri birgə həyat bağlayır. Çox dəyərli haldır ki, indi, Qazaxıstanın və Azərbaycanın müstəqil dövlətlər kimi fəal inkişaf etdiyi dövrdə xalqlarımız arasındakı ənənəvi dostluq əlaqələri saxalanır, möhkəmlənir və yeni forma alır.

Ölkələrimiz öz aralarında güclü qarşılıqlı əlaqə saxlayır, çox yüksək səviyyəli siyasi münasibətlərə malikdir, beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləyir, bir-birinin mövqeyinə həmişə səs verirlər. Əlbəttə, bütün bunlar iqtisadi, humanitar müstəvidə, qalan bütün sahələrdə hərtərəfli münasibətlərin inkişafına çox əlverişli zəmin yaradır.

Prezidentlərin, hökumət rəhbərlərinin, nazirlərin, deputatların, ictimai xadimlərin tez-tez keçirilən görüşləri də ölkələrimiz və xalqlarımız arasında daha sıx münasibətlər yaradılmasına yönəldilmişdir. Biz bu münasibətləri çox qiymətləndiririk, Qazaxıstanın dəstəyini çox dəyərləndiririk. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində bu dəstəyi həmişə duymuşuq və duyuruq. İqtisadi əlaqələrimizi çox qiymətləndiririk. Əlbəttə, bundan sonra da çalışacağıq ki, ölkələrimiz arasında strateji münasibətlər möhkəmlənsin, Qazaxıstan və Azərbaycan regional əməkdaşlığın, nəqliyyat münasibətlərinin inkişafında və ümumən regionun iqtisadi inkişafında gələcəkdə də mühüm rol oynasınlar.

Bu gün görüşümüz əsnasında dedim ki, bu qardaşlıq, dostluq münasibətlərinin əsasını xalqlarımızın iki lideri - Qazaxıstanın lideri Nursultan Nazarbayev və Azərbaycanın lideri Heydər Əliyev qoymuşlar. Münasibətlərimizin belə müstəvidə bugünkü inkişafını əsasən onların müdrikliyi, uzaqgörənliyi, siyasi təcrübəsi, habelə ölkələrimizin xalqları tərəfindən dəstək verilməsi öncədən müəyyənləşdirmişdir. İndi Azərbaycanda bu ənənələr davam etdirilir. Heydər Əliyev siyasəti davam edir və əlbəttə, yeni meyillərlə, cəmiyyətin və ölkəmizin yeni tələbləri ilə təzə formalar alır. Biz bu münasibətlərə - ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə tərəfdarıq. Bu münasibətləri əməli işlərlə çox şey dolğunlaşdırır. Karbohidrogen ehtiyatlarının nəqli sahəsində münasibətlərimiz, Şərq-Qərb dəhlizi, TRASECA proqramı çərçivəsində münasibətlər, özəl qurumlarımızın daha fəal əməkdaşlığı bu qəbildəndir. Təsadüfi deyil ki, əmtəə dövriyyəsinin müşahidə etdiyimiz artımı potensialımıza cavab verməsə də, onun artım sürəti xeyli böyükdür və ölkələrimiz arasında əmtəə dövriyyəsinin iki dəfə, bəlkə də, üç dəfə artacağına ümid bəsləyirik.

Bir neçə ildən sonra Qazaxıstan və Azərbaycan karbohidrogen ehtiyatlarının çıxarılması səviyyəsinə görə neftin çox mühüm hasilatçısı olan ölkələrə çevriləcəklər. Bu, üzərimizə həm də böyük məsuliyyət qoyur. Bu, yaxşı perspektivlər açır. Qarşılıqlı yardımın, dəstəyin və əməkdaşlığın belə bir səviyyəsində əsla şübhə etmirəm ki, biz nəzərdə tutulmuş bütün planları reallaşdıracağıq.

Biz siyasi və iqtisadi islahatların aparılması işində Qazaxıstanın uğurlarına çox sevinirik. Qazaxıstanın indiyədək apardığı islahatlar öz həyatiliyini əyani surətdə nümayiş etdirdi, Qazaxıstan rəhbərliyinin xəttinin düzgünlüyünü əməli surətdə göstərdi və bu bizi çox sevindirir.

Mən Azərbaycan xalqının böyük dostu Nursultan Abişeviç Nazarbayevi Azərbaycanda səmimi qəlbdən salamlamaq istəyirəm. Qazaxıstan Prezidentinin sağlığına, qardaş Qazaxıstan xalqının tərəqqisi, firavanlığı şərəfinə badə qaldırmağı təklif edirəm.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ

- Azərbaycan Respublikasının hörmətli Prezidenti İlham Heydər oğlu!

Bu rəsmi səfərə dəvətə və görüşümüzün gözəl təşkilinə görə, qardaşcasına böyük qonaqpərvərliyə görə bir daha ürəkdən təşəkkür etmək istəyirəm.

Mən buraya həmişə doğma evimə gəldiyim kimi gəlirəm. Xalqınızın qazax xalqına, Qazaxıstana münasibətini bilirəm. Bu da obyektivdir, çünki bizim aramızda tarixi yaxınlıqdan və həmişəki yaxınlıqdan, qarşılıqlı etimad və yardımdan savayı heç nə olmamışdır. Əvvəllər də belə olub, indi də belədir. Öz siyasətini, heç kimdən asılı olmayan və yalnız xalqlarımızın, dövlətlərimizin mənafelərinə yönəldilmiş siyasətini yeridən iki dövlət kimi, biz bu münasibətləri müstəqillik şəraitində inkişaf etdirməliyik.

Mən 25 il ərzində yaxından tanıdığım müdrik insanın - Heydər Əliyeviçin həmkarı olmuşam. Bu müdriklik son illər çox şeydə təzahür etmişdir. O, MDB çərçivəsində harada olurdusa-olsun, həmişə öz biliyi və çox böyük nüfuzu ilə sakitlik, müdriklik mühiti yaradırdı. Onun haqqında çox danışmaq olar. Lakin mən çox şadam ki, onun sonuncu hünəri bundan ibarət oldu ki, o, hakimiyyətin varisliyini təmin etdi. Başa düşürəm ki, Heydər Əliyev kimi çox böyük təcrübəyə, bütün dünyada belə nüfuza malik olmayan varis üçün necə çətin idi.

Lakin məmnunluqla, xoşbəxtliklə, sevinclə demək istəyirəm ki, İlham Heydər oğlu idarəçiliyi layiqincə davam etdirir, idarəetmənin sükanını təmkinlə qəbul etmişdir və ölkəni tərəqqi yolu ilə aparır. Biz bunu son illərin göstəricilərində görürük. Mən Azərbaycan dövləti, Azərbaycan xalqı üçün mühüm hadisədə - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi mərasimində iştirak etməyə məmnuniyyətlə gəlmişəm. Bilirik ki, ondan səmərəli istifadə olunmasında Qazaxıstana mühüm yer verilir və bu, ölkəmiz üçün sərfəlidir. Bu, neftin nəqli üçün yeni çıxış, yeni yollardır. Biz hamımız xalqlarımızın böyük gələcəyini, tərəqqisini bununla bağlayırıq.

Bu gün mən demək istəyirəm ki, Qazaxıstan həmişə Azərbaycanla olacaq və qəlbimizdə qardaşlıq duyğuları heç zaman sönməyəcəkdir. Azərbaycan Prezidentinin burada dediyi kimi, biz əl-ələ verib səylərimizi birləşdirməklə dünya əmək bölgüsündə layiqli yer tuta bilərik və əminəm ki, neft hasilatı sahəsində dünyanın ilk beş dövləti ilə bərabər səviyyədə dünya bazarına enerji daşıyıcıları göndərən hörmətli dövlətlər olacağıq.

Belə gələcək dövlətlərimizi sevindirməlidir. Burada razılaşdırılmış fəaliyyət, birgə iş çox vacibdir. Düşünürəm ki, biz heç də təkcə bu sahədə əməkdaşlıq etməməliyik. Bizim maşınqayırmada, tikinti komplcksində, kənd təsərrüfatında, infrastruktur layihələ-

rində istifadə edilməmiş ehtiyatlarımız çoxdur. Odur ki, azərbaycanlı biznesmenləri Qazaxıstanda həyata keçirdiyimiz sənayeləşdirməyə qoşulmağa dəvət edirik.

Hörmətli İlham Heydər oğlu!

Biz buraya qardaş kimi gəlmişik. Mən buraya Azərbaycan xalqını və şəxsən Sizi çox yüksək qiymətləndirən insan kimi gəlmişəm.

Biz bütün təcrübəmizi, islahatlarımızı, dövlətiniz və xalqınız üçün Qazaxıstanın görə biləcəyi bütün işləri təqdim etməyə hazırıq. Əminəm ki, bu səfər, imzalanmış sənədlər yeni mərhələ olacaqdır. Növbəti görüşlər zamanı deyəcəyik ki, münasibətlərimiz, ilk növbədə, ticarət əlaqələrimiz yüksək səviyyəyə qalxmışdır.

Xalqlarımızın şərəfinə, xalqlarımızın dostluğu şərəfinə, xalqlarımızın qardaşlığı şərəfinə, xalqlarımızın tərəqqisi şərəfinə, Azərbaycan Prezidenti İlham Heydər oğlunun sağlığına badə qaldırmaq istəyirəm.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Gürcüstan Prezidenti Mixail Saakaşvili Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində iştirak etmək üçün mayın 24-də Azərbaycana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Mayın 24-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdən sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Siz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsinin əhəmiyyətini necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Dostluğumuz əbədidir və əbədi də olacaqdır. Bu boru kəməri isə ölkələrimiz arasında münasibətləri daha da möhkəmləndirəcək, Gürcüstanla Azərbaycanı daha sıx birləşdirəcəkdir. O, ölkələrimizə firavanlıq, regiona təhlükəsizlik gətirəcəkdir. Bu, bir daha nümayiş etdirir ki, siyasi iradə, regional əməkdaşlıq və qarşılıqlı anlaşma olduqda, hətta inanılmaz kimi görünən layihələr, dünyanın ən iri energetika layihəsi - Bakı-Tbilisi-Ceyhan boru kəməri öz həqiqi təcəssümünü tapır. Bir sözlə, biz çox şadıq ki, dostum, Gürcüstan Prezidenti Mixail Saakaşvili bu tarixi gündə bizimlə birlikdə mərasimdə iştirak edəcəkdir.

MİXAİL SAAKAŞVİLİ: Bu layihə bizim üçün çox vacibdir. Neft kəməri, gələn il isə qaz kəməri bütün regionu, o cümlədən Gürcüstanı enerji cəhətdən tam müstəqil edəcəkdir. Bu, müstəqilliyimizin möhkəmlənməsi, ölkələrimizin inkişafı üçün çox vacibdir. Biz, həqiqətən, öz qardaşlarımızın yanına gəlmişik. Buraya gələndə həmişə Azərbaycan üzərində buludsuz səma görürük. Buraya səfərləri rəsmi səfərlər kimi qəbul etmək mənim üçün çətindir. Çünki münasibətlərimiz kimi qeyri-rəsmi olan heç nə yox-

dur. Çünki bu, qardaşlar arasında olan münasibətlərdir. Biz qapıbir qonşuyuq, yox, sadəcə qonşu deyil, qardaşıq. Mən bunu, həqiqətən, tarixi hadisə sayıram, çünki region dəyişir, dünya dəyişir. Dünyanın bu çox mürəkkəb dövründə onun üçün tamamilə yeni perspektivlər açılır. Bütün məsələlərdə bizim aramızda tam anlaşma var.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi mərasimində iştirak etmək üçün mayın 24-də Azərbaycana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

Mayın 24-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Əhməd Necdət Sezəri səmimiyyətlə qarşıladı, onu Bakıda görməsindən məmnunluğunu bildirdi.

Prezident Əhməd Necdət Sezər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin açılışı mərasimində iştirak etməyin tarixi hadisə olduğunu bildirdi, bu münasibətlə Prezident İlham Əliyevi ürəkdən təbrik etdi, bu kəmərin və digər iqtisadi layihələrin ölkələrimizin iqtisadi tərəqqisində əvəzsiz rol oynayacağını vurğuladı.

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də tikintisinin başa çatmasının təntənə ilə qeyd olunacağını söyləyən Türkiyə dövlətinin başçısı bu nəhəng layihələrin həyata keçirilməsində türk dünyasının böyük oğlu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müstəsna rolunu, ardıcıl səylərini və əzmkarlığını bir daha yada saldı və onun bu xidmətlərinin heç zaman unudulmayacağını bildirdi.

Səmimi sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev qardaş ölkənin mövqeyini yüksək qiymətləndirdi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin gündən-günə inkişafından söhbət açdı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində Azərbaycanın mövqeyinin Türkiyə tərəfindən bundan sonra da dəstəklənəcəyi vurğulandı.

Prezidentlər ikitərəfli və regional münasibətlərə dair bir sıra məsələlər haqqında ətraflı fikir mübadiləsi apardılar.

HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

Memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti bu günlər öz tarixinin ən əlamətdar anlarından birini yaşayır. İndi dünyanın nə-

zərləri Bakıya dikilmişdir. Hazırda dünyanın ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisi başa çatmışdır və onun neftlə doldurulmasına başlanır. Bu, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Azərbaycanın yeni neft strategiyasının təntənəsidir. Azərbaycan xalqı, layihədə iştirak edən xarici tərəfdaşlarımız bu əlamətdar günü on ildən çox idi ki, gözləyirdilər. Nəhayət, həmin gün gəlib çatdı, üç dənizin əfsanəsi artıq reallığa çevrilmişdir, Azərbaycanın böyük nefti dünya bazarına çıxır.

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1770 kilometrlik xəttin "qara qızılla" doldurulması üçün 10 milyon barrel xam neft tələb olunur. Bu neft Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaqdır. Boru kəmərinin tam marşrutu boyunca mərhələli doldurulmasına 6 aydan artıq vaxt tələb olunur və Ceyhanda ilk tankerin neftlə yüklənməsi 2005-ci ilin dördüncü rübünə nəzərdə tutulmuşdur.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə mayın 25-də Səngəçal terminalında təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, ABŞ-ın energetika naziri Samuel Bodman, Böyük Britaniyanın, Fransanın, Ukraynanın, Yaponiyanın, Norveçin və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

Mərasimi Azərbaycan Prezidenti İlham Əliyev açdı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm. Bu gün tarixi bir gündür. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə Bakıda gözəl bir mərasim keçirilir. Mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş bütün yüksək qonaqları səmimi qəlbdən salamlayıram. Bizimlə bərabər bu mərasimdə Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər iştirak edir. Gürcüstanın Prezidenti Mixail Saakaşvili iştirak edir. Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev iştirak edir. Əlahəzrət York hersoqu iştirak edir. Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bodman iştirak edir. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı cənab Pibalqs iştirak edir. bp şirkətinin prezidenti lord Braun da bu gün bizim qonağımızdır.

Mən çox şadam ki, bu tarixi gündə biz hamımız birlikdə Bakıda yığışmışıq, bu gözəl bayramı birlikdə qeyd edirik. 1994-cü ildə "Əsrin müqaviləsinin imzalanması ilə Azər-

baycanda Heydər Əliyevin neft strategiyasının icra olunması başladı. 1994-cü il bizim hamımızın xatirindədir. O ağır, çətin şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti nəticəsində bu müqavilə imzalandı və Azərbaycan öz neft-qaz yataqlarını xarici şirkətlərlə birlikdə istismar etməyə başladı.

O vaxtdan 10 ildən çox zaman keçir. Bu illər ərzində qarşıda duran bütün vəzifələr öz həllini tapdı, Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox səmərəli işbirliyi, əməkdaşlıq qura bildi. Azərbaycana böyük həcmdə sərmayə gəldi, Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə yatırıldı. Bu illər ərzində ölkədə gedən proseslər, iqtisadi islahatlar, inkişaf onu göstərdi ki, Azərbaycan 1994-cü ildə düzgün seçim etmişdir. Çox böyük təzyiqlər olmasına, süni maneələr yaradılmasına baxmayaraq, bizi bu yoldan heç kim və heç nə döndərə bilmədi. Heydər Əliyevin neft strategiyası Azərbaycana böyük uğurlar gətirdi. Azərbaycanın iqtisadiyyatının bütün sektorları inkişaf etməyə başladı. Azərbaycanda aparılmış iqtisadi islahatlar nəticəsində bu gün ölkəmizin həm neft sektoru, həm də qeyri-neft sektoru uğurla inkişaf edir. Ölkəmiz son 10 ildə öz iqtisadi potensialını gücləndirərək, hər il təxminən 10 faiz səviyyəsində iqtisadi artıma nail ola bildi. 2005-ci ilin ilk dörd ayında Azərbaycanda sənaye istehsalı 15 faiz, ümumi daxili məhsul 14 faiz artmışdır. Bu ilin sonuna qədər Azərbaycanda ÜDM ən azı 18 faiz artacaqdır ki, bu da Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə dünyada ən yüksək göstəricidir.

Neft amilindən məharətlə istifadə edərək, iqtisadiyyatımızı şaxələndirir, qeyri-neft sektoruna böyük diqqət göstəririk. Keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramı da uğurla icra edilir. Böyük qürur hissi ilə deyə bilərəm ki, son ilyarım ərzində görülmüş tədbirlər nəticəsində Azərbaycanda iki yüz mindən artıq yeni iş yeri açılmış, onların tam əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Yoxsulluğun səviyyəsi son ilyarım ərzində 9 faiz aşağı düşmüşdür və biz qarşımıza vəzifə qoymuşuq ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün. Əminəm ki, biz buna nail olacağıq.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, möhkəm iradə lazım idi, müdriklik lazım idi. İqtisadi və siyasi islahatlar aparmaq lazım idi. Amma onu da bilirik ki, həlledici rolu neft amili, "Əsrin müqaviləsi"nin imzalanması oynamışdır. Həmin müqavilə, ondan sonrakı dövr ərzində görülən işlər Azərbaycanın inkişafına böyük təkan vermişdir və biz bunu bu gün də hiss edirik.

Ölkəmiz yeniləşir, müasirləşir, inkişaf edir və əminəm ki, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir.

Neft hasil etmək, əlbəttə ki, bizim problemlərimizin həlli demək deyildir. Neft nəql etmək lazımdır. Çünki Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bunu etmək üçün neft kəmərləri lazım idi və bu istiqamətdə də ardıcıl siyasət aparılmışdır. Azərbaycan çoxvariantlı neft kəmərləri strategiyasını həyata keçirir və artıq iki kəmər fəaliyyətdədir: Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftini dünya bazarlarına çıxarır. Amma bizim neft strategiyamızı tam həcmdə həyata keçirmək üçün əlbəttə ki, böyük gücə malik neft kəmərinin tikintisi lazım idi və biz də bunu bacardıq, bunu etdik. Bəziləri buna inanmırdı, şübhə ilə yanaşırdı, bəziləri buna maneçilik törətmək istəyirdilər. Amma bunların heç biri baş tutmadı. Azərbaycan öz dostları, qonşu dövlətlər ilə birlikdə məqsədinə nail ol-

du. Türkiyə-Gürcüstan-Azərbaycan birliyi, Amerika Birləşmiş Ştatlarının bu layihəyə və ümumiyyətlə, bütün enerji layihələrinə verdiyi dəstək, bp şirkəti başda olmaqla xarici şirkətlərin çox səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti imkan verdi ki, biz bu əfsanəni reallığa, gerçəkliyə çevirdik.

Mən şübhə etmirəm ki, bundan sonra da Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə çox böyük səmərə, fayda gətirəcəkdir. Bu kəmər, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda, biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var. Hələ ki, bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik tam mənada bərqərar olunmayıbdır. Bölgədə təhlükələr var. Onlardan biri də Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, bu təcavüzün nəticəsində torpaqlarımızın 20 faizinin işğal altına düşməsi və bir milyondan artıq azərbaycanlının qaçqın və köçkün vəziyyətində yaşamasıdır. Biz əminik ki, bütün imkanlardan istifadə edərək, ədaləti bərpa edəcəyik. Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək və bizim suverenliyimiz tam bərpa olunacaqdır. Bölgədə buna bənzər digər separatçılıq hərəkətləri mövcuddur. Ona görə də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində mühüm rolu olacaqdır.

Bu kəmər eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir. Bu kəmər dünyanın ən iri, ən nəhəng enerji layihəsidir. Yalnız və yalnız üç ölkənin birgə fəaliyyəti, əməkdaşlığı və dostluğu nəticəsində biz bu kəməri bu gün istismara veririk. Türkiyə, Gürcüstan və Azərbaycanın rəhbərləri, vəzifəli şəxsləri, mütəxəssisləri vahid bir komanda kimi, bir ailə kimi bu kəmərin tikilməsi üçün fəal işləmişlər və onun istismara verilməsi gələcək regional əməkdaşlıqdan ötrü çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Kəmərin fəaliyyətindən əldə olunacaq gəlirlərin səmərəli istifadə edilməsi də bizi çox düşündürür. Azərbaycan hökuməti bu sahədə şəffaflığın təmin olunması üçün əlindən gələni edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə Azərbaycanda Neft Fondu yaradılmışdır və neft əməliyyatlarından əldə olunan bütün gəlirlər o Fondda cəmləşir. Fondda çox açıq, şəffaf şəkildə beynəlxalq audit keçirilir və Azərbaycan vətəndaşları dəqiq məlumat əldə edirlər. Biz hesab edirik ki, Azərbaycan iqtisadiyyatına bu layihələrdən gələcək böyük vəsait səmərəli istifadə olunmalıdır, hər bir Azərbaycan vətəndaşı bu gözəl imkanlardan faydalanmalıdır və neft gəlirləri Azərbaycanda ədalətli bölünməlidir. Bizim hökumətimiz bunu təmin etmək üçün əlindən gələni edir və əminəm ki, buna nail olacağıq.

Mən bu gün Amerika Birləşmiş Ştatlarının dəstəyini xüsusi qeyd etmək istəyirəm. Hamımız gözəl bilirik ki, əgər bu dəstək olmasaydı, bizim planlarımız həyata keçə bilməzdi. Biz bu dəstəyi 1994-cü ildən başlayaraq bu günə qədər hiss edirik. Amerika Birləşmiş Ştatları hökumətinin bizim bütün enerji layihələrimizi dəstəkləməsi bu kəmərin istismara verilməsinə böyük kömək göstərdi. Biz çox şadıq ki, aramızda çox gözəl əməkdaşlıq var. Amerika və Azərbaycan müxtəlif sahələrdə çox səmərəli işləyirlər. Biz tərəfdaşıq, dünyada gedən proseslərə eyni baxışlarla yanaşırıq. Amerika Birləşmiş Ştatlarının energetika nazirinin bugünkü tədbirdə iştirak etməsi də göstərir ki, bu layihə

ABŞ-ın maraqlarının təmin olunması üçün böyük əhəmiyyət kəsb edir.

Bu gün mən xüsusilə bp şirkətinin və onun prezidenti lord Braunun fəaliyyətini qeyd etmək istəyirəm. Buraya gəlməzdən əvvəl biz muzeydə nümayiş etdirilən ekspozisiya ilə tanış olduq. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması münasibətilə təşkil olunmuş mərasimdə çəkilmiş şəkilləri də gördük. Orada gördük ki, hörmətli lord Braun Heydər Əliyevlə birlikdə müqavilənin imzalanmasında iştirak edirlər. Lord Braunun fəaliyyəti həlledici rol oynamışdır və dünyanın aparıcı neft şirkəti olaraq bp şirkəti Azərbaycana, Azərbaycan iqtisadiyyatına çox böyük həcmdə sərmayə qoyubdur. Bu onu göstərir ki, bizim aramızda çox səmimi əlaqələr, Qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı inam var. Biz bunu hiss edirik və görürük ki, bp şirkəti Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsinə çevrilibdir. Biz bunu çox yüksək qiymətləndiririk və çox şadıq ki, burada bp-ni təmsil edən insanlar bizimlə bərabər çox fəal işləyirlər və bu gün mən cənab Devid Vudvordun da xidmətlərini xüsusi qeyd eymək istəyirəm. Bütün başqa xarici neft şirkətlərinin nümayəndələrinin xidmətlərini qeyd edirəm və birgə fəaliyyətə görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Bizim aramızda çox gözəl münasibətlər var və xarici şirkətlərin Azərbaycanın bu gününə və sabahına da böyük inamı var. Əgər bu inam olmasaydı, heç vaxt Azərbaycana on milyardlarla dollar vəsait qoyulmazdı.

Bu gün Azərbaycan neftçilərinin də böyük bayramıdır. Mən bu bayram günündə bu yüksək kürsüdən Azərbaycan neftçilərini ürəkdən təbrik edirəm. Onlara salamlarımı çatdırmaq, öz hörmətimi bildirmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bütün əməkdaşlarına öz səmimi salamlarımı çatdırıram. Layihələrin həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin də müstəsna rolu olmuşdur və mən bunu çox yüksək qiymətləndirirəm. Fəxr edirəm ki, mənim də həyatımın böyük hissəsi - 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçmişdir. Mən bütün neftçilərə, burada iştirak edən neftçilərə, bizim xarici həmkarlarımıza və burada olmayan bütün neftçilərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. O illər mənim həyatımda çox mühüm illər idi, mənim fəaliyyətim üçün çox faydalı idi və mən o günləri heç vaxt unutmayacaq, yaddan çıxarmayacağam. Fəxr edirəm ki, 1994-cü ildən mən də bu layihələrin həyata keçirilməsində öz əməyimi göstərmişəm.

Bu gün bayram günüdür, hamımız sevinirik. Amma eyni zamanda, kədərli hisslər də keçiririk. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin memarı, təşəbbüskarı, Azərbaycanın neft strategiyasının təşəbbüskarı, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bizim aramızda deyildir. Onun uzaqgörənliyi, qətiyyəti, onun fəaliyyəti olmasaydı, əminəm ki, biz bütün bu uğurlara nail ola bilməzdik. O, çox istəyirdi, çox gözləyirdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri nə vaxt istismara veriləcəkdir. 2002-ci ilin sentyabr ayında elə bu Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. O günü biz çox yaxşı xatırlayırıq. Heydər Əliyev ondan sonra dəfələrlə maraqlanırdı, soruşurdu ki, nə vaxt kəmər istismara veriləcək, hansı tarixdə işə başlayacaqdır. Ancaq tale ona nəsib etmədi ki, bu gün bizimlə bərabər olsun və bu günə sevinsin. Amma onun ideyaları yaşayır, siyasəti yaşayır, bu siyasət bu gün davam etdirilir, Azərbaycan xalqına böyük uğurlar gətirir və gələcəkdə də uğurlar gətirəcəkdir. Memarı, təşəbbüskarı Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan neft kəməri bu gün istismara verilir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə sizin hamınızı, Azərbaycan xalqını, türk xalqını, gürcü xalqını, bütün bizim dostlarımızı bir daha ürəkdən salamlayıram, sizə öz təbriklərimi çatdırıram. Arzu edirəm ki, bu kəmərin həyatı, fəaliyyəti uğurlu olsun, xalqlarımıza, bizim bölgəyə sülh, əmin-amanlıq, rifah, firavanlıq, xoşbəxtlik gətirsin. Sağ olun.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

- Hörmətli cümhur başqanları!

Hörmətli nazirlər!

Dəyərli iştirakçılar!

Dost və qonşu ölkələrin hörmətli prezidentləri və nazirləri ilə birlikdə Azərbaycanda Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ilk bayramında iştirak etməkdən çox böyük sevinc hissi duyuram. Bu tarixi gündə qardaş və dost Azərbaycanda keçirilən tədbirə dəvət olunmağımdan böyük qürur hissi duyduğumu bildirirəm. Bu layihənin yaradıcılarından olan və onun həyata keçirilməsində tarixi rol oynamış, müasir Azərbaycanın qurucusu mərhum Heydər Əliyevin əziz xatirəsini hörmətlə yada salmaq istəyirəm.

Dünya üçün nümunə olan Səngəçal terminalında bir zaman xəyal kimi görünən, lakin bəşəriyyətin ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinə ilk neftin doldurulmasına çox böyük qürur hissi ilə şahidlik edirik. Bu layihənin həyata keçirilməsində əməyi olan bütün iştirakçılara səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Hörmətli prezidentlər!

Hörmətli nazirlər, iştirakçılar!

XXI yüzilliyin İpək yolu kimi adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən vacib elementi - Bakı-Tbilisi-Ceyhan neft kəməri bu regionun sabitliyi və inkişafı üçün çox böyük əhəmiyyət kəsb etməkdədir. Enerji təhlükəsizliyi sabitliyin və inkişafın əsas elementi kimi qarşımıza çıxmaqdadır. 2030-cu ilə qədər dünyada enerji istehlakı 60 faiz artacaqdır. Bu baxımdan Xəzər neftinin beynəlxalq bazarlara təhlükəsiz şəkildə nəqlini təmin edəcək Bakı-Tbilisi-Ceyhan boru kəmərinin həm regionda, həm də dünyada çox böyük rolu vardır. Bu boru kəməri Qərb bazarlarını Xəzər hövzəsinin nefti ilə təmin edəcəkdir ki, bu da xüsusi əhəmiyyətə malikdir.

Hər gün 1 milyon barrel və ildə 50 milyon ton həcmində neft daşıyacaq bu kəmər eyni zamanda, Türkiyə boğazları vasitəsilə nəql olunan təhlükəli yükləri azaldacaqdır. Bu layihənin həyata keçirilməsi Qafqazda çox böyük ehtiyac olan güclü işbirliyi şəbəkəsinin yaradılmasına öz töhfəsini vermişdir. Bakı-Tbilisi-Ceyhan boru kəməri eyni zamanda, Türkiyənin enerji siyasətinə də böyük miqyasda xidmət göstərəcəkdir. Ölkəmiz bu enerji mənbələrindən, geostrateji layihələrdən faydalanaraq, enerji istehlakçısı olan ölkələrə təhlükəsiz şəkildə neftin nəqlini təmin edəcəkdir. Türkiyənin məqsədi Ceyhan terminalını ticarət şəbəkəsinə çevirməkdir. Bakı-Tbilisi-Ceyhan layihəsi Türkiyənin bu məqsədlərə çatmasında çox mühüm bir mərhələdir.

Bu gün ilk nefti dolduracağımız boru kəmərinə Qazaxıstan neftinin də əlavə edilməsi onun əhəmiyyətini daha da artıracaq, Qazaxıstan neftinin çox əlverişli şəkildə Aralıq dənizinə çatdırılmasını təmin edəcəkdir. Bu baxımdam bu gün burada imzalanacaq sənədin çox böyük əhəmiyyəti vardır.

Hörmətli prezidentlər!

Hörmətli nazirlər, iştirakçılar!

Şərq-Qərb enerji dəhlizinin ikinci hissəsini təşkil edən Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin həyata keçirilməsinin 2006-cı ildə başa çatmasını ürəkdən arzulayırıq. Türkiyə "Şahdəniz" layihəsində və digər layihələrdə iştirak etməyə böyük əhəmiyyət verir. Xəzərin təkindəki təbii qazın Avropa bazarlarına çatdırılması üçün Türkiyə-Yunanıstan-İtaliya təbii qaz boru kəməri ilə bağlı işlər də davam etməkdədir.

2030-cu ilə qədər 70-80 faiz genişlənməsi gözlənilən Avropa Birliyi ölkələri üçün təbii qaz istehlakının bir hissəsinin "Şahdəniz" yatağından və digər mənbələrdən təmin olunması nəzərdə tutulur. Bu işdə Türkiyənin çox mühüm rolu vardır. Türkiyə təbii qazın Avropaya çatdırılmasında Rusiya, Norveç və Əlcəzairlə birlikdə Avropa Birliyi üçün 4 əsas marşrutlardan birinə çevrilmişdir. Bununla birlikdə, Türkiyə Ceyhan terminalında maye təbii qaz terminalı yaratmaqla bölgənin yataqlarındakı təbii qazın ABŞ-ın şərq sahilindəki obyektlərə çatdırılmasını planlaşdırır.

Başqa bir layihə Şərq və Qərb arasında dəmir yol xəttinin çəkilməsi ilə əlaqədardır. Bunun sayəsində Qars-Tbilisi-Bakı dəmir yolu sadəcə Türkiyəni, Qafqaz və Orta Asiyanı bir-biri ilə birləşdirməklə kifayətlənməyəcək, tarixi İpək yolunu XXI əsrdə yenidən bərpa etmiş olacaqdır.

Türkiyə Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub dəhlizi layihəsinə də çox böyük önəm verir. Türkiyə Avrasiya bölgəsində Xəzəri Aralıq dənizinə, Qara dənizi isə Orta Şərqə bağlayacaq bir mövqeyə malikdir. Ona görə də bölgənin inkişafına xidmət edəcək bütün layihələrə qoşulmağa hazırdır.

Türkiyənin enerji strategiyasının əsas hissələrindən biri də enerji bazarının sərbəstləşdirilməsindən, enerji sahəsində müasir qanunların qəbul edilməsindən ibarətdir. Bu işlərin görülməsi, eyni zamanda, xarici sərmayəçilər üçün də çox cəlbedicidir. Hazırda ölkəmizdə enerji istehlakı ildə 6-7 faiz artır. 2020-ci ilə qədər bunu təmin etmək üçün 120 milyard dollar sərmayə qoyuluşuna ehtiyac vardır. Buna görə də Türkiyə bazarı xarici sərmayəçilər üçün cəlbedici bir bazardır.

Son olaraq demək istəyirəm ki, Türkiyənin yaxın gələcəkdə həyata keçirəcəyi layihələrlə dünyaya enerji daşıyıcılarının təhlükəsiz şəkildə nəqlinə öz töhfəsini verməsi hər zaman vurğulanır. Bakı-Tbilisi-Ceyhan boru kəməri bu istiqamətdə çox böyük əhəmiyyətə malik olacaqdır.

Sözlərimi bitirərək demək istəyirəm ki, Səngəçal terminalının, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının rifahının yüksəlməsinə töhfə verəcəyinə əminəm. Hamınızı bir daha salamlayır, sizə dərin təşəkkürümü bildirirəm.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Hörmətli həmkarlar!

Hörmətli qonaqlar!

Bilirsiniz ki, bu gun bizim üçün çox mühüm bir gündür. Həm mənim ölkəm, həm Azərbaycan, həm də Türkiyə üçün çox önəmli bir gündür. İnsanlar on il bundan əvvəl Bakıdan Gürcüstan vasitəsilə Aralıq dənizi sahilinə belə bir kəmərin çəkilməsini heç bir iqtisadi səmərəsi olmayan arzu kimi, reallaşmayan yuxu kimi görürdülər.

Gürcüstanın, Türkiyənin Xəzər hövzəsindəki enerji resurslarının daşınması işinə olan dəstəyi nəticəsində çox böyük işlər görülmüşdür. Prezident Əliyevin bu işin başa çatmasında, yəni Azərbaycan neftinin bu yolu keçərək Türkiyəyə çatması üçün çox böyük rolu olmuşdur.

Mən bu işdə bizi dəstəkləyən dostumuz Amerika Birləşmiş Ştatlarının da fəaliyyətini yüksək qiymətləndirirəm. bp tərəfindən rəhbərlik edilən konsorsium Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçməsi, reallaşması üçün böyük işlər görmüşdür. Artıq bu reallıqdır. Bu reallıq nəticəsində neft dünya bazarlarına çıxarılır. Bu, elə bir əməkdaşlıqdır ki, bundan ölkələrimiz yararlanırlar. Burada tranzit ölkə olan Gürcüstan çox vacibdir.

Mən demək istəyirəm ki, Gürcüstan illər boyu, əsrlər boyu Asiya, Avropa və Yaxın Şərq arasında körpü rolunu oynamışdır. Amma bunun nəticəsində, belə bir coğrafi-siyasi mövqeyə malik olduğumuz üçün tarixən çox imperiyaların diqqət mərkəzində olmuşuq. İndi isə Gürcüstan elə bir yerə çevrilmişdir ki, dünyanın ən böyük enerji şirkətləri enerji təminatında və təhlükəsizliyində onun çox böyük rol oynadığını artıq qəbul etmişlər.

Biz belə düşünürük ki, bu gün enerji daşıyıcılarının nəqlində dəhliz rolunu oynamağımız vətəndaşlarımızın rifahının yüksəldilməsi işində çox böyük rol oynayacaqdır. Bilirsiniz ki, bu boru kəmərinin Gürcüstanın ərazisindən haradasa 239 kilometri keçir. Gürcüstan bunun vasitəsilə neftin həm Avropaya, həm də digər ölkələrə ötürülməsində ən vacib rol oynayan ölkələrdən biridir. Gürcüstanın Mərkəzi Asiya ölkələrinə vacib məhsulların daşınmasında da böyük rolu vardır.

Bilirsiniz ki, biz indi Gürcüstandan Türkiyəyə gedən böyük bir dəmir yolu layihəsindən danışırıq. Biz daha böyük layihələrə hazırıq və yeni yollar açmaq istəyirik. Birinci növbədə çalışırıq ki, əvvəllər bağlanmış sərhədləri açaq, qapalı dövlət statusundan yaxa qurtaraq. Biz qapımızı açmaqla, infrastruktur qurmaqla özümüzü beynəlxalq cəmiyyətə açmaq istəyirik. Çalışırıq ki, bütün enerji işinə cəlb olunaq, cəmiyyətin hər bir üzvü, hər bir fərdi başqa ölkələrdə olan vətəndaşlarla əlaqə saxlaya bilsinlər. Bu bizim sabahımız, gələcək rifahımız üçün çox vacibdir. Artıq bu gün bu cür arzular həyata keçməkdə, reallaşmaqdadır. Məhz bu gün belə bir işin şahidi oluruq.

Artıq biz uzun əsrlər boyu davam edən qapalılıq mentalitetindən yaxa qurtarmaq istəyirik. Bu gün elə bir iş görmək istəyirik ki, onun nəticəsində bizim region, insanlar və dünya bu fəaliyyətdən yararlana bilsin.

Diqqətinizə görə çox sağ olun.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün sizin hamınızı əlamətdar bir hadisə - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması münasibətilə təbrik etməkdən çox böyük şərəf hissi duyuram. Artıq Xəzər hövzəsindən boru kəməri işə salınır. Bu tikintinin başa çatması yeni bir səhifə açacaqdır. Bu sadəcə, müstəqil Azərbaycanın tarixində deyil, eyni zamanda bizim ölkələrin də tarixində yeni bir səhifə açacaqdır.

Xatırlatmaq istəyirəm ki, bu layihənin müvəffəqiyyəti çox böyük, dahi bir şəxsiyyətin nailiyyətidir və o, bizim qəlblərimizdə həmişə yaşayacaqdır. Onun haqqında bizim xatirələrimiz zəngindir və həmişə onu yada salacağıq. Bu dahi şəxsiyyət unudulmaz Heydər Əliyevdir. Mən onun işini bütün bu illər ərzində müşahidə etmişəm. Biz çox yaxşı bilirik ki, o, nə kimi səylər, cəhdlər göstərmişdir ki, bu boru kəməri layihəsi həyata keçirilsin. Hamı üçün aydındır ki, ilk addımları atmaq o qədər də asan deyildi. Xüsusilə, belə böyük layihələrlə bağlı ilk addımları atmaq o qədər də asan deyildir.

Çox sevindirici bir haldır ki, hazırda Azərbaycanın Prezidenti olan cənab İlham Əliyev əldə edilmiş nailiyyətlərin hamısını davam etdirmək iqtidarındadır. Qazaxıstan Azərbaycanın müvəffəqiyyətlərini çox böyük diqqətlə müşahidə edir. Bizə qonşu olan qardaş bir dövlətin, Azərbaycan xalqının bütün müvəffəqiyyətlərini yaxından müşahidə edir.

Qazaxıstan bu enerji sahəsinin inkişaf etdirilməsini istəyir və buna gələcəkdə iqtisadiyyatın dirçəldilməsinin əsas elementi kimi baxır. Qazaxıstanda neft və qazın ehtiyatları on milyardlarla ton həcmindədir. Biz bu ehtiyatların işlənməsinin gələcəyini düşünürük. Son il ərzində 60 milyon ton neft hasil olunmuşdur ki, bu da 2003-cü ilin göstəricisindən qat-qat yüksəkdir. Keçən il 21 milyard kubmetr qaz çıxarılmışdır. Bu, 2003-cü illə müqayisədə 1,5 dəfə artıqdır.

Xəzər hövzəsinin yataqlarında olan nefti hasil etməklə 2010-cu ildə Qazaxıstan neft çıxarılmasını artıracaq və 2015-ci ildə 150 milyon tona çatdıracaqdır. Qazaxıstanın coğrafi mövqeyi xüsusi şərtlər doğurur ki, bu da ixrac boru kəmərlərinin yaradılmasını labüd edir. Bizim qaz-neft sahəsinin inkişafında çox iri sərmayəçilərin iştirak etməsi, yəni ABŞ-ın, Avropanın, Rusiyanın, Çinin şirkətlərinin iştirak etməsi əməkdaşlığı beynəlxalq səviyyəyə çıxarır.

Qazaxıstan ixrac boru kəmərləri layihələrini coğrafi-siyasi əməkdaşlıq elementi kimi nəzərdən keçirir. Hazırda bəzi məsələlər ətrafında müzakirələr gedir. Bu məsələlər boru kəmərlərinin Rusiya ərazisindən çəkilişi barədədir.

Xəzər dənizinin yataqlarının işlənilməsinin genişləndirilməsi nəticəsində ildə 87 milyon ton neft ixrac etmək planlaşdırılır. Bu ilin dekabr ayında Çinə gedən boru kəmərinin tikintisi başa çatdırılacaqdır ki, bunun da uzunluğu 1000 kilometr olacaqdır. Onu başa çatdırandan sonra Qazaxıstan Qərbi Çinə ildə 20 milyon tona qədər neft ixrac edəcəkdir.

Əsas elementlərdən biri kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri bizim ixrac potensialımızın artırılmasına xidmət edəcəkdir. Bu nöqteyi-nəzərdən qeyd etmək istərdim ki, ha-

zırda Azərbaycan, Qazaxıstan neftinin ixracında etibarlı tərəfdaşımızdır. Biz buna uzun müddətdir hazırlaşmışıq. Aktauda müasir liman yaratmışıq. Qazaxıstanda neft terminalları tikilmişdir. Bundan əlavə, Xəzər dənizindən neftin nəql olunması üçün yeni tankerlər alınmışdır. Eyni zamanda, biz milli neft donanması haqqında düşünürük ki, bunun da nəticəsində Qazaxıstan nefti nəql ediləcəkdir. Hazırda 3 milyon tondan çox neft Bakı istiqamətində nəql olunmuşdur. Keçən il Aktaudan Bakıya çox böyük miqdarda neft nəql edilmişdir. Lakin yeni layihənin həyata keçirilməsi ilə bu həcm getdikcə daha da artacaqdır.

İndi biz elə bir hadisəyə şahidlik edirik ki, bu, tarixə dönür. Bu bölgədə böyük ölkələrin strateji maraqları kəsişir. Buna görə də əlimizdən gələni etməliyik ki, Xəzər dənizi tarazlaşdırılmış, konstruktiv və məsuliyyətli məsələlərin həlli mərkəzinə çevrilsin.

Sizə məlum olduğu kimi, 1999-cu ilin noyabr ayında Qazaxıstan, Azərbaycan, ABŞ, Türkiyə və Gürcüstan prezidentləri bu layihənin başlanması üçün İstanbul Bəyannaməsini imzalamışlar. Biz görürük ki, bu səylər hazırda öz nəticəsini verir. Boru kəməri Qazaxıstan da daxil olmaqla, Xəzər dənizindəki, təbii sərvətlərin nəqlinə xidmət edir. Eyni zamanda bu bölgə ölkələrinin, xalqlarının inteqrasiyası üçün, sabitliyin bərqərar olunması, iqtisadi inkişaf üçün əsas yaradılmışdır.

Qazaxıstanın iqtisadi potensialı və onun tərəfdaşlarının potensialı, - onların arasında Azərbaycan da vardır, - bir daha göstərir ki, qarşımızda daha geniş əməkdaşlıq üfüqləri açılır. Mən sərmayəçiləri təbrik etmək istəyirəm ki, onlar bu nəhəng boru kəmərinin həyata keçirilməsinə vəsait xərcləmişlər.

Mən bu əlamətdar hadisə münasibətilə Azərbaycan Prezidenti cənab İlham Heydər oğlunu təbrik edirəm. Sizin xalqlarınızı təbrik edirəm. Çox sağ olun.

BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRYUNUN ÇIXIŞI

- Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən öz adımdan təbriklərimi çatdırmaq istəyirəm. Bu, Azərbaycan üçün çox mühüm bir andır. İlkin neftin Bakı-Tbilisi-Ceyhan neft kəmərinə doldurulması böyük bir strategiyanın, strateji baxışların təcəssümüdür. Heydər Əliyevin strateji baxışlarının təcəssümüdür.

Gürcüstan, Azərbaycan və Türkiyə son 10 il ərzində bu baxışları həyata keçirmək üçün birgə işləmişlər. Bu işdə ən yüksək texnologiyalardan istifadə olunmuş və yüksək keyfiyyətli, qlobal miqyaslı bir infrastruktur yaradılmışdır. Deyim ki, hətta son 25 il ərzində bu cür böyük tikinti, inşaat aparılmamışdır.

Mən Birləşmiş Krallığın beynəlxalq ticarət və sənaye üzrə xüsusi nümayəndəsi qismində bu tədbirə qatılmağıma görə çox şadam. Bilirəm ki, nəinki bizim şirkətlər və həm də bir çox digər xarici şirkətlər bu infrastrukturun inkişaf etdirilməsində böyük rol oynamışdır. Biz bilirik ki, Bakı-Tbilisi-Ceyhan Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir-birinə birləşdirir və onlar üçün dünya bazarlarına çıxışı təmin edir. Bu da Bosfor boğazında yük daşımalarındakı gərginliyin azaldılmasına müəyyən töhfə verəcəkdir.

Biz bilirik ki, bu üç ölkə nəinki dünya iqtisadiyyatına, eyni zamanda, qlobal təhlükəsizliyə öz töhfəsini verəcəkdir. Bu boru kəməri bütün Azərbaycan xalqı üçün və region üçün təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Məlumdur ki, bir çox ölkələrdə təbii sərvətlər var, lakin bunların hamısına diqqəti yönəltmək düzgün olmazdı. Azərbaycan neft hasil edən ölkələr arasında dünyada ilk olaraq hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulmuşdur. Bu da ölkədə neftdən əldə edilən gəlirlərin idarə edilməsində, şəffaflığın təmin olunmasında öz rolunu oynayacaqdır. Azərbaycan bu təşəbbüsə ilk olaraq qoşulmuşdur. Birləşmiş Krallıq bu baxımdan Azərbaycanın gələcəyi ilə bağlı planlarını çox yüksək səviyyədə görür və inanır ki, Azərbaycan gələcəkdə demokratik, tərəqqi edən güclü dövlətə çevriləcəkdir. Məncə, heç kim buna şübhə etmir ki, Azərbaycan gələcəkdə daha böyük nailiyyətlər əldə edə biləcəkdir. Mən əmin etmək istəyirəm ki, Birləşmiş Krallıq bu işlərdə həmişə sizin tərəfinizdə olacaqdır.

Sizi təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANIN ÇIXIŞI

- Hörmətli cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Bu gün necə də gözəl bir gündür. Biz indi burada maddi cəhətdən dünyamızı dəyişirik və burada iştirak etmək mənim üçün çox şərəfdir.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan layihəsi həddindən artıq əhəmiyyətli bir layihədir. Baxmayaraq ki, orada çoxlu texniki və maliyyə çətinlikləri vardı, lakin bu cür kəmərin tikintisi çox vacibdir. Çətin regionda, mühitdə belə işlərin görülməsi, xüsusilə kəmər boyunca yerləşən ərazilərdəki icmalar arasında bəzi problemlərin aradan qaldırılması asan iş deyildi. Əlbəttə, Azərbaycan, Türkiyə və Gürcüstanın hökumətləri və vətəndaşları bu işə böyük töhfə vermişlər. Mən həmçinin bp, Yunokal və digər böyük şirkətlərə təşəkkür edirəm ki, onlar bu işi reallığa çatdırdılar.

Mən bu layihənin reallaşmasına Heydər Əliyev dəstəyini yada salmaq istəyirəm. Əgər onun köməyi olmasaydı, onun güclü iradəsi olmasaydı, sizi inandıra bilərəm ki, indi biz bu gün burada olmayacaqdıq. Bu, Azərbaycanın tarixində çox mühüm, hətta regionun tarixində çox mühüm bir məqamdır. Mən ona görə də ABŞ hökuməti, Birləşmiş Ştatların insanları adından bu layihənin həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Diqqətinizə görə çox sağ olun!

İndi isə mən Prezident Buşun cənab İlham Əliyevə ünvanladığı təbriki çatdırmaq istəyirəm.

AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQSIN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən bu gün imkan əldə etdiyimə görə, bu çox mühüm və təntənəli mərasimdə Avropa Komissiyasının adından iştirak etməyimdən çox böyük qürur hissi duyuram. Hər şeydən əvvəl, mən bu çox vacib infrastrukturun tikintisinin başa çatması ilə əlaqədar hamınızı təbrik etmək istəyirəm. Əlbəttə ki, bu layihə bütün iştirak edən ölkələrin inkişafına, sabitliyinə xidmət edəcəkdir. Eyni zamanda, Avropaya və dünyaya enerji daşıyıcılarının nəqlinin təhlükəsiz bir şəkildə həyata keçirilməsinə xidmət edəcəkdir.

Mən Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi dairələrini təbrik etmək istəyirəm ki, onlar bu layihənin həyata keçməsində iştirak etmək üçün kifayət qədər şərait yaratmışlar. Eyni zamanda, bütün şirkətləri təbrik etmək istəyirəm ki, lazımi məsələlərin həllini vaxtında tapmaqla bu layihənin həyata keçirilməsinə xidmət etmişlər.

Hörmətli xanımlar və cənablar!

Keçən il Türkiyə Avropa Birliyinə daxil olmaq barədə danışıqlar aparacaq, Azərbaycanla Gürcüstan isə Avropanın yeni qonşuluq siyasətinə daxil olunmuşlar. Avropa Birliyi bu ölkələrlə əməkdaşlıq əlaqələrini fəal şəkildə genişləndirir, təbii sərvətlərin Xəzər hövzəsindən dünya bazarlarına daşınması da daxil olmaqla, bütün sahələrdə daim öz siyasi və texniki yardımını əsirgəmir.

Bakı-Supsa boru kəməri ilə Avropanın və dünyanın digər ölkələrinin bazarlarına neft göndərilir. Bu gün açılışı olan kəmərlə ildə 50 milyon ton neft ixrac ediləcəkdir. Bakı-Tbilisi-Ceyhan layihəsinin bütün dünya bazarları üçün böyük əhəmiyyəti vardır. Avropa Birliyi ona görə də karbohidrogenlərin təhlükəsiz bir şəraitdə nəql olunması baxımından bu layihənin böyük əhəmiyyətini qiymətləndirir. Çünki biz başa düşürük ki, ildə nəql olunacaq 50 milyon ton neft Bosfor boğazında gərginliyin azalmasına xidmət edəcəkdir.

Biz bir çox yerlərdə baş vermiş qəzaları yaxşı xatırlayırıq. Əlbəttə, biz heç düşünə bilmirik ki, Qara dənizdə belə bir qəza baş versə, onun nəticələri necə ola bilər. Avropa Birliyinin Xəzər hövzəsindəki fəaliyyəti, sadəcə, neft sektorundakı fəaliyyətlə kifayətlənmir. Mən Avropa Birliyinin Xəzər dənizi hövzəsi ölkələri və qonşu ölkələrin nazirləri arasında 2004-cü ilin noyabrında keçirdiyi görüşü xatırlatmaq istəyirəm. O görüş məhz Bakıda keçirilmişdi və Qafqazdan, Orta Asiya və Şərqi Asiyadan iştirak edən dövlətlər enerji sektorunda hüquqi və texniki standartları harmonizə etmək, yəni sabitləşdirmək, enerji daşıyıcıları təchizatının idarə olunmasını təşkil etmək, bu təchizat sahəsində təhlükəsizliyi təmin etmək barədə, əməkdaşlıq barədə razılığa gəlmişlər. Biz inanırıq, bu əməkdaşlıq çərçivəsi bizə uzunmüddətli işbirliyi yaratmağa imkan verəcək ki, Xəzər və Qara dənizlərindən karbohidrogenlər Avropa və dünya bazarlarına daşınmış olsun.

Sizi bir daha təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

BP ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNUN ÇIXIŞI

- Zati-aliləri cənab Prezident Əliyev!

Cənab Prezident Nazarbayev!

Cənab Prezident Sezər!

Cənab Prezident Saakaşvili!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Mənim üçün bu gün burada iştirak etmək şərəfdir. Çünki bu, tarixin yaradılmasının bir anıdır. Bu, bp və onun tərəfdaşları üçün çox önəmli bir andır. Azərbaycan və onun xalqı üçün, bütün region üçün də tarixi bir andır. Azərbaycanın yüz illər bundan öncədən dünya neft sənayesində oynadığı mühüm rolun yenidən dirçəlməsi və bərpa olunması anıdır. Əgər siz neft, qaz sənayesinin dünyanı istilik və işıqla təmin etmək potensialı ilə bağlı 1859-cu ildə aparılmış akademik tədqiqat işlərinə baxsanız, orada görərsiniz ki, Bakının adı dünyada neft və qazın mövcud olduğu sayca çox az yerlərdən biri kimi çəkilir. 100 il bundan öncə dünyanın neft təminatının yarısı bu regiondan gəlirdi. İndi, 2005-ci ildə Azərbaycan dünya sənayesinin ürəyində özünün mühüm rolunu yenidən bərpa edir.

Bu, bp üçün ilk başlanğıcın sonudur. Bu ilk başlanğıc demək olar ki, 10 ildən də əvvəl başlayıb və indi də davam edir. Bunun üçün mən Azərbaycan dövlətinə, hökumətinə, Prezident İlham Əliyevə və əlbəttə ki, dahi şəxsiyyət mərhum Heydər Əliyevə təşəkkür etmək istəyirəm. Məhz onun təsiri və nüfuzu sayəsində bu layihənin irəliləyişi mümkün olmuşdur. Mən Gürcüstan və Türkiyə hökumətlərinə, Avropa ölkələrinin hökumətlərinə və ABŞ hökumətinə təşəkkür edirəm. Azərbaycan Dövlət Neft Şirkəti də daxil olmaqla, digər bütün tərəfdaşlarımıza təşəkkür edirəm. Bu boru kəmərini Devid Vudvordun rəhbərliyi altında tikmiş bütün işçi heyətə təşəkkür edirəm.

On il əvvəl hamı deyirdi ki, bu boru kəmərinin tikintisi qeyri-mümkündür və çox çətindir. Bizim sənayemiz mümkün olan işi daha da genişləndirən bir biznesdir. Amma əgər çoxsaylı digər insanların razılığı və əməkdaşlığı olmasaydı biz bunların heç birini edə bilməzdik.

Bakı-Tbilisi-Ceyhan XXI əsrin ilk nəhəng infrastruktur layihələrindən biridir. Onun başa çatması əməkdaşlıq sayəsində nələrə nail olmağın mümkünlüyünü ifadə edən bir rəmzdir. Elə bir rəmzdir ki, o müxtəlif ölkələr, dövlətlər, xalqlar, milli şirkətlər və beynəlxalq biznes arasında əməkdaşlıq vasitəsilə nələrə nail olmağın mümkünlüyünü əks etdirir.

Biz həmçinin bilirik ki, təbii, ətraf mühitin qorunması üçün çox mühüm işlərdən biri də belə layihələrin həyata keçirilməsidir. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq bir layihədir.

Dediyim kimi, bugünkü tədbir ilk başlanğıcın sonudur, həmçinin yeni işlənmə mərhələsinin başlanğıcıdır. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq və göstərəcək ki, təminata nail olmağın ən yaxşı yolu təchizat mənbələri və ticarət marşrutlarının çoxsaylı olmasıdır. Bakı-Tbilisi-Ceyhan bu regiona resurslar gətirilməsi-

nə kömək edəcəkdir. Sərmayə, gəlir və məşğulluq - bunların hamısı iqtisadi inkişaf və irəliləyiş üçün yeni imkanlar yaradacaq, yeni sərvət və imkanlar yaranacaq, bu regionun bütün insanları bundan bəhrələnəcəklər. Ümid edirik ki, həmin inkişaf üçün uzunmüddətli əsas olacaq və onu genişləndirmək üçün biz öz rolumuzu oynaya biləcəyik.

Bu cür layihələr onilliklərlə ölçülən, ömrü uzun olan layihələrdir. Ümidvaram ki, bu boru kəməri vasitəsilə yaranan əməkdaşlıq nümunəsi ilə biz milli dövlətlərin və özəl biznesin ümumi bir məqsəd uğrunda birgə işləməsinin şahidi olduq. Bunun sayəsində bacarıq və texnologiyanın birgə tətbiqi nələrə nail olmağın mümkünlüyünü nümayiş etdirdi.

Çox sağ olun.

ARDNŞ-İN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Çox dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar!

Üç il öncə, 2002-ci ilin sentyabrın 18-də burada, Səngəçal terminalında, xalqımızın ümummilli lideri Heydər Əliyev Gürcüstan və Türkiyənin prezidentləri ilə birgə, Amerika Birləşmiş Ştatlarının energetika nazirinin, İngiltərə, Fransa, Norveç və başqa dövlətlərin nümayəndələrinin iştirakı ilə Xəzər regionunda XXI əsrin ən iri layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlini qoydu. Bu tarixi hadisə həm Azərbaycanın, həm də bütövlükdə Xəzər bölgəsinin neft və qaz yataqlarının zəngin potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə geniş yol açdı, xarici sərmayələrin axınının artırılmasına zəmin yaratdı, beynəlxalq əməkdaşlığı daha möhkəm və dönməz etdi.

O tarixi gündən sonra böyük və nəhəng işlər görüldü, eyni zamanda layihənin həyata keçirilməsi yolunda müxtəlif problemlər və çətinliklər oldu. Lakin buna baxmayaraq, Bakı-Tbilisi-Ceyhan boru kəməri əfsanədən reallığa çevrildi.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinə ilk neftin daxil olması və onun istifadəyə verilməsi və bu tarixi hadisəyə həsr edilmiş təntənəli mərasim Heydər Əliyevin uzaqgörənliyinin, müdrikliyinin, xalqına sonsuz məhəbbətinin və yaratdığı yeni neft strategiyasının növbəti təntənəsidir.

Bu münasibətlə mən öz adımdan, bu layihədə iştirak edən çoxsaylı tərəfdaşlarımız adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və onun yaxın həmkarlarını - Türkiyə, Gürcüstan və Qazaxıstan prezidentlərini təbrik edir və onlara yeni-yeni qələbələr arzulayıram.

Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycanın böyük neftinin dünya bazarlarına nəqlidir. Buna nail olmaq üçün Azərbaycanın neft sənayesində bu vaxta kimi görünməmiş böyük, nəhəng işlər getmiş, irimiqyaslı layihələr həyata keçirilmişdir.

Qısa bir müddətdə Azərbaycanda neft hasilatı kəskin surətdə artmışdır. 2005-ci ildə neft hasilatı 20 milyon tondan artıq gözlənilir. Bunun 11,5 milyon tonu "Azəri" və "Çıraq"

yataqlarından çıxarılacaqdır. Bu il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Mərkəzi Azəri" platformasına səfər etdi və ilk neftin hasil olunmasını tarixi hadisə kimi qiymətləndirdi. Cari ildə bu platformadan 35 milyon barrel, ya təxminən 5 milyon ton xam neft hasil olunacaqdır. Orta hesabla gündə "Mərkəzi Azəri" platformasından 93 min barrel və "Çıraq-1" platformasından 145 min barrel neft hasilatı nəzərə alınmaqla, təkcə bu iki platformadan gündəlik hasilat təxminən 240 min barrel təşkil edir. Bu isə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ümumi gücünün dörddə birinə bərabərdir.

Mərkəzi Azəridə işlər sürətlə davam edir. Kompressor və suvurma platformasının inşası 92 faiz yerinə yetirilib və bu ilin üçüncü rübündə dayaq blokunun üstündə quraşdırılacaqdır.

Qərbi Azəridə öncə dörd qabaqlayıcı quyu qazılmış və gözlədiyimizdən daha yaxşı nəticələr vermişdir. Qərbi Azərinin dayaq bloku artıq dənizdə öz nöqtəsində quraşdırılmışdır. Üst modulların inşası 93 faiz tamamlanıb və dördüncü rübdə dayaq blokunun üstündə quraşdırılıb istifadəyə veriləcəkdir.

Şərqi Azəri yatağının işlənilməsi üçün platformanın tikintisi 67 faiz yerinə yetirilib, gələn ilin ikinci rübündə tikintisi başa çatacaqdır.

Səngəçal terminalı öz həcminə, texniki və texnoloji xüsusiyyətlərinə görə dünyada bu qəbildən olan obyektlərdən ən irisi hesab olunur. Artıq "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin birinci mərhələsində xam neftin və qazın qəbulu, nəqli üçün tikinti işləri 100 faiz görülmüş və obyektlər istifadəyə verilmişdir. İkinci mərhələsi üçün isə tikinti işləri 65,4 faiz yerinə yetirilmişdir.

"Şahdəniz" yatağının işlənilməsi və Cənubi Qafqaz boru kəməri layihələri də uğurla həyata keçirilir. Ən müasir standartlara cavab verən TPG-500 platforması 2006-cı ilin aprel ayında istifadəyə veriləcək, Səngəçal terminalında "Şahdəniz" qazının qəbulu, emalı və nəqli üçün qurğuların tikilməsi gələn ilin may ayında tamamlanacaqdır.

Cənubi Qafqaz boru kəməri 2006-cı ilin avqust ayında istismara veriləcək, Azərbaycan qazını 2006-cı ilin sentyabr ayında Türkiyəyə çatdıracaqdır.

Gördüyümüz işlərin nəticəsində həm Azərbaycanın, həm də qardaş Gürcüstan və Türkiyənin xam neft və qazla təmin olunmasına, elektrik enerjisinin istehsalına əlverişli şərait və imkan yaradılır.

Şübhə yoxdur ki, bu enerji daşıyıcıları regionun bütün ölkələrinə yeni həyat enerjisi verəcək və iqtisadiyyatın inkişafını təmin edəcəkdir. Bunun əsası və bünövrəsi isə Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməridir.

Bakı-Tbilisi-Ceyhan kəməri Xəzərlə Aralıq dənizi arasında ilk və Türkiyə boğazlarından yan keçən birbaşa nəqliyyat xəttidir. Kəmər dünya bazarını gündə 1 milyon barrel xam neftlə təchiz edəcəkdir. Bu dünyanın bugünkü tələbatının 1,3 faizinə bərabərdir, 2007-2008-ci illərdə isə dünyanın artan neftə ümumi tələbatının 25 faizini təmin edəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri neft hasil edən Xəzəryanı ölkələr üçün də yeni imkanlar yaradır. Bu kəmər vasitəsilə ildə təxminən 20-25 milyon ton Qazaxıstan nefti-

nin nəql olunması barədə planlar nəzərə alınıbdır. Bununla əlaqədar Transxəzər sisteminin yaradılması haqqında Qazaxıstan və Azərbaycan arasında Saziş hazırlanmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə təqdim edilmişdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi başa çatır və ən məsuliyyətli mərhələsindədir. Tikintiyə minlərlə insan cəlb olunub, işlərin ən qızğın çağında 22 mindən artıq işçi çalışıbdır. Üç ölkənin dövlət başçılarının bilavasitə rəhbərliyi və ciddi nəzarəti ilə böyük işlər görülmüşdür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu layihəyə daim diqqət yetirib, çoxsaylı görüşlər və danışıqlar aparıb, işlərin gedişi ilə maraqlanıb, ortaya çıxan problemlərin və çətinliklərin aradan götürülməsində şəxsən özü əvəzsiz səylər göstərib, dəyərli yardımını əsirgəməyibdir.

2004-cü il iyunun 8-də Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin gedişi ilə tanış olmuş, kəmərin Yevlax rayonundan keçən hissəsində və burada yerləşən nasos-kompressor stansiyasının quraşdırılmasında görülən işləri izləmiş, öz tapşırıqlarını və məsləhətlərini vermişdir. 2004-cü il oktyabr ayının 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Ağstafa rayonunda Bakı-Tbilisi-Ceyhan kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.

Bu fürsətdən istifadə edərək, mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə gərgin əməklərinə və xidmətlərinə görə təşəkkür edir və dərin minnətdarlığımı bildirirəm.

Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinə bir zaman inanmayan, əleyhinə olan və müxtəlif uydurmalar, şayiələr, böhtanlar yayan, guya "vətənini sevən və onun inkişafı uğrunda çalışan" müxalif qüvvələrin və xaricdə olan bəzi dairələrin və qurumların səylərinə baxmayaraq, artıq kəmər istifadəyə verildi.

Azərbaycan Avropa və Asiya arasında əlaqələrin genişləndirilməsində, nəqliyyat və enerji dəhlizinin inkişafında, INOGATE, TRASECA və digər nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilir.

Respublika və xalqımız bu gün bayram əhval-ruhiyyəsindədir. Ümummilli liderimiz Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nailiyyətlər qazanır, zəfər çalır.

Bakı neftinə uğurlu yol! Ceyhanda görüşənədək!

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI

- Zati-aliləri cənab Prezident İlham Əliyev!

Zati-aliləri cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Bu gün Səngəçal terminalında ən əlamətdar hadisə münasibətilə çıxış etmək mənim üçün böyük şərəfdir. Burada çoxsaylı ölkələrin, şirkətlərin və təşkilatların təmsil olunması bugünkü tədbirin nə qədər mühüm olduğunu bir daha sübut edir. Mərkəzi Azəridən hasilatın başlanması Azəri-Çıraq-Günəşli layihəsinin tammiqyaslı işlənməsinin yalnız birinci mərhələsidir. Biz üzümüzə gələn illər ərzində ikinci və üçüncü mərhələləri başa çatdırdıqca, "Azəri-Çıraq-Günəşli" yataqlarının gündəlik hasilatı 2008-ci ilə qədər bir milyon barreldən çox olacaqdır. Bu isə o deməkdir ki, dünyanın gözlənilən yeni neft tələbatının 25 faizini bu layihələr təmin edəcəkdir.

Bu gün bizim burada olduğumuz Səngəçal terminalı genişləndirilmişdir ki, həmin nefti qəbul edə bilsin. Bu, dünyanın ən böyük neft və qaz terminallarından biridir. Tam hazır olduqda bu obyekt "Azəri-Çıraq-Günəşli" yataqlarından gündə bir milyon barrel neft, "Şahdəniz"in birinci mərhələsindən isə gündə 900 milyon kubmetr qaz qəbul edəcəkdir. Bakı-Tbilisi-Ceyhan kəmərinin əsas nasos stansiyası da burada yerləşir. Terminal Xəzərin şərq tərəfindən gələcək nefti də qəbul edəcəkdir. Bu isə onu göstərir ki, bu terminal ən böyük regional neft və qaz nəqli mərkəzinə çevriləcəkdir. Bu layihələrin həmsının birlikdə tələb olunan sərmayəsi 14 milyard dollardan çox olacaqdır.

Uzunluğu 1770 kilometr olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin ümumi dəyəri isə 3 milyard dollardan bir qədər artıqdır. Bu boru kəməri heyranedici texniki nailiyyətdir. O, Xəzər dənizindən Aralıq dənizinə qədər 3 min metr hündürlüyündə dağlardan, 1500 çay keçidindən və 7 seysmik zonadan keçir. Bu il, bir müddət sonra Ceyhan terminalından ilk tankeri yola salarkən bir daha dünyaya göstərəcəyik ki, biz Xəzər neftini onsuz da çox yüklənmiş və ekoloji cəhətdən həssas olan Türkiyə boğazlarından yan ötməklə dünya bazarlarına çatdıra bilirik.

"Şahdəniz" yatağının istismarına da tezliklə, gələn il başlanacaqdır. Əminik ki, bundan sonra Azərbaycan, Gürcüstan və Türkiyə Cənubi Qafqaz boru kəməri vasitəsilə qazla təmin ediləcəkdir.

Bunların hamısı çox böyük nailiyyətdir. Amma ən böyük nailiyyət və ən əlamətdar odur ki, bu obyektlərin hamısı dünyanın ən yüksək texniki, texnoloji və ətraf mühitin qorunması standartlarına riayət etməklə tikilmişdir. Bununla da biz öz əməliyyatlarımızda ətraf mühitə təsiri, habelə inşaat dövründə də tikinti işlərinin təsirini minimuma endirməyə nail olmuşuq.

Biz çox ciddi işləmişik ki, boru kəməri boyunca yaşayan əhaliyə, bizim yaxın qonşularımıza heç bir ziyan vurmayaq, əksinə, onlara xeyir verməyi, mənfəət gətirməyi təmin edək. Tikintinin həmin əhaliyə təsirini minimuma endirmək üçün çox işlər görmüşük və səylər göstərmişik. Tikinti işləri ilə bağlı Bakıdan Ceyhana qədər bir nəfər də olsun öz evindən köçürülməmişdir. Torpaq sahiblərinə yaxşı kompensasiyalar verilmişdir. Genişmiqyaslı ictimai sərmayə proqramları həyata keçirilir, məktəblər, klinikalar tikilir, nümunəvi təsərrüfatlar yaradılır, mikromaliyyələşmə layihələri həyata keçirilir ki, əhaliyə öz səriştəsini artırmaqda kömək etsin.

Biz yerli ehtiyatlardan maksimum istifadə etmişik. Xərclədiyimiz pulların təqribən 30 faizi yerli şəraitdə, yəni Azərbaycanda xərclənir. Biz həmçinin şəffaflığın ən yüksək

səviyyəsinə nail olmuşuq. Təkcə bu layihələr üzrə bağlanmış sazişləri açıqlamamış, həm də yerli qeyri-hökumət təşkilatlarının bizim işlərimizdə iştirakını təmin etmişik. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin rəhbərliyi və dəstəyi olmadan bunların heç biri həyata keçməzdi.

Mən xüsusilə Prezident Heydər Əliyevin rəhbərliyini qeyd etmək istəyirəm. Məhz o, on il bundan əvvəl "Əsrin müqaviləsi"ni imzalamışdır. İndi isə, on il sonra, növbəti əsrdə biz onun arzusunu həyata keçirən bir tədbirdəyik. Mən həmçinin Azərbaycan Dövlət Neft Şirkətinə və bizim digər tərəfdaşlarımıza - Yunokal, Statoyl, İnpeks, Türk Petrolları, EksonMobil, Devon, İtoçu, Amerada Hess, Total, Eni KonokoFillips və başqa şirkətlərə təşəkkürümü bildirirəm.

Mən xüsusilə Azərbaycan Dövlət Neft Şirkətinin əməyini qeyd etmək istəyirəm. Onların bizə olan dəstəyi və yardımı olmasaydı, çox güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin heç biri uğurlu ola bilməzdi.

Mən layihəyə kredit vermiş təşkilatların - Beynəlxalq Maliyyə Korporasiyasını, Avropa Yenidənqurma və İnkişaf Bankının da yardımını qeyd etmək istəyirəm. Bizim bugünkü bayramımız çox qarşılıqlı bir nailiyyəti ifadə edir və bunun gələcək illərdə də davam edəcəyini gözləyirik.

Biz həmçinin bilirik ki, bu layihə son dərəcə mürəkkəb bir layihədir. Mən öz işçilərimizə təşəkkür etmək istəyirəm. Onlar bu mürəkkəb işin öhdəsindən peşəkarlıqla gəlmişlər və ilk yolaçanlar kimi böyük rol oynamışlar. Bir sözlə, mümkün olmayanı mümkün edən tərəfdaşların hamısının bu işdə böyük əməyi vardır. Ona görə də sözümün sonunda bugünkü bayramı mümkün etmiş bütün insanlara, tədbirdə iştirak edənlərin hamısına təşəkkür edirik. Hamınıza minnətdarıq.

Bu əlamətdar günün rəmzi olaraq hədiyyələr veririk ki, bu tarixi gündən gözəl xatirəniz qalsın. Çox sağ olun.

DAHA İKİ TARİXİ SƏNƏD İMZALANDI

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə mayın 25-də Səngəçal terminalında keçirilən təntənəli mərasim çərçivəsində iki mühüm tarixi sənəd imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Azərbaycan, Gürcüstan və Türkiyə arasında Qars-Axalkalaki-Tbilisi-Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannaməni imzaladılar.

Şərq-Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı Bəyannaməsini isə Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Gürcüstan tərəfindən xarici işlər naziri xanım Salome Zurabişvili, Qazaxıstan tərəfindən xarici işlər naziri Qasımcomərd Tokayev, Türkiyə tərəfindən energetika və təbii sərvətlər naziri Hilmi Gülər, ABŞ tərəfindən energetika naziri Samuel Bodman imzaladılar.

İmzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İLHAM ƏLİYEV dedi:

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mərasim başa çatır. Sizin hamınıza bu mərasimdə iştirak etdiyiniz üçün bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün çox önəmli sənədlər də imzalandı. Əminəm ki, Bakı Bəyannaməsi bizim gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradacaqdır. Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu isə regionda gedən əməkdaşlıq meyillərini daha da gücləndirəcəkdir.

Bu gün burada çıxış edən bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizi təbrik etmiş dostlarımıza da öz təşəkkürümü bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Corc Buşa, Fransa Prezidenti cənab Jak Şiraka, Ukrayna Prezidenti cənab Viktor Yuşenkoya, Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerə, İtaliya Nazirlər Şurasının Sədri cənab Silvio Berluskoniyə, Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bundevikə, Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə öz təşəkkürümü bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bizim ünvanımıza çoxlu digər təbrik məktubları da gəlmişdir. Bütün bu məktublara görə mən Azərbaycan dövləti adından öz minnətdarlığımı bildirirəm.

Ümumiyyətlə, bu gün bu sevinci bizimlə bölüşən bütün insanlara minnətdaram. Bu gün Azərbaycan nefti Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Heydər Əliyevin adını daşıyan Ceyhan terminalı istiqamətinə göndərilir.

Uğurlu olsun, xeyirli olsun!

Sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, bp şirkətinin prezidenti lord Con Braun Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinə ilk nefti doldurmaq üçün dəvət olundular. Onlar ulu öndərin adını daşıyan neft kəmərinin sürgüsünü açdılar və ilk neft boruya axdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında bp şirkətinin prezidenti lord Con Braunu qəbul etmişdir.

Son illər Azərbaycanda müxtəlif sahələrdə əldə olunmuş uğurlardan, neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ölkəmizin böyük inkişafa nail olmasından, qlobal layihələrin uğurla reallaşmasından bəhs edən dövlətimizin başçısı bütün bunların əsasının 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulduğunu vurğuladı. Prezident İlham Əliyev dedi ki, həmin müqavilənin imzalanmasından keçən dövr ərzində Azərbaycan müxtəlif sahələrdə sürətli inkişaf yoluna çıxmış,

əhalinin sosial məsələlərinin həll edilməsi işində böyük uğurlar qazanılmış, ölkədə möhkəm sabitlik yaranmışdır.

Dövlətimizin başçısı Azərbaycanda qlobal layihələrin, o cümlədən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşdırılmasında bp şirkətinin rolunu çox yüksək qiymətləndirdi, Azərbaycanın neft sahəsində fəaliyyətinə görə şirkətə minnətdarlığını bildirdi.

Lord Con Braun Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin neft strategiyasının uğurlu nəticəsi kimi dəyərləndirdi və ulu öndərimizin bu işdə müstəsna rolu olduğunu bildirdi. O, 1994-cü ildən bəri Azərbaycanda böyük irəliləyişlərin şahidi olduğunu söylədi və hazırda bu işlərin uğurla davam etdirildiyini vurğuladı. Lord Con Braun ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin fəaliyyətini yüksək qiymətləndirdi.

Azərbaycanda neft sahəsində yüksək səviyyədə platformaların, infrastrukturların yaradıldığını vurğulayan qonaq xalqımızın yüksək intellektuala malik olduğunu söylədi. O, ölkədə görülən bütün bu uğurlu işlərin Azərbaycan xalqının inkişafına xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Cənab Con Braun Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev isə cənab Con Brauna Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında ABŞ-ın energetika naziri Samuel Bodmanı qəbul etmişdir.

Söhbət zamanı Azərbaycan ilə Amerika arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etməsi vurğulandı, ikitərəfli münasibətlər, energetika sahəsində, o cümlədən qlobal və regional layihələrin reallaşdırılmasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əhəmiyyəti qeyd edildi və bu kəmərin Azərbaycanın gələcək inkişafına, ümumiyyətlə regionda sülhün, təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminlik vurğulandı.

Cənab Samuel Bodman Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev isə qonağa Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Böyük Britaniyanın kral ailəsinin üzvü, York hersoqu şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndiyi vurğulandı, iqtisadi sahədə, xüsusilə energetika sahəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyi bildirildi.

York hersoqu şahzadə Endryu şəxsən kraliça ailəsi adından Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev isə York hersoqu şahzadə Endryuya Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQSI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsı qəbul etmişdir.

Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya olunduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən Avropa Birliyi ilə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığının möhkəmləndiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirak etdiyini xatırlatdı və əmin olduğunu bildirdi ki, ölkəmizin Avropa Birliyi ilə əlaqələri bundan sonra da daim möhkəmlənəcəkdir.

Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın gündən-günə genişləndiyini nəzərə çarpdıran cənab Andris Pibalqs Avropa Birliyinin yeni qonşuluq siyasətində Azərbaycanın misli görünməmiş irəliləyişə nail olduğunu vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Avropa Birliyi arasındakı əməkdaşlıq bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Cənab Andris Pibalqs Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev isə cənab Andris Pibalqsa Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ALEKSEY İVÇENKONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında Ukraynanın yanacaq və energetika nazirinin birinci müavini Aleksey İvçenkonu qəbul etmişdir.

Dövlətimizin başçısı mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsini çox böyük əlamətdar hadisə olduğunu, mərasimdə Ukrayna nümayəndə heyətinin iştirak etməsindən və Prezident Viktor Yuşşenkonun təbrik məktubu göndərməsindən məmnunluq duyduğunu vurğuladı. Prezident İlham Əliyev Ukrayna rəhbərinə onun dərin təşəkkürünü və ehtiramını çatdırmağı xahiş etdi.

Cənab Viktor Yuşşenko ilə müxtəlif tədbirlərdə keçirdiyi görüşləri məmnunluqla xatırlayan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra daha da möhkəmlənəcəkdir.

Cənab Aleksey İvçenko Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində Ukrayna rəhbərinin təbrik məktubunu oxuduğunu bir daha məmnunluqla xatırladaraq dedi: Prezident Viktor Yuşşenko mənə tapşırıb, Sizə çatdırım ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilmişdir və onun bu xətti yüz il bundan sonra da Azərbaycanın siyasətini müəyyənləşdirəcəkdir. Prezident İlham Əliyev indi bu siyasəti uğurla davam etdirir. Biz Azərbaycanla uzun illərdən bəri möhkəm əsaslar üzərində qurulmuş əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminik.

Aleksey İvçenko Ukrayna Prezidenti Viktor Yuşşenkonun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalını qonağa təqdim etdi və onu Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ KRALLIĞININ DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında Norveç Krallığının dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini Oluf Ulseti qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə Norveçin Baş naziri Kyel Maqne Bundevikin təbrik məktubu göndərməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev bu böyük boru kəmərinin Azərbaycanın inkişafında, sosial tərəqqisində, xalqın rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacağına əmin olduğunu vurğuladı.

Cənab Oluf Ulset Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirdi. O, son illər Azərbaycanda bütün sahələrdə, o cümlədən neft sahəsində böyük nailiyyətlər əldə edildiyini vurğuladı, bütün bunların ölkədə bazar iqtisadiyyatının, demokratiyanın daha da inkişafına təkan verəcəyinə əmin olduğunu söylədi.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılışı münasibətilə hazırlanmış xatirə medalını qonağa təqdim etdi və onu Baş nazir Kyel Maqne Bundevikə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BNP PARIBAS BANKININ ENERGETİKA, İXRAC VƏ LAYİHƏLƏR ÜZRƏ RƏHBƏRİ DOMİNİK REMİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında BNP Paribas Bankının energetika, ixrac və layihələr üzrə rəhbəri Dominik Remini qəbul etmişdir.

Qonaq Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, kəmərin işə düşməsini çox əlamətdar hadisə adlandırdı. O, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin maliyyələşməsində rəhbərlik etdiyi bankın iştirakını məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin tarixi hadisə olduğunu söylədi və bu kəmərin ölkəmizin iqtisadi inkişafının, xalqımızın maddi rifah halının yüksəlməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ AMERİKA YƏHUDİ KOMİTƏSİNİN DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov mayın 26-da Amerika Yəhudi Komitəsinin direktoru Berri Ceykobs ilə görüşmüşdür.

Qonaq Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimə dəvət edildiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmiş, bu tarixi hadisə ilə bağlı Azərbaycan xalqını təbrik etmişdir.

Ölkəmizin müstəqilliyi bərpa edildikdən sonra iqtisadi, siyasi, ictimai, mədəni və digər sahələrdə qazandığı nailiyyətlərdən danışan nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, ağır nəticələri və problemin beynəlxalq hüquq norma və prinsiplər əsasında sülh yolu ilə həlli işində beynəlxalq birliyin səyləri artırmasının vacib olduğunu söyləmişdir.

Tərəflər Azərbaycan-ABŞ strateji tərəfdaşlığının, Azərbaycan-İsrail münasibətlərinin

daha da inkişaf etdirilməsi, növbəti parlament seçkilərinin açıq, şəffaf və ədalətli keçirilməsinin vacibliyi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparmışlar.

HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS NEFT İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN "GÜLÜSTAN" SARAYINDA RƏSMİ ZİYAFƏT

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisinin başa çatması münasibətilə mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin adından "Gülüstan" sarayında rəsmi ziyafət təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, xarici qonaqlar əvvəlcə sarayın foyesində "Əsrin müqaviləsi" ilə başlayan Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi ilə bağlı ən mühüm hadisələri, artıq tarixin yaddaşına əbədi həkk olunmuş məqamları əks etdirən videokadrlara, bp şirkətinin yeni qurğularının maketinə baxdılar.

Sarayın ziyafət salonuna toplaşanlar Azərbaycan və Türkiyə prezidentlərini hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident Əhməd Necdət Sezər!

Hörmətli qonaqlar!

Əziz xanımlar və cənablar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayır, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün çox əlamətdar bir gündür, tarixi bir gündür. Mən əminəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bizə imkan verəcək ki, bölgədə iqtisadi inkişaf daha da sürətlə getsin, təhlükəsizlik sistemi daha da möhkəmlənsin. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti bölgədə gedən əməkdaşlıq meyillərinə güclü təkan verəcəkdir. Əminəm ki, bölgədə yaşayan xalqlar bundan sonra bir-birilə daha sıx əməkdaşlıq edəcəklər. İqtisadi inkişaf daha geniş vüsət alacaqdır. Azərbaycanın, Azərbaycan xalqının gələcəyi üçün, rifahı üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin müstəsna rolu vardır. O, bizim iqtisadi müstəqilliyimizi daha da gücləndirəcəkdir.

Hər bir ölkə üçün onun iqtisadi müstəqilliyi böyük əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycan daha da güclənsin, öz iqtisadi potensialını möhkəmləndirsin və zəngin, qüdrətli dövlətə çevrilsin. Bu bizim dövlət müstəqilliyimizin möhkəmlənməsinə də çox gözəl töhfə verəcəkdir. Dövlət müstəqilliyimiz bizim ən böyük sərvətimizdir. Uzun illər, əsrlər boyu Azərbaycan xalqı bu müstəqillikdən məhrum idi. Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə inteqra-

siya edir, dünyada özünə layiq yerini tuta bilibdir. Biz bundan sonra da çalışacağıq ki, müstəqilliyimizi möhkəmləndirək və gücləndirək.

Bakı-Tbilisi-Ceyhan neft kəməri nadir bir layihədir. Burada üç qonşu, dost, qardaş ölkə dünyanın aparıcı dövləti Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə, dünyanın aparıcı enerji şirkətlərindən olan bp şirkətinin rəhbərliyi ilə, tanınmış beynəlxalq neft şirkətlərinin iştirakı, beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə, birgə səylərlə üç dənizi bu kəmərlə birləşdirərək əfsanəni həqiqətə, reallığa çevirdi.

Bu nadir layihə bizim xalqlarımızın gələcəyinə xidmət edəcək, Türkiyədə, Azərbaycanda, Gürcüstanda gedən iqtisadi proseslərə güclü təsir göstərəcəkdir.

Mən şübhə etmirəm ki, bizim xalqlarımız bu layihədən səmərəli istifadə edəcəklər və onların gələcəyi daha da yaxşı olacaqdır.

Bu gün biz gözəl mərasim keçirdik, Bakı-Tbilisi-Ceyhan neft kəmərini istismara verdik. Bu gün biz bu tarixi yazdıq. Bu gün xalqımızın ümummilli lideri, bu layihənin memarı və təşəbbüskarı Heydər Əliyevin xatirəsi də yad edildi. Onun xidmətləri haqqında söhbət açıldı. Hamımız çox yaxşı bilirik ki, Heydər Əliyevin qətiyyəti, müdrikliyi, cəsarəti, uzaqgörənliyi imkan verdi ki, biz bu gün bu tarixi məqamı yaşayırıq. Azərbaycan bu gün müstəqil dövlət kimi öz mövqelərini bölgədə möhkəmləndirir və gələcəyə böyük inamla baxır.

Mən bu gün bu badəni Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsində iştirak edən bütün insanların şərəfinə, bütün şirkətlərin şərəfinə qaldırmaq istəyirəm.

Bizi dəstəkləyən, daim bizim yanımızda olan dövlətlərin xalqlarına öz minnətdarlığımı bildirir və onların şərəfinə badə qaldırmaq istəyirəm.

Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarının şərəfinə badə qaldırmaq istəyirəm.

Bizim birliyimizin şərəfinə, bizim gələcəyimizin şərəfinə, sülhün, əmin-amanlığın, tərəqqinin şərəfinə!

Sağ olun, Sizin şərəfinizə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ, BRİQADA GENERALI CİANNİ QOLANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Prezident sarayında Beynəlxalq Hərbi İdman Şurasının prezidenti, briqada generalı Cianni Qolanı qəbul etmişdir.

Dövlətimizin başçısı mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin çox əlamətdar hadisə olduğunu bildirdi.

Son illər ölkəmizin həyatının bütün sahələrində böyük uğurlar qazanıldığını nəzərə çarpdıran Prezident İlham Əliyev respublikamızda hərbi idman sahəsində də böyük işlər görüldüyünü, çox əhəmiyyətli yarışların keçirildiyini və idmanın inkişafına daim

diqqət və qayğı göstərildiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, idmanın inkişafı ölkədə həm ümumi inkişafa, həm də gənclərin fiziki-mənəvi hazırlığının daha da möhkəmləndirilməsi işinə xidmət edir.

Cənab Cianni Qolan 127 ölkəni əhatə edən Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan Prezidenti ilə görüşdən şərəf duyduğunu bildirdi və 28 May - Respublika günü münasibətilə dövlətimizin başçısı İlham Əliyevi təbrik etdi. Qonaq onun başçılıq etdiyi nümayəndə heyəti üzvlərinin Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və şəhidlərin məzarlarını ehtiramla ziyarət etdiklərini söylədi.

Azərbaycanın qədim tarixə malik olduğunu xatırladan general Cianni Qolan ölkəmizdə çox güclü fiziki hazırlığa malik olan gənc idmançıların yetişdiyini vurğuladı, respublikamızın Beynəlxalq Hərbi İdman Şurasında fəal iştirak etməsindən məmnun qaldığını bildirdi. Azərbaycanda çox böyük əhəmiyyətli idman tədbirlərinin keçirildiyini söyləyən qonaq ölkə idmançılarının Afina Olimpiadasında böyük uğurlar qazandıqlarını vurğuladı və bütün bu nailiyyətləri Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. O, idmanda qazanılan uğurlara, böyük inkişafa və bu sahəyə göstərdiyi dəstəyə görə şəxsən Prezident İlham Əliyevə Beynəlxalq Hərbi İdman Şurasının ehtiramını çatdırdı.

Cianni Qolan məlumat verdi ki, Beynəlxalq Hərbi İdman Şurası İcraiyyə və Direktorlar Şuraşının toplantısında bu təşkilatın inkişafına göstərdiyi xidmətlərə görə Azərbaycan Prezidenti, respublika Silahlı Qüvvələrinin Ali baş komandanı İlham Heydər oğlu Əliyev həmin təşkilatın ən yüksək mükafatı olan Ali orden ilə təltif olunmuşdur. Qonaq yüksək mükafatı dövlətimizin başçısına təqdim etdi.

Bu yüksək mükafata görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bundan sonra da ölkəmizdə və regionda idmanın inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU DOKTOR ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Prezident sarayında İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatının baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycrini qəbul etmişdir.

Azərbaycanın bu təşkilatla yaxşı əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı İl-

ham Əliyev doktor Əbdüləziz bin Osman Əl-Tuveycrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərə gəlməsini elm, təhsil və mədəniyyət sahəsində fikir mübadiləsi aparılması, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin birgə proqramların həyata keçirilməsi işində mühüm rol oynayacağını vurğuladı.

Azərbaycanda təhsilin, elmin, mədəniyyətin inkişafına böyük əhəmiyyət verildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bu sahələrdə ölkəmizə göstərdiyi köməyə görə təşkilata minnətdarlığını bildirdi.

Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı orada Kralla və yüksək vəzifəli digər rəsmi şəxslərlə keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərdiyini vurğuladı.

Əbdüləziz bin Osman Əl-Tuveycri mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verildiyi günlərdə və 28 May - Respublika günü ərəfəsində Prezident İlham Əliyev ilə görüşməyindən şərəf duyduğunu bildirdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etdiyini söylədi.

Qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən elm, təhsil və mədəniyyət sahəsində böyük inkişafın şahidi olduğunu bildirdi. Ölkənin sürətli inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu söyləyən cənab Əbdüləziz bin Osman Əl-Tuveycri Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğuladı.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq dövlətimizin başçısının Səudiyyə Ərəbistanına səfərinin bu əlaqələrin daha da inkişaf etməsi işində böyük rol oynadığını bildirdi.

Doktor Əbdüləziz bin Osman Əl-Tuveycri Azərbaycan Prezidenti İlham Əliyevə İslam elm, təhsil və mədəniyyət təşkilatına - ISESCO-ya göstərdiyi köməyə görə bu təşkilatın baş mükafatını təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ SADİQ KAMAL TURALI VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ MEHMED SARAYI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Prezident sarayında Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri professor Sadiq Kamal Turalı və Atatürk Araşdırmalar Mərkəzinin sədri professor Mehmed Sarayı qəbul etmişdir.

Dövlətimizin başçısı "Erməni iddiaları və Azərbaycan gerçəkliyi" mövzusunda Bakıda keçirilən ikinci beynəlxalq simpoziumu yüksək dəyərləndirdi. On illərdən bəri Azərbaycan və Türkiyə dövlətlərinin ermənilərin siyasi və idcoloji təxribatları və əsassız ərazi iddiaları ilə üz-üzə qaldığını nəzərə çarpdıran Prezident İlham Əliyev bildirdi ki, yalnız birgə əməkdaşlıq əlaqələrimizi gücləndirməklə, yüzillik mənfur təcrübəyə ma-

lik erməni təbliğatının və qərəzli türk düşmənçiliyinin qarşısını ala və dünyanı öz haqq işimizə inandıra bilərik. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu simpozium erməni-türk münasibətlərini obyektiv araşdırmalara cəlb etməklə bu münasibətlərin əsil mahiyyətinin açılmasında öz sanballı sözünü deyəcək, eyni zamanda, uydurma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, "erməni soyqırımı" barədə elmi-tarixi gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması işində ciddi dönüş yaradacaqdır.

Belə tədbirlərin gələcəkdə daha geniş məkanda keçirilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinə başçılıq etdiyi zaman və bundan sonra da beynəlxalq təşkilatların tədbirlərindəki çıxışlarında bu məsələlərə daim xüsusi diqqət yetirdiyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı bir daha vurğuladı ki, bizim işimiz haqq işidir və bunun bütün dünyada yayılması, təbliğ olunması çox vacibdir.

Azərbaycanda Atatürk Mərkəzinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmasından məmnunluqla söhbət açan professor Mehmed Saray dedi ki, ulu öndər Heydər Əliyev Azərbaycan və bütövlükdə türk dünyası haqqında həqiqətlərin beynəlxalq aləmdə yayılması və təbliğ olunması işinə daim böyük önəm verirdi. Türk dünyası qarşısında Atatürkün və Heydər Əliyevin böyük xidmətlər göstərdiyini, onların ideyalarının təbliği və yayılmasının vacibliyini vurğulayan qonaq dedi ki, ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" ideyası xalqlarımızı daha da sıx birləşdirir. Mehmed Saray bildirdi ki, Prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, xarici ölkələrə bütün səfərləri zamanı Azərbaycan və türk dünyası haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır və bu, türk dünyasında böyük maraqla qarşılanır.

Professor Sadiq Kamal Tural türk dünyasının böyük şəxsiyyəti Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində yaradılmış Azərbaycanda Atatürk Mərkəzinin yüksək səviyyədə fəaliyyət göstərdiyini bildirdi, onun türkdilli xalqların birliyinə daim xüsusi diqqət yetirməsindən məmnunluqla bəhs etdi. O dedi ki, Heydər Əliyev Atatürk Araşdırmalar Mərkəzi və digər qurumlarla əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdi və indi biz bunun müsbət nəticələrini görürük. Qonaq Azərbaycanda bu sahədə əlaqələrin genişlənməsi üçün yaradılmış gözəl şəraitə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDAKI MÜNASİBƏTLƏRİN MÜQAVİLƏ-HÜQUQ BAZASININ TƏMƏLİ QOYULMUŞDUR

Mayın 30-da xarici işlər nazirliyində Yaponiya hökuməti ilə keçmiş SSRİ arasında bağlanmış müqavilələrin varisliyinin təsdiqlənməsinə dair Azərbaycan ilə Yaponiya arasında Notalar mübadiləsi həyata keçirilmişdir. Mübadiləni Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Yaponiya tərəfindən isə bu ölkənin Azərbaycandakı səfiri Tadahiro Abe həyata keçirmişlər.

Notalar mübadiləsi ilə 1991-ci ilədək Yaponiya ilə keçmiş SSRİ arasında müxtəlif sahələrdə imzalanmış sənədlər və beynəlxalq sazişlərin tanınması və varisliyi təsdiqlənmişdir.

Mərasimdə Xələf Xələfov bildirmişdir ki, Yaponiya ilə keçmiş SSRİ arasında imzalanmış təxminən 20 sənəd Azərbaycana münasibətdə qüvvədən düşmüş hesab edilmiş, 8 sənədin isə varisliyi Azərbaycan tərəfindən tanınmışdır.

Bu sənədlər Azərbaycan ilə Yaponiya arasında münasibətlərin müqavilə-hüquq bazasının təməlini qoyur və müxtəlif sahələrdə yeni müqavilələrin bağlanmasına imkan yaradır.

Notalar mübadiləsi zəruri dövlətdaxili proseduralardan keçdikdən sonra qüvvəyə minəcəkdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

Mayın 30-da xarici işlər nazirliyində nazir müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqların gedişi ilə bağlı brifinq keçirmişdir.

Son vaxtlar danışıqlar prosesində fəallıq müşahidə olunduğunu söyləyən Araz Əzimov, Azərbaycan və Ermənistan prezidentlərinin Varşavada keçirilmiş görüşünü xatırlatmışdır. O bildirmişdir ki, görüş vacib və faydalı olmuşdur. Bu görüşdən sonra prezidentlər ATƏT-in Minsk qrupunun həmsədrlərinə müvafiq təlimatlar vermişlər. Təlimatların başlıca mahiyyəti Praqa prosesinin nəticələrinə əsaslanan müzakirələrin davam etdirilməsi, həmsədrlərin fəaliyyətinin sürətləndirilməsi, xarici işlər nazirlərinin növbəti görüşünün tez bir zamanda keçirilməsindən ibarətdir.

Varşava görüşünün davamı kimi, həmsədrlər regiona səfər etmiş, Bakıda və Yerevanda müzakirələr aparmışlar. Əldə olunmuş razılığa əsasən, iyunun ortalarında xarici işlər nazirlərinin növbəti görüşü keçiriləcəkdir. İyulun əvvəllərində isə həmsədrlər yenidən regiona səfər edəcəklər.

Aparılan müzakirələrdə Azərbaycanın tutduğu mövqe beynəlxalq hüquq normalarına söykənir və beynəlxalq ictimaiyyətdə bu mövqeyin tərəfdarları getdikcə çoxalır.

Müzakirələr müəyyən edilmiş əsas elementlər ətrafında gedir. Buraya torpaqların boşaldılması, əhalinin həmin ərazilərə qayıtması, Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhalinin Azərbaycan vətəndaşları olan erməni əhalisi ilə normal birgə yaşayışının təmin edilməsi, daha sonra Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılması aiddir.

Azərbaycanın münaqişənin həllini təkcə torpaqların qaytarılmasında görmədiyini söyləyən nazir müavini, buraya, eyni zamanda Azərbaycanın Dağlıq Qarabağda yaşayan erməni mənşəli vətəndaşları ilə azərbaycanlı əhalinin sülh və əməkdaşlıq şəraitində normal yaşaması, regionun yenidən Azərbaycanın iqtisadi sisteminə qatılmasının da daxil olduğunu bildirmişdir.

Avropada baş vermiş münaqişələrin çoxu məhz bu əsaslarla həll edilmişdir. Bütün bunlara nail olmaq üçün hazırkı mövcud vəziyyət aradan qaldırılmalı, işğal altındakı torpaqlar azad edilməli, münaqişənin törətdiyi müxtəlif səciyyəli problemlər həll olunmalıdır.

Münaqişənin həllindən sonra Azərbaycan ilə Ermənistan arasında münasibətlərin gələcək inkişafına toxunan Araz Əzimov bildirmişdir ki, yuxarıda sadalananlar həyata keçi-

rildikdən sonra iki ölkə arasında əlaqələr normallaşa bilər. Lakin, ilk növbədə, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, işğalçılıq siyasətinə son qoymalıdır. Azərbaycan regionda həmişə inteqrasiya yolunu seçmişdir. Ermənistanın bu inteqrasiyadan kənarda qalması Azərbaycanın günahı deyildir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HƏŞTƏRXANIN QUBERNATORU ALEKSANDR JİLKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkini qəbul etmişdir.

Həştərxan əhalisinin ehtiramını və salamlarını dövlətimizin başçısına çatdıran cənab Aleksandr Jilkin Rusiya Federasiyasında, o cümlədən Həştərxanda ümummilli lider Heydər Əliyevə böyük ehtiram bəslənildiyini vurğuladı. O dedi ki, vaxtilə Heydər Əliyevin köməyi ilə Həştərxanda Azərbaycanın ictimai və dövlət xadimi Nəriman Nərimanovun heykəli ucaldılmış, bir şəhərə və rayona onun adı verilmişdir.

Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin iki dəfə artırılmasını mühüm vəzifə kimi qarşıya qoyduqlarını nəzərə çarpdıran qonaq Həştərxanda bununla əlaqədar konkret işlər görüldüyünü bildirdi.

Azərbaycanın müvafiq strukturları ilə Həştərxan arasında çox uğurlu əməkdaşlıq edildiyini vurğulayan qubernator vilayətdə Azərbaycan diasporunun geniş fəaliyyət göstərdiyini söylədi. O əmin olduğunu bildirdi ki, Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələr bundan sonra daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiyanın müxtəlif vilayətlərinin uğurlu əməkdaşlığını, ticarət dövriyyəsinin artmasını ölkələrimiz arasında əlaqələrin genişlənməsinin yaxşı nümunəsi kimi qiymətləndirdi.

Həştərxanda Azərbaycan diasporunun fəaliyyətinə toxunan dövlətimizin başçısı, ümumiyyətlə, Rusiyada son vaxtlar diasporumuzun strukturlaşması sahəsində irəliyə doğru böyük addımlar atıldığını bildirdi. Prezident İlham Əliyev Həştərxanda da Azərbaycan diasporunun fəaliyyətinin xalqlarımız arasında əlaqələrin daha da genişləndirilməsi işində mühüm rol oynadığını vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya, o cümlədən Həştərxan arasında əməkdaşlıq bundan sonra da genişlənəcək və daha da möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında senator Çarlz Heyqlin başçılıq etdiyi ABŞ nümayəndə heyətini qəbul etmişdir.

Qonaqların Azərbaycana səfərindən məmnunluğunu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsindən çox razı olduğunu söyləyən Prezident İlham Əliyev indi-

ki səfərin qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət edəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı dedi ki, bizim hökumətlər səviyyəsində çox fəal əlaqələrimiz var, ölkələrimiz arasında enerji, təhlükəsizlik, sülhməramlı əməliyyatlar, demokratik proseslərin inkişaf etdirilməsi sahələrində əməkdaşlıq çox səmərəlidir və gözəl nəticələri var. Bilirəm ki, siz burada neft infrastrukturlarından birinə baş çəkmisiniz.

Mayın 25-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əlamətdar hadisə olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev bildirdi ki, bu, bizim əməkdaşlığımızın parlaq nümunəsidir. Mən açılış mərasimində vurğuladım ki, ABŞ-ın dəstəyi olmadan bu böyüklükdə enerji layihəsinin həyata keçirilməsi mümkün olmazdı.

2002-ci ildə Vaşinqtonda senatorla görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev dedi ki, o zaman biz bu məsələləri müzakirə etmişdik və indi bu layihə artıq başa çatır. İkitərəfli münasibətlərimizin digər istiqamətləri də çox uğurla inkişaf edir və biz bundan çox məmnunuq. ABŞ və Azərbaycan yaxşı dostdur və mən əminəm ki, bu tərəfdaşlıq davam edəcəkdir.

Prezident İlham Əliyevlə görüşdən şərəf duyduğunu söyləyən senator Çarlz Heyql sonuncu görüşlərini xatırlayaraq dedi ki, o zaman Siz hələ prezident deyildiniz və mən Azərbaycan xalqına minnətdaram ki, Sizi Prezident seçibdir. Çox məmnunam ki, atanızla tanış idim, o, çox həlledici anda ölkənizə rəhbərlik edərək, qətiyyətli liderliyini nümayiş etdirdi. Onun gördüyü işlər dünyada olan müttəfiqləriniz, o cümlədən ABŞ tərəfindən də yüksək qiymətləndirilir.

Cənab Heyql bildirdi ki, ölkələrimizin regiondakı maraqları üst-üstə düşür. Region uzun illər ərzində çətinliklərlə üzləşib, lakin onun böyük potensialı var. ABŞ ilə Azərbaycan arasında münasibətlər nəinki təhlükəsizlik sahəsində, həm də iqtisadi və demokratik sahələrdə də güclənməlidir. Mən bilirəm ki, siz son illər ərzində böyük tərəqqi əldə etmisiniz. Bu yaxınlarda BTC neft kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi regionda müdrik idarəçilik sayəsində necə yüksək nəticələrin əldə olunduğunu sübut edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜLKİ TƏDQİQATLAR VƏ İNKİŞAF FONDUNUN PREZİDENTİ TOM OVENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun prezidenti Tom Ovensin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev cənab Ovensin ölkəmizə üçüncü dəfə səfər etməsindən məmnunluğunu, ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun Azərbaycan Milli Elmlər Akademiyası ilə sıx əlaqələrindən xəbərdar olduğunu vurğuladı.

Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini yüksək qiymətləndirən qonaq ABŞ-ın Azərbaycanla elm sahəsində birgə işlər görməsi üçün şəraitin olduğunu bildirdi, başçılıq etdiyi Fondun tarixi barədə məlumat verdi. O, Fondun on il əvvəl ABŞ Konqresi tərəfindən yaradıldığını söyləyərək dedi ki, biz keçmiş Sovet İttifaqına daxil

olan hər bir respublika ilə birgə layihələr həyata keçiririk. Fond müxtəlif ölkələrin elm adamlarının bir araya gələrək əməkdaşlıq etməsinə çalışır, onlara yardım edərək, elm ilə kommersiya fəaliyyəti arasında əlaqə yaradır. İndiyədək Azərbaycanda 2 milyon dollardan artıq həcmdə layihələr həyata keçirilmişdir ki, bu layihələrdən də əsas məqsəd ABŞ-la tərəfdaşlıq yaratmaqdır.

Prezident İlham Əliyev ABŞ Mülki Tədqiqatlar və İnkişaf Fondunun çox əhəmiyyətli işlə məşğul olduğunu vurğulayaraq dedi ki, Sovet İttifaqı dağıldıqdan sonra keçmiş respublikalarda elmlə məşğul olan insanlar maddi cəhətdən çox ağır vəziyyətə düşdülər. Halbuki əvvəllər alimlər cəmiyyətin ən hörmətli təbəqəsi kimi yüksək məvaciblər alırdılar. Bu gün də alimlərin maddi vəziyyəti arzuolunan həddə çatmayıb, lakin Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri xüsusi məvacib alırlar və biz çalışacağıq ki, gələcəkdə onların sosial vəziyyəti daha da yaxşı olsun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU DONNA DOUSET-KOİROLONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru xanım Donna Douset-Koirolonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın Dünya Bankı ilə səmərəli əməkdaşlığının səviyyəsindən məmnunluğunu və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu vurğuladı. Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini xatırladan Prezident İlham Əliyev eyni zamanda son vaxtlar inflyasiyanın sürətinin artdığını və onun qarşısını almaq üşün tədbirlər görüldüyünü bildirdi.

Əhalinin pul gəlirlərinin, orta aylıq əmək haqqının və adambaşına düşən ÜDM-in həcminin artdığını qeyd edən Prezident İlham Əliyev dedi ki, gələcəkdə neftdən gələn gəlirlərin hesabına yoxsulluğun azaldılmasına, əhalinin rifah halının yüksəldilməsinə nail ola biləcəyik.

Dövlətimizin başçısı Dünya Bankı ilə əlaqələrin bundan sonra da davam etdiriləcəyini, ölkəmizdə daha yaxşı iqtisadi mühitin yaradılacağını söylədi.

Dünya Bankı ilə Azərbaycan hökuməti arasında uğurlu əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən xanım Donna Douset-Koirolo təmsil etdiyi qurumun ölkəmizdə bir çox layihələrin həyata keçirilməsini maliyyələşdirdiyini və bu sahədə hökumətə texniki yardım göstərdiyini xatırlatdı. Azərbaycanda ümumi daxili məhsulun artımının sürətini və iqtisadi tərəqqini yüksək qiymətləndirən qonaq, Prezident İlham Əliyevin bu yaxınlarda antiinflyasiya tədbirləri haqqında imzaladığı Sərəncamı alqışladığını bildirdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin açılışı münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən qonaq Şərq-Qərb nəqliyyat dəhlizinin region ölkələrinin iqtisadi tərəqqisində və infrastrukturun inkişafında mühüm rolunu vurğuladı. O, Dünya Bankının bu sahədə region ölkələrinə, xüsusilə Azərbaycana gələcəkdə də kömək göstərəcəyini, ölkəmizlə faydalı əməkdaşlığın uğurla davam edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA XÜSUSİ ƏHƏMİYYƏT VERİR

İyunun 3-də xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Sloveniya parlamentinin üzvü, Sloveniya respublikasının Qərbi Avropa İttifaqında nümayəndəliyinin rəhbəri Zmaqo Yelinçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları səmimiyyətlə salamlayan nazir Elmar Məmmədyarov ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinə və Avropanın yeni qonşuluq siyasətində iştiraka böyük əhəmiyyət verdiyini vurğulamış, Azərbaycanın Avropa institutlarına inteqrasiya olunmasına respublikamızın sadiq qaldığını diqqətə çatdırmışdır.

ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dmitri Rupelin salamını çatdıran Z.Yelinçiç, Azərbaycanda olduğundan məmnunluq hissi duyduğunu və son zamanlar ölkəmizdə aparılan demokratik islahatların əhəmiyyətini xüsusi vurğulamışdır. Qarşıdan gələn parlament seçkilərinin ölkəmiz üçün əhəmiyyətini xüsusi qeyd edən nümayəndə heyətinin başçısı, bu seçkilərin demokratiya və şəffaflıq şəraitində keçəcəyinə ümidvar olduğunu söyləmişdir. O, seçkilərdə müşahidəçi qismində iştirak etməyə hazır olduğunu vurğulamış, Azərbaycanda demokratik islahatların həyata keçirilməsi prosesi, ölkədəki siyasi-ictimai vəziyyətlə maraqlanmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq, Sloveniyanın ATƏT-in sədri kimi münaqişənin tezliklə həll olunmasına çalışacağını bildirmiş və Avropa ölkələri arasında münaqişələrin qəbuledilməz olduğunu qeyd etmişdir.

Ölkəmizin iqtisadi, siyasi, sosial və digər sahələrdə qazandığı nailiyyətlərdən danışan nazir Elmar Məmmədyarov, Azərbaycanda qarşıdan gələn parlament seçkilərinin azad və ədalətli şəraitdə keçirilməsi üçün dövlət tərəfindən görülən tədbirlər barədə qonaqlara ətraflı məlumat vermişdir. Nazir "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Azərbaycan Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamının seçkiqabağı prosesə müsbət təsirindən və seçkilərin demokratik keçirilməsi işində əhəmiyyətindən danışmış, ölkələrimiz arasında münasibətlərin inkişaf səviyyəsindən məmnunluğunu bildirmiş, eyni zamanda, əlaqələrimizin bundan sonra da sürətlə inkişaf edəcəyinə ümidvar olduğunu söyləmişdir.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların indiki mərhələsi barədə qonağa ətraflı məlumat vermiş, həmçinin ərazi bütövlüyü prinsiplərinin vacibliyini qeyd etmiş və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin qəbuledilməz olduğunu diqqətə çatdırmışdır.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA SEYMİNİN SƏDRİ ARTURAS PAULAUSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında Litva Respublikası Seyminin sədri Arturas Paulauskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqların Azərbaycana səfərinin əhəmiyyətli olacağını, ölkələrimiz arasında daha açıq dialoqa kömək edəcəyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, gələcək əməkdaşlığımız üçün yaxşı zəmin var. Prezident İlham Əliyev dedi ki, son iki ayda Litva Prezidenti ilə iki dəfə - Moldovada GUAM-ın və Polşada Avropa Şurasının üzvü olan ölkələrin dövlət başçılarının sammitində görüşmüşük və aramızda yaxşı dialoq olubdur. Litvanın Avropa Atlantik məkanına inteqrasiyasının uğurlarına çox sevinirik və eyni zamanda, Azərbaycanın Avropaya inteqrasiyası prosesində ikitərəfli əməkdaşlığımız çərçivəsində sizin dəstəyinizə ümid bəsləyirik. Azərbaycan Avropa strukturlarına fəal inteqrasiya siyasəti həyata keçirir. Ölkəmizin Avropa İttifaqının yeni qonşuluq siyasətinə daxil edilməsi göstərir ki, bu istiqamətdə fəal iş gedir. Azərbaycan NATO ilə münasibətlərində yeni mərhələ olan "fərdi əməkdaşlıq mərhələsinə" keçib və biz bu sahədə də Litvanın dəstəyinə ümid edirik.

Dövlətimizin başçısı vurğuladı ki, ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq üçün yaxşı imkanlar var. Beynəlxalq məsələlərdə mövqelərimiz uyğun gəlir, iqtisadi sahədə əməkdaşlığımızı inkişaf etdirmək üçün ehtiyat imkanlarımız var. Həm Litva, həm də Azərbaycan dinamik inkişaf edən ölkələrdir. Bu yaxınlarda Azərbaycanın maliyyə naziri Litvada səfərdə olub və orada sosial-iqtisadi sahədə görülən işləri yüksək qiymətləndirmişdir. Hesab edirəm ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığı gücləndirmək üçün yaxşı perspektivlərimiz var. Parlamentlərarası münasibətlərin fəallaşdırılması da çox əhəmiyyətlidir. Ölkələrimiz arasında bir qədər informasiya boşluğu var. Litvada nə baş verildiyi haqqında bizim məlumatımız az olur, eyni zamanda əksinə. Ona görə də parlamentlər, digər qurumlar və biznesmenlər arasında əlaqələrin olması çox vacibdir. Sizin bu səfərinizi də Azərbaycan və Litva arasında əməkdaşlığın sıxlaşması, yaxınlaşması baxımından yüksək qiymətləndiririk.

Qəbula görə təşəkkürünü bildirən Litva Seyminin sədri Arturas Paulauskas dedi ki, səfərdən məqsəd iki ölkə arasında əməkdaşlığı sıxlaşdırmaq, möhkəmləndirməkdir. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra icra strukturları səviyyəsində əlaqələr, səfərlər olub, amma parlamentlərarası əlaqələrdə müəyyən boşluq var idi. Bu, son 15 ildə Litva parlamenti sədrinin Azərbaycana ilk səfəridir və hesab edirəm ki, parlamentlərarası əlaqələrin fəallaşması baxımından əhəmiyyətli olacaqdır.

Cənab Paulauskas bildirdi ki, son 15 ildə Litva çox dəyişib, həm iqtisadi, həm də siyasi sahədə müəyyən nailiyyətlər vardır. 2007-ci ildə ölkəmiz Avropa valyutasına - avroya keçməlidir. Bu da makroiqtisadi sahədə müəyyən öhdəliklərlə bağlıdır, lakin Litvanın göstəriciləri yaxşıdır. Qonaq dedi ki, Avropa İttifaqına yeni daxil olan üç Baltikyanı ölkə - Estoniya Latviya və Litva bu meyarlara uyğundur. Biz on illərlə öz iradəmizdən asılı olmayaraq, bir ölkənin tərkibində olmuşuq. İnsanların mentaliteti, tariximiz məcbur edir ki, bir-birimizi asan başa düşək və nailiyyətlərimizi, hətta səhvlərimizi qiymətləndirək. Məni sevindirir ki, Bakını Qafqaz ölkələrinin maliyyə mərkəzi adlandırırlar.

Seymin sədri daha sonra ölkəsinin parlament strukturlarının fəaliyyəti barədə məlumat verdi, öz təcrübələrini azərbaycanlı həmkarları ilə bölüşməyə hazır olduqlarını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMGÜRCÜSTAN KATOLİKOS-PATRİARXI II İLİANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında Ümumgürcüstan Katolikos-Patriarxı II İlianı qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev zati-müqəddəsləri II İlianın Azərbaycana gəlməsindən məmnun olduğunu bildirərək dedi ki, dost və qardaş Azərbaycana səfəriniz çox əhəmiyyətli olacaqdır. Ölkələrimiz arasında münasibətlər yüksək səviyyədədir. Tarixən belə olub və xalqlarımız müstəqillik əldə edəndən sonra gələcəyimizi birlikdə qururuq. Bütün sahələrdə fəal əməkdaşlıq edirik, siyasi, iqtisadi, humanitar və bütün başqa sahələrdə möhkəm qarşılıqlı etimad mövcuddur.

Prezident İlham Əliyev vurğuladı ki, hər iki ölkədə dini dözümlülük yüksək səviyyədədir. Bu, müasir cəmiyyətin inkişafında mühüm amildir və biz buna çox böyük əhəmiyyət veririk. Azərbaycanda bütün dinlərin nümayəndələri mehriban bir ailə kimi yaşayırlar. Bilirik ki, Gürcüstanda da vəziyyət belədir və bu, ikitərəfli əməkdaşlığımızı möhkəmləndirmək üçün çox əhəmiyyətli amildir.

Ölkələrimizin rəhbərləri arasında qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğunu xatırladan dövlətimizin başçısı dedi ki, bu, digər strukturların əməkdaşlığına da müsbət təsir göstərir. *Əminəm ki, biz gələcəkdə də dostluq edəcək,* bir-birimizə kömək göstərəcək və bir-birimizin nailiyyətlərinə sevinəcəyik.

Hörmətli qonağın respublikamızın gürcülər yaşayan bölgəsinə də gedəcəyindən xəbərdar olduğunu söyləyən Prezident İlham Əliyev vurğuladı ki, bu, çox maraqlı səfər olacaqdır. Gürcülərin Azərbaycanda, azərbaycanlıların Gürcüstanda yaşaması əlaqələrimizdə vacib amildir. Onların yaxşı yaşaması bizim ikitərəfli əməkdaşlığımızın gələcəyindən asılıdır. Mən şadam ki, bu sahədə yaxşı anlaşma və yaxşı nəticələr var. Bu gün mən Sizin Azərbaycanın yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif olunmağınız barədə Sərəncam imzalamışam və icazənizlə, Sizə təqdim edərdim. Bu mükafat Sizə Azərbaycan ilə Gürcüstan arasında dostluq əlaqələrinin möhkəmlənməsində xidmətlərinizə görə verilir.

Prezident İlham Əliyevi gürcü pravoslav kilsəsi və öz adından salamlayan II İlia ona Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi arzularını çatdırdı.

Hörmətli qonaq dedi ki, Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər çox ölkələr üçün həqiqətən nümunədir. Bunun əsasını rəhmətlik atanız, Prezident Heydər Əliyev qoymuşdur. Onu şəxsən tanıyırdım və onunla görüşümü həmişə xatırlayıram. Həmçinin Sizin köməyiniz sayəsində ölkələrimiz, xalqlarımız arasında ən yaxşı münasibətlər yaranmışdır. Biz əlimizdən gələni edirik ki, Gürcüstanda yaşayan azərbaycanlılar özlərini yaxşı hiss etsinlər, Prezidentimiz onlara dediyi kimi, dövlət idarəçiliyinin bütün sahələrində iştirak etsinlər. Azərbaycanda yaşayan gürcülərin də vəziyyətinin yaxşı olması atanızın və Sizin xidmətlərinizdir. İndi hər iki dövlətə cavan prezidentlər başçılıq edir və sizin üzərinizə böyük məsuliyyət düşür.

Ölkələrimizin din xadimləri arasında əlaqələrdən danışan hörmətli qonaq dedi ki, şeyxülislam Allahşükür Paşazadə ilə münasibətlərimiz çox yaxşıdır. Bir-birimizi çoxdan tanıyırıq, aramızda qarşılıqlı anlaşma və qarşılıqlı hörmət vardır. Şeyx öz fəaliyyətində

nə edirsə, Azərbaycan xalqının rifahı, ölkələrimiz xalqlarımız arasında dostluğun möhkəmlənməsi üçün edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYALI TARİXÇİ ALİM, PROFESSOR ERİX FAYQLI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında avstriyalı tarixçi alim, professor Erix Fayqlı qəbul etmişdir.

Dövlətimizin başçısı qonağa müraciətlə dedi ki, sizi çox yaxşı tanıyırıq və böyük hörmət bəsləyirik. Siz böyük alimsiniz, bütün elmi araşdırmalarınız həqiqətə əsaslanır.

Professor Erix Fayql dedi ki, Azərbaycanın gücü həqiqətin və haqqın onun tərəfində olmasındadır. Bütün çətinliklərə baxmayaraq, biz birgə çalışacağıq ki, Azərbaycan öz itirilmiş torpaqlarını geri qaytarsın, qaçqın-köçkünlər öz doğma yurdlarına qayıtsınlar. Mən bu insanların yaşadıqları düşərgələrdə oldum, bu, mənim üçün çox dəhşətli mənzərə idi. Biz əlimizdən gələn hər şeyi etməliyik ki, bu insanlar öz torpaqlarına qayıtsınlar. Biz imkanımız daxilində əlimizdən gələni etməyə çalışırıq və bu sahədə bizə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş aparan qurum çox yaxından kömək göstərir. Onun gördüyü işlər çox yüksək qiymətləndirilməlidir. Azərbaycan səfirliklərinin də bu sahədəki işi barədə çox yaxşı məlumatım var və cəsarətlə deyə bilərəm ki, ölkəniz diplomatları ilə fəxr edə bilər. Mənim Sizə söyləmək istədiyim budur, çünki çox yaxşı bilirəm ki, nə qədər probleminiz vardır və Sizə hərdən xoş, ürəkaçan xəbərlər də vermək lazımdır.

Prezident İlham Əliyev qonağa minnətdarlıq edərək dedi ki, bizim işimiz də, təbliğatımız da yalnız və yalnız həqiqət üzərində qurulur. Ermənilərdən fərqli olaraq, biz çalışırıq ki, bu həqiqətləri dünyaya olduğu kimi çatdıraq. Bizim torpağımız işğal altındadır, bir milyon qaçqın-köçkün var. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, bizim ərazi bütövlüyümüz pozulubdur. Bununla yanaşı, erməni terror təşkilatları Azərbaycanda 30-dan çox terror aktı həyata keçiribdir. Uzun illər ərzində biz informasiya blokadasında yaşayırdıq və ermənilərin güclü lobbisi bu münaqişə ilə bağlı mənzərəni dünyada təhrif olunmuş şəkildə təqdim edirdi. Amma indi vəziyyət dəyişibdir. İndi Avropada, dünyada artıq bu münaqişənin mahiyyəti hamıya aydındır. Avropa Şurası Ermənistanı işğalçı dövlət kimi tanıyıb və əlbəttə ki, çox mühümdür ki, Avropanın, dünyanın tanınmış alimləri bu məsələyə dair öz fikirlərini ortaya qoyublar. Bu tarixi obyektiv şəkildə təhlil etdiyinizə görə mən sizə çox minnətdaram.

Professor Erix Fayql dedi ki, nəzərdən keçirdikdə ermənilər Azərbaycanı təbliğat mühasirəsinə almışlar və bu mühasirə heç də Ermənistandan gəlməyib, çünki o, kiçik, əhəmiyyətsiz bir ölkədir. Bu, erməni diasporu tərəfindən gəlibdir. Mənim Sizdən xahişim ondan ibarətdir ki, Azərbaycan diasporu gücləndirilməlidir. Ermənilərin dünyanın hər bir yerində milli kilsələri vardır. Azərbaycan dünyəvi ölkədir və bu o deməkdir ki, bizə dünyanın hər yerində mədəniyyət institutları yaratmaq lazımdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN MİSSİYASI İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 6-da xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT\DTİHB) ölkəmizdə səfərdə olan ehtiyacları dəyərləndirmə missiyasının üzvləri ilə görüşmüşdür.

Cerald Mitçelin rəhbərlik etdiyi missiyanın üzvlərini salamlayan nazir Elmar Məmmədyarov, ölkəmizin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və demokratik təsisatların inkişafı üzrə digər beynəlxalq təşkilat və institutlarla əməkdaşlığa böyük əhəmiyyət verdiyini diqqətə çatdırmışdır.

Qonaqlar Azərbaycana səfərlərindən məmnunluq hissi duyduqlarını bildirərək, 2005-ci ilin noyabrında keçiriləcək parlament seçkiləri ilə bağlı seçkiləri müşahidə missiyasının yaradılmasına dair planları barədə məlumat vermişlər. Cerald Mitçel demişdir ki, uzunmüddətli müşahidəyə hazırlaşmaq üçün ATƏT\DTİHB-in nümayəndə heyəti seçkilərdən bir müddət əvvəl Azərbaycana gəlmək niyyətindədir. O, seçkiləri müşahidə missiyasının yerlərdə aparacağı işin mahiyyəti və məzmunu barədə məlumat verərək, Azərbaycanın seçki orqanları ilə dialoqun vacibliyini vurğulamışdır.

Müstəqillik əldə etdikdən sonra ölkəmizin iqtisadi, siyasi, sosial sahələrdə qazandığı nailiyyətləri diqqətə çatdıran nazir, qarşıdakı parlament seçkilərinin azad və ədalətli keçirilməsində Azərbaycan rəhbərliyinin maraqlı olduğunu bildirmişdir.

Seçki praktikasının təkmilləşdirilməsinə dair Azərbaycan Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamının seçkiqabağı prosesdə və seçkilər zamanı əhəmiyyətindən danışan E.Məmmədyarov, növbəti parlament seçkilərinin demokratiya və şəffaflıq prinsipləri əsasında keçəcəyinə əmin olduğunu söyləmişdir.

Görüş parlament seçkilərinə dair digər məsələlər ətrafında müzakirələrlə başa çatmışdır.

"ÜÇ DƏNİZ KONSEPSİYASI - XƏZƏR, QARA VƏ ARALIQ DƏNİZLƏRİ" MÖVZUSUNDA 1-Cİ NATO MƏKTƏBİ ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

İyunun 6-da "Delfin" mehmanxanasında Azərbaycan Gənclərinin Avratlantika Təşkilatının (AGAAT) və Gənc Avropalı Federalistlər (JEF) beynəlxalq təşkilatının Azərbaycan təşəbbüs qrupunun təşkilatçılığı ilə "Üç dəniz konsepsiyası - Xəzər, Qara və Aralıq dənizləri" mövzusunda 1-ci NATO Beynəlxalq Məktəbi öz işinə başlamışdır.

NATO-nun ictimai diplomatiya şöbəsinin maliyyələşdirdiyi, alyansın üzv və tərəfdaş ölkələrindən 17 və Azərbaycandan 20 gəncin iştirak etdiyi yay məktəbi bir həftə davam edəcəkdir. Bu müddətdə iştirakçılar Avratlantika əhəmiyyətli məsələlərlə məşğul olan akademik və siyasi dairələrlə görüşəcəklər. Bundan əlavə, "NATO yeni təhlükəsizlik mühitində", "Üç dəniz ətrafında təhlükəsizlik və əməkdaşlıq", "Cənubi Qafqazda əməkdaşlığın perspektivləri", "NATO-nun Qara dənizdə rolu" və s. mövzularda məruzələr dinləniləcəkdir. Proqrama sosial tədbirlər də daxildir.

Açılış mərasimində iştirak edən xarici işlər nazirinin müavini Araz Əzimov tədbiri region ölkələrinin, o cümlədən Azərbaycanın NATO-ya inteqrasiyası baxımından əhəmiy-

yətli olduğunu söyləmiş, ölkəmizdə Avratlantika strukturlarına yaxınlaşma istiqamətində həyata keçirilən tədbirləri qeyd etmişdir. O, region ölkələrinin Avratlantika strukturlarına inteqrasiyası baxımından son zamanlar fəallaşan GUAM-ın və Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin xüsusi əhəmiyyətini diqqətə çatdırmışdır.

Tədbirdə NATO ictimai diplomatiya şöbəsinin informasiya ofisinin Azərbaycan üzrə əməkdaşı Yeter Yaman, alyansın Cənubi Qafqaz ölkələri üzrə əlaqələndirici zabiti Romualds Razusk, ABŞ, Almaniya, İtaliya və Yunanıstanın ölkəmizdəki səfirləri, region ölkələrinin Bakıdakı səfirliklərinin nümayəndələri iştirak edirdilər.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası və Misir Ərəb Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsələhətləşmələr haqqında Anlaşma Memorandumu çərçivəsində siyasi dialoqun davam etdirilməsi məqsədi ilə iyunun 5-7-də Misirdə işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində Azərbaycan və Misir xarici işlər nazirlərinin müavinləri səviyyəsində ikitərəfli münasibətlərə, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair məsləhətləşmələr aparılmışdır.

Azərbaycan nümayəndə heyəti Misir Ərəb Respublikasının xarici işlər naziri Əhməd Əbul Əl Qeyt, Misir prezidentinin xarici siyasət üzrə müşaviri Usamə Əl Baz, Ərəb Dövlətləri Liqasının baş katibi Əmr Musa və Misirin xarici əməkdaşlıq naziri, iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Misir müştərək komissiyasının həmsədri xanım Faizə Əbu Əl-Nəcə ilə görüşlər keçirmişdir.

Görüşlərdə regional və beynəlxalq problemlərə, o cümlədən Ermənistanın Azərbaycana hərbi təcavüzü məsələsinə xüsusi diqqət yetirilmişdir. Misir tərəfi Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin ali rəhbərliyinin səylərini bundan sonra da müdafiə edəcəyini vurğulamış və respublikamızla beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığın və qarşılıqlı fəaliyyətin davam etdirilməsi əzmində olduğunu diqqətə çatdırmışdır. Tərəflər Yaxın Şərq və Cənubi Qafqaz regionunda mühüm əhəmiyyətə malik layihələr barədə fikir mübadiləsi aparmışlar.

Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının xüsusi əhəmiyyəti nəzərə çarpdırılmış, bu sahədə qarşılıqlı səylərin artırılmasının vacibliyi qeyd edilmişdir.

Görüşlərdə ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, mədəniyyət, təhsil, humanitar və texniki sahələr üzrə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdir. İqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Misir müştərək komissiyasının cari ilin sentyabrında keçirilməsi nəzərdə tutulan növbəti iclasında əməkdaşlığın konkret sahələri ilə bağlı geniş fikir mübadiləsinin aparılmasının və müvafiq təkliflərin həyata keçirilməsi üçün hazırlıq işlərinin görülməsinin vacibliyi qeyd edilmişdir. Bildirilmişdir ki, iş adamlarının və özəl şirkətlərin əlaqələrinin genişləndirilməsi hər iki ölkənin iqtisadi inkişafına sanballı töhfə verə bilər.

Görüşlərdə tərəflər ölkələrimiz arasında əməkdaşlıq sahələri üzrə hüquq-müqavilə bazasının möhkəmləndirilməsinə dair razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ, BRİTANİYA PARLAMENTİNİN LORDLAR PALATASININ ÜZVÜ, SABİQ ENERJİ NAZİRİ LORD FREYZERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında İngiltərə-Azərbaycan Cəmiyyətinin sədri, Böyük Britaniya parlamentinin Lordlar palatasının üzvü, sabiq enerji naziri lord Freyzeri qəbul etmişdir.

Lord Freyzer Prezident İlham Əliyevin Böyük Britaniyaya səfəri zamanı görüşünü məmnunluqla xatırlatdı və dövlətimizin başçısı ilə yenidən görüşməyindən şərəf duyduğunu bildirdi.

Rəhbərlik etdiyi Cəmiyyətin son illər fəaliyyətinin genişləndiyini nəzərə çarpdıran qonaq Azərbaycanda gördükləri xeyriyyə işləri barədə Prezident İlham Əliyevə məlumat verdi. O, əmin olduğunu bildirdi ki, Cəmiyyətin Azərbaycan ilə əməkdaşlığı bundan sonra da genişlənəcəkdir.

Dövlətimizin başçısı İlham Əliyev Böyük Britaniyaya səfərini, oradakı görüşlərini, o cümlədən Baş nazir Toni Bleyerlə keçirdiyi görüşləri, apardığı danışıqları məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Bakıda keçirilən "Xəzər neft, qaz, neftayırma və neft kimyası-2005" XII beynəlxalq sərgisinin açılışı ilə əlaqədar Böyük Britaniyanın Baş naziri Toni Bleyerin ona məktub göndərməsini məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı İngiltərə-Azərbaycan Cəmiyyətinin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi, xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə verdiyi töhfəni yüksək qiymətləndirdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Böyük Britaniya arasındakı əlaqələr bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN NEFT SƏNAYESİ VƏ QAZ NAZİRİ MANİ ŞANKAR AYYARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uyunun 9-da Prezident sarayında Hindistanın neft sənayesi və qaz naziri Mani Şankar Ayyarı qəbul etmişdir.

Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən məmnun qaldığını bildirən qonaq Hindistanın Baş naziri Manmohan Sinqhin salamlarını dövlətimizin başçısına çatdırdı.

O, Bakıda keçirilən "Xəzər neft, qaz, neftayırma və neft kimyası-2005" XII Beynəlxalq sərgi və konfransında iştirak etməsini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev Hindistan nazirinin başçılıq etdiyi nümayəndə heyətini ölkəmizə səfərindən və beynəlxalq sərgi və konfransda iştirakından məmnun qaldığını bildirdi. Dövlətimizin başçısı onun salamlarını Hindistanın Baş naziri Manmohan Sinqhə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA SENATININ XARİCİ ƏLAQƏLƏR VƏ MİQRASİYA MƏSƏLƏLƏRİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ, SENATIN AŞPA-DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVÜ FİORELLO PROVERANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Prezident sarayında İtaliya Senatının xarici əlaqələr və miqrasiya məsələləri daimi komitəsinin sədri, Senatın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü Fiorello Proveranı qəbul etmişdir.

Dövlətimizin başçısı cənab Fiorello Provera ilə yenidən görüşməyindən şad olduğunu bildirdi, mayın 25-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə İtaliyanın Baş naziri cənab Berluskoninin təbrik məktubu göndərməsini məmnunluqla vurğuladı.

İtaliyaya səfərini razılıqla xatırlayan dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan və İtaliya nümayəndə heyətləri arasında yaxşı əməkdaşlıq edildiyini nəzərə çarpdırdı.

Azərbaycan Prezidenti ilə görüşdən şərəf duyduğunu söyləyən qonaq ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişlənməsi üçün böyük perspektivlər olduğunu vurğuladı. O, Avropa Şurası Parlament Assambleyasında bundan sonra da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini dəstəkləyəcəklərini bildirdi. Qonaq Azərbaycan xalqının bu münaqişədən böyük əziyyət çəkdiyini söylədi.

Dövlətimizin başçısı İlham Əliyev cənab Fiorello Proveranın bu mövqeyini yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiyaya rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Xorvatiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar. Dövlətimizin başçısına və xanımına gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış dövlət iqamətgahına gəldi.

XORVATİYA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyunun 10-da Xorvatiya Prezidentinin sarayında Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Dövlətimizin başçısının şərəfinə sarayın qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Xorvatiya Prezidenti Stipe Mesiç və xanımı Azərbaycan Prezidenti İlham Əliyevi və xanımını avtomobilin yanında böyük hörmət və ehtiramla qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səsləndi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Xorvatiya əsgərlərini salamladı.

Xorvatiyanın rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Stipe Mesiçə təqdim olundu.

Dövlət başçıları prezident sarayının salonunda xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 10-da Xorvatiya dövləti başçısının sarayında Prezident İlham Əliyevin və Prezident Stipe Mesiçin təkbətək görüşü olmuşdur.

Dostluq və səmimilik şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimizdə ictimai-siyasi, sosial-iqtisadi inkişaf, regional və ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.

Prezidentlər yeni qlobal çağırışlara və təhlükələrə qarşı birgə fəaliyyətdə və səylərin birləşdirilməsində, habelə müxtəlif regional təşəbbüslər çərçivəsində əməkdaşlıqda, iqtisadi-ticarət münasibətlərinin keyfiyyətcə yeni səviyyəsinə nail olunması və bu sahədə beynəlxalq standartlara uyğun faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirdilər. Sərmayələrin qarşılıqlı təşviqinin, kooperasiyanın müxtəlif formalarının və işgüzar sahədə birbaşa təmasların genişləndirilməsinin vacibliyi də vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi edildi.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyunun 10-da, təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin geniş tərkibdə görüşü olmuşdur.

Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində Avropa Birliyinin və Avropa Şurasının səylərinin fəallaşmasını alqışladılar, bunun problemin aradan qaldırılmasına müsbət təsir göstərəcəyinə ümidvar olduqlarını vurğuladılar.

Tərəflər özlərinin üçüncü ölkələrdəki diplomatik nümayəndəlikləri arasında əməkdaşlığın təşviq edilməsi barədə razılığa gəldilər.

Dövlət başçıları Avratlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı və Azərbaycanın təqdim etdiyi "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" çərçivəsində regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində hər iki ölkənin mühüm rol oynayacağını vurğuladılar.

Beynəlxalq terrorizmin yaratdığı təhlükəni xatırladan prezidentlər BMT ilə hərtərəfli əməkdaşlıq şəraitində bu bəlanın aradan qaldırılmasında qlobal səylər göstərilməsinə tərəfdar olduqlarını bildirdilər.

Azərbaycanın Avropanın yeni qonşuluq siyasətinə qoşulmasının regionda sülhün və əmin-amanlığın bərpasına töhfə verəcəyi fikri ilə razılaşan Xorvatiya tərəfi, eyni zamanda bunun ölkəmizin və regionun digər dövlətlərinin Avropaya inteqrasiyasına müsbət təsir göstərəcəyini də vurğuladı. Xorvatiya tərəfi Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmaq niyyətini dəstəklədiyini və ölkəmizin bu sahədə göstərdiyi səyləri alqışladığını bildirdi.

Azərbaycan tərəfi ölkəmizdə aparılan iqtisadi islahatların nəticələri, o cümlədən sürətli inkişaf meyilləri, yoxsulluğun azaldılması proqramının həyata keçirilməsi, Avropa Birliyi ilə əlaqələrin dərinləşməsi haqqında məlumat verdi. TRASECA, INOQEYT proqramlarının, Qars-Tbilisi-Bakı dəmir yolu layihəsinin həyata keçirilməsi üçün əməkdaşlığın əhəmiyyəti də qeyd edildi. Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin *işə salınmasının* beynəlxalq əhəmiyyəti xüsusi vurğulandı.

Dövlət başçıları kiçik və orta müəssisələrin fəaliyyətinin dəstəklənməsinin vacibliyini nəzərə alaraq, hər iki ölkənin dövlət və özəl müəssisələri, mülkiyyət növündən asılı olmayaraq, maliyyə-bank idarələri arasında əməkdaşlıq və kooperasiyaya əlverişli şərait yaradılmasına ehtiyac olduğunu bildirdilər.

İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin iştirakı ilə ikitərəfli sənədlərin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında mədəni əməkdaşlıq haqqında sazişi ölkəmizin xarici işlər naziri Elmar Məmmədyarov və Xorvatiyanın mədəniyyət naziri Bojo Bişkupiç imzaladılar. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Xorvatiya Respublikasının Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyi arasında əməkdaşlıq haqqında protokolu Elmar Məmmədyarov və onun xorvatiyalı həmkarı xanım Kolinda Qrabar-Kitaroviç imzaladılar. Sonuncu sənədi - Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq memorandumunu "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Xorvatiyanın dəniz, turizm, nəqliyyat və inkişaf naziri Bojidar Kalmeta imzaladılar.

AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Sənədlərin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xorvatiya Respublikasına *ilk rəsmi səfərə gəlmişdir*. Biz onunla və nümayəndə heyəti ilə həm Azərbaycan, həm də Xorvatiya üçün vacib sayılan məsələlər ətrafında fikir mübadiləsi apardıq.

Biz bütün sahələrdə, xüsusən də iqtisadi sahədə qarşılıqlı əməkdaşlığı daha da intensivləşdirmək və möhkəmləndirmək arzumuzu ifadə etdik. Eyni zamanda bildirdik ki, ikitərəfli əməkdaşlığımızın genişləndirilməsi və gücləndirilməsi məqsədi ilə hüquqi baza yaradılmalıdır və bu gün həmin istiqamətdə ilkin addımlar atılmışdır. Tərəflər həm ölkələrimiz arasında mövcud olan münasibətləri, həm də regionlarımızdakı vəziyyəti müzakirə etmişdir. Biz terrorizmin hazırda bütün dünya ictimaiyyəti üçün təhlükə doğuran ən böyük bəlalardan biri olmasını qeyd etdik. Terrorizm probleminin aradan qaldırılması məqsədi ilə ayrı-ayrı terrorçular və ya terrorçu qruplara qarşı mübarizə aparmaq, onların sadəcə, maliyyə mənbələrini kəsmək kifayət deyildir. Eyni zamanda, siyasi məsələləri də həll etmək lazımdır. Xüsusən də qaynar nöqtələrdə olan problemlərin, yoxsulluq probleminin həllinə çalışmaq lazımdır. Tamamilə aydındır ki, həll olunmamış siyasi məsələlər terrorçu fəaliyyətə bəraət qazandırmır. Əksinə, siyasi problemlərin aradan qaldırılması terrorizmə son qoymağa imkan yaradar.

Mənim həmkarım, Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, ölkəsinin böyük potensialı var və bu potensial gələcəkdə ikitərəfli münasibətlərin inkişafı məqsədi ilə istifadə olunmalıdır. Xəzər dənizindən hasil olunacaq Azərbaycan neftinin böyük bir hissəsi bu yaxınlarda istismara verilmiş yeni neft boru kəməri vasitəsilə dünya bazarlarına çatdırılacaqdır. Beləliklə, bu layihə Azərbaycanın büdcəsinə milyardlarla dollar gətirəcək və Azərbaycan hökuməti ən mühüm məsələləri həll etməyə qadir olacaqdır. Bu fürsət həmçinin bizim şirkətlər üçün Azərbaycanda fəaliyyət göstərmək imkanları yaradacaqdır. Xorvatiya isə, öz növbəsində, Azərbaycanda istehsal olunan məhsullar üçün bazarlarını açıq elan edəcəkdir. Biz eyni zamanda, turizm sahəsində əməkdaşlıq imkanlarını və vətəndaşlarımızın bir-birini daha yaxından tanıması məsələsini müzakirə etdik.

Azərbaycan Respublikasının Prezidenti məni Xorvatiyanın iş adamları ilə birgə Azərbaycana rəsmi səfərə dəvət etdi. Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, ölkənizə məni dəvət etdiyinə görə Xorvatiya Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Burada olmağımdan çox şadam. Biz bu səfəri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafı istiqamətində atılmış çox vacib bir addım kimi qəbul edirik.

Cənab Prezidentin dediyi kimi, biz ikitərəfli münasibətlərə, regiondakı, dünyadakı vəziyyətə aid məsələləri müzakirə etdik. Sizə deyə bilərəm ki, biz müzakirə etdiyimiz bütün məsələlərdə konsensusa nail olduq və onların həlli ilə bağlı ümumi mövqedə olduğumuzu bir daha hiss etdik.

Ölkələrimiz arasında oxşarlıqlar çoxdur. Hər iki ölkə - Xorvatiya və Azərbaycan uzun illər ərzində müstəqillikdən məhrum olmuşlar və digər ölkələrin bir hissəsi idilər. Ölkələrimiz digər ölkələrin hərbi təcavüzünə məruz qalmışlar. Əgər biz bu gün sülhün Balkanlarda bərpa olunduğunu görürüksə, Cənubi Qafqaz regionunda bu, hələ ki, belə deyildir. Digər sözlə desək, biz ölkələrimizin üzləşdiyi problemləri yaxşı anlayırıq və problemlərimizi və Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi ilə bağlı mövqeyimizi anladığına görə mən cənab Prezidentə çox minnətdaram. Mən ümid edirəm ki, Balkanlarda olduğu kimi, bizim regionda da ədalət bərpa olunacaq və bir milyon Azərbaycanlı qaçqın öz yurd-yuvasına qayıdacaqdır.

Biz həm də iqtisadi əməkdaşlığa dair məsələləri müzakirə etdik və deyə bilərəm ki, nümayəndə heyətimizdə iş adamları da var. Onlar xorvatiyalı həmkarları ilə birgə biznes layihələrinin həyata keçirilməsi ilə bağlı lazımi danışıqlar apara bilərlər. Bizim enerji sektorunda, turizm, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq etmək üçün çox yaxşı potensialımız var. Əminəm ki, ölkələrimiz arasında bu gün qurulan tərəfdaşlıq xalqlarımızın rifahı naminə davam edəcək və Avropa ailəsinə inteqrasiya olunmaqda bizə yardımçı olacaqdır.

Cənab Prezident bildirdiyi kimi, mən onu və onun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdim və ümidvaram ki, biz bu səfərə qədər siyasi və iqtisadi sahədə istədiyimiz nailiyyətləri əldə edəcəyik.

Çox sağ olun!

Sonra prezidentlər İlham Əliyev və Stipe Mesiç jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim birinci sualım Xorvatiya Prezidentinədir. Bir neçə il bundan əvvəl Sizin ölkə hərbi yolla və güclü beynəlxalq dəstəklə ərazi bütövlüyünü bərpa edə bildi. Siz buna neçə nail oldunuz? İkinci sualım hər iki prezidentədir. Səfirlikləri nə vaxt açmağı planlaşdırırsınız?

STİPE MESİÇ: Bildiyiniz kimi, keçmiş Yuqoslaviyada baş vermiş müharibənin əsas səbəbi torpaq iddiaları ilə bağlı idi. Əsas problem ondan ibarət idi ki, Yuqoslaviyanın ən böyük respublikası sayılan Serbiya öz ərazilərini Xorvatiya, Bosniya və Hersoqovinanın

hesabına genişləndirməyi planlaşdırırdı. Müharibənin başlanmasına bəhanə isə Xorvatiyada, Bosniya və Hersoqovinada yaşayan serblərin hüquqlarının guya Serbiya tərəfindən qorunması olmuşdur. Aydın məsələdir ki, bu, reallıqdan tamamilə uzaq olan bir mövqe idi. Beləliklə, Yuqoslaviyanın parçalanması ilə Serbiya öz sərhədlərini genişləndirmək istəyinə düşdü. Burada baş vermiş bütün müharibələr artıq qurtarıbdır. Lakin düzünü desək, Xorvatiyada da müəyyən dairələr hesab edirdilər ki, Serbiya Bosniya və Hersoqovinanın parçalanmasına nail olacaq və beləliklə, Xorvatiyanın milli sərhədləri genişlənəcəkdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatlara son qoyuldu və respublikalar arasındakı sərhədlər zərrə qədər də dəyişmədi. Siz düzgün qeyd etdiniz ki, Xorvatiya ərazisinin bir hissəsi işğal olunmuşdu və onun əsas hissəsi hərbi yolla azad edilmişdir. Qalan ərazilər isə dinc reinteqrasiya yolu ilə qaytarıldı. Biz etnik azlıqların hüquqlarını qoruyan qanun qəbul etdik. Bu qanunun müddəaları ən yüksək Avropa standartlarına cavab verir. Qaçqınların qayıtması prosesi artıq başlanıbdır. Biz həmin prosesi daha da möhkəmləndirmək və intensivləşdirmək istəyirik, çünki bu, bizim dövlət və milli marağımıza uyğundur. Etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımızın Xorvatiyaya qayıtmasını istəyirik. Xorvatiya dövləti onların yaşayış yerlərini bərpa etməlidir. Hazırda biz vaxtilə hərbi əməliyyatlar aparılmış zonalarda iqtisadi həyatın canlandırılması üçün böyük səylər göstəririk. Sülh yalnız o vaxt bərqərar ola bilər ki, hökumət təsisatları lazımınca işləsin. Biz indi Xorvatiyada məhz bu işləri görürük. Hamı üçün bərabər hüquqlar təmin olunur. Biz islahatları həyata keçiririk. Polis və hərbi qüvvələrin islahatına nail olmuşuq. İndi apardığımız islahatlar hökumət idarəçiliyi və məhkəmə sisteminə aiddir. Ən vacib meyar isə odur ki, hamı qanun qarşısında bərabərdir. Yalnız qanunun aliliyi bütün vətəndaşların bərabər səviyyədə olmasını təmin edir. Eyni zamanda, çox vacib olan başqa amil də var. Konkret olaraq cinayət törədən insanlar qanun qarşısında cavab verməlidirlər. Bu yolla insanlar arasında ədavətin son qoyulmasına nail olmaq olar. Çünki konkret insanlar tərəfindən törədilmiş cinayətlərə görə xalqlar cavab verməməlidir.

O ki qaldı, Sizin ikinci sualınıza, Prezident Əliyevlə bu məsələni müzakirə etdik və belə razılığa gəldik ki, əvvəlcə biz ölkələrimizdə fəxri konsulluqlar açmalıyıq. Sonrakı mərhələdə isə, qarşılıqlı əməkdaşlıq sahəsində irəliləyiş əldə edilməklə, fəxri konsulluq səviyyəsində olan nümayəndəliklərimiz səfirlik səviyyəsinə qaldırılacaqdır. Prezident mənə gələcəkdə neftdən alınacaq gəlirlərin və onun daşınmasından əldə olunacaq vəsaitlərin səviyyəsi haqqında məlumat verdikdən sonra bir daha gördüm ki, Azərbaycanın bu sahədəki çəkisi çox artacaqdır. Beləliklə, qarşılıqlı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün əlavə imkanlar açılacaqdır. Ölkəniz yeni Norveç olacaqdır.

İLHAM ƏLİYEV :Mən də səfirlik məsələsinə toxunmaq istərdim. Biz bu məsələni cənab Prezidentlə müzakirə etdik. Mənim regiona səfərimin ilk növbədə məhz Xorvatiyaya edilməsi ikitərəfli münasibətlərimizə verdiyimiz böyük əhəmiyyəti bir daha sübut edir. Əlbəttə ki, biz bu yaxınlarda daimi nümayəndəliklərin açılmasını nəzərdən keçirəcəyik. Mən eyni zamanda, cənab Prezidentin verdiyi cavabla bağlı öz mülahizələrimi bildirmək istərdim. Bir daha demək istəyirəm ki, ölkələrimiz arasında çoxlu oxşarlıqlar var. Azərbaycan da xarici təcavüzdən əziyyət çəkmiş, Ermənistanın təcavüzünün qurbanı olmuşdur. Bunun üçün də bəhanə Azərbaycanda yaşayan ermənilərin "qorunması"

məsələsi olmuşdur. Lakin Dağlıq Qarabağdakı ermənilərı qorumağa ehtiyac yox idi, çünki ermənilər bizim ölkədə yüz əlli ildən çox yaşamışdılar və heç vaxt problemləri olmamışdır. Əsil səbəb isə Azərbaycanın ərazisini işğal etmək olmuşdur və ermənilər xarici yardım hesabına buna nail ola bildilər. Biz Dağlıq Qarabağda yaşayan ermənilər üçün dünyada mövcud olan ən yüksək muxtariyyət statusunun və təhlükəsizlik zəmanətinin verilməsinə hazırıq. Bu, bizim edə biləcəyimiz maksimum güzəştdir. Biz əminik ki, burada, Xorvatiyada olduğu kimi, Azərbaycanda da ədalət bərpa ediləcək və torpaqlarımız işğaldan azad olunacaqdır.

SUAL: Azərbaycanın böyük gələcəyini nəzərə alaraq, Siz Xorvatiyanın təcrübəsini Azərbaycanın Avropaya inteqrasiya yolunda nümunə kimi qəbul edirsinizmi?

İLHAM ƏLİYEV: Biz münasibətlərimizin inkişafını bir neçə istiqamətdə görürük. İlk növbədə, ikitərəfli münasibətlərimizi nəzərdə tuturuq və onların hazırda sürətlə möhkəmlənməsindən məmnunuq. Biz eyni zamanda, bu gün cənab Prezidentlə ölkənizin Avropaya inteqrasiya prosesini çox böyük maraqla və diqqətlə izlədiyimizi müzakirə etdik. Əldə etliyiniz uğurlar bizi sevindirir. Biz bu təcrübəni nəzərdən keçirdik və ümid edirik ki, Xorvatiya Avropa Birliyinin daimi üzvü olduqdan sonra sizin ölkə Azərbaycanın Avropaya daha da yaxınlaşmasına yardım edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA PARLAMENTİNİN SƏDRİ VLADİMİR ŞEKS İLƏ GÖRÜŞÜ

İyunun 10-da Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya parlamentinin - Saborun binasına gəldi.

Saborun sədri Vladimir Şeks və parlamentin digər rəhbərləri Prezident İlham Əliyevi böyük hörmətlə qarşıladılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Xorvatiya Saborunun sədri Vladimir Şeks arasında görüş oldu. Cənab Şeks Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərini, xüsusilə parlamentə gəlməsini çox əlamətdar hadisə kimi qiymətləndirdi. O, ölkə parlamentinin fəaliyyəti haqqında məlumat verərək bildirdi ki, çoxpartiyalılıq əsasında ilk demokratik seçkilər 1990-cı ilin yazında keçirilmiş, 1991-ci il iyunun 25-də isə parlament Xorvatiyanın müstəqilliyi və suverenliyi haqqında Bəyannamə qəbul etmişdir. Xorvatiya parlamentinin sədri Azərbaycan Milli Məclisi ilə əməkdaşlığın yaxşı perspektivləri olduğunu da vurğuladı.

Xorvatiyaya rəsmi səfərini və Prezident Stipe Mesiç ilə görüşlərin nəticələrini yüksək qiymətləndirən Prezident İlham Əliyev ikitərəfli əlaqələrin inkişafında parlamentlərin mühüm rol oynadığını bildirdi. Dövlətimizin başçısı Azərbaycan Milli Məclisində Xorvatiya parlamenti ilə dostluq qrupunun fəaliyyət göstərdiyini də xatırlatdı və əmin olduğunu bildirdi ki, ölkələrimizin qanunvericilik orqanları arasında əməkdaşlıq daha da güclənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA HÖKUMƏTİNİN SƏDRİ İVO SANADER İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiya Respublikası hökumətinin binasına gəldi.

Xorvatiya hökumətinin sədri İvo Sanader Prezident İlham Əliyevi binanın önündə böyük hörmətlə və səmimiyyətlə qarşıladı.

Sonra Azərbaycan Prezidenti ilə Xorvatiya hökumətinin sədri arasında görüş oldu. Cənab İvo Sanader Prezident İlham Əliyevin rəsmi səfərindən və onu hökumətin binasında salamlamaqdan məmnunluğunu söylədi. O dedi ki, Azərbaycan Prezidentinin səfəri və Xorvatiya Prezidenti ilə keçirdiyi görüşlər ölkələrimizin ikitərəfli əlaqələrinin inkişafında yeni mərhələ olacaqdır. Xorvatiya hökumətinin sədri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək dedi ki, onun tam işə düşməsi Azərbaycanın iqtisadi qüdrətinin daha da güclənməsinə kömək edəcəkdir.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük potensial olduğunu vurğulayan Prezident İlham Əliyev bildirdi ki, enerji, turizm, ekologiya, kənd təsərrüfatı sahəsində əlaqələri inkişaf etdirmək üçün bu gün Zaqrebdə Azərbaycan və Xorvatiyanın dövlət qurumları, özəl şirkətləri, bank-maliyyə idarələri nümayəndələrinin iştirakı ilə biznes forum keçirilmişdir. Biznes forumda iş adamları arasında ikitərəfli qaydada müqavilələr də imzalanmışdır. Dövlətimizin başçısı vurğuladı ki, gələcəkdə əlaqələrin inkişaf etdirilməsi zəruridir və bu, ölkələrimizin, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

İyunun 10-da Xorvatiya dövləti başçısının sarayında Xorvatiya Respublikasının Prezidenti Stipe Mesiçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Xorvatiya Prezidenti Stipe Mesiçi və xanımı Milka Mesiçi hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Xanım Milka Mesiç!

Xanımlar və cənablar!

Əziz dostlar!

Hörmətli cənab Prezident, məni Xorvatiya Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə, Sizə ürəkdən təşəkkür edir, Xorvatiya torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Xorvatiya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərəm ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Şübhə etmirəm ki, səfər zamanı keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələr müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı və genişlənməsi üçün güclü potensial vardır. Bu potensialı reallaşdırmaq üçün siyasi, iqtisadi, turizm və digər sahələrdə əlavə səylərin göstərilməsini məqsədəuyğun hesab edirəm.

Məmnunluqla demək istəyirəm ki, Xorvatiya Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa dövlətlərindən biridir. Bizim siyasətimizdə Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası önəmli yer tutur. Biz Avropa ilə əməkdaşlığa böyük əhəmiyyət verir, Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsi və təkmilləşdirilməsinə xüsusi diqqət yetiririk.

Azərbaycan Avropa Şurasının üzvüdür. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Azərbaycan "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir. Avropa İttifaqı Azərbaycanı "Genişlənmiş Avropa və qonşuları" təşəbbüsünə daxil etmişdir.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. İndi Azərbaycan transmilli, qlobal enerji-kommunikasiya layihələrinin mərkəzidir.

Eyni zamanda Azərbaycanda siyasi, sosial-iqtisadi, hüquqi islahatlar həyata keçirilmiş, vətəndaş cəmiyyətinin qurulması istiqamətində ciddi addımlar atılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

2004-cü ildə iqtisadiyyatda artım 10 faizdən artıq olmuşdur. 2005-ci ilin beş ayı ərzində sənaye istehsalı 16 faiz, ümumi daxili məhsul 15 faiz artmışdır. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur.

Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün səylərini əsirgəmir, regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişə ilə bağlı BMT-nin 4 qətnaməsi, ATƏT-in və Avropa Şurasının qərarları icra olunmamış qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq normaları çərçivəsində həll oluna bilər və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Hörmətli cənab Prezident,

Xorvatiya Respublikasına rəsmi səfərimə böyük əhəmiyyət verdiyimi bir daha qeyd etmək istərdim. Çox məmnunam ki, səfər zamanı olduqca səmərəli görüşlər keçirildi, danışıqlar aparıldı, sənədlər imzalandı.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm və inanıram ki, səfəriniz ölkələrimiz arasında hərtərəfli münasibətlərin genişlənməsinə xidmət edəcək, ikitərəfli əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Bu badəni Azərbaycan və Xorvatiya arasında möhkəmlənən dostluq əlaqələrinin, xorvat xalqının, Xorvatiya Respublikasının Prezidenti Stipe Mesiçin və xanım Milka Mesiçin şərəfinə qaldırmaq istəyirəm.

Sağ olun.

ZAQREB ŞƏHƏRİNİN TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 11-də ölkənin paytaxtı Zaqrebin görməli yerlərini gəzmiş, tarix-mədəniyyət abidələri ilə tanış olmuşlar.

Prezident İlham Əliyevə məlumat verildi ki, tarixi mənbələrdə şəhərin adı ilk dəfə 1094-cü ildə yepiskopluğun mərkəzi kimi çəkilir. Şəhərin indiyədək qalan qala divarları 1226-cı ildə inşa edilmişdir.

Prezident İlham Əliyev "Daş qapı" adlanan yerə gəldi. 1760-cı ildə tikilmiş bu kompleksdə şəhər sakinləri "böyük yanğın" zamanı Zaqrebi xilas etmiş qadının xatirəsinə şamlar yandırırlar.

Sonra Azərbaycan Prezidenti və xanımı Zaqreb yepiskopluğunun əsaslı bərpa işləri aparılan binasına gəldilər. 1217-ci ildə tikilmiş bu kompleks 1242-ci ildə monqol-tatar qoşunları tərəfindən dağıdılmış, 1284-cü ildə isə qotika üslubunda yenidən bərpa edilmişdir. Binanın bir hissəsi 1880-ci ildə zəlzələ nəticəsində dağılsa da, 1902-ci ildə hazırkı görkəmində bərpa olunmuşdur. On bir hissədən ibarət kompleksdə orqan salonu olan kilsə, mehrab və onun arxasında apostolların, yepiskopların və qəhrəmanların şəkilləri vardır. Pəncərələrdəki rəngli mozaikalar 1847-ci ildə Münxendən gətirilmişdir.

Prezident İlham Əliyev və Mehriban xanım şəhərin qədim hissəsindəki digər abidələrə də tamaşa etdilər və mərkəzi meydanda Zaqreb sakinləri ilə birgə çay içdilər.

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CEYMSTAUN FONDUNUN PREZİDENTİ QLEN HOVARDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Ceymstaun Fondunun prezidenti Qlen Hovardın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Söhbət zamanı Azərbaycanla ABŞ-ın qeyri-hökumət təşkilatları, təsisatları ilə genişlənməkdə olan əməkdaşlığının müxtəlif cəhətləri barədə məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9-cu Beynəlxalq iqtisadi forumda iştirak etmək üçün iyunun 13-də Sankt-Peterburqa gəlmişdir.

Rusiyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Pulkovo hava limanında Prezident İlham Əliyevi Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko, ölkəmizin Rusiya Federasiyasındakı səfiri Ramiz Rizayev, Sankt-Peterburqdakı baş konsulu Qüdsi Osmanov və digər rəsmi şəxslər, Azərbaycan diasporunun nümayəndələri qarşıladılar. Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

İyunun 14-də Sankt-Peterburqun Tavriya sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Ölkələrimiz arasında istər iqtisadi, istərsə də siyasi sahədə əməkdaşlığın çox sanballı olduğunu vurğulayan Rusiya Prezidenti dedi ki, son illər bu əməkdaşlıq yüksələn xətlə inkişaf edir və zənnimcə, biz bu meyli gələcəkdə də saxlayacağıq. Münasibətlərimizin inkişaf meyli bunu göstərir.

Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin durmadan artdığını xatırladan Prezident Vladimir Putin bunun hər iki ölkənin xalqlarına fayda gətirəcəyinə əmin olduğunu söylədi.

Prezident Putin Rusiya-Azərbaycan münasibətlərinin inkişafına göstərdiyi böyük diqqətə, habelə 9-cu Peterburq iqtisadi forumunda iştirakına görə Prezident İlham Əliyevə təşəkkür etdi.

Peterburq iqtisadi forumunu çox faydalı tədbir kimi səciyyələndirən Azərbaycan Prezidenti İlham Əliyev forum çərçivəsində respublikamızın, iqtisadi münasibətlərimizin təqdimatını xüsusi vurğuladı.

Ölkələrimiz arasında münasibətlərin çox sıx olduğunu xatırladan Azərbaycan dövlətinin başçısı bunu qarşılıqlı etimad və qarşılıqlı hörmət əsasında qurulan mehriban qonşuluq münasibətlərinə yaxşı nümunə kimi qiymətləndirdi. Prezident İlham Əliyev dedi ki, biz çoxtərəfli əlaqələrimizin bundan sonra da inkişaf etməsinə çalışacağıq.

DÖVLƏTİMİZİN BAŞÇISI 9-CU PETERBURQ BEYNƏLXALQ İQTİSADİ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

İyunun 14-də Sankt-Peterburqun Tavriya sarayında 9-cu Peterburq Beynəlxalq iqtisadi forumunun açılışı olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Hər ilin iyununda MDB Parlamentlərarası Assambleyası və RF Federal Məclisi Federasiya Şurası tərəfindən Rusiya Prezidentinin himayəsi altında və PF hökumətinin köməyi ilə keçirilən bu forumda dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçıları, parlament rəhbərləri, beynəlxalq təşkilatların liderləri, iqtisadi və siyasi elitanın nümayəndələri daim fəal iştirak edirlər. Forum, haqlı olaraq, Rusiyanın və Müstəqil Dövlətlər Birliyinin əsas sammiti sayılır. "Səmərəli iqtisadiyyat - layiqli həyat" devizi ilə keçirilən builki forum həm də Avropa Yenidənqurma və İnkişaf Bankının, Rusiyanın İqtisadi İnkişaf və Ticarət Nazirliyinin dəstəyi ilə təşkil olunmuşdur.

64 ölkədən 2 min nümayəndənin iştirak etdiyi forumda struktur islahatları və iqtisadiyyatın innovasiya inkişafı, MDB dövlətlərinin dünya inteqrasiya proseslərində iştirakı, sosial və iqtisadi islahatlar aparılması ilə bağlı məsələlər, iqtisadiyyatın inkişafının sahə problemləri və digər aktual mövzular diqqət mərkəzində olacaqdır.

Forumu təşkilat komitəsinin sədri, RF Federal Məclisi Federasiya Şurasının sədri, MDB Parlamentlərarası Assambleyası Şurasının sədri Sergey Mironov açaraq dedi ki, bu il forumda çoxsaylı tədbirlər nəzərdə tutulmuşdur. Forum iştirakçıları Azərbaycan Respublikasının nailiyyətləri və layihələrinin perspektivləri ilə tanış olmaq üçün gözəl imkana malikdirlər. Hazırda Rusiyada Azərbaycan ili keçirilir. Bu yaxınlarda, may ayının axırlarında Rusiya Federasiyası Federal Məclisində Azərbaycan Respublikasının Milli Məclisi günləri olmuşdur.

Sonra açılışda Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko, Macarıstan Respublikası Dövlət Məclisinin sədri Katalin Sili, Rusiya Dövlət Dumasının sədri Avrasiya İqtisadi Birliyi Parlamentlərarası Assambleyasının sədri Boris Qrızlov, Çexiya Respublikası parlamenti senatının sədri Prşemısel Sobotka, Ukrayna Ali Radasının sədri Vladimir Litvin, Avropa yerli və regional hakimiyyətlər konqresinin sədri Covanni di Stazi, forumun təşkilat komitəsinin həmsədri, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer, Qazaxıstan Respublikası parlamenti senatının sədri Nurtay Abıkayev və başqaları çıxış etdilər.

Forumda BMT-nin baş katibi Kofi Annanın məktubu oxundu.

Forum iştirakçıları salona daxil olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putini və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi alqışlarla qarşıladılar.

Forumda hər iki dövlətin başçıları nitq söylədilər

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli forum iştirakçıları!

Əziz dostlar!

İlk növbədə, forumda iştirak etmək barədə dəvətə görə onun təşkilatçılarına təşəkkürümü bildirmək istərdim. Biz Azərbaycanın belə mötəbər beynəlxalq hadisədə iştirakına böyük əhəmiyyət veririk. Forum öz mövcudluğu illərində inteqrasiya əməkdaşlığının çox mühüm elementinə çevrilmişdir. Forumda bir çox ölkələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri iştirak edirlər, burada aparılan müzakirələr, fikir mübadiləsi, diskussiyalar bizdə böyük maraq doğurur. Bu forum bizim üçün bir də ona görə böyük əhəmiyyətə malikdir ki, onun çərçivəsində Azərbaycanın iqtisadi inkişafının, iqtisadi nailiyyətlərinin təqdimatı olacaq, bundan əlavə, nailiyyətlərimiz də bu gün açılan sərgidə nümayiş etdiriləcəkdir.

Azərbaycan öz iqtisadiyyatını, ümumən, dinamik inkişaf etdirir. 1996-cı ildən 2004-cü ilədək dövrdə iqtisadiyyatın orta artım səviyyəsi 10 faizdən çox olmuşdur. Beləliklə, həmin dövr ərzində ümumi daxili məhsul iki dəfə artmışdır. İndi biz yeni mərhələdə, çox fəal inkişaf mərhələsindəyik. Beynəlxalq Vayuta Fondunun məlumatına görə, cari ildə Azərbaycan iqtisadiyyatının artım sürəti 18 faiz olacaqdır ki, bu da dünya ölkələri arasında ən yüksək göstəricidir. Azərbaycanda çox yaxşı sərmayə mühiti, sərmayəçilər üçün maksimum əlverişli şərait, habelə milli mənafelərimizi tamamilə təmin etməyə imkan verən mexanizm yaradılmışdır. Belə sərmayə siyasəti isə ona gətirib çıxarmışdır ki, son 10 ildə Azərbaycan iqtisadiyyatına 24 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Bu, adambaşına götürdükdə, regionda ən yüksək göstəricilərdən biridir. İqtisadiyyatın inkişafının yüksək sürəti bizə sosial məsələləri də həll etməyə imkan verir. Əhalinin sosial müdafiəsi ilə bağlı məsələlərə də böyük diqqət yetirilir. 2005-ci ilin büdcəsində bu xərclərin, o cümlədən səhiyyə üçün xərclərin 44 faiz, təhsil xərclərinin 25 faiz artırılması nəzərdə tutulmuşdur. Ümumiyyətlə, büdcənin planlaşdırılan dəqiqləşdirmələrlə artımı təxminən 40 faiz olacaqdır.

Biz ölkəmizin regional inkişafına da böyük əhəmiyyət veririk. İstəyirik ki, ölkəmiz dinamik və hərtərəfli inkişaf etsin, o cümlədən də Azərbaycan regionları müsbət dəyişiklikləri hiss etsin. Bu məqsədlə ilyarım əvvəl regional inkişaf proqramı qəbul olunmuşdur. O, regionlarda müasir infrastrukturun inkişaf etdirilməsini nəzərdə tutur. Proqram həmçinin yoxsulluğun azaldılmasına və işsizliyin səviyyəsinin aşağı salınmasına yönəldilmişdir. Deməliyəm ki, bu dövr çox uğurlu olmuşdur: son ilyarımda Azərbaycanda 217 min yeni iş yeri yaradılmışdır, onların böyük əksəriyyəti qeyri-neft sektorunda və regionlardadır. Son ilyarımda yoxsulluğun səviyyəsi 9 faiz azaldılmışdır. Buna baxmayaraq, bu məsələ böyük narahatlıq doğurur. Biz qarşımıza məqsəd qoymuşuq ki, ölkəmizdə yoxsullar olmasın, vətəndaşların maddi rifah səviyyəsi ildən-ilə yüksəlsin. Bir sözlə, Azərbaycanın inteqrasiya proseslərində fəal iştirakı, iqtisadiyyatımızın açıqlığı, yaxşı sərmayə mühiti kifayət qədər qısa müddətdə iqtisadiyyatı bərpa etməyə, 1990-cı illərin əvvəlinin ağır nəticələrini aradan qaldırmağa və davamlı iqtisadi artıma nail olmağa imkan vermişdir. Ümid edirik ki, bu inkişaf sürəti gələcəkdə də saxlanılacaq və bu, bizə, ölkəmizə iqtisadi cəhətdən güclü dövlət olmağa imkan yaradacaqdır.

Regional əməkdaşlıq çərçivəsində Azərbaycanda iri beynəlxalq layihələr həyata keçirilir və biz xarici sərmayəçilərlə gələcəkdə də fəal əməkdaşlığa ümid bəsləyirik. Deməliyəm ki, Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr hazırda sürətli inkişaf dövrünü keçirir. 2004-cü ilin əvvəlində hər iki ölkənin prezidentləri əmtəə dövriyyəsinin iki dəfə artırılmasını qarşıya vəzifə qoymuşlar. İndi, aradan iki ildən az keçdiyi bir vaxtda məmnuniyyətlə qeyd etmək olar ki, biz bu vəzifəni, demək olar, yerinə yetirmişik. Əmtəə mübadiləsinin artım sürəti çox yüksəkdir, təxminən 50-60 faizdir. Ən başlıcası isə, ölkələrimizin potensialı daha böyük artıma nail olmağa imkan verir. Azərbaycanda Rusiya kapitalı ilə 400 şirkət işləyir və Rusiya şirkətləri ölkəmizdə sərmayə proseslərində fəal iştirak edirlər. Hesab edirik ki, iqtisadi əlaqələrin sürətlə inkişafı mənafelərimizə cavab verir, Rusiya ilə Azərbaycan arasında hərtərəfli münasibətlər üçün çox ciddi bünövrə qoyur. Biz bu münasibətlərin inkişaf səviyyəsindən razıyıq, indi onlar strateji tərəfdaşlıq səviyyəsinə çıxmışdır. Bu, həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə uyğundur. Ümidvaram ki, iqtisadi əlaqələrin, siyasi əlaqələrin, humanitar sahədə əlaqələrin daha da inkişaf tapması birgə layihələri daha sıx həyata keçirməyə və regional səviyyədə daha fəal əməkdaşlıq etməyə imkan verəcəkdir. Sirr deyil ki, Rusiyanın da, Azərbaycanın da iqtisadi potensialı ildən-ilə artır və bu, bizə iqtisadi əməkdaşlıq üçün bütün mexanizmləri daha səmərəli şəkildə işə salmağa imkan verir. Biz gələcəkdə də belə əməkdaşlığa ümid bəsləyir və inanırıq ki, o, Rusiyaya da, Azərbaycana da böyük fayda gətirəcəkdir. Bu mühüm forumda iştirak etmək barədə dəvətə görə təşkilatçılara bir daha təşəkkürümü bildirmək və forumun işinə uğurlar arzulamaq istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKI" RESTORAN-MUZEYİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ VƏ "MBA-MOSKVA" BANKI FİLİALININ İŞİ İLƏ TANIŞ OLMUŞDUR

İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda Sadovaya küçəsindəki 12 nömrəli binada yerləşən "Bakı" restoran-muzeyində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Qüdsi Osmanov ümummilli liderimiz Heydər Əliyevin hələ Sovet İttifaqı rəhbərliyində ali dövlət vəzifəsi tutduğu vaxtlarda onun təşəbbüsü ilə açılan "Bakı" restoranı barədə dövlətimizin başçısına məlumat verdi. Sonralar restoran fəaliyyət göstərməmişdir. Hazırda isə Azərbaycan və Sankt-Peterburq hökumətləri arasında əməkdaşlığa dair Protokola uyğun olaraq, Rusiyanın şimal paytaxtında Azərbaycan mətbəxi restoran-muzeyləri şəbəkəsi açmaq planlaşdırılır. Qüdsi Osmanov tərtibatında milli motivlərdən istifadə olunacaq gələcək Azərbaycan mədəniyyət ocağının maketini Prezident İlham Əliyevə nümayiş etdirdi. Restoranı bu ilin payızında açmaq nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Azərbaycan Beynəlxalq Bankı - Moskva bankı "MBA-Moskva" Sankt-Peterburq filialının fəaliyyəti ilə tanış oldu. Azərbaycan Beynəlxalq Bankı İdarə heyətinin sədri Cahangir Hacıyev dövlətimizin başçısına 2003-cü ildə açılmış filialın işi barədə məlumat verdi. Bildirildi ki, filial Rusiyanın maliyyə qurumları ilə yaxından əməkdaşlıq edir. Prezident İlham Əliyev filial əməkdaşlarının iş şəraiti ilə maraqlandı.

PREZİDENT İLHAM ƏLİYEV SANKT-PETERBURQDAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqun "Yevropa" mehmanxanasının konfrans salonunda bu şəhərdəki Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüşdür.

Həmvətənlərimiz dövlətimizin başçısını səmimiyyətlə və mehribanlıqla qarşıladılar.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Qudsi Osmanov görüşü açaraq, bütün dünyada milli diasporumuzun, o cümlədən Sankt-Peterburqdakı çoxmillətli və həmrəy icmanın təşkilatlanmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz rolunu xüsusi qeyd etdi.

Sankt-Peterburq Milli Mədəni Muxtariyyəti Şurasının sədri Vaqif Məmişov, Sankt-Peterburq Əczaçılıq Universitetinin rus dili və ədəbiyyatı kafedrasının müdiri Zülfiyyə Abbasova çıxış edərək, bütün dünyada Azərbaycan diasporunun formalaşmasına ölkəmizin rəhbərliyi tərəfindən daim diqqət göstərildiyini bildirərək xatırlatdılar ki, bu prosesin bünövrəsini görkəmli siyasi xadim Heydər Əliyev qoymuşdur. Görüş iştirakçıları Sankt-Peterburq Milli Mədəni Muxtariyyətinin fəaliyyətindən danışaraq nəzərə çarpdırdılar ki, bu şəhərdə yaşayan azərbaycanlılar milli özgünlüyünü həmişə qoruyub saxlamağa çalışırlar. Soydaşlarımız Novruz bayramını hamılıqla qeyd edirlər, şəhərdə bazar günü məktəbi fəaliyyət göstərir, müxtəlif idman yarışları keçirilir. Gələn il Neva sahilindəki şəhərdə Heydər Əliyev adına Azərbaycan orta məktəbi açılacaq, payızda isə XIX əsrin görkəmli elm xadimi, Sankt-Peterburq Universiteti Şərq fakültəsinin professoru, bu fakültənin ilk dekanı Mirzə Kazım bəyin büstü qoyulacaqdır.

Azərbaycan Prezidentinə Milli Mədəni Muxtariyyət adından xatirə hədiyyəsi təqdim olundu.

Prezident İlham Əliyev görüşdə nitq söylədi. Dövlətimizin başçısı bildirdi ki, xarici ölkələrə səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, ölkəmizin rəhbərliyi milli diasporumuzun formalaşmasına böyük əhəmiyyət verir. Ümumrusiya Azərbaycan Konqresi də uğurlu fəaliyyət göstərir, onun ikinci qurultayında Azərbaycan rəhbəri ilə birlikdə Rusiya Prezidenti Vladimir Putin də iştirak etmişdir.

Prezident İlham Əliyev müasir ölkəmizin iqtisadi uğurlarından, regionda gerçəkləşdirilən layihələrdən söhbət açaraq vurğuladı ki, Azərbaycanın tərəqqisi bütün dünyada soydaşlarımızın vəziyyətinə də müsbət təsir göstərir. Dövlətimizin başçısı xaricdə yaşayan azərbaycanlı sahibkarların regional layihələrin həyata keçirilməsində fəal iştirakını yüksək qiymətləndirdi.

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 14-də "Yevropa" mehmanxanasında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti, 9-cu Peterburq iqtisadi forumunun təşkilat komitəsinin həmsədri Jan Lemyer ilə görüşmüşdür.

Görüşdə ölkəmizin bu beynəlxalq maliyyə təşkilatı ilə ikitərəfli əməkdaşlığının inkişafına dair məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ ÇEXİYA PARLAMENTİ SENATININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Elə həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Çexiya parlamenti Senatının sədri Prşemısel Sobotka ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Çexiya arasında əməkdaşlığın inkişafı, habelə ölkəmizin Avropa Birliyinə inteqrasiyası prosesinin fəallaşdırılması məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

SANKT-PETERBURQDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞI

İyunun 14-də Sankt-Peterburqda Qoroxovaya küçəsindəki 6 nömrəli ünvanda, ümummilli lider Heydər Əliyevin vaxtilə, 1949-1950-ci illərdə təhsil aldığı keçmiş DTK-nın Ali məktəbinin binasında ulu öndərimizin xatirə lövhəsinin açılışı olmuşdur. Xatirə lövhəsinin müəllifi tanınmış Sankt-Peterburq heykəltəraşı Yan Neymandır.

Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Sankt-Peterburqun vitse-qubernatoru Sergey Tarasov, MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Azərbaycan Prezidentini Sankt-Peterburq səfərində müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Mərasimi Sankt-Peterburqun vitse-qubernatoru SERGEY TARASOV açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Dostlar!

Bu gün mənə Sankt-Peterburqun qubernatoru adından, Sankt-Peterburq hökuməti adından, bütün peterburqlular adından sizi burada, şəhərimiz üçün əlamətdar hadisə - Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlı olan binada xatirə lövhəsinin açılışında salamlamaq şərəfi nəsib olmuşdur. O, gənc yaşlarında burada, bu binada təhsil almış və bütün ömrü boyu şəhərimizə, Leninqrada, Sankt-Peterburqa məhəbbət bəsləmişdir. Azərbaycan Prezidenti olarkən də dəfələrlə buraya gəlmişdir. Onun şəhərimizə, şəhərimizin sakinlərinə, bu nadir abidəyə münasibətində böyük sevgi və ehtiram vardı. Bu gün bu binada xatirə lövhəsinin açılışı bizim hamımız üçün çox mühüm, çox əhəmiyyətli hadisədir.

Sankt-Peterburqun 300 illiyi şənliklərinə hazırlıq zamanı Petroqrad rayonunda Nizaminin heykəli açılmışdı. Bu, bizim şəhər üçün çox yaxşı, çox əhəmiyyətli hədiyyə idi. Bu gün xatirə lövhəsinin açılışı isə təkcə Azərbaycan xalqının dahi oğlunun xatirəsinə ehtiram deyil, həm də ölkələrimiz arasında, xalqlarımız arasında münasibətlərə göstərilən ehtiramdır. Əminəm ki, bu hadisə yaxşı münasibətlərimizin möhkəmlənməsinə xidmət

edəcəkdir. Bu hədiyyə, lövhənin açılışı hamımız üçün səmimi münasibətlərimizin rəmzi olacaqdır. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz dostlar!

Bu gün çox əlamətdar gündür. Bu gün gözəl Peterburq şəhərində Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin xatirə lövhəsi açılır. Bu, çox əlamətdar hadisə, çox mühüm hadisədir. Bu, bir tərəfdən, Heydər Əliyevin xatirəsinə ehtiram əlamətidir. Digər tərəfdən isə onun xidmətlərinə göstərilən ehtiramdır. Bu həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da və daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Heydər Əliyev Azərbaycan xalqının görkəmli lideridir. Yaşadığı və Azərbaycana rəhbərlik etdiyi dövrdə ictimai-siyasi formasiyadan asılı olmayaraq, o, respublikanın möhkəmlənməsi, siyasi sistemdə öz mexanizmlərini təkmilləşdirməsi, iqtisadi cəhətdən inkişaf etməsi üçün hər şey etmişdir, hər şey edirdi ki, Azərbaycan xalqı daha yaxşı yaşasın. Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də, müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə də bütün həyatını öz xalqına xidmətə həsr etmişdi.

Heydər Əliyevin həyatının bir çox illəri Rusiya, Peterburq, Moskva ilə bağlı olmuşdur. O, gənclik illərində Peterburqda oxumuşdur və bu şəhər haqqında həmişə böyük səmimiyyətlə danışırdı. Yadımdadır, bu söhbətlər çox olmuşdur. O, həmin illəri xatırlayaraq, Peterburqdan, o vaxtkı Leninqraddan, öz dostlarından, burada birlikdə oxuduğu və ünsiyyətdə olduğu insanlardan həmişə böyük məhəbbətlə, səmimiyyətlə söhbət açırdı.

Xatirimdədir, mən o vaxt Leninqrada gələrkən mənə həmişə deyərdi: Qoroxovaya küçəsinə get, mənim oxuduğum binaya bax. Yadımdadır, mən buraya gələrkən bu binanın qarşısında şəkil çəkdirir, sonra bu şəkilləri gətirib ona göstərirdim. Bütün bunlar Heydər Əliyevin Peterburqa ömrünün sonunadək bəslədiyi dərin şəxsi hissləri nümayiş etdirirdi. O, artıq Azərbaycanın Prezidenti olduğu dövrdə bu şəhərə dəfələrlə gəlmişdi və ona həmişə məhəbbətlə yanaşırdı.

Bu gün Azərbaycan və Rusiya öz münasibətlərində keyfiyyətcə tamam yeni bir mərhələni - strateji tərəfdaşlıq, dostluq, iqtisadi münasibətlərin fəal inkişafı dövrünü yaşayırlar. Bu yeni mərhələnin bünövrəsini iki Prezident - Prezident Putin və Prezident Heydər Əliyev qoymuşlar. Məhz onların səyləri sayəsində 2000-ci ilin əvvəllərindən başlayaraq, ölkələrimiz arasında münasibətlər yeni mərhələyə çıxdı və indi çox fəal inkişaf edir və möhkəmlənir. Vladimir Vladimiroviç Putinlə mənim bugünkü görüşüm və forumda iştirakım buna daha bir əyani sübutdur.

Heydər Əliyev tərəfindən Azərbaycanda əsası qoyulan ənənələr yaşayır, onun siyasəti bütün istiqamətlərdə, o cümlədən Rusiya ilə ikitərəfli münasibətlərimizdə davam etdirilir. Biz çox məmnunuq ki, bu münasibətlər qarşılıqlı etimad, hörmət və qarşılıqlı dəstək əsasında qurulur.

Heydər Əliyev Azərbaycan üçün ən çətin anda, 1993-cü ildə xalqın iradəsi ilə respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycanın gələcəyi böyük sual altında idi. Ölkəni daxili ziddiyyətlər, vətəndaş müharibəsi didib-dağıdırdı, qan tökülürdü, ucdantutma

qarmaqarışıqlıq və tam iqtisadi tənəzzül hökm sürürdü. Onun rəhbərliyinin 10 ili ərzində Azərbaycan siyasi və iqtisadi cəhətdən tam tənəzzülə uğramış ölkədən indi regionun dinamik inkişaf edən dövlətinə çevrilmişdir. İndi Azərbaycan həm iqtisadi inkişaf sürətinə, həm sənaye məhsulu istehsalının artımına, həm bazar iqtisadiyyatı əsaslarının inkişaf sürətinə, həm də yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması, inteqrasiya proseslərinin sürətinə görə, habelə adambaşına düşən sərmayələrin həcminə görə regionda və postsovet məkanında qabaqcıl yerlərdən birini tutur.

Bax, liderin gücü budur, xalqın tarixində liderin rolu budur. Ən ağır dövrdə, əslində, ümidsiz bir vəziyyətdə ölkəni böhrandan çıxarmaq, ayağa qaldırmaq və sabit inkişafa nail olmaq deməkdir! Bu gün biz, Azərbaycan vətəndaşları, onun ardıcılları bütün bunların hamısına malikik, vəzifəmiz də ölkəmizin bütün istiqamətlərdə firavan yaşaması və tərəqqisi üçün bu siyasəti inkişaf etdirməkdən və möhkəmlətməkdən ibarətdir.

Əlbəttə ki, Rusiya ilə münasibətlər gələcəkdə də bizim üçün çox mühüm rol oynayacaqdır. Ümidvarıq ki, bu münasibətlər çox fəal inkişaf etdiriləcək və möhkəmləndiriləcəkdir. Əlbəttə ki, Bakı ilə Sankt-Peterburq arasında münasibətlər də. Tarixən bu münasibətlər həmişə yaxın, səmimi olmuşdur və bu gün də belədir. Heydər Əliyevin xatirəsinə bu lövhənin açılması da dostluğumuza daha bir sübutdur. Bu, həm Prezidentimizin xatirəsinə hörmət, həm onun xidmətlərinin qiymətləndirilməsi və həm də sadəcə, Peterburq hökumətinin çox insani bir təşəbbüsüdür. Azərbaycan xalqı bunu qiymətləndirir və həmişə xatırlayacaqdır.

Bu xatirə lövhəsinin açılışına görə şəhərin rəhbərliyinə bir daha təşəkkürümü ifadə edir və əmin olduğumu bildirmək istəyirəm ki, bizim münasibətlərimiz əbədi olaraq bu zəmində qurulacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.



Azərbaycan Prezidenti İlham Əliyev və Sankt-Peterburqun vitse-qubernatoru Sergey Tarasov xatirə lövhəsinin üzərindən örtüyü götürdülər.

Xatirə lövhəsinin önünə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin, Rusiya Dövlət Dumasının, Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonun, Rusiya Federasiyası Prezidentinin Şimal-Qərb Federal dairəsi üzrə səlahiyyətli nümayəndəsinin, Azərbaycanın Rusiyadakı səfirliyinin, ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğunun, Azərbaycan diasporunun adından gül-çiçək dəstələri qoyuldu.

PREZİDENT İLHAM ƏLİYEV "AZƏRBAYCAN RESPUBLİKASININ NAİLİYYƏTLƏRİ VƏ ƏMƏKDAŞLIĞA DAİR LAYİHƏLƏR" SƏRGİSİNDƏ OLMUŞDUR

İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqun Mixaylov manejində açılan "Azərbaycan Respublikasının nailiyyətləri və əməkdaşlığa dair layihələr" sərgisində olmuşdur. Azərbaycan ekspozisiyasının ümumi sahəsi 350 kvadratmetrdir. Burada ölkəmizin 20 müəssisəsi və dövlət qurumunun məhsulları nümayiş etdirilir.

Respublikamızın "European Tobacco", "ATAholdinq" şirkətləri, "Gön-dəri" Səhmdar Cəmiyyəti, "Azərikimya" Dövlət Konserni, "Azərsun" şirkəti kimi aparıcı sənaye müəssisələri pavilyonlarının nümayəndələri və onların rəhbərləri dövlətimizin başçısına burada nümayiş etdirilən məhsullar barədə məlumat verdilər.

Sərgiyə gələnlər milli mətbəximizlə də tanış ola bilirdilər. Bunu Gənclər, İdman və Turizm Nazirliyi yanında Milli Kulinariya Mərkəzinin əməkdaşları təqdim edirdilər.

Sərgiyə gələnlər Azərbaycan Opera və Balet Teatrı artistlərinin ifasında milli musiqimizi də dinləyirdilər.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

İyunun 14-də axşam dövlətimizin başçısı vətənə yola düşdü.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KİYEVƏ İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukrayna Prezidenti Viktor Yuşşenkonun dəvəti ilə iyunun 16-da Kiyevə gəlmişdir.

Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Borispol beynəlxalq hava limanında Prezident İlham Əliyevi Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Kiyevdəki səfiri Tələt Əliyev böyük hörmət və ehtiramla qarşıladılar.

Milli geyimli qızlar Prezident İlham Əliyevə Ukrayna adətincə duz-çörək təqdim etdilər.

Azərbaycan dövlətinin başçısı burada Ukrayna jurnalistlərinə müsahibə verdi və hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da Kiyevin "Mariya" sarayında Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.

Azərbaycan və Ukrayna arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluqlarını ifadə edən dövlət başçıları bu əlaqələrin gələcək inkişafı üçün geniş potensial olduğunu vurğuladılar.

Prezident Viktor Yuşşenko Ukrayna üçün böyük əhəmiyyəti olan beynəlxalq tədbirdə iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.

Dövlət başçıları iqtisadi sahədə, xüsusilə enerji sahəsində əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regionda təhlükəsizlik və Avratlantik məkanına inteqrasiya məsələləri ətrafında geniş fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da Kiyevdə Moldova Prezidenti Vladimir Voronin ilə görüşmüşdür.

Bu yaxınlarda Moldovaya rəsmi səfərini və Kişinyovda GUAM ölkələri dövlət başçılarının sammitində iştirakını məmnunluqla xatırlayan Prezident İlham Əliyev qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin və regional əməkdaşlığın inkişafına xidmət etdiyini bildirdi.

Ukraynada keçirilən beynəlxalq forumun da regional əməkdaşlığa töhfə olduğunu vurğulayan prezidenlər ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər, Avratlantik strukturlarına inteqrasiya haqqında geniş fikir mübadiləsi apardılar.

Vladimir Voronin Prezident İlham Əliyevə Dnestryanı bölgədə münaqişənin həlli ilə bağlı Ukrayna Prezidenti Viktor Yuşşenkonun GUAM-ın Kişinyov sammitində irəli sürdüyü təkliflərin həyata keçirilməsi barədə də məlumat verdi.

KİYEVDƏ BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN "FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI"

İyunun 16-da Ukraynanın paytaxtı Kiyev şəhərində beynəlxalq investisiya forumunun "Fövqəladə Ukrayna dəyirmi masası" öz işinə başlamışdır.

Tədbirdə Ukrayna Prezidenti Viktor Yuşşenko, Azərbaycan Prezidenti İlham Əliyev, Polşa Prezidenti Aleksandr Kvasnevski, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Litva Prezidenti Valdas Adamkus, Moldova Prezidenti Vladimir Voronin və Estoniya Prezidenti Arnold Rüütel iştirak edirdilər.

Əvvəlcə, "Mariya" sarayında dövlət başçılarının görüşü oldu və onlar xatirə şəkli çəkdirdilər. Sonra prezidentlər işgüzar nahar süfrəsi arxasında söhbətlərini davam etdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da "Nasionalnaya" mehmanxanasında Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Prezidentlər Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin bütün maneələrə rəğmən uğurla başa çatdığını vurğuladılar və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də vaxtında istifadəyə veriləcəyinə əmin olduqlarını bildirdilər.

Bəzilərinin əfsanə hesab etdiyi BTC kəmərinin artıq reallığa çevrildiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də uğurla başa çatacaqdır və Azərbaycan qazı Gürcüstan ərazisindən keçməklə Avropa ölkələrinə nəql olunacaqdır.

Azərbaycanla Gürcüstan arasındakı möhkəm dostluq əlaqələrinin son illər daha da güc-

ləndiyini bildirən dövlət başçıları dünya miqyaslı enerji layihələrinin həyata keçirilməsi və regionda sabitliyin möhkəmləndirilməsi sahəsində ölkələrimizin uğurlu əməkdaşlığını digər dövlətlər üçün nümunə kimi səciyyələndirdilər. Prezidentlər Kiyev forumunda iştiraklarının da regional əməkdaşlığa xidmət etdiyini vurğuladılar.

Görüşdə ikitərəfli və regional əməkdaşlığın perspektivləri, beynəlxalq məsələlər, Avratlantik strukturlarına inteqrasiya məsələləri ətrafında geniş fikir mübadiləsi edildi.

KİYEVDƏ BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN "FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI"NIN BİRİNCİ GENİŞ İCLASININ AÇILIŞI

İyunun 16-da günün ikinci yarısında Kiyevdə beynəlxalq investisiya forumunun "Fövqəladə Ukrayna dəyirmi masası"nın birinci geniş iclasının açılışı olmuşdur.

Ukrayna Prezidentinin təşəbbüsü, Dünya İqtisadi Forumunun (Davos) himayəsi ilə və "Ukraynanı kəşf edirik" devizi altında keçirilən bu mötəbər tədbirdə 26 ölkədən 250-dək nümayəndə, o cümlədən dövlət başçıları, biznes liderləri iştirak edirlər.

Ukrayna Prezidenti Viktor Yuşşenko giriş nitqində iştirakçıları salamladı. O, ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevə müraciətlə dedi:

- Hörmətli dostlar!

Mən Kiyevdə Azərbaycan Prezidenti İlham Əliyevi salamlamaqdan çox şadam. Cənab Prezident, biz artıq gördük ki, Ukrayna Sizin dəstəyinizə arxalana bilər. Biz hesab edirik ki, əməkdaşlığımız nəinki ölkələrimiz, o cümlədən bütün Avropa üçün böyük imkanlar açır. Mən buna görə, cənab Prezident, Sizə minnətdaram.

Sonra Viktor Yuşşenko Ukrayna üçün mühüm olan və qeyri-rəsmi şəkildə "mini-Davos" adlandırılan bu tədbirə gəldiklərinə görə digər prezidentlərə təşəkkürünü bildirdi, ölkəsindəki iqtisadi vəziyyət və iqtisadiyyatın müxtəlif sahələrində mövcud olan potensial barədə ətraflı məlumat verdi.

Tədbirin aparıcısı, Dünya İqtisadi Forumunun direktoru Klaus Şvab Azərbaycan Prezidenti İlham Əliyevə müraciətlə dedi:

- Cənab Prezident Əliyev, Sizin ölkəniz Avropa qarşısında üzərinə öhdəliklər götürübdür. Siz Avropa Şurası Parlament Assambleyası sədrinin müavini olmusunuz. Burada, Avropa İttifaqı Komissiyasının təmsilçisi bildirdi ki, Ukraynanın Avropa İttifaqına daxil olması üçün hələ çox vaxt lazım olacaqdır. Yəni bunun üçün müəyyən ilkin şərtlər var. Siz Azərbaycanın Avropaya yaxınlaşmasını necə görürsünüz? Belə ki, Sizin ölkə də bu baxımdan növbədədir. Bu haqda nə düşünürsünüz, bu sahədə hansı işləri görmək istəyirsiniz?

Sonra Prezident İlham Əliyev dəyirmi masada nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əvvəla, belə bir mühüm beynəlxalq tədbirdə iştirak etmək üçün məni səfərə dəvətinə görə həmkarım Prezident Yuşşenkoya minnətdarlığımı bildirmək istəyirəm. Biz Ukrayna ilə ikitərəfli münasibətlərimizə çox böyük əhəmiyyət veririk və mən eyni zamanda, ölkəmizin ünvanına söylədiyi xoş sözlərə görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz uzun illər ərzində dost ölkələr olmuşuq. Çox sıx tarixi əlaqələrimiz var və ən mühümü isə odur ki, müstəqilliyini qazandıqdan sonra ölkələrimiz olduqca uğurlu əməkdaşlıq etmişlər. Həmin əməkdaşlıq indi də davam edir, möhkəmlənir və inkişaf edir.

Bu gün mən çox şadam ki, belə mühüm beynəlxalq əhəmiyyətli tədbir Ukraynada keçirilir və dünyanın iş adamları buraya toplaşıblar. Hamının diqqəti buraya yönəlibdir. Bu, ölkənin gələcək inkişafı, xarici sərmayələrin cəlb edilməsi üçün olduqca vacibdir. Sərmayəçilər üçün lazımi mühitin yaradılması çox önəmlidir. Onların etimadını qazanmaq, onlar üçün maksimum dərəcədə rahat iş şəraiti yaratmaq ən vacib məsələlərdən biridir.

Azərbaycan Avropa strukturlarına tam inteqrasiya olunmaq siyasəti yürüdür. Biz artıq bir neçə ildir ki, Avropa Şurasının üzvüyük və Siz qeyd etdiyiniz kimi, mən Avropa Şurası Parlament Assambleyası sədrinin müavini olmuşam. Hazırda, Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasətinə" daxil edilmişdir. Bizim bu təşkilatla çox yaxşı dialoqumuz var.

Bu, xüsusən enerji, nəqliyyat sahələrinə və digər sahələrə aiddir. Şübhəsiz, biz hesab edirik ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır. Burada sadəcə, iqtisadi inkişaf və ya sənayenin inkişafı nəzərdə tutulmur. Bizim ölkə iqtisadi baxımdan böyük uğurlar əldə etmişdir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il ərzində ÜDM-in artımı 18 faiz olacaqdır. Lakin bizim zəngin təbii sərvətlərimiz də var. Bilirsiniz ki, dünyada bir çox ölkənin zəngin təbii ehtiyatları var, amma bu o demək deyil ki, həmin ölkələrin hamısı arzuolunan səviyyədə tərəqqi edir və əhali bu imkandan bəhrələnir. Buna görə də demokratikləşmə prosesi, müasir siyasi sistemin yaradılması uğurumuz və inkişaf üçün əsas ilkin şərtlərdən biridir. Eyni zamanda, biz anlayırıq ki, bu ilkin şərtlər Avropaya yaxınlaşmağımız üçün də vacibdir.

Burada cənab sədr həmçinin maraqlandı ki, biz bu yolun hansı mərhələsindəyik. Ukraynanın dostu və müttəfiqi olaraq, biz Ukraynanın Avropaya yaxınlaşması sahəsində əldə etdiyi uğuru görməkdən çox şadıq. Lakin biz onu da görürük ki, onların arxasınca bizim ölkə gəlir. Ona görə də, biz Ukraynanın keçəcəyi yolu və onun üzləşəcəyi çətinlikləri, problemləri görəcəyik. Əlbəttə ki, mən inanıram ki, biz eyni istiqamətdə addımlarımızı davam etdirəcəyik.

Hesab edirəm ki, bu gün regionda yeni vəziyyət formalaşır. Mən burada əyləşən bütün prezidentləri görməkdən məmnunam. Bununla belə, mən xüsusilə vurğulamaq istəyirəm ki, GUAM dövlətlərinin başçılarını görməkdən çox şadam. GUAM təşkilatı müəyyən bir müddət ərzində durğunluqda olmuşdur. Hazırda biz GUAM-ın inkişafında yeni mərhələyə qədəm qoyuruq. Biz bu təşkilat çərçivəsində vacib iqtisadi layihələri ikitə-

rəfli və çoxtərəfli formatda müzakirə edirik. Regionda tamamilə yeni vəziyyət formalaşmaqdadır. Hesab edirəm ki, Avropaya inteqrasiya prosesi o vaxt asan olar ki, biz hamımız birgə çalışaq. Biz bu marağı bütün tərəfdaşlarımız və qonşularımız tərəfindən duyuruq. Əminəm ki, Avropa ölkələrinin birgə səyləri, güclü dəstəyi və gərgin əməyi sayəsində biz qarşımıza qoyduğumuz məqsədlərə nail ola biləcəyik.

Sağ olun.

İclasda Avropa Komissiyasının iqtisadiyyat və maliyyə üzrə komissarı Xose Almunyi, Polşa Prezidenti Aleksandr Kvasnevski, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Estoniya Prezidenti Arnold Rüütel də çıxış etdilər.

İclasın sonunda Ukrayna Prezidenti yekun nitqi söylədi.

Sonda tədbirdə iştirak edən dövlət başçılarının mətbuat konfransı oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYA PREZİDENTİ ARNOLD RÜÜYTEL İLƏ GÖRÜŞÜ

Kiyevdə beynəlxalq investisiya forumunun "Fövqəladə Ukrayna dəyirmi masası"nın birinci geniş iclasından sonra Azərbaycan Prezidenti İlham Əliyevin Estoniya Prezidenti Arnold Rüütel ilə qısa görüşü olmuşdur.

Prezidentlər ikitərəfli əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparmışlar.

SƏFƏR BAŞA ÇATDI

İyunun 16-da axşam Azərbaycan Prezidenti İlham Əliyevin Kiyevə işgüzar səfəri başa çatdı.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ STRASBURQDA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Xarici işlər naziri Elmar Məmmədyarov iyunun 15-16-da Strasburqda işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində Avropa Şurasının baş katibi Terri Devis, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) baş katibi Bruno Haller və AŞPA katibliyinin baş direktoru Mateo Sorinas, eləcə də Avropa Şurası nazirlər komitəsinin Azərbaycan və Ermənistan üzrə monitorinq qrupunun (Aqo) üzvləri ilə görüşlər keçirilmişdir.

Avropa Şurasının baş katibi Terri Devis ilə keçirilmiş görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqları, bu ilin noyabr ayında keçiriləcək parlament seçkiləri ərəfəsində ölkədə mövcud vəziyyət, "siyasi məhbus" hesab edilən şəxslərin işlərinin araşdırılması məqsədilə hökumət, parlament və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət işçi qrupunun yaradılması və fəaliyyəti, respublikamızda demokratikləşdirmə sahəsində son addımlar, habelə digər məsələlər üzrə ətraflı fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov baş katibi

təkrarən Azərbaycana səfərə dəvət etmişdir. Dəvəti yüksək qiymətləndirən Terri Devis tezliklə bu səfərin reallaşması imkanlarının ciddi şəkildə nəzərdən keçiriləcəyini vurğulamışdır.

AŞPA-nın baş katibi Bruno Haller və AŞPA katibliyinin baş direktoru Mateo Sorinas ilə görüşdə, AŞPA-nın iyunun 20-24-də keçiriləcək hissəvi sessiyasının gündəliyinə daxil edilmiş "Azərbaycanda demokratik təsisatların fəaliyyəti" və "Azərbaycanda siyasi məhbuslar üzrə 1359 (2004) saylı Qətnaməyə veriləcək davam" adlı məruzələr, eləcə də ölkədə qarşıdan gələn parlament seçkilərinin beynəlxalq standartlara uyğun keçirilməsi üçün görülən işlər, son dövrlərdə Azərbaycan rəhbərliyinin insan hüquqları və qanunun aliliyinin təmin edilməsi sahəsində gördüyü tədbirlər barədə fikir mübadiləsi aparılmışdır.

Almaniya, Türkiyə, Rumıniya, Rusiya, İsveç, Latviya, Avstriya və Yunanıstanın daimi nümayəndələrinin, Avropa Şurası katibliyinin təmsilçilərinin və Aqo monitorinq qrupu üzvlərinin iştirakı ilə keçirilən görüşdə, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli istiqamətində səylər, qarşıdan gələn parlament seçkilərinə hazırlıq işləri, ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi sahəsində son vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir. Nazir E.Məmmədyarov həmin sahələrdə ölkədə görülən işlər və Azərbaycan hökumətinin konkret məsələlər üzrə mövqeyi barədə həmsöhbətlərini məlumatlandırmdışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYANIN CƏNUBİ QAFQAZDAKI XÜSUSİ NÜMAYƏNDƏSİ BRAYAN FOLUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Prezident sarayında Britaniyanın Cənubi Qafqazdakı xüsusi nümayəndəsi Brayan Folun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev cənab Brayan Fol ilə son görüşlərindən ötən dövr ərzində Azərbaycanda böyük işlərin həyata keçirildiyini vurğuladı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin işə salınması və Bakıda "Xəzərneftqaz-2005" XII beynəlxalq sərgisinin açılışı münasibətilə Böyük Britaniyanın Baş naziri Toni Bleyerin ona təbrik məktubları göndərdiyini və BTC-nin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində Kral ailəsinin üzvü, York hersoqu şahzadə Endryunun iştirak etdiyini məmnunluqla xatırladan Prezident İlham Əliyev Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Azərbaycanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulduğunu xatırladan dövlətimizin başçısı dedi ki, ölkəmiz bu təşəbbüsdə fəal iştirak edir və mühüm tədbirlər həyata keçirir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin əlamətdar hadisə olduğunu bildirən qonaq ölkəmizdə neft hasilatı sahəsində çox böyük işlər görüldüyünü vurğuladı.

Hasilat sənayesində şəffaflıq təşəbbüsündə Azərbaycanın fəal iştirakını bu təşəbbüsə qoşulan digər ölkələr üçün nümunə olduğunu nəzərə çarpdıran cənab Brayan Fol Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Prezident sarayında Avropa Şurası Venesiya komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir.

Azərbaycanda çox böyük irəliləyişlərin, insanların həyat səviyyəsinin yaxşılaşdığının şahidi olduğunu söyləyən qonaq ölkəmizdə iqtisadi vəziyyətin əhəmiyyətli dərəcədə yüksəldiyini vurğuladı.

Ölkəmizdə məhkəmə-hüquq sistemində gedən islahatları dəstəklədiyini söyləyən cənab Bukikkio əmin olduğunu bildirdi ki, keçiriləcək imtahanlar nəticəsində daha peşəkar hakimlər təyin olunacaqdır.

Azərbaycanda demokratik, şəffaf, ədalətli seçkilər keçiriləcəyinə əminliyini vurğulayan qonaq siyasi mübarizədə müxalifətin konstruktiv mövqe tutacağına ümidvar olduğunu bildirdi.

Cənab Bukikkio dedi ki, o, Bakıdan gedəndən sonra Azərbaycanın gənc siyasi liderləri üçün Avropa Şurası tərəfindən maliyyələşdirilən və təşviq edilən treninqlərin keçirilməsi məsələsini müzakirə edəcəkdir.

Ölkəmizdə məhkəmə-hüquq islahatlarının həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanda cəmiyyətin daha da demokratikləşməsi prosesində irəliyə doğru mühüm addımlar atıldığını bildirdi. Respublikamızda iqtisadi sahədə geniş islahatların həyata keçirildiyini, insanların həyat səviyyəsinin gündən-günə yaxşılaşdığını nəzərə çarpdıran dövlətimizin başçısı İlham Əliyev Azərbaycan dövlətinin və hökumətinin bu sahədə ciddi tədbirlər gördüyünü vurğuladı.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

İyunun 20-də Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ermənistanlı həmkarı Vardan Oskanyanla iyunun 17-də Parisdə keçirdiyi görüşünə dair brifinq keçirmişdir.

Son vaxtlar danışıqlar prosesində fəallıq müşahidə olunduğunu söyləyən Araz Əzimov, görüşün vacib və faydalı olduğunu nəzərə çarpdırmışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə keçən görüşdə Praqa prosesi çərçivəsində tərtib edilərək, siyahıya daxil olunan məsələlərin müzakirə olunduğu bildirilmişdir. Buraya ərazilərin boşaldılması, əhalinin həmin ərazilərə köçürülməsi, Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhalinin Azərbaycan vətəndaşları olan erməni əhali ilə dinc birgə yaşayışının təmin

edilməsi, daha sonra Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılması aiddir.

Azərbaycanın münaqişənin həllini təkcə torpaqların qaytarılmasında görmədiyini söyləyən nazir müavini, buraya, eyni zamanda, Dağlıq Qarabağın erməni mənşəli Azərbaycan vətəndaşları ilə azərbaycanlı əhalinin sülh, əmin-amanlıq və əməkdaşlıq şəraitində normal yaşaması, hər iki icmanın təmsil olunacağı birgə idarəetmə sistemi yaradılmasının daxil olduğunu açıqlamışdır. Ərazilərin boşaldılması Azərbaycan üçün prinsipial əhəmiyyət daşıyır. Bundan sonra digər məsələlərin həlli ortaya çıxacaqdır. Bu, çox çətin və mürəkkəb bir prosesdir.

Nazir müavini əməkdaşlığın həyata keçirilməsi ilə bağlı olan və münaqişənin həllində vasitə rolunu oynaya biləcək başqa bir məsələnin də Azərbaycan tərəfinin təklifi ilə görüşdə müzakirəyə çıxarıldığını diqqətə çatdırmışdır. Bu, danışıqlarda tez-tez toxunulan mövzulardan biri kimi, kommunikasiya vasitələrinin, nəqliyyat əlaqələrinin bərpasına aiddir. Belə ki, Ermənistan tərəfi Dağlıq Qarabağda yaşayan erməni əhalisi ilə əlaqələr qurmaq adı ilə ərazi iddialarına əl atmış, dəhliz məsələsini gündəliyə gətirmişdi. Bu mənada, Laçın ərazisindən keçən yolun birgə istifadəsinə dair Azərbaycanın təklifi görüşdə diqqətlə nəzərdən keçirilmişdir. Təklif Ağdam-Xankəndi-Şuşa-Laçın-Gorus-Sisyan-Şahbuz yolunun bərpa edilməsi və hər iki tərəfin birgə istifadəsinə verilməsindən ibarətdir. Yolun istifadəsinin konstruktiv və praqmatik, eyni zamanda, böyük siyasi əhəmiyyəti vardır. Çünki münaqişə şəraitində olan iki ölkəni birləşdirən və bir neçə məntəqədən keçən belə bir yolun istifadəsi hər iki tərəf üçün faydalı olar. Bu, həmçinin Dağlıq Qarabağda yaşayacaq azərbaycanlı və erməni əhali arasında bir-birinə inam yaradılmasına, əməkdaşlıq mexanizmlərinin inkişafına da yardımçı ola bilər.

Araz Əzimov bildirmişdir ki, təklif hazırda müzakirə edilir və ümidvarıq ki, qarşı tərəf bu təklifə müsbət reaksiya verəcəkdir.

Yolun işə düşməsinin ərazilərin işğaldan azad edilməsindən sonra mümkün olacağını vurğulayan nazir müavini, münaqişənin həllində bunun böyük rol oynaya biləcəyini diqqətə çatdırmışdır.

Araz Əzimov jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

GUAM TƏŞKİLATI ATƏT-İN KONFRANSINDA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNƏ DAİR BƏYANATLA ÇIXIŞ ETMİŞDİR

İyunun 21-də Vyanada, ATƏT-in təhlükəsizliyə dair illik konfransında Moldova Respublikasının xarici işlər və Avropaya inteqrasiya naziri Andrey Stratan GUAM ölkələri adından bəyanatla çıxış etmişdir.

Helsinki Yekun Aktının 30 illiyinə və Paris Xartiyasının 15-ci ildönümünə həsr olunmuş konfransda Moldovanın xarici işlər naziri GUAM ölkələrindəki münaqişələrlə əlaqədar bəyan etmişdir ki, ATƏT-in üzvü olan ölkələr Moldovanın şərq bölgəsindəki, Gürcüstanın Abxaziya və Sxinvali bölgələrindəki və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki münaqişələrin davam etməsini Avratlantik məkanında sabitliyə və inkişafa təhlükə kimi qəbul etməli, bu münaqişələrin həllində daha fəal iştirak etməlidir. GU-

AM təşkilatı bu münaqişələrin beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllinə çağırır.

Bəyanatda bildirilir ki, GUAM ölkələri Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmət əsasında həll olunmasını tamamilə və qətiyyətlə dəstəkləyir, Praqa prosesi adlanan görüşlər çərçivəsində aparılan danışıqlarda tərəflərin fəallığını alqışlayır. Eyni zamanda, təşkilat Azərbaycan Respublikasının tərkibində olmaqla Dağlıq Qarabağ bölgəsində erməni və azərbaycanlı icmaları arasında əməkdaşlığın yaradılmasının vacibliyini vurğulayaraq, ATƏT-i və onun Minsk qrupunu bu istiqamətdə öz fəaliyyətlərini genişləndirməyə çağırır.

Bəyanatda habelə GUAM ölkələrindəki münaqişələrin həlli sahəsində Helsinki Yekun Aktının və Paris Xartiyasının müddəalarına əməl olunmasının vacibliyi vurğulanır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ DMİTRİ MEDVEDYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında Rusiya Prezidenti Administrasiyasının rəhbəri Dmitri Medvedyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı İlham Əliyev Sankt-Peterburqda keçirilən Beynəlxalq iqtisadi forumda Rusiya Prezidenti Vladimir Putinlə görüşünü məmnunluqla xatırlatdı.

Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə, xüsusən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ticarət dövriyyəsinin sürətlə artmasını ölkələrimizin əməkdaşlığının yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bu il Rusiyada Azərbaycan ilinin, gələn il isə Azərbaycanda Rusiya ilinin keçirilməsinin xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu vurğuladı.

Cənab Dmitri Medvedyev Prezident Vladimir Putinin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, 9-cu Peterburq Beynəlxalq iqtisadi forumunda Azərbaycan Prezidenti İlham Əliyevin nitqinin iştirakçılar arasında böyük təəssürat doğurduğunu söylədi.

Azərbaycanda bütün sahələrdə, o cümlədən iqtisadi sahədə gedən sürətli inkişafı məmnunluqla vurğulayan qonaq əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da möhkəmlənəcəkdir.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da səmimi salamlarını Prezident Vladimir Putinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MALİYYƏ NAZİRİ VALERİ ÇEÇELAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında Gürcüstanın maliyyə naziri Valeri Çeçelaşvilini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini, o cümlədən iqtisadi əməkdaşlığın genişləndiyini bildirdi. Kiyevə son səfəri zamanı Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşünü məmnunluqla xatırladan Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi qlobal enerji layihələrinin həyata keçirilməsində ölkələrimizin əməkdaşlığını xüsusi vurğuladı.

Prezident İlham Əliyev ölkələrimizin regional kontekstdə, beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində uğurlu əməkdaşlıq etdiyini söylədi və əmin olduğunu bildirdi ki, bu işbirliyi gələcəkdə də daim inkişaf edəcəkdir.

Vaxt ayırıb onu qəbul etdiyinə görə minnətdarlıq edən qonaq Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdiyini bildirdi və qlobal enerji layihələrinin həyata keçirilməsini bunun uğurlu nümunəsi kimi səciyyələndirdi. Valeri Çeçelaşvili dedi ki, bu əməkdaşlığın təkcə iki ölkə üçün yox, bütün regiondan ötrü böyük əhəmiyyəti vardır. Həmin layihələrin həyata keçirilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir və bu gün mən dahi şəxsiyyətin məzarını ehtiramla ziyarət etmişəm. Gürcüstan naziri bildirdi ki, hazırda Tbilisidəki Heydər Əliyev parkının yüksək səviyyədə abadlaşdırılması üçün konkret işlər görülür.

Valeri Çeçelaşvili dost və qardaş ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ CON KOLSTONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında NATO baş katibinin müavini Con Kolstonu qəbul etmişdir.

Dövlətimizin başçısı NATO-nun baş katibi Yaap de Hoop Sxeffer ilə Brüsseldə və Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırladı, onun səmimi salamlarını baş katibə çatdırmağı xahiş etdi.

Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, ölkəmizin "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı təqdim etməsi əlaqələrimizi yeni mərhələyə qaldırmışdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avratlantik strukturlarına inteqrasiya siyasətinə sadiqdir və "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" NATO ilə Azərbaycanı bir-birinə daha da yaxınlaşdıracaqdır. Biz NATO-nun ölkəmizə eyni münasibət bəsləməsindən məmnunuq. Azərbaycan dünyanın müxtəlif bölgələrindəki sülhməramlı əməliyyatların fəal iştirakçısıdır və NATO-nun etibarlı tərəfdaşıdır. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə NATO arasında əməkdaşlıq bundan sonra da genişlənəcəkdir.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu söyləyən cənab Con Kolston Azərbaycan ilə NATO arasında əlaqələrin daim genişləndiyini nəzərə çarpdırdı. O bildirdi ki, Azərbaycanın "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı təqdim etməsi NATO ilə əlaqələrin gələcəkdə daha da yüksək səviyyədə həyata keçirilməsinə xidmət edəcəkdir.

Qonaq dedi ki, NATO dünyanın müxtəlif bölgələrindəki sülhməramlı əməliyyatlarda Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirir. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında Azərbaycanın fəal iştirak etdiyini söyləyən qonaq bildirdi ki, Bakıda keçirilən və Avratlantik Tərəfdaşlıq Şurası çərçivəsində sərhəd təhlükəsizliyi məsələlərinə həsr olunmuş seminar bunun yaxşı nümunəsidir.

Cənab Con Kolston qeyd etdi ki, ölkəmizin "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı təqdim etməsi bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökuməti NATO ilə yaxın əməkdaşlıq sahəsində real işlər görür və tədbirlər həyata keçirir. O, əmin olduğunu bildirdi ki, Azərbaycan-NATO əlaqələri bundan sonra daha da genişlənəcəkdir.

YƏMƏNDƏ İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 32-Cİ KONFRANSI KEÇİRİLİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Yəmənin paytaxtı Sənada keçirilən İslam Konfransı Təşkilatı (İKT) xarici işlər nazirlərinin 32-ci konfransının iyunun 28-də keçirilən iclasında çıxış etmişdir.

Elmar Məmmədyarovun çıxışının əsasını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təşkil etmişdir. O, İKT xarici işlər nazirlərinin 33-cü konfransının 2006-cı ildə Bakıda keçirilməsi təklifini irəli sürmüş, konfransın gündəliyində duran məsələlərə münasibətini bildirmişdir. Elmar Məmmədyarov konfransın sədr müavini seçilmiş və ikinci ümumi iclasa sədrlik etmişdir.

Xarici işlər naziri konfrans çərçivəsində əfqanıstanlı, iranlı, iordaniyalı, fələstinli və omanlı həmkarları ilə görüşlər keçirmişdir. Görüşlərdə ikitərəfli münasibətlər, regiondakı vəziyyət müzakirə olunmuş, Elmar Məmmədyarov həmkarlarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş səylər və ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CNN-TÜRK TELEKANALINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında CNN-Türk telekanalının xəbər müdiri Gürkan Zənginə müsahibə vermişdir. Müsahibə CNN-Türk telekanalı ilə birbaşa yayımlanmışdır.

Jurnalist: Azərbaycanın paytaxtı Bakıdan xoş gördük. İndi Bakıda Prezident sarayındayıq və cümhurbaşqanı İlham Əliyevin qonağıyıq. Son bir neçə həftədə meydana çıxan hadisələr bizim Bakıya gəlməyimizə səbəb oldu. Azərbaycan müxalifətinin təmsilçiləri İstanbulda bir toplantıya qatılmaq üçün Türkiyədə idi, orada bir neçə mesajlar verildi.

Bu ilin noyabrında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Xüsusilə Ukrayna, Gürcüstan kimi ölkələrdə inqilabların baş verdiyi bir dövrdə bəziləri tərəfindən gündəliyə gətirilir ki, bunu Azərbaycanda da etmək olarmı? Seçkilər qarşısında müxalifətdəki canlanmanı da görürük.

Baş nazir Rəcəb Tayyib Ərdoğan sabah axşam Bakıya gəlir. Bu, onun Baş nazir kimi Azərbaycana ilk rəsmi səfəridir. Bütün bunlar və İranda yeni prezident seçilməsinin hadisələrə təsiri və sair məsələlər ətrafında söhbət aparılacaqdır. Aydındır ki, bu bölgə hər zaman hərəkətlidir. Qafqaz barədə çox danışmağa ehtiyac yoxdur. Təbii qaz, neft ehtiyatlarının mövcud olduğu bir bölgədir. Belə bir məqamda bu bölgədə iş görmək, siyasəti davam etdirmək çox çətindir. Mərhum dövlət başçısı Heydər Əliyev bu işin ustası idi. 2003-cü ildə o, dünyasını dəyişdikdən sonra yerinə oğlu İlham Əliyev gəldi və hazırda Prezidentdir.

Hörmətli cümhurbaşqanı, əvvəlcə bizi qəbul etdiyinizə, belə bir vaxtda müsahibə verdiyinizə görə Sizə təşəkkür edirik.

İlham Əliyev: Sağ olun.

Sual: Cənab Prezident, atanızdan danışdıq, Siz onun yerini tuta bilirsinizmi?

Cavab: Bunu ilk növbədə Azərbaycan xalqından soruşmaq lazımdır. Mən çalışıram, əlimdən gələni edirəm ki, seçkilərdən öncəki bütün vədləri yerinə yetirim. Azərbaycanı daha da inkişaf etdirək, ölkəmizi zənginləşdirək ki, həm bölgədə öz mövqelərini möhkəmləndirsin, həm də daxildə sabitlik pozulmasın, Azərbaycan iqtisadi cəhətdən daha da güclü olsun.

Bizim çoxlu planlarımız var, çoxlu layihələrimiz var. Deyə bilərəm ki, onların hamısı uğurla icra edilir. Son ilyarım ərzində, seçkilərdən keçən dövr ərzində Azərbaycanda çoxlu islahatlar aparıldı.

Jurnalist: Yəni, islahatlar hələ davam etdirilir.

İlham Əliyev: Bəli, islahatlar davam edir. Mən sizə bir-iki rəqəm gətirə bilərəm. Son ilyarım ərzində Azərbaycanda 220 min yeni iş yeri açılıbdır. Onların tam əksəriyyəti bölgələrdədir. Bu ilin ilk beş ayında iqtisadi artım 16 faiz olubdur. İl ərzində ümumi daxili məhsul 18-20 faiz artacaqdır.

Sual: Daxili siyasətdə bu islahatlar əsaslı şəkildə davam edir. Bunlar görünür, rəqəmləri də Siz dediniz. Atanız böyük siyasət, dövlət adamı idi. Ən önəmli xüsusiyyəti bu idi ki, İran, Rusiya, Türkiyə kimi bölgə ölkələri, bundan əlavə, Avropa, Amerika ilə tarazlaşdırılmış siyasət yürüdürdü. Deyə bilərsinizmi, Siz necə siyasət yürüdürsünüz, Sizin siyasətiniz nə üzərində qurulubdur?

Cavab: Bu gün Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. Onun strateji xətti dəyişməz olaraq qalır. Çünki bu, Azərbaycan xalqının tələbidir, zamanın tələbidir, məntiqin tələbidir. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, bəyənir və mənim Prezident vəzifəsinə seçilməyimdə də bu amil çox önəmli rol oynadı. Azərbaycan xalqı bu siyasətdə dəyişiklik istəmir. Bu siyasətin əsas mahiyyəti ondadır ki, o, Azərbaycanın milli maraqları zəminində qurulur, Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmalıdır.

Sual: Tarazlı siyasətə gəlincə, bilirik ki, 70-80 il bu ölkəyə təsiri olmuş Rusiya var. Rusiyanın Azərbaycan üzərində təsiri hələ varmı, varsa nə qədərdir?

Cavab: Azərbaycan üzərində başqa dövlətlərin təsiri çox zəifdir. Əgər biz keçmiş Sovet İttifaqının respublikalarına nəzər salsaq görərik ki, Azərbaycan bu baxımdan ən əlverişli vəziyyətdədir. Bunun da səbəbi məhz Heydər Əliyevin yürütdüyü siyasət idi. Bu gün Azərbaycana təzyiq etmək iqtidarında olan qüvvələrin sayı çox azdır. Bizə kim necə təsir edə bilər, kim öz təsirini necə göstərə bilər? Bu, mümkün deyildir. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsində maraqlıyıq və bunu edirik. O cümlədən qonşu dövlətlərlə əlaqələrimiz yaxşıdır. Ancaq Azərbaycan öz siyasətini özü aparır.

Sual: Sabahaxşam Türkiyənin Baş naziri hökumətin başçısı kimi Azərbaycana ilk dəfə rəsmi səfərə gələcəkdir. Türkiyə ilə əlaqələr sanki atanızın dövründə daha sıx ziyarətlərlə inkişaf edirdi. Soyuqluqmu yarandı, yoxsa ziyarətlər azaldı?

Cavab: Xeyr, xeyr, belə bir şey yoxdur. Bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Mənim cümhurbaşqanı kimi ilk səfərlərimdən biri də məhz Türkiyəyə olmuşdu və mən o səfərdən çox məmnunam. Bu günlərdə isə Türkiyənin Baş naziri Azərbaycana gəlir və bizim əlaqələrimiz çox sıxdır. Biz daim əlaqə saxlayırıq, telefonla danışırıq, bütün məsələləri müzakirə edirik. Türkiyədən Azərbaycana, Azərbaycandan Türkiyəyə müxtəlif heyətlər - nazirlər, parlament üzvləri, digər rəsmi şəxslər gəlir-gedir. Bizim aramızda çox sıx əlaqələr var. Deyə bilərəm ki, indiki şəraitdə bu əlaqələr yeni bir müstəviyə keçibdir. Bizim bölgədəki gücümüz, nüfuzumuz artır. Türkiyə və Azərbaycanın həyata keçirdikləri birgə layihələr nəticəsində bölgədə tam yeni bir mühit yaranır, ölkələrimizin önəmi artmaqdadır. Bizim sıx birgə olmağımız gələcək üçün mühüm üfüqlər açа bilər.

Sual: Müxalifətin bu günlərdə Türkiyədə olması səbəbi ilə bağlı mülahizələr söylənilir ki, Baş nazirin bu ziyarəti Azərbaycana noyabr seçkiləri yaxınlaşarkən edilir və daha çox demokratikləşmə yolunda mesajlar veriləcəkdir.

Cavab: Mən bu barədə bir şey deyə bilmərəm. Çünki bu bizim üçün müzakirə mövzusu deyildir.

Sual: Yəni nə mənada?

Cavab: Nədən olsun ki? Azərbaycanın vəziyyəti bu gün çox yaxşıdır. İctimai-siyasi vəziyyət bizi qane edir. Xalqla iqtidar arasında birlik var, vəhdət var. Biz xalqın dəstəyini hiss edirik. Bizim fəaliyyətimiz yüksək qiymətləndirilir. Azərbaycan bölgədə sabit ölkədir. Azərbaycan demokratik təsisatlarını inkişaf etdirir. Biz Avropa Birliyi ilə çox sıx əməkdaşlıq edirik. Avropa Şurası ilə məsələlərimizi həll edirik. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz çox yaxşıdır. Eyni zamanda, dediyim kimi, bizim iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı artım baxımından dünyada birinci yerdə olacaqdır.

Sual: Yəni bunumu söyləyirsiniz ki, iqtisadiyyatımız, siyasətimiz, demək olar, yaxşıdır. Türkiyə Baş nazirinin buraya daha çox demokratikləşmə mesajı gətirməsinə ehtiyac yoxdur?

Cavab: Bilirsiniz, hörmətli Baş nazirlə bizim əlaqələrimiz çox səmimidir. Biz dostuq, istənilən məsələni müzakirə edə bilərik və edirik də. Elə məsələ yoxdur ki, biz onu səmimi bir qardaş kimi, dost kimi danışmayaq. Sizə deyə bilərəm ki, bütün beynəlxalq tədbirlərdə ki, biz bir yerdə oluruq, daim görüşürük və saatlarla danışırıq. Ona görə bütün məsələlər müzakirə oluna bilər. Hesab edirəm ki, hansısa məsələni ümumi kontekstdən çıxarıb, ön plana çəkməyə lüzum yoxdur.

Sual: Bu gün Azərbaycanı bir demokratik ölkə kimi qiymətləndirə bilərsinizmi?

Cavab: Bəli, Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə inkişaf edən ölkədir. Azərbaycanda demokratiyanın inkişafı üçün bütün lazımi şərait mövcuddur. Siyasi partiyalar fəaliyyət göstərir. Söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı - bütün bunlar mövcuddur. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz çox müsbətdir. Xüsusilə, bilavasitə insan haqları ilə məşğul olan Avropa Şurası ilə bizim aramızda heç bir problem yoxdur. Azərbaycanda normal demokratik inkişaf üçün hər cür şərait var. Biz dövlət, hökumət olaraq əlimizdən gələni edirik ki, bunu daha da genişləndirək və bütün imkanları yaradaq.

Sual: Noyabr ayında Azərbaycanda parlament seçkiləri keçiriləcəkdir. Bu seçkilərin ədalətli keçəcəyinə təminat verə bilərsinizmi?

Cavab: İlk növbədə onu demək istəyirəm ki, prezident seçkilərində Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapıbdır. Bizə müxalif olan bəzi qüvvələr tarixi təhrif etməyə çalışırlar, rəy yaratmaq istəyirlər ki, guya prezident seçkilərində hansısa problem çıxdı. Heç bir problem çıxmadı. Avropa Birliyinin bəyanatına baxın, orada seçkilər çox müsbət qiymətləndirilir. Dünyanın aparıcı ölkələrinin bəyanatlarında da həmçinin. Bu yaxınlarda dünyada tanınmış Gellap İntərnəşnl təşkilatı Cənubi Qafqazda bir rəy sorğusu keçirdi.

Jurnalist: Yəni əhalinin rəyini öyrəndi.

İlham Əliyev: Bəli. Rəy sorğusunun nəticəsinin Azərbaycana aid hissəsi ondan ibarətdir ki, əhalinin 77 faizi Azərbaycan Prezidentinə inanır və onu dəstəkləyir. Bunu mən demirəm, bizim partiyamızın hansısa mətbu orqanı demir, Gellap İntərnəşnl deyir. Prezident seçkilərində qazandığım səslər isə 76 faizdir. Ona görə də prezident seçkiləri ilə bağlı müxalifət tərəfindən səslənən fikirlər uydurmalardır, əsassızdır.

Jurnalist: Amma Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı prezident seçkilərinin beynəlxalq standartlara uyğun olmadığını açıqladı.

İlham Əliyev: Təbii, standartlara uyğun gəlmədi. Amma bizim ölkəmizdə hansı bir məsələ standartlara uyğun gəlir?! Bir də ki, o standart nədir?! Təbii ki, çatışmazlıqlar, qanun pozuntuları olubdur. 600-dən çox məntəqədə seçkilərin nəticəsi ləğv edildi. Amma bu, o demək deyil ki, seçkilər ədalətsiz keçirildi, yaxud da seçkilərin nəticələri şübhə altındadır. Heç kim buna şübhə etmir.

O ki qaldı, parlament seçkilərinə, bu məsələdə də mən hesab edirəm ki, heç bir problem olmayacaqdır. Bu yaxınlarda mən seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam vermişəm. Bütün namizədlərə eyni, bərabər hüquqlar, şərait yaranacaqdır və mən şübhə etmirəm ki, parlament seçkiləri tam demokratik, şəffaf keçiriləcəkdir.

Sual: Müxalifət noyabr seçkilərinə hazırlaşır. Türkiyəyə səfər etdilər, orada türkiyəli yetkilərlə bəzi görüşlər keçirdilər. Bu, yəni onların Türkiyəyə getmələri, orada açıqlama vermələri Sizi narahat edirmi?

Cavab: Xeyr, xeyr. Məni qətiyyən narahat etmir. Ümumiyyətlə, Azərbaycan müxalifəti məni narahat etmir. Çünki onlar bizim üçün rəqib deyildir. Onların siyasi iflası artıq bir neçə il bundan əvvəl baş vermişdir. İndiki müxalifət Azərbaycanda iqtidarda idi. 1992-ci ildə müəyyən yollarla iqtidara gəlmişdi. Amma cəmi bir il qaldı.

Sual: Həm Xalq Cəbhəsini, həm də Müsavatı nəzərdə tutursunuz?

Cavab: Təbii, onlar cütlük idi, hakimiyyətə ikisi gəlmişdi. Bir il ərzində onlar hakimiyyəti itirdi. Nə üçün? Çünki Azərbaycan xalqı onların siyasətinə dözmədi, onları inkar etdi. 1993-cü ildən bu günə qədər bütün seçkilərdə - parlament və prezident seşkilərində onlar iflasa uğrayırlar. Sadəcə olaraq, o liderlərdə cəsarət çatmır ki, öz vəzifələrindən çəkilsinlər, yeni nəslə yol açsınlar. Azərbaycanda iqtidarda dəyişiklik baş verdi. 2003-cü ildən Azərbaycanda yeni Prezident seçildi və siyasət yürüdür. Müxalifətdə isə eyni simalar, eyni adamlar, eyni sözlər, eyni vədlər və eyni uğursuzluqlar. Ona görə müxalifətin nəyi harada deməsindən asılı olmayaraq, bu, bizi narahat etmir. Bu, birincisi.

İkincisi, bizim müxalifət başqa ölkələrə də - Avropa ölkələrinə, digər ölkələrə də səfərlər edir. Azərbaycanda demokratiya var. Hər bir insan, siyasətçi istədiyini söyləyə bilər, istədiyi insanla görüşə bilər. Bu, bizim üçün əsla bir problem deyildir.

Sual: Noyabr seçkiləri ədalətli keçərsə, bilmirəm, müxalifət nə qədər səs ala bilər. Xalqa güvənilirsə, seçki ilə bağlı problem olmamalıdır. Siz, seçkilərin ədalətli olacağına təminat verirsinizmi?

İlham Əliyev: Təbii, 2003-cü ildə keçirilən prezident seçkilərində də...

Jurnalist: Onda da olmadı.

İlham Əliyev: Mən prezident seçkilərində 76 faiz səs almışam, Gellap İnternəşnlin fikrinə görə məni 77 faiz dəstəkləyir. Əgər orda bir problem olardısa, bu rəqəm başqa olardı. Bu, onu deməyə əsas verir ki, o seçkilər Azərbaycan xalqının iradəsini əks etdiribdir. Parlament seçkilərində də eyni qaydada, kimin cəmiyyətdə hörməti var, siyasi biliyi var, getsin, seçilsin. Azərbaycan xalqı müdrik xalqdır. İstədiyi namizədə öz səsini verər.

Sual: Sanki müxalifətə Amerika dəstək verir kimi bir görüntü var. Gürcüstanda, Ukraynada, Qırğızıstanda olan inqilabların Azərbaycanda da ola biləcəyi yönümdə söhbətlər gəzir. Bunlar Sizi qorxudurmu, yəni orada olanlar burada da ola bilər deyə qorxursunuzmu?

Cavab: Ümumiyyətlə, məni heç nə qorxutmur. Çünki bu, Prezident vəzifəsi elə bir vəzifədir ki, əgər bu vəzifədə olan şəxsi nəsə qorxudursa, o, bu vəzifədən getməlidir. Mən öz vəzifələrimi cəsarətlə və inamla icra edirəm. Xalqın dəstəyinə, xalqın məhəbbətinə arxalanıram.

İkincisi, əlbəttə, paralellər ola bilər. Bəzi ölkələrdə inqilab oldu, bəzi ölkələrdə çevriliş oldu. İndi düşünürlər, əcəba, bu, başqa ölkələrdə də mümkündür, yoxsa yox? Hər bir ölkənin öz tarixi var, hər bir ölkədə gedən proseslər o ölkəyə aid proseslərdir.

Jurnalist: Yəni deyirsiniz ki, orada olub, amma Azərbaycanda olmaz.

İlham Əliyev: Mən burada bunun olmasına əsas görmürəm.

Sual: Məsələn, Ukraynada, Gürcüstanda olanlara təəccübləndinizmi?

Cavab: Xeyr, xeyr.

Sual: Niyə təəccüblənmədiniz?

İlham Əliyev: Mən nədən təəccüblənməliydim?!

Sual: Yəni orada elə bir potensialmı var idi?

Cavab: Bilirsiniz, orada əsas problem onda idi ki, iqtidarla xalq arasında inam yox idi, yaxud da çox az idi. Çünki orada həm sosial-iqtisadi durum, həm də rəhbərliyin fəaliyyəti artıq xalq tərəfindən o qədər də qəbul edilmirdi. Bir də ki, orada insanlar artıq uzun illər idi iqtidardaydı. Təbii ki, belə uzun zamandan sonra insanlarda bir növ yorğunluq yaranır, adamlar bir dəyişiklik istəyir.

Sual: Yəni yeni bir lider olmalıdır deyirsiniz?! Deyirsiniz ki, Azərbaycanda dəyişdi, elə-mi?

Cavab: Təbii.

Jurnalist: Dolayısı ilə xalq üçün bir yenilik var.

İlham Əliyev: Həm yenilik var, həm də xalqa xidmət var. Mən öz vəzifəmi ilk növbədə, bunda görürəm. Mən xalqımın xidmətçisiyəm. Bütün məmurlara da dəfələrlə açıq bəyan etmişəm ki, siz xalqın xidmətçilərisiniz. Gedin, xalqa ləyaqətlə xidmət edin. Kim xidmət etmirsə, o, vəzifədən dərhal çıxarılır. Ona görə əgər Prezident və hansısa başqa bir rəsmi şəxs xalqa ləyaqətlə xidmət edirsə və xalq da onu bəyənirsə, o, gərək öz fəaliyyətindən, öz vəziyyətindən arxayın olsun. Bu arxayınlıq, əminlik məndə də var.

Sual: Deyirsiniz ki, Azərbaycanda inqilabla devirmə ola bilməz?

Cavab: Qətiyyən.

Sual: Bəs, Amerika ilə əlaqələriniz necədir, Amerikaya güvənirsinizmi?

Cavab: Amerika bizim tərəfdaşımızdır, strateji tərəfdaşımızdır. Uzun illərdir Azərbaycan öz siyasətini Avratlantik məkanına inteqrasiya istiqamətində aparır. Bizim Amerika ilə müxtəlif sahələrdə çox sıx əməkdaşlığımız var. İlk növbədə, təhlükəsizlik sahəsində. Antiterror koalisiyasında bizim iştirakımız, enerji sektorundakı əməkdaşlığımız və burada həyata keçirilən böyük layihələr Amerikanın dəstəyi olmadan mümkün olmazdı. Ölkəmizdə demokratiyanın inkişafı sahəsində Amerika ilə biz çox sıx əməkdaşlıq edirik. Yəni bizim əlaqələrimiz çox möhkəm zəmin üzərində qurulubdur. Biz müttəfiqik və öz müttəfiqliyimizi sözdə deyil, əməldə sübut etmişik.

Sual: Amma "mən daha çox demokratiya istəyirəm, daha çox demokratik olan müttəfiqlər axtarıram, müttəfiqlərimin daha çox demokratik olmasını istəyirəm" - deyən açıqlamalar var. Belə bir siyasət izləyəcəklərini açıqladılar. Bu, önümüzdəki aylarda, günlərdə Sizə çətinlik yaratmaz ki?

Cavab: Mən inanmıram. Çünki bu, bizim məramımıza da uyğundur. Biz də istəyirik ki,

Azərbaycan daha da demokratik ölkə olsun. Azərbaycan dünya birliyində daha da möhkəm yerini tuta bilsin.

Sual: Siz, İlham Əliyev 2003-cü ildən bəri cümhurbaşqanısınız, Azərbaycanın daha demokratik bir ölkə olması üçün nə edirsiniz, son olaraq hansı addımları atdınız?

Cavab: İlk növbədə, biz Azərbaycanda müəyyən siyasi gərginliyə səbəb olan "siyasi məhbuslar" məsələsini həll etdik. Avropa Şurası qarşısında öz öhdəliyimizi yerinə yetirdik və siyasi baxışlara görə Azərbaycanda heç kim təqib olunmur, heç kim həbs olunmur. Biz keçmişdə olan bütün olayların altından sanki bir xətt çəkdik, bütün o insanların hamısını azadlığa buraxdıq. Bunu mən etdim, əfv etdim.

Digər tərəfdən, siyasi partiyaların normal fəaliyyəti üçün lazımi şərait yaradılır. Bu da gündəlik bir işdir. Yəni bu, birdəfəlik iş deyil ki, deyim, bu qərar qəbul edildi. Cəmiyyətdə normal siyasi dialoqun aparılması üçün addımlar atılır. Mən dəfələrlə bütün siyasi qurumlara açıq müraciət etdim ki, gəlin, siyasi dialoq aparaq. Gəlin, məsələni küçələrdə əlində daşla yox, əlində qələmlə masa arxasında çözək. Biz o qədər də böyük ölkə deyilik ki, burada bir-birimizlə mübarizə aparaq. Ona görə hesab edirəm ki, bu addımlar Azərbaycanda demokratiyanın inkişafı üçün çox önəmlidir. Əsas məsələ odur ki, bu addımlar qarşılıqlı olsun. Demokratiyanı Azərbaycanda təkcə iqtidar tətbiq edə bilməz. Əgər başqa tərəf bunu istəmirsə, yaxud başqa tərəf özünü çox davakar aparırsa, təbii ki, bizim də cavabımız ona uyğun olacaqdır.

Sual: Noyabr ayında parlament seçkiləri keçiriləcəkdir. Əgər müxalifət qələbə qazanarsa, Siz cümhurbaşqanı kimi müxalifətlə işləyərsinizmi?

Cavab: Mən istənilən qüvvə ilə çalışacağam. Kim qazanır qazansın, Azərbaycanda sərbəst seçkilər keçiriləcəkdir. Kim qələbə qazanarsa, o qüvvələrlə çalışacağam.

Sual: 2008-ci ildə prezident seçkilərində yenidən namizədliyinizi verəcəksinizmi?

Cavab: Əgər Azərbaycan xalqı məni dəstəkləyərsə, verərəm. Görsəm ki, xalq mənim fəaliyyətimi bəyənir, görsəm ki, mən Azərbaycan xalqına istədiyim xidməti etdim və xalq bunu bəyənir, onda təbii ki, verəcəyəm.

Sual: Müxalifət deyir ki, demokratiya, düzgünlük olmadığına görə, seçki kampaniyamızı mübarizə üzərində quracağıq, Azərbaycanda çox böyük rüşvət var və s. Bu barədə nə deyərdiniz?

Cavab: Müxalifətin deyə biləcəyi məsələlər tükənməkdədir. Artıq bizə heç bir irad tuta bilmir. Çünki bizim xarici siyasətimiz Azərbaycanın maraqlarına uyğundur və biz Ermənistanla danışıqlarda üstün mövqe əldə etmişik. Bizim hərbi potensialımız güclənir, iqtisadiyyatımız, insanların maaşları artır. Mənim dövrümdə, ilyarım ərzində minimum əmək haqqı 3 dəfə qaldırılıbdır. Yəni müxalifətin deyəcəyi bir söz qalmayıbdır. Rüşvət hər bir ölkədə var, o cümlədən Azərbaycanda da var, ən inkişaf etmiş ölkələrdə də var. Bunu heç kim inkar etmir. Amma biz mübarizə aparırıq. Necə? İnzibati yollarla mübarizə aparmaq çox çətindir. Adam dəyişməklə məsələ həll olunmur. Geniş özəlləşdirmə, liberallaşma, özəl sektora dəstək - bütün bu amillər korrupsiyanın və rüşvətin səviyyəsini yavaş-yavaş aşağı salır. Amma bu, çox uzunmüddətli bir prosesdir.

Baxın, rüşvət hansı ölkələrdə özünü daha da qabarıq göstərir? Postsovet ölkələrində.

Postsovet ölkələrini nə birləşdirirdi? Azərbaycanda, Rusiyada, Ukraynada, Moldovada, Baltikyanı ölkələrdə və başqalarında tam fərqli xalqlar yaşayırdı. Amma onları birləşdirən bir sistem idi, bir təfəkkür idi. O təfəkkür bu məsələnin belə kəskinləşməsinə gətirib çıxardı. Bununla mübarizə aparmaq üçün ciddi proqram hazırlanmalıdır. Biz bu proqramı qəbul etdik. Bizim Milli Məclis Antikorrupsiya haqqında qanun qəbul etdi. Antikorrupsiya qurumu yarandı və indi ciddi işlər aparılır.

Sual: Cənab Prezident, istərdim söhbətimizin ikinci hissəsində daha çox neft, təbii qaz məsələlərinə toxunaq. Bir əfsanə gerçəkləşdi: Bakı-Tbilisi-Ceyhan layihəsi həyata keçdi. Xeyirli olsun, hazırda neft boru ilə Ceyhana doğru getməkdədir. Sizcə, Ceyhanda keçiriləcək mərasimin vaxtı bəlli oldumu?

Cavab: Hələlik bəlli deyil, hər halda, ilin sonuna qədər bütün işlər tamamlanmalıdır.

Jurnalist: Yəni bu ilin sonunda neft Ceyhandan daşınacaqdır.

İlham Əliyev: Bəli.

Sual: Qazaxıstan neftinin də Bakı-Tbilisi-Ceyhan boru xəttindən axması sahəsində görüşlər keçirdiyinizi bilirik. Qazaxıstan nefti də gələcəkmi? Qazaxlar bu mövzuda vaxtaşırı açıqlamalar verirlər, müəyyən məsələləri söyləyirlər, lakin hələlik bir anlaşma əldə olunmur. Son vəziyyət necədir?

Cavab :Doğrudur, indi danışıqlar gedir, görüşürük. Qazaxıstan və Azərbaycan qurumlarının mütəxəssisləri görüşürlər. Hökumətlərarası bir saziş hazırlanıbdır. Demək olar ki, onun bütün əsas müddəaları razılaşdırılıbdır. Onun üzərində son işlər gedir. Ümid edirəm ki, yaxın zamanlarda biz onu da imzalayacağıq.

Jurnalist: Yəni Qazaxıstan nefti bu xətlə axacaqdır.

İlham Əliyev: Hər halda, bu, bizim üçün də, Qazaxıstan üçün də əlverişli olar. Çünki Qazaxıstan üçün yeni yollar, yeni alternativ yollar lazımdır. Qazaxıstan nefti bu gün ancaq Rusiyadan dünya bazarlarına ixrac edilir. O yol da boğazlardan keçir. Artıq Qazaxıstan çox böyük həcmdə neft ixrac edən ölkəyə çevrilir, 100 milyon ton neft çıxaracaqdır. Boğazlar bu nefti oradan keçirə bilməz. Buna gərək alternativ yol olsun.

Sual: Çox böyük bir rəqəmdir, Qazaxıstanın bu həcmdə nefti var. Aktau-Bakı-Tbilisi-Ceyhan kimi ayrıca bir neft boru xətti inşa edilə bilərmi? Uzun müddətdən sonra da olsa, buna ümidiniz varmı?

Cavab: İnanmıram ki, ona yaxın gələcəkdə ehtiyac olsun. Çünki Bakı-Tbilisi-Ceyhan boru xəttinin nəqletmə gücü gündə bir milyon barreldir. Əgər əlavə texniki işlər görülərsə, əlavə inşaat işləri görülərsə, onda biz bunu təxminən iki dəfə qaldıra bilərik.

Sual: Mən paralel olaraq ayrıca bir boru xəttinin inşasının mümkünlüyünü deyirəm. Bu, çox böyük vaxtmı tələb edər?

Cavab: Anlayıram, onu görə də deyirəm ki, ayrı xəttə bəlkə o qədər də böyük ehtiyac qalmaz. Çünki əgər biz nəqletmə gücünü ikiqat artırsaq, ayrı xəttə ehtiyac olmaz. Azərbaycan 50 milyon ton neft ixrac edəcəkdir. Qazaxıstan da təxminən 50 milyon ton neft ixrac etmək istəyərsə, bunun üçün əlavə xəttin çəkilməsinə ehtiyac olmaz. Bəlkə, 10 ildən sonra hasilat daha da böyüsə, onda düşünülə bilər.

Jurnalist: "Şahdəniz" təbii qaz layihəsi sanki işləmir.

Ilham Əliyev: İşləyir.

Sual: Ağırmı gedir?

Cavab: Xeyr, xeyr, işləyir.

Sual: Necə işləyir, yəni 2006-cı ildə inşaat işləri tamamlanmalıdır?

Cavab: Təbii, indi 2005-ci ildir, 2006-cı ilə hələ var.

Jurnalist: Həmin vaxtadək tamamlamaq mümkün olacaqmı, artıq 2005-ci ilin ortalarıdır.

İlham Əliyev: Heç bir şübhə yoxdur. "Şahdəniz" layihəsində işlərin 50 faizi artıq görülübdür. "Şahdəniz" yatağında qazma işləri gedir. Eyni zamanda xəttin inşası da davam edir. 2006-cı ilin sonunda "Şahdəniz" layihəsi də başa çatacaqdır.

Sual: Bu layihədə Azərbaycan təbii qazının Ərzurumdan Qərbə, Avropa ölkələrinə göndərilməsi də müzakirə olunur. Türkiyənin yerinə yetirməsi üçün müəyyən vəzifələri varmı, ümumiyyətlə, Sizin bu məsələdə Türkiyədən gözlədiyiniz bir şey, yaxud şikayətiniz varmı?

Cavab: Xeyr, xeyr. Bütün sazişlər imzalanıbdır. Lazım olan bütün qərarlar verilibdir. Mən sizə deyə bilərəm ki, bu sahəni çox yaxşı bilirəm. Çünki mən 9 il bu sahədə çalışmışam və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrində çox fəal iştirak etmişəm. Türkiyə ilə Azərbaycan arasında heç bir zaman hansısa problem ortaya çıxmamışdır. Bu gün də yoxdur. Biz bir komanda kimi çalışırıq, bütün qərarları veririk və ümid edirəm ki, heç bir problem çıxmaz. Azərbaycan qazı vaxtında Türkiyəyə, ondan sonra, ümid edirəm ki, gələcəkdə Türkiyənin üzərindən Yunanıstana və Avropanın digər ölkələrinə nəql ediləcəkdir. Beləliklə, Avropa istehlakçıları əlavə alternativ bir qaz mənbəyinə sahib olacaqlar.

Bu layihə təkcə bizim üçün deyil, Avropa üçün də çox önəmlidir. Avropa Birliyi ilə artıq bizim görüşlərimiz başlanıbdır.

Jurnalist: Mən onu soruşmaq istəyirəm. Türkiyə ilə Azərbaycan arasında belə bir anlaşma varmı? Bildiyimə görə, konsorsium bu qazın Avropaya göndərilməsi sahəsində hər hansı bir qərar verməmişdir.

İlham Əliyev: Hələ ki, bir az tezdir. Çünki baxın, Türkiyənin ilkin mərhələdə qaza tələbatı 6 milyard kubmetrdir. Azərbaycanın öz tələbatı da var. Çünki biz bu gün özümüz qaz idxal edirik. Bizə də əlavə 3 milyard kubmetr qaz lazımdır. Gürcüstanın tələbatı artır. Çünki Gürcüstanın Prezidenti bizdən rica edibdir ki, onlara da 2-3 milyard kubmetr qaz artıraq. Beləliklə, hələlik Avropaya gedə biləcək qaz yoxdur. Yalnız 2010-cu ildən sonra, qaz hasilatı artdıqca buna nail olacağıq. Hasilat ildə 20-25 milyard kubmetrə çatandan sonra, bəlkə ondan da bir az tez Azərbaycan qazı Avropaya gedəcəkdir.

Sual: Amma yenə də konsorsium qərara gələ bilməzmi ki, təbii qazın hasilatı artan zaman Türkiyə üzərindən Avropaya göndəriləcəkdir? Bəlkə başqa seçimlər üzərində dayanılıbdır?

Cavab: Bilirsiniz, qaz Avropaya Yunanıstan üzərindən keçə bilər. Bildiyiniz kimi, Türkiyə və Yunanıstan qazpaylayıcı şəbəkələrini birləşdirirlər. Eyni zamanda, Azərbaycanla Yunanıstan arasında artıq bu sahədə məsləhətləşmələr başlanmış, yəni ilkin addımlar atılıbdır. İndi ehtiyac olarsa, biz bu danışıqları, görüşləri sürətləndirə də bilərik. Çünki prinsipial razılaşma var.

Jurnalist: Yəni ilkin razılaşma var.

İlham Əliyev: Yəni sözdə, prinsipdə var. Biz bu sahədə başqa ölkələrlə də danışırıq. Balkan yarımadasında yerləşən ölkələrlə, Ukrayna ilə, Moldova ilə. Bunun gələcəkdə böyük bir faydası olacaqdır.

Sual: Siz Azərbaycanın dövlət başçısı olaraq Avropaya göndəriləcək təbii qazın Türkiyə üzərindən göndərilməsi məsələsində qərarlısınız?

Cavab: Təbii.

Jurnalist: Deyirsiniz ki, bu yol budur.

İlham Əliyev: Bəli, budur. Biz bu xətti tikirik. "Şahdəniz" layihəsi məhz bu yolun təntənəsi deməkdir.

Sual: Amma İranın, Suriyanın da təbii qazı var. Avropaya digər ölkələrdən, Əlcəzairdən və digər bölgələrdən qaz nəqli anlaşmaları ola bilər. Belə olan halda, Siz bu işin gecikməsindən qorxmursunuz ki?

Cavab: Xeyr. İlk növbədə ona görə ki, Avropa Birliyinin qanunlarına görə burada inhisarçılıq ola bilməz. Ona görə bir mənbədən qaz almazlar.

Jurnalist: Demək, gərək rəqabət olsun.

İlham Əliyev: Digər tərəfdən, bizim qazımız ucuz olacaqdır. Çünki nəqliyyat xərcləri ucuzdur və əlbəttə, biz daha əlverişli qiymət təklif edə bilərik. Ona görə biz rəqabətdən qorxmuruq. Qaza daim bazar olacaq və biz də zamanında bu bazara çox fəal girəcəyik.

Sual: Təbii qaz məsələsi çox önəmlidir. Bakı-Tbilisi-Ceyhan birinci mərhələdir, ikinci mərhələdə isə Türkmənistan və Azərbaycan qazını Avropaya nəql etmək istiqamətində Türkiyə böyük işlər gözləyir. Amma gördüyümüz kimi Azərbaycanla Türkmənistan arasında təbii qaz və neft məsələsində fikir ayrılıqları var. Bu sahədə bir uzlaşma varmı, görüşlər keçirilirmi? Bu ixtilaflar həll edilmədən təbii qazın Türkiyə üzərindən Avropaya nəqli də mümkün olmayacaq kimi görünür. Bu, vacib məsələdir. Türkmənistanla müzakirələr aparırsınızmı?

Cavab: Bilirsiniz, mən bir məsələyə aydınlıq gətirmək istəyirəm. Bəzi hallarda yanlış təsəvvür yaranır. Bu məsələnin səbəbkarı Azərbaycan deyildir. Yəni belə çıxmasın ki, Türkmənistan qazı verməyə hazırdır, amma Azərbaycanla ixtilaf olunduğuna görə bu qaz Türkiyəyə, Avropaya getmir. Elə deyildir.

Türkmənistan Rusiya ilə uzunmüddətli alqı-satqı müqaviləsi bağlamışdır. Bu müqaviləyə görə Türkmənistanın bütün qazı Rusiyaya satılır. Ona görə indi Türkmənistanda Türkiyəyə gedə biləcək qaz yoxdur. Bunu etmək üçün o, ya gərək Rusiya ilə anlaşmasını pozsun, - mən də buna çox inanmıram, - ya da bilmirəm, qazı haradan gətirəcəkdir. Ona görə bizim Türkmənistanla olan bəzi problemlərimiz bu məsələnin əsas səbəbi deyildir. Ancaq eyni zamanda, bu problemlər var. Bunun da səbəbkarı biz deyilik. Biz öz siyasə-

timizi yalnız beynəlxalq hüquq əsasında qururuq. Beynəlxalq məhkəmə var. Biz oraya getməyə hazırıq. Çünki biz işimizi əsaslı qururuq, ekspertlərlə qururuq. Azərbaycanın neft sənayesinə xarici şirkətlər tərəfindən 10 milyard dollardan çox vəsait qoyulubdur. Əgər onlarda zərrə qədər şübhə olsaydı ki, Türkmənistan iddia etdiyi kimi, bu yataqlar mübahisəlidir, bir manat da qoymazdılar. Ona görə biz hazırıq ki, türkmən qardaşlarımızla bunu danışıqlar yolu ilə, xoş niyyət çərçivəsində həll edək. Amma bu, təkcə bizdən asılı deyildir.

Sual: Hazırda bu məsələ ilə bağlı bir mexanizm varmı, zaman-zaman görüşürsünüzmü, heyətlər gəlib gedirlərmi?

Cavab: Bəli, danışıqlar davam edir, görüşlər də var, lakin nəticə yoxdur. Amma proses var. Ümid edirik ki, bir nəticəyə gələcəyik.

Sual: Türkmənistanla bağlı neft sahəsində də bəzi problemlər var. Sizcə, Xəzərin hüquqi statusu ilə bağlı problem nədədir?

Cavab: Ümumiyyətlə, oradakı problem Xəzərin statusu ilə bağlıdır. Yəqin, bilirsiniz ki, Xəzəryanı üç ölkə - Rusiya, Qazaxıstan, Azərbaycan öz aralarında və yenə də beynəlxalq hüquq əsasında anlaşma imzalayıb, bütün məsələləri çözüblər. Türkmənistanla İranın başqa yanaşmaları var. Ona görə ekspertlər indi vaxtaşırı yığışırlar, müzakirələr gedir, görüşlər davam edir.

Sual: Məlumdur ki, Dağlıq Qarabağ da daxil olmaqla ölkənizin 20 faiz ərazisi erməni işğalı altındadır. Bu işğal bitmədi, danışıqlarda heç bir nəticə yoxdur. Türkiyə-Ermənistan əlaqələri, Türkiyə-Azərbaycan əlaqələri, Azərbaycan-Ermənistan əlaqələri ilə bağlı fərqli düşüncələr var. Sizcə, paket halında bir həll necə ola bilər? Yəni önümüzdəki üç-beş ildə köklü bir çözüm ola bilərmi? Bununla bağlı nə deyə bilərsiniz?

Cavab: Mən düşünürəm ki, bu məsələ Ermənistanla Azərbaycan arasında həll olunmalıdır. Artıq bu format müəyyən edilib və danışıqlar bu formatda aparılır. Ermənistan çox istəyir ki, Dağlıq Qarabağı da bu məsələyə qatsın. Fəqət, biz buna etiraz edirik.

Jurnalist: Yəni, bir tərəf kimi qatmaq istəyir.

İlham Əliyev: Bəli. Çünki bizim torpaqlarımızı Dağlıq Qarabağ deyil, Ermənistan işğal edibdir. Hesab edirəm ki, indi görüşlər müsbət istiqamətdə gedir. Çünki artıq beynəlxalq təşkilatlarda, bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunda da artıq real təsəvvür yaranıb ki, Azərbaycan heç zaman Dağlıq Qarabağı güzəştə getməz, heç zaman öz ərazi bütövlüyünün pozulması ilə razı ola bilməz. Biz Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verməyə hazırıq. Onların təhlükəsizliyini təmin etməyə hazırıq. O cümlədən beynəlxalq təşkilatlarla birlikdə. Ancaq Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi pozulmamalıdır və ərazi bütövlüyü bərpa olunmalıdır. Hesab edirəm ki, bu, dünyada qəbul olunmuş təcrübəyə uyğundur. Baxın, dünyada nə qədər muxtariyyətlər var, milli azlıqlar var. Avropada milli azlıqlar var.

Jurnalist: Yəni Azərbaycan bunları etməyə hazırdır, ancaq ərazi bütövlüyündə güzəştə getməzsiniz.

İlham Əliyev: Bəli. Gürcüstanda 400 min erməni var. Onlar orada müstəqillik tələb etmir. 500 min azərbaycanlı var. Onlar da heç bir şey tələb etmir. İtaliyada Avstriya azlığı

var. Onlar muxtariyyət kimi yaşayır. Onlar da o ölkəni, o hissəni ayırmaq fikrində deyillər. Nə üçün ermənilər bu iddiada olmalıdırlar və ermənilərin iddiası nə üçün müzakirə mövzusuna çevrilməlidir? Əgər ermənilər yaşadıqları bütün ölkələrdə muxtariyyət yaratmaq istəsələr, onda dünyada bəlkə ondan çox erməni dövləti yarana bilər. Bu, heç bir məntiqə və beynəlxalq hüquqa uyğun deyildir. Bizim mövqeyimiz açıqdır. Biz istəyirik ki, məsələni hüquqi çərçivədə həll edək və öz siyasətimizi bu istiqamətdə aparırıq.

Jurnalist: Cənab Prezident, deyirsiniz ki, illərdir görüşlər davam edir, danışıqlarda müəyyən irəliləmə var.

İlham Əliyev: Yəni ümidlər var. Deyə bilmərəm ki, irəliləmə var. İrəliləmə o zaman olacaq ki, biz hansısa bir məsələni, nəyi isə artıq razılaşaq. Amma ümidlər var. Çünki dünyada gedən proseslər ermənilərin xeyrinə deyildir. Bölgədə siyasi mənzərə dəyişir. Azərbaycan Avratlantik məkanın bir tərəfi kimi, artıq sürətlə NATO ilə, Avropa Birliyi ilə, Amerika ilə çox sıx əlaqədədir. Ermənistanın siyasəti başqadır, Ermənistanın da müttəfiqləri başqa tərəfdədir.

İqtisadi potensial baxımından Ermənistan bizimlə rəqabət apara bilməz, bu, mümkün deyildir. Bu gün bizim büdcəmiz onların büdcəsindən 4 dəfə böyükdür. Mən hökumət qarşısında vəzifə qoymuşam ki, büdcəmiz 10 dəfə böyük olmalıdır. Ermənistanın büdcəsi nə qədərdisə, bizim büdcəmiz ondan 10 dəfə böyük olmalıdır. Buna nail olacağıq.

Onların işğalçı siyasəti artıq beynəlxalq təşkilatlarda qınaq obyektinə çevrilir. Avropa Şurası bir qətnamə qəbul edibdir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib və etnik təmizləmə siyasəti aparmışdır. Yəni onların çıxış yolu yoxdur.

Jurnalist: Demək, bu münaqişədə gedişat Azərbaycanın lehinədir və mütləq nəticə əldə olunacaqdır.

İlham Əliyev: Təbii, təbii. Ona görə gərək biz öz mövqelərimizi gücləndirək. Biz - Türkiyə və Azərbaycan siyasi müttəfiqik. Bölgədə yerləşən digər ölkələrlə bizim müttəfiqliyimiz çox önəmlidir. Məsələn, biz indi Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu üzərində çalışırıq. Türkiyə, Gürcüstan və Azərbaycan bölgədə çox önəmli gücə çevrilir. Ona görə mən şübhə etmirəm ki, biz bu məsələni həll edəcəyik. Sadəcə olaraq, mən istəyirəm ki, bunu qansız-qadasız, sülh yolu ilə edək.

Jurnalist: Cənab Prezident, suallarımıza ətraflı cavab verdiyiniz üçün çox-çox təşəkkür edirik.

İlham Əliyev: Sağ olun.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA SƏFƏRİ

İyunun 30-da, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Azərbaycanın Prezidenti Türkiyənin Baş nazirini bir daha səmimiyyətlə salamlayaraq, onun Bakıya ilk rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin gələcək inkişafında

böyük əhəmiyyəti olacağını vurğuladı. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin tutduğu mövqeyə və Azərbaycana verdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycanla ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu söylədi, beynəlxalq təşkilatlarda mövcud əməkdaşlığın gələcəkdə davam edəcəyini və Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI

İyunun 30-da, geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ikitərəfli sənədlərin imzalanması mərasimi olmuşdur.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan Birgə rəsmi məlumat imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında texniki əməkdaşlıq haqqında protokolu Azərbaycan tərəfdən Baş nazirin müavini Abid Şərifov, Türkiyə tərəfdən dövlət naziri Bəşir Atalay, Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən kənd təsərrüfatı naziri İsmət Abasov, Türkiyə tərəfdən dövlət naziri Mehmed Aydın imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Baş nazirin müavini Abid Şərifov, Türkiyə tərəfdən dövlət naziri Bəşir Atalay imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 30-da Prezident sarayında, Azərbaycan-Türkiyə sənədləri imzalandıqdan sonra Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Rəcəb Tayyib Ərdoğan Azərbaycanda rəsmi səfərdədir. Bu, bizi çox sevindirir. Hesab edirəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır və Türkiyə ilə Azərbaycan, iki dost, qardaş ölkə həmişə olduğu kimi, bundan sonra da çox sıx əməkdaşlıq edəcəkdir.

Biz ikitərəfli münasibətlərə böyük önəm veririk, bu münasibətləri çox yüksək qiymətləndiririk. Bizim aramızda olan qardaşlıq, dostluq münasibətləri hər iki ölkənin inkişafı üçün önəmlidir. Eyni zamanda, bölgədə gedən proseslərə də müsbət təsir göstərir. Bölgədə sülhün, sabitliyin bərqərar olunması, təhlükəsizlik sisteminin möhkəmlənməsi, bölgədə gedən irimiqyaslı regional layihələrin həyata keçirilməsi bizim üçün və Türkiyə üçün çox önəmlidir. Bizim birgə fəaliyyətimiz qarşıda duran bütün məsələlərin həllinə böyük dəstəkdir, böyük töhfədir.

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində daim Azərbaycanın yanında olub və bu gün də Azərbaycanın yanındadır. Azərbaycanın haqlı mövqeyini müdafiə edir, onu dəstəkləyir və bütün beynəlxalq təşkilatlarda Azərbaycanın səsinə səs verir. Bu dəstəyə, bu qardaşlığa görə biz Türkiyə hökumətinə, Türkiyə dövlətinə, Türkiyə xalqına minnətdarıq. Biz ümid edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və bir milyondan artıq qaçqın, köçkün soydaşımız öz doğma torpağına qayıdacaqdır. Bunu etmək üçün təbii ki, siyasi-diplomatik səylər davam etdirilməlidir. Amma eyni zamanda, Azərbaycan öz siyasi və iqtisadi potensialını daha da gücləndirməlidir.

Bu yaxınlarda istismara verdiyimiz, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin təzahürü, onun nəticəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurlu fəaliyyəti bölgədə sabitliyin, iqtisadi inkişafın və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayacaqdır. Bakı-Tbilisi-Ceyhan layihəsi dünyanın ən böyük enerji layihəsidir və birgə səylər nəticəsində biz bu layihəni həyata keçirdik, əfsanəni gerçəkliyə çevirdik. Bu layihə və bundan sonrakı Bakı-Tbilisi-Ərzurum qaz layihəsi Türkiyənin və Azərbaycanın bölgədəki rolunu və nüfuzunu daha da artıracaq və gələcəkdə bizim iqtisadi və siyasi mövqeyimizə xidmət edəcəkdir. Biz çox istəyirik ki, aramızda olan ticarət əlaqələri daha da genişlənsin. Bu gün bu barədə geniş söhbət aparıldı. Ticarət dövriyyəmiz artır, 2005-ci ildə 2004-cü ilə nisbətən təxminən 50 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Amma onu da bilirik ki, bu, bizim iqtisadi potensialımızı əks etdirmir. Potensial daha da böyükdür. Əminəm ki, bu gün apardığımız danışıqlar gələcəkdə iqtisadi və ticarət əlaqələrimizin inkişafına kömək göstərəcəkdir.

Biz bu gün hörmətli Baş nazirlə müxtəlif mövzular ətrafında fikir mübadiləsi apardıq. Əlbəttə ki, ikitərəfli münasibətlər, bölgədə gedən proseslər müzakirə olundu. Beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz haqqında fikir mübadiləsi edildi. Bir daha demək istəyirəm ki, danışdığımız bütün məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür, heç bir fikir ayrılığı yoxdur və bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan münasibətləri çox sağlam zəmində qurulubdur. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, möhkəmlənəcək, Türkiyə və Azərbaycan xalqları qardaş kimi birlikdə yaşayacaq, öz potensiallarını daha da gücləndirəcək və bölgədə gedən proseslərə bundan sonra da təsir göstərəcəklər.

Hörmətli Baş nazirin Azərbaycana səfəri ilə əlaqədar bir daha öz dərin məmnunluğumu

bildirmək istəyirəm. Əminəm ki, bu səfər uğurlu keçəcək, gələcək əməkdaşlığımız üçün gözəl addım olacaqdır. Təşəkkür edirəm.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

- Hörmətli cümhurbaşqanının bu anlamlı açıqlamalarına görə çox təşəkkür edirəm. Dünən axşamdan etibarən gördüyümüz qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyəti adından çox-çox təşəkkür edirəm.

İstər təkbətək görüşümüzdə, istərsə də heyətlərarası görüşdə Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələri müzakirə etdik. Siyasi sahədə xüsusilə Türkiyə-Azərbaycan əlaqələri, beynəlxalq əməkdaşlıq məsələləri diqqət mərkəzində oldu.

Hörmətli Cümhurbaşqanının da ifadə etdiyi kimi, beynəlxalq təşkilatlar və qurumlarda birgə əməkdaşlığımız qardaş və dost olan iki ölkənin istəyi şəklində davam etməkdədir və atdığımız addımlar mühümdür. Bu yöndəki əməkdaşlıq hər zaman əsas sayılmışdır və təbii ki, gələcəkdə də bu şəkildə davam edəcəkdir. Mərhum Cümhurbaşqanı Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" fikri bizi gələcəyə doğru inamla aparır.

Kipr barədə aparılan siyasətimizlə bağlı məsələlərə də toxunuldu. Bu sahədə işlər davam etdiriləcəkdir. Bir çox işlərin Azərbaycan tərəfindən də görüləcəyinin müjdəsini hörmətli Cümhurbaşqanından aldıq. Bundan məmnunluq və sevinc duyuruq. Bunlar çarter reysləri, oradakı bir çox iqtisadi-ticarət işlərinin birlikdə görülməsidir. Bu sahələrdə atılacaq addımlar doğrudan da sevindiricidir.

İstər Avropa Şurasında, istərsə də NATO-da fəaliyyətimizdə Azərbaycanı indiyə qədər necə dəstəkləmişiksə, gələcəkdə də bunu davam etdirəcəyimizi bir daha bildiririk. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu günə qədər olan siyasətimizi eyni şəkildə davam etdiririk. Ermənistanla münaqişə məsələsində Türkiyə bu günə qədər Azərbaycanı necə yalnız buraxmamışsa, bundan sonra da buraxmayacaqdır. Xüsusilə Dağlıq Qarabağ məsələsinə yanaşma tərzimiz Azərbaycanın siyasəti ilə, yanaşma tərzi ilə eynidir. Bizə gələn təklif və tələblərə bu günə qədər eyni cavabı verdik.

Bildiyiniz kimi, Avropa Şurasının Ermənistanı işğalçı elan etməsi ilə bağlı qərarı Türkiyənin də xüsusi səyləri ilə əldə olunmuş bir nəticədir. Dolayısı ilə işğalçının üzərinə düşən vəzifə işğal etdiyi yerdən çəkilməsidir. Bunun yerinə yetirilməsi vacibdir. Türkiyə olaraq biz bunun danışıqlar vasitəsilə çözümünün tərəfdarıyıq. Amma bu çözüm Ermənistanın işğal etdiyi ərazilərdən çəkilməsi ilə mümkündür.

Digər bir məsələ aramızdakı iqtisadi-ticarət əlaqələri ilə bağlıdır. Bir az əvvəl hörmətli Cümhurbaşqanının da ifadə etdiyi kimi, əslində hər iki ölkənin bu sahədə əməkdaşlığı lazımi səviyyədə deyildir. Ona görə bunu irəlilətməyimiz lazımdır. Ən əsası, ticarətin həcmini qısa zamanda bir milyard dollara çatdırmaqdır. Hazırkı rəqəm çox kiçikdir. İnanıram ki, bu sahədə iş adamlarımızın qarşılıqlı surətdə atacağı addımlarla biz bu məqsədə də çatacağıq.

Biz artıq Bakı-Tbilisi-Ceyhan enerji dəhlizini başa çatdırırıq. Bu enerji dəhlizində başlanğıc və son nöqtə iki ölkəyə aiddir və bu, Gürcüstanla birlikdə üçlüyü qovuşduracaq-

dır. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz xətti var. Hazırda addımlar sürətlə atılır. Təbii, bu, enerji dəhlizi olmaqla bərabər, nə qədər önəm daşıyan bir mərhələyə daxil olduğumuzu da göstərməkdədir. Bu, gələcək üçün bir xüsusi önəmin ifadəsidir. Bu məsələdə də düşüncələrimiz eynidir və müştərək bir çox addımlar atacağıq.

İnşallah, oktyabrın 27-də Ceyhandan tankerə ilk neft yüklənəcəkdir. Bunu səbirsizliklə gözləyirik. Hörmətli Cümhurbaşqanı dəvətimizi qəbul etdi. Düzdür, işin sahibi sizsiniz. Təbii, mən bu dəvəti formal olaraq dedim, belə bir dəvət gərəksiz idi, amma bunu etmək etikadan irəli gəlir. Bakıda boru xəttinə ilk neft vurulduğu zaman həyəcan necə yaşandısa, həmin həyəcanı bu dəfə oktyabrın 27-də ilk nefti tankerə yükləyərkən birlikdə yaşayacağıq.

Mədəniyyət sahəsindəki qarşılıqlı əlaqələrimizi daha da möhkəmləndirməli və genişləndirməliyik.

Biz hörmətli Cümhurbaşqanına bir təkliflə də müraciət etdik. İstəyirik ki, Türkiyə-Azərbaycan Ticarət Palatası yaradılsın. Hörmətli Cümhurbaşqanı bu təklifimizi çox müsbət qarşıladı. İnşallah, hər iki ölkənin iş adamları, Türkiyə Palatalar və Birjalar Birliyi, Türk İş Adamları və Sənayeçilər Birliyi TÜSİAB qarşılıqlı surətdə bir araya gələrək, belə bir palatanı gerçəkləşdirəcəklər. Necə ki, hökumətlər arasında müştərək iqtisadi komissiya quruldu, sənayeçi və iş adamları arasında, özəl sektorda da belə bir qurumun yaradılması ölkələrimiz arasında münasibətləri daha da yüksək səviyyəyə çatdıracaqdır. Belə bir fürsət qazandığımız üçün çox-çox təşəkkür edərək, bizi izləyən sevimli Azərbaycan qardaşlarımıza öz adımdan və millətim adından sevgi və salamlarımı yetirmək istəyirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.

Sual: Mənim sualım hörmətli Prezident İlham Əliyevədir. Kipr məsələsində Azərbaycan hansı addımlar atacaq, bu barədə fikriniz necə olacaqdır?

Azərbaycanın və Türkiyənin yaxın qonşusu olan İranda yeni Prezident seçildi. Sizcə, bu, bölgədəki siyasətə və Azərbaycana necə təsir göstərəcəkdir?

Ilham Əliyev: Bu məsələ bu gün müzakirə olundu və Azərbaycan öz mövqeyini bir daha ifadə etdi. Biz Şimali Kiprin təcrid olunmuş vəziyyətdən çıxması üçün əlimizdən gələni etməyə hazırıq. Artıq hörmətli Baş nazir də bu məsələləri açıqladı. Mən bu gün məlumat verdim ki, Azərbaycanın müxtəlif şirkətləri Şimali Kiprdə öz ofislərini açacaqlar, o cümlədən turizm şirkətləri bu işlərlə məşğul olacaqlar. Azərbaycandan Şimali Kiprə uçuşlar təşkil ediləcək və lazım olan başqa tədbirlər görüləcəkdir. Mən hesab edirəm ki, yaxın zamanlarda Azərbaycanın iş adamlarından ibarət heyətin Şimali Kiprə getməsi də məqsədəuyğun olar.

Biz çox təəssüflənirik ki, Kiprdə keçirilmiş referendum ümidlərimizi doğrultmadı. Ancaq buna görə Kiprdə yaşayan türk qardaşlarımızın belə vəziyyətdə yaşamasının davam etməsinə, əlbəttə, heç kim razı ola bilməz. Kipr türkləri bu təcriddən çıxmalıdır. Artıq İslam Konfransı Təşkilatında çox önəmli qərarlar qəbul edilibdir. Əminəm ki, bu, ilkin, çox vacib addımlardır. Hesab edirəm ki, gələcəkdə başqa beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulmalıdır. Beləliklə, orada insanların təcrid olunmuş vəziyyətdə yaşama-

sına son qoyulmalıdır və qoyulacaqdır. Azərbaycanın payına nə düşürsə, biz bunu etməyə hazırıq və edəcəyik. Əlbəttə ki, Türkiyə ilə məsləhətləşmələr əsasında.

İranla bizim aramızda çox yaxşı əlaqələr var. Son müddət ərzində bir neçə iqtisadi layihə həyata keçirilir, ticarət əlaqələrimiz güclənir və biz istəyirik ki, iki ölkə arasında əlaqələr bundan sonra da inkişaf etsin. Mən bu ilin əvvəlində İrana rəsmi səfər etmişdim, çox önəmli məsələlər müzakirə olundu. Təbriz şəhərində Azərbaycanın Baş konsulluğu açılmışdır. Ümid edirəm ki, biz yeni rəhbərliklə səmərəli işləyəcək, hər iki ölkənin maraqlarına cavab verən məsələləri həll edəcəyik.

Sual: Mənim sualım hörmətli Baş nazir Ərdoğanadır. Cənab Baş nazir, Türkiyənin Avropa Birliyinə qəbul edilməsi üçün qoyulan şərtlər sırasında Ermənistanla sərhədlərin açılması və qondarma "erməni soyqırımı"nın tanınması kimi müddəaların olduğu bildirilir. Sizcə, Dağlıq Qarabağ münaqişəsi həll olunmayacağı təqdirdə sərhədlərin açılması nə dərəcədə mümkündür?

Rəcəb Tayyib Ərdoğan: Avropa Birliyinin Kopenhagen siyasi meyarları içərisində və digər meyarlar içərisində belə bir şərt yoxdur, belə bir məsələ yoxdur və Türkiyəyə belə bir şərtlər qoyulmamışdır. Belə bir şeyi qəbul etməyimiz də mümkün deyildir. Bu, Türkiyənin öz qərarıdır. Türkiyə bu sahədə öz qərarını necə verəcəyini də çox yaxşı bilir. Biz indiyə qədər hansı mövzularda anlaşdıqsa, Kopenhagen siyasi meyarlarında nə varsa, bunları yerinə yetirdik. Hazırda şərtlər açıqlanmışdır. Bu da dekabrın 17-dəki müzakirələr zamanı hansı məsələlərlə bağlı idisə, onlara zidd olmayan, yəni paralel şəkildə gözlənən məsələlərdir. Bu gözlənilən məsələlər istiqamətində biz oktyabrın 3-də müzakirələrə başlayacağıq.

Sual: Mənim sualım cənab Baş nazirədir. Siz dediniz ki, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi mövcud potensialdan qat-qat aşağıdır. Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin artmasına nə mane olur? Siz Azərbaycandakı sərmayə mühitini necə dəyərləndirirsiniz?

Rəcəb Tayyib Ərdoğan: Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində, şübhəsiz, bəzi qarşılıqlı tədbirlərin görülməsi vacibdir. Yükdaşıma sahəsində, xüsusilə yük maşınlarının sayının artırılması və sair sahələrdə həll edilməli məsələlər vardır. Bunlarla bağlı hörmətli Cümhurbaşqanı lazım olan təlimatları verdi. Bunlar artırılacaqdır. Təbii ki, əgər özəl sektorlarımızın nümayəndələri qarşılıqlı surətdə fəaliyyətlərini gücləndirərsə, bu əlaqələr çox sürətlənər. Ona görə də əgər Türkiyə-Azərbaycan Ticarət Palatası ideyasını gerçəkləşdirsək, inanıram ki, bu sahə çox sürətlə inkişaf edəcəkdir. Biz bu məsələni yaxından izləyəcəyik. Çünki bizə bu işləri görməyimiz və uğur qazanmağımız lazımdır.

Sual: Hörmətli Cümhurbaşqanı, bilirsiniz ki, bölgədə demokratiya sahəsində bəzi hadisələr olur. Amerikanın ortaya atdığı genişləndirilmiş Orta Şərq layihəsi onların dediyinə görə, bu bölgəni də əhatə edir. Demokratiyanın bu bölgə üçün önəmini və Azərbaycandakı perspektivləri barədə açıqlama verə bilərsinizmi?

Ilham Əliyev: Bölgədə demokratiyanın inkişafı çox önəmlidir. Azərbaycan bu istiqamətdə çox önəmli addımları atmaqdadır. Biz hesab edirik ki, yalnız demokratik cəmiyyətdə hər bir insan sərbəst, azad şəkildə yaşaya və öz istədiklərinə nail ola bilər. Ona

görə Azərbaycanın bu məsələdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı bizim üçün çox önəmlidir. Azərbaycanda son illər ərzində demokratiyanın inkişafı istiqamətində çox önəmli addımlar atılıb və bu gün ölkəmiz demokratiya yolu ilə inamla gedir.

Azərbaycanın iqtisadi gələcəyi çox uğurludur. Apardığımız iqtisadi islahatlar Azərbaycanı güclü ölkəyə çevirəcəkdir. Deyə bilərəm ki, bu ilin beş ayında ölkəmizdə iqtisadi artım 16 faiz olubdur. Son bir il ərzində ölkədə 220 min yeni iş yeri açılıbdır. Mən əminəm ki, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Ona görə yoxsulluğun azaldılması, işsizliyin aradan götürülməsi demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir. Amma onu da bilirik ki, iqtisadi potensial nə qədər güclü olursa-olsun, əgər ölkədə demokratiya tam bərqərar olunmasa, o ölkə normal inkişaf edə bilməz. Ona görə Azərbaycanın bu istiqamətdə atdığı addımlar, hesab edirəm ki, çox müsbətdir. Bu, beynəlxalq təşkilatlar tərəfindən də bəyənilir. Mən şübhə etmirəm ki, Azərbaycan demokratiya yolu ilə bundan sonra da inamla gedəcəkdir.

Sual: Cənab Prezident, xarici işlər nazirlərinin Parisdəki görüşündə müəyyən məsələlərdə xüsusi razılıq əldə olunduğu bildirilir. Bu il avqustun sonunda liderlərin zirvə toplantısı çərçivəsində keçirəcəyiniz görüşdə mühüm anlaşmanın ola biləcəyi düşünülür. Bu məsələ ilə bağlı fikrinizi bilmək olarmı?

Ilham Əliyev: Ümumiyyətlə, mən hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında danışıqlar bu gün müsbət istiqamətdə aparılır. Azərbaycanın mövqeyi yalnız beynəlxalq hüquq normalarına, dünyada mövcud olan təcrübəyə əsaslanır və hüquqi, siyasi cəhətdən bizim mövqeyimiz üstünlük təşkil edir. Son müddət ərzində danışıqlarda müşahidə olunan canlanma ümid etməyə əsas verir. Əgər bu ümid olmasaydı, onda danışıqların davam etdirilməsinə ehtiyac olmazdı.

Beynəlxalq təşkilatlarda bu məsələyə baxışlar dəyişir. Avropa Şurası bu məsələyə dair qətnamə qəbul etdikdən sonra danışıqların aparılması üçün yeni zəmin yarandı. Ermənistan ilk dəfə olaraq, beynəlxalq təşkilat tərəfindən təcavüzkar ölkə kimi tanındı. Ermənistanın Azərbaycana qarşı etdiyi etnik təmizləmə siyasəti o qətnamədə öz əksini tapdı. Beləliklə, danışıqların davam etdirilməsi üçün yeni bir şərait yaranır. Mən şübhə etmirəm ki, haqq-ədalət öz yolunu tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Çünki bunu məntiq tələb edir, zaman tələb edir və yenə də demək istəyirəm ki, beynəlxalq hüquq normaları bunu tələb edir.

Ermənistanın mövqeyi tamamilə başqa zəmində qurulur. Onların mövqeyi yalnız öz arzularına söykənir, onların xülyalarına söykənir. Beynəlxalq aləm bu mövqeyi qəbul etmir. İşğalçı siyasət heç bir dövlət tərəfindən rəğbətlə qarşılana bilməz. Ona görə danışıqlarda gedən proseslər artıq deməyə əsas verir ki, bu yanaşma, ədalətli yanaşma üstünlük əldə edir. Ermənistanın uzun illər ərzində apardığı qeyri-konstruktiv siyasət imkan vermirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapsın. Biz ümid edirik ki, bu mərhələdə irəliləyişə nail ola bilərik. Ümid edirik ki, Azərbaycanın həm siyasi, həm diplomatik, həm də iqtisadi uğurları bizim mövqeyimizi daha da gücləndirəcəkdir.

Sual: Cənab Baş nazir, bu yaxınlarda Rusiya öz hərbi bazalarını Gürcüstandan çıxarıb bir hissəsini Ermənistanda yerləşdirdi və bu, region ölkələrinin çox böyük narazılığına səbəb olmuşdur. Azərbaycan buna görə öz hərbi xərclərini artırmalı oldu. Türkiyənin

bu yerdəyişməyə münasibəti necədir və bununla bağlı hansısa addım atacağı gözlənilirmi?

Rəcəb Tayyib Ərdoğan: Bu addım, hər şeydən əvvəl, Rusiya Federasiyasının öz işidir, öz qərarıdır. Bizə sadəcə, bu qərarı izləmək düşər, bu qərara hər hansı fərqli yanaşmamız ola bilməz. Bu onun haqqıdır və bundan istifadə etmişdir. Bu, Ermənistanın qərarıdır, yəni Ermənistan bunu qəbul etmişsə, buna bizim deməyə hər hansı bir fikrimiz yoxdur. Düşünürəm ki, bunun bizimlə heç bir əlaqəsi yoxdur.

TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

İyunun 30-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlətimizin başçısını və dost ölkənin Baş nazirini alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Türkiyə Cümhuriyyətinin Baş naziri, mənim qardaşım Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatır. Deyə bilərəm ki, səfər çox uğurlu idi. Apardığımız danışıqlar, keçirdiyimiz görüşlər bizi bir daha əmin etdi ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr ən yüksək səviyyədədir, bizim dostluğumuz, qardaşlığımız xalqlarımız üçün, gələcəyimiz üçün çox önəmli bir amildir. Biz bütün zamanlarda bir yerdə olmuşuq. Bütün zamanlarda bir-birimizə dayaq-dəstək olmuşuq.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra biz Türkiyənin dəstəyini, köməyini daim hiss edirik və bu dəstəyə görə qardaş kimi minnətdaram. Azərbaycanın ən ağır anlarında Türkiyə daim bizim yanımızda idi, bizi dəstəkləyirdi. Azərbaycanın haqq işinin dünya birliyində müdafiə olunmasında Türkiyə dövlətinin, hökumətinin rolu müstəsna əhəmiyyət daşıyırdı. Bizi ən çox narahat edən, Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Türkiyənin dəstəyini, yardımını hər an hiss edirik, onu duyuruq və bu bizə çox böyük dəstəkdir.

Azərbaycan bu münaqişəni dinc yolla, danışıqlar yolu ilə həll etməyə çalışır. Ancaq onu da bilməliyik ki, bu məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Etnik təmizləmə siyasətindən əziyyət çəkən bir milyon azərbaycanlı qaçqın və köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Artıq beynəlxalq təşkilatlar bu məsələyə daha böyük diqqətlə yanaşırlar. Yenə də xüsusilə qeyd etmək istəyirəm ki, Türkiyənin bu işdə fəaliyyəti, dünyadakı nüfuzu, beynəlxalq təşkilatlardakı rolu bu məsələnin ədalətli həlli işində çox mühüm rol oynayır.

Bizi birləşdirən müştərək tariximizdir, etnik köklərimizdir, dinimiz, dilimiz, mədəniyyətimizdir. Azərbaycan xalqı və Türkiyə xalqı əsrlər boyu milli mənliklərini qoruyub saxlamışlar və bu gün də müstəqil dövlətlər kimi dünya birliyində öz layiqli yerlərini tutublar. Bizim gücümüz birliyimizdədir. Biz bunu hiss edirik, bunun müsbət nəticələrini görürük. Bu gün mən dünyada Türkiyə və Azərbaycan kimi ikinci müttəfiq ölkələr tanımıram. Bu müttəfiqlik tarixi köklərə əsaslanır, bizim birgə maraqlarımıza, Azərbaycan və türk xalqlarının iradəsinə, arzusuna əsaslanır. Bizim vəzifəmiz ondan ibarətdir ki, bu dostluğu, qardaşlığı daha da möhkəmləndirək, onu əbədi edək.

Böyük öndər Mustafa Kamal Atatürkün sözləri yadıma düşür: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məşhur ifadəsi yada düşür: "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir". Bu, həqiqətən, bizim gələcəyimizi müəyyən edəcək amillərdir. Azərbaycan və Türkiyə birliyi, qardaşlığı möhkəm zəmində qurulubdur. Mən şübhə etmirəm ki, gələcəkdə bizim birgə fəaliyyətimiz bölgədə gedən proseslərə müsbət təsir edəcək və bölgədəki çəkimizi artıracaqdır.

Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bütün bölgə üçün, bütün region üçün bir örnəkdir. Bizim birgə səylərimiz nəticəsində bölgədə ən böyük enerji layihəsi - Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi həyata keçirilir. Bildiyiniz kimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri qeyd edilərək, bu kəmərə Heydər Əliyevin adı verildi. Eyni zamanda, böyük minnətdarlıq hissi ilə demək istəyirəm ki, Türkiyənin Ceyhan limanına da Heydər Əliyevin adı verilibdir. Bu qərar Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu, Heydər Əliyevin xatirəsinə olan böyük hörmətdir.

Bu fürsətdən istifadə edib bildirmək istəyirəm ki, son vaxtlar Türkiyənin müxtəlif yerlərində Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi Azərbaycan xalqında böyük minnətdarlıq hissi oyadır və mən Azərbaycan xalqının Prezidenti kimi türk xalqına bu diqqətə, bu qayğıya, bu məhəbbətə, bu münasibətə görə Türkiyə dövlətinə, hökumətinə öz minnətdarlığımı bildirirəm.

Bizi gələcəkdə daha böyük layihələr gözləyir. Bu gün Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi haqqında fikir mübadiləsi aparıldı. Məmnunluq hissi ilə bildirildi ki, bu layihə uğurla icra edilir və gələn ilin sonuna qədər biz Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsini qeyd edəcəyik. Eyni zamanda, bölgədə işbirliyinin inkişafı üçün mühüm əhəmiyyət daşıyan Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsi də müzakirə olundu və ümid edirəm ki, bu istiqamətdə də lazımi addımlar atılacaqdır. Bizim beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz də çox uğurludur.

Türkiyə-Azərbaycan əlaqələri haqqında saatlarla məhəbbətlə, sevgi ilə danışmaq olar. Mən sizin vaxtınızı çox almaq istəmirəm. Bu gün çoxlu görüşlər oldu, çoxlu nitqlər söylənildi. Ancaq onu demək istəyirəm ki, biz Azərbaycanda bu ikitərəfli münasibətlərə xüsusi yer ayırırıq. Bu münasibətlər müstəsna xarakter daşıyır. Bunlar Azərbaycan və Türkiyə üçün lazımdır. Bizim ölkələrimizin inkişafı üçün lazımdır. Gələcək nəsillərin rahat, firavan yaşaması üçün lazımdır. Amma eyni zamanda, bu münasibətlər bizim ürə-

yimizdə yaşayır. Biz qardaşıq, bizi heç nə ayıra bilməz. Türk və Azərbaycan xalqlarının xoşbəxt gələcəyi bizim birliyimizdədir.

Hörmətli Baş nazir, mən Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Sizə və bütün türk xalqına xoşbəxtlik, səadət, firavanlıq arzulayıram. Sağ olun.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NİTQİ

- Çox hörmətli Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əvvəlcə, Azərbaycana bu rəsmi səfərə gəldiyimiz andan indiyə qədər bizə göstərilən qonaqsevərliyə, qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyəti adından ən səmimi təşəkkürümü bildirmək istəyirəm.

Hazırda biz öz evimizdəyik. Gəldiyimiz andan bəri bunun incəliyini, nəzakətini hiss edirik, bunu hamımız görürük. İstər Cümhurbaşqanı ilə təkbətək görüşdə, istərsə də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşümüzdə Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə bundan sonra da davam edəcək inkişafı, atılacaq addımları eninə-uzununa müzakirə etmək fürsəti qazandıq. Məsələlərə regional baxımdan yanaşdıq. Daha da inkişaf üçün, sərmayələr qoymaq üçün qarşılıqlı surətdə nə işlər görə bilərik, hansı addımları ata bilərik kimi məsələləri müzakirə etdik. İnanıram ki, bundan sonrakı dövr daha fərqli surətdə inkişaf edəcək bir dövrdür.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum təbii qaz xətti inşa olunacaqdır. Bu il oktyabrın 27-də Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə axacaq ilk neft Ceyhanda tankerlərə yüklənəcəkdir. Bununla da Azərbaycan, Gürcüstan və Türkiyə ciddi bir enerji dəhlizini reallaşdıracaqdır. Daha sonra təbii qaz xətti yenə eyni şəkildə bu enerji dəhlizini reallaşdıracaqdır. Hələ biz buna elektrik enerjisini əlavə etdiyimiz zaman, inanıram ki, bu dəhliz çox fərqli, güclü hala gələcəkdir. Biz bunu həyata keçirmək iqtidarındayıq. Belə bir siyasi iradə hər iki tərəfdə vardır və bunu bacarmağımız üçün özümüzdəki iradəni görürük. Bunları gerçəkləşdirməyə borcluyuq. İstər Azərbaycan, istərsə də Türkiyə bu işləri qardaşlığa lazım olduğu üçün yerinə yetirmək əzmindədir.

Bu gün iş adamlarımızla birgə toplantı keçirdik. Orada da bu məsələlər barədə fikir mübadiləsi apardıq. Azərbaycanda, Türkiyədə müştərək formada bəzi sahələrə sərmayələr qoymaq məqsədi ilə, üçüncü ölkələrə də sərmayə qoymaq üçün aramızda mövcud olan siyasi birliyimizlə yanaşı, iqtisadi birliyimizi də göstərən addımları atmaq istəyirik. Türkiyə-Azərbaycan Ticarət Palatasını yaratmaq fikrindəyik. Hörmətli Cümhurbaşqanımızın da buna müsbət münasibətini müşahidə etdik. Hökumətlər arasında müştərək iqtisadi əməkdaşlıq komissiyası fəaliyyət göstərir. Amma özəl sektor üzrə də bir qurum işləsə, inanıram ki, bu inkişafı sürətləndirəcək, gücləndirəcəkdir. Biz bunu müxtəlif ölkələrlə həyata keçiririk. İngiltərə ilə Türkiyə, Almaniya ilə Türkiyə arasında belə palatalar var. Qardaşımız Azərbaycanla Türkiyə arasında nə üçün olmasın? Bu günə qədər olmaması gecikməyimizin ifadəsidir. Bunu reallaşdırmaq əzmində olmağımıza inanırıq.

Digər bir mühüm addım xüsusilə beynəlxalq terrorizmə qarşı birgə mübarizədir. Bilirsiniz ki, terror dini, irqi, milləti, vətəni olmayan, kimi harada, nə zaman, necə, nəyə görə vuracağı bəlli olmayan bir xəstəlikdir, bəladır. Buna qarşı mübarizə aparacağıq. Xalqlarımızın xoşbəxtliyi, firavanlığı üçün mübarizə aparacağıq ki, onları bu terror bəlasından hər zaman təhlükəsiz vəziyyətdə olduqlarına inandıraq, bunu hiss etdirək. Bu məsələdə də güc strukturlarımız bir-birilə vaxtaşırı əlaqələr yaradırlar.

Birliyimiz, həmrəyliyimiz bu günün birliyi, həmrəyliyi deyil, tarixdən gələn dərin tellərin zərurətidir. Qardaş olaraq bunu gələcəyə ötürmək məcburiyyətindəyik. İnanıram ki, bunu bacaracağıq və bunu etməkdə qərarlıyıq. Bizim münasibətlərimiz sadəcə belə toplantılardan ibarət deyil və belə olmamalıdır. Farsların gözəl bir sözü var, mənim çox xoşuma gəlir. Deyirlər ki, "oturdular, danışdılar və dağıldılar". Yəni oturarsınız, gözəl yeməklər yeyərsiniz, çay içərsiniz, sonra da heç bir qərar qəbul etmədən, nəticəyə varmadan dağılıb gedərsiniz. Biz belə deyilik və belə də olmamalıyıq. Biz qəbul etdiyimiz qərarları nəticəyə bağlayacağıq. Ondan sonra bu işin nəticəsini görən hər iki dövlət, inşallah, ortaq mənfəətlə bu işi gələcəyə ötürəcəkdir. Bu bir həmrəylik ruhudur. Biz inanırıq ki, bunu bacaracağıq.

Mən nümayəndə heyətimizə göstərdikləri xoş münasibətə görə hörmətli Cümhurbaşqanına, Milli Məclisin sədrinə, həmkarım Baş nazirə, bütün nazirlərə şəxsən öz adımdan, nümayəndə heyəti adından, millətim və ölkəm adından bir daha təşəkkür edir, sevgi və hörmətimi bildirirəm.

Sonra Azərbaycanın incəsənət ustalarının iştirakı ilə konsert oldu.

Rəsmi qəbuldan sonra Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan incəsənət ustaları ilə səmimi görüşüb, onlara təşəkkürlərini bildirdilər.

Prezident İlham Əliyev ölkəmizə rəsmi səfərdən xatirə olaraq Baş nazir Rəcəb Tayyib Ərdoğana fotoalbom və videokaset təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİR XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB VƏ AVROPA İSLAM ÖLKƏLƏRİ ÜZRƏ TEXNİKİ YARDIM FONDUNUN BAŞ KATİBİ ƏLİ CƏLAL BATSYUNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Prezident sarayında Misir Xarici İşlər Nazirliyinin MDB və Avropa İslam Ölkələri üzrə Texniki Yardım Fondunun baş katibi Əli Cəlal Batsyunini qəbul etmişdir.

Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı bu əlaqələrin, xüsusilə iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi üçün böyük perspektivlərin olduğunu vurğuladı.

Azərbaycan ilə Misir arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini söyləyən qonaq Misir Prezidenti Hüsni Mübarəkin səmimi salamlarını və dərin ehtiramını Prezident İlham Əliyevə çatdırdı.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə Misir Prezidenti Hüsni Mübarək arasında vaxtilə möhkəm dostluq əlaqələrinin olduğunu xatırladan Əli Cəlal Batsyuni ölkələ-

rimizin əməkdaşlığının inkişafında bu dostluğun xüsusi rol oynadığını vurğuladı. O, dövlətimizin başçısına müraciətlə dedi: Cənab Prezident, Sizin müdrik rəhbərliyiniz altında Azərbaycanda həyata keçirilən işlər Misirdə böyük maraqla izlənilir.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarının və dərin ehtiramının Prezident Hüsni Mübarəkə çatdırılmasını xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AQO" MONİTORİNQ QRUPU NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Prezident sarayında "Aqo" monitorinq qrupunun nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı "Aqo" monitorinq qrupunun nümayəndə heyətinin Azərbaycana növbəti səfərinin qarşılıqlı maraq doğuran məsələlərlə daha yaxından tanış olması üçün yaxşı imkan yaratdığını vurğuladı, ölkəmizdəki demokratik inkişaf prosesləri barədə qonaqlara ətraflı söhbət açdı.

Qrupun rəhbəri - Almaniyanın Avropa Şurasındakı daimi nümayəndəsi Roland Vegener əvvəlki səfərlərindən ötən dövr ərzində Azərbaycanda müxtəlif sahələrdə böyük irəliləyişlərin şahidi olduqlarını söylədi. O, Prezident İlham Əliyevin imzaladığı əfv fərmanlarını, seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncamı, penitensiar sahədəki müsbət dəyişiklikləri, məhbusların hüquq və mənafelərinin müdafiəsi, qarşıdakı parlament seçkilərində namizədlərə bərabər imkanların yaradılması üçün görülən tədbirləri, iqtidarla müxalifət arasındakı dialoq təşəbbüsünü, mitinqlərin keçirilməsinə icazə verilməsini demokratik inkişafın bütün istiqamətlərindəki müsbət irəliləyişlər kimi dəyərləndirdi və bu prosesin çox yaxşı həyata keçirildiyini vurğuladı.

Roland Vegener Prezident İlham Əliyevin SNN-Türk telekanalına müsahibəsində Azərbaycanda gedən demokratik proseslər barədə verdiyi ətraflı məlumatların "Aqo" monitorinq qrupu tərəfindən maraqla izlənildiyini bildirdi. Qarşıdakı parlament seçkilərinin çox böyük əhəmiyyət daşıdığını bildirən qonaq dedi ki, bu, Azərbaycanda çox mühüm siyasi hadisə olacaqdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "STAR" TELEVİZİYASININ SİYASİ İCMALÇISI ARDAN ZENTÜRKƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Türkiyənin nüfuzlu "Nöqtə" həftəlik ictimai-siyasi jurnalının baş redaktoru, "Star" qəzetinin köşə yazarı və "Star" televiziya kanalının siyasi icmalçısı Ardan Zentürkə müsahibə vermişdir.

Jurnalist: Gördüyümüz bu meydan haqqında çox danışmayacağam, bura Bakının məşhur Azadlıq meydanıdır. Azərbaycan türk millətinin müstəqillik aləvunu ilk yandırdığı meydandır. Burada gördüyümüz bayraq əbəs yerə dalğalanmır, orada əvvəllər Leninin heykəli vardı. Amma aşağıdakı tribunada Azərbaycanın 1918-ci ildə milli cümhuriyyətin bayrağı olaraq qəbul edilmiş bugünkü milli bayrağı qaldırıldı. Bunları haradan bilirəm? Mən o anlarda burada idim.

İndi isə Azərbaycanın paytaxtı Bakı inanılmaz bir strateji paytaxt kimi qiymətləndirilir və bütün dünyanın gözü yenə bu torpaqda, bu paytaxtdadır. 16 il əvvəl burada müstəqillik uğrunda mübarizə aparılırdı, 16 il sonra böyük bir strategiyadan danışılır. Bu, böyük bir uğurdur. Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətimizə bu uğurların tarixindən başlamağı vacib bildim.

İlham Əliyev: Bu, Azərbaycan tarixində çox müstəsna hadisə idi. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin gələcəyi çox da aydın deyildi. Çünki əsil müstəqillik sadəcə olaraq, dövlət atributlarının mövcudluğu deyildir. Bayraq, himn - təbii ki, bunlar atributdur. Əsil müstəqillik isə odur ki, ölkə öz siyasətini müstəqil şəkildə apara bilsin. Azərbaycanın o vaxtkı durumu çox çətin idi. Çox böyük problemlər mövcud idi. Ölkədə iqtisadi böhran var idi. Xaricdən təzyiqlər, daxildə çəkişmələr, sui-qəsdlər, çevriliş cəhdləri vardı. Biz bütün bunları yaşadıq və sizə açıq deyə bilərəm ki, mən tam əminəm, yalnız Heydər Əliyevin qətiyyəti, onun müdrikliyi, siyasəti Azərbaycanı o böyük bəlalardan qurtardı və bu gün ölkəmiz çox inamla inkişaf edir. Bölgədəki mövqelərimiz güclənir. İqtisadi potensialımız artır. Ölkədə gedən islahatlar öz nəticələrini verməkdədir və hər gün, hər an Azərbaycan daha da möhkəm olur. Bizim müstəqilliyimiz daha da güclənir və əlbəttə ki, bu, bizim üçün böyük xoşbəxtlikdir, sevincdir.

Sual: Hörmətli Heydər Əliyev lap vaxtında hakimiyyətə qayıtdı, bundan sonra baş verənləri biz Türkiyədə yaxından izlədik. Hörmətli Heydər Əliyev hansı strategiya ilə bu müstəqilliyi möhkəmləndirdi, nəyə önəm verdi? Əsas məqamları bilmək istərdim.

Cavab: Zənn edirəm ki, müxtəlif amillər rol oynadı. Amma ilk başlanğıcda təbii ki, sabitliyin bərpa olunması başlıca şərt idi. Çünki sabitlik olmayan yerdə inkişafdan söhbət açmaq mümkün deyildir. Burada o vaxt fəaliyyət göstərən qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Ondan sonra hakimiyyət uğrunda mübarizə aparan qüvvələr də zərərsizləşdirildi və sabitlik yarandı. Ondan sonra inkişaf başladı. Əgər biz iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, Azərbaycanda inkişaf 1996-cı ildən sonra başladı. 1996-cı ilə qədər bir tənəzzül var idi. 1996-cı ildə ən təhlükə törədən amillər ortadan götürüləndən sonra ölkə, elə bil ki, nəfəs aldı və inkişaf etməyə başladı.

Sual: Azərbaycan xüsusilə Qafqaz bölgəsində getdikcə artan strateji əhəmiyyətə malikdir. Bunu hamı yazır, deyir və biz də bilirik. Sizcə, bu strateji əhəmiyyətin arxasında sadəcə neftmi var?

Cavab: Zənn etmirəm ki, sadəcə neft olsun. Çünki neft başqa yerlərdə də var, başqa ölkələrdə də var. Azərbaycanın mövqeyi, Azərbaycanın bölgədəki artan potensialı əlbəttə ki, onu bu bölgədə əhəmiyyətli ölkəyə çevirir. Burada həm insan potensialı çox güclüdür, həm də qonşu dövlətlərlə münasibətlərimiz, Avropa ilə, Avratlantik məkanı ilə sıx işbirliyimiz, təbii ki, bizim önəmimizi artırdı. Azərbaycan antiterror koalisiyasında çox fəal bir ölkədir. Bizim əsgərlərimiz dünyanın müxtəlif yerlərində sülhməramlı funksiyalarını yerinə yetirirlər. Əlbəttə ki, Azərbaycan ərazisindən keçən nəqliyyat, enerji dəhlizləri və digər infrastrukturun mövcudluğu bizim respublikamızı bölgədə çox önəmli ölkəyə çevirir.

Sual: Bu günlərdə bölgə baxımından iki mühüm ölkənin liderləri olaraq Siz və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan görüşdünüz. Azərbaycan xüsusilə Kipr türkləri baxımından çox mühüm bir mövqe açıqladı. Bu, Türkiyənin israrlı tələbi ilə oldu, yoxsa qardaş bir diyarın probleminə şərik olmaq arzusundan irəli gəldi?

Cavab: Xeyr, xeyr. Bu, təbii duyğularımızdır. Türkiyə və Azərbaycan iki qardaş ölkədir. Hörmətli Baş nazir burada olarkən mən öz çıxışımda da söylədim ki, dünyada başqa iki ölkə yoxdur ki, bir-birinə belə sıx bağlı olsun, bir-birinə belə yaxın olsun. Ona görə Kipr məsələsində biz daim Türkiyənin yanındayıq. Mən Türkiyəyə rəsmi səfər etdiyim zaman, hələ bir il bundan öncə bu məsələ ilə bağlı açıq bəyan etdim ki, Azərbaycan ön sıralarda olacaqdır. İndi zaman yetişdi və biz gərək bu ön sıralarda duraq. Çox önəmli addımlar atılmaqdadır. Artıq bütün təlimatlar verilibdir. Bu yaxınlarda birbaşa uçuşlar başlanacaq, bizim şirkətlərin ofisləri açılacaqdır. Bu gün təlimat verdim ki, bizim işçi heyət - həm dövlət rəsmiləri, həm də özəl sektorun üzvləri bu yaxınlarda Kiprə səfər etsinlər və bütün əlaqələr mövcud olsun. Yəni Kipr türklərinin təcrid edilmiş vəziyyətdən çıxması üçün biz ön sırada olmalıyıq.

Jurnalist: Ön sırada olmalısınız. Çünki xatırladığımız kimi, Azərbaycanın müstəqilliyinin tanınmasında da Türkiyə ön sırada idi.

İlham Əliyev: Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir.

Sual: Mən strateji tərəfdaşlıq ifadəsindən çox istifadə etmək istəmirəm. Sizcə, bu qardaşlıq qarşıdakı illərdə bölgəyə necə təsir edəcəkdir? Türkiyə ilə Azərbaycan demək olar ki, bütün beynəlxalq problemlərlə bağlı birgə hərəkət edirlər.

Cavab: Bizim xalqımızın ümummilli lideri, öndərimiz Heydər Əliyevin bu məşhur kəlamı var: Biz bir millət, iki dövlətik. Bu prinsiplər bizim üçün çox əzizdir və öz siyasətimizi bunun üzərində qururuq. Əlbəttə ki, strateji maraqlar, mənafelər də önəmlidir, ancaq bunun təməlində də ürəkdən ürəyə gedən yollar durur. Bu gün bizim strateji işbirliyimiz bölgədə gedən proseslərə çox güclü təsir göstərir. Bizim birgə həyata keçirdiyimiz böyük layihələr - Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, ondan sonra gələcək Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu xətti - bütün bunlar bölgədə tamamilə yeni bir şərait yaradır.

Bu mərhələdə Türkiyənin və Azərbaycanın bölgədəki çəkisi artmaqdadır. Bizim iştirakımız olmadan burada heç bir layihə həyata keçə bilməz. Heç bir ciddi məsələ - nə iqtisadi, nə siyasi, nə də başqa məsələ bizim iştirakımız olmadan həll edilə bilməz.

Jurnalist:Türkiyə və Azərbaycanın iştirakı olmadan...

İlham Əliyev: Bəli. Türkiyə və Azərbaycanın. Ona görə bizim birliyimiz, əlbəttə ki, xalqlarımızın tələbidir. Xalqlar bunu tələb edirlər və biz, bu gün xalqlara rəhbərlik edən insanlar da eyni fikirdəyik. Amma eyni zamanda, strateji nöqteyi-nəzərdən gələcəkdə türk dünyasının möhkəmlənməsi işində bu, başlıca şərtdir.

Sual: Bu əməkdaşlıq, qardaşlıq, bir az əvvəl qeyd etdiyiniz mənzərə çərçivəsində Qafqazda həlledici rol oynayacaq bu münasibətlər çərçivəsində baxdıqda Dağlıq Qarabağdakı problemin həllinin gələcəyini necə görürsünüz?

Cavab: Mən hiss edirəm və görürəm ki, dünyada gedən proseslər, qloballaşma siyasəti,

Avropanın genişlənməsi, dünyada gedən demokratikləşmə prosesləri bu məsələnin Azərbaycanın xeyrinə həll olunmasına gətirib çıxaracaqdır. Çünki bu proseslər bizim xeyrimizədir. Əlavə etsək ki, Azərbaycanın iqtisadi potensialı artır, hərbi potensial artır və Ermənistanla müqayisədə Azərbaycan daha çox inkişaf etmiş bir ölkədir, sabah bu fərq, bu uçurum daha da böyüyəcək, mən şübhə etmirəm ki, biz öz torpaqlarımızı işğaldan azad edəcəyik. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz məsələnin beynəlxalq hüquq əsasında həll olunmasını istəyirik və bunda təkid edirik. Haqq-ədalət bizim tərəfimizdədir. Dünyada gedən, bölgədə gedən proseslər bizə əl verir. Hərbi gücümüz möhkəmlənibdir. Ona görə mən düşünürəm ki, əgər Ermənistan rəhbərləri daha konstruktiv mövqe tutarsa və işğal olunmuş torpaqlardan qoşunları qeyd-şərtsiz çıxararsa, bu, onların marağına cavab verər.

Sual: Burada bir az "şeytana vəkillik" etmək istəyirəm. Nədənsə, Azərbaycan ilə Türkiyə beynəlxalq səviyyədə haqlı olduqları bəzi məsələləri dünyaya tam çatdıra bilmirlər. Misal üçün, biz Kipr məsələsini illər boyu beynəlxalq ictimaiyyətə çatdıra bilmədik. Siz, torpaqlarınız işğal altında ikən, gedib dərdinizi dünyaya çatdırmaq məcburiyyətində qaldınız. Cənab Prezident, nə üçün məsələ türklərə gələndə ədalət prinsipi bir az yavaş işləyir?

Cavab: Mən sizinlə tamamilə razıyam. Amma hesab edirəm ki, bu bizim ləng hərəkətimizdən, yaxud da məsələni az anlatmağımızdan irəli gəlmir. Biz on ildən artıqdır ki, həqiqəti dünya ictimaiyyəti qarşısına qoymuşuq, fəqət bu günə qədər ikili standartlar mövcuddur. Türkiyənin Avropa Birliyinə daxil olması məsələsi ilə bağlı vəziyyət də ikili *standartlar siyasətidir*. Məsələ onda deyil ki, biz nəyisə isbat edə bilməmişik, kiməsə anlada bilməmişik. Məsələ ondadır ki, yanaşma fərqlidir.

Jurnalist: Sanki bir riyakarlıq var...

İlham Əliyev: Riyakarlıq var.

Sual: Məsələn, mən Sizin əsas probleminizdən çıxış edərək soruşmaq istəyirəm. Bilirsiniz ki, Azərbaycan torpaqlarının işğalına görə Türkiyə Ermənistan ilə sərhədi bağlayıbdır. Avropa Birliyi bu işğala son qoyulması üçün ermənilərə heç bir təzyiq etmir, amma Türkiyəni təkidlə sərhədi açmağa çağırır. Siz bir Prezident olaraq bunu necə şərh edə bilərsiniz?

Cavab: Bu, ədalətsizliyin təzahürüdür, böyük bir eybəcərlikdir, haqsızlıqdır. Amma bu, reallıqdır. Biz bu reallığı inkar etsək də, öz mənfi münasibətimizi bildirsək də, onu qəbul etməliyik, çünki başqa yol yoxdur. Bu ədalətsiz bir dünyadır və belə yanaşma bunu bir daha göstərir. Ona görə bizim gücümüz birliyimizdədir. Biz gərək güclü olaq, gərək birləşək ki, öz istədiyimizə nail olaq. Baxın, on ildən artıqdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır və bəzi qüvvələr bizə deyir ki, gedin ermənilərlə anlaşın. Biz necə onlarla anlaşaq? Onlar torpaqlarımızdan çıxmaq istəmir, deyirlər ki, Dağlıq Qarabağa müstəqillik verin. Biz onu heç vaxt verə bilmərik. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və onun Azərbaycandan ayrılması heç vaxt mümkün ola bilməz.

Amma mən sizə misal gətirim. Gürcüstanda buna bənzər iki münaqişə var. Abxaziya və Osetiya münaqişələri. İkisində də eyni hərəkətlər baş vermişdir - separatizm, ərazi bü-

tövlüyünün pozulması, yüz minlərlə qaçqınların yaranması və nəticədə ölkənin suverenliyinin pozulması. Gürcüstanın məsələlərində beynəlxalq təşkilatların mövqeyi birmənalıdır. Moldovada Dnestryanı münaqişə var, eyni durumdur. Amma Qarabağa gəldikdə başqadır. Nəyə görə? Erməni lobbisinin fəaliyyətidir. Erməni lobbisinin və onun əlinin altında olan bəzi riyakar siyasətçilərin mövqeyidir. Bu haqsızlığı görəndə, əlbəttə ki, bizdə çox böyük etiraz hissi oyanır.

Jurnalist:Türkiyədəki psixologiyanın eynidir.

İlham Əliyev: Əlbəttə, biz nə edə bilərik ki, bu ədalətsizliyə son qoyaq? Gərək birlikdə güclənək, birlikdə möhkəmlənək.

Sual: Cənab Prezident, sözünüzü kəsdiyim üçün üzr istəyirəm. Bildiyimə görə, 11 ildir atəşkəs rejimi var. Bayaq bir məsələni vurğuladınız, Azərbaycanın qüvvətlənəcəyini dediniz. Sizcə, Ermənistan bu prosesdə daim problem yaradarsa, Sizin rəhbərliyiniz və Azərbaycan xalqı münaqişəni müharibə yolu ilə birdəfəlik həll etməyə cəhd göstərə bilərmi?

Cavab: Mən ümid edirəm ki, buna ehtiyac qalmaz. Çünki müharibə heç kimə xeyir gətirməz. Müharibə böyük bir fəlakətdir, humanitar fəlakətdir. Biz müharibəni yaşamışıq, istəmirik ki, yenidən qan tökülsün, insanlar həlak olsunlar. Ona görə bizim bütün səylərimiz sülh yoluna yönəldilibdir. Biz istəyirik ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Amma o da aydındır ki, Azərbaycan xalqının səbri artıq tükənməkdədir. Nə qədər gözləməliyik, nə qədər bu danışıqları aparmalıyıq?! Bu gün danışıqların aparılmasına lüzum var, çünki ümidlər var. Yəni indi müəyyən məsələlər müzakirə olunur və ümidlər var. Əgər o ümidlər artıq mövcud olmasa, onda bölgədə yeni bir vəziyyət yaranacaqdır. O zaman Azərbaycan öz siyasətini yenidən müəyyən etməlidir və biz Azərbaycan xalqının tələbinə uyğun olaraq, istənilən yolu seçə bilərik. Hər halda, biz torpaqlarımızın itirilməsi ilə barışmaq fikrində deyilik.

Sual: Hörmətli Heydər Əliyevin vaxtında Azərbaycan müstəqilliyini möhkəmləndirdi. Siz, cavan bir dövlət başçısısınız, qarşıdakı seçkilərə görə dünyanın gözü Sizdədir. Necə ki, atanız müstəqilliyi möhkəmləndirdi, indi hamı Sizdən Azərbaycanda demokratiyanın dərinləşməsinə yol açmanızı gözləyir. Belə bir planınız, islahatlar aparmaq fikriniz varmı?

Cavab: Təbii ki, var və mən əminəm ki, Azərbaycanın gələcəyi yalnız demokratik inkişaf sayəsində mümkündür. Ölkədə demokratik proseslər çox müsbət istiqamətdə gedir. Demokratik cəmiyyəti səciyyələndirən bütün amillər Azərbaycanda mövcuddur və əlbəttə ki, parlament seçkiləri bu işdə çox mühüm rol oynayacaqdır. Artıq hazırlıq işləri başlanıbdır. Seçkilərin şəffaf, ədalətli keçirilməsi üçün mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır. Əlavə tədbirlər də görülübdür. Mən şübhə etmirəm ki, seçkilər şəffaf keçiriləcək, Azərbaycan xalqının iradəsi öz əksini tapacaqdır. Bizim gözəl potensialımız var. Siz bu məsələyə çox doğru toxundunuz. Azərbaycanın müstəqil dövlət kimi yaşamasının, inkişafının ilk illərində sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idi. Bu gün qarşımızda yeni tələblər durur: ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirmək. Biz bütün bu istiqamətlərdə işləyirik.

Sual: Mənim həmkarlarım dünən bir az zarafatla dedilər ki, biz cəmi 8 milyonuq, siz isə 70 milyonsunuz. Əgər biz bu sürətlə gediriksə, Avropa Birliyinə sizdən əvvəl daxil olacağıq. Hesab edirəm ki, bu proses Avropa ilə birlikdə aparılacaq işləri də əhatə edir. Elədirmi?

Cavab: Bəli, bizim Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz var. Biz müxtəlif layihələr üzərində çalışırıq. Eyni zamanda, Avropa Şurası ilə də yaxşı əməkdaşlıq edirik. Artıq dörd ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və üzərimizə götürdüyümüz bütün öhdəliklər yerinə yetirilir. Onu da bilirik ki, demokratiyanın inkişafı və yayılması iqtisadi cəhətdən güclü, yəni inkişaf etmiş ölkələrdə daha asan olur.

Sual: Yəni, cənab Prezident, deyirsiniz ki, demokratiyanın dərinləşməsi Azərbaycanda sabitlik üçün təhlükə yaratmır, elədirmi?

Cavab: Qətiyyən yaratmır.

Jurnalist: Yəni kim gəlirsə gəlsin, seçilsin, hər şey normal proses çərçivəsində davam edəcəkdir.

Cavab: Bəli. Bizdə sistem bir az başqadır. Bizdə parlament seçkiləri yalnız parlamentə seçilmiş insanların gələcəyini müəyyən edir. Yəni hökumət oradan formalaşmır. Bizdə Prezident idarə üsulu var. Amma eyni zamanda bu seçkilər çox önəmlidir. Lakin onu da bilirik ki, iqtisadi cəhətdən çətinlik çəkən ölkələrdə demokratiya özünə çox yer tapa bilmir. Çünki əgər ölkə kasıbdırsa, çoxlu sosial problemlər varsa, insanları demokratiyaya aparmır. Ona görə iqtisadi inkişaf bizim üçün ön plandadır.

Sual: Türk xalqı adından bir sual da verə bilərəmmi? Neftin bir barrelinin qiyməti 60 dolları keçdi. İstanbulda insanlarla bunun bizim iqtisadiyyatımıza təsiri haqqında danışırdıq. Qardaş Azərbaycan bizə nefti bir az ucuz verəcəkmi - deyə fikirləşirdik.

Cavab: Əlbəttə, biz çalışacağıq ki, hər iki ölkənin maraqları təmin olunsun. Mən sizə deyə bilərəm ki, bizim anlaşmalarda - neft anlaşmasında, xüsusilə qaz anlaşmasında çoxlu özəl məqamlar var. Türkiyəyə Azərbaycan qazı çox məqbul qiymətlərlə satılacaqdır. Biz hər an bir-birimizin dəstəyinə möhtacıq. Fərqi yoxdur, bu gün neftin qiyməti 60 dollardır, vaxtilə neftin qiyməti 8 dollar da olmuşdur. Bizim aramızda olan münasibətlərə bunun heç bir dəxli yoxdur. Əsas odur ki, bu səmimi münasibətlər, səmimi hisslər həm ölkəni idarə edən insanlarda var, həm də xalqlarda, bütün təbəqələrdə var. Bu münasibətlər xalqların məhəbbəti üzərində qurulub və əbədi yaşayacaqdır.

Jurnalist: Azərbaycan Prezidenti İlham Əliyevin bizə söylədikləri bu qədər. Xüsusilə Baş nazir Rəcəb Tayyib Ərdoğanın gələcək yönd çox mühüm işarələr verdiyi rəsmi səfərindən sonra bu fikirlər xeyli mühümdür. Amma, əslində, hamımız gələcəyə gedən yolun bir hissəsiyik. Türkiyə və Azərbaycan - insanlıq var olunca yaşayacaq iki ölkə. Çox güman ki, 20 il sonra bəlkə bizlər olmayacağıq, amma bizim yerimizdə olan insanlar daha yaxşı şeylərdən danışmağa fürsət tapa biləcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AVROPA DEMOKRATLARI QRUPUNUN RƏHBƏRİ MİXAİL MARGELOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Avropa demokratlar qrupunun rəhbəri Mixail Margelovu qəbul etmişdir.

Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətini məmnunluqla xatırladan dövlətimizin başçısı bu qurumla ölkəmizin səmərəli əməkdaşlıq etdiyini, Azərbaycan və Rusiya parlamentlərinin AŞPA-dakı nümayəndə heyətləri arasında da yaxşı əlaqələrin olduğunu bildirdi.

Prezident İlham Əliyev Mixail Margelovu AŞPA-nın Avropa demokratlar qrupunun rəhbəri seçilməsi münasibətilə təbrik etdi, qarşıdakı fəaliyyətində ona uğurlar arzuladı.

Dövlətimizin başçısı Bakıda keçirilən iki mühüm tədbirin - AŞPA-nın Miqrasiya, qaçqınlar və əhali məsələləri komitəsinin Azərbaycan parlamenti ilə birgə təşkil etdiyi "Cənubi Qafqazda köçkün düşmüş əhali" mövzusunda seminarın və AŞPA-nın Monitorinq komitəsinin iclasının böyük əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu tədbirlər Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi sahəsində mühüm rol oynayacaqdır.

Cənab Mixail Margelov Azərbaycan ilə AŞPA arasında səmərəli əməkdaşlığın mövcud olduğunu nəzərə çarpdırdı.

AŞPA-nın Bakıda iki mühüm tədbir keçirməsinin böyük əhəmiyyətə malik olduğunu xatırladan qonaq iştirakçıların Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini vurğuladı. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini daim yüksək tutmasının bəşəri, Avropa dəyərlərinə söykəndiyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ GİORGİ FRUNDANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyası Monitorinq komitəsinin sədri Giorgi Frundanı qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanda Monitorinq komitəsinin iclasının keçirilməsinin əhəmiyyətini vurğulayaraq, bu tədbirin avropalı deputatların ölkəmizdə gedən proseslərlə daha yaxından tanış olması üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev ölkəmizdə cəmiyyətin daha da demokratikləşməsi istiqamətində mühüm addımların atıldığını vurğuladı, eyni zamanda Ermənistanın Azərbaycana qarşı təcavüzü, erməni silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal olunması nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşımızın hüquqlarının kütləvi surətdə pozulduğunu nəzərə çarpdırdı. Dövlətimizin başçısı AŞPA tərə-

fından qəbul edilmiş sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüz törətməsi faktının tanınmasını yüksək qiymətləndirərək, digər beynəlxalq təşkilatların da bu təcavüzün və onun nəticələrinin aradan qaldırılması üçün səylərini artırmasının vacibliyini vurğuladı.

Cənab Frunda Monitorinq komitəsinin Azərbaycandakı iclasının səmərəli olduğunu bildirdi, tədbir iştirakçılarının Azərbaycanın siyasi partiyaları, qeyri-hökumət təşkilatları, mətbuat nümayəndələri ilə görüşlər keçirdiyini qeyd etdi.

Görüş zamanı Azərbaycan-AŞPA əməkdaşlığının müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN VƏ QAÇQINLAR ÜZRƏ ALT KOMİTƏSİNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyası Monitorinq komitəsinin və Qaçqınlar üzrə alt komitəsinin üzvlərini qəbul etmişdir.

Görüş zamanı ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Azərbaycanda demokratikləşmə prosesinin daha da inkişaf etdirilməsi, Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın vəziyyəti və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.

İSLAM KONFRANSI TƏŞKİLATI ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜNÜ BİR DAHA PİSLƏMİŞDİR

Islam Konfransı Təşkilatının xarici işlər nazirlərinin iyunun 28-30-da Yəmənin paytaxtı Sənada keçirlən 32-ci konfransında Azərbaycanla bağlı 3 sənəd qəbul edilmişdir.

İyulun 5-də Xarici İşlər Nazirliyində keçirilən brifinqdə nazirliyin 2-ci ərazi idarəsinin rəisi Azər Hüseyn söyləmişdir.

A.Hüseyn bildirmişdir ki, konfransda ölkəmizi xarici işlər naziri Elmar Məmmədyarov təmsil etmiş, tədbirin ilk günü konfransın sədr müavini seçilmiş və ümumi iclasların birinə rəhbərlik etmişdir.

İdarə rəisinin sözlərinə görə, konfransın gedişində gündəlikdə duran məsələlərə, o cümlədən Yaxın Şərq, İraq, Kipr, Əfqanıstan mövzularına toxunulmuş, Azərbaycan üçün əhəmiyyət daşıyan bir neçə məsələ müzakirə olunaraq müvafiq qətnamələr qəbul edilmişdir. Belə ki, konfransda ölkəmizlə bağlı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında", "Azərbaycan Respublikasına iqtisadi yardım haqqında" qətnamələr qəbul edilmiş, digər sənədlərdə, həmçinin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü", nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam tarixi, mədəni abidələri və müqəddəs yerlərə qarşı törədilmiş təhqirlər" adlı bənd də əlavə edilmişdir.

Sənədlərdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, həmin ərazilərdə etnik

təmizləmə aparması, bir milyon insanın öz torpaqlarından didərgin düşməsi, təcavüz nəticəsində Azərbaycana 20 milyard ABŞ dolları məbləğində ziyan dəyməsi və s. faktlar əks olunmuşdur. Eyni zamanda sənədlərdə təşkilatın üzv dövlətlərinə Azərbaycana siyasi və iqtisadi cəhətdən yardım göstərilməsi ilə bağlı müraciət də yer almışdır.

57 dövlətin üzv olduğu təşkilatda hər dəfə Azərbaycanın problemlərinin səslənməsinin böyük əhəmiyyət daşıdığını vurğulayan A.Hüseyn bildirmişdir ki, nazir E. Məmədyarov konfrans çərçivəsində Türkiyə, İran, Fələstin, İordaniya, Oman, Pakistan və Rusiyanın xarici işlər nazirləri və İKT-nin baş katibi Əkmələddin İhsanoğlu ilə görüşmüş, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparmışdır.

Konfransın sonunda Azərbaycan tərəfinin İKT xarici işlər nazirlərinin 33-cü konfransının 2006-cı ildə Bakıda keçirilməsi ilə bağlı təklifi yekdilliklə qəbul edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir.

Cənab Talvitiye Azərbaycanda həyata keçirilən müsbət proseslərin şahidi olduğunu söylədi və bu proseslərin bir sıra ölkələr üçün nümunə olduğunu bildirdi. O, Azərbaycanda demokratikləşmə prosesinin daha da inkişaf etdirilməsinin Avropa İttifaqı tərəfindən dəstəkləndiyini və bundan sonra da dəstəklənəcəyini vurğuladı. Qonaq bu istiqamətdə konkret addımların atılması işində Avropa İttifaqının Azərbaycana kömək göstərməyə hazır olduğunu söylədi.

Dövlətimizin başçısı Azərbaycanda müxtəlif sahələrdə - siyasi, iqtisadi və digər sahələrdə əldə edilmiş uğurlardan, ölkənin daha da demokratikləşməsi istiqamətində atılan addımlardan danışdı. Prezident İlham Əliyev Azərbaycanın Avropaya inteqrasiya siyasətinə sadiq olduğunu nəzərə çarpdırdı, ölkəmizin beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı və Avropa Şurası kimi təşkilatlarla uğurlu əməkdaşlıq etdiyini bildirdi.

Dövlətimizin başçısı Avropa İttifaqının yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirak etdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

İyulun7-də xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Azərbaycanın Dünya Ticarət Təşkilatına (DTT) üzvlük prosesinin gedişi ilə bağlı mətbuat konfransı keçirmişdir.

M.Məmmədquliyev bildirmişdir ki, Azərbaycan nümayəndə heyəti iyunun 27-dən iyulun 1-dək Cenevrədə səfərdə olmuş, ölkəmizin təşkilata daxil olması ilə əlaqədar bir neçə görüş keçirmişdir.

Nazir müavininin sözlərinə görə, əvvəlcə təşkilatın Azərbaycan üzrə işçi qrupunun iclası keçirilmiş, burada nümayəndə heyətimizin başçısının son vaxtlar ölkəmizdə iqtisadi və sosial sahələrdə görülən işlər, 2004-cü ilin oktyabrında keçirilmiş iclasdan sonra həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. İclasda ABŞ, Avropa İttifaqı, Yaponiya, Avstraliya, Çin, Cənubi Koreya, Türkiyə, Pakistan və başqa ölkələrin nümayəndələri çıxış edərək, Azərbaycanın ötən dövrdə gördüyü işləri, eləcə də hazırladığı sənədləri yüksək qiymətləndirmişlər.

DTT-nin qaydalarına uyğun olaraq, nümayəndə heyətimiz Azərbaycanın ticarət rejimi ilə əlaqədar suallara aydınlıq gətirmişdir.

İclasın nəticələrinə toxunan nazir müavini qeyd etmişdir ki, növbəti görüşün 2006-cı ilin 1-ci rübündə keçirilməsi barədə qərar qəbul edilmişdir. Bundan əlavə, gələn il keçiriləcək görüşdən sonra katiblik Azərbaycan haqda hesabat hazırlayacaqdır. Bunun əsasında da Azərbaycanın xarici ticarət rejimi haqqında ilk məruzə hazırlanacaqdır. Azərbaycanın xarici ticarət rejimində olan müsbət dəyişikliklər məruzədə əks olunacaqdır.

Səfər çərçivəsində nümayəndə heyətimiz təşkilatda böyük nüfuza malik olan ABŞ, Kanada, Avstraliya, Malayziya və Avropa İttifaqının nümayəndələri ilə görüşlər keçirmişdir. Görüşlərdə əsasən bazara çıxış problemləri, əmtəələrin Azərbaycan bazarına daxil olması, ölkəmizin təqdim etdiyi tarif dərəcələrinə toxunulmuşdur.

Kənd təsərrüfatı məsələlərinə aid olan görüşdə Azərbaycan tərəfinin bu sahədə daxili yardım və idxal subsidiyalarına dair hazırladığı sənəd yüksək qiymətləndirilmişdir.

Pakistan, Türkiyə, Yaponiya, Bolqarıstan, Misir və digər ölkələrin Cenevrədəki səfirləri ilə görüşlər də keçirilmiş, Azərbaycanın DTT-yə üzvlük məsələsi, bu ölkələrin həmin məsələyə mövqeyi müzakirə olunmuşdur. M.Məmmədquliyev bildirmişdir ki, təşkilatda Azərbaycanın son vaxtlar üzvlük prosesində işləri sürətləndirməsi yüksək qiymətləndirilir.

Səfərin nəticələri DTT-yə üzvlük prosesinə cəlb olunmuş dövlət orqanları nümayəndələrinin XİN-də keçiriləcək iclasında təhlil edilərək respublika rəhbərliyinə ətraflı məlumat veriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN DAXİLİ İŞLƏR NAZİRİ AFTAB ƏHMƏD XAN ŞERPAONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Prezident sarayında Pakistan İslam Respublikasının daxili işlər naziri Aftab Əhməd xan Şerpaonu qəbul etmişdir.

Ölkələrimiz arasında dostluq münasibətlərinin çox uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı yüksək səviyyədə qarşılıqlı səfərlərin böyük əhəmiyyət daşıdığını bildirdi. Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana, özünün isə Pakistana səfərlərinin uğurla keçdiyini nəzərə çarpdıran Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq münasibətlərinin qarşılıqlı hörmət və etimada əsaslandığını vurğuladı.

Dövlətimizin başçısı Pakistanın beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın önəmli məsələlərini daim dəstəkləməsini yüksək qiymətləndirdi. Pakistana rəsmi səfə-

rini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfər zamanı keçirdiyi görüşlərin, apardığı danışıqların ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bir daha göstərdiyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı Azərbaycanın və Pakistanın müxtəlif strukturları, o cümlədən daxili işlər nazirlikləri arasında səmərəli əməkdaşlığın olmasından məmnunluğunu bildirdi, nazir Aftab Əhməd xan Şerpaonun Bakıya səfərinin uğurlu keçməsini arzuladı.

Ona göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən qonaq Prezident Pərviz Müşərrəfin və Baş nazir Şövkət Əzizin Prezident İlham Əliyevə salamlarını və dərin ehtiramlarını və eləcə də Azərbaycan xalqına ən səmimi arzularını çatdırdı.

Dövlətimizin başçısının Pakistana rəsmi səfərinin çox uğurla keçdiyini bildirən nazir ölkəsinin rəhbərliyinin və xalqının bu səfəri daim böyük məmnunluqla xatırladıqlarını bildirdi.

Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın və Pakistanın daxili işlər nazirlikləri arasında yaxşı əməkdaşlıq olduğunu söylədi, müxtəlif nazirliklər, dövlət qurumları arasında terrorizmə, transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində və digər sahələrdə əlaqələrin daim genişləndiyini bildirdi.

Qonaq beynəlxalq forumlarda və digər tədbirlərdə ölkələrimizin mühüm məsələlərdə bir-birini dəstəklədiklərini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev onun da salamlarını və dərin ehtiramını Pakistan Prezidenti Pərviz Müşərrəfə, Baş nazir Şövkət Əzizə çatdırmağı ondan xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TEKNİP" ŞİRKƏTLƏR QRUPU DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ BAŞ İCRAÇI KATİBİ DANİEL VALOTU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Prezident sarayında Fransanın "Teknip" şirkətlər qrupu Direktorlar şurasının sədri və baş icraçı katibi Daniel Valotu qəbul etmişdir.

Dövlətimizin başçısı ilə görüşdən məmnun olduğunu bildirən qonaq onun rəhbərlik etdiyi şirkətin "Şahdəniz" yatağında platforma inşa etdiyini söylədi. O, həmin platformanın inşasının və ümumiyyətlə, "Şahdəniz" yatağında işlərin çox uğurla getdiyinin şahidi olduğunu bildirdi. Cənab Daniel Valot rəhbərlik etdiyi şirkətlə ölkəmizin əməkdaşlığının gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın karbohidrogen yataqlarının birgə işlənilməsində Fransa şirkətlərinin fəal iştirak etdiklərini bildirdi. Ölkəmizdə digər sahələrin inkişaf etdirilməsində də Fransa şirkətlərinin yaxından iştirakını və "Şahdəniz" yatağının regional əhəmiyyət daşıdığını xatırladan dövlətimizin başçısı dedi ki, bu yataq gələcəkdə həm Azərbaycanın təbii qaza olan ehtiyacının tam ödənilməsində, həm də Azərbaycan qazının xarici ölkələrə ixracında mühüm rol oynayacaqdır.

Prezident İlham Əliyev Parisə səfəri zamanı Fransa işgüzar dairələrinin nümayəndələri ilə görüşlərini məmnunluqla xatırlatdı və Azərbaycan ilə Fransa arasında iqtisadi əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

İran Prezidentinin salamlarını və ehtiramını dövlətimizin başçısına çatdıran qonaq Prezident İlham Əliyev ilə Prezident Məhəmməd Xatəminin imzaladığı sənədlərdə əksini tapmış enerji və digər sahələr üzrə iqtisadi layihələrin, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə bağlı layihələrin uğurla həyata keçirildiyini söylədi.

O, İranın yeni seçilmiş Prezidentinə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və cənab Mahmud Əhmədinejadın cavab məktubunu Prezident İlham Əliyevə təqdim etdi. Cənab Mehdi Səfəri yeni seçilmiş Prezident Mahmud Əhmədinejadın salamlarını və dərin ehtiramını dövlətimizin başçısına çatdırdı.

Qonaq dedi ki, İranın yeni seçilmiş Prezidenti Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da inkişaf etdirmək əzmindədir.

Salamlara və dərin ehtiramlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını və dərin ehtiramını İİR-in yeni seçilmiş Prezidenti Mahmud Əhmədinejada çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu vurğulayan, Azərbaycan ilə İran arasında imzalanmış iqtisadi müqavilələrin müvəffəqiyyətlə yerinə yetirildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev enerji, yol tikintisi, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə bağlı layihələrin həyata keçirilməsindən məmnun qaldığını bildirdi.

Dövlətimizin başçısı İlham Əliyev cənab Məhəmməd Xatəmiyə də salamlarına və ehtiramına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ehtiramını İran Prezidentinə çatdırmağı xahiş etdi. Cənab Məhəmməd Xatəmi ilə keçirdiyi bir sıra görüşləri məmnunluqla vurğulayan Prezident İlham Əliyev özünün İrana, o cümlədən cənab Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfərlərinin çox uğurla keçdiyini xatırlatdı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə İran arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU, XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ MÜŞAVİRİ, SƏFİR TOŞİYUKİ FUCİVARANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Prezident sarayında Yaponiya Xarici Əlaqələr İnstitutunun direktoru, xarici işlər nazirliyinin baş müşaviri, səfir Toşiyuki Fucivaranı qəbul etmişdir.

Qonaq Yaponiya Baş nazirinin xüsusi tapşırığına əsasən Azərbaycan Prezidenti İlham Əliyevi bu ölkəyə rəsmi səfərə dəvət etmək üçün Bakıya gəldiyini söylədi. O, Baş nazir Dzünitiro Koidzuminin rəsmi səfərə dəvət məktubunu dövlətimizin başçısı İlham Əliyevə təqdim etdi.

Toşiyuki Fucivara qeyd etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfərindən sonra ölkələrimiz arasında əlaqələr sürətlə inkişaf etməyə başlamış, müasir dövrdə isə bu əlaqələr yeni mərhələyə qədəm qoymuşdur. Qonaq əmin olduğunu bildirdi ki, Azərbaycan Prezidentinin Yaponiyaya qarşıdakı rəsmi səfəri bu əlaqələrin daha da inkişaf etdirilməsi işində böyük rol oynayacaqdır.

Dövlətimizin başçısı onun salamlarını Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə çatdırmağı xahiş etdi, məktuba və rəsmi səfərlə bağlı dəvətə görə təşəkkürünü bildirdi.

Ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin yüksək səviyyədə olduğunu nəzərə çarpdırdı. Azərbaycan-Yaponiya əlaqələrinin inkişafında cənab Toşiyuki Fucivaranın xidmətlərini yüksək qiymətləndirən Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, o, gələcək fəaliyyətində də həmişə Azərbaycanla bağlı olacaqdır.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan-Yaponiya əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN MİLLİ DEMOKRATİYA İNSTİTUTU İDARƏ HEYƏTİNİN SƏDRİ, SABİQ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYTI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Prezident sarayında ABŞ-ın Milli Demokratiya İnstitutu idarə heyətinin sədri, sabiq dövlət katibi xanım Madlen Olbraytı qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev xanım Madlen Olbrayt ilə 2002-ci ilin oktyabrında Vaşinqtonda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Həmin vaxtdan keçən dövr ərzində Azərbaycanla ABŞ arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, biz ölkələrimizin əməkdaşlığının indiki səviyyəsindən çox razıyıq.

Təhlükəsizlik, enerji və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin qarşılıqlı anlaşmaya, tərəfdaşlıq və əməkdaşlığa əsaslandığını nəzərə çarpdırdı.

ABŞ-ın yüksək səviyyəli müxtəlif rəsmi nümayəndə heyətlərinin Azərbaycana səfərlərinin böyük əhəmiyyət daşıdığını bildirən Prezident İlham Əliyev bu səfərlərin ikitərəfli, regional əməkdaşlıq məsələlərinin müzakirəsi, eyni zamanda ölkəmizin problemlərinin dərindən öyrənilməsi üçün yaxşı şərait yaratdığını vurğuladı. Dövlətimizin başçısı bu baxımdan xanım Madlen Olbraytın ölkəmizə səfərinin və Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri ilə keçirdiyi görüşlərin çox mühüm olduğunu nəzərə çarpdırdı.

İlk dəfə 1994-cü ildə Bakıda səfərdə olduğu vaxtdan keçən dövr ərzində paytaxtımızın çox gözəl şəhərə çevrildiyini söyləyən xanım Madlen Olbrayt burada çox müsbət dəyişikliklərin şahidi olduğunu vurğuladı.

Xanım Madlen Olbrayt dedi ki, mən Prezident Heydər Əliyev ilə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşdum, aramızda çox yaxşı dostluq əlaqələri var idi. O, dövlətimizin başçısı İlham Əliyev ilə Vaşinqtonda keçirdiyi görüşü və həmin görüş zamanı aparılan müzakirələri də məmnunluqla xatırlatdı. Xanım Olbrayt ABŞ-ın Azərbaycanla təhlükəsizlik, beynəlxalq terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığının inkişafına böyük əhəmiyyət verdiyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NYU-HEMPŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, ATA CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ AĞ EV ADMİNİSTRASİYASININ RƏHBƏRİ OLMUŞ CON SUNUNUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Prezident sarayında ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Ata Corc Buşun prezidentliyi dövründə Ağ ev administrasiyasının rəhbəri olmuş Con Sununu qəbul etmişdir.

Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə daim möhkəmləndiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin enerji, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi.

Azərbaycan Prezidenti ilə bundan əvvəl keçirdiyi görüşü məmnunluqla xatırladan qonaq ölkəmizdə böyük, müsbət dəyişikliklərin həyata keçirildiyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN BRUKİNQS İNSTİTUTUNUN ANALİTİKİ XANIM FİONA HİLLİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Prezident sarayında ABŞ-ın Brukinqs İnstitutunun analitiki xanım Fiona Hilli qəbul etmişdir.

Görüş zamanı bir sıra beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏTƏR DÖVLƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ GENERAL-POLKOVNİK HƏMƏD BİN ƏLİ ƏL-ATİYYƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Prezident sarayında Qətər dövləti Silahlı Qüvvələrinin Baş qərargah rəisi general-polkovnik Həməd Bin Əli əl-Atiyyənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin respublikamıza səfərinin uğurlu və səmərəli olacağına, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsinə töhfə verəcəyinə əminliyini vurğuladı.

Qətər dövlətinə səfərini, orada Əmir şeyx Həməd bin Xəlifə Al Tani ilə və digər rəsmi şəxslərlə keçirdiyi görüşləri məmnuniyyətlə xatırladan Prezident İlham Əliyev həmin görüşlər və aparılmış danışıqlar zamanı Azərbaycan ilə Qətər dövləti arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq məsələlərinin qarşılıqlı anlaşma şəraitində müzakirə edildiyini bildirdi. Rəsmi səfər zamanı Qətərdə respublikamızın səfirliyinin açılması barədə müzakirələr aparıldığını nəzərə çarpdıran dövlətimizin başçısı Doha şəhərində səfirliyin açılması barədə Azərbaycan rəhbərliyinin qərar qəbul etdiyini söylədi.

Atiyyə Qətər dövlətinin Əmiri əlahəzrət şeyx Həməd bin Xəlifə Al Taninin və vəliəhd şahzadə şeyx Təmim bin Həməd Al Taninin salamlarını və dərin ehtiramlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyevin Qətərə səfərindən sonra ölkələrimiz arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu vurğulayan qonaq dedi ki, əlahəzrət Əmir və vəliəhd şahzadə Azərbaycan ilə Qətər arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirirlər və mən onların tapşırığı ilə səfərə gəlmişəm. O, Azərbaycan Müdafiə Nazirliyi ilə uğurlu əməkdaşlığın və qarşılıqlı səfərlərin həyata keçirildiyini bildirdi.

Salamlara və dərin ehtirama görə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun da salamlarını, dərin ehtiramını Əmir əlahəzrət şeyx Həməd bin Xəlifə Al Taniyə və vəliəhd şahzadə şeyx Təmim bin Həməd Al Taniyə çatdırmağı xahiş etdi.

ERMƏNİSTAN MÜNAQİŞƏNİN HƏLLİ ÜÇÜN YARANMIŞ İMKANLARI İTİRMƏKDƏN QORXMALIDIR

İyulun 18-də xarici işlər nazirinin müavini Araz Əzimov ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona son səfərinə dair brifinq keçirmişdir.

Bakıda həmsədrlərlə keçirilən görüşlərin vacib və faydalı olduğunu diqqətə çatdıran nazir müavini, danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bütün elementlərin müfəssəl şəkildə müzakirə edildiyini, tərəflər arasında fərqlər böyük olduğunu, bunun isə münaqişənin həllində çətinliklər törətdiyini bildirmişdir.

Danışıqlar prosesinin davam etdirilməsi üçün Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünün avqustun 23-də Moskvada keçirilməsinə dair razılıq əldə

olunduğunu açıqlayan A.Əzimov, bunun ardınca avqustun 26-da Kazanda prezidentlərin görüşünün nəzərdə tutulduğunu söyləmişdir.

O, Ermənistanın öz mövqelərində konstruktivlik nümayiş etdirməyə başlayacağına ümidvar olduğunu vurğulamışdır. Bu vaxta qədər keçirilən görüşlərdə Azərbaycan mümkün olan konstruktivlik nümayiş etdirmiş, problemin nizama salınması üçün müxtəlif variantların axtarışında çox fəal olmuşdur. Bu baxımdan Azərbaycan qarşı tərəfin də lazımi dərəcədə konstruktiv olmasını və öz mövqelərində dəyişiklik etməsini istəyir. Əks təqdirdə, hazırda münaqişənin həlli üçün əldə edilmiş imkanlar Ermənistanın tutduğu mövqe ucbatından itiriləcəkdir.

Son vaxtlar məsələ ilə bağlı səslənən spekulyasiyalara, mülahizələrə aydınlıq gətirən nazir müavini qeyd etmişdir ki, indiki şəraitdə münaqişənin həlli üçün imkanlar bundan əvvəl heç vaxt olmadığı qədər çox yüksəkdir. Ermənistan bunu anlamalı və mövcud imkanları itirməkdən qorxmalıdır. Çünki münaqişənin sülh yolu ilə həll edilməsi hər iki tərəf üçün məqbuldur. Araz Əzimov hansısa uydurmalar yaymaqdansa, münaqişənin həllindən ötrü yaranmış imkanlardan istifadə etməyin Ermənistanın əsil maraqlarına uyğun olduğunu söyləmişdir. O vurğulamışdır ki, münaqişənin həlli istiqamətində Azərbaycanın müzakirə etdiyi variantlar ölkəmizin qanunvericiliyinə, beynəlxalq hüquq normaları və prinsiplərinə söykənir. Dağlıq Qarabağın gələcək statusu Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində, demokratik əsaslarla Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi tərəfindən birgə müəyyənləşdirilməlidir. Bu məsələdə başqa variantlar qəbul edilə bilməz.

Ermənistan mətbuatında Dağlıq Qarabağın statusunun müəyyən edilməsi üçün orada referendum keçirilməsi barədə razılıq əldə edilməsi ilə bağlı səslənən fikirlərə münasibətini açıqlayan A.Əzimov, sözügedən məsələnin Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bütün ərazisinə şamil edilən Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsasən, qeyri-mümkünlüyünü bildirmişdir. Belə ki, əsas qanunumuzda qeyd edilən müvafiq məsələlərə aid referendum yalnız Azərbaycanın bütün ərazisində, ümummilli şəkildə keçirilə bilər. Azərbaycanın ərazisində başqa cür referendum keçirilə bilməz.

Danışıqlarda Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi-Şuşa-Laçın-Gorus-Şahbuz yolu ilə bağlı səslənən mülahizələrlə əlaqədar A.Əzimov bu təklifin tərəflər arasında əməkdaşlığa şərait yaratmaq, Dağlıq Qarabağda yaşayacaq azərbaycanlı və erməni əhali arasında bir-birinə inam yaradılmasına, əməkdaşlıq mexanizmlərinin inkişafına yardımçı olmaq, ticarət və digər mübadilələri asanlaşdırmaq, yolun birgə istifadəsini təmin etmək məqsədi ilə irəli sürüldüyünü açıqlamışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ATƏT-İN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

İyulun 18-də xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə nümayəndəsi Miklos Haraşti ilə görüşmüşdür.

Azərbaycana səfərinin məqsədini açıqlayan M.Haraşti demişdir ki, respublikamıza ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə və həmçinin Bakı ofislərinin iyulun 18-20-də dövlət strukturlarının mətbuat katibləri və jurnalistlər üçün təşkil etdiyi

məşğələ-seminarda iştirak etmək üçün gəlmişdir. Belə bir seminarın ilk dəfə Azərbaycanda keçirildiyini vurğulayan M.Haraşti, bu təşəbbüsün müəllifi nazir E.Məmmədyarova təşəkkür etmişdir.

Nazir E.Məmmədyarov qonağı səmimi salamlayaraq, Azərbaycanın ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə ofisi ilə əməkdaşlığı ciddi önəm verdiyini vurğulamış və irəli sürdüyü təklif həyata keçirildiyinə görə, qonağa təşəkkür etmişdir. Nazir belə məşğələlərin keçirilməsinin dövlət strukturlarının mətbuat xidməti əməkdaşlarının və media nümayəndələrinin peşəkarlıq səviyyəsinin və məsuliyyətinin artmasına kömək edəcəyini, bunun isə öz növbəsində ölkəmizdə demokratiyanın inkişafına töhfə verəcəyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Prezident sarayında ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev qonağı salamlayaraq, iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının Gəncədə keçirilən iclasının yekunlarından, Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin inkişafından, ölkələrimiz arasında əmtəə dövriyyəsinin getdikcə artmasından razı qaldığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Gürcüstanın mötəbər nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında istər ikitərəfli, istərsə də regional əsasda səmərəli qarşılıqlı fəaliyyətin inkişafında daha bir mərhələ olacaqdır.

Gürcüstanın Baş naziri Zurab Noğaideli qəbula görə Prezident İlham Əliyevə təşəkkür edərək, Azərbaycanın ikinci sənaye şəhəri olan Gəncənin, habelə paytaxtımızın müasir simasında baş vermiş müsbət dəyişiklikləri, geniş tikinti işlərini, sənaye əhəmiyyətli yeni obyektlərin və yaşayış binalarının inşasını yüksək qiymətləndirdi.

Azərbaycan Prezidenti dedi ki, regionların inkişaf etdirilməsi dövlətimizin siyasətinin öncül istiqamətidir, bununla əlaqədar müvafiq proqram qəbul olunmuşdur və uğurla həyata keçirilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİ HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİNİN SƏDRİ RUSLAN AUŞEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Prezident sarayında MDB Ölkələri Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsinin sədri Ruslan Auşevi qəbul etmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini söyləyən cənab Ruslan Auşev vurğuladı ki, Azərbaycanda çox böyük quruculuq işləri gedir, Bakı şəhə-

rində çox müsbət dəyişikliklər baş verib, hər yerdə böyük tikinti işləri görülür, bütün bunlar isə ölkədə sabitliyin, əmin-amanlığın mövcud olmasının ən yaxşı göstəricisidir.

Azərbaycanda böyük quruculuq işləri aparıldığını, regionların sosial-iqtisadi inkişaf proqramının uğurla həyata keçirildiyini, sabitliyin, əmin-amanlığın bərqərar olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı İlham Əliyev ölkəmizin daha da inkişaf etdirilməsi, qüdrətli dövlətə çevrilməsi istiqamətində işlərin gələcəkdə də davam etdiriləcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ VƏCDİ KÖNÜLÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Prezident sarayında ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının müdafiə naziri Vəcdi Könülü qəbul etmişdir.

Türkiyə nazirinin ölkəmizə gəlməsindən məmnunluğunu vurğulayan Prezident İlham Əliyev qonağın səfər proqramı, keçirəcəyi mühüm görüşlər barədə məlumatı olduğunu bildirərək dedi ki, ölkələrimiz çox sıx əməkdaşlıq edir. Baş nazir cənab Ərdoğanın bu yaxınlarda Azərbaycana səfəri bir daha göstərdi ki, bizim əlaqələrimiz ən yüksək səviyyədədir. Siyasi, iqtisadi, mədəni sahələrdə olduğu kimi, hərbi sahədə də çox sıx əməkdaşlıq vardır. Türkiyə həmişə Azərbaycana böyük kömək, yardımlar etmişdir.

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmizdə ordunun əslində olmadığını və buna görə də hərbi quruculuq işlərinin çətin getdiyini xatırladan dövlətimizin başçısı vurğuladı ki, indi bizim çox güclü və nizami ordumuz vardır, onun maddi-texniki bazası möhkəmlənir, hərbi sahəyə ayrılan xərclər ildən-ilə artır. Ən başlıcası isə, hərbi hazırlıq çox yüksək səviyyədədir. Bu işdə Türkiyə mütəxəssislərinin, hərbçilərinin əməyi çox böyükdür. Ölkəmizə göstərilən köməyə görə minnətdarlıq edən Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu sahədə əməkdaşlıq davam edəcək, Azərbaycan və Türkiyə həmişə bir-birinin yanında olacaqdır.

Qəbula görə minnətdarlıq edən cənab Vəcdi Könül ümummilli liderimiz Heydər Əliyevin dəfn mərasiminə gələrkən dövlətimizin başçısı ilə görüşünü xatırladaraq dedi ki, yenidən Azərbaycana səfər etməyi səbirsizliklə gözləyirdim. Türkiyə və Azərbaycan mərhum Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipini əsas tutaraq, öz münasibətlərini yüksələn xətlə davam etdirirlər. Bu mənada hərbi sahə də istisna deyil, bizim ordumuz sizin ordunuz, sizin ordunuz da bizim ordumuzdur. Ona görə də biz Azərbaycanla hərbi sahədə daha sıx əməkdaşlıq etməyə çalışırıq. İndiyədək görülən işləri yüksək qiymətləndirdiyinizə görə Sizə təşəkkür edirəm. Türkiyə Azərbaycana hər baxımdan böyük əhəmiyyət verir, Avropa strukturlarına inteqrasiya sahəsində də Azərbaycana hər cür kömək göstərir. Xüsusilə NATO ilə əlaqələrdə çox sıx əməkdaşlıq edirik.

Vəcdi Könül Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri zamanı Prezident İlham Əliyevin Şimali Kiprlə bağlı verdiyi bəyanata görə minnətdarlığını bildirərək dedi: Cənab Prezident, Siz bu məsələdə Türkiyənin mövqeyini müdafiə edərək ölkəmizə böyük dəstək verdiniz. Bu dəstək təkcə sözdə olmadı və əməli şəkildə də özünü göstərdi. Mən buraya gəlməzdən əvvəl Türkiyənin Prezidenti və Baş naziri ilə görüş-

müşdüm. Hər ikisi Sizə və qardaş Azərbaycan xalqına səmimi salamlarını və ən xoş arzularını yetirməyi xahiş etdi.

Dövlətimizin başçısı onun da salamlarını, hörmət və ehtiramını Prezident Əhməd Necdət Sezərə və Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edərək dedi ki, bizim aramızda səmimi dostluq, qardaşlıq münasibətləri var. Son iki ayda onlar Bakıya gəlmişdilər. Biz hər iki fürsətdən çox səmərəli istifadə etdik, ikitərəfli, regional məsələləri, Avratlantik strukturlarına inteqrasiya məsələlərini müzakirə etdik. Bütün məsələlərdə qarşılıqlı anlaşma var, mövqeyimiz birdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamı bizim üçün əsas prinsipdir. Ölkələrimiz arasında bütün sahələrdə səmimi dostluq, qardaşlıq münasibətləri var və bu, günbəgün möhkəmlənir. Biz Şimali Kiprin təcrid vəziyyətindən çıxması üçün də önəmli addımlar atacağıq. Azərbaycan bu işdə ön sırada olmalıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Prezident sarayında Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktorunun müavini Aqustin Karstensin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmisdir.

Ölkəmizin Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının səviyyəsindən məmnunluğunu vurğulayan dövlətimizin başçısı Fondun respublikamıza göstərdiyi köməyə, yardıma görə minnətdarlığını bildirdi. Hazırda Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev ölkəmizin gəlirlərinin xeyli dərəcədə artdığı bir dövrdə makroiqtisadi sabitliyin davam etdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.

İyulun 21-də keçirilmiş və 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədən bəhs edən dövlətimizin başçısı inflyasiyanın qarşısının alınması məsələsinin də müzakirə edildiyini bildirdi. Növbəti ildə Azərbaycanda böyük artım gözlənildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev belə bir şəraitdə ölkəmizin beynəlxalq maliyyə qurumları, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə məsləhətləşmələrinin genişləndirilməsinin vacib olduğunu vurğuladı. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı bundan sonra da uğurla davam etdiriləcəkdir.

Başçılıq etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Aqustin Karstens dedi: Cənab Prezident, Azərbaycanda ötən illərdə iqtisadi inkişaf sahəsində əldə olunan çox böyük artıma görə Sizi təbrik edirəm. Çox məmnunuq ki, Azərbaycanda yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması istiqamətində böyük işlər görülür. Bakıda böyük dinamik inkişaf müşahidə olunur. Əməkdaşlığımız uğurla inkişaf edir. Biz Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın ötən dövr üçün proqramının yerinə yetirilməsi vəziyyətini nəzərdən keçirmişik. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi inkişafı alqışlayırıq.

Respublikamızda bir sıra görüşlər keçirdiyini qeyd edən qonaq Azərbaycanda gəlirlərin

artımı, maliyyə vəsaitlərinin çoxalması ilə əlaqədar qarşıya çıxan məsələlərin çox yaxşı həll edildiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TAİLAND KRALLIĞININ BAŞ PROKURORU KAMPRİ KAOÇARERNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Prezident sarayında Tailand Krallığının Baş prokuroru Kampri Kaoçarerni qəbul etmişdir.

Dövlətimizin başçısı Baş prokurorun ölkəmizə gəlməsinin Tailand Krallığı rəsmilərinin Azərbaycana ilk səfərlərindən biri olduğunu vurğuladı və ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Azərbaycanla Tailand arasında əlaqələrin hazırda yüksək səviyyədə olmamasından təəssüfləndiyini bildirən Prezident İlham Əliyev dedi ki, ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar, xüsusilə iqtisadi sahədə ümumi maraqlarımız vardır və buna əsaslanaraq əlaqələrimizi inkişaf etdirə bilərik.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Tailand Krallığı Baş prokurorunun Azərbaycana səfəri səmərəli və uğurlu keçəcəkdir.

Prezident İlham Əliyev ilə görüşdən böyük şərəf duyduğunu bildirən cənab Kampri Kaoçarern ölkələrimizin əlaqələrinin genişlənməsi üçün yaxşı imkanlar olduğunu söylədi. O, Azərbaycanın və Tailandın prokurorluqları arasında həm beynəlxalq forumlar çərçivəsində, həm də ikitərəfli qaydada yaxşı əməkdaşlıq yarandığını bildirdi. Qonaq iki ölkə arasında qarşılıqlı hüquqi yardım sahəsində sənədin imzalanmasından məmnunluğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN QLOBAL MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ POLA DOBRYANSKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında ABŞ dövlət katibinin qlobal məsələlər üzrə müavini xanım Pola Dobryanskini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, xanım Pola Dobryanskinin ölkəmizə səfəri ikitərəfli, regional əməkdaşlığın müxtəlif sahələrinə dair məsələləri müzakirə etmək üçün yaxşı imkan yaradır. Əməkdaşlığımız müxtəlif sahələri əhatə edir və uzun müddətdir uğurla inkişaf edir. Biz bu inkişafdan çox məmnunuq. ABŞ hökumətinin ölkəmizin iqtisadi inkişafında, o cümlədən enerji sektorunun inkişafında Azərbaycana verdiyi dəstək çox mühümdür.

Prezident İlham Əliyev dedi ki, təhlükəsizlik, sülhməramlı əməliyyatlar, demokratik inkişaf sahələrində ABŞ hökuməti Azərbaycana böyük kömək göstərir. Bu illərdə Azərbaycan özünü ciddi tərəfdaş kimi göstərmişdir. Biz ikitərəfli əməkdaşlığımızın inkişafı siyasətinə sadiqik.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz arasında əməkdaşlıq regional baxımından

da çox əhəmiyyətlidir. Nəzərə alsaq ki, regionda vəziyyət çox da sabit və təhlükəsiz deyildir. Azərbaycanın regional məsələlərdə rolu artmaqdadır, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ölkəmiz mühüm nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşir. Azərbaycanda böyük layihələr həyata keçirilir. Bu kontekstdə ABŞ-ın Azərbaycanla əməkdaşlığı region üçün böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev bildirdi ki, biz hazırda ikitərəfli əməkdaşlığımızın mühüm mərhələsini yaşayırıq. Ümidvaram ki, ölkələrimiz arasında əlaqələr bundan sonra da inkişaf edəcək və sizin səfəriniz Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın inkişafına öz töhfəsini verəcəkdir.

Xanım Pola Dobryanski dedi ki, gözəl ölkənizdə olmağımdan məmnunam. Azərbaycan ilə ABŞ arasında möhkəm tərəfdaşlıq vardır. Biz Azərbaycan ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk və bu çərçivədə hər iki ölkəyə aid olan bir sıra məsələləri həll etməyə nail olmuşuq. Bir sıra sülhməramlı əməliyyatlarda iştirakına və bu sahədə göstərdiyi köməyə görə Azərbaycana təşəkkürümüzü bildirmişik. Ölkələrimiz arasında enerji sektorunda əməkdaşlıq uğurla davam edir.

ABŞ dövlət katibinin müavini bildirdi ki, qarşıdan gələn parlament seçkiləri Azərbaycanın demokratik inkişafında mühüm rol oynayacaqdır. Birləşmiş Ştatlar bu prosesdə Azərbaycana kömək göstərməyə hazırdır. İnsanlar qarşıdan gələn parlament seçkilərinə böyük maraq göstərirlər. Azərbaycanda demokratik, şəffaf seçkilərin keçirilməsi üçün Sizin seçki praktikasının təkmilləşdirilməsinə dair imzaladığınız Sərəncamda təsbit olunmuş məqsədlərin gerçəkləşməsi, həyata keçirilməsi çox vacibdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Prezident sarayında Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının (FİLA) prezidenti Rafael Martinettini qəbul etmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirən cənab Rafael Martinetti Azərbaycanda idman sahəsində böyük işlər görüldüyünü söylədi. Azərbaycanın özünün ikinci ölkəsi olduğunu vurğulayan qonaq 2007-ci ildə Bakıda keçiriləcək sərbəst güləş və yunan-Roma güləşi üzrə dünya çempionatına hazırlıq işləri ilə tanış olduğunu və bu çempionatın böyük müvəffəqiyyətlə keçəcəyinə əminliyini bildirdi.

Azərbaycanda idman sahəsində böyük işlər görüldüyünü vurğulayan Prezident İlham Əliyev Beynəlxalq Voleybol Federasiyasının Grand Prix turnirinin Avropa təsnifat mərhələsi yarışlarının Azərbaycanda, xüsusilə Qubadakı Olimpiya İdman Kompleksində keçirilməsinin böyük əhəmiyyət daşıdığını və bu yarışların respublikamızda, o cümlədən regionlarda idmanın inkişafına böyük töhfə verdiyini bildirdi.

2007-ci ildə Bakıda keçiriləcək sərbəst güləş və yunan-Roma güləşi üzrə dünya çempionatına böyük hazırlıq işləri görüldüyünü nəzərə çarpdıran dövlətimizin başçısı bunun Azərbaycanda ilk dünya çempionatı olacağını məmnunluqla vurğuladı. Bu il oktyabrın

3-9-da bədii gimnastika üzrə dünya çempionatının da Bakıda keçiriləcəyini xatırladan Prezident İlham Əliyev bu beynəlxalq idman yarışlarının ölkəmizdə təşkilinin Azərbaycanın idman sahəsində böyük uğurlar qazanmasının təzahürü kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI MURAD ACİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Prezident sarayında dağıstanlı yazıçı-tədqiqatçı, türkdilli xalqların tarixinin araşdırıcısı Murad Acini qəbul etmişdir.

Dövlətimizin başçısı dedi ki, siz tarixi həqiqətlərin üzə çıxarılması üçün fəal yaradıcılıq işləri aparırsınız. Türk dünyasının qədim tarixi vardır, türkdilli ölkələrin əməkdaşlığının möhkəmlənməsi böyük əhəmiyyətə, potensiala malikdir. Müasir dövrdə bu ölkələrin siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsi və möhkəmlənməsi böyük əhəmiyyət kəsb edir. Türkdilli xalqların müştərək tarixinin dərindən öyrənilməsi çox vacibdir.

Murad Aci bildirdi ki, Naxçıvan Muxtar Respublikasında Gəmiqayada aparılan axtarışların nəticələri bizim gözlədiyimizdən də ciddi oldu. Naxçıvan tədqiqatlar üçün çox mühüm və nadir bir yerdir. Bütün bunlar Azərbaycanın, Naxçıvanın türk dünyası tarixində önəmli yer tutduğunu göstərir.

O dedi ki, türk dünyası qədim tarixə malikdir. Geniş tədqiqatlar apardıqca türkdilli xalqların çox zəngin və qədim tarixə malik olduğu, dünyanın hər yerində türk tarixinin və mədəniyyətinin böyük izlər qoyduğu və bu günədək yaşadığı sübut olunur.

PREZİDENT İLHAM ƏLİYEVİN "NYUSUİK" JURNALININ (NYU-YORK) "RUSSKİY NYUSUİK" NƏŞRİNİN (MOSKVA) BAŞ REDAKTORU LEONİD PARFYONOVA MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də "Nyusuik" jurnalının (Nyu-York) "Russkiy Nyusuik" nəşrinin (Moskva) baş redaktoru Leonid Parfyonova müsahibə vermişdir.

Sual: Necə fikirləşirsiniz, Azərbaycanda qarşıdan gələn parlament seçkiləri inqilaba səbəb ola bilərmi?

Cavab: Mən belə hesab etmirəm. Əvvəla, Azərbaycan prezident idarəçiliyi olan respublikadır və hətta parlamentdə qüvvələr nisbətinin dəyişməsi də siyasətdə dəyişiklik demək deyildir. İkincisi, xalq hökumətə, onun həyata keçirdiyi islahatlara etimad göstərir. Son altı ay ərzində ümumi daxili məhsul 17 faiz artmışdır və mən vəzifəyə gəldikdən etibarən minimum əmək haqqı üç dəfə qaldırılmışdır. Ölkə büdcəsi təxminən 60 faiz artmışdır. Üçüncüsü, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrindən fərqli olaraq, bizim müxalifətin xüsusi cəhəti ondan ibarətdir ki, o, 1992-1993-cü illərdə hakimiyyətdə olmuş və tamamilə iflasa uğramışdır. On ildir ki, eyni insanlar eyni mövqedə qalmaqdadırlar. Beləliklə, Azərbaycanda çevriliş üçün heç bir real şərait mövcud deyildir.

Müxbir: İstibdaddan qurtulmuş bir çox keçmiş sovet respublikaları nəzarət edilən demokratiya adlanan mərhələdə dayanaraq onu keçə bilməmişlər.

İlham Əliyev: Ölkənin nə qədər karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, ictimai nəzarət olmadan firavan dövlət qurula bilməz. Mən buna tam əminəm və bu, mənim siyasi fəaliyyətimin prioritetlərindən biridir. Lakin nəzərə alsaq ki, əhalinin 40 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayırsa və bu rəqəm ilyarım bundan öncə təqribən 50 təşkil edirdisə, bu halda demokratikləşmə insanları ən çox narahat edən məsələ ola bilməz.

Müxbir: Demək, Sizin fikrinizə görə, ölkədə siyasi azadlıqların səviyyəsi onun inkişaf səviyyəsinə uyğun gəlir.

İlham Əliyev: Ölkədə hər şey onun inkişaf səviyyəsini əks etdirir. Burada hazırkı vaxta uyğun olmayan standartların bərqərar edilməsi qeyri-mümkündür. Əlbəttə ki, Azərbaycan cəmiyyətinin bugünkü inkişaf səviyyəsi Qərbi Avropa və Şimali Amerikanın siyasi standartlarının buraya köçürülməsinə imkan vermir. Lakin inkişaf siyasəti həyata keçirilməlidir, bugünkü hazırlığın olmaması status-kvonun saxlanmasına bəraət qazandıra bilməz. Real dünyanı tanıyan bir şəxs üçün geriyə, mühafizəkarlıq istiqamətində hərəkət etmək və ölkəni təcrid etmək, sadə dildə desək, faciəli olar.

Müxbir: İslahatlar yuxarıdan həyata keçirilərkən hökumətdə "biz liberalıq, lakin xalqımız zəif və sadəlovhdür, biz bilirik onlar üçün ən yaxşı nədir" demək həvəsi yaranır.

İlham Əliyev: Hər şey sizin planlarınızdan asılıdır. Əgər siz, sadəcə olaraq, beş və ya on ili ölkənizin rəhbəri kimi keçirmək istəyirsinizsə, bu, bir şeydir. Lakin əgər ölkədə dəyişiklik etmək istəyirsinizsə, böyük addımlar atmadan buna nail ola bilməzsiniz. Vəzifədə olduğum müddətdə Azərbaycanın firavan bir ölkəyə çevrilməsini istəyirəm. Mən siyasəti, Prezidentlik illərim ərzində sosial tərəqqi yolu ilə getmiş tamamilə fərqli bir ölkədə tərk etmək istəyirəm.

Müxbir: 2003-cü ilin prezident seçkiləri dövründə polis ilə müxalifət arasında zorakı qarşıdurmalar olmuşdur. Bu yay belə şeylərə rast gəlinmədi.

İlham Əliyev: Mən istəyirdim ki, bunlar hətta 2003-cü ildə də baş verməsin. Cəmiyyət şok vəziyyətində idi, çünki bu, Azərbaycanı 1993-cü ilə qaytarırdı və həmin dövrdən bəri bizdə belə bir qarşıdurma olmamışdı. Lakin sonra, bir sıra halları istisna etməklə, normal siyasi proses cərəyan edirdi. Buna baxmayaraq, prezident seçkilərində məğlub olduğunu anlayan müxalifət bunu qəbul etmək istəmədi və hakimiyyəti güclə ələ keçirməyə cəhd etdi. Biz nümayişi dağıtmaq məcburiyyəti qarşısında qaldıq. Mən küçələrdə deyil, masa arxasında dialoqun tərəfdarıyam. Bununla belə, müxalifət indiki seçki günündə və seçkidən sonra özünü necə aparacaqdır? Çünki bu seçki on və ya on beş il ərzində bütün həyatını müxalifətə həsr etmiş insanlar üçün son şansdır.

Müxbir: İran tərəfində belə fikirlər yaranmaqdadır ki, Amerika Birləşmiş Ştatları Azərbaycanı Xəzər dənizində özünün avanpostu kimi istifadə etmək arzusuna düşə bilər.

İlham Əliyev: Xeyr, biz heç kimin avanpostu deyilik. Biz əsil müstəqil xarici siyasət həyata keçiririk və bu siyasət qonşularımıza münasibətdə tarazlıdır. Ümumiyyətlə, regionumuzda ən mühüm məsələ tarazlığın qorunub saxlanılmasıdır. Eyni zamanda bizim İranla etibarlı münasibətlərimiz var.

Sual: Özünüzü böyük siyasətdən kənarda təsəvvür edirsinizmi?

Cavab: Mən bunu asanlıqla təsəvvür edə bilərəm: ilyarım bundan öncə mən böyük siyasətdən kənarda idim. Əlbəttə ki, mən bu barədə düşünməliyəm. Həyat yalnız hakimiyyət demək deyildir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFR-İN FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN RƏHBƏRİ AUQUST HANNİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Prezident sarayında Almaniya Federativ Respublikası Federal Kəşfiyyat Xidmətinin rəhbəri Auqust Hanninqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluq duyduğunu bildirərək dedi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaradır.

Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ötən il AFR-ə səfərinin uğurla keçdiyini nəzərə çarpdırdı.

Avqustun 12-də Sumqayıtda "Siemens" şirkətinin Almaniya bankının krediti əsasında inşa edəcəyi elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etdiyini məmnunluqla vurğulayan dövlətimizin başçısı bunu iqtisadi əlaqələrin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Ölkələrimiz arasında siyasi sahədə də əməkdaşlığın inkişafından razılıq ifadə edən Prezident İlham Əliyev Azərbaycanın və Almaniyanın xüsusi xidmət orqanları arasında da qarşılıqlı informasiya mübadiləsi ilə bağlı yaxşı əlaqələrin mövcud olduğunu bildirdi.

Dövlətimizin başçısı dedi ki, hazırkı dövrdə dünyada, regionda sülh və sabitlik üçün böyük təhlükələrin mövcud olduğu bir vaxtda ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın regional təhlükəsizlik üçün böyük əhəmiyyəti vardır.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, cənab Auqust Hanninqin Bakıya bu səfəri ölkələrimizin xüsusi xidmət orqanları arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək, Azərbaycan ilə Almaniya arasında münasibətlər bundan sonra da inkişaf edəcəkdir.

Rəhbərlik etdiyi nümayəndə heyətinə Azərbaycanda göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlıq edən cənab Hanninq Bakıya ikinci dəfə səfərə gəldiyini söylədi. İndiki səfəri zamanı Azərbaycanın tarixi yerləri ilə tanış olmaq imkanı yarandığını bildirən qonaq dedi ki, gördüyü yerlər, əldə etdiyi məlumatlar onda Azərbaycan haqqında yüksək təəssürat yaratmışdır.

AFR-in federal kanslerinin salamlarını Prezident İlham Əliyevə çatdıran cənab Auqust Hanninq dedi ki, cənab Gerhard Şröder sizin Almaniyaya səfərinizin uğurla keçdiyini bildirdi. O, dövlətimizin başçısının AFR-ə səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfə verdiyini vurğuladı. Avqustun 12-də Azərbaycanda demək olar ki, Almaniya gününün keçirildiyini nəzərə çarpdıran qonaq onun səfərinin belə bir vaxta təsadüf etməsindən məmnun qaldığını söylədi.

Regionda sülhün, sabitliyin qorunmasının vacibliyini vurğulayan cənab Auqust Hanninq ölkələrimizin xüsusi xidmət orqanları arasında çox yaxşı əməkdaşlığın mövcud olduğunu bildirərək dedi ki, Almaniyanın regionda ən çox etimad əsasında əməkdaşlıq etdiyi ölkə Azərbaycandır. O, Almaniya xüsusi xidmət orqanlarının zəngin təcrübəsinin Azərbaycanın xüsusi xidmət orqanları ilə bölüşdürməyə hazır olduqlarını söylədi. Cənab Auqust Hanninq Azərbaycanın bu sahədə çox dəyərli bir tərəfdaş olduğunu vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev onun salamlarını AFR-in federal kansleri Gerhard Şrödərə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ BAŞ NAZİRİ OFİSİNİN DÖVLƏT KATİBİ LARS DANİELSSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Prezident sarayında İsveç Baş naziri ofisinin dövlət katibi Lars Danielssonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dedi ki, biz Azərbaycan-İsveç ikitərəfli əməkdaşlığının inkişaf etməsində maraqlıyıq, iqtisadi və digər sahələrdə əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük potensial var və bundan istifadə edilməsi çox vacibdir.

Avropa İttifaqının yeni qonşuluq siyasəti çərçivəsində də Azərbaycanın İsveçlə əməkdaşlığı genişləndirmək əzmində olduğunu bildirən Prezident İlham Əliyev bu siyasətdə ölkəmizin çox fəal iştirak etdiyini vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İsveç hökuməti bu siyasət çərçivəsində Azərbaycanın fəaliyyətini bundan sonra da dəstəkləyəcəkdir.

İsveçdə ölkəmizin səfirliyinin açılması barədə Azərbaycanda qərar qəbul edildiyini vurğulayan Prezident İlham Əliyev dedi ki, bu, bizim İsveçlə əlaqələrimizi daha da inkişaf etdirmək istəyimizin göstəricisidir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, cənab Lars Danielssonun Azərbaycana səfəri ölkələrimizin ikitərəfli əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəkdir.

Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsində İsveçin maraqlı olduğunu vurğulayan qonaq onun başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfərinin də bu istəkdən irəli gəldiyini söylədi. O dedi ki, ölkələrimizin iqtisadi əlaqələrinin inkişafı qanedici səviyyədə deyil, ona görə də bu sahədə çox iş görülməlidir. Azərbaycan ilə İsveç arasında siyasi əlaqələrin də genişləndirilməsinin vacib olduğunu vurğulayan Lars Danielsson bildirdi ki, Avropa İttifaqının yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycan İsveçin ən çox dəstəklədiyi ölkədir. Biz Azərbaycanın Avropa İttifaqı ilə daha sıx əməkdaşlıq qurmaq səylərini dəstəkləyirik. Yeni qonşuluq siyasəti çərçivəsində İsveçin Azərbaycana dəstəyi bu istiqamətdə ilk addımlardan biridir və biz bu sahədə səylərimizi davam etdirəcəyik.

Azərbaycanın İsveçdə səfirlik açması barədə qərarını alqışladıqlarını nəzərə çarpdıran, bunun ölkələrimizin əlaqələrinin inkişaf etdirilməsi işinə xidmət göstərəcəyinə əmin olduğunu söyləyən qonaq dedi ki, biz İsveçin iqtisadi, biznes dairələrinin Azərbaycanda

mövcud olan iqtisadi potensial və iqtisadi inkişaf proseslərinə cəlb olunması istiqamətində işlər aparacağıq. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər bizə çox müsbət təsir bağışlayır. Əminik ki, Azərbaycanın neft sahəsindəki uğurları ümumilikdə ölkənin iqtisadi inkişafına böyük töhfə verəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Prezident sarayında Gürcüstanın daxili işlər naziri Vano Merabişvilini qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin daim inkişaf etdiyini bildirən dövlətimizin başçısı, o cümlədən təhlükəsizlik və daxili işlər nazirlikləri xətti ilə uğurlu əməkdaşlıq həyata keçirildiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi baxımından Gürcüstanın daxili işlər nazirinin respublikamıza səfərinin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə əlaqələr bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Nazir Vano Merabişvili Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. O, iki ölkənin müvafiq nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsindən razılıqla bəhs edərək dedi ki, Gürcüstan tərəfi Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti regional sabitliyin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan və Gürcüstan prezidentləri arasında dostluq əlaqələrinin mövcud olması ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfə vermişdir. Nazir azərbaycanlı həmkarları ilə birgə əməkdaşlığı bundan sonra da genişləndirmək əzmində olduqlarını söylədi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Mixail Saakaşviliyə çatdırmağı xahiş etdi. İki ölkənin prezidentləri arasında daimi təmasların mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan-Gürcüstan münasibətlərinin uğurla inkişaf etməsinin həm ölkələrimizin, həm də regional təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN "SKAY NYUS" TELEVİZİYASI MOSKVA BÜROSUNUN MÜXBİRİ Lİ LOURENSƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Böyük Britaniyanın nüfuzlu "Skay Nyus" televiziyası Moskva bürosunun müxbiri Lii Lourensə müsahibə vermişdir.

Sual: Cənab Prezident, ilk növbədə, bu yaxınlarda istismara verilmiş boru kəməri haqqında Sizə sual vermək istərdim. Təbii ki, bu, böyük nailiyyətdir və ölkənizin gələcəyinə təsir edəcək mühüm bir amildir. Belədirmi?

Cavab: Bəli, doğrudur. Bu, Azərbaycanın, onun tərəfdaşlarının, boru kəmərinin tikintisi ilə məşğul olan Bakı-Tbilisi-Ceyhan şirkətinin, Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsi üçün 1994-cü ildə bizimlə birgə işə başlayan şirkətlərdən ibarət konsorsiumun ən böyük nailiyyətidir. Əlbəttə ki, boru kəməri artıq vəziyyəti dəyişdiribdir. O, bizə çoxmilyardlıq sərmayələr cəlb etməyə imkan yaradır və bu, təkcə neft və qaz sektoruna aid deyildir. Sərmayələr infrastruktur, xidmət, inşaat sahələrinə də yatırılır. Azərbaycanda inkişaf geniş vüsət almışdır. Bu ilin altı ayı ərzində ÜDM-in artımı təqribən 17 faiz təşkil etmişdir. Bu rəqəm uğurun göstəricisidir.

Sual: Sizin fikrinizcə, bu dəyişikliklər Azərbaycanın beynəlxalq imicinə də təsir göstərirmi?

Cavab: Bəli, bu həmçinin vacib elementdir, çünki biz artıq etibarlı tərəfdaş ölkə imicini qazanmışıq. Azərbaycanda xarici sərmayələr qanunvericilik və praktik addımlar əsasında lazımi qaydada qorunur. Təbii ki, bu, ölkənin qeyri-neft sektoru üçün sərmayələrin cəlb olunmasına və kreditlərin ayrılmasına yeni imkanlar açır. Beləliklə, xarici şirkətlərlə qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsi mümkün olur. Şübhəsiz ki, bu amillər xarici şirkətlər tərəfindən ölkəmizə rahat şəkildə sərmayələr qoyulması baxımından Azərbaycanın imicinə müsbət təsir göstərir.

Sual: Mən bildiyimə görə, hazırda dünya bazarında neftin bir barrelinin qiyməti 50 dollardan artıqdır. Məlumdur ki, qarşıdakı iyirmi il ərzində ölkəniz boru kəmərinin işləməsindən yüz milyonlarla dollar gəlir əldə edəcəkdir. Siz bu vəsaitləri hansı məqsədlərə sərf etmək fikrindəsiniz?

Cavab: Biz boru kəmərinin tikintisini planlaşdıranda neftin qiyməti ilə bağlı müxtəlif hesablamalar aparmışdıq. Bizim nikbin ssenarimiz var idi. Həmin vaxt neftin bir barrelinin qiyməti 24 dollar səviyyəsində götürülmüşdü. Pessimist ssenarimizə görə isə, 12 dollar səviyyəsində nəzərdə tutulurdu.

Sual: Belə olsaydı, yəqin ki, layihədən imtina edərdiniz.

Cavab: Heç kəs bilmirdi ki, növbəti ildə neftin qiyməti necə olacaqdır. O vaxt bir barrelin qiyməti hətta 8 dollar nəzərdə tutulurdu. Hazırda xərclər və sərmayələr proqramı bizim üçün prioritet əhəmiyyət daşıyır. Buna nail olmaq üçün, biz ilk növbədə, vəsaitlərin qeyri-düzgün idarə edilməsinə yol verməməliyik. Bir neçə il bundan əvvəl yaradılmış Neft Fondu bu məqsədə xidmət edir. Bizim Dövlət Neft Fondu tamamilə şəffaf strukturdur. O, beynəlxalq auditdən keçir və Azərbaycanın hər bir vətəndaşı həmin Fonda daxil olan vəsaitlərin həcmi haqqında məlumat alır. Bu, işimizin birinci hissəsidir.

İkinci hissəsi isə, bu vəsaitlərdən düzgün istifadə edilməsidir, çünki onların sərf olunmasına meyillilik çox yüksəkdir. İnsanların ümidləri də çox yüksəkdir. Onlar həmin insanlardır ki, bu boru kəmərinin istismara verilməsini, neftdən əldə olunacaq yeni gəlirlərin həyat tərzinin yaxşılaşdırılmasına yönəldiləcəyi haqqında düşünürlər. Ona görə də biz tarazlığı, makroiqtisadi sabitliyi qoruyub saxlamalıyıq, çünki biz pulun hamısını dövriyyəyə buraxa bilmərik. Əgər belə olsa, inflyasiya artar. Eyni zamanda, biz insanla-

rın sosial tələbatlarına qayğı ilə yanaşmalıyıq. Biz beynəlxalq maliyyə qurumları ilə çox sıx işləyirik. Bunlar əsasən, Beynəlxalq Valyuta Fondu və Dünya Bankıdır. Vəsaitlərdən düzgün istifadə olunması məqsədi ilə ekspertlərlə iş aparırıq. Çünki əvvəllər bizim belə təcrübəmiz yox idi və ölkənin bu qədər vəsaiti də olmayıbdır.

Sual: Çox güman ki, Siz bu vəsaitləri insanların həyatının yaxşılaşdırılması üçün məhz sosial layihələrə sərf etməyi planlaşdırırsınız?

Cavab: Tamamilə doğrudur. Sosial layihələrdən söhbət gedirsə, ilk növbədə xəstəxanalar, məktəblər və ictimai sektor, eləcə də infrastruktur nəzərdə tutulur. Yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi, su təchizatı, kommunikasiyalar, qaz təchizatı nəzərdə tutulur. Əgər biz çoxşaxəli iqtisadiyyat yaratmaq istəyiriksə, yaxşı infrastrukturumuz olmalıdır. Hazırda biz yolların çəkilməsi ilə fəal məşğul oluruq və görürük ki, yol çəkilib qurtarandan dərhal sonra orada biznes fəaliyyətə başlayır. İnsanlar işləməyə başlayır və beləliklə, inkişaf sürətlənir. Ona görə də bütün işlər tarazlı şəkildə aparılacaqdır. Ancaq biz ilk növbədə Neft Fondunun vəsaitinin böyük bir hissəsini gələcək nəsillər üçün saxlamalıyıq. Beləliklə, gələcək nəsillər hər hansı bir çətinlikdən qoruna biləcəkdir. İkinci yerdə isə sosial inkişaf və infrastrukturla bağlı layihələrin həyata keçirilməsi durur.

Sual: Bu gün səhər bp-nin ölkənizdə apardığı müşahidələri ilə tanış olmaq imkanı qazandım. Belə bir fikir irəli sürülür ki, ölkənin iqtisadiyyatına gələcək sərmayələrin yatırılması sabitlikdən və cəmiyyətdəki sakitlikdən asılı olacaqdır. Bu fikir, istər-istəməz, Azərbaycanda son aylar ərzində gedən siyasi proseslərə diqqəti çəkir. Müxalifət küçə nümayişləri keçirməyə cəhd edir. Azərbaycanda sabitliyin pozulması ehtimalı ilə bağlı Qərb aləmindəki fikrə necə yanaşırsınız?

Cavab: Müəyyən ölkələrin Azərbaycanla bağlı fikirləri və ya düşüncələri ilə bağlı fikir söyləmək mənim üçün çətindir. Bir sıra hallarda belə fikirlər reallığı tam əks etdirmir. Mən şahidiyəm ki, ölkəmizə səfər edən xarici nümayəndə heyətləri, digər ölkələrin rəsmiləri bir fikirlə gəlir, lakin reallığı gördükdən sonra fikirlərini dəyişirlər. Biz gələcəkdə Azərbaycanda sabitliyin qorunması baxımından hansısa çətinliyin olacağını proqnozlaşdırmırıq.

Sual: Siz gələcəkdə belə bir meyil görmürsünüz?

Cavab: Xeyr, əsla yox. Ən əvvəl ona görə ki, bizim cəmiyyətdə sakit durum mövcuddur. İqtisadi göstəricilər çox yaxşıdır. Son ilyarım ərzində mənim Prezidentliyim dövründə 260 min iş yeri yaradılmışdır. Onlardan 140 mini daimi iş yeridir və müxtəlif rayonlarda açılmışdır. Minimum əmək haqqı üç dəfə artmışdır. Büdcəmiz 50 faiz artmışdır və mən hökumətin qarşısında gələn il üçün büdcə xərclərini ən azı 50 faiz artırmaq vəzifəsini qoymuşam. Biz sosial problemlərlə məşğul oluruq. İqtisadi inkişafa diqqət yetiririk. Silahlı qüvvələrimizin inkişafına çox böyük önəm veririk, çünki hələ müharibə şəraitindəyik. Xarici siyasətimizdə də uğurlar müşahidə olunur. Biz qonşularımız və tərəfdaşlarımızla, o cümlədən Avropa İttifaqı ilə çox yaxşı münasibətlər qurmuşuq. Ona görə də hökumətin gördüyü işlərin müxalifət tərəfindən tənqid edilməsi və bu tənqidin xalq tərəfindən dəstəklənməsinə yönəlmiş cəhdlər əbəsdir. Bizim tərəfdaşlarımızın sayı çoxdur. Bu yaxınlarda aparılmış ictimai rəy sorğusu mənə və hökumətimizə etimadın çox böyük olduğunu nümayiş etdirdi. Belə hesab edilə bilər ki, yerli səviyyədə, xarici

müşahidəçilərin iştirakı olmadan aparılan sorğulara o qədər də etimad göstərilmir. Lakin bir neçə ay bundan əvvəl "Gellup İnternational" təşkilatının apardığı sorğu onu göstərdi ki, Prezidenti dəstəkləyənlərin sayı 77 faiz təşkil edir. Belə bir şəraitdə, mən hesab etmirəm ki, sabitlik pozulsun. Bəlkə də, buna cəhdlər ola bilər, çünki keçmişdə ölkəmizdə belə proseslər müşahidə olunmuşdur. Lakin bu cəhdlərə heç bir dəstək verilməyəcəkdir.

Sual: Bu ilin əvvəlindən etibarən polis müxalifət tərəfindən hər hansı kütləvi aksiyaların keçirilməsinə imkan verməmişdir. Nə səbəbə görə buna imkan verilmirdi?

Cavab: Keçmişdə bizim toplaşmaq azadlığı ilə bağlı heç vaxt problemimiz olmayıbdır. Bu dövr müstəqilliyin qazanılmasından son prezident seçkilərinə qədər olan müddəti əhatə edir. Prezident seçkilərindən sonra baş vermiş hadisələr bütün cəmiyyəti sarsıtdı. Zorakılıq, vəhşi hərəkətlər, müxalifət tərəfindən polisə və vətəndaşlara qarşı kəskin hücumlar kimi hadisələri Azərbaycan müstəqilliyin yalnız ilk illərində, yəni 1990-cı illərin əvvəllərində yaşamışdır. İndi artıq insanlar normal, sakit həyata öyrəşmişlər. Lakin belə zorakılıq hallarının baş tutması əhalini şok vəziyyətinə saldı. Ona görə də insanları bu cür zorakılıqdan qorumaq üçün biz ciddi tədbirlər görmək məcburiyyəti qarşısında qaldıq. Yeri gəlmişkən, onu da deyim ki, müxalifət hətta o vaxt da kütləvi aksiya keçirmək iqtidarında ola bilmədi. Lakin biz boru kəmərinin istismara verilməsi mərasimi keçirəcəyimiz vaxtdan bir neçə gün əvvəl onlar mitinqi təşkil etmək qərarına gəldilər. Həmin mitinqin sakit və ya zorakı olacağını da biz bilmirdik. Biz may ayında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi ərəfəsində Bakıda bu cür mitinqin keçirilməsinə və zorakılığa əl atılmasına imkan verə bilməzdik. Bu səbəbdən ona icazə verilmədi. Amma onlar çalışdılar ki, bu mitinqi keçirsinlər. Biz buna yol vermədik. Lakin mərasim keçiriləndən dərhal sonra toplaşmaq azadlığı yenidən bərpa olundu və hazırda müxalifətin bu cür mitinqlər keçirməsinə heç bir maneə yoxdur.

Sual: Beləliklə, demək olarmı ki, ölkənin iqtisadiyyatına yatırılan sərmayələr müxalifətin keçirdiyi mitinqlərdən daha vacibdir?

Cavab: Müxalifətin keçirdiyi mitinqlər, nümayişlər ölkənin imicinə böyük xələl gətirmir. Bu, sadəcə, sərmayələrlə bağlı deyil, çünki Bakı-Tbilisi-Ceyhanın maliyyə məsələsi artıq öz həllini tapıbdır. Yəni bu məqsədlə biz əlavə sərmayə axtarmırıq. Bunun səbəbi ondan ibarətdir ki, Bakı-Tbilisi-Ceyhan kəmərinin işə düşməsi bütün Azərbaycan üçün və ölkəsini sevən hər bir azərbaycanlı üçün olduqca mühüm hadisədir və biz belə bir hadisə ərəfəsində hər hansı problemin yaranmasına imkan verə bilməzdik.

Bir sıra ölkələrdə Bakı-Tbilisi-Ceyhan layihəsinə qarşı çıxan müəyyən qüvvələr var idi və onlar hətta indi də fəaliyyət göstərirlər. Buna görə də, həmin layihə bizim üçün adi bir məsələ, adi bir boru kəməri deyildir. Bu, Azərbaycanın gələcəyidir. Boru kəməri bizim iqtisadi müstəqilliyimiz və bunun nəticəsində bizim siyasi müstəqilliyimizdir. Bunu hamı anlayır. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verilməsi ərəfəsində müxalifətin bu cür tədbir keçirmək cəhdi müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət etməyən və Azərbaycan xalqı tərəfindən dəstəklənməyən fakt idi. Ona görə də şəhərin icra hakimiyyəti onlardan xahiş etdi ki, mitinqi mərasimdən sonraya təxirə salsınlar. Çünki həmin açılış mərasiminə bir neçə Prezident, mötəbər rəsmi şəxslər və digər qo-

naqlar gəlmişdilər. Bütün dünya ictimaiyyətinin diqqəti ölkəmizə yönəlmişdi. Lakin onlar bizim xahişimizə qulaq asmadılar. Onlar həmin gündə dünya mətbuatında Azərbaycanı boru kəmərini istismara verən ölkə kimi yox, polis və müxalifət arasında qarşıdurma olan ölkə kimi tanıtmaq istəyirdilər. Əgər onlar bu addımı atsaydılar, biz buna qarşı çıxar və gücümüzü nümayiş etdirərdik. Beləliklə, onlara göstərdik ki, bizimlə ultimatumla danışmasınlar.

Sual: Qarşıdan gələn parlament seçkilərinin müasir Azərbaycanın tarixində həlledici bir məqam olması barədə fikirə necə yanaşırsınız?

Cavab: Mən hesab edirəm ki, hər bir seçki vacibdir və noyabr ayındakı parlament seçkiləri Azərbaycan müstəqilliyini qazandıqdan sonra keçiriləcək növbəti seçkilərdir. Azərbaycan Prezident idarəçiliyini nəzərdə tutan ölkədir. Ona görə də parlamentin fəaliyyəti qanunvericiliklə məhdudlaşır. Bəzi hallarda müxalifət bəyan edir ki, onlar bu seçkilər vasitəsilə hakimiyyətə gələcəklər. Bu, müəmmalı fikirdir.

Sual: Bəlkə onlar bunu Gürcüstan, Ukrayna və Qırğızıstandakı hadisələri gördükdən sonra deyirlər, hesab edirlər ki, bu cür fürsətdən istifadə edərək, xalqın dəstəyini qazanıb hakimiyyətə gələ bilərlər?

Cavab: Bu, müxalifətin səhvlərindən biridir. Belə düşünməyə onları vadar edən istədiklərini reallıqda görməmələridir. Çünki buradakı vəziyyət Gürcüstan, Ukrayna və Qırğızıstandakı vəziyyətdən fərqlənir. Həmin ölkələrdə dövlət başçıları on illər ərzində hakimiyyətdə olmuşlar. Nəsillərin dəyişilməsi orada qaçılmaz hal idi. İqtidara yeni insanlar gəldi və bu da təbiidir.

Sual: Lakin Sizin atanız da uzun müddət ərzində ölkəyə rəhbərlik etmişdir.

Cavab: Bəli, atam rəhbərlik etmişdir. Lakin mən yox. Bizim strateji xəttimiz dəyişməyibdir. Ancaq mən yeni Prezidentəm və hakimiyyətə yeni ideyalarla, yeni yanaşma ilə, yeni heyətlə gəlmişəm. Bunları nəzərə alaraq, Azərbaycanda dəyişikliklər artıq baş veribdir. Bundan əlavə, Azərbaycanda keçmiş hökumətin siyasəti də dəstəklənmişdir. Ona görə də biz Gürcüstandakı parlament seçkiləri və ya Ukraynadakı prezident seçkiləri kimi hadisələr ərəfəsində deyilik. Burada fərqlər var. Müxalifət isə əks imic yaratmağa çalışır. Onların hamısı Ukrayna və ya Gürcüstandakı müxalifət liderlərinə bənzəmək arzusuna düşübdür. Lakin bunlar fərqli insanlardır. Müxalifət bizimlə mübarizə etməyə çalışır. 1992-ci ildə onlar bir dəfə hakimiyyətə gəlmişdilər. Həmin hakimiyyət yalnız bir il çəkdi. Nə səbəbə görə? Ona görə ki, xalq onları dəstəkləmirdi, onların rəhbərliyi altında yaşamaq istəmirdi. Mən hesab edirəm ki, bugünkü müxalifətin ən böyük problemlərdən biri də odur ki, onlar artıq uzun illərdir, yəni on beş ildir özlərini lider adlandırmağa çalışıblar. Yenə də eyni sözlərlə, eyni fikirlərlə və eyni şüarlarla çıxış edirlər. Zənnimcə, həmin insanlar geri çəkilməlidirlər və saf, əlləri vətəndaş müharibəsinin qanlı hadisələrinə batmamış, sosial gərginlikdə günahı olmayan gənc müxalifətçi nəsillərə imkan verməlidirlər. Ona görə də qonşu ölkələr ilə müqayisədə bizdə vəziyyət fərqlidir.

Sual: İndi isə ölkənizin xarici əlaqələrinə keçək. Siz hesab edirsinizmi ki, Amerika ilə münasibətləriniz Rusiya ilə münasibətlərə nisbətən daha güclüdür?

Cavab: Bilirsiniz, biz müxtəlif ölkələrin və ya qüvvələrin qarşıdurmasında iştirak et-

məkdən hər zaman çəkinmişik və indi də bu addımları uğurla atırıq. Bura qarşıdurma yeri deyildir.

Sual: Razılaşın ki, onlar mübarizəyə cəhd edirlər.

Cavab: Bəli, bir çox ölkələr və qüvvələr cəhd göstərirlər. Bizim vəzifəmiz isə bu cür qarşıdurmaya yol verməməkdir. Onlar dünyanın digər yerlərində, böyük ölkələrin maraqları olan bölgələrdə mübahisə edə, mübarizə apara bilərlər. Lakin Azərbaycan bu cür mübahisələrin yeri deyildir. Bizim siyasətimiz çox aydındır.

Birləşmiş Ştatlarla çox yaxşı əlaqələrimiz var. Biz ilk vaxtlardan etibarən antiterror koalisiyasının üzvüyük. Bizim Kosovoda və Əfqanıstanda hərbçilərimiz var. İraqda əməliyyat başlandıqdan dərhal sonra biz öz əsgərlərimizi həmin ölkəyə göndərdik. Biz NATO-ya inteqrasiya yolunda Birləşmiş Ştatlarla və öz tərəfdaşlarımızla işləyirik, çox fəal çalışırıq. Biz artıq "Fərdi tərədaşlığın fəaliyyət planı" prosesindəyik. Avropa İttifaqı ilə də sıx işləyirik və Avratlantika məkanına inteqrasiya bizim strateji seçimimizdir.

Lakin eyni zamanda, bizim Rusiya ilə çox yaxşı münasibətlərimiz var. İranla əla münasibətlərimiz mövcuddur. Biz bu münasibətləri yüksək dəyərləndiririk, çünki onlar bizim qonşularımızdır. Biz onlarla bir-birinin daxili işlərinə qarşımamaq və qarşılıqlı hörmət əsasında konstruktiv münasibətlər qurmaq arzusundayıq. Bu cür siyasətimiz xalq tərəfindən dəstəklənir. Əgər siz burada küçələrə çıxıb ictimai sorğu keçirsəniz və üstünlük verilən istiqamətlər barədə sual versəniz, görəcəksiniz ki, ifadə olunan rəylər müxtəlifdir. Ona görə də, Prezident kimi mənim başlıca məqsədim Azərbaycanın milli maraqlarının, o cümlədən sabitliyin, təhlükəsizliyin və əmin-amanlığın maksimum dərəcədə qorunmasıdır, Azərbaycanı özünə dost hesab edən bütün ölkələrlə yaxşı, konstruktiv münasibətlərin qurulmasıdır. Gələcəkdə biz məhz belə münasibətlərin qurulmasının tərəfdarıyıq, çünki bu, Azərbaycanın yeganə uğurlu yoludur.

Sual: Siz bildirdiniz ki, Amerikanın başçılıq etdiyi əməliyyatlarda ölkəniz də iştirak edir. Bəs İranla bağlı bir qərar qəbul edilsə, Siz hansı addımları atacaqsınız?

Cavab: Biz əvvəlcədən nəyin baş verəcəyini proqnozlaşdıra bilmərik. Hər şey baş verə bilər. Bunlar mənim sifarişimlə baş verə bilməz. Lakin mən hesab edirəm ki, ciddi münaqişələr dinc yolla öz həllini tapmalıdır. Biz Ermənistanla uzun illərdir ki, müharibə şəraitindəyik. Bütün beynəlxalq ictimaiyyət bizi bu münaqişəni sülh yolu həll etməyə çağırır. Baxın, on ildən çoxdur ki, Ermənistan bizim torpaqlarımızın 20 faizini işğal altında saxlayır və bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Lakin bütün beynəlxalq təşkilatlar Azərbaycanı hər hansı hərbi addımdan çəkinməyə çağırır. Nəyə görə? Çünki heç kim Avropaya yaxın bu bölgədə münaqişə olmasını istəmir. Avropaya belə bir münaqişə lazım deyildir. Onda nə səbəbə görə biz sərhədlərimizin yanında yeni münaqişənin yaranmasına qərəzsiz baxmalıyıq? Bu, Azərbaycanın təhlükəsizliyinə xidmət edəcəkmi? Xeyir. Mən hesab edirəm ki, beynəlxalq münasibətlərdə ümumi yanaşma tətbiq olunmalıdır. Əgər Azərbaycan bu gün öz torpaqlarının işğal altında olmasına baxmayaraq, məsələni dinc yolla həll etməyə çalışırsa, biz digər ölkələrdən də xahiş edərdik ki, hər hansı zorakılıqdan çəkinsinlər. Biz müharibə, qan tökülməsini istəmirik. Fikrimcə, ən münasib yol danışıqlar yoludur. Rəqibi yola gətirmək və ümumi yanaşmadan istifadə ən yaxşı üsullardır.

Sual: Amerikanın Sizin ərazinizdə hərbi hava bazası yerləşdirməsi planına necə yanaşırsınız? Bu addım Sizin ölkə üçün əhəmiyyət daşıyırmı?

Cavab: Əvvəlcə onu deməliyəm ki, Azərbaycanda xarici hərbi bazaların yerləşdirilməsi haqqında məlumat düzgün deyildir. Bunlar şayiədir. Bəzi hallarda bunu bilərəkdən yayırlar, digər hallarda isə, insanlar sadəcə bu haqda düşünürlər. Bu barədə biz Birləşmiş Ştatlarla heç bir danışıq aparmırıq.

Sual: Beynəlxalq aləmdə bildirilir ki, Amerika buna nail olmaq istəyir.

Cavab: Mən belə hesab etmirəm. Onların rəsmiləri bir neçə dəfə rəsmi şəkildə bəyan ediblər ki, bu cür bazaları yerləşdirməyi planlaşdırmırlar. Biz bununla bağlı heç bir danışıqlar aparmırıq və mən hesab etmirəm ki, ölkədə hər hansı xarici hərbi bazanın yerləşdirilməsi bizim təhlükəsizliyimizə töhfə verəcəkdir. Bizim bir nömrəli problemimiz var - işğal olunmuş torpaqlarımızın azad edilməsi. Biz əməkdaşlığımızın bütün aspektlərini bu baxımdan müəyyən edirik. Bu, verdiyiniz sualın birinci hissəsi barədə.

O ki, qaldı sualınızın ikinci hissəsinə, onu deyə bilərəm ki, biz Ermənistanla Azərbaycan arasındakı münaqişəni heç vaxt xristian və müsəlmanlar arasındakı müharibə kimi qəbul etməmişik. Azərbaycanda bir çox millətlərin və dinlərin nümayəndələri yaşayır və mən deyərdim ki, burada olan dözümlülüyün səviyyəsi regionun digər ölkələri üçün nümunə ola bilər. Eyni zamanda, biz bilirik ki, Ermənistan Rusiya ilə birgə Kollektiv təhlükəsizlik müqaviləsinin üzvüdür və Rusiyanın çox yaxın hərbi müttəfiqidir. Buna görə də Ermənistanla Amerika arasında hərbi əməkdaşlıq o qədər də fəal deyildir. Bunu hətta İraqla bağlı məsələyə də şamil etmək olar. Ermənistan öz kontingentini müharibə başladıqdan bir il və ya ilyarım sonra İraqa göndərdi. Həmin kontingent də əsgərlərdən yox, sürücülərdən ibarətdir. Onlar bunu yalnız Azərbaycana görə etdilər, çünki ölkəmizdən geridə qalmaq istəmədilər.

Bunları nəzərə alsaq, regiondakı geosiyasi vəziyyət tamamilə aydındır. Bizim mövqeyimiz hər zaman açıq və səmimi olubdur. Biz razılaşanda müsbət cavab veririk, razı olmayanda yox deyirik. Biz bir əldə iki qarpız tutmaq fikrində deyilik. Bu, mümkün deyildir.

Sual: Sonuncu sualımdır. Bu yaxınlarda, Human Rights Watchdog təşkilatı öz hesabatında Azərbaycanı polis dövləti kimi təsvir edibdir. Bu haqda nə deyə bilərsiniz?

Cavab: Onu deyə bilərəm ki, mən bu cür qiymətlə razılaşmıram. Qətiyyən razılaşmıram, çünki belə yanaşma reallığı əks etdirmir. Mən Prezident seçildikdən sonra bir neçə əfv fərmanı imzalamışam və bir sıra qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar tərəfindən "siyasi məhbus" hesab edilən şəxslərin hamısı azadlığa buraxılmışdır. Ölkəmizdə söz və fikir azadlığı, müxalif partiyalar və qəzetlər var. Bir sözlə, bu cür fikirlər tamamilə yanlışdır. Biz anlayırıq ki, Azərbaycan get-gedə mühüm ölkəyə çevrilir. Bu ölkənin çox böyük potensialı var. Onun geosiyasi mövqeyi çox mühümdür. Ölkəmizin mühüm nəqliyyat yolları, dəhlizi və enerji resursları var və gələcəkdə çox güclü maliyyə potensialı olacaqdır. Buna görə də bizim siyasətimizə təsir göstərmək cəhdləri davam edəcəkdir. Bunun bir çox alətləri var. Onların arasında Human Rights Watchdog təşkilatı və digərləri mövcuddur. Onlar hər zaman çalışırlar ki, ölkəmizi tamamilə fərqli formada təsvir etsinlər. Bəzən bu bizi qəzəbləndirir, lakin artıq buna öyrəşmişik və çox fikir vermirik. Bir Prezident kimi mənim üçün Human Rights Watchdog təşkilatının ver-

diyi qiymət yox, Azərbaycan xalqının siyasətimizlə bağlı ifadə etdiyi rəy vacibdir. Xalqın dəstəyi bizim üçün vacibdir və "Gellup İnternational"ın hesablamalarına görə, məni dəstəkləyənlərin sayının 77 faiz səviyyəsində olduğunu görəndə, əmin oluram ki, yürütdüyüm siyasət düzdür və mən haqlıyam. Human Rights Watchdog təşkilatı səhvə yol verir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ RENE VAN DER LİNDENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Lindeni qəbul etmişdir.

Dövlətimizin başçısı Varşavada AŞPA-nın sədri ilə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, görüşün qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etmişdir. Ölkəmizdə cəmiyyətin daha da demokratikləşməsi istiqamətində böyük işlərin həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev AŞPA sədrinin səfərinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olması işinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

Rene van der Linden Avropa Şurasının ölkəmizdə həyata keçirilən islahatlar prosesini dəstəklədiyini vurğulamışdır. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycan üçün ən mühüm məsələ olduğunu qeyd edərək, münaqişənin dinc yolla nizamlanması istiqamətində addımların atılmasından məmnunluğunu bildirmişdir. Ermənistanda səfəri zamanı Ermənistan tərəfi ilə bu məsələni müzakirə etdiyini bildirən AŞPA-nın sədri münaqişənin tezliklə öz həllini tapacağına ümidvar olduğunu ifadə etmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

MOSKVADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR

Avqustun 23-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası keçirilmişdir. Nazirlər avqustun 26-da Kazanda MDB Dövlət Başçıları Şurasının iclasına çıxarılacaq bir sıra məsələləri müzakirə etmişlər.

İclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil edirdi. Nümayəndə heyətimizə xarici işlər nazirinin müavini Xələf Xələfov və Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev daxil idilər.

XİNŞ-in iclasını MDB Xarici İşlər Nazirləri Şurasının sədri, RF XİN-in başçısı Sergey Lavrov açmışdır. İclas iştirakçıları MDB orqanlarının təkmilləşdirilməsinə və yenidən qurulmasına dair təklifləri, humanitar əməkdaşlıq haqqında sazişin layihəsini, BMT-nin 60 illiyi ilə əlaqədar Birlik dövlətləri başçıları bəyanatının layihəsini, Çernobıl AES-də qəzanın 20-ci illiyi ilə əlaqədar MDB dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətinin layihəsini müzakirə etmişlər.

İclasda MDB-nin fəaliyyətinin təkmilləşdirilməsinə və MDB-nin keyfiyyətcə möh-

kəmlənməsinə kömək etməli, ona böyük dinamizm verməli olan Birlik orqanlarının optimallaşdırılması barədə təkliflər dinlənilmişdir. Əsas diqqət humanitar sahədə əməkdaşlıq haqqında sazişin layihəsinə yönəldilmişdir. Birliyin gündəlik həyat fəaliyyəti ilə bağlı məsələlərə də baxılmışdır.

Xarici işlər naziri Elmar Məmmədyarov XİNŞ-in iclasının yekunları barədə fikrini söyləyərək demişdir ki, Azərbaycan bəzi sənədlərə qoşulmadı. Ölkəmizin prinsipial mövqeyi belədir ki, biz fövqəlmilli xarakter daşıyan sənədləri qəbul edə bilmərik, çünki suverenlik bizim üçün prinsipial məsələdir. Fövqəlmilli funksiyanı hər hansı digər orqana heç bir halda vermədən, məsələləri ikitərəfli əsasda həll etmək ölkəmizin suveren hüququdur. Odur ki, biz belə xarakterli sənədlərə qoşulmadıq. Bu, hər bir dövlətin öz hüququdur.

MDB XİNŞ-in sədri, RF XİN-in başçısı Sergey Lavrov mətbuat konfransında bildirmişdir ki, Rusiya MDB dövlətləri ilə öz münasibətlərini dünya praktikasına uyğun sürətdə qurmaq niyyətindədir. Onun sözlərinə görə, prinsipcə, bütün MDB ölkələri hesab edirlər və bu gün belə rəylər də söylənildi ki, Birliyin münasibətlərini beynəlxalq normalar əsasında, dünya praktikası əsasında qurmaq lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZANA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün avqustun 26-da Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə gəlmişdir.

Dövlətimizin başçısını Kazan hava limanında Tatarıstan Respublikası Dövlət Şurasının sədri Fariq Muxametşin, MDB-nin icraçı katibi Vladimir Ruşaylo, Rusiya xarici işlər nazirinin müavini Boris Karasin, Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.

Milli geyimli qızlar Azərbaycan Prezidentinə duz-çörək təqdim etdilər. Dövlətimizin başçısı hava limanından "Kazan-1000" şəhərciyində onun üçün ayrılmış iqamətgaha gəldi.

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ

Avqustun 26-da Kazan bələdiyyəsinin binasında (ratuşa) MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti - sayca 40-cı zirvə görüşü keçirilmişdir. Xatırladaq ki, Sankt-Peterburq və Kazan ustaları 1853-cü ildə tikilmiş bu binada 10 il ərzində apardıqları bərpa işlərini Tatarıstan paytaxtının 1000 illik yubileyi ərəfəsində başa çatdırmışlar.

Əvvəlcə qapalı keçən iclasda Azərbaycan Prezidenti İlham Əliyev, Belarus Prezidenti Aleksandr Lukaşenko, Ermənistan Prezidenti Robert Koçaryan, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev, Moldova Prezidenti Vladimir Voronin, Özbəkistan Prezidenti İslam Kərimov, Rusiya Prezidenti Vladimir Putin, Tacikistan Prezidenti Emoməli Rəhmonov, Ukrayna Prezidenti Viktor Yuşşenko, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Ağaniyaz Akıyev iştirak edirdilər.

Gündəliyə "MDB-nin üzvü olan ölkələrin humanitar əməkdaşlığı haqqında saziş", "Çernobıl AES-də qəzanın 20-ci ildönümü ilə əlaqədar MDB ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciət", eləcə də terrorizm və qeyri-leqal miqrasiya ilə bağlı mübarizəyə dair sənədlər, "BMT-nin 60 illik yubileyi ilə əlaqədar dövlət başçılarının bəyanatı"nın qəbulu, 2006-cı ilin MDB ili elan olunması və digər məsələlər daxil idi.

MDB Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin iclası açaraq demişdir ki, ötən sammitdən keçən müddət ərzində Müstəqil Dövlətlər Birliyi çərçivəsində müxtəlif formatlarda keçirilən görüşlərin hamısı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət etmişdir.

Təxminən iki saat yarım çəkən iclasdan sonra zirvə görüşü geniş tərkibdə davam etdirilmişdir. Dövlət Başçıları Şurasının sədri, Rusiya Prezidenti Vladimir Putin iclası açaraq, zirvə görüşünün Kazanın 1000 illik yubileyi şənlikləri günlərində keçirilməsini əlamətdar, mühüm tarixi hadisə adlandırmış, görüşün yüksək səviyyədə təşkilinə görə Tatarıstan Respublikasının rəhbərliyinə dövlət başçıları adından dərin təşəkkürünü bildirmişdir.

Müstəqil Dövlətlər Birliyi orqanlarının təkmilləşdirilməsi və islahatı, humanitar sahədə əməkdaşlıq məsələləri müzakirələrin əsas mövzusu olmuşdur.

Zirvə görüşünün nəticəsi olaraq bir sıra sənədlər imzalanmışdır. Dövlət başçıları ötən müddətdə Şuraya rəhbərlik etmiş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin fəaliyyətini yüksək qiymətləndirərək ona təşəkkürlərini bildirmişlər.

MDB dövlət başçılarının növbəti zirvə görüşünün 2006-cı ildə Belarusun paytaxtı Minsk şəhərində keçirilməsi qərara alınmışdır.

Zirvə görüşündə iştirak edən ölkələrin prezidentləri və onları müşayiət edən şəxslər iclasdan sonra Kazan Kremlində "Qul Şərif" məscidi və Blaqoveşşeniye kilsəsi ilə tanış olmuşlar.

Sonra prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.

Zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransı keçirilmişdir. Həmkarları adından jurnalistlər qarşısında çıxış edən Rusiya Prezidenti Vladimir Putin çoxmillətli Kazan şəhərində onlara göstərilən yüksək qonaqpərvərliyə görə Kazan sakinlərinə minnətdarlığını bildirmişdir. O demişdir ki, MDB-də islahatlar aparmağın vaxtı çoxdan çatmışdır, lakin belə mürəkkəb məsələdə tələsmək olmaz. Ən başlıcası odur ki, prezidentlərin hamısı iqtisadi və humanitar sahələrdə inteqrasiyada maraqlı olduqlarını söylədilər. MDB-nin islahatlarına dair müxtəlif fikirlər var, lakin ümumi qərar hökmən tapılacaqdır.

İmzalanmış sənədlər sübut edir ki, MDB ölkələri inteqrasiyanın güclənməsini istəyir.

V.Putin bildirmişdir ki, görüşdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin 2009-cu ildə ATƏT-in sədri vəzifəsinə namizədliyinin dəstəklənməsi barədə yekdilliklə qərar qəbul edilmişdir.

Sonra MDB üzvü olan ölkələrin dövlət başçıları, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyev Musa Cəlil adına Tatarıstan Dövlət Akademik Opera və Balet Teatrına gəlmişlər. Burada prezidentlərin şərəfinə və Kazan şəhərinin 1000 illik yubileyinə həsr olunmuş təntənəli konsert olmuşdur. Konsertdən əvvəl Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Tatarıstan Respublikasının prezidenti Mintimer Şaymiyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev çıxış etmişlər.

Avqustun 26-da Kazandakı "Piramida" əyləncə kompleksində Tatarıstan paytaxtının 1000 illiyi ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Birlik ölkələri dövlət başçılarının şərəfinə ziyafət verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.

Ziyafətdən sonra prezidentlər Kazanın Yarmarka meydanında atəşfəşanlığa baxmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ

Avqustun 27-də Tatarıstan Respublikasının paytaxtı Kazanda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupu həmsədrlərinin də iştirak etdikləri görüşdə dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələlərini geniş müzakirə etmişlər.

Sonra görüş təkbətək davam etdirilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev avqustun 27-də Tatarıstan paytaxtına səfərini başa çatdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Prezident sarayında Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Şaban Dişlini, partiya sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı Murad Mercanı və TBMM-in ASPA-dakı nümayəndə heyətinin üzvü, millət vəkili İnci Dərvişi qəbul etmişdir.

Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi ki, sizin nümayəndə heyətinin bu səfəri çox önəmlidir, Azərbaycanın və Türkiyənin iqtidar partiyaları arasında əlaqələrin daha da inkişafına xidmət edəcəkdir. Dövlətimizin başçısı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bu yaxınlarda Azərbaycana səfərini məmnunluqla xatırlatdı və səfərin gedişində keçirilmiş görüşləri, aparılmış danışıqları yüksək qiymətləndirdi, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyini vurğuladı. Eyni zamanda, müxtəlif səviyyələrdə əlaqələrin, o cümlədən parlamentlərarası əlaqələrin, partiyalararası əməkdaşlığın genişlənməsinin vacibliyini bildirdi.

Prezident İlham Əliyev dedi ki, Yeni Azərbaycan Partiyası və Ədalət və İnkişaf Partiyası hazırda iqtidarda olan partiyalardır, ölkələrimizin xalqlarının dəstəyinə arxalanırlar. Bizim partiyaları birləşdirən cəhətlərdən biri də odur ki, onların hər ikisi vaxtilə müxalifətdə olmuşdur. Müxalifətdə olan dövrdə də siyasətlərini milli maraqlar üzərində qurmuşlar. Ona görə də xalq bizi müxalifətdən iqtidara gətirdi. Ölkələrimizdə gedən siyasi və iqtisadi islahatlar onu göstərir ki, biz düzgün yoldayıq. Azərbaycan Prezidenti vurğuladı ki, biz istərdik YAP və ƏİP arasında təcrübə mübadiləsi olsun, bu, YAP-ın dünya partiyaları birliyinə daha sıx inteqrasiyasına xidmət edəcəkdir.

Dövlətimizin başçısı daha sonra dedi ki, Türkiyənin və Azərbaycanın bölgədəki rolu getdikcə güclənir. Bütün məsələlərdə, o cümlədən beynəlxalq və regional məsələlərə münasibətdə ölkələrimiz arasında birliyin olması Türkiyə və Azərbaycanın bölgədəki rolunun daha da güclənməsinə kömək edir. Azərbaycan və Türkiyənin müttəfiqliyi xalqlarımızın gələcəyinin təminatıdır. Prezident İlham Əliyev Ədalət və İnkişaf Partiyasına gələcək fəaliyyətində uğurlar arzuladı.

Nümayəndə heyətinin adından çıxış edən Şaban Dişli Prezident İlham Əliyevə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırdı. O dedi ki, Bakıya Yeni Azərbaycan Partiyasının dəvəti ilə gəlmişik. Sizin də bildirdiyiniz kimi, iqtidar partiyaları arasındakı əlaqələrin ölkələrimizin münasibətlərinin səviyyəsinə uyğun olması, bir sıra məsələlərdə fikir mübadiləsi və məsləhətləşmələr aparılması çox vacibdir. ƏİP-in Avropanın aparıcı ölkələrinin partiyaları ilə geniş əlaqələri var və bu sahədə təcrübəmizi Yeni Azərbaycan Partiyası ilə bölüşməyə hazırıq.

Prezident İlham Əliyev cənab Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN KƏŞFİYYAT DEPARTAMENTİNİN SƏDRİ BATU KUTELİYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Prezident sarayında Gürcüstanın Kəşfiyyat Departamentinin sədri Batu Kuteliyanı qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin sürətlə inkişaf etməsini məmnunluqla vurğuladı, bu günlərdə Kazanda Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşünü xatırladı. Azərbaycan Prezidenti ölkələrimizin xüsusi xidmət orqanları arasında əlaqələrin genişlənməsinin regionda təhlükəsizliyin təmin edilməsi baxımından da əhəmiyyətli olduğunu bildirdi.

Azərbaycana səfər etməsinin və Prezident İlham Əliyev ilə görüşməsinin özü üçün böyük şərəf olduğunu vurğulayan Batu Kuteliya səfərin başlanğıcından ona göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlıq etdi. Beynəlxalq terrorizmə qarşı mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardığını söyləyən Batu Kuteliya azərbaycanlı həmkarlarının bu sahədə böyük səriştəsi olduğunu bildirdi və onlarla təcrübə mübadiləsi aparmasının əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Prezident sarayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dedi ki, Azərbaycana çox böyük heyətlə gəlmisiniz, yenidən sizi görməyimə çox şadam. Mən elə bu gün keçmiş görüşlərimizi xatırlayırdım. Sizin qrupun fəaliyyətinin ölkələrimiz arasındakı əlaqələrin inkişafında böyük əhəmiyyəti vardır. Mərmərə Qrupu Azərbaycanda və Türkiyədə xalqlarımız, ölkələrimiz üçün mühüm işlər görür.

Mərmərə Qrupu Vəqfinin fəxri sədri seçilməsindən böyük məmnunluq duyduğunu bildirən Prezident İlham Əliyev dedi ki, xahiş edirəm bu qərarı qəbul etmiş bütün şəxslərə mənim minnətdarlığımı çatdırasınız. Mərmərə Qrupu Vəqfi kimi böyük bir təşkilatın fəxri sədri olmaq və bu vəzifəni mərhum Heydər Əliyevdən sonra üzərimə götürmək mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Uzun illərdir ki, bizim aramızda çox səmimi, çox gözəl münasibətlər mövcuddur. Şəxsən sizin və qrupunuzun üzvlərinin fəaliyyəti nəticəsində münasibətlərimiz daha da möhkəmlənir, daha da inkişaf edir. Bu, bizim milli maraqlarımıza xidmət edir. Ulu öndərimiz Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamı bizim üçün bir həyat tərzidir, bir prinsipdir və gündəlik həyatda bunu tətbiq edirik. Çünki bunun tarixi kökləri, möhkəm dayaqları, ölkələrimizin və xalqlarımızın gələcəyi üçün böyük önəmi vardır.

Akkan Suver dövlətimizin başçısına müraciətlə dedi ki, hörmətli Prezidentimiz, Sizinlə görüşməkdən böyük fəxr duyur və Sizə türk xalqının salamlarını çatdırırıq. Mərmərə Qrupu Vəqfi Azərbaycan-Türkiyə münasibətlərinə beynəlxalq əlaqələr kimi deyil, iki qardaşın yaxın ailə münasibətləri kimi baxır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bəyan etdiyi "bir millət, iki dövlət" prinsipinə həmişə sadiqik. Bildiyiniz kimi, Heydər Əliyev vəqfimizin fəxri sədri idi. Prezident olmazdan öncə, Siz də vəqfimizin fəxri üzvü seçilmişdiniz. Bu gün böyük qürur hissi ilə vəqfimiz tərəfindən 2005-ci il aprelin 14-də yekdilliklə qəbul edilmiş qərarı Sizin diqqətinizə çatdırmaq istərdik. Vəqfin həmin tarixdə İstanbulda toplanmış İcraiyyə Şurası Sizin fəxri sədr seçilməyiniz barədə qərar qəbul etmişdir. Bununla bağlı Sizi təbrik edir və qərarımızı məmnuniyyət hissi ilə Sizə təqdim etmək istəyirəm.

Akkan Suver Prezident İlham Əliyevə vəqfin fəxri sədri seçilməsi barədə qərarı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN SKAY TV TELEKANALINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Prezident sarayında Türkiyənin SKAY TV telekanalının "Strateji rapor" proqramının aparıcısı Gülay Dəyərliyə müsahibə vermişdir.

Gülay Dəyərli: SKAY TV bu gün "Strateji rapor" proqramı ilə çox özəl bir yayım həyata keçirir. Bu gün Azərbaycandan, paytaxt Bakıdan "Strateji rapor"un özəl bir yayımında qonağımız hörmətli Cümhurbaşqanı İlham Əliyevdir. Onlar bizi burada qəbul etdilər, əslində, biz onların qonağı olduq. Amma indi o, bizim qonağımızdır.

Hörmətli Cümhurbaşqanı, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik.

İlham Əliyev: Sağ olun.

Sual: Biz çox tarixi bir dövr yaşayırıq.Burada olarkən tarixin bəlkə də önəmli bir hadisəsinin şahidi olduq. Sizin gərgin səylərinizlə Şimali Kipr Türk Cümhuriyyətindən gələn iş adamları və məmurları burada qəbul edildilər. Türkiyədən parlament nümayəndə heyəti gəldi. Siz bunları necə qiymətləndirirsiniz və səylərinizi bizə anlada bilərsinizmi?

Cavab: Mən çox şadam ki, bu günlərdə Türkiyənin və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri Azərbaycandadırlar. Çoxlu görüşlər keçirmişik, çox gözəl söhbətlər etmişik. Həqiqətən, bu, böyük bir nailiyyətdir. Bizim aramızda olan əlaqələr getdikcə inkişaf edir. Biz bir millət, iki dövlətik. Çalışırıq ki, öz fəaliyyətimizlə, görülən tədbirlərlə xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıraq.

Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri isə ilk dəfə Bakıdadırlar. Mən dünən keçmiş cümhurbaşqanı Rauf Denktaşla görüşdüm, bir neçə saat bərabər oldum və onun ailəsi ilə birlikdə çox səmimi söhbət etdik. Bu, belə də olmalıdır. Biz qardaşıq, istəyirik ki, bizi narahat edən bütün məsələlər çözülsün. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq, biz gərək öz istədiyimizə nail olaq və ədaləti bərpa edək.

Sual: Hörmətli Cümhurbaşqanı, biz, Türkiyənin qəzetçiləri Azərbaycanı müstəqillik mücadiləsindən bu yana çox yaxından izləyirik. Ancaq son dövrdə Azərbaycanda insanların rifahı, sosial-iqtisadi həyatı yaxşılaşmaqdadır. Biz bu inkişafla tanış oluruq. Bu inkişafa necə nail oldunuz? Bu, doğrudan da söhbət mövzusudur.

Cavab: Bilirsiniz, bu, möhkəm təməl üzərində qurulubdur. Azərbaycanda iqtisadi islahatlar 1990-cı illərin ortalarında bizim xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlayıbdır. Ardıcıl, məqsədyönlü islahatların aparılması indi Azərbaycanı iqtisadi cəhətdən çox inkişaf etdirir. Bu gün isə yeni mərhələyə qədəm qoymuşuq. Mən sizə deyə bilərəm ki, son ilyarım ərzində Azərbaycanda 300 min yeni iş yeri açılıbdır. Yoxsulluğun səviyyəsi yüzdə on faiz aşağı düşübdür və minimum əmək haqqı 3 dəfə qalxıbdır. Eyni zamanda, 2005-ci ildə büdcə xərcləri təxminən 50 faiz artıbdır. 2006-cı ildə isə minimum 50 faiz artacaqdır.

Azərbaycanın bölgələrində gedən inkişaf da göz qabağındadır. Bütün bunlar, əlbəttə, ölkəmizi iqtisadi cəhətdən gücləndirir və insanlarımızın rifah halını yaxşılaşdırır. Biz öz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipi üzərində qururuq. Ancaq eyni zamanda, sosial məsələlərə də çox böyük önəm veririk. Maaşların, təqaüdlərin qaldırılması da ardıcıl şəkildə həyata keçirilir. Gələcək illərdə isə bu inkişaf daha da sürətlə gedəcəkdir. Çünki Azərbaycana gələn vəsait - həm xarici sərmayə, həm də büdcə gəlirləri kəskin şəkildə artacaqdır. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm.

Sual: Hörmətli Cümhurbaşqanı, inşallah, bizim də təmənnamız budur və bunlar artıq görünür. Azərbaycan təbii ehtiyatlar - neft və təbii qaz baxımından son dərəcə zəngin-

dir. Bakı-Tbilisi-Ceyhan neft kəmərindən oktyabrın sonunda Ceyhana neftin gəlməsini görəcəyik. Siz də bu tədbirə qatılacaqsınız. Bunun regional əhəmiyyətini, dəyərini və bölgəyə təsirini necə qiymətləndirirsiniz?

Cavab: Əlbəttə, ilk növbədə, bu, bizim ölkələrimizin xeyrinə olan layihədir. Həm Türkiyə, həm Azərbaycan, həm də Gürcüstan bundan iqtisadi mənfəət götürəcəkdir. Amma eyni zamanda şübhə yoxdur ki, bu, bizim müstəqilliyimizi daha da möhkəmləndirəcəkdir. Azərbaycan onsuz da öz müstəqil siyasətini ardıcıl şəkildə aparır. Bakı-Tbilisi-Ceyhan boru xəttinin işə düşməsi bölgədə vəziyyəti tam dəyişdirəcəkdir. Burada regionun işbirliyi daha da sürətlə gedəcək, yeni layihələrin həyata keçirilməsinə, yeni sərmayələrin gətirilməsinə imkan yaranacaqdır. Çünki artıq sübut etdik ki, biz etibarlı tərəfdaşıq və Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulubdur. Layihən həm iqtisadi, həm də siyasi baxımdan, eyni zamanda, bölgədə təhlükəsizliyin təmin olunması üçün çox önəmlidir. Ümid edirəm ki, sülhün, əmin-amanlığın bərqərar olması bu layihənin həyata keçməsi ilə daha da möhkəmlənəcəkdir. Yəni mən hesab edirəm ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin bölgədə olan proseslərə çox güclü təsiri olacaq və Türkiyənin, Azərbaycanın rolu, önəmi artacaqdır. Çünki artıq biz bölgənin inkişafında mühüm yer tutan, rol oynayan ölkələr olacağıq. Dünya miqyasında da bizim imicimiz artacaqdır.

Sual: Hörmətli Cümhurbaşqanı, təbii ki, Türkiyə ilə Azərbaycanın ortaq məsələsi olan və zənnimcə, beynəlxalq sahədə də açıqca ifadə edilməli olan bir məsələ - haqsızlıqlarla üzləşdiyimiz erməni məsələsi var. Bu gün erməni məsələsi Türkiyənin tarixi ilə bağlı bir boyut kimi görünür. Azərbaycanın işğal edilmiş torpaqları, Dağlıq Qarabağ problemi, qaçqınlar və digər məsələlər bizim iki dövlətimizin böyük problemi olaraq qalır. Azərbaycan, Türkiyə və türk dünyası bu məsələ ilə bağlı nə işlər görməlidir, hansı mücadiləni aparmalıdır?

Cavab: Bizim ikitərəfli əlaqələrimizdə, Türkiyə ilə Azərbaycan arasında olan münasibətlərdə, əlbəttə, erməni məsələsi müzakirə olunur və biz bu məsələdə əlaqələndirilmiş siyasət aparırıq. Bu məsələ böyük ədalətsizlik, böyük haqsızlıqdır. Ermənistanın Türkiyəyə və Azərbaycana qarşı hücumları onu göstərir ki, bu dövlət çox təcavüzkar siyasət aparır. Türkiyəyə qarşı uydurma "soyqırım" məsələsinin qabardılması və dünya ictimaiyyətinə tamamilə əsassız təqdim edilməsi də bizi çox üzür. Biz bilirik ki, həqiqət tam başqa yerdədir. Bilirik ki, bu uydurma "soyqırım"ın əsasında heç nə yoxdur. Bu, sadəcə olaraq, xəstə bir təxəyyülün nəticəsidir. Ancaq buna baxmayaraq, erməni təbliğatı və dünyada mövcud olan erməni lobbisinin fəaliyyəti nəticəsində müəyyən ölkələrin rəhbərləri bu təbliğatın təsiri altına düşürlər.

Uzun illərdir ki, Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır və ərazi bütövlüyümüz pozulubdur. Etnik təmizləmə siyasəti aparılıb və bu siyasətin nəticəsində bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. Amma buna baxmayaraq, beynəlxalq ictimaiyyət bu məsələyə münasibətdə hələlik öz kəskin mövqeyini bildirməyibdir. Biz, yəni həm Türkiyə, həm də Azərbaycan məsələdə zərərçəkmiş tərəflərik. Əlbəttə, biz səylərimizi birləşdirməliyik ki, haqq-ədalət bərpa olunsun, Azərbaycanın zəbt olunmuş torpaqları erməni işğalçılarından təmizlənsin. Türkiyəyə qarşı edilən ədalətsiz hərəkətlərə son qoyulsun. Türkiyə və Azərbaycan bu işdə bir-birinə həmişə dəstək olub, bir-birinin yanında olubdur. Biz

müstəqilliyimizi əldə etdikdən sonra Türkiyənin dəstəyini daim hiss etmişik və bu gün də hiss edirik. Biz bu məsələləri yalnız birlikdə çözə bilərik.

Sual: Hörmətli Cümhurbaşqanı, Kazandan yenicə qayıtmısınız. Orada Ermənistan Prezidenti Robert Koçaryanla görüşdünüz. Rusiya Prezidenti Putinlə də görüşünüz olmuşdur. Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı vəziyyət necədir?

Cavab: Təəssüf ki, bütün səylərə baxmayaraq, biz hələ ki, bir nəticəyə gəlməmişik. Doğrudur, son illər ərzində apardığımız danışıqlar müsbət hal kimi qiymətləndirilir. Hər halda, dialoqun aparılması müsbət haldır və ümidlər var ki, biz bunu sülh yolu ilə çözə bilək. Ona görə mən danışıqların aparılmasına müsbət hal kimi baxıram. Çünki danışıqların alternativi yoxdur. Əgər danışıqlar dayanarsa, bu zaman yeni vəziyyət yaranacaq və Azərbaycan gərək öz qərarını versin. Ancaq nəticə də yoxdur. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Çünki Ermənistan bütün beynəlxalq hüquq normalarını kobudcasına pozur. Məsələnin siyasi tərəfi də artıq Azərbaycanın xeyrinədir. Çünki Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, digər təşkilatların qərarları reallığı əks etdirir və Azərbaycanın haqlı olduğunu ifadə edir. İqtisadi cəhətdən, təbii ki, Ermənistan bizimlə rəqabət apara bilməz. Çünki bu gün Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox güclüdür və gələcəkdə daha da güclü olacaqdır.

Əgər başqa tərəflərdən yardım olmasa, Ermənistan hərbi cəhətdən də Azərbaycanla rəqabət apara bilməz. Biz bu il öz hərbi xərclərimizi yetmiş altı faiz artırdıq. Gələn il isə yenə də artıracağıq. Yəni bütün bu amillər bizim xeyrimizədir. Ancaq nəticə yoxdur. Ona görə ki, beynəlxalq ictimaiyyət işğalçıya demir ki, torpaqlardan geri çəkil. Tənqid etmirlər, onu məcbur etmirlər, cəzalandırmırlar. Belə olan halda Ermənistanın mövqeyində dəyişiklik gözləmək çətindir.

Sual: Məsələnin bir tərəfini də beynəlxalq əlaqələr təşkil edir. Xüsusilə Azərbaycanın regional durumu, Azərbaycanın enerji və ticarət sahəsindəki strateji önəmi, coğrafi-siyasi vəziyyəti, qonşuları ilə əlaqələri. Qonşularla - Rusiya və İranla münasibətlərinizi necə dəyərləndirirsiniz?

Cavab: Bu əlaqələr bizi qane edir. Bizim əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur. Bir-birimizin işinə qarışmırıq və qarşılıqlı hörmət əsasında bu əlaqələri qururuq. Xüsusilə iqtisadi sahədə son illər ərzində ciddi irəliləyiş var. Həm İranla, həm də Rusiya ilə iqtisadi əlaqələrimiz çox sürətlə inkişaf edir. Siyasi müstəvidə də əlaqələr bizi qane edir. Mən həm Rusiyada, həm də İranda rəsmi səfərdə oldum. İran Prezidenti Azərbaycanda səfərdə olubdur. Mənim səfərim çərçivəsində İranda, Təbrizdə Azərbaycanın konsulluğu açıldı. Bu, əlbəttə, bizi çox sevindirir.

Biz bütün ölkələrlə, xüsusilə qonşu dövlətlərlə səmərəli, işgüzar, dostluq əsasında qurulmuş əlaqələrin yaranmasına çalışırıq. Bu, bizim maraqlarımıza xidmət edir. Yəni nə qədər çox əlaqə olarsa, o qədər də Azərbaycanın maraqları müdafiə ediləcəkdir.

Sual: Azərbaycan xüsusilə regional təhlükəsizlik baxımından Amerika Birləşmiş Ştatları ilə əlaqələri çox önəmli qurur. Siz Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı əlaqələri necə dəyərləndirirsiniz?

Cavab: Bu əlaqələr də strateji xarakter daşıyır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra seçimini etmişdir. Xüsusilə 1993-cü ildən sonra, Heydər Əliyev hakimiyyətə

gələndən sonra Azərbaycan öz strateji seçimini etmişdir. Avropa və Avratlantika məkanına inteqrasiya siyasəti, Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əsasında qurulmuş əlaqələr bizim üçün çox önəmlidir və xarici siyasətimizin istiqamətlərindən biridir. Biz enerji sektorunda çox səmərəli işləyirik və Amerika hökumətinin dəstəyi olmasaydı, Bakı-Tbilisi-Ceyhan layihəsini gerçəkləşdirə bilməzdik. Bu layihənin üzərində 9 il çalışan bir insan kimi mən bunu tam məsuliyyətlə deyirəm.

Eyni zamanda, bölgədə gedən regional əməkdaşlıq məsələlərində də Amerika bizə çox böyük dəstək verir. Dünyada antiterror əməliyyatları ilə bağlı Azərbaycan Amerika ilə əməkdaşlıq edir. Təhlükəsizlik sisteminin möhkəmlənməsi işində də biz öz töhfəmizi veririk. Ölkədə gedən siyasi islahatlar da Amerika tərəfindən izlənilir və dəstəklənir. Yəni bütün istiqamətlərdə əlaqələrimiz bizim üçün çox səmərəlidir, çox önəmlidir. Bölgədə sülhün yaranmasına xidmət edir.

Sual: Hörmətli Cümhurbaşqanı, noyabrın 6-sı Azərbaycanın Milli Məclisinə seçkilər günüdür. Milli Məclisdəki tablo, görəsən, necə dəyişəcək? Dəyişəcək, yoxsa dəyişməyəcək, müxalifətin vəziyyəti necədir, ümumiyyətlə, Azərbaycan bu seçkiyə necə hazırlaşır?

Cavab: Biz ciddi hazırlaşırıq. Əminəm ki, seçkilər çox ədalətli və şəffaf keçəcəkdir. Seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi ifadə olunacaq, öz əksini tapacaqdır. Seçkilərlə bağlı artıq bütün işlər görülüb, seçki kampaniyası başlanır və hələlik heç bir problem yoxdur.

Mən bir neçə ay bundan əvvəl seçki praktikasının təkmilləşdirilməsi ilə əlaqədar çox önəmli Sərəncam imzaladım. Sərəncamda bütün məsələlər öz əksini tapdı. Yəni ədalətli seçkilərin keçirilməsi üçün Azərbaycanda tam şəkildə hüquqi və praktiki əsas var. Ümid edirik ki, bizim Yeni Azərbaycan Partiyasının, Azərbaycanın siyasi səhnəsində aparıcı qüvvənin şansları çox yüksəkdir. İndi mövcud olan parlamentdə bizim nümayəndələrimiz əksəriyyət təşkil edir. Mən inanıram ki, bu seçkilərdə də bizim namizədlərimiz qələbə çalacaqlar. Bunu deməyə əsas verən bir neçə amil var. İlk növbədə, Azərbaycanda xalqla iqtidar arasında olan vəhdət və inam, Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar və ildən-ilə, aydan-aya yaxşılaşan vəziyyət. Rəy sorğuları nəticəsində görürük ki, ictimai rəy bizim siyasətimizi dəstəkləyir.

Azərbaycanda son aylar ərzində bir neçə qurum tərəfindən rəy sorğusu keçirilir, ictimai rəy öyrənilir. Bunu Soros Fondu, Gellup İnternational, Amerikanın Respublikaçılar Partiyasının nümayəndələri keçirirlər. Hər üç sorğuda Azərbaycanın Prezidentinə inam və dəstək 73-77 faizdir. Yəni bunu biz demirik, dünyanın tanınmış sorğu təşkilatları deyir. Belə olan halda, biz seçkilərə çox böyük inamla gedirik. Eyni zamanda, bütün namizədlərə eyni şərait yaradılacaqdır.

Onu da vurğulamalıyam ki, əhalidə seçkilərin ədalətli keçirilməsinə böyük inam var. Çünki seçkilərdə namizədliyini irəli sürmək üçün 2 min adam artıq öz sənədlərini veribdir. Bizdə 125 dairə var, yəni Milli Məclisdə 125 yer var. İki min adam seçilmək istəyir. Əgər seçkilərin ədalətli keçməsinə inam olmasaydı, təbii ki, onlar özlərinə belə əziyyət verməzdilər. Lazım olan bütün şərait var. Həm iqtidarın, həm müxalifətin namizədləri, həm də müstəqil namizədlər sərbəst şəkildə öz kampaniyalarını aparırlar. Əminəm ki, Azərbaycan xalqı öz sözünü deyəcəkdir.

Sual: Təbii, bundan öncəki seçkilərdə olduğu kimi, Azərbaycanda indiki parlament seçkilərinin ədalətli, demokratik keçəcəyinə bizim də inamımız böyükdür.

Mən Türkiyə-Azərbaycan əlaqələrinə yenidən toxunmaq istəyirəm. Təbii ki, seçki öncəsi Türkiyə-Azərbaycan əlaqələrində parlament üzvlərinin gəlib-getməsi çox önəmlidir. Həm bu dövr üçün, həm də gələcək üçün Türkiyədən gözlədiklərniz nədir?

Cavab: Bilirsiniz, bizim Türkiyə ilə olan əlaqələrimiz o qədər sağlam, o qədər səmimidir ki, onlar hansısa bir müddət üçün deyil, əbədidir, onlar bütün gələcək nəsillər üçün də önəmlidir. Bizim əlaqələrimiz çox səmimi və işgüzardır. Bu qarşılıqlı gediş-gəlişlər bütün dövrlərdə mövcuddur. Mən Prezident vəzifəsinə seçiləndən sonra demək olar ki, ya Türkiyədən hər ay böyük heyət gəlir, ya da Azərbaycandan böyük heyət gedir. Bu, bizim əlaqələrimizi səciyyələndirən çox önəmli cəhətdir. Mən hesab edirəm ki, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-biri ilə belə sıx işbirliyi etsinlər və bir-birinə belə sıx bağlı olsunlar. Əlbəttə, biz Türkiyədə gedən proseslərə çox böyük maraqla yanaşırıq. Burada yayımlanan bir neçə Türkiyə kanalı vasitəsilə biz, demək olar ki, məlumatı ilk mənbədən alırıq. Türkiyədə gedən proseslər bizə aydındır, bəllidir. Eyni zamanda, Azərbaycanda gedən proseslərə Türkiyə ictimaiyyəti biganə qala bilməz. Bu da çox böyük maraq doğurur və bu, təbiidir. Ona görə bütün sahələrdə və səviyyələrdə - hökumət səviyyəsində, parlamentlərarası əlaqələrdə, sivil toplum səviyyəsində, sadə insanların səviyyəsində çox səmimi əlaqələr, qardaşlıq, dostluq üzərində qurulmuş əlaqələr var və bu, bizi çox sevindirir. Mən demişəm, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünyaya yeni atılmışdı. Yəni bizim bu sahədə biliyimiz də, təcrübəmiz də yox idi. Bizə elə gəlirdi ki, bütün dünya bizə yardım etməyə gəlməlidir. Belə ümidlərlə yaşayırdıq. Amma sonra gördük ki, elə deyildir. Bizim yanımızda kim oldu? Türkiyə!

Azərbaycan öz dərdləri, öz bəlaları ilə təkbaşına qalmışdı. Yalnız Türkiyə bizə qardaş əlini uzatdı, kömək etdi və bu gün də biz bu dəstəyi hiss edirik. Bizim qarşılıqlı fəaliyyətimiz həm ölkələrimiz üçün lazımdır, eyni zamanda, bölgənin inkişafı üçün lazımdır. İndi Türkiyə güclənir və Azərbaycan güclənir. Azərbaycan 10 il bundan əvvəl çox pis vəziyyətdə idi. Tam iqtisadi tənəzzül və iflas hökm sürürdü. Amma indi Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bu ilin altı ayında iqtisadiyyatın artımı 16,5 faizdir.

Gülay Dəyərli: Bu bir rekorddur.

İlham Əliyev: Rekorddur, amma ilin sonunda bu 20 faiz olacaqdır. Bu, rekord olacaqdır. Bunu Beynəlxalq Valyuta Fondu da bəyan edir. Sənaye istehsalının artımı altı ayda 20 faiz oldu. Yəni bu göstərir ki, Azərbaycan güclənir. Bizim gücümüz Türkiyənin gücüdür. Ona görə bu əlaqələr o qədər sağlam təməldə qurulub ki, onlar əbədi yaşayacaq və hər gələn nəsil gərək buna öz töhfəsini versin, gərək bizim bu gözəl müştərək inamımızı da möhkəmləndirsin.

Sual: Hörmətli Cümhurbaşqanı, bu, Sizin son sözünüz kimi oldu. Mən bilmək istərdim, "bir millət, iki dövlət" olan Türkiyə və Azərbaycan üçün Sizin son mesajınız nədir?

Cavab: Mən ümid edirəm ki, ölkələrimiz daha da güclənəcəkdir. Biz öz problemlərimizi çözəcəyik, haqq-ədalət öz yerini tapacaq və Türkiyəni, Azərbaycanı narahat edən problemlər çözüləcək, xalqlarımız rahat yaşayacaqlar. Ədalətsiz təzyiqlər sona çatacaq

və bizim xalqlarımız əl-ələ verib gələcəyə çox inamla gedəcəklər. Mən buna şübhə etmirəm.

Bilirsiniz, dünyada gedən prosesləri indi hamımız diqqətlə izləyirik və görürük ki, dünya necə dəyişir, mövqe necə dəyişir. 5-10 il bundan əvvəl vəziyyət tamamilə başqa idi. Amma indi dünyada gedən proseslər bizim xeyrimizədir. Yəni bizim istədiyimizə və arzularımıza yaxındır. Mən şübhə etmirəm ki, bir neçə ildən sonra, bizim böyük layihələrimiz Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, böyük önəm verdiyimiz və iştirak etmək istədiyimiz Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsi işə düşəndən sonra, bölgədə vəziyyəti tamamilə dəyişəcəkdir. Türkiyə və Azərbaycanın gücü artacaqdır. Mən bunu istəyirəm. Mən istəyirəm ki, bütün türk dünyası möhkəmlənsin, birləşsin. Biz böyük qüvvəyik. Açığını deyim, biz öz gücümüzü tam səmərə ilə işlətmirik. Bütün türk dünyasının birləşməsi, möhkəmlənməsi bizim hamımızın xeyrinədir. Mən bunu arzulayıram və əminəm ki, həmişə olduğu kimi, Türkiyə, bu işdə də öz aparıcı rolunu oynayacaqdır. Gələcəyə çox böyük inamla baxıram.

Gülay Dəyərli: Hörmətli Cümhurbaşqanı, çox təşəkkür edirəm. Sizin arzularınızın, diləklərinizin qarşılıqlı olduğunu bildirmək istəyirəm. "Strateji rapor" proqramının qonağı olduğunuz, bizi şərəfləndirdiyiniz üçün çox təşəkkür edirəm.

İlham Əliyev: Sağ olun, mən də təşəkkür edirəm.

Gülay Dəyərli: "Strateji rapor" proqramı Bakıdan xüsusi yayımını burada tamamlayır. Azərbaycanın hörmətli Cümhurbaşqanı İlham Əliyevlə önəmli bir reportajı gerçəkləşdirdik. Türkiyənin Azərbaycan ilə əlaqələri, regional əməkdaşlığı və çox mühüm məsələlər ətrafında danışdıq. Bir daha ona minnətdarlığımı bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Hesab edirəm ki, sizin başçılıq etdiyiniz nümayəndə heyətinin Azərbaycana səfəri ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə olacaqdır. Ölkələrimiz arasında qarşılıqlı anlaşmanın səviyyəsindən çox məmnun olduğunu bildirən dövlətimizin başçısı dedi ki, əməkdaşlığımızın gələcəkdə də inkişaf edəcəyinə əminəm. ABŞ ilə Azərbaycan arasında müxtəlif sahələrdə uzunmüddətli əlaqələr mövcuddur və hesab edirəm ki, bu, qarşılıqlı anlaşma və dəstəyin səviyyəsinin göstəricisidir.

Azərbaycan Prezidenti daha sonra bildirdi ki, biz ölkələrimiz arasındakı əlaqələri yüksək qiymətləndiririk. Müxtəlif sahələrdəki əməkdaşlığımızın çox böyük əhəmiyyəti vardır. Bu sahələrdən biri də terrorizmə qarşı birgə mübarizədir. Dünyanın müxtəlif yerlərində sülhyaratma əməliyyatlarında birgə iştirakımız da fəal əməkdaşlığımızın yaxşı nümunələrindən biridir. Dövlətimizin başçısı vurğuladı ki, biz digər sahələrdə də əlaqələrimizin inkişafından çox məmnunuq.

Senator Riçard Luqar ölkələrimiz arasında olan çox möhkəm əlaqələrə görə Prezident İlham Əliyevə minnətdarlıq edərək dedi: Azərbaycan və ABŞ Əfqanıstanda, İraqda birgə fəaliyyət göstərirlər. Azərbaycanın bizə öz hava məkanından istifadə etmək hüququ verməsi terrorizmə qarşı mübarizə baxımından çox mühümdür. Bütün bunlar ümumi dəyərləri bölüşmək, inkişaf barədə birlikdə fikirləşmək üçün böyük imkanlar yaradır. Biz bu imkanları bir daha alqışlayırıq. Ölkənizdə gedən tərəqqi ilə bağlı Sizi təbrik etmək istərdim. Eyni zamanda, əməkdaşlıqla bağlı mövcud olan geniş imkanlar barədə birgə müzakirələr aparmaq istərdik. Sizin gözəl ölkənizdə isə bu cür imkanlar həddən artıq çoxdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ KİM TRAAVİKİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Prezident sarayında Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traaviki qəbul etmişdir.

Ölkəmizin çox uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı dedi ki, regionda çoxlu birgə layihələrimiz mövcuddur. Azərbaycanla Norveç arasında əlaqələr çoxdan yaradılmışdır və əminik ki, gələcəkdə daha sürətlə inkişaf edəcəkdir. Ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığını xatırladan Prezident İlham Əliyev Norveçin dövlət katibinin səfərinin qarşılıqlı əlaqələrin inkişafında mühüm addım olacağına əminliyini bildirdi.

Səmimi qəbula görə təşəkkür edən cənab Kim Traavik dedi ki, ikitərəfli əlaqələr və regional məsələlər barədə müzakirələrin davam etdirilməsi üçün yenidən Azərbaycana gəlməyimizdən məmnunluq duyuruq. Norveç ilə Azərbaycan arasında möhkəm əməkdaşlıq əlaqələri yaranmışdır və uğurla inkişaf edir. Bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük imkanlar var və biz bunlardan istifadə olunmasında maraqlıyıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "HÜRRİYYƏT" QƏZETİNƏ MÜSAHİBƏSİ

Türkiyənin ən nüfuzlu mətbuat orqanlarından olan "Hürriyyət" qəzetinin 2 sentyabr tarixli nömrəsində Azərbaycan Prezidenti İlham Əliyevin nəşrin yazı işləri müdiri Tufan Türenc ilə müsahibəsi dərc olunmuşdur.

Sual: Təyyarə səfərlərinin başlanmasına dair qərarınızı açıqladıqda və bu səfərlər başlayanda Sizə qarşı təzyiqlər oldumu?

Cavab: Oldu, amma mən bunları təzyiq kimi qəbul etmirəm. Çünki heç kəs bizə təzyiq göstərə bilməz. Ona görə, gəlin, bunu reaksiya adlandıraq. İlk etiraz Yunanıstandan gəldi. Səfirimizi çağırıb nota verdilər. Ancaq biz buna fikir vermədik. Sonra yunanların Prezidenti mənə məktub göndərdi. Onu aldım, baxmadan bir kənara qoydum.

Sual: Məktubu göndərən Papadopulos idimi?

Cavab: Bilmirəm. Adını belə xatırlamıram.

Sual: Bu addımı atmağı nə vaxt qərara almışdınız?

Cavab: Keçən il "Azərbaycan Kiprdə təcridin aradan qaldırılması üçün addım atacaq" demişdim. Media mənim bu sözlərimə inanmadı. Hətta bir çox tənqidlər oldu. Amma mən sözümün üstündə durdum. İndi bu addımı digər türk cümhuriyyətləri də atmalıdır. Növbə indi onlarındır.

Sual: Bu addımın ardınca yeniləri olacaqmı?

Cavab: Biz əlimizdən gələni edəcəyik. Çünki biz inanırıq ki, Kipr təcriddən çıxmalıdır. Bu haqsızlığa son qoyulmalıdır. "Yox" deyən cəzalandırılmaq əvəzinə, "hə" deyən cəzalandırılır. Bunu başa düşmək mümkün deyildir. Bu, qəbuledilməzdir.

Sual: Türkiyə ilə əlaqələri necə qiymətləndirirsiniz?

Cavab: Ölkələrimiz arasındakı əlaqələr çox yaxşıdır və daha da yaxşı olacaq. Bölgədə Türkiyə ilə Azərbaycanın iştirak etmədiyi heç bir layihə həyata keçirilə bilməz. Heydər Əliyevin "biz bir millət, iki dövlətik" kəlamı bizim üçün dəyişməz bir prinsipdir. Hesab edirəm ki, bu, hər şeyi anlatmaq üçün yetərlidir.

Sual: Azərbaycan Dağlıq Qarabağ məsələsində son dərəcə həssas və hirslidir. Hər bir azərbaycanlı bir gün o torpaqların geri alınıb, orada Azərbaycan bayrağının qaldırılacağına ürəkdən inanır.

Bu günlərdə Prezident İlham Əliyev münaqişənin həlli üçün Kazan şəhərində Ermənistan Prezidenti Koçaryanla görüşdü. Münaqişənin həlli üçün bir ümid yarandımı?

Cavab: Hələlik bir nəticə yoxdur. Ermənilər Dağlıq Qarabağa müstəqillik verməyimizi gözləyirlər. Bunu verməyimiz mümkün deyildir. Azərbaycanın ərazi bütövlüyü bizim üçün çox önəmlidir. Mən Koçaryana dedim ki, orada yaşayan ermənilərin təhlükəsizliyini təmin edərik. Onların təhlükə ilə üz-üzə qalmasına imkan vermərik. Amma onlar torpaqlarımızdan çıxmaq istəmirlər.

Sual: Amerika münaqişənin həlli üçün təzyiq göstərdimi?

Cavab: Dövlət katibi Rays mənə zəng etdi. Münaqişənin həllində razılığa gəlməyimizi istədiklərini bildirdi. Mən bir şeyi anlamıram: işğalçı Ermənistandır. Nəyə görə cəzalandırılmır? Bilirəm, erməni lobbisi güclüdür. O, buna mane olur. Bu son dərəcə ədalətsiz bir vəziyyətdir.

Sual: Rays Koçaryana da zəng etmişdimi?

Cavab: Deyəsən edib. Çünki Koçaryanda bir az yumşalma olduğunu gördüm, amma bu, bizi münaqişənin həllinə çatdıracaq qədər deyil.

Jurnalist: Münaqişənin həllinə ümid tükənərsə...

İlham Əliyev: Biz hər şey etdik. Ermənistan beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurur. 1 milyon insanımızı yerindən-yurdundan etmişdir. Qərb deyir ki, gedin razılaşın. Belə vəziyyətdə necə razılaşaq? Bütün yolları sınaqdan çıxaracağıq, sonra oturub fikirləşəcəyik.

Sual: Müharibəni də fikirləşə biləcəksinizmi?

Cavab: Fikirləşərik. Biz çox güclüyük, Ermənistan qarşımızda tab gətirə bilməz. Amma biz müharibə istəmirik. Çünki çoxlu tələfat olacaq. Mən ona inanıram ki, o torpaqları gec-tez alacağıq. Buna heç kimin şübhəsi olmasın.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniya Respublikasının xarici işlər naziri Dimitri Rupelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, münaqişənin nizama salınması perspektivləri, ölkəmizdə qarşıdan gələn parlament seçkilərinə hazırlıq, Azərbaycan-ATƏT əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Avropa Şurasının baş katibi Terri Devisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanda cəmiyyətin daha da demokratikləşməsi istiqamətində həyata keçirilən işlər, ölkəmiz tərəfindən Avropa Şurası qarşısında götürülmüş öhdəliklərin yerinə yetirilməsi, parlament seçkilərinə hazırlıq prosesləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI, ORDU GENERALI YAŞAR BÖYÜKANITIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Prezident sarayında Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunlarının Komandanı, ordu generalı Yaşar Böyükanıtın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Respublikamızda özünü evindəki kimi hiss etdiyini söyləyən general Yaşar Böyükanıt ölkəmizdə səfərdə olmaqdan, azərbaycanlı qardaşlarını görməkdən son dərəcə xoşbəxt olduğunu bildirdi. O dedi ki, iki ölkə arasındakı qardaşlıq sadəcə sözdə deyil, qəlblərdə, əməllərdə mövcuddur, mən Azərbaycanı ziyarət etməkdən qürur duyuram. İnanıram ki, geri qayıdarkən Azərbaycana sevgim bir az da artmış olacaqdır. Bizim xalqlarımız arasındakı dostluq əbədidir. Ölkələrimizin dostluq, qardaşlıq münasibətləri xalqlarımızın dostluğuna, qardaşlığına əsaslanır.

Qonaqların respublikamıza səfərinin zəngin proqramı və keçirəcəkləri görüşlər barədə məlumatı olduğunu və bundan məmnun qaldığını vurğulayan dövlətimizin başçısı ölkələrimizin yüksək səviyyədə olan əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əlaqələrinin sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz Türkiyənin dəstəyini daim hiss etmişik, köməyini görmüşük. Azərbaycanın müasir güclü ordusunun yaranmasında Türkiyə ordusunun çox böyük xidməti olmuşdur və bu gün də vardır.

Dövlətimizin başçısı bildirdi ki, Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi, hərbi və digər sahələrdəki əməkdaşlıq regionda sülhün, sabitliyin təmin olunması işinə xidmət edir. Ölkələrimizi böyük, qlobal layihələr birləşdirir, lakin "Bir millət, iki dövlət" kimi bizi, ilk növbədə birləşdirən ürəyimizin duyğularıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QLOBALLAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ" MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Prezident sarayında Beynəlxalq Sosial Təminat Assosiasiyasının "Qloballaşma və əmək miqrantlarının sosial müdafiəsi" mövzusunda Avropa iclasının iştirakçılarını qəbul etmişdir.

İclasın iştirakçılarını salamlayan Prezident İlham Əliyev ölkəmizdə əhalinin sosial müdafiəsinə çox böyük əhəmiyyət verildiyini qeyd etdi. Dövlətimizin başçısı dedi ki, əhalinin həyat səviyyəsini yüksəltmək üçün bütün imkanlardan istifadə etməyə çalışırıq. Bunun üçün iqtisadi inkişafın əsas şərt olduğunu vurğulayan Prezident İlham Əliyev son illərdə bu istiqamətdə yüksək nəticələr əldə olunduğunu söylədi. Büdcənin ötən ilə nisbətən 50 faiz artdığını diqqətə çatdıran dövlət rəhbəri gələn il bu rəqəmin bu ilə nisbətən ən azı 60 faiz artacağını bildirdi.

Dövlətimizin başçısı son iki ildə əhalinin minimum əmək haqqının 3 dəfəyə qədər artdığını və bu prosesin davam etdiyini qonaqların diqqətinə çatdırdı. İqtisadi inkişafın artım sürətinin 8 ayda 18 faiz təşkil etdiyini, lakin qiymətlərin artmasının müəyyən narahatlıq doğurmasına baxmayaraq, bu sahədə də konkret tədbirlər görüldüyünü söylədi. Prezident bütövlükdə ölkənin iqtisadi inkişafının artım tempinin yüksək olmasını əhalinin sosial müdafiəsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə əlverişli şərait yaratdığını bildirdi. Ölkəmizin başçısı Azərbaycanda 1 milyon 350 min nəfərin pensiya aldığını və onların aldığı vəsaitin yaşayış səviyyəsini ödəmədiyindən bu sahədə ciddi işlərin görülməsinə diqqəti artırmağın vacib olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi ki, hər bir pensiyaçının aldığı vəsait onun həyata tələbatını təmin etməlidir. Bunun üçün də ölkədə daha ciddi iqtisadi nailiyyətlərə nail olmaq lazımdır. Yalnız bu il Azərbaycan 1990-cı ilin iqtisadi inkişaf sürətinə çata bilmişdir. 90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatında baş vermiş tənəzzül Azərbaycana çox böyük zərbələr vurmuşdur. Vəziyyəti normallaşdırmaq üçün 15 ildən artıq vaxt lazım gəlmişdir. Ölkəmizin əhalisinin sosial ehtiyaclarının müdafiəsi üzrə tələbatın ödənilməsi üçün atılan hər bir addımın dəyərli olduğunu bildirən dövlətimizin başçısı xüsusilə əməkdaşlıq etdiyimiz ölkələrin bu sahədə təcrübəsindən bəhrələnməyin vacibliyini söylədi. Prezident İlham Əliyev Bakıda keçirilən bu görüşün pensiya sistemində əsaslı islahatlar həyata keçirən Azərbaycan üçün fikir mübadiləsi aparmaq, əməkdaşlıq etmək baxımından çox dəyərli olduğunu nəzərə çarpdırdı.

Görüşdə Beynəlxalq Sosial Təminat Assosiasiyasının departament direktoru Alexandro Bonilla Qarsia çıxış edərək dedi: Cənab Prezident, bu gün çox böyük şərəf duyuram ki, assosiasiyamızın prezidenti adından Sizi salamlayıram, onun xoş arzularını Sizə çatdırıram.

Cənab Prezident, bizi müdafiə etdiyinizə və iclasın keçirilməsinə dəstək verdiyinizə görə Sizə assosiasiyanın üzvləri adından təşəkkürümüzü bildiririk. Bu görüş mahiyyətinə görə çox vacib bir tədbirdir və iclasın nəticəsi Azərbaycanda bu sahənin inkişafına öz töhfəsini verəcəkdir

Bir məsələni xüsusi olaraq diqqətə çatdıran qonaq dedi ki, cənab Prezident, ölkənizdə əhalinin sosial müdafiəsinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşkilatımız adından dərin minnətdarlığımızı bildirir və ümumi ailə hesab etdiyimiz bu dünyada bunun vacib bir şərt olduğunu xüsusi vurğulayıram.

O, Azərbaycanda əhalinin sosial müdafiəsi sahəsində əldə edilən nailiyyətlərin onlarda xoş hisslər, duyğular yaratdığını və görüş zamanı söylənilən rəqəmlərin, faktların insanların sosial müdafiəsinə xidmət etdiyini diqqətə çatdırdı.

Görüşdə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının sədri Aleksandr Kurtin çıxış edərək, Azərbaycanda keçirilən bu iclasa görə ölkəmizin başçısına təşəkkürünü bildirdi. MDB məkanında insanların sosial müdafiəsi sahəsində müxtəlif sistemlərin mövcud olduğunu vurğulayan qonaq bildirdi ki, bu sahədə əldə edilən uğurlar ölkənin sosial-iqtisadi inkişaf sürətindən asılıdır. O dedi: Cənab Prezident, bizi nəinki dövlət sərhədləri birləşdirir, ölkələrimizdə yaşayan xalqların qohumluq, dostluq əlaqələri, tarixi köklər bizi daha da yaxınlaşdırır. İmmiqrasiya ilə bağlı insan axınının çoxalması ölkələrimiz arasında əlaqələri daha da sıxlaşdırır. O, Bakıda çox əhəmiyyətli bir iclasın keçirilməsinə şərait yaratdığına və dəstək verdiyinə görə, dövlətimizin başçısına rəhbərlik etdiyi təşkilat adından təşəkkürünü bildirdi.

Bakıda Avropa iclasının keçirilməsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev uğurlu nəticələr əldə ediləcəyinə əmin olduğunu vurğuladı.

Dövlət başçısı dedi ki, başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da bir ictimai sistemdən başqa bir ictimai sistemə keçidlə bağlı üzləşdiyimiz problemləri tədricən həll edir və bu sahədə hərtərəfli əməkdaşlığa böyük önəm veririk. MDB-yə üzv olan ölkələrin əksəriyyəti eyni problemlərlə qarşılaşırlar. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlardan istifadə edilmişdir. Böyük müəssisələrin özəlləşdirilməsi, irihəcmli sərmayələrin, böyük layihələrin reallaşması ölkəmizin bazar iqtisadiyyatı prinsiplərinə ciddi əməl etməsinə geniş imkanlar açmışdır. Ölkəmizə qoyulan milyardlarla dollar sərmayə başqa sahələrin də inkişafına təkan verir. Büdcə layihəsinin hazırlanmasında bazar iqtisadiyyatı və əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi prinsiplərinin əsas götürüldüyünü bildirən dövlətimizin başçısı Azərbaycanın hər bir ölkə ilə bu sahədə əməkdaşlığa hazır olduğunu vurğuladı.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN AVSTRİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun sentyabrın 6-da Avstriyaya rəsmi səfəri başlanmışdır.

Səfər çərçivəsində E.Məmmədyarov ATƏT-in yeni təyin olunmuş baş katibi Perrin de Brişambo ilə görüşmüşdür. Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanda iqtisadi və siyasi islahatlar, demokratikləşdirmə prosesi barədə baş katibə ətraflı məlumat verən nazir ATƏT-də

struktur islahatları, bu qurumun inkişafı və gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparmışdır.

Sonra nazir E.Məmmədyarov ATƏT-in Daimi Şurasının xüsusi plenar iclasında çıxış edərək, beynəlxalq qurumun müasir dövrdə rolu və inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi, ölkəmizin siyasi, iqtisadi və sosial inkişafı, dövlətimizin bu istiqamətdə, eləcə də hüquq sahəsində həyata keçirdiyi islahatlar, parlament seçkilərinə hazırlıq məsələlərindən danışmış (nazirin çıxışının mətni Xarici İşlər Nazirliyinin internet saytında yerləşdirilmişdir), respublikamızın beynəlxalq təşkilatlarla əməkdaşlığı, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi və qarşıda duran vəzifələr barədə məlumat vermişdir.

Daimi Şuranın iclasından sonra nazir Fransa, ABŞ, Rusiya, Türkiyə və Kiprin ATƏT-dəki daimi nümayəndələri ilə ikitərəfli görüşlər keçirmişdir.

Səfər proqramı çərçivəsində nazir E.Məmmədyarov Avstriyanın İqtisadiyyat Palatasının vitse-prezidenti Rixard Şents ilə görüşmüş, ölkələrimiz arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparmışdır.

Sonra nazir Avstriyada akkreditə olunmuş diplomatik korpusun əməkdaşları, bu ölkənin siyasi xadimləri, iş adamları, jurnalistlər və buradakı Azərbaycan icmasının nümayəndələri qarşısında "Azərbaycan müasir dövrdə" mövzusunda çıxış etmiş, ölkəmizin siyasi, iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlər, respublikamızın beynəlxalq əlaqələri barədə ətraflı məlumat vermiş, iştirakçıların suallarını cavablandırmışdır.

E. Məmmədyarovu sentyabrın 7-də bu ölkənin Prezidenti Haynts Fişer qəbul etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Avstriya Prezidentinə çatdıran nazir, ölkələrimizin münasibətlərinin inkişaf etdiyini, son vaxtlar müxtəlif sahələr üzrə yüksək səviyyəli dövlət rəsmilərinin qarşılıqlı səfərlərinin artmasının buna bariz nümunə olduğunu bildirdi. Bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün dövlət başçıları səviyyəsində səfərlərin həyata keçirilməsinin zəruriliyini vurğulayan E.Məmmədyarov, Avstriya Prezidentinin gələn il Azərbaycana rəsmi səfər edəcəyinə ümidvar olduğunu bildirdi.

Avstriya Prezidenti dəvətə görə təşəkkür edərək, səfərin dəqiq tarixinin diplomatik kanallar vasitəsilə dəqiqləşdiriləcəyini vurğuladı.

Görüşdə nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırkı vəziyyəti və Azərbaycanın münaqişəyə dair mövqeyi ilə bağlı ətraflı məlumat verdi.

Səfər proqramına uyğun olaraq, Azərbaycanın xarici işlər naziri Avstriya parlamentinin sədri Andreas Kol ilə də görüşdü. Azərbaycan və Avstriya arasında mövcud əməkdaşlıqdan danışan nazir, bu əlaqələrin ölkələrimizin qanunverici orqanları arasında da inkişaf etdirilməsinin vacibliyini vurğuladı. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və regional vəziyyət barədə fikir mübadiləsi aparıldı.

A.Kol Avstriya parlamenti haqqında məlumat verərək, onun iki palatadan - Milli Şuradan və Federal Şuradan ibarət olduğunu bildirdi. Milli Şurada 183, Federal Şurada isə 62 deputatın fəaliyyət göstərdiyini diqqətə çatdıran A.Kol parlamentdə 4 siyasi partiyanı təmsil edən fraksiyalar haqqında da ətraflı məlumat verdi.

Sonra E.Məmmədyarov ilə Avstriyanın federal xarici işlər naziri xanım Ursula Plassnik arasında danışıqlar oldu. Həmkarına Azərbaycan ilə Avstriya arasında mövcud ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar istiqamətləri barədə məlumat verən E.Məmmədyarov, bu əlaqələrin daha da inkişaf etdirilməsi yolları, qloballaşma dövründə Azərbaycanın xarici siyasətinin prioritetləri, ölkədaxili mövcud vəziyyət və parlament seçkilərinə hazırlıq işləri haqqında danışdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ilə bağlı son vaxtlar görülən işlər barədə həmkarına məlumat verən nazir, beynəlxalq təşkilatların, ilk növbədə BMT, ATƏT, Aİ və AŞ-nin problemin aradan qaldırılmasında səylərinin artırılmasının vacibliyini diqqətə çatdırdı, Cənubi Qafqaz bölgəsində irimiqyaslı beynəlxalq neft, qaz və nəqliyyat layihələrinin həyata keçirilməsi prosesi haqqında söhbət açdı.

Xarici işlər nazirləri Avstriyanın Avropa İttifaqına 2006-cı ilin birinci yarısında sədrliyini nəzərə alaraq, Azərbaycanın bu beynəlxalq qurumun qonşuluq siyasətində iştirakı, xüsusilə Azərbaycan ilə Aİ arasında əməkdaşlıq üzrə fəaliyyət planının hazırlanması və qəbul edilməsi perspektivlərini müzakirə etdilər.

Nazir E.Məmmədyarov həmkarını Azərbaycana dəvət etdi.

Görüşdən sonra hər iki nazirin iştirakı ilə birgə mətbuat konfransı keçirildi. Konfransdan sonra Avstriyanın federal xarici işlər naziri adından rəsmi ziyafət verildi.

Sonra nazir E.Məmmədyarov BMT-nin Vyanada yerləşən Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Edilməsi Haqqında Müqavilə Təşkilatının (NSHQMT) Hazırlıq Komissiyasının icraçı katibi Tibor Tot ilə görüşdü. Əvvəlcə nazir bu təşkilatın Hazırlıq Komissiyasının Müvəqqəti Texniki Katibliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnformasiya Mərkəzinin işi ilə tanış oldu.

Görüşdə beynəlxalq aləmdə nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi ilə bağlı gedən proseslərə Azərbaycanın töhfəsi barədə icraçı katibə ətraflı məlumat verən nazir, ölkəmizin NSHQMT-nin üzvü olan digər dövlətlər və Müvəqqəti Texniki Katibliyi ilə əməkdaşlığı və bu əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etdi. İcraçı katib təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığının nümunəvi olduğunu bildirərək, bu əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini söylədi.

Nazir E.Məmmədyarov Avstriyanın tanınmış tarixçi-publisisti Erix Fayqlı qəbul etdi. Nazir Azərbaycan haqqında həqiqətləri yazdığına və ölkəmizin haqlı mövqeyini müdafiə etdiyinə görə alimə təşəkkür edərək, onun yeni yaradıcılıq planları ilə maraqlandı.

Tanınmış tarixçi-publisist E.Fayql yaradıcılıq planlarından danışaraq, bu il Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevlə görüşünü daim xoş təəssüratlarla xatırladığını bildirdi.

Nazir Avstriyada və Slovakiyada yaşayan soydaşlarımızla da görüşdü.

Səfər çərçivəsində Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Avstriyanın nüfuzlu APA informasiya agentliyinə və Yaponiyanın "Sekai Nippo" qəzetinin müxbirinə məxsusi müsahibələr verdi.

Bununla da Azərbaycan xarici işlər nazirinin Avstriyaya səfəri başa çatmışdır.

BEYNƏLXALQ BÖHRAN QRUPU ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ İLƏ BAĞLI HESABATINI XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Beynəlxalq Böhran Qrupunun (International Crisis Group) Avropa üzrə vitse-prezidenti Alan Deletroz və qurumun Qafqaz üzrə nümayəndəsi Sabina Freyzer ilə görüşmüşdür.

Cənubi Qafqaz dövlətlərinə səfəri çərçivəsində Azərbaycana gələn Alan Deletroz səmimi qəbula görə təşəkkürünü bildirərək, Beynəlxalq Böhran Qrupunun Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinə dair hazırladığı hesabatı nazirə təqdim etmişdir. Münaqişənin həllində sülh danışıqlarının önəmli olduğunu vurğulayan A.Deletroz, sülh prosesinin gücləndirilməsini vacib sayaraq, bu sahədə təşkilatın tövsiyələrini nazirin diqqətinə çatdırmışdır.

Nazir Elmar Məmmədyarov hər bir beynəlxalq qeyri-hökumət təşkilatının münaqişənin həlli prosesində iştirakını yüksək qiymətləndirmiş, həmçinin hazırda gedən sülh danışıqlarına toxunaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional dövlətlərin sülh prosesində tutduğu mövqe barədə qonaqlara ətraflı məlumat vermişdir.

Görüşdə tərəflər arasında münaqişənin həlli yolları, Avropanın yeni qonşuluq siyasətində Azərbaycanın iştirakı və regional vəziyyətə dair geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KARDİNAL KREŞENTSİO SEPENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında İncilin təbliği konqreqasiyasının prefekti, kardinal Kreşentsio Sepenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bazar günü Bakıda katolik kilsəsinin təməlinin qoyulması mərasimi keçirilməsinin çox əlamətdar bir hadisə olduğunu vurğulayaraq bildirdi ki, kilsənin tikilməsi haqqında qərar bir il əvvəl qəbul edilmişdi. Prezident İlham Əliyev Vatikana səfərini məmnunluqla xatırlayaraq dedi ki, onun gedişində kilsənin tikintisi ilə bağlı son sənədləri Vatikana təqdim etmişdi. Azərbaycanda bu kilsənin tikilməsi bir daha göstərir ki, ölkəmizdə dini dözümlülük, tolerantlıq çox yüksək səviyyədədir. Bütün dinlər sərbəst şəkildə fəaliyyət göstərir, insanların hamısı bir ailə kimi yaşayır.

Prezident İlham Əliyev vurğuladı ki, biz Vatikanla münasibətlərin inkişafına böyük əhəmiyyət veririk və əlaqələrimizin yüksək səviyyədə olmasından çox məmnunuq. Əminik ki, əməkdaşlığımız bundan sonra da inkişaf edəcəkdir. Sizin Azərbaycana səfəriniz əlaqələrimizin daha da inkişafına xidmət göstərəcəkdir.

Dövlətimizin başçısı Roma Papası II İohann Pavelin Azərbaycana səfərini yüksək qiymətləndirdi və ümummilli liderimiz Heydər Əliyev ilə Papa arasında çox səmimi dostluq münasibətlərinin olduğunu vurğuladı.

Kardinal Kreşentsio Sepe qəbula görə öz adından və nümayəndə heyətinin adından Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi, ona Vatikan Dövlətinin başçısı XVI

Benediktin salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq dedi ki, mənim Azərbaycana səfərim barədə Papanın məlumatı vardı və o, bu səfəri çox vacib hesab edir. Zati-müqəddəsləri Papa XVI Benediktin adından Sizə dərindən təşəkkür edirik ki, xeyirxahlıq göstərərək, Azərbaycanda bizim gördüyümüz işləri dəstəkləmisiniz və əminik gələcəkdə bu dəstəyi görəcəyik. Papa II İohann Pavelin dəfn mərasimində iştirakınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Vatikan tərəfi bunu çox yüksək qiymətləndirmişdir. Sizin atanız, möhtərəm Heydər Əliev ilə Papa II İohann Pavel arasında çox səmimi və sıx dostluq münasibətləri var idi. Bakıda katolik kilsəsinin tikintisi üçün torpaq sahəsinin ayrılması barədə Prezident Heydər Əliyev tərəfindən qəbul edilən qərar bizim üçün böyük hədiyyə idi və bunu çox yüksək qiymətləndiririk. Bu, Vatikanla əlaqələrin inkişafına böyük əhəmiyyət verməyinizin bariz nümunəsidir.

Kardinal daha sonra dedi ki, biz bu gün səhər Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini anmaq üçün onun məzarını ziyarət edərək əklil qoyduq. Eyni zamanda, Şəhidlər xiyabanını da ziyarət etdik. Biz kimsəsiz, yoxsul adamlar üçün evin tikilməsini arzu edirik və bu məqsədlə torpaq sahəsinin ayrılması barədə qərar qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümüzü bildiririk. Azərbaycanda tolerantlıq mühiti hökm sürür və bu, çox vacibdir. Ölkənizdə bütün sahələrdə böyük inkişaf vardır, həm dini, həm də mülki baxımdan tam dözümlülük, tolerantlıq mövcuddur. Dünyanın hər bir guşəsində insanların əmin-amanlıq şəraitində yaşaması və möhkəm sülhün olması Müqəddəs taxt-tacın əsas arzularından biridir. Bu baxımdan Zati-alinizə dəstək olaraq, bu işə öz töhfəmizi vermək məqsədi ilə ölkənizdə Vatikanın nümayəndəsi fəaliyyət göstərir. Eyni zamanda, Bakıdakı katolik icmasının rəhbəri də bu sahədə Sizi dəstəkləməyə həmişə hazırdır. Onlar bundan sonra da səylərini davam etdirərək, Azərbaycan xalqının rifahı, sülh şəraitində tərəqqiyə nail olması naminə əllərindən gələni əsirgəməyəcəklər.

Prezident İlham Əliyev Roma Papasının səmimi salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını, xoş arzularını Zati-müqəddəsləri Papa XVI Benediktə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORU, SƏFİR POL SPELTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Asiya İnkişaf Bankının (AİB) icraçı direktoru, səfir Pol Speltsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Asiya İnkişaf Bankı arasındakı əməkdaşlıqdan məmnun qaldığını, bu əməkdaşlığın çox yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ümid etdiyini bildirdi ki, qarşıdan gələn illərdə birgə layihələr üzərində uğurla işləyəcəyik.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bir sıra çətinliklərlə üzləşmişdi. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etmişdi, ölkəmiz vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı, iqtisadiyyat çökmüşdü, sənaye istehsalı tənəzzül vəziyyətində idi. Biz yalnız 2005-ci ildə 1990-cı ilin iqtisadi

potensialını bərpa edə bildik. Yəni bunun üçün bizə 15 il lazım oldu.

Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini, ölkəmizdə yeni imkanların, sahələrin yarandığını nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, hazırda biz regional, sosial-iqtisadi inkişaf strategiyamızı uğurla həyata keçiririk. Yeni iş yerlərinin, yeni infrastrukturun, yeni müəssisələrin yaranması və özəl sektorun inkişafı, ümumdaxili məhsulun artımı Azərbaycanın iqtisadi inkişafının rəmzlərinə çevrilibdir. Qarşıdan gələn illərdə yeni böyük enerji layihələrinin həyata keçirilməsi gözlənilir.

Azərbaycana humanitar sahədə, xüsusilə qaçqın və məcburi köçkünlərə göstərdikləri dəstəyə görə Asiya İnkişaf Bankına təşəkkür edən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qonaqların bu səfəri gələcək əməkdaşlığımızın inkişafına xidmət edəcəkdir.

Asiya İnkişaf Bankına verdiyi dəstəyə və Azərbaycandakı fəaliyyətləri üçün yaradılmış imkanlara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən cənab Pol Spelts dedi: Cənab Prezident, müstəqil Azərbaycan dövləti ilə müqayisədə AİB yeni yaranmışdır. İdarə heyəti üzvlərinin daxil olduğu nümayəndə heyətinin buraya gəlməsindən məqsəd Sizin rəhbərliyinizlə həyata keçirilən işlərin, planların reallaşdırılmasına kömək etməkdən ibarətdir.

Qonaq daha sonra dedi: Cənab Prezident, Sizin insanlara göstərdiyiniz böyük qayğı, sosial sahədə görülən işlər barədə yaxşı məlumatımız vardır. Bununla əlaqədar Sizi təbrik etmək istəyirik. Biz son iki gün ərzində Azərbaycanın qərb rayonlarında səfərdə olduq, əməkdaşlıq edəcəyimiz yeni sahələri araşdırmaq imkanları əldə etdik, bir çox insanlarla görüşdük, bir sıra məsələləri yerindəcə həll etdik. Hesab edirəm ki, bu səfər zamanı görmək istədiyimiz işlər səmərəli şəkildə və sürətlə həyata keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksini və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Zati-müqəddəsləri, mən Sizi, habelə, Sizinlə birlikdə gəlmiş bütün qonaqları Azərbaycanda səmimi qəlbdən salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Ölkəmizə səfərinizin bizim üçün çox böyük əhəmiyyəti var. Biz hamımız Sizin 2001-ci ildəki səfərinizi xatırlayırıq, indiki gəlişinizi də səbirsizliklə gözləyirdik. Bu, mehriban qonşuluq münasibətlərimizin inkişafı üçün, daha böyük dostluq, qardaşlıq, səmimilik ab-havası yaradılması üçün çox mühümdür. Biz Azərbaycanda fəxr edə bilərik ki, ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri böyük bir ailə kimi yaşayırlar. Bizdə tam qarşılıqlı anlaşma, milli həmrəylik var. Bu, ölkəmizin uğurlu inkişafı üçün başlıca zəminlərdən biridir. Əlbəttə ki, Rus Pravoslav Kilsəsinin və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri arasında əlaqələr də çox vacibdir. Zənnimcə, biz ölkəmizdə milli həmrəyliyə nail olmuşuq, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdir və özlərini eyni cür hiss edirlər.

Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından çox əhəmiyyətlidir. Son illər bu münasibətlərin və qarşılıqlı iqtisadi əlaqələrin, siyasi əlaqələrin, sadə vətəndaşlar səviyyəsində əlaqələrin inkişafı üçün çox möhkəm zəmin yaranmışdır. Bunlar ölkələrimizə daha fəal əməkdaşlıq etməyə, həm iqtisadiyyatı, həm də siyasi prosesləri inkişaf etdirməyə imkan verir.

Biz ikitərəfli münasibətlərin səviyyəsindən çox razıyıq. Bu münasibətlərin inkişafında Sizin rolunuz da çox böyük və əhəmiyyətlidir. Bunu nəzərə alaraq, Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndirərək, Azərbaycan dövləti Sizi yüksək mükafatla - "Şöhrət" ordeni ilə təltif etmişdir. Mən onu Sizə böyük məmnuniyyətlə təqdim etmək istərdim.

Rus Pravoslav Kilsəsinin başçısı II ALEKSİ onun fəaliyyətini yüksək qiymətləndirdiyinə görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

- Zati-aliləri, icazə verin, yüksək mükafata görə Sizə ürəkdən təşəkkür edim. Bu, mənim üçün gözlənilməzdir. Çünki mənə elə gəlir ki, ölkələrimiz arasında münasibətlərin inkişafına verməli olduğum böyük töhfəni verməmişəm. Lakin dini baxımdan artıq neçə illərdir, hələ xalq deputatları qurultaylarının deputatları olduğumuz vaxtdan şeyxülislam Allahşükür Paşazadə ilə bizim aramızda yaxşı əməkdaşlıq mövcuddur.

Keçən il biz MDB Ölkələri Dini Liderləri Şurasının həmsədrləri seçildik. Biz bu Şurada əməkdaşlığı inkişaf etdirəcək və möhkəmləndirəcəyik, çünki din xadimlərinin sülhyaratma işinə töhfəsi həmişə böyük olmuşdur, xüsusən və indi, dünyanın din xadiminin sözünə, sülhə, əməkdaşlığa çağırışa ehtiyacı olduğu bir vaxtda. Düşünürəm ki, biz işimizi gücləndirməliyik.

Zati-aliləri, Böyük Vətən müharibəsində Qələbənin 60 illiyinin bayram olunduğu vaxtda məni Azərbaycana dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək, qardaşımızın yüksək vəzifədə - Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyətinin bu ilin sentyabrında 25 ili tamam olmasından istifadə edərək, təbrikimizi bildirmək üçün səfərimizi həmin vaxta salmağı və eyni zamanda, Azərbaycana ikinci səfərimizi həyata keçirməyi qərara aldıq, çünki birinci səfərdən məndə ən xoş, işıqlı xatirələr qalmışdır.

Mən həmin səfər zamanı bizə göstərilmiş qonaqpərvərliyi minnətdarlıqla xatırlayıram. Həqiqətən, görkəmli dövlət xadimi, müdrik xadim olan mərhum valideyniniz müstəqil Azərbaycanın təşəkkülü üçün çox işlər görmüşdür, hələ Sovet İttifaqı vaxtında insanların həmrəylik, əmin-amanlıq və əməkdaşlıq şəraitində yaşaması üçün çox işlər görmüşdür. Odur ki, bu gün biz hava limanından birbaşa mərhum Prezidentin memorialını ziyarət etdik, Heydər Əliyeviç Əliyevin xatirəsinə ehtiramımızı bildirdik. Çünki ölkəmizdə, Rusiyada, ona həqiqətən, dərin hörmət bəsləyirdilər. Ona görə biz də bu dərin hörmət hisslərini Azərbaycana gələn kimi ifadə etməli idik.

Valideyninizin ölçülüb-biçilmiş və müdrik siyasətini davam etdirdiyinizə və öz xidməti ilə yetirdiyi bəhrələri artırdığınıza görə Sizə ürəkdən təşəkkür edirəm. Azərbaycanın din xadimlərini, o cümlədən pravoslav Rus icmasını, Bakı yeparxiyasını dəstəklədiyinizə görə Sizə təşəkkür etmək istərdim. Mən birinci səfərimdən də bilirəm ki, Azərbaycanın Rus icmasının nümayəndələri burada özlərini əsla ikinci dərəcəli adamlar kimi

hiss etmirlər, əksinə, ölkənin digər sakinləri ilə birlikdə bərabər hüquqlara malikdirlər.

Son iki əsr ərzində xalqlarımız arasında təşəkkül tapmış möhkəm mənəvi və mədəni əlaqələr, Tanrının ölkələrimiz üçün buyurduğu kimi, ötən ildə də bütün sınaqlardan uğurla çıxmışdır. Xalqlarımız və dövlətlərimiz uydurma dini ekstremizmə, davakar separatizmə qarşı birlikdə çıxış edirlər. Ölkənizin siyasi təbəqələşmə, iqtisadi böhran zolağından keçərək, hazırda Avrasiyada və dünyada layiqli yer tutmasını, beynəlxalq proseslərdə getdikcə daha böyük rol oynamasını görmək xoşdur. Biz belə bir faktı xüsusilə qiymətləndiririk ki, Rus icması yerli əhali arasında özünü bərabərhüquqlu hiss edir. Dinlərarası əməkdaşlığın və dialoqun inkişaf etdirilməsi sahəsində mövqelərimizin uyğun gəldiyini xüsusi vurğulamaq istərdim.

Pravoslavlar da, müsəlmanlar da yekdil fikirdədirlər ki, islam terrorçuları deyilən terrorçuların və onların əlaltılarının əməlləri ən sərt şəkildə pislənilməlidir. Kimliyindən, harada olmasından və nə kimi şüarlarla pərdələnməsindən asılı olmayaraq, onlara haqq qazandırmaq olmaz. Beslanda baş vermiş faciəyə münasibətdə nümayiş etdirdiyiniz prinsipial mövqeni ayrıca vurğulamaq istərdim. Çox hörmətli İlham Heydəroviç, bu, məni terror təcavüzü ilə əlaqədar Rusiya xalqı üçün o ağır günlərdə söylədiyiniz sözlərə görə Sizə səmimi təşəkkürümü bildirməyə vadar edir.

Rus Pravoslav Kilsəsi Qarabağ münaqişəsinin qurbanlarına görə kədərlənir və döyüş əməliyyatları zamanı əzizlərini, ev-eşiyini itirmiş insanların halına dərindən acıyır. Ümidvarıq ki, Dağlıq Qarabağ problemi həll olunacaqdır. Biz, Qafqazın din xadimləri də Qarabağ probleminin həllinə kömək etmək üçün Moskvada mənimlə birlikdə dörd dəfə toplaşmışıq. Bu görüşlərdə həmişə fəal iştirak etdiyinə görə şeyx Paşazadəyə çox minnətdaram. Həmin görüşlərdə iştirak etmiş bütün ermənilərin ali katolikosuna da minnətdaram. Din xadimləri olaraq, biz görürük ki, bu problemi hərbi yolla deyil, ancaq dialoq yolu ilə, danışıqlar yolu ilə həll etmək lazımdır.

Zati-aliləri, çox hörmətli İlham Heydəroviç, səmimi qəlbdən Sizə, gözəl Azərbaycan torpağına, vətəndaşlarınıza dövlətin və cəmiyyətin həyatında firavanlığın bərqərar olması yolunda sülh və əmin-amanlıq arzulayıram.

Dediyim kimi, biz Azərbaycanda fəaliyyət göstərən, bütün problemlərin sülh yolu ilə həllində Sizə kömək edən və dinc quruculuğa yardımçı olan din xadimlərinə kömək və dəstəyinizi yüksək qiymətləndiririk. Azərbaycan xalqı üçün etdiyiniz bütün işlərə görə Sizə sağ olun deyirik. Sağ olun ki, mərhum valideyninizin işlərini belə səylə davam etdirirsiniz. Ümidvarıq ki, Azərbaycan xalqı bunu qiymətləndirir və ölkənizdə yaşayan bütün xalqlar arasında sülh və həmrəylik olacaqdır.

Bilmirdim ki, Siz mənə Azərbaycanın yüksək ordenini təqdim edəcəksiniz. İcazə verin, hörmətimizin əlaməti olaraq, təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də rus xalqı qarşısında xidmətlərinizin qiymətləndirilməsi əlaməti olaraq, mərhum valideyniniz kimi, Sizə də Rus Pravoslav Kilsəsinin ordenini - birinci dərəcəli Müqəddəs Sergi Radonejski ordenini təqdim edim. Belə ki, son bir ildə Siz Rusiya ilə Azərbaycan arasında əməkdaşlığı geniş inkişaf etdirirsiniz, Rusiyanın bir çox dövlət xadimləri Azərbaycana gəlmişlər, Siz Moskvada dəfələrlə rəsmi və işgüzar səfərlərdə olmusunuz, müxtəlif məsul vəzifələrdə çalışan adamlar da gəlmişlər və bütün bu görüşlər xalqlarımız arasında əməkdaşlığın möhkəmlənməsinə xidmət etmişdir. Biz bütün bunları yüksək qiymət-

ləndiririk. Müqəddəs Sergi Radonejski Rus elinin böyük zahidi idi, Yer kürəsində yaşayan bütün xalqlara duaçı idi.

İLHAM ƏLİYEV: Zati-müqəddəsləri, bu yüksək mükafata görə Sizə təşəkkür edirəm. Bu, mənim üçün böyük şərəfdir və mükafatı Sizdən qəbul etmək ikiqat xoşdur. Sizi əmin etmək istəyirəm ki, Azərbaycanda xalqlar arasında sülhün qorunub saxlanması və möhkəmlənməsi üçün, ölkələrimiz arasında indi qarşılıqlı etimadın və dəstəyin tamamilə yeni səviyyəsinə çıxan münasibətlərin inkişafı üçün gələcəkdə də var qüvvə ilə səy göstərməyə hazıram. Mən ikitərəfli münasibətlərimizə verdiyiniz qiymətlə tamamilə razıyam. Münasibətlərimiz möhkəm təməl, çox mehriban, səmimi hisslər üzərində qurulmuşdur. Əlbəttə ki, biz bu münasibətlərin inkişaf etməsi üçün bundan sonra da var qüvvə ilə çalışacağıq.

Mənim haqqımda, ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkür edirəm. Əlavə etmək istərdim ki, cari il Rusiyada Azərbaycan ilidir. Bu ilin əvvəlində biz Moskvada onu təntənəli şəraitdə açdıq və gələn il Azərbaycanda Rusiya ilinin keçirilməsini səbirsizliklə gözləyirik. Biz onu da uğurla keçirəcəyik. Əsla şübhəm yoxdur ki, bütün səviyyələrdə münasibətlərimiz dinamik şəkildə, ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir. Yüksək mükafata görə Sizə bir daha təşəkkür edirəm.

PATRİARX II ALEKSİ: Din xadimləri də, öz növbəsində, bu münasibətləri inkişaf etdirəcəklər. Çünki dindarlarımız çox vaxt diqqət yetirirlər ki, əgər din rəhbərləri arasında yaxşı qarşılıqlı münasibətlər varsa, deməli, bu münasibətlərə qoşulmaq lazımdır.

İLHAM ƏLİYEV: Azərbaycanın kifayət qədər mütəşəkkil və aktiv olan Rus icmasının fəaliyyəti də, Rusiyada, onun müxtəlif şəhər və vilayətlərində yaşayan azərbaycanlıların fəaliyyəti də bu işdə çox mühüm rol oynayır. Bu faktlar əlaqələrimizin möhkəmlənməsinə kömək edir. Biz bütün səviyyələrdə müsbət, fəal dinamika görürük və bu, bizi çox sevindirir. Azərbaycana bir daha xoş gəlmisiniz!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA-QAFQAZ İNSTİTUTUNUN TƏDQİQAT MƏSƏLƏLƏRİ ÜZRƏ DİREKTORU SVANTE KORNELLİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya-Qafqaz İnstitutunun tədqiqat məsələləri üzrə direktoru, professor Svante Kornelli qəbul etmişdir.

Görüş zamanı regional məsələlər, beynəlxalq münasibətlər və bir sıra digər mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Prezident sarayında ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqların Bakıda bir sıra görüşlər keçirəcəkləri barədə məlumatı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına səfəri zamanı rəsmi qarşılanma mərasimi. Tehran, İran Prezidentinin sarayı, 24 yanvar 2005-ci il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi arasında təkbətək görüş. Tehran, İran Prezidentinin sarayı, 24 yanvar 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfəri zamanı təntənəli qarşılanma mərasimi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi və xanımı. Roma, İtaliya Respublikası Prezidentinin "Quirinale" sarayının önündə, 24 fevral 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni ilə görüşü. Roma, İtaliya Respublikası Nazirlər Şurasının binası (Palazzo Chigi), 24 fevral 2005-ci il



Çin Xalq Respublikasına dövlət səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi. Pekin, Çin Xalq Respublikasının parlamenti - Ümumçin Xalq Nümayəndələri Məclisi, 17 mart 2005-ci il





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Azərbaycan nümayəndə heyətinin üzvləri teleqüllənin baxış meydançasından Şanxayın panoramını seyr edərkən.
Şanxay, 19 mart 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf arasında təkbətək görüş. 12 aprel 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasına rəsmi səfəri zamanı rəsmi qarşılanma mərasimi. Kişinyov, Moldova Respublikası Prezidentinin sarayı, 21 aprel 2005-ci il



Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfəri zamanı rəsmi qarşılanma mərasimi. Bakı, 24 may 2005-ci il



Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ölkəmizə rəsmi səfəri zamanı Heydər Əliyev Fondunda. Bakı, 24 may 2005-ci il



Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində iştirak etmək üçün Azərbaycana işgüzar səfəri zamanı Gürcüstan Prezidenti Mixail Saakaşvili və Azərbaycan Prezidenti İlham Əliyevin görüşü. Bakı, Prezident sarayı, 24 may 2005-ci il



Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi mərasimində iştirak etmək üçün Azərbaycana işgüzar səfəri zamanı Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşü. Bakı, Prezident sarayı, 24 may 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri zamanı rəsmi qarşılanma mərasimi. Xorvatiya Prezidentinin sarayı, 10 iyun 2005-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü. Xorvatiya dövləti başçısının sarayı, 10 iyun 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin 9-cu Peterburq Beynəlxalq iqtisadi forumunda. Sankt-Peterburqun Tavriya sarayı, 14 iyun 2005-ci il



Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin vaxtilə, 1949-1950-ci illərdə təhsil aldığı keçmiş DTK-nın Ali məktəbinin binasında ulu öndərimizin xatirə lövhəsinin açılışı mərasimində. Sankt-Peterburqda Qoroxovaya küçəsindəki 6 nömrəli ünvan, 14 iyun 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukrayna Prezidenti Viktor Yuşşenkonun dəvəti ilə Kiyevə işgüzar səfəri. Borispol beynəlxalq hava limanında milli geyimli qızlar Prezident İlham Əliyevə Ukrayna adətincə duz-çörək təqdim edərkən. Kiyev, 16 iyun 2005-ci il



Beynəlxalq investisiya forumunun "Fövqəladə Ukrayna dəyirmi masası"-nda iştirak edən dövlət başçılarının xatirə şəkli. Kiyev, "Mariya" sarayı 16 iyun 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü. Bakı, Prezident sarayı, 30 iyun 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Birgə rəsmi məlumat imzalayarkən. Bakı, 30 iyun 2005-ci il.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti – 40-cı zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransında. Kazan, 26 avqust 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri zamanı rəsmi qarşılanma mərasimi. Sofiya, Aleksandr Nevski meydanı, 23 sentyabr 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adı verilməsinə həsr olunmuş təntənəli mərasim.
Sofiya, 23 sentyabr 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen ölkəmizə rəsmi səfəri. Bakı, 29 sentyabr 2005-ci il



Azərbaycan-Finlandiya sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və xanım Tarya Halonenin birgə mətbuat konfransı. Bakı, Prezident sarayı, 29 sentyabr 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa rəsmi səfəri zamanı rəsmi qarşılanma mərasimi.
Bakı, 2 oktyabr 2005-ci il



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Birgə bəyannamə imzalayarkən. Bakı, Prezident sarayı, 3 oktyabr 2005-ci il



Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə nitq söyləyərkən. Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisi. 12 oktyabr 2005-ci il



Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə. Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisi. 12 oktyabr 2005-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına səfəri. Ciddə şəhərinin Kral Əbdüləziz adına beynəlxalq hava limanında dövlətimizin başçısının qarşılanma mərasimi. 6 dekabr 2005-ci il



İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın Naxçıvan Muxtar Respublikasına səfəri. Azərbaycan və İran prezidentlərinin iştirakı ilə geniş tərkibdə görüş. Naxçıvan, 20 dekabr 2005-ci il



Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə təntənəli mərasimdə. "Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətin yeni binasının qarşısı, 20 dekabr 2005-ci il

olduğunu bildirərək dedi ki, əlaqələrimizin genişləndirilməsi baxımından Azərbaycana səfəriniz çox önəmlidir. Alman Marşall Fondu ilə əlaqələrimiz uzun müddətdir davam edir. Onun nümayəndələri ilə Bakıda və ölkədən kənarda bir neçə dəfə görüşlər keçirmişəm. Bu görüşlər zamanı ölkəmizdə, regionda vəziyyətlə, beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparmışıq.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, indiki nümayəndə heyətinə daxil olan mətbuat təmsilçilərinin də Azərbaycanda gedən inkişafı görmək imkanı olacaqdır. Dövlətimizin başçısı dedi ki, çünki öz gözünlə görmək, daim eşitməkdən daha yaxşıdır. Öz təəssüratlarınıza malik olsanız, ölkədə gedən proseslər, islahatların sürəti, regional inkişaf, ümumi vəziyyət baxımından burada baş verən hadisələrin əhəmiyyəti barədə mühakimə yürüdə biləcəksiniz. Hesab edirəm ki, səfəriniz fikir mübadiləsi aparılması üçün gözəl imkan yaradır.

Fondun Ankara ofisinin direktoru Suat Kiniklioğlu nümayəndə heyətinin adından çıxış edərək dedi ki, bir müddətdir Alman Marşall Fondu Qara dəniz və Qafqaz regionu ilə əməkdaşlıq edir. Parlament seçkiləri yaxınlaşdığına görə, fikirləşdik ki, Amerika və Avropa jurnalistlərinin bir qrupunu nümayəndə heyətinin tərkibində Azərbaycana gətirək, onlar ölkənizdə gedən prosesləri daha dərindən dərk etsinlər, Azərbaycanı Qərb dünyasına daha yaxşı tanıtsınlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Bolqarıstan Respublikasına rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya beynəlxalq hava limanında Prezident İlham Əliyevi Bolqarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.

Dövlətimizin başçısına və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

ALEKSANDR NEVSKİ MEYDANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

Sentyabrın 23-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Dövlətimizin başçısı müqəddəs Aleksandr Nevski meydanına gəldi. Bolqarıstanın və Azərbaycanın dövlət bayraqlarının asıldığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımını avtomobilin yanında Bolqarıstan Prezidenti Georgi Pırvanov və xanımı qarşıladılar.

Prezident İlham Əliyevə müqəddəs Aleksandr Nevski meydanı barədə məlumat verildi.

Azərbaycanın və Bolqarıstanın dövlət himnləri səsləndi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev əsgərləri bolqar dilində salamladı.

Bolqarıstanın rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Prezident Georgi Pırvanova təqdim olundu.

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Aleksandr Nevski meydanında Naməlum əsgər abidəsinin önünə əklil qoydu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 23-də Sofiyada Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

Prezident Georgi Pırvanov onun dəvətini qəbul edib Bolqarıstana gəldiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Bu səfərin ölkələrimiz arasında tarixi və iqtisadi əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynayacağına əminliyini vurğulayan cənab Pırvanov xalqımızın ümummilli lideri Heydər Əliyevin 1995-ci ilin yayında Bolqarıstana səfərini də xatırlatdı. O bildirdi ki, Bolqarıstan regionda iqtisadi inkişaf baxımından güclü ölkəyə çevrilən Azərbaycanla bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığı daha da inkişaf etdirməyə xüsusi maraq göstərir. Ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün iqtisadi, mədəni, humanitar və digər sahələrdə böyük imkanlar var və bunlardan hərtərəfli istifadə olunmalıdır.

Qonaqpərvərliyə görə təşəkkür edən Prezident İlham Əliyev regional və beynəlxalq çərçivədə Bolqarıstanla əməkdaşlığın, o cümlədən iqtisadi əlaqələrin yüksək səviyyəyə çatdırılması üçün potensial imkanların olduğunu bildirdi, yeni yaradılan nəqliyyat və kommunikasiya xətlərindən maksimum istifadə edilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda hazırkı ictimai-siyasi vəziyyətdən, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində görülən işlərdən və qarşıdan gələn parlament seçkilərindən danışdı.

Prezident İlham Əliyev bu səfərinin Bolqarıstanla qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanmasına təkan verəcəyini söylədi.

Görüşdə qarşılıqlı əməkdaşlığın bir sıra konkret sahələri üzrə təkliflər də səsləndi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezidentlər bu problemin sülh yolu ilə həll ediləcəyinə ümidvar olduqlarını bildirdilər, Azərbaycanın ədalətli mövqeyini Bolqarıstanın bundan sonra da dəstəkləyəcəyi vurğulandı. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzündən bəhs edərək, ölkəmizin haqq işinin beynəlxalq təşkilatlarda dəstəklənməsində Bolqarıstan dövlətinin mövqeyinə görə təşəkkürünü bildirdi.

Hər iki ölkədə səfirliklərin açılmasının ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyini bildirən dövlət başçıları bank işi, energetika, nəqliyyat və mədəniyyət sahələrində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Sentyabrın 23-də Sofiyada Azərbaycan və Bolqarıstan prezidentlərinin geniş tərkibdə görüşü olmuşdur.

Bolqarıstan dövlətinin başçısı Georgi Pırvanov Prezident İlham Əliyevi və Azərbaycan nümayəndə heyəti üzvlərini salamlayaraq, bu səfərə çox böyük önəm verdiklərini söylədi. O dedi ki, Azərbaycan Prezidentinin bu rəsmi səfərindən sonra ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək, iqtisadi, siyasi, mədəni, humanitar əlaqələr genişlənəcəkdir. Danışıqlardan sonra imzalanacaq ikitərəfli sənədlər Azərbaycan-Bolqarıstan münasibətlərinin inkişafına yeni təkan verəcəkdir.

Azərbaycanda gedən proseslərin Bolqarıstanda diqqətlə izləndiyini deyən cənab Pırvanov ölkəsinin respublikamızla iqtisadi əməkdaşlığa böyük maraq göstərdiyini vurğuladı.

Prezident Georgi Pırvanov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində son vaxtlar göstərilən səyləri yüksək qiymətləndirərək bildirdi ki, Bolqarıstan bundan sonra da Azərbaycanın haqq işini dəstəkləyəcək, bütün sahələrdə əməkdaşlığımız daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Prezident İlham Əliyev səfərə dəvətə, səmimi qəbula və qonaqpərvərliyə görə Bolqarıstan dövlətinin başçısına minnətdarlığını və təşəkkürünü bildirdi. Dövlətimizin başçısı dedi ki, indiki siyasi əlaqələr baxımından münasibətlərimiz daha da güclü potensiala malikdir. Əlaqələrin daha da genişləndirilməsi, o cümlədən iqtisadi əlaqələrin inkişafı üçün mühüm imkanlar vardır. Bundan istifadə etmək üçün bütün vasitələr işə salınmalıdır.

Prezident İlham Əliyev bildirdi ki, Beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət də ürəkaçandır və Bolqarıstan NATO-nun üzvüdür, eləcə də 2007-ci ildə Avropa Birliyinin üzvü olacaqdır. Bütün məsələlərdə Azərbaycanla Bolqarıstanın əməkdaşlığı hər iki ölkənin mənafeyinə xidmət edir.

Azərbaycan Prezidenti müstəqillik illərində ölkəmizdə gedən proseslər, aparılan islahatlar, həyata keçirilən layihələr, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası sahəsində görülən ardıcıl tədbirlər barədə də məlumat verdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Bolqarıstanın mövqeyinə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev eyni zamanda ümidvar olduğunu söylədi ki, ATƏT-in sədri kimi Bolqarıstan bu istiqamətdə göstərdiyi səyləri bundan sonra da davam etdirəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Sentyabrın 23-də Sofiyada Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun geniş tərkibdə görüşü başa çatdıqdan sonra dövlət başçılarının iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Georgi Pırvanov birgə bəyannaməni imzaladılar.

Sonra Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avratlantik inteqrasiyası sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Bolqarıstan tərəfindən xarici işlər nazirinin müavini xanım Yevgeniya Kovdanova imzaladılar. Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Bolqarıstan tərəfindən xarici işlər nazirinin müavini Lyubomir Küçükov imzaladılar. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının "Tamojnı" agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının təkmilləşdirilməsi sahəsində qarşılıqlı anlaşma protokolunu Komitənin sədri Kəmaləddin Heydərov, "Tamojnı" agentliyinin sədri Asen Asenov imzaladılar. Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları arasında gələcək əməkdaşlıq haqqında protokolu "Azərbaycan Hava Yolları" Dövlət konserninin baş direktoru Cahangir Əsgərov və Bolqarıstan mülki aviasiya administrasiyasının baş direktoru Georgi Stoyanov imzaladılar.

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında saziş, Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti və Azərbaycan-Bolqarıstan Dostluq Cəmiyyəti arasında birgə fəaliyyət və əməkdaşlıq haqqında müqavilə də imzalandı.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Sentyabrın 23-də Azərbaycan-Bolqarıstan sənədləri imzalandıqdan sonra Prezident İlham Əliyevin və Prezident Georgi Pırvanovun birgə mətbuat konfransı olmuşdur. Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bir qədər əvvəl bir sıra vacib sənədlər imzalanmışdır. Prezident Əliyevlə bundan əvvəlki danışıqlarımızın birbaşa davamı olan danışıqlar aparılmışdır. Mən danışıqlar zamanı deyilənləri ümumiləşdirmək istərdim – bu, iqtisadi sahədə qarşılıqlı münasibətlərimizin davam etdirilməsi ideyasıdır. Bizim yaxşı müqavilə-hüquqi bazamız var, biz onu dolğunlaşdırdıq və bu prosesi başa çatdırdıq. Hər iki ölkədə səfirliklərin açılması da müsbət haldır ki, bu, ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir. Viza rejiminin sadələşdirilməsi də qarşılıqlı münasibətlərin inkişafı üçün əlavə stimul olacaqdır.

Biz bu münasibətlərin inkişafını, ilk növbədə, energetika, kənd təsərrüfatı, infrastruktur, emal sənayesi, əczaçılıq sahələrində və digər sahələrdə görürük. Həm də hesab edirik ki, Bolqarıstanın Balkan yarımadasının mərkəzində yerləşməsi, habelə Azərbaycanın qaz nəqli sahəsindəki imkanları baxımından yaxşı perspektivlər var. Biz hər iki ölkənin ticarət-sənaye palatalarının fəaliyyətinə əlavə stimul verməyə çalışacağıq. Biznes forumların keçirilməsi təcrübəsi də inkişaf etdiriləcək və bu, qarşılıqlı münasibətlərin inkişafına əlavə stimul verəcəkdir. İnfrastruktur sahəsi də inkişaf etdiriləcəkdir. Yeni layihələr baxımından Bolqarıstan bunun üçün əlavə zəmin yaradır. "Yeni qonşuluq siyasəti" layihəsi çərçivəsində əməkdaşlıq da vacibdir. Bolqarıstan bu sahədə Azərbaycana mənəvi dəstəklə yanaşı, həm də ekspert yardımı göstərəcəkdir.

Biz əminik ki, mədəni-mənəvi sahədə də qarşılıqlı əlaqələr inkişaf edəcəkdir. Demək istəyirəm ki, artıq bizim aramızda digər təsisatların nümayəndələrini də həvəsləndirən şəxsi dostluq münasibətləri var.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

İcazə verin, ilk növbədə, bizi Bolqarıstana rəsmi səfərə dəvət etdiyinizə görə öz təşəkkürümü bildirim.

Mən bu səfərə çox böyük əhəmiyyət verirəm və əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha da möhkəmlənəcək, Bolqarıstanla Azərbaycan arasında olan əməkdaşlıq daha da genişlənəcəkdir. Hörmətli cənab Prezident, Sizin keçən il Azərbaycana etdiyiniz rəsmi səfəriniz iki ölkə arasında əlaqələrin inkişafında çox mühüm rol oynadı. Əminəm ki, həmin səfər çərçivəsində imzalanmış sənədlər və bu gün imzalanmış sənədlər əməkdaşlığın gələcək inkişaf perspektivlərini müəyyən edir. Siyasi, iqtisadi və bütün başqa sahələrdə bizim əlaqələrimiz güclənir.

Avratlantik inteqrasiyaya dair bu gün imzalanmış sənəd çox böyük əhəmiyyət kəsb edir. İki ölkə bu istiqamətdə daha da inamla irəliyə gedəcəkdir. Bu siyasət, Avratlantik məkanına inteqrasiya siyasəti bizi sıx birləşdirir. Eyni zamanda, Bolqarıstan və Azərbaycan dünyanın müxtəlif yerlərində sülhün, təhlükəsizliyin təmin olunmasında da mühüm rol oynayır. Yəni siyasi müstəvidə bizim mövqelərimiz üst-üstə düşür və bu, bütün başqa sahələrdə əlaqələrin inkişafı üçün çox mühümdür.

Bu gün müxtəlif məsələlər müzakirə olundu və ümid edirəm ki, energetika sahəsində, nəqliyyat sahəsində, iqtisadiyyatın digər sahələrində əldə edilmiş razılaşmalar icra olunacaq və bizim iqtisadi əlaqələrimiz qısa müddət ərzində yeni, yüksək pilləyə qalxacaqdır. İki ölkə arasında ticarət əlaqələri sürətlə inkişaf edir, mal dövriyyəsi ildən-ilə artır. Ancaq bu, ölkələrimizin iqtisadi potensialını əks etdirmir. Hesab edirəm ki, gələcəkdə bu potensialın daha geniş şəkildə işə salınması prosesi çox sürətlə getməlidir.

Siz qeyd etdiniz ki, bizim aramızda çox səmimi dostluq münasibətləri yaranmışdır. Bu da ölkələrimiz arasında gedən dialoqa müsbət təsir göstərir. Ümid edirəm ki, nümayəndə heyətləri arasında da, onların üzvləri arasında da dostluq münasibətləri yaranacaq, möhkəmlənəcək və Bolqarıstanla Azərbaycan arasında bütün sahələrdə sürətlə inkişaf edən əməkdaşlıq daha da genişlənəcəkdir.

Mənə və nümayəndə heyətinin üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Pırvanov, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün regionun iqtisadi inkişafına böyük zərbə vurduğu nəzərə alınmaqla, bu münaqişənin həlli məsələsində Sizin ölkənizin konkret mövqeyi necədir?

GEORGİ PIRVANOV: Biz bu münaqişənin ağırlığını və ciddiliyini başa düşürük. Demək istəyirəm ki, Bolqarıstan bu məsələyə çox ciddi yanaşır. Bolqarıstan fəal siyasi dialoqun axtarışına, ATƏT çərçivəsində sülh danışıqlarına tərəfdardır.

SUAL: Cənab Əliyev, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Burqas-Aleksandrupolis marşrutu ilə davam etdirilməsi mümkündürmü?

İkinci sualım Bolqarıstan Prezidentinədir. Siz hər iki ölkə arasında əmtəə dövriyyəsinin səviyyəsini "böhranlı vəziyyət" kimi qiymətləndirdiniz. Bunun səbəbləri nədir?

İLHAM ƏLİYEV: Bakı-Tbilisi-Ceyhan *neft kəmərinin tikintisi uğurla* davam edir və bu ilin sonuna qədər kəmər istismara veriləcəkdir. Bu kəmərin nəqletmə gücü ildə 50 milyon tona bərabərdir. Nəzərə alsaq ki, Azərbaycanda və Xəzər dənizinin şərqində yerləşən yataqlardan daha böyük həcmdə neft hasilatı gözlənilir, əlbəttə, başqa ixrac marşrutları da nəzərdən keçirilir. Burqas-Aleksandrupolis marşrutu da təhlil olunmuşdur və bu barədə bizim biliklərimiz vardır. Burada iqtisadi amil əsas olacaqdır və bütün tərəflər çalışmalıdır ki, bu marşrut iqtisadi cəhətdən əlverişli olsun.

GEORGİ PIRVANOV: Hörmətli xanımlar və cənablar! Qarşılıqlı münasibətlərimizin inkişafında, ilk növbədə, əmtəə dövriyyəsi sahəsində ciddi dinamika var. Azərbaycan tərəfinin statistikasına görə, bu, yalnız bir neçə milyon dollar təşkil etmişdir, hazırda isə artıq 100 milyon dollara yaxınlaşırıq. Bizim metodika bir qədər fərqlənir və məlumat daha azdır. Lakin dinamika ayrı, həcm isə başqa məsələdir. Ona görə də həm keçmişdəki, həm də builki məlumatlar bizi razı sala bilməz.

Hər iki ölkənin potensialı gördüyümüz işdən xeyli çoxdur. Mən bu məsələnin həllini bir neçə istiqamətdə görürəm. Əvvəla, işgüzar insanlar səviyyəsində informasiya mübadiləsini qaydaya salmaq lazımdır. İkincisi, indiyədək buna əngəl törədən nəqliyyat məsələlərinin həllidir. Mən ölkələrimizin təsisatlarını qınaya bilmərəm, çünki gördüyünüz kimi, çoxlu sənəd imzalanmış, viza rejimi sadələşdirilmiş, səfirliklər açılmışdır. Əməkdaşlığı inkişaf etdirmək üçün biznesə heç nə mane olmur. Prezidentlər bacardıqları qədər kömək etməyə çalışırlar. Sabah cənab Əliyev Bolqarıstanın *iri biznesmenləri* ilə görüşəcəkdir. Zənnimcə, bunun özü ikitərəfli iqtisadi əməkdaşlıq üçün stimul olacaqdır.

BOLQARISTANIN BAŞ NAZİRİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ İŞGÜZAR NAHAR

Sentyabrın 23-də Bolqarıstanın Baş naziri Sergey Stanişevin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə işgüzar nahar təşkil olunmuşdur. Süfrə arxasında səmimi söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi sahəsində hökumətlər qarşısında duran vəzifələrdən danışıldı, hər iki tərəf üçün maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparıldı.

BOLQARISTAN PARLAMENTİNDƏ GÖRÜŞ

Sentyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstan parlamentinin - Xalq Məclisinin sədri Georgi Pirinski ilə görüşmüşdür.

Parlamentin sədri Azərbaycan Prezidentini binanın önündə böyük hörmətlə qarşıladı.

Görüşdə parlamentlərarası əlaqələr, Azərbaycanda qarşıdan gələn parlament seçkilərinə hazırlıq, Bolqarıstanda sonuncu parlament seçkilərinin nəticələri, Avratlantik strukturlarına inteqrasiya sahəsində əməkdaşlıq, dostluq qruplarının və parlamentlərarası işçi qruplarının fəaliyyəti, ölkələrimizin siyasi, iqtisadi əlaqələrinin daha da möhkəmlənməsində qanunvericilik orqanlarının rolu barədə geniş fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşünü böyük şərəf hesab etdiyini söyləyən cənab Georgi Pirinski dövlətimizin başçısının Bolqarıstana rəsmi səfərini ölkələrimizin parlamentləri arasında əlaqələrin inkişafına müsbət təsiri baxımından çox mühüm hadisə kimi səciyyələndirdi.

Xalq Məclisinin sədri ölkəmizdə parlament seçkiləri ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncamdan xəbərdar olduğunu bildirərək, bunu yüksək qiymətləndirdi, seçkilər zamanı exit-polun keçirilməsini də yaxşı hal kimi vurğuladı. Georgi Pirinski yeni seçilmiş Bolqarıstan parlamentində Bolqarıstan-Azərbaycan işçi qrupu yaradılacağı barədə məlumat verdi, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi aparmağı təklif etdi.

Azərbaycan Prezidenti İlham Əliyev bu təklifi məmnunluqla qarşıladı və bunun vacib olduğunu söylədi. Dövlətimizin başçısı Bolqarıstanda parlament seçkilərinin uğurla keçməsi və Xalq Məclisinin sədri seçilməsi münasibətilə cənab Georgi Pirinskini təbrik etdi. Prezident İlham Əliyev Azərbaycan Milli Məclisi barədə məlumat verdi, qarşıdakı parlament seçkilərinə hazırlıqdan danışdı. Azərbaycan Prezidenti yeni formalaşdırılacaq parlamentlərarası işçi qruplarının fəaliyyətinin gücləndirilməsi üçün qarşılıqlı əlaqələrin, səfərlərin əhəmiyyətini vurğuladı.

Görüşdən sonra Prezident İlham Əliyev Bolqarıstan Xalq Məclisinin iclas salonu ilə tanış oldu, parlamentin Xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BOLQARISTAN MİLLİ VƏ DÜNYA TƏSƏRRÜFATI UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR

Sentyabrın 23-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adı verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı universitetin binası önündə rektor Borislav Borisov ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri *təqdim* edildi.

Mərasimdən əvvəl Prezident İlham Əliyev ilə universitetin rektoru Borislav Borisov arasında söhbət oldu. Rektor dövlətimizin başçısına məlumat verərək dedi ki, 1920-ci il-

dən fəaliyyət göstərən və Bolqarıstanın ən nüfuzlu ali təhsil ocaqlarından olan bu universitetdə 25 min tələbə təhsil alır və 8 min nəfərlik professor-müəllim heyəti çalışır. Bir sıra ölkələrin prezidentləri universitetin fəxri professoru adına layiq görülmüşlər.

Borislav Borisov bildirdi ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsi sahəsində xidmətlərinə görə, Elmi şuranın qərarı ilə Azərbaycan Prezidenti universitetin fəxri professoru adına layiq görülmüşdür.

Rektor Prezident İlham Əliyevə professor mantiyasını təqdim etdi.

Sonra universitetin Elmi şurası üzvlərinin, professor-müəllim heyətinin iştirakı ilə mərasim keçirildi. Mərasimi rektor Borislav Borisov açdı.

UNİVERSİTETİN REKTORU BORİSLAV BORİSOVUN ÇIXIŞI

- Hörmətli cənab Azərbaycan Respublikasının Prezidenti!

Sizi elmi ictimaiyyət adından salamlamaqdan və Sizə "Təkcə Bolqarıstanda deyil, həm də bütün Cənub-Şərqi Avropada ən böyük iqtisadi təhsil müəssisəsinə xoş gəlmisiniz!" deməkdən son dərəcə böyük şərəf və məmnunluq duyuram. Bolqarıstanın bir neçə baş naziri, nazirləri, deputatlar, ictimai və dövlət xadimləri bu təhsil ocağının yetirmələridir. Artıq 85 ildir ki, minlərlə müəllim və tələbə universitetimiz üçün yaxşı imic yaradırlar, varislik, həqiqət axtarışı bu imicin tərkib hissələridir.

Siz, ölkəniz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasının ikinci Prezidentisiniz ki, Bolqarıstana səfər edirsiniz. Atanız 1995-ci ildə Bolqarıstanda olarkən parlamentdə çıxışında vurğulamışdı ki, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün çox böyük potensial var. Əminəm ki, Bolqarıstan və Azərbaycan universitetləri arasında əməkdaşlıq inkişaf edəcək və universitetimizə Sizin gəlişiniz bu istiqamətdə yaxşı başlanğıc olacaqdır.



Rektor fəxri professor diplomunu və medalını dövlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab rektor!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlamaq və belə yüksək ada görə təşəkkür etmək istəyirəm. Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adına layiq görülmək böyük şərəf və böyük məsuliyyətdir. Bilirəm ki, universitet bu regionun - Balkan yarımadasının və Avropanın aparıcı ali təhsil müəssisəsidir. Onilliklər ərzində universitet kadrlar hazırlanması, iqtisadi islahatlar üçün şərait yaradılması, habelə Bolqarıstan cəmiyyəti elitasının hazırlanması işinə böyük töhfə vermişdir. Ona görə də bu, mənim üçün çox xoş hadisədir. Həyatımın bir hissəsi ali təhsil müəssisəsində işlə bağlı olmuşdur. Mən bir neçə il ərzində ali təhsil müəssisəsində dərs demişəm və ona görə də bu,

mənə çox yaxın və əziz işdir. Sizə söz verirəm ki, bu adı şərəflə daşıyacaq və bu yüksək etimadı doğrultmağa çalışacağam.

Mən bu gün səhərdən sizin gözəl ölkənizdə rəsmi səfərdəyəm. Səfər çox uğurlu keçir və Prezidentlə, parlamentin sədri, baş nazirlə keçirilmiş görüşlər bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər yüksəlişdədir. Bizim aramızda çox fəal siyasi dialoq var, beynəlxalq məsələlərdə məqsədlərimiz uyğun gəlir. Regional vəziyyətin, ikitərəfli münasibətlərimizin, dünyada baş verən hadisələrin qiymətləndirilməsində ölkələrimizin siyasəti üst-üstə düşür. Əlbəttə ki, siyasi fəallıq və qarşılıqlı anlaşma belə yüksək səviyyədə olduqda, hərtərəfli iqtisadi münasibətlərin inkişafı üçün çox yaxşı zəmin yaranır.

Bolqarıstan Prezidenti cənab Pırvanov keçən il Azərbaycana səfər etdi. Bu il mən Bolqarıstana səfər edirəm. Bu müddət ərzində Bolqarıstanın Azərbaycanda və Azərbaycanın Bolqarıstanda səfirlikləri yaradılmışdır və onlar artıq işləyir. Bütün bunlar qarşılıqlı marağı göstərir, onu sübut edir ki, ölkələrimiz arasında münasibətlər tərəfdaşlığın çox fəal müstəvisinə keçir. Avrointeqrasiya, iqtisadi və siyasi islahatlar aparılması prosesləri çərçivəsində biz fəaliyyətimizi çox sıx şəkildə əlaqələndirəcək və təcrübə mübadiləsi aparacağıq. Ümidvaram ki, bu, çox yaxşı nəticələr verəcəkdir.

Universitetinizin çox geniş profili var və burada müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Lakin əlbəttə ki, əsas diqqət iqtisadi bloka yönəldilir. Buna görə də mən Azərbaycanda apardığımız iqtisadi siyasətin əsas istiqamətlərindən çox qısaca danışmaq istərdim.

1980-ci illərin axırları - 90-cı illərin əvvəllərində ölkəmiz çox böyük iqtisadi çətinliklərlə qarşılaşdı. İqtisadi tənəzzülün, habelə cəmiyyətimizin məruz qaldığı böhranın sənaye, infrastruktur və bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün çox mənfi nəticələri oldu. Azərbaycan iqtisadi potensial baxımından, 1990-cı ilin səviyyəsinə yalnız bu il çata bildi. 1990-cı illərin əvvəllərində ölkəmizə vurulmuş iqtisadi zərər o dərəcədə güclü idi ki, 1990-cı ilin səviyyəsinə gəlib çıxmaq üçün 15 il vaxt lazım oldu.

İndi siyasi islahatlar sayəsində, Azərbaycanda sabitliyin, ictimai və milli həmrəyliyin olması sayəsində çox səmərəli iqtisadi siyasət aparmaq mümkündür. Ölkəmizin iqtisadiyyatı çox yüksək sürətlə inkişaf edir. 1996-cı ildən 2004-cü ilədək ümumi daxili məhsulun həcmi ildə orta hesabla 10 faiz artmışdır. Bu il bizdə iqtisadi sıçrayış müşahidə olunur. 2005-ci ilin 8 ayı ərzində iqtisadiyyat 20 faiz artmışdır, sənayenin artım sürəti 26 faiz təşkil edir. Həmin dövrdə əhalinin pul gəlirləri 25 faiz, əhalinin banklarda əmanətlərinin həcmi 50 faiz artmışdır. Qarşımızda duran çox mühüm sosial problemlər həll edilir, Azərbaycanda energetika, nəqliyyat sahəsində transmilli layihələr, neft və qaz sahəsində regional əməkdaşlıq uğurla həyata keçirilir.

Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan regionda ilk yerlərdən birini tutur, son 10 ildə ölkəmizə yönəldilən sərmayələrin həcmi 25 milyard dollar olmuşdur. Bu onu göstərir ki, əcnəbi sərmayəçilər Azərbaycanın gələcəyinə inanırlar, iqtisadi inkişafa inanırlar və belə böyük məbləğdə vəsaitlə risk etməkdən çəkinmirlər. Bu da özünü doğruldur. Ölkəmizə yönəldilən hər bir sərmayə yeni iş yerləri yaradır, biznes üçün, özəl sektorun inkişafı üçün yeni imkanlar açır.

Ötən ilin fevralından biz Azərbaycanın regionlarının inkişafı proqramını həyata keçirməyə başlamışıq, diqqəti ilk növbədə yeni iş yerləri açılması üzərində cəmləşdirmişik. İftixarla deyə bilərəm ki, iki ildən də az bir vaxtda Azərbaycanda 300 min yeni iş yeri yaradılmışdır. Əhalisinin 8 milyon nəfərdən bir qədər artıq olmasını nəzərə alsaq, ölkədə yeni iş yerləri açılmasında belə böyük artımın olması çox yüksək göstəricidir.

Bizim qarşımızda yoxsulluğun, işsizliyin ləğv olunması və Azərbaycanın hər bir vətəndaşı üçün normal həyat şəraitinin təmin edilməsi vəzifəsi durur. İqtisadi islahatların səmərəliliyini, avrointeqrasiya məsələlərində fəal tədbirlərimizi, nəqliyyat imkanlarımızı, coğrafi mövqeyimizi, ölkəmizin coğrafi-siyasi əhəmiyyətini nəzərə alaraq şübhə etmirəm ki, biz bütün planlarımızı həyata keçirməyə müvəffəq olacağıq.

İqtisadi göstəricilər, iqtisadi baza hər bir ölkə üçün cəmiyyətin inkişafında başlıca amillərdir. Güclü iqtisadiyyat, güclü sosial siyasət olmadan islahatlar yolu ilə fəal irəliləmək mümkün deyildir. Hər şey bu amilə bağlıdır və ona görə də bütün səylərimiz Azərbaycanın iqtisadi potensialının artırılmasına yönəldilmişdir. Gələn il büdcəmizdə çox böyük, 50 faizdən yuxarı artımın olacağı nəzərdə tutulur. Sonrakı illərdə, 2007-ci, 2008-ci illərdə də iqtisadi artım güclənəcəkdir. Bütün bu amilləri, habelə formalaşmaqda olan çox açıq və səmimi ab-havanı – münasibətlərimizdə hökm sürən ab-havanı nəzərə alaraq, inamla deyə bilərəm ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün çox yaxşı potensial mövcuddur və biz ondan istifadə etməliyik.

Doğrudur ki, Bolqarıstanla Azərbaycan arasında əmtəə dövriyyəsi xeyli dərəcədə artmışdır. Lakin buna baxmayaraq, o, ölkələrimizin real potensialını əks etdirmir. Mənim nümayəndə heyətimə nazirlər, hökumət rəhbərləri, deputatlar, ictimai xadimlər daxildirlər. Nümayəndə heyətinin belə geniş tərkibi ikitərəfli əlaqələrimizə necə böyük əhəmiyyət verdiyimizə daha bir sübutdur. Əminəm ki, bu səfərin nəticələrinin çox tezliklə yaxşı səmərə verməsi üçün nümayəndə heyətimizin üzvlərinin bu gün və sabah bolqarıstanlı həmkarları ilə görüşmək imkanı olacaqdır.

Bizim artıq yaxşı müqavilə-hüquq bazamız var, çoxlu sənəd imzalanmışdır, o cümlədən də bu gün. Daha çox ünsiyyət olması üçün ölkələrimiz arasında müntəzəm aviareyslər açmağı planlaşdırırıq. Bununla da şübhəm yoxdur ki, münasibətlərimizin uğurlu inkişafı mümkün olacaq və regional əməkdaşlığın mühüm amilinə çevriləcəkdir.

Regional əməkdaşlıq baxımından Azərbaycan böyük uğurlara nail olmuşdur. Ölkəmizdə və regionda bizim iştirakımızla dünyada çox böyük energetika layihələri, habelə nəqliyyat-kommunikasiya layihələri – Azərbaycanla region, Mərkəzi Asiya ölkələri, Türkiyə, Avropa arasında dəmir yol tikintisi layihəsi həyata keçirilir. Əlbəttə, əməkdaşlıq üçün bu müstəvidə yeni perspektivlər açılır. Həmçinin ümidvaram ki, özəl sektor da arxamızca gedəcək və bütün istiqamətlərdə tərəqqi görməyimiz üçün əməkdaşlıq yaradılması işində fəal işləyəcəkdir.

Bir daha əlavə etmək istəyirəm ki, şəxsən mən ölkənizə səfərdən çox dərin məmnunluq duyuram. Səhər tezdən mənə, nümayəndə heyətimizin üzvlərinə çox səmimi, doğma münasibət görürəm. Mən bunu çox yüksək qiymətləndirirəm, çünki ölkələrimiz arasındakı münasibətlər, həm də insanlar arasında münasibətlərdir. Bolqarıstan Prezidenti ilə yaranmış şəxsi dostluq da, zənnimcə, ikitərəfli münasibətlərin inkişafı üçün mühüm amildir.

Belə mehribancasına qəbula görə və fəaliyyətimə verilən belə yüksək qiymətə görə bir daha səmimi qəlbdən təşəkkürümü bildirmək və sizi əmin etmək istəyirəm ki, bu yüksək adı şərəflə daşıyacağam və ikitərəfli əlaqələrimizin möhkəmlənməsinə yönəldilmiş öz fəaliyyətimlə onu doğrultmağa çalışacağam.

Təşəkkür edirəm.

[redacted]

Azərbaycan dövlətinin başçısı universitetin professor-müəllim heyəti ilə səmimiyyətlə sağollaşdı, habelə Sofiyanın Amerika Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüşdü, onların təhsil şəraiti ilə maraqlandı.

SOFİYADA BAKI KÜÇƏSİNİN AÇILIŞI

Sentyabrın 23-də Bolqarıstanın paytaxtı Sofiyanın Tələbə rayonunda Bakı küçəsinin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısını Tələbə Rayonu İcra Hakimiyyətinin başçısı Ventislav Dudolenski səmimiyyətlə qarşıladı.

Cənab VENTİSLAV DUDOLENSKİ mərasimi açaraq dedi:

- Hörmətli cənab Prezident!

Sizi Tələbə rayonunda qarşılamaqdan və Bakı küçəsinin açılışı münasibətilə təbrik etməkdən böyük şərəf və məmnunluq duyuram. Bu küçə xalqlarımız arasında dostluğun rəmzi olacaq və zənnimcə, bu dostluq gələcəkdə də davam edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Şəhərin küçələrindən birini Bakı küçəsi adlandırmaq barədə qərarına görə şəhərin meriyasına dərin təşəkkürümü bildirirəm. Bakı Azərbaycanın paytaxtıdır, böyük tarixi, ənənələri olan qədim şəhərdir və bu küçəyə onun adının verilməsi bizim üçün, Azərbaycanın bütün vətəndaşları üçün çox xoşdur. Münasibətlərimiz çox yüksək səviyyəyə qalxır. Bolqarıstanla Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq çox fəaldır və ölkənizə səfərim, aparılmış danışıqlar, imzalanmış sənədlər, bir tərəfdən, ikitərəfli münasibətlərin inkişafına sübutdur, digər tərəfdən isə, ölkələrimizin imkanları, iqtisadi potensialı, habelə siyasi inteqrasiya prosesləri nəzərə alınmaqla, ikitərəfli səviyyədə, beynəlxalq təşkilatlar çərçivəsində, regional istiqamətdə sıx qarşılıqlı fəaliyyət göstərmək üçün daha yaxşı imkanlar yaradır.

Şübhə etmirəm ki, çox yaxın gələcəkdə biz ikitərəfli münasibətlər sahəsində daha böyük uğurlara nail olacağıq. Düşünürəm ki, Azərbaycan paytaxtının şərəfinə küçənin açılması faktı da bu münasibətlərin təzahürüdür. Bu, onun nəticəsidir ki, ölkələrimiz arasında səmimi münasibətlər, dostluq münasibətləri mövcuddur. Bu, Azərbaycana olan böyük hörmətin əlamətidir və biz bunu çox yüksək qiymətləndiririk.

Odur ki, əvvəla, qonaqpərvərliyə görə, səmimi qəbula görə, əlbəttə ki, indi Sofiyada Azərbaycan paytaxtının adını daşıyan küçə olacağına görə bütün bolqarıstanlı dostlara,

Bolqarıstan rəhbərliyinə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Hamınıza təşəkkür edirəm.



Sonra dövlətimizin başçısı üzərində bolqar və ingilis dillərində "Bakı küçəsi" sözləri yazılmış lövhənin üstündən ağ örtüyü götürdü və burada mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANIN KEÇMİŞ PREZİDENTİ JELYU JELEVLƏ GÖRÜŞÜ

Sentyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Bolqarıstanın keçmiş Prezidenti Jelyu Jelevlə görüşmüşdür.

Dövlətimizi başçısı İlham Əliyev ilə görüşünü yüksək qiymətləndirən cənab Jelyu Jelev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə şəxsi dostluq əlaqələrindən danışdı. O dedi ki, ölkələrimiz arasında əlaqələrin təməli 1995-ci ildə onun Bolqarıstana səfəri zamanı qoyulmuşdur. Cənab Jelev hazırda ikitərəfli əlaqələrin köhnə təməllər əsasında uğurla davam etdirildiyini və əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin Bolqarıstana səfərini xatırladaraq dedi ki, Azərbaycanda onun siyasəti bu gün də uğurla davam etdirilir. Bolqarıstanla Azərbaycan arasında iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdirilməsi və ümumiyyətlə əlaqələrin genişləndirilməsi üçün gözəl imkanlar var və bunlardan səmərəli şəkildə istifadə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Sentyabrın 23-də Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun və xanımının adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ

- Zati-aliləri,

Hörmətli xanım Əliyeva,

Əziz qonaqlar,

Xanımlar və cənablar!

Bakıda görüşümüzdən bir il keçməmiş Sizi dost Bolqarıstanda böyük məmnuniyyətlə ürəkdən salamlamağıma və "Xoş gəlmisiniz!" deməyimə şadam. Cənab Prezident, Si-

zin ölkəmizə səfəriniz mənə Azərbaycan torpağında gördüyüm səmimi qonaqpərvərliyin yalnız bir hissəsinin əvəzini qaytarmağa imkan verir.

Bu səfər ikitərəfli əlaqələrin gücləndirilməsi məqsədi ilə birgə işimizin nəticələrini qiymətləndirmək imkanıdır. Biz ənənəvi şəkildə yaxşı olan, lakin xüsusilə intensiv və konkret əlaqələrin dinamik transformasiyasını, fəal münasibətləri və tərəfdaşlıq münasibətlərini başlıca nailiyyət sayırıq.

Siyasi dialoqun səviyyəsinin yüksəlməsini və fəallaşmasını, xüsusən iqtisadi sahədə və ticarət sahəsində müqavilə-hüquq bazasının zənginləşməsini, paytaxtlarımızdakı diplomatik nümayəndəliklərimizin səviyyəsinin bərabərləşməsini məmnunluqla qeyd etmək lazımdır. Bolqarıstan-Azərbaycan əlaqələrinin ictimai əsası da genişlənmişdir – şəhərlər, yerli özünüidarə orqanları arasında və ölkələrimizdə yaradılmış dostluq cəmiyyətləri arasında əməkdaşlığın bünövrəsi qoyulmuşdur.

Əminəm ki, Prezident İlham Əliyevin Sofiyaya ilk rəsmi səfəri gələcək əməkdaşlığımıza mühüm təkan verəcəkdir. Ticarət, kənd təsərrüfatı və energetika, nəqliyyat və turizm sahələrində əlaqələrin inkişafı üçün son dərəcə böyük imkanlar mövcuddur. Zənnimcə, mədəniyyət, təhsil və elm sahəsində əlaqələrin gücləndirilməsi, iki dost xalqın fəal ünsiyyəti hər iki dövlətin xeyrinə olacaqdır.

Bolqarıstan Respublikası Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına inteqrasiya üçün göstərdiyi səyləri alqışlayır. Bizim fikrimizcə, Azərbaycanın inteqrasiya proseslərində iştirakı mövcud münaqişələrin sülh yolu ilə həllinə öz töhfəsini verəcək və Cənubi Qafqaz regionunda daha çox sabitliyə, təhlükəsizliyə və tərəqqiyə gətirib çıxaracaqdır. Avropa və Avratlantik inteqrasiyası sahəsində əməkdaşlıq haqqında bu gün imzalanmış Memorandum ikitərəfli münasibətlərə ümumi məqsədlərimiz naminə planauyğun qarşılıqlı fəaliyyət kimi yeni keyfiyyət gətirir. Beləliklə, ölkələrimiz beynəlxalq terrorizmlə, digər qlobal təhlükələr və qarşıya çıxa biləcək problemlərlə mübarizədə daha uğurla əməkdaşlıq edəcək, regional təhlükəsizlik və sabitliyin inkişafına öz töhfələrini verəcəkdir.

Hörmətli cənab Prezident,

Bizim bugünkü söhbətlərimiz xarici siyasətlərimizin başlıca istiqamətlərinin üst-üstə düşdüyünü təsdiq etdi və ölkələrimizin ikitərəfli dialoqu inkişaf etdirmək və intensivləşdirmək üçün siyasi iradəsinin olmasını sübuta yetirdi. Bu, Bolqarıstan-Azərbaycan münasibətlərinin perspektivi ilə bağlı məndə nikbinlik yaradır.

İcazə verin, badələri Bolqarıstan-Azərbaycan münasibətlərinin yaxşı perspektivləri və Avropa və Avratlantik strukturlarında əməkdaşlığımızın şərəfinə,

Dost Azərbaycan xalqının tərəqqisi və firavanlığı şərəfinə!

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və çox hörmətli xanım Əliyevanın şərəfinə,

Burada iştirak edənlərin hamısının sağlığına,

Sizin sağlığınıza badə qaldırım!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Georgi Pırvanov!

Hörmətli xanım Pırvanova!

Xanımlar və cənablar!

Əziz dostlar!

Məni Bolqarıstan Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Bolqarıstan torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bolqarıstana səfərdən olduqca məmnunam. Bolqarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz arasında keçmişdə kifayət qədər sıx əlaqələr mövcud olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə Bolqarıstana rəsmi səfərindən sonra iki ölkə arasında münasibətlər daha da inkişaf etmişdir. 2004-cü ilin oktyabr ayında Sizin Azərbaycana səfəriniz bu münasibətlərə yeni təkan vermişdir.

Bolqarıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, regional və beynəlxalq məsələlərə dair Prezident Pırvanovla apardığımız fikir mübadiləsi, keçirilən görüşlər, imzalanmış sənədlər xüsusi əhəmiyyət daşıyır və ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmlənməsinə imkan verəcəkdir.

Mən Bolqarıstanla Azərbaycan arasında əməkdaşlığın bütün sahələrdə genişlənməsi və dərinləşməsinin tərəfdarıyam. Bu istiqamətdə yaxşı perspektivlər vardır. Biz bu münasibətləri daha da inkişaf etdirmək, yeni sahələri əhatə etmək məqsədi ilə Bolqarıstanda səfirlik açmışıq. Əminəm ki, biz siyasi, iqtisadi, nəqliyyat-kommunikasiya, humanitar və turizm sahələrində uğurlu və faydalı əməkdaşlıq edə bilərik.

Eyni zamanda, biz Bolqarıstanla həm də regional təşkilatlar çərçivəsində, o cümlədən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında əməkdaşlığımıza xüsusi önəm veririk. Bu əməkdaşlıq Qara dəniz - Xəzər dənizi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən dövlətlərdən biridir. Həyata keçirilən islahatlar ölkənin iqtisadi inkişafında köklü irəliləyişə nail olmağa imkan vermişdir. Qeyd etmək kifayətdir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun real artımının 20 faiz, 2006-cı ildə isə 30 faiz olacağı gözlənilir.

Azərbaycanda çox yaxşı sərmayə mühiti yaradılmışdır. Son 10 ildə Azərbaycan iqtisadiyyatına 24 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Bu, adambaşına götürdükdə, regionda ən yüksək göstəricilərdən biridir və iqtisadiyyatın daha yüksək templə inkişafına, əhalinin rifahının yaxşılaşdırılmasına, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına möhkəm zəmin yaradır. Biz, eyni zamanda, Avropa və Avratlantik strukturları ilə sıx əməkdaşlıq edirik.

Azərbaycanda siyasi islahatlar, demokratikləşmə prosesi də sürətlə gedir. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiy-

yətlər qazanılmışdır.

Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan bölgədə sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə Bolqarıstanın da dəstəyinə ümid bəsləyirik.

Bolqarıstanla Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir, birgə səylərimizlə yeni imkanlar yaranır. Bu imkanlardan istifadə üçün müvafiq qurumlar və səfirliklərimiz sıx əməkdaşlıq etməlidir.

Hörmətli cənab Prezident!

Bolqarıstana rəsmi səfərə dəvətinizə görə bir daha Sizə minnətdarlığımı ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram

Bolqarıstan və Azərbaycan arasında möhkəmlənən dostluq əlaqələrinin, Bolqarıstan Respublikası xalqının, Prezident Georgi Pırvanovun və xanımı Zorka Pırvanovanın şərəfinə badə qaldırmaq istəyirəm.

Sağ olun.

VARNA ŞƏHƏRİNƏ GƏLİŞ

Bolqarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də səhər Varna şəhərinə gəlmişdir.

BALÇİK BOTANİKA BAĞI İLƏ TANIŞLIQ

Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Varna hava limanından maşın karvanının müşayiəti ilə birbaşa Qara dənizin sahilində yerləşən Balçik şəhərinə gəlmişdir.

Kompleksin müdiri Trifan Dimitrov Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladı.

2500 ildən çox tarixi olan Balçik kurortu Varnanın 40 kilometrliyində, mənzərəli ərazidə yerləşir. Şəhər dəniz iqlimi, termal suları və qızıl gülü ilə məşhurdur. Lakin Balçikin ən görməli yeri şəhərin mərkəzindən 1,5 kilometr aralıda yerləşən, Şərq və Avropa memarlığı üslubunda tikilmiş saraydır. 1931-38-ci illərdə Rumıniya kraliçası Mariyanın iqamətgahı olmuş üçmərtəbəli sarayın üstündə minarə ucaldılmışdır. Sarayda hər iki memarlıq üslubunun olması xristian və islam dinlərini yaxınlaşdırmağa çalışan kraliçanın dini baxışlarını əks etdirir.

Vaxtilə Rusiya imperiyasına, sonra isə Rumıniyaya məxsus olan bu ərazini Rumıniya

SSRİ-nin təzyiqi ilə 1940-cı ildə Bolqarıstana vermişdir.

Cənab Dimitrov dövlətimizin başçısına məlumat verərək dedi ki, Botanika bağının salınmasına 1926-cı ildə Rumıniya kraliçası Mariyanın təşəbbüsü ilə başlanmış və bu iş 10 il davam etmişdir. Sarayın ətrafındakı 300 hektarlıq ərazi hündürlüyünə görə ikisəviyyəlidir. 196 hektarlıq sahədə məşhur Botanika bağı yerləşir. Burada dünyanın hər yerindən gətirilmiş 600-dən çox nadir bitki var. Qalan ərazi üzüm, meyvə bağları və istirahət zonasından ibarətdir.

Prezident İlham Əliyev və xanımı Botanika bağı ilə tanış oldular. Burada istirahət edən turistlər dövlətimizin başçısına yaxınlaşıb onunla səmimi salamlaşırdılar.

Prezident İlham Əliyev sarayla da tanış oldu, ayrı-ayrı otaqlara, kraliça Mariyanın fotoşəkillərinə, istifadə etdiyi məişət əşyalarına baxdı. Bildirildi ki, bura vaxtilə məscid, sonra kilsə kimi fəaliyyət göstərmişdir. İnsanlar istək və arzularına çatmaq üçün burada dua etmişlər.

Azərbaycan Prezidentinə xatirə olaraq fotoalbom hədiyyə edildi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bağdakı şəlalənin qarşısında xatirə şəkli çəkdirdilər.

Sonra Prezident İlham Əliyev həmin şəhərdə, Qara dənizin sahilində yerləşən Qızılqum istirahət zonasına gəldi. Buraya dünyanın müxtəlif ölkələrindən turistlər gəlirlər və bu da təsadüfi deyildir. Çünki bura təmiz havası olan və gözəl, səliqə-sahmanlı istirahət zonalarından biridir.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva avtomobillə bütün istirahət zonasını gəzdilər.

DÖVLƏTİMİZİN BAŞÇISININ ŞƏRƏFİNƏ

Sentyabrın 24-də Bolqarıstanın Varna şəhərində yerləşən "Evksinoqrad" iqamətgahında Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımının şərəfinə nahar verilmişdir.

BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİ

Sentyabrın 24-də Bolqarıstanın Varna şəhərində yerləşən "Riviera Biç" hotel-kompleksində "Bolqarıstan yeni açıq ölkədir" devizi altında turizm layihəsinin təqdimatı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün buraya gəldi. Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hotel-kompleksin önündə Bolqarıstanın mədəniyyət nazirinin müavini Dimitr Hacinikolov böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan və Bolqarıstan nümayəndə heyətləri üzvlərinin iştirak etdiyi mərasimi Dimitr Hacinikolov açaraq, ali qonağı və onu müşayiət edən şəxsləri salamladı, Prezident İlham Əliyevin mərasimdə iştirakını yüksək qiymətləndirdi, belə görüşün yaddaqalan olduğunu söylədi. O, slaydlar vasitəsilə öz ölkəsinin turizm sektorunun tarixi, potensialı, qazanılmış nailiyyətlər, turizm obyektlərinin fəaliyyəti və sair barədə məlumat verdi. Bildirildi ki, son bir ildə Bolqarıstana gələn turistlərin sayı 10 faiz artaraq, 4 milyonu keçmişdir və artım meyli davam edir. Qara dəniz sahilində - Varnada və digər şəhərlərdə yerləşən istirahət yerləri, tarixi muzeylər, mədəniyyət abidələri, habelə qış turizminin inkişafı istirahətə gələnlərin sayını artırmışdır. İl ərzində ölkə turizm sektorundan 2,5 milyard dollar gəlir əldə etmiş, 170 min iş yeri açılmışdır.

D.Hacinikolov Azərbaycan Prezidenti İlham Əliyevə Bolqarıstanın turizm yerlərinin fotoşəkillərindən ibarət albom, buklet bağışladı. O, dövlətimizin başçısının turizm sektorunun inkişafına böyük maraq göstərməsindən məmnunluğunu söyləyərək, Bolqarıstanın Azərbaycanla bu sahədə əməkdaşlığa hazır olduğunu, bunun üçün ilk addımın atıldığını - sazişin imzalandığını bildirdi.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Belə maraqlı təqdimata görə sağ olun. Bu, potensialınızı da, inkişafı da, imkanları da çox əyani şəkildə göstərdi. Bu dinamika ondan xəbər verir ki, turizm infrastrukturunun inkişafı istiqamətində işlər çox səmərəli gedir. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Mənim səfərim çərçivəsində çox mühüm sənədlər imzalandı və biz ümidvarıq ki, yaxın vaxtlarda ölkələrimiz arasında hava yolu açılacaq və adamlarımız arasında ünsiyyət daha canlı olacaqdır. Çünki turizm infrastrukturunu inkişaf etdirmək üçün ilk növbədə informasiya gərəkdir. İnformasiya əlyetən, geniş əhatəli olmalı və potensial turistləri başqa bir ölkəni deyil, məhz bu ölkəni seçməyə sövq etməlidir. Ona görə ki, indi dünyanın müxtəlif ölkələrində, o cümlədən də bizdə turizmin infrastrukturunun inkişafına böyük əhəmiyyət verilir. Bizdə bu, hələlik başlanğıc mərhələsindədir, hərçənd potensial böyükdür – həm dəniz sahili, həm dağ turizmi, həm də tarixi yerlər vardır. Bir sözlə, biz bu sahədə sizin təcrübənizi – son beş ildə turizmin inkişafında böyük inkişafa necə nail olduğunuzu öyrənmək istiqamətində çox fəal işləyə bilərik. Eləcə də əməli baxımdan. Yəni vətəndaşlarımız sizin ölkənizə, sizin vətəndaşlarınız isə bizim ölkəmizə istirahətə gəlsinlər. Düşünürəm ki, bu baxımdan potensial çox yaxşıdır. Mənimlə birlikdə böyük bir nümayəndə heyəti, o cümlədən turizm naziri gəlmişdir, siz onunla artıq tanışsınız. Bu sahəni inkişaf etdirməyə çalışacağıq.

Ölkənizin potensialı artır, insanların həyatı yaxşılaşır. Xaricə istirahətə gedən Azərbaycan vətəndaşlarının sayı ildən-ilə artır. Ölkəmizə gələnlərin sayı da çoxalır. Lakin müasir infrastruktur yaratmaq gərəkdir, çünki bizdə olan turizm infrastrukturu, əsasən, sovet dövründən qalmadır. O, fiziki cəhətdən də, mənəvi cəhətdən də köhnəlib, xaricdən daha çox turist qrupları cəlb etməyə imkan vermir. İndi dəniz sahilində də, dağlıq yerlərdə də çoxlu turizm kompleksi tikilir. Mən Azərbaycanın müxtəlif guşələrində olarkən bununla maraqlanıram. Çünki bu, gəlir, məşğulluq üçün daimi mənbədir. Yeri gəlmişkən, siz bunu hər cəhətdən – sosial-iqtisadi cəhətdən də, infrastruktur cəhətdən də çox səriştəli şəkildə təqdim edə bilirsiniz. Bu, işsizlik problemini həll edir.

Ölkələrimizin əhalisinin sayı təxminən cynidir. Sizdə turizm sahəsində 170 min adam işləyir. Bunlar ancaq bilavasitə bu sahədə çalışanlardır, ancaq dolayısı ilə həmin sahə

ilə bağlı olanlar da var. Bu isə çox böyük rəqəmdir. Zənnimcə, bu, çox perspektivli istiqamətdir və biz səmərəli əməkdaşlıq edəcəyimizə çox ümid bəsləyirik. Ölkənizdə Azərbaycanın səfirliyi artıq fəaliyyət göstərir. Bu da münasibətlərin inkişafı üçün mühüm amildir. Müvafiq nazirliklər, idarələr səviyyəsində birbaşa əlaqələr də var. Hökumətlərarası komissiya da mövcuddur. Bir sözlə, əməkdaşlığı inkişaf etdirəcəyik.



Azərbaycanın gənclər, idman və turizm naziri ƏBÜLFƏZ QARAYEV ölkəmizdə turizmin inkişafı ilə bağlı görüləcək tədbirlərdən danışdı, bu sahənin yüksək səviyyəyə çatdırılması üçün Azərbaycan Prezidentinin tapşırıqlarına əsasən layihələr hazırlandığını, ötən il Prezident Georgi Pırvanovun Bakıya rəsmi səfəri zamanı turizm sahəsində imzalanmış sənədin mühüm əhəmiyyəti olduğunu və icra edildiyini bildirdi. Nazir dedi ki, son illər turizm sahəsində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, respublikanın turizm imkanlarının təbliği sahəsində müəyyən işlər görülmüşdür. Hazırda Azərbaycan 14 ölkə ilə turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalamışdır.

Bildirildi ki, xarici ölkələrlə turist mübadiləsinin genişləndirilməsi, ölkəmizdə turizm şirkətlərinin və mehmanxanaların sayının artması, turizm sektorunun dünya standartları səviyyəsinə çatdırılması Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərdir. Hazırda Azərbaycanda 245 mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektləri vardır. Turistlərin sayı ildən-ilə artır və 2005-ci ilin birinci yarısında 678 minə çatmışdır. Dünya turizm təşkilatının məlumatına görə, xarici turist axını baxımından Azərbaycan MDB ölkələri arasında 4-cü yerdədir. Bolqarıstandan respublikamıza turistlərin sayı da artır.

Əbülfəz Qarayev Azərbaycanın turizmi haqqında məlumat kitablarını cənab Hacinikolova təqdim etdi.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru CAHANGİR ƏSGƏROV çıxışında dedi ki, sırf turizm səfərləri ilə yanaşı, ticarət xarakterli gəliş-gedişləri də inkişaf etdirmək lazımdır. Bolqarıstan turistlərini Çinin Urumçi şəhərinə Azərbaycandan tranzitlə daşımaq barədə təklif almışıq. Bu, Çindən Bolqarıstana istehlak malları gətirməyə imkan verəcəkdir. Konsernin baş direktoru mülki aviasiyanın və turizm nazirliyinin bütün tədbirlərdə birgə işləməsinin yaxşı nəticələr verəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyev bu məsələlərin əhəmiyyətli və faydalı olduğunu, əməkdaşlığın genişləndirilməsi üçün bütün mövcud imkanlardan səmərəli istifadə etməyin zəruriliyini vurğuladı.

Dövlətimizin başçısı Bolqarıstanda sırf turizmlə bağlı ali məktəblərin olub-olmaması və kadrların hazırlanması ilə də maraqlandı.

Bildirildi ki, Sofiyada turizm üzrə ali təhsil ocaqları və peşə məktəbləri fəaliyyət göstərir, bu sahədə çalışanlar vaxtaşırı ixtisasartırma kurslarına göndərilirlər.

Sonra Bolqarıstanın turizm sektorunda çalışan biznesmenlər Azərbaycan Prezidentinə təqdim olundular. Sahibkarlar Azərbaycanla əməkdaşlığın faydalı olacağını vurğuladılar, bu istiqamətdə onların üzərinə düşən vəzifələri icra etməyə hazır olduqlarını bildirdilər.

Dövlətimizin başçısına mərasimdən xatirə olaraq hədiyyə təqdim edildi.

PREZİDENT İLHAM ƏLİYEV BOLQARISTAN MİLLİ RADİOSUNA MÜSAHİBƏ VERMİŞDİR

Təqdimat mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstan milli radiosunun müxbirinə qısa müsahibə verdi.

- Bu gün Bolqarıstan turizminin təqdimatı oldu. Siz ölkəmizin turizm infrastrukturunu necə qiymətləndirirsiniz?

- Bu gün burada gözəl təqdimat oldu. Biz sizin ölkənizdə turizmin potensialı və inkişafı barədə məlumat aldıq, perspektivlərdən ətraflı danışdıq. Ölkələrimiz arasında çox yaxşı siyasi və iqtisadi münasibətlər var. Səfirliklər artıq işləyir, tezliklə hava xətti açılacaqdır. Ona görə də ölkələrimizdən gedən və ölkələrimizə gələn turistlərin sayı artacaqdır.

- Bəs Azərbaycan turistlərini Bolqarıstanda nələr cəlb edəcəkdir?

- Bütün turistlər üçün nələr maraqlıdırsa, onlar bizim turistlər üçün də maraqlıdır. Məlum olduğu kimi, burada yaxşı iqlim, dəniz sahili var, şərait yaxşıdır. Dil problemi yoxdur, hamı bir-birini başa düşür.

- Varnaya uçuşlar həyata keçiriləcəkmi?

- Bunu aviasiya şirkətləri həll etməlidir. Aviasiya şirkətləri arasında sənəd imzalandı. Yaxın vaxtlarda onlar ölkələrimiz arasında aviasiya marşrutları yaradılması üçün əməli tədbirləri müzakirə edəcəklər.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 24-də Bolqarıstan Respublikasına ikigünlük rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, KOSMONAVT ALEKSEY LEONOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında MDB-yə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının baş hakimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, kosmonavt Aleksey Leonovu qəbul etmişdir.

Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının Azərbaycanda keçirilməsinin əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyev ilə Aleksey Leonov arasında 1975-ci ilin oktyabrında keçirilmiş görüşdə iştirakını məmnunluqla xatırladı.

Aleksey Leonov Azərbaycana gəlməyindən böyük məmnunluq duyduğunu bildirdi, 1975-ci ildə ümummilli lider Heydər Əliyev ilə keçirdiyi görüşün indiyədək təsiri altında olduğunu söylədi. Çox böyük dahi şəxsiyyət olan Heydər Əliyev ilə görüşlərini həmişə məmnunluqla xatırladığını bildirən kosmonavt dedi ki, Heydər Əliyev keçmiş Sovetlər İttifaqında çox yüksək vəzifə tutmasına baxmayaraq, adi insanların həyatı ilə daim maraqlanırdı, onların irili-xırdalı bütün problemlərinin dərhal həll edilməsi barədə göstərişlər verirdi və buna şəxsən nəzarət edirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Bakıda keçirilən "Yeni təhlükəsizlik şəraitində qadınların rolu: Gender amilinin strateji əhəmiyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

İLHAM ƏLİYEV qonaqları səmimiyyətlə qarşılayaraq dedi:

- Mən sizi Azərbaycanda salamlamaq istəyirəm və çox şadam ki, bu cür vacib beynəlxalq konfrans ölkəmizdə keçirilir. Fikrimcə, həmin tədbirin Azərbaycanda keçirilməsi çox əhəmiyyətlidir. Çünki konfrans çərçivəsində çox vacib mühüm məsələlər müzakirə edilmişdir. Xüsusən də nəzərə alsaq ki, bizim regionda, Cənubi Qafqaz regionunda münaqişələr mövcuddur, problemlər hələ də qalmaqdadır. Ölkələr arasında sülh və sabitliyin bərqərar olunmasında qadınların rolunun böyük əhəmiyyəti vardır. Azərbaycan yeni müstəqil ölkədir. Ölkəmiz problemlərdən, münaqişədən və vətəndaş müharibəsindən əziyyət çəkmişdir. Biz torpaqlarımızın işğalından bu gün də əziyyət çəkməkdəyik. İşğal nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Əlbəttə ki, bu, ölkəmiz, xalqımız və xüsusən də, ailələr üçün fəlakət idi.

Qadınlar uşaqların təhsil almasında, ailənin rifahında çox mühüm rol oynayırlar. Beləliklə, onlar həm də ailə məsələləri baxımından böyük əziyyət çəkmişlər. Mən bilirəm ki, siz bu məsələləri müzakirə edəcəksiniz, qaçqın-köçkünlərlə görüşləriniz olacaqdır. Bu, ən böyük problemlərdən biridir. Əfsuslar olsun ki, Qafqazda hələ də sülh bərqərar olunmayıbdır.

Qadınların ölkələr və xalqlar arasında əlaqələrin qurulmasında oynadığı rol çox mühümdür. Azərbaycanda biz gender məsələsinə çox böyük diqqət yetiririk və qadınların parlamentimizdə, digər təşkilatlarda təmsil olunması səviyyəsi kifayət qədər yüksəkdir. Qadınlar eyni zamanda çox fəaldır. Bu amil ölkəmizin normal demokratik inkişafının təzahürüdür. Fikrimcə, bu tədbir məsələləri birgə müzakirə etmək, Azərbaycanla tanış olmaq, habelə daha fəal münasibətlərin qurulması üçün önəmli bir fürsətdir.

Mən bilirəm ki, sizlərdən bir çoxu Azərbaycana ilk dəfədir səfər edir. Bir sözlə, inkişaf edən ölkə kimi Azərbaycanı görmək, problemlərimiz və uğurlarımızla tanış olmaqdan ötrü yaxşı bir imkandır.

Münaqişə faktına baxmayaraq, ölkəmizin iqtisadi və sosial inkişafı çox müsbətdir. Hazırda ölkəmizdə olduqca böyük iqtisadi artım müşahidə edilməkdədir. Beynəlxalq Valyuta Fondunun verdiyi məlumata görə, Azərbaycan 2005-ci ildə dünyada ən böyük iqtisadi artım göstəricisinə nail olacaqdır. Bu nailiyyət iqtisadi islahatlar siyasətimiz, transmilli layihələr sayəsində mümkün olmuşdur. Azərbaycana qoyulmuş çoxmilyardlı sərmayələr ölkəmizi belə sürətlə inkişaf etdirməyə əsas yaratmışdır.

Lakin eyni zamanda, problemlər də var. İlk növbədə, işsizlik və yoxsulluq problemi mövcuddur. Biz müxtəlif beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı ilə yoxsulluğun azaldılması proqramı çərçivəsində çox fəal işləyirik. İlyarım ərzində yoxsulluq şəraitində yaşayan insanların sayı 10 faiz azalmışdır. Bundan başqa, son iki il ərzində Azərbaycanda 300 min iş yeri yaradılmışdır. Bunlar əsasən qeyri-neft sektorunda, rayonlarda açılmışdır. Mən tez-tez rayonlara səfər edir və bir daha şahidi oluram ki, bu iş yerlərinin əksər hissəsi qadınlar tərəfindən tutulmuşdur. Bu, Azərbaycanın yürütdüyü Avropaya inteqrasiya siyasəti baxımından çox vacibdir.

Səhiyyə və təhsil sahələrinə gəldikdə deyə bilərik ki, burada çalışan işçilərin əsas hissəsini qadınlar təşkil edir. Hazırda biz bu sahələrdə böyük proqramları həyata keçirməkdəyik. Bu yaxınlarda biz yüzlərlə yeni xəstəxana və məktəb tikməyi planlaşdırırıq və insanların gündəlik həyatını daha da yaxşılaşdırmaq əzmindəyik. Problemlərimiz haqqında danışmaqla sizin vaxtınızı çox almaq istəməzdim. Mən çox danışa bilərdim, lakin bir daha sizi salamlayır və deyirəm ki, bu konfransın keçirilməsindən razıyam və otağımda belə çox sayda gözəl qadınları görməkdən də çox məmnunam. Zənnimcə, bu, mənim həyatımda yeganə belə bir fürsətdir.

NATO-nun ictimai diplomatiya sektorunun rəhbəri NİLHUS QİRLEND onları qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Konfransın Azərbaycanda keçirilməsi ilə bağlı dövlətimizin başçısının söylədiyi fikirlərlə tam razılaşdığını söyləyərək vurğuladı ki, Azərbaycanla NATO arasında olan münasibətlər nəinki siyasi və hərbi sahələrdə, həm də elm, ətraf mühit, gender məsələsi və ictimai diplomatiya sahəsində də inkişaf etməkdədir.

Almaniya Bundestaqının deputatı, Almaniya-Qafqaz parlament dostluq qrupunun üzvü BARBEL KOFFLER bir yerdə görüşmək və vacib məsələləri müzakirə etmək üçün onlara yaradılmış imkana görə Prezidentə təşəkkür etdi. O dedi ki, cənab Prezident, bu gün biz sülhün və sabitliyin bərqərar olunmasında və təhlükəsizliyin möhkəmləndirilməsində qadınların oynadığı mühüm rolu nəzərdən keçirdik. Bizə yaradılmış şəraitə və göstərilmiş qonaqpərvərliyə görə Sizə minnətdarıq.

Prezident İLHAM ƏLİYEV xoş sözlərə görə minnətdarlığını bildirərək dedi ki, mən bu konfransda müxtəlif təşkilatların təmsilçilərinin iştirak etməsindən məmnun olduğumu bir daha vurğulamaq istərdim. Azərbaycan bir çox beynəlxalq təşkilatlarla - Avropa İttifaqı, Avropa Şurası, NATO və ölkəmizdə fəaliyyət göstərən müxtəlif qeyri-hökumət təşkilatları ilə fəal əməkdaşlıq aparır. Bir çox illər ərzində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmişdir və indi "Fərdi tərəfdaşlığın fəaliyyət planı"na doğru addımlar atmağa başlamışdır. Cari ilin aprel ayında mən NATO-nun qərargahında oldum və "Fərdi tərəfdaşlığın fəaliyyət planı" ilə bağlı sənədləri NATO-ya təqdim etdim. Bu sahədəki işlər hazırda uğurla aparılır. Bu əməkdaşlıq bizim üçün çox vacibdir. Çünki bu istiqamətdə təşkil olunan və Azərbaycan hərbçilərinin də iştirak etdikləri bir çox treninq və təlimlər infrastrukturun möhkəmlənməsinə xidmət edir.

Bildiyiniz kimi, Azərbaycan əsgərləri Kosovo, Əfqanıstan və İraqdakı müxtəlif sülhyaratma əməliyyatlarında iştirak edirlər. Beynəlxalq koalisiyanın üzvü olaraq onlar həmin bölgələrdə sülh və sabitlik yaradılmasına öz töhfəsini verirlər.

Bir sözlə, bu konfrans hər baxımdan önəmli bir tədbirdir. İlk növbədə burada bir çox ölkələrin və təşkilatların nümayəndələrini görürük. Bu, yerli həmkarlarla əlaqələrin qurulması üçün imkanlar yaradır. Tədbir hamımız üçün vacibdir.

Azərbaycan gənc, müstəqil dövlətdir. Baxmayaraq ki, Azərbaycanın çox zəngin tarixi

və adət-ənənələri var, beynəlxalq birliyin üzvü kimi, ölkəmiz on ildən bir az çox müddətdir formalaşmağa başlamışdır. Bu səbəbdən Azərbaycan haqqında məlumatı olanların sayı da çox deyildir. Oxumaq və ya eşitmək bir şey, gəlib görmək başqa məsələdir. Bizim müasirləşmə planlarımız var. Azərbaycan cəmiyyəti tolerantdır, çoxmillətli ölkədir. Burada bütün millətlərin və dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycan milli və dini dözümlülük baxımından region üçün yaxşı nümunə ola bilər. Ölkəmizdə sabitlik, əmin-amanlıq və iqtisadi yüksəliş var. Sosial məsələlər həll olunmaqdadır. Son ilyarım ərzində minimum əməkhaqqı üç dəfə artırılmışdır və bu proses davam edir. Ona görə də biz hər sahədə çox güclü irəliləyişə nail olmuşuq və beynəlxalq təşkilatlarla, qeyri-hökumət və hökumət təşkilatları ilə daha geniş əməkdaşlıq etmək arzusundayıq. Buna böyük ehtiyac var. Çünki biz regional layihələrdə yaxından iştirak edirik və bütün layihələrdə qadınların rolu çox vacibdir. Bəzi hallarda hətta həlledicidir. Biz həyatımızı qadınlarsız təsəvvür edə bilmərik. Bir daha sizi salamlayır, uğurlar arzulamaq istəyir, ölkəmizdə yaxşı günlər keçirməyi diləyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYANIN "YULESRADİO" DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Finlandiyanın "Yulesradio" Dövlət Teleradio Şirkətinin müxbirlərinə müsahibə vermişdir.

Sual: Cənab Prezident, Sizcə Finlandiya-Azərbaycan biznes forumu ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə necə təsir göstərəcəkdir?

Cavab: Düşünürəm ki, bu, ölkələrimizin iqtisadi münasibətlərində mühüm hadisə olacaqdır. Təəssüf ki, bizim iqtisadi əlaqələrimiz hələlik o qədər də fəal inkişaf etmir, halbuki yaxşı imkanlar, yaxşı potensial var. Ölkəmiz iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Bu il iqtisadiyyatda artım 20 faizdən çox olacaqdır. Gələcəkdə bu sürət artacaqdır. İqtisadiyyatın yeni istiqamətləri, yeni sektorları yaranır. Son ilyarımda ölkəmizdə 300 min iş yeri yaradılmışdır. Ona görə də güclü iqtisadi ölkə kimi Azərbaycanın potensialı artacaqdır. Ölkələrimiz arasında çox möhkəm iqtisadi əlaqələrin yaranması üçün biz bu imkanlardan istifadə etmək istərdik. Finlandiya Prezidentinin ölkəmizə səfəri çərçivəsində keçirəcəyimiz biznes forumu, zənnimcə, ilk belə addım olacaqdır. İqtisadi əməkdaşlığa əməli surətdə başlamaqdan ötrü dövlət strukturlarının və özəl biznesin bir-birini tanıması, imkanları və potensialı öyrənməsi üçün yaxşı fürsət olacaqdır.

Sual: Noyabrda sizdə parlamentə seçkilər keçiriləcəkdir. Siz seçkilərədək müxalifətdən nə kimi hərəkətlər gözləyirsiniz?

Cavab: Seçkilər ölkənin həyatında mühüm məqamdır. Düşünürəm ki, parlament seçkiləri çox uğurlu keçəcəkdir. Artıq iki aydır kampaniya başlayıb, proses çox müsbət gedir. Namizədlərin qeydiyyatı göstərdi ki, seçkilərə çox böyük maraq var. 2 mindən çox adam namizəd kimi qeydə alınıb, parlamentdə isə cəmi 125 yer var. Bu, onu göstərir ki, insanlar seçkilərin demokratik, ədalətli və şəffaf keçəcəyinə inanırlar. Beş il əvvəl parlament seçkilərində 400 namizəd vardı, indi isə onlar iki min nəfərdən çoxdur. Qeydiyyat prosesi çox uğurla keçdi və heç bir irad doğurmadı. Seçkiqabağı kampaniya prosesi də çox müsbət gedir, bütün kütləvi informasiya vasitələrində namizədlərin hamısına bərabər vaxt verilmişdir. Siyasi baxışlarından və platformasından, ümumiyyətlə, öz şəxsi potensialından asılı olmayaraq, deputatlığa hər bir namizəd həm pulsuz efirdə, həm də ödənişli efirdə bərabər imkanlara malikdir. Bir sözlə, əminəm ki, kampaniyanın ikinci mərhələsi də çox uğurlu keçəcəkdir.

O, artıq başlanmışdır. Ölkənin rayonlarında da təşviqat aparılır, bütün rayonlarda seçicilərlə binalarda, açıq meydanlarda görüşlər keçirmək üçün yerlər müəyyən edilmişdir. Problem yoxdur.

Bu başqa məsələdir ki, Azərbaycanda bəzi qüvvələr seçkilərdən vəziyyətin sabitliyini pozmaq üçün istifadə etmək istəyirlər. Bax, bu, çox həyəcan doğuran haldır və burada heç də hər şey hakim partiyadan və ya iqtidardan asılı deyildir. Biz bəzi radikal qüvvələrin bilərəkdən fitnəkarlığa, toqquşmalara getməyəcəklərinə təminat verə bilmərik. Buna qarşı qoya biləcəyimiz bir şey varsa, o da cəmiyyətin belə hallara çox mənfi münasibət göstərməsidir, habelə qanunsuz əməllərin qarşısını almaq üçün malik olduğumuz imkanlardır.

Azərbaycanda seçkiqabağı kampaniya aparmaq, öz deputatını və özünü təşviq etmək üçün hər cür şərait yaradılmışdır. Odur ki, şüurlu surətdə fitnələr törətməkdən məqsəd, əlbəttə, ölkədə ajiotaj yaratmaq və bununla da özlərinin hansısa niyyətlərinə nail olmağa çalışmaqdır. Ədalətli mübarizədə, açıq mübarizədə gərək çalışasan ki, insanlar sənə inansın və səs versinlər, bunu toqquşmalar yolu ilə etmək lazım deyildir.

Sual: Eşitmişik ki, burada hansısa xırda toqquşmalar, qanunsuz mitinqlər olmuşdur və burada da Ukraynadakı kimi inqilab etmək istəyən qüvvələr var. Onlar bunu geniş miqyasda etməyə hazırlaşırlar, yoxsa bu, yalnız kiçik bir qrupdur?

Cavab: Bu, siyasi uğursuzların kiçik bir qrupudur. Onlar 1992-1993-cü illərdə Azərbaycana başçılıq etmiş, hakimiyyətdə olmuş və ölkəni dağıtmış insanlardır. Buna görə də onların hakimiyyəti cəmi bir il çəkdi. Bir ildən sonra insanlar dözmədi və onlar hakimiyyətdən uzaqlaşdırıldı. Artıq 12 ildir onlar müxalifətdədir və hakimiyyətə gəlməyə can atırlar, lakin cəhdləri uğursuzluqla nəticələnir. Onlar 1993-cü ildən 2003-cü ilədək keçirilmiş bütün parlament və prezident seçkilərini uduzmuşlar. Biz ölkədəki vəziyyəti və imkanları real surətdə qiymətləndiririk. Aparılmış ictimai rəy sorğuları, o cümlədən mötəbər beynəlxalq təşkilatların keçirdikləri sorğular göstərir ki, Prezidentin və bizim hakim partiyanın dəstəklənməsinin səviyyəsi yüksəkdir. Ona görə də biz Gürcüstanda və Ukraynada baş verənlərin burada da olacağını gözləmirik. Bir də ona görə ki, ölkəmizdə sosial məsələlər uğurla həll edilir - son iki ildə bizdə əmək haqqı bir neçə dəfə qaldırılmışdır, pensiyalar artırılır, büdcə 2004-cü ildən 2006-cı ilədək 2,5 dəfə artmışdır. Bu il əhalinin real gəlirləri 25 faiz, banklardakı əmanətləri 50 faiz artmışdır. Hər yerdə tikinti gedir, inkişaf var.

Dediyim kimi, son ilyarımda 300 min iş yeri yaradılmışdır. Bu, 8 milyon nəfər əhalisi olan ölkə üçün rekord rəqəmdir. Ona görə də belə şəraitdə müxalifətin iqtidar üçün problemlər yaratmağa böyük imkanları yoxdur. Onlar nə edə bilərlər - onlar qadağan olunmuş yerlərdə qanunsuz mitinq keçirə və bununla da hüquq mühafizə orqanlarını cavab hərəkətlərinə sövq edə bilərlər.

Azərbaycanda bütün seçkiqabağı kampaniyalarda - prezident seçkilərində də, parlament seçkilərində də - mitinqlər keçirilən bir neçə yer olmuşdur. Bunlar şəhərin iri meydanlarıdır. Mən də orada seçkiqabağı mitinqlər - həm parlament, həm prezident seçkiləri zamanı, həm də başqa vaxtlarda mitinqlər keçirmişəm. 1998-ci ildə də, 2000-ci ildə də, 2003-cü ildə də belə olmuşdur. Bu dəfə də belə olmuşdur - elə həmin meydanda biz öz mitinqimizi, müxalifət öz mitinqini keçirdi və bu, normal, qanuni idi, meriya da icazə vermişdi. İndi, müxalifət görəndə ki, heç bir problem yoxdur və onların mitinqlərinə getdikcə daha çox az adam gəlir, onlar şəhərin mərkəzində meydan tələb edirlər. Halbuki, bu meydan sahəsinə görə onların mitinqlər keçirdiyi meydandan beş dəfə kiçikdir. Nə üçün bunu edirlər? Onlar başa düşürlər ki, Bakı şəhərinin hakimiyyət orqanları buna icazə verməyəcək, çünki orada hərəkət intensivdir, adamların çox olduğu yerdir, orada çoxlu yaşayış evləri, mağazalar var. Orada mitinqlər keçirmək mümkün deyildir. Onlar başa düşürlər ki, hakimiyyət icazə verəməyəcək, deməli, bu halda onlar mitinqi qanunsuz keçirəcəklər, hakimiyyət də bunun qarşısını alacaqdır. Bundan sonra onlar deyəcəklər ki, baxın, Azərbaycanda demokratiyanı boğurlar. Demək istəyirəm ki, bu, sırf fitnəkarlıqdır və biz ondan sığorta olunmamışıq.

Düşünürəm ki, buna çox mənfi yanaşan ölkə ictimaiyyəti, habelə Azərbaycanda artıq çox olan beynəlxalq müşahidəçilər bunu görürlər və adekvat qiymətləndirməlidirlər.

Sual: Necə bilirsiniz, başqa ölkədən yardım alan qruplar varmı?

Cavab: Bu barədə danışmaq mənim üçün çətindir. Əlbəttə, bizdə müəyyən informasiya var, bu informasiya çox geniş, müxtəlif səpkilidir və müxtəlif mənbələrdəndir. Əlbəttə, belə halların olduğu barədə də siqnallar və informasiya var. Lakin mənim bununla məşğul olmaq üçün hələlik real arzum yoxdur. Heç nəyə, heç bir maliyyə yardımına baxmayaraq. Müxtəlif ölkələrdə elə qüvvələr var ki, onlar Azərbaycanın normal inkişaf etməsini, iqtisadi potensialının möhkəmlənməsini, Avropa strukturlarına inteqrasiya etməsini, müasir, demokratik dövlət olmasını istəmirlər. Bu qüvvələr Azərbaycanda sabitliyi pozmaq, Azərbaycanda yenidən qarmaqarışıqlığın, anarxiya və hərki-hərkiliyin hökm sürməsi üçün hər şey etməyə hazırdırlar. Mən buna yol verə bilmərəm. Mən təhlükəsizliyin, Konstitusiyanın təminatçısıyam. Mən xalq tərəfindən seçilmiş Prezidentəm. Ona görə də Azərbaycanda sabitliyin, qayda-qanunun və normal demokratik prosesin davam etməsi üçün hər şeyi edəcəyəm. Maliyyə cəhətdən vəziyyəti sarsıtmaq üçün göstərilən bütün cəhdlər isə əbəsdir. Azərbaycanda nə isə planlaşdıranlar başa düşməlidirlər ki, buna yol verməyəcəyik, biz normal siyasi prosesin tərəfdarıyıq və həyatımıza müdaxilə olunması ilə bağlı bütün məsələləri çox dəqiq şəkildə izləyirik.

Sual: ATƏT Cənubi Qafqazda sabitliyin təmin olunmasında necə iştirak edə bilərdi?

Cavab: Cənubi Qafqazda qeyri-sabitliyin başlıca ocağı Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzüdür. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi erməni işğalı altındadır, etnik təmizləmə siyasəti aparılmış və 1 milyon azərbaycanlı öz torpağında qaçqın-köçkünə çevrilmişdir. Bu fakt BMT tərəfindən tanınmışdır. BMT dörd qətnamə qəbul edərək, erməni qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bu faktı cari ilin yanvarında qətnamə qəbul etmiş Avropa Şurası tanımışdır. Qətnamədə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, etnik təmizləmə siyasəti aparmış, ərazimizi işğal etmişdir və bir milyon insan evsiz-eşiksiz qalmışdır.

Bu yaxınlarda ATƏT buraya faktaraşdırıcı qrup göndərmişdi. Bu qrup Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin kütləvi surətdə qanunsuz məskunlaşdırıldığını - minlərlə adamın qanunsuz olaraq məskunlaşdırıldığını aşkara çıxarmışdır. Bunun aşkar edilməsi müsbət faktdır. ATƏT münaqişənin həllində Ermənistanla Azərbaycan arasında vasitəçilik edən təşkilatdır. Ona görə də bu məsələdə ATƏT-in rolu həlledicidir, bu təşkilatdan çox şey asılıdır. Münaqişənin nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən də çox şey asılıdır. Ümidvarıq ki, ATƏT və digər beynəlxalq təşkilatlar Ermənistanın ərazimizi 10 ildən çoxdur işğal altında saxlamasına və bunun cəzasız qalmasına çox sərt reaksiya verəcəklər. Təcavüzkara qarşı çox sərt sanksiyalar tətbiq olunmalıdır. Biz bu gün, XXI əsrdə mağara dövrünün - bir ölkənin digər ölkəyə qarşı təcavüzünün və onu işğal etməsinin cəzasız qaldığı dövrün ideologiyası ilə yaşaya bilmərik. Biz məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll etmək istəyirik. Lakin bunun mümkün olmadığını gördükdə, bizim başqa seçimimiz qalmır. Ona görə də Azərbaycanda hərbi xərclər artır, gələn il biz müdafiə xərclərini iki dəfə artıracağıq və bu, böyük məbləğ olacaqdır. Gələcəkdə isə müdafiə xərclərimiz Ermənistanın bütün büdcəsi qədər olacaqdır. Yəni, bizi belə tədbirlərə əl atmağa məcbur etmək lazım deyildir. Biz bunu istəmirik, biz Qafqazda sülh olmasını istəyirik, ölkəni həm iqtisadi, həm də siyasi cəhətdən normal inkişaf etdirmək istəyirik. Lakin biz işğalla razılaşa bilmərik. Ona görə də bu münaqişənin həllində başlıca rol ATƏT-ə və onun həmsədrlərinə məxsusdur. Zənnimcə, onlar bu məsələyə ədalətlə yanaşmalı və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər.

Sual: İndi Siz Ermənistanla razılığa gəlməyə imkanlar olduğunu görürsünüzmü?

Cavab: Əlbəttə, imkanlar var və onlardan istifadə etmək çox asandır. Sadəcə olaraq, səy göstərmək və yalnız beynəlxalq hüquqa əsaslanmaq lazımdır. Hər bir ölkənin ərazi bütövlüyü beynəlxalq hüququn ayrılmaz tərkib elementidir. Biz tələb edirik ki, beynəlxalq hüquq normalarına riayət edilsin, Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxsın, vətəndaşlarımız öz evlərinə, öz torpağına qayıtsınlar, Dağlıq Qarabağda yaşayan ermənilərə mövcud olan ən yüksək muxtariyyət verilsin. Bilirik ki, Avropada muxtariyyətin çox müsbət təcrübəsi var, müxtəlif ölkələrdə milli muxtariyyətlər, milli azlıqlar var və onlar normal surətdə yaşayırlar. Burada heç bir ixtira, kəşf yoxdur. Biz bu məsələdə dünyanın, Avropanın müsbət təcrübəsini əxz etməliyik. Amma Ermənistan deyəndə ki, Dağlıq Qarabağ ermənləri öz müqəddəratını təyin etməlidirlər, bu, dünya ictimaiyyətinin şüurlu surətdə aldadılması deməkdir. Çünki ermənilər bir millət kimi öz müqəddəratını təyin etmişlər - onların Ermənistan dövləti var. Onlar yaşadıqları hər yerdə öz müqəddəratını təyin etsələr, təsəvvür edin ki, nələr baş verər. Ermənilər isə Fransada, Amerikada, Rusiyada, Gürcüstanda - hər yerdə yaşayırlar. Yəni, onların yaşadıqları hər bir ölkədə erməni dövləti olmalıdır? Bu cəfəngiyyatdır. Ona görə də bu məsələnin normal, sivilizasiyalı həlli üçün, dünyada sivilizasiyalı davranış üçün Ermənistan başa düşməlidir ki, bu gün XXI əsrin məsələlərini mağara dövrünün idcologiyası ilə həll etmək olmaz. Onların mövqeyinin gələcəyi yoxdur. Çünki beynəlxalq hüquq bizim tərəfimizdədir, siyasi proseslər bizim tərəfimizdədir, iqtisadi potensial da bizim tərəfimizdədir və biz öz məqsədimizə nail olacağıq. Ona görə də məsələnin həlli çox sadədir - Ermənistan rəhbərliyi özündə təpər tapmalı və işğal edilmiş ərazilərdən çıxmalı, yaşayış üçün, o cümlədən də öz xalqı üçün normal şərait yaratmalıdır. Onda kommunikasiyalar, sərhədlər də açılacaq, yüklər ölkələrimizin əraziləri ilə daşınmağa başlayacaq və

normal proses gedəcəkdir. Bu, çox asandır, amma hələlik qeyri-mümkün görünür. Lakin ümidvaram ki, biz bunun baş verəcəyi günü tezliklə görəcəyik.

Sual: Azərbaycan ilə ABŞ arasında əməkdaşlığa dair planlar varmı?

Cavab: Bizim əməkdaşlığımız olduqca çoxşaxəlidir. Biz energetika sahəsində fəal əməkdaşlıq edirik və ABŞ hökumətinin dəstəyi ilə dünyada ən iri enerji layihəsini həyata keçiririk. İndi bu layihə Azərbaycanda gerçəkləşdirilir. Biz regionda təhlükəsizliyin təmin olunması məsələlərində, habelə, antiterror koalisiyasında fəal əməkdaşlıq edirik. Əməkdaşlığımızın daha bir istiqaməti ölkədə və regionda gedən siyasi prosesləri təkmilləşdirməkdən ibarətdir. Bütün istiqamətlərdə əməkdaşlığımız çox fəaldır və onun artıq böyük tarixi var. Azərbaycanın müstəqilliyə qovuşduğu vaxtdan, təxminən 1993-1994-cü illərdən əməkdaşlıq çox dinamik gedir. Biz bu səviyyədən çox məmnunuq.

Sual: Siz hərbi bazalar haqqında danışıqlar aparırsınızmı?

Cavab: Yox, yox. Belə danışıqlar, planlar yoxdur. Mən bu mövzuda dəfələrlə danışmışam. Bunu Amerikanın rəsmi şəxsləri də demişlər. Belə planlar yoxdur. Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici baza yoxdur. Ermənistanda Rusiyanın hərbi bazası var, Ermənistanın sərhədini Rusiyanın sərhəd qoşunları qoruyurlar. Gürcüstanda da Rusiyanın bazası var. Lakin bu baza Gürcüstandan çıxarılır, Ermənistanda isə möhkəmləndirilir. Azərbaycanda heç bir baza yoxdur və biz bunun mümkünlüyünü nəzərdən keçirmirik. Bu, danışıqlar mövzusu deyildir. Bizim bütün ölkələrlə çox yaxşı münasibətlərimiz var.

Sual: Deyirlər ki, korrupsiya ölkənizdə çox böyük problemdir. Siz bu təzahürlə necə mübarizə aparmaq fikrindəsiniz?

Cavab: Korrupsiya böyük bəladır, keçmiş Sovet İttifaqının bütün respublikalarını bürümüşdür. Nəzər salsaq görərik ki, bu ölkələrin hamısında həmin problem çox aktualdır. Bunu yaşadığımız sistem - sosializm sistemi və planlı iqtisadiyyat sistemi, daim qıtlıq və bürokratiyanın olduğu sistem doğurmuşdur. Müstəqilliyin əldə edildiyi dövr Azərbaycanda böyük sarsıntılarla bağlı olmuşdur - işğal da, çox böyük sayda qaçqınlar-köçkünlər də, vətəndaş müharibəsi də, yoxsulluq da olmuşdur. Bütün bu amillər korrupsiya ilə mübarizənin daha səmərəli olmasına imkan verməmişdir. Çünki əhalinin əksər hissəsinin yoxsulluq içində yaşadığı, əmək haqqının çox az olduğu vaxtda korrupsiya ilə mübarizə aparmaq son dərəcə çətindir. Hər şey dövlət mülkiyyətində olduğu vaxtda da çətindir.

Ona görə də atdığımız ciddi əməli addımlarla yanaşı, - məsələn, Azərbaycanda korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə üzrə xüsusi idarə yaradılmış və o, bir çox korrupsiyaçıları üzə çıxarmış və onlar məsuliyyətə cəlb edilmiş və artıq həbsdədirlər, - iqtisadi islahatlar, özəlləşdirmə, özəl sektorun möhkəmlənməsi prosesi də əhəmiyyətlidir. O mənada ki, iqtisadiyyat məmurlardan, bürokratlardan asılı olmasın. Biz yalnız bu yolla səmərəli mübarizə apara bilərik. Çünki bir məmurun başqa bir məmurla əvəz edilməsindən heç nə çıxmaz. Bəlkə də müvəqqəti səmərə olar, lakin uzunmüddətli səmərə olmayacaqdır. Korrupsiyanın başlıca səbəbi bizim keçmişimizlə, totalitar sistemlə, əhalinin həyat səviyyəsinin aşağı olması, çox bö-

yük sayda insanların yoxsulluq içində yaşaması ilə, habelə dövlət orqanlarının iqtisadiyyata təsiri ilə bağlıdır. Ona görə də biz müxtəlif istiqamətlərdə iş aparırıq.

Azərbaycanda özəlləşdirmə prosesi çox fəal gedir. Bizdə ümumi daxili məhsulun təxminən 75 faizi özəl sektorda istehsal edilir. Özəl sektorda korrupsiya yoxdur. Özəl müəssisədə korrupsiya yoxdur, aldatma yoxdur, oğurluq yoxdur, çünki o, şəxsi mülkiyyətdir. Biz daha tam özəlləşdirmə, dövlətsizləşdirmə və güclü orta sinif yaratmaq prosesinə nail olduqdan sonra korrupsiya, əlbəttə, kəskin surətdə azalacaqdır. Lakin, digər tərəfdən, heç kim - dünyanın heç bir ölkəsi korrupsiyaya tam qalib gələ bilməmişdir. Bəzi ölkələr daha böyük, bəzi ölkələr isə daha az müvəffəqiyyətə nail olmuşlar. Lakin korrupsiya elə bir xəstəlikdir ki, o, bütün cəmiyyətlərə hətta ən inkişaf etmiş və ən demokratik cəmiyyətlərə də yoluxur.

Sual: Daha bir sual. Azərbaycanı Finlandiyanın hansısa xüsusi texnologiyaları, məhsulları maraqlandırırmı?

Cavab: Bunu demək mənim üçün çətindir, çünki bunu biznes dairələri yəqin ki, daha yaxşı bilir. Azərbaycanın dünya iqtisadiyyatının bir hissəsinə çevrildiyi, öz qapılarını sərmayələr və texnologiyalar üçün açdığı indiki vaxtda, əlbəttə ki, müxtəlif ölkələrin texnologiyaları və məhsulları üçün də qapılarını açmışdır.

Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan regionda birinci yeri tutur - son 10 ildə Azərbaycana 25 milyard dollar sərmayə qoyulmuşdur. Adambaşına götürdükdə, bu, ən yüksək göstəricidir. Bizdə çox yaxşı sərmayə mühiti var, xarici sərmayələr qanunla çox güclü şəkildə qorunur. Ona görə də indiki halda Finlandiyadan sərmayə, yeni texnologiyalar cəlb edilməsi qarşılıqlı surətdə faydalı olardı. İqtisadiyyatın məhz hansı istiqamətində daha çox maraqlı olduğumuzu söyləmək indi mənim üçün çətindir. Düşünürəm ki, biznes forumu çərçivəsində bu barədə daha çox məlumat əldə edəcəyik.

Müxbir: Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏRHƏD XİDMƏTİ RƏHBƏRLƏRİNİN III İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında GUAM-ın üzvü olan ölkələrin sərhəd xidməti rəhbərlərinin III iclasının iştirakçılarını - Ukrayna Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Nikolay Litvini, Moldova Sərhəd Xidmətinin baş direktoru, briqada generalı İqor Kolenovu, Gürcüstan Daxili İşlər Nazirliyinin Dövlət Sərhədinin Mühafizəsi Departamentinin sədri, ədliyyə general-leytenantı Badri Bitsadzeni qəbul etmişdir.

GUAM çərçivəsində belə bir görüşün Azərbaycanda ilk dəfə keçirildiyini vurğulayan dövlətimizin başçısı bunun çox əhəmiyyətli olduğunu bildirdi. GUAM-ın əhəmiyyətinin getdikcə artdığını qeyd edən Prezident İlham Əliyev son dövrdə bu təşkilatın fəaliyyətinin nəzərəçarpacaq dərəcədə genişləndiyini vurğuladı.

GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyov Sammitini məmnunluqla

xatırlayan Prezident İlham Əliyev dedi ki, orada keçirilmiş ikitərəfli və çoxtərəfli görüşlər bu təşkilatın nüfuzunun artmasının yaxşı göstəricisidir. GUAM-ın beynəlxalq təşkilat kimi formalaşması işi də sürətlə gedir.

GUAM ölkələrinin heç də bütün strukturlarının fəal qarşılıqlı əməkdaşlıq etmədiyini vurğulayan dövlətimizin başçısı bu baxımdan sərhəd xidmətləri arasındakı əlaqələrin əhəmiyyətli olduğunu qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra sərhəd infrastrukturunun yaradılması zərurəti ortaya çıxmış, bu istiqamətdə çox böyük işlər görülmüşdür.

Dövlətimizin başçısı Azərbaycan, Gürcüstan və Moldovanın təcavüzkar separatizmdən əziyyət çəkdiyini qeyd edərək, onların ərazilərindəki münaqişələrin həllində vahid meyarların, ümumi yanaşmanın müəyyən edilməsinin vacib olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, yeni təhlükələrin - terrorizmin, narkotik maddələrin qanunsuz dövriyyəsinin və digər təhlükələrin mövcud olduğu dövrdə sərhəd xidmətləri arasında əməkdaşlığın genişləndirilməsinin böyük əhəmiyyəti vardır.

Ukrayna Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Nikolay Litvin GUAM-ın üzvü olan ölkələrin sərhəd xidməti rəhbərlərinin Bakıda keçirilən III iclasının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O dedi ki, bu iclasın məqsədi GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyov Sammitində əldə edilmiş razılıqların, irəli sürülmüş təşəbbüslərin əməli surətdə həyata keçirilməsi ilə bağlıdır. Qonaq bildirdi ki, bu islas zamanı dövlət sərhədlərinin qorunması, qarşıda duran digər mühüm vəzifələrin həyata keçirilməsi sahəsində əməkdaşlıq yolları müəyyənləşdiriləcəkdir. Terrorizmin, narkotik vasitələrin qeyri-qanuni yayılması, digər təhlükələrlə mübarizə məsələləri müzakirə ediləcəkdir.

Sərhəd qoşunlarında islahatların aparılmasının böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıran cənab Nikolay Litvin bildirdi ki, bu iclasın nəticəsi olaraq sərhəd xidmətlərinin əməkdaşlığına dair sənədlər də imzalanacaqdır. Bu, sərhəd xidmətlərinin fəaliyyətində əməli tədbirlərin həyata keçirilməsi üçün yaxşı imkan yaradacaqdır.

XARİCİ İŞLƏR NAZİRİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 28-də Birləşmiş Ərəb Əmirlikləri mədəniyyət və informasiya nazirinin müavini Saqr Gubəşin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları Azərbaycanda görməkdən çox şad olduğunu bildirən nazir E.Məmmədyarov, ölkələrimiz arasında əlaqələrin inkişaf səviyyəsindən razı qaldığını vurğulamışdır. Nazir demişdir ki, Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayır və Birləşmiş Ərəb Əmirliklərinin də Azərbaycanda səfirliyinin açılması münasibətlərin daha da yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir.

Nümayəndə heyətinin başçısı bu məsələni ölkəsinin müvafiq qurumlarının diqqətinə çatdıracağını söyləmişdir.

Nazir qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin hərtərəfli inkişafına böyük maneə olduğunu diqqətə çatdırmışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən Saqr Gubəş BƏƏ ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu vurğulamışdır.

Görüşdə təhsilin və informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafındakı mühüm rolu vurğulanmış, mədəniyyət, informasiya və maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN TELIASONERA ŞİRKƏTİNİN PREZİDENTİ ANDERS İGELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Prezident sarayında Finlandiyanın TELIASONERA şirkətinin prezidenti Anders İgeli qəbul etmişdir.

Dövlətimizin başçısı Finlandiya Prezidentini Azərbaycana rəsmi səfərdə müşayiət edən nümayəndə heyətinin tərkibində bu şirkətin də təmsilçilərinin olduğunu qeyd edərək, Prezident Tarya Halonen ilə bu gün keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev sentyabrın 30-da Bakıda iki ölkənin iş adamları arasında keçiriləcək biznes forumu çox əlamətdar hadisə adlandırdı.

Bu şirkətin regionda çox fəal işlədiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Finlandiya arasında iqtisadi əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Rəhbərlik etdiyi şirkətin Skandinaviyada və regionda ən aparıcı operator olduğunu bildirən cənab Anders İgel dedi ki, TELIASONERA bir sıra ölkələrdə öncül yer tutur. Ölkəmizdə gördüyü iqtisadi inkişafı möcüzə adlandıran qonaq ümumi daxili məhsulun artımına görə Azərbaycanın dünyada ən öndə getdiyini bildirdi. Cənab Anders İgel dedi ki, Azərcell şirkəti ilə birgə fəaliyyətində Azərbaycanda ümumi daxili məhsulun belə sürətlə artmasının daha yaxından şahidi olmuşdur. O bildirdi ki, Azərbaycanda Azərcell-in abunəçilərinin sayı artaraq 1,6 milyona çatmışdır. Şirkət indiyədək Azərbaycana 335 milyon ABŞ dolları məbləğində sərmayə qoymuşdur və bunun 400 milyon ABŞ dollarına çatdırılması planlaşdırılır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN ƏDLİYYƏ NAZİRİ GİNTAUTAS BUJİNSKASI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Prezident sarayında Litvanın ədliyyə naziri Gintautas Bujinskası qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Litva Prezidenti Valdas Adamkus ilə müxtəlif beynəlxalq təşkilatlar çərçivəsindəki tədbirlərdə keçirdiyi görüşlərini məmnunluqla xatırlatdı.

Azərbaycan-Litva əlaqələrinin inkişaf səviyyəsindən məmnunluğunu ifadə edən dövlə-

timizin başçısı əmin olduğunu bildirdi ki, cənab Gintautas Bujinskasın Bakıya səfəri ölkələrimizin ədliyyə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edəcəkdir.

Litvanın ədliyyə orqanlarında görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verən Gintautas Bujinskas ölkələrimizin ədliyyə orqanlarının çox uğurlu əməkdaşlıq etdiyini bildirdi. Qonaq əmin olduğunu söylədi ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM TARYA HALONENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen sentyabrın 29-da ölkəmizə ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 29-da, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Finlandiya Prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev Finlandiya Prezidenti Tarya Haloneni Bakıda salamlamaqdan məmnun olduğunu söylədi, ölkələrimiz arasında dostluq əlaqələrinin uğurla davam etdiyini vurğuladı.

Azərbaycana rəsmi səfərə dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Prezident Tarya Halonen bu səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi.

Görüşdə ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Finlandiya əməkdaşlığının, iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu. Avropa strukturlarına inteqrasiyada Finlandiyanın Azərbaycanı gələcəkdə də dəstəkləyəcəyi bildirildi.

Tərəflər ölkələrimiz arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Sentyabrın 29-da Prezident sarayında Azərbaycan və Finlandiyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya Prezidenti xanım Tarya Haloneni bir daha salamladı, bu səfərin ölkələrimiz və xalqlarımız arasında dostluğun, iqtisadi, siyasi, mədəni və digər sahələrdə əlaqələrin inkişafına xidmət etdiyini bildirdi.

Dövlətimizin başçısı dedi ki, xanım Tarya Halonenin bugünkü səfərindən çox məmnu-

nuq və keçiriləcək görüşlər, aparılacaq müzakirələr Azərbaycan-Finlandiya münasibətlərinin daha da genişlənməsinə imkan yaradacaqdır. Bu baxımdan ikitərəfli münasibətlərə aid bir çox məsələlərin, o cümlədən iqtisadi, siyasi, mədəni sahələrə, beynəlxalq əməkdaşlığa aid olan məsələlərin müzakirəsi əhəmiyyətlidir.

Prezident İlham Əliyev iqtisadi məsələlərə toxunaraq vurğuladı ki, sabah Bakıda biznes forumu keçiriləcəkdir. Ümidvaram ki, bu, Azərbaycan və Finlandiyanın iş adamları arasında əlaqələrin yaranmasına, Finlandiyanın Azərbaycana sərmayə qoymasına stimul olacaqdır. Azərbaycan regional, beynəlxalq miqyaslı layihələr həyata keçirməkdədir. Finlandiya da bu layihələrin icrasına öz töhfəsini verə bilər. İkitərəfli münasibətlərin daha yüksək səviyyəyə qalxması üçün böyük potensial vardır.

Azərbaycana rəsmi səfərə gəlməsindən, ötən on il ərzində ölkəmizdə baş verən iqtisadi dirçəlişi görməsindən məmnun olduğunu xüsusi vurğulayan Finlandiya Prezidenti Tarya Halonen ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığını yüksək qiymətləndirdi. O bildirdi ki, Avropa Birliyi ilə Azərbaycan arasında münasibətlərin daha da genişləndirilməsinə Finlandiya da tərəfdardır. Finlandiya gələn ildən Avropa Birliyinə sədrlik edəcəyi dövrdə bu məsələlərə xüsusi diqqət yetirəcəkdir. Ali qonaq vurğuladı ki, Azərbaycan Avropa Birliyinin "Yeni qonşuluq siyasəti"nə qoşulmuşdur. Azərbaycanın Avropa Birliyinə daha da yaxınlaşması, Avropaya daha da sıx inteqrasiya etməsi üçün Finlandiya əlindən gələn köməyi göstərəcəkdir.

Prezident Halonen Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi ki, Finlandiya bu problemin həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində son illər ərzində çox çalışıb və fəal işləyibdir. Əfsuslar olsun ki, problem bu günə qədər həllini tapmamışdır. Bununla yanaşı, Avropa Birliyi, o cümlədən Finlandiya hesab edir ki, problem yalnız danışıqlar yolu ilə həll olunmalı, dinc yolla aradan qaldırılmalıdır.

Prezident Tarya Halonen Prezident İlham Əliyevi Finlandiyaya rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN-FİNLANDİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Sentyabrın 29-da, geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Finlandiya prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfindən vergilər naziri Fazil Məmmədov, Finlandiya tərəfindən ticarət və sənaye naziri Mauri Pekkarinen imzaladılar.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Finlandiyanın dövlət katibi Arto Mansala Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Finlandiya Respublikasının Xarici İşlər Nazirliyi arasında Anlaşma memorandumunu imzaladılar.

AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Sentyabrın 29-da Prezident sarayında Azərbaycan-Finlandiya sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və xanım Tarya Halonenin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları mətbuat konfransında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, sizin hamınızı bir daha Azərbaycanda salamlamaq istəyirəm. Keçirdiyimiz görüşlər, apardığımız müzakirələrlə bağlı dərin məmnunluq hissimi vurğulamaq istərdim. Biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Biz siyasi dialoqun səviyyəsindən çox razıyıq, eyni zamanda, mən ümid edirəm ki, bizim münasibətlərimiz böyük sürətlə inkişaf edəcəkdir. Bunun üçün çox böyük imkanlar var. Zənnimcə, iqisadi əlaqələr genişləndirilməlidir. Çünki ölkələrimizin iqtisadi potensialı artmaqdadır. Ona görə də mən ümid edirəm ki, sabah keçiriləcək biznes forumun praktiki baxımdan çox böyük əhəmiyyəti vardır. Şübhəsiz ki, biz öz göstərişlərimizi, əsas istiqamətlər üzrə təlimatlarımızı verə bilərik. Lakin bunun həyata keçirilməsi üçün, ümumi əməkdaşlıq üçün əsasların tapılması məhz iş adamları tərəfindən müəyyən olunmalıdır.

Biz burada, regionda mövcud olan münaqişələrin həlli yollarını da müzakirə etdik. Hesab edirəm ki, səmimi müzakirələr və açıq söhbətlər bu problemin daha yaxşı formada başa düşülməsini mümkün edəcəkdir. Cənubi Qafqaz regionunda ümumi problemlər var və Qafqazdakı münaqişələr bizim inkişaf yolumuzda duran əsas maneələrdən biridir.

Hazırda Azərbaycanda sosial-iqtisadi islahatlar aparılmaqdadır və Avropa strukturlarına daha sıx inteqrasiya olunmaq siyasətimizi davam etdiririk. Biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilmişik. Bu da Avropa İttifaqı ilə daha sıx əməkdaşlığa zəmin yaradır. Avropa İttifaqı ilə münasibətlərin inkişafı bizim xarici siyasətimizin əsas prioritetlərindən biridir. Finlandiyanın bizim Avropaya inteqrasiyamıza verdiyi dəstək çox əlamətdardır. Biz bu dəstəyi indiyə qədər hiss etmişik.

Ümumiyyətlə, mən əminəm ki, xanım Prezidentin səfəri ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətlidir. Ümidvaram ki, bu səfərdən sonra biz bir çox işləri birgə görəcəyik, əlaqələri daha sıx quracağıq və ölkələrimiz, xalqlarımız naminə işləyəcəyik. Mən bir daha Sizə və nümayəndə heyətinə minnətdarlığımı bildirir, uğurlar arzulayıram.

FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də öz tərəfimdən Azərbaycan Prezidentinə minnətdarlığımı bildirirəm.

Mənim Azərbaycana ilk səfərim təqribən 9 il bundan əvvəl, 1996-cı ildə baş tutmuşdu. Mən ölkənizdə baş verən dəyişiklikləri görməkdə çox maraqlı idim. Görürəm ki, bu dəyişikliklər iqtisadi sahədə çox sürətlə gedir. Bir çox işlər görülür, böyük irəliləyiş əldə olunubdur. Sizə gələcəkdə bu istiqamətdə daha böyük uğurlar arzulayıram. Gələcək planları müzakirə etmək bizim üçün çox maraqlı idi.

Həyat yoldaşım da səfər zamanı məni müşayiət edir. Sizin siyasi inkişafla bağlı əldə etdiyiniz nailiyyətləri eşitməkdən çox məmnun oldum. Biz bilirik ki, noyabr ayında ölkənizdə parlament seçkiləri keçiriləcək və siz həmin seçkilərdə üzvü olduğunuz Avropa Şurasının dəyərlərinin də nümayiş etdirilməsinə çalışacaqsınız.

Sabah biznes forumu keçiriləcək, ikitərəfli iqtisadi münasibətlərin inkişafı üçün mövcud olan imkanlar müzakirə ediləcəkdir. Cənab Prezident, Sizin burada qeyd etdiyiniz kimi, artıq iki ölkə arasında iqtisadi əməkdaşlıq üçün zəmin yaradılıbdır. Bu gün nazirlər tərəfindən imzalanan iki sənəd ümumi işlərimizdə irəliyə doğru atılmış addım olacaqdır. Ümid edirəm ki, biznes forumundan sonra daha fəal əməkdaşlıq edə biləcəyik.

O ki qaldı regional məsələlərə, Siz bilirsiniz ki, mən keçmişdə Azərbaycana səfər etmişdim. Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatım vardır. Mən bilirəm ki, Minsk qrupu fəaliyyətə başlayandan etibarən bu sahədə hələ müsbət dəyişikliklər olmamışdır. Avropa İttifaqı bu məsələnin aradan qaldırılmasında çox maraqlıdır. ATƏT, o cümlədən digər təşkilatlar bu münaqişənin həllinə maraq göstərirlər. Xatırlatmaq istəyirəm ki, Avropa İttifaqı finlandiyalı diplomat Heyki Talvitiyeni Avropa İttifaqının Cənubi Qafqazdakı xüsusi nümayəndəsi təyin etmişdir.

Mən "Yeni qonşuluq siyasəti"nə dair bir neçə söz demək istəyirəm. Siz bunun Azərbaycan üçün nə qədər vacib olduğunu artıq qeyd etdiniz. Lakin onu demək istəyirəm ki, bu, həmçinin Avropa İttifaqı üçün də vacibdir. Avropa İttifaqı alınmaz böyük qala deyildir. Görürsünüz ki, Avropa İttifaqı yeni üzvlər qəbul edir. Burada Rumıniya və digər ölkələr var, daha sonra Ukraynanın məsələsi var. Mən çox ümid edirəm ki, bundan sonra digər ölkələrin namizədliklərinə də baxılacaqdır.

Lakin buna qədər ölkəniz həmin siyasət çərçivəsində lazımi addımların atılmasını həyata keçirməlidir. Hesab edirəm ki, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" çərçivəsində biz mümkün qədər qısa müddətdə ölkələrimizin maraqlarına uyğun olaraq bir çox irəliləyişlər əldə edə biləcəyik.

Yeri gəlmişkən, onu da deyim ki, mən Azərbaycan Prezidentini Finlandiyaya rəsmi səfərə dəvət etdim. O, bu dəvəti məmnunluqla qəbul etdi.



Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Prezident İlham Əliyev, buradakı müxalifəti hansı xarici mənbələr maliyyələşdirir?

Mənim digər sualım xanım Halonenədir. Siz Azərbaycanda demokratiyanın vəziyyətini necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Mənim cavabım çox qısa olacaq. Mən sizə tövsiyə edirəm ki, belə bir sualı müxalifətə verəsiniz və ətraflı məlumat alarsınız.

TARYA HALONEN: Mən hesab edirəm ki, Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazdakı demokratik proses inkişaf etməkdədir. Ümumiyyətlə, demokratiya elə bir imtahan deyil ki, yaxşı qiymət alıb, o imtahandan keçəsiniz. Ona görə, hansı ölkə ki, insan hüquqlarını, Avropa Şurasının digər dəyərlərini, prinsiplərini qəbul edibsə, hazırda bunların tam bərqərar olunması üçün lazımi işlər görür. Müəyyən ölkələrə bu prosesi tam başa çatdırması üçün daha çox vaxt lazım olur. Ona görə hesab edirəm, və mənim həmkarım cənab Prezident də deyir ki, Cənubi Qafqazda hələ görülməli müəyyən işlər var.

Azərbaycana gəldikdə isə, mən çox məmnun oldum. Azərbaycan Avropa Şurasının üzvü olduqdan sonra həmin təşkilatla münasibətlər daha sıx qurulmuşdur. Cənab Prezident, Avropa Şurasında o vaxt Siz də fəaliyyət göstərmisiniz. Mən hesab edirəm, bir çox işlər görülübdür. Bu işlər, Azərbaycanın gördüyü işlər Avropa Şurasının sənədlərində də öz əksini tapmışdır. Bununla belə, indi bir çoxlarının diqqəti məhz parlament seçkilərinə yönəlibdir.

Ümumiyyətlə, müxalifət elə bir məfhumdur ki, o, heç vaxt hökumət tərəfindən seçilmir. Müxalifət, müxalifətdir. O mövcuddur, öz fəalliyətini aparır. Lakin onu da qeyd etmək lazımdır ki, Azərbaycanda demokratiya sahəsində işlər görülür. Hesab edirəm ki, Avropa Şurasının meyarlarına uyğun işlərin görülməsində hökumətin və cənab Prezidentin xüsusi mövqeyi vardır. Avropa Şurasının hüquqi sahədə verdiyi tövsiyələr var idi. Biz çox məmnunluqla qeyd edirik ki, bu tövsiyələr yerinə yetirilmişdir. Fikrimcə, gəlin, noyabrı gözləyək, seçkilər keçirilsin. Mən sizə bu sahədə uğurlar arzulayıram, sizi dəstəkləyirəm. Əminəm ki, hökumət bu seçkilərin lazımi səviyyədə keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

SUAL: Mənim sualım xanım Tarya Halonenədir. Bilirik ki, Finlandiya Avropa İttifaqına sədrlik edəcəkdir. Sədrliyiniz zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Finlandiyanın mövqeyi necə olacaq və siz Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə hansı dəstəyi verirsiniz?

TARYA HALONEN: Bilirsiniz, biz istəyirik ki, Dağlıq Qarabağ münaqişəsi mümkün qədər qısa müddətdə sülh yolu ilə həll olunsun. Biz istəmirik ki, bir ölkənin mövqeyi keçsin, digər ölkənin mövqeyi qalsın. Biz istəyirik bu, elə bir həll yolu olsun ki, hər iki tərəf onu qəbul edə bilsin və hamı bu nizamlama yolundan məmnun olsun. Beləliklə, Finlandiya ATƏT-in bu sahədə gördüyü işi dəstəkləyir. Siz bilirsiniz ki, biz xüsusi diqqət yetirərək, Avropa İttifaqının da xüsusi nümayəndəsinin təyin olunmasına çox çalışdıq və bu iş yerinə yetirildi. Burada söhbət sadə bir işdən getmir. Çünki bu regionda digər ölkələr də var ki, onlar da münaqişələrlə üzləşib və onlar da eyni addımları ataraq, bu münaqişələri aradan qaldırmağa çalışırlar.

Bəli, bir tərəfdən, ATƏT var, digər tərəfdən, Avropa İttifaqı da var. Mən hesab edirəm ki, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin möhkəmləndirilməsi həmin problemin çözülməsinə müəyyən töhfə verə bilər.

Digər məsələlər haqqında danışsaq, sizi əmin etmək istəyirik ki, Finlandiya həmin təşkilatlarda sədrlik edəcəyi dövrdə bundan sonra da daha fəal işləyərək, həm Gürcüstana, həm Ermənistana, həm də Azərbaycana lazımi dəstək verilməsinə çalışacaqdır. Çünki Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" bir çox müsbət nəticələr verəcək, Avropa-

nın ümumi irsinin, ümumi dəyərlərinin bu ölkələrə gətirilməsində və bərqərar olunmasında möhkəm yardım və dəstək göstərəcəkdir. Lakin bu cür məsələlərin həlli məhz tərəflərin əlindədir.

SUAL: Mənim sualım Finlandiyanın Prezidenti xanım Tarya Halonenədir. Sizin fikrinizcə, Cənubi Qafqaz regionunda hansı münaqişə daha narahatedicidir?

TARYA HALONEN: Mən hesab edirəm ki, bu suala artıq cavab verdim. Əvvəlki səfərimdən sonra hər üç Cənubi Qafqaz ölkəsində böyük irəliləyişlər əldə edilmişdir. Gəlin, ümidvar olaq ki, bu ölkələr arasında da əməkdaşlıq baş tutacaqdır. Çünki bir var, ayrı olmaq, bir də var, birlikdə işləmək, birgə əməkdaşlıq etmək. Ona görə, hesab edirəm ki, hər üç ölkə demokratik təsisatlar baxımından böyük nailiyyətlər əldə etmişdir və onların indi gördüyü işlər, atdığı addımlar təqdirəlayiqdir. Onlar öz ölkələrində daha demokratik cəmiyyətin qurulmasına çalışırlar. Hamı bilir ki, bəzi problemlər də var.

Məsələn, korrupsiya problemi bəzi ölkələrdə hələ də həllini tapmayıbdır. Ölkənin harada yerləşməsindən asılı olmayaraq, yəni istər Avropa, istər Amerika, istərsə də Asiya ölkəsi olsun, korrupsiya problemi və digər problemlər hələ qalmaqdadır. Bunlar öz həllini tapmalıdır. Mən hesab edirəm ki, bu cür mürəkkəb problemlərin həllinin yolu birgə səylərdən keçir. Düşünürəm ki, belə olsa, vətəndaşlar və müəssisələr daha hüquqi cəmiyyətdə yaşaya bilər. Gördüyü işlərdən asılı olmayaraq, onlar üçün lazımi şərait və təhlükəsizlik mühiti yaradıla bilər. Görürəm ki, bu sahədə bir çox işlər görülmüşdür. Lakin bundan sonra da işlər davam etdirilməlidir və biz də öz tərəfimizdən bu sahədə sizə yardım edəcəyik.

SUAL: Mənim sualım hər iki prezidentədir. Siz sabah keçiriləcək Azərbaycan-Finlandiya biznes forumunun ikitərəfli iqtisadi əlaqələrə təsirini necə qiymətləndirirsiniz və Azərbaycanın iqtisadiyyatının hansı sahəsi Finlandiya sərmayələri üçün daha cəlbedicidir?

TARYA HALONEN: Bu sualı iş adamlarına versəniz, bəlkə də daha yaxşı olardı. Zənnimcə, siz bu gün bir çox müzakirələrin şahidi oldunuz. Lakin hesab edirəm, müəyyən sahələr var ki, onlar bizim iş adamları üçün maraqlı ola bilər. Tutaq ki, maşınqayırma sahəsi. Bilirəm ki, müəyyən iş adamları var, onlar buraya sərmayə qoymağa maraqlıdırlar. Eyni zamanda, ümid edirəm ki, yüksək texnologiyalar sahəsinə maraq ola bilər. Çünki Finlandiyanın bu sahədə çox böyük təcrübəsi var. Onu da deyim ki, bu texnologiyalar təkcə mobil telefonlarla məhdudlaşmır.

Demək istəyirəm ki, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində yaxşı işbirliyi qurmaq mümkündür. Eyni zamanda, bəlkə də bu, çox təəccübləndirici deyil, lakin hesab edirəm ki, turizm sahəsi də inkişaf edə bilər. Bu da əsas prioritetlərdən biridir. Çünki mən bilirəm, Cənubi Qafqazda bu sahənin inkişafı üçün yaxşı imkanlar və şərait var. Bu sahədə sərmayələr qoyula bilər.

Turizmin iki tərəfi var. Turizm nəinki davamli inkişafın vacib bir amilidir, eyni zamanda, iki ölkə arasında daha çox məlumat mübadiləsinə imkan yarada bilər. Siz bu sualı bizim ticarət və sənaye nazirinə versəydiniz, daha yaxşı olardı. Çünki cənab nazir bu suala daha ətraflı cavab verə bilərdi.

İLHAM ƏLİYEV: Mən hesab edirəm, bu tədbir biznes icmaları üçün yaxşı bir tanışlıq

imkanı olacaqdır. Onlar birgə sərmayələr üçün hansı imkanların olduğunu müzakirə edəcəklər. Hesab edirəm, təqdirəlayiq bir haldır ki, bu cür tədbirlər sürətlə inkişaf edən ölkələr arasında keçirilir. Bu, bir çox ölkələrdən olan şirkətlərin ölkəmizə olan marağını artırır.

Bizim ölkənin iqtisadiyyatına son illər ərzində 25 milyard dollardan çox sərmayə yatırılmışdır və bu sahədə apardığımız siyasət çox uğurlu olmuşdur. İqtisadiyyatın bütün sahələri bundan bəhrələnə bilər. Bir çox sərmayələr əsasən neft və qaz sahəsinə yatırılmışdır. Bu da təbiidir. Çünki bizdə bu sənaye inkişaf etmişdir. Şübhəsiz ki, neft və qaz sənayesi ölkəmiz üçün böyük əhəmiyyət daşıyır. Lakin hazırda bizim diqqətimiz məhz qeyri-neft sektoruna yönəldilibdir. Biz çalışırıq ki, yeni infrastruktur yaradılsın, yeni obyektlər tikilsin. Bizim böyük planlarımız var və ilk növbədə, elektrik stansiyalarının tikilməsi, su və qaz təchizatı sistemlərinin istismara verilməsi, səhiyyə və təhsil sahələrində yeni işlərin görülməsi vacibdir. Bütün bunlar həm hökumətdən, həm yerli şirkətlərdən, həm də xarici şirkətlərdən sərmayələrin yatırılmasını gözləyir.

Şübhəsiz ki, əgər hər hansı bir xarici şirkət bizim ölkəyə sərmayə qoymaq istəyirsə, ilk növbədə, maraqlanır ki, burada biznes fəaliyyəti üçün hansı mühit var, hansı hüquqi əsaslar var. Mən əminəm ki, onlar buradakı vəziyyəti öyrəndikdən sonra görəcəklər ki, Azərbaycan sərmayələrin qoyulması üçün yaxşı potensialı olan ölkədir və bundan sonra finlandiyalı dostlarımız, Finlandiya şirkətləri Azərbaycana maraqlarını artıracaqlar.

FİNLANDİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Sentyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Finlandiya Prezidenti xanım Tarya Halonenin və onun həyat yoldaşı Pentti Arayarvinin şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Tarya Halonen qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident!

Hörmətli cənab Pentti Arayarvi!

Xanımlar və cənablar!

Hörmətli xanım Prezident, ilk növbədə mən Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha məmnuniyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Siz bu gün Azərbaycana rəsmi səfərə başlamısınız. Bu, ikitərəfli münasibətlərimizdə çox mühüm hadisədir. Mən Sizin bu səfərinizi yüksək qiymətləndirirəm.

Azərbaycanla Finlandiya arasında keçmişdə də yaxşı əlaqələr olmuşdur. Finlandiyanın rəhbərləri müxtəlif vaxtlarda Azərbaycana səfər etmişlər. Mən Azərbaycanla Finlandiya arasında əməkdaşlığın bütün sahələrdə genişlənməsi və dərinləşməsinin tərəfdarıyam.

Bizim bugünkü söhbətlərimiz xarici siyasətlərimizin başlıca istiqamətlərinin üst-üstə

düşdüyünü təsdiq edir, ölkələrimizin ikitərəfli dialoqu inkişaf etdirmək üçün siyasi iradəsinin olmasını göstərir.

İnanıram ki, Sizinlə keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, imzalanmış sənədlər, eləcə də iki ölkənin iş adamlarının sabah keçirəcəyi biznes forumu əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafına və genişlənməsinə güclü təkan verəcəkdir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən dövlətdir. Həyata keçirilən islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. Qeyd etmək kifayətdir ki, Azərbaycanda ümumi daxili məhsulun real artımının 2005-ci ildə 20 faiz, 2006-cı ildə isə 30 faiz olacağı gözlənilir.

Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə ölkə iqtisadiyyatına 25 milyard dollar sərmayə qoyulmuşdur. Adambaşına götürdükdə, bu, regionda ən yüksək göstəricilərdən biridir.

Biz ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasət xəttini davam etdirir və Avropa İttifaqı, NATO və Avropa təhlükəsizlik sisteminin digər strukturları ilə sıx əməkdaşlıq edirik. Avropa İttifaqının Azərbaycanı "Yeni qonşuluq siyasəti"nə daxil etməsinə xüsusi əhəmiyyət verərək, ölkəmizin Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası yaratmışıq. *Mən bu təsisatlarla əməkdaşlıqda Finlandiyanın Azərbaycana verəcəyi dəstəyə görə əvvəlcədən təşəkkürümü bildirirəm.*

Biz Azərbaycanda siyasi, iqtisadi, sosial, hüquqi islahatlar həyata keçiririk. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə mühüm nailiyyətlər qazanmışıq.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq əhəmiyyətli layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Azərbaycan neftini cari ilin sonuna qədər dünya bazarlarına çıxaracaqdır. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TRASECA proqramı, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin həyata keçirilməsi həm Azərbaycanın, həm də regionun digər dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. *Bu ölkənin hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində* torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, ərazi bütövlüyü prinsipi çərçivəsində ədalətli şəkildə həll olunmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə 1996-cı ildə ATƏT-in Minsk qrupunun həmsədri olmuş Finlandiyanın da dəstəyinə ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu

bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Xanım Prezident, icazə verin, bu badəni Sizin sağlığınıza, cənab Pentti Arayarvinin sağlığına, Azərbaycan ilə Finlandiya arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN NİTQİ

- Hörmətli cənab Prezident və xanım Əliyeva!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə səmimi qəbulunuza görə, Finlandiya haqqında dediyiniz fikirlərə və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə minnətdarlığımı bildirmək istərdim.

Sonuncu dəfə bu ilin may ayında Avropa Şurasının Varşavada keçirilmiş sammitində Sizinlə görüşmək mənə qismət oldu. Bu gün isə mən müstəqil Azərbaycana rəsmi səfər edən ilk Finlandiya Prezidenti olmağımdan böyük şərəf hissi duyuram.

Bu gün təyyarə hava limanında yerə enərkən mən 130 il bundan əvvəl Bakıda məskən salmış soydaşlarım haqqında fikirləşirdim. Onların əksəriyyəti Sankt-Peterburqda Nobel şirkəti üçün çalışırdılar və burada geniş inkişaf edən neft sənayesini gördükdən sonra Balaxanıdakı neft yataqlarına gələrək, orada öz bəxtlərini sınaqdan keçirmək arzusuna düşmüşdülər.

Helsinki və Bakı eyni imperiyanın tərkibində olan şəhərlər idi və finlandiyalılar evlərinə yazdıqları məktublarda Bakını "Şərq və ya Qərb dünyası kimi yox, bir çox yolların kəsişməsində olan məkan" və "müxtəlif xalqların və dinlərin bir-biri ilə görüşdükləri və qovuşduqları bir yer" kimi təsvir edirdilər.

Hazırda Azərbaycanın yataqları Xəzər dənizinin neft paytaxtına xarici sərmayədarları yenidən cəlb edir. "Əsrin müqaviləsi" reallığa çevrilmiş və Bakı-Tbilisi-Ceyhan boru kəməri ölkənizi Aralıq dənizi ilə birləşdirmişdir. Finlandiyanın iş adamları yenidən Abşeron yarımadasına öz nəzərlərini salmağa başlayırlar. Yüksək səviyyəli Finlandiya-Azərbaycan biznes forumunun mənim ölkənizə səfərimlə üst-üstə düşməsi bunun bariz nümunəsidir.

1996-cı ilin noyabr ayında gözəl paytaxtınıza xarici işlər naziri kimi etdiyim ilk səfər xatirimdədir. O vaxt Finlandiya ATƏT-in Minsk prosesinə həmsədrlik edirdi. Dağlıq Qarabağ münaqişəsi hətta bu gün də qəm-qüssə ilə öz həllini gözləyirsə, mən görürəm ki, 9 il ərzində ölkəniz və paytaxtınız gözəçarpan iqtisadi tərəqqiyə nail olmuşdur. İnanıram ki, yeni iqtisadi inkişaf həm də bizim ümumi dəyərlərimizin, demokratiya, insan hüquqları və qanunun aliliyinin bərqərar olunmasına öz töhfəsini verəcəkdir.

Bu il biz ATƏT-in 30 illiyini qeyd edirik. 1975-ci ildə Helsinkidə keçirilmiş ATƏM-in zirvə toplantısı Avropanın siyasi xəritəsində müvafiq dəyişikliklərə yol açdı. 1992-ci ildə Azərbaycan ATƏT-in Helsinkidə keçirilən sammitində iştirak edərək, artıq müstəqil dövlət kimi beynəlxalq səhnəyə yenidən qayıtdı. Minsk prosesi də 1992-ci ildə məhz Helsinkidə başlandı.

Bu gün biz hələ də otuz il bundan əvvəl üzləşdiyimiz çətinliklər qarşısındayıq. Mən təəssüflə qeyd edirəm ki, Minsk prosesi hələ də Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu axtarmaqdadır. Çox ümid edirəm ki, yaxın vaxtlarda biz danışıqlarda irəliləyişin şahidi olacağıq. Münaqişənin həlli regionda inkişaf üçün yeni və olduqca böyük imkanlar açacaqdır. Buna görə də, Minsk prosesi çərçivəsində münaqişənin aradan qaldırılması üçün bütün vasitələrdən istifadə olunmalıdır.

Nəhəng enerji resurslarının istifadə olunması bir çox xalqların rifahını yüksəldəcəkdir. Qloballaşma ölkələri bir-birinə yaxınlaşdırır, lakin eyni zamanda çətinliklər də gətirir. Gəlirlər səviyyəsində get-gedə artan fərqlər hətta inkişaf etmiş demokratik ölkələrdə də qaçılmaz amilə çevrilmişdir. Beləliklə, dövlətin gəlirləri əhali arasında nə qədər bərabər paylanarsa, cəmiyyət bir o qədər sabit olar. Bu baxımdan, mən Azərbaycanda yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə dövlət proqramını alqışlayır, onun həyata keçirilməsində Sizə böyük müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan və ümumən Cənubi Qafqaz Avropa İttifaqı üçün get-gedə əhəmiyyəti artan tərəfdaşlara çevrilmişdir. Avropa İttifaqı tərəfindən 2003-cü ildə Cənubi Qafqaz üzrə xüsusi nümayəndənin təyin olunması bu meylin sübutudur. Finlandiya bu sahədə fəal rol oynayır və təbii ki, biz ölkəmizin təcrübəli diplomatı səfir Heyki Talvitiyenin bu vəzifəyə təyin olunmasından məmnunuq və fərəh hissi keçiririk. Avropa İttifaqı Azərbaycan, Ermənistan və Gürcüstanla daha sıx münasibətlərin qurulması xəttinə sadiqdir. Avropa İttifaqının hər üç ölkəyə Avropanın "Yeni qonşuluq siyasəti"nə qoşulmaq dəvəti regionda tərəqqi, sabitlik və rifaha xidmət edir. Finlandiya Avropa İttifaqında qarşıdan gələn sədrliyi zamanı Azərbaycanla Avropa İttifaqı arasında münasibətləri daha da inkişaf etdirmək arzusundadır.

Bir neçə həftədən sonra beynəlxalq ictimaiyyət Sizin parlament seçkilərinizi böyük diqqətlə izləyəcəkdir. Mən əminəm ki, Siz Azərbaycanın şəffaf, azad və ədalətli seçkilər keçirməyə qadir olmasını bütün dünyaya nümayiş etdirəcəksiniz və ölkəniz regionda təkamül yolu ilə dəyişikliklərin nümunəsi olacaqdır. Bu gün dünya ölkələrinin bir-birinə həmişəkindən daha çox ehtiyacı var. Biz demokratiya, iqtisadiyyat və təhlükəsizliyin bir-biri ilə sıx bağlı olduğu ümumi dünyada yaşayırıq.

Ümid edirəm ki, mənim Azərbaycana səfərim ölkələrimizin münasibətlərini möhkəmləndirəcək və Finlandiya ilə Azərbaycan arasında iqtisadi inkişafa təkan verəcəkdir.

Cənab Prezident, icazə verin, mənə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirim və bu badəni Sizin sağlığınıza və birinci xanımın sağlığına, Azərbaycan xalqının xoşbəxtliyi və rifahı, Finlandiya və Azərbaycan arasında gələcək əməkdaşlığın şərəfinə qaldırım.

AZƏRBAYCAN-FİNLANDİYA BİZNES FORUMU

Sentyabrın 30-da "Hyatt Regensy-Naxçıvan" hotelində Azərbaycan Prezidenti İlham Əliyevin və Finlandiya Prezidenti xanım Tarya Halonenin iştirakı ilə Azərbaycan-Finlandiya biznes forumu keçirilmişdir. Tədbirə toplaşan hər iki ölkənin yüzdən çox iş adamı dövlət başçılarını alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev forumda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Prezident xanım Tarya Halonen!

Hörmətli iş adamları, xanımlar və cənablar!

Mən sizi Azərbaycanda salamlayıram. Sizin ölkəmizə səfəriniz dünən başlayıb və bizim geniş müzakirələrimiz olubdur. Biz ikitərəfli münasibətləri, regional məsələləri, regionda təhlükəsizlik məsələlərini müzakirə etmişik və bütün hallarda vəziyyətlə bağlı bizim eyni mövqeyimiz olubdur. Bu gün bizim üçün çox yaxşı bir fürsət açılır ki, iqtisadi münasibətlərimizə təkan verək. Mən tam əminəm ki, bunun üçün, ölkələrimiz arasında iqtisadi münasibətləri inkişaf etdirmək üçün çox yaxşı zəmin vardır. Bu, həm də bizim ikitərəfli münasibətlərimizin çox vacib bir elementinə çevriləcəkdir.

Azərbaycan hazırda çox sürətlə inkişaf edir. Bildiyiniz kimi, bu il dünya ölkələri sırasında ÜDM-in ən yüksək artımı Azərbaycanda olacaq və bu rəqəm 20 faizi keçəcəkdir. Bu, bizim apardığımız iqtisadi islahatlar siyasətinin çox yaxşı nümunəsinin bir sübutudur. İnkişaf planlarımıza iqtisadiyyatın yeni sahələrinin açılması daxildir. Şübhəsiz ki, neft amili də var və ölkəmizin neft strategiyası artıq 10 ildən çoxdur ki, həyata keçirilir. Bu, biznes üçün çox yaxşı mühit yaratmışdır.

Son il ərzində ölkəmizin iqtisadiyyatına 25 milyarddan çox sərmayə qoyulmuşdur. Bu, onu göstərir ki, xarici və yerli sərmayədarlar özlərini burada çox yaxşı hiss edirlər. Sərmayələr ölkəmizdə dövlət səviyyəsində qorunur və dövlətin diqqət mərkəzindədir. Şübhəsiz ki, neft sektorunun inkişafı, digər sektorların inkişafına da təsir göstərir. İndi isə hökumətin əsas məqsədləri iqtisadiyyatı şaxələndirmək və qeyri-neft sektorunu inkişaf etdirmək, sahibkarlığı inkişaf etdirmək və orta sinfin formalaşmasına imkan yaratmaqdır. Biz elə bir vəziyyət yaratmalıyıq ki, neftin qiymətlərindən asılı olmayaq. Çalışırıq ki, güzəştli kreditlərin ayrılması yolu ilə sahibkarlıq mühiti daha da asanlaşdırılsın. Bu il ərzində güzəştli kreditlərin səviyyəsi təqribən 80 milyon dollar səviyyəsində olacaqdır.

Biz çalışırıq ki, regionların inkişafına da diqqət yetirək. Ona görə də hazırda rayonlarda yeni infrastrukturların yaradılması hökumətimizin əsas prioritetlərindən biridir. Xatırlatmaq istəyirəm ki, Azərbaycanda son iki il ərzində 300 mindən çox iş yeri açılmışdır və bunların da əksəriyyəti məhz rayonlarda və qeyri-neft sektorlarında yaradılmışdır. Beləliklə, biz istəyirik ki, güclü qeyri-neft iqtisadi sahələrini yaradaq və işsizliyi aradan qaldıraq.

Yoxsulluğun azaldılması və işsizliyə son qoyulması istiqamətində çox uğurlu addımlar atılır. 2003-cü ildə keçirilmiş Prezident seçkiləri ərəfəsində mən söz vermişdim ki, 600 min iş yeri açılacaqdır. Artıq iki il keçibdir və biz bunun yarısına nail olmuşuq. Gələn illər ərzində biz infrastrukturun təkmilləşdirilməsinə kifayət qədər maliyyə vəsaitlərinin ayrılmasını planlaşdırırıq. Elektrik stansiyalarının tikilməsi, qaz və supaylayıcı sistemlərin tikilməsi, yolların, yeni hava limanlarının, xəstəxanaların, məktəblərin tikilməsi və digər məsələlər - yəni bir sözlə, sürətli inkişaf üçün Azərbaycanda bütün işləri görmək fikrindəyik.

Eyni zamanda, bundan bir neçə il əvvəl Dövlət Neft Fondunu yaratmışıq və burada məq-

səd şəffaflığın ən yüksək səviyyəsinin təmin olunmasından ibarətdir. Çünki biz neft gəlirlərini əldə edirik və istəyirik ki, bu neft gəlirləri haqqında hər bir Azərbaycan vətəndaşının məlumatı olsun, bu, çox şəffaf olsun. Şübhəsiz ki, belə işlərin görülməsi bizim vəzifələrimizi daha da asanlaşdırır.

Biz hazırda nəinki xarici sərmayələr və xarici maliyyə təşkilatlarından kreditlərin alınmasında maraqlıyıq, eyni zamanda istəyirik ki, yerli sahibkarlıq üçün əlavə imkanlar da açılsın.

Siz bilirsiniz ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verilməkdədir. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi də planlaşdırılır. Bu layihələrin həyata keçirilməsinə Dünya Bankı və bir sıra nəhəng beynəlxalq maliyyə təsisatları lazımi vəsait ayırmışlar. Bu da onun nümunəsidir ki, biz yaxşı ümumi tərəfdaşlıq qura bilirik.

Finlandiyaya gəldikdə isə, hesab edirəm ki, onların burada işləməsi üçün çox yaxşı şərait var. Şirkətlər burada tikinti sahəsində, xidmətlər sahəsində işləyə bilər. Artıq dediyim kimi, bizim xarici tərəfdaşlarla işimiz qarşılıqlı hörmət və etimada əsaslanır və biz biznes münasibətlərinin yaradılmasında çox maraqlıyıq. Ümumiyyətlə, əgər hər hansı bir şirkət Azərbaycanda fəaliyyət aparmaq fikrindədirsə, biz bunu sadəcə alqışlaya bilərik.

Bu gün keçirilən tədbirin məqsədi hüquqi sahədə, vergi, sərmayə imkanları sahəsində hansı şəraitin olması haqqında məlumatın toplanmasından ibarət olacaqdır. Zənnimcə, bu tədbir uğurlu olacaq və siz bunun praktiki nəticələrini görəcəksiniz.

Ölkələrimiz arasında siyasi münasibətlərə gəldikdə, onu deyə bilərəm ki, bizim xarici siyasətimizin əsas prioritetlərindən biri Avropaya inteqrasiya ilə bağlıdır. Ölkələrimiz arasında həm siyasi, həm regional, həm təhlükəsizlik məsələlərində, həm də iqtisadi sahədə çox yaxşı anlaşma mövcuddur. Sizin ölkəniz iqtisadi sahədə çox böyük nailiyyət əldə etmişdir. Baxmayaraq ki, ölkənin əhalisi o qədər də çox deyil, təxminən Azərbaycanın əhalisi qədərdir, lakin ÜDM-in göstəricisi çox yüksəkdir. Finlandiyadakı həyat tərzi çox yüksək səviyyədədir və dünyada ən böyük göstəriciyə malikdir.

Hesab edirəm ki, biznesi necə aparmaq, sosial problemləri necə həll etmək və s. baxımdan biz sizin təcrübənizi öyrənmək imkanı əldə edəcəyik. Çünki biz Azərbaycanda bu məsələləri həll etməyə çalışırıq. Bizim iqtisadiyyatımız bazar prinsiplərinə əsaslanır. Biz buna çox sadiqik. Lakin eyni zamanda biz sosial məsələlərin həllinə də çox yüksək diqqət yetiririk. Çünki hökumət xalq üçün işləyir və çalışır ki, onların gündəlik həyatını yaxşılaşdırsın. Ona görə biz bir çox məsələləri sizin təcrübənizdən istifadə etməklə öyrənməliyik. Hesab edirəm ki, burada fəaliyyət göstərə bilərsiniz. Bu da sizin fikir mübadiləsi aparmağımız üçün faydalı olacaqdır.

Azərbaycan elə bir ölkədir ki, bütün regional layihələrdə iştirak edir. Heç bir regional layihə bizim iştirakımız olmadan mümkün deyildir. Coğrafi-siyasi vəziyyəti nəzərə alaraq, hazırda biz çox güclü nəqliyyat infrastrukturunun yaradılmasına başlamışıq. Siz burada daha fəal ola bilərsiniz. Avropa-Asiya arasında daha fəal nəqliyyat yollarının açılmasında, enerji-nəqliyyat dəhlizlərinin yaradılmasında siz də iştirak edə bilərsiniz. Hətta bu regional layihələrdə öncül yerlərdə ola bilərsiniz. Bakı-Tbilisi-Ceyhan regional əməkdaşlığın çox bariz bir nümunəsidir. Qaz boru kəməri təbii qazın Azərbaycandan Türkiyəyə, daha sonra Avropaya çatdırılmasına imkan yaradacaqdır. Bu da çox yaxşı nümunədir. Hazırda biz dəmir yolu layihəsi üzərində işləyirik. Bu da Türkiyədən Gür-

cüstana, oradan da Azərbaycana, sonra isə Mərkəzi Asiyaya gedəcəkdir. Bu nəqliyyat gələcəkdə mal daşımalarının Avropadan Asiyaya çatdırılması üçün əlavə yeni imkanlar yaradacaqdır.

Ümumiyyətlə, demək istəyirəm ki, layihələr çoxdur. Ancaq biz milli məsələlərə də fikir veririk. Bu da ondan ibarətdir ki, iqtisadiyyatımızı müxtəlifləşdirməliyik, yüksək makroiqtisadi göstəricilərə nail olmalıyıq. Biz bu yolla getsək, ölkə əhalisinin həyatının daha da sürətlə yaxşılaşdırılmasına nail ola bilərik. Dediyim kimi, ÜDM bu il 20 faiz olacaqdır. Lakin bu ilin 8 ayı ərzində əhalinin gəlirləri 25-26 faiz artmışdır. Əhalinin banklarda olan kapitalı da get-gedə sürətlə artacaqdır. Lakin digər problemlər də var, biz onların həllinə çalışırıq. İqtisadi, sosial problemlər - bunlar sözsüz ki, keçid dövrünə xas olan problemlərdir. Lakin əminəm ki, biz iqtisadi siyasətimiz əsasında uğurlara nail ola biləcəyik.

Sizi bir daha salamlamaq istəyirəm. Hesab edirəm ki, sizin bu görüşünüz lazımi səviyyədə keçəcəkdir. Siz bir neçə gündür ki, buradasınız. Artıq yerli şəraitlə tanış olmusunuz. Biz də çalışacağıq, elə bir şərait yaradaq ki, özünüzü evinizdəki kimi hiss edəsiniz. Bilmirəm, biz buna nə dərəcədə müvəffəq olduq. Sizi bir daha salamlayır, uğurlar arzulayıram. Sağ olun.

FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN NİTQİ

- Möhtərəm cənab Prezident!

Hörmətli nazirlər!

Hörmətli forum iştirakçıları!

Cənab Prezident Əliyevin yaratdığı bu şəraitə görə mən ilk növbədə sizə minnətdarlığımı bildirirəm.

Mən dünən Bakıya səfərimi başlamışam və sözün əsil mənasında buradakı irəliləyişi görməkdən çox məmnun oldum. Mən Azərbaycana sonuncu dəfə təxminən 10 il əvvəl səfər etmişdim. İndi deyə bilərəm ki, Bakı çox gözəçarpan dərəcədə dəyişmişdir. Biz artıq indi iki ölkə arasında yeni əməkdaşlığın yaradılmasına nail olmalıyıq. Bu, o demək deyil ki, keçmişdə bizim heç bir əlaqəmiz olmayıbdır. Əksinə, tarixdə əlaqələrimiz mövcuddur. Finlandiyanın şirkətləri əvvəllər də burada işləyiblər və bundan sonra daha da fəal işləyə bilərlər.

Cənab Prezident Əliyevin qeyd etdiyi kimi, onlar burada nəinki özləri üçün, eyni zamanda, Azərbaycan və Finlandiya xalqlarının rifahı naminə işləyə bilərlər. Bu sahədə işlər görülsə, biznes icmalarımızı bir-birinə daha da yaxınlaşdırar. Bilirsiniz ki, Finlandiya artıq 10 ildir Avropa İttifaqının üzvüdür. Finlandiya Azərbaycanın Avropa İttifaqına yaxınlaşmasını istəyir. Gələn il ölkəmiz Avropa İttifaqına sədrlik edəcək və bu dövr ərzində biz çalışacağıq ki, ikitərəfli münasibətlərimizi daha da inkişaf etdirək.

Şübhəsiz ki, iqtisadi sahədə çox iş görə bilərik. Cənab Prezident, hesab edirik ki, iqtisadi əməkdaşlığımız üçün zəmin vardır. Ölkələrimiz arasında sərmayələrin qorunması haqqında saziş var və dünən də vergilər sahəsində saziş imzaladıq. Beləliklə, görürsünüz ki, irəliyə doğru addımlar atılır. Azərbaycandakı sürətli inkişaf Finlandiyanı xüsusi

maraqlandırır. Burada əyləşən şəxslər arasında ölkəmizin sənaye təmsilçiləri vardır. Sizi inandıra bilərəm ki, Finlandiyanın şirkətləri Azərbaycanda bizneslə məşğul olmaqda maraqlıdır. Mən Prezident İlham Əliyevi Finlandiyaya rəsmi səfərə dəvət etmişəm. Biznesdə çalışanları və ölkə rəsmilərini də dəvət edirəm ki, gəlib Finlandiyanın biznes imkanları ilə tanış olsunlar.

Ümumiyyətlə, ticarət və sənaye sahəsi Finlandiya üçün çox vacibdir. Biz beynəlxalq rəqabət şəraitində çox işlər görmüşük, çalışmışıq ki, nailiyyətlər əldə edək. Biz bu baxımdan kifayət qədər yüksək göstəriciyə nail olmuşuq. Ümumdünya İqtisadi Forumunun hesabatında Finlandiya qlobal rəqabət siyahısında ən mühüm yerlərdən birini tutur. Son beş il ərzində əldə etdiyimiz göstəricilər, həqiqətən, çox yüksəkdir. Burada əyləşən nazirimiz sizə bu barədə daha ətraflı məlumat verəcəkdir. O, bu göstəricilərin qazanılması üçün çox çalışmışdır.

Ümumdünya İqtisadi Forumu maliyyə sektorunun inkişafını, təhsil sahəsini, hüquqi bazanın inkişaf etdirilməsini xüsusi qeyd etmişdir. Çünki bu sahələrin inkişafı məhz korrupsiyaya qarşı mübarizənin aparılması işinə əsas yaradır. Finlandiya korrupsiyaya qarşı mübarizədə birinci yeri tutur. Yəni ən az korrupsiya faktları tapılan ölkədir. Hesab edirəm ki, bu sahədə əldə etdiyimiz təcrübəni sizinlə bölüşə bilərik ki, siz də bu sahədə uğurlar qazana biləsiniz.

Şübhəsiz ki, digər ölkələrlə müqayisədə Finlandiyanın təcrübəsi onunla fərqlənir ki, biz rəqabət sahəsində, yəni ictimai idarəetmənin ən optimal formalarına nail olmuşuq. Azərbaycan da bu sahədə bizim təcrübəmizdən istifadə edə bilər. Finlandiyanın və şirkətlərinin əldə etdiyi uğurlar, məhz insan ehtiyatlarına əsaslanan uğurlardır ki, o da bizim ali məktəblərin, təhsil sistemimizin yetişdirdiyi kadrların fəaliyyəti sayəsində mümkün olmuşdur. Bu gün fərəh hissi ilə deyirəm ki, Finlandiya təhsil sahəsində ən yüksək göstəricilərə nail olmuşdur.

Hörmətli xanımlar və cənablar!

Nazirimiz ticarət və sənaye haqqında məlumatları sizə verəcəkdir. Sonra geniş müzakirələriniz olacaqdır. Ümid edirəm ki, siz Finlandiya ilə gələcəkdə daha geniş iqtisadi əməkdaşlığın qurulmasına nail olacaqsınız.

Sizə bir daha minnətdarlığımı bildirirəm. Cənab Prezidentə xüsusi təşəkkür edirəm. Nazirlər də sizinlə, Finlandiyanın təmsilçiləri ilə birlikdə əyləşərək biznes üçün imkanları araşdıracaq və müzakirə edəcəklər. Bizə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə çox sağ olun. Gələn dəfə Helsinkidə görüşərik.

FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONEN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Sentyabrın 30-da Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Finlandiya Prezidenti Tarya Haloneni və onun həyat yoldaşı Pentti Arayarvini böyük səmimiyyətlə qarşıladılar.

Prezident Tarya Halonenə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa *ümummilli liderimizin* şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Xanım Tarya Halonen və Finlandiya nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Xanım Halonen dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, onun Avropa, Asiya ölkələrinin liderlərinin ümummilli *liderimizlə birgə* çəkdirdikləri fotoşəklin qarşısında Azərbaycan Prezidenti İlham Əliyevlə xatirə şəkli çəkdirdi.

Finlandiya Prezidenti Fondla tanış olduqdan sonra Xatirə kitabına öz ürək sözlərini yazdı: "Heydər Əliyevin xatirəsini yad edən maraqlı sərginizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu sərgi sizin dövlətinizin formalaşdırılmasına həsr olunub və Avropa tarixinin çox maraqlı bir hissəsini əks etdirir".

Sonra çay süfrəsi arxasında söhbət davam etdirildi. Prezident İlham Əliyev xanım Tarya Halonenə ölkəmizə səfəri zamanı çəkilmiş fotoşəkillərdən ibarət fotoalbom təqdim etdi.

Prezident Tarya Halonen və nümayəndə heyətinin üzvləri Fondun eyvanından Bakının görməli yerlərini seyr etdilər.

Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə ikigünlük rəsmi səfərdə olan Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen sentyabrın 30-da Bakıdan vətənə yola düşmüşdür.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR ŞURASININ 16-CI TOPLANTISININ BAKIDA KEÇİRİLMƏSİ QƏRARA ALINMIŞDIR

Oktyabrın 1-də Qazaxıstanın paytaxtı Astana şəhərində *İqtisadi* Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının (İƏT NŞ) 15-ci toplantısı keçirilmişdir. Toplantıda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

Azərbaycan nümayəndə heyətinin rəhbəri toplantıdakı çıxışında təşkilat çərçivəsində strateji tədqiqatlar mərkəzinin yaradılmasının və konkret layihələrin işlənib hazırlanmasının, Ticarət və İnkişaf Bankının təsis edilməsinin, İƏT layihələrinə regional və qlobal maliyyə institutlarının cəlb edilməsinin və İƏT-in digər regional əməkdaşlıq təş-

kilatları və ilk növbədə, Avropa İttifaqı ilə tərəfdaşlığının gücləndirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Toplantıda təşkilatın baş katibinin bir il ərzində görülmüş işlər barədə məruzəsi və İƏT Görkəmli Şəxslər Qrupunun təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılmasına dair təklifləri müzakirə edilmiş, İƏT-in bir sıra saziş və layihələri üzrə əlaqələndirici ölkələr təyin olunmuş, Azərbaycan "Tranzit daşımaları üzrə çərçivə Sazişi"nin əlaqələndiricisi təsdiq edilmişdir. Bundan əlavə, toplantıda təşkilatın büdcəsi və tədbirlərin təqvim planı təsdiqlənmişdir.

Tədbirdə "2015-ci ilədək İƏT perspektivləri" adlı *yekun sənədi qəbul* edilmişdir.

İƏT-in 9-cu zirvə görüşünün və Nazirlər Şurasının 16-cı toplantısının Bakıda keçirilməsi qərara alınmışdır.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa oktyabrın 2-də Bakıya üçgünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 3-də, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti xanım Vayra Vike-Freyberqanın təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev Latviya Prezidenti Vayra Vike-Freyberqanı Bakıda salamlamaqdan məmnunluğunu bildirdi, bu səfərin Azərbaycan ilə Latviya arasında bütün sahələrdə münasibətlərin daha da möhkəmləndirilməsinə yeni imkanlar açacağını söylədi, ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.

Azərbaycana rəsmi səfərə dəvətə görə, dövlətimizin başçısına minnətdarlıq edən Prezident Vayra Vike-Freyberqa bu səfəri tarixi hadisə adlandırdı, iki ölkə arasında münasibətlərdə yeni səhifənin açdığını, əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi. Ali qonaq dedi ki, Avropa strukturlarına inteqrasiyada Latviya Azərbaycanı gələcəkdə də dəstəkləyəcəkdir.

Görüşdə siyasi əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Latviya əməkdaşlığı məmnunluqla xatırlandı, iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulandı. Latviyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğu bildirildi.

Tərəflər beynəlxalq təhlükəsizlik, bölgədə mövcud olan münaqişələrin aradan qaldırılması məsələləri, ölkələrimiz arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 3-də Prezident sarayında Azərbaycan və Latviyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti xanım Vayra Vike-Freyberqanı bir daha salamlayaraq dedi ki, bu səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə yeni imkanlar açacaqdır. Hazırda iki ölkə arasındakı siyasi münasibətlər çox yüksək səviyyədədir. Ümidvaram ki, bundan sonra iqtisadi münasibətlərimiz də yaxşı səviyyədə inkişaf edəcəkdir.

Bu səfərin çox önəmli bir hadisə olduğunu və qarşılıqlı münasibətlərdə yeni səhifə açacağını vurğulayan dövlətimizin başçısı Latviyanın NATO-ya və Avropa İttifaqına tam hüquqlu üzv qəbul olunması ilə əlaqədar xanım Freyberqanı təbrik etdi və bildirdi ki, Azərbaycan da Avropaya inteqrasiya siyasəti yeridir. Bu baxımdan Latviyanın bizə verdiyi dəstəyin gələcəkdə davam etdirilməsi ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Regional məsələlərə, təhlükəsizlik məsələlərinə, bölgədə mövcud olan müxtəlif münaqişələrə münasibətdə bizim mövqeyimiz, fikirlərimiz, baxışlarımız Latviya ilə üst-üstə düşür və bundan məmnunuq. Azərbaycan ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə bundan sonra da öz töhfəsini verəcəkdir.

Azərbaycana ilk dəfə rəsmi səfərə gəlməsindən məmnun qaldığını bildirən Latviya Prezidenti Vayra Vike-Freyberqa səfərini tarixi hadisə kimi qiymətləndirdi və dedi ki, hesab edirəm, bu səfər uğurlu olacaqdır. Ölkələrimiz arasında hazırda siyasi əməkdaşlıq uğurla inkişaf edir, lakin iqtisadi sahədə də görəcəyimiz işlər çoxdur. Xanım Vayra Vike-Freyberqa Latviyanın iş adamlarından ibarət nümayəndə heyətinin də Azərbaycana gəldiyini xatırladaraq vurğuladı ki, Bakıda keçiriləcək biznes forumu iki ölkənin iqtisadi münasibətlərinin inkişafını gələcəkdə daha da sürətləndirəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident Vayra Vike-Freyberqa dedi ki, biz bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarıyıq və bunu dəstəkləyirik. Latviya Azərbaycanın Avropaya inteqrasiyası yolunda dəstəyini bundan sonra da davam etdirəcəkdir.

Ali qonaq birinci dünya müharibəsindən sonra Azərbaycan və Latviyanın müstəqillik qazandığını da xatırlatdı, indi, hər iki ölkə müstəqilliyini bərpa etdikdən sonra əməkdaşlıq üçün yeni imkanlar açıldığını diqqətə çatdırdı.

AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Oktyabrın 3-də, geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Latviya prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Birgə bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Latviya Respublikasının Mədə-

niyyət Nazirliyi arasında mədəniyyət sahəsində sazişi Azərbaycan tərəfindən mədəniyyət naziri Polad Bülbüloğlu, Latviya tərəfindən mədəniyyət naziri xanım Helena Demakovas, Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov, Latviya tərəfindən iqtisadiyyat naziri Krişyanis Arturs Karinş, Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Fərhad Əliyev, Latviya tərəfindən iqtisadiyyat naziri Krişyanis Arturs Karinş, Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotik və psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin aparılmasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən daxili işlər naziri Ramil Usubov, Latviya tərəfindən nəqliyyat və kommunikasiya naziri Aynars Şlesers imzaladılar.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Latviyanın iqtisadiyyat naziri Krişyanis Arturs Karinş Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması və vergidənyayınma hallarının qarşısının alınması haqqında sazişi və Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq sahəsində sazişi imzaladılar.

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 3-də Prezident sarayında Azərbaycan-Latviya sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və xanım Vayra Vike-Freyberqanın birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları mətbuat konfransında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm və dəvətimizi qəbul edib bizim ölkəmizə səfər etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm.

Ölkələrimiz arasında çox fəal siyasi münasibətlər mövcuddur. Biz bu münasibətlərin inkişaf səviyyəsindən çox məmnunuq. Bu əlaqələrin digər sahələrdə də inkişaf etdirilməsi üçün bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik. Azərbaycan bu yaxınlarda Latviyada səfirliyini açmışdır. Artıq səfirlik fəaliyyətə başlamışdır. Bu da bizim ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyətin mühüm bir əlamətidir.

Bizim bir çox ümumi cəhətlərimiz vardır. Keçmişdə ümumi oxşarlıqlarımız çox olubdur. Ölkələrimiz müstəqillik qazandıqdan sonra yaranmış vəziyyətdən bəhrələnərək, iqtisadiyyatın bütün sektorlarında, habelə siyasi sahədə münasibətlərin qurulması üçün

çox çalışmalıyıq. Mən ümid edirəm ki, Latviya Respublikası Prezidentinin səfəri və özəl sektorun nümayəndələrinin ölkəmizə gəlişi, keçiriləcək biznes forumu iqtisadi münasibətlərin daha da genişləndirilməsinə imkanlar yaradacaqdır. Bu işlərin görülməsi üçün çox yaxşı əsas var.

Azərbaycan iqtisadi baxımdan çox sürətlə inkişaf edən ölkədir və gələcək üçün bizim çox yaxşı perspektivlərimiz mövcuddur. Əminəm ki, Latviyanın iş adamları ölkəmizdə həyata keçirilən müxtəlif layihələrdə iştirak edə bilərlər.

Apardığımız danışıqların aspektlərindən biri Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrə aid idi. Müstəqillik qazandıqdan sonra Azərbaycan Avropaya inteqrasiya siyasətini qətiyyətlə həyata keçirir. Ölkəmizin Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi bu qurumun Azərbaycana və bütün regiona olan marağından xəbər verir. Hesab edirəm ki, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nin Cənubi Qafqaz regionunda həyata keçirilməsi bizim üçün yeni imkanlar açacaqdır. Bu, həm də region ölkələrinin siyasi və demokratik inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, həmin siyasət münaqişələrin də aradan qaldırılmasına müəyyən töhfə verəcək və təbii ki, iqtisadi baxımdan Azərbaycan Avropa İttifaqına daha sıx inteqrasiya edəcəkdir.

Buna görə də münasibətlərimizdə ikitərəfli, regional məsələlər, təhlükəsizlik məsələləri, Avropa İttifaqı ilə Azərbaycan arasında olan münasibətlər bizim üçün çox böyük əhəmiyyət daşıyır. Bütün bu istiqamətlər üzrə bizim tam anlaşmamız var, eyni yanaşmamız mövcuddur. Ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz arasında münasibətlər, habelə Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoyacaqdır.

Avropa İttifaqının digər üzvlərindən fərqli olaraq, Latviya bizim problemlərimizi daha yaxşı başa düşür. Çünki biz eyni ölkədə yaşamışıq. Müstəqillik əldə etdikdən sonra qarşımızda yeni imkanlar açılıb və beləliklə, hər iki ölkə maksimum dərəcədə bütün imkanlardan istifadə edərək müstəqilliyini, təhlükəsizliyini möhkəmləndirməyə və yaxşı qonşuluq ruhunda inkişaf etməyə çalışır.

Mən xanım Prezidentlə keçirdiyim görüşlərdən və apardığımız müzakirələrdən də çox məmnunam. Müzakirə etdiyimiz məsələlərdən biri regional məsələlərə və Qafqazdakı münaqişələrə aid idi. Bildiyiniz kimi, dünyanın bu guşəsində biz uzun illər torpaqlarımızın işğalından və ərazi bütövlüyümüzün pozulmasından əziyyət çəkirik. Problemin həllinə bizim yanaşmamız yalnız və yalnız beynəlxalq hüquq normalarına, yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və 1 milyondan çox qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarına qayıtması prinsipinə əsaslanır.

Biz ümidvarıq ki, Dağlıq Qarabağ probleminin aradan qaldırılmasında vasitəçilik funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu bu istiqamətdə öz işini fəal surətdə davam etdirəcəkdir. Eyni zamanda digər təşkilatlar, xüsusən də Avropa təşkilatları bundan sonra da həmin məsələni diqqət mərkəzində saxlayacaqdır. Biz cari ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamədən çox məmnunuq. Həmin sənəddə aydın şəkildə bildirilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, etnik təmizləmə siyasəti aparmışdır və bunun nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz ümid edirik ki, bu qətnaməyə əməl olunacaq və Avropa İttifaqının da bu qətnaməyə davamlı diqqəti bizə və beynəlxalq ictimaiyyətə münaqişənin dinc yolla nizamlanmasına öz töhfəsini verəcəkdir.

Biz eyni zamanda, beynəlxalq əhəmiyyət daşıyan məsələləri də müzakirə etdik və bu sahədə mövqelərimiz üst-üstə düşür.

Xanım Prezident, bizim dəvətimizi qəbul etdiyinizə və ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Bu, Latviya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Mən eyni zamanda, bütün nümayəndə heyətinə də öz təşəkkürümü bildirir və ümid edirəm ki, bu gün və sabah keçirdiyiniz görüşlər ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır. Siz bizim ölkəmizdə öz tərəfdaşlarınızı taparaq, istənilən sahədə ölkələrimiz arasında əməkdaşlığı daha da genişləndirəcəksiniz. Çox sağ olun.

LATVİYA PREZİDENTİ VARYA VİKE-FREYBERQANIN BƏYANATI

- Cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İcazənizlə, çıxışıma mənə göndərdiyi xoş dəvətə görə Azərbaycan Prezidentinə minnətdarlıqla başlayım. Ölkənizə səfər etməkdən şərəf hissi duyuram və olduqca məmnunam. Biz böyük nümayəndə heyəti ilə birlikdə səfəri davam etdirmək niyyətindəyik. Nümayəndə heyətinin bütün üzvləri ölkənizin son illər ərzində əldə etdiyi nailiyyətlərlə tanış olmaqda çox maraqlıdırlar. Prezident Əliyevin dediyi kimi, mövqelərimizin və məqsədlərimizin üst-üstə düşməsini mən də məmnunluqla bildirirəm. Bir çox onilliklər ərzində bizim oxşar taleyimiz olubdur. Totalitar rejimdə yaşadıqdan sonra biz öz müstəqilliyimizi bərpa etmişik. Hazırda azad bazar iqtisadiyyatı qurmaqdayıq. Baxmayaraq, bəzi hallarda əhalinin müəyyən təbəqələri üçün bu proses ağrılı keçir, lakin biz anlayırıq ki, bu, gələcək naminə qoyulan sərmayədir və ölkədə həyat tərzinin yaxşılaşdırılması üçün ən faydalı üsuldur.

Təbii ki, biz üç Baltikyanı ölkədə - Latviya, Litva və Estoniyada olduğu kimi, Azərbaycanda da demokratik təsisatların daha da inkişaf etməsində çox maraqlıyıq. Demokratik sistem qurulduqda səhvlər də olur, bəzən şikayətlər və tənqid də eşidilir. Lakin o da aydındır ki, bu, mövcud olan münasib sistemlərdən biridir.

Beləliklə, uzun illər boyu mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan və mərkəzdən idarə edilən ideoloji sistemdən yeni sistemə keçirik. Bu yeni sistemdə bütün vətəndaşlar idarəçilik prosesində fəal iştirak edirlər. Onlar maraqlarını təmsil edən təsisatların işini və fəaliyyətini öyrənməlidirlər. Vətəndaşlar namizədlərə səs verərək, öz maraqlarının təmin olunmasına çalışır və görülən işlərin nəticələri ilə razı olmayanda, öz fikirlərini dəyişir və yeni seçkiləri gözləyirlər. Bu amil açıq və sarsılmaz əsaslar üzərində qurulan cəmiyyət üçün olduqca vacibdir.

Biz Azərbaycanın əldə etdiyi nailiyyətləri görməkdən məmnunuq və Prezidentin müxtəlif beynəlxalq qurumlarla, Beynəlxalq Valyuta Fondu, Avropa İttifaqı, NATO kimi təşkilatlarla əməkdaşlıq etmək arzusunu və mövqeyini yüksək qiymətləndiririk.

Bildiyiniz kimi, Latviya bir çox mühüm təşkilatların üzvüdür və onların hər birində Azərbaycan bizim dəstəyimizə arxalana bilər. Latviya Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələsini bütün Avropa qitəsi üçün vacib amil kimi dəyərləndirir. Sabit, tərəqqi edən və demokratik ölkənin qurulması sizin marağınızdadır. Lakin, bu, Avropa İttifaqı üçün də vacibdir. Biz ölkəniz ilə Avropa Komissiyası və NATO arasında daha sıx əməkdaşlığın qurulmasında sizə yardımçı olmağa və təcrübəmizi bölüşməyə hazırıq.

Bizim ölkəmiz bəzən çox mürəkkəb islahatlar prosesindən keçmək məcburiyyətində olmuşdur. Lakin bu o demək deyil ki, biz istənilən sahədə model kimi sayıla bilərik. Bizim də görəcəyimiz işlər çoxdur. Biz islahatlarımızı davam etdiririk, demokratik və iqtisadi təsisatları inkişaf etdiririk. Hər bir vətəndaşın yaşayış tərzini yaxşılaşdırmağa çalışırıq. Zənnimcə, qarşımızda tarixi imkanlar açılır və biz əvvəlki əsrdə gördüyümüzdən daha yaxşı cəmiyyət və ölkələr qurmağa nail olacağıq. Bu, asan yol deyildir. Bununla belə, qarşımıza qoyduğumuz məqsədlər bizə aydındır və həmin məqsədlərə çatmağın ən münasib yolu müttəfiqlərimiz və dostlarımızla birgə işin aparılmasıdır.

Sözlərimi yekunlaşdıraraq deyirəm ki, biz bir ölkə kimi Azərbaycana böyük müvəffəqiyyətlər arzulayırıq. Sizinlə, yeni tərəfdaşımızla daha sıx əməkdaşlıq qurmaq fikrindəyik. Bütün vacib sahələrdə bu gün imzaladığımız sazişlər irəliyə doğru atılan mühüm addımdır və gələcək əməkdaşlığımız üçün hüquqi çərçivə yaradır. Biz bu münasibətləri dərinləşdirmək və genişləndirmək arzusundayıq. Gələcəkdə sizin müttəfiqimiz və dostunuz olmaq fikrindəyik.



Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab Prezident İlham Əliyev, Azərbaycanda keçirilmiş son prezident seçkiləri bir sıra beynəlxalq təşkilatlar tərəfindən tənqid edilmişdi. İndi isə söhbətlər gəzir ki, qarşıdan gələn parlament seçkilərində qanun pozuntuları olacaqdır. Bir sıra hallarda Amerika və Avropa siyasətçiləri tərəfindən bu məsələlərə dair səsləndirilən tənqid həqiqətə uyğundurmu?

İLHAM ƏLİYEV: 2003-cü ildə keçirilmiş prezident seçkiləri ilə bağlı biz o qədər də böyük tənqidlə üzləşməmişik. Avropa İttifaqının bu məsələ ilə bağlı mövqeyi həmin qurumun bəyanatında aydın şəkildə açıqlanmışdır və həmin mövqe müsbət olmuşdur. O bəyanatda verilən təsvir ölkədəki seçkilərin nəticələrini və ümumi vəziyyəti tam əks etdirmişdir. Eyni zamanda, təbii ki, seçki prosesi tamamilə müasirləşdirilməli və beynəlxalq standartlara cavab verməlidir. Biz bununla lazımınca məşğul oluruq. Gələn ay keçiriləcək parlament seçkiləri üçün bütün lazımi işlər yerinə yetirilməkdədir. Burada yeganə məqsəd var: parlament seçkiləri düzgün və ədalətli olmalıdır. Hazırda proses rəvan və çox müsbət istiqamətdə gedir. Qeydiyyat prosesi heç bir çətinlik və şikayət olmadan başa çatmışdır. İndi isə seçki kampaniyası başlayıbdır. 125 yer uğrunda mübarizə aparan 2 mindən çox namizəd artıq seçki kampaniyasına qoşulubdur. Onların hamısına bərabər şərait yaradılır, onlar azad yığıncaqlar keçirə bilir, ictimai televiziyada, digər özəl televiziya və radio kanallarında çıxış edirlər. Ona görə də burada problemin olmasını göstərən heç bir əlamət yoxdur.

O ki qaldı ATƏT-in müşahidəçi missiyasına, artıq onlar Azərbaycanda işləyirlər. Onlar

seçki prosesi və kampaniyası haqqında ilkin hesabat hazırlamışlar. Əgər bir sıra cüzi texniki məsələləri istisna etsək, ümumiyyətlə, o hesabat da müsbətdir. Əminəm ki, noyabrda parlament seçkiləri azad, ədalətli şəkildə keçiriləcək və Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

SUAL: Mənim sualım Latviya Prezidentinədir. Cənubi Qafqaz regionunda, xüsusən də Dağlıq Qarabağda separatçı rejimlər davam etməkdədir. Sizin XXI əsrin əvvəlində separatçı hərəkətlərə münasibətiniz necədir?

VAYRA VİKE-FREYBERQA: Latviyanın mövqeyi Avropa İttifaqının mövqeyinə uyğundur və hesab edirik ki, ərazi bütövlüyü hər bir suveren dövlətin fundamental hüququdur. Ərazi iddiaları əsasında mübahisə olan hallarda bu, diplomatik kanallar vasitəsilə aparılan açıq danışıqlar yolu ilə aradan qaldırılmalıdır. Münaqişənin aspektləri ilə bağlı müəyyən güzəştlər olmalıdır. Çünki bizim təcrübəmiz göstərir ki, əgər hər hansı bir tərəf mövqeyini sərtləşdirsə, onda münaqişələr onilliklər ərzində uzanır, həll olunmur və nəticədə belə addımlar hərbi əməliyyatlara aparır. Belə olan halda hər iki tərəf itkilər verir, insan tələfatı olur, iqtisadi inkişaf zəifləyir. Həmin ölkələrdə yaşayan sakinlər üçün təhlükəsizlik pozulur. Nəticədə xarici sərmayələr cəlb oluna bilmir, beynəlxalq bazarlara çıxış məhdudlaşır. Avropada bir-birilə qarşıdurmada olan, hətta qanlı müharibədən keçmiş ölkələr İkinci Dünya müharibəsindən sonra bir-birilə ümumi dil tapmışlar. Məsələn, Fransa ilə Almaniyanı, Fransa ilə Britaniyanı, yaxud Britaniya ilə Hollandiyanı götürək və sair. Bu müharibələrə baxmayaraq, həmin dövlətlər bütün mənfi amilləri tarixdə saxlaya bilmişlər. Keçmişdə sərhədlər çox vaxt adi bir qərarlar əsasında çəkilmişdir və bir çox hallarda həmin ərazilərdəki etnik tərkibə nəzər yetirmədən müəyyən olunurdu. Lakin bu cür uzun çəkən silahlı münaqişələrin yaranması ehtimalını azaltmaq üçün rəhbər tutulacaq yeganə prinsip ərazi bütövlüyünün qorunmasıdır. Bu prinsip bütün dünyada qəbul olunubdur. Avropa İttifaqının bir üzvü olaraq biz həmin prinsipin gözlənilməsinin tərəfdarıyıq.

SUAL: Mənim sualım iki hissədən ibarətdir. Birinci hissə Latviyanın xanım Prezidentinədir. Dağlıq Qarabağ probleminin həlli Azərbaycanla daha geniş əməkdaşlıq aparılması üçün faydalı olacaqmı?

Mən cənab Prezident Əliyevdən soruşmaq istərdim, bu proses hələ başa çatmamışdır. Azərbaycan bu istiqamətdə gələcək addımları necə görür və problemi necə həll etmək istəyir?

VAYRA VİKE-FREYBERQA: Bayaq dediyim kimi, hər hansı bir münaqişədə məsələnin iki tərəfi var. İstənilən ölkədə müxtəlif etnik tərkibdə anklav mövcuddursa, ona həssas yanaşmaq lazımdır. Prezident Əliyev danışıqlarda bildirdi ki, Azərbaycan Dağlıq Qarabağın etnik tərkibini nəzərə alaraq, bütün aspektləri nəzərdən keçirməyə və oradakı etnik azlığa öz dilində danışmaq və mədəni irsini davam etdirmək imkanları yaratmağa hazırdır. Hesab edirəm ki, uzunmüddətli həll yolunun tapılması üçün vacib olan ilkin şərtlərdən biri qarşılıqlı hörmətdir.

İLHAM ƏLİYEV: Azərbaycanın bu münaqişə ilə bağlı mövqeyi beynəlxalq hüquq normaları və prinsiplərinə arxalanır. Bütün dünyada ölkələr arasındakı mürəkkəb münasibətlərin həlli də beynəlxalq prinsiplərə əsaslanmalıdır. Bu, kiminsə arzularına əsaslanmalı deyildir. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həllini Azərbaycan

Respublikasının ərazi bütövlüyünün bərpasında görürük. Azərbaycanın ərazi bütövlüyü Ermənistan tərəfindən pozulmuşdur. Hazırda bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Dağlıq Qarabağın özü və onun ətrafındakı 7 inzibati rayon işğal altındadır. Həmin rayonlarda heç vaxt ermənilər yaşamayıblar. Bu münaqişə nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Bu məsələ Avropa Şurasının qətnaməsində əks olunmuşdur. Ermənistan Azərbaycana qarşı təcavüz etmiş və etnik təmizləmə aparmışdır. Bizim məsələyə yanaşmamız çox ədalətlidir və beynəlxalq hüquqa arxalanır. Biz Dağlıq Qarabağdakı ermənilərə yüksək səviyyəli muxtariyyət statusu verə bilərik. Onlara beynəlxalq səviyyədə siyasi təhlükəsizlik təminatı da verə bilərik. Lakin bir şərtlə ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bütün dünyada və Avropada da müsbət təcrübə vardır. Məsələn, Skandinaviya ölkələrində və digər ölkələrdə bu cür təcrübələr var. Ona görə də Dağlıq Qarabağdakı muxtariyyət dünyada və ya Avropada mövcud olan muxtariyyətdən seçilməli deyil. Bəzi hallarda müəyyən sözlər deyilir və bunlar yanlış təəssürat yaradır. Məsələn, onlar deyirlər ki, xalqların öz müqəddəratını təyin etmək hüququ var. Onu demək istəyirəm ki, ermənilər bir millət, xalq kimi öz müqəddəratını artıq təyin ediblər. Onların Ermənistan dövləti var. Ermənilər indi bir çox ölkələrdə yığcam şəkildə yaşayırlar. Siz təsəvvür edin, əgər onlar yaşadıqları bu ölkələrdə öz müstəqilliklərini tələb etsələr, nələr baş verər. Ona görə də münaqişənin həlli yolu Ermənistan qoşunlarının bizim ərazidən çıxmasıdır. Bu məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var ki, onlar da yerinə yetirilməlidir. Məcburi köçkünlər və qaçqınlar öz doğma yerlərinə qayıtmalıdırlar. Siyasi təhlükəsizlik təminatı olmalıdır və Dağlıq Qarabağa yüksək səviyyəli muxtariyyət verilməlidir. Biz bu məsələnin həllinin yeganə yolunu belə görürük.

SUAL: Mənim sualım hər iki prezidentədir. Latviya və Azərbaycan arasında iqtisadi əməkdaşlığın hansı konkret sahələrini sadalaya bilərsiniz?

VAYRA VİKE-FREYBERQA: Biz hesab edirik ki, perspektivlər çox böyükdür. Hər iki ölkədə gözəçarpan iqtisadi inkişaf müşahidə olunur. Hazırda iqtisadi münasibətlər genişlənməkdədir. Xüsusən son iki il ərzində buna xüsusi diqqət yetirmişik. Gələn ilin yazında Bakıda Latviyanın səfirliyini açmağı planlaşdırırıq. Eyni zamanda, iki ölkə arasında hava uçuşlarının həyata keçirilməsini planlaşdırırıq. Bilirsiniz ki, Latviya artıq güclü ölkəyə çevrilir, Avropa İttifaqının 25 üzvündən biridir. Biz bu qurumun Gömrük İttifaqına daxilik. Bu baxımdan sizin iş adamları bizim iş adamları ilə yaxşı əməkdaşlıq edə, ölkəmiz vasitəsilə Avropa məkanına, bazarlarına çıxa bilərlər. Əminəm ki, onlar işbirliyinin qurulması üçün ümumi sahələr tapa biləcəklər.

İLHAM ƏLİYEV: Latviya və Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrdir. Hər iki ölkədə gözəçarpan iqtisadi artım müşahidə olunmaqdadır. Bu göstəricilərə əsaslanaraq, biz iqtisadi vəziyyətimizi keyfiyyətcə yaxşılaşdıra bilirik. Əminəm ki, xanım Prezidentin ölkəmizə səfərindən sonra iş adamları arasında əlaqələr, təmaslar daha da sıx olacaqdır.

Biz görürük ki, artıq bu əməkdaşlıq yaranır. Bizim iş adamları qarşılıqlı maraq doğuran sahələr üzrə əlaqələr qurmalıdırlar. Bunun üçün çox möhkəm əsaslar var, yaxşı siyasi münasibətlərimiz var. Şübhəsiz ki, Bakıda Latviya səfirliyinin açılması ölkələrimiz arasında məlumatların daha geniş şəkildə yayılmasına imkan verəcəkdir. Bəzən belə də

olur ki, müstəqillik qazandıqdan sonra ölkələrin bir-biri haqqında məlumatı o qədər də çox olmur, təmaslar o qədər də yüksək səviyyədə olmur. Lakin Latviyaya gəldikdə, bizim sıx əlaqələrimiz var. İş adamlarımızda bu ölkə haqqında məlumat var. Biz isə bu prosesin daha da asanlaşdırılması üçün mümkün olan bütün işləri görməyə hazırıq. Əminəm ki, gələn illər ərzində iqtisadi əməkdaşlıq gözəçarpan dərəcədə artacaqdır.

LATVİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Oktyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Latviya Prezidenti xanım Vayra Vike-Freyberqanın və onun həyat yoldaşı İmants Freyberqsin şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.

Prezident İlham Əliyev və Prezident Vayra Vike-Freyberqa qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident!

Hörmətli cənab İmants Freyberqs!

Xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə mən, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Latviya və Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Latviya Prezidentinin Azərbaycana ilk səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında əlaqələri yeni səviyyəyə qaldıracaqdır. Keçirdiyimiz görüşlər və apardığımız müzakirələrlə bağlı məmnunluq hissimi vurğulamaq istəyirəm. Biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Aramızdakı siyasi dialoqun səviyyəsindən çox razıyam. Eyni zamanda ümid edirəm ki, bundan sonra bizim münasibətlərimiz bütün sahələrdə böyük sürətlə inkişaf edəcəkdir. İmzalanmış Birgə bəyannamə və digər sənədlər, iki ölkənin iş adamlarının keçirdiyi biznes forumu əməkdaşlığımızın inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir.

Mən Latviya ilə Azərbaycan arasında əməkdaşlığın bütün sahələrdə dərinləşməsinin tərəfdarıyam. Biz bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün Latviyada səfirlik açmışıq.

Ölkələrimizin tarixində oxşar məqamlar çoxdur. Müstəqillik uğrunda mübarizə əzmi xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmışdır. Bu gün Latviyada böyük Azərbaycan icması yaşayır. Mən Latviyanın dövlət strukturlarının soydaşlarımıza göstərdiyi münasibətdən məmnunam. Buna görə Sizə təşəkkür edirəm.

Azərbaycan Latviya ilə həm də regional təşkilatlar çərçivəsində, o cümlədən Baltik Dənizi Dövlətləri Şurası çərçivəsində əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlıq Baltik-Qara dəniz-Xəzər hövzəsi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir.

Bu gün Azərbaycan sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun real artımının 20 faiz, 2006-cı ildə isə 30 faiz ola-

cağı gözlənilir. Bu yüksək göstəricilər ölkəmizdə yoxsulluğun azaldılması və davamlı inkişaf proqramını həyata keçirmək üçün möhkəm zəmin yaradır. Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə iqtisadiyyatımıza 25 milyard dollar məbləğində sərmayə qoyulmuşdur.

Azərbaycan Avropa və Avratlantik strukurları ilə sıx əməkdaşlıq edir. Çox məmnunam ki, Azərbaycan Avropa Şurasına Latviyanın bu təşkilatda sədrliyi dövründə daxil olmuşdur. Hörmətli xanım Prezident, bu məsələdəki mövqeyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək, ötən il ölkənizin Avropa İttifaqına və NATO-ya üzv qəbul edilməsi ilə əlaqədar Sizi təbrik edirəm.

Biz Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə xüsusi diqqət yetiririk. "Yeni qonşuluq siyasəti"nə xüsusi əhəmiyyət verərək, ölkəmizin Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası yaratmışıq. Mən bu təsisatlarla əməkdaşlıqda Latviyanın Azərbaycana verəcəyi dəstəyə görə əvvəlcədən təşəkkürümü bildirirəm.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq əhəmiyyətli layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri Azərbaycan neftini cari ilin sonuna qədər dünya bazarlarına çıxaracaqdır. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TRASEKA proqramının, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin həyata keçirilməsi həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu ölkənin hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Azərbaycan münaqişənin beynəlxalq hüquq, ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə həllini, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə Latviyanın da dəstəyinə böyük ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Xanım Prezident, icazə verin, bu badəni Sizin sağlığınıza, cənab İmants Freyberqsin sağlığına, Azərbaycan ilə Latviya arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

Sağ olun.

LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQANIN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Latviya müstəqilliyini əldə etdiyi vaxtdan və ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasından sonra ilk dəfə olaraq, böyük sevinclə Sizin ölkənizə səfər etməkdən məmnunam. Əminəm ki, sıx ölkələrarası əlaqələrimiz qarşılıqlı etimad əsasında qurulubdur. Xalqlarımız arasında sıx səmimi əlaqə yaranıb, parlament üzvlərinin, hökumət nümayəndələrinin və diplomatların gördüyü işlər bizim əlaqələrimizin özülünü qoyubdur. Bizim imzaladığımız Birgə bəyannamə və nümayəndələrimizin imzaladıqları sazişlər gələcək intensiv əməkdaşlığın əsasını təşkil edəcəkdir.

Bizim xalqlarımızı birləşdirən səmimi əlaqələr barədə dedim. Həmin əlaqələr ölkələr arasında da mövcuddur. XIX əsrin sonu - XX əsrin əvvəlində xalqlarımızın inkişafında bir çox eyniliklər var idi. O illər hər iki xalq üçün özünüdərketmə dövrü idi və insanlar öz dilləri və mədəniyyətlərini qorumağa və inkişaf etdirməyə çalışırdılar. Müstəqilliyə can atmaq və ədalət istəyi bizim xalqların ümumi xüsusiyyətləridir.

Ədalət uğrunda canını qurban vermiş insanlar bizim xatirimizdədir. 1990-cı ildə baş vermiş Qara yanvar faciəsinin dəhşətini və Azərbaycan xalqının həyəcanını Latviyada heç bir insan unutmamışdır. Bu hadisələr insanların yaddaşına həkk olunmuşdur.

Latviya və Azərbaycan arasında siyasi əlaqələr siyasi müstəqillikdən sonra bərpa olunmuşdur. Keçən il Latviya özünün iki məqsədinə nail olmuşdur. Bunlar Avropa İttifaqına və NATO-ya üzv olmaqdır. Həmin təşkilatlarda mövqelərimizin möhkəmləndirilməsi məqsədi ilə fəaliyyətimizi davam etdirməliyik. Avropa İttifaqının genişlənməsi və gələcək inkişafı naminə ümumi müzakirələrdə iştirak edirik. Azərbaycanın həmin təşkilatlarla əməkdaşlığı davam etdirmək yolunu seçməsini böyük məmnuniyyətlə vurğulayıram. Azərbaycanın Avropa İttifaqına və ya NATO-ya daxil olmaq arzusu olduğu təqdirdə, biz öz tərəfimizdən sizi dəstəkləyəcəyimizə zəmanət veririk.

Bir neçə gün öncə Azərbaycanın Latviya Respublikasındakı səfiri cənab Tofiq Zülfüqarovun etimadnaməsini böyük məmnuniyyətlə qəbul etdim. Azərbaycan xalqı layiqli nümayəndələrindən birini bizə göndərmişdir. Ümid edirəm ki, buna cavab olaraq, ilin axırına kimi Bakıda Latviya Respublikasının səfirliyi fəaliyyətə başlayacaqdır. Şübhəsiz, səfirliklərin açılması ölkələrimiz arasındakı əlaqələrin həm hökumət səviyyəsində, həm də qeyri-hökumət səviyyəsində inkişafına yeni imkanlar yaradacaqdır. Sizin gözəl, qədim və sürətlə inkişaf edən şəhərinizi görməkdən çox şadam. Bu inkişaf hər addımda hiss olunur.

Sizin ölkəniz cəsarətlə regionun liderlərindən biri olur. Latviya nümayəndə heyətinin hər bir üzvü iki ölkə arasında əlaqələrin böyük potensiala malik olduğuna əmin olmuşdur.

Cənab Prezident, qonaqpərvərliyə və dostcasına qəbulunuza görə Sizə minnətdaram. Ümidvaram ki, Siz münasib bir vaxt tapıb, Latviya öz müstəqilliyini əldə etdikdən sonra baş vermiş dəyişiklikləri görmək üçün bizim ölkəmizə səfər edəcəksiniz.

Bu badəni dostluq, əməkdaşlıq və gələcək tərəqqi şərəfinə qaldırıram!

Ölkələrimiz arasında uğurlu əməkdaşlıq şərəfinə!

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU

Azərbaycan-Latviya biznes forumu oktyabrın 4-də "Hyatt Regensy-Naxçıvan" hotelində Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti xanım Vayra Vike-Freyberqanın iştirakı ilə öz işini davam etdirmişdir. Forum iştirakçıları dövlət başçılarını alqışlarla qarşıladılar.

İqtisadi inkişaf naziri Fərhad Əliyev forumun növbəti iclasını açaraq, dövlət başçılarını və qonaqları salamladı, prezidentlər İlham Əliyev ilə xanım Vayra Vike-Freyberqa arasında danışıqların və imzalanmış sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün əhəmiyyətini vurğuladı. Bildirildi ki, prezidentlərin biznes forumunda iştirakı iş adamlarını daha sıx əməkdaşlıq etməyə ruhlandırır.

Nazir forum çərçivəsində hər iki ölkənin investisiya imkanları haqqında geniş məlumat verildiyini, iş adamlarının ikitərəfli görüşlərinin təşkil olunduğunu, Latviyada istehsal edilmiş bəzi ərzaq məhsullarının dequstasiyasının keçirildiyini, forumda Azərbaycan və Latviya tərəfindən neft, qaz, nəqliyyat, rabitə, bank-maliyyə, nəşriyyat, informasiya texnologiyaları, yeyinti məhsullarının, tikinti materiallarının istehsalı üzrə ixtisaslaşmış 200-dən artıq şirkətin təmsil olunduğunu bildirdi. Nazir dedi ki, ikitərəfli görüşlər nəticəsində imzalanmaq üçün çoxlu sənədlər hazırlanmışdır.

Latviyanın iqtisadiyyat naziri Krişjanis Karinş çıxış edərək, forumun çox əhəmiyyətli, aparılan müzakirələrdə səslənən fikirlərin oxşar olduğunu söylədi. Fəallıqlarına görə Azərbaycanın biznes nümayəndələrinə təşəkkür edən nazir dedi ki, Latviya biznesmenləri müxtəlif ölkələrin təmsilçiləri ilə görüşmüşlər, lakin ürəkdən deyirəm ki, Azərbaycanın biznesmenləri, iş adamları, doğrudan da, peşəkardırlar və biz bunu çox yüksək qiymətləndiririk.

O, dövlət başçılarının iştirakı ilə imzalanmış və iş adamları arasında imzalanacaq sazişlərin iki ölkənin gələcək əməkdaşlığı üçün çox önəmli olduğunu vurğuladı.

Latviyalı nazir gələn il Riqada biznes forumun keçiriləcəyini, birbaşa hava xəttinin açılması ilə ölkələrimiz arasında əlaqələrin gücləndəcəyini söylədi, qarşılıqlı əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirdi.

Prezidentlər İlham Əliyev və Vayra Vike-Freyberqa forumda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident!

Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən bütün qonaqlarımızı bir daha salamlamaq istərdim. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, bu səfər və onun çərçivəsində imzalanmış sənədlər,

habelə biznes forumu münasibətlərimizdə yeni səhifə açacaqdır. Səfər başa çatır və biz onun nəticələrindən çox razıyıq. Çox yaxşı müzakirələrimiz oldu. Müxtəlif məsələlərə - ikitərəfli münasibətlərə, regional inkişafa, Avropa strukturlarına inteqrasiyaya dair ətraflı fikir mübadiləsi apardıq. Təbii ki, ölkələrimiz arasında əlaqələrin vacib aspektlərindən biri iqtisadi münasibətlərdir.

Bu gün birgə biznes aparılması üçün çox yaxşı imkanlar yaranıbdır. Hər iki ölkənin imkanları qiymətləndirilə və uğurlu iqtisadi əməkdaşlıq üçün lazımi əsas yaradıla bilər. Hesab edirəm ki, hazırkı biznes forumunun yekunları onu nümayiş etdirdi ki, tədbir uğurla keçmişdir. Biz artıq məlumat almışıq ki, bir sıra sənədlər imzalanmışdır. Fikrimcə, gələcəkdə, iş adamları bir-birini daha yaxşı tanıdıqdan və imkanlar, o cümlədən hüquqi baza, vergilər, sərmayələrlə bağlı şərait haqqında daha dolğun məlumat əldə etdikdən sonra bizim daha sıx təmaslarımız olacaq və yeni sazişlər imzalanacaqdır.

Azərbaycan hər sahədə, o cümlədən iqtisadi baxımdan sürətlə inkişaf edən ölkədir. Cari ilin ilk səkkiz ayı ərzində Azərbaycanda ÜDM 20 faiz, sənaye istehsalı 26 faiz, əhalinin real gəlirləri 27 faiz artmışdır. Ölkəmizə birbaşa yatırılan xarici sərmayələrin ardı kəsilmir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan regionda və bütün keçmiş SSRİ məkanında birinci yerlərdən birini tutur. Biz sərmayələr üçün çox əlverişli şərait yarada bilmişik. Bütün sərmayələr hökumət və qanunvericilik tərəfindən lazımi səviyyədə qorunur. Son on il ərzində ölkə iqtisadiyyatına yatırılmış 25 milyard ABŞ dolları həcmində xarici sərmayələr Azərbaycana göstərilən etimadın ən bariz nümunəsidir. Bu etimad etibarlı tərəfdaşlığa, ölkənin gələcəyinə əsaslanır.

Sərmayədarlar üçün gələcək vəziyyətin proqnozlaşdırılması da böyük əhəmiyyət kəsb edir. İqtisadi inkişaf üçün başlıca amil sayılan siyasi sabitlik ölkəmizdə bərqərar olunubdur. Hazırda hökumət iqtisadiyyatı şaxələndirməyə çalışır. Əlbəttə ki, ilkin mərhələlərdə sərmayədarlar üçün ən cəlbedici sahə neft və qaz sənayesi idi. Bu istiqamətdə biz gözəçarpan nailiyyətlər əldə etmişik. Bir neçə il bundan əvvəl xülya kimi görünən Bakıdan Aralıq dənizi sahilinə gedən boru kəməri hazırda reallığa çevrilməkdədir. Azərbaycan qazını Avropaya çatdıracaq boru kəməri isə hazırda tikilməkdədir və gələn ilin sonunda istismara veriləcəkdir.

Biz nəqliyyat dəhlizləri sahəsində də fəal işləyirik, çünki Azərbaycan yerləşdiyi məkana və geosiyasi vəziyyətinə görə regionda çox mühüm nəqliyyat qovşağıdır. Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayır və məşhur Böyük İpək yolu həm də bizim ölkəmizin ərazisindən keçir. Bu vəziyyətdən bəhrələnərək, biz infrastrukturumuzu təkmilləşdirməyə çalışırıq. Bir sıra hava limanları tikməyi planlaşdırırıq, yol infrastrukturunu yaxşılaşdırmaq arzusundayıq, avtomagistrallar çəkirik. Azərbaycanın gəmiçilik idarəsi öz potensialını artırır. Bir sözlə, biz bütün sahələrdə inkişaf üçün lazım olan infrastrukturu yaradırıq.

Hesab edirəm ki, Latviyanın iş adamları bu üstünlüklərdən istifadə edə bilərlər. Sərmayədar kimi və xidmət sahəsində çalışan şirkətlər kimi sizi alqışlayırıq. Gələcək illər ərzində, Azərbaycanda infrastruktur böyük sürətlə inkişaf edəcəkdir.

Biz regional inkişaf və sosial-iqtisadi inkişaf proqramları tərtib etmişik. Həmin proqramlara uyğun olaraq, yeni elektrik stansiyaları, yeni supaylama sistemləri, şoselər və hava limanları, məktəb və xəstəxanalar, bütün sosial infrastruktur tikiləcək və mövcud

olanlarda təmir işləri aparılacaqdır. Çünki həmin infrastrukturun böyük hissəsi sovet vaxtından qalan köhnəlmiş infrastrukturdur. İndi isə onlar yeniləşməlidir. Başqa sözlə desək, Azərbaycanda böyük işlər görüləcəkdir və mən əminəm ki, sizin ölkənizdən olan şirkətlər həmin işlərdə iştirak edəcəklər.

Bizim iqtisadi siyasətimizin əsas elementlərindən biri regional inkişafdır. Azərbaycan yalnız Bakıdan ibarət deyildir. Bakı sürətlə inkişaf edən müasir Avropa şəhəridir. Lakin bizim vəzifəmiz paytaxtla ölkənin qalan hissəsi arasındakı fərqləri azaltmaqdan ibarətdir. Bu məqsədlə biz yeni infrastruktur yaratmalı və iş yerləri açmalıyıq. Rayonlarda yaşayanlar üçün yeni imkanlar yaratmalıyıq. Mən böyük fərəh hissi ilə demək istəyirəm ki, son iki il ərzində biz Azərbaycanda 300 mindən çox yeni iş yeri açmışıq və onların əksəriyyəti rayonlardadır. Ölkənin 8 milyon əhalisi olduğunu nəzərə alsaq, görərik ki, 300 min iş yerinin açılması çox yaxşı göstəricidir. Mən iki il bundan öncə söz vermişdim ki, beş ildə biz 600 min iş yeri açacağıq. Əminəm ki, bu vədi yerinə yetirə biləcəyik.

Rəqəmlər bu halda o qədər də mühüm deyildir. Mühüm olanı odur ki, yeni iş yeri insanlar üçün yeni imkanlar açır, yeni infrastruktur və yeni qurğular yaranır. Nəhayət, açılan yeni iş yerləri, öz növbəsində, digər iş yerlərinin açılmasına da səbəb olur. Azərbaycanda yeni iş yerlərinin açılması neft sektorundan başlanmışdır. Hazırda, yaxşı məvacib alan minlərlə insan xarici və yerli şirkətlərdə çalışır. Lakin neft və qaz sənayesinə yatırılan hər bir dollar infrastrukturla bağlı, ən azı, daha bir dolların sərmayə kimi qoyulması ilə nəticələnir. Yəni burada mehmanxanalar və xidmət sahəsi nəzərdə tutulur. Yaşayış binaları tikilir. Gələcək illər ərzində Azərbaycanda iqtisadi inkişaf çox uğurlu olacaqdır. Beynəlxalq Valyuta Fondunun bu il verdiyi proqnoza görə, cari il ərzində Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf edəcək və dünyada ən yüksək göstəriciyə malik olacaqdır. Gələn il ərzində iqtisadi artım 30 faiz səviyyəsində planlaşdırılır. Biz sonrakı illər ərzində də inkişafı bu sürətlə davam etdirəcəyik.

Hesab edirəm ki, qonaqlarımız vəziyyəti qiymətləndirmək imkanları əldə etmişlər və hər şeyi öz gözləri ilə görüblər. Ən əsası məhz bundan ibarətdir. Əfsuslar olsun ki, əvvəllər biz ölkələrimiz haqqında o qədər də çox məlumata malik olmamışıq, təmaslar o qədər də çox olmayıbdır. İndi isə biz səfirlik açdıq, Latviya da eyni addımı atmağı planlaşdırır. Yaxın vaxtlarda birbaşa uçuşlara başlayacağıq. Bu cür böyük nümayəndə heyətinin ölkəmizə gəlməsi buradakı vəziyyətin qonaqlarımızın özləri tərəfindən qiymətləndirilməsinə imkan yaradır. Əminəm ki, sizin belə bir imkanınız oldu və şəhərimizlə tanış oldunuz. Ümid edirəm ki, gələcəkdə bizim daha çox təmaslarımız olacaq və çox səmərəli, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız inkişaf edəcəkdir.

Bir daha sizə Azərbaycana "Xoş gəlmisiniz!" deyir və böyük uğurlar arzulayıram.

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ

- Cənab Prezident!

Hörmətli nazirlər, səfirlər!

Xanımlar və cənablar!

Biznes forumun əldə etdiyi nəticələr haqqında məruzəni eşitdikdən sonra burada çıxış

etməkdən olduqca məmnunam. Hər iki tərəfin nümayiş etdirdiyi təşəbbüskarlığın səviyyəsi bizi sevindirir. Məncə, Azərbaycan ilə konstruktiv və dostluq şəraitində inkişaf edən ikitərəfli münasibətlərimizi qeyd etsək, yerinə düşərdi. Biz Azərbaycanın demokratikləşməyə və bu cür sürətli iqtisadi inkişafa doğru atdığı bütün addımları yüksək qiymətləndiririk.

Mənim ölkəm isə islahatların aparılması və beynəlxalq təşkilatlara inteqrasiya sahəsində əldə etdiyi təcrübəni Azərbaycanla bölüşməyə hazırdır. Əminəm ki, gələcək illər ərzində ölkələrimiz arasında daha intensiv siyasi və iqtisadi əməkdaşlığın şahidi olacağıq.

1990-cı illərdən etibarən Azərbaycanın əldə etdiyi nailiyyətləri, inkişaf templərini və xarici sərmayələrin həcmini müşahidə etməkdən çox məmnunuq. Ümid edirik ki, strateji əhəmiyyət daşıyan boru kəmərləri sistemi, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın və onun xalqının rifahına xidmət edəcək və Azərbaycan Prezidenti dediyi kimi, aşağı və yüksək gəlirləri olan təbəqələr arasında fərqlərin aradan qaldırılmasına töhfə verəcəkdir. Deməliyəm ki, tamamilə eyni məsələlər Latviyada da mövcuddur. Yüksək və aşağı gəlirləri olan dairələr arasında qeyri-tarazlığın silinməsi və güclü orta təbəqənin formalaşması, paytaxt və rayonlar arasında yaşayış standartlarında olan fərqlərin azaldılması kimi məsələlərdə ölkələrimizdə apardığımız işlər, demək olar ki, oxşar xarakter daşıyır.

Rəsmi səfər çərçivəsində imzalanmış sənədlər ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün əsas yaradacaqdır. İqtisadi, texniki, elmi və mədəni əməkdaşlıq haqqında imzalanan sənədlər, qarşılıqlı yardım və gömrük xidmətləri sahəsindəki sazişlər, sərmayələrin təşviqi və qarşılıqlı şəkildə qorunması, vergilər haqqında sazişlər, terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq haqqında saziş kimi sənədlərin hamısı olduqca vacib beynəlxalq hüquqi çərçivənin yaradılmasında mühüm rol oynayır və xalqlarımız arasında davamlı və qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün zəmin yaradır.

Latviyada Azərbaycan səfirliyinin açılması faktını mən məmnunluqla bir neçə dəfə qeyd etmişəm və sizin tanınmış diplomatınız Tofiq Zülfüqarovun etimadnaməsini qəbul etdim. Biz də tezliklə Bakıda Latviya səfirliyinin açılması üçün bütün işləri yerinə yetirəcəyik.

Cənab Şlesers Riqaya tələsik qayıtdı. Buna səbəb onun hava uçuşlarının açılması məsələsinə nə dərəcədə ciddi yanaşmasından xəbər verir. Əgər biz onun təşəbbüskarlığının, heç olmasa, yarısını nümayiş etdirsək, onda hazırkı biznes forumunun tezliklə uğurlu nəticələrini görəcəyik.

Hesab edirəm ki, bu forumun miqyası və apardığımız dialoqun intensiv xarakteri ilə izah olunan qarşılıqlı marağın hər iki tərəfdən nümayiş etdirilməsi təqdirəlayiq haldır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu, yalnız başlanğıcdır. Amerikalıların oxuduğu mahnıda deyildiyi kimi, "gözəl dostluğun" başlanmasıdır. Təbii ki, təmaslar qurulacaq və əməkdaşlıq baş tutacaqdır. Zənnimcə, siz bu fürsətdən istifadə edərək, işlərin davamlı olması məqsədi ilə ilk addımları atacaqsınız.

Yəqin ki, siz bu forum vasitəsilə Latviyanın iqtisadiyyatı haqqında bəzi məlumatları əldə edə bildiniz. Latviyanın bu gün inkişaf etdirdiyi ən vacib sektorlardan biri bank işi və

maliyyə xidmətləridir. Beynəlxalq qlobal maliyyə jurnalı 2005-ci ildə Pareks Bankı Latviyanın ən aparıcı bankı kimi dəyərləndirmişdir. Cari il ərzində Pareks Bank beynəlxalq Xəzər enerji mükafatına layiq görülmüşdür. Bu, artıq ilk uğurlu əməkdaşlığımızın rəmzidir. Həmin işbirliyi Baltik və Xəzər dənizləri regionlarını bir-birinə yaxın edir.

Nümayəndə heyətinə daxil olan şirkətlər arasında "LatEtoEnetor" şirkətinin adını çəkmək istəyirəm. Bu şirkət bütün Avropa məkanında informasiya texnologiyaları sahəsində xidmətlər və bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda bank və sığorta sahəsində fəaliyyət göstərir. Görürsünüz, əməkdaşlığımızın yeni misalını çəkirik. Onlar hətta bizim rəsmi səfəri gözləmədən Azərbaycanda fəaliyyətə başlamışlar. Fəaliyyətə yenicə başladılar və artıq müsbət nəticələr əldə etdilər. Bu münasibətlə mən onları burada təbrik etmək istəyirəm.

Bundan başqa, biz Latviyada fəaliyyət göstərən ali təhsil ocaqlarının xidmətlərini təklif edə bilərik. Onlar təhsilin keyfiyyəti baxımından yaxşı, rəqabətədavamlı təhsil müəssisələridir. Tibb məktəblərimizin qapıları sizin üzünüzə açıqdır. Digər Qərb ölkələri ilə müqayisədə, təhsil haqqı kifayət qədər aşağıdır. Beləliklə, Azərbaycanda ali təhsil alan tələbələr Latviyadakı təhsil ocaqlarında təhsil ala bilərlər. Onlardan bəzilərində mühazirələr ingilis, digərlərində isə rus dillərindədir. Bu imkanlardan gələcəkdə istifadə etmək olar.

Latviya NATO və Avropa İttifaqına üzv qəbul olunduqdan sonra ötən ilyarım ərzində biz bunun iqtisadiyyatımıza kifayət qədər təsirini hiss etdik. Bildiyiniz kimi, Avropa İttifaqına üzv olan ölkələr arasında bəzilərinin artım səviyyəsi olduqca aşağıdır. Biz ildə 7,6 faiz iqtisadi artım göstəricisi ilə öncül ölkələr sırasındayıq. Ötən il bu göstərici 8,5 faiz idi. Lakin bu ilin birinci yarısında 9,5 faiz olmuşdur. Şübhəsiz ki, bu rəqəmlər sizin sürətli inkişaf templərinizlə müqayisə oluna bilməz. Təbii ki, sizin ölkənizlə müqayisədə bizim bəxtimiz o qədər də gətirməyibdir. Sizin ölkədə zəngin təbii resurslar var. Bizim ərazimizdən boru kəməri keçir, lakin hazırda o, siyasi səbəblərə görə işləmir. Ona görə də bizim iqtisadi artımımız o qədər də böyük deyildir. Lakin digər Avropa ölkələri ilə müqayisədə, indiki göstəricilərimizlə fəxr edə bilərik. Bu rəqəmlər yerli sabit tələbat, şirkətlərimizin artan ixrac əməliyyatları hesabına mümkün olmuşdur. Bu, bizim şirkətlərimiz üçün mürəkkəb formada olmuşdur, çünki kiçik ölkələrdə istehsal edilən malların həcmi də o qədər böyük olmur. Bununla belə, şirkətlər məhz genişmiqyaslı ixrac əməliyyatları aparmaq üçün xüsusi malların istehsalına başlamışlar və istehsal həcmi çox böyükdür.

İqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər makroiqtisadi sabitlik, çox dəqiq valyuta siyasəti, milli valyutanın - latın sabitliyi nəticəsində mümkün olmuşdur. 1993-cü ildə dövriyyəyə buraxdığımız milli valyuta 2008-ci ilin yanvarın 1-dən etibarən avro ilə əvəzlənəcəkdir. Ümid edirəm ki, biz bu işlərin öhdəsindən gələ biləcəyik. Hazırda inflyasiyanın səviyyəsi istədiyimizdən bir az kənara çıxır. Bu il ərzində latın məzənnəsi qalxmış və avroya yaxınlaşmışdır. Ümidvaram ki, 2008-ci il yanvarın 1-dən etibarən biz Avropanın ümumi valyuta zonasına daxil ola biləcəyik. Bu addım ölkəmizdə bütün biznes fəaliyyətinə müsbət təsir göstərəcək və beləliklə, valyuta məzənnəsinin dəyişməsindən və valyutanın konvertasiyasından irəli gələn bütün problemlər aradan qaldırılacaqdır.

Hazırda ixracımızın 3/4 hissəsi Avropa ölkələri ilə aparılır. Bizim əsas ticarət tərəfdaşlarımız Almaniya, Litva, İsveç və Estoniyadır. Ümumi ticarət dövriyyəsinin cəmi 8 faizini Rusiya ilə aparılan əməliyyatlar təşkil edir. Latviyaya sərmayələrin 60 faizdən çoxu Avropa İttifaqı ölkələrindən gəlir. Lakin bu, o demək deyil ki, biz fəaliyyətimizi hər zaman Avropa İttifaqı ailəsi ilə məhdudlaşdırmalıyıq. Əksinə, biz bu hüdudlardan kənara çıxmaq arzusundayıq və Şərqdə yerləşən ölkələrlə də əməkdaşlıq etmək istəyirik.

Çünki biz Avropa İttifaqının şərq-şimal sərhədini təşkil edirik. Məhz buna görə, bizim Azərbaycanla ticarət dövriyyəsi 2003-cü illə müqayisədə 76 faiz artmışdır. Bu, böyük rəqəmdir. Lakin mütləq rəqəmlərlə götürsək, görərik ki, o qədər də yüksək deyildir. Bununla belə, mən hazırkı meyilləri qeyd etmək istəyirəm. Onlar müsbət və birmənalıdır. Artım səviyyəsi gözəçarpan dərəcədə inkişaf edir. Göstəricilər get-gedə artır və bu, bizim gələcək planlarımıza xidmət edir.

Azərbaycan kimi, Latviya da coğrafi baxımdan bir çox ticarət yollarının kəsişməsində yerləşir. Əfsuslar olsun ki, tarixən ölkəmizin ərazisindən işğalçı ordular da keçib. Lakin biz sülh və sabitlik erasına qədəm qoyuruq. NATO ilə ittifaq vasitəsilə təhlükəsizlik sisteminin qurulması bunu deməyə əsas verir. Təbii ki, biz Qafqazdakı durumu da diqqətlə izləyirik. Buradakı münaqişələrin təmkinlə, diplomatik vasitələrlə həll olunmasını arzulayırıq. Hesab edirəm ki, hər iki tərəf təchizat və nəqliyyat sahələrinin lazımi qaydada genişlənməsini səbirsizliklə gözləyir. Sizin ölkənizin ərazisindən keçən tarixi ticarət yollarına oxşar marşrutlar Latviyada da mövcuddur.

Biz inanırıq ki, o gün gələcək və Böyük İpək yolunun bir qolu şimal istiqamətində gedəcəkdir. Beləliklə, transkontinental dəmir yolu xətləri mövcud olacaq və onlar yüklərin bir neçə ölkələrin ərazisindən keçərək daşınmasını mümkün edəcəkdir. Malların Yaponiya, Koreya, Çin və bütün Avrasiya qitəsindən keçərək, üç Baltik ölkəsinin qışda suları donmayan dəniz limanları vasitəsilə daşınması üçün istifadə oluna bilər.

Mən hesab edirəm ki, qarşılıqlı fəaliyyət və ölkələrdəki iqtisadi inkişaf genişləndikcə, hər tərəfin görəcəyi işlər kifayət qədər çox olacaqdır. Həm siz, həm biz birgə işləyərək, ekspertiza, nou-hau və təcrübəni mübadilə etməklə, qarşımızda qoyduğumuz məqsədlərə nail olacağıq.

Mən burada iştirak edən bütün şəxslərə ən böyük uğurlar arzulayıram. İlk növbədə, hər birinizin həyatında ən vacib sayılan xoşbəxtlik diləyirəm. Apardığınız işgüzar fəaliyyətdə müvəffəqiyyətlər və nəzərdə tutduğunuz planların həyata keçirilməsində sizə yorulmaz fəaliyyət arzulayıram. Gələcəkdə ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə uğurlu əməkdaşlıq arzulayıram.

Sizə uğurlar diləyirəm.

LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Oktyabrın 4-də Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, UNESCO-nun xoşməramlı

səfiri Mehriban Əliyeva Latviya Prezidenti Vayra Vike-Freyberqanı və onun həyat yoldaşı İmants Freyberqsi Fondun binası önündə böyük səmimiyyətlə qarşıladılar.

Prezident Vayra Vike-Freyberqaya və nümayəndə heyətinin üzvlərinə Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun həyatının uşaqlıq, gənclik illərini və siyasi fəaliyyətini əks etdirən eksponatlar barədə ətraflı söhbət açdı.

Xanım Vayra Vike-Freyberqa və Latviya nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Latviya rəhbəri dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, onun xarici ölkələrin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə böyük maraqla baxdı.

Latviya Prezidenti Fondla tanış olduqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra çay süfrəsi arxasında söhbət davam etdirildi. Prezident İlham Əliyev xanım Vayra Vike-Freyberqaya ölkəmizə səfəri zamanı çəkilmiş fotoşəkillərdən ibarət fotoalbom təqdim etdi.

Prezident Vayra Vike-Freyberqa və nümayəndə heyətinin üzvləri Fondun eyvanından Bakının görməli yerlərini seyr etdilər, burada xatirə şəkli çəkdirdilər.

Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQAYA BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR

Oktyabrın 4-də Latviyanın Prezidenti Vayra Vike-Freyberqaya Bakı Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Ali qonağı və onun həyat yoldaşını BDU-nun əsas binası önündə təhsil naziri Misir Mərdanov və universitetin rektoru Abel Məhərrəmov hörmətlə qarşıladılar. Tələbələr Prezidentə gül dəstəsi təqdim etdilər.

Latviya Prezidenti və onu müşayiət edən şəxslər əvvəlcə BDU-da yaradılmış "Heydər Əliyev" guşəsi ilə tanış oldular. Ümummilli lider Heydər Əliyevin təhsil aldığı illəri əks etdirən və digər şəkillər, universitetin tarixi barədə verilən məlumat qonaqlarda böyük maraq doğurdu.

Sonra mərasim başlandı. Universitetin professor-müəllim heyəti və tələbələr Latviya

Prezidenti Vayra Vike-Freyberqanı hərarətli alqışlarla qarşıladılar.

BDU-nun rektoru, MEA-nın müxbir üzvü ABEL MƏHƏRRƏMOV mərasimi açaraq dedi:

- İcazə verin, ilk növbədə, hörmətli qonağımız, Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqanı universitetimizə gəlməsi münasibətilə salamlayım və bu qocaman elm və təhsil ocağına "Xoş gəlmisiniz!" deyim.

Bu gün universitetimizin həyatında ən tarixi və ən əlamətdar günlərdən biridir. Latviya Prezidenti xanım Vayra Vike-Freyberqa universitetimizin qonağıdır və biz ona Bakı Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasiminə toplaşmışıq. Ənənəmizə uyğun olaraq, əvvəlcə yeni fəxri doktorumuzun həyat və fəaliyyətinin bəzi məqamları barədə məlumat verim. O, Kanadanın Toronto Universitetinin psixologiya fakültəsini bitirmiş, Monreal Universitetində eksperimental psixologiya üzrə doktorluq dərəcəsi almışdır. 1965-ci ildən həmin universitetin professorudur. Kanada və Latviya Elmlər Akademiyalarının müxbir üzvüdür. Xanım Vayra Vike-Freyberqa bir neçə beynəlxalq təşkilatda mühüm vəzifələrdə çalışmış, Latviya Universitetinin rektoru olmuş, Avropa və Amerikanın bir sıra universitetlərinin fəxri adlarına layiq görülmüşdür. 8 monoqrafiya və 160 elmi məqalənin müəllifidir. 1999-cu və 2003-cü illərdə xanım Vayra Vike-Freyberqa Latviya Respublikasının Prezidenti seçilmişdir. Bu da təsadüfi deyildir. Çünki məhz xanım Vayra Vike-Freyberqanın prezidentliyi müddətində Latviya Respublikası dinamik inkişaf etmiş, dövlətçilik və müstəqillik möhkəmlənmişdir. Ötən il isə Latviya qarşıya qoyulmuş iki böyük məqsədinə nail olmuş - Avropa İttifaqına və NATO-ya üzv qəbul edilmişdir.

Hörmətli xanım Vayra Vike-Freyberqa, Azərbaycan ilə hərtərəfli dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı üçün göstərdiyiniz səyləri biz çox yüksək qiymətləndiririk. Azərbaycana bu səfəriniz, imzalanmış mühüm sənədlər ölkələrimizin münasibətlərində yeni perspektivlər açır.

Abel Məhərrəmov ölkənin ilk ali təhsil ocağı olan BDU haqqında qısa məlumat verərək dedi ki, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmış universitetin xalqın maarifləmməsində, Azərbaycan elminin inkişafında milli idcologiyanın formalaşmasında müstəsna xidmətləri olmuşdur. Hazırda universitetin 16 fakültəsində 17 minə yaxın tələbə, o cümlədən 15 ölkədən 600-ə qədər tələbə təhsil alır. Burada 1300-dən çox müəllim, o cümlədən 300-dək elmlər doktoru, professor çalışır. Bakı Dövlət Universiteti dünyanın ən qabaqcıl təhsil ocaqları ilə, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Avstriya, Polşa, Fransa, Yaponiya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq edir, elmi əlaqələr saxlayır, birgə proqramlar üzərində işləyir.

BDU Avropa Universitetləri Assosiasiyasının üzvüdür. 40 ölkənin 143 universitetini əhatə edən Boloniya prosesində fəal iştirak edir. NATO-nun Elm Komitəsi ilə də işgüzar əlaqələri var və elm vasitəsilə təhlükəsizlik proqramının fəal iştirakçısıdır.

Rektor dedi ki, bütün başqa xalqlar kimi, biz də fəlakətli müharibələrsiz, çarəsi tapılmayan xəstəliklərsiz, səfalətsiz və daha ədalətli dünya nizamında yaşamağı düşünürük. Biz arzulayırıq ki, kiçik dövlətlərin gəncləri, o cümlədən Azərbaycan gəncliyi də fövqəldövlətlərdə olan həmkarları kimi gələcəyə ümidlə baxsınlar. Xanım Prezident, fiki-

rimcə, Siz də razılaşarsınız ki, təcavüz nəticəsində 20 faiz torpaqları işğala məruz qalmış və 1 milyona qədər qaçqın-köçkünü olan Azərbaycan üçün ədalətli dünya nizamı xüsusi əhəmiyyət daşıyır. Bu ədalətli dünya nizamının düzümünü biz Avropa və Avratlantik məkanına inteqrasiya yolunda görürük. Bu yolun memarı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olmuşdur və əminik ki, Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu siyasi xətt uğurla davam etdiriləcəkdir.

Abel Məhərrəmov bildirdi ki, BDU-nun Elmi şurasının 2005-ci il 1 oktyabr tarixli iclasında Latviya ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin və əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsində, sosial-siyasi elmlərin inkişafında xidmətlərinə görə xanım Vayra Vike-Freyberqaya Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi qərara alınmışdır.

Hörmətli xanım Vayra Vike-Freyberqa, bir sıra dövlət başçıları, NATO və UNESCO-nun rəhbərləri, dünya şöhrətli alimlər Bakı Dövlət Universitetinin fəxri doktoru adına layiq görülmüşlər. Biz əminik ki, görkəmli siyasi və dövlət xadimi kimi, elm və təhsil sahəsində inkaredilməz xidmətləri olan şəxs kimi Siz Bakı Dövlət Universitetinin fəxri doktorları sırasında öz layiqli yerinizi tutacaqsınız. İcazə verin, bu münasibətlə Sizi *səmimi qəlbdən təbrik edim və Bakı Dövlət Universitetinin* fəxri doktoru adının atributlarını sizə təqdim edim.

Latviya Prezidenti xanım Vayra Vike-Freyberqaya mantiya, fəxri doktorluq diplomu və vəsiqə təqdim olundu.

Prezident Vike-Freyberqa mərasimdə nitq söylədi.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ

- Hörmətli cənab rektor!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Bu diqqət mənə çox böyük təsir göstərdi. Mənə verilən bu şərəfdən çox böyük qürur hissi duydum. Bu diqqətə görə Bakı Dövlət Universitetinin kollektivinə, professor-müəllim və tələbə heyətinə səmimi qəlbdən təşəkkürümü bildirirəm. Çox sağ olun.

Universitetlərdə çıxış etmək hər zaman məndə çox böyük məmnunluq doğurur. Çünki mən özüm də elm adamı olmuşam. Çox uzun bir müddət ərzində, 33 il professor kimi universitetdə çalışmışam. Baxmayaraq ki, başqa işlərdə də çalışırdım. Ona görə də universitetə gəlmək, professorlarla görüşmək, tələbələri salamlamaq mənim üçün çox böyük şərəfdir.

Deməliyəm ki, ölkənizdə səmimi, hərarətlə, yüksək qonaqpərvərliklə qarşılanmışam. Bütün bunlar mənə çox böyük təsir etmişdir. Bakı Dövlət Universiteti də daxil olmaqla, bu görüşlərdən çox böyük təsir almışam. Bu, tarixi bir andır, tarixi bir hadisədir. Bu, Latviyanın Prezidenti kimi Azərbaycana həyata keçirilən ilk rəsmi səfərdir və inanıram ki, növbəti illərdə bizim əlaqələrimiz getdikcə inkişaf edəcək və ölkələrimiz bir-birinə daha çox yaxınlaşacaqdır.

Azərbaycan xalqı gördüyü çox böyük işlərlə qürur duymalıdır. Çünki mən burada bu işlərin bir çoxunun sübutunu gördüm. Heç bir şübhə olmadan söyləməliyəm ki, Bakı şəhəri dünyada, Xəzər dənizi hövzəsində ən gözəl şəhərlərdən biridir. Burada çox qədim abidələrin saxlanmasına baxmayaraq, müasirlik həmahəng şəkildə özünü göstərməkdədir. Buradakı tarixi abidələrin mövcud olması sübut edir ki, bu ölkə öz tarixi kökünə nə qədər bağlıdır. Bakı yüz il bundan əvvəl inkişaf etməyə başlamışdır. Dünyanın ən böyük neft şəhərinə çevrilmişdir. Latviyanın bir sıra iş adamları da Azərbaycana gəlmişdir və Birinci Dünya müharibəsi başlayana qədər Bakıda yaşamışdır. Amma hazırda biz hər yanda gördüyümüz kimi, Bakı bir daha çox dinamik inkişaf həyata keçirir. Biz bunun şahidi oluruq.

Bildirmək istəyirəm ki, hər iki ölkənin tarixinin bənzər məqamları vardır. Azərbaycan da xarici işğala məruz qalmışdır və işğaldan yaxa qurtarmağa nail olmuşdur. Müstəqil dövlətini bərqərar etməklə cəmiyyəti inkişaf etdirməyə nail ola bilmişdir. 1918-ci ildə həm Latviya, həm də Azərbaycan özlərini Rusiyadan azad olan müstəqil dövlət elan etmişdi. Lakin bu, o qədər də uzun sürməmişdir. 1920-ci ildə Rusiya tərəfindən Bakı işğal olunmuş, ağır repressiya dövrü başlamış və bu, 70 il davam etmişdir.

Latviya isə dövlətçiliyini və müstəqilliyini 20 ildən çox qoruyub saxlamışdır. Lakin Qırmızı Ordu 1940-cı ildə Latviyanı da işğal etmişdir. Beləliklə, işğala məruz qalmış Latviya və Azərbaycan, xalqlarımız əziyyət çəkmiş, sovet totalitar rejimində yaşamışlar. Daha sonra biz öz səylərimizi birləşdirərək, istədiyimizə nail ola bilmişik. Hər iki ölkə, bizlər açıq şəkildə müstəqillik uğrunda mübarizə aparmışıq. Əlbəttə, bu mübarizədə insanların həyatına son qoyulmuşdur. 1990-cı ildə 137 nəfər azərbaycanlı Sovet Ordusu qüvvələri tərəfindən Bakının küçələrində qətlə yetirilmişdir. Bir il bundan sonra, 1991-ci ilin yanvar ayında sovet hərbi qüvvələri bizim ölkədə, Riqanın mərkəzində Daxili İşlər Nazirliyini zəbt etmiş, kinooperatoru öldürmüşdür. O, məhz bu hadisələri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün film çəkməyə çalışırdı.

Həmin dövrdən SSRİ dağılmağa başladı və 1991-ci ildə həm Azərbaycan, həm də Latviya öz müstəqilliklərini bərqərar edə bildilər. Həmin dövrdən etibarən bizim dövlətlər çox çətin vəzifələrin yerinə yetirilməsi ilə məşğul olmuşlar.

Hazırda isə biz çox mühüm bir tarixi məqamı yaşayırıq. Avropanın tarixi, Avropada yaşayan xalqların tarixi bunu göstərir ki, onlar öz seçimləri əsasında inkişaf etmişlər. Latviya Avropa İttifaqına və NATO-ya üzvlük üçün bu təşkilatlara müraciət etmişdi. Bunun üçün bizə 10 il vaxt lazım oldu. Amma keçən il biz nəhayət, müvəffəqiyyətlə həmin təşkilatların üzvü ola bildik. Bu müvəffəqiyyət həm də Latviyanı kommunist rejiminin, yəni totalitar rejimin bərqərar olduğu bir dövlətdən dəyişərək, demokratiyanın bərqərar olduğu, qanunun aliliyinin hökm sürdüyü, eyni zamanda, insan hüquqları və azadlıqlarına hörmət bəsləndiyi bir ölkəyə çevirdi. Biz, eyni zamanda, planlı sovet iqtisadiyyatından dinamik sərbəst bazar iqtisadiyyatına keçə bildik.

Məhz buna görə də Latviya hazırda Avropa İttifaqında ən sürətli iqtisadi artıma malik olan ölkələrdən biridir. Bu əsas dəyişikliklər əlbəttə ki, sosial dəyərlər naminə baş vermişdir. Amma hazırda ölkədə adambaşına düşən gəlirin səviyyəsi bizim üçün yenə də qənaətbəxş deyildir. Biz hər il bu məsələnin üzərində işləyərək, insanların həyat səviyyəsini daha da yaxşılaşdırmağa çalışırıq.

Latviyanın Azərbaycanla müştərək əlaqələri konstruktivlik və dostluq şəraitində inkişaf edir. Latviya Azərbaycanda həyata keçirilən islahatlar prosesini alqışlayır. Bu islahatlar, əlbəttə ki, demokratiyanın bərqərar olmasına və ölkənin inkişafına yönəldilmişdir. Beynəlxalq ictimaiyyətlə bərabər, Latviya da Azərbaycanda noyabr ayında keçiriləcək parlament seçkilərini çox böyük maraqla izləyəcəkdir. Cənab Prezident İlham Əliyev və digər rəsmi dairələr əllərindən gələni etmişlər ki, bu seçkilər doğrudan da çox demokratik və düzgün bir şəkildə keçsin, Azərbaycan xalqının maraqlarına xidmət etmiş olsun. Mənim ölkəm - Latviya islahatlar təcrübəsini Azərbaycanla bölüşməyə hazırdır. Eyni zamanda, biz bu işi beynəlxalq təşkilatlar vasitəsilə də həyata keçirməyə hazırıq. Ümid edirik ki, biz gələcəkdə daha intensiv siyasi və iqtisadi əlaqələrin bərqərar olmasına nail olacağıq. Hazırda biz təhlükəsizlik, müdafiə sahələrində əməkdaşlıq edirik. Bu da NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilir. Azərbaycanın müdafiə naziri Riqada olmuşdur və o, latviyalı həmkarı ilə çox səmərəli danışıqlar aparmışdır.

Eyni zamanda bildirmək istəyirəm ki, keçən ay Latviyada, Riqada cənab Tofiq Zülfüqarovun rəhbərliyi altında Azərbaycanın səfirliyi açılmışdır. Latviya da bu yaxınlarda Bakıda öz səfirliyini açmağa hazırlaşır. Bu siyasi inkişaf, əlbəttə ki, ölkələrimiz arasında əlaqələrin durmadan inkişaf etməsinə dəlalət edir.

Hörmətli cənab rektor, professorlar!

Xanımlar və cənablar!

Hörmətli tələbələr!

İqtisadi meyarların, əlbəttə ki, çox böyük əhəmiyyəti vardır. Bu, Baltik dənizi və Xəzər dənizi sahilində olan ölkələr arasında əlaqələrin inkişafına böyük xidmət göstərməkdir. Azərbaycanla ticarətin və iqtisadi əlaqələrin inkişafında Latviyanın çox böyük marağı var. Bundan əlavə, Latviyanın Hava Yolları Riqa ilə Bakı arasında birbaşa uçuşlar təşkil edir ki, bu da bizim ölkələr arasında əlaqələrin inkişafına kömək edəcəkdir. İqtisadi qərarlardan əlavə, eyni zamanda, bizim xalqlarımız arasında əsas fundamental əlaqələr, tellər vardır. Bu da müştərək dəyərlərdən ibarətdir. Əlbəttə, bu dəyərlər insanlığa Allah tərəfindən verilmiş bir dəyərdir. Yəni, bu, insan hüquqlarıdır.

Bunların qiymətləndirilməsi çox mühümdür və hər bir qitənin özünəməxsus cəhətlərinin qorunub saxlanması, eyni zamanda, onların bəşəri dəyərlərinin qorunub saxlanması çox böyük əhəmiyyətə malikdir.

Tədris ocağı kimi sizin və bizim universitetlərimizin çox böyük məsuliyyəti vardır. Bu da müsbət davranışların, müsbət münasibətlərin inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb edir, böyük rol oynayır. Buna görə də ekstremizmə, zorakılığa son qoyulmasında, digər təhlükələrin, bizim cəmiyyətlərimizin sabitliyi üçün təhlükə olan başqa problemlərin aradan qaldırılmasında, əlbəttə, bizim tədris ocaqlarımızın böyük əhəmiyyəti var. Tarix boyunca böyük bir problem, əlbəttə ki, dəyişməyərək qalmışdır. Yəni bir insan kimi biz nə edə bilərik? Həm fərdi səviyyədə, həm də kollektiv şəkildə nə edə bilərik ki, öz həyatımızı yaxşılaşdıraq? Yəni hamı bundan fayda görmüş olsun. Digər problemlər sırasında mən 3 əsas konsepsiyanı bildirmək istəyirəm. Bu daxiletmə, inkişaf və birgə əməkdaşlıqdır. Bunlar demokratiyanın bərqərar olması üçün çox böyük əhəmiyyətə malik olan məsələlərdir. Bu, biliyin artırılması və əqli dəyərin zənginliyə çevrilməsi üçün böyük əhəmiyyət kəsb edir. Burada olan bir sıra tələbələri mən görürəm ki, onlar bir gün rəhbər vəzifələr tuta biləcəklər, sizin ölkə qarşısında üzərlərinə məsuliyyət götürəcəklər. Sizin, bu ölkənin gələcək rəhbərlərinin, liderlərinin çox böyük məsuliyyəti vardır. Sizin boynunuza çox böyük məsuliyyət düşəcəkdir. Əlbəttə, sadəcə, sizin seçiminiz olacaqdır ki, bu ölkəni elə bir məqama çatdırasınız ki, siz və sizin yaşıdlarınız onunla fəxr edə bilsinlər. Mən inanıram ki, əlbəttə, siz müdrik yanaşma nəticəsində düzgün seçimlər edəcəksiniz.

Sizlərdən hər birinizə xoşbəxt, uğurlu həyat arzulamaq istəyirəm ki, bunun nəticəsində də bütün ölkə əhalisinin rifahı yüksəlmiş olacaqdır. Bütün professorlara, müəllim heyətinə müvəffəqiyyətlər, tədqiqat işlərində uğurlar arzulayıram və ümid edirəm ki, bütün dünyada biliyin inkişafına töhfələr verəcəklər. Azərbaycanın tərəqqisini arzu edirəm. Yəni bütün dünyada mövcud olan dövlətlər arasında Azərbaycanın inkişaf etməsini arzulayıram.

BDU-nun rektoru Abel Məhərrəmov gözəl nitqinə görə Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqaya universitetin professor-müəllim kollektivi və tələbələri adından təşəkkürünü bildirdi.

Sonra, Latviya Prezidenti Vayra Vike-Freyberqanın fotoşəkli BDU-nun fəxri doktorları lövhəsinə vuruldu.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə üçgünlük rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa oktyabrın 4-də Bakıdan Tbilisiyə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN VALMONT İNDUSTRİES ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU MOGENS BAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Valmont İndustries şirkətinin sədri və baş icraçı direktoru Mogens Bayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bu şirkətin kənd təsərrüfatı sahəsindəki fəaliyyəti barədə məlumatı olduğunu bildirən dövlətimizin başçısı qonaqların Azərbaycanda yeni layihələrin həyata keçirilməsinə maraq göstərməsini yaxşı hal kimi dəyərləndirdi. Azərbaycanda kənd təsərrüfatının böyük perspektivləri olduğunu nəzərə çatdıran Prezident İlham Əliyev dedi ki, biz iqtisadiyyatımızın bu sahəsinə çox böyük əhəmiyyət veririk. Neft və qaz sahələrindən sonra kənd təsərrüfatı ən əsas, prioritet hesab etdiyimiz sahələrdən biridir. Ölkəmizdə fermerlərə kreditlər ayrılır, onların kənd təsərrüfatı texnikası ilə təmin olunması istiqamətində böyük işlər görülür. Əminəm ki, Azərbaycanda yaxın gələcəkdə bu sahədə böyük inkişafa nail olacağıq. Sizin də bu prosesdə fəal iştirakınıza ümid edirəm.

Rəhbərlik etdiyi şirkətin kənd təsərrüfatı sahəsində 60 il fəaliyyət göstərdiyini və çox

böyük təcrübəyə malik olduğunu bildirən Mogens Bay dedi ki, bu gün dünyanın üzləşdiyi ən böyük problemlərdən biri təmiz içməli sudur. Qarşıdakı 30-50 il ərzində dünyada ərzağa olan tələbat iki dəfə artacaq və daha səmərəli fəaliyyət göstərmədən bunu ödəmək mümkün deyildir. Bu, bizim əsas fəaliyyət sahələrimizdən biridir. Biz təmiz su ehtiyatının çoxaldılması, kənd təsərrüfatı məhsullarının artımının təmin edilməsi istiqamətində işləyirik. Şirkətimiz 100-ə yaxın ölkədə fəaliyyət göstərir.

Su ehtiyatları məsələsinin çox mühüm problem olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, Azərbaycanda su ehtiyatlarının kənd təsərrüfatında istifadəsi, eyni zamanda əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq istiqamətində böyük planlarımız vardır. Həm içməli, həm də suvarma su ilə bağlı bu layihələr ölkəmizin şimal rayonlarında həyata keçiriləcəkdir.

Cənab Mogens Bay məlumat verdi ki, şirkət yerli şirkətlərlə birlikdə Azərbaycanda həm pambıq, həm də şəkər çuğunduru istehsalı sahəsində iki böyük layihə üzərində işləyir. İlk pilot layihəsi yaxın vaxtlarda həyata keçiriləcək ki, bu da Azərbaycanda tam fəaliyyətə başlamaq üçün yaxşı əsas yaradacaqdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Xarici işlər naziri Elmar Məmmədyarov Amerika Birləşmiş Ştatları Helsinki Komissiyasının aparat rəhbəri Şon Vu ilə görüşmüşdür.

Azərbaycanda seçkiqabağı vəziyyətə toxunan nazir, dövlətimizin başçısının "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 2005-ci il 11 may tarixli Sərəncamının əhəmiyyətini vurğulayaraq demişdir ki, ölkədə azad və ədalətli seçkilər keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, 2000 nəfərdən çox deputatlığa namizəd qeydiyyata alınmışdır. Təkcə bu fakt Azərbaycan vətəndaşlarının azad və ədalətli seçkilərə inamının bariz göstəricisidir.

Nazir E.Məmmədyarov qonağa Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihələrinin həyata keçirilməsi sahəsində görülən işlər barədə məlumat verərək, növbəti 5 ilin Azərbaycan üçün mühüm inkişaf dövrü olacağını vurğulamışdır. Nazir, həyata keçirilən islahatlar nəticəsində əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdığını, lakin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin uzanmasının ölkəmizin ümumi inkişafına mane olduğunu qonağın diqqətinə çatdırmışdır.

Təmsil etdiyi komissiyanın həmsədri senator Sem Braunbəkin səmimi salamlarını çatdıran cənab Şon Vu, Azərbaycanda qarşıdan gələn parlament seçkilərinə ölkəsində böyük maraq göstərildiyini və hadisələrin diqqətlə izlənildiyini söyləmişdir. O, seçkilərin ədalətli keçirilməsində xarici qüvvələrin təsirinin deyil, məhz xalqın iradəsinin və inamının əsas amil olduğunu vurğulamışdır.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin də müzakirə edildiyi görüşdə ABŞ-ın Azərbaycandakı səfiri Rino Harniş Azərbaycanın demokratiya yolunda diqqətçəkən uğurlar əldə etdiyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Prezident sarayında MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Vladimir Ruşaylo bildirdi ki, onun Bakıya səfərinin əsas məqsədi MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kazan Sammitində qəbul edilmiş qərarların həyata keçirilməsi və iqtisadi inteqrasiya ilə bağlı məsələlər barədə Prezident İlham Əliyev ilə fikir mübadiləsi aparmaqdan ibarətdir.

İcraçı katib dedi: Sosioloji rəy sorğuları bir daha onu göstərir ki, Azərbaycanda böyük inkişaf var, inteqrasiya baxımından irəliyə doğru mühüm addımlar atılmışdır. MDB-nin müşahidəçilər missiyası Azərbaycan parlamentinə qarşıdakı seçkilərlə bağlı oktyabrın 6-da Bakıda işə başlayacaqdır. Beynəlxalq təşkilatlar və kütləvi informasiya vasitələri tərəfindən bu seçkilərə böyük maraq vardır. Bizim əsas məqsədimiz keçiriləcək seçkilərə obyektiv qiymət vermək, onun yerli qanunvericiliyə uyğun olub-olmaması barədə rəylərimizi bildirməkdir.

Prezident İlham Əliyev MDB-nin Kazan Sammitində dövlət başçılarının əldə etdikləri razılaşmaların həyata keçirilməsi baxımından məsləhətləşmələrin aparılmasının vacib olduğunu vurğuladı. Azərbaycanda qarşıdakı parlament seçkilərinə toxunan dövlətimizin başçısı bu seçkilərə beynəlxalq ictimaiyyətin böyük maraq göstərdiyini bildirərək dedi ki, xeyli sayda müşahidəçi ölkəmizdə parlament seçkilərinin qanunvericiliyə uyğun keçirilməsinin şahidi olacaqdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda parlament seçkilərinə hazırlıq yüksək səviyyədə gedir, deputatlığa namizədlərin 2000 nəfərdən çox olması onu göstərir ki, insanlarda bu seçkilərin ədalətli, şəffaf və demokratik keçirilməsinə böyük inam vardır. Deputatlığa namizədlərin hər biri üçün bərabər şərait yaradılmışdır. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qarşıdakı parlament seçkiləri ədalətli və şəffaf keçiriləcək və Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

MDB məkanında əməkdaşlıq məsələlərinə toxunan Prezident İlham Əliyev bu təşkilat çərçivəsində çoxtərəfli iqtisadi əməkdaşlıq imkanlarından Azərbaycanın tam istifadə etmək arzusunda olduğunu bildirdi. Ölkəmizdə iqtisadi sahədə böyük irəliləyişlər əldə edildiyini vurğulayan dövlətimizin başçısı dedi ki, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, o cümlədən regional iqtisadiyyata inteqrasiyası uğurla həyata keçirilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN LİBERAL DEMOKRAT PARTİYASI SƏDRİNİN MÜAVİNİ, KÖLGƏ KABİNETİNDƏ XARİCİ İŞLƏR NAZİRİ SER MENZİES KEMPBELLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Prezident sarayında Böyük Britaniyanın Liberal Demokrat Partiyasının parlamentdə xarici işlər üzrə aparıcı nümayəndəsi, partiya sədrinin müavini, Kölgə Kabinetində xarici işlər naziri, Con Smit Memorial Fondu, İdarə heyəti sədrinin müavini ser Menzies Kempbellin rəhbərlik

etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev qonağa müraciətlə dedi ki, bu səfər sizə ölkəmizdə gedən proseslərin inkişafını yaxından izləmək üçün imkan yaradır, eləcə də ölkələrimiz arasında ikitərəfli əlaqələr baxımından da vacibdir. Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin böyük tarixi vardır və hazırda ölkələrimiz səmərəli əməkdaşlıq edir. Böyük Britaniya şirkətləri Azərbaycanda ən fəal çalışan və ölkəmizə ən çox sərmayə qoyan şirkətlərdir. Mühüm amillərdən biri odur ki, əməkdaşlığımız təkcə neft və qaz sahəsində deyil, digər sahələrdə, o cümlədən təhsil sahəsində də həyata keçirilir.

Səmimi qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən ser Menzies Kempbell Azərbaycana ilk dəfə səfər etdiyini vurğuladı. O bildirdi ki, Con Smit Memorial Fondu Toni Bleyerdən öncə Leyborist Partiyasına rəhbərlik etmiş Con Smitin xatirəsinə yaradılmışdır. Fondun məqsədi ölkələr arasında əməkdaşlığa töhfə verməkdən, o cümlədən müxtəlif ölkələrdən gəncləri tanışlıq məqsədi ilə Böyük Britaniyaya dəvət etməkdən ibarətdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İQOR YUSUPOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Prezident sarayında Rusiya Federasiyası Prezidentinin beynəlxalq energetika məsələləri üzrə xüsusi nümayəndəsi İqor Yusupovu qəbul etmişdir.

İqor Yusupov Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirdi, Rusiya Prezidenti Vladimir Putinin salamlarını və xoş arzularını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kazan Sammitində Prezident Vladimir Putinlə keçirdiyi görüşünü məmnunluqla xatırladan Prezident İlham Əliyev bunun yaxşı görüş olduğunu bildirdi. Azərbaycan ilə Rusiya arasında münasibətlərin fəal surətdə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını, mədəniyyət sahəsində də əlaqələrin genişləndiyini nəzərə çarpdırdı. Rusiyada Azərbaycan ilinin uğurla davam etdiyini bildirən Prezident İlham Əliyev gələn il isə Azərbaycanda Rusiya ili keçiriləcəyini xatırlatdı.

İqor Yusupov dedi ki, Azərbaycanın iqtisadiyyatda və digər sahələrdə qazandığı böyük nailiyyətlər Rusiyada bizi sevindirir və əminik ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

Xəzər işçi qrupunun oktyabrın 6-da Bakıda işə başlayacağını söyləyən qonaq sahilyanı ölkələrin dövlət başçılarının sammiti ilə bağlı konkret işlər görüldüyünü bildirdi.

Salamlara və xoş arzulara görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını və xoş arzularını Rusiya Prezidenti Vladimir Putinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Qonaq İran Prezidenti Mahmud Əhmədinejadın ehtiramını və salamlarını dövlətimizin başçısına çatdırmışdır. Mehdi Səfəri Prezident İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri zamanı əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərdə nəzərdə tutulanların gerçəkləşməsi istiqamətində konkret işlərin getdiyini bildirmiş, o cümlədən İrandan Naxçıvan Muxtar Respublikasına çəkilən qaz kəmərinin inşasının yaxın zamanlarda başa çatdırılacağına əminliyini söyləmişdir.

Prezident İlham Əliyev Azərbaycanla İran arasında iqtisadi əlaqələrin genişləndiyini qeyd edərək, birgə iqtisadi layihələrin, o cümlədən enerji layihələrinin reallaşmasının ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyini vurğulamışdır.

Dövlətimizin başçısı İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, özünün də ehtiramının və salamlarının İran Prezidentinə çatdırılmasını xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HİLMİ ÖZKÖKÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hilmi Özkökü qəbul etmişdir.

Dövlətimizin başçısı ötən gün Türkiyə Prezidentinə və Baş nazirinə telefonla zəng edərək, Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqların başlanması münasibətilə təbriklərini çatdırdığını bildirdi. O, bu proseslərin Türkiyənin dünya birliyinə, Avropa ailəsinə inteqrasiyasının daha da möhkəmlənməsi baxımından yeni perspektivlər açdığını vurğuladı.

Prezident İlham Əliyev dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə Cümhuriyyətinin ölkəmizin ordu quruculuğunda dəstəyini yüksək qiymətləndirdi, eyni zamanda, milli ordumuzun gücləndirilməsi istiqamətində Azərbaycanda böyük işlərin görüldüyünü diqqətə çatdırdı.

Azərbaycan Prezidenti ilə görüşündən qürur duyduğunu vurğulayan ordu generalı Hilmi Özkök Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük məmnunluqla xatırladan Baş Qərargah rəisi həmin görüşlərin təəssüratlarının onun qəlbində daim yaşadığını vurğuladı. Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə əlaqədar müzakirələrin başlanması məsələsinə toxunan qonaq bu pro-

sesləri həm Türkiyənin Avropaya daha sıx inteqrasiyası, həm də Türkiyə xalqının tarixi-mənəvi dəyərlərinin Avropa ailəsinə daha fəal surətdə çatdırılması baxımından önəmli hadisə kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Türkiyə Prezidenti və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını cənab Əhməd Necdət Sezərə və cənab Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ UNESCO-NUN BAŞ KONFRANSININ 33-CÜ SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

Oktyabrın 6-da xarici işlər naziri Elmar Məmmədyarov UNESCO Baş Konfransının 33-cü sessiyasında iştirak etmək üçün Parisə rəsmi səfərə gəlmişdir.

Elə həmin gün nazir sessiyada çıxış edərək təşkilatın 60-cı ildönümünün qeyd olunduğu bir vaxtda belə bir sessiyanın keçirilməsinin əhəmiyyətini vurğulamış, qurumun baş direktoru Koişiro Matsuuranın bu yaxınlarda Azərbaycana səfərini xatırlatmış, onun Azərbaycan Prezidenti İlham Əliyevlə imzaladıqları birgə rəsmi sənədin əhəmiyyətini diqqətə çatdırmış və ölkəmizdə təhsil sisteminin təkmilləşdirilməsinin zəruriliyi ilə bağlı fikirlərini söyləmişdir.

Çıxışında sessiya iştirakçılarının diqqətini əsasən uşaqların və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanı olmuş qaçqın və məcburi köçkünlərin təhsil ehtiyaclarına yönəldən nazir Məmmədyarov, respublikamızın işğal olunmuş ərazilərində dağıdılmış mədəniyyət obyektləri barədə ətraflı məlumat vermiş və ölkəmizə dəymiş maddi və mənəvi zərərin aradan qaldırılmasının zəruriliyini vurğulamışdır. Nazir Azərbaycan ilə UNESCO arasında respublikamızda təhsil sisteminin təkmilləşdirilməsi məqsədi ilə inkişaf layihələrinin həyata keçirilməsinə yönəlmiş birgə proqramın hazırlanması haqda, bu beynəlxalq qurumun baş direktoru ilə imzalanmış Əməkdaşlıq haqda Anlaşma Memorandumunu sessiya iştirakçılarının diqqətinə çatdırmışdır.

Nazir çıxışında Azərbaycan Prezidentinin təhsilə göstərdiyi qayğıdan, Azərbaycanın muğam sənətinə UNESCO-da verilən yüksək qiymətdən danışmış, xoşməramlı səfir Mehriban xanım Əliyevanın ölkəmizdə mədəni irsin qorunması və təbliği sahəsindəki xidmətlərindən bəhs etmişdir.

Sessiyadakı çıxışını Azərbaycanın məşhur kimyaçı alimi Yusif Məmmədəliyevin 100 illik yubileyinin bu il sentyabrın 13-də UNESCO səviyyəsində keçirilməsinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirməklə başa çatdıran nazir E.Məmmədyarov həmin gün UNESCO-nun baş direktoru K.Matsuura ilə görüşmüşdür.

Görüşdə K.Matsuura bu ilin avqustunda Bakıya səfərinin onda böyük təəssürat oyatdığını bildirmiş, səmimi salamlarını Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya çatdırmağı xahiş etmişdir.

Nazir qeyri-maddi və maddi irsin qorunması sahəsində Azərbaycan ilə UNESCO arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirərək, bu işin daha da genişlənməsinin vacibliyini vurğulamışdır. Eyni zamanda, Azərbaycan muğamının UNESCO-nun Bəşə-

riyyətin şifahi və qeyri-maddi şah əsərləri siyahısına salınmasından məmnun olduğunu bildirən nazir, həmçinin İçərişəhər memarlıq kompleksinin qorunması, Qobustan qoruğunun və Hirkan meşələrinin Dünya İrsi siyahısına tezliklə daxil edilməsi və digər məsələlərdə UNESCO ilə əməkdaşlığın davam etdirilməsində Azərbaycanın maraqlı olduğunu xüsusi vurğulamışdır. Tərəflər UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirmişlər.

Azərbaycanla təhsil sistemində islahatların aparılması sahəsində əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdıran K.Matsuura respublikamıza bu sahədə yardımın davam etdiriləcəyini bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ VİTALİ SMİRNOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Prezident sarayında Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovu qəbul etmişdir.

Beynəlxalq Olimpiya Komitəsinin bu günlərdə keçirilmiş iclasında iştirak etdiyini vurğulayan qonaq dedi ki, BOK-un prezidenti onun salamlarını və müxtəlif yarışlarda Azərbaycan idmançılarının uğurlu çıxışlarına görə təbriklərini Prezident İlham Əliyevə çatdırmağı xahiş etmişdir.

Azərbaycan voleybolçularının çox yaxşı çıxış etdiklərini söyləyən cənab Smirnov həmin yarışlarda onlara azarkeşlik etdiyini vurğuladı. O, Azərbaycanda Olimpiya lisenziya turnirlərinin yüksək səviyyədə keçdiyini bildirdi.

Ölkəmizdə idmanın inkişafı üçün böyük işlər görüldüyünü deyən Prezident İlham Əliyev Azərbaycanda beynəlxalq turnirlərin yüksək səviyyədə keçdiyini və onların təkcə Bakıda deyil, həm də respublikamızın rayonlarındakı müasir tipli olimpiya komplekslərində təşkilinin böyük əhəmiyyəti olduğunu vurğuladı.

Azərbaycanda dünya standartlarına cavab verən bir çox olimpiya idman kompleksinin inşa edildiyini xatırladan dövlətimizin başçısı daha bir neçə rayonda belə komplekslərin özülünün qoyulduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, onların hər birində beynəlxalq yarışların yüksək səviyyədə təşkili mümkündür. Dünya standartlarına cavab verən olimpiya komplekslərinin ətrafında infrastrukturun yaradılması, həm də Azərbaycanda turizmin inkişafına xidmət edir.

Azərbaycan voleybolçularının böyük uğurla çıxış etdiklərini vurğulayan Prezident İlham Əliyev dedi ki, Bakıda ötüstü xokkey üzrə beynəlxalq turnir müvəffəqiyyətlə keçmiş, Azərbaycan komandası dünya çempionatının final mərhələsinə vəsiqə qazanmışdır. Hazırda ölkəmizdə bədii gimnastika üzrə dünya çempionatı keçirilir. Bir sıra beynəlxalq turnirlərin keçirilməsi də nəzərdə tutulmuşdur. Bütün bunlar Azərbaycanda idman sahəsində işlərin uğurla getdiyini göstərir.

Salamlara və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını BOK-un prezidenti cənab Jak Roqqa çatdırmağı xahiş etdi.

XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYANIN HAZIRLANMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUN BAKIDA KEÇİRİLƏN 18-Cİ İCLASI BAŞA ÇATMIŞDIR

Bakıda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması üzrə xüsusi işçi qrupun 18-ci iclası oktyabrın 7-də işini başa çatdırmışdır. Bu münasibətlə "Hyatt park" hotelində mətbuat konfransı keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov iclasın yekununa dair rəsmi məlumat verərək bildirdi ki, iki gün davam edən iclasda Rusiya, İran, Qazaxıstan və Türkmənistan xarici işlər nazirləri müavinlərinin başçılığı ilə nümayəndə heyətləri Konvensiya layihəsi üzrə birgə məhsuldar müzakirələr aparmış, nümayəndələr layihənin ayrı-ayrı müddəalarına dair öz dövlətlərinin mövqeyini açıqlamış, bir sıra məsələlər barədə prinsipial razılaşmalar əldə olunmuş, Xəzərin hüquqi statusuna dair yekun sənədin hazırlanması üzrə danışıqların tezliklə başa çatdırılması üçün tərəflər ümumi fikirlərini ifadə etmişlər.

İşçi qrupun növbəti 19-cu iclasının Qazaxıstanın paytaxtı Astanada keçirilməsi qərara alınmışdır. İclasın vaxtı diplomatik kanallarla dəqiqləşdiriləcəkdir.

Digər Xəzəryanı dövlətlərin təmsilçiləri də Konvensiya layihəsinin bütünlüklə oxunduğunu qeyd edərək, əsas məsələlərə dair mövqelərin yaxınlaşmasını Bakı görüşünün mühüm nəticəsi kimi yüksək qiymətləndirdilər, danışıqlar prosesinin indiyəqədərki mərhələlərində Xəzərin dibinin bölünməsi, ekoloji tarazlığının qorunması, ətraf mühitin mühafizəsi, hövzənin sülh və təhlükəsizlik zonasına çevrilməsi, terrorizmə, silah qaçaqmalçılığına, narkobiznesə qarşı birgə tədbirlərin həyata keçirilməsi, enerji resurslarından birgə istifadə olunması, beynəlxalq layihələrin, sərmayələrin cəlb olunması, ticarət gəmiçiliyi və digər məsələlər üzrə iki və çoxtərəfli razılaşmaların əldə edildiyini bildirdilər, tərəflərin bundan sonra da bütün mübahisələrin danışıqlar yolu ilə, dinc vasitələrlə həll ediləcəyinə dair ümumi fikirlərini ifadə etdilər, iclasın yüksək səviyyədə təşkilinə, göstərilən qonaqpərvərliyə, mehriban ev sahibliyinə görə öz razılıqlarını bildirdilər.

Sonda jurnalistlərin sualları cavablandırıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ BRUNO QRANDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandini qəbul etmişdir.

Qəbula görə təşəkkür edən Bruno Qrandi dedi ki, cənab Prezident, ilk görüşümüz zamanı Siz Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti idiniz.

Dövlətimizin başçısı bildirdi ki, o, indi də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir.

Beynəlxalq Federasiyanın rəhbəri Bakıya gəlməzdən əvvəl Avropa Olimpiya Komitə-

sinin prezidenti Mario Peskante ilə görüşdüyünü bildirdi və Prezident İlham Əliyevə onun salamlarını çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da ən səmimi salamlarını AOK-un rəhbərinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı dedi ki, biz Avropa Olimpiya Komitəsində birgə çalışmışıq, o zaman Mario Peskante baş katib idi.

Bədii gimnastika üzrə dünya çempionatının Azərbaycanda keçirilməsinə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev dedi ki, bir neçə gün ərzində bu tədbir bütün televiziya kanallarında və idman verilişlərində yayımlanmışdır. Ölkəmizdə bu tədbirə böyük maraq var idi. İlk dəfə idi ki, Olimpiya idman növü üzrə ölkəmizdə dünya çempionatı keçirilirdi. Azərbaycana göstərdiyiniz bu diqqətə və əməkdaşlığınıza görə sizə təşəkkür edirəm. Mən ümid edirəm ki, gələcəkdə ölkəmizdə daha çox beynəlxalq tədbirlər keçiriləcəkdir.

Azərbaycanda gələcəkdə bir sıra dünya və Avropa çempionatlarının keçiriləcəyini vurğulayan qonaq Bakıda olmasından çox məmnun qaldığını söylədi. O dedi ki, biz bədii gimnastika üzrə dünya çempionatının keçirilməsi üçün Bakını seçəndə bilirdik ki, ölkənizdə belə tədbir ilk dəfə olacaqdır. Lakin deməliyəm ki, seçimimiz çox düzgün olmuşdur. Hər şey çox yaxşı təşkil edilmişdi. Mən çox məmnunam. Təşkilati işləriniz və qonaqpərvərliyiniz çox yüksək səviyyədə idi. Deyərdim ki, Azərbaycan qonaqpərvərlikdə ən birinci yerdə durur. İştirakçılar bütün bunlara görə təşəkkürlərini bildirirlər. Bütün dostlarım adından Sizə təşəkkür edirəm. Azərbaycan komandası çox yaxşı çıxış etdi, bu, onlar üçün böyük tərəqqidir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dedi ki, Azərbaycanda idman çox uğurla inkişaf edir. Bir çox idman növlərində gözəl nəticələr əldə olunur.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İQTİSADİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Azərbaycan və Türkiyə xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr keçirilmişdir. Məsləhətləşmələrdə iştirak edən Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev, Türkiyə nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Ender Arat rəhbərlik etmişlər.

Görüşdə Azərbaycan və Türkiyə arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Sazişinin həyata keçirilməsinə dair icra planında nəzərdə tutulmuş müddəalar, habelə ölkələrimiz arasında ikitərəfli, regional və qlobal səviyyədə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə dair təkliflər müzakirə edilmişdir. Görüşdə Qars-Tbilisi-Bakı dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrinə diqqət yetirilmiş, digər ölkələrin gələcəkdə bu layihələrə qoşulması imkanları haqqında fikir mübadiləsi aparılmış, iş adamlarının əlaqələrinin daha da gücləndirilməsinə diqqət yetirilmişdir. Bundan başqa, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində mövcud məsələlərə toxunulmuş və bu sahədə birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

Görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesində Türkiyənin yardım göstərmək imkanları nəzərdən keçirilmişdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ İXTİSASARTIRMA KURSU FƏALİYYƏTƏ BAŞLAMIŞDIR

Oktyabrın 10-da Xarici İşlər Nazirliyində birinci dəfə olaraq təşkil edilən ixtisasartırma kursunun ilk məşğələsi olmuşdur.

Məşğələdən əvvəl nazir müavini Vaqif Sadıqov ixtisasartırma kursunun məqsədi barədə dinləyicilərə və kütləvi informasiya vasitələri nümayəndələrinə məlumat verərək bildirdi ki, bu ilin aprelində Nazirliyin tarixində ilk dəfə olaraq işə qəbul üçün test imtahanı keçirilmiş, müsabiqədə iştirak edən 500 nəfərdən yalnız 8-i lazımi bal toplayaraq işə qəbul edilmişdir. Kursun ilk dinləyiciləri də bu gənc diplomatlar olacaqdır. Nazirliyin yüksək rütbəli əməkdaşları, tanınmış alimlər və politoloqlar, dövlət rəsmiləri 5 ay müddətində kursda dövlət və beynəlxalq hüquq, diplomatiya tarixi, təcrübəsi, qanunvericilik bazası və digər mövzularda həftədə 3 gün cəmi 150 mühazirə oxuyacaq, hər 6-7 mühazirədən sonra seminarlar keçiriləcəkdir. Sonda məzunların bilikləri qiymətləndiriləcək, onlara sertifikatlar veriləcəkdir.

AZƏRBAYCANLA AVROPA ŞURASI ARASINDAKI SIX ƏMƏKDAŞLIQ DEMOKRATİYANIN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYIR

Oktyabrın 11-də Milli Məclisin sədri Murtuz Ələsgərov Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda parlament seçkilərinin müşahidəsi üzrə Xüsusi Komitəsinin seçkiqabağı missiyasının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul etmişdir.

Murtuz Ələsgərov qonaqları səmimi salamladıqdan sonra demişdir ki, son vaxtlar Avropa Şurasının sədri və Baş katibi başda olmaqla nümayəndə heyətlərinin Bakıya tez-tez səfərləri qurumun Azərbaycana xüsusi diqqət və maraq göstərdiyini sübut edir. Rəsmi Bakı da Avropa Şurası ilə əlaqələrin inkişafında maraqlıdır və bunun üçün əlindən gələni edir. Avropa Şurasına üzvlük zamanı götürülmüş öhdəliklərin böyük əksəriyyəti yerinə yetirilmiş, qurumun 40-dan çox konvensiyası Milli Məclisdə təsdiqlənmiş, qanunlarımızın çoxu Avropa standartlarına uyğunlaşdırılmışdır. AŞ və ATƏT-in ekspertlərinin yaxından köməyi ilə yeni Seçki Məcəlləsi qəbul edilmiş, İctimai Televiziya fəaliyyətə başlamış və digər islahatlar həyata keçirilmişdir. Hazırda ölkəmiz yeni seçki ərəfəsindədir və seçkilər yeni Məcəllənin tələblərinə uyğun keçiriləcək, əhali İctimai Televiziya vasitəsilə prosesi tam izləyə biləcəkdir. Azərbaycan Prezidenti seçkilərin demokratikliyini təmin etmək məqsədi ilə xüsusi sərəncam imzalamış, icra strukturlarının seçkilərə müdaxiləsi qanunla qadağan edilmişdir. Hakimiyyət bu seçkilərin tam demokratik, azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün mümkün vasitələrdən istifadə edəcəkdir. Seçki prosesini 2 mindən artıq xarici müşahidəçi izləyəcək və inanırıq ki, onların və sizin də yaxından köməyiniz sayəsində biz istəyimizə nail olacağıq.

Nümayəndə heyətinin rəhbəri Leo Platvoyet səmimi qəbul və ətraflı məlumat üçün minnətdarlıq etdikdən sonra demişdir ki, Bakıya səfərdən məqsəd ölkədə seçkiqabağı

vəziyyətlə tanış olmaq, bir sıra görüşlər keçirməklə ətraflı məlumatlar əldə etməkdir.

O, Azərbaycanda həyata keçirilən islahatlardan razılıqla danışmış və qeyd etmişdir ki, Avropa Şurası həqiqətən də Azərbaycana xüsusi maraq göstərir və ikitərəfli əməkdaşlığın genişləndirilməsi demokratiyanın inkişafında mühüm rol oynayır. Ümid edirik ki, bu seçkilər azad, şəffaf və demokratik keçiriləcək və biz sizinlə istəyimizə nail olacağıq.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN GÜRCÜSTAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

Memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti öz tarixinin əlamətdar bir dövrünü yaşayır. Hazırda dünyanın ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin tikintisi başa çatmış və Azərbaycan nefti boruya doldurulmuşdur. Bu, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan, Azərbaycanın yeni neft strategiyasının təntənəsidir.

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1768 kilometrlik xəttin "qara qızılla" doldurulması üçün 10 milyon barrel xam neft tələb olunur. Bu neft Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaqdır. Kəmərin Azərbaycan hissəsi neftlə doldurulmuşdur və hazırda Gürcüstandan Türkiyə sərhədinə qədər olan hissəyə neft vurulur. İlin sonunda Ceyhanda Azərbaycan nefti yüklənmiş ilk tankerin yola salınacağı gözlənilir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə oktyabrın 12-də Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Sizin hamınızı salamlayıram. Əsasən də, bizim dostlarımızı, Azərbaycan və Türkiyə prezidentlərini, eləcə də bp-nin nümayəndələrini salamlayıram. Bugünkü tədbir elə bir tədbirdir ki, bir neçə il öncə bunu təsəvvür etmək mümkün deyildi. Bunu inanılmaz bir hadisə hesab edirdilər. Biz bu gün çox şadıq ki, tarixin dialektikası, məntiqi və istiqaməti biz istədiyimiz kimi inkişaf edir. Bizim ölkələr, iqtisadiyyatımız inkişaf edir. Ölkələri-

mizin əhəmiyyəti böyüyür. Bu bizim ölkələrin tutduğu düzgün istiqamətə əsaslanır. Çox şadıq ki, Azərbaycan çox yaxşı, Gürcüstanın arzuladığı kimi inkişaf edir. Azərbaycan varlı bir dövlətə çevrilir. Sosial və iqtisadi sahələr çox sürətlə inkişaf edir. Bu sahələrin inkişafı insanların rifah halının yüksəlməsinə xidmət edir. Bütün bunlar təkcə Azərbaycan xalqı üçün yox, həm də gürcü xalqı üçün faydalıdır.

Mən sizə dostum, qardaşım İlham Əliyev haqqında danışmaq istəyirəm. Onun siyasəti bizi çox sevindirir. Ona görə ki, biz qonşumuzun varlı olmasını istəyirik. Azərbaycanın iqtisadi cəhətdən güclü olması Gürcüstanın iqtisadi və siyasi məsələlərinin həllinə də öz müsbət təsirini göstərir. Azərbaycan bilməlidir ki, onun Gürcüstan kimi dostu, qardaşı vardır.

Türkiyə böyük ölkə olmaqla yanaşı, həm də güclü iqtisadi potensiala malikdir. O, Gürcüstanın dar günündə həmişə kömək əlini uzadıb, təmənnasız kömək göstəribdir. Gürcüstanın müstəqilliyinin ilk illərində Türkiyə ona yardım edən, dost əli uzadan, bizi dəstəkləyən ilk ölkələrdəndir.

Acarıstanda baş vermiş vətəndaş qarşıdurması təhlükəsi yaranan zaman Türkiyənin köməyini bir daha hiss etdik. Bu böhrandan dinc, sakit çıxmaq üçün bizə yardımını əsirgəmədi. Türkiyə bu gün də bizim tərəfdaşımızdır. İqtisadi layihələrdə iştirak edir. Tbilisinin və Batuminin hava limanlarının yenidən qurulmasında yaxından iştirak edir. İqtisadiyyatın başqa-başqa sahələrinə, o cümlədən ticarət və tikinti, energetikanın müxtəlif sahələrinə sərmayə qoyurlar. Digər infrastruktur layihələrdə də iştirak edirlər. Biz bu münasibətin inkişafından çox razıyıq. Düşünürəm ki, biz bir regionda yaşadığımız üçün belə də olmalıdır.

Bizim həmçinin bp ilə iş təcrübəmiz var. Biz hakimiyyətdə əvvəllər olsaydıq, bu məsələni sürətləndirə bilərdik. Hakimiyyətə gələndən sonra mövcud problemlərin həlli ilə məşğul olduq. Bunun gözəl nümunəsindən biri də bu gün iştirakçısı olduğumuz möhtəşəm tarixi hadisədir və Borjomi parkının bərpasıdır. Biz birlikdə başqa layihələr də həyata keçirdik. Hazırda Axaltsixe şəhərinin su sisteminin bərpası ilə əlaqədar danışıqlar aparılır. Bundan əlavə, kiçik və böyük həcmli layihələr üzərində birlikdə işləyirik. Bütün bu işlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün lazımi qanun və qərarları hazırlayıb tətbiq edəcəyik.

Mən dost və qardaş ölkələrin prezidentlərini və digər hörmətli qonaqlarımızı bir daha salamlayıram.

Bu neft kəmərinin Gürcüstan üçün əhəmiyyəti nədən ibarətdir? İqtisadi baxımdan bir sıra infrastrukturun yaranması və genişlənməsi Gürcüstana sərmayənin axını deməkdir. Siyasi baxımdan isə çox böyük əhəmiyyəti vardır. Gürcüstan dünya birliyində tanınır.

Gələn il Gürcüstandan keçəcək Bakı-Tbilisi-Ərzurum qaz kəməri də işə düşəcəkdir. Bu, bizim üçün daha da əhəmiyyətlidir. Bu qaz xətti eyni zamanda, mavi yanacaq baxımından Gürcüstanın asılılığını aradan qaldırmağa kömək edəcəkdir. Bütün bunlar, eləcə də bugünkü mərasim bizim üçün tarixi bir hadisədir. Əhəmiyyətlisi odur ki, regionumuz dünya üçün açıqdır və perspektivlidir. Hansı ölkədə iqtisadi rəqabət varsa, orada düzgün seçim və demokratik inkişaf var, demək, o ölkənin müstəqilliyi güclənir. Bütün bu dəyərlər neft və qazdan qat-qat üstündür.

Enerji sektoru ilə bağlı danışıqlarımız müsbət və mənfi reaksiyalarla üzləşmişdi. Bu, təbii haldır. Sağlam rəqabət olan yerdə heç kəs uduzmur. Biz ayaq üstündə nə qədər güclü dayanırıqsa, məğlubiyyətə uğrayan olmayacaq və bütün tərəflər udacaqdır. Biz bu məsələlərə real yanaşsaq, görərik ki, bu layihə heç kəsə qarşı yönəlməyibdir.

Bütün iştirakçılara, bu işdə əməyi olan şirkətlərə, onların rəhbərlərinə təşəkkür edirəm. Artıq neft mənim dayandığım yerdədir və bu yer Gürcüstanın əhəmiyyətini daha da artırır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Gürcüstan Prezidenti Mixail Saakaşvili!

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən yenidən qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam və bu fürsətdən istifadə edərək, bütün qardaş gürcü xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək istəyirəm.

Bu gün çox əlamətdar bir gündür. Bu gün Gürcüstan torpağında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyatında çox mühüm hadisə baş verir. Azərbaycan nefti artıq Gürcüstanın ərazisinə daxil olubdur və bundan sonra Türkiyənin Ceyhan limanına nəql ediləcəkdir. Bir neçə ay bundan əvvəl buna oxşar mərasim Bakıda keçirilmişdi və mənim əziz dostlarım - Türkiyə və Gürcüstan prezidentləri həmin mərasimdə iştirak etmişdilər. Ümid edirəm ki, yaxın zamanlarda buna bənzər mərasim Türkiyənin Ceyhan limanında keçiriləcək və beləliklə, uzun illər əfsanə sayılan kəmər işə düşəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində iştirak etmiş, bu layihəni gerçəkləşdirmiş bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu layihənin həyata keçirilməsində çoxlu insan iştirak edibdir. Biz hamımız - çoxlu şirkətlər, dövlətlər, beynəlxalq maliyyə qurumları, adi fəhlələr bunu birlikdə etmişik. Ancaq hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində "Əsrin müqaviləsi" imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu. Azərbaycana çoxlu təzyiqlər edilirdi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bildi və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır.

Mən bu fürsətdən istifadə edib bir məsələyə də toxunmaq istəyirəm. Bu layihə transmilli bir layihədir. Dünyanın ən böyük enerji layihəsidir. Şübhəsiz ki, əgər burada çox geniş əməkdaşlıq olmasaydı, biz bu layihəni həyata keçirə bilməzdik.

Layihənin aparıcı şirkəti olan bp şirkəti, beynəlxalq maliyyə qurumları, konsorsiumun digər üzvləri və əlbəttə ki, Gürcüstan, Türkiyə və Azərbaycan rəhbərliyinin siyasi ira-

dəsi, qətiyyəti, cəsarəti bu layihəni əfsanədən gerçəkliyə çevirdi. Bu gün bu gözəl mərasimi keçirərək, yenidən ötən illərə nəzər salırıq və çox böyük fərəh hissi ilə deyə bilərik ki, biz bunu bacardıq. Bütün çətinliklərə, bütün əngəllərə baxmayaraq, biz bunu bacardıq və beləliklə, biz tarixi yazdıq. Bu tarix yeni tarix olacaqdır. Bu, bizim xalqlarımızın inkişafına, ölkələrimizin müstəqil şəkildə yaşamasına çox güclü şərait yaradacaqdır.

Sirr deyil ki, Sovet İttifaqı dağılandan sonra həm Gürcüstan, həm də Azərbaycan çox çətin vəziyyətə düşmüşdü. Ölkədə gedən proseslər, sabitliyin pozulması, torpaqlarımızın işğal altına düşməsi bizi çox sarsıtdı. Bu əməkdaşlıq, bu işbirliyi bizə yeni üfüqlər açır. Mən şübhə etmirəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarından əldə ediləcək gəlirlər bizim xalqlarımızın rifah halının yaxşılaşmasına sərf olunacaq, ölkələrimizin hər bir vətəndaşı bundan fayda götürəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin digər əhəmiyyəti ondadır ki, bu, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə güclü xidmət edəcəkdir. Bildiyiniz kimi, bu bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə böyük ehtiyac var və hər üç ölkə öz tərəfindən bu işə töhfəsini verir və verəcəkdir. Əminəm ki, kəmərin istismara verilməsindən sonra təhlükəsizlik sistemi daha da möhkəmlənəcəkdir. Digər tərəfdən, bu, regional əməkdaşlığın çox parlaq bir təzahürüdür. Həm də onu göstərir ki, regionda əməkdaşlıq uğurla gedə bilər. Üç ölkə dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsinə nail oldu. Bu, gələcəkdə imkan verəcək ki, digər beynəlxalq iqtisadi və nəqliyyat layihələrimizi də birlikdə icra edək. "Şahdəniz" yatağının işə düşməsi ilə əlaqədar Cənubi Qafqaz qaz kəmərinin tikintisi layihəsi çox böyük önəm daşıyır. Bu Azərbaycan qazının Gürcüstana, Türkiyəyə və ondan sonra digər ölkələrə daşınmasını təmin edəcəkdir.

Bölgədə növbəti regional əməkdaşlıq layihəsi Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilməsidir. Biz bu layihəyə də çox böyük əhəmiyyət veririk və ümid edirəm ki, yaxın zamanlarda bu əfsanə də gerçəkliyə çevriləcəkdir. Yəni gələcəkdə görüləcək işlər çoxdur. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranması bütün dünyaya sübut etdi ki, burada gözəl əməkdaşlıq var, gözəl ab-hava hökm sürür, ölkələr arasında əsil qardaşlıq əlaqələri mövcuddur.

Bu fürsətdən istifadə edərək, mən bizim aramızda olan əlaqələrin inkişafına yenidən diqqət yetirmək istəyirəm. Gürcüstanla Azərbaycanı çox dərin tarixi tellər bağlayır. Bizim xalqlarımız qonşudur. Həmişə, bütün zamanlarda *biz mehribanlıq şəraitində*, dostluq, qardaşlıq şəraitində yaşamışıq. Yaxşı qonşu olmuşuq, yaxşı dost, yaxşı qardaş olmuşuq. Çox sevindirici haldır ki, ölkələrimizin indiki rəhbərləri bu gözəl ənənələri davam etdirir. Bu əlaqələr çox böyük və güclü zəmin üzərində qurulubdur.

Əminəm ki, Mixail Saakaşvili ilə bizim şəxsi dostluğumuz, qardaşlığımız ölkələrimizin çox uğurlu inkişafına da böyük təkan verir. Bizim xalqlarımız, ölkələrimiz bir-birinə çox sıx bağlıdır. Gürcüstanın uğuru bizim uğurumuzdur, Azərbaycanın uğuru Gürcüstanın uğurudur. Biz bir-birimizə o qədər sıx bağlıyıq ki, bir ölkə, o biri ölkənin inkişafında iştirak edir və əksinə. Eyni zamanda, bizi bağlayan dostluq, qardaşlıq münasibətləridir. Biz bu münasibətlərə çox böyük əhəmiyyət verir, onu çox yüksək dəyərləndiririk. Biz Gürcüstanda gedən prosesləri dəstəkləyirik. Rəhbərliyin qətiyyətli siyasətini bəyənirik. Azərbaycanda buna çox böyük rəğbət var. Sizin uğurlarınıza sevinirik. Görəndə ki,

Gürcüstanın büdcəsi artır, sosial vəziyyət yaxşılaşır, ölkənizdə güclü infrastruktur yaradılır, qayda-qanun yaradılır – bu, bizi də çox sevindirir. Çünki dost kimi, qardaş kimi, bizim mövqeyimiz başqa cür ola da bilməz. Ümid edirəm ki, gələcəkdə bizim uğurlarımız daha da böyük olacaqdır. Həm Gürcüstanın, həm də Azərbaycanın gələcəkdə böyük perspektivləri vardır. Bu perspektivləri reallaşdırmaq üçün bütün səviyyələrdə birlik olmalıdır, dostluq, qardaşlıq olmalıdır.

Mən bu gün dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezəri də görməyimdən çox məmnunam. Bildiyiniz kimi, Türkiyə və Azərbaycan qardaş ölkədir. Bizim aramızda münasibətlər ən yüksək səviyyədədir. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olubdur. Bütün beynəlxalq tədbirlərdə, bütün məsələlərdə həmişə biz bu dəstəyi hiss etmişik və buna arxalanırıq.

Bu gün üç ölkənin prezidentləri bu gözəl mərasimə toplaşaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yeni bir hissəsinin işə salınmasını qeyd edirlər. Bu, çox əlamətdar hadisədir. Bu lokal hadisə deyil, çünki Bakı-Tbilisi-Ceyhan neft kəməri transmilli layihədir. Dünyanın ən böyük enerji layihəsidir və onun uğurla başa çatması bütün bölgəyə yeni nəfəs gətirəcək, burada yeni imkanlar yaradacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Çünki bundan əldə olunan gəlir, şübhə etmirəm ki, bölgəmizin iqtisadi potensialına, rifah halının yaxşılaşmasına xidmət edəcəkdir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, qardaş Gürcüstan xalqına uğurlar, xoşbəxtlik, tərəqqi arzulayıram. Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

- Çox hörmətli cümhurbaşqanları!

Hörmətli nazirlər!

Hörmətli iştirakçılar!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə ilk neftin Gürcüstana gəlməsi münasibətilə keçirilən təntənəli mərasimə qatılmaqdan və dost, qonşu Gürcüstanda olmaqdan böyük məmnunluq duyuram.

Təxminən dörd ay əvvəl, mayın 25-də Azərbaycanın Səngəçal terminalında keçirilən ilk təntənəli mərasimdən sonra bu gün layihənin ikinci mərhələsini reallaşdırırıq. Hamımız Avropa və Asiyanın kəsişdiyi, starteji önəm daşıyan Cənubi Qafqazda sabitliyin, sülh və təhlükəsizliyin təmin olunması, əlverişli beynəlxalq əməkdaşlığın yaradılması üçün atılan bu böyük addımın reallığını yaşayırıq. Şərq-Qərb enerji dəhlizini gerçəkləşdirən layihələr bölgədə təhlükəsizliyin, sülhün möhkəmlənməsi, iqtisadi dirçəliş yolunda mühüm bir addımdır. Bu layihələr bölgə ölkələrinin bir-biri ilə əlaqələri ilə yanaşı, Qərb dünyası ilə də əlaqələrini gücləndirəcəkdir.

Bölgə ölkələrində iqtisadi və sosial inkişafın davam etdirilməsi önəm daşıyır. Bu çərçivədə xüsusi yeri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin son mərhələsinə ölkələrimiz arasında etimada əsaslanan fəaliyyət nəticəsində nail olacağıq. Avropa və Asiyaya yeni dinamika gətirəcək və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq bu layihə son hə-

dəfinə doğru sürətlə irəliləməkdədir. Bakı-Tbilisi-Ceyhan layihəsinin gerçəkləşməsində əməyi olan hər kəsi ürəkdən təbrik edir, təşəkkürlərimi bildirirəm.

Hörmətli cümhurbaşqanları!

Dəyərli iştirakçılar!

Enerji təhlükəsizliyi bütün ölkələrin işbirliyi baxımından dünyəvi bir məsələdir. Amerikada baş verən "Katrina" və "Rita" qasırğaları kimi təbii fəlakətlər beynəlxalq enerji təhlükəsizliyinin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərdi. Bakı-Tbilisi-Ceyhan neft kəməri Avropa bazarlarında Xəzər neftinə olan ehtiyacı ödəyəcəkdir. Bu kəmərlə gündə nəql edilən 1 milyon barrel və ildə 50 milyon ton neft dünyada enerji təhlükəsizliyinin gücləndirilməsinə önəmli töhfə verəcəkdir.

Təxminən 1770 kilometr uzunluğunda olan "qara qızıl" kəmərindən söhbət açırıq. Bu kəmərə Qazaxıstanın da qoşulması ilə onun əhəmiyyətinin daha da artacağına və Qazaxıstan neftinin bir hissəsinin ən əlverişli şəkildə Aralıq dənizinə çıxmasına şərait yaranacağına inanırıq.

Türkiyə, Gürcüstan və Azərbaycan bir zamanlar əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan layihəsini müvəffəqiyyətlə həyata keçirərək, regional işbirliyi sahəsində digər ölkələrə gözəl nümunə göstərmişlər. Bakı-Tbilisi-Ceyhan layihəsini tamamlamaq yolunda çalışdığımız bu mərhələdə digər layihələri reallaşdırmağımızın da zamanı gəlib çatmışdır. Bundan sonrakı hədəfimiz Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərinin ən qısa zamanda – 2006-cı ilin sonunadək başa çatdırılması olmalıdır. Xəzərdəki yataqlarda olan təbii qazın Avropa Birliyinin bazarlarına çatdırılması üçün Türkiyə-Yunanıstan-İtaliya qaz kəmərinin çəkilməsi istiqamətində aparılan işlər də xüsusi önəm daşıyır. Avropa ilə Asiya arasında əlaqənin daha sürətlə inkişafı, mal və xidmətlərin səmərəli və daha ucuz yollarla daşınması baxımından ölkələrimizin əhəmiyyəti böyükdür. Bu sahədə önəmli layihələrdən biri Şərq və Qərb arasında dəmir yolu vasitəsilə əlaqə yaradılmasına xidmət edən Qars-Tbilisi-Bakı dəmir yoludur. Bu layihə gerçəkləşdirildikdə Türkiyə Cənubi Qafqazla Orta Asiyanı bir-birinə bağlamaqla yanaşı, tarixi İpək yolunu da XXI əsrdə yenidən canlandıra biləcəkdir.

Türkiyə Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub nəqliyyat dəhlizində də işbirliyinə önəm verməkdədir. Avrasiya bölgəsində Xəzəri Aralıq dənizi ilə, Qara dənizi Orta Şərqlə bağlamaq gücündə olan ölkəmiz bölgədəki xalqların müştərək formada həyata keçiriləcək bütün layihələrə kömək etmək niyyətindədir.

Hörmətli cümhurbaşqanları!

Hörmətli iştirakçılar!

Bildiyiniz kimi, Xəzərin enerji ehtiyatlarının dünya bazarına çatdırılmasında önəmli yollardan biri də Türkiyədəki boğazlardır. Türkiyədəki boğazlardan daşınan neft dünyada neftə tələbatın təxminən dörd faizini təmin etməkdədir. Bakı-Tbilisi-Ceyhan layihəsi ilə genişlənəcək Ceyhan limanı dünyanın mühüm enerji, ticarət və s. mərkəzinə çevriləcəkdir. Ceyhan terminalına çəkiləcək yeni boru xətləri Türkiyədəki boğazlardan keçən yüklərin həcmini azaltmağa, enerji, sərhəd təhlükəsizliyini inkişaf etdirməyə səbəb olacaqdır. Boğazlardan tankerlərin və təhlükəli maddələrin keçməsinin qarşısını almaqla, İstanbulun və ətrafının qorxusuz bir sahəyə çevrilməsini nəzərdə tuturuq. Bu çərçivədə Şimal-Cənub dəhlizində reallaşdırılmaqda olan digər bir layihə Novorossiysk və Supsaya gətiriləcək nefti Aralıq dənizinə daşıyacaq Samsun-Ceyhan neft boru xəttidir. 2010-cu ildən başlayaraq Qara dənizə çatması gözlənilən Rusiya və Qazaxıstan neftinin Samsun-Ceyhan boru xətti vasitəsilə ən təhlükəsiz, sərfəli şəkildə Aralıq dənizinə və oradan da dünya bazarlarına çıxarılacağına inanırıq.

Hörmətli cümhurbaşqanları!

Hörmətli iştirakçılar!

Tarixdən gələn dərin əlaqələrə malik Qafqazın sülh, sabitlik və işıqlı günlərə qovuşması ən böyük diləyimizdir. Qardabani rayonu bu aydınlığın, sabaha doğru uzanan yolun yeni bir məkanıdır. Bakı-Tbilisi-Ceyhan boru xəttindən keçəcək neftin Ceyhandan tankerlərə yüklənməsi münasibətilə Ceyhanda təşkil olunacaq mərasimdə sizlərlə yenidən görüşməyi gözləyirik. Gələcəkdə bölgə ölkələrinin Bakı-Tbilisi-Ceyhan neft xətti kimi uğurlu, çox mühüm layihələrə imza atacağına inanır, ən səmimi diləklərimi bildirirəm.

[redacted]

Təntənəli mərasimdə Amerika Birləşmiş Ştatları hökuməti adından çıxış edən konqresmen Bakı-Tbilisi-Ceyhan boru xəttinin Gürcüstan ərazisində tikintisinin başa çatması münasibətilə ABŞ Prezidenti Corc Buşun təbrikini və xoş arzularını çatdırdı.

bp şirkətinin baş direktorunun müavini bu kəmərin region ölkələrinin tərəqqisinə çox böyük köməyi dəyəcəyini və sosial proqramların reallaşmasına təkan verəcəyini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin gələn il işə salınacağını söylədi.

Böyük Britaniyanın nümayəndəsi çıxışında bu layihənin çox cəsarətli addım olduğunu və bu gün onun konkret nəticələrinin göründüyünü xüsusi vurğuladı, dünya birliyinə inteqrasiyanın iqtisadi aspektlərinə toxundu.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, bp-Azərbaycan şikətinin prezidenti Devid Vudvord bu əlamətdar tarixi gün münasibətilə mərasim iştirakçılarını təbrik etdilər və növbəti işlər barədə məlumat verdilər.

Sonra prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixail Saakaşvili Azərbaycan neftinin Gürcüstan ərazisində Bakı-Tbilisi-Ceyhan boru xəttinə doldurulması ilə bağlı prosesi həyata keçirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Oktyabrın 12-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə Qardabanidə keçirilən təntənəli mərasimdə iştirak emək üçün Gürcüstanda səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Söhbət zamanı bu layihənin başa çatdırılmasının xalqlarımıza böyük fayda gətirəcəyi, regional əməkdaşlığa böyük təkan verəcəyi xüsusi vurğulanmışdır.

Görüşdə Prezident İlham Əliyev Gürcüstanın dövlət başçısı Mixail Saakaşviliyə xalça hədiyyə etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

Oktyabrın 12-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə təntənəli mərasimdə iştirak emək üçün Gürcüstanda səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Dost və qardaş ölkələr arasında münasibətlərin daha da dərinləşdirilməsinin vacibliyini vurğulayan prezidentlər Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsinin əhəmiyyəti və bu layihənin perspektivləri barədə söhbət açmışlar.

AZƏRBAYCAN SƏFİRİ ABŞ KONQRESİNDƏ ÖLKƏMİZDƏ SEÇKİQABAĞI VƏZİYYƏTƏ DAİR ÇIXIŞ ETMİŞDİR

Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev Vaşinqtondakı Din və İctimai Siyasət İnstitutunun Konqresdə təşkil etdiyi "dəyirmi masa"da iştirak etmişdir. Səfir müzakirəyə toplaşan Konqres üzvlərinə, Amerika paytaxtındakı diplomatik korpusun, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinə Azərbaycanda seçkiqabağı kampaniya, insan haqlarının təmin olunması, hakimiyyət tərəfindən həyata keçirilən demokratik və iqtisadi islahatlara dair ətraflı məlumat vermişdir. O xatırlatmışdır ki, Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunduqdan sonra ölkədə iki prezident və iki parlament seçkiləri keçirilmişdir. Seçki prosesində bəzi çatışmazlıqların olduğunu etiraf edən diplomat, bunu sabiq sovet məkanında seçki mədəniyyətinin yeni olması ilə əlaqələndirmişdir. "ATƏT-in seçkiqabağı mərhələ haqqında hazırladığı hesabat müsbət idi, lakin üzərində işləyəcəyimiz məsələlər hələ qalmaqdadır" - deyən səfir Paşayev bildirmişdir ki, Prezident İlham Əliyevin bu ilin mayında imzaladığı Sərəncam seçkilərin azad və ədalətli keçirilməsi üçün əlverişli zəmin yaratmışdır. Hazırda hakimiyyət qarşısında duran əsas məsələ seçki prosesinin yerli icra orqanlarının müdaxiləsi olmadan keçməsini təmin etməkdir.

Hafiz Paşayev budəfəki parlament seçkilərini əvvəlkindən fərqləndirən cəhətlər sırasında Milli Məclisdə 125 deputat yerinə 2000-dən artıq namizədin qeydə alınmasını, prosesi izləyəcək beynəlxalq müşahidəçilərin daha çoxsaylı olmasını, Dağlıq Qarabağda yaşayan erməni mənşəli Azərbaycan vətəndaşlarının ATƏT-dən müvafiq texniki yardımla seçkilərə cəlb edilməsini vurğulamışdır. Diplomat təəssüflə demişdir ki, son günlər ərzində müxalifət təmsilçiləri ölkədə süni gərginlik yaratmağa çalışırlar. Yay aylarında paytaxtın xüsusi ayrılmış yerlərində dinc mitinq və etiraz aksiyalarının keçirilməsi Qərb dairələri tərəfindən müsbət qiymətləndirilmişdir. Hakimiyyətin ünvanına deyilən müsbət fikirlərdən narazı qalan müxalifət qüvvələri son günlər Bakının mərkəzi meydanlarında icazəsiz aksiyalar keçirməyə, bununla da söz və toplaşma azadlıqlarının Azərbaycanda qorunmadığını nümayiş etdirməyə çalışırlar. Əslində isə, onlar ictimaiyyət arasında kifayət qədər dəstəyə malik olmadığını anlayırlar. Azərbaycan ictimaiyyəti zorakılıq və gərginliyin deyil, qayda-qanunla keçirilən seçkilərin tərəfdarıdır.

Hafiz Paşayev "dəyirmi masa" iştirakçılarına Azərbaycanın ən böyük problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı mərhələsi, habelə ABŞ-Azərbaycan tərəfdaşlığı barədə də danışmışdır. Səfir xatırlatmışdır ki, Konqres tərəfindən qəbul edilən Azadlığa Dəstək Aktının ədalətsiz 907-ci maddəsi üzündən ölkələrimiz arasında əlaqələr istənilən səviyyədə qurula bilmirdi. 2001-ci ildə həmin maddənin qüvvəsi Prezident Corc Buş tərəfindən dayandırılandan sonra ABŞ-ın Azərbaycanla təhlükəsizlik sahəsində həyata keçirdiyi proqramlar intensivləşibdir. Buna baxmayaraq, ədalətsiz maddə tam ləğv olunmadığına görə, Pentaqon, Dövlət Departamenti və ABŞ-ın müxtəlif dövlət agentlikləri Azərbaycanla uzunmüddətli əməkdaşlıq planlaşdıra bilmirlər.

AZƏRBAYCAN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ABBAS ABBASOVUN MOSKVAYA SƏFƏRİ

Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov Moskvaya işgüzar səfərə gəlmişdir. Oktyabrın 12-də o, Rusiya xarici işlər nazirinin birinci müavini Valeri Loşşinin və hökumət sədrinin müavini Aleksandr Jukov ilə görüşmüşdür. Danışıqlarda Azərbaycan ilə Rusiya arasında ikitərəfli əməkdaşlıq məsələləri, habelə ölkələrimiz arasında ticarət-iqtisadi münasibətlərin intensivləşdirilməsi üçün əlavə tədbirlər müzakirə olunmuşdur.

Abbas Abbasov AzərTAc-ın müxbiri ilə söhbətində bildirmişdir ki, Azərbaycanla Rusiya arasında bütün sahələrdə əməkdaşlıq kifayət qədər uğurla və dinamik, qarşılıqlı surətdə faydalı əsasda inkişaf edir. Keçirilmiş görüşlərdən əsas məqsəd tezliklə həllini gözləyən bir sıra mühüm məsələlərin müzakirəsindən ibarət idi. Azərbaycan tərəfinin qaldırdığı məsələlər yaxın vaxtlarda həll olunacaqdır. Misal üçün, Azərbaycan gəmilərinin Rusiyanın daxili sularından – Volqa-Don və Volqa-Baltik kanallarından keçməsi barədə məsələ qaldırılmışdır. Danışıqlar nəticəsində əldə olunmuş razılığa əsasən, Rusiya tərəfi Azərbaycanın beş gəmisinə həmin kanallardan naviqasiya mövsümünün sonunadək keçməyə icazə verir. Bu günlərdə həmin məsələyə dair müvafiq sənəd imzalanacaqdır.

A.Abbasov həmçinin bildirdi ki, Samur körpüsünün tikintisi və yenidən qurulması məsələsi müsbət həll edilmişdir. Danışıqlarda A.Jukov demişdir ki, bu məsələ tezliklə müsbət həll olunacaqdır. Çox tezliklə həll edilməli cari məsələlərdən biri Rusiya aviaşirkətlərinin təyyarələrinə Azərbaycan yanacağı doldurmasına RF Nəqliyyat Nazirliyinin aviasiya qurumları tərəfindən qadağa qoyulması ilə bağlı idi. Bu gün biz həmin məsələni tənzimlədik. Mən nümayəndələrimizə müvafiq tapşırıq verdim ki, onlar Rusiya Federal Aviasiya Agentliyinin rəhbəri ilə görüşsünlər.

Danışıqlarda Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsulları göndərilməsi məsələsi də müzakirə edilmişdir. A.Abbasov bildirdiyinə görə, bu məsələnin həlli ilə əlaqədar hər iki tərəfdən sərhədyanı regionlarda - Həştərxan, Volqoqrad, Samara, Saratov, Dağıstan və digər regionlarda bütün qurumlara tapşırıq verilmişdir ki, onlar Azərbaycana gedib, kənd təsərrüfatı məhsullarını özləri seçsinlər və Rusiyaya aparsınlar.

A.Abbasov Rusiya xarici işlər nazirinin birinci müavini V.Loşşinin ilə danışıqların yekunlarını şərh edərək demişdir ki, görüşdə qarşılıqlı maraq doğuran bir sıra siyasi və iqtisadi xarakterli məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ DARREL İSSANI VƏ LORETTA SANÇESİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Amerika Birləşmiş Ştatları Konqresinin nümayəndələr palatasının üzvləri Darrel İssanı və Loretta Sançesi qəbul etmişdir.

Azərbaycana səfər etməkdən və bu gözəl ölkəni görməkdən məmnunluğunu bildirən cənab Darrel İssa Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə oktyabrın 12-də keçirilmiş təntənəli mərasimi yüksək dəyərləndirdi. O bildirdi ki, mərasim geosiyasi və strateji baxımdan böyük əhəmiyyət daşıyan bu regionun ölkələri üçün çox mühüm bir vaxtda keçirildi.

Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə, o cümlədən enerji və digər sektorlarda əməkdaşlığın çox uğurla inkişaf etdiyini nəzərə çarpdıran dövlətimizin başçısı əlaqələrimizin hazırkı vəziyyətindən məmnun olduğunu vurğuladı.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istismara verilməsinə həsr olunmuş mərasimin yaxşı səviyyədə keçirildiyini bildirən Prezident İlham Əliyev bunu regional əməkdaşlığın yaxşı nümunəsi adlandırdı, Azərbaycanın bu layihəyə və əməkdaşlığa böyük əhəmiyyət verdiyini söylədi.

Cənab Darrel İssa dedi ki, biz ölkələrimiz arasındakı əlaqələrin hazırkı səviyyəsindən çox razıyıq, beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın bizə verdiyi dəstəyi çox mühüm hesab edirik.

Azərbaycan ilə ABŞ arasında iqtisadi əlaqələrin də çox böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıran qonaq dedi ki, cənab Prezident, Sizin regionda sabitliyin təmin olunması istiqamətindəki fəaliyyətiniz böyük önəm daşıyır. Qarşıdan ölkənizdə parlament seçkiləri gəlir. Bu seçkilərin Azərbaycan üçün böyük əhəmiyyəti vardır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Əfqanıstandan qayıdarkən yolüstü Bakıda dayanan Litva Respublikasının Prezidenti Valdas Adamkus ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli, çoxtərəfli münasibətlərin uğurla inkişafı, müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahədə əlaqələr, beynəlxalq təşkilatlar, həmçinin Avropa Şurası, Avropa Birliyi çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Litva Prezidenti Valdas Adamkusun şərəfinə nahar verilmişdir.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ,UNESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVAYA "YAQUT XAÇ" ORDENİ TƏQDİM EDİLMİŞDİR

Oktyabrın 13-də Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeninin təqdim edilməsi mərasimi olmuşdur.

Mərasimi Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev açaraq dedi ki, bu gün respublikanın həyatında əlamətdar hadisədir – UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni təqdim olunur. Biz onu ürəkdən təbrik edirik.

Mehriban xanımın xeyriyyəçilik fəaliyyətindən bəhs edən natiq bildirdi ki, bu fəaliyyətin xüsusi bir cəhəti var və onu bir kəlmə ilə nəciblik adlandırmaq olar. Onun gördüyü bütün işlər, ölkəmizin müxtəlif guşələrində ayrı-ayrı adamlarla keçirdiyi görüşlər məhz bu sözlə ifadə edilir. Bütün bu işləri Mehriban xanım təbiətən ona xas olan çox böyük nəcibliklə görür. Düşünürəm ki, bu da təsadüfi deyildir, çünki onun dahi azərbaycanlı, unudulmaz Prezidentimiz Heydər Əlirza oğlu Əliyevin yanında necə böyük, məzmunlu, kamil, gözəlliyinə görə möcüzəli bir məktəb keçdiyini hamımız bilirik. Bu həyat məktəbi Mehriban xanıma indi də kömək edir.

Bu gün bütün dünyada xeyriyyəçiliklə çoxları məşğul olur. Lakin ziyalılarımızın, cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri Mehriban xanım Əliyevanın nəinki bu gün gördüyü işlərə, həm də bu işləri necə gördüyünə heyrandırlar. Bu mənəvi ülviliyin ikitərəfli əlaqəsi var. Zənnimcə, Mehriban xanımın özü də mənən ucalır və çalışır ki, diqqət və qayğının yönəldildiyi və bu fəaliyyətin, missiyanın ünvanlandığı insanlar da mənən zənginləşsin, ucalsınlar. Mehriban xanım Əliyevanın bu gün Azərbaycanda fəaliyyətini fərqləndirən böyük mənəvi qovuşma baş verir. Bu, təkcə Azərbaycanda deyil, onun olduğu hər bir yerdə də müşahidə olunur.

Mən XX əsrin görkəmli Amerika yazıçısı O"Henrinin gözəl sözlərini xatırlayıram. O demişdir: "Biz o insanlara minnətdar olmalıyıq ki, onlara kömək göstərməyimizə imkan verirlər". Məhz belə münasibət - təkcə nə isə verən tərəfin deyil, həm də onu qəbul edən tərəfin bu prosesin subyekti olduğu münasibət, belə qarşılıqlı mənəvi zənginləşmə Mehriban xanımın həmin istiqamətdə fəaliyyətini səciyyələndirir.

Daha sonra natiq Azərbaycan ziyalıları adından, yaradıcı ziyalıların nümayəndələri adından Mehriban Əliyevaya şəxsi xoşbəxtlik, millətin rifahı naminə çoxşaxəli fəaliyyətində, xeyriyyəçilik işində böyük uğurlar arzuladı.

Sonra Milli Məclisin deputatı, Azərbaycanın Rus icmasının sədri MİXAİL ZABELİN çıxış edərək, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səmərəli xeyriyyəçilik fəaliyyətindən danışdı, bunun Azərbaycan xalqı tərəfindən dəstəkləndiyini bildirdi. O, Fondun Prezidentinin xeyriyyəçiliyini Rus icmasının da öz üzərində hiss etdiyinə dair misal çəkdi: icmanın nəzdində fəaliyyət göstərən uşaq düşərgəsinə

Mehriban xanımın adından televizor, müxtəlif hədiyyələr verilmişdir. Bunları mərasimi əsil bayrama çevirən onun qızı Leyla təqdim etmişdir. Özü də bu, tamamilə gözlənilməz olmuşdur, çünki Fonda heç bir müraciət edilməmişdi. Bütün bunlar həssas və gövrək uşaq qəlbində öz əksini tapmışdır.

Mixail Zabelin uşaq evlərinin tikintisi və abadlaşdırılması, mədəniyyət sahəsində böyük hümanist missiyaya görə Fondun prezidentinə təşəkkür etdi. Bildirdi ki, Azərbaycanın Rus icması, digər ictimai təşkilatlar Heydər Əliyev Fondu prezidentinin məhz xeyriyyəçilik xidmətlərini yüksək qiymətləndirərək, Rusiyanın Bakıdakı səfirliyinin dəstəyi ilə Mehriban xanım Əliyevanı "Yaqut xaç" ordeninə təqdim etmişlər.

"Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondu idarə heyətinin üzvü, Rusiyanın əməkdar artisti ANGELİNA VOVK çıxışında vurğuladı ki, humanizm və başqasının dərdinə şərik olmaq bütün dövrlərdə insan cəmiyyətində üstünlük verilən əbədi dəyərlərdir. Zəmanəmizin böyük şəxsiyyəti Heydər Əliyev öz ölkəsinə, insanlara, xeyirxahlıq və haqq-ədalət amallarına xidmət etməklə belə təmənnasız, fədakar həyat nümunəsi göstərmişdir. A.Vovk Heydər Əliyevin qızı Sevil Əliyevanın yenicə oxuduğu müsahibəsi barədə təəssüratını bölüşərək dedi ki, Sevil xanım bu gözəl insanın həyatının bir çox səhifələrini açmışdır.

Angelina Vovk Rusiya Prezidentinin İşlər İdarəsinin, Federasiya Şurasının, Dövlət Dumasının, Moskva hökumətinin və bir sıra başqa rəsmi orqanların dəstəyi ilə yaradılan "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun məqsəd və vəzifələrindən danışaraq bildirdi ki, digər görkəmli müasirlərin adları ilə birlikdə, Mehriban Əliyevanın adı da bütün zəmanələrin ən böyük xeyriyyəçiləri və mesenatlarının siyahısına qızıl hərflərlə yazılacaqdır. Xüsusi memorialın təməlinin qoyulması mərasimi oktyabrın 15-də Moskvada olacaqdır.

Angelina Vovk dedi ki, Mehriban Əliyeva özünün təşkilatçılıq məharəti sayəsində bir sıra humanitar proqramlar - Azərbaycanı beynəlxalq aləmdə sülhə, yaradıcı inkişafa və digər ölkələrlə əməkdaşlığa çalışan dövlət kimi tanıdan proqramlar həyata keçirir. Onun misilsiz fəaliyyəti Azərbaycan xalqının çox zəngin mədəni ənənələrinin qorunub saxlanılmasına, əhalinin sosial cəhətdən ən zəif təbəqələrinin - qaçqınların, məcburi köçkünlərin, aztəminatlı ailələrdən olan uşaqların, yetimlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir. Onun başçılıq etdiyi və Azərbaycan xalqının əfsanəvi ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fond bir çox sosial əhəmiyyətli layihələr həyata keçirir. Onların arasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat uğrunda" proqramı xüsusi qeyd edilmişdir.

Bildirildi ki, Mehriban Əliyeva "Yaqut xaç" ordeni ilə təltif olunanlar arasında yeganə qadındır.

Rus Soydaşlar Beynəlxalq Şurasının idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" Beynəlxalq Fondunun idarə heyətinin üzvü qraf PYOTR ŞEREMETYEV "Yaqut xaç" ordenini Heydər Əliyev Fondunun prezidentinə təqdim edərək bildirdi ki, Mehriban Əliyevanın fəaliyyəti yüksək insani özünüdərkə, alicənablığa, niyyətlərin paklığına nümunədir. O, əmin olduğunu söylədi ki, Mehriban Əliyevanın səyləri Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış etdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, ilk növbədə, fəaliyyətimə belə yüksək qiymət verildiyinə görə "Yüzilliyin mesenatı" Fonduna, hörmətli Pyotr Pyotroviç, şəxsən Sizə, Angelina Mixaylovna, Sizə çox böyük təşəkkür və minnətdarlıq hisslərimi ifadə edim. Burada mənim ünvanıma söylədiyiniz sözlərə görə sağ olun. Mən bundan çox təsirləndim.

Mən Fondumuzun fəaliyyətindən bir qədər danışmaq istərdim. Angelina Mixaylovna onun haqqında çox yaxşı və müfəssəl danışdı. Buna baxmayaraq, bir neçə kəlmə demək istərdim. Fondumuz nisbətən yaxınlarda, bir ildən bir qədər əvvəl fəaliyyətə başlamışdır. Bu müddət ərzində, - mən bunu iftixarla deyirəm, - biz ölkəmizdə çox nüfuzlu və çox hörmətli təşkilat ola bildik. Yəqin, burada xeyriyyəçilik fəaliyyətimizin çox böyük rolu var.

Biz işimizə yenicə başlayanda bildirdik ki, ölkəmizdə ictimai-siyasi həyatın bütün sahələrində Fondun iştirak etdiyi qlobal, genişmiqyaslı, uzunmüddətli layihələr ilə yanaşı, cəmiyyətimizin ən aztəminatlı təbəqələri olan insanlara – valideynlərindən məhrum uşaqlara, qaçqın və məcburi köçkünlərə, yoxsulluq həddindən aşağı səviyyədə yaşayan adamlara, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara çox böyük diqqət yetirəcəyik.

Budur, indi, aradan bir ildən bir az artıq vaxt keçəndən sonra iftixarla deyə bilərəm ki, məhz həmin istiqamətdə görülmüş bütün işlər öz nəticələrini, öz real bəhrələrini verir. Məktəblərə gedəndə özümü çox xoşbəxt hiss edirəm. Mən demişəm ki, Azərbaycandakı hər bir internat məktəbinə, hər bir uşaq evinə şəxsən özüm gələcəyəm. Bu günədək biz 40 uşaq evində olmuşuq. İnanın ki, indi onların təxminən 30-u, demək olar, təzələnmiş, yenidən tikilmişdir, yəni biz real şərait yaratmışıq, bu uşaqların yaşayışı və təhsili üçün şəraiti yaxşılaşdırmışıq. Bununla yanaşı, uşaqlar hiss etmişlər ki, unudulmayıblar, onlarla maraqlanırlar, onlar cəmiyyətimizə gərəkdirlər. Bir növ zəncirvarı reaksiya getmişdir - onlarla maraqlanmağa, onlara baş çəkməyə, diqqət yetirməyə başlamışlar. Bu isə onları isti yaşayış yeri ilə təmin etməkdən və onlara təhsil verməkdən heç də az vacib deyildir.

Bu ilin mayında Fondun təşəbbüsü ilə irəli sürülmüş "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı respublikada çox böyük əks-səda doğurdu. Respublika ərazisindəki bütün məktəblərin monitorinqini keçirdik və öyrəndik ki, elə məktəblər var, burada nəinki oxumaq, hətta həmin binalarda olmaq mümkün deyildir. İnanmaq çətin olsa da, 4 ayda 90 yeni məktəb tikilib istismara verildi, daha 40 məktəb isə bu ilin sonunadək hazır olacaqdır.

Mədəniyyət, səhiyyə sahəsində bir sıra iri layihələr, məsələn, diabetdən əziyyət çəkən

uşaqlara yardım layihəsi var. Biz digər ictimai təşkilatlarla birlikdə ona nail olduq ki, indi respublikada bu xəstəliyə tutulmuş uşaqların hamısı lazımi dava-dərman alır. Genetik cəhətdən keçici xəstəlik olan talassemiya Azərbaycanda böyük problemdir. Aralıq dənizi bölgəsinin bir sıra ölkələrində bu xəstəliyin, demək olar, öhdəsindən gəlmiş, ona son qoymuşlar. Odur ki, biz bu ölkələrin müsbət təcrübəsindən bəhrələnərək, beynəlxalq dərəcəli ekspertlər cəlb edərək, Azərbaycanda talassemiyanın ləğv olunmasına dair proqram hazırlamışıq. Bu ilin oktyabrında biz ixtisaslaşdırılmış talassemiya mərkəzinin tikintisinə başlayacağıq. Qan xəstəliyindən əziyyət çəkən hər bir uşaq burada ən səmərəli tibbi yardım ala biləcəkdir.

Mədəniyyət sahəsində fəaliyyətimizi elə qurmağa çalışırıq ki, dövrlərin və nəsillərin varisliyi saxlanılsın. Çünki bunsuz nə yüksək mədəniyyət, nə incəsənət, nə də milli ruhun formalaşması mümkündür. Həyata keçirdiyimiz bütün layihələrin ümummədəni əhəmiyyəti var. Burada mən yaxın gələcəkdə həyata keçiriləcək "Üzeyir Hacıbəyov" layihəsindən danışmaq istərdim. Layihə Azərbaycanın bu musiqi dühasının, əslində, bütün irsini əks etdirir. Digər layihə - "Qalina Vişnevskaya və Mstislav Rostropoviç" layihəsi ilə də fəxr edirik. O, artıq həyata keçirilib və layihə qəhrəmanlarının özləri, musiqi ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir.

2006-cı ilin fevralında biz ölkəmizin paytaxtında - Bakıda böyük musiqiçi Dmitri Şostakoviçin 100 illiyinə həsr edilmiş festival keçirməyi planlaşdırırıq. Bizim çox böyük planlarımız, çox böyük layihələrimiz var. Dediyim kimi, qlobal layihələrimiz var. Lakin bununla yanaşı, iftixarla deyirəm ki, biz Fondumuza müraciət edən hər bir insanı heç vaxt unutmamağa çalışırıq. Biz minlərlə məktub alırıq. İndi mən ayrı-ayrı hallardan, konkret köməkdən danışmaq istəmirəm. Təkcə onu deyim ki, belə insanlar yüzlərlə deyil, minlərlədir. Mühüm vəzifələrin həlli ilə yanaşı, xəbər tutduqda və hay vermək mümkün olduqda, belə adamlara yardım göstərməyi Fondumuzun ən böyük xidmətlərindən biri hesab edirəm.

Hörmətli qonaqlar! Mən Fondun fəaliyyətindən çox danışa bilərəm, lakin diqqətinizdən və vaxtınızdan sui-istifadə etmək istəmirəm. İndi biz elə bir dünyada yaşayırıq ki, ətrafda diqqət yetirilməsi və düzgün dərk olunması tələb edilən problem və məsələlər lap çoxdur. Biz bugünkü gündən danışdıqda "qloballaşma", "inteqrasiya", "elmi-texniki tərəqqi", "yüksək texnologiyalar" kimi sözləri daha tez-tez eşidirik və siz mənimlə razılaşarsınız ki, bu sözlər həqiqi insanpərvərlik, mərhəmət, xeyirxahlıq, mənəviyyat kimi anlayışlardan daha tez-tez səslənir. Biz bu ümumbəşəri və əbədi dəyərləri ikinci sıraya keçirmirikmi? Xeyriyyəçilik missiyası bu gün həmişəkindən daha vacibdir. Vaxt vardı, Azərbaycanda xeyriyyəçilik ümummilli ideya, ümummilli miqyaslı iş idi. Bu gün mən iftixarla deyə bilərəm ki, siz bu ənənənin dirçəlməsinin şahidisiniz. Bizim təcrübəmiz, Fondumuzun təcrübəsi göstərdi ki, ölkəmizdə çağırışa hay verməyə, təmənnasız yardım göstərməyə, kömək əli uzatmağa hazır olan insanlar çox-çoxdur. Yaxşılıq yaxşılıq doğurur, yəqin ki, bu, Fondumuzun, fəaliyyətimizin əsas xidmətidir.

Fəaliyyətimiz haqqında dediyiniz sözlərə görə çox-çox sağ olun. Mükafat almaq həmişə xoşdur. Lakin hər bir mükafat həm də onu dərk etmək deməkdir ki, sən cavabdeh olduğun işə daha məsuliyyətlə yanaşa bilərsən və yanaşmalısan. Əminəm ki, sizin təşkilatınız öz nominantlarını mükafatlandırdıqda onların nəinki keçmiş xidmətlərini nəzərə

alır, həm də ümid edir ki, bu xeyirxah işlər gələcəkdə də davam etdiriləcəkdir.

Hamını əmin etmək istəyirəm ki, biz nail olduğumuz uğurlarla kifayətlənməyəcəyik. Bizim böyük planlarımız var. Fondun fəaliyyətini, ilk növbədə, xeyriyyəçilik fəaliyyətini genişləndirəcəyik.

Sonda demək istəyirəm ki, dünyanı, hər halda, xeyirxahlıq xilas edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Prezident sarayında LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Vahid Ələkbərov dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, icazə verin, "Azərbaycan - səxavətli diyarım" kitabını Sizə təqdim edim. Ölkənin, Azərbaycan cəmiyyətinin inkişafından, dəyərlərindən bəhs edən bu kitab LUKoyl şirkəti tərəfindən hazırlanmışdır və əminəm ki, bu nəşr digər belə kitabların işıq üzü görməsinə də təkan verəcəkdir.

Prezident İlham Əliyev belə qiymətli kitabın hazırlanmasına görə minnətdarlığını bildirərək dedi ki, sizin şirkət Azərbaycanda neft sənayesi ilə yanaşı, müxtəlif sahələrdə, o cümlədən xeyriyyəçilik işlərində, sosial sahədə də fəal iştirak edir. Şirkətiniz tərəfindən hazırlanmış dərin məzmunlu bu kitab Azərbaycan haqqında tam təəssüratın yaranmasına xidmət edir.

Vahid Ələkbərov dedi ki, bu gün biz Azərbaycan Dövlət Neft Akademiyasında olduq. Tələbələrdə biliyə, təhsilə böyük maraq, çiçəklənən Azərbaycanda yaşamağa böyük həvəs hiss etdim. Sizin səyləriniz, fəaliyyətiniz, ölkədə hər sahədə varisliyin olması, Azərbaycan xalqının gələcək inkişafı və firavanlığının təminatıdır.

Prezident İlham Əliyev vurğuladı ki, mühüm məqam ondan ibarətdir ki, gənclər yaxşı təhsil almadan uğur qazanmağın mümkün olmadığını dərk edirlər. Müasir şəraitdə, bazar iqtisadiyyatının mövcud olduğu bir dövrdə, geniş dünyagörüşü, bacarıq, bilik olmadan cəmiyyətdə layiqli yer tutmaq çətindir. Biz ölkədə təhsil sisteminin, xüsusilə orta məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində böyük işlər görürük. Növbəti iki ildə bütün orta məktəblərdə kompüter sinifləri yaradılacaq və bunlar şagirdlərin müasir informasiyaya yiyələnməsi üçün internet sisteminə qoşulacaqdır.

Azərbaycanda şagirdlərin neft və qaz sənayesi ilə əlaqədar ali təhsil müəssisələrinə maraqlarının artmasının çox mühüm olduğunu vurğulayan Vahid Ələkbərov dedi ki, şirkətimiz zəngin təcrübəsi olan Azərbaycan Dövlət Neft Akademiyasında təhsil almaq üçün 20 nəfər iraqlı tələbəni Bakıya gətirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUS SOYDAŞLAR BEYNƏLXALQ ŞURASI İDARƏ HEYƏTİNİN SƏDRİ, "YÜZİLLİYİN MESENATI" BEYNƏXALQ XEYRİYYƏ FONDU RƏYASƏT HEYƏTİNİN ÜZVÜ QRAF PYOTR ŞEREMETYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Prezident sarayında Rus Soydaşlar Beynəlxalq Şurası idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondu rəyasət heyətinin üzvü qraf Pyotr Şeremetyevi qəbul etmişdir.

Qraf Şeremetyev dövlətimizin başçısına müraciətlə dedi ki, mən ilk dəfədir Sizin gözəl şəhərinizdəyəm və burada olmaq mənim üçün xoşbəxtlikdir. Fransa Senatının prezidenti cənab Ponsöle dünən mənə zəng etdi, o, Sizin böyük dostunuzdur və Sizə ən səmimi salamlarını çatdırdı. Cənab Ponsöle Sizi Parisdə gözlədiyini bildirdi.

Prezident İlham Əliyev dedi ki, mən Parisə hər iki səfərim zamanı cənab Ponsöle ilə görüşmüşəm və onu Azərbaycana səfərə dəvət etmişəm. Ümid edirəm ki, burada, yaxud da Parisdə onunla yenidən görüşəcəyəm. Xahiş edirəm ki, mənim salamlarımı cənab Ponsöleyə çatdırasınız.

Bakıya səfərinin onda xoş təəssürat yaratdığını bir daha vurğulayan qonaq paytaxtımızdakı pravoslav kafedral kilsəsinin yenidən bərpa edilməsindən sevinc duyduğunu söylədi. Cənab Pyotr Şeremetyev Bakı şəhərində aparılan böyük tikinti işlərinin də diqqəti cəlb etdiyini bildirdi.

Azərbaycan haqqında dünyada və Avropada yetərincə məlumat olmadığını, ölkəmiz barədə həqiqətlərin daha geniş yayılmasının vacibliyini nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşayır və onların arasında mehriban münasibətlər, dini və etnik tolerantlıq mövcuddur. Bu baxımdan Azərbaycan bir çox ölkələrə nümunə ola bilər.

İsmayıllı rayonundakı İvanovka kəndini misal gətirən dövlətimizin başçısı hökumət tərəfindən həmin kəndin əhalisinə göstərilən diqqət və qayğıdan bəhs etdi.

Pyotr Şeremetyev bütün bunları Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasətinin uğurlu nəticəsi kimi dəyərləndirdi. Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycana yenidən səfər edəcəkdir.

ELMAR MƏMMƏDYAROV ABDULLAH GÜLLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 14-də Misir Ərəb Respublikasına rəsmi səfərə yola düşərkən İstanbulda olduğu qısa müddətdə Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül ilə görüşmüşdür.

Söhbət zamanı iki qardaş ölkə arasında mövcud münasibətlər müzakirə olunmuşdur. Cənab Abdullah Gül Türkiyənin Avropa Birliyinə üzv olması üçün bu təşkilatla danışıqların başlanması və bunun səmərəli şəkildə aparılması üçün Türkiyə tərəfindən göstərilən səylər barədə məlumat vermişdir.

Elmar Məmmədyarov Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin

ikinci fazasının tamamlandığını bildirmişdir. Türkiyənin xarici işlər naziri bu nailiyyəti yüksək qiymətləndirmiş və bu münasibətlə həmkarını təbrik etmişdir. Elmar Məmmədyarov noyabrın 6-da parlament seçkilərinin demokratik və şəffaf keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən görülən tədbirlər barədə ətraflı məlumat vermişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi də müzakirə edilmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MİSİRDƏ SƏFƏRDƏDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 15-dən Misir Ərəb Respublikasında (MƏR) rəsmi səfərdədir.

Səfərin ilk günü nazir E.Məmmədyarovun misirli həmkarı Əhməd Əbu Əl-Ğeyt ilə təkbətək və geniş tərkibdə görüşləri olmuşdur. Görüşlərdə ölkələrimizin siyasi və iqtisadi əlaqələrinin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Misir əməkdaşlığı, Yaxın Şərq regionunda vəziyyət, beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Misir naziri Əhməd Əbu Əl-Ğeyt Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqları, vasitəçilik səylərini, münaqişə edən ölkələrin başçılarının və xarici işlər nazirlərinin görüşlərini dəstəklədiyini bildirmiş, həmin münaqişənin ən yaxın zamanda Azərbaycanın ərazi bütövlüyü çərçivəsində danışıqlar vasitəsilə həll olunacağına ümid bəslədiyini bildirmişdir.

Danışıqlarda iqtisadi münasibətlərdən söhbət açılaraq, bunun hər iki ölkə üçün vacib olduğu, mövcud ticarət mübadiləsinin həcminin Azərbaycanla Misirin real imkanlarına uyğun gəlmədiyi və iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin zəruriliyi xüsusi vurğulanmışdır. Qeyd edilmişdir ki, Misir Azərbaycanın neft hasilatı və neft maşınqayırması sahələrindəki zəngin təcrübəsindən faydalana bilər.

İqtisadi münasibətlərin inkişaf etdirilməsi yollarını müzakirə edən nazirlər, ölkələrimizin iş adamlarının birgə biznes-forumlarının keçirilməsinin əhəmiyyətini vurğulamış, iki respublikanın dekabrda Qahirədə keçirilməsi nəzərdə tutulan Hökumətlərarası İqtisadi və Elmi-Texniki Müştərək Komissiyanın növbəti toplantısının uğurlu nəticələnəcəyinə inamlarını ifadə etmişlər.

Nazirlər ölkələrimiz arasında Bakı-Şərm Əş-Şeyx-Qahirə hava xəttinin açılması təklifini dəstəklədiklərini bildirmiş, bunun nəticəsində hər iki respublikaya turist axınının əhəmiyyətli dərəcədə artacağını, iş adamlarının səfər mübadilələrinin daha da intensivləşəcəyini diqqətə çatdırmışlar.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə bölgədə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu xətti və TRASECA kimi nəhəng layihələrin həyata keçirildiyini diqqətə çatdıran E.Məmmədyarov, Misirin TRASECA layihəsinə müşahidəçi qismində qoşulmaq istəyini təqdir edərək, TRASECA-nın üzv olan ölkələrə artıq bu barədə müvafiq məlumat verildiyini söyləmişdir.

Görüşdən sonra nazirlərin birgə mətbuat konfransı olmuşdur.



Elə həmin gün E.Məmmədyarov MƏR Xalq Məclisinin sədri Əhməd Fəthi Sürurla görüşmüşdür. Misir ilə Azərbaycan arasında dostluq əlaqələrinin qədim tarixə malik olduğunu qeyd edən nazir, dövlətimizin qarşılıqlı münasibətlərin, o cümlədən parlamentlərarası münasibətlərin inkişafını daim diqqət mərkəzində saxladığını söyləmişdir.

Bu il hər iki ölkədə keçiriləcək parlament seçkilərinə toxunularaq bildirilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər noyabrın 6-da bir gün ərzində başa çatacaqdır. Misirdə isə seçkilərə noyabrın 9-da start veriləcək və seçki kampaniyası bir ay davam edəcəkdir.

Daha sonra nazir E.Məmmədyarov MƏR XİN-in yanında Xarici İşlər Şurasında nitq söyləmiş, görüşdə iştirak edən yerli və xarici siyasətçilərin suallarını cavablandırmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN "NEW YORK TIMES", "LOS ANGELES TIMES" QƏZETLƏRİNİN, "BLOOMBERG" İNFORMASİYA AGENTLİYİNİN VƏ "DOW JONES/CNBC" TELEKANALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında ABŞ-ın bir sıra KİV-lərinin müxbirlərinə müsahibə vermişdir.

MÜXBİR: Bu gün bizi qəbul etdiyinizə görə təşəkkür edirik.

PREZİDENT: Eşitdiyimə görə, artıq bir müddətdir ki, Azərbaycandasınız. Bu, çox vacib bir məsələdir. Belə ki, bu, sizə ölkəmizdə gedən prosesləri, əhalinin necə yaşamasını öz gözlərinizlə görmək imkanı verir.

NEW YORK TIMES: Cənab Prezident, Sizə bir neçə sualımız var. İlk sualımız Neft Fondu ilə bağlıdır. Fondun fəaliyyətini necə dəyərləndirirsiniz, Fonda nə qədər gəlir daxil olmuşdur və bu gəlirlər hansı sahələr üzrə bölüşdürülür?

PREZİDENT: Neft Fondunun yaradılması neft strategiyamızın vacib elementlərindən biri olmuşdur. Neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Fond çox müasir və şəffaf quruluşa malikdir və onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Bu, çox vacib bir məsələdir, belə ki, uğur qazanmaq, ölkəni inkişaf etdirmək və gəlirlərdən lazımi qaydada istifadə etmək üçün maksimum dərəcədə şəffaflığın təmin edilməsi zəruridir. Fond üzərində beynəlxalq audit həyata keçirilir və o, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu da daxil olmaqla, beynəlxalq maliyyə təşkilatları ilə yaxından əməkdaşlıq edir. Buna görə də belə hesab edirəm ki, Neft Fondunun fəaliyyəti ölkə iqtisadiyyatının gələcəkdə çoxşaxəli inkişafı üçün olduqca vacib rol oynayacaqdır. Neft və onun qiymətindən asılı olmamaq üçün Neft Fondunun vəsaitindən istifadə edərək, iqtisadiyyatın digər sahələrinin inkişafına kömək göstərməliyik. Eyni zamanda, qeyd etmək istəyirəm ki, Azərbaycan Böyük Britaniyanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur və bu təşəbbüsə regionda təkan verilməsi istiqamətində göstərdiyimiz fəaliyyət ABŞ və Böyük Britaniya tərəfindən yüksək qiymətləndirilmişdir. Son beş ildə Neft

Fondunun açıq və şəffaf şəkildə idarə olunması sahəsində təcrübəmiz mövcuddur və hesab edirəm ki, bu işi uğurla həyata keçiririk.

NEW YORK TIMES: Neft Fondunda toplanmış gəlirləri necə xərcləmək fikrindəsiniz? Əsas investisiyalar hansı sahələrə yönəldiləcəkdir?

PREZİDENT: Deməliyəm ki, neftdən əldə olunan gəlirlərin sadəcə toplanması deyil, eyni zamanda bölüşdürülməsinin də şəffaflığının təmin edilməsi olduqca vacibdir. Neft Fondunun gəlirlərinin nə miqdarda və hansı sahələrə xərclənməsi barədə qərarın qəbul edilməsi səlahiyyəti parlamentə məxsusdur. Parlament Neft Fondunun gəlirlərinin necə istifadə edilməsi haqqında qərarı büdcəni müzakirə edən zaman qəbul edir. Şəxsən mən gəlirlərin tarazlı şəkildə bölüşdürülməsinin tərəfdarıyam. İlk növbədə, toplanmış gəlirlərin böyük bir hissəsinə toxunmamalı, gələcək nəsillər üçün strateji ehtiyat kimi saxlamalıyıq. Belə ki, neft yataqlarındakı ehtiyatlarımız tükəndiyi təqdirdə, bu gəlirlər bizə strateji vəsait kimi lazım olacaqdır. İkincisi, təbii ki, biz ölkənin bütün infrastrukturunu - yolları, elektrik stansiyalarını, su və qaz paylaşdırıcı sistemləri yeniləşdirməli, yeni xəstəxanalar, məktəblər və sair inşa etməliyik. Bu proses artıq başlamışdır. İndi ölkənin bütün yerlərində böyük tikinti və yeni infrastrukturun yaradılması işləri gedir. Bununla yanaşı, sosial siyasətimizi və həyat tərzinin daha yaxşı olmasını arzu edən insanların gözlədiklərini nəzərə alaraq, bu gəlirləri sosial sahəyə də yönəltməliyik. Mən əmək haqlarını, pensiyaları və digər mühüm sosial məsələləri nəzərdə tuturam. Prezident vəzifəsinə seçildiyimdən keçən iki il ərzində Azərbaycanda minimum əmək haqqının məbləği üç dəfə artırılmışdır. Eyni zamanda, son iki il ərzində əsas etibarilə regionlarda və böyük əksəriyyəti qeyri-neft sektorunda olmaqla, 300 min yeni iş yerinin açılmasına nail olmuşuq. Bu o deməkdir ki, neft gəlirlərindən müdrik şəkildə istifadə etmək strategiyamız hələ Bakı-Tbilisi-Ceyhan boru kəməri fəaliyyətə başlamamış ölkəyə və xalqa xeyir gətirir.

DOW JONES/CNBC: Dünən Azərbaycanın Neft Fondunda bizə bildirdilər ki, gələn il Fondun gəlirlərinin 1 milyard ABŞ dollarına çatması gözlənilir. Buna görə də sual vermək istərdim ki, gələn il üçün Neft Fondunun gəlirlərinin xərclənməsi ilə bağlı hər hansı konkret planınız varmı?

PREZİDENT: Bir neçə il bundan əvvəl dövlətimizin büdcəsi bir milyard dollar idi, gələn il isə bu məbləğ 4 milyard dollara yaxınlaşacaqdır. Yəqin məlumatınız vardır ki, hazırda Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsidir. Cari ilin 9 ayı ərzində ümumi daxili məhsulun artımı təxminən 21 faiz olmuşdur və çox əhəmiyyətli bir haldır ki, ümumi daxili məhsulun ən böyük hissəsi qeyri-neft sektorunun payına düşür. 2005-ci ilin 9 ayı ərzində sənaye məhsulu istehsalının artımı 26 faiz olmuşdur. Öz növbəsində, əhalinin gəlirləri 27 faiz artmışdır. Büdcəmiz misli görünməmiş artıma malikdir. Belə ki, 2006-cı il üçün bu artım 67 faiz təşkil edəcəkdir. Bu zaman belə bir faktı da nəzərə almaq lazımdır ki, 2004-cü illə müqayisədə 2005-ci il dövlət büdcəsinin artımı 46 faiz olmuşdur. Başqa sözlə desək, biz gələnilki artıma sıfırdan deyil, əvvəlki ilə nisbətən əldə etdiyimiz böyük artımdan başlayaraq nail oluruq. Belə bir vəziyyətdə Neft Fondundan büdcəyə köçürmələr heç də həlledici rol oynamır. Bu köçürmələr bizə həyata keçirilməsi 2-3 il vaxt tələb edən layihələrin icrasına başlamaq üçün vacibdir. Biz yeni elektrik stansiyaları inşa etməliyik. Bilirik ki, bu işin görülməsi üçün bir və yaxud da iki il tələb olunacaqdır. Ona görə də vəsaiti indidən ayırırıq ki, qış mövsümündə ener-

ji çatışmazlığı problemini iki il müddətinə tamamilə həll edək. Bakı şəhərinin su təchizatı sistemi inkişaf etdirilməlidir. İndi bu sahədə vəziyyət yaxşı deyil. Bu məqsədlə ölkənin şimal-qərb rayonlarından Bakı şəhərinə uzunluğu 300 kilometrdən çox olan su kəməri çəkmək fikrimiz vardır. Bu, olduqca böyük layihədir və buna görə də boru kəmərini 2-3 il müddətinə istismara vermək üçün bu gündən işə başlamalıyıq. Bütün bunlar vəsait tələb edir. Buna görə də fikirləşməliyik ki, Neft Fondundan nə qədər vəsait götürək ki, makroiqtisadi sabitlik pozulmasın. Çünki bildiyiniz kimi, xərclər çox olduqda inflyasiyanın baş verməsi təhlükəsi vardır. Bununla yanaşı, insanların gündəlik tələbatlarını da təmin etməliyik.

DOW JONES/CNBC: Deyə bilərsinizmi, hazırda Neft Fondundan nə qədər vəsait götürülə bilər? Bu qızıl orta xətt müəyyənləşdirilmişdirmi ki, Neft Fondundan hansı miqdarda vəsaitin götürülməsi makroiqtisadi sabitliyin pozulmamasına təminat verə bilər, yoxsa bu, hələ müəyyən edilməyib?

PREZİDENT: Hesab edirəm ki, bu məsələ üzərində işləmək lazımdır. Çünki bu, Azərbaycan üçün tamamilə yeni bir vəziyyətdir. Əvvəllər bizim daimi problemimiz maliyyə vəsaitini haradan əldə etmək və büdcəni necə artırmaq olmuşdur. İndi isə qarşımızda tamamilə başqa problem durur: maliyyə vəsaitindən necə istifadə edək ki, bu, inflyasiyaya səbəb olmasın. Buna görə də hökumət çox dəqiq işləməli və biz beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlığımızı davam etdirməliyik. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə çox səmərəli əməkdaşlığımız mövcuddur və bizim bu təşkilatların tövsiyələrinə, həmçinin Azərbaycan ilə oxşar vəziyyətdə olan dövlətlərin təcrübəsindən yararlanmağa ehtiyacımız vardır.

BLOOMBERG: Sənayenin hansı sahələrinə daha çox diqqət ayırmaq istəyirsiniz? Başqa sözlə, iqtisadiyyatda hökumətin əsas prioritetləri hansı sahələrdir: emal sənayesi, turizm və ya digərləri?

PREZİDENT: Əlbəttə, bizim prioritetlərimiz mövcuddur və onlardan biri kənd təsərrüfatının inkişafıdır. Azərbaycan əhalisinin 50 faizi kənd yerlərində yaşayır. Yaxşı potensialımız, torpağımız, iqlimimiz var. Demək olar ki, bütün kənd təsərrüfatı məhsullarını istehsal edirik. O cümlədən neft kimyası sənayesi prioritetlərimizdən biridir. Bu sahədə xammal ehtiyatlarımız mövcuddur və deməliyəm ki, neft kimyası sənayesi məhsullarının satılması hətta neft satışından daha sərfəlidir. Əlbəttə ki, infrastrukturun inkişafı, yolların inşa edilməsi də vacib bir məsələdir. Belə ki, bu, regionların inkişafına səbəb olacaqdır. Yollar olmadan turizmi və ya iqtisadiyyatın hər hansı başqa sahəsini inkişaf etdirmək mümkün deyildir. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Buna görə də şəxsən mən hökumətin yeni sənaye sahələrinin yaradılmasına birbaşa müdaxiləsinin tərəfdarı deyiləm. Biz bu işlər üçün özəl sektora kömək göstərməliyik. Əgər hökumətin üzərinə müəyyən maliyyə öhdəliyi götürməsinə ehtiyac olacaqsa, bunu edəcəyik. Lakin ölkənin qeyri-neft sahələri özəl sektor tərəfindən inkişaf etdirilməlidir və biz buna nail olmağa çalışırıq. Büdcəmizdə sahibkarlığın inkişafı üçün böyük miqdarda vəsait nəzərdə tutulmuşdur və bu vəsaiti müxtəlif şirkətlər arasında bölüşdürürük. İmtiyazlı əsaslarla kreditlər verilir, nəticədə yeni iş yerləri yaradılır. Bununla yanaşı, yuxarıda qeyd etdiyim sahələrin inkişafı da özəl sektor tərəfindən həyata keçiriləcəkdir. Hazırda Azərbaycanda özəlləşdirmə prosesi gedir və iqtisadiyyatı yenidən dövlət nəzarətinə qaytara bilmərik. Biz istiqamətlər müəyyənləşdirə və zəruri infrastruktur - yollar, elektrik stansiyaları və sair - təmin edə bilərik.

DOW JONES/CNBC: Rusiya və Qazaxıstandan olan ekspertlərin bir çoxu bildirir ki, onların ölkələrində dövlətin xüsusilə enerji sektoruna daha çox cəlb olunması prosesi gedir. Bu, bir çox səbəblərdən baş verir və əminəm ki, Sizin bu barədə məlumatınız vardır. Mənə maraqlıdır ki, belə bir proses Azərbaycanda da gedirmi? Soruşmaq istəyirəm ki, dövlət ilə neft şirkətləri arasında vaxtilə bağlanmış sazişlərlə əlaqədar hazırda mübahisələr ortaya çıxırmı və fikrinizcə, dövlətlə neft şirkətləri arasında münasibətlərdə hansısa dəyişikliyin edilməsi zərurəti varmı?

PREZİDENT: Azərbaycan adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə regionda aparıcı dövlətdir. Son on il ərzində Azərbaycana 25 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da böyük hissəsini xarici investisiyalar təşkil etmişdir. Bunun əsas səbəblərindən biri odur ki, biz xarici sərmayəçilərlə münasibətlərimizi qanun çərçivəsində, qarşılıqlı etimad və hörmət əsasında qurmuşuq. Bu günə qədər neft sektorunda imzalanmış sazişlərlə bağlı heç bir yeni danışıqlar aparılmamış və onlara dəyişikliklər edilməmişdir. Biz xarici sərmayəçilərin fəaliyyəti üçün tam təminat yaratmışıq və eyni zamanda, ölkəmiz üçün maksimum faydalı şərtlər müəyyənləşdirmişik. Hasilatın pay bölgüsünə dair xarici şirkətlərlə bağlanmış bütün sazişlər parlament tərəfindən təsdiq edildikdən sonra qanun qüvvəsinə malik olur və buna görə də bu sazişlərdə heç kim dəyişiklik apara bilməz. Hətta kimsə belə bir fikrə düşsə də, bunu etmək mümkün deyildir. Xarici şirkətlərlə etimad yaratmaq və yaxşı münasibətlər qurmaq üçün illər tələb olunur, lakin bir yanlış addım bütün bunları alt-üst edə bilər. Xoşbəxtlikdən, bu günə kimi belə bir yanlış addım atmamışıq və əminəm ki, bundan sonra da atmayacağıq, xarici tərəfdaşlarımız ilə yuxarıda qeyd etdiyim prinsiplər - qarşılıqlı etimad və qarşılıqlı hörmət əsasında əməkdaşlığı davam etdirəcəyik.

LOS ANGELES TIMES: Qarşıdan gələn parlament seçkiləri ilə bağlı sual vermək istərdim. Bəzi yerlərdə qeyd edirlər ki, bu seçkilər Gürcüstan, Ukrayna və Qırğızıstandakı seçkilərlə eyni ssenaridə inkişaf edə bilər. Bu, mümkündürmü? Əgər mümkün deyilsə, Azərbaycandakı vəziyyət həmin dövlətlərdən nə ilə fərqlənir? Bu baxımdan dünən Rəsul Quliyevin Ukraynada tutulması nə qədər əhəmiyyətli hadisədir? Nə üçün onun Bakıya gəlməsinə icazə verilmədi? Bu məsələ ilə bağlı başqa bir sualım da var. Bəzi analitiklər deyirlər ki, Sizin tərəfdarlarınız arasında parçalanma vardır. Köhnə qvardiya adlanan müəyyən qüvvələr daha avtoritar üsullardan istifadə etməklə nəzarəti əldə saxlamağa çalışır, yeni islahatçılar isə, sözün əsil mənasında, ədalətli seçkilərin keçirilməsini istəyirlər. Deyirlər ki, Sizin rəğbətiniz gənc nəslin tərəfindədir, lakin onlara tam dəstək vermək imkanımız yoxdur.

PREZİDENT: İlk növbədə deməliyəm ki, Azərbaycanda çox şey qonşu dövlətlərdən fərqlidir. Hər bir dövlətin öz inkişaf yolu, öz problemləri, öz nailiyyətləri var. Gürcüstandakı, Ukraynadakı seçkiqabağı siyasi, iqtisadi vəziyyəti Azərbaycan ilə müqayisə etsəniz, fərqləri özünüz də görərsiniz. Əsas fərq ondadır ki, Azərbaycan xalqı bizim siyasəti dəstəkləyir. Ölkəmizdə çox nüfuzlu beynəlxalq təşkilatlar da daxil olmaqla, müxtəlif qurumlar tərəfindən həyata keçirilmiş rəy sorğularının nəticələrinə görə Prezident kimi məni əhalinin 70 faizindən 77 faizə qədəri dəstəkləyir. Adətən, belə şəraitdə inqilab baş vermir. İnqilab o zaman baş verir ki, prezident, hökumət ilə xalq arasında dərin

ziddiyyətlər olsun. Azərbaycanda isə belə hal yoxdur. Bundan əlavə, yuxarıda qeyd etdiyim kimi, Azərbaycan çox uğurlu iqtisadi və sosial inkişafa malik olan bir ölkədir. Beynəlxalq Valyuta Fondunun məlumatlarına görə, Azərbaycan ən dinamik inkişaf edən iqtisadiyyata malikdir. Mən 2003-cü ildən ölkəyə rəhbərlik edirəm. Yeni Prezidentəm. Gürcüstan və Ukraynanın prezidentləri isə 10 ildən artıq idi ki, ölkələrinə rəhbərlik edirdilər. Eyni zamanda, deməliyəm ki, iki il bundan əvvəl üzərimə götürdüyüm bütün öhdəliklər həyata keçirilir, bütün vədlər icra olunur. 2003-cü ildə verdiyim elə bir vəd yoxdur ki, həyata keçirilməmiş olsun. Xalq bizə böyük dəstək verir. Uğurlu inkişaf proqramımız mövcuddur. İqtisadi, sosial baxımdan, Azərbaycanın Avratlantik strukturlarına inteqrasiyası baxımından olduqca uğurlu siyasət həyata keçiririk. Qonşularımız ilə çox yaxşı münasibətlərimiz mövcuddur. Azərbaycan dünyanın ən böyük enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsinə nail olmuşdur. Əlbəttə ki, bütün bu amillər bizim mövqelərimizi və hakimiyyətimizi daha da gücləndirir.

Bunun əksinə olaraq, müxalifət qeyri-mütəşəkkil və zəifdir. Onların Azərbaycanda inqilab öncəsi vəziyyət yaratmaq səyləri uğursuzluğa düçar oldu, göstərdikləri cəhdlər, aldıqları maliyyə vəsaitləri öz faydasını vermədi. Məsələ "narıncı" və ya digər rəngdə deyil, xalqdadır. Azərbaycanda xalqın etimad göstərə biləcəyi müxalifət lideri yoxdur. Müxalifətin bütün liderləri 1990-cı illərin əvvəllərində hakimiyyətdə olmuş və onların hakimiyyəti tam uğursuzluqla başa çatmışdır. Onlar yalnız bir il ölkəni idarə edə bildilər, sonra isə Bakıdan qaçdılar. Əgər müxalifətdən soruşsanız ki, 1993-cü ilin iyun ayında baş vermiş hadisələr zamanı harada idilər, sizə belə cavab verəcəklər ki, qaçıb getmişdilər. İsa Qəmbər rahat yerdə gizlənmiş, Əli Kərimov Bakıdan qaçmış, digərləri də qeyb olmuşdular. Əgər ağır şəraitdə xalqı idarə etmək cəsarətiniz və gücünüz yoxdursa, insanlar sizə necə inana bilər?! 2003-cü ilin prezident seçkilərindən sonra baş vermiş zorakılıq hallarına da toxunmaq istərdim. Müxalifət həmin hadisələr zamanı insanları küçələrə çıxarmış və bu insanlar da zorakılıq törətmiş, əllərinə keçəni dağıtmışlar. Soruşmaq lazımdır, bu vaxt müxalifət liderləri harada idilər? Onlar evlərində gizlənirdilər. Sizcə, belə insanlara dəstək vermək olarmı? 10 ildən artıq bir dövrdə müxalifətdə olan, heç bir uğur qazanmayan, bütün seçkilərdə, 1993, 1998, 2003-cü illərin prezident seçkilərində, 1995 və 2000-ci illərin parlament seçkilərində məğlub olmuş bu müxalifət bundan sonra xalqın dəstəyinə ümid edə bilməz.

Müxalifətin güclənməsi üçün onun daxilində dəyişiklik lazımdır. Onlar partiya daxilində gənc və saf insanları irəli çəkməlidirlər. Lakin belə desək, köhnə müxalifət buna imkan vermir. Bu, sizin sualın birinci hissəsinin cavabıdır. Bir daha təkrarlayıram ki, Gürcüstan və Ukraynada baş vermiş hadisələr ilə Azərbaycan arasında hər hansı bənzətmənin aparılması mümkün deyildir və ölkəmizdə qarşıdan gələn parlament seçkiləri ilə bağlı hər hansı bir problem görmürəm. Müxalifət tərəfindən zorakılıq hərəkətləri edilə, qanunsuz əməllərə cəhd göstərilə bilər. Lakin bunların qarşısı çox ciddi şəkildə və qanun çərçivəsində alınacaqdır.

Sualınızın ikinci hissəsi ilə bağlı demək istəyirəm ki, Rəsul Quliyevin Bakıya gəlmək xahişi heç də rədd edilməmişdir. Bu, yenə də müxalifətin ictimai rəyi azdırmaq cəhdidir. Hesab edirəm ki, dünən "Azərbaycan Hava Yolları" Dövlət Konserni açıq şəkildə bəyanat vermiş və Rəsul Quliyevin içərisində olduğu təyyarənin Bakıya enmək üçün xahiş etdiyi icazəyə rədd cavabının verilmədiyini təsdiq edən sənədlər təqdim etmişdir.

Biz icazəyə necə rədd cavabı verə bilərik ki, hazırda Rəsul Quliyevi ölkəmizə ekstradisiya etməyə çalışırıq? O, Ukraynada tutulmuşdur, çünki İnterpol tərəfindən axtarışdadır və onun tutulması üçün biz Ukrayna tərəfinə müraciət etmişdik. Dünən gecə Respublika Prokurorluğunun və digər hüquq mühafizə orqanlarının nümayəndələrindən ibarət xüsusi bir qrup Ukraynaya uçmuşdur. Onlar indi Kiyevdədirlər və bu şəxsin dərhal Azərbaycana ekstradisiya edilməsi üçün Ukrayna rəsmiləri ilə birgə iş aparırlar. Rəsul Quliyev indi Simferopolda həbsdədir. Dünən onlar təyyarənin Bakıya enməsi üçün icazə istəmiş və 2 saatdan az bir müddət ərzində bu icazə verilmişdir. Buna görə də bu gün mən "New York Times" qəzetində icazə xahişinin rədd edilməsi barədə məlumatı görəndə çox təəccübləndim. Xahiş edirəm ki, məlumatları düzgün əks etdirəsiniz və yanlış xəbərlər verməklə ictimai rəyi azdırmayasınız. O, cinayətkardır, beynəlxalq mafiyanın başçılarından biridir. R.Quliyevin cinayət əməlləri haqqında yalnız Azərbaycanda deyil, başqa ölkələrdə də xəbərdardırlar. Buna görə də o, ədalət mühakiməsi qarşısında dayanmalı və etdiklərinə görə cavab verməlidir. R.Quliyev bir siyasətçi də olmamışdır. İqtisadiyyatın müəyyən sahələri ilə məşğul olmuşdur. Biz onu gözləyirik, onun mümkün qədər tez bir vaxtda ədalət mühakiməsinə cəlb edilməsi üçün əlimizdən gələni edirik.

Sonuncu sual hakimiyyətdaxili münasibətlər ilə bağlı idi. Bu məsələ də şişirdilmişdir. Azərbaycan Respublikasının Prezidenti seçilərkən açıq şəkildə bildirmişdim ki, işlərini lazımi qaydada icra edənlər vəzifədə qalacaq, icra edə bilməyənlər isə vəzifələrindən gedəcəklər. Artıq bir çox dəyişikliklər edilmişdir. Misal üçün deyə bilərəm ki, onlarca yerli icra hakimiyyəti başçıları vəzifələrindən kənarlaşdırılmışdır. Hazırda regionların əksəriyyətinə mənim tərəfimdən təyin edilmiş şəxslər rəhbərlik edirlər. Eyni zamanda, icra hakimiyyətinin müxtəlif səviyyələrində, hökumətdə və digər strukturlarda da dəyişiklik olmuşdur. Bu, normal bir prosesdir. Mən radikal dəyişikliyin, heç bir fərq qoyulmadan bütün şəxslərin vəzifələrindən uzaqlaşdırılmasının əleyhinəyəm. Hər bir məsələyə fərdi qaydada yanaşmaq lazımdır. Əlbəttə ki, bu proses davam edir, çox sakit və səmərəli formada dəyişikliklər baş verir. Bir Prezident kimi mənim hakimiyyətim çox güclüdür. Gənclər və yaşlılar arasında fərq qoymuram. Məsələ yaşda deyil, baxışlarda, hər bir şəxsin fəaliyyətinin səmərəliliyi və nəticələrindədir.

NEW YORK TIMES: Burada köhnə qvardiya dedikdə, yaşdan daha çox mentalitet nəzərdə tutulur. Yeni nəsil siyasi islahatların həyata keçirildiyi sistemin lehinə olduğu halda, yaşlı nəsil daha mərkəzləşmiş sistemin tərəfdarı olur.

PREZİDENT: Xeyr. Müxtəlif insanların fərqli mentaliteti olur. Yenə də demək istərdim ki, köhnə qvardiya ilə yeni qvardiya kimi bölgünün aparılmasının əleyhinəyəm. Bəzən yeni nəsil və ya islahatçı kimi baxılan insanlar islahatlardan çox uzaq, köhnə qvardiya hesab edilən insanlardan daha mühafizəkar olurlar. Bizdə belə bir bölgü yoxdur və mən tabeliyimdə olan insanlara bu prizmadan yanaşmıram. Qeyd etdiyim kimi, ən əsas məsələ səmərəlilik və işin nəticəsidir.

NEW YORK TIMES: Növbəti sualım Avropa Şurasının Parlament Assambleyası tərəfindən Azərbaycanda qarşıdan gələn seçkilərlə bağlı bu yaxınlarda qəbul edilmiş məruzə ilə əlaqədardır. Bildiyimiz kimi, Sizin cari ilin may ayında seçkilərlə bağlı imzaladığınız Sələncam Qərb ölkələri, müxtəlif təşkilatlar tərəfindən yüksək qəbul edilmişdir. Avropa Şurası səsvermə zamanı əl barmağının mürəkkəbə batırılmasına, dinc toplaş-

maq azadlığının təmin edilməsinə, seçkilərdə qanun pozuntuları ilə bağlı iddiaların araşdırılmasına dair tövsiyələr vermişdir. Məruzədə qeyd edilir ki, Prezident tərəfindən seçkilərlə bağlı mütərəqqi Sərəncam qəbul edilmişdir, lakin regionlarda bu Sərəncamın pozulması ehtimalları mövcuddur. Bu məsələyə necə baxırsınız?

PREZİDENT: Bu Sərəncama əsas etibarilə əməl edilir. Lakin müəyyən istisnaların olması mümkündür. Çünki insanların özlərini yeni şəraitə uyğunlaşdırmaları üçün zamana ehtiyac vardır. Lakin sizə deyə bilərəm ki, regionlarda bu Sərəncam bir qayda olaraq həyata keçirilir. Sərəncam azad və ədalətli seçkilərin keçirilməsinin əməli bir vasitəsidir. Avropa Şurasının və ölkəmizdəki ATƏT missiyasının bəyanatlarına görə, hazırkı Seçki Məcəlləsi və seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncam əsasında demokratik, azad və ədalətli seçkilər keçirmək mümkündür. İstər Seçki Məcəlləsində, istərsə də qeyd olunan Sərəncamda seçkilər zamanı manipulyasiyanın qarşısını almağa yönəldilmiş bir çox vasitələr nəzərdə tutulmuşdur. Seçkilərin necə keçirilməsinə nəzarət etmək üçün exit-pollar təşkil ediləcək, digər tədbirlər görüləcəkdir. Seçkiləri izləmək məqsədi ilə Azərbaycana misli görünməmiş sayda müşahidəçi gələcəkdir. Beynəlxalq müşahidəçilərin sayı təxminən 1500 nəfər olacaqdır. Bununla yanaşı, bütün siyasi partiyalardan minlərlə müşahidəçi də seçkilərin gedişini izləyəcəkdir. Seçki məntəqələrinin sayı isə təxminən 4500-dən müəyyən qədər artıqdır. Yəni bütün seçki məntəqələrini müşahidə edərək, seçkilərin necə keçirilməsinə nəzarət etmək mümkündür. Heç nəyi gizlətmək fikrimiz yoxdur və biz azad və ədalətli seçkilərin keçirilməsinin tərəfdarıyıq. Bir Prezident və Yeni Azərbaycan Partiyasının sədri kimi tam şəkildə əminəm ki, partiyamız seçkilərdə qələbə qazanacaqdır. Belə bir inamı mənə keçirilən rəy sorğuları və ölkədəki ümumi vəziyyət verir. Barmağın mürəkkəbə batırılması məsələsinə gəldikdə, deyə bilərəm ki, biz Avropa ölkələrinin təcrübələrindən yararlanmağa çalışırıq. Avropa Şurasına üzv olduqdan sonra Azərbaycan üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirmişdir. Barmağın mürəkkəbə batırılması məsələsi Azərbaycan qarşısında əvvəllər heç zaman qaldırılmamışdır və bu təcrübədən Avropa Şurasının üzvü olan ölkələrdə heç vaxt istifadə edilməmişdir. Ona görə də nə üçün buna bizim ölkədən başlanmalıdır? Əgər Avropa ölkələrindən hansısa bunu münasib ideya kimi qəbul edərsə, biz də bu təcrübəni lazımi qaydada öyrənib ondan yararlanarıq. Lakin indiyə kimi buna heç bir ehtiyac olmamışdır. Bir daha qeyd edirəm ki, Seçki Məcəlləsi və imzaladığım Sərəncam azad və ədalətli seçkilərin keçirilməsi üçün yaxşı imkan yaradır.

LOS ANGELES TIMES: Bu məsələni davam etdirmək istərdim. Bəzi tənqidçilər bildirirlər ki, müxalifətin şəhərin mərkəzi hissələrində mitinqlər keçirməsinə imkan verilmirsə, seçkilər demokratik, azad və ədalətli ola bilməz. Nə üçün onlara Azadlıq meydanında və ya buna bənzər digər yerlərdə mitinq keçirməyə imkan vermirsiniz və müxalifətin şəhərin mərkəzində icazəsiz mitinq keçirməsinin qarşısının alınması zamanı polisin həddən artıq güc tətbiq etməsi ilə bağlı ittihamlara necə cavab verərdiniz?

PREZİDENT: İlk növbədə qeyd etmək istəyirəm ki, seçki təşviqatının başlandığı ilk günlərdən dinc toplaşmaq azadlığı hər yerdə - Bakıda və Azərbaycanın bütün regionlarında təmin edilmişdir. Vəziyyət bütün regionlarda yenə də eyni şəkildədir. Müxalifətin problem yaratdığı yeganə yer Bakı şəhəridir. Hakimiyyətin dinc toplaşmaq azadlığını təmin etmək niyyəti səmimidir və bunu öz əməllərimizlə də nümayiş etdiririk. Bizim heç yerdə heç bir problemimiz yoxdur. Bakıdakı vəziyyət isə belədir. Seçki təşviqatı

başlayanda bütün siyasi qüvvələr öz mitinqlərini Qələbə meydanında keçirməyə başladılar. Bu meydan belə tədbirlər üçün nəzərdə tutulmuş ümumi bir yerdir. Mən özüm və rəhbərlik etdiyim Yeni Azərbaycan Partiyası mitinqini Qələbə meydanında keçirmişdir. Müxalifətin də bir sıra mitinqləri bu meydanda olmuşdur. Bu zaman heç bir problem ortaya çıxmamış, hər hansı zorakılıq, qarşıdurma baş verməmiş, mitinqlər dinc şəraitdə keçirilmişdir. Həmçinin sizə deyə bilərəm ki, əvvəlki seçki təşviqatları dövründə bütün mitinqlər Qələbə meydanında keçirildi. Söhbət 2000-ci ilin parlament, 2003-cü ilin prezident seçkilərindən gedir. Nə üçün 2003-cü ildə Qələbə meydanı münasib hesab olunurdu, indi isə yox? Nə baş verib? Nə üçün bu meydan əvvəlki təşviqatlar zamanı münasibət qəbul edilirdi, lakin sonra isə bilə-bilə ki, şəhər rəsmiləri imtina edəcəklər, başqa yerlər tələb olunmağa başlandı? Onlar böyük insan izdihamı olan, ticarətin gur olduğu, Qələbə meydanından daha kiçik və metroya bir çox yerlərdən girişi olan meydanlar tələb edirlər. Müxalifət bilirdi ki, belə meydanlarda onların mitinq keçirməsinə icazə verilməyəcəkdir. Məsələ bundadır ki, müxalifət onların Qələbə meydanında keçirdikləri mitinqlərə getdikcə daha az insan toplaşdığını görürdü. Onların bu mitinqlərə 10 mindən 50 minə qədər insan toplamaq vədləri puça çıxdı. Biz bilirdik ki, müxalifət bunu heç zaman edə bilməyəcəkdir. Buna görə də onlar başqa taktika, qarşıdurma taktikasını seçiblər. İndi müxalifətin məqsədi müxtəlif televiziya kanallarında görünmək, adlarını dünya mətbuatında hallandırmaq və Azərbaycanı dinc toplaşmaq azadlığının təmin olunmadığı dövlət kimi təqdim etməyə çalışmaqdır. Bu, tamamilə yanlış bir addım, açıq təxribatdır və hamı bunu bilməlidir. Eyni zamanda, polisin həddən artıq güc tətbiq etməsi barəsindəki fikrinizlə razılaşmıram. Belə ki, polis çox dözümlü, ehtiyatlı olmağa çalışır, böyük qarşıdurma olmadan belə, qayda-qanunun bərpa edilməsinin mümkünlüyünü nümayiş etdirir. Bununla yanaşı, hər şey qanun çərçivəsində olmalıdır. İlk qarşıdurma baş verdikdə danışıqlar keçirildi və müxalifətin mitinqlər keçirməsi üçün Qələbə meydanından başqa daha dörd meydan müəyyən edildi. Başqa sözlə, indi belə tədbirlərin keçirilməsi üçün beş meydan var. Bu meydanlar şəhərin mərkəzindən uzaqda deyildir. Misal üçün, buradan maşınla Qələbə meydanına 10 dəqiqəyə getmək olar. Bəzi jurnalistlərin qəzetlərində yazdıqları kimi, bu meydan heç də Bakıdan kənarda yerləşmir. Beləliklə, bütün bu hərəkətlər müxalifətin zorakılıq törətmək, döyülmək, sonra isə Azərbaycanda demokratiyanın mövcud olmaması barədə fikirlər yaratmağa yönəldilmiş qəsdən edilən əməlləridir.

NEW YORK TIMES: Əgər müxalifət zəifdirsə, mitinqlərinə on min insanı yığa bilmirsə, nə üçün onların televiziya önünə çıxmasına, polis ilə qarşıdurmaların televiziya vasitəsilə göstərilməsi nəticəsində Azərbaycanın nüfuzuna xələl gətirilməsinə imkan verirsiniz? Düzgün olmazdımı ki, bu halda müxalifətin istədiyi hansısa yeri onların mitinq keçirməsi üçün ayırasınız?

PREZİDENT: Müxalifətin niyyəti mitinq keçirmək deyil. Əgər onlara indi can atdıqları meydanda mitinq keçirməyə icazə verilərsə, gələn həftə yeni bir şey icad edəcəklər. Bu halda onlar ümumiyyətlə, belə tədbirlər üçün tamamilə münasib olmayan yerlərdə mitinq keçirməyə icazə verilməsini tələb edəcəklər. Buna görə də müxalifətin əsil niyyətinin nə olduğunu anlamalıyıq. Müxalifətin niyyəti dinc yığıncaqlar keçirmək, seçkilərdə iştirak etmək və deputat yerləri qazanmaq deyildir. Onlar bəyan edirlər ki, seçkilərin nəticəsində hakimiyyətə gələcəklər. Necə? Onlardan soruşmaq lazımdır ki, belə deyəndə nəyi nəzərdə tuturlar? Azərbaycan prezidentli respublikadır. Parlament seçkiləri və-

sitəsilə heç kəs hakimiyyətə gəlmir. Burada prezident seçkiləri nəticəsində qalib gələrək, hakimiyyətə gəlmək mümkündür. Ölkəmizdə mövcud olan sistemdə hətta parlamentdə müəyyən yerləri qazanmaq belə, hakimiyyətə gəlmək demək deyildir. Belə olduqda, müxalifət nəyi nəzərdə tutur və nə planlaşdırır? Bu, aydındır. Onlar seçkilərdən sonrakı günə hazırlaşırlar. Müxalifət 6 noyabr tarixi üçün deyil, 7 noyabr tarixi üçün hazırlaşır. Onlar regionda mövcud olan "inqilab əhval-ruhiyyəsi"ndən cuşa gəlmiş, artıq başqa yerlərdə istifadə olunmuş, gülünc doğuran geyimləri əyinlərinə almışlar və belə fikirləşirlər ki, narıncı köynəkləri geyinməklə böyük inqilabçılara çevrilirlər. Əslində isə bu, belə deyildir. Onlar çox gülünc və zəifdirlər. Mən şəxsən çox təəssüf edirəm ki, Azərbaycanda müxalifət belə bir vəziyyətdədir. Çünki bu həm də ölkə üçün rüsvayçılıqdır. Buna görə də artıq qeyd etdiyim kimi, biz müxalifətin niyyətlərini bilməli və realist olmalıyıq. Onlara təklif olunmuş yerlər bütün partiyalar, o cümlədən Yeni Azərbaycan Partiyası tərəfindən istifadə olunur və müxalifət bu mənada qanun çərçivəsində hərəkət etməlidir.

DOW JONES/CNBC: Siz rəy sorğuları barədə danışır və bildirirsiniz ki, onun nəticələrinə görə, əhalinin 70 faizindən 77 faizinə qədəri Sizə dəstək verir. Bu rəy sorğularına əsaslanaraq, rəhbərlik etdiyiniz partiya ilə müxalifət partiyalarının bu seçkilərdəki şansları, onların nə qədər səs qazana biləcəkləri barəsində nə deyə bilərsiniz? Əminliklə deyə bilərsinizmi ki, seçkilərin nəticəsindən asılı olmayaraq, müxalifət onu saxta hesab edəcək və küçələrə çıxmağa çalışacaqdır?

PREZİDENT: Təəssüf ki, hadisələrin gedişi 2003-cü ildə baş vermiş hadisələrin builki seçkilərdən sonra da təkrarlanmasının mümkünlüyünü göstərir. Nə Azərbaycanda, nə də dünyada heç kəs şübhə etmirdi ki, prezident seçkilərində mən inamlı qələbə qazanmışdım. Lakin müxalifət seçkilərin saxtalaşdırıldığını bəyan edərək, iğtişaşlar törətməyə başladı. Yaxşı olardı onlardan soruşasınız ki, prezident seçkilərində hansınız qələbə qazanmışdınız? Hər biri deyəcəkdir ki, o, özü qələbə qazanmış, səslərin 60 faizini toplamışdır. Bu isə ümumilikdə 200 faiz edəcəkdir. Ola bilsin ki, bu dəfə də eyni hadisə baş versin. Artıq bunun müəyyən əlamətləri barədə eşidirik və hesab edirəm ki, burada fəaliyyət göstərən beynəlxalq qurumlar da eşidirlər ki, seçkilərin nəticəsindən asılı olmayaraq, müxalifət onları saxta adlandıracaqdır. Proqnozlara gəldikdə, bu barədə nə isə demək çox çətindir. Hazırda 125 deputat yeri uğrunda 2000-ə yaxın namizəd mübarizə aparır. Bu, misli görünməmiş bir rəqəmdir. Keçən parlament seçkilərində 400 namizəd iştirak edirdi. 2000 namizədin olması özlüyündə onu göstərir ki, insanlar seçki prosesinə inanırlar. Deputat yerləri uğrunda çoxlu bitərəf namizədlər mübarizə aparır. Bu səbəbdən də hansısa bir proqnoz vermək çox çətindir. Bununla yanaşı, hesab edirəm ki, Azərbaycan xalqı indi kimin parlamentdə təmsil olunmağa layiq olduğunu gözəl anlayır. Gördüyünüz kimi, seçki təşviqatı çox azad surətdə gedir. Namizədlər televiziya vasitəsilə tez-tez çıxış edirlər. Lakin namizədlər üçün qələbə qazanmaq olduqca çətin olacaqdır. Çünki bəzi seçki dairələrində bir yer uğrunda 20 namizəd mübarizə aparır.

BLOOMBERG: Müxalifətin gözlənilən iğtişaşlarının qarşısını almaq üçün hansı tədbirlər görüləcəkdir? Bu məqsədlə polis ilə yanaşı, hərbçilərdən də istifadə oluna bilərmi?

PREZİDENT: Hesab etmirəm ki, buna ehtiyac olacaqdır. Fikrimcə, qayda-qanunun bərpa edilməsi üçün polisdən istifadə etmək kifayət edəcəkdir. Əvvəlki həftələrdə müxalifət tərəfindən həyata keçirilmiş müəyyən zorakılıq əməlləri açıq şəkildə göstərdi ki, polisin gücündən minimal şəkildə istifadə etməklə qayda-qanunu bərpa etmək mümkündür. Bu baxımdan hansısa bir problem görmürəm. Hər hansı bir ciddi problem o zaman meydana çıxa bilər ki, insanlar nədənsə məyus olsunlar və dəyişiklik istəsinlər. Azərbaycanda isə vəziyyət belə deyildir. Hətta 2003-cü ildə müxalifətin fəalları avtobusları saxlayıb onların pəncərələrini sındıranda və insanları nəqliyyat vasitələrindən yerə düşürdərək, onları zorakılıq əməllərinə qoşmağa cəhd göstərəndə də, insanlar onlara dəstək vermədilər. Ən vacibi budur. Buna görə də zorakılığa yol verən kiçik bir müxalifətçi qrup ölkənin sabitliyi və təhlükəsizliyinə hədə törədə bilməyəcəkdir.

NEW YORK TIMES: Biz müxalifətin başqa ölkələrdə baş vermiş inqilab ssenarilərindən ruhlanması məsələsinə toxunduq. İnqilab təhlükəsi ilə üzləşmiş digər ölkələr müxalifətə təlim keçən xarici qeyri-hökumət təşkilatlarını kəskin tənqid etmişlər. Xarici qeyri-hökumət təşkilatları, xüsusilə Azadlıq evi, Milli Demokratiya İnstitutu kimi qərb QHT-lərinin Azərbaycandakı fəaliyyətini necə qiymətləndirirsiniz?

PREZİDENT: Bilirsiniz, daim dialoq aparmaq vacib bir məsələdir. Mənim şərik olmadığım, bəzən isə faktlara deyil, səhv məlumatlara əsaslanan yanlış fikirlər, baxışlar, rəylər ola bilər. Bəzən rəsmilərimiz ilə xarici QHT-lər arasında mübahisələr baş verir, lakin bu, normal bir şeydir. Biz onların fəaliyyətini hansısa bir formada məhdudlaşdırmırıq. Ümumilikdə, mən xarici qeyri-hökumət təşkilatlarının fəaliyyətini müsbət qiymətləndirirəm. Azərbaycan demokratiyanın bərqərar edilməsi yolunda inkişaf edən bir ölkədir. İqtisadi, siyasi, demokratik inkişaf baxımından firavan ölkəyə çevrilmək üçün gözəl imkanlarımız mövcuddur. Qeyri-hökumət təşkilatları isə istənilən demokratik cəmiyyətin vacib elementidir. Sovet İttifaqı zamanında və ya müstəqilliyimizin ilk dövründə Azərbaycanda belə təşkilatlar yox idi. Ölkədə mübarizə, vətəndaş müharibəsi gedir, itaətsizlik hökm sürürdü. Yalnız vəziyyət sabitləşdikdən sonra ölkə demokratik cəhətdən daha fəal surətdə inkişaf etməyə başladı. Buna görə də ümumilikdə mən qeyri-hökumət təşkilatlarının fəaliyyətini dəstəkləyirəm. Lakin bəzi qeyri-hökumət təşkilatları da mövcuddur ki, onların fəaliyyətində siyasət əsas yer tutur. Mənə elə gəlir ki, QHT-lər hər hansı siyasi qüvvənin tərəfini tutmamalıdırlar. Əgər onlar qeyri-hökumət təşkilatıdırlarsa, demək, eyni zamanda, qeyri-müxalifət təşkilatı olmalıdırlar. Bəzi hallarda müəyyən qeyri-hökumət təşkilatları müxalifət partiyalarının bir qurumu kimi fəaliyyət göstərir. Bu aradan qaldırılarsa, gələcəkdə ümumiyyətlə, bu sahədə hansısa bir problem olmayacaqdır.

NEW YORK TIMES: Fəaliyyətlərini belə şəkildə həyata keçirən təşkilatlar barəsində məlumatınız varmı?

PREZİDENT: Bizdə belə məlumatlar var, lakin mən onların adlarını çəkmək istəməzdim. Hesab edirəm ki, özləri bilirlər ki, onlar kimlərdir. Ola bilsin ki, bu qeyri-hökumət təşkilatlarının müəyyən nümayəndələri bəzən bu və ya digər siyasi qüvvənin güclü tərəfdaşları kimi çıxış edirlər. Lakin mən bütünlükdə QHT-lər barəsində bunu deyə bilmərəm. Çünki müxtəlif təşkilatlardakı işlərini lazımi qaydada həyata keçirməyən nümayəndələr ola bilər. Biz müəyyən insanların fəaliyyəti əsasında bütün təşkilat barəsində mühakimə yürüdə bilmərik.

BLOOMBERG: Belə bir məsələ var ki, Rusiya və İran kimi ölkələr seçkilərə təsir gös-

tərmək istəyirlər. Bəzi azərbaycanlı müşahidəçilər xüsusilə İranla sərhəddə fundamentalizm, ekstremizm baxışlarının artdığını bildirirlər. Bununla bağlı vəziyyəti Siz necə qiymətləndirirsiniz?

PREZİDENT: Xeyr. Bizə hər hansı bir təsir edilmir və bu istiqamətdə səylər də göstərilmir. Qonşularımız ilə münasibətlərimiz konstruktivdir. Biz mehriban qonşuluq siyasətinin tərəfdarıyıq və hesab edirəm ki, Rusiya və İran ilə aramızdakı münasibətlərdəki son proseslər onu göstərir ki, əlaqələr daxili işlərə qarışmamaq, qarşılıqlı hörmət, mehriban qonşuluq prinsipləri əsasında qurulanda hər iki tərəf bundan faydalanır. Hər iki ölkə ilə yaxşı iqtisadi əlaqələrimiz vardır və seçkilər ilə bağlı ölkəmizə hər hansı təsir göstərilməsi cəhdləri mövcud deyildir. Eyni zamanda, deyə bilərəm ki, Azərbaycan öz imkanları əsasında yaşayışını təmin edə bilir. Mən ölkəmizin enerji, iqtisadi və siyasi imkanlarını nəzərdə tuturam. Başqa sözlə, biz hər hansı xarici yardımdan asılı deyilik. Təhlükəsizlik, hərbi məsələlərdə, enerji məsələlərində də asılılığımız yoxdur. Yalnız öz imkanlarımıza arxalanmaq bizim daimi siyasətimiz olmuşdur. Buna görə də hətta hansısa dövlət burada öz nüfuzundan istifadə etməyə çalışsa belə, bu, asan olmayacaqdır.

BLOOMBERG: Ölkənizdə korrupsiyanın yüksək səviyyədə olmasını bildirirlər. Bu məsələ barəsində nə deyə bilərsiniz? Digər bir sualım ARDNŞ barəsindədir. Onun özəlləşdirilməsinə dair keçmişdə söhbətlər gəzirdi. Bu məsələ hazırda nə yerdədir?

PREZİDENT: ARDNŞ-in özəlləşdirilməsi məsələsi heç zaman ortaya çıxmamışdır. Heç zaman heç bir hökumət və ya dövlət rəsmimiz ARDNŞ-in özəlləşdiriləcəyini bildirməmişdir. Çünki neft ölkəyə və Azərbaycan xalqına məxsusdur. Bizim keçmişdə də belə planlarımız olmayıb, indi də yoxdur.

Korrupsiyaya gəldikdə, deməliyəm ki, belə bir problem mövcuddur, lakin o, bütün dövlətlərdə vardır. Keçmiş sovet ölkələrinə baxsanız görərsiniz ki, korrupsiya bütün bu dövlətlər üçün ciddi problemə çevrilmişdir. Bu, totalitar, qərarların inzibati qaydada qəbul edildiyi sistemdən miras qalmış bir məsələdir. Korrupsiya ilə necə mübarizə aparmaq olar? Hesab etmirəm ki, inzibati vasitələr ilə bu işdə müsbət nəticələr əldə etmək mümkündür. Bürokratları dəyişməklə biz yalnız müvəqqəti, bir və ya iki aylıq səmərəli nəticə əldə edə bilərik. Sonra isə hər şey təkrarlanacaqdır. Mənim şəxsi inamıma görə, korrupsiya ilə güclü iqtisadi tədbirlər və mükəmməl qanunlar vasitəsilə mübarizə aparmaq mümkündür. Parlament tərəfindən korrupsiya ilə mübarizəyə dair qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərkibində korrupsiya ilə mübarizə aparmaq üçün xüsusi idarə yaradılmışdır. Eyni zamanda, genişmiqyaslı özəlləşdirmə siyasəti korrupsiyanın səviyyəsinin aşağı salınmasına imkan verəcəkdir. Misal üçün, Azərbaycanın özəl sektoruna baxsanız, burada korrupsiya hallarına rast gəlməyəcəksiniz. Öz növbəsində bildirməliyəm ki, Azərbaycanda ümumi daxili məhsulun 75 faizi özəl sektorun payına düşür. Bu isə o deməkdir ki, ümumi daxili məhsulun üçdə iki hissəsi korrupsiya hallarına məruz qalmır. Orta təbəqənin yaradılması, bürokratik aparatın ixtisar edilməsi və iqtisadiyyatın maksimal dərəcədə liberallaşdırılması korrupsiyanın səviyyəsinin əhəmiyyətli şəkildə aşağı salınmasını təmin edə bilər. Bu proses artıq başlamışdır. Bu barədə insanların özündən də soruşa bilərsiniz. İndi biz bu prosesi sürətləndirməliyik. Lakin bunun üçün daha çox iqtisadi vasitələrə ehtiyac vardır. Əmək

haqları aşağı, imkanlar isə yüksək olarsa, korrupsiya halları baş verə bilər. Biz insanların həyat tərzini qaldırmalı, əmək haqlarını artırmalıyıq və güclü ictimai nəzarəti təmin etməliyik. Yenidən demokratik inkişaf məsələsinə qayıdaraq bildirmək istərdim ki, bu konkret halda ictimai nəzarət məsələsi əməli əhəmiyyətə malikdir. Belə ki, zəngin ola, böyük neft və qaz ehtiyatlarına malik ola bilərsiniz, lakin ictimai nəzarət və demokratik şərait olmazsa, daim bu problem ilə üzləşəcəksiniz. Biz bunu həll etməyə çalışırıq. Əminəm ki, vəzifədə olduğum müddətdə korrupsiyanın səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salınacaqdır.

DOW JONES/CNBC: Yenidən seçkilər ilə bağlı sual vermək istərdim. Bildirdiniz ki, müxalifət ölkədə sabitliyi pozmağa cəhd göstərir, onlar 6 noyabr deyil, 7 noyabr barəsində düşünürlər. Təminat verə bilərsinizmi ki, bu, Azərbaycanın neft ixracına heç bir təsir göstərməyəcək?

PREZİDENT: Hesab edirəm ki, siz bizim müxalifətin imkanlarını olduğundan bir balaca yüksək qiymətləndirirsiniz. Müxalifət öz fəaliyyətini, malik olduğu gücü şişirtməyə çalışır. Lakin hətta dünənki 17 oktyabr hadisəsi də göstərir ki, onların heç bir sosial bazası yoxdur. Yenidən "New York Times" qəzetində dərc edilmiş məqaləyə qayıdıram. Burada yazılır ki, Quliyevin on minlərlə tərəfdaşı onu qarşılamağa çalışırdı. Bu on minlərlə insanı harada görmüsünüz? Əgər bunu kimsə görübsə, xahiş edirəm, desin ki, harada? Orada yüz, ola bilsin ki, yüz əlli insan var idi. Əgər müxalifət sabitliyi pozmağa çalışarsa, buna uyğun hərəkət edəcəyik. Mən dedim ki, buna cəhdlər edilə bilər, lakin hesab etmirəm ki, bu cəhdlər baş tutsun.

BLOOMBERG: Siz bildirdiniz ki, özəl şirkətlər çox açıqdır və burada korrupsiya halları yoxdur. Mən ARDNŞ-in özəlləşdirilməsi məsələsinə toxunduqda, onun bütünlükdə satılmasını nəzərdə tutmurdum. Rusiya və Qazaxıstanın dövlət şirkətləri səhmlərinin kiçik bir hissəsini satışa çıxarıblar və ümid edilir ki, bu da onların fəaliyyətinin daha şəffaf olmasını təmin edəcəkdir. Bu barədə Siz də düşünürsünüzmü?

PREZİDENT: Hesab edirəm ki, ARDNŞ sürətlə güclü beynəlxalq neft şirkətinə çevrilməlidir. Hazırda ARDNŞ-in iki funksiyası vardır. İlk növbədə o, şirkət kimi fəaliyyət göstərir, bununla yanaşı, xarici şirkətlər ilə danışıqlarda dövləti təmsil edir və dövlətin adından sazişlər imzalayır. Biz ARDNŞ-də müəyyən islahatların aparılması barədə düşünməliyik. Neft yataqlarını isə özəlləşdirə bilmərik. Bu yataqlar dövlətə məxsusdur. Lakin hətta indi ARDNŞ-in bəzi strukturları özəlləşdirilmişdir. Buraya xidmət, tikinti infrastrukturu sahəsindəki fəaliyyətə cəlb olunmuş strukturlar aiddir və onlar indi ARDNŞ ilə müqavilə əsasında əməkdaşlıq edirlər.

Lakin əlbəttə ki, gələcəkdə ARDNŞ-in beynəlxalq neft şirkətinə çevrilməsi çox önəmli olacaqdır. Azərbaycan enerji ehtiyatlarının istismarı üçün Rusiya və Qazaxıstandan fərqli yol seçmişdir. Biz neft sərvətlərimizi hissələrə bölərək, bu sahədə fəaliyyət göstərən ayrı-ayrı şirkətlərin yaradılmasına imkan vermədik. Bizdə bütün səhmlər dövlətə məxsusdur. Hazırda ARDNŞ-in gözəl imkanları vardır. O, bir çox beynəlxalq layihələrdə səhmlərə malikdir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin səhmlərinin 25 faizi, "Azəri-Çıraq-Günəşli" layihəsində səhmlərin 10 faizi, "Şahdəniz" layihəsində səhmlərin 10 faizi ARDNŞ-ə məxsusdur. Hazırda kreditlər sahəsində də ARDNŞ-in göstəriciləri çox yaxşıdır. Belə ki, BTC layihəsinin maliyyələşdirilməsinin 70 faizi kreditlər hesabı-

na həyata keçirilmişdir. Beləliklə, şirkət maliyyə vəsaitlərini toplaya və cəlb edə bilər. Lakin neftin qiymətlərinin hazırkı səviyyəsində öz maliyyə vəsaitlərini toplayır və hesab edirəm ki, bu il və gələn il o, yeni istismar işlərinə daha çox sərmayə qoyacaqdır.

NEW YORK TIMES: Bu sualım Azərbaycanın xarici siyasəti və ABŞ ilə münasibətləri ilə bağlıdır. Müstəqillik əldə etdikdən sonra ölkəniz istər iqtisadi, istərsə də siyasi sahədə Qərbə inteqrasiya yolunu seçmişdir. 11 sentyabr hadisəsindən sonra ABŞ bu regionda çox fəal olmuşdur. Bu tərəfdaşlığın gələcəyini necə görürsünüz? ABŞ-ın Azərbaycanın hərbi sahədəki imkanlarından istifadə etmək ehtimalları mövcuddurmu?

PREZİDENT: Sizin də bildirdiyiniz kimi, Azərbaycanın müstəqilliyini qazanmasından sonra, xüsusilə 1994-95-ci illərdən başlayaraq, ölkələrimiz arasındakı münasibətlər çox uğurla inkişaf etdirilmişdir və biz hazırda əməkdaşlığımızın səviyyəsindən çox məmnunuq. ABŞ hökumətinin dəstəyi olmadan enerji layihələrimizin heç birinin həyata keçirilməsi mümkün olmazdı. Enerji sahəsində, iqtisadiyyatın inkişafı sahələrində, təhlükəsizlik məsələlərində və antiterror koalisiyasında ABŞ ilə çiyin-çiyinə əməkdaşlıq edirik. Azərbaycanda demokratik prosesin inkişaf etdirilməsi ilə bağlı apardığımız dialoq da əməkdaşlığımızın çox vacib elementidir. Biz daim ABŞ-ın dəstəyini hiss etmişik, indi də bunu hiss edirik və əlaqələrimizin bu səviyyəsindən çox məmnunuq.

Bildirdiyim kimi, müxtəlif sahələrdə əməkdaşlıq edirik. Bütün bu sahələrdə əlaqələrimizin səviyyəsi çox yüksəkdir. Fikrimcə, indi hamı üçün aydındır ki, Azərbaycan yalnız bəyanatlarında deyil, həmçinin praktiki işlərində etibarlı tərəfdaş olduğunu sübut etmişdir. Necə deyərlər, dost dar gündə tanınar. Gələcəkdə də əlaqələrimizi genişləndirmək fikrindəyik. Bu, Azərbaycan, onun milli maraqları, eyni zamanda, hesab edirəm ki, ABŞ üçün faydalıdır.

LOS ANGELES TIMES: Məndə belə bir təəssürat var ki, Rəsul Quliyevi və ya müxalifətdə olan digər şəxsləri dəstəkləyən insanların bir çoxu əsasən ölkənin neft gəlirlərindən şəxsən faydalanmadıqlarını hiss edən yoxsul adamlardır. Məndə eyni zamanda belə bir təəssürat da vardır ki, hökumətin neftdən kifayət qədər gəliri mövcuddur və bu gəlirlərdən genişmiqyaslı sosial məqsədlərlə istifadə etmək mümkündür. Bununla bağlı bilmək istərdim ki, hökumət gəlirləri hər bir şəxsə fərdi şəkildə çatdırılmamaqla, ümumilikdə infrastrukturun inkişafına, uzunmüddətli proqramların həyata keçirilməsinəmi diqqətini yönəldir? Belə olan təqdirdə bunun müqabilində müəyyən siyasi qiymət ödəməli olursunuz, çünki belə ki, neft sərvətlərindən şəxsən faydalanmadıqlarını hiss edən insanlar müxalifəti dəstəkləyirlər.

PREZİDENT: Verdiyiniz sualda müxalifətin dəstəklənməsi ilə bağlı mühüm bir məqam vardır və bu məqamı anlamaq lazımdır. Bu insanların böyük əksəriyyəti müxalifəti dəstəkləyən deyil, iqtidarı dəstəkləməyən və ya daha çox gözləntiləri olan, yaxud da müəyyən səbəblərdən gözlədiyini əldə edə bilməyən insanlardır. Bunlar fərqli şeylərdir. Bu və ya digər partiyanın sosial bazasını qiymətləndirən zaman çox mühüm əhəmiyyətə malik olan bir amildir. Azərbaycanda belə insanları biz etiraz elektoratı adlandırırıq. Bu insanların sayı ilbəil azalmaqdadır. Hesab edirəm ki, yuxarıda Neft Fondunun gəlirlərindən həm də infrastrukturun və sosial layihələrin inkişaf etdirilməsi məqsədi ilə istifadə etdiyimizi deyərkən, müəyyən mənada sizin bu sualınıza cavab vermişdim. Bunu əyani şəkildə nümayiş etdirən bəzi rəqəmləri diqqətinizə çatdıra bilərəm.

Son iki ildə minimum əmək haqqı üç dəfə qaldırılmışdır. İnsanların gündəlik həyatı getdikcə yaxşılaşır. Hər il minimum əmək haqqını iki dəfə artırırıq. Bu, ən vacib məsələdir. Belə ki, indi Azərbaycanda 500 min insan minimum əmək haqqı alır. Mən Azərbaycanın Prezidenti seçilən zaman yoxsulluq həddində yaşayan insanlar 49 faiz təşkil edirdi. Cari ilin fevral ayında bu rəqəm 40 faiz olmuşdur, indi isə hətta böyük ehtimalla daha da aşağıdır. Mən hökumət qarşısında belə bir vəzifə qoymuşam ki, Azərbaycanda yoxsul insan qalmamalıdır. İkincisi, 8 milyonluq əhalisi olan bir ölkədə son iki il ərzində 300 min yeni iş yeri açılmışdır. Fikrimcə, bu da misli görünməmiş bir rəqəmdir. Başqa sözlə, Azərbaycanda yaxşı yaşayan insanların sayı artmaqdadır.

Bununla yanaşı, əlbəttə ki, ölkəmizdə sosial problemlər, işsizlik, yoxsulluq da mövcuddur. Biz qaçqınlar və məcburi köçkünlər məsələsinə toxunmadıq. Ermənistanın işğalının qurbanı olmuş bir milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və hökumət bu insanların da qayğısına qalmalıdır. Lakin hökumətin ehtiyatları məhduddur. İndi Azərbaycan inkişafının yalnız birinci mərhələsindədir və bu mərhələdə əmək haqlarını, pensiyaları, təqaüdləri artırmışıq. Misal üçün, tələbələrin təqaüdlərini bu yaxınlarda 2,5 dəfə artırmışıq. Yəni bu istiqamətdə çalışırıq. Büdcəmizə nəzər salsanız, görərsiniz ki, xərclərimizin böyük bir hissəsi sosial sahəyə yönəldilmişdir. Lakin bizə iqtisadiyyatımızı bərpa etmək, yoxsulluğu aradan qaldırmaq üçün vaxt lazımdır.

Siyasi proseslərə gəldikdə, deməliyəm ki, mən çox istərdim ki, ölkədə ciddi, sivilizasiyalı, mədəni müxalifət olsun. Elə bir müxalifət ki, onunla masa arxasında danışıqlar aparmaq mümkün olsun, ciblərində daşlar deyil, qələmlər gəzdirsin və siyasi prosesləri küçələrdə həll etmək mərhələsini aşmış olsun. Azərbaycan heç zaman bir daha siyasətin və rəhbərin küçələrdə müəyyən edildiyi günlərə qayıtmayacaqdır. Azərbaycan güclü bir dövlətdir və öz siyasətini yalnız qanun əsasında həyata keçirir. Ümid edirəm ki, 2005-ci ilin parlament seçkilərindən sonra yeni müxalifət yaranacaqdır. Partiyadakı vəzifələrini on ildən artıq bir müddət ərzində əldə saxlayanlar getməlidirlər. Bu, ona görə baş verməməlidir ki, biz belə istəyirik. Bir siyasətçi kimi mənim üçün belə müxalifət bəlkə də ən münasibidir. Çünki onların heç bir şansı yoxdur. Siyasətçi üçün daim zəif müxalifətə malik olmaq sərfəlidir. Mənim bugünkü opponentlərim kimi. Lakin ölkənin, demokratik proseslərin normal inkişaf etməsi, Azərbaycanın sivilizasiyalı dünyanın, Avratlantik regionunun bir hissəsinə çevrilməsi üçün müxalifətdə dəyişiklik baş verməlidir. Hesab edirəm ki, parlament seçkiləri cəmiyyət ilə birlikdə daha güclü dövlət qurmağımıza kömək edəcək yeni insanları, yeni adları üzə çıxaracaqdır.

MÜXBİRLƏR: Təşəkkür edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRİN İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ SƏDRİ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında Xəzərin İşlənilməsi üzrə Məsləhət Şurasının sədri Yan Leşlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Yan Leşli dedi ki, biz Azərbaycanda hasilat sənayesində şəffaflıq məsələsini, regionda enerji sektorunda görülən işləri və digər məsələləri müzakirə etmək niyyətindəyik. Cə-

nab Prezident, hasilat sənayesində şəffaflıq sahəsində Sizin gördüyünüz işlərin çox böyük əhəmiyyəti var. Ona görə də neftin qiymətinin artması, neftdən gələn gəlirlərin xərclənməsi və perspektivləri barədə Sizinlə fikir mübadiləsi aparmaq bizim üçün çox əhəmiyyətlidir.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir. Ölkəmizdə Neft Fondunun yaranması ilə əlaqədar bu işlər uğurla gedir. Biz siyasətimizi elə aparırıq ki, insanlar bu Fonda toplanan vəsaitin həcmi və xərclənməsi barədə şəffaf məlumata malik olsunlar. Ölkəmizdə bu sahədə həyata keçirdiyimiz işlər çox faydalıdır. Neft Fondunun vəsaitinin tənzimlənməsi üzərində şəffaf nəzarət mexanizmi mövcuddur. Biz gələcəkdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında Rusiya Federasiyasının Xarici kəşfiyyat xidmətinin direktoru ordu generalı Sergey Lebedevi qəbul etmişdir.

Bakıya səfərindən əvvəl Rusiya Prezidenti Vladimir Putin ilə görüşdüyünü bildirən Sergey Lebedev dövlətimizin başçısına onun salamlarını çatdırdı. Bildirdi ki, Rusiya rəhbəri Azərbaycan Prezidenti haqqında səmimi, xoş sözlər, Azərbaycanda əldə olunmuş iqtisadi inkişaf sürəti barədə yüksək fikirlər söylədi.

Qonaq xalqımızın ümummilli lideri Heydər Əliyev ilə vaxtilə Bakıda keçirdiyi görüşü xatırladı və bunun yaddaşında dərin iz buraxdığını bildirdi. O dedi ki, Heydər Əliyevin xatirəsini Rusiyada bu gün də ehtiramla anırlar.

Rəhbərlik etdiyi qurumla Azərbaycanın xüsusi xidmət orqanları arasında yaxşı əməkdaşlıq olduğunu xatırladan general Lebedev dedi ki, bu, ölkələrimiz, habelə region üçün mövcud olan təhlükələrə qarşı birgə mübarizəyə xidmət edir.

Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da səmimi salamlarını Rusiya rəhbərinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin xatirəsinin Rusiyada əziz tutulmasını yüksək qiymətləndirərək dedi ki, Heydər Əliyev ilə Vladimir Putin arasında olan şəxsi münasibətlərin ölkələrimizin qarşılıqlı əlaqələrinin inkişafında mühüm rolu olmuşdur. Eyni zamanda bildirdi ki, özü ilə Prezident Vladimir Putin arasında da yaxşı şəxsi əlaqələr vardır.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dünyada, o cümlədən regionda müxtəlif təhlükələrin mövcud olduğu indiki dövrdə təhlükəsizlik və sabitliyin təmin edilməsi baxımından ölkələrimiz arasında bu sahədə əməkdaşlığın əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu baxımdan onun səfəri ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın inkişafına xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DENİEL FRİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Deniel Fridin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı diplomatla bundan əvvəlki görüşünü xatırlayaraq dedi ki, hesab edirəm, bu səfər əlaqələrimizin inkişafı baxımından çox önəmlidir. Prezident İlham Əliyev Azərbaycanın Dövlət müstəqilliyi günü münasibətilə Prezident Corc Buşun göndərdiyi təbrik məktubuna görə ABŞ hökumətinə və Prezidentinə təşəkkürünü bildirdi. Respublikamızın rəhbəri dedi ki, ABŞ Prezidentinin ikitərəfli əlaqələrimiz və bunların gələcək inkişafı barədə fikirlərinə tam şərikəm. Əminəm ki, ölkələrimiz arasında mövcud olan tərəfdaşlıq, dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcəkdir.

Özünə və nümayəndə heyətinə göstərilən münasibətə görə təşəkkür edən cənab Deniel Frid dedi: Təkcə regionda deyil, bütün dünyada gedən bir sıra proseslərlə bağlı bizi dəstəklədiyinə, hərbçilərimizin İraqda birgə fəaliyyətinə görə, ümumən terrorizmə qarşı mübarizəyə verdiyi dəstəyə, Xəzərin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki əməkdaşlığa, hərbi və iqtisadi sahələrdə işbirliyinə görə hökumətimiz adından Azərbaycana minnətdarlıq bildirirəm. Bütün bunların çox böyük əhəmiyyəti vardır.

Cənab Prezident, mən eyni zamanda, Sizə xanım Kondoliza Raysın salamlarını çatdırıram. Həm də ölkənizdə gedən inkişafla bağlı Sizi təbrik etmək istərdim. Seçkilərə cəmi 17 gün qalmış belə inkişafın şahidi olmaq çox mühümdür.

ABŞ dövlət katibinin salamlarına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını xanım Raysa çatdırmağı xahiş edərək dedi ki, biz ikitərəfli əlaqələrimizin uğurlu inkişafını yüksək qiymətləndiririk. Qlobal enerji layihələrinin həyata keçirilməsində uğurlu əməkdaşlığı vurğulayan dövlətimizin başçısı bu yaxınlarda Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsinin bu baxımdan əhəmiyyətli olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏRBİ AVROPA İTTİFAQI ASSAMBLEYASININ - AVROPA TƏHLÜKƏSİZLİYİ VƏ MÜDAFİƏ ÜZRƏ PARLAMENTLƏRARASI ASSAMBLEYANIN SƏDRİ STEF QORİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Prezident sarayında Qərbi Avropa İttifaqı Assambleyasının - Avropa Təhlükəsizliyi və Müdafiə üzrə Parlamentlərarası Assambleyanın sədri Stef Qorisi qəbul etmişdir.

Dövlətimizin başçısı ilə bundan əvvəl keçirdiyi görüşü məmnunluqla xatırladan qonaq Prezident İlham Əliyevi Qərbi Avropa İttifaqı Assambleyasının bu il keçiriləcək ümumi sessiyasına dəvət etməkdən şərəf duyduğunu bildirdi.

Azərbaycan ilə münasibətlərin dərinləşməsinin Avropa üçün əhəmiyyətli olduğunu

söyləyən cənab Stef Qoris Qərbi Avropa İttifaqı Assambleyasının ölkəmizin Avropa İttifaqına inteqrasiyası prosesinə bundan sonra da dəstək verəcəyini nəzərə çarpdırdı.

Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirən qonaq ölkəmizdə etnik və dini tolerantlığın olmasından məmnunluğunu söylədi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təkcə Azərbaycan üçün deyil, həm də Avropa üçün çox əhəmiyyətli bir layihə olduğunu vurğulayan cənab Stef Qoris Azərbaycanda gedən iqtisadi islahatları yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı İlham Əliyev Avratlantik strukturlara, məkana, o cümlədən Avropa İttifaqına inteqrasiyanın Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu bildirdi. Prezident İlham Əliyev bütün səviyyələrdə əlaqələrin genişlənməsinin böyük əhəmiyyət daşıdığını qeyd etdi. Dövlətimizin başçısı Avropa İttifaqı, Avropa Şurası, AŞPA və digər strukturlarla, o cümlədən Qərbi Avropa İttifaqı Assambleyası ilə Azərbaycanın konstruktiv əməkdaşlığının daha da genişləndirilməsi işinə böyük önəm verdiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan coğrafi mövqeyinə görə Avropa ilə Asiyanı bir-birinə bağlayır. Ölkəmizdən böyük əhəmiyyətli qlobal enerji və nəqliyyat dəhlizləri keçir.

Ölkəmizin Avropa İttifaqı sərhədlərinə daha da yaxınlaşdığını bildirən dövlətimizin başçısı Avropa İttifaqının yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirak etdiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə də vacib rol oynadığını qeyd etdi.

Qarşıdakı parlament seçkilərindən söhbət açan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığı bundan sonra da daim genişlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİ MÜŞAHİDƏÇİLİYİ MİSSİYASININ RƏHBƏRİ GERT ARENSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında ATƏT-in Seçki Müşahidəçiliyi Missiyasının rəhbəri Gert Arensi qəbul etmişdir.

Görüşdə seçkiqabağı proseslərin gedişatı ilə bağlı bir sıra məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ÜÇLÜYÜNÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Prezident sarayında Avropa İttifaqı Üçlüyünün (Troyka) nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkəmizin Avropanın yeni qonşuluq siyasətində iştirakı, qarşıdan gələn parlament seçkiləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı və digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN MİLLİ TƏHLÜKƏSİZLİK İDARƏSİNİN BAŞ DİREKTORU GENERAL-MAYOR LAYOŞ QALANBOŞU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Prezident sarayında Macarıstan Milli Təhlükəsizlik İdarəsinin baş direktoru general-mayor Layoş Qalanboşu qəbul etmişdir.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Macarıstanda Azərbaycan səfirliyinin açılmasını əlaqələrimizin yaxşı nümunəsi kimi səciyyələndirdi. Prezident İlham Əliyev yeni təhlükələrin, o cümlədən beynəlxalq terrorizmin mövcud olduğu müasir dövrdə xüsusi xidmət orqanları arasında əməkdaşlığın əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Macarıstan arasında Avropa İttifaqı çərçivəsində də əməkdaşlığın əhəmiyyətli olduğunu vurğuladı.

Başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana dostluq əhval-ruhiyyəsi ilə səfərə gəldiyini bildirən cənab Layoş Qalanboş ölkələrimiz arasında tarixi köklərin və qarşılıqlı anlaşma olduğunu söylədi. Xüsusi xidmət orqanlarının bu münasibətlərin inkişafındakı rolundan bəhs edən qonaq beynəlxalq terrorizmə qarşı mübarizə məsələsində ölkələrimizin birgə səylərinin əhəmiyyət daşıdığını qeyd etdi. Cənab Layoş Qalanboş Azərbaycanda böyük inkişafın şahidi olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİ ƏLAQƏLƏNDİRMƏ ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Prezident sarayında MDB Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi Əlaqələndirmə Şurasının üzvlərini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev beynəlmiləlçi döyüşçülərin Bakıda keçirdikləri iclası yüksək qiymətləndirərək dedi ki, hər yerdə olduğu kimi, Azərbaycanda da veteranlara xüsusi diqqət və qayğı göstərilir. Böyük Vətən müharibəsinin veteranlarına, beynəlmiləlçi döyüşçülərə və Azərbaycanın müstəqilliyini müdafiə edərkən həlak olmuş döyüşçülərin ailələrinə xüsusi münasibət göstərilir. Öz sağlamlığını qurban vermiş, müharibələr nəticəsində əziyyətlər çəkmiş insanlara qayğıkeş münasibət nümunəsi yeni nəslin tərbiyə edilməsi işində çox vacibdir.

Prezident İlham Əliyev hərb tariximizin bizə bir çox dərsləri öyrətdiyini və gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında veteranların çox böyük xidmətləri olduğunu söylədi. Bu sahədə ümumi tariximizin bizi birləşdirdiyini xatırladan dövlətimizin başçısı müstəqillik dövründə yeni nəsil yarandığını və yeni şəraitdə yeni formada işləməyin zəruriliyini vurğuladı. Prezident bu istiqamətdə də konkret işlər görüldüyünü söylədi, beynəlmiləlçi döyüşçülərin təmsil etdikləri təşkilatın işini xalqlar arasında dostluğun və beynəlmiləlçiliyin nümunəsi kimi yüksək dəyərləndirdi. Azərbaycan rəhbəri dedi: Bakı həmişə beynəlmiləlçilik ruhu ilə fərqlənmişdir. Təşkilatınız Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi adlanır. Sizin hamınızda beynəlmiləlçilik, yoldaşlıq, qardaşlıq ruhu

var və bu ruh möhkəmlənəcəkdir.

Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi Əlaqələndirmə Şurasının sədri, Sovet İttifaqı Qəhrəmanı Ruslan Auşev onların tədbirinin Bakıda keçirilməsinə şərait yaratdığına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Əlaqələndirmə Şurası iclası iştirakçılarının Prezident İlham Əliyevə ünvanladığı müraciəti ona təqdim edərək dedi: Biz müraciətdə bildirmişik ki, Sizin fəaliyyətinizi dəstəkləyirik və Sizdən separatizmlə, terrorizmlə və onların bütün təzahürləri ilə mübarizə xəttindən dönməməyi xahiş edirik. Biz həqiqətən görürük ki, Azərbaycan tərəqqi edir.

Prezident İlham Əliyev Azərbaycanda terrorizm və separatizmlə mübarizə sahəsində də dəyərli işlər görüldüyünü bildirdi.

Ölkəmizin dünya miqyasında layiqli yer tutması üçün görülən tədbirlərdən danışan dövlətimizin başçısı dedi: Müstəqillik illərində biz vətəndaş müharibəsi, anarxiya və qarmaqarışıqlıq, quldurluq və qanunlara tam etinasızlıq dövrünü yaşadıq. Ancaq 1990-cı illərin ortalarında qayda-qanun bərpa edildi. Sonra sabitliyin pozulması üçün müxtəlif qüvvələr tərəfindən digər cəhdlər oldu, lakin bunların hamısının qarşısı qanun çərçivəsində qətiyyətlə alındı və ictimaiyyət bu tədbirləri dəstəklədi. Hər hansı ölkənin normal inkişafı üçün başlıca amil sakit, sabit şəraitin olmasıdır. İnsanlar gərginlikdən, münaqişələrdən, müharibələrdən, özbaşınalıqdan yorulmuşlar. Son iki ildə nail olduqlarımız sabitliyin nəticəsidir. Ölkəmizdə sabitlik olmasaydı, biz indiki nəticələri əldə edə bilməzdik. Bu il Azərbaycan iqtisadi inkişafın sürətinə görə dünyada birinci yeri tutur. Cari ilin doqquz ayı ərzində ümumi daxili məhsul 21 faiz, sənayenin inkişaf sürəti 28 faiz, əhalinin gəlirləri 26 faiz artmışdır. Son iki ildə üç dəfə minimum əmək haqqı qaldırılmışdır.

Prezident İlham Əliyev gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində idmanın böyük əhəmiyyəti olduğunu da vurğuladı, bu sahəyə göstərilən qayğıdan da danışdı.

Dövlətimizin başçısı bir vaxtlar ölkəmizdə veteranlara qarşı diqqətsizlik və etinasızlığın olduğunu da xatırladaraq dedi: Əvvəllər Böyük Vətən müharibəsinin tarixini təhrif etməyə, faşizmin əlaltılarına müəyyən dərəcədə haqq qazandırmağa cəhd göstərirdilər. Biz hamımız 1980-ci illərin axırlarını və 1990-cı illərin əvvəllərini xatırlayırıq. O vaxtlar müharibəyə münasibət müxtəlif cür idi. Əfqanıstanda adamlar sülh uğrunda vuruşurdular, ölkə uğrunda vuruşurdular, qəhrəmanlıq göstərirdilər. Kim buna təqsirkardır? Azərbaycanda biz buna yol vermədik. Hərçənd, SSRİ dağıldıqdan və Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra 9 Mayın bayram olunmasını ləğv etdilər. Hər şeyi unutdular, yazıq veteranlar, keçmiş cəbhəçilər gözüm-çıxdıya salındı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələn kimi 9 Mayın bayram olunmasını bərpa etdi. İndi biz hər il bu bayramı qeyd edirik. Təəssüf ki, veteranların sayı ildən-ilə azalır. Bu insanlar cəmiyyət üçün nümunədir. Bu, eləcə də sizə, veteranların gənc nəslinə aiddir. Azərbaycanda Qarabağ müharibəsi veteranlarının nümunəsi də yaşayacaqdır. Biz Qarabağ müharibəsinin veteranlarına həm maddi, həm mənəvi cəhətdən, həm də işə düzəlməkdə öz imkanımız daxilində kömək edirik. Bizdə çoxlu müharibə əlili var. Mən onlarla görüşmüşəm. Biz milli qəhrəmanların hamısına ömürlük pensiya veririk. Əlbəttə, bu, kompensasiya və onların bütün məsələlərinin həlli ola bilməz. Lakin mən onları çox dəstəkləyirəm.

Xüsusi Bölmə Veteranları Assosiasiyasının prezidenti Boris Beskov xalqımızın ümum-

milli lideri Heydər Əliyev haqqında xatirələrini bölüşərək dedi: Mən sərhəd qoşunları məktəbini bitirdikdən sonra 9-cu İdarədə işlədim. O vaxt Heydər Əliyeviç burada işləyirdi. Sonralar Siyasi Büroda müxtəlif tədbirlərdə iştirak etməli olurdum. Onun haqqında məndə ən nurlu, ən əziz xatirələr qalmışdır.

Tanınmış siyasi icmalçı Mixail Leşşinski Azərbaycanda dəfələrlə olduğunu, lakin indiki səfərin dərin iz buraxdığını qeyd etdi. O dedi: Mən Sizin atanızla - Heydər Əliyeviçlə tanış olmağımdan böyük qürur duyuram. Mən Azərbaycanda tez-tez olur, əsasən, iqtisadi inkişaf haqqında reportajlar hazırlayırdım. Bu, 1973-cü və 1974-cü illərdə olmuşdur. Onun bizə bağışladığı hədiyyə - büllur "armudu" stəkanlar ailəmizdə yadigar qalır. Arvadım Ada Petrova da jurnalistdir. O da Azərbaycanda tez-tez olurdu, ona görə də bu, bizdə bir növ əziz yadigardır. Bakıya getdiyimi eşitdikdə mənə çox həsəd apardı. Bu gün yeni Bakını gördükdə könlüm açıldı. Mən bu şəhərdə ilk dəfə 1959-cu ildə olmuşam. Siz idmanın inkişafından danışdınız. O vaxt mən buraya gənc dinamoçu kimi, gənc idmançı kimi gəlmişdim. Biz Qaraşəhərdəki hovuzda su polosu oynayırdıq. İndi şəhər sanki bambaşqadır. Son 15 ildə olduqca dəyişmişdir. Lakin başlıcası bu kranlar, bu qüllələr deyil, başlıcası insanların əhval-ruhiyyəsi, əmin-amanlığıdır. Biz yarım saat Dənizkənarı parkda olduq, sakit və məmnun insanlar gördük. Onlardan cinayətkarlığın vəziyyəti barədə soruşdum. Dedilər ki, cinayətkarlıq yoxdur, onun nə olduğunu 1995-ci ildən unutmuşlar. Səhər saat 4-də burada qızla gedə bilərsən, qızlar tək-tənha gəzə bilərlər, problem yoxdur. Bu, biz moskvalılar üçün xüsusilə vacibdir. Bir daha təşəkkür edirəm, Sizə uğurlar arzulayıram. Ümidvaram ki, biz Azərbaycanın və Bakının uğurlarına hələ çox sevinəcəyik.

Görüşün sonunda Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edildi.

Sonda dövlətimizin başçısı Prezident sarayı qarşısında qonaqlarla xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ JURNALİSTLƏRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Prezident sarayında Türkiyə jurnalistlərinə müsahibə vermişdir.

Dövlətimizin başçısı İlham Əliyev qardaş ölkənin mətbuat nümayəndələrini salamlayaraq, onlarla görüşündən məmnun olduğunu söylədi.

- Mən hörmətli Cümhurbaşqanına sual vermək istəyirəm. Türkiyə-Azərbaycan əlaqələrinin vəziyyəti son dərəcə yaxşıdır. Ölkələrarası əlaqələrdə şəxsi münasibətlər nə dərəcədə mühüm rol oynayır? Bu barədə nə düşünürsünüz?

- Əlbəttə, şəxsi əlaqələr mühüm rol oynayır və çox sevindirici haldır ki, bizim ölkələrimiz arasında əlaqələr və ölkələrə rəhbərlik edən şəxslər arasında əlaqələr eyni səviyyədədir. Hörmətli Prezident Əhməd Necdət Sezərlə çox səmimi dostluq münasibətlərimiz mövcuddur. Eyni zamanda, Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanla da biz çox yaxından əməkdaşlıq edirik, dostuq. Biz bir-birimizlə daim əlaqə saxlayırıq, telefonla danışırıq, müxtəlif beynəlxalq tədbirlərdə görüşürük və bu, çox önəmlidir. Mən hesab edirəm ki, indiki bu dostluq əlaqələri ən yüksək zirvədədir.

- Hörmətli Cümhurbaşqanı, Siz son dəfə Kazanda Ermənistan Prezidenti ilə görüşdünüz. İndi vəziyyət necədir, Sizcə sülhə doğru ümidiniz varmı? Yəni Ermənistan bu yöndədirmi?

- Hər halda, biz bu sülh danışıqlarını aparırıq. Bu o deməkdir ki, ümidlər hələ var, tükənməyibdir. Ancaq bu danışıqlar 10 ildən artıqdır ki, aparılır və ortada bir nəticə yoxdur. Bizim mövqeyimiz həmişə birmənalı olmuşdur və bu beynəlxalq hüquqa əsaslanan bir mövqedir. Yəni ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çıxmalıdır və bizim soydaşlarımız, bir milyondan artıq qaçqın, köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi də müzakirə oluna bilər. Bu mövqe beynəlxalq normalara əsaslanır və bu normaların tətbiq olunması hər bir münaqişənin nizama salınmasında başlıca şərtdir. Ermənistanın mövqeyi beynəlxalq hüquqa tamamilə zidd bir mövqedir. Heç bir beynəlxalq hüquq normalarına əsaslanmayan mövqedir. Onlar Dağlıq Qarabağa müstəqillik istəyirlər.

Onlar tərəfindən göstərilən əsas səbəb də odur ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Ancaq biz bilirik ki, ermənilər müxtəlif ölkələrdə yaşayırlar. Təsəvvür edin, əgər onlar yaşadıqları bütün ölkələrdə müstəqillik statusu tələb etsələr, nələr baş verər?

Mən ümid edirəm ki, danışıqların müsbət nəticələri ola bilər. Əgər bütün tərəflər beynəlxalq hüquq normalarına riayət etsələr və bu məsələ ilə məşğul olan, vasitəçilik missiyasını üzərinə götürən qurumlar daha da fəal olsalar, sülh sazişinə nail oluna bilər.

- Hörmətli Cümhurbaşqanı, təxminən bir həftədən sonra parlament seçkiləri keçiriləcəkdir. Ötən həftə Sizin əhəmiyyətli Sərəncamlarınız oldu. Bəzi nazirlər vəzifəsindən azad olundu, bəziləri haqqında müəyyən ittihamlar ortaya çıxdı. İcazənizlə, bununla bağlı iki sual vermək istəyirəm.

Birincisi, vəzifədən bu cür azadolunmalar, həbslər davam edəcəkmi? İkincisi, bir neçə ildir indi vəzifədən azad olunan insanlarla çalışırdınız. Barələrindəki ittihamlar ortaya indimi çıxdı, yəni bu cür işlərə onlar təzə başlamışlar?

- Bunu demək çətindir ki, onlar bu işlərlə bu yaxınlarda məşğul olmağa başladılar, yoxsa bundan əvvəl. Hər halda, istintaq orqanları onların əməllərini üzə çıxardı və lazımi tədbirlər görüldü.

Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. Biz hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o adi vətəndaş olsun, nazir olsun, yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Artıq verilən ifadələr deməyə əsas verir ki, Azərbaycanda seçkilərlə bağlı və seçkilər ərəfəsində nəzərdə tutulan proseslər ölkəmizi çətin duruma sala bilərdi. Ölkədə qarşıdurma yarada bilərdi. Bunun qarşısı alındı. Gələcəkdə də əgər kimsə Azərbaycanda qanunazidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır. Ümid edirəm ki, Azərbaycanda parlament seçkiləri normal şəraitdə keçiriləcəkdir. Seçkilərin ədalətli və demokratik keçirilməsi üçün bütün əsaslar var. Seçki kampaniyası uğurla gedir. Ümid edirəm ki, seçki günü də normal keçəcək və Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapacaqdır.

- Hörmətli Cümhurbaşqanı, Dağlıq Qarabağla bağlı fərqli mövqelər var. Bu sahədə bir addım atıldımı?

- Bilirsiniz, indi danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Praqa prosesi məsələnin mərhələli həlli deməkdir. Yəni, ilk növbədə, Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları - qaçqınlar, köçkünlər oraya qaytarılmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu müzakirə olunmalıdır. Statusun müzakirəsində, əlbəttə, həm Ermənistan, həm Azərbaycan, həm indi Dağlıq Qarabağda yaşayan insanlar, həm də vaxtilə Dağlıq Qarabağda yaşamış, lakin oradan qovulmuş azərbaycanlılar da iştirak etməlidirlər. Yəni biz bu prinsip üzərində indi danışıqları aparırıq. Hesab edirik ki, bu, çox böyük bir irəliləyişdir, sülh danışıqlarında əldə edilmiş böyük nailiyyətdir. Çünki bütün zamanlarda Ermənistan tərəfi məsələnin paket şəklində həll olunmasına çalışırdı. Yəni, onların fikrincə, onlar işğal olunmuş torpaqlardan çıxacaqlar, ancaq bununla eyni vaxtda Dağlıq Qarabağın statusu müəyyən edilməlidir. Praqa prosesi artıq buna son qoydu.

Bir şeyi də demək istəyirəm. Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll etmək niyyətindədir. Bundan kənarda heç bir məsələ müzakirə mövzusu deyildir. Dağlıq Qarabağ nə Ermənistana birləşəcək, nə də müstəqil bir qurum olacaqdır. Orada yaşayan ermənilər Azərbaycanın tərkibində yüksək muxtariyyət statusuna malik ola bilərlər və bunu dünya təcrübəsi də göstərir. Avropaya nəzər salsaq görərik ki, orada muxtariyyətlər mövcuddur və onların təcrübəsi çox uğurludur. İndi biz Avropaya inteqrasiya siyasəti aparırıq. Ona görə həmin müsbət təcrübəni öyrənirik və bu məsələdə onu Azərbaycanda da tətbiq etməliyik.

- Ermənistan məsələsi, sadəcə Azərbaycanın problemi deyil, Türkiyənin və Azərbaycanın ortaq bir problemidir. Hətta bunu ortaq düşmən kimi də ifadə edə bilərik. Ermənilər diasporun dəstəyi ilə, "soyqırımı" iddiaları ilə dünyaya yalan yayırlar.

Birincisi, Azərbaycanla Türkiyə dövlətinin bu diaspora cavab verə biləcək bir diaspor yaratması, bunun üçün dövlətin, mədəni təşkilatların dəstəyi ilə müştərək hərəkət etməsi mümkündürmü, belə bir şey düşünülürmü?

İkincisi, Azərbaycanla Türkiyə arasında hərbi, təhsil, mədəniyyət, siyasi - bütün sahələrdə əlaqələr önəmli bir səviyyəyə çatmışdır. Sizcə, bu əlaqələrdən ən çox hansı daha yaxşı bir nöqtəyə, səviyyəyə qaldırılmalıdır?

- Bizim aramızda bütün istiqamətlərdə çox səmərəli, işgüzar münasibətlər mövcuddur. İstər iqtisadi sahədə, istərsə də siyasi müstəvidə ən yaxın müttəfiqik və bəlkə də, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər sıx bağlı olsunlar. Ona görə bu əlaqələr həm Türkiyə və Azərbaycanın indiki inkişafına, regiondakı rolumuzun artmasına, həm də ölkələrimizin gələcək inkişafına xidmət edir.

Hesab edirəm ki, bu əlaqələr arasında iqtisadi əlaqələr bir az geridə qalır. Çünki siyasi sahədə bizim münasibətlərimiz ən yüksək səviyyədədir. Regional əməkdaşlıq baxımından Türkiyə və Azərbaycan bu gün həm bölgə, həm də dünya üçün çox önəmli layihələrlə məşğuldur. Aramızda olan ticarət əlaqələri, mal dövriyyəsi bizim potensialımızı tam əks etdirmir. Çünki indi həm Türkiyə, həm də Azərbaycan çox dinamik şəkildə in-

kişaf edən ölkələrdir. Bizdə 2005-ci ilin 9 ayında iqtisadi artım 21 faiz, sənayenin artımı 27 faiz təşkil edibdir. Bu, dünyada ən yüksək göstəricidir. Yəni bu potensialdan biz ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün daha da səmərəli istifadə etməliyik. Bu sahədə də müəyyən addımlar atılır. Bir müddət bundan əvvəl Azərbaycanda Türkiyə-Azərbaycan biznes forumu keçirilmişdir. Mən də o forumda iştirak etmişdim. Mən çox istəyirəm ki, bizim iş adamlarımız bir-biri ilə daha da sıx əlaqədə olsunlar.

O ki qaldı, erməni diasporunun fəaliyyətinə, əlbəttə, Ermənistanın əsas güc mənbəyi onun diasporudur. Çünki bir dövlət kimi Ermənistan iqtisadi cəhətdən, siyasi baxımdan o qədər də inkişaf etməyib və onun özünün potensialı, əlbəttə, nə Azərbaycanın, nə də Türkiyənin potensialı ilə müqayisə edilə bilməz. Amma onların dünyada mövcud olan dayaqları, müxtəlif ölkələrdə mütəşəkkil şəkildə fəaliyyət göstərən diasporu, əlbəttə, onlara böyük dəstəkdir, eyni zamanda, bizə qarşı istifadə olunan ən güclü alətdir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə əldə edibdir. Əlbəttə, bizim keçmişdə diasporumuz, belə bir təcrübəmiz yox idi. Amma indi biz müstəqilik, çalışırıq və çalışmalıyıq ki, dünyada öz mövqelərimizi möhkəmləndirək. Türklər, azərbaycanlılar dünyanın müxtəlif yerlərində yaşayırlar və əlbəttə, onlar birgə fəaliyyət göstərməlidirlər. Bizim müxtəlif ölkələrdə icmalarımız formalaşır, möhkəmlənir. Azərbaycanda xüsusi bir qurum - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi var. Bu yollarla biz dünyada öz mövqelərimizi möhkəmləndirməliyik və həqiqəti çatdırmalıyıq. Ermənistanın təbliğatı yalan, böhtan, uydurma üzərində qurulubdur. Dırnaqarası soyqırımı məsələsində də onlar dünya birliyinin ictimai rəyini çaşdırırlar və tarixi təhrif etməyə çalışırlar, bəzi hallarda da buna nail olurlar. Bizim isə buna qarşı öz arqumentlərimiz olmalıdır. Bizim arqumentlərimiz həqiqətə, reallığa, faktlara söykənir. Əlbəttə, bu sahədə səylərin birləşdirilməsi çox böyük əhəmiyyət kəsb edir.

- Hörmətli Cümhurbaşqanı, Sizə iki sualla müraciət etmək istəyirəm. Türkiyə ilə Azərbaycanın münasibətlərinin bu səviyyədə olmasından son dərəcə məmnunuq. Bunu burada olduğumuz zaman təmaslarımızda da gördük, küçədə də hiss etdik. İnşallah, daha da yaxşılaşacaqdır. Ancaq Azərbaycan Türkiyə üçün Qafqazda qapıbir qardaş ölkədir. Digər tərəfdə Orta Asiyanın türkdilli respublikaları da var. Azərbaycanın Türkiyə ilə münasibətləri çox gözəldir. Digər türkdilli respublikalarla münasibətləriniz necədir? İkincisi, burada daha çox iki məsələ üzərində dayanılır. Biri seçkilər, digəri isə Qarabağ problemidir, inşallah, tezliklə çözülər. Bunlardan savayı Azərbaycanın ciddi, böyük problemləri nələrdir?

- Əslində, seçkilər bizim üçün böyük məsələ deyil və problem də deyildir. Seçkilər bir prosesdir və hər bir ölkənin normal inkişafı üçün demokratik seçkilərin keçirilməsi şərtdir. Bizim qarşımızda əsas problem yalnız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Çünki başqa problemlər öz həllini ya tapıbdır, ya da tapacaqdır. Bizim çox gözəl perspektivlərimiz var, gələcəyimiz var, təbii ehtiyatlarımız var. Gördüyümüz işlər nəticəsində neft, qaz kəmərləri tikilir. Ölkəmizin iqtisadi potensialı ildən-ilə artacaq və Azərbaycan çox zəngin və qüdrətli dövlətə çevriləcəkdir.

Eyni zamanda, ölkədə milli həmrəylik, xalqla iqtidar arasında birlik var. Ölkədə sabitlik möhkəm şəkildə təmin olunur. Sosial məsələlərin həlli işində böyük addımlar atılır, maaşlar, təqaüdlər artırılır və s.

Ermənistan-Azərbaycan münaqişəsi məsələsi həm bizim üçün, həm də bütün bölgə üçün başlıca təhlükədir, problemdir. Çünki bu münaqişə, bu müharibə sona yetməyibdir. Sadəcə olaraq, atəşkəs rejimi mövcuddur, ancaq sülh sazişi yoxdur. Bu, bütün regionun normal inkişafı üçün böyük əngəldir. Ermənistanın özü üçün də böyük problemdir. Çünki Ermənistan indi bütün beynəlxalq regional layihələrdən kənarda qalıbdır. İndi burada heç bir layihənin onların iştirakı ilə baş tutması mümkün deyildir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi, ümid edirəm ki, bu yaxınlarda başlayacağımız Qars-Tbilisi-Bakı dəmir yolunun çəkilməsi – bütün bu layihələr Ermənistandan yan keçir. Bu, belə də olmalıdır. Ermənistan bizim torpaqlarımızdan çıxmayanadək heç bir regional layihədə iştirak etməyəcəkdir. Çünki biz buna razılıq verməyəcəyik. Ona görə münaqişənin həlli bölgədə yaşayan bütün insanlar üçün önəmlidir.

O ki qaldı, bizim digər türkdilli dövlətlərlə münasibətlərimizə, bu münasibətlər yüksək səviyyədədir. Biz qarşılıqlı səfərlər edirik, çox fəal çalışırıq, beynəlxalq təşkilatlarda – həm Birləşmiş Millətlər Təşkilatında, İslam Konfransı Təşkilatında, həm də başqa qurumlarda türkdilli dövlətlərdən dəstək görürük. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi məsələsində. Fəqət o da sirr deyil ki, türkdilli dövlətlərin daha səmərəli, qarşılıqlı surətdə faydalı əməkdaşlığına daha da böyük ehtiyac var. Bu potensial tam şəkildə işə salınmayıbdır. Azərbaycan Türkiyəni Orta Asiya ilə birləşdirən bir ölkədir. Bizim ərazimizdən bütün dəhlizlər, enerji, nəqliyyat infrastrukturları keçir. Coğrafi-siyasi vəziyyətimiz, əlbəttə, yeni imkanlar yaradır. Yuxarıda qeyd etdiyim Qars-Tbilisi-Bakı dəmir yolunun çəkilişi, eyni zamanda, Orta Asiyanı Türkiyə ilə birləşdirəcəkdir.

- Müxalifətin ABŞ-dan və Qərbdən, Avropa Birliyi ölkələrindən ciddi dəstək aldığı barədə deyilənləri, Gürcüstanda və Ukraynada olduğu kimi eyni turuncu rəngi istifadə etməsini necə dəyərləndirirsiniz?

- Mən buna gülürəm. Siz buna turuncu deyirsiniz, biz narıncı deyirik. Hesab edirəm, bir halda ki, onlar burada böyük planlar həyata keçirmək iddiasındadırlar, bir başqa rəng seçə bilərdilər. Başqa ölkədə gedən prosesləri yamsılamaq, təkrarlamaq heç kimə şərəf gətirməz. Mən ümid edirəm ki, Azərbaycanda bütün siyasi qüvvələr, partiyalar qanun çərçivəsində hərəkət edəcək və fəaliyyət göstərəcəklər. Ən əvvəl Prezident kimi mən buna çalışıram. Dəfələrlə müxtəlif məqamlarda, öz çıxışlarımda, bəyanatlarımda bütün siyasi qüvvələri dialoqa çağırmışam. Təklif etmişəm ki, siyasi münasibətlər masa arxasında, əldə qələmlə çözülsün, cibdə daşla yox, küçədə yox, meydanda yox. Azərbaycanda meydan dövrü artıq bitdi. 1990-cı illərin əvvəllərində Ukraynada, Gürcüstanda baş verən hadisələr Azərbaycanda da yaşandı. Artıq o tarixdir, bitdi və heç vaxt təkrarlanmayacaqdır. Çünki Azərbaycan güclü dövlətdir. Biz iqtidar olaraq xalqın dəstəyinə, xalqın iradəsinə arxalanırıq.

Bizim partiyamız, Yeni Azərbaycan Partiyası seçkilərdə ən şanslı partiyadır. Bəzən belə bir rəy yaranır, guya xaricdən müxalifəti kimsə dəstəkləyir. Mən buna da münasibət bildirmək istəyirəm. Belə hallar bizim tərəfimizdən müşahidə olunmur. Daha çox müxalifət öz reytinqini qaldırmaq üçün belə qeyri-dəqiq məlumatlar yayır ki, guya onları xaricdən kimsə dəstəkləyir. Birincisi, Azərbaycanın gələcəyi, siyasəti Azərbaycanda həll olunmalıdır və həll olunur. Bizim siyasətimiz tam şəkildə müstəqil siyasətdir. Müstəqillik təkcə rəsmi atributlarla – bayraq, himn (siz dövlət marşı deyirsiniz) ilə ölçülmür.

Müstəqillik o deməkdir ki, ölkə öz müstəqil siyasətini tam şəkildə apara bilsin və bu siyasət xalqın maraqlarına cavab versin. Biz bu siyasəti aparırıq. Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çalışırıq.

- Siz, neft sahəsini bilən bir insansınız. Dünyada neftin qiymətlərinin artmasını nə ilə izah edirsiniz? Hətta qiymətlər getdikcə artacaqdır. Bu, dünya mətbuatını çox maraqlandıran bir mövzudur. Bu barədə fikirlərinizi bilmək istərdik.

- Bunun əlbəttə, müxtəlif səbəbləri var və müxtəlif fərziyyələr də ola bilər. Hansısa bir səbəb göstərilmir. Nə OPEK ölkələri, nə də böyük həcmdə neft hasil edən başqa ölkələr bu barədə heç bir vahid mövqeyə malik deyillər. Azərbaycanda hasil olunan neft dünya neft bazarına təsir göstərmir. Çünki bizim böyük hasilatımız hələ 2-3 ildən sonra başlanacaqdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycandan gündə minimum bir milyon barrel neft ixrac olunacaqdır. Ancaq onu da bilirik ki, dünyada neftə tələbat artır. Ölkələr, iqtisadiyyat inkişaf edir, xüsusilə Asiya ölkələrində neftə tələbat çox kəskin şəkildə artmışdır. Tələbat artdıqca, deməli, qiymətlər də artır. Bu qiymətlərin artımı bir tərəfdən, əlbəttə, neft çıxaran ölkə üçün sərfəlidir. Çünki bizim gəlirlərimiz artır. Digər tərəfdən, sirr deyil ki, o, bütün malların qiymətinə də təsir göstərir.

Azərbaycanda istehlak mallarının böyük hissəsi xaricdən gətirilir. Ona görə, istər-istəməz, qiymətlərin artımı müşahidə olunur. Bu il inflyasiya artmışdır. Gələcək göstərəcək ki, qiymətlər necə olacaqdır. Hər halda, yəqin ki, bu səviyyə hələ uzun illər qalacaqdır.

- Azərbaycanın NATO-ya üzvlüyü ilə bağlı dünya mətbuatında müxtəlif yazılar olur. ABŞ-ın Azərbaycana 15 min əsgər yerləşdirmək məqsədi barədə dünya mətbuatında materiallar yazılır. Bu haqda nə düşünürsünüz? Fürsətdən istifadə edib, bu kitabımı da Sizə təqdim edirəm.

- Təşəkkür edirəm.

Azərbaycanda heç bir xarici dövlətin qoşunu, yaxud əsgəri yoxdur. Biz gələcəkdə də bunu nəzərdə tutmuruq. Mən bilmirəm nə üçün mətbuatda bəzən belə məlumatlar müşahidə olunur ki, buraya hansısa əsgəri kontingent gətiriləcək, yaxud burada hərbi baza yerləşdiriləcəkdir. Mən bu barədə dəfələrlə rəsmi şəkildə bəyanat vermişəm ki, belə planlar yoxdur, bu məsələ müzakirə olunmur. Amerikanın yüksək vəzifəli şəxsləri də bu məsələyə dair eyni mövqedən çıxış edirlər. Sadəcə olaraq, yəqin kimsə, bu mövzu ilə maraqlanan tərəflər onu süni şəkildə qabartmaq istəyirlər. Yenə deyirəm, bu məsələ müzakirə olunmur.

NATO ilə bizim əməkdaşlığımız da çox uğurludur. Biz demək olar ki, on il ərzində "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçısı idik və indiki dövrdə yeni bir əməkdaşlıq proqramına qədəm qoyduq. "Fərdi tərəfdaşlığın fəaliyyət planı" artıq təqdim olunubdur. NATO ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsi başlanacaqdır. Biz bütün bu məsələlərə çox realist baxımdan yanaşırıq. İmkanlarımızı bilirik, bölgədə gedən prosesləri bilirik. Bilirik ki, bizim başqa mötəbər təşkilatlara üzv olmağımız bu gün həll edilən məsələ deyildir. Amma normal əməkdaşlığın yaranması üçün Azərbaycan çox böyük addımlar atır. Avropa İttifaqı ilə, NATO ilə əlaqələrimiz çox yüksək səviyyədədir və bizi qane edir.

- Cənab Prezident, ABŞ Rəsul Quliyev məsələsində nə etmək istəyir? O, orada sığınacaq aldıqdan sonra buraya gəlməsinə icazə verildi. Quliyev burada Sizin gücünüzü və müxalifətin zəifliyini görüb geri dönmək məcburiyyətində qaldı. İnterpolun axtardığı bir adamı Amerika hansı anlamda mühafizə edir və buraya göndərmək istədi? Lakin alınmadı və o, geri qayıtdı. Siz Quliyevin gəlməsi üçün qapıları açmadınız? Onun burada siyasi gücünün olmadığı halda, - biz bunu burada gördük, - niyə çəkinirsiniz?

- Biz heç nədən çəkinmirik. Mən demişdim ki, Rəsul Quliyev beynəlxalq mafiyanın nümayəndəsidir. Azərbaycan dövlətini talayıb, dövlətdən 100 milyon dollardan çox pul oğurlayıbdır. Bütün bunlar sübuta yetirilmiş faktlardır, sənədlərdir. Onun iqtisadi cinayətləri haqqında hamı bilir, bu, heç kimə - nə Azərbaycan vətəndaşlarına, nə də başqa ölkələrin müvafiq orqanlarına sirr deyildir. Ona görə biz Rəsul Quliyevin Azərbaycana qayıtmaq istədiyini eşidəndə çox sevindik ki, nəhayət, o, törətdiyi cinayətlərə görə Azərbaycan xalqı qarşısında və ədalət məhkəməsi qarşısında cavab verəcəkdir. Bəyan etdik ki, gəlsin. Sadəcə olaraq, siz qeyd etdiyiniz kimi, həm müxalifətin gücsüzlüyünü gördü, həm də özündə cəsarət tapmadı və yoldan geri döndü.

Hər şey qanun çərçivəsində həll olunmalıdır. Partiya rəhbəri olmaq heç kimə immunitet verməməlidir. Əgər kimsə qanunu pozubsa, ölkənin malını talayıbsa, oğurluqda ittiham olunursa və onun cinayətləri sübuta yetirilibsə, istər partiya sədri olsun, istər millət vəkili olsun - hamı cavab verməlidir. Gəlsin, cavab versin. Məhkəmə öz qərarını çıxarsın, qərar nə olacaqsa, o da olacaqdır. Onun burada heç bir nüfuzu yoxdur. Nə özünün, nə də partiyasının seçkilərdə uğur ehtimalı, ümumiyyətlə, yoxdur. Çünki o, Azərbaycanda bir oğru kimi tanınır və kimdən soruşsanız, bunu təsdiqləyər.

Bəzi hallarda cinayət törətmiş insanlar gedib hansısa partiya yaradırlar, partiyaya daxil olurlar və deyirlər ki, artıq biz siyasətçiyik, bizə toxunmaq olmaz. Quliyev o cinayətləri törədən zaman heç bir partiyanın üzvü deyildi və 1996-cı ildə Azərbaycandan qaçanda da partiya üzvü deyildi. Ondan sonra yəqin belə bir fikrə gəldi ki, bir partiyanın üzvü olum, bu, mənə toxunulmazlıq versin. Amma bu, mümkün deyildir. Gəlsin, xalq qarşısında cavab versin, öz cinayətləri haqqında təmiz ürəklə ifadə versin, məhkəmə də qərarını çıxarsın.

- Hörmətli Prezident, mərhum Cümhurbaşqanı Heydər Əliyevin dövründə Azərbaycanın bir nömrəli vəzifəsi müstəqilliyini möhkəmləndirmək idi. Sizin son vaxtlar verdiyiniz açıqlamalarda isə demokratiyanın güclənməsi yolunda səyləriniz vurğulanır. Amma bir az əvvəl həmkarlarımın verdiyi sualların davamı kimi soruşmaq istəyirəm, Sizcə, "beynəlxalq mafiya" kimi ifadəniz Azərbaycan demokratiyasına qarşı hansısa bir xarici qüvvənin olmasınımı göstərir? Bu bərəkətli ölkədən istədiyi iqtisadi səmərəni götürə bilməmiş qüvvələrmi var?

- Bilirsiniz, hər bir tarixi mərhələnin öz gündəliyi var. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndə ən geridə qalmış ölkə idi. İqtisadiyyat dağılmışdı, iqtisadi böhran, tənəzzül yaşanırdı. Sonra vətəndaş qarşıdurması var idi, vətəndaş müharibəsi gedirdi. Ölkə demək olar ki, parçalanma ərəfəsində idi. Heydər Əliyevin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də o oldu ki, ölkəni bu parçalanmadan qurtardı. Müstəqilliyimizi qorudu, saxladı və Azərbaycanın inkişaf strategiyasının müəllifi oldu.

Baxın, 1995-1996-cı illərdən sonra ölkənin iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı. Azərbaycana 25 milyard dollar sərmayə qoyuldu, neft kəmərləri tikildi, xarici şirkətlər buraya işləməyə gəldi və indi Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkədir. Mən bu barədə rəqəmləri artıq sizə çatdırdım. Heç bir başqa ölkə yoxdur ki, onun iqtisadiyyatı 9 ayda 21 faiz artsın.

Son iki il ərzində Azərbaycanda 300 mindən artıq yeni iş yerləri açılıbdır. Yeni fabriklər, zavodlar açıldı, minimum əmək haqqı üç dəfə qaldırıldı. Bu gün isə Azərbaycanın qarşısında yeni çağırışlar, məsələlər var. Biz ölkəmizi dünya birliyinə daha da sıx inteqrasiya etməliyik. Avropa, Avratlantik strukturlarına inteqrasiya etməliyik. Azərbaycanda vətəndaş cəmiyyətinin möhkəmlənməsi üçün gərək fəal işləyək. Demokratiyanın inkişafı istiqamətində fəal işləyək.

Biz neftlə, qazla zəngin olan, amma demokratik inkişafda bir o qədər uğur qazanmayan bəzi ölkələrin də təcrübəsini öyrənmişik. Görürük ki, harada şəffaflıq yoxdursa, ictimai nəzarət yoxdursa, nə qədər qazı, nefti olsa da, orada ölkə vətəndaşları bu böyük sərvətlərdən tam şəkildə istifadə edə bilməzlər. Bizim amalımız Azərbaycanı müasir dövlətə çevirmək, dünya birliyində həm iqtisadi cəhətdən, həm də siyasi baxımdan möhkəm, zəngin, qüdrətli dövlətə çevirməkdir.

Ancaq bununla yanaşı, Azərbaycan öz coğrafi, strateji vəziyyətinə, təbii sərvətlərinə görə çox cəlbedici ölkədir. Ola bilsin ki, burada bəzi ölkələrin müxtəlif dairələrinin maraqları toqquşur. Ola bilsin, onların öz maraqları var, bizim isə öz maraqlarımız var. Amma bura Azərbaycandır, Azərbaycan xalqının torpağıdır. Mən də bu xalqın Cümhurbaşqanıyam, ölkənin Prezidentiyəm. Mənim üçün ən başlıcası bizim milli maraqlarımızdır. Azərbaycan xalqının normal inkişafı, Azərbaycanın möhkəmlənməsi, bəlkə də, kiminsə xoşuna gəlmir. Belə olan halda, əlbəttə, ixtilaflar yaranır. Xüsusilə seçkilər ərəfəsində buna daha da böyük rəvac verilir, çünki seçkilər bəzi dairələr tərəfindən əlverişli bir məqam hesab olunur. Yəni seçkilər ərəfəsində bəzi dairələrdə "nə etmək olar?" fikirləri doğur. Bu, çox yanlış bir fikirdir. Azərbaycan dövləti kifayət qədər güclüdür. Azərbaycanda sabitlik qorunur və qanunun aliliyi mövcuddur. Hər şey qanun çərçivəsində olmalıdır. Azərbaycanda kim vəziyyəti gərginləşdirmək istəsə, - istər daxili qüvvələr, istərsə də xarici dairələr, - buna müvəffəq olmayacaqlar. Son hadisələr bunu bir daha sübut etdi.

- Siz siyasətinizi ortaya qoyaraq, Azərbaycanın Qərbə, Avropa ilə inteqrasiyasına addım-addım irəlilədiyini söylədiniz. Bilirsiniz ki, Türkiyənin də qarşısına Avropa Birliyinə üzv qəbul olunması üçün demokratikləşmə, hüquqi dövlət olmaqla bağlı bir çox prosedur qoyulmuşdu.

Siz demokratikləşmə ilə bağlı problemin olmaması üçün seçkilərlə əlaqədar hansı yeniliklər etdiniz?

- Bir neçə yenilik oldu. Artıq beynəlxalq müşahidəçilər də qeyd edirlər ki, bu yeniliklər Azərbaycanda demokratiyanın inkişafında çox mühüm rol oynadı. İlk növbədə, Seçki Məcəlləsi yeniləşdi, ona yeni, mütərəqqi maddələr daxil edildi. May ayında və bir neçə gün bundan əvvəl, oktyabr ayında mənim tərəfimdən iki Sərəncam imzalanmışdır, Azərbaycanda seçki praktikasının təkmilləşdirilməsinə dair çox mühüm qərarlar verilmişdir.

Azərbaycanda parlament seçkilərində 2 mindən artıq deputatlığa namizəd qeydiyyatdan keçdi. Müqayisə üçün deyə bilərəm ki, 2000-ci ildə parlament seçkilərində 400 namizəd vardı. Yəni 2 min adamın seçkilərə qatılması özlüyündə göstərir ki, insanlarda seçkilərin ədalətli keçiriləcəyinə inam var. Təbliğat kampaniyası da çox uğurla gedir. Dövlət televiziyasında, İctimai Televiziyada və özəl kanallarda bütün namizədlər öz təbliğatlarını aparırlar və heç bir məhdudiyyət qoyulmur. Yəni bu da bir yenilikdir. Azərbaycanın bütün bölgələrində namizədlər seçicilərlə sərbəst şəkildə görüşlər keçirirlər.

Azərbaycanda ilk dəfə olaraq, seçkilərdə exit-pol keçiriləcəkdir və bu da bizim üçün yenilikdir. Biz buna razılıq verdik ki, seçkilərin demokratik şəkildə keçiriləcəyinə heç kimdə şübhə olmasın. 1500 xarici müşahidəçi gələcək və minlərlə yerli müşahidəçi, - onlar bütün siyasi partiyaları təmsil edirlər, - seçkiləri müşahidə edəcəkdir. Azərbaycanda 4500-dən çox seçki məntəqəsi var. Yəni minlərlə müşahidəçinin olması seçkilərin gedişinə tamamilə nəzarət etməyə imkan verəcəkdir.

Bu yaxınlarda yeni bir qərar qəbul edildi. Seçkilər günü seçicilərin barmaqlarının görünməyən mürəkkəblə işarələnməsi məsələsi də öz həllini tapdı. Bizim niyyətimiz çox səmimidir. Görülən tədbirlər də onu göstərir ki, demokratik seçkilərin keçirilməsində, ilk növbədə, iqtidar maraqlıdır. İndi seçkiləri şübhə altına ala biləcək heç bir amil yoxdur. Mən ümid edirəm ki, seçkilər günü proses pozulmayacaq və ədalətli seçkilər keçiriləcəkdir.

Azərbaycanda parlament seçkiləri hakimiyyət məsələsini həll etmir. Azərbaycan Prezident respublikasıdır. Burada hakimiyyət məsələsi prezident seçkilərində həll olunur. Prezident seçilir, hökumət formalaşır və ölkənin siyasi xətti müəyyənləşir. Parlament seçkilərinin Azərbaycanın siyasi xəttinin müəyyənləşməsində böyük əhəmiyyəti yoxdur. Ancaq görün, bu parlament seçkilərinə nə qədər böyük maraq var? Bu da təbiidir. Çünki Azərbaycanın normal demokratik inkişafı həm bizə lazımdır, həm bizim dostlarımıza lazımdır, həm də Avropaya və bizim digər müttəfiqlərimizə lazımdır. Ona görə əlimizdən gələni etmişik və edirik ki, seçkilər demokratik keçirilsin, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapsın.

- Hörmətli Prezident, son qərarların Qərb tərəfindən dəstəkləndiyi açıq-aydın bildirilir. Sizin iqtidarın ABŞ, Avropa, ümumən Qərb dünyası ilə əlaqələri necədir?

- Bizim əlaqələrimiz çox yaxşıdır. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Həm Avropa Birliyi, Avropa Şurası ilə, həm də Amerika Birləşmiş Ştatları ilə bizim bütün sahələrdə əlaqələrimiz çox yüksək səviyyədədir. Biz həm iqtisadi sahədə əməkdaşlıq edirik, enerji sahəsində, təhlükəsizlik məsələlərində əməkdaşlıq edirik, Azərbaycan antiterror koalisiyasında iştirak edir, həm də siyasi proseslərdə, demokratiyanın inkişafı istiqamətində bizim münasibətlərimiz çox yüksək səviyyədədir və bundan çox razıyıq. Ancaq qeyd etmək istəyirəm ki, bizim siyasətimizin əsas mənbəyi Azərbaycan xalqıdır. Prezident kimi mən seçilən gündən indiyə qədər, bu iki il ərzində hər bir addımımı yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarının təmin olunması üçün atmışam.

Azərbaycan müstəqil və gündən-günə güclənən, möhkəmlənən dövlətdir. Biz normal, qarşılıqlı hörmət əsasında qurulan əlaqələrin tərəfdarıyıq. Azərbaycan tərəfdaşdır, dostdur və bizim münasibətlərimiz yalnız bu prinsiplər - qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur.

- Azərbaycan Kipr türklərinə qarşı blokadanın aradan qaldırılması istiqamətində çox önəmli bir addım atdı. Bu yöndə yeni addımlar atacaqsınızmı və bu sahədə Sizə müxtəlif beynəlxalq təzyiqlər olurmu?

- Bilirsiniz, biz istəyirik ki, hər şey ədalətlə həll olunsun. Hamımız yaxşı xatırlayırıq ki, Kiprdə keçirilən referendumda Kipr türkləri ölkənin birləşməsinə səs verdilər, o biri tərəf isə əksinə. Belə olan halda, Birləşmiş Millətlər Təşkilatı və digər təşkilatlar tərəfindən təklif irəli sürüldü ki, bu təcridə son qoyulmalıdır. Əslində, belə də olmalıdır. Nə üçün xoş niyyət ifadə edən tərəf cəzalandırılmalıdır? Bu, ədalətli deyil.

Bu addımı kim atmalı idi?

Əlbəttə, Azərbaycan - Türkiyə üçün ən yaxın olan ölkə bu addımı atmalı idi. Mən də bunu vəd etmişdim və etdim. İndi çox önəmlidir ki, ilk növbədə, başqa türkdilli dövlətlər, ondan sonra İslam Konfransı Təşkilatının üzvləri buna bənzər addımlar atsın.

O ki qaldı təzyiqlərə, elə məsələlər var ki, gərək bütün təzyiqlərə dözəsən. Elə məsələlər var ki, təzyiqlərə baxmayaraq, gərək öz sözünü deyəsən. Ən çətin anlarda biz həmişə Türkiyənin dəstəyini hiss etmişik və hiss edirik. Azərbaycan müstəqilliyini əldə edəndə bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu gün ölkələrimiz arasında əlaqələr ən yüksək səviyyədədir. Mən bir daha demək istəyirəm ki, dünyada başqa belə ölkələr yoxdur ki, onların həm siyasətçilər, həm dövlətlər, həm də adi vətəndaşlar arasında bu cür münasibətləri olsun. Azərbaycan sizin vətəninizdir, Türkiyə də bizim vətənimizdir. Ona görə Azərbaycan bunu etməli idi və etdi. İndi növbə başqa ölkələrin və beynəlxalq təşkilatlarındır.

- Siz Süleyman Dəmirəllə görüşürsünüzmü?

- Bəli, bəli, əlbəttə. Mən keçən il, 2004-cü ildə Türkiyədə rəsmi səfərdə olarkən hörmətli 9-cu Prezident Süleyman Dəmirəllə görüşdüm. Telefonla əlaqə saxlayırıq. Bilirsiniz ki, mənim atam Heydər Əliyev və Süleyman Dəmirəl çox yaxın dost idilər və biz Türkiyədə dəfələrlə bir yerdə olmuşuq. Bizim bu münasibətlərimiz saxlanılır. Xatırlayıram ki, hörmətli Süleyman bəy Cümhurbaşqanlığı dövrünü bitirəndən sonra yenə də Heydər Əliyevlə daim telefonla əlaqə saxlayırdı. Yəni, bu, çox belə səmimi dostluq münasibətləri idi.

Bizim möhtərəm Prezidentə çox böyük hörmətimiz var və çox sıx-sıx əlaqə saxlayırıq, telefonla danışırıq. Bu, lazımdır. Bu əlaqələr həm bizə lazımdır, həm də ölkələrimizə lazımdır. Ölkələrimizin daha da sıx olması üçün çox önəmlidir.

- Cənab Prezident, vaqonlarda yaşayan köçkünlərin daha gözəl binalarda yaşamasını diləyirik.

- Biz onu edirik. Mən Prezident seçkiləri ərəfəsində proqramla çıxış etdim. Bu proqramda bütün çadır şəhərciklərinin ləğv olunması da öz yerini tapmışdır. Biz indi Ağdam rayonunun ərazisində böyük inşaat işləri aparırıq. Orada təxminən 4 minə qədər ailə yaşayacaqdır. Biz Azərbaycan Dövlət Neft Fondundan vəsait ayırdıq və dedim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Biz onların hamısını ləğv edirik və yeni evlər tikilir. Bunlar üç-dördotaqlı evlərdir, öz həyətyanı sahəsi var, bütün lazımi avadanlıq, infrastruktur var, işıq, su, yol, rabitə, məktəb, xəstəxana – hamısı komplcks şə-

kildə var. Biz bu məqsədlərə yüz milyonlarla dollar vəsait ayırmışıq ki, bu insanlar müvəqqəti olaraq normal şəraitlə təmin olunsunlar. Ancaq əlbəttə, bu, böyük vəsait tələb edir. Azərbaycanda 1 milyon adam qaçqın-köçkün həyatı yaşayır. Biz çalışırıq ki, onların həyatını yaxşılaşdıraq.

- Cənab Prezident, beynəlxalq aləm qaçqınlar məsələsinə yetərincə diqqət göstərirmi? Yardım göstərirsə, həcmi nə qədərdir?

- Bilirsiniz, əlbəttə, göstərir, amma bu diqqət azalır. Bu münaqişə 15 ildən artıqdır ki, davam edir. Beynəlxalq ictimai rəy daha çox yeni münaqişələrə yönəlibdir. Müharibə gedən, yaxud yeni fəlakət baş verən yerə daha çox diqqət göstərilir. Mən yenə də deyirəm, mövqeyim belədir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq. O dövr bitdi. Biz müstəqilliyimizi əldə edəndə bəziləri düşünürdü ki, Azərbaycana kimsə gəlib yardım etməlidir. Biz dünyaya bu baxışlarla yanaşırdıq. Hesab edirdik ki, bizim haqlı olmağımız dünya tərəfindən dərhal qəbul edilməlidir və təcavüzkar Ermənistan cəzalandırılacaqdır. Ümid edirdik ki, kimsə gəlib bizə yardım edəcək, kimsə bizim üçün nəsə tikəcək, nəsə edəcəkdir. Artıq bu, yoxdur və lazım da deyil. Biz gərək özümüzə güvənək, öz imkanlarımız var, öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycanda insanlar çox savadlıdır, savadlılığın səviyyəsi demək olar, 100 faizdir. İqtisadi imkanlar var və biz bu problemi həll edəcəyik. Ermənistanla məsələni özümüz həll edəcəyik.

Mən indi hərbi büdcəni kəskin şəkildə artırıram. Azərbaycanda hərbi xərclər 2004-cü ildə 170 milyon dollar idi, 2005-ci ildə 300 milyon dollardır. 2006-cı ildə 600 milyon dollar olacaqdır. Demişəm ki, bizim hərbi xərclərimiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və buna da nail olacağıq. Özümüz güclü olmalıyıq. Güclü olsaq, hər şeyi həll edərik.

AZƏRBAYCANIN NÜMAYƏNDƏ HEYƏTİ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ KİŞİNYOVDA KEÇİRİLMİŞ 13-CÜ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

Oktyabrın 28-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) Kişinyovda 13-cü toplantısı keçirilmişdir. Toplantıda Azərbaycan Respublikası xarici işlər nazirinin müavini M.Məmmədquliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Toplantıda təşkilatın üzv dövlətləri nümayəndə heyətlərinin rəhbərlərinin, baş katibinin, habelə QDİƏT-in əlaqədar qurumlarının başçılarının, QDİƏT-də müşahidəçi statusuna malik dövlətlərin nümayəndələrinin çıxışları dinlənilmiş, QDİƏT-in işinin səmərəliliyinin artırılması istiqamətində fikirlər və təkliflər səslənmiş, təşkilatın fəaliyyətinin perspektivləri və qarşıya qoyulmuş məqsədlərə nail olunması istiqamətində müzakirələr aparılmışdır. İclasda ABŞ-a, Belarusa, Çexiyaya və Xorvatiyaya QDİƏT-də müşahidəçi statusu verilmişdir.

Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxışında Avropa İttifaqı ilə QDİƏT və quruma üzvü olan bir sıra dövlətlər arasında əməkdaşlıq əlaqələrinin inkişafından razılığını bildirmiş, nəqliyyat, enerji və s. mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsindən, təşkilatın dünyada gedən çevik dəyişikliklərlə ayaqlaşmasının vacibliyin-

dən, mövcud potensial hesabına güclənməsindən, QDİƏT-in müvafiq qurumlarının fəaliyyətinin əlaqələndirilməsinin vacibliyindən danışmış, təşkilat çərçivəsində səsvermə sisteminə və qərar qəbuletmə mexanizminə mütərəqqi dəyişikliklərin edilməsi məqsədi ilə onlara yenidən baxılmasının vacibliyini diqqətə çatdırmışdır.

Toplantının sonunda QDİƏT XİNŞ-in 13-cü toplantısının hesabatı, qətnamələr, qərarlar və tövsiyələr, habelə üzv dövlətlərin xarici işlər nazirlərinin Avropa İttifaqı ilə əməkdaşlığın gücləndirilməsi haqqında Bəyanatı qəbul edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında AŞPA-nın Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsi sədrinin müavini Eduard Lintneri qəbul etmişdir.

Dövlətimizin başçısı Strasburqda son dəfə cənab Eduard Lintner ilə keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Azərbaycanda cəmiyyətin demokratikləşməsi istiqamətində böyük işlər görüldüyünü qeyd edən Prezident İlham Əliyev bir çox mühüm qanunların qəbul edildiyini, ölkəmizin bir sıra böyük əhəmiyyətli beynəlxalq konvensiyalara qoşulduğunu vurğuladı. Demokratikləşmənin çox zəruri bir proses olduğunu bildirən dövlətimizin başçısı ölkəmizdə bu sahədə lazımi işlər görüldüyünü nəzərə çarpdırdı.

Ölkəmizin Avropa Şurası ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirdiyini bildirdi. Dövlətimizin başçısı qarşıdan gələn parlament seçkilərinin azad və ədalətli keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradıldığını vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyəti dövrünü xatırladan cənab Eduard Lintner həmin dövrdə AŞPA-da cənab İlham Əliyevlə birgə çalışmalarından çox böyük məmnunluq duyduqlarını söylədi. Qonaq dedi: Cənab Prezident, ölkənizdə demokratik seçkilərin keçirilməsi, ümumiyyətlə, demokratikləşmə sahəsində Azərbaycanın göstərdiyi səyləri və nail olduğu uğurları görməkdən çox məmnunuq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN MÜŞAHİDƏÇİLƏR MİSSİYASININ RƏHBƏRİ, MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİB VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Prezident sarayında MDB-nin müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir.

Söhbət zamanı noyabrın 6-da Azərbaycanda parlament seçkilərinin azad, şəffaf, demokratik şəraitdə başa çatması ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ, FEDERAL MƏCLİSİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Prezident sarayında Rusiya Federasiyası Federal Məclisi nümayəndə heyətinin rəhbəri, Federal Məclisin Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanı qəbul etmişdir.

Görüşdə Azərbaycanda demokratik, azad, ədalətli şəraitdə başa çatmış parlament seçkiləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN MİLLƏT VƏKİLLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Prezident sarayında parlament seçkilərini müşahidə etmək üçün ölkəmizə səfərə gəlmiş Türkiyə Böyük Millət Məclisinin millət vəkillərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin millət vəkillərindən ibarət böyük nümayəndə heyətinin parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana səfərə gəlməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı ölkəmizdə seçki kampaniyasının yüksək səviyyədə keçirilməsi üçün lazım olan bütün tədbirlərin əvvəlcədən görüldüyünü və seçkilərin normal şəkildə başa çatdığını vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında dostluq əlaqələrinin daim möhkəmləndiyini nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, biz həmişə Türkiyədən dəstək görmüşük və bu gün də bunu hiss edirik.

Noyabrın 6-da keçirilmiş ədalətli, azad seçkilərin Azərbaycanın demokratiya tarixində mühüm yer tutacağını və ölkəmizin gələcək inkişafına böyük fayda gətirəcəyinə ümid etdiklərini söyləyən millət vəkilləri bildirdilər ki, Azərbaycanda seçkilər həqiqətən dünya standartları baxımından, namizədlərin səslərinin sayılması, bütün nəticələrin hesablanması baxımından olduqca yüksək səviyyədə başa çatmışdır. Dünyanın heç bir ölkəsində seçkilərə Azərbaycandakı kimi belə böyük diqqət yetirilmir, biz bu qədər xarici müşahidəçinin iştirak etdiyi seçkilər görməmişik. Biz həmişə deyirik ki, həm demokratiya, həm də iqtisadiyyat birlikdə yüksəlməlidir, Azərbaycan bunun gözəl bir nümunəsidir.

Azərbaycanda keçirilmiş seçkiləri xarici ölkələrdən gəlmiş 1500-dən çox müşahidəçinin, habelə 17 mindən çox yerli müşahidəçinin izlədiyini nəzərə çarpdıran dövlətimizin başçısı builki seçkilərdə bir sıra yeniliklərin, o cümlədən barmaqların mürəkkəblə işarələnməsinin, exit-pollun tətbiq olunmasını mütərəqqi addım kimi dəyərləndirdi.

Seçkilərdə 125 yer uğrunda 1500-dən çox namizədin mübarizə apardığını və bunun misli görünməmiş rekord göstərici olduğunu vurğulayan Prezident İlham Əliyev ümid etdiyini bildirdi ki, normal şəraitdə keçmiş seçkilər Azərbaycanın gələcək inkişafında böyük rol oynayacaq, yeni seçilmiş parlament çox səmərəli işləyəcək, mühüm qanunlar qəbul ediləcək və Azərbaycanın demokratiya yolu ilə sürətli inkişafı təmin olunacaqdır.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan və Türkiyə parlament dostluq qrupları arasındakı münasibətlər bundan sonra daha da möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN STRATEJİ ARAŞDIRMALAR İNSTİTUTUNUN DİREKTORU DOKTOR COZEF BODANSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində yerləşən Strateji Araşdırmalar İnstitutunun direktoru doktor Cozef Bodanskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaq dedi ki, Azərbaycanda demokratiya sahəsində əldə olunmuş nailiyyətlər, seçkilərin təşkili səviyyəsi, şəffaflıq, qanuna əməl olunması, açıqlıq və beynəlxalq müşahidəçilərə hökumət tərəfindən göstərilən kömək bizdə çox böyük müsbət təəssürat yaratdı. Cənab Prezident, seçkilərin olduqca gözəl təşkilinə görə Sizə təşəkkür edirik.

Bu seçkilərin Azərbaycanın gələcək inkişafı üçün əhəmiyyətini qeyd edən dövlətimizin başçısı seçkilərdə şəffaflıq və demokratiyanın tam təmin olunması üçün ölkəmizdə hər cür şəraitin yaradıldığını vurğuladı. Prezident İlham Əliyev bu seçki prosesində bir sıra yeniliklərin tətbiq olunduğnu da nəzərə çarpdırdı.

AVROPA İTTİFAQI PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANDA SEÇKİLƏRİN NORMAL KEÇDİYİNİ BİLDİRMİŞLƏR

Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 7-də Avropa İttifaqı Parlamentinin xanım Mariya İşler Beguinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov Avropa İttifaqı Parlamenti üzvlərinin Azərbaycanda keçirilmiş parlament seçkilərində müşahidəçi qismində iştirak etdiklərinə görə qonaqlara minnətdarlığını bildirmişdir.

Azərbaycanın müxtəlif bölgələrində keçirilmiş parlament seçkilərini müşahidə etdiklərinə toxunan qonaqlar, bir sıra məntəqələrdə seçkilərin nəticələrinə təsir etməyən xırda nöqsanların olduğunu diqqətə çatdıraraq, ümumilikdə seçkilərin normal keçdiyini vurğulamışlar. Xanım Mariya İşler Beguin təkrar səsvermənin qarşısının alınması məqsədi ilə seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi qərarının gec qəbul olunmasına baxmayaraq, bu qərarı alqışladığını bildirmişdir.

Qonaqların dedikləri ilə şərik olduğunu söyləyən nazir E.Məmmədyarov seçkilərin azad və şəffaf keçirildiyini diqqətə çatdırmış və bunun ölkəmizin gələcək inkişafı üçün böyük əhəmiyyət daşıdığını xüsusi vurğulamışdır. Azərbaycanın demokratik prinsiplərlə inkişaf etdiyini bildirən nazir, seçkilərdən sonra aidiyyəti orqanlara bir sıra şikayətlərin daxil olacağını təbii adlandıraraq, həmin şikayətlərə qanun çərçivəsində ədalətli baxılacağına şübhə etmədiyini bildirmişdir.

Daha sonra nazir Elmar Məmmədyarov ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinə böyük əhəmiyyət verdiyini vurğulamış, Azərbaycanın Avropa institutlarına inteqrasiya olunmasına ölkəmizin sadiq qaldığını diqqətə çatdırmış və bu əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əmin olduğunu söyləmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı görülən işlərdən danışan nazir, bu barədə qonaqlara ətraflı məlumat vermişdir. Diqqətə çatdırılmışdır ki, Ermənistanın Azərbaycana təcavüzü təsbit olunmuş beynəlxalq norma və prinsiplər əsasında sülh yolu ilə beynəlxalq birliyin birgə səyləri nəticəsində tezliklə aradan qaldırılmalıdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ MÜŞAHİDƏÇİLƏR QRUPUNUN RƏHBƏRİ ƏHƏD QƏZAİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında Azərbaycanda keçirilən parlament seçkilərində İran İslam Respublikasından müşahidəçilər qrupunun rəhbəri Əhəd Qəzaini qəbul etmişdir.

Dövlətimizin başçısı parlament seçkilərinin ölkəmizin siyasi həyatında böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq, seçkilər zamanı xeyli sayda beynəlxalq müşahidəçilərin iştirakını təqdirəlayiq hal kimi qiymətləndirmişdir. O, seçkilərin demokratik və ədalətli şəkildə keçirilməsi üçün hər cür şəraitin təmin olduğunu bildirərək, seçkilərin nəticələrinin Azərbaycan xalqının iradəsini tam əks etdirdiyini vurğulamışdır.

Qonaq ölkəsinin müşahidəçilərinin seçkilərin çox demokratik şəkildə keçirilməsinin şahidi olduğunu diqqətə çatdırmışdır. O, seçkilərin uğurla başa çatması münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırmışdır. Azərbaycanın böyük inkişaf yolunda olduğunu qeyd edən qonaq xalqımıza firavanlıq arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİ MÜŞAHİDƏÇİLİYİ MİSSİYASININ RƏHBƏRİ GERT ARENSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Prezident sarayında ATƏT-in Seçki Müşahidəçiliyi Missiyasının rəhbəri Gert Arensi qəbul etmişdir.

Görüşdə Azərbaycanda parlament seçkilərinin nəticələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN "HÜQUQİ DÖVLƏTİN QURULMASINDA KONSTİTUSİYANIN ROLU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 11-də Prezident sarayında Bakıda keçirilən və Azərbaycan Respublikası Konstitusiyasının 10 illiyinə həsr olunmuş "Hüquqi

dövlətin qurulmasında konstitusiyanın rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarının bir qrupunu qəbul etmişdir.

Konfrans iştirakçılarını xüsusi ehtiramla salamlayan Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 10 illiyinin qeyd olunması münasibətilə ölkəmizə gələn qonaqlara ən xoş arzularını yetirdi, beynəlxalq konfransın təcrübə və fikir mübadiləsinə, sıx və səmərəli əməkdaşlığa hərtərəfli imkanlar açdığını vurğuladı. Müstəqilliyinin ilk illərində sovet dövründən qalma - 1977-ci ildə qəbul edilmiş Konstitusiya ilə fəaliyyət göstərən ölkəmizin 1995-ci ildə yeni Konstitusiyasının qəbul olunduğunu xatırladan dövlətimizin başçısı 2002-ci ildə ona əlavə və dəyişikliklərin edildiyini, bunun ölkəmizin beynəlxalq birliyə hərtərəfli inteqrasiyası ilə bağlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadiyyatın dinamik inkişafından və islahatların uğurla həyata keçirilməsindən konkret faktlarla bəhs edərək dedi ki, cari ilin 10 ayında ümumi daxili məhsul 22 faiz, sənaye istehsalı 28 faiz, əhalinin real gəlirləri 20 faiz artmış, son iki il ərzində 300 mindən çox yeni iş yeri açılmışdır. Sosial-iqtisadi inkişafın vüsət alması ölkəmizdə demokratiyanın daha dərinləşməsinə əsaslı zəmin yaradır. Kasıb ölkələrdə, əhalinin sosial müdafiəsinin zəif olduğu dövlətlərdə demokratiyanın inkişaf etdirilməsinin mümkünsüzlüyünü vurğulayan dövlətimizin başçısı, eyni zamanda bildirdi ki, hərtərəfli demokratiyanın olması kompleks iqtisadi islahatların uğurla reallaşdırılmasına geniş imkanlar açır.

Prezident İlham Əliyev bu baxımdan ölkəmizdə demokratik proseslərin daha da inkişafına, Azərbaycanın müxtəlif beynəlxalq konvensiyalara qoşulmasına, insan hüquq və azadlıqlarının qorunmasına, bazar iqtisadiyyatının formalaşdırılmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirdi. Dövlətimizin başçısı Bakıda keçirilən konfransın ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə təkan verəcəyinə ümidvar olduğunu vurğuladı.

Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkin həmkarları adından dövlətimizin başçısına dərin ehtiramlarını və ən xoş arzularını yetirdi, Azərbaycan Konstitusiyasının müəllifi, xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiklərini bildirdi. Qonaq dedi ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu ölkənin bütün sahələrdə uğurlarına hərtərəfli zəmin yaratmışdır.

Valeri Zorkin Bakıda keçirilən konfransda iştirak edən dövlətlərin konstitusiya məhkəmələrinin səmərəli əməkdaşlığının indiyədək həyata keçirilmiş işlərin daha da möhkəmləndirilməsinə xidmət etdiyini bildirdi, konfransın ölkələrimizin qazandıqları qabaqcıl təcrübəni bölüşməyə və zəngin beynəlxalq təcrübədən yetərincə bəhrələnməyə geniş imkanlar yaradacağını vurğuladı. O, Bakıya əvvəlki səfərlərindən ötən müddətdə böyük dəyişikliklərin, köklü inkişafın, Azərbaycan paytaxtının tanınmaz dərəcədə dəyişdiyinin şahidi olduqlarını bildirdi, həmkarları adından Azərbaycan Prezidentinə yeni-yeni uğurlar arzuladı.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafı üçün səylərin bundan sonra da gücləndiriləcəyini bildirdi, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun statistik göstəricilərinin və proqnozlarının da ölkəmizin düzgün yolda olduğunu təsdiqlədiyini vurğuladı.

Prezident İlham Əliyev hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu istiqamətində indiyədək həyata keçirilmiş islahatların daha da dərinləşdiriləcəyini diqqətə çatdırdı, bu baxımdan Konstitusiya Məhkəməsinin mühüm rolunu qeyd etdi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev dövlətimizin başçısına Konstitusiyamızın 10 illiyi münasibətilə ölkəmizin Konstitusiya Məhkəməsi və konfrans iştirakçıları adından xatirə hədiyyəsini təqdim etdi.

Prezident İlham Əliyev konfrans iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "İHLAS" XƏBƏR AGENTLİYİNİN VƏ "TÜRKİYƏ" QƏZETİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Prezident sarayında Türkiyənin "İhlas" Xəbər Agentliyinin və "Türkiyə" qəzetinin müxbirlərinə müsahibə vermişdir.

Sual: Hörmətli Cümhurbaşqanı, gərgin iş rejiminizdə vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə əvvəlcədən təşəkkür edirik.

Bütün dünyanın diqqəti noyabrın 6-da keçirilmiş parlament seçkilərinə yönəlmişdir. Siz seçkidən əvvəl gözlənilənlərin seçkidən sonra şahidi oldunuzmu? Ümumiyyətlə, seçkilərin nəticələrini necə dəyərləndirirsiniz?

Cavab: Biz bu seçkilərə çox böyük önəm verirdik. Çünki Azərbaycanın gələcək demokratik inkişafı üçün seçkilərin çox böyük əhəmiyyəti vardır. Seçkilərə qədər müddət çox uğurlu keçmişdir. Seçki kampaniyası çox sərbəst, azad şəkildə aparılmışdır. 2000-dən çox namizəd qeydiyyata alınmışdı. Onlardan haradasa, 1500-dən çoxu bu yarışda axıra qədər iştirak etdi. Bütün namizədlərə bərabər şərait yaradılmışdı. Bir sözlə, normal seçkilərin keçirilməsi üçün bütün şərait yaradılmışdı. Bildiyiniz kimi, son qərarın, barmaqların görünməyən mürəkkəblə işarələnməsinin də məqsədi məhz bunda idi ki, burada saxtakarlıq olmasın, seçkilər düzgün və şəffaf keçirilsin. Belə olan halda normal seçkilərin keçirilməsi üçün bütün şərait var idi.

Seçkilər günü də normal şəraitdə, sakit keçdi. Seçkilər prosesi çox şəffaf idi və təbii ki, nəticələr məni çox sevindirir. Çünki bizim partiyamız, Yeni Azərbaycan Partiyası böyük qələbə qazandı. Bu qələbə deməyə əsas verir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və bəyənilir. Bu, bizim üçün sürpriz olmadı. Çünki seçkilərə qədər keçirilmiş bütün rəy sorğuları, o cümlədən tanınmış beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları göstərirdi ki, iqtidar insanların dəstəyinə malikdir. Seçkilərin nəticələri rəy sorğularının nəticələri ilə təxminən üst-üstə düşür.

Bu seçkilərdə bir yenilik də ondan ibarət idi ki, exit-poll, yəni seçkilərdən sonra rəy sorğusu keçirildi. Exit-pollu burada bir neçə şirkət, həm yerli şirkətlər, eyni zamanda, xaricdən gələn şirkətlər keçirdi. Bir şirkətə, demək olar ki, bütün siyasi spektrin inamı çox yüksək dərəcədə idi. O da Amerika hökuməti tərəfindən müsabiqə yolu ilə seçilmiş "PA Consaltinq" şirkəti idi.

Bu şirkətin keçirdiyi rəy sorğuları, exit-pollar rəsmi nəticələrlə, demək olar ki, 90 faiz

üst-üstə düşür. Haradasa, 5 faiz hallarda isə seçkilərin rəsmi nəticələr ilə exit-pollun nəticələri arasında təxminən 3-4 faiz fərq var. Bu da deməyə əsas verir ki, burada böyük fərq olmayıbdır. Yalnız üç faiz hallarda exit-pollun nəticələri və rəsmi nəticələr arasında fərq böyükdür. İndi orada gedən proseslər dəyərləndirilir. Bu exit-polların keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan xalqının iradəsi seçkilərdə ifadə olundu və xalq istədiyi namizədlərə səs verdi.

Mən seçkilərin keçirilməsindən, seçkilərə qədər işlərin normal getməsi üçün yaradılan şəraitdən çox məmnunam. Əminəm ki, bu seçkilər Azərbaycanı gələcəkdə demokratik ölkəyə çevirəcəkdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, açıq cəmiyyətin formalaşması, Azərbaycanda sosial ədalətin təmin olunması bundan sonra daha da sürətlə müşahidə olunacaqdır.

Sual: Cənab Prezident, əhalinin seçkilərdə iştirakı aşağı səviyyədə, 46,8 faiz idi. Sizcə, Azərbaycan xalqı seçkilərə getməkdə nə üçün tərəddüd etdi?

Cavab: Bilirsiniz, əlbəttə, bunun müxtəlif səbəbləri ola bilər. Ümid edirəm ki, bu işlərlə məşğul olan, yəni sosial araşdırmalarla məşğul olan mütəxəssislər, təşkilatlar, institutlar bunu araşdıracaqlar. Yəni bu, sosial vəziyyətin bir təzahürüdür. Bu gün bunu demək bir qədər tezdir. Yəni bunun səbəbini demək çətindir. Gərək bu, hərtərəfli öyrənilsin və səbəb araşdırılsın. Ancaq digər tərəfdən, biz onu da bilirik ki, Azərbaycanda siyasi partiyaların üzvlərinin sayı ölkə əhalisi üzrə yüzdə üçdür. İnsanlarımızın cəmi 3 faizi siyasi partiyaların üzvüdür. Yəni bu o deməkdir ki, Azərbaycanda cəmiyyət siyasiləşməyibdir. Cəmiyyətin və insanların maraqları tam başqadır. Azərbaycan cəmiyyəti daha çox başqa maraqlarla yaşayır, başqa məramla yaşayır. Bu onu göstərir ki, siyasi proseslərə o qədər də böyük maraq yoxdur. Mən deyə bilmərəm ki, bu, çox mənfi bir haldır. Yəni mən hesab etmirəm ki, siyasiləşmiş cəmiyyət kamil cəmiyyətdir. Əgər insanlar normal yaşayırlarsa, əgər insanları indiki vəziyyət qane edirsə, onlar bəzi hallarda siyasi fəaliyyətlə məşğul olmurlar və siyasi proseslərdə iştirak etmirlər. Ona görə mən deyə bilmərəm ki, bu hansısa mənfi bir əlamətdir. Xeyr.

Azərbaycan cəmiyyəti inkişafdadır. Azərbaycanda çoxlu sosial-iqtisadi problemlər öz həllini tapır, insanlar işlə təmin olunur. Son iki il ərzində 311 min yeni iş yeri açılıbdır. Bu ilin 10 ayında iqtisadiyyat 22 faiz artıbdır. Bu, dünyada misli görünməmiş bir göstəricidir. Sənaye istehsalı 28 faiz artıbdır. İnsanlar daha çox real işlərlə, real problemlərin həlli ilə məşğuldurlar. Siyasi proseslərə o qədər də böyük maraq yoxdur.

Sual: Cənab Prezident, müxalifət seçkilərin nəticəsinə etiraz edir və nəticələri tanımayacağını açıqlayır. Bir sıra beynəlxalq və yerli müşahidəçilər seçkiləri izlədilər. Xaricdən gələn 1500-dən çox müşahidəçi var idi. Onların bir çoxu seçkilərdən sonra mətbuat konfransı keçirərək, seçkilərin şəffaf və demokratik keçdiyini söylədilər. Ancaq ATƏT və Avropadan olan bəzi təşkilatlar seçkilərin beynəlxalq standartlara cavab vermədiyini açıqladı. Bu arada Azərbaycanın Moskvadakı səfiri ATƏT-in və digər təşkilatların Azərbaycana qarşı qərəzli olduqlarını söylədi. Siz bu açıqlamaları necə dəyərləndirirsiniz?

Cavab: Mən Azərbaycanın rəsmi mövqeyini seçkilərdən bir gün sonra ifadə etdim və bəyan etdim ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycanda siyasəti müəyyən edir və dövlət adından söz deməyə səlahiyyətli şəxsdir. Mənim bəyanatımda

açıq-aydın göstərilir ki, ATƏT-in və başqa beynəlxalq müşahidəçilərin rəyi bizim tərəfimizdən öyrəniləcəkdir. Biz bunu təhlil edəcəyik. Orada göstərilən nöqsanlar, qüsurlar əlbəttə ki, ciddi şəkildə araşdırılacaqdır.

Biz beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik, işləyirik. İstər Avropa Şurası olsun, Avropa İttifaqı olsun, ATƏT olsun və istərsə də digər beynəlxalq təşkilatlar olsun. Azərbaycanın siyasəti bu baxımdan dəyişməz olaraq qalır. Biz ölkəmizi gələcəkdə Avropa strukturlarına inteqrasiyada görürük. Biz bu siyasətin tərəfdarıyıq. Prezident kimi mən son iki il ərzində bu siyasəti irəliyə aparıram. Ona görə, ilkin məruzədə göstərilən bütün faktlar araşdırılacaqdır.

Onu da bilməliyik ki, ATƏT tərəfindən təqdim edilmiş bəyanat, sadəcə olaraq, ilkin təəssüratları əks etdirir. Son bəyanat, yəni rəsmi məruzə, haradasa, iki aydan sonra təqdim olunacaqdır. Onda biz görəcəyik. Ondan sonra, son məruzə çıxandan sonra biz öz fikrimizi, münasibətimizi bildirərik və lazım gələrsə, həmin məruzəyə şərhlərimizi də verəcək, təqdim edəcəyik.

O ki qaldı müxalifətin seçkiləri tanımamasına, mən buna heç şübhə də etmirəm. Onların seçkilərdən əvvəl verilmiş bəyanatları bunu göstərir. Onlar bəyan edirdilər ki, əgər qalib gəlsələr, seçkiləri tanıyacaqlar. Ancaq bu, reallığı əks etdirən məqam deyildir. Yenə də rəy sorğularına qayıdıram. Bu gün Azərbaycan Prezidentinin cəmiyyətdə dəstəyi, haradasa, 70-80 faiz arasındadır. Bunu təkcə mən demirəm, bütün beynəlxalq rəy sorğuları təşkilatları bəyan edir. Yeni Azərbaycan Partiyasının reytinqi kifayət qədər yüksəkdir. Əgər seçkilərdən əvvəl və sonra beynəlxalq mətbuata - Amerika və Avropa mətbuatına nəzər salsanız, orada göstərilir ki, Azərbaycan Prezidenti ölkədə çox böyük nüfuza sahibdir. Yeni Azərbaycan Partiyası isə Azərbaycanın aparıcı siyasi qüvvəsidir. Ona görə müxalifətin seçkiləri tanımaması, sadəcə olaraq, öz məğlubiyyətini tanımaması deməkdir. Çünki əgər onlar bunu tanısalar, onda siyasi səhnədən getməlidirlər.

Çünki Prezident və parlament seçkilərini uduzan, 1993-cü ildən bu günə qədər bütün seçkiləri uduzan insanlar siyasətdə qalmamalıdırlar. Onlar öz yerlərini yeni nəslə verməlidirlər. Yeni, gözəl təhsil almış, dünya görüşü olan, müasir dünyanı bilən, dialoqa, konstruktiv əməkdaşlığa hazır olan yeni qüvvələrə verməlidirlər. Ancaq əgər onlar öz məğlubiyyətlərini etiraf etsələr, o zaman istefaya getməlidirlər. O adamlar heç bir zaman heç bir yerdə çalışmamışlar. Sadəcə olaraq, bizdə bir söz var, boşboğazlıqla məşğul olmuşlar, çığırıb-bağırmaqla, qeyri-real vədlər verməklə, insanları çaşdırmaqla, kütləvi iğtişaşlara təhrik etməklə və hər şeyi inkar etməklə məşğul olmuşlar. Biz isə real iş görürük. Bu iş Azərbaycanın dünya birliyində yerinin möhkəmlənməsində özünü büruzə verir, Azərbaycanın iqtisadi inkişafının göstəricilərində özünü büruzə verir, sosial problemlərin həllində özünü göstərir. Son iki il ərzində Azərbaycanda minimum əmək haqqı 3 dəfə qaldırılmışdır. Mən bayaq qeyd etdim, 311 min iş yerinin açılması, iqtisadi inkişaf, sənaye istehsalının inkişafı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin uğurla davam etdirilməsi, bizim bölgədəki rolumuzun artması, Azərbaycanın güclənməsi - bütün bu amillər Azərbaycan iqtidarının xeyrinə işləyir. Təsadüfi deyil ki, Azərbaycan xalqı bizim siyasətimizi dəstəklədi.

Mən çox istərdim ki, Azərbaycanda siyasi mədəniyyət daha da yüksək səviyyədə olsun. Seçkiləri uduzan tərəflər öz məğlubiyyətini etiraf etsinlər, qalib gələnin əlini sıxsınlar.

Ümid edirəm ki, bu, bir vaxt olacaqdır. Ancaq bunu etmək üçün gərək təfəkkür dəyişsin, siyasi mədəniyyət olsun və Azərbaycanın reallıqları hamıya açıq bəlli olsun. Hamı bunu görməlidir və etiraf etməlidir.

Seçkilərə müxtəlif yanaşmalar olubdur. Əlbəttə, onu da bilirik ki, Azərbaycan çox böyük diqqət çəkən bir ölkədir. Bizim coğrafi vəziyyətimiz, coğrafi-siyasi önəmimiz, təbii sərvətlərlə zəngin olmağımız, əlbəttə, Azərbaycanı çox cəlbedici ölkəyə çevirir. Azərbaycanda bəzi hallarda müxtəlif ölkələrin dairələri maraq davasına çıxırlar. Bizim isə məqsədimiz Azərbaycanın milli maraqlarını qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizin milli maraqlarını maksimum dərəcədə müdafiə etməkdir. Ona görə bizə müxtəlif formalarda edilən və ediləcək təzyiqlər bundan sonra da olacaqdır. Biz buna hazır olmalıyıq və mən də buna hazıram. Azərbaycan Respublikasının Prezidenti kimi, Konstitusiyanın təminatçısı kimi mən öz vəzifə borcumu yerinə yetirirəm.

Seçkilər sadəcə, bir prosesdir. Seçkilər hər bir ölkənin demokratik inkişafı üçün çox önəmli bir hadisədir və prosesdir. Mən hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxdı. Azərbaycan xalqı seçkilərdə iştirak etdi, istədiyi namizədə səs verdi, o səslər reallıqda, yəni həyatda öz əksini tapdı və Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapdı. Bununla yanaşı, qüsurlar da oldu, qanun pozuntuları da, qanunsuz müdaxilələr də oldu.

Mən seçkilərdən əvvəl bəyan etmişdim, təkcə sözdə deyil, seçki praktikasının təkmilləşdirilməsinə dair iki Sərəncam imzaladım. Orada bütün məsələlər öz əksini tapmışdır. Hansı məmur mənim Sərəncamımı pozubsa, qanunu pozubsa, o, məsuliyyətə cəlb olunur. Bir neçə yüksək vəzifəli məmur işdən azad olundu. Bir neçə məmur cinayət məsuliyyətinə cəlb olunub, həbs edilibdir. Biz bir daha göstəririk, imkan vermərik ki, Azərbaycanda seçki saxtakarlığı cəzasız qalsın. Kim bu saxtakarlığı edirsə, o, cavabını almalıdır və alacaqdır. Hamı da bilməlidir ki, qanun hamı üçün qanundur. Ancaq bütün bunlarla yanaşı, əlbəttə, qanun pozuntuları, qanunsuz müdaxilələr və saxtakarlıq halları seçkilərin ümumi nəticəsinə təsir göstərmir.

Sual: Müxalifətin seçki kampaniyasına baxdığımız zaman Ukraynadakı və Gürcüstandakı hərəkətlərə bənzər hərəkətlər görürük. Hətta iki gün öncəki mitinqlərində də narıncı rəngli bayraqlar dalğalandırdılar və bu rəngdə çadır quracaqlarından bəhs etdilər. Sizcə belə bir şey ola bilərmi və müxalifətin kənardan maddi cəhətdən dəstəkləndiyini düşünürsünüzmü?

Cavab: Bilirsiniz, bizim iqtidarla müxalifət arasında çoxlu fərqli məqamlar var. Mən bunların hamısını sadalamaq istəmirəm, vaxt çox aparar. Amma bu seçkilərə gəldikdə, bir fərqli məqam da ondan ibarətdir ki, bizim müxalifət həmişə kiməsə oxşamaq istəyir, kiminsə təcrübəsini yamsılamaq istəyir, kiminsə arxasınca getmək istəyir və haradansa dəstək, yardım istəyir. Biz isə açıq hərəkət edirik, öz siyasətimizi aparırıq. Heç kimin dalınca getmirik, heç kimə oxşamaq istəmirik, heç kimin Azərbaycan üçün məqbul olmayan və bizim mentalitetimizə zidd olan təcrübəsini tətbiq etmək istəmirik. Bizim siyasətimiz Azərbaycan xalqının iradəsinə, onun maraqlarına əsaslanır. Fərq bundan ibarətdir.

O ki qaldı narıncı bayraqların meydana gətirilməsinə, əlbəttə, bunun heç bir əhəmiyyəti yoxdur. Bir neçə ay bundan əvvəl müxalifət çox böyük vəsait ayıraraq, Azərbaycana na-

rıncı köynəklər gətirdi və onları geyindilər, iki dəfə o köynəklərlə nümayiş etdilər. Ancaq fikirləşmədilər ki, seçkilər noyabr ayında keçiriləcək və noyabr ayında köynəklə küçəyə çıxmaq mümkün deyildir. Hətta onların necə deyərlər, heç olmasa düşüncəsi çatmadı ki, bu köynəklə indi küçəyə çıxmaq mümkün deyil, havalar soyuq keçir. Müxalifətin bütün dövrlərdə mitinqlərə yığdığı adamların sayı eynidir, nə artır, nə azalır. Bəlkə də, son zamanlar bir az azalır. Çünki onların bütün maliyyə məsələlərini həll edən rüşvətxor məmurlar həbs olundu. Onları qidalandıran, xalqdan oğurlanmış o çirkli pulları müxalifətə xərcləyən rüşvətxor məmurlar artıq belə imkana malik deyillər.

Xaricdən gələn pullar da var, biz onu da bilirik. Amma onlar böyük əhəmiyyət kəsb etmir. Hansısa xarici dairələrdən gələn dəstək Azərbaycanda heç nəyi həll etmir və müxalifətin əsas problemi ondan ibarətdir ki, o, hansısa bir yardıma arxalanmaq istəyir. Kimdənsə, nəsə umur, kimdənsə, nəsə istəyir. Kiməsə yalvarır, xahiş edir. Amma başa düşmür ki, ona yardım edən, onun qanunsuz hərəkətlərinə dəstək verən qrup sabah gəlib ondan haqq-hesab soracaqdır. Sabah gəlib deyəcək ki, mən sənə yardım etdim, indi sən gəl, Azərbaycanda xalqın yox, mənim maraqlarımı müdafiə et! Xalqı yox, məni düşün!

Azərbaycan iqtidarı müstəqil siyasət aparır. Bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının yaxşı yaşamasına, sabit şəkildə, sülh şəraitində yaşamasına yönəldilir. Ona görə Azərbaycan güclü dövlətdir. Biz dövlətçiliyi möhkəmləndiririk. Yenə də deyirəm, bizim siyasətimiz, bütün addımlarımız xalqın gələcəyinə, bu gününə, onun rifah halının yaxşılaşmasına yönəldilibdir. Ona görə xaricdən, yaxud hansısa başqa yerdən müxalifətə çirkli pullar verilsə, onun heç bir əhəmiyyəti yoxdur. O pulları verən tərəflər düşünməlidirlər ki, bu pullar havaya sovrulur.

Sual: Gələcəkdə belə bir ehtimal ola bilərmi? Yəni Ukraynada və Gürcüstandakı kimi ola bilərmi?

Cavab: Xeyr, belə bir ehtimal Azərbaycanda sıfıra bərabərdir. Mən hələ bunu bir neçə ay bundan əvvəl demişdim. Bilirsiniz, Ukraynada, Gürcüstanda, Qırğızıstanda baş verən hadisələr bu bölgədə sanki belə bil mühit yaratdı ki, görəsən, növbəti dayanacaq, yəni növbəti inqilabın yeri harada olacaq? Baxdılar cədvələ, gördülər ki, növbəti seçki Azərbaycanda olacaq və bəziləri belə düşündü ki, burada da bunu etmək mümkündür. Ancaq mən bir neçə ay bundan əvvəl, seçki kampaniyası başlanan gündən bu günə qədər dəfələrlə bəyan etmişdim ki, Azərbaycanda bu, mümkün deyildir. Buna əsas yoxdur. İnqilabı, yaxud da çevrilişi şərtləndirən bir neçə amil olur. İlk növbədə, xalqla iqtidar arasında uçurum olmalıdır. Bu, Azərbaycanda yoxdur. Azərbaycanda xalqla iqtidar arasında vəhdət var, birlik var.

İkincisi, ölkədə sosial-iqtisadi problemlər daha da kəskinləşməlidir və vəziyyət daha da gərginləşməlidir. Azərbaycanda bu da yoxdur. Düzdür, problemlər çoxdur, işsizlik, yoxsulluq, digər sosial problemlər var, ancaq müsbət dinamika var. Maaşlar artır, pensiyalar artır, tələbələrin təqaüdləri artır, iqtisadiyyat artır, yeni iş yerləri açılır və sair. Yəni iqtisadi və sosial sahədə də müxalifətin bizə irad tutacağı heç bir şey yoxdur.

Sonra, ölkənin xarici siyasəti də çox uğurludur. Biz bölgədə öz mövqeyimizi möhkəmləndiririk və Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində də öz qətiyyətli mövqeyimizi ortaya qoymuşuq. Bu baxımdan da müxalifət bizə heç bir irad tuta bilmir.

Bundan başqa, inqilabı etmək üçün gərək güclü lider olsun, müxalifət arasında birlik olsun. Bu da yoxdur. Müxalifət arasında birlik yoxdur. Onların birləşməsi müvəqqəti xarakter daşıyır. Biz keçən seçkilərdə bunları görmüşük. Müvəqqəti olaraq birləşirlər, sonra başlayırlar bir-birini ittiham etməyə. Güclü lider məsələsinə gəldikdə isə, bu, tamamilə mövcud deyildir. Azərbaycan müxalifəti çox zəif və acınacaqlı vəziyyətdədir. Ümumiyyətlə, müxalifətdə görünən mənzərə çox miskin mənzərədir. Müxalifətə rəhbərlik edən insanlar 10 ildən artıqdır ki, eyni şeyləri eyni səslə ifadə edirlər və artıq heç kim də bunu eşitmir və eşitmək istəmir.

Azərbaycanın gələcəyi meydanlarda həll olunmur. Meydan ab-havası Azərbaycanda 10 illdən artıqdır yoxdur. Azərbaycan gələcəkdə tamamilə başqa istiqamətdə inkişaf edəcəkdir. Azərbaycan müasirləşir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Ona görə Azərbaycanda inqilabi vəziyyəti şərtləndirən heç bir amil yoxdur. Yox, əgər onlar qanunsuz yollara əl atsalar, biz bunun qarşısını çox ciddi şəkildə alacağıq. Heç kimə imkan verilməyəcək ki, Azərbaycanda qanundankənar bir iş görsün və qanunu pozsun.

Azərbaycanda sərbəst toplaşmaq azadlığı mövcuddur. Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl müxalifət mitinq keçirdi. Ondan sonra Yeni Azərbaycan Partiyası mitinq keçirdi. Çox sakit, sərbəst şəkildə, ayrılmış vaxt çərçivəsində və asayişi qorumaq şərtilə. Əgər kimsə qanunsuz hərəkətə əl atarsa, o bilməlidir ki, Azərbaycan dövləti buna yol verməyəcək və bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınacaq, qanunsuz hərəkətlər törədən şəxslər məsuliyyətə cəlb olunacaqlar.

Sual: Hörmətli Prezident, seçkilərə iki naziri vəzifəsindən uzaqlaşdıraraq getdiniz. Yeni hökumət necə olacaq və nə zaman qurulacaqdır? Yeni kabinetdə köhnə nazirlərə yer verəcəksinizmi, bəzi tədbirlər həyata keçirəcəksinizmi?

Cavab: Bizdə hökumət prezident seçkilərindən sonra formalaşır. Azərbaycan Prezident respublikasıdır. Bütövlükdə parlament seçkilərinin Nazirlər Kabinetinin formalaşmasında əhəmiyyəti o qədər yoxdur. Yəni faktiki olaraq yoxdur. Çünki prezident seçkilərindən sonra Prezident yeni hökuməti təyin edir. Ona görə vəzifədən çıxarılmış nazirlərin hökumətin dəyişilməsinə, yaxud formalaşmasına heç bir aidiyyəti yoxdur. Onlar törədilmiş əməllərə görə cəzalandırılıblar və belə olan halda, əlbəttə, ciddi tədbirlər görülübdür.

Bütövlükdə, Azərbaycanda kadr islahatı gedir. Yeni insanlar, kadrlar vəzifəyə təyin olunurlar. Mənim tərəfimdən son iki il ərzində çox böyük sayda yeni insanlar vəzifəyə gətirildi, nazir, digər vəzifəyə təyin olundu. Demək olar ki, bölgələrdə yerli icra orqanlarının rəhbərlərinin tam əksəriyyəti dəyişdirildi. Bu proses gedir və getməlidir. Çünki hər bir sahədə islahatlar getməlidir. Kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmirsə, əlbəttə, o insan vəzifədən azad olunacaqdır. Ancaq biz buna da kampaniya şəklində yanaşmamalıyıq. Kim öz vəzifə borcunu ləyaqətlə icra edirsə, əlbəttə, o, vəzifədə qalacaqdır. Kim rüşvətxorluqla, qanun pozuntuları ilə məşğuldursa və vəzifənin öhdəsindən gələ bilmirsə, təbii ki, mən o insanlarla işləmək fikrində deyiləm. Yəni bu proses davam edəcəkdir. Ancaq biz hər bir məsələyə fərdi qaydada yanaşacağıq.

Sual: Cənab Prezident, Türkiyəyə mesajınız nədir?

Cavab: Mənim Türkiyəyə mesajım həmişə olduğu kimidir. Mən qardaş Türkiyə xalqına

müvəffəqiyyətlər arzulayıram, sülh, rifah arzulayıram. Bizim aramızda əlaqələr ən yüksək səviyyədədir. Mən bunu həmişə demişəm, indi də deyirəm. Dünyada başqa elə iki ölkə yoxdur ki, bir-birinə bu qədər bağlı olsun, bir-birinə bu qədər dəstək versin. Biz bu dəstəyi bütün zamanlarda bir-birimizə veririk. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bizi ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox səmərəli işbirliyi, əməkdaşlıq var. Biz ulu öndər Heydər Əliyevin sözü ilə desək, "bir millət, iki dövlətik". Bu prinsiplə yaşayırıq və Türkiyə-Azərbaycan birliyi, qardaşlığı, dostluğu təkcə bizim üçün yox, bütün bölgə üçün lazımdır. Bölgədə gedən regional əməkdaşlığa lazımdır. Bölgədə sabitliyin, sülhün bərqərar olunmasına lazımdır. Əlbəttə, bizə lazımdır, Türkiyə və Azərbaycan xalqlarına lazımdır.

Xahiş edirəm, siz mənim ən hərarətli salamlarımı, ehtiramımı bütün türk qardaşlarımıza çatdırasınız.

XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ AVROPA İTTİFAQININ RƏSMİLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 15-də Brüsseldə Avropa İttifaqı Nazirlər Şurasının Xarici Əlaqələr və Hərbi-Siyasi Məsələlər üzrə baş direktoru Robert Kuper, Avropa Komissiyası Xarici Əlaqələr Baş Direktorluğunun direktor müavini Maykl Li və Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye ilə görüşmüşdür.

Görüşlərdə Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında Fəaliyyət Planının hazırlanması üzrə danışıqların başlanması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ümumiyyətlə, Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunmuşdur. Nazir E.Məmmədyarov həmsöhbətlərinə Azərbaycanda keçirilmiş son parlament seçkiləri barədə də ətraflı məlumat vermişdir.

Avropa İttifaqının rəsmiləri Avropa Qonşuluq Siyasəti çərçivəsində danışıqların tezliklə başlanacağına ümidvar olduqlarını bildirmiş və hazırda Azərbaycanda gedən prosesləri diqqətlə izlədiklərini vurğulamışlar.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASININ NAZİRLƏR KOMİTƏSİNİN 115-Cİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurası Nazirlər Komitəsinin 115-ci sessiyasında iştirak etmək üçün noyabrın 16-da Brüsseldən Strasburqa gəlmişdir.

Səfərin ilk günü Avropa Şurasının baş katibi T.Devis, Avropa Şurası Parlament Assambleyasının baş katibi B.Haller və AŞPA Katibliyinin baş direktoru M.Sorinas ilə görüşlər olmuşdur.

T.Devislə görüşdə Azərbaycanda keçirilmiş parlament seçkiləri, bundan sonrakı mərhələdə Avropa Şurasının Azərbaycan ilə əməkdaşlıq layihə və proqramları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqları, habelə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Avropa Şurasının rəhbərliyi, xüsusilə təşkilatın Avropa İttifaqının "Qonşuluq siyasəti" çərçivəsində Azərbaycan üzrə fəaliyyət planının həyata keçirilməsinə töhfə verməyə hazır olduğunu vurğulamışdır.

AŞPA-nın baş katibi B.Haller və bu qurumun Katibliyinin baş direktoru M.Sorinas ilə görüşdə əsasən Azərbaycanda keçirilmiş parlament seçkiləri, eləcə də AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçilərinin fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilmiş, seçkilər zamanı yol verilmiş pozuntuların aradan qaldırılması sahəsində Azərbaycan Prezidenti İlham Əliyevin gördüyü tədbirlər yüksək qiymətləndirilmişdir.

Noyabrın 17-də nazir Elmar Məmmədyarov Avropa Şurası Nazirlər Komitəsinin 115-ci sessiyasında iştirak etmişdir.

Avropa Şurasının insan hüquqlarının müdafiəsi sistemi və demokratiyanın təşviq edilməsi istiqamətində fəaliyyətinin gücləndirilməsi, daha humanist Avropa quruculuğu, Avropa Şurası, Avropa İttifaqı və ATƏT arasında əlaqələrin inkişaf etdirilməsi və sair məsələlərin müzakirə olunduğu sessiyada nazir E.Məmmədyarov çıxış etmiş, Nazirlər Komitəsində sədrliyi başa çatan Portuqaliyanın xarici işlər naziri F.do Amorala son altı ayda qurum qarşısında duran üstün vəzifələrin yerinə yetirilməsinə göstərilmiş səylərə görə təşəkkürünü bildirmiş, sədrliyi qəbul edən Rumıniya xarici işlər naziri M.-R.Unqureanuya yeni vəzifədə uğurlar arzulamışdır.

Nazir E.Məmmədyarov Avropa Şurasının beynəlxalq aləmdə artmaqda olan rolunun təşviq edilməsi ilə bağlı fikirlərini bölüşmüş, ölkəmizdə parlament seçkilərinin şəffaf və demokratik şəraitdə keçirilməsi üçün Azərbaycan hökumətinin gördüyü mühüm tədbirlər barədə məlumat vermiş, Avropa Şurasının Milli Məclisə seçkilərlə bağlı fəaliyyət planını yüksək qiymətləndirmiş, hələ də öz həllini gözləyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini respublikamızın demokratik inkişafı yolunda başlıca maneələrdən biri olduğunu diqqətə çatdırmış, Avropa Şurasını və üzv ölkələri problemin aradan qaldırılması istiqamətində səylərini artırmağa çağırmışdır.

Həmin gün, həmçinin, Avropa Parlamenti-Azərbaycan Əməkdaşlıq Komitəsinin sədri xanım M.İsler-Beguin, eləcə də Avropa Parlamenti və onun siyasi komitələrinin digər üzvləri ilə görüşlər keçirilmiş, Azərbaycanda parlament seçkiləri, "Avropa qonşuluq siyasəti" çərçivəsində Azərbaycan ilə bağlı hazırlanacaq fəaliyyət planı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqları ilə əlaqədar məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Macarıstanın dövlət katibi A.Barsoni, Ukraynanın xarici işlər naziri B.Tarasyuk, Norveçin xarici işlər nazirinin müavini K.Skoqrand, Avropa Şurası Nazirlər Komitəsinin Azərbaycan və Ermənistan üzrə AQO monitorinq qrupunun sədri, Almaniyanın daimi nümayəndəsi R.Vegener ilə keçirilmiş görüşlərdə isə həmin ölkələrlə həm Avropa Şurası çərçivəsində, həm də ikitərəfli əsasda əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

MOSKVADA MDB İQTİSADİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 16-da Moskvada MDB İqtisadi Şurasının 26-cı iclası keçirilmişdir. Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov iclasda iştirak etmişdir.

Gündəlikdə MDB hökumət başçılarının dekabrda Moskvada keçiriləcək görüşünə hazırlıq, eləcə də bir sıra digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYANIN ƏN NƏHƏNG POLAD ŞİRKƏTİ OLAN "MITTAL STEEL" ŞİRKƏTİNİN SAHİBİ LAKŞMİ MİTTALI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Prezident sarayında dünyanın üçüncü zəngin adamı, dünyada ən böyük polad şirkəti sayılan "Mittal Steel" şirkətinin sahibi Lakşmi Mittalı qəbul etmişdir.

Lakşmi Mittal vaxt tapıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir. O, Prezident İlham Əliyevlə görüşündən böyük məmnunluq hissi keçirdiyini vurğulayaraq, Azərbaycan xalqını və şəxsən Azərbaycan Prezidentini Milli dirçəliş günü münasibətilə təbrik etmişdir.

Prezident İlham Əliyev Lakşmi Mittalın dünyada çox məşhur bir iş adamı kimi tanındığını vurğulayaraq, onun Azərbaycana ilk səfərindən məmnunluq duyduğunu bildirmişdir.

Lakşmi Mittal rəhbərlik etdiyi şirkətin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərməsi ilə bağlı arzularını Prezident İlham Əliyevə çatdırmışdır.

Dövlətimizin başçısı bu məsələyə müsbət münasibət göstərdiyini qeyd etmiş və bildirmişdir ki, dünyanın aparıcı şirkətlərindən sayılan "Mittal Steel" şirkətinin ölkəmizdə fəaliyyət göstərmək niyyəti Azərbaycanda sabitliyin bərqərar olmasına, yaxşı investisiya mühitinin mövcudluğuna dəlalət edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Prezident sarayında NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.

Dövlətimizin başçısı ilə görüşdən məmnunluq duyduğunu bildirən qonaq partlamamış mərmilərin təmizlənməsi üzrə Saloğlu layihəsinin noyabrın 18-də Bakıda keçirilən açılış mərasimində iştirak etdiyini vurğuladı. O dedi ki, partlamamış mərmilərin məhv edilməsi işinə yaxın zamanlarda başlanacaqdır. Bu layihə NATO ilə Azərbaycan arasında əməkdaşlığın həyata keçirilməsində çox önəmli rol oynayır. Fərdi tərəfdaşlığın fəaliyyət planının həyata keçirilməsi ilə bağlı komissiyanın iclası məndə böyük təəssürat yaratdı. Bu planın ötən ilin iyun ayında qəbul edilməsinə baxmayaraq, Azərbaycan tərəfindən bu sahədə irəliyə doğru çox mühüm addımlar atılmışdır. Hesab edirəm ki, bu plan çərçivəsində əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcəkdir.

Bu layihələrin çox böyük önəm daşıdığını nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, bunlar NATO ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsinin yaxşı göstəricisidir. Bu sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Fərdi

tərəfdaşlığın fəaliyyət planının da müvəffəqiyyətlə həyata keçirildiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd etdi. Dövlətimizin başçısı qarşıdakı illərdə NATO ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞ EV ADMİNİSTRASİYASININ SABİQ RƏHBƏRİ, QUBERNATOR CON SUNUNUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Prezident sarayında Ağ ev administrasiyasının sabiq rəhbəri, qubernator Con Sununu qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələri, regional, beynəlxalq və bir sıra digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-DƏKİ XÜSUSİ NÜMAYƏNDƏSİ SENATOR PYER ŞEVALYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Prezident sarayında Belçika Xarici İşlər nazirinin ATƏT-dəki xüsusi nümayəndəsi senator Pyer Şevalyeni qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-ATƏT əməkdaşlığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanda son parlament seçkilərinin nəticələri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir.

Heyki Talvitiye Azərbaycana səfərindən məmnunluğunu bildirmişdir. O demişdir: "Bu gün istər hökumət, istərsə də müxalifət nümayəndələri ilə görüşlərim olub. Ölkədə bütün istiqamətlərdə irəliyə doğru addımlar atılır. Hesab edirəm ki, bu, Azərbaycanda gedən demokratik proseslər ilə bağlı, sözün əsil mənasında, müsbət fikir yaradır. Seçkilərdən öncə Azərbaycandakı hadisələrin təkamül yolu ilə getməsi imkanı barədə fikir söyləmişdim, indi bu fikirlərimin düzgünlüyünə əmin oldum".

Prezident İlham Əliyev ölkədə bütün proseslərin həqiqətən müsbət istiqamətdə, normal siyasi və demokratik çərçivədə inkişaf etdiyini vurğulamışdır. O, seçki gününün və seçkilərdən sonrakı dövrün qanun çərçivəsində və demokratik şəkildə cərəyan etdiyini bildirmişdir. Dövlətimizin başçısı demişdir: "Biz də Azərbaycanda daim siyasi proseslərin normal şəraitdə, zorakılıq və aqressivlik olmadan gedəcəyinə ümidvarıq. Siyasi mübarizə və siyasi rəqabət isə təbii haldır".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT DÖVLƏTİNİN MALİYYƏ NAZİRİ BƏDR MƏŞARİ ƏL-HUMEYDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında Küveyt Dövlətinin maliyyə naziri Bədr Məşari əl-Humeydini qəbul etmişdir.

İlk növbədə Küveyt Əmiri şeyx Cabir əs-Sabahın, şahzadənin və Baş nazirin salamlarını çatdıran qonaq dövlətimizin başçısına müraciətlə dedi ki, Sizin üçün münasib vaxtda bizim ölkəyə səfər etməyinizlə bağlı Əmirin dəvət məktubunu Sizə çatdırmaqdan şərəf duyuram. Küveyt ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədədir. Ölkəmizin rəhbərliyi bu münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Azərbaycanın Küveytdə səfirliyinin açılması ölkəmizlə əlaqələrə verdiyiniz önəmin nümunəsidir. Biz bu addımı yüksək qiymətləndirir, tezliklə Küveytin də Azərbaycanda səfirliyinin açılacağına ümid edirik.

Dəvət məktubuna və salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Küveyt Əmiri şeyx Cabir əs-Sabaha, şahzadəyə və Baş nazirə çatdırmağı xahiş etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin möhkəmliyini vurğulayan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qarşıdan gələn illərdə əməkdaşlığımız səmərəli surətdə daha da inkişaf etdiriləcəkdir.

İqtisadi əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, Küveytdə səfirliyimizin açılması Azərbaycanın sizin ölkə ilə ikitərəfli əlaqələrə verdiyi diqqətin nümunəsidir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ TBİLİSİYƏ GƏLMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 23-də Tbilisiyə gəlmişdir. E.Məmmədyarovu Tbilisi hava limanında gürcü həmkarı Gela Bejuaşvili və Azərbaycanın Gürcüstandakı səfiri Ramiz Həsənov qarşılamışlar.

E.Məmmədyarov jurnalistlərlə söhbətində demişdir ki, Gürcüstan Azərbaycanın strateji tərəfdaşıdır. Bu ölkədə sabitlik bizim üçün çox vacibdir. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihələri Gürcüstanla da əlaqədardır. Azərbaycan-Gürcüstan münasibətlərinin zəngin tarixi var, dövlətimizin başçısı İlham Əliyev bu münasibətlərin çox yüksək səviyyədə olmasını arzulayır və həmin istiqamətdə səylərini əsirgəmir. Prezidentlər İlham Əliyev ilə Mixail Saakaşvilinin şəxsi dostluq münasibətləri ölkələrimizin əməkdaşlığının daha da dərinləşməsində müsbət rol oynayır. Hər iki ölkənin xarici işlər nazirləri də bundan nümunə götürür və beynəlxalq məclislərdə dövlətlərimiz üçün mühüm məsələlərin müzakirəsi zamanı bir-birimizi dəstəkləyir, mənafelərimizi müdafiə edirik.

Sonra E.Məmmədyarov G.Bejuaşvili ilə Kiyev Beynəlxalq Əlaqələr İnstitutunda birgə təhsil aldığını, aralarında səmimi dostluq münasibətlərinin davam etdiyini söyləmişdir. O, Azərbaycan rəhbərliyi adından gürcü xalqını, Gürcüstanın bütün vətəndaşlarını "məxməri inqilab"ın ikinci ildönümü münasibətilə təbrik etmiş, xoşbəxt və işıqlı gələcək arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA İQTİSADİYYATI ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ DOKTOR KLAUS MANQOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Prezident sarayında Almaniya İqtisadiyyatı Şərq Komitəsinin sədri doktor Klaus Manqoldun rəhbərlik etdiyi iş adamlarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev siyasi sahədə də əlaqələrimizin uğurla davam etdiyini nəzərə çarpdırdı. Keçən il Almaniyaya rəsmi səfərini xatırladan dövlətimizin başçısı dedi ki, bu səfər ölkələrimiz arasında səmərəli dialoqun, işgüzar münasibətlərin daim inkişaf etdiyini göstərir.

Prezident İlham Əliyev bildirdi ki, belə böyük tərkibdə nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimizin iqtisadi əməkdaşlıq sahəsində bir-birinə qarşılıqlı marağının yaxşı göstəricisidir.

Azərbaycanda gözəl sərmayə mühiti olduğunu, iqtisadiyyatın sürətlə inkişaf etdiyini nəzərə çarpdıran dövlətimizin başçısı dedi ki, ölkəmiz ən yüksək sürətlə inkişaf edir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Almaniya şirkətləri bundan sonra da Azərbaycanla uğurla əməkdaşlıq edəcəkdir. Dövlətimizin başçısı Almaniya nümayəndə heyətinin Azərbaycana səfərini bir daha yüksək qiymətləndirdi.

Azərbaycana çox nüfuzlu iş adamlarından ibarət nümayəndə heyətinin gəldiyini vurğulayan qonaq bildirdi ki, onlar buraya bir sıra mühüm layihələr gətirmişlər. Azərbaycana gəlmiş iş adamlarının təmsil etdikləri Almaniya şirkətlərinin ticarət dövriyyəsi 300 milyard avrodan çoxdur. Doktor Klaus Manqold dedi: Cənab Prezident, ilk öncə icazə verin, noyabrın 6-da keçirilən seçkilərin nəticələrinə görə Sizi təbrik edim. Bununla bağlı hansısa narazılıqlar olsa da, əminik ki, Azərbaycan bunların öhdəsindən qısa müddətdə gələcəkdir. Xahiş edirəm, bizim səfərimizi Sizə olan böyük etimad kimi qəbul edəsiniz.

Qonaq daha sonra dedi ki, ölkənizə səfərimizin ilk dəqiqəsindən Azərbaycanın inkişaf yolunda olduğunun şahidi olmuşuq. Azərbaycanda iqtisadiyyatın sürətlə və dinamik inkişafı bizi çox sevindirir. Bu, bizim əməkdaşlığımız üçün çox müsbət amildir.

Azərbaycanda qlobal enerji layihələrinin həyata keçirildiyini vurğulayan Klaus Manqold Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsini Azərbaycanın Avropaya çıxışı, mədəniyyətlərin mübadiləsi kimi dəyərləndirdi. O dedi ki, bütün bu amillər Avropa ölkələrinin, o cümlədən Almaniyanın Azərbaycan ilə əməkdaşlığının gələcəkdə daha intensiv olacağına əminlik yaradır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏT BRAYZANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Mət Brayzanı qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, Azərbaycanda parlament seçkilərinin nəticələri, beynəlxalq və regional məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Prezident sarayında İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.

İran Prezidenti Mahmud Əhmədinejadın səmimi salamlarını dövlətimizin başçısına çatdıran qonaq ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, qeyd etdi ki, təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanda əlamətdar hadisənin, parlament seçkilərinin müvəffəqiyyətlə başa çatdığını söyləyən Mənuçehr Mottəki parlament seçkilərinin uğurla keçməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə İran arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

İki ölkə arasındakı münasibətlərin inkişaf etdiyini nəzərə çarpdıran dövlətimizin başçısı bu ilin əvvəlində İrana rəsmi səfərini məmnunluqla xatırladı, səfər zamanı keçirdiyi görüşlərin, imzalanmış sənədlərin əməkdaşlığımızın genişləndirilməsi üçün möhkəm zəmin yaratdığını bildirdi. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafında böyük xidmətləri olduğunu vurğulayaraq, bu siyasətin bu gün də davam etdirildiyini bildirdi. Prezident İlham Əliyev İranda Prezident seçkilərindən sonra keçən qısa müddət ərzində İranın xarici işlər nazirinin ölkəmizə səfər etməsini ikitərəfli münasibətlərimizin yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd etdi. İqtisadi sahədə imzalanmış sazişlərin artıq müvəffəqiyyətlə icra olunduğunu vurğulayan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

Səmimi salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Prezident Mahmud Əhmədinejada çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İRANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 28-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəki ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov iranlı həmkarının Azərbaycana səfərindən məmnunluğunu bildirmiş, İranda zəlzələ nəticəsində həlak olanların ailələrinə başsağlığı vermiş və ehtiyac duyulduğu zaman ölkəmizin humanitar yardım göstərməyə hazır olduğunu söyləmişdir.

Qonaq ölkəmizin İran xalqına çətin məqamlarda həmişə yardım göstərdiyini yüksək qiymətləndirmişdir.

Nazir E.Məmmədyarov demişdir ki, dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmış, mühüm sazişlər imzalanmışdır. Nazir blokadada olan Naxçıvan Muxtar Respublikasına təbii qazın İran ərazisindən ötürülməsinə dair əldə edilmiş razılığı yüksək qiymətləndirmişdir.

Noyabrın 6-da Milli Məclisə keçirilmiş seçkilər münasibətilə Azərbaycan xalqını təbrik edən qonaq, iranlı müşahidəçilərin bu seçkilərin nəticələrindən razı qaldığını bildirmişdir. Diplomat qeyd etmişdir ki, İran ölkələrimizin parlamentlərarası münasibətlərinə xüsusi əhəmiyyət verir.

Milli Məclisə noyabrın 6-da keçirilmiş seçkilərin bundan əvvəlki seçkilərlə müqayisədə irəliyə doğru mühüm addım olduğunu diqqətə çatdıran nazir E.Məmmədyarov, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün parlamentlərarası dostluq qruplarının fəaliyyətinin genişləndirilməsinin zəruriliyini vurğulamışdır.

Ölkələrimiz arasında mövcud münasibətlərin daha da dərinləşdirilməsinin vacibliyini söyləyən iranlı qonaq qeyd etmişdir ki, respublikalarımızın mehriban qonşuluq münasibətləri heç bir üçüncü dövlətə qarşı yönəlməmişdir.

Respublikalarımızın münasibətlərinin inkişafında kütləvi iniformasiya vasitələrinin yaxından iştirakının da mühüm rolunu nəzərə çatdıran iranlı diplomat, bu məsələdə də əməkdaşlığın əhəmiyyətinə toxunmuşdur.

Həmkarının fikirləri ilə razılaşan nazir E.Məmmədyarov, bu il bir neçə iranlı KİV nümayəndəsinin ölkəmizdə akkreditə olunduğunu diqqətə çatdırmışdır.

Sonra iranlı qonaq Xəzər dənizinin statusu və təhlükəsizliyi məsələlərinə toxunaraq, onu sülh və dostluq dənizi adlandırmış, bu sahədə əldə edilən razılaşmaların müştərək xarakter daşımasının zəruriliyini vurğulamışdır.

Ölkələrimizin əlaqələri ilə bağlı müzakirələr zamanı nazir E.Məmmədyarov bu münasibətlərin tarixinə toxunmuş, xalqlarımızın mədəni, dini və sair eyniyyətlərini diqqətə çatdırmış, mədəniyyət günlərinin, o cümlədən müxtəlif sərgilərin, konsertlərin təşkilinin əhəmiyyətindən danışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi zamanı qonaq, İran tərəfinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini söyləmişdir.

İqtisadi sahədə aparılmış fikir mübadilələri zamanı bir sıra mühüm əhəmiyyətli nəqliyyat və ticarət layihələri, Naxçıvan əhalisi ilə İran əhalisi arasında gediş-gəliş qaydalarının sadələşdirilməsi və səmərəliliyi məsələləri geniş müzakirə olunmuşdur.

Tərəflər hökumətlərarası müştərək komissiyanın işinin sürətləndirilməsi barədə razılığa gəlmişlər.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında daimi yaşayan vətəndaşlarının və İran İslam Respublikası vətəndaşlarının gediş-gəlişi qaydalarının sadələşdirilməsi haqqında Memorandum imzalamışlar.

AZƏRBAYCAN VƏ İRANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

Noyabrın 28-də Xarici İşlər Nazirliyində İran və Azərbaycanın xarici siyasət idarələri rəhbərlərinin mətbuat konfransı keçirilmişdir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iranlı həmkarı Mənuçehr Mottəki ilə ilk görüşlərinin dostluq və səmimilik şəraitində keçdiyini, nümayəndə heyətinin üzvləri ilə aparılan danışıqlarda regionda həyata keçirilən layihələr, İran-Azərbaycan əlaqələrinin perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldığını bildirdi, iki ölkə arasında münasibətlərin inkişafına təkan verəcək mühüm sənədlərin imzalanacağını söylədi.

Mənuçehr Mottəki xarici işlər naziri kimi ilk səfərinin dost, qardaş Azərbaycandan başlamasından xüsusi məmnunluq duyduğunu söylədi, həmkarı Elmar Məmmədyarovun dəvəti ilə reallaşan bu səfərində əsas məqsədin tarixən bir-biri ilə sıx mədəni, ticarət, iqtisadi əlaqələri olan iki qonşu ölkə arasında əməkdaşlıq sahəsində mövcud potensial imkanlardan daha səmərəli istifadə edilməsi üçün fikir mübadiləsi aparmaq, dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı imzalanmış bir sıra mühüm sənədlərin, razılaşmaların həyata keçirilməsi mexanizmlərini, tərəflərin maraq göstərdiyi bəzi məsələlərin həlli yollarını tapmaqdan ibarət olduğunu bildirdi.

Azərbaycan Milli Məclisinə son seçkilərin azad, demokratik, ədalətli şəraitdə və xalqın iradəsini əks etdirən şəkildə baş tutmasının İranda razılıqla qarşılandığını vurğulayan nazir, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Dağlıq Qarabağ probleminin həllində daim yardımçı olduğunu, qaçqın və köçkünlərə həmişə öz köməyini göstərdiyini, bu xəttin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırdı.

Qonaq səfər çərçivəsində ölkələrimiz arasında yeni sadələşdirilmiş viza rejiminin tətbiqi, Azərbaycanla İranı birləşdirəcək və Azərbaycanın Fars körfəzinə birbaşa çıxışını təmin edəcək dəmir yolunun inşası, Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması, Xəzərin hüquqi statusu ilə bağlı danışıqların intensivləşdirilməsi, Naxçıvanın yanacaq-energetika problemlərinin həll edilməsinə kömək və digər məsələlərin müzakirə olunacağını bildirdi.

Sonra nazirlər jurnalistləri maraqlandıran suallara cavab verdilər.

XARİCİ İŞLƏR NAZİRİNİN KOREYA RESPUBLİKASINA SƏFƏRİ

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 29-30-da Koreya Respublikasında rəsmi səfərdə olmuşdur.

Noyabrın 30-da Koreya Respublikasının Prezidenti Roh Mu Hyun nazir E.Məmmədyarovu öz iqamətgahında qəbul etmişdir. Nazir Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında dostluq əlaqələrinə toxunaraq, bu səfərin ölkələrimizin münasibətlərinin inkişafına xidmət edəcəyini söyləmişdir. Nazir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Koreya Respublikasının Prezidentinə ünvanladığı dəvət məktubunu təqdim etmiş və səfərin ölkəmizdə böyük məmnuniyyət hissi ilə gözlənildiyini diqqətə çatdıraraq, bunun dövlətlərimizin dostluq münasibətlərinin inkişafında yeni mərhələ açacağına əmin olduğunu bildirmişdir.

Koreya Respublikasının Prezidenti Azərbaycana rəsmi səfərə dəvət olunması ilə bağlı dərin minnətdarlığını ifadə edərək, səfərin dəqiq tarixinin diplomatik kanallarla müəyyənləşdiriləcəyini bildirmiş, Azərbaycan Prezidenti İlham Əliyevi ölkəsinə dəvət etmişdir.

Yaxın zamanlarda Azərbaycan Respublikasının Koreya Respublikasında səfirliyinin açılacağını diqqətə çatdıran nazir E.Məmmədyarov, Koreya Respublikasının da Azərbaycanda səfirliyinin açılmasının dövlətlərimiz arasında münasibətlərin möhkəmlənməsində vacib rol oynayacağını vurğulamışdır.

Koreya Prezidentinə Azərbaycanda həyata keçirilən iqtisadi layihələrdən danışan nazir, Koreya şirkətlərinin həmin layihələrdə iştirakının vacibliyini söyləmişdir.

Prezident Roh Mu Hyun Koreya şirkətlərinin Azərbaycanda həyata keçirilən iqtisadi layihələrdə iştirakında maraqlı olduğunu diqqətə çatdırmışdır.

Görüşdə ölkələrimiz arasında mədəniyyət və humanitar sahələrdə mövcud əlaqələrə toxunulmuş və bunun xalqlarımızın münasibətlərinin daha da yaxınlaşmasına təkan verəcəyi qeyd olunmuş, maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarov Koreya Respublikasının Milli Məclisinin sədri Kim Von Ki ilə görüşmüşdür. Kim Von Ki E.Məmmədyarovun Koreya Respublikasına səfərinin ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənəcəyinə kömək edəcəyini bildirmişdir. Parlamentlərarası münasibətlərin inkişafı üçün Azərbaycan Respublikasının yeni seçilmiş Milli Məclisində və Koreya Respublikasının qanunverici orqanında dostluq qruplarının yaradılmasının vacibliyini qeyd etmişdir. Görüşdə, ölkələrimiz arasında digər sahələrdə də münasibətlərə dair məsələlər müzakirə olunmuşdur.

Sonra nazir E.Məmmədyarov koreyalı həmkarı Pan Gi-mun ilə görüşmüş, bu ölkəyə səfərindən məmnun qaldığını söyləmişdir. E.Məmmədyarov koreyalı həmkarını Azərbaycana səfərə dəvət etmişdir. Ölkələrimiz arasında ikitərəfli siyasi-iqtisadi, mədəni və humanitar əlaqələrin inkişafı üçün hüquqi bazanın yaradılmasının zəruriliyini vurğulayan E.Məmmədyarov, hər iki tərəfin bu istiqamətdə müvafiq işlər gördüyünü söyləmişdir. Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyət məsələlərini müzakirə etmişlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində görülən işlər haqqında koreyalı həmkarına ətraflı məlumat verən E.Məmmədyarov, bu məsələdə Koreya Respublikasının Azərbaycana dəstək verməsinin önəmli olduğunu qeyd etmiş, respublikamızın gənc diplomatları üçün Koreya dili kurslarının yaradılması məsələsini müzakirə etmişdir.

Rəsmi danışıqlardan sonra Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Koreya Respublikasının Xarici İşlər və Ticarət nazirlikləri arasında əməkdaşlıq haqqında Protokol imzalanmışdır.

Həmin gün nazir E.Məmmədyarov Koreya Respublikasının kommersiya, sənaye və enerji naziri Hi-beom Lin və ölkənin iş adamları ilə də görüşmüşdür. Görüşlərdə Azərbaycan və Koreya arasında iqtisadi əməkdaşlığa dair bəzi məsələlər müzakirə olunmuş,

Koreya iş adamlarının Azərbaycan iqtisadiyyatına böyük maraq göstərmələrinin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyi, xarici sərmayədarlar üçün respublikamızda münasib şəraitin yaradıldığı diqqətə çatdırılmışdır.

Noyabrın 30-da E.Məmmədyarov tanışlıq məqsədi ilə "Samsung" şirkətinə gələrək müəssisənin fəaliyyəti ilə tanış olmuşdur.

Daha sonra E.Məmmədyarov "The Korea Times" informasiya agentliyinə müsahibə vermişdir.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MAHMUD MƏMMƏDQULİYEV BMT-NİN SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ KONFRANSININ 11-Cİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti noyabrın 28-i - dekabrın 2-də Vyanada BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) Baş konfransının 11-ci sessiyasında iştirak etmişdir. Baş konfransın əvvəlində M.Məmmədquliyevin konfrans sədrinin müavini vəzifəsinə seçilməsi təsdiqlənmişdir. M.Məmmədquliyev tədbirdə çıxış edərək, Azərbaycanın iqtisadi inkişafı, UNIDO ilə ölkəmiz arasında davam edən əməkdaşlığın perspektivləri və UNIDO-nun gələcək fəaliyyəti barədə Azərbaycan tərəfinin mövqeyini iştirakçıların diqqətinə çatdırmışdır.

Sonra M.Məmmədquliyev UNIDO-nun yeni Baş direktoru Kandeh Yumkella ilə görüş keçirmiş və UNIDO ilə Azərbaycan arasında əməkdaşlığın perspektivlərini müzakirə etmişdir.

Vyanaya səfəri çərçivəsində M.Məmmədquliyev Avstriya İqtisadi Palatasının vitse-prezidenti Rixard Şents, Avstriyanın İqtisadiyyat və Əmək Nazirliyinin xarici ticarət və sərmayələr üzrə strateji şöbəsinin rəhbəri səfir Frants Çeşka və Azərbaycan-Avstriya birgə komissiyasının həmsədri, Avstriyanın İqtisadiyyat və Əmək Nazirliyinin xarici iqtisadi əlaqələr üzrə baş direktoru Yohan Zaks ilə görüşmüşdür. Görüşlərdə Azərbaycan ilə Avstriya arasında iqtisadi əməkdaşlığın cari vəziyyəti və perspektivləri, bu əməkdaşlığın təşviq edilməsinə yönəlmiş konkret təkliflər və Birgə iqtisadi komissiyanın 4-cü iclasının Bakıda təşkili məsələsi müzakirə olunmuşdur.

M.Məmmədquliyev həmçinin ATƏT-in 2006-cı ildə sədri olacaq Belçikanın ATƏT yanında daimi nümayəndəsi səfir Bertran de Krombrüqqe, İnsan alveri ilə mübarizə üzrə ATƏT-in xüsusi nümayəndəsi Helqa Konrad, ATƏT-in iqtisadi və ətraf mühit məsələləri üzrə əlaqələndiricisi Bernar Snoa və ATƏT-in baş katibi Mark Perren de Brişambo ilə görüşmüşdür. Bu görüşlərdə ATƏT ilə ölkəmiz arasında ATƏT-in insan hüquqları və iqtisadi ölçüləri çərçivəsində əməkdaşlığın davam etdirilməsi məsələləri, ATƏT-in Bakı ofisinin fəaliyyəti, noyabrın 6-da Azərbaycanda keçirilmiş parlament seçkilərinin nəticələri və 2006-cı ilin martın 16-17-də Bakıda keçiriləcək ATƏT-in nəqliyyat üzrə 2-ci Hazırlıq konfransının təşkili məsələləri müzakirə edilmişdir.

M.Məmmədquliyev səfər çərçivəsində kütləvi informasiya vasitələrinin azadlığı üzrə ATƏT-in nümayəndəsi Mikloş Haraşti və Avstriyadakı Azərbaycan diasporunun nümayəndələri ilə də görüşmüşdür.

Səfər zamanı M.Məmmədquliyev Avstriyanın kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşərək, onların ölkəmizin sosial-iqtisadi vəziyyəti və Avstriya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı barədə suallarına cavab vermişdir.

XARİCİ İŞLƏR NAZİRİNİN KİYEVƏ SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "Demokratik seçim cəmiyyəti" mövzusunda dekabrın 1-də Kiyevdə başlanmış beynəlxalq forumda iştirak etmək üçün Ukrayna paytaxtına gəlmişdir.

Dekabrın 2-də Elmar Məmmədyarov ukraynalı həmkarı Boris Tarasyuk ilə görüşmüşdür.

Səmimilik və dostluq şəraitində keçən görüşdə nazirlər qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etmiş, ölkələrimizin strateji tərəfdaşlığı inkişaf etdirmək və dərinləşdirmək arzusunda olduğunu bir daha təsdiqləmişlər. Görüşdə GUAM çərçivəsində əməkdaşlıq məsələsi, digər mövzular da müzakirə olunmuşdur.

Dekabrın 2-də "Ukrayna evi" İncəsənət sarayında "Demokratik seçim cəmiyyəti" mövzusunda birinci forum açılmışdır.

Forumu aparan Ukrayna XİN-in başçısı Boris Tarasyuk həmkarı Elmar Məmmədyarovu təqdim edərək bildirmişdir ki, Azərbaycan GUAM-ın banisi və fəal iştirakçısıdır.

E.Məmmədyarov Azərbaycanda demokratik dəyişikliklərdən, ölkədə qanunun aliliyindən, insan haqlarına hörmət bəslənildiyindən danışmışdır. O bildirmişdir ki, Azərbaycan köklü islahatlar aparır, vətəndaş cəmiyyətini demokratik şəraitdə möhkəmləndirir.

Azərbaycan XİN-in başçısı demişdir ki, biz gənc demokratiyayıq. Həll edilməmiş münaqişələr, separatizm, "çirkli" pulların "yuyulduğu" qara çuxurlar, terrorizm - bütün bunlar demokratiya üçün təhlükədir. O, yüksək makroiqtisadi göstəricilərdən, ölkəmizə çox böyük məbləğdə xarici sərmayələr yatırıldığından, ümumi daxili məhsulun sürətlə artmasından söhbət açmışdır. Onun fikrincə, ciddi coğrafi-siyasi amil olan GUAM regionda demokratiyanın və təhlükəsizliyin təmin olunmasına təkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Prezident sarayında Amerika Birləşmiş Ştatları Ticarət Palatasının nümayəndə heyətini qəbul etmişdir.

ABŞ Ticarət Palatasının ölkələrimizin iqtisadi əməkdaşlığının inkişafında mühüm rol oynamasından məmnun qaldığını vurğulayan dövlətimizin başçısı dedi ki, Azərbaycanın iqtisadiyyatı inkişaf edir, büdcəsi artır, ikitərəfli əlaqələrimizin səviyyəsi bizi çox qane edir. Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq əvvəllər enerji sektoru ilə məhdudlaşırdısa, indi getdikcə iqtisadiyyatın digər sahələrini də əhatə edir. Amerikadan böyük şirkətlərin bundan sonra da Azərbaycana gələcəyinə ümid edirəm.

Prezident İlham Əliyev dedi ki, Vaşinqtonda ABŞ Ticarət Palatasında çox vacib görüşlər keçirilmişdir. Azərbaycan ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verir.

Əməkdaşlığımızın bütün sahələrində inkişaf var. Əminəm ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir. Dövlətimizin başçısı ABŞ-ın bir çox aparıcı şirkətlərinin Azərbaycanda fəal iştirakından məmnunluğunu bildirdi.

ABŞ Ticarət Palatası nümayəndə heyəti adından danışan səfir Rino Harniş iqtisadi və ticarət əlaqələrinin ölkələrimizin ikitərəfli əməkdaşlığında mühüm rol oynadığını bildirdi. O, Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlığa dair birgə işçi qrupunun ötən həftə Vaşinqtonda keçirdiyi görüşlərin son dərəcə uğurlu olduğunu söylədi. Cənab Rino Harniş dedi ki, həmin tədbirdə Azərbaycan hökuməti ilə ABŞ hökuməti arasında qarşıdakı altı ay üçün fəaliyyət planı razılaşdırılmışdır. Bu çox əhəmiyyətlidir və hesab edirəm ki, Azərbaycan-Amerika münasibətlərinin inkişaf etdirilməsi baxımından böyük önəm daşıyır.

ATƏT NAZİRLƏR ŞURASININ 13-CÜ İCLASINDA ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASI SAHƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR MÜZAKİRƏ EDİLMİŞDİR

Dekabrın 5-6-da Sloveniyanın paytaxtı Lyublyana şəhərində ATƏT Nazirlər Şurasının 13-cü iclası keçirilmişdir.

İclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir. Tədbirin birinci ümumi iclasında E.Məmmədyarov çıxış edərək, ATƏT-in fəaliyyətin səmərəliliyinin artırılması, bu qurum məkanında münaqişələr və onların həllində təşkilatın rolu, Azərbaycanda insan hüquqları, demokratik quruculuq və qanunun aliliyi məsələlərindən danışmışdır.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha geniş yer ayıran E.Məmmədyarov, Azərbaycan ərazilərinin hələ də işğal altında qalmasını, aparılan danışıqların və ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinə baxmayaraq, Ermənistan rəhbərliyinin qeyri-konstruktiv və yanlış siyasətinin dəyişmədiyini təəssüflə qeyd etmişdir. Nazir Dağlıq Qarabağın statusunun yalnız qanuni, sülh və demokratik proseslər, azərbaycanlı və erməni icmalarının istəklərinin nəzərə alınması çərçivəsində, ən əvvəl isə Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması şərti ilə müəyyən edilə biləcəyinin mümkünlüyünü diqqətə çatdırmışdır (çıxışın tam mətni - ingilis dilində XİN-in internet səhifəsində yerləşdirilmişdir).

Səfər çərçivəsində xarici işlər naziri E.Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri, habelə Ermənistanın xarici işlər naziri V.Oskanyanla da görüşlər keçirmişdir. Bu görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində atılacaq növbəti addımlar müzakirə edilmişdir. Bundan əlavə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏT Nazirlər Şurasının bəyanatı qəbul edilmişdir (bəyanatın ingilis dilində mətni ilə XİN-in internet səhifəsində tanış ola bilərsiniz).

Dekabrın 5-də nazir E.Məmmədyarov, həmçinin GUAM dövlətləri Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasında iştirak etmişdir. İclasda GUAM-ın fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı fikir mübadiləsi aparılmış və təşkilatın 2006-cı ildə fəaliyyət planı müzakirə edilmişdir.

Xarici işlər naziri E.Məmmədyarov Lüksemburqun xarici işlər naziri Jan Asselbon, Böyük Britaniyanın rəsmi nümayəndə heyətinin başçısı İan Pirson, Avropa Şurasının baş katibi Terri Devis, ABŞ Dövlət katibinin Avropa və Avrasiya üzrə müavini Daniel Fried, Rumıniyanın xarici işlər naziri Mihai-Razvan Ungureanu, ATƏT-in baş katibi Mark Perrən de Brişambo, ATƏT-inn fəaliyyətdə olan sədri Dmitri Rupel və Kiprin xarici işlər naziri Corc İakovu ilə ikitərəfli görüşlər keçirmişdir. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak etmək üçün dekabrın 6-da Səudiyyə Ərəbistanına səfərə gəlmişdir.

Ciddə şəhərinin Kral Əbdüləziz adına beynəlxalq hava limanında dövlətimizin başçısının qarşılanma mərasimi oldu.

Səudiyyə Ərəbistanı Krallığının və Azərbaycan Respublikasının, eləcə də İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrin dövlət bayraqları ilə bəzədilmiş hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Ciddə vilayətinin qubernatoru şahzadə Məşəl bin Məcid bin Əbdüləziz, Məkkə vilayətinin qubernatoru şahzadə Əbdülməcid bin Əbdüləziz, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Elman Araslı, Səudiyyə Ərəbistanının ölkəmizdəki səfiri Əli Həsən Əhməd Cəfər böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının, Ciddə şəhərinin rəsmi şəxsləri ilə görüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Ciddədən Məkkə şəhərinə yola düşdü.

MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Ciddədən İslam dünyasının əsas müqəddəs şəhəri olan Məkkəyə gəlmişdir.

Həzrəti Məhəmməd (s) bu torpaqda doğulmuş, peyğəmbərliyə çatmış, İslam dini Məkkədə yaranmışdır. Məkkədəki Allah evi Kəəbə Həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən birinci müqəddəs yerinə çevrilmişdir. Sonralar Kəəbə və müqəddəs "Zəmzəm" çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilmişdir. Hər il həcc ziyarəti zamanı dünyanın ən müxtəlif guşələrindən gələn milyonlarla müsəlman Kəəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılır.

Azərbaycan Prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər xüsusi libas geyinərək, Əl-Həram məscidinə gəldilər. Bir neçə mərtəbəli və doqquzminarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.

Ziyarətgahın rəhbərləri dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər Kəəbənin ətrafına dolandılar, məsciddə namaz qıldılar.

Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlandı. Azərbaycan Prezidenti və nümayəndə heyətinin üzvləri bu iki təpə arasındakı bir kilometrlik məsafəni yeddi dəfə qət etdilər.

Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı Əl-Həram məscidini seyr etdi. Azərbaycan Prezidentinə məscid haqqında ətraflı məlumat verildi.

MƏKKƏDƏ İSLAM KONFRANSI TƏŞKİLATININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISI BAŞLANMIŞDIR

Dekabrın 7-də Səudiyyə Ərəbistanı Krallığında, islam dünyasının ən müqəddəs şəhəri olan Məkkədə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü fövqəladə zirvə toplantısının təntənəli açılış mərasimi olmuşdur.

İslam Konfransı Təşkilatı 1969-cu ildə müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Mərakeşin paytaxtı Rabatda keçirilmiş konfransında yaradılmışdır və hazırda ona 57 dövlət daxildir. Azərbaycan Respublikası bu nüfuzlu təşkilatın üzvüdür. Bəzi ölkələrin müsəlman icmalarının, habelə beynəlxalq təşkilatların nümayəndələri İKT-də müşahidəçi statusuna malikdirlər. İKT 1975-ci ildən Birləşmiş Millətlər Təşkilatında müşahidəçi statusu almışdır. İKT-nin ali orqanı dövlət və hökumət başçılarının zirvə toplantısı, siyasi orqanı xarici işlər nazirlərinin konfransıdır. Təşkilatın icraçı orqanı olan Baş katiblik Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün Əl-Səfa sarayına gəldi. Dövlətimizin başçısını Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud böyük hörmət və ehtiramla qarşıladı.

Zirvə toplantısında İslam Konfransı Təşkilatının üzvü olan 57 ölkədən 50-nin dövlət başçısı, habelə yüksək vəzifəli şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirlər.

İKT-nin üçüncü fövqəladə zirvə toplantısını Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz təbrik nitqi ilə açaraq, dövlət və hökumət başçılarını salamladı. O, İKT-nin üçüncü fövqəladə zirvə toplantısının üzv ölkələr üçün faydalı olacağını vurğulayaraq dedi ki, bu konfrans islam dünyasının inkişafında, onun birliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə islama inamın daha da gücləndirilməsində mühüm rol oynayacaqdır.

Sonra müqəddəs Qurani-Kərimdən ayə oxundu.

İKT-nin yeni sədri, Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi və təşkilatın baş katibi Ekmələddin İhsanoğlu məruzələrlə çıxış edərək, ötən zirvə toplantısından sonra görülmüş işlərdən danışdılar, islam ölkələrinin siyasi, iqtisadi əlaqələrinin genişləndirilməsinin vacibliyini bildirdilər. Natiqlər vurğuladılar ki, beynəlxalq terrorizmə qarşı birgə mübarizə islam ölkələrinin əsas məqsədlərindən biridir və bu istiqamətdə bütün səylər birləşdiriləcəkdir. Pakistanda baş vermiş dəhşətli zəlzələnin nəticələrinin aradan

qaldırılmasında bu ölkəyə yardım göstərilməsinin zəruriliyi də vurğulandı. Məruzəçilər Kəşmir problemi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Kipr məsələsi və İsrail-Fələstin münaqişəsinin həllinə, habelə islama qarşı yönəldilmiş hər cür təzyiqlərin aradan qaldırılmasına toxunaraq bildirdilər ki, İKT-nin üzvü olan dövlətlər haqq işinin müdafiəsi üçün öz səylərini daha da gücləndirəcək, terrora və təcavüzə məruz qalmış ölkələri bundan sonra da dəstəkləyəcəkdir.

Sonra dövlət və hökumət başçıları xatirə olaraq Qurani-Kərimin rəmzi kitabı üzərinə əl izlərini qoydular. İKT-nin baş katibi E.İhsanoğlu bildirdi ki, bu mərasimin ilk dəfə müqəddəs Məkkə şəhərində həyata keçirilməsindən məqsəd islam aləminin birliyini, sülhün, əmin-amanlığın, təhlükəsizliyin dəstəklənməsini dünyaya bir daha bəyan etməkdir.

Zirvə toplantısı çərçivəsində dövlət və hökumət başçılarının iştirakı ilə İslam Konfransı Təşkilatının yeni iqamətgahı binasının tikilməsini bildirən lövhənin açılış mərasimi də oldu. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.

Sonra zirvə toplantısının iştirakçıları üzv ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər, Əl-Səfa sarayının eyvanından müqəddəs Kəəbəni və Məkkə şəhərinin mənzərəsini seyr etdilər. Daha sonra ali qonaqlar Əl-Həram məscidində namaz qıldılar.

Fasilədən sonra İslam Konfransı Təşkilatının fövqəladə toplantısı qapalı iclaslarda öz işini davam etdirdi.

Dövlət başçıları növbə ilə çıxış etdilər. Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Kral həzrətləri, İki Müqəddəs Məscidin xadimi!

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri!

Hörmətli qardaşlar və bacılar!

İlk növbədə, Sizi bu mühüm hadisə - İslam Konransı Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının üçüncü fövqəladə zirvə görüşünün keçirilməsi münasibətilə salamlayır və zirvə görüşünün işinə uğurlar arzulayıram.

Bizə göstərilən qonaqpərvərliyə görə İki Müqəddəs Məscidin xadimi, Səudiyyə Ərəbistanının Kralı, qardaşımız Abdullah ibn Əbdüləziz Al Səuda və onun hökumətinə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, müqəddəs Məkkə şəhərində keçirilən bu zirvə görüşü İslam həmrəyliyinin daha da möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir.

57 dövləti birləşdirən İslam Konfransı Təşkilatı dünyanın nüfuzlu təşkilatlarından biri olaraq, beynəlxalq münasibətlərdə vacib rol oynayır. Təşkilat ona üzv olan dövlətlərin qarşılaşdığı problemlərin həlli prosesində səmərəli fəaliyyət göstərir, digər dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı anlaşmanın bərqərar olmasına öz töhfəsini verir. Yarandığı vaxtdan etibarən İslam Konfransı Təşkilatı müasir dünyanın müxtəlif problemlərinin həllinə güclü təsir göstərir və münaqişələrin aradan qaldırılmasında iştirak edir.

İslam Konfransı Təşkilatı dünyada sülhün və əmin-amanlığın bərqərar olması naminə ardıcıl səylər göstərir. Biz İslam Konfransı Təşkilatının beynəlxalq terrorizmə qarşı barışmaz mövqeyini yüksək qiymətləndirir, BMT-nin himayəsi altında terrorizmlə mübarizə üzrə Beynəlxalq Mərkəzin yaradılmasına dair Kral Abdullah ibn Əbdüləzizin təşəbbüsünü dəstəkləyirik. Eyni zamanda, biz beynəlxalq terrorizmi İslam dini ilə əlaqələndirənlərə qəti etirazımızı bildiririk. Belə bir tezis tamamilə səhvdir, əsassızdır və qəbuledilməzdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İslam Konfransı Təşkilatına üzv olmuşdur. Biz Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığına xüsusi əhəmiyyət veririk. Quruma üzv olan ölkələrin xarici işlər nazirlərinin 30-cu və turizm nazirlərinin 5-ci konfransları gələn il ölkəmizdə keçiriləcəkdir.

Azərbaycan bir qədər əvvəl İslam Konfransı Təşkilatının Gənclər Forumunun yaradılmasının təşəbbüskarı olmuş və forumun təsis konfransı 2004-cü ilin dekabrında Bakı şəhərində keçirilmişdir.

Eyni zamanda, ölkəmiz üçün, eləcə də bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İslam Konfransı Təşkilatının və digər ölkələrin dəstəyini yüksək dəyərləndirirəm. Fürsətdən istifadə edib, bu dəstəyə görə öz minnətdarlığımı bildirirəm.

Artıq 15 ildir ki, Azərbaycan qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, nəticədə torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağda və digər yeddi rayonda qədim mədəniyyət abidələri məhv edilmiş, məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, müsəlman sivilizasiyasının izləri yer üzündən silinmişdir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüşlər.

Fürsətdən istifadə edərək, mən öz torpaqlarından qovulmuş qaçqın və məcburi köçkünlərə göstərilən köməyə görə İslam Konfransı Təşkilatının və donor ölkələrin rəhbərlərinə minnətdarlığımı bildirirəm.

Azərbaycanda erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır. Terror aktlarında dinlə bağlılıq axtaranlardan fərqli olaraq, biz ermənilərin törətdikləri vəhşiliklərə bu mövqedən yanaşmırıq. Terrorçuluğun dini kökləri yoxdur.

Azərbaycan münaqişənin beynəlxalq hüququn normaları və prinsiplərinə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamələrinin, İKT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir.

Mən bir daha vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və suveren dövlətin ərazilərinin de-fakto ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Biz ərazi bütövlüyümüzlə bağlı heç bir güzəştə getməyəcəyik.

Münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Lakin biz daxili ehtiyat-

larımızı səfərbər edərək, sosial-iqtisadi böhranın aradan qaldırılmasına nail olduq. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Azərbaycan siyasi və iqtisadi sabitlik ölkəsidir.

1996-cı ildən 2004-cü ilədək olan dövrdə hər il iqtisadi artım təqribən 10 faiz olmuşdur. 2005-ci ilin 11 ayı ərzində isə ÜDM-in artımı 24 faiz, sənaye istehsalının artımı isə 30 faiz olmuşdur. Təkcə son iki ildə ölkədə 300 mindən çox yeni iş yeri açılmışdır. Azərbaycan dövlətinin iqtisadi siyasətində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onun sosial təminatının yaxşılaşdırılması əsas yer tutur. Bu məqsədlə 2006-cı ildə dövlət büdcəmiz təqribən 70 faiz artacaqdır.

Bu fürsətdən istifadə edərək, biz üzv ölkələr arasında qarşılıqlı iqtisadi əməkdaşlığa öz töhfəmizi vermək istəyirik. Bu gün buna böyük ehtiyac duyulur. Biz qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi vasitəsilə bir-birimizin iqtisadiyyatına yardım etməliyik. Bunun üçün hazırda yaxşı imkanlar mövcuddur. Təşkilata üzv olan ölkələrdə müasir infrastruktur var. Biz Azərbaycanda qardaş ölkələr ilə iqtisadi əməkdaşlığa böyük diqqət yetiririk. Biz bir-birimizin mallarını almalıyıq, dost ölkələrin sərmayələri üçün daha yaxşı mühit yaradılmasında bir-birimizə yardım etməliyik. Beləliklə, biz iqtisadi inkişafımıza töhfə verə biləcəyik. Bu, çox vacib məsələdir və Azərbaycanda ikitərəfli iqtisadi əlaqələrə təkan vermək məqsədi ilə daha böyük addımları atmağa hazırıq.

Mən İslam həmrəyliyinə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqlarınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə görüşmüşdür.

Görüş zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişlənməsindən, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişafından məmnunluq ifadə edildi. Dövlət başçıları Azərbaycan ilə Pakistan arasında əlaqələrin daha da genişlənəcəyinə əminliyini vurğuladılar, beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində əməkdaşlığın daim inkişafından razı qaldıqlarını bildirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanda baş vermiş zəlzələnin ağır nəticələrinin aradan qaldırılması ilə bağlı gedən işlərlə maraqlandı.

Pakistan Prezidenti Pərviz Müşərrəf bu sahədə Azərbaycan hökumətinin göstərdiyi yardıma görə minnətdarlığını bildirdi. Prezident Pərviz Müşərrəf Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesi ilə də maraqlandı.

Dövlətimizin başçısı İlham Əliyev problemin sülh yolu həlli ilə bağlı gedən danışıqlar prosesi barədə məlumat verdi.

Pakistanın dövlət başçısı münaqişənin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həlli məsələsində ölkəsinin mövqeyini bir daha vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İKT-nin üçüncü fövqəladə toplantısı çərçivəsində İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Prezident İlham Əliyev İranda baş vermiş təyyarə qəzası ilə bağlı başsağlığı verdi. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında əlaqələr müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, energetika sahəsində uğurla inkişaf edir və bu, regionda əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edir. Yaxın vaxtlarda ölkələrimiz arasında qaz mübadiləsi əsasında İrandan Naxçıvana mavi yanacaq verilməsinə başlanması əlaqələrimizin uğurla inkişafının yaxşı nümunəsi olacaqdır. Dövlətimizin başçısı İran Prezidentini bu münasibətlə keçiriləcək tədbirdə iştirak etməyə dəvət etdi.

Prezident Mahmud Əhmədinejad başsağlığına görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirdi, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluğunu söylədi. O, Azərbaycan və İran xalqları arasında ümumi tarixi dəyərlərə əsaslanan əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı. İran Prezidenti Naxçıvana təbii qaz verilməsinə başlanması ilə əlaqədar mərasimdə iştiraka dair dəvəti minnətdarlıqla qəbul etdiyini bildirdi, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevi İrana rəsmi səfərə dəvət etdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOV İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İKT-nin üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində Tacikistan Prezidenti Emoməli Rəhmonov ilə görüşmüşdür.

Görüş zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret layihələr üzərində iş aparılmasının vacibliyi vurğulandı. Hər iki ölkənin regionda daha geniş bazarlara çıxmaq üçün böyük potensiala malik olduğu bildirildi.

Dövlət başçıları qarşılıqlı maraq doğuran bir sıra məsələlərə də toxundular.

Tacikistan Prezidenti Emoməli Rəhmonov Azərbaycan Prezidenti İlham Əliyevi öz ölkəsinə rəsmi səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞÜ

İKT-nin üçüncü fövqəladə zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai ilə görüşmüşdür.

Prezident Həmid Kərzai ölkəsinin Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verdiyini, ikitərəfli əməkdaşlıqla bağlı konkret istiqamətlərin müəyyənləşdirilməsinin əhəmiyyətini qeyd etdi. Azərbaycanın regionda böyük nüfuza malik olduğunu xüsusi vurğulayan Əfqanıstan rəhbəri dövlətimizin başçısı İlham Əliyevi Əfqanıstana rəsmi səfərə dəvət etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin genişlənəcəyinə əminliyini söylədi.

Dövlət başçıları hər iki tərəfi maraqlandıran bir sıra digər məsələləri də müzakirə etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BRUNEY SULTANI HƏSSƏNAL BOLKİAH İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Bruney sultanı Həssənal Bolkiah ilə görüşmüşdür.

Görüş zamanı ikitərəfli əlaqələr, regional məsələlər, İKT-nin gələcək perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏND ARINÇ İLƏ GÖRÜŞÜ

İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri Bülənd Arınç ilə görüşmüşdür.

Görüşdə iki dost və qardaş ölkə arasında bütün sahələrdə münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin həyata keçirilməsinin zəruriliyi bildirildi.

Söhbət zamanı Türkiyənin bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini dəstəklədiyi bir daha vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyev qardaş Türkiyənin bu sahədə dəyişməz mövqeyinə görə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İKT-NİN BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində İKT-nin baş katibi Ekmələddin İhsanoğlu ilə görüşmüşdür.

Ekmələddin İhsanoğlu İslam Konfransı Təşkilatının fəaliyyətinin gələcək perspektivi məsələsinə toxunaraq, bu qurumun sosial və iqtisadi proqramlara daha çox cəlb olunmasının əhəmiyyətini vurğuladı. Təşkilatın üzvü olan ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin genişlənməsi üçün konkret işlər görüldüyünü söyləyən E.İhsanoğlu bildirdi ki, biz İKT dövlətləri xarici işlər nazirlərinin Bakıda keçiriləcək konfransına böyük əhəmiyyət veririk.

Azərbaycan Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatı çərçivəsində gələcəkdə həyata keçiriləcək layihələrin praktiki nəticələrinin vacibliyini vurğuladı. Azərbaycanın bu təşkilatla əməkdaşlığının daim genişlənməsindən məmnunluğunu söyləyən Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Bakıda keçiriləcək konfransı ilə bağlı hazırlıq işlərinin yüksək səviyyədə getdiyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİNİN UZAQ ŞƏRQ FEDERAL DAİRƏSİNDƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ KAMİL İSHAKOV İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə İslam Konfransı Təşkilatında müşahidəçi statusu ilə iştirak edən Rusiya nümayəndə heyətinin başçısı, RF Prezidentinin Uzaq Şərq federal dairəsində səlahiyyətli nümayəndəsi Kamil İshakovla görüşmüşdür.

Söhbət zamanı Prezident İlham Əliyev Kazan şəhərinin salınmasının 1000 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirlərində iştirakını xatırlatdı.

Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MALAYZİYANIN BAŞ NAZİRİ ABDULLA ƏHMƏD BADAVİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Məkkədə, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi ilə görüşmüşdür.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələri, o cümlədən iqtisadi əlaqələrin genişlənməsi, beynəlxalq məsələlər, İKT çərçivəsində əməkdaşlığın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Kralı II Abdulla və Banqladeşin

Baş naziri xanım Xalidə Ziya Rəhman ilə də qısa görüşləri oldu.

Zirvə toplantısının birinci iş günü başa çatdıqdan sonra Minadakı Kral sarayında Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud tərəfindən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verildi. Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak edirdi.

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISININ ÜÇÜNCÜ QAPALI İCLASI

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü fövqəladə zirvə toplantısının dekabrın 8-də üçüncü qapalı iclası keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edirdi.

İclasda çıxış edən dövlət və hökumət başçıları zirvə görüşünün yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərlərinə təşəkkürlərini bildirdilər.

İslam Konfransı Təşkilatının fövqəladə zirvə toplantısının yekunlarına əsasən, "Müqəddəs Məkkə Bəyannaməsi" qəbul olundu.

Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud zirvə toplantısını bağlı elan etdi.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Vətənə qayıtdı.

BAKIDA SPECA ƏLAQƏLƏNDİRMƏ ŞURASININ BİRİNCİ TOPLANTISI KEÇİRİLMİŞDİR

Dekabrın 7-də Bakıda Birləşmiş Millətlər Təşkilatının (BMT) Mərkəzi Asiya və Azərbaycanın İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Əlaqələndirmə Şurasının 1-ci toplantısı keçirilmişdir.

Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın, BMT-nin Avropa, Asiya və Sakit Okean Ölkələri üzrə iqtisadi və sosial komissiyalarının, BMT-nin İnkişaf Proqramının və Asiya İnkişaf Bankının nümayəndələrinin iştirak etdiyi toplantıya Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev sədrlik etmişdir.

Toplantıda çıxış edən M.Məmmədquliyev SPECA-nın fəaliyyətinin gücləndirilməsi və bununla bağlı həyata keçirilmiş idarəetmə islahatlarına, mövcud problemlərin aradan qaldırılmasına, Azərbaycan tərəfindən Proqram çərçivəsində tətbiqi üçün təklif olunmuş "SPECA üzv dövlətlərində iqtisadi inkişaf məqsədləri üçün İKT sahəsində potensialın artırılması, Azərbaycanda Dövlət Tənzimlənməsi və Elektron İdarəçilik üzrə İxtisaslaşdırılmış Regional Təlim və Elmi-Tədqiqat Mərkəzinin yaradılması" və "ÜTT-yə daxil olmaq, sonrakı danışıqlar və icra dövrü, həmçinin qeyri-rəsmi ÜTT Forumunun yaradılması üçün SPECA üzv dövlətlərinin potensialının artırılması" layihələrindən danışmışdır. O, Proqramın fəaliyyətinə iki və çoxtərəfli donorların cəlb olunmasının və SPECA-nın regionun digər əməkdaşlıq təşkilatları ilə tərəfdaşlığının gücləndirilməsi-

nin vacibliyini diqqətə çatdırmışdır. Tədbirdə çıxış edən digər natiqlər SPECA-nın inkişafının perspektivlərinə dair mülahizə və təkliflərini söyləmişlər.

Toplantının sonunda Əfqanıstanın SPECA-ya qoşulması haqda sənəd, cari il noyabrın 9-10-da Almatıda və dekabrın 5-6-da Proqramın Su və Enerji, habelə İnkişaf üçün İKT üzrə işçi qruplarının yığıncaqlarının hesabatlarına və yuxarıda adları göstərilən layihələrə baxılmış və təsdiq edilmişdir.

Toplantıda, həmçinin bu ilin mayın 25-27-də Astanada "Mərkəzi Asiyada subregional iqtisadi əməkdaşlığın gücləndirilməsi və SPECA-nın gələcək rolu" mövzusunda keçirilmiş beynəlxalq konfransdan sonra görülmüş işlər, proqramın nəqliyyat, ticarət, statistika, gender və iqtisadiyyat üzrə işçi qruplarının hesabatları, SPECA-nın iqtisadi tədqiqatlar institutları şəbəkəsinin yaradılması təşəbbüsü barədə məsələ və Mərkəzi Asiyada Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı ilə SPECA Proqramı arasında əməkdaşlığa dair hesabat dinlənilmiş və müzakirə edilmişdir.

Gələn ilin iyun ayında SPECA-nın İdarəetmə Şurasının Bakıda keçirilməsi planlaşdırılan 1-ci toplantısına və İqtisadi Forumuna hazırlıq işləri müzakirə edilmiş və Azərbaycan tərəfindən Proqram çərçivəsində görülən işlər yüksək qiymətləndirilmişdir.

SƏRHƏDLƏRİN DELİMİTASİYASI ÜZRƏ DÖVLƏT KOMİSSİYALARININ 10-CU BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 5-8-də Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyalarının 10-cu birgə iclası keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini X.Xələfovun və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri A.Yakovenkonun sədrliyi ilə keçirilən birgə iclasda iki ölkənin dövlət komissiyalarının üzvləri, əlaqədar dövlət orqanlarının nümayəndələri və ekspertləri, həmçinin sərhəd rayonlarının rəhbərləri iştirak etmişlər.

İclasda razılaşdırılmamış sahələrdə dövlət sərhəd xəttinin keçməsi məsələlərinə baxılmış, habelə dövlət sərhədinin delimitasiyası üzrə əlavə normativ-hüquqi sənədlər, torpaq quruluşuna və istifadəsinə aid kartoqrafik materiallar araşdırılmış və müzakirə edilmişdir. Tərəflər komissiyaların iclasdan sonra öyrəniləcək və baxılacaq müvafiq sənədləri mübadilə etmişlər.

Dövlət komissiyaları çərçivəsində işin davam etdirilməsi və tarixi diplomatik kanallarla razılaşdırılacaq növbəti birgə iclasın Rusiyada keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞEVRON-AVRASİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU QAY HOLLİNQSVORTU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Prezident sarayında Şevron-Avrasiya şirkətinin icraçı direktoru Qay Hollinqsvortu qəbul etmişdir.

Ölkəmizə səfərə gəlməkdən məmnunluğunu bildirən qonaq Azərbaycan xalqının

ümummilli lideri Heydər Əliyevin vəfatının ikinci ildönümünün gələn həftə tamam olması ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi. O, Azərbaycan ilə Şevron-Avrasiya şirkətinin əməkdaşlığının genişlənəcəyinə əmin olduğunu vurğuladı.

Cənab Qay Hollinqsvortun Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərləri ilə keçirdiyi görüşdən xəbərdar olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev dedi ki, sizin gələcəkdə Azərbaycanda həyata keçirmək istədiyiniz layihələr barədə mənə məlumat verilmişdir. Bütün bunlar çox böyük önəm daşıyır. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarı və iştirakçılarındandır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi başa çatmışdır. Bu, dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığı daha da inkişaf etdirmək üçün gözəl zəmin yaratmışdır.

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ

Azərbaycan Baş nazirinin müavini, Dövlətqaçqınkomun, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənovun və İsveçin miqrasiya və sığınacaq siyasəti naziri Barbro Holmberqin dekabrın 12-də Nazirlər Kabinetində keçirilən görüşündə hər iki ölkənin miqrasiya siyasəti ilə məşğul olan dövlət qurumları arasında əməkdaşlıq yaradılması məsələləri müzakirə edilmişdir.

Xanım Holmberq görüşün Azərbaycan xalqı üçün hüznlü bir vaxtda - görkəmli siyasi xadim Heydər Əliyevin vəfatının ildönümü günündə keçirildiyini xatırlatdı, Azərbaycanla İsveç arasında ticarət-iqtisadi əməkdaşlığı genişləndirməyin zəruriliyini və bunun hər iki ölkə rəhbərlərinin iradəsinə cavab verdiyini vurğuladı. O dedi ki, Azərbaycanın İsveçdə, İsveçin isə Bakıda səfirliklərinin açılması ikitərəfli əlaqələrin genişlənməsi işinə xidmət edəcəkdir.

Baş nazirin müavini Əli Həsənov ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlikdən söz açdı, İsveç nümayəndə heyətinin üzvlərinə respublikamızın ən ağrılı problemindən - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq bildirdi ki, bu münaqişə nəticəsində Azərbaycan torpaqları işğal edilmiş, bir milyonadək soydaşımız doğma ocaqlarından qovulmuşdur.

Görüşdə miqrasiya proseslərinin tənzimlənməsi sahəsində ölkəmizdə mövcud olan vəziyyət, beynəlxalq normalara cavab verən hüquqi baza, idarəetmə məsələləri, habelə Azərbaycandan, o cümlədən üçüncü ölkələrdən İsveçə miqrasiya problemlərinin əlaqələndirilməsi məsələləri müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURƏDDİN ARASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin İğdır bələdiyyəsinin sədri Nurəddin Arasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rəhbərlik etdiyi nümayəndə heyətinin dövlətimizin başçısı ilə görüşdən böyük məm-

nunluq duyduğunu bildirən qonaq iğdırlı azərbaycanlıların salamlarını Prezident İlham Əliyevə çatdırdı, iğdırlıların dövlətimizin başçısına olan böyük sevgisini, ehtiramını ifadə etdi.

Nurəddin Aras dedi: Hörmətli cənab Prezident, biz Sizi təkcə Azərbaycanda yaşayan azərbaycanlıların deyil, həmçinin bütün dünyada olan azərbaycanlıların Prezidenti kimi qəbul edirik və bunu ürəkdən təsdiq edirik. Bizim, Türkiyənin İğdır şəhərində yaşayan azərbaycanlıların Bakıya gəlişimizin məqsədi ümummilli lider Heydər Əliyevin əziz xatirəsi önündə baş əymək, onu yad etməkdir. İğdır azərbaycanlıları Sizi çox sevirlər. Biz orada Sizin rəhmətlik atanız, ümummilli liderimiz Heydər Əliyevin adına park salmışıq və həmin yerdə onun büstünü qoymuşuq. Eyni zamanda, Naxçıvandan İğdıra gedən yolun kənarında bulvar salmışıq və ona Sizin adınızı vermişik. İstərdik ki, Sizi İğdırda görək, dəvətimizi qəbul edib gələsiniz, özünüzü evinizdəki kimi hiss edəcəksiniz. Buna əmin ola bilərsiniz. Gəlsəniz, bizi çox xoşbəxt edərsiniz.

Səmimi sözlərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Türkiyə ilə Azərbaycan arasında əlaqələrin çox sürətlə inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Türkiyənin müxtəlif vilayətlərindən xeyli sayda insanın Bakıya gəlməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev dedi: İğdırla Naxçıvan arasında həmişə sıx bağlılıq olmuşdur və bu, indi də davam edir. Bu gün bizim aramızda dostluq və qardaşlıq münasibətləri mövcuddur və bu, həmişə belə olacaqdır. Sizi Azərbaycanda ürəkdən salamlayıram. Azərbaycan, Naxçıvan üçün ən çətin illərdə həmişə Türkiyədən, o cümlədən İğdırdan kömək gəlmişdir. Həmin vaxt "Ümid" körpüsünün tikilməsi nəticəsində Naxçıvan blokadanı yara bilmişdir. Mənim salamlarımı, sevgimi bütün iğdırlılara çatdırmağı xahiş edirəm.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

Dekabrın 13-də xarici işlər nazirinin müavini Araz Əzimov ATƏT Nazirlər Şurasının dekabrın 5-dən 6-dək Sloveniyanın paytaxtı Lyublyana şəhərində təşkil edilmiş 13-cü iclasına dair brifinq keçirmişdir.

A.Əzimov bildirmişdir ki, iclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir. E.Məmmədyarov tədbirdə çıxış edərək, gündəlikdə duran məsələlərə dair Azərbaycanın mövqeyini açıqlamışdır.

Nazir müavininin sözlərinə görə, müəyyən siyasi səbəblərdən iclasda bəzi sənədlər, o cümlədən ümumi bəyannamə qəbul edilməmişdir. Xarici işlər naziri E.Məmmədyarov səfər çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşmüş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində atılacaq növbəti addımları müzakirə etmişdir.

Xarici işlər naziri iclas çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN-AVROPA İTTİFAQI YÜKSƏK SƏVİYYƏLİ ÜÇLÜK GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan-Avropa İttifaqı yüksək səviyyəli Üçlük görüşündə iştirak etmək üçün dekabrın 12-dən Brüsseldə səfərdədir. Tədbirdən əvvəl nazir E.Məmmədyarov Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye ilə görüşmüşdür. Tərəflər Azərbaycan-Aİ münasibətləri və bölgədəki münaqişələrin həlli məsələlərinə toxunmuşlar.

Dekabrın 13-də Aİ Nazirlər Şurasının baş katibi Xavyer Solananın iştirakı ilə Avropa İttifaqı-Cənubi Qafqaz ölkələrinin xarici işlər nazirləri üçün işçi səhər yeməyində Cənubi Qafqazda mövcud münaqişələr və hazırda davam edən danışıqlar prosesi ilə bağlı məsələlər müzakirə olunmuşdur. Söhbət zamanı bölgədəki münaqişələrin həllində və azad olunacaq ərazilərin bərpasında Aİ-nin rolundan danışılmışdır.

Daha sonra Azərbaycan-Aİ yüksək səviyyəli Üçlük görüşü keçirilmişdir. Görüşdə X.Solana, Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi H.Talvitiye, Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini K.Kovanda, Aİ-yə hazırda sədrlik edən Böyük Britaniyanın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi B.Foll, təşkilata növbəti sədrlik edəcək Avstriyanın dövlət katibi H.Vinkler və qurumun digər yüksək səviyyəli nümayəndələri iştirak etmişlər.

Görüşdə Avropa Qonşuluq Siyasəti üzrə Azərbaycan-Aİ Fəaliyyət Planının (AQS FP) müzakirəsinin başlanması alqışlanmış və müzakirələrin tezliklə başa çatacağına ümid ifadə olunmuşdur. Nazir E.Məmmədyarov bildirmişdir ki, Aİ ilə münasibətlərin genişləndirilməsi və Avratlantik strukturlara inteqrasiya Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir və bu istiqamətdə Avropa Qonşuluq Siyasəti üzrə Azərbaycan-Aİ Fəaliyyət Planına xüsusi əhəmiyyət verilir. Avropa Komissiyasının nümayəndəsi K.Kovanda bildirmişdir ki, AQS çərçivəsində Fəaliyyət Planının həyata keçirilməsinə və eləcə də islahatlar prosesinə əhəmiyyətli dərəcədə resurslar yönəldilməlidir və Aİ bu məsələdə hər cür yardım göstərməyə hazırdır.

Bu il noyabrın 6-da Azərbaycanda keçirilmiş parlament seçkiləri də daxil olmaqla bir sıra siyasi məsələlər, həmçinin enerji və nəqliyyat məsələləri müzakirə edilmişdir. Enerji məsələlərindən danışan E.Məmmədyarov Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə bağlı məlumat vermişdir. Avropa Komissiyasının nümayəndəsi Azərbaycanın hasilat sənayesinin Şəffaflıq Təşəbbüsünə qoşulmasını yüksək dəyərləndirmişdir. Daha sonra nazir Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun vacibliyini və artıq bu layihə ilə əlaqədar Texniki-İqtisadi Əsaslandırılmanın aparıldığını diqqətə çatdırmışdır. Nazir bu dəmir yolunun Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin inkişaf etdirilməsi və Azərbaycanın nəqliyyat şəbəkəsinin Trans-Avropa nəqliyyat şəbəkələri ilə birləşdirilməsi baxımından da vacibliyini vurğulamışdır.

Nazir E.Məmmədyarov ticarətdə qeyri-tarif maneələrinin aradan qaldırılması üzrə həyata keçirilən tədbirlərin davam etdirilməsinin məqsədəuyğunluğunu bildirmiş və bunun Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması prosesini sürətləndirəcəyini qeyd etmişdir.

Nazir Azərbaycan-Aİ münasibətlərində siyasi, iqtisadi, enerji, təhsil, elmi-tədqiqat və digər sahələr üzrə əməkdaşlığın gücləndirilməsinin zəruriliyini diqqətə çatdıraraq, bu prosesin Azərbaycan milli qanunvericiliyinin Aİ standartlarına uyğunlaşmasına da təkan verəcəyini bildirmişdir. Azərbaycan vətəndaşlarının Aİ ölkələrinə səfərləri zamanı maneələrin olduğunu söyləyən E.Məmmədyarov, vizaların verilməsi işinin sadələşdirilməsinin əhəmiyyətini vurğulamış, bu məsələdə Aİ ilə müzakirələr aparılması vaxtının çatdığını bildirmişdir.

Sonda X.Solana və üç Cənubi Qafqaz ölkəsi xarici işlər nazirlərinin birgə mətbuat konfransı keçirilmişdir.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞLƏR

Milli Məclisin sədri Oqtay Əsədov dekabrın 14-də parlamentdəki Heydər Əliyev salonunda MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi Mixail Krotovu qəbul etmişdir.

Oqtay Əsədov xatırlatmışdır ki, Azərbaycan xalqımızın ümummilli lideri Heydər Əliyevin səyi nəticəsində MDB PA-ya üzv olmuşdur. Bu qurumun bizim üçün əhəmiyyəti böyükdür, deputatlarımız Assambleyanın iclaslarında tez-tez olur, sıx əlaqələr qurur, əməkdaşlıq edir, qanunvericilik sahəsində təcrübə mübadiləsi aparırlar. Hesab edirəm ki, bu görüşümüz həm parlamentlərimiz, həm də ölkələrimiz arasında əlaqələrin inkişafına öz müsbət təsirini göstərəcək, münasibətlərimiz daha da genişlənəcəkdir.

Mixail Krotov Oqtay Əsədovu Milli Məclisin sədri seçilməsi münasibətilə RF Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun adından və öz adından təbrik etmişdir.

O demişdir ki, 2005-ci il Rusiyada Azərbaycan ili elan edilib, 2006-cı ildə isə Azərbaycanda Rusiya ili keçiriləcəkdir. Biz Rusiyada Azərbaycan ilinin keçirilməsinə öz töhfəmizi vermişik və istərdik ki, Sizin köməyinizlə Azərbaycanda Rusiya ilində iştirak edək. Gələn il həm də Rusiya Dövlət Dumasının 100 ili tamam olur. Bununla əlaqədar silsilə tədbirlər keçiriləcəkdir. Rusiyada parlamentarizmin qurulmasında azərbaycanlıların da böyük xidmətləri olmuşdur və onlar Dumanın işində fəal iştirak ediblər. Yubiley tədbirlərində Sizin də iştirakınız bizim üçün xoş olardı.

Görüşdə qanunvericilik sahəsində əməkdaşlığa, əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Oqtay Əsədov həmin gün Bakıda səfərdə olan Gürcüstan parlamentinin deputatı Kamal Muradxanlını və bu ölkənin Azərbaycandakı səfiri Zurab Qumberidzeni də qəbul etmişdir.

Milli Məclisin sədri vurğulamışdır ki, iki qonşu ölkə arasında əlaqələrin bütün sahələrdə daha da inkişaf etməsi üçün gözəl zəmin vardır. Biz çalışacağıq ki, münasibətlərimiz bundan sonra da möhkəmlənsin və genişlənsin. Çox şadam ki, Milli Məclisin sədri kimi məni ilk olaraq Gürcüstanın səfiri və qonşu ölkənin deputatı təbrik etdi. Düşünürəm ki, bu, həm də gözəl başlanğıcdır.

Kamal Muradxanlı Oqtay Əsədovu Azərbaycanda keçirilən seçkilərin müvəffəqiyyətlə başa çatması və Milli Məclisin sədri seçilməsi münasibətilə Gürcüstan parlamentinin sədri Nino Burcanadzenin adından təbrik etmiş, gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Deputat demişdir ki, Bakıya səfərdən əsas məqsəd ümummilli lider Heydər Əliyevin vəfatının ikinci ildönümü ilə əlaqədar keçirilən anma mərasimlərində iştirak etmək idi. Dünya miqyaslı siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin xatirəsi Gürcüstanda da ehtiramla anılır. Gürcü xalqı Heydər Əliyevi heç zaman unutmayacaq və onun əziz xatirəsini daim yaşadacaqdır.

Azərbaycan və Gürcüstan prezidentləri arasındakı mehriban dostluq münasibətlərinin ölkələrimizin əlaqələrinin inkişafına da geniş imkanlar açdığını vurğulayan K.Muradxanlı parlamentlərin bundan maksimum istifadə edəcəyinə və əlaqələrin genişlənməsində yeni mərhələ başlayacağına ümidvar olduğunu bildirmişdir.

Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Prezident sarayında Beynəlxalq Valyuta Fondunun Yaxın Şərq və Mərkəzi Asiya üzrə Departamenti direktorunun müavini Julian Berenqautun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaq bildirdi ki, Bakıya səfərdən məqsəd Azərbaycanın müvafiq qurumları ilə məsləhətləşmələr aparmaqdır. O dedi ki, Azərbaycanda proqramlar uğurla həyata keçirilir, müzakirələr zamanı ölkənin 2005-ci il büdcəsinin yerinə yetirilməsi və 2006-cı ildə iqtisadi inkişaf məsələlərinə diqqət yetiriləcəkdir.

2005-ci ildə Azərbaycanda iqtisadi artım sürətinin, makroiqtisadi sabitliyin yüksək səviyyədə olduğunu vurğulayan cənab Julian Berenqaut büdcə siyasətinin, xarici siyasətin uğurla həyata keçirilməsinin və digər amillərin bu proseslərdə böyük rol oynadığını söylədi. Qonaq əmin olduğunu bildirdi ki, BVF ilə Azərbaycan arasında əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcəkdir.

Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığından məmnunluğunu ifadə edən, ölkəmizin iqtisadi sahədə böyük nailiyyətlər qazandığını bildirən dövlətimizin başçısı büdcə artımını, qlobal enerji layihələrinin həyata keçirilməsini və digər uğurların iqtisadi inkişafımızın əsas göstəriciləri kimi dəyərləndirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda makroiqtisadi sabitliyin qorunub saxlanılması istiqamətində konkret işlər həyata keçirilir. İqtisadi siyasətdə tarazlaşdırma prinsiplərinə xüsusi diqqət yetirildiyini nəzərə çarpdıran dövlətimizin başçısı dedi ki, indi ölkəmiz yeni inkişaf mərhələsinə daxil olmuşdur. Yaxın illərdə Azərbaycana böyük maliyyə vəsaitləri daxil olacaq və biz bundan səmərəli istifadə olunması məsələsinə böyük diqqət yetirirk. Prezident İlham Əliyev bu baxımdan Azərbaycanın dünyanın aparıcı maliyyə qurumları, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığa

böyük əhəmiyyət verdiyini vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı bundan sonra da uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ERMƏNİSTAN MÜNAQİŞƏNİN HƏLLİNDƏ KONSTRUKTİV MÖVQE TUTMALIDIR

Dekabrın 19-da xarici işlər nazirinin müavini Araz Əzimov ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona son səfərinə dair brifinq keçirmişdir.

Həmsədrlərlə Bakıda keçirilən görüşlərin vacib və faydalı olduğunu diqqətə çatdıran nazir müavini, danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki hazırkı vəziyyətin və gələcək addımların müzakirə edildiyini bildirmişdir.

O demişdir ki, həmsədrlər gələn il yanvarın sonunda və ya fevralın əvvəllərində Ermənistan və Azərbaycan prezidentlərinin görüşünün keçirilməsini təklif etmişlər. Onun sözlərinə görə, Azərbaycan hazırda bu görüşün keçirilməsini ciddi surətdə nəzərdən keçirir. Azərbaycan tərəfi hesab edir ki, prezidentlərin görüşü üçün ciddi əsaslar olmalıdır. A.Əzimov prezidentlərin görüşündən əvvəl hazırlıq məqsədi ilə xarici işlər nazirlərinin görüşünün keçirilməsini istisna etməmişdir.

2006-cı ildə böyük gözləntilər olduğunu diqqətə çarpdıran A.Əzimov münaqişənin həlli üçün qarşı tərəfin konstruktiv mövqe göstərməsinin vacibliyini qeyd etmişdir.

Dağlıq Qarabağın danışıqlarda tərəf kimi iştirakı məsələsinə aydınlıq gətirən nazir müavini vurğulamışdır ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Hazırda orada qondarma rejim yaradılmış və Dağlıq Qarabağda, eləcə də işğal olunmuş ətraf rayonlarda etnik təmizləmə aparılmışdır. Orada yaşayan erməni mənşəli əhali Azərbaycan vətəndaşlarıdır. Azərbaycan öz vətəndaşları ilə dialoqdan heç vaxt imtina etməmişdir. Lakin razılığa əsasən, hazırda danışıqlar Azərbaycan və Ermənistan arasında aparılır. Münaqişənin həlli istiqamətində ölkəmiz beynəlxalq hüquq normaları və prinsiplərinə söykənir. Dağlıq Qarabağın gələcək statusu Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində, demokratik əsaslarla Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi tərəfindən birgə müəyyənləşdirilməlidir. Bu məsələdə başqa variantlar qəbul edilə bilməz.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD NAXÇIVANA GƏLMİŞDİR

Dekabrın 20-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Naxçıvan beynəlxalq hava limanında İran Prezidentini muxtar respublika Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, İranın Bakıdakı və Azərbaycanın Tehrandakı səfirləri qarşıladılar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi binasının önündəki meydanda İran İslam Respublikası Prezidentinin təntənəli qarşılanma mərasimi oldu. Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Mahmud Əhmədinejadı səmimiyyətlə qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi. İranın və Azərbaycanın dövlət himnləri səsləndirildi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyəti İran Prezidentinə, İran nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

Dekabrın 20-də Naxçıvan MR Ali Məclisinin binasında Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycanla İran arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən iqtisadi, humanitar və mədəni əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu əlaqələrin daha da möhkəmlənəcəyinə əminlik vurğulandı. Hökumətlərarası razılaşmaya əsasən, İran ərazisi ilə Naxçıvana təbii qazın verilməsini əlamətdar hadisə kimi qiymətləndirən prezidentlər bunun iqtisadi layihələrin həyata keçirilməsində əməkdaşlığın yaxşı nümunəsi olduğunu bildirdilər.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Dekabrın 20-də Azərbaycan və İran prezidentlərinin təkbətək görüşündən sonra danışıqlar dövlət başçılarının iştirakı ilə geniş tərkibdə davam etdirildi.

Görüşdə ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin vəziyyəti, habelə perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı. Bu münasibətlərin gələcəkdə daha da möhkəmləndirilməsinin zəruriliyi, hər iki ölkənin birgə iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində səyləri xüsusi vurğulandı. Eyni zamanda müştərək komissiyanın fəaliyyətinin genişləndirilməsi, qarşılıqlı səfərlərin artırılmasının vacibliyi bildirildi. İqtisadi əməkdaşlıq çərçivəsində İran ərazisi ilə Naxçıvan Muxtar Respublikasına təbii qaz verilməsi qarşılıqlı işbirliyinin real sübutu, xalqlarımızın dostluq münasibətlərinin daha bir təzahürü kimi qiymətləndirildi.

Görüşdə mədəni, humanitar əlaqələrə də toxunuldu və bu sahələrdə qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Dövlət başçıları Azərbaycan ilə İran arasında dostluq əlaqələrinin möhkəm təməllər üzərində qurulduğunu bir daha vurğuladılar.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında energetika sahəsində əməkdaşlıq haqqında memorandum"u imzaladılar.

Sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İranın xarici işlər naziri Mənuçehr Mottəki "Azərbaycan Respublikasının Hökuməti və İran İslam Respublikasının Hökuməti arasında inkişaf yardımından istifadəyə dair icra memorandumu"nu imzaladılar.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

İmzalanma mərasimindən sonra birgə mətbuat konfransı keçirildi. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha ürəkdən salamlayıram və Sizə xoş gəlmisiniz deyirəm.

Bir müddət bundan əvvəl biz, hörmətli cənab Prezidentlə Məkkə şəhərində görüş keçirdik və ikitərəfli əlaqələri müzakirə etdik, geniş fikir mübadiləsi apardıq. Mən cənab Əhmədinejadı Naxçıvana dəvət etdim ki, burada görüşək. Həm İrandan Naxçıvana qazın verilməsini qeyd edək, eyni zamanda, yenidən görüşüb ikitərəfli əlaqələri müzakirə edək, aramızda olan siyasi-iqtisadi, mədəni əlaqələri müzakirə edək. İki ölkə arasında əlaqələr çox yüksək səviyyədədir. Biz çox səmərəli əməkdaşlıq edirik və bu əməkdaşlığın praktiki nəticələri vardır.

Çox sevindirici haldır ki, imzalanmış sənədlər, sazişlər qısa müddət ərzində həyatda öz əksini tapır və icra olunur. Bugünkü görüşlərdə də müvafiq nazirlərə konkret tapşırıqlar verildi, bizim əməkdaşlığımızın gələcək addımları müzakirə edildi və bir daha əmin olduq ki, iki dost, qardaş ölkə arasında əlaqələr yüksələn xətlə davam edir. Bizim aramızda qarşılıqlı anlaşma var, əməkdaşlıq var, dostluq var və əminəm ki, bu səfərdən sonra bütün sahələrdə əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

İran ilə Azərbaycan qonşu, dost ölkələrdir. Bizim aramızda olan əməkdaşlıq həm ölkələrimiz üçün, həm də bölgə üçün çox əhəmiyyətlidir. Bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olunması çox böyük əhəmiyyət kəsb edir. Bizim ölkələrimiz bu işə öz töhfəsini verir. Əlbəttə, iqtisadi əlaqələrin genişlənməsi bizim maraqlarımıza uyğundur. 15 ildən sonra Naxçıvana təbii qazın verilməsi tarixi bir hadisədir. Gələcək-

də bizi birləşdirən daha çox başqa-başqa layihələr olacaqdır. Bu layihələr bizi daha da sıx birləşdirəcəkdir.

Bu gün keçirilmiş görüşlər, apardığımız danışıqlar məni bir daha əmin etdi ki, gələcəkdə bizim ölkələrimiz sıx əməkdaşlıq edəcək və hələ çoxlu layihələri birgə həyata keçirəcəklər. Sağ olun.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDNEJADIN BƏYANATI

- Bismillahir-rəhmanir-rəhim!

Çox şadam ki, bu gün burada vaxtilə aramızda razılıq əldə olunmuş layihənin - qazın verilməsi ilə bağlı təntənəli açılış mərasimində iştirak etmək mənə nəsib olub və iştirak edirəm. Mənim əziz dostum, qardaşım, hörmətli cənab Prezident İlham Əliyev qeyd etdi ki, bizim münasibətlərimiz çox yaxşı inkişaf edir və bu əlaqələrin yaxşı əsası, təməli qoyulubdur.

Azərbaycanın inkişafı, müstəqilliyi və başucalığı İranın inkişafı, müstəqilliyi və başucalığı deməkdir. Biz həmişə Azərbaycan dövlətinin sevincli və qəmli günlərinə şərik olacağıq. Amma ümidvarıq və arzu edirik ki, Azərbaycan dövlətinin, xalqının qəmli günləri heç bir vaxt olmasın. Mənim əziz dostum, qardaşımla çox yaxşı müzakirələrimiz, danışıqlarımız oldu. Biz münasibətlərimiz haqqında bir daha danışıqlar apardıq və indiyə qədər imzalanmış, razılaşdırılmış layihələr və məsələlər ətrafında fikir mübadiləsi edib, bunları bir daha gözdən keçirdik. Münasibətlərimizi gələcəkdə daha da inkişaf etdirmək məsələlərinə də toxunduq. Nəqliyyat sahəsində əlaqələri inkişaf etdirmək məsələsindən başlayaraq, energetika, qaz və neft, mədəniyyət, elm sahələrində əməkdaşlığı genişləndirmək, siyasi sahədə ikitərəfli və beynəlxalq səviyyədə münasibətləri genişləndirmək və digər məsələləri bir daha müzakirə etdik.

Mən bir daha əmin oldum ki, bizim münasibətlərimiz yaxşı təməl üzərində qoyulub və inkişaf edir. Çox şadıq ki, münasibətlərimiz yaxşı təməl üzərində qurulubdur. Qətiyyətlə bir daha qeyd etmək istərdim ki, dost, qardaş Azərbaycanla münasibətlərimizin bütün sahələrdə inkişafı üçün heç bir məhdudiyyət qoymuruq.

Neft, qaz, energetika sahəsində əməkdaşlıq və bu sahələrdə ikitərəfli münasibətlərdən də kənara çıxaraq, çoxtərəfli münasibətlər qurmaq sahəsində də fikir mübadiləsi apardıq. Belə qərara gəldik ki, yaxın gələcəkdə dövlətlərarası müştərək komissiyanın fəaliyyətini gücləndirək və yaxın gələcəkdə onun növbəti iclasları keçirilsin. Xarici işlər nazirlərimizə tapşırıq verildi ki, bütün məsələləri nəzarət altında saxlasınlar və bunların icra olunmasını sürətləndirsinlər. Belə qərara gəldik ki, Azərbaycanda mənim dostum, qardaşım cənab Əliyev və İranda mən indiyə qədər razılığa gəldiyimiz məsələlərin icrasına özümüz də birbaşa nəzarət edək. İndiyə qədər razılıq əldə etdiyimiz məsələlərin icrası iki qardaş xalq arasında və şəxsən cənab Əliyevlə mənim aramda dostluğun inkişafının daha da möhkəmlənməsinin bir təminatıdır.

Naxçıvana təbii qaz verilməsi münasibətilə Naxçıvan əhalisinə, rəhbərliyinə, bütün Azərbaycan xalqına və dövlətinə təbrik sözlərimi çatdırıram. Mən belə hesab edirəm ki, bizim görüşümüz o zaman həyata keçirilir ki, razılaşdırılmış məsələ icra mərhələsinə gəlib çatır. Səmimi, mehriban qarşılanmaya görə əziz dostum, qardaşım cənab Əliyevə

və onun əməkdaşlarına böyük təşəkkürümü bildirirəm.

İkitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafı, əməkdaşlığımızın daha da genişlənməsi dost, qardaş xalqlarımızın mənafeyinə və eyni zamanda regionda sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edir. Arzu edirəm ki, bu xoşniyyətli fikirlərimiz tezliklə həyata keçirilsin və iki dost, qardaş xalqın mənafeyinə, rifahına xidmət etsin. Təşəkkür edirəm.

Sonra Prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

- Mən Azərbaycan Prezidenti cənab İlham Əliyevə və İran Prezidenti cənab Mahmud Əhmədinejada salamlarımı yetirirəm. Sualım hər iki prezidentədir. Azərbaycan-İran münasibətlərinin iqtisadi, siyasi sahədə indiki vəziyyətini və gələcək inkişafını necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra İranla Azərbaycan arasında olan əlaqələr sürətlə inkişaf edir və bu gün çox yüksək zirvəyə gəlib çatıbdır. Siyasi əlaqələrimiz güclənir və qısa müddət ərzində prezidentlərin iki görüşünün keçirilməsi bunun əyani təzahürüdür. Müxtəlif qurumlar bir-biri ilə sıx əlaqə saxlayır, nazirlər, məclis üzvləri, digər vəzifəli şəxslər çoxlu səfərlər edirlər. Ümid edirəm ki, gələcəkdə bu meyillər davam edəcəkdir.

Onu da qeyd etmək istəyirəm ki, İran bütün dövrlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir və bütün beynəlxalq təşkilatlarda bizim mövqeyimizə səs vermişdir. Biz buna görə İran rəhbərliyinə minnətdarıq.

İqtisadi sahədə də uğurlar göz qabağındadır. Müştərək komissiya səmərəli işləyir və bu gün qeyd etdiyimiz hadisə – İrandan Naxçıvana təbii qazın verilməsi məhz iqtisadi, eyni zamanda siyasi əlaqələrimizin bariz nümunəsidir. Adətən, dünya praktikası onu göstərir ki, belə böyük layihələr, onların icrası bir neçə il aparır. Amma bizdə bu, sadəcə olaraq, bir il ərzində baş verdi. Bu onu göstərir ki, burada həm siyasi iradə var, eyni zamanda iqtisadi maraqlar var. Bütün bu amillər bir yerdə olanda, əlbəttə, ölkələr arasında əlaqələr daha da möhkəmlənir və bu, bizim maraqlarımıza cavab verir.

Gələcək əməkdaşlığa gəldikdə isə, mən bu əməkdaşlığa çox böyük nikbinliklə və ümidlərlə baxıram. Mən əminəm ki, möhkəm təməl üzərində qurulmuş əlaqələr gələcəkdə də davam edəcək, möhkəmlənəcək və iki xalqın maraqlarına cavab verəcəkdir.

MAHMUD ƏHMƏDİNEJAD: Mənim bu suala cavabım Sizin dediklərinizlə eynidir. Elə mənim cavabım da belə ola bilərdi.

- Mənim sualım hər iki prezidentədir. Cənab prezidentlər, Azərbaycanla İran arasında münasibətlər inkişaf etməkdədir. Artıq siz bu münasibətlərin iqtisadi perspektivləri barədə danışdınız, siyasi məsələlərə də toxundunuz. Azərbaycan və İran xalqları arasında çox böyük qədim, mədəni ənənələr mövcuddur. Bu baxımdan xalqlarımızın mədəni, humanitar əlaqələrinin perspektivləri barədə nə deyə bilərsiniz?

MAHMUD ƏHMƏDİNEJAD: Mən bu sahədə əməkdaşlığı belə qiymətləndirərdim: iki dost, qardaş xalq arasında əməkdaşlıq iki qardaş arasında olan münasibətlərin nümu-

nəsidir. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik. Bu əməkdaşlığımız hər iki dost, qardaş xalqın, hər iki dost, qardaş dövlətin mənafeyinə xidmət edir. Bu münasibətlərin inkişafı eyni zamanda regionda sabitliyin, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

O ki qaldı, humanitar və mədəni əlaqələrin inkişafına, bunu deyə bilərəm ki, biz hörmətli cənab Prezidentlə də fikir mübadiləsi apardıq və bu məsələnin üzərində xüsusi dayandıq. Belə qərara gəldik ki, mədəniyyət, incəsənət sahəsində münasibətlərimizi, əlaqələrimizi daha da inkişaf etdirməliyik. Ayrı-ayrı incəsənət qrupları, idmançılar qarşılıqlı surətdə tədbirlər, yarışlar, ədəbi gecələr keçirməlidirlər. Bu, əməkdaşlıq münasibətlərimizi daha da möhkəmləndirməlidir.

Hörmətli həmkarım, cənab Prezident çox yerində qeyd etdi ki, bizim münasibətlərimiz o qədər möhkəmlənməlidir ki, heç kəs bu münasibətlərə xələl gətirə bilməsin. Bu, həqiqətən də belə olacaqdır. Bizim münasibətlərimiz əsil dost, qardaş münasibətləridir. Biz bir-birimizin xoş günlərinə sevinmişik, kədərli günlərində isə kədərlənmişik. Hər iki xalq kədərli günlərində həmişə qarşılıqlı surətdə bir-birinə əl uzadıb, lazımi kömək və yardım göstəribdir. Amma qeyd etməliyəm ki, sevincli günlərimiz daha çox olub, həmin günlərə daha çox sevinmişik.

İLHAM ƏLİYEV: Mən qeyd etmək istəyirəm ki, biz bu barədə çox ətraflı söhbət etdik. Belə bir fikrə gəldik ki, aramızda olan əlaqələr bu sahədə və bütün başqa sahələrdə çox xüsusi xarakter daşıyır. Elə ölkələr var, məsələn, onları ya hansısa müvəqqəti, yaxud da uzunmüddətli maraqlar birləşdirir, hansısa konkret layihələr birləşdirir. Amma bizim ölkələrimizi həm də çox dərin tarixi köklər birləşdirir. Qədim mədəniyyət əlaqələri birləşdirir. Xalqlarımızın bir-birinə olan sevgi-məhəbbəti birləşdirir. Bu, çox möhkəm təməldir. Bu möhkəm və sağlam təməl üzərində ikitərəfli əlaqələr qurulur, möhkəmlənir və inkişaf etdirilir. Ona görə bizim mədəniyyət, humanitar sahələrdə olan əlaqələr mədəniyyətimizin bir hissəsidir.

Bizim xalqlar qardaş xalqlardır və bu qardaşlıq indi də möhkəmlənir, davam etdirilir. Əminəm ki, gələcəkdə bütün sahələrdə - siyasi, iqtisadi, mədəni və başqa sahələrdə əməkdaşlığımız güclənəcəkdir.

NAXÇIVANA TƏBİİ QAZIN VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə dekabrın 20-də təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad mərasimdə iştirak edirdilər.

"Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətin yeni binası qarşısına toplaşan sakinlər dövlət başçılarını alqışlarla qarşıladılar.

Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad ilk qazın verilməsini bildirən məşəli alovlandırdılar. Bununla da Naxçıvan əhalisinin təbii qaza olan 15 illik həsrətinə son qoyuldu. Sakinlər bu tarixi hadisəni böyük sevinclə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Mahmud Əhmədinejad "Naxçıvanqaz" MMC-nin binasının rəmzi açılışını bildirən lenti kəsdilər, burada İrandan Naxçıvana çəkilmiş qaz xəttinin baş planına, kəmərin keçdiyi ərazinin xəritəsinə, eləcə də evlərdə quraşdırılacaq qaz piltələrinə və sayğaclara baxdılar.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad mərasimdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bu gün çox tarixi bir gündür, çox gözəl bir gündür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu, 15 ildən sonra Naxçıvana qaz verildi. Bu, çox böyük hadisədir, tarixi bir hadisədir. Bu münasibətlə mən sizin hamınızı təbrik edirəm.

Bir il bundan əvvəl iki dost, qardaş ölkə arasında saziş imzalandı ki, mübadilə yolu ilə Naxçıvan qazla təmin olunsun. Bir ildən sonra biz bu gözəl mərasimi keçiririk. Bu gün bizimlə bərabər bu mərasimdə İran İslam Respublikasının Prezidenti hörmətli dostum, qardaşım Mahmud Əhmədinejad iştirak edir. Xahiş edirəm, onu salamlayaq.

Naxçıvana qazın verilməsi iki ölkə arasında olan əlaqələrin təzahürüdür, onun nəticəsidir. İranla Azərbaycan arasında çox yaxın münasibətlər vardır. Bu gün keçirdiyimiz görüşdə bir daha əmin olduq ki, həm siyasi, həm iqtisadi, mədəni, həm də bütün başqa sahələrdə bizim aramızda qarşılıqlı anlaşma var, inam var, gözəl əməkdaşlıq var. Bu, çox vacibdir. Çünki qonşular arasında münasibətlər məhz belə olmalıdır. Məhz bu münasibətlərin nəticəsində birgə layihələr icra olunur, birgə məsələlər öz həllini tapır.

Naxçıvana İrandan təbii qazın verilməsi bu istiqamətdə atılmış çox böyük bir addımdır. Ancaq son addım deyildir. Bundan sonra böyük birgə layihələr icra olunacaq, enerji mübadiləsi məsələsi öz həllini tapacaqdır. Bilirsiniz ki, İrandan gələn qazla işləyən elektrik stansiyaları bu yaxınlarda işə düşəcəkdir və biz Naxçıvanı elektrik enerjisi ilə tamamilə təmin etmək iqtidarında olacağıq. Bu, bir daha onu göstərir ki, siyasi iradə olan yerdə, qarşılıqlı maraq olan yerdə və dostluq, qardaşlıq münasibətləri olan yerdə istənilən məsələ öz həllini tapır.

Bu gün təbiət də bizim tərəfimizdədir. Mən dünən Naxçıvana uçanda bir neçə saat Bakıda gözlədim. Çünki Bakıda hava buludlu idi, dumanlı idi. Bu gün də fikirləşirdim ki, bizim qonağımız gələndə görəsən hava necə olacaq, problem yaranmayacaq? Görürsünüz ki, hava da açıldı. Bu, gözəl bayramdır. Bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Naxçıvan bundan sonra da inkişaf etsin, çiçəklənsin, möhkəmlənsin. Naxçıvanda insanlar yaxşı yaşasınlar, onların sosial problemləri öz həllini tapsın. Elektrik enerjisi, qaz təchizatı, sosial infrastrukturun inkişafı - bütün bunlar görülən işlərin nəticələridir.

Əziz naxçıvanlılar, bu bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN ÇIXIŞI

- Bismillahir-rəhmanir-rəhim!

Mən çox şadam ki, bir memorandum və razılaşmanın nəticəsinə yetişməyin bayramında sizin yanınızdayam və bu mərasimdə iştirak edirəm. Çox şadam ki, indi burada qaz şölələndi və bundan sonra Naxçıvan əhalisi bu nemətin rahatlığından tam istifadə edəcəkdir. Mənim burada olmağım iki ölkə arasında olan möhkəm, dərin əlaqələrin daha da genişlənməsini göstərir. Bu əlaqələr nəticəsində iki ölkənin xalqları, hökumətləri arasında münasibətlərin günbəgün genişlənməsinin şahidi olacağıq.

On il bundan əvvəl Naxçıvanda bir görüşüm olubdur. Çox istərdim ki, Naxçıvana yenə də gəlim və buranın inkişafının şahidi olum. Allaha şükür olsun ki, sizin respublikanız günbəgün inkişafdadır. Buna görə sizi və əziz qardaşımı, cənab Əliyevi təbrik edirəm.

Bu gün cənab Əliyevə və mətbuat nümayəndələrinə də dedim ki, biz Azərbaycanla əlaqələrin genişlənməsinə heç bir məhdudiyyət qoymuruq. İstəyirdim, Naxçıvana gəlim və Sizinlə görüşüm. Allaha şükür edirəm ki, mənim niyyətimi gerçəkləşdirdi və bu istəyimə çatdım.

Çox sevinirəm ki, sizin şad üzlərinizi görürəm və sizi yaxından ziyarət edirəm. Arzulayıram ki, iki ölkə arasında səfərlər daha da artsın və daha yaxşı razılaşmalara nail olaq.

Sizi təbii qazın verilməsi ilə əlaqədar bir daha təbrik edirəm. Mübarək olsun və sizin üçün xeyirli olsun deyir, hamınızı Allaha tapşırıram.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

Dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin hələ sağlığında burada ucaldılmış abidəsini ziyarət etdilər və gül dəstələri qoydular.

İranın dövlət başçısı ulu öndər Heydər Əliyevin ölkələrimiz arasında dostluq münasibətlərinin yaranmasında və inkişaf etdirilməsindəki xidmətlərini xatırladaraq, dahi şəxsiyyətə Allahdan rəhmət dilədi.

Sonra dövlət başçıları Əcəmi seyrəngahını gəzdilər. Onlar açıq səma altında yaradılmış muzeyə maraqla baxdılar. Burada Naxçıvanın qədim tarixinə aid nadir tapıntılar, müxtəlif eksponatlar Azərbaycanın tarixi, mədəniyyəti haqqında ətraflı təsəvvür yaradır. Xalqımızın qədim mədəniyyətə malik olduğunu sübut edən bu eksponatlar təkcə Azərbaycan xalqının yox, bütövlükdə Şərq xalqlarının tarixini yaşadır.

Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII əsrdə yaratdığı və təkcə milli memarlığımızın deyil, ümumən Şərq memarlığının incilərindən sayılan Mömünə xatın türbəsini seyr etdilər. Prezidentlərə Atabəylər dövlətinin tarixinə dair ekspozisiya barədə məlumat verildi. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgiz, onun arvadı Mömünə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan buradakı sərdabədə dəfn olunmuşlar.

Naxçıvan Dövlət Xalça Muzeyi, burada saxlanılan el sənəti nümunələri ilə tanışlıq da dövlət başçılarında xoş təəssürat yaratdı. Bildirildi ki, Azərbaycanın qədim xalçaçılıq sənətinin ənənələri bu gün də yaşadılır.

Gəzinti başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Mahmud Əhmədinejad sağollaşdılar və İranın dövlət başçısı öz ölkəsinə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA MÜFTİLƏR ŞURASININ SƏDRİ RAVİL QAYNUDDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Prezident sarayında Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddini qəbul etmişdir.

Dövlətimizin başçısı ilə görüşdən çox məmnun qaldığını bildirən qonaq Qafqaz Müsəlmanları İdarəsinin sədri hacı Allahşükür Paşazadənin Şeyxulislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə iştirakını böyük məmnunluqla vurğuladı.

Ravil Qaynuddin Rusiyada yaşayan müsəlmanlar adından dövlətimizin başçısını salamladı, Şeyxulislam hacı Allahşükür Paşazadənin keçmiş sovet respublikalarında yaşayan müsəlmanlar arasında hörmət qazandığını bildirdi.

Prezident İlham Əliyev Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddinin Qafqaz Müsəlmanları İdarəsinin sədri hacı Allahşükür Paşazadənin Şeyxulislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə keçirilən tədbirdə iştirakından məmnun olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PATRİARXI II İLİANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Prezident sarayında Gürcüstanın Patriarxı II İlianı qəbul etmişdir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Şeyxulislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə Gürcüstan Patriarxı II İlianın iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı Azərbaycan və gürcü xalqları, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, dostluq münasibətlərinin daim inkişaf etdiyini vurğuladı.

Prezident İlham Əliyev Gürcüstan Patriarxlığı ilə Qafqaz Müsəlmanları İdarəsi arasında yaranmış gözəl əlaqələrin ölkələrimizin əməkdaşlığının daha da möhkəmlənməsinə töhfə verdiyini nəzərə çarpdırdı.

Patriarx II İlia gürcü xalqı adından dövlətimizin başçısını salamladı, Prezident Mixail Saakaşvilinin ən səmimi arzularını, dərin ehtiramını Prezident İlham Əliyevi çatdırdı. O, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Şeyxulislam kimi fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə məmnunluqla iştirak etdiyini vurğuladı.

Prezident İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstan Prezidenti Mixail Saakaşviliyə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ GELA BEJUAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında Gürcüstanın xarici işlər naziri Gela Bejuaşvilini qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan, müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı Gürcüstanın Xarici İşlər Nazirliyinin əməkdaşlığımızın genişlənməsində rolunu nəzərə çarpdırdı.

Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirakını məmnunluqla xatırladı.

Ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyini vurğulayan dövlətimizin başçısı xarici işlər naziri cənab Gela Bejuaşvilinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə əmin olduğunu bildirdi.

Prezident Mixail Saakaşvilinin səmimi salamlarını və xoş arzularını çatdıran Gela Bejuaşvili Gürcüstan rəhbərinin təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi. O, Azərbaycan və Gürcüstan prezidentləri arasındakı səmimi münasibətlərin ölkələrimizin əlaqələrinin inkişafında xüsusi rol oynadığını bildirdi. Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin daim genişləndiyini vurğulayan qonaq əmin olduğunu bildirdi ki, əməkdaşlığımız bundan sonra da inkişaf edəcəkdir.

Prezident İlham Əliyev səmimi salamlara və təbrik məktubuna görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstan Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN VƏ AVSTRİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Dekabrın 19-dan 23-dək Azərbaycan və Avstriya arasında xarici işlər nazirlərinin müavinləri səviyyəsində ikitərəfli məsləhətləşmələr keçirilmişdir.

Məsləhətləşmələrdə Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə heyəti və ölkəmizin Avstriyadakı səfiri Fuad İsmayılov, səfirliyin əməkdaşları iştirak etmişlər. Nümayəndə heyəti Avstriya Xarici İşlər Nazirliyinin baş katibi Yohannes Kirle, XİN-nin əsas qurumlarının - Cənubi Qafqaz və Mərkəzi Asiya İdarəsinin rəisi Hanns Porias, Hüquq və Konsulluq məsələləri Departamentinin rəisi Kristian Berlakovits, İnteqrasiya və İqtisadi-Siyasi məsələlər Departamentinin rəisi Martin Saydik, Siyasi Departamentin rəisi Tomas Mayr-Hartinq ilə görüşlər keçirmişdir.

Avstriyanın Xarici İşlər Nazirliyində keçirilmiş görüşlərdə Azərbaycan və Avstriya arasında mövcud ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar istiqamətləri, ölkələrimizin əlaqələrinin daha da inkişaf etdirilməsi yolları, Azərbaycanın Avropa İttifaqının qonşuluq siyasətində iştirakı, Avropa İttifaqına 2006-cı ilin birinci yarısında sədrliyi dövründə Avstriyanın bu işə verə biləcəyi töhfə, qloballaşma dövründə Azərbaycan xarici siyasətinin prioritetləri, o cümlədən Azərbaycanın Avratlantik strukturlara davamlı və sıx inteqrasiyası məsələləri müzakirə edilmiş, respublikamızda gedən ictimai, siyasi proseslər, həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilmişdir.

Xarici işlər nazirinin müavini X.Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə dair son vəziyyət barədə Avstriya tərəfini məlumatlandırmış və beynəlxalq təşkilatların, ilk növbədə BMT, ATƏT, Avropa İttifaqı və Avropa Şurasının münaqişənin nizamlanmasında səylərinin artırılmasının vacibliyini bildirmiş, Azərbaycanın Cənubi Qafqaz ölkələri və qonşu dövlətlərlə münasibətlərindən, Xəzərin hüquqi statusu üzrə danışıqların gedişindən, bölgədə irimiqyaslı neft, qaz və nəqliyyat layihələrinin həyata keçirilməsindən danışmışdır.

Məsləhətləşmələr zamanı ölkələrimiz arasında konsulluq münasibətlərinə xüsusi diqqət yetirilmiş, respublikalarımızın vətəndaşlarının gediş-gəliş və viza məsələləri, Azərbaycan vətəndaşlarının üzləşdiyi problemlərin aradan qaldırılması yolları müzakirə edilmişdir.

Müzakirələrdə təhlükəsizlik, beynəlxalq terrorizmə, yeni təhlükə və təhdidlərə, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, mütəşəkkil cinayətkarlığa, qeyri-qanuni miqrasiyaya qarşı mübarizə və qarşılıqlı fəaliyyət məsələləri üzrə geniş fikir mübadiləsi aparılmış, Azərbaycan və Avstriya xarici siyasət idarələri arasında məsləhətləşmələrin əhəmiyyəti vurğulanmış, bu işin gələcəkdə də davam etdirilməsi haqqında razılıq əldə olunmuşdur.

Səfər proqramına uyğun olaraq, X.Xələfov və nümayəndə heyəti Avstriya Federal Prezidenti Kabinetinin rəhbəri Rene Pollitser və Federal Kansler Kabinetinin xarici əlaqələr üzrə müşaviri Hans Peter Mants ilə görüşmüşdür. Bu görüşdə aparılmış fikir mübadiləsi zamanı Azərbaycan-Avstriya münasibətlərinin getdikcə inkişaf etdiyi, son vaxtlar müxtəlif sahələr üzrə yüksək səviyyəli dövlət məmurlarının qarşılıqlı rəsmi səfərlərinin artmasının buna bariz nümunə olduğu bildirilmiş, əlaqələrin daha yüksək səviyyəyə qaldırılması məqsədi ilə ölkələrimizin Prezidentləri səviyyəsində səfərlərin həyata keçirilməsinin zəruriliyi vurğulanmışdır. Bu baxımdan, 2006-cı ildə Avstriya Prezidentinin Azərbaycana rəsmi səfəri məsələsi müzakirə olunmuş, həmin səfərin tarixlərinin diplomatik kanallar vasitəsilə dəqiqləşdiriləcəyi qeyd edilmişdir. Görüşlərdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi haqqında Azərbaycanın mövqeyinə dair ətraflı məlumat verilmişdir.

Azərbaycan nümayəndə heyəti Avstriya Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Peter Şider ilə də görüşmüşdür. Görüşdə Azərbaycan tərəfi ölkələrimiz arasında mövcud əməkdaşlığa toxunaraq, bu əlaqələrin respublikalarımızın parlamentlərinin həm ikitərəfli, həm çoxtərəfli formatlarda inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. Həmçinin, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional vəziyyət barədə fikir mübadiləsi aparılmışdır.

Səfərin sonunda X.Xələfov Avstriyanın nüfuzlu "Austria Presscagentur" xəbər agentliyinin, "Kurier" və "Der Standard" qəzetlərinin müxbirlərinə müsahibə vermişdir.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ DİQQƏT MƏRKƏZİNDƏ OLMUŞDUR

Dekabrın 25-də Qahirədə iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının ikinci iclası öz işinə başlamışdır. İclasda Azərbaycanı iqtisadi inkişaf naziri, həmçinin iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının həmsədri Heydər Babayevin başçılığı ilə nümayəndə heyəti təmsil edir. Səfərin ilk günü nazir H.Babayev Misirin beynəlxalq əməkdaşlıq naziri, komissiyanın həmsədri xanım Faizə Əbu Ən-Nəqə ilə görüşərək danışıqlar aparmışdır.

Görüş əvvəlcə qapalı formatda keçirilmiş, sonra geniş tərkibdə davam etdirilmişdir. Misirli nazir Faizə Əbu Ən-Nəqə bildirmişdir ki, ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Misir Azərbaycan ilə səhiyyə, əczaçılıq, inşaat, turizm, neft və neft avadanlığı sahələrində uğurla əməkdaşlıq edə bilər. Azərbaycana 2002-ci ildə səfərini xatırladan nazir, həmin vaxt əldə olunmuş razılaşmalardan danışmış və onların ötən 3 ildə lazımınca icra olunmadığını qeyd etmişdir.

Azərbaycanın iqtisadi inkişaf naziri H.Babayev iqtisadi münasibətlərdə tərəfdaşlığın zəif inkişafının səbəblərindən danışmış və demişdir ki, Azərbaycan ilə Misir bir çox sahələrdə uğurlu əməkdaşlıq edə bilər. Lakin əməkdaşlığımızın prioritet istiqamətlərinə daha çox diqqət yetirməliyik. Ölkələrimiz arasındakı ticarət mübadiləsinin 4 milyon ABŞ dolları səviyyəsində olduğunu və bu rəqəmin heç bir vəchlə respublikalarımızın real imkanlarına uyğun gəlmədiyini qeyd edən nazir, hazırda Azərbaycanın Misirlə əczaçılıq, dərman preparatlarının idxalı sahəsində əməkdaşlığa hazır olduğunu söyləmişdir. Əməkdaşlığın perspektivlərinə toxunan nazir, Azərbaycan Dövlət Neft Akademiyasının Misirdə filialının yaradılması təklifini yüksək qiymətləndirmişdir.

İkitərəfli münasibətlərin tarixindən danışan nazir H.Babayev qeyd etmişdir ki, əlaqələrimizin bünövrəsi Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Misir Prezidenti Hüsni Mübarək tərəfindən qoyulmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan ilə Misirin əlaqələrinin genişlənməsinə xüsusi diqqət yetirir.

Nazirlərin görüşündən sonra nümayəndə heyətləri imzalanması nəzərdə tutulan və müzakirədə olan sənədlər üzərində işə başlamışlar.

Həmin gün nazir H.Babayev Misirin səhiyyə naziri Avad Tacuddinlə görüşmüşdür. Nazirlər səhiyyə, əczaçılıq, vaksin preparatlarının istehsalı, ailə sağlamlığı, yoluxucu xəstəliklərlə mübarizə sahələrində ikitərəfli əməkdaşlığın perspektivlərini müzakirə etmiş, 2006-cı ilin əlaqələrimizin inkişafında mühüm mərhələ olacağını vurğulamışlar. Görüşdə nazir H.Babayev Azərbaycan Hökuməti adından və Azərbaycanın səhiyyə naziri adından misirli naziri gələn ilin birinci rübündə ölkəmizə səfərə dəvət etmişdir.

Misirli nazir A.Tacuddin dəvəti məmnuniyyətlə qəbul etdiyini bildirmiş, səfərin 2006-cı ilin ilk aylarında həyata keçiriləcəyini vurğulamış və onunla birlikdə ölkəsinin səhiyyə və əczaçılıq üzrə iş adamlarından ibarət nümayəndə heyətinin gələcəyini qeyd etmişdir.

Görüş barədə Misirin televiziya kanalları operativ informasiyalar yayımlamışdır.

Həmin gün nazir H.Babayev Misir İş Adamları Assosiasiyasında keçirilən görüşdə iştirak etmişdir. Görüşdə assosiasiyanın prezidenti Camal Nazır, Misirin beynəlxalq əməkdaşlıq naziri Faizə Əbu Ən-Nəqə və H.Babayev çıxış etmiş, səfərin ölkələrimiz üçün əhəmiyyətindən danışmışlar.

Nazir H.Babayev Azərbaycanın iqtisadi durumu, ölkəmizdə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrindən danışmış, sualları cavablandırmışdır.

Səfərin birinci günü axşam nümayəndə heyətimizin şərəfinə verilmiş şam yeməyində də ölkələrimizin iqtisadi və siyasi münasibətlərinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA MÜHÜM SƏNƏDLƏR İMZALANMIŞ VƏ PARAFLANMIŞDIR

İqtisadi inkişaf naziri, İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının həmsədri Heydər Babayev dekabrın 26-da Baş nazir Əhməd Nazif ilə görüşərək danışıqlar aparmışdır. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Misir əməkdaşlığı, Yaxın Şərq problemi və bölgədəki vəziyyət barədə fikir mübadiləsi olmuşdur. Tərəflər ölkələrimiz arasında iqtisadi, ticarət, turizm, səhiyyə sahələrində münasibətlərə toxunaraq, əlaqələrin inkişaf etdirilməsinin vacibliyini qeyd etmişlər.

Nazir H.Babayev Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin misirli həmkarını ölkəmizə səfərə dəvət etməsi barədə məktubu Baş nazir Əhməd Nazifə təqdim etmişdir. Baş nazir dəvəti məmnuniyyətlə qəbul etdiyini, səfərin tezliklə həyata keçiriləcəyini bildirmişdir.

Həmin gün nazir H.Babayev Misirin ticarət və sənaye naziri Rəşid Məhəmməd Rəşid ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Misir arasında iqtisadi və ticarət əməkdaşlığının inkişafı, Misirin işgüzar dairələrinin nümayəndələri, iş adamları və sərmayədarlarının respublikamızın sosial-iqtisadi inkişaf layihələrində iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Eyni zamanda Azərbaycanda və Misirdə keçirilən ixtisaslaşdırılmış beynəlxalq sərgilərdə tərəflərin iştirakı məsələləri, neft və qaz sahəsində birgə layihələrin həyata keçirilməsi imkanları, hər iki ölkənin mövcud qanunvericiliyi çərçivəsində iş adamları tərəfindən iqtisadiyyat sahəsinə, xüsusilə də turizm sahəsinə qarşılıqlı sərmayə qoyuluşu əsas müzakirə mövzuları olmuşdur. Nazir H.Babayev Rəşid Məhəmməd Rəşidi Azərbaycana dəvət etmişdir. Dəvət məmnuniyyətlə qəbul edilmişdir.

Nazir H.Babayev İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının III toplantısının 2006-cı ildə Bakıda keçiriləcəyini nazir Rəşid Məhəmməd Rəşidin diqqətinə çatdırmış və həmin toplantıda səhiyyə sahəsində misirli iş adamlarının iştirakının təmin olunmasını xahiş etmişdir.

Misirin sərmayələr naziri Mahmud Muhyiddinlə görüşən H.Babayev, Azərbaycanda mövcud iqtisadi durum, əlverişli sərmayə mühiti, həmçinin hazırda Azərbaycan-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə və Azərbaycan-İran istiqamətlərində həyata keçirilən irimiqyaslı avtomobil və dəmir yolu layihələri barədə ətraflı məlumat vermiş, Mahmud Muhyiddini ölkəmizə səfərə dəvət etmişdir.

Azərbaycan nümayəndə heyəti MƏR Mədəniyyət Nazirliyinin dəvəti ilə Misirin qədim tarixi abidələrindən biri - "Məhəmməd Əli qalası"nın yeni təmirindən sonra açılışında iştirak etmişdir.

Daha sonra iqtisadi inkişaf naziri Heydər Babayev və Misirin beynəlxalq əməkdaşlıq naziri Faizə Əbu Ən-Nəqənin iştirakı ilə "Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Misir Ərəb Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi ilə Misir Ərəb Respublikası Xarici Ticarət Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında səhiyyə və farmasiya sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu" və "İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyası"nın II iclasının Protokolu" imzalanmışdır. Həmçinin "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş" paraflanmışdır.

Sonra mətbuat konfransı keçirilmiş, jurnalistlərə imzalanmış və paraflanmış sənədlər barədə ətraflı məlumat verilmişdir.

Bununla da, İqtisadi və Elmi-Texniki Əməkdaşlıq üzrə Azərbaycan-Misir Müştərək Komissiyasının II iclası başa çatmışdır.

Azərbaycan nümayəndə heyəti dekabrın 26-da vətənə yola düşmüşdür.

ÖTƏN BİR İLDƏ AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏT XƏTTİNİN ƏSASINI TƏŞKİL EDƏN VƏZİFƏLƏRİN YERİNƏ YETİRİLMƏSİ SAHƏSİNDƏ SANBALLI UĞURLAR ƏLDƏ OLUNMUŞDUR

Başa çatmaqda olan 2005-ci ildə Azərbaycan Respublikasının xarici siyasət idarəsi dövlətin beynəlxalq hörməti və nüfuzunun daha da möhkəmlənməsi, milli təhlükəsizliyin, davamlı inkişafın və ölkə vətəndaşlarının mənafelərinin müdafiəsinin təmin olunmasına kömək edilməsi istiqamətində ardıcıl fəaliyyət göstərmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli məsələsi ölkənin xarici siyasətinin öncül istiqaməti olaraq qalmışdır.

Azərbaycan malik olduğu bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığını aydın və birmənalı şəkildə nümayiş etdirməyə davam etmişdir. Dağlıq Qarabağın hüquqi statusuna sonradan baxılması ilə ilk növbədə Azərbaycanın işğal olunmuş bütün ərazilərinin azad edilməsinin zəruriliyinə, didərgin salınmış əhalinin doğma yerlərinə qayıtmasına və Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmalarının dinc yanaşı yaşaması, Azərbaycanın ümumi iqtisadi inkişafı və regional inteqrasiya prosesləri çərçivəsində bu regionun kommunikasiyalarının bərpası və sosial-iqtisadi yüksəlişi üçün şərait yaradılmasına əsaslanan strategiya ardıcıl surətdə həyata keçirilmişdir.

Yola saldığımız il Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində keçirilmiş iki görüş, habelə iki dövlətin xarici işlər nazirlərinin Praqa prosesi deyilən proses çərçivəsində apardıqları danışıqlar silahlı münaqişənin nəticələrinin aradan qaldırılması və siyasi problemlərin həlli üçün normal şərait yaradılması məsələlərini əməli surətdə müzakirə etməyə imkan vermişdir. Danışıqlar 2006-cı ildə irəliləyiş üçün bəzi imkanları üzə çıxarmışdır.

Bununla yanaşı, beynəlxalq birliyin münaqişə üzrə mövqeyinin - Azərbaycanın ərazi bütövlüyünə hörmətə və onun ərazilərinin işğalının və burada aparılmış etnik təmizləmənin pislənilməsinə əsaslanan mövqeyinin sıx birləşdirilməsi istiqamətində də səylər davam etdirilmişdir. Beynəlxalq birliyin diqqəti erməni tərəfinin təcavüzünü və Azərbaycan ərazilərinin işğalının nəticələrini möhkəmlətmək cəhdlərinə cəlb olunmuşdur.

ATƏT-in Minsk qrupunun qanunsuz məskunlaşdırma faktlarını araşdıran missiyasının 2005-ci il yanvarın 30-dan fevralın 5-dək işğal edilmiş ərazilərdə olması "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" haqqında məsələnin BMT Baş Məclisinin 59-cu sessiyası gündəliyinin 163-cü bəndi kimi daxil edilməsi barədə Azərbaycanın təşəbbüsünün məntiqi nəticəsi olmuşdur. Missiyanın həm Azərbaycan tərəfinin təqdim etdiyi, həm də yerlərdə vəziyyətin öyrənilməsi gedişində əldə olunmuş hərtərəfli faktoloji material əsasında hazırladığı məruzə onun fəaliyyətinin başlıca yekunu olmuşdur. Missiya işğal olunmuş ərazilərin məskunlaşdırıldığını birmənalı şəkildə təsdiqləmiş və bununla da Azərbaycanın narahatlığını bölüşmüşdür. ATƏT-in Minsk qrupunun həmsədrləri isə missiyanın məruzəsindəki nəticələrə əsaslanaraq, regionun demoqrafik tərkibində dəyişikliklər edilməsinin yolverilməzliyini vurğulamış və işğal olunmuş ərazilərdə yerləşdirilən əhalinin başqa yerə köçürülməsi və məcburi köçkünlərin öz daimi yaşayış məskənlərinə qayıtması məqsədi ilə müvafiq beynəlxalq idarələri təlabatı öyrənməyə çağırmışlar. Məruzə və ATƏT-in Minsk qrupu həmsədrlərinin onun əsasında hazırladıqları tövsiyələr bu problemin gələcəkdə də nəzərdən keçirilməsi və həlli üçün yaxşı əsas yaratmışdır. Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət barədə məsələ BMT Baş Məclisinin cari 60-cı sessiyasının gündəliyinə də daxil edilmişdir.

Ümumiyyətlə, beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması və işğal olunmuş ərazilərdə digər qanunsuz fəaliyyətlə bağlı məsələlər diplomatik xidmət orqanlarının diqqət mərkəzində olmuşdur. Bu gün artıq deyə bilərik ki, tarix və mədəniyyət abidələrinin dağıdılması, Azərbaycanın yaşayış məntəqələrinin simasının dəyişdirilməsi, işğal edilmiş ərazilərdə qanunsuz iqtisadi fəaliyyət göstərilməsi və s. problemlərə qarşı hərəkətləri bütün mümkün siyasi-hüquqi vasitələrlə daha da genişləndirmək üçün ciddi informasiya bazası var.

Münaqişə və onun həlli mövzusu Avropa Şurasının gündəliyində qalmaqda davam etmişdir. Ermənistan-Azərbaycan münaqişəsi üzrə AŞPA məruzəçisinin fəaliyyətinin nəticələrinə Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasında baxılması müvafiq qətnamənin qəbul edilməsi ilə yekunlaşmış, qətnamədə Avropa parlamentarilərinin münaqişə barədə prinsipial qənaət və qiymətləri öz əksini tapmışdır. Həmin sənəddə Azərbaycan ərazisinin əhəmiyyətli hissəsinin işğal edilməsi və orada etnik təmizləmə aparılması faktı təsdiqlənir, habelə BMT Təhlükəsizlik Şurasının qətnamələrini, xüsusilə də, silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması vasitəsilə yerinə yetirmək barədə çağırış və Avropa Şurasının üzvü kimi Ermənistanın öhdəliklərin ko-

budcasına pozulmasına görə beynəlxalq-hüquqi məsuliyyəti haqqında birmənalı bəyanat mövcuddur.

Başa çatmaqda olan ildə Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə və digər növ təhlükəli cinayətlərə qarşı beynəlxalq mübarizədə iştirakını davam etdirmişdir. Müvafiq məruzələr təqdim edilmiş və təqdimatlar olmuş, Bakıda həm BMT, həm də Avratlantika tərəfdaşlığı çərçivəsində bir sıra beynəlxalq konfranslar keçirilmişdir.

Azərbaycan beynəlxalq birliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün BMT strukturlarının fəaliyyətnin səmərəliyini və operativ hazırlığını təmin etməyə yönəldilmiş bu qlobal təşkilatda islahatın müzakirəsi prosesində fəal iştirak etmişdir.

Avropa dəyərlərinə sadiq olan və Avropada təhlükəsizlik, azad bazar və demokratiya üçün vahid məkanın formalaşdırılmasına yönəldilən siyasi xəttə riayət edən Azərbaycan NATO və Avropa İttifaqı ilə tərəfdaşlığı genişləndirməyi davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin və NATO rəhbərliyinin təsdiqlədiyi və hazırda uğurla həyata keçirilən Fərdi Tərəfdaşlıq Əməliyyatı Planı Azərbaycanın NATO ilə inteqrasiya əlaqələrinin inkişafı və onun Avratlantika strukturu ilə qarşılıqlı fəaliyyət göstərməsi qabiliyyətinin yüksəlməsi prosesində mühüm mərhələ olmuşdur. Azərbaycanın NATO ilə tərəfdaşlığının aydın ictimai əhəmiyyəti də var. Azərbaycanda NATO həftələri çərçivəsində ictimai-siyasi tədbirlər keçirilir. NATO-nun Azərbaycanda Beynəlxalq məktəbi yaradılmışdır. Saloğlu ətrafında döyüş sursatının yığılması və məhv edilməsi, habelə sovet ordusu çıxandan sonra Azərbaycanda qalmış raket yanacağının zərərsizləşdirilməsi və aradan götürülməsi problemləri NATO-nun köməyi ilə həll olunur.

Avropa Qonşuluq Siyasəti çərçivəsində fəaliyyət planının işlənib hazırlanması Avropa İttifaqı ilə tərəfdaşlığın inkişaf etdirilməsi və ona daha da yaxınlaşmaq baxımından böyük əhəmiyyətə malikdir. Avropa İttifaqı Nazirlər Şurasının müvafiq qərarından və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Avropa İnteqrasiyası üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra fəaliyyət planının Avropa Komissiyası ilə razılaşdırılması başlanmışdır. Bununla əlaqədar olaraq dekabrda Bakıda tərəflərin ekspertlərinin ilk görüşü keçirilmişdir.

Təhlükəsizlik və onun təmin olunması sisteminin inkişafı etdirilməsi sahəsində siyasətin planlaşdırılması üzrə Avropa və Avratlantika təcrübəsindən Azərbaycanın milli təhlükəsizliyi konsepsiyası layihəsinin işlənib hazırlanmasında bilavasitə istifadə olunmuşdur. XİN-in rəhbərliyi altında və bütün əlaqədar dövlət orqanlarının iştirakı və beynəlxalq ekspertlər qrupunun dəstəyi ilə həyata keçirilən bu proses hazırda yekun mərhələyə qədəm qoymuşdur.

Ötən il Azərbaycan Avropa Şurasının müxtəlif qurumlarında fəaliyyətini davam etdirmişdir. AŞ-nin baş katibi T.Devisin Azərbaycana səfəri və insan hüquqları, seçkilər və demokratik təsisatların möhkəmləndirilməsi sahəsində bir sıra tədbirlər nəzərdə tutan fəaliyyət planının gerçəkləşdirilməsinə başlanması bu təşkilatla münasibətlərin inkişafında mühüm mərhələ olmuşdur.

İslam ümmətinin tərkib hissəsi olan Azərbaycan İslam Konfransı Təşkilatının (İKT) fə-

aliyyətində iştirakına xüsusi diqqət ayırmışdır. İKT, 2005-ci ildə keçirilən III Fövqəladə zirvə görüşü və təşkilatın üzvü olan ölkələrin xarici işlər nazirlərinin 32-ci Konfransı zamanı Ermənistanın davamlı təcavüzünü pisləyərək və Azərbaycanın işğal altındakı torpaqlarının tamamilə və qeyd-şərtsiz azad edilməsinə çağıraraq öz prinsipial mövqeyini və ölkəmizlə həmrəyliyini növbəti dəfə təsdiqləmişdir. Bundan əlavə, İKT-nin zirvə görüşü 2006-cı ildə təşkilata Azərbaycanın sədrlik etməsi barədə qərar çıxarmış və İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin növbəti 33-cü Konfransının və təşkilat ölkələrinin turizm nazirlərinin 5-ci iclasının gələn il Bakıda keçirilməsini alqışlamışdır.

Başa çatmaqda olan ildə xarici iqtisadiyyat istiqamətində də fəal tədbirlər görülmüşdür. Həm qlobal, həm də regional inteqrasiya proseslərində dövlətin mənafeyinin irəlilədilməsinə dair tədbirlər görülmüşdür. Azərbaycan Dünya Ticarət Təşkilatına (DTT) daxil olmaq məqsədi ilə yaradılan işçi qrupu çərçivəsində DTT-yə üzvlük məsələsi ilə bağlı ilboyu danışıqlar aparmışdır. Azərbaycanın 2006-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik etməsinə və bununla əlaqədar İƏT-in 9-cu Zirvə görüşünün və təşkilatın üzvü olan ölkələrin xarici işlər nazirlərinin 16-cı iclasının Bakıda keçirilməsinə hazırlıq da aparılmışdır. Bununla yanaşı, Azərbaycan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal iştirakını davam etdirmişdir.

Xarici siyasi fəaliyyətin regional istiqaməti baxımından GUAM dövlətləri arasında əməkdaşlığın, xüsusilə səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin təmin edilməsi sahəsində genişləndirilməsini və dərinləşdirilməsini də qeyd etmək lazımdır. Xəzər və Aralıq dənizləri hövzələrini birləşdirən, strateji baxımdan mühüm nəqliyyat dəhlizinin inkişafı layihəsi davam etdirilmişdir ki, burada da Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, habelə həm BMT çərçivəsində, həm də regional təşkilatlar tərəfindən geniş beynəlxalq dəstək alan Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun tikintisi layihəsi xüsusi yer tutur.

Növbəti uğurlar Azərbaycanın beynəlxalq qurumlarda daha yaxşı təmsilinin təmin edilməsində qazanılmışdır. Belə ki, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi yekdilliklə təşkilatın Baş Məclisinin xüsusi siyasi və müstəmləkələrin ləğv edilməsi məsələləri ilə məşğul olan IV Komitəsinin sədri seçilmişdir. Bundan əlavə, Azərbaycan BMT-nin digər əsas orqanı olan İqtisadi və Sosial Şuranın sessiyasında İnsan Hüquqları Komissiyanın üzvü seçilmişdir.

Bu il həm də ikitərəfli münasibətlərin davam edən inkişafı və möhkəmlənməsi ilə də fərqlənmişdir. İl ərzində dövlət və hökumət başçıları, parlamentlərin və xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər reallışdırılmış, hökumətlərarası birgə komissiyaların və işçi qruplarının iclasları keçirilmişdir ki, bu iclaslarda da qarşılıqlı maraq doğuran geniş məsələlər dairəsinə dair fikir mübadiləsi aparılmışdır. İl ərzində, həmçinin əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. Blokada şəraitində yaşayan Naxçıvan əhalisinin təbii qazla təmin edilməsinə və muxtar respublikanın əhalisinin Azərbaycan-İran sərhədini keçmələri qaydalarının sadələşdirilməsinə dair mühüm razılaşmalar əldə olunmuşdur. Qonşu dövlətlərlə sərhədlərin delimitasiyasına və Xəzərin hüquqi statusu haqqında Konvensiya layihəsinin hazırlanmasına dair danışıqlar gedişində də müəyyən keyfiyyət irəliləyişləri müşahidə olunmuşdur.

Bundan əlavə, bu il Bolqarıstan, İndoneziya, İspaniya, Latviya, Moldova və Yaponiyada səfirliklərini, habelə Los-Ancelesdə baş konsulluğunu təsis edən Azərbaycan diplomatik nümayəndəliklərin davamlı genişləndirilməsi işini uğurla davam etdirmişdir.

Nazirliyin infrastrukturunun təkmilləşdirilməsi, diplomatik xidmətin normativ-hüquqi bazasının inkişafı, onun orqanlarının kadr potensialının möhkəmləndirilməsi və diplomatların peşəkarlığının artırılması prosesi ilboyu dayanmamışdır. Diplomatik nümayəndəliklərin rəhbərlərinin və əməkdaşlarının rotasiyası prinsipinin məqsədyönlü həyata keçirilməsini, habelə ölkəmizin xarici siyasət idarəsinin təcrübəsində ilk dəfə tətbiq edilən kadrların test sistemi ilə seçilməsini qeyd etmək vacibdir.

Xarici İşlər Nazirliyi bundan sonra da ictimaiyyətlə sıx əlaqələr saxlayaraq, dövlətimizin xarici siyasət xəttinin əsasını təşkil edən funksiya və vəzifələrinin yerinə yetirilməsi ilə bağlı fəaliyyəti barədə vaxtında və hərtərəfli məlumat verəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI

24.01.2005. İran İslam Respublikasına rəsmi səfər

15.02.2005. Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimdə iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfər

24.02.2005. İtaliya Respublikasına rəsmi səfər

08.03.2005. Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfər

16-19.03.2005. Çin Xalq Respublikasına dövlət səfəri

12.04.2005. Pakistan İslam Respublikasına rəsmi səfər

21.04.2005. Moldova Respublikasına rəsmi səfər

08.05.2005. Faşizm üzərində Qələbənin 60 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasına işgüzar səfər

15-15.05.2005. Avropa Şurası dövlət və hökumət başçılarının növbəti zirvə toplantısında iştirak etmək üçün Polşanın paytaxtı Varşava şəhərinə işgüzar səfər

10.06.2005. Xorvatiyaya rəsmi səfər

13.06.2005. 9-cu Beynəlxalq iqtisadi forumda iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfər

16.06.2005. Beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukraynanın paytaxtı Kiyev şəhərinə işgüzar səfər

26.08.2005. Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasının Kazan şəhərinə işgüzar səfər

23.09.2005. Bolqarıstan Respublikasına rəsmi səfər

12.10.2005. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək üçün Gürcüstana işgüzar səfər

06.12.2005. İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına işgüzar səfər

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

YANVAR 2005

24 yanvar 2005

Yanvarın 24-də Tehranda İran Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi arasında təkbətək görüş olmuşdur

24 yanvar 2005

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tehranda İranın xarici işlər naziri Kamal Xərrazini qəbul etmişdir.

25 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikası parlamentinin - İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adil ilə görüşmüşdür.

25 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikasının ali rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.

25 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Tehranda İran İslam Respublikası Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüşdür.

26 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Təbrizdə Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi ilə görüşmüşdür.

FEVRAL 2005

16 fevral 2005

Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı ilə əlaqədar Moskvada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da Kremldə Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü keçirilmişdir

24 fevral 2005

Fevralın 24-də İtaliya Prezidentinin sarayının "Solotto Rosso" salonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi arasında təkbətək görüş keçirilmişdir

24 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İtaliya Respublikası Nazirlər Şurasının sədri Silvio Berluskoni ilə görüşmüşdür

25 fevral 2005

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Ərzaq Proqramı Təşkilatının rəhbəri vəzifəsini icra edən Con Paucll ilə görüşmüşdür

25 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də İtaliya parlamentinin Deputatlar palatasının sədri Pyerferdinando Kazini ilə görüşü olmuşdur

25 fevral 2005

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Covanni Petruççi ilə görüşmüşdür.

26 fevral 2005

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vatikanın dövlət katibi kardinal Ancelo Sodano ilə təkbətək görüşmüşdür

MART 2005

08 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanının Kralı Fəhd Bin Əbdüləziz Al Səudun arasında təkbətək görüş keçirilmişdir

10 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu ilə görüşü olmuşdur

18 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Pekində dövlət iqamətgahında Çin Xalq Respublikası Dövlət Şurasının başçısı Ven Szyabao ilə görüşmüşdür

19 mart 2005

ÇXR-də dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev martın 19-da Şanxayın meri Xan Çen ilə görüşmüşdür

30 mart 2005

Martın 30-da Polşa Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski arasında təkbətək görüş keçirilmişdir

30 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Polşa Senatının vitse-marşalı xanım İolanta Danelyak ilə görüşmüşdür

APREL 2005

07 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Rusiya Federasiyasının keçmiş Prezidenti Boris Yeltsinlə görüşmüşdür

12 aprel 2005

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikası parlamentinin Milli Assambleya palatasının spikeri Çoudri Əmir Hüseyn ilə görüşmüşdür

12 aprel 2005

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf arasında təkbətək görüş olmuşdur

12 aprel 2005

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistanın xarici işlər naziri Xurşid Mahmud Kasurini qəbul etmişdir

13 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Pakistan İslam Respublikası Baş naziri Şövkət Əzizlə görüşmüşdür

21 aprel 2005

Aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur

21 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Moldovanın Baş naziri Vasile Tarlev ilə görüşmüşdür

21 aprel 2005

Aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldova parlamentinin sədri Marian Lupu ilə görüşmüşdür

22 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Rumıniya Prezidenti Trayan Besesku ilə görüşmüşdür

22 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür

22 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kişinyovda keçirilən zirvə görüşü çərçivəsində aprelin 22-də Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür

22 aprel 2005

Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Valdas Adamkusun görüşü olmuşdur

MAY 2005

15 may 2005

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan ilə görüşü olmuşdur.

15 may 2005

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür

16 may 2005

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşü

16 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Litva Respublikasının Prezidenti Valdas Adamkusla görüşmüşdür.

16 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Kral sarayında Avropa Birliyinin xarici əlaqələr və yeni qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür

16 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Varşavada Norveç Krallığının Baş naziri Kyel Maqne Bundevik ilə görüşmüşdür

17 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Varşavada Çexiya Respublikasının Prezidenti Vatslav Klaus ilə görüşmüşdür

24 may 2005

Mayın 24-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur

24 may 2005

Mayın 24-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur

İYUN 2005

10 iyun 2005

İyunun 10-da Xorvatiya dövləti başçısının sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stipe Mesiçin təkbətək görüşü olmuşdur

10 iyun 2005

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Xorvatiya Seborunun sədri Vladimir Şeks arasında görüş oldu

10 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Xorvatiya Respublikası hökumətinin sədri İvo Sanader arasında görüş oldu

14 iyun 2005

İyunun 14-də Sankt-Peterburqun Tavriya sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin görüşü olmuşdur

16 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Kiyevin "Mariya" sarayında Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür

16 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Kiyevdə Moldova Prezidenti Vladimir Voronin ilə görüşmüşdür

16 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da "Nasionalnaya" mehmanxanasında Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür

30 iyun 2005

İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur

AVQUST 2005

24 avqust 2005

Avqustun 24-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə təkbətək görüşü olmuşdur

27 avqust 2005

Avqustun 27-də Tatarıstan Respublikasının paytaxtı Kazanda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir

SENTYABR 2005

23 sentyabr 2005

Sentyabrın 23-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur

23 sentyabr 2005

Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanın keçmiş Prezidenti Jelyu Jelevlə görüşmüşdür

23 sentyabr 2005

Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan parlamentinin sədri Georgi Pirinski ilə görüşmüşdür

29 sentyabr 2005

Sentyabrın 29-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Finlandiya Prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur

OKTYABR 2005

03 oktyabr 2005

Oktyabrın 3-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Prezidenti xanım Vayra Vike-Freyberqanın təkbətək görüşü olmuşdur

12 oktyabr 2005

Oktyabrın 12-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə təntənəli mərasimdə iştirak emək üçün Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur

12 oktyabr 2005

Oktyabrın 12-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə Qardabanidə keçirilən təntənəli mərasimdə iştirak emək üçün Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur

13 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Əfqanıstandan qayıdarkən yolüstü Bakıda dayanan Litva Respublikasının Prezidenti Valdas Adamkus ilə görüşmüşdür

DEKABR 2005

07 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İKT-nin üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində Tacikistan Prezidenti Emoməli Rəhmonov ilə görüşmüşdür

07 dekabr 2005

İKT-nin üçüncü fövqəladə zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai ilə görüşmüşdür

07 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Bruney sultanı Həssənal Bolkiah ilə görüşmüşdür

07 dekabr 2005

İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri Bülənd Arınç ilə görüşmüşdür

07 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində İKT-nin baş katibi Ekmələddin İhsanoğlu ilə görüşmüşdür

07 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə İslam Konfransı Təşkilatında müşahidəçi statusu ilə iştirak edən Rusiya nümayəndə heyətinin başçısı, RF Prezidentinin Uzaq Şərq federal dairəsində səlahiyyətli nümayəndəsi Kamil İshakovla görüşmüşdür

07 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısı çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə görüşmüşdür

08 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Məkkədə, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi ilə görüşmüşdür

20 dekabr 2005

Dekabrın 20-də Naxçıvan MR Ali Məclisinin binasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

YANVAR 2005

19 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir

22 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda İTAR-TASS günlərinin iştirakçılarını qəbul etmişdir

27 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədrini qəbul etmişdir

28 yanvar 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun nümayəndə heyətini qəbul etmişdir

FEVRAL 2005

02 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

04 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktorunu qəbul etmişdir

04 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktorunu qəbul etmişdir

07 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Senatının üzvü Emeri de Monteskunu qəbul etmişdir

07 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınçın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

08 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsini qəbul etmişdir

09 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

12 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçilərini qəbul etmişdir

22 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

22 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

22 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

22 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sıra xarici ölkələrin Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul etmişdir

28 fevral 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Baş prokuroru Rəşid Tusupbekovu qəbul etmişdir

MART 2005

01 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir

04 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş Naziri Zurab Noğaidelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Pensiya Fondu İdarə heyətinin sədri Gennadi Batanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının və Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərini qəbul etmişdir

14 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Milli Təhlükəsizlik Komitəsi Sərhəd Xidmətinin direktoru Bolat Zakıyevi qəbul etmişdir

14 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə xarici işlər nazirinin müstəşar müavini, səfir Əhməd Üzümçünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinin məruzəçisi Malkolm Bryusu qəbul etmişdir

21 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Halliburton" şirkətinin prezidentini qəbul etmişdir

21 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofsu qəbul etmişdir

22 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktorunu qəbul etmişdir

23 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lüksemburqun mülki Aviasiyasının direktoru Henri Klyaynanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federal Məclisinin Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vatikan Dövlətinin ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir

28 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsinin sədri xanım Ellen Hellerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

28 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Hesablama Palatasının sədri Sergey Stepaşinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

29 mart 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Hərbi Dəniz Qüvvələrinin komandanı, donanma admiralı Özdən Örnəkin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

APREL 2005

01 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Silahlı Qüvvələri Avropa Komandanlığı rəisinin müavini Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in hazırkı sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir

07 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika parlamentinin nümayəndələr palatasının sədri Herman de Kroonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın turizm naziri Dimitris Avramopulosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in nümayəndə heyətini qəbul etmişdir

11 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Senatının Fransa-Azərbaycan dostluq qrupunun sədri Ambruaz Düponun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Veteranlar Assosiasiyasının nümayəndə heyətini qəbul etmişdir

14 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABƏŞ-in prezidenti Devid Vudvordu qəbul etmişdir

19 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin nümayəndə heyətini qəbul etmişdir

20 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının həmməruzəçiləri Andreas Qrossu və Andres Herkeli qəbul etmişdir

20 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Vladimir Fedoseyevi qəbul etmişdir

25 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Avrasiya üzrə böyük məsləhətçisi Stiven Mənni qəbul etmişdir

27 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Qars və ətraf vilayətləri valilərindən ibarət nümayəndə heyətini qəbul etmişdir

28 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Xilasetmə Komitəsinin nümayəndə heyətini qəbul etmişdir

29 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı səfiri Stefan Minikesi qəbul etmişdir

29 aprel 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunu qəbul etmişdir

MAY 2005

02 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə bələdiyyələrinin nümayəndə heyətini qəbul etmişdir

04 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Seyminin Latviya-Azərbaycan Parlamentlərarası əməkdaşlıq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir

10 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin nümayəndə heyətini qəbul etmişdir

11 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir

18 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın xarici işlər naziri Boris Tarasyuku qəbul etmişdir

18 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı Ilker Başbuğu qəbul etmişdir

18 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Vitali Kramarenkonu qəbul etmişdir

20 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən II Ümumdünya gömrük sərgisi və forumunda iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmişdir

24 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Bundestaqının və federal kəşfiyyat xidmətinin nümayəndə heyətini qəbul etmişdir

25 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Andris Pibalqsı qəbul etmişdir

25 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın Kral ailəsinin üzvü, York hersoqu şahzadə Endryunu qəbul etmişdir

25 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP şirkətinin prezidenti lord Con Braunu qəbul etmişdir

25 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın energetika naziri Samuel Bodmanı qəbul etmişdir

26 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Norveç Krallığının dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini Oluf Ulseti qəbul etmişdir

26 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanin yanacaq və energetika nazirinin birinci müavini Aleksey İvçenkonu qəbul etmişdir

26 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BNP Pari Bankının energetika, ixrac və layihələr üzrə rəhbəri Dominik Remini qəbul etmişdir

27 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

27 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Hərbi İdman Şurasının prezidenti, briqada generalı Cianni Qolani qəbul etmişdir

27 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam ölkələri elm, təhsil və mədəniyyət təşkilatının baş direktoru doktor Əbdüləziz bin Osman Əl-Tuveycrini qəbul etmişdir

30 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanin ölkəmizdəki keçmiş səfiri Toşiyuki Fucivarani qəbul etmişdir

30 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri Sadiq Kamal Turali və Atatürk Araşdırmalar Mərkəzinin sədri Mehmed Sarayı qəbul etmişdir

31 may 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Həştərxanın qubernatoru Aleksandr Jılkini qəbul etmişdir

İYUN 2005

01 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Donna Douset-Koirolonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

03 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Mülki Tədqiqatlar və İlnkişaf Fondunun prezidenti Tom Ovensin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litva Seyminin sədri Arturas Paulauskasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumgürcüstan Katolikos-Patriarxı II İlianı qəbul etmişdir

06 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstriyalı tarixçi alim, professor Erix Fayqlı qəbul etmişdir

07 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İngiltərə-Azərbaycan cəmiyyətinin sədri, Britaniya parlamentinin Lordlar palatasının üzvü, sabiq enerji naziri lord Freyzeri qəbul etmişdir

09 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hindistanın neft sənayesi və qaz naziri Mani Şankar Ayyarı qəbul etmişdir

09 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Senatının xarici əlaqələr və miqrasiya məsələləri daimi komitəsinin sədri, Senatin AŞPA-dakı nümayəndə heyətinin üzvü Fiorella Proverani qəbul etmişdir

13 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Ceymstaun fondunun prezidenti Qlen Hovardin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Venesiya komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir

17 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Britaniyanin Cənubi Qafqazdakı xüsusi nümayəndəsi Brayan Folun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

21 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Prezidenti Administrasiyasının rəhbəri Dmitri Medvedyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

23 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO baş katibinin müavini Con Kolstonu qəbul etmişdir

23 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın maliyyə naziri Valeri Çeçelaşvilini qəbul etmişdir

27 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sıra xarici ölkələrin Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnaməsini qəbul etmişdir

27 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli alim və ictimai xadim Cavad Heyəti qəbul etmişdir

28 iyun 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşanın Azərbaycandakı səfirini qəbul etmişdir

İYUL 2005

01 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Aqo" monitorinq qrupu nümayəndə heyətini qəbul etmişdir

01 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir xarici işlər nazirliyinin MDB və Avropa İslam Ölkələri üzrə Texniki Yardım Fondunun baş katibi Əli Cəlal Batsyunini qəbul etmişdir

04 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya hökumətinin keçmiş sədri Viktor Çernomırdini qəbul etmişdir

04 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Avropa demokratları qrupunun rəhbəri Mixail Margelovu qəbul etmişdir

05 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyası monitorinq komitəsinin sədri Giorgi Frundanı qəbul etmişdir

05 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyası Monitorinq komitəsinin və Qaçqınlar üzrə alt komitəsinin üzvlərini qəbul etmişdir

06 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir

08 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "Teknip" şirkətlər qrupu Direktorlar şurasının sədri və baş icraçı katibi Daniel Valotu qəbul etmişdir

08 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistanın daxili işlər naziri Aftab Əhməd xan Şerpaonu qəbul etmişdir

11 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

13 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Milli Demokratiya İnstitutu idarə heyətinin sədri, sabiq dövlət katibi xanım Madlen Olbrayt qəbul etmişdir

13 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiya Xarici Əlaqələr İnstitutunun direktoru, xarici işlər nazirliyinin baş müşaviri, səfir Toşiyuki Fucivarani qəbul etmişdir

13 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir

14 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Brukinqs İnstitutunun analitiki xanım Fiona Hilli qəbul etmişdir

14 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Ata Corc Buşun prezidentliyi dövründə Ağ ev administrasiyasının rəhbəri olmuş Con Sununu qəbul etmişdir

15 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Güləş Federasiyasının rəhbərlərini, Avropa çempionatlarında medal qazanan idmançıları və onların məşqçilərini qəbul etmişdir

15 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam ölkələrinin birinci həmrəylik olimpiadasında medal qazanmış idmançıları və onların məşqçilərini qəbul etmişdir

18 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər dövləti Silahlı Qüvvələrinin Baş qərargah rəisi general-polkovnik Həməd Bin Əli əl-Atiyyənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir

20 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin müdafiə naziri Vəcdi Könülü qəbul etmişdir

20 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Ölkələri Hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsinin sədri Ruslan Auşevi qəbul etmişdir

22 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tailand Krallığının Baş prokuroru Kampri Kaoçarerni qəbul etmişdir

22 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətini qəbul etmişdir

27 iyul 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin qlobal məsələlər üzrə müavini Pola Dobryanskini qəbul etmişdir

AVQUST 2005

01 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın Azərbaycandakı səfiri Anatoli Yurçenkonu qəbul etmişdir

03 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin Azərbaycandakı səfiri Eytan Nayeni qəbul etmişdir

05 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının prezidenti Rafael Martinettini qəbul etmişdir

10 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın ölkəmizdəki səfiri Marqarita Kostanı qəbul etmişdir

15 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AFR-in Federal Kəşfiyyat Xidmətinin rəhbəri Auqust Hanninqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın daxili işlər naziri Vano Merabişvilini qəbul etmişdir

22 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Lindeni qəbul etmişdir

29 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Kəşfiyyat Departamentinin sədri Batu Kuteliyanı qəbul etmişdir

30 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin ədalət və inkişaf partiyasının nümayəndə heyətini qəbul etmişdir

30 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Mərmərə Qrupu Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

31 avqust 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

SENTYABR 2005

01 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traaviki qəbul etmişdir

05 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının baş katibi Terri Devisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiyanın ölkəmizdəki səfiri xanım Terhi Hakkalanı qəbul etmişdir

07 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qloballaşma və əmək miqrantlarının sosial müdafiəsi" mövzusunda avropa iclasının iştirakçılarını qəbul etmişdir

07 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Quru Qoşunları Komandanı, ordu generalı Yaşar Böyükanıtın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

12 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kardinal Kreşentsio Sepenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

13 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

13 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

14 sentyabr 2005

Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxi II Aleksini qəbul etmişdir

14 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiya İnkişaf Bankının icraçı direktoru, səfir Pol Speltsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin ölkəmizdəki səfiri Çjan Siyunu qəbul etmişdir

20 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya-Qafqaz İnstitutunun tədqiqat məsələləri üzrə direktoru Svante Kornelli qəbul etmişdir

21 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İslam ümmətinin həmrəyliyi" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir

22 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyətini qəbul etmişdir

27 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir

28 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin sərhəd xidməti rəhbərlərinin III iclasının iştirakçılarını qəbul etmişdir

29 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litvanın ədliyyə naziri Gintautas Bujinskası qəbul etmişdir

29 sentyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiyanın Teliasonera şirkətinin prezidenti Anders İgeli qəbul etmişdir

OKTYABR 2005

03 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin yəhudi icmasının nümayəndələrini qəbul etmişdir

03 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Valmont İndustries şirkətinin sədri və baş icraçı direktoru Mogens Bayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Prezidentinin beynəlxalq energetika məsələləri üzrə xüsusi nümayəndəsi İqor Yusupovu qəbul etmişdir

05 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın Liberal Demokrat Partiyası sədrinin müavini, Kölgə Kabinetində xarici işlər naziri ser Menzies Kempbellin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB icraiyyə komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir

06 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir

06 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hilmi Özkökü qəbul etmişdir

07 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovu qəbul etmişdir

10 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandini qəbul etmişdir

13 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Konqresi nümayəndələr palatasının üzvləri Darrel Issani və Loretta Sançesi qəbul etmişdir

13 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın nümayəndə heyətini qəbul etmişdir

14 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rus Soydaşlar Beynəlxalq Şurası idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" beynəxalq xeyriyyə fondu rəyasət heyətinin üzvü qraf Pyotr Şeremetyevi qəbul etmişdir

18 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzərin İşlənilməsi üzrə Məsləhət Şurasının sədri Yan Leşlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini Deniel Fridin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın Xarici kəşfiyyat xidmətinin direktoru Sergey Lebedevi qəbul etmişdir

24 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərbi Avropa İttifaqı Assambleyasının - Avropa Təhlükəsizliyi və Müdafiə üzrə Parlamentlərarası Assambleyanın sədri Stef Qorisi qəbul etmişdir

27 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in seçki müşahidəçiliyi missiyasının rəhbəri Gert Arensi qəbul etmişdir

28 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB hökumət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi Əlaqələndirmə Şurasının üzvlərini qəbul etmişdir

28 oktyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Üçlüyünün (Troyka) nümayəndə heyətini qəbul etmişdir

NOYABR 2005

01 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsəlman ölkələrinin Bakıdakı səfirlərini qəbul etmişdir

01 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsi sədrinin müavini Eduard Lintneri qəbul etmişdir

07 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin müşahidəçilər missiyasının rəhbəri, MDB icraiyyə komitəsinin sədri - icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir

07 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Strateji Araşdırmalar İnstitutunun direktoru doktor Cozef Bodanskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Millət vəkillərini qəbul etmişdir

07 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi nümayəndə heyətinin rəhbəri, Federal Məclisin Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanı qəbul etmişdir

10 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in seçki müşahidəçiliyi missiyasının rəhbəri gert arensi qəbul etmişdir

11 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən "Hüquqi dövlətin qurulmasında konstitusiyanın rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarının bir qrupunu qəbul etmişdir

17 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın ən nəhəng polad şirkəti olan "Mittal Stiil" şirkətinin sahibi Lakşmi Mittalı qəbul etmişdir

18 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir

21 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Xarici İşlər Nazirinin ATƏT-dəki xüsusi nümayəndəsi senator Pyer Şevalyeni qəbul etmişdir

21 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağ ev administrasiyasının sabiq rəhbəri, qubernator Con Sununu qəbul etmişdir

22 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir

23 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveyt Dövlətinin maliyyə naziri Bədr Məşari əl-Humeydini qəbul etmişdir

24 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya İqtisadiyyatı Şərq Komitəsinin sədri doktor Klaus Manqoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

28 noyabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir

DEKABR 2005

05 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Ticarət Palatasının nümayəndə heyətini qəbul etmişdir

09 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şevron-Avrasiya şirkətinin icraçı direktoru Qay Hollinqsvortu qəbul etmişdir

13 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şeyxülislam hacı Allahşükür Paşazadəni və bir qrup din xadimini qəbul etmişdir

13 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Iğdır bələdiyyəsinin sədri Nurəddin Arasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətini qəbul etmişdir

16 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

20 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddini qəbul etmişdir

21 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Patriarxi II İlianı qəbul etmişdir

21 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP-nin Azərbaycandakı baş təmsilçi prezidentini qəbul etmişdir

22 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın xarici işlər naziri Gela Bejuaşvilini qəbul etmişdir

22 dekabr 2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadəni və bir qrup din xadimini qəbul etmişdir

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ ... 3

AZƏRBAYCAN PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI ... 6

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ ... 6

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA" TELEKANALININ "SABAHIN XEYİR, RUSİYA!" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR ... 8

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ ... 9

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR ... 10

NAZİRLƏR KABİNETİNDƏ QƏBUL ... 10

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR ... 11

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ ... 12

İRAN PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 12

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 13

PREZİDENTLƏRİN BİRGƏ BRİFİNQİ ... 13

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI ... 15

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİNİ QƏBUL ETMİŞDİR ... 16

PREZİDENT İLHAM ƏLİYEVİN İRAN PARLAMENTİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİL İLƏ GÖRÜŞÜ ... 17

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN DÖVLƏT MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞÜ ... 17

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN ALİ RƏHBƏRİ AYƏTÜLLAH SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞÜ ... 18

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "İRAN XODRO" ZAVODU İLƏ TANIŞ OLMUŞDUR ... 19

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR ... 20

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN TELEVİZİYASINA MÜSAHİBƏSİ ... 20

İRAN MÜDAFİƏ SƏNAYESİNİN DAİMİ SƏRGİSİ İLƏ TANIŞLIQ ... 20

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İMAM XOMEYNİ ADINA "İMDAD" KOMİTƏSİNDƏ GÖRÜŞÜ ... 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 21

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TEHRANDAKI SƏFİRLİYİNDƏ OLMUŞDUR ... 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR ... 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN GÖRÜŞÜ ... 23

TEHRANDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 24
AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 25
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TEHRANDAN TƏBRİZƏ YOLA DÜŞDÜ 26
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZ ŞƏHƏRİNDƏ BÖYÜK HƏRARƏTLƏ, MƏHƏBBƏTLƏ QARŞILANMIŞDIR 27
ŞƏRQİ AZƏRBAYCAN VALİLİYİNDƏ GÖRÜŞ 27
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 28
TƏBRİZ TRAKTOR ZAVODU İLƏ TANIŞLIQ 28
PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN TƏBRİZDƏKİ BAŞ KONSULLUĞUNDA OLMUŞDUR 29
ŞAİRLƏR MƏQBƏRƏSİNİ ZİYARƏT 33
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR 34
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 34
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 35
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 36
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR 37
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇXR-Ə RƏSMİ SƏFƏRİ 38
AZƏRBAYCAN PREZİDENTİ İlHAM ƏLİYEV FRANSA SENATININ ÜZVÜ EMERİ DE MONTESKUNU QƏBUL ETMİŞDİR 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏNT ARINÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 41
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 44
PREZİDENT İLHAM ƏLİYEVİN "NEZAVİSİMAYA QAZETA"NIN MÜXBİRİ VİKTORİYA PANFİLOVAYA MÜSAHİBƏSİ 45
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 50
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 50
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR 51
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 51

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ 52
RUSİYADA AZƏRBAYCAN İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 54
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 54
RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN ÇIXIŞI 55
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA RƏSMİ SƏFƏRİ 57
İTALİYA PREZİDENTİNİN SARAYINDA TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ 57
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 58
İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN BƏYANATI 59
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 60
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "ENİ" ŞİRKƏTİNİN PREZİDENTİ ROBERTO POLİNİ QƏBUL ETMİŞDİR 61
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİ İLƏ GÖRÜŞÜ 61
AZƏRBAYCAN-İTALİYA BİZNES FORUMU 62
İTALİYANIN XARİCİ TİCARƏT İNSTİTUTUNUN DİREKTORU BENİAMİNO QUİNTİERİNİN ÇIXIŞI 63
İTALİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ MARQARİTA KOSTANIN ÇIXIŞI 64
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 67
İTALİYANIN İSTEHSAL FƏALİYYƏTİ MƏSƏLƏLƏRİ NAZİRİNİN MÜAVİNİ ADOLFO URSONUN ÇIXIŞI 70
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN DÜNYA ƏRZAQ PROQRAMININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN CON PAUELL İLƏ GÖRÜŞMÜŞDÜR 72
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ PYERFERDİNANDO KAZİNİ İLƏ GÖRÜŞÜ 72
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 73
İTALİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ 73
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATINDA OLMUŞDUR 74
ROMA FORUMU VƏ KOLİZEY İLƏ TANIŞLIQ 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "RAI NEWS-24" TELEKANALININ "NEXT" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR 75
AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA BEŞ SƏNƏD İMZALANMIŞDIR 86
VATİKANDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 87
SƏFƏR BAŞA ÇATDI 88
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ PROKURORU RƏŞİD TUSUPBEKOVU QƏBUL ETMİŞDİR 88
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR 89
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 90

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİ QƏBUL ETMİŞDİR 91
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRİ 91
ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN SARAYINDA QISA GÖRÜŞ VƏ ZİYAFƏT 92
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ VƏLİƏHD, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 92
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDUN TƏKBƏTƏK GÖRÜŞÜ 93
PREZİDENT İLHAM ƏLİYEV "ƏR-RİYAD" QƏZETİNƏ VƏ TELEVİZİYAYA MÜSAHİBƏ VERMİŞDİR 94
AZƏRBAYCANLA SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 94
TİCARƏT VƏ SƏNAYE PALATASINDA GÖRÜŞ 95
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI TİCARƏT VƏ SƏNAYE PALATASI SƏDRİNİN MÜAVİNİ SƏƏD BİN İBRAHİMİN ÇIXIŞI 95
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 96
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE PALATASININ BAŞ KATİBİ HÜSEYN ƏL-ATELİN ÇIXIŞI 98
ƏR-RİYADDA AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ ÜÇÜN BİNA TİKİLƏCƏKDİR 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CİDDƏ ŞƏHƏRİNƏ YOLA DÜŞMÜŞDÜR 103
MƏKKƏDƏ ALLAH EVİ KƏƏBƏNİ ZİYARƏT 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞÜ 105
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 105
AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ İSLAM İNKİŞAF BANKI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 106
İSLAM DÜNYASININ MÜQƏDDƏS ŞƏHƏRLƏRİNDƏN OLAN MƏDİNƏYƏ SƏFƏR 106
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ASİYA VƏ SAKİT OKEAN ÜZRƏ İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ VƏ AVROPA ÜZRƏ İQTİSADİ KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİ QƏBUL ETMİŞDİR 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PENSİYA FONDU İDARƏ HEYƏTİNİN SƏDRİ GENNADİ BATANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 109
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜSTƏŞAR MÜAVİNİ, SƏFİR ƏHMƏD ÜZÜMÇÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 109
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN MİLLİ TƏHLÜKƏSİZLİK KOMİTƏSİ SƏRHƏD XİDMƏTİNİN DİREKTORU BOLAT ZAKİYEVİ QƏBUL ETMİŞDİR 110

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN MƏRUZƏÇİSİ MALKOLM BRYUSU QƏBUL ETMİŞDİR 111
XARİCİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI VAHİD PERSPEKTİV İŞ PLANI TƏSDİQ ETMİŞDİR 112
ATƏT MİSSİYASININ MƏRUZƏSİNDƏ AZƏRBAYCANIN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİNDƏ ERMƏNİLƏRİN MƏSKUNLAŞDIRILMASI FAKTLARI TƏSDİQ OLUNMUŞDUR 112
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ 113
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN PARLAMENTİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ 113
GENİŞ TƏRKİBDƏ AZƏRBAYCAN-ÇİN DANIŞIQLARI 114
AZƏRBAYCAN-ÇİN SƏNƏDLƏRİNİN İMZALANMASI 115
İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI 115
PEKİNDƏ AZƏRBAYCAN-ÇİN BİZNES FORUMU 116
ÇİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ ÇJAN SZİQANIN ÇIXIŞI 116
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 118
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK ÇİN SƏDDİNDƏ OLMUŞDUR 122
PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN PEKİNDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR 123
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ 123
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN DÖVLƏT ŞURASININ BAŞÇISI VEN SZYABAO İLƏ GÖRÜŞÜ 127
İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ 127
PREZİDENT İLHAM ƏLİYEVİN ŞANXAYIN MERİ XAN ÇEN İLƏ GÖRÜŞÜ 128
ŞANXAY TELEQÜLLƏSİ İLƏ TANIŞLIQ 129
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞANXAY PLANLAŞDIRMA MUZEYİNDƏ OLMUŞDUR 129
PREZİDENT İLHAM ƏLİYEVİN SİNTSZYAN-UYĞUR MUXTAR RAYONUNUN BAŞÇISI İLƏ GÖRÜŞÜ 130
XARİCİ İŞLƏR NAZİRLİYİNƏ İŞƏ QƏBUL TEST ÜSULU İLƏ OLACAQ 130
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "HALLİBURTON" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 131
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN DİREKTORUNU QƏBUL ETMİŞDİR 131
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 132
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LÜKSEMBURQUN MÜLKİ AVİASİYASININ DİREKTORU HENRİ KLYAYNANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 133
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 134

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ BİRGƏ PAYLAŞDIRMA KOMİTƏSİNİN SƏDRİ XANIM ELLEN HELLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 135
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 136
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI, DONANMA ADMİRALI ÖZDƏN ÖRNƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 137
TBİLİSİDƏ AZƏRBAYCAN İLƏ GÜRCÜSTANIN DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI ÜZRƏ NÖVBƏTİ İCLAS KEÇİRİLMİŞDİR ... 137
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 138
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 139
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ ... 139
AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİNİN İMZALANMASI ... 140
AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI ... 140
POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BƏYANATI ... 140
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 142
NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT ... 146
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN NAZİRLƏR ŞURASININ SƏDRİ İLƏ GÖRÜŞÜ ... 146
POLŞA SEYMİNDƏ GÖRÜŞ ... 146
SƏRGİ İLƏ TANIŞLIQ ... 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA SENATININ VİTSE-MARŞALI XANIM İOLANTA DANELYAK İLƏ GÖRÜŞÜ ... 147
VARŞAVANIN TARİXİ YERLƏRİ İLƏ TANIŞLIQ ... 148
VARŞAVANIN MERİ LEX KOÇİNSKİNİN ÇIXIŞI ... 148
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 149
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL ... 149
POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN NİTQİ ... 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ ... 151
VARŞAVA UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ ... 152
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ ... 153
YAGELLO UNİVERSİTETİ İLƏ TANIŞLIQ ... 159
SƏFƏR BAŞA ÇATDI ... 160
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİ AVROPA KOMANDANLIĞI RƏİSİNİN MÜAVİNİ ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 160
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİ, SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 161

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR ... 162
DÖVLƏT SƏRHƏD KOMİSSİYALARININ NÖVBƏTİ BİRGƏ İCLASI AZƏRBAYCANDA KEÇİRİLƏCƏKDİR ... 162
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 162
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN TURİZM NAZİRİ DİMİTRİS AVRAMOPULOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 163
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN KEÇMİŞ PREZİDENTİ BORİS YELTSİNLƏ GÖRÜŞMÜŞDÜR ... 164
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SƏRHƏDSİZ REPORTYORLAR" BEYNƏLXALQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR ... 164
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAPA II İOHANN PAVELİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR ... 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ FRANSA-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ AMBRUAZ DÜPONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 166
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 167
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANA RƏSMİ SƏFƏRİ ... 167
"ÇAKLALA" HƏRBİ HAVA BAZASINDA QARŞILANMA ... 168
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN XARİCİ İŞLƏR NAZİRİ XURŞİD MAHMUD KASURİNİ QƏBUL ETMİŞDİR ... 168
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN MİLLİ ASSAMBLEYASININ SPİKERİ ÇOUDRİ ƏMİR HÜSEYN İLƏ GÖRÜŞÜ ... 169
PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 169
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT PƏRVİZ MÜŞƏRRƏFİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 170
AZƏRBAYCAN VƏ PAKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ ... 171
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI ... 172
PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BƏYANATI ... 172
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 173
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ ... 175
PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN NİTQİ ... 176
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ ... 177
HƏRBİ İXRACA YARDIM TƏŞKİLATININ SƏRGİSİ İLƏ TANIŞLIQ ... 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZLƏ GÖRÜŞÜ ... 179
AZƏRBAYCAN VƏ PAKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ ... 180
AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI ... 181

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN BİRGƏ MƏTBUAT KONFRANSI 181
PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİN ÇIXIŞI 181
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 182
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 184
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN TELEVİZİYASINA MÜSAHİBƏSİ 184
"ŞƏKƏRPARYƏN" PARKI İLƏ TANIŞLIQ 189
AZƏRBAYCANIN PAKİSTANDAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ 190
AZƏRBAYCAN PREZİDENTİ FAYSAL MƏSCİDİNİ ZİYARƏT ETMİŞDİR 190
SƏFƏR BAŞA ÇATDI 190
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABƏŞ-İN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR 190
XARİCİ İŞLƏR NAZİRLİYİNƏ İŞƏ QƏBUL OLMAQ İSTƏYƏN NAMİZƏDLƏR ÜÇÜN TEST İMTAHANI KEÇİRİLMİŞDİR 191
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 191
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI-AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIĞI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 192
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ MƏTBUAT KONFRANSI KEÇİRİLMİŞDİR 193
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN P.İ.ÇAYKOVSKİ ADINA DÖVLƏT AKADEMİK BÖYÜK SİMFONİK ORKESTRİNİN BƏDİİ RƏHBƏRİ VƏ BAŞ DİRİJORU VLADİMİR FEDOSEYEVİ QƏBUL ETMİŞDİR 194
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HƏMMƏRUZƏÇİLƏRİ ANDREAS QROSSU VƏ ANDRES HERKELİ QƏBUL ETMİŞDİR 194
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVAYA RƏSMİ SƏFƏRİ 194
PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 195
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 195
AZƏRBAYCAN-MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 196
SƏNƏDLƏRİN İMZALANMASI 196
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 197
MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI 197
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 198
ŞTEFAN ÇEL MARENİN ABİDƏSİ ÖNÜNƏ ƏKLİLQOYMA MƏRASİMİ 201
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEV İLƏ GÖRÜŞÜ 201
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA PARLAMENTİNİN SƏDRİ MARİAN LUPU İLƏ GÖRÜŞÜ 202
KİŞİNYOVDA NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 202
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 203

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ 204
"KRİKOV" ŞƏRABLARININ İSTEHSALI KOMBİNATI İLƏ TANIŞLIQ KOMBİNATI İLƏ TANIŞLIQ 205
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 206
MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ 206
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 206
KİŞİNYOVDA GUƏAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 207
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 208
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ 211
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 211
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 211
GUƏAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSI 212
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 212
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞÜ 214
SƏFƏR BAŞA ÇATDI 214
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ÜZRƏ BÖYÜK MƏSLƏHƏTÇİSİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 214
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QARS VƏ ƏTRAF VİLAYƏTLƏRİ VALİLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 215
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ XİLASETMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 216
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 217
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATINDAKI SƏFİRİ STEFAN MİNİKESİ QƏBUL ETMİŞDİR 217
AZƏRBAYCAN ERMƏNİSTANIN İŞĞALÇI SİYASƏTİNİ DAHA BİR BEYNƏLXALQ TƏŞKİLATIN DİQQƏTİNƏ ÇATDIRMIŞDIR 218
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BƏLƏDİYYƏLƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 219
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA SEYMİNİN LATVİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ QRUPUNUN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 221
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 222
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR 223
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 223

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANLA GÖRÜŞÜ 223
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA GÖRÜŞÜ 224
AVROPA ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI 225
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUSLA GÖRÜŞÜ 227
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİNİN XARİCİ ƏLAQƏLƏR VƏ YENİ QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI BENİTA FERRERO-VALDNER İLƏ GÖRÜŞÜ 228
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞÜ 228
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYA PREZİDENTİ ALFRED MOİSİU İLƏ GÖRÜŞÜ 228
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ KYEL MAQNE BUNDEVİK İLƏ GÖRÜŞÜ 229
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYA PREZİDENTİ TARYA HALONEN İLƏ GÖRÜŞÜ 229
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİS İLƏ GÖRÜŞÜ 230
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ GÖRÜŞÜ 230
AVROPA ŞURASININ ÜÇÜNCÜ ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATMIŞDIR 230
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ VİTALİ KRAMARENKONU QƏBUL ETMİŞDİR 231
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI İLKER BAŞBUĞU QƏBUL ETMİŞDİR 232
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ BORİS TARASYUKU QƏBUL ETMİŞDİR 233
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN II ÜMUMDÜNYA GÖMRÜK SƏRGİSİ VƏ FORUMUNDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR 234
AZƏRBAYCAN VƏ ABŞ XARİCİ SİYASƏT İDARƏLƏRİNİN KADR BAZASINA DAİR MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 235
AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIQ REGİONUNDA İQTİSADİ CƏHƏTDƏN ƏN DİNAMİK İNKİŞAF EDƏN ÖLKƏDİR 235
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RABİTƏ SAHƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 33-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 236
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI KEÇİRMİŞDİR 237

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ VƏ FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 244
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 245
AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 245
AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI 246
AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 247
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 247
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI 248
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 251
QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 251
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 252
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ 253
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 254
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 254
TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 255
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ 255
HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM 255
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 256
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ 260
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 262
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ 263
BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRYUNUN ÇIXIŞI 264
ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANIN ÇIXIŞI 265
AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQSIN ÇIXIŞI 266
BP ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNUN ÇIXIŞI 267
ARDNŞ-İN PREZİDENTİ NATİQ ƏLİYEVİN ÇIXIŞI 268
AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI 270
DAHA İKİ TARİXİ SƏNƏD İMZALANDI 272
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNU QƏBUL ETMİŞDİR 273

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANI QƏBUL ETMİŞDİR 274
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 275
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİBALQSI QƏBUL ETMİŞDİR 275
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ALEKSEY İVÇENKONU QƏBUL ETMİŞDİR 276
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ KRALLIĞININ DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETİ QƏBUL ETMİŞDİR 276
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BNP PARIBAS BANKININ ENERGETİKA, İXRAC VƏ LAYİHƏLƏR ÜZRƏ RƏHBƏRİ DOMİNİK REMİNİ QƏBUL ETMİŞDİR 277
XARİCİ İŞLƏR NAZİRİ AMERİKA YƏHUDİ KOMİTƏSİNİN DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 277
HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS NEFT İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN "GÜLÜSTAN" SARAYINDA RƏSMİ ZİYAFƏT 278
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 278
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ, BRİQADA GENERALI CİANNİ QOLANI QƏBUL ETMİŞDİR . 279
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 280
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORU DOKTOR ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR 280
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ATATÜRK KÜLTÜR, DİL VƏ TARİX YÜKSƏK QURUMUNUN SƏDRİ SADİQ KAMAL TURALI VƏ ATATÜRK ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ MEHMED SARAYI QƏBUL ETMİŞDİR 281
AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDAKI MÜNASİBƏTLƏRİN MÜQAVİLƏ-HÜQUQ BAZASININ TƏMƏLİ QOYULMUŞDUR 282
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 283
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HƏŞTƏRXANIN QUBERNATORU ALEKSANDR JİLKİNİ QƏBUL ETMİŞDİR 284
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 284
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜLKİ TƏDQİQATLAR VƏ İNKİŞAF FONDUNUN PREZİDENTİ TOM OVENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 285
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU DONNA DOUSET-KOİROLONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 286
AZƏRBAYCAN AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA XÜSUSİ ƏHƏMİYYƏT VERİR 287

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA SEYMİNİN SƏDRİ ARTURAS PAULAUSKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 287
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMGÜRCÜSTAN KATOLİKOS-PATRİARXI II İLİANİ QƏBUL ETMİŞDİR 289
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYALI TARİXÇİ ALİM, PROFESSOR ERİX FAYQLI QƏBUL ETMİŞDİR 290
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN MİSSİYASI İLƏ GÖRÜŞMÜŞDÜR 291
"ÜÇ DƏNİZ KONSEPSİYASI - XƏZƏR, QARA VƏ ARALIQ DƏNİZLƏRİ" MÖVZUSUNDA I-Cİ NATO MƏKTƏBİ ÖZ İŞİNƏ BAŞLAMIŞDIR 291
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 292
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ, BRİTANİYA PARLAMENTİNİN LORDLAR PALATASININ ÜZVÜ, SABİQ ENERJİ NAZİRİ LORD FREYZERİ QƏBUL ETMİŞDİR 293
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN NEFT SƏNAYESİ VƏ QAZ NAZİRİ MANİ ŞANKAR AYYARI QƏBUL ETMİŞDİR 293
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA SENATININ XARİCİ ƏLAQƏLƏR VƏ MİQRASİYA MƏSƏLƏLƏRİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ, SENATIN AŞPA-DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVÜ FİORELLO PROVERANI QƏBUL ETMİŞDİR 294
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYAYA RƏSMİ SƏFƏRİ 294
XORVATİYA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 295
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 295
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 295
İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI 296
AZƏRBAYCAN VƏ XORVATİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 297
XORVATİYA PREZİDENTİ STİPE MESİÇİN BƏYANATI 297
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 298
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA PARLAMENTİNİN SƏDRİ VLADİMİR ŞEKS İLƏ GÖRÜŞÜ 300
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XORVATİYA HÖKUMƏTİNİN SƏDRİ İVO SANADER İLƏ GÖRÜŞÜ 301
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 301
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 301
ZAQREB ŞƏHƏRİNİN TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ 303
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CEYMSTAUN FONDUNUN PREZİDENTİ QLEN HOVARDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 303
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ 304
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 304

DÖVLƏTİMİZİN BAŞÇISI 9-CU PETERBURQ BEYNƏLXALQ İQTİSADİ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR 305
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 306
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKI" RESTORAN-MUZEYİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ VƏ "MBA-MOSKVA" BANKI FİLİALININ İŞİ İLƏ TANIŞ OLMUŞDUR 307
PREZİDENT İLHAM ƏLİYEV SANKT-PETERBURQDAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 308
AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞ 308
AZƏRBAYCAN PREZİDENTİ ÇEXİYA PARLAMENTİ SENATININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 309
SANKT-PETERBURQDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞI 309
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 310
PREZİDENT İLHAM ƏLİYEV "AZƏRBAYCAN RESPUBLİKASININ NAİLİYYƏTLƏRİ VƏ ƏMƏKDAŞLIĞA DAİR LAYİHƏLƏR" SƏRGİSİNDƏ OLMUŞDUR 311
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KİYEVƏ İŞGÜZAR SƏFƏRİ 312
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ 312
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞÜ 313
KİYEVDƏ BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN "FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI" 313
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ 313
KİYEVDƏ BEYNƏLXALQ İNVESTİSİYA FORUMUNUN "FÖVQƏLADƏ UKRAYNA DƏYİRMİ MASASI"NIN BİRİNCİ GENİŞ İCLASININ AÇILIŞI 314
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYA PREZİDENTİ ARNOLD RÜÜYTEL İLƏ GÖRÜŞÜ 316
SƏFƏR BAŞA ÇATDI 316
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ STRASBURQDA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 316
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYANIN CƏNUBİ QAFQAZDAKI XÜSUSİ NÜMAYƏNDƏSİ BRAYAN FOLUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONU QƏBUL ETMİŞDİR 318
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 318
GUAM TƏŞKİLATI ATƏT-İN KONFRANSINDA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNƏ DAİR BƏYANATLA ÇIXIŞ ETMİŞDİR 319

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ DMİTRİ MEDVEDYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 320
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MALİYYƏ NAZİRİ VALERİ ÇEÇELAŞVİLİNİ QƏBUL ETMİŞDİR 321
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ CON KOLSTONU QƏBUL ETMİŞDİR 321
YƏMƏNDƏ İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 32-Cİ KONFRANSI KEÇİRİLİR 322
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CNN-TÜRK TELEKANALINA MÜSAHİBƏSİ 322
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA SƏFƏRİ 333
AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI 334
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSI 334
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 334
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 336
TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 340
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 340
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NİTQİ 342
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİR XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB VƏ AVROPA İSLAM ÖLKƏLƏRİ ÜZRƏ TEXNİKİ YARDIM FONDUNUN BAŞ KATİBİ ƏLİ CƏLAL BATSYUNİNİ QƏBUL ETMİŞDİR 343
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AQO" MONİTORİNQ QRUPU NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 344
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "STAR" TELEVİZİYASININ SİYASİ İCMALÇISI ARDAN ZENTÜRKƏ MÜSAHİBƏSİ 344
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AVROPA DEMOKRATLARI QRUPUNUN RƏHBƏRİ MİXAİL MARGELOVU QƏBUL ETMİŞDİR 350
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ GİORGİ FRUNDANI QƏBUL ETMİŞDİR 350
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN VƏ QAÇQINLAR ÜZRƏ ALT KOMİTƏSİNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 351
İSLAM KONFRANSI TƏŞKİLATI ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜNÜ BİR DAHA PİSLƏMİŞDİR 351
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR 352
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 352
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN DAXİLİ İŞLƏR NAZİRİ AFTAB ƏHMƏD XAN ŞERPAONU QƏBUL ETMİŞDİR 353

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TEKNİP" ŞİRKƏTLƏR QRUPU DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ BAŞ İCRAÇI KATİBİ DANİEL VALOTU QƏBUL ETMİŞDİR 354

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 355

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR . 355

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU, XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ MÜŞAVİRİ, SƏFİR TOŞİYUKİ FUCİVARANI QƏBUL ETMİŞDİR 356

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN MİLLİ DEMOKRATİYA İNSTİTUTU İDARƏ HEYƏTİNİN SƏDRİ, SABİQ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYTI QƏBUL ETMİŞDİR 356

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NYU-HEMPŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, ATA CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ AĞ EV ADMİNİSTRASİYASININ RƏHBƏRİ OLMUŞ CON SUNUNUNU QƏBUL ETMİŞDİR 357

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN BRUKİNQS İNSTİTUTUNUN ANALİTİKİ XANIM FİONA HİLLİ QƏBUL ETMİŞDİR 357

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏTƏR DÖVLƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ GENERAL-POLKOVNİK HƏMƏD BİN ƏLİ ƏL-ATİYYƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 358

ERMƏNİSTAN MÜNAQİŞƏNİN HƏLLİ ÜÇÜN YARANMIŞ İMKANLARI İTİRMƏKDƏN QORXMALIDIR 358

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ATƏT-İN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ 359

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR 360

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİ HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİNİN SƏDRİ RUSLAN AUŞEVİ QƏBUL ETMİŞDİR 360

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ VƏCDİ KÖNÜLÜ QƏBUL ETMİŞDİR 361

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 362

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TAİLAND KRALLIĞININ BAŞ PROKURORU KAMPRİ KAOÇARERNİ QƏBUL ETMİŞDİR 363

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN QLOBAL MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ POLA DOBRYANSKİNİ QƏBUL ETMİŞDİR 363

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYALARI ASSOSİASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR 364

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTANLI YAZIÇI-TƏDQİQATÇI MURAD ACİNİ QƏBUL ETMİŞDİR 365

PREZİDENT İLHAM ƏLİYEVİN "NYUSUİK" JURNALININ (NYU-YORK) "RUSSKİY NYUSUİK" NƏŞRİNİN (MOSKVA) BAŞ REDAKTORU LEONİD PARFYONOVA MÜSAHİBƏSİ 365

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFR-İN FEDERAL KƏŞFİYYAT XİDMƏTİNİN RƏHBƏRİ AUQUST HANNİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 367

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ BAŞ NAZİRİ OFİSİNİN DÖVLƏT KATİBİ LARS DANİELSSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 368

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİNİ QƏBUL ETMİŞDİR 369

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN "SKAY NYUS" TELEVİZİYASI MOSKVA BÜROSUNUN MÜXBİRİ Lİ LOURENSƏ MÜSAHİBƏSİ 369

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ RENE VAN DER LİNDENİ QƏBUL ETMİŞDİR 376

MOSKVADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR 376

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KAZANA SƏFƏRİ 377

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ 377

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ 379

SƏFƏR BAŞA ÇATDI 379

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 379

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN KƏŞFİYYAT DEPARTAMENTİNİN SƏDRİ BATU KUTELİYANI QƏBUL ETMİŞDİR 380

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 381

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN SKAY TV TELEKANALINA MÜSAHİBƏSİ 381

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 387

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ KİM TRAAVİKİ QƏBUL ETMİŞDİR 388

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "HÜRRİYYƏT" QƏZETİNƏ MÜSAHİBƏSİ 388

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, SLOVENİYANIN XARİCİ İŞLƏR NAZİRİ DİMİTRİ RUPELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 390

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR .. 390

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI, ORDU GENERALI YAŞAR BÖYÜKANITIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 390

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QLOBALLAŞMA VƏ ƏMƏK MİQRANTLARININ SOSİAL MÜDAFİƏSİ" MÖVZUSUNDA AVROPA İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 391

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN AVSTRİYAYA RƏSMİ SƏFƏRİ 392
BEYNƏLXALQ BÖHRAN QRUPU ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ İLƏ BAĞLI HESABATINI XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KARDİNAL KREŞENTSİO SEPENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORU, SƏFİR POL SPELTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 396
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİNİ QƏBUL ETMİŞDİR 397
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA-QAFQAZ İNSTİTUTUNUN TƏDQİQAT MƏSƏLƏLƏRİ ÜZRƏ DİREKTORU SVANTE KORNELLİ QƏBUL ETMİŞDİR 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA RƏSMİ SƏFƏRİ 401
ALEKSANDR NEVSKİ MEYDANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 402
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 403
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 403
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 404
BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI 404
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 405
BOLQARISTANIN BAŞ NAZİRİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ İŞGÜZAR NAHAR 406
BOLQARISTAN PARLAMENTİNDƏ GÖRÜŞ 407
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BOLQARISTAN MİLLİ VƏ DÜNYA TƏSƏRRÜFATI UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR 407
UNİVERSİTETİN REKTORU BORİSLAV BORİSOVUN ÇIXIŞI 408
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 408
SOFİYADA BAKI KÜÇƏSİNİN AÇILIŞI 411
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 411
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANIN KEÇMİŞ PREZİDENTİ JELYU JELEVLƏ GÖRÜŞÜ 412
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 412
BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN NİTQİ 412
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 414
VARNA ŞƏHƏRİNƏ GƏLİŞ 415
BALÇİK BOTANİKA BAĞI İLƏ TANIŞLIQ 415
DÖVLƏTİMİZİN BAŞÇISININ ŞƏRƏFİNƏ 416

BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİ 416
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 417
PREZİDENT İLHAM ƏLİYEV BOLQARISTAN MİLLİ RADİOSUNA MÜSAHİBƏ VERMİŞDİR 419
SƏFƏR BAŞA ÇATDI 419
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, KOSMONAVT ALEKSEY LEONOVU QƏBUL ETMİŞDİR 419
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 420
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYANIN "YULESRADİO" DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ 422
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏRHƏD XİDMƏTİ RƏHBƏRLƏRİNİN III İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 427
XARİCİ İŞLƏR NAZİRİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 428
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN TELIASONERA ŞİRKƏTİNİN PREZİDENTİ ANDERS İGELİ QƏBUL ETMİŞDİR 429
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN ƏDLİYYƏ NAZİRİ GİNTAUTAS BUJİNSKASI QƏBUL ETMİŞDİR 429
FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM TARYA HALONENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 430
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ 430
AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 430
AZƏRBAYCAN-FİNLANDİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 431
AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 432
FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN BƏYANATI 432
FİNLANDİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ 436
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 436
FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN NİTQİ 438
AZƏRBAYCAN-FİNLANDİYA BİZNES FORUMU 439
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 440
FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN NİTQİ 442
FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONEN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 443
İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR ŞURASININ 16-CI TOPLANTISININ BAKIDA KEÇİRİLMƏSİ QƏRARA ALINMIŞDIR 444
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 445

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ 445
AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 446
AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 446
AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI .. 447
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 447
LATVİYA PREZİDENTİ VARYA VİKE-FREYBERQANIN BƏYANATI 449
LATVİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ 453
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 453
LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQANIN NİTQİ 455
AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU 456
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 456
LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ 458
LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 461
LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQAYA BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR 462
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ ... 464
SƏFƏR BAŞA ÇATDI 467
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN VALMONT İNDUSTRİES ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU MOGENS BAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 467
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 468
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 469
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN LİBERAL DEMOKRAT PARTİYASI SƏDRİNİN MÜAVİNİ, KÖLGƏ KABİNETİNDƏ XARİCİ İŞLƏR NAZİRİ SER MENZİES KEMPBELLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 469
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İQOR YUSUPOVU QƏBUL ETMİŞDİR 470
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR 471
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HİLMİ ÖZKÖKÜ QƏBUL ETMİŞDİR 471
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ UNESCO-NUN BAŞ KONFRANSININ 33-CÜ SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR 472
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ VİTALİ SMİRNOVU QƏBUL ETMİŞDİR 473
XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYANIN HAZIRLANMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUN BAKIDA KEÇİRİLƏN 18-Cİ İCLASI BAŞA ÇATMIŞDIR 474

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ BRUNO QRANDİNİ QƏBUL ETMİŞDİR 474
AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İQTİSADİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 475
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ İXTİSASARTIRMA KURSU FƏALİYYƏTƏ BAŞLAMIŞDIR 476
AZƏRBAYCANLA AVROPA ŞURASI ARASINDAKI SIX ƏMƏKDAŞLIQ DEMOKRATİYANIN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYIR 476
BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN GÜRCÜSTAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM 477
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 477
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 479
TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ 481
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 483
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ 484
AZƏRBAYCAN SƏFİRİ ABŞ KONQRESİNDƏ ÖLKƏMİZDƏ SEÇKİQABAĞI VƏZİYYƏTƏ DAİR ÇIXIŞ ETMİŞDİR 484
AZƏRBAYCAN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ABBAS ABBASOVUN MOSKVAYA SƏFƏRİ 485
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ DARREL İSSANI VƏ LORETTA SANÇESİ QƏBUL ETMİŞDİR 486
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞÜ 486
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ,UNESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVAYA "YAQUT XAÇ" ORDENİ TƏQDİM EDİLMİŞDİR 487
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 491
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUS SOYDAŞLAR BEYNƏLXALQ ŞURASI İDARƏ HEYƏTİNİN SƏDRİ, "YÜZİLLİYİN MESENATI" BEYNƏXALQ XEYRİYYƏ FONDU RƏYASƏT HEYƏTİNİN ÜZVÜ QRAF PYOTR ŞEREMETYEVİ QƏBUL ETMİŞDİR 492
ELMAR MƏMMƏDYAROV ABDULLAH GÜLLƏ GÖRÜŞMÜŞDÜR 492
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MİSİRDƏ SƏFƏRDƏDİR 493
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN "NEW YORK TIMES", "LOS ANGELES TIMES" QƏZETLƏRİNİN, "BLOOMBERG" İNFORMASİYA AGENTLİYİNİN VƏ "DOW JONES/CNBC" TELEKANALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ 494
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRİN İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ SƏDRİ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 507

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR 508
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DENİEL FRİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏRBİ AVROPA İTTİFAQI ASSAMBLEYASININ - AVROPA TƏHLÜKƏSİZLİYİ VƏ MÜDAFİƏ ÜZRƏ PARLAMENTLƏRARASI ASSAMBLEYANIN SƏDRİ STEF QORİSİ QƏBUL ETMİŞDİR . 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİ MÜŞAHİDƏÇİLİYİ MİSSİYASININ RƏHBƏRİ GERT ARENSİ QƏBUL ETMİŞDİR 510
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI ÜÇLÜYÜNÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 510
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN MİLLİ TƏHLÜKƏSİZLİK İDARƏSİNİN BAŞ DİREKTORU GENERAL-MAYOR LAYOŞ QALANBOŞU QƏBUL ETMİŞDİR 511
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİ ƏLAQƏLƏNDİRMƏ ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 511
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ JURNALİSTLƏRİNƏ MÜSAHİBƏSİ 513
AZƏRBAYCANIN NÜMAYƏNDƏ HEYƏTİ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ KİŞİNYOVDA KEÇİRİLMİŞ 13-CÜ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR 523
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN MÜŞAHİDƏÇİLƏR MİSSİYASININ RƏHBƏRİ, MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİB VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR. 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ, FEDERAL MƏCLİSİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANI QƏBUL ETMİŞDİR 525
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN MİLLƏT VƏKİLLƏRİNİ QƏBUL ETMİŞDİR 525
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN STRATEJİ ARAŞDIRMALAR İNSTİTUTUNUN DİREKTORU DOKTOR COZEF BODANSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 526
AVROPA İTTİFAQI PARLAMENTİNİN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANDA SEÇKİLƏRİN NORMAL KEÇDİYİNİ BİLDİRMİŞLƏR 526
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ MÜŞAHİDƏÇİLƏR QRUPUNUN RƏHBƏRİ ƏHƏD QƏZAİNİ QƏBUL ETMİŞDİR 527
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİ MÜŞAHİDƏÇİLİYİ MİSSİYASININ RƏHBƏRİ GERT ARENSİ QƏBUL ETMİŞDİR 527
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLƏN "HÜQUQİ DÖVLƏTİN QURULMASINDA KONSTİTUSİYANIN ROLU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPUNU QƏBUL ETMİŞDİR 527

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN "İHLAS" XƏBƏR AGENTLİYİNİN VƏ "TÜRKİYƏ" QƏZETİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏSİ 529
XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ AVROPA İTTİFAQININ RƏSMİLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 535
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASININ NAZİRLƏR KOMİTƏSİNİN 115-Cİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 535
MOSKVADA MDB İQTİSADİ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 536
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYANIN ƏN NƏHƏNG POLAD ŞİRKƏTİ OLAN "MITTAL STEEL" ŞİRKƏTİNİN SAHİBİ LAKŞMİ MİTTALI QƏBUL ETMİŞDİR 537
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR 537
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞ EV ADMİNİSTRASİYASININ SABİQ RƏHBƏRİ, QUBERNATOR CON SUNUNUNU QƏBUL ETMİŞDİR 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-DƏKİ XÜSUSİ NÜMAYƏNDƏSİ SENATOR PYER ŞEVALYENİ QƏBUL ETMİŞDİR 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR .. 538
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT DÖVLƏTİNİN MALİYYƏ NAZİRİ BƏDR MƏŞARİ ƏL-HUMEYDİNİ QƏBUL ETMİŞDİR 539
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ TBİLİSİYƏ GƏLMİŞDİR 539
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA İQTİSADİYYATI ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ DOKTOR KLAUS MANQOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 540
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏT BRAYZANI QƏBUL ETMİŞDİR. 540
İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR 541
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İRANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR ... 541
AZƏRBAYCAN VƏ İRANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 543
XARİCİ İŞLƏR NAZİRİNİN KOREYA RESPUBLİKASINA SƏFƏRİ 543
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MAHMUD MƏMMƏDQULİYEV BMT-NİN SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ KONFRANSININ 11-Cİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 545
XARİCİ İŞLƏR NAZİRİNİN KİYEVƏ SƏFƏRİ 546
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 546
ATƏT NAZİRLƏR ŞURASININ 13-CÜ İCLASINDA ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASI SAHƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR MÜZAKİRƏ EDİLMİŞDİR 547
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ 548
MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ 548

MƏKKƏDƏ İSLAM KONFRANSI TƏŞKİLATININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISI BAŞLANMIŞDIR 549
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 550
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ GÖRÜŞÜ 552
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞÜ 553
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOV İLƏ GÖRÜŞÜ 553
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞÜ 554
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BRUNEY SULTANI HƏSSƏNAL BOLKİAH İLƏ GÖRÜŞÜ 554
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏND ARINÇ İLƏ GÖRÜŞÜ 554
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İKT-NİN BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞÜ 554
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİNİN UZAQ ŞƏRQ FEDERAL DAİRƏSİNDƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ KAMİL İSHAKOV İLƏ GÖRÜŞÜ 555
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MALAYZİYANIN BAŞ NAZİRİ ABDULLA ƏHMƏD BADAVİ İLƏ GÖRÜŞÜ 555
İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISININ ÜÇÜNCÜ QAPALI İCLASI 556
BAKIDA SPECA ƏLAQƏLƏNDİRMƏ ŞURASININ BİRİNCİ TOPLANTISI KEÇİRİLMİŞDİR 556
SƏRHƏDLƏRİN DELİMİTASİYASI ÜZRƏ DÖVLƏT KOMİSSİYALARININ 10-CU BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR 557
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞEVRON-AVRASİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU QAY HOLLİNQSVORTU QƏBUL ETMİŞDİR 557
NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ 558
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURƏDDİN ARASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 558
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 559
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN-AVROPA İTTİFAQI YÜKSƏK SƏVİYYƏLİ ÜÇLÜK GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR 560
MİLLİ MƏCLİSDƏ GÖRÜŞLƏR 561
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 562
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 563
ERMƏNİSTAN MÜNAQİŞƏNİN HƏLLİNDƏ KONSTRUKTİV MÖVQE TUTMALIDIR ... 563

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD NAXÇIVANA GƏLMİŞDİR 564
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ 564
AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 564
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 565
AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 565
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 565
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDNEJADIN BƏYANATI 566
NAXÇIVANA TƏBİİ QAZIN VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM 568
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 569
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN ÇIXIŞI 570
ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT 570
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA MÜFTİLƏR ŞURASININ SƏDRİ RAVİL QAYNUDDİNİ QƏBUL ETMİŞDİR 571
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PATRİARXI II İLİANI QƏBUL ETMİŞDİR 571
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ GELA BEJUAŞVİLİNİ QƏBUL ETMİŞDİR 572
AZƏRBAYCAN VƏ AVSTRİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 572
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ DİQQƏT MƏRKƏZİNDƏ OLMUŞDUR 574
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA MÜHÜM SƏNƏDLƏR İMZALANMIŞ VƏ PARAFLANMIŞDIR 575
ÖTƏN BİR İLDƏ AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏT XƏTTİNİN ƏSASINI TƏŞKİL EDƏN VƏZİFƏLƏRİN YERİNƏ YETİRİLMƏSİ SAHƏSİNDƏ SANBALLI UĞURLAR ƏLDƏ OLUNMUŞDUR 576
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI 581
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 582
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2005-Cİ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 589
MÜNDƏRİCAT 607



T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir	: 14.05.2009
Çapa imzalanmışdır	: 15.05.2009
Format	: 70x100 1/16
Fiziki ç.v.	: 40,5
(Rəngli şəkillər)	: 1
Tirajı	: 500